**allemal** *adv.* həmişə, hər dəfə; *ein für ~* həmişəlik, birdəfəlik.
**allenfalls** *adv. (vielleicht)* bəlkə, bəlkə də, hər halda, məgər; *(höchstens)* ən çoxu, çarəsiz qaldıqda, icab edirsə; *~ mit Gewalt* ən çoxu *(çarəsiz qaldıqda)* zorla.
**allenthalben** *adv.* hər yerdə, hər tərəfdə; hər vəziyyətə *(duruma)* görə.
**aller-** *vor dem Superlativ* ən*; der ~beste* ən yaxşı.

**allerbeste** *adj.* ən yaxşı.

**allerdings** *adv.* **1.** *(in der Tat)* əlbəttə, həqiqətdə; doğrudur, şübhəsiz; *F* həlbəttə; **2.** *(aber, dennoch)* əmma, yenə də, hər halda, bununla belə.

**allererst** *adv.* ilk növbədə, ən öncə; *zu ~* hər şeydən *(zaddan)* əvvəl, başda.

**Allergie,** *die; -, -n med.* alerji, həssaslıq; əbir.

**Allergiker,** *der; -s, - med.* alerjisi olan, alerji xestəliyi olan.

**allergisch** *adj.* həssas, alerjik.

**allerhand** *adj.* hər cür, hər növ; çox; *das ist ja ~!* qəribədir!, cəsarətə bax!.

**Allerheiligenfest,** *das; -(e)s, -e* katoliklərin dini bayramı.

**allerhöchst** *adj.* ən yüksək, ən çox, ən uca, qayət.

**allerhöchstens** *adv.*ən çox, hər şeydən çox.

**allerlei** *adj.* hər cür, cürbəcür, çeşitli.

**Allerlei,** *das; -s* hər cür, müxtəlif, çeşitli; hər cür şey.

**allerletze** *adj.* **1.** *(als letztes Glied usw.)* ən sonda , axırda; **2.** ən pis; *er ist das ~* o, ən pisidir; *das ist ja wirklich das ~ !* bu həqiqətən həyasızlıqdır!

**allerliebst** *adj.* çox gözəl, çox şirin.

**allermeist** *adj.* ən çox, hər şeydən çox; *adv. die ~en Leute* əksər insanlar.

**allernächst** *adj.* ən yaxın.

**allerneu(e)st** *adj.* ən təzə, ən son.

**allerorten/allerorts** *adv.* hər yerdə.

**Allerseelen** katoliklərin dini bayramı.

**allerseits** *adv.* hər tərəfdən; hər tərəfə; *guten Morgen ~!* hamınıza salam!, hər tərəfə salam olsun!

**Allerweltskerl,** *der; -(e)s, -e* əlindən hər iş gələn adam, bacarıqlı insan.

**allerwenigst** *adj.* ən az*(ı)*, ən kiçik, ən xırda, ən balaca.

**Allerwerteste,** *der; -n, -n F* dal, sağrı, oturan yer, popo.

**alles** *adj.* hamısı, hər şey; *er ist ~ andere als ein Politiker* siyasətdən başqa hər iş əlindən gəlir ; *~ zusammen* hamısı birlikdə; *nicht um ~ in der Welt* heç vaxt, heç bir vaxt, heç vəchlə; *~ in allem* ümumiyyətlə; cəmi-cümlətanı, bir cümlədə.

**allesamt** *adv.* bütövlüklə, bütünlüklə, elcarı, başdan-başa, hamısı birlikdə.

**Allesbesserwisser,** *der; -s, -* əllamə, çoxbilmiş.

**Alleskönner,** *der; -s, -* hər işi bacaran.

**allezeit** *adv.* həmişə, hər zaman.

**allg.** *Abk.* = **allgemein**

**allgegenwärtig** *adj.* hər yerdə mövcud olan, hər yerdə hazır; *fig.* harada aş orada baş.

**allgemein** *adj.* ümumi, hərtərəfli; *~es Wahlrecht* ümumi seçki hüququ; *adv.* ümumiyyət*(lə); im ~en* ümumiyyətlə; *es ist ~ üblich* adət olmuş bir şeydir, adətdir.

**Allgemeinbildung,** *die; -* ümumi məlumat; ümumi təhsil, ümumtəhsil.

**allgemeingültig** *adj.* hamının qəbul etdiyi, hamıya aid, hamının istədiyi.

**Allgemeingut,** *das; -(e)s* ümumi vardövlət, ictimai mülkiyyət.

**Allgemeinheit,** *die; -* ümumilik; ümumiyyət; xalq, am.

**allgemeinverständlich** *adj.* anlaşılan; hamının anladığı şəkildə.

**Allgemeinwohl,** *das; -s* ümumi rifah.

**Allheilmittel,** *das; -s, -* hər dərdə dərman.

**Allianz,** *die; -, -en* ittifaq, birlik.

**Alligator,** *der; -s, -en* timsah.

**Alliierte,** *der; -n, -n* müttəfiq; *die ~n* müttəfiqlər, müttəfiq dövlətlər.

**alljährlich** *adj.* hərilki, hər ildə olan; *adv.* hər il, illik.

**Allmacht,** *die; -* mütləq qüdrət, tam qüdrət.

**allmächtig** *adj.* hər şeyə qadir.

**allmählich** *adj.* tədrici; *adv.* getdikcə, yavaş-yavaş, gəldikcə, günbəgün, anbaan, az-az, bala-bala, damcı-damcı; *es wird ~ dunkel* hava getdikcə qaralır.

**allmonatlich** **1.** *adj.* aylıq, hər ayda bir dəfə olan; **2.** *adv.* hər ay, ayda bir, ayda bir dəfə.

**Allroundman,** *der; -s, -men* hər iş görən, hər işə istedadı olan adam.

**Allroundsportler,** *der; -s, -* müxtəlif idman növlərilə məşğul olan idmançı.
**allseitig** *adj.* hərtərəfli.
**allseits** *adv.* hər yerdə, hər tərəfdə, hərtərəfli, hər yandan, hər yana; hamıya; *Guten Tag ~!* hamıya salam!
**Alltag,** *der; -(e)s* iş günləri, gündəlik həyat; *fig.* adi həyat, adi günlər.
**alltäglich** *adj.* gündəlik, hərgünkü; adi.
**allüberall** *adv.* hər yerdə, hər yanda.
**allumfassend** *adj.* hər şeyi qavrayan, hər şeyi əhatə edən.
**allwissend** *adj.* hər şeyi bilən, bilici; dahi, müdrik.
**allwöchentlich** *adj.* hər həftə; həftədə; həftəlik.
**allzeit** *adv.* həmişə, hər vaxt; *~ bereit!* həmişə hazır.
**allzu** *adv.* lap çox.
**allzubald** *adv.* çox tez, lap tez.
**allzufrüh** *adv.* lap tezdən, çox tez.
**allzugern** *adv.* lap həvəslə.
**allzugut** *adv.* çox yaxşı.
**allzusehr** *adv.* həddindən artıq; ifrat.
**Allzweck-** hər işə dəyən; hər işə gələn.
**Alm,** *die; -, -en* otlaq *(dağda).*
**Almanach,** *der; -s, -e* illik, almanax.
**Almosen,** *das;-s, -* sədəqə, ehsan, dilənçipayı; *um ~ bitten* sədəqə diləmək.
**Almosenempfänger,** *der; -s, -* sədəqə alan.
**Almosengeber,** *der; -s, -* sədəqə verən.
**Aloe,** *die; -, -n bot.* ud ağacı; ishalotu.
**Alpaka,** *das; -s, -s (Tier, Wolle)* alpaka.
**Alpdrücken,** *das; -s* qarabasma, kabus, vəhşət.
**Alpen** *die/pl.* Alp dağları.
**Alpenveilchen,** *das; -s, -* bənövşə, dovşanqulağı.
**Alpha,** *das; -(s), -s* yunan əlifbasının birinci hərfi, alfa.
**Alphabet,** *das; -(e)s, -e* əlifba, alfabet.
**alphabetisch** *adj.* əlifba sırası ilə; *~ geordnet* əlifba sırasında yerləşmiş, əlifba sırası ilə düzülmüş.
**alphabetisieren** *vt* yazıb-oxuma öyrətmək, savadlandırmaq.
**Alpin** *adj.* alp dağları ilə ilgili, alplı.
**Alpinismus,** *der; -* dağçılıq.
**Alpinist,** *der; -en, -en* dağçı.
**Alptraum,** *der; -(e)s, -¨e* qarabasma, qorxulu yuxu, kabus, pis yuxu; *fig.* qorxulu iş, dəh.
**als** *konj.* **1.** -kən, ..zaman, e(y)lə; olaraq; *als er 3 Jahre alt wurde, kam er in den Kindergarten* 3 yaşı olarkən uşaq bağçaşına getdi; *als er kam* elə ki gəldi; **2.** *(als Eigenschaft)* kimi, vəzifəsində; *er arbeitet als Lehrer* o, müəllim *(öyrətmən)* kimi *(vəzifəsində)* işləyir; **3.** *(bei Vergleichen)* -dan, -dən, *-dən* daha; *größer ~ ich* məndən *(daha)* böyük; **4.** *(als ob)* güya ki, sanki, elə bil; *~ ob nichts geschehen wäre* güya ki, heç bir şey olmayıb; **5.** *sowohl ~ auch* necə ... elə də…, həm… həm (də) …*; sowohl ich ~ auch du* necə mən, elə də sən; **6.** *mit adj.* kimi; *ich empfinde s-e Bemerkung ~ sehr unhöflich* onun qeydini ədəbsizlik bilirəm *(hesab edirəm/ sayıram); alles andere ~ -dən/-dan* başqa hər şey.
**alsbald** *adv.* tezliklə, dərhal, o saat.
**Alsdann** *adv.* sonra, ondan sonra, bundan sonra.
**also** *konj. (das heißt)* deməli, demək; *du kommst ~ heute* demək, sən bugün gələcəksən; *du bist also auch eingeladen* deməli səndə qonaqsan; *adv.* 1.*(folglich)* beləliklə, o halda, onda; *er ist müde, ~ bleibt er zu Hause* o yorğundur, beləliklə evdə qalır; 2. *(schließlich) er ist ~ doch gekommen* axır ki gəlib çatdı; *na ~ !* görürsən! indi başa düşdün!.
**als ob** *konj.* sanki, güya ki, deyəsən, sanasan, deyən, elə bilki.
**alt** *adj.* qədim, çoxdankı; *(bejahrt)* qoca, yaşlı; *(veraltet)* köhnə; qart; bayat; babadanqalma, əski; *wie ~ sind Sie?* sizin nəçə yaşınız var?; *ich bin 47 Jahre ~* mənim 47 yaşım var; *ein ~er Freund* bir köhnə dost, əski dost; *~ werden* qocalmaq; *ein zehn Jahre ~er Junge* on yaşında bir oğlan; *in ~en Zeiten* qədim *(əski)* zamanlarda; *es bleibt beim ~en*

hər şey olduğu *(əvvəlki)* kimi qalır, heç bir şey dəyişməyib; *F* köhnə hamam, əski tas; *altes Brot* bayat çörək; *~ und jung* böyük-kiçik.

**Alt,** *der; -s mus.* zil *(qadın)* səs*(i).*

**Altar,** *der; -(e)s, -¨e* **1.** kilsə masası *(Süd. : kilsə mizi )*; **2.** *(Opferaltar)* qurban verilən yer, qurbangah.

**altbacken** *adj. (Brot)* bayat.

**Altbauwohnung**, *die; -, -en* 1948-ci ildən əvvəl tikilmiş evlər.

**altbekannt** *adj.* çoxdan bəri məlum olan.

**altbewährt** *adj.* imtahan vermiş, çoxdan sınanmış.

**Alte[1],** *der u. die; -n, -n* **1.** qoca kişi, qoca arvad; **2.***(Direktor)* müdir, şef; **3.** ağsaqqal; *meine ~* anam; *mein ~r* atam.

**Alte[2],** *das; -n* keçmiş, köhnə; *am ~n hängen* keçmişə bağlı olmaq.

**altehrwürdig** *adj.* yaşlı və hörmətli.

**alteingesessen** *adj.* çoxdan yerləşmiş, *-in* yerlisi.

**Alteisen,** *das; -s* dəmir-dümür, xırda dəmir.

**Altenheim,** *das; -(e)s, -e* qocalar evi.

**Altenpflege,** *die; -* qocalara baxma.

**Alter,** *das; -s, -* **1.** *(Lebensalter)* yaş, sinn; *im ~ von 15 Jahren* onbeş yaşında; *im heiratsfähigen ~ sein* evlənmək yaşında olmaq; **2.** *(hohes ~)* qocalıq, yaşlılıq, sinnili adam; **3.** keçmiş əyyam, qədim vaxtlar, qədimlik; *von alters her, seit alters her* qədimdən bəri.

**älter** *adj.* daha yaşlı, daha böyük, daha qədim; daha qədim; *mein ~er Sohn* böyük oğlum.

**altern** *vt u. vi* qocalmaq, yaşlanmaq; *F* kəhrimək; köhnəlmək; *fig. ~ lassen* qocaltmaq.

**alternativ** *adj.* alternativ.

**Alternative,** *die; -, -en* alternativ, iki imkandan birisi; *er hat keine ~ anzubieten* onun alternativ təklifi yoxdur.

**Alterserscheinung,** *die; -, -en* qocalıq əlaməti, yaşlanma nişanı.

**Altersfürsorge,** *die; -* qocalar üçün himayə *(ictimai təminat),* qocalığa görə maddi təminat.

**Altersgenosse,** *der; -n, -n* həmyaş, yaşıd.

**Altersgrenze,** *die; -, -n* **1.** yaş həddi, yaş məhdudiyyəti; **2.** *(Rentenalter)* təqaüd yaşı.

**Altersgruppe,** *die; -, -n* həmyaşlar qrupu, yaş qrupu.

**Altersheim,** *das; -(e)s, -e* qocalar evi.

**Altersrente,** *die; -, -n* qocalığa görə təqaüd.

**altersschwach** *adj.* əldən düşmüş.

**Altersschwäche,** *die; -, -n* qocalıq zəifliyi.

**Altersunterschied,** *der; -(e)s, -e* yaş fərqi, sinn fərqi.

**Altersversorgung,** *die; - (Rente)* əməklik maaşı, pensiya.

**Altertum,** *das; -s* köhnə aləm, qədim zamanlar, qədim vaxt, əski çağ.

**Altertümer** *pl.* qədimdən qalan şeylər, əntiq əşya.

**altertümlich** *adj.* **1.**qədim, əski; **2.** *(veraltet)* əski*(miş),* köhnəlmiş.

**Altertumsforscher,** *der; -s, -* arxeoloq, qədim dövr tarixçisi.

**Altertumskunde,** *die; -* arxeologiya.

**Alterung,** *die; -* qocalıq.

**ältest-** *adj.* **1.** ən qədim, ən əski; **2.** *(Lebensalter)* ən yaşlı; qocaman; **3.** *(Kind)* ən böyük; *in dieser Gruppe ist er am ~en* bu qrupda o, ən yaşlıdır.

**Ältestenrat,** *der; -(e)s, -¨e* ağsaqqallar şurası.

**altgedient** *adj.* uzun zaman xidmət etmiş, təcrübəli; qocaman.

**althergebracht** *adj.* adət üzrə, həmişəki kimi.

**althochdeutsch** *adj.* qədim alman dili.

**altklug** *adj.* yaşından artıq ağıllı *(uşaqlar haqqında).*

**ältlich** *adj.* yaşlı, ahıl.

**Altmeister,** *der; -s, -* usta.

**altmodisch** *adj.* köhnədəbli.

**Altöl,** *das; -s, -e* köhnəlmiş motor yağı, istifadə olmuş motor yağı.

**Altpapier,** *das; -(e)s* köhnə kağız.

**Altphilologe,** *der; -n, -n* qədim dillərin

mütəxəssisi.

**Altruismus,** *der; -* fədakarlıq, özgəpərəstlik, təmənnasız başqasının qeydinə qalma, tamahsızlıq.

**Altruist,** *der; -en -en* fədakar, tamahsız; özgəçi.

**Altstadt,** *die; -* köhnəşəhər.

**altüberliefert** *adj.* qədimdən qalmış.

**Altwarenhändler,** *der; -s, -* köhnəçi, köhnə mal satan.

**Aluminium,** *das; -s* alüminium.

**Aluminiumfolie,** *die; -, -n* alüminium kağızı.

**am** *(an dem) präp. u. adv.* : *~ Montag* bazar ertəsi günü; *~ Morgen* səhər; *~ Telefon* telefonda; *~ Leben bleiben* sağ qalmaq; *~ Ende der Vorstellung* tamaşanın axırında; *Superlativ* - dən əvvəl; *am besten* - hər şeydən yaxşı, lap yaxşı.

**Amalgam,** *das; -s, -e* amalqama, civə ilə bəzi metalların ərintisi; qatışıq.

**Amateur,** *der; -s, -e* amatör, həvəskar.

**Amazone,** *die; -, -n* amazon.

**Ambiente,** *das; -s* atmosfer, mühit, hava.

**Ambition,** *die; -, -en* **1.** *(Bestrebung)* cidd-cəhd, səy; **2.** *(Ehrgeiz)* şöhrəttələblik, şöhrətpərəstlik.

**ambivalent** *adj.* iki dəyərlilik *( bir-birilə zidd olan hisslər)* (*z.B. Haßliebe).*

**Amboss,** *der; -es, -e* zindan.

**Ambra,** *die; -, -s* ənbər, əbir.

**ambrosisch** *adj.* valehedici; çox gözəl.

**ambulant** *adj.* gəziçi, səyyar; *~e Behandlung* ayaq üstü müalicə.

**Ambulanz,** *die; -, -en* **1.** *(Krankenwagen)* təcili yardım avtomobili, sanitar avtomobili *(Süd. : ambulans maşını).*

**Ameise,** *die; -, -n* qarışqa, qarınca.

**Ameisenhaufen,** *der; -s, -* qarışqa yuvası.

**Ameisensäure,** *die; -* qarışqa turşusu, asid formik.

**amen** *adv.* amin; *zu allem ja und ~ sagen* hər şeyə amin demək.

**Amen,** *das; -s* amin; *sein ~ zu etwas geben* bir şeyə razılıq vermək.

**Amerika;** *-s* Amerika.

**Amerikaner,** *der; -s, -* amerikalı.

**Amerikanerin,** *die; -, -nen* amerikalı *(qadın).*

**amerikanisch** *adj.* amerika, amerikasayağı.

**Amerikanistik,** *die; -* amerikaşünaslıq.

**Ami,** *der; -(s); -(s) F* amerikalı.

**Amme,** *die; -, -n* dayə; süd anası.

**Ammenmärchen,** *das; -s, -* üşaq nağılı.

**Ammoniak,** *das; -s* amoniak.

**Amnestie,** *die; -, -n* bağışlama, əfv, amnisti*(ya).*

**amnestieren** *vt* bağışlamaq, əfv etmək.

**Amok,** *der; -s : ~ laufen vi* sağa-sola vurmaq, gələni vurmaq .

**Amor,** *der; -s* Amur, qədim romalıların eşq tanrısı; *von ~s Pfeil getroffen sein* aşiq olmaq.

**Amoral,** *die; -* əxlaq qaydalarına zidd, əxlaqsızlıq.

**amoralisch** *adj.* əxlaqsız*(lıq).*

**amorph** *adj. (formlos)* şəkilsiz, biçimsiz.

**Amortisation,** *die; -, -en H* amortizasiya; amortizasiya ayırması.

**amortisieren** *vt* **1.** *(von Darlehen usw.)* borcu tədricən vermək, hissə-hissə vermək, amortizasiya etmək; **2.** *(Zurückgewinnung von Ausgaben)* məsrəfləri yenidən qazanmaq; *vr sich ~* xərcləri çıxartmaq.

**Ampel,** *die; -, -n* lampa, çıraq.

**Ampere,** *das; -(s), -* amper.

**Amphibie,** *die; -, -n* ikiyaşayışlı heyvan *(z.B. ein Frosch),* suda-quruda yaşayan, amfibiya.

**Amphibienfahrzeug,** *das; -(e)s, -e* həm suda həm də quruluqda hərəkət edən maşın *(gəmi, avtomobil).*

**Amphitheater,** *das; -s, -* amfiteatr, girdə və ya yumurtaşəkilli səhnəsi olan teatr.

**Ampulle,** *die; -, -n* ampul, iynə.

**Amputation,** *die; -, -en med.* bir üzvü

kəsmə.

**amputieren** *vt* bir üzvü kəsmək.

**Amsel,** *die; -, -n zo.* qaratoyuq.

**Amt,** *das; -(e)s, -¨er* **1.** *(Aufgabe, Pflicht usw.)* vəzifə; iş; *ein hohes ~ bekleiden* yüksək bir vəzifə tutmaq; **2.** *(Behörde)* idarə, müəssisə, dairə; *das Auswärtige ~* xarici işlər nazirliyi; *von ~s wegen* rəsmi, rəsmən*; aus dem ~ scheiden* vəzifədən azad olmaq, işdən çıxmaq.

**amtieren** *vi* vəzifə başında olmaq.

**amtierend** *adj.* vəzifə başında olan.

**amtlich** *adj.* rəsmən, rəsmi *(olaraq).*

**Amtsantritt,** *der; -(e)s, -e* vəzifə başına gəlmə, vəzifəyə keçmə.

**Amtsarzt,** *der; -(e)s, -¨e* dövlət qulluğunda olan həkim.

**Amtsblatt,** *das; -(e)s, -¨er* rəsmi qəzet.

**Amtsenthebung,** *die; -, -en* vəzifədən kənar etmə.

**Amtsgericht,** *das; -(e)s, -e* dairə məhkəməsi; rayon məhkəməsi.

**amtsmüde** *adj.* işindən cana gəlmiş, işindən yorğun.

**Amtsperiode,** *die; -, -n* vəzifə başında olma müddəti, xidmət müddəti, səlahiyyət müddəti.

**Amtsschimmel,** *der; -s* bürokratlıq, get-gəl, süründürmə*(çilik).*

**Amulett,** *das; -(e)s, -e* gözmuncuğu, tilsim, nəzərlik.

**amüsant** *adj.* əyləndirici, məzəli; gülməli, güldürücü, şad.

**amüsieren** *vt* əyləndirmək; güldürmək; *vr. sich ~* əylənmək, gülüb şadlıq etmək, deyib-gülmək, eşq eləmək; *fig.* enlənmək.

**an** *präp. D* **1.** -da, -də, yanında, yaxınlığında, haqqında, üzərində, sahilində, üstündə; **2.** *A* -ə, -a, yanına, yaxınlığına, kənarına, sahilinə, üstünə; *am Meer* dəniz kənarında; *~ der Arbeit* iş başında, iş üstündə; *~ der Bar sitzen* barda oturmaq; *~ deinem Geburtstag* anadan olan günündə; *~ Herrn Müller* Müller cənablarına; *~ die Wand hängen* divara asmaq; *~ die Tür klopfen* qapını döymək; *adv.* 1. *(von... an)* dən başlayaraq; *von jetzt ~* indidən; *von heute ~* bu gündən; 2. *(an die + Zahl)* yaxın, təxminən; *ich schätze, du bist so an die 40 Jahre alt* sənin yaşını qırxa yaxın təxmin edirəm; *~ der Stimme erkennen* səsindən tanımaq; *an et. arbeiten* bir şeyin üzərində işləmək; *die Schuld liegt ~ ihm* günah ondadır; *~ und für sich* əslində.

**an-** *präf.* **1.** *hərəkətin başlandığını:* **1.** *(anfaulen çürüməyə başlamaq)*; **2.** *yaxınlığı*: *(anfliegen uçub yaxınlaşmaq)*; **3.** *təmas halına gətirməyi: (anbinden* bağlamaq; *ankleben* yapışdırmaq*) bildirir; j-n anbrüllen bir kəsin üstünə qışqırmaq.*

**Anabolikum,** *das; -s, Anabolika (Sport)* əzələləri çoxaldan maddə.

**Anachronismus,** *der; -, -men* bir hadisənin tarixində səhv olma.

**anal** *adj.* gödənə aid olan, dal.

**analog** *adj.*bənzər, oxşar; *~ zu* -ə bənzər, -ə oxşar, -ə paralel.

**Analogie,** *die; -, -n* bənzərlik, oxşarlıq, oxşayış.

**Analphabet,** *der; -en, -en* savadsız, yazıb-oxuya bilməyən.

**Analphabetentum,** *das; -s* savadsızlıq.

**Analyse,** *die; -, -n* analiz, təhlil.

**analysieren** *vt* təhlil etmək, analiz etmək, seçmək.

**analytisch** *adj.* təhlili.

**Anämie,** *die; -, -n* qansızlıq, anemia.

**Ananas,** *die; -, -u. -se* ananas.

**Anarchie,** *die; -, -n* anarxiya *(Süd. : anarşi),* başsızlıq, hərc-mərclik, qanunsuzluq, hərki-hərkilik.

**Anarchismus,** *der; -* hər cürə dövlət və hakimiyyət formasını rədd edən nəzəriyyə, anarxizm *(Süd. : anarşizm).*

**Anarchist,** *der; -en, en* anarxist.

**Anästhesie,** *die; -, -n* uydurma, anestezi, hissisiz etmək.

**Anatomie,** *die; -, -n* anatomi, təşrih.

**antomisch** *adj.* anatomik.

**anbahnen** *vt* yol açmaq, hazırlıq görmək; ilk addım atmaq, başlamaq; *vr*

*sich ~* yavaş-yavaş başlamaq, inkişaf etmək.

**Anbau,** *der; -(e)s, -ten* **1.** *(Vorbau)* çıxıntı; ...yanına tikmə, əlavə bina; **2.** *der; (e)s, -en (Getreide usw.)* əkiliş, becərmə; becərilmə; bəslənmə.

**anbauen** *vt* **1.** becərtmək; əkmək, yetişdirmək, əkib-biçmək, əkib-becərmək; **2.** *(Haus usw.)* yanında tikmək.

**Anbaufläche,** *die; -, -n* əkin sahəsi, tarla.

**anbefehlen** *vt* əmr etmək *(j-m/bir kəsə).*

**Anbeginn,** *der; -(e)s* başlanğıc; *von ~* lap əvvəldən, kökündən.

**anbehalten** *vt* *(Kleider)* üstündən çıxartmamaq.

**anbei** *adv.* *(im Brief)* əlavə *(olaraq),* bununla bərabər, yanında; yanaşı.

**anbeißen** *vt* dişləmək, dişləyib qopartmaq; *vi (Fisch)* tora düşmək; *fig. zum Anbeißen schön* çox cazibəli, çox gözəl; *das Kind ist zum Anbeißen* uşaq çox şirindir; *fig. er will nicht ~* o, yola gəlmək istəmir; tora düşmək istəmir.

**anbelangen** *: was... (A) anbelangt -a, -ə* gəlincə; *was mich anbelangt* mənə gəlincə.

**anbellen** *vt* **1.** hürmək; **2.** *fig. j-n ~* bir kəsin üstünə qışqırmaq *(bağırmaq).*

**anberaumen** *vt (Zeitpunkt)*təyin etmək.

**anbeten** *vt* pərəstiş etmək, sitayiş eləmək, məftun olmaq.

**Anbetracht :** *in ~ G* nəzərdə tutaraq; *in ~ der gegenwärtigen Situation* indiki vəziyyəti nəzərdə alaraq, indiki vəziyyəti nəzərdə tutaraq.

**anbetreffen** *vt : was... (A) anbetrifft -a, -ə* gəlincə; *was mich anbetrifft* mənə gəlincə.

**anbetteln** *vt* dilənçilik etmək.

**anbiedern** *vr sich ~ bei D* boğaza keçmək; yaltaqlıq etmək.

**anbieten** *vt* **1.** *(darreichen)* vermək, təqdim etmək; *den Gästen Tee ~* qonaqlara çay vermək; **2.** *(vorschlagen)* təklif etmək; önərmək; *vr sich ~* qulluq etmək üçün hazır olduğunu bildirmək; *sich als Vermittler ~* vasitəçiliyə hazır olduğunu bildirmək.

**Anbieter,** *der; -s, - H* təklif edən; satıcı.

**anbinden** *vt* *(mit Schnur usw.)* bağlamaq, bənd eləmək; dolaşdırmaq; *den Hund ~* iti bağlamaq;*vi* sataşmaq, dava etməyə səbəb axtarmaq *(mit D/bir kəs ilə).*

**anblasen** *vt* **1.** üfləmək; **2.** *(Hochofen)* alışdırmaq, yandırmaq, körükləmək.

**Anblick,** *der; -(e)s, -e* **1.** baxış; *beim ersten ~* ilk baxışda*(n)*; **2.** *(Aussehen)* görünüş, mənzərə.

**anblicken** *vt* *bir kəsə və ya bir şeyə* baxmaq, nəzər salmaq; *j-n finster ~* bir kəsə pis-pis baxmaq.

**anblinzeln** *vt* göz eləmək, göz etmək *(j-n/bir kəsə).*

**anbohren** *vt* **1.** dəlmək, burğu ilə deşmək; **2.** ağızdan söz almaq.

**anbraten** *vt* *(az)* qızartmaq.

**anbrechen** *vt* **1.** *(Arm, Knochen usw.)* sındırmaq; çatlatmaq; **2.** *(Packung)* açmaq, işlətməyə başlamaq; *vi* 1. *(Tag)* işıqlanmaq, açılmaq; *der Tag bircht an* hava işıqlanır, gün *(səhər)* açılır; 2. *(Nacht)* qaranlıqlaşmaq.

**anbrennen** *vt* yandırmaq; *vi* **1.** yanmaq; **2.** *(Essen)* yanmaq, qarsalanmaq*; ~ lassen* yandırmaq; *fig. nichts ~ lassen* heç bir fürsəti əldən verməmək.

**anbringen** *vt* **1.** *(befestigen)* yerləşdirmək, taxmaq, yapışdırmaq, keçirtmək, asmaq, qoşmaq *(an, auf usw. A/-a, -ə)*; **2.** *(Ware)* satmaq, satıb başdan etmək; **3.** *(e-e Geschichte usw.)* rəvayət etmək; **4.** *(bei Gericht) e-e Klage ~* şikayət etmək, ərizə vermək; **5.** *(et. mitbringen)* özü ilə gətirmək.

**Anbringung,** *die; -* yerləşdir(il)mə, tax(ıl)ma, as(ıl)ma.

**Anbruch,** *der; -(e)s* **1.** başlanğıc, başlanma; *bei ~ des Tages* sübh vaxtı, hav işıqlanan vaxt; *bei ~ der Nacht* gecə vaxtı; **2.** çatlama.

**anbrüllen** *vt* üstünə bağırmaq, üstünə qışqırmaq, çımxırmaq, çəmkirmək.

**anbrummen** *vt* deyinmək, donquldanmaq.

**Andacht,** *die; -, -en* ibadət, dua; *(ohne Pl.)* rəğbət; *mit ~ hörte sie der Musik zu* rəğbətlə musiqiyə qulaq asırdı.

**andächtig** *adj.* hörmətcil, ehtiramlı; *fig.* rəğbətli, ehtiramlı; *adv. ~ zuhören* diqqətlə dinləmək *(qulaq asmaq)*.

**andauern** *vt* davam etmək, sürmək, uzun çəkmək.

**andauernd** *adj.* sürəkli, davamlı, uzun.

**Andenken,** *das;-s, -* **1.** yadigar, xatirə *(an A/bir kəsin, bir şeyin)*; **2.** *(als Sache)* yadigarlıq; *zum ~ an A -in* xatirəsi üçün

**andere(r, -s)** **1.** başqa*(sı)*, o biri*(si)*, digər, özgə, ayrı; *ein ~s Kleid anziehen* başqa *(ayrı)* bir paltar geymək; **2.** *(verschieden)* müxtəlif, fərqli; *das ist etwas ~s* bu, tamamiylə başqa şeydir; *nichts ~s als.. -dan, -dən* başqa şey deyil; *unter ~m* yeri gəlmişkən; *mit ~n Worten* başqa bir sözlə; *etwas ~es* başqa bir şey, başqası; *am ~n Tag* sabah; *eins nach dem ~n* növbə ilə, bir-birinin dalınca.

**anderenfalls** *adv.* əks təqdirdə, yoxsa.

**andererseits** *adv.* o biri tərəfdən, digər tərəfdən.

**andermal** *adv. : ein ~* o biri dəfə, gələn dəfə, başqa dəfə.

**ändern** *vt* dəyiş(dir)mək, düzəltmək; döndərmək; *ich kann es nicht ~* əlimdən heç bir iş gəlmir; *vr sich ~* dəyişmək; *s-e Meinung ~* fikrini dəyişmək; *die Zeiten ~ sich* zaman dəyişir; *die Flußrichtung e-s Flusses ~* çayın axımını döndərmək *(istiqamətini döndərmək)*.

**andernorts** *adv.* başqa yerdə.

**anders** *adv. u. adj.* başqa cür, savay; ayrı, əcəmi; *völlig/ganz ~* bambaşqa; *ich denke ~ als du* mən başqa cür*(ə)* fikirləşirəm; *niemand ~ als.. -dən* başqa *(savay)* heç kim deyil; *wer ~ als du ?* səndən başqa kim ola bilər? *ich kann nicht ~* başqa cür edə bilmirəm; *er verhält sich ganz ~* o, lap başqa *(bambaşqa)* cür rəftar edir; *~ werden* dəyişilmək.

**andersartig** *adj.* başqa-başqa, başqa cür; *adv.* bircürə.

**andersdenkend** *adj.* başqa cürə düşünən, başqa fikrə sahib olan.

**andersgläubig** *adj.* başqa dinə sahib olan, başqa dinli.

**anderthalb** *Zahladj.* bir yarım.

**anderthalbfach** *adj.* biryarımlıq.

**andersherum** *adj.* **1.** əks istiqamətdə; **2.** başqa cür, başqa təhər.

**anderswo** *adv.* başqa yerdə.

**anderswoher** *adv.* başqa yerdən.

**anderswohin** *adv.* başqa yerə.

**Änderung,** *die; -, -en* dəyiş(dir)mə, dəyişiklik *(von D/ in, auf A/)*.

**anderwärtig** *adj.* *(Informationen)* başqa yerdən gələn, başqa yerdə olan.

**anderweitig** *adj.* başqa, sair, qeyri; *adv.* başqa tərəfdə*(n)*.

**andeuten** *vt* işarə etmək, eyham vurmaq, andırmaq.

**Andeutung,** *die; -, -en* işarə, eyham; ifadə, kinayə; *in ~ reden* işarə ilə danışmaq, eyhamla danışmaq.

**andeutungsweise** *adv.* eyhamla, işarə etməklə, işarələrlə.

**andichten** *vt* iftira demək, böhtan atmaq *(j-m/bir kəsə)*.

**andocken** *vt* bir kosmik gəmini başqa bir kosmik gemiyə bağlamaq.

**andonnern** *vt* **1.** kiminsə üstünə qışqırmaq; **2.** *(Zug usw.)* gurultu ilə gəlmək *(getmək)*.

**Andrang,** *der; -(e)s* basabas, izdiham, axın, basqın, girhagir, axın.

**andrehen** *vt* **1.** çevirmək, döndərmək; **2.** *(Strom, Gas)* açmaq; **3.** *(Motor)* hərəkətə gətirmək; **4.** *(Schrauben)* sıxışdırmaq; **5.** *fig. j-m. et. ~* kiməsə eybəcər malı satmaq, baha satmaq.

**androhen** *vt* *(j-m et.)* qorxutmaq, hədələmək *(kimisə nə iləsə)*, hədə-zorba gəlmək.

**Androhung,** *die; -, -en* hədə, hədələmə, hərbə-zorba.

**Andruck,** *der; -(e)s, -e* çap nümunəsi, çap olmuş əsərin birinci nümunəsi.

**andrücken** *vt* sıxmaq.

**anecken** *vi* *(versehentlich anstoßen)* **1.** bilmədən toqquşmaq, bilmədən dəy-

mək *(an et. /nəyəsə);* **2.** *bei j-m ~* özünü pis aparmaq, nifrət oyadmaq.

**aneignen** *vt sich (D) ~* **1.** *(Kenntnisse usw.)* əldə etmək, qazanmaq; mənimsəmək, özününküləşdirmək, sahiblənmək; **2.** *(Gewohnheit)* alışmaq; **3.** *(Sprache)* öyrənmək; **4.** *(widerrechtlich)* yiyələnmək, qəsb etmək, ağalanmaq.

**Aneignung,** *die; -* mənimsəmə, əldə etmə, qazanma, özününküləşdirmə.

**aneinander** *adv.* bir-birinə yaxın, yan-yana; *dicht ~* kip, çox sıx, çox yaxın; *~ denken* bir-biri haqqında fikirləşmək .

**aneinanderfesseln** *vt* bir-birinə bağlamaq.

**aneinandergeraten** *vi* toqquşmaq, dalaşmaq, tutaşmaq.

**aneinandergrenzen** *vi* həmsərhəd olmaq.

**aneinanderreihen** *vt* bir-birinin yanına düzmək, düzmək.

**aneinanderstoßen** *vt* bir-birinə toqquşmaq, bir-birinə dəymək.

**Anekdote,** *die; -, -n* anekdot, kiçik hekayə; lətifə.

**anekeln** *vt* nifrət oyatmaq, iyrəndirmək, bıqdırmaq; *vi* iyrənmək; *der schlechte Geruch ekelt mich an* mən pis iydən iyrənirəm.

**Anemone,** *die; -, -n bot.* manisa laləsi, şəqayiq gülü, dağ laləsi.

**anempfehlen** *vt* tövsiyə etmək *(j-m/ kiməsə).*

**anerbieten** öz köməyini təklif etmək.

**Anerbieten,** *das; -s, -* təklif, önəri.

**anerkannt** *adj.* tanınmış; məlum.

**anerkanntermaßen** *adv.* necə ki, qəbul olunduğu kimi, məlum olduğu kimi.

**anerkennen** *vt* **1.** tanımaq, qəbul etmək; **2.** *(bestätigen)* təsdiq etmək; **3.** *(loben)* təqdir etmək; öymək; **4.** *(billigen)* təsvib etmək; **5.** *(zugeben)* etiraf etmək, qəbul etmək; *jur.* iqrar etmək; *nicht ~* tanımamaq.

**anerkennend** *adj. ~e Worte* təqdirəlayiq sözlər.

**anerkennenswert** *adj.* təqdirəlayiq, tərifəlayiq.

**Anerkennung,** *die; -* **1.** tanıma, bəyənmə; **2.** *(Billigung)* təsvib etmə; **3.** *(Bestätigung)* təsdiqləmə; **4.** *(Lob)* tə´rif, öymə, övgü, təqdir.

**anfachen** *vt* üfürüb alışdırmaq, *fig. (Feindseligkeit usw.)* qızışdırmaq.

**anfahren** *vt* **1.** *(streifen)* toxunmaq, dəymək; *e-n Fußgänger ~* piyadanın üstünə çıxmaq *(nəqliyyat vasitəsi ilə)*; **2.** *(et. transportieren)* nəql etmək, daşımaq; **3.** *(auf j-n losschimpfen)* birinin üstünə bağırmaq, üstünə atılmaq, dalamaq; *vi (Zug, Auto)* hərəkət etmək.

**Anfahrt,** *die; -, -en* **1.** yaxınlaşma, gəliş; **2.** *(Zufahrt)* giriş, giriş yolu.

**Anfall,** *der; (e)s, -¨e* **1.** *(Krankheit)* tutma, xəstəliyin şiddətlənməsi vaxtı **2.** *(Wutanfall)* artıq dərəcədə hirslənmə.

**anfallen** *vt* basqın etmək, hücum etmək, üstünə tullanmaq; *der Hund fiel den Mann an* it kişiyə hücum etdi; *vi* **1.** *(aufkommen)* araya çıxmaq, meydana çıxmaq, baş vermək; **2.** *(Zinsen, Kosten usw.)* çıxmaq, əmələ gələn.

**anfällig** *adj.* tez tutan; həssas.

**Anfälligkeit,** *die; -, -en* düçar olma, tez tutma *(xəstəliyi).*

**Anfang,** *der; -(e)s, -¨e* **1.** başlanğıc, əvvəl, başlantı, əzəl, əzzəl, əvayil; ağız; *am ~* başda, əvvəlcə, əvvəllər, əzəldən; *~ Mai* mayın başında *(əvvəlində, əvayilində)*; *von ~ an* başdan, lap əvvəldən, əvvəlcədən, əzəldən; *am Anfang der Strasse* küçənin ağzında.

**anfangen** *vt* başlamaq*; mit dir ist nichts anzufangen!* səninlə iş görmək olmaz!; *zu sprechen ~* danışmağa başlamaq; *vi* başlanmaq; *der Unterricht fängt an* dərs başlanır.

**Anfänger,** *der; -s, -* xam, təcrübəsiz, bir işə təzə başlayan adam, naşı.

**anfänglich** *adj.* başlanğıc, ilk, əvvəlki, əzəlki; *adv.* qabaqca, əvvəlcə, irəlicə.

**anfangs**[1] *adv.* qabaqca, əvvəlcə; əvvəllər, əvvəllərdə, əvvəlləri, əzəllər *pl.*

**anfangs**[2] *präp. G* əvvəlində, əvayilində; *~ des Monats* ayın əvvəlində *(əvayilində).*

---

**Anfangsbuchstabe,** *der; -n, -n* baş hərf.

**Anfangsgehalt,** *das; -(e)s, -¨er* ilk maaş, ilk məvacib.

**Anfangskapital,** *das; -(e)s, -e* əsas sərmayə, başlanğıc kapital.

**Anfangsstadium,** *das; -s, -dien* ilk mərhələ.

**Anfangsvers,** *der; -es, -e* birinci beyt.

**Anfangszeit,** *die; -, -en* ilk zamanlar, başlanğıc.

**anfassen** *vt* dəymək *(əl ilə),* qamarlamaq, əl gəzdirmək, əl vurmaq; *(e-e Frau)* əl atmaq, əlləmək; *nicht ~!* əl vurma*(yın)! vi (mit) ~* yardım etmək, kömək etmək, tutmaq; *kannst du mit anfassen?* buna bir əl yetirə bilərsən mi?

**anfauchen** *vt fig.* üstünə qışqırmaq; bərk qınamaq; azarlamaq; *(Katze)* fınxırmaq, fışıldamaq.

**anfaulen** *vi* çürümək.

**anfechtbar** *adj.* mübahisəli; qəti olmayan.

**anfechten** *vt* **1.** *(ablehnen)* rədd etmək, qəbul etməmək; *e-e Entscheidung ~* bir qərarı rədd etmək; **2.** *(beunruhigen)* narahat etmək; *es ficht mich an* məni narahat edir.

**Anfechtung,** *die; -, -en jur.* etiraz, qarşı çıxma.

**Anfechtungsklage,** *die; -, -n jur.* əleyhinə şikayət vermə, mənfi iddia.

**anfeinden** *vt* düşmənçilik etmək, düşmən olmaq.

**Anfeindung,** *die; -, -en* düşmənçilik.

**anfertigen** *vt* hazırlamaq; düzəltmək.

**Anfertigung,** *die; -, -en* hazırlaşma, hazırlanma, qayrılma, düzəlmə.

**anfeuchten** *vt* islatmaq, su vurmaq.

**anfeuern** *vt* **1.** *(Ofen)* yandırmaq; **2.** *fig.* cəsarətəndirmək; qızışdırmaq, ürək vermək, coşdurmaq, təhrik tmək.

**anflehen** *vt (um A)* yalvarmaq, yalvarıb-yaxarmaq, ləlimək *(nəyisə).*

**anfletschen** *vt (Tiere)*dişlərini qıcamaq.

**anfliegen** *vi* uçub gəlmək, ucub yanaşmaq; *vt (landen)* enmək; *das Flugzeug wird Täbriz ~* təyyarə Təbrizdə yerə enəcək.

**Anflug,** *der; -(e)s, -¨e* **1.** uçub yaxınlaşma; yerə enmə; **2.** *(Andeutung von et.)* işarə, iz, nişan.

**anfordern** *vt* tələb etmək, istəmək.

**Anforderung,** *die; -, -en* tələb, iddia, istək; *hohe ~en stellen an A* yüksək iddialar irəli sürmək *pl.*

**Anfrage,** *die; -, -en* **1.** sorğu, sual, xahişnamə; *e-e ~ stellen* soruşmaq; **2.** *pol.* sorğu.

**anfragen** *vt (bei D nach D/ kimdənsə, nə haqdasa)* soruşmaq, xəbər tutmaq; *parl.* sual vermək.

**anfressen** *vt* gəmirmək, didişdirmək.

**anfreunden** *vr sich ~ mit D* bir kəs ilə dost olmaq, dostlaşmaq.

**anfrieren** *vi* donmaq, donub yapışmaq *(an A/-ə).*

**anfügen** *vt* əlavə etmək, artırmaq, birləşdirmək.

**anfühlen** *vt* əl ilə yoxlamaq, hiss etmək; *vr sich ~* ... hissi*(ni)* vermək.

**anführen** *vt* **1.** *(befehligen)* başçılıq etmək; **2.** *(Beispiel)* misal gətirmək; ortaya atmaq; *was können Sie zu Ihrer Rechtfertigung ~ ?* bəraətiniz üçün nə misal gətirə bilirsiniz? **3.** *(foppen)* aldatmaq.

**Anführer,** *der; -s, -* başçı, rəhbər, başbilən, dəstəbaşı.

**Anführung,** *die; -, -en* **1.** başçılıq, rəhbərlik; **2.** *(Zitat)* sitat *(misal)* gətirmə.

**Anführungszeichen,** *das; -s, -* ( " „) dırnaq işarəsi*; in ~* dırnaq arası*.*

**anfüllen** *vt (mit D)* doldurmaq, içini doldurmaq.

**anfunkeln** *vt : j-n ~ bir kəsə* hirslə baxmaq.

**Angabe,** *die; -, -n* **1.** *(Mitteilung)* məlumat, xəbər; ifadə; xəbərçilik; *ohne ~ von Gründen* dəlilləri bildirmədən; **2.** *nur sg. (Wichtigtuerei)* lovğalıq, təkəbbür; **3.** *Sport* topu ötürmə *(Süd. : serv).*

**angaffen** *vt* gözlərini zilləyib baxmaq.

**angähnen** *vt* kiminsə üstünə əsnəmək.

**angeben** *vt* **1.** *(mitteilen)* bildirmək, xəbər vermək; **2.** *(Richtung)* təyin etmək, ton vermək; **3.** *(markieren)* nişan qoymaq; **4.** *(behaupten)* iddia etmək; **5.** *(zi-*

*tieren)* sitat gətirmək; *vi* 1. *(sich wichtig tun)* gop vurmaq, poz satmaq, dəm vurmaq; *F* dartmaq; 2. *Sport* top ilə oyuna başlamaq.

**Angeber,** *der; -s, -* xəbərçi; *F* gopçu.

**Angeberei,** *die; -, -en* gopçuluq, gop-lama.

**angeberisch** *adj.* gopçu(luq), lovğa.

**angeblich** *adj.* xəyali, uydurma; *adv.* güya ki, sanki, deyilənə görə, güman ki; *~ ist er krank* güya ki naxoşdur.

**angeboren** *adj.* anadangəlmə, fitri.

**Angebot,** *das; -(e)s, -e* önəri, təklif ; *ein ~ machen* təklif etmək; *~ und Nachfrage* təklif və tələb *(Süd. : ərzə və təqaza); im ~* ucuz satışda, ucuzluqda; *günstiges ~* ucuz qiymətə təklif.

**angebracht** *adj.* məqsədəuyğun, ya-rarlı, münasib, tutarlı; *es für ~ halten zu gehen* getməyi münasib *(uyğun)* gör-mək; *schlecht ~* yersiz, namünasib.

**angebrannt** *adj.* *(Essen)* yanıq, bir az yanmış.

**angebunden** *adj.* **1.** *(mit e-m Band usw.)* bağlı; **2.** *kurz ~* nəzakətsiz; qaşqabaqlı.

**angedeihen :** *vi ~ lassen* bağışlamaq, yaxşılıq etmək *(j-m/kiməsə).*

**Angedenken,** *das; -s* xatirə, yadiqar; *in gutem ~ behalten bir kəsi/bir şeyi* yaxşı-lıqla yad etmək; *seligen ~s* rəhmətlik.

**angegossen** *adj.* **1.** qəlib kimi; *(Klei-dung) wie ~ sitzen* əyninə biçilmiş.

**angegriffen** *adj.* *(Gesundheit usw.)* üzülmüş, zəifləmiş, sarsılmış.

**angegraut** *adj.* ağarmış.

**angeheitert** *adj.* içmiş, kefli, hallı.

**angehen** *vt* **1.** *(sich wenden an)* müra-ciət etmək, xahiş etmək, diləmək *(um A/bir şey üçün)*; **2.** *(betreffen)* dəxli olmaq, aid olmaq; *das geht mich nichts an* bunun mənə dəxli yoxdur; *was dich angeht* sənə gəlincə; *vi* 1. *(beginnen)* başlamaq; 2. *(schlecht werden)* xarab olmaq, çürüməyə başlamaq; 3. *(Feuer)* yanmaq; 4. *(möglich sein)* mümkün olmaq; 5. *(erlaubt sein)* caiz olmaq; *das geht nicht an* bu iş olmaz.

**angehend** *adj.* **1.** *(sich entwickelnd)* in-kişaf edən, gəlişməkdə olan;**2.** *(beginn-end)* başlayan, başlanan; *ein ~er Arzt* gənc həkim, yeni yetişən həkim.

**angehören** *vi (D)* aid olmaq *(nəyəsə); e-m Verein ~* bir cəmiyyətin *(dərnəyin)* üzvü olmaq, , tərkibinə daxıl olmaq.

**angehörig** *adj.* aid olan, mənsub.

**Angehörige,** *der u. die; -n, -n* *ein ~r; e-e ~* **1.** *(Familienangehörige)* qohum; **2.** *(Staatsangehörige)* vətəndaş , təbəə; **3.** *(Mitglied)* üzv, üyə.

**Angeklagte,** *der u. die; -n, -n* *ein ~r; e-e ~;* müttəhim.

**angekränkelt** *adj.* vəziyyəti yaxşı ol-mayan, səhhəti pis olan.

**Angel,** *die; -, -n* **1.** *(Türangel)* halqa; **2.** *(Fischangel)* tilov, qullab; *zwischen Tür und ~* ayaqüstü, son anda.

**angelangen** *vi* gəlib çatmaq *(bei, in D/-ə, ... yanına).*

**angelaufen :** *~ kommen vi* qaça-qaça gəlmək.

**angelegen** *adj.* əhəmiyyətli, maraqlı; *sich (D) et. ~ sein lassen vt* özünə və-zifə saymaq, boynunun borcu bilmək.

**Angelegenheit,** *die; -, -en* məsələ, iş, cərəyan, bab, hadisə, fəqərə, barə, əhval, əmr; *in welcher ~?* hansı işə *(məsələyə)* görə?, nə barədə; *über diese ~* bu babda, bu barədə; *Ministeri-um für auswärtige ~en* xarici işlər nazir-liyi; *sich um die eigene ~ kümmern* öz ba-şına *(əhvalına)* çarə qılmaq.

**angelegentlich** *adj.* cəhd edən, çalış-qan, inadlı; mühüm *adv.* inadla, təkidlə.

**angelegt** *adj.* *(Geld)* yatırdılmış, qoyul-muş.

**angelehnt** *adj.* *(Tür usw.)* aralıq.

**angelernt** *adj.* *(Arbeiter)* təlim görmə-miş, yarımixtisaslı.

**Angelhaken,** *der; -s, -* tilov qarmağı.

**angeln** *vi* tilovla *(qullabla)* balıq tut-maq*; vt* tutmaq; *j-n ~* bir kəsi tapmaq, bir kəsi tora salmaq*; fig. sich (D) ~* özünü bəlaya salmaq, bəlaya düşmək.

**Angeln,** *das; -s* tilovla balıq tutma.

**angeloben** *vt* mərasimlə and içmək, söz vermək; *j-m Treue ~* kiməsə vəfalı

olduğunu söz vermək.

**Angelpunkt,** *der; -(e)s, -e fig.* mərkəz, mehvər, əsas nöqtə; ox.

**angelsächsisch** *adj.* anqlosaks, anqlosakson.

**Angelschnur,** *die; -, -¨e* tilov qaytanı.

**angemessen** *adj.* münasib, uyğun, əlverişli, tənasüblü, bab; *~er Preis* münasib qiymət.

**Angemessenheit,** *die; -* münasiblik, uyğunluq, tənasüb, düşüm, yaraşıq.

**angenehm** *adj.* xoş, xoşagələn, rahat, ürəyəyatan, cantəzələyən, canasinər; *F* ədəlli-bədəlli; *adv.* xoşagəlimli; *~e Ruhe!* yaxşı gecə *(yax*şı *rahatlıq)* arzu edirəm!

**angenommen** *adj.* **1.** *(hypothetisch)* fərz, fərzən; *F* deyək ki; *~, dass...* tutaq ki, fərz edək ki; deyək ki, yaxşı! ; **2.** *(adoptiert)* qəbul olunmuş; *~es Kind* övladlıq.

**Anger,** *der; -s, -* çəmənlik, otlaq.

**angeregt** *adj.(Gespräch usw.)* canlı; həyəcanlı;**2.** *adv. ~ durch -in* həyəcanı ilə.

**angerissen** *adj. (Packung)* açılmış, istifadə etməyə hazır olmuş.

**angesäuselt** *adj.* kefli, sərxoş.

**angeschimmelt** *adj.* bir az kiflənmiş.

**angeschlagen** *adj.* zəifləmiş, üzülmüş.

**angeschmutzt** *adj.* bir az çirklənmiş.

**Angeschuldigte,** *der u. die; -n,-n ein ~r; e-e ~* təqsirkar, müqəssir, cavab verən.

**angesehen** *adj.* hörmətli, adlı-sanlı; etibarlı; *~er Geaschäftsmann* etibarlı tacir; *F* dədəli-nənəli, ehtiram sahibi; heybətli, samballı; *schlecht ~* pis şöhrətli.

**Angesicht,** *das; -(e)s, -e(r)* **1.** üz, sifət; görünüş; *von ~ zu ~* üz-üzə; *von ~ kennen* üzdən tanımaq;*im ~ des Gottes* Tanrı hüzurunda.

**angesichts** *präp. G* ...görə, göz qarşısında; *~ der drohenden Gefahr* təhlükəyə görə; *~ dieses Umstandes* bu vəziyyətə görə, belə şəraitdə.

**angespannt** *adj.***1.***(heikel)* çətin, gərgin; **2.** *(sehr Aufmerksam)* diqqətli.

**angestammt** *adj.* irsi, fitri, atadan-anadan qalmış; ənənəvi; yerli.

**angestaubt** *adj.* tozlanmış; *fig.* dəbdən düşmüş.

**Angestellte,** *der u. die; -n, -n ein ~r; e-e ~;* qulluqçu, işçi, məmur.

**angestrengt** *adj.* yorucu, üzücü, çətin; zəhmətli; çox gərgin; var güc ilə.

**angetan** **1.** *von j-m ~ sein* bir kəsin heyranı olmaq, bir kəsi bəyənmək; **2.** *danach (dazu) ~ sein -ə* uyğun olmaq.

**angetrunken** *adj.* kefli, sərxoş*; F* dəmli; *in ~em Zustand* kefli vəziyyətdə.

**angewandt** *adj.* tətbiq edilmiş, tətbiqi, təcrübi, əməli; *~e Wissenschaften* təcrübi *(tətbiqi)* elmlər.

**angewiesen** *: ~ sein auf A -ə* möhtac olmaq, bağlı olmaq, *-dən* asılı olmaq; *fig. auf j-n ~ sein* kiməsə möhtac olmaq.

**angewöhnen** *vt* alışdırmaq, adət vermək, öyrətmək; *sich (D) ~* nəyəsə alışmaq, nəyəsə adət etmək.

**Angewohnheit,** *die; -, -en* adət; damar, xasiyyət; *aus ~* adət üzrə; *sie hat e-e schlechte ~* bu arvadın pis bir damarı *(adəti, xasiyyəti)* var.

**angewurzelt** *adj.: wie ~* möhkəm, mıxlanmış kimi; *stehe nicht da wie ~!* mıxlanıb orada durma *(qalma, dayanma)*!*;* *vor Furcht wie ~ stehenbleiben* qorxudan donub yerində qalmaq.

**angezeigt** *adj.* **1.** *(angemessen)* münasib; **2.** *(ratsam)* ağıllı.

**Angina,** *die; -, nen med.* angina *(Süd. : anjin)* , boğazağrısı.

**angleichen** *vt* bərabərləşdirmək, özünə oxşatmaq; *(D, an A/-ə); einander ~* birbirinə oxşatmaq; *vr sich ~* bənzəmək, bənzər hala gəlmək, uyğunlaşmaq, oxşamaq.

**Angleichung,** *die; -, -en* bərabərləşdirmə, oxşarlıq, assimilyasiya, asimilasyon, tətbiq, uyğunlaşma, intibaq.

**Angler,** *der; -s, -* balıq tutan *(tilovla).*

**angliedern** *vt* qoşmaq, birləşdirmək, ilhaq etmək *(D, an A/-ə).*

**Angliederung,** *die; -, -en* tərkibə daxil etmə *(edilmə),* qoşulma.

**Anglist,** *der; -en, -en* ingilis dili və ədəbiyyatı ustadı.

**Anglistik,** *die; -* ingilis dili və ədəbiy-

yatı.

**anglophil** *adj.* İngiltərə tərəfdarı, ingilis dostu, anqlofil.

**anglotzen** *vt* gözlərini bərəltmək.

**angreifbar** *adj.* müdafiəsiz; *fig.* dişbatan.

**angreifen** *vt* **1.** hücum etmək, təcavüz etmək; **2.** *(berühren)* əl vurmaq, toxunmaq; **3.** *(unternehmen) e-e Sache ~* bir işə başlamaq, bir işə təşəbbüs etmək; **4.** *(Krankheit)* üzmək, taqətdən salmaq; **5.** *(Nerven)* pozmaq; *j-n öffentlich ~* hamının qabağında tənqid etmək *(kimisə),* ictimaiyyət arasında tənqid etmək *(kimisə).*

**Angreifer,** *der; -s, -* basqıçı, hücum edən; aqressor.

**angrenzen** *vi* sınırlanmaq, həmsərhəd olmaq, həmhüdud olmaq.

**angrenzend** *adj.* qonşu, sınırdaş.

**Angriff,** *der; -(e)s, -e* **1.** hücum, həmlə, basqı*(n);* **2.** *(Unternehmung)* başlama, girişmə; *in ~ nehmen* işə girişmək, işə başlamaq.

**angriffsbereit** *adj.* hücuma hazır.

**Angriffskrieg,** *der; -(e)s, -e* hərbi təcavüz.

**Angriffsziel,** *das; -(e)s, -e* hücum hədəfi.

**angrinsen** *vt* hırıldamaq, dişlərini ağartmaq.

**Angst,** *die; -, ¨-e* qorxu, hürkü, ürkü, hövl, bak, dəhşət, xof; *~ haben (vor D -dən)* qorxmaq; *vor ~* qorxudan; *j-m ~ machen (einjagen), j-n in ~ versetzen* bir kəsi qorxutmaq, lərzəyə salmaq, içinə qorxu salmaq, hürkütmək; *um j-n ~ haben* nigaran olmaq, qorxmaq *(kimdən ötrüsə); F es mit der ~ (zu tun) bekommen* qorxmağa başlamaq, ürəyinə xof salmaq, qorxuya düşmək.

**Angstgefühl,** *das; -(e)s, -e* qorxu hissi.

**Angsthase,** *der; -n, -n F* qorxaq, ağciyər, öddək.

**ängstigen** *vt* qorxutmaq; *vr sich ~* **1.** qorxmaq; *sich zu Tode ~* qorxudan ölmək; **2.** *sich um j-n ~* kimdən ötrüsə qorxmaq *(təşvişə düşmək).*

**ängstlich** *adj.* **1.** qorxaq, ürəksiz, cürətsiz, dovşan ürəkli; qorxaqcasına; **2.** *(schüchtern)* utancaq, çəkingən; **3.** *(besorgt)* nigaran, təşvişli; *adv.* çəkinə-çəkinə.

**Ängstlichkeit,** *die; -, -en* qorxaqlıq; utancaqlıq, çəkingənlik.

**Angstmacher,** *der; -s, -* qorxu yaradan, hayküyçü.

**angstvoll** *adj.* qorxmuş, hürkmüş.

**angucken** *vt F -ə* baxmaq.

**angurten** *vt s. anschnallen.*

**anhaben** *vt (Kleidung)* əynində olmaq, geyimli olmaq; *neues Kleid ~* təzə paltar geymək; *j-m et. ~ können* kiməsə zərər vura bilmək; *das Gewitter kann uns nichts ~* tufan bizə heç zərər vura bilməz.

**anhaften** *vi* yapışmaq, yapışıb üstündə qalmaq *(D/-ə).*

**anhaken** *vt* **1.** *(aufhängen)* çəngəldən asmaq, çəngəlləmək; **2.** *(anmerken)* işarə əlaməti qoymaq.

**Anhalt,** *der; -(e)s, -e (Stütze)* dayaq, istinad.

**anhalten** *vt* **1.** dayandırmaq, saxlamaq; *den Wagen ~* avtomobili dayandırmaq; *den Atem ~* nəfəsi saxlamaq; **2.** *(Flüchtling)* tutmaq, yaxalamaq; **3.** *(ermahnen) j-n zu et. ~* kimisə bir şeyə təşviq etmək; nəsihət vermək; *vi* 1. *(stehenbleiben)* dayanmaq, durmaq; 2. *(andauern)* qalmaq, sürmək, davam etmək; *der Regen wird anhalten* hava yağışlı qalacaq; *um ein Mädchen ~* elçi göndərmək, qız istəmək.

**anhaltend** *adj.* sürəkli, uzanan, uzunsürən; *~er Beifall* sürəkli alqışlar.

**Anhalter,** *der; -s, -* avtostopçu; *per ~ fahren* avtostop etmək, yolda özgə bir avtomobilə əl edib *(minib)* onunla bir yerə getmək.

**Anhaltspunkt,** *der; -(e)s, -e* **1.** əlamət; **2.** *(Beweis)* dəlil; **3.** *(Stütze)* istinad.

**anhand** *präp. G* ...vasitəsi ilə, ...köməyi ilə, görə.

**Anhang,** *der; -(e)s, -¨e* **1.** *(e-s Buches usw.)* əlavə; **2.***(Anhängerschaft)* tərəfdar-

lar; **3.** *nur sg.* dost, yol yoldaşı; *ohne ~* tək, kimsəsiz; ailəsiz.

**anhängen**[1] *vt* **1.** *(aufhängen)* asmaq; **2.** *(hinzufügen)* bağlamaq, əlavə etmək; **3.** *(Böses nachsagen)* quyruq qoşmaq, iftira yükləmək, eyib qoşmaq *(j-m et./ kiməsə bir şeyi).*

**anhängen**[2] *vi fig. j-m ~* bir kəsin tərəfdarı olmaq, *-ə* havadar çıxmaq.

**Anhänger,** *der; -s, -* **1.** *(Person)* tərəfdar, mürid, havadar; **2.** *(für Kleidungsstück)* paltarasan; **3.** *(bei Lastwagen)* qoşulan vaqon; **4.** *(Schmuckanhänger)* boyunluq; **5.** *(Schildchen)* etiket.

**Anhängerschaft,** *die; -* tərəfdarlar *pl.;* havadarlıq.

**anhängig** *adj. jur.* haqqında hələ qərar alınmamış, məhkəmədə baxılmalı.

**anhänglich** *adj.* sadiq, sədaqətli.

**Anhänglichkeit,** *die; -* bağlılıq, sadiqlik,vəfalılıq.

**Anhängsel,** *das; -s, -* **1.** üstəlik, əlavə; **2.** *(Person)* quyruq, quyruqbulayan.

**anhauchen** *vt* üfürmək; *fig.* danlamaq, məzəmmət etmək.

**anhauen** *vt fig.* istəmək, xahiş etmək; *j-n um 50 Euro ~* bir kəsdən 50 € *(borc)* istəmək.

**anhäufen** *vt* toplamaq, yığmaq, komalamaq; *(Getreide)* dəcləmək ; *vr sich ~* yığılmaq, üst-üstə yığılmaq.

**anheben** *vt* **1.** *(et. in die Höhe heben)* bir az yuxarı qaldırmaq, qavzamaq; **2.** *(Preise)* artırmaq; *vi (beginnen) poe.* başlamaq *(zu Inf./ -məyə, mağa).*

**Anhebung,** *die; -, -en* **1.** yuxarı qaldırma; **2.** artma, yüksəliş.

**anheften** *vt* bağlamaq, sırımaq, bərkitmək *(an A/-ə).*

**anheimelnd** *adj.* rahat; xoşagələn.

**anheimfallen** *vi (zufallen)* qisməti olmaq, payına düşmək, öhdəsinə düşmək; əlinə düşmək.

**anheimgeben** *vt* tapşırmaq, öhdəsinə buraxmaq.

**anheimstellen** *vt* öhdəsinə buraxmaq; ixtiyarına vermək *(j-m/kimsənin).*

**anheischig** *adv. sich ~ machen zu Inf.* öhdəsinə götürmək *(bir işi).*

**anheizen** *vt* **1.** *(Ofen usw.)* qızdırmaq, yandırmaq; **2.** *F* qızışdırmaq; canlandırmaq; *e-e Diskussion ~* mübahisəni qızışdırmaq.

**anheuern** *vt (Seefahrt)* gəmidə işləməyə hazır olmaq; *vi* muzdur işlətmək; işə götürmək.

**Anhieb,** *der;-(e)s : auf ~* bu saat, o dəqiqə, dərhal; ilk dəfədə, ilk təşəbbüsdə.

**anhimmeln** *vt -in* heyranı olmaq.

**Anhöhe,** *die; -, -n* təpə*(lik)*, yüksəklik, yoxuş.

**anhören** *vt* dinləmək, qulaq vermək; *j-n bis zu Ende ~* bir kəsin sözünü axırına qədər dinləmək; *es hört sich gut an* yaxşı səslənir, nəzərə yaxşı gəlir.

**Anhörung,** *die; -, -en jur.* dinləmə; dindir(il)mə.

**Anilin,** *das; -s Chem.* anilin.

**animalisch** *adj.* heyvani; *abw.* vəhşicə*(sinə)*, heyvancasına.

**animieren** *vt* təşviq etmək, həvəsləndirmək *(zu D/nəyəsə).*

**Animosität,** *die; -, -en* düşmən(çi)lik; nifrət, xoşu gəlməmə.

**ankämpfen** *vi* savaşmaq, mübarizə etmək *(gegen A/-in əleyhinə).*

**Ankauf,** *der; -(e)s, -¨e* alış, alma, tədarük, satınalma, bazarlıq.

**ankaufen** *vt* satın almaq, tədarük etmək.

**Ankaufspreis,** *der; -es, -e* alış qiyməti.

**Anker,** *der; -s, -* ləngər, lövbər; *~ werfen/ vor ~ gehen; sich vor ~ legen;* ləngər salmaq, *~ lichten* lövbəri qaldırmaq.

**anketten** *vt* zəncirləmək, bağlamaq.

**ankitten** *vt* zamaska ilə yapışdırmaq.

**Anklage,** *die; -, -n* ittiham; şikayət; təqsir; təqsirləndir(il)mə; *~ erheben* ittiham irəli sürmək, şikayət etmək, ittiham eləmək *(gegen A/ əleyhinə, wegen G/-ə görə).*

**Anklagebank,** *die; -, -¨e* müttəhimlər kürsüsü.

**anklagen** *vt* günahlandırmaq, təqsirləndirmək; *j-n des Diebstahles ~* kimisə oğurluqda təqsirləndirmək.

**anklagend** *adv.* şikayətlə, şikayətli.

**Ankläger,** *der; -s, -* ittihamçı, şıkayətçi, təqsirləndirən; *öffentlicher ~* ictimai ittihamçı, prokuror *(Süd. : dadistan).*

**Anklageschrift,** *die; -, -en* iddianamə; ərizə; ittiham aktı, ittiham hökmü.

**anklammern** *vt* bəndlə bərkitmək *(an A/ bir şeyə)*; *fig. sich ~* ilişmək, yapışmaq *(an A/bir şeyə, bir kəsə).*

**Anklang,** *der; -(e)s, -¨e* **1.** oxşarlıq, bənzərlik; səs uyğunluğu; **2.** *~ finden* rəğbətlə qarşılanmaq *(bei D/...tərəfindən).*

**ankleben** *vt* yapışdırmaq; *vi* yapışmaq.

**ankleiden** *vt* geydirmək, geyindirmək; *sich ~* geyinmək.

**Ankleideraum,** *der; -(e)s, -¨e* soyunma-geyinmə otağı, qarderob.

**anklingeln** *vt* zəng etmək, telefon etmək.

**anklingen** *vt* **1.** səs vermək; **2.** *(an et.)* xatırlatmaq.

**anklopfen** *vi* **1.***(Tür)* qapını döymək; **2.** *(bei j-m)* müraciət etmək, gedib görmək, baş çəkmək.

**anknabbern** *vt* gəmirmək.

**anknacksen** *vt* zədələmək, çatlatmaq.

**anknipsen** *vt* *das Licht ~* işığı yandırmaq.

**anknöpfen** *vt* düymələmək *(an A/-ə).*

**anknüpfen** *vt* **1.** *(anknoten)* bağlamag; düyünləmək; **2.** *(Verbindungen)* irtibat qurmaq; *e-e Beziehung ~* əlaqəyə girmək, tanışlıq etmək, tanışlıq yaratmaq; **3.** *(an ein Thema)* istinad etmək.

**Anknüpfung,** *die; -, -en* qoş(ul)ma.

**Anknüpfungspunkt,** *der; -(e)s, -e* amil, səbəb; irtibat nöqtəsi.

**anknurren** *vt (Hund) -ə* mırıldamaq.

**ankommen** *vi* **1.**gəlib-çatmaq, çatmaq; ermək, erişmək, irişmək, yetişmək; *wir sind rechtzeitig in Baku angekommen* biz vaxtında bakıya çatdıq; **2.** *(gut)* qəbul olunmaq, bəyənilmək; **3.***(abhängen von)* bağlı olmaq, asılı olmaq; *es kommt darauf an, ob...* şəraitdən asılıdır ki...; *darauf kommt es (eben) an!* iş elə ondadır ki!; *es kommt nur auf Sie an* məsələ yalnız sizə bağlıdır; *wenn es darauf ankommt* icab halında, lazım olursa; **4.** *(gegen)* rəqabət etmək; *gegen et. ~* bir işi həll etmək; *es auf A ~ lassen / darauf ~ lassen* *gördüyü işdən* qorxmamaq, nəticənin nə olduğunu gözləmək.

**Ankömmling,** *der; -s, -e* yeni gəlmiş adam, gəlmə *(adam).*

**ankoppeln** *vt (an A -ə)* bağlamaq, qoşmaq, birləşdirmək.

**ankotzen** *vt* qusmaq*; das kotzt mich an* bundan ürəyim bulanır, bundan zəhləm gedir.

**ankratzen** *vt* cızmaq, zədələmək.

**ankreiden** *vt* hesabına borc yaz(dır)maq; *fig. j-m et. ~* kimisə məzəmmət etmək *(wegen G/ bir şeyə görə).*

**ankreuzen** *vt* işarə qoymaq, əlamət qoymaq.

**ankünd(ig)en** *vt* əvvəlcədən xəbər vermək, duyuq salmaq; elan etmək; *vr sich ~ (kommendes Ereignis)* yaxınlaşmaq, gəlməyini bildirmək.

**Ankündigung,** *die; -, -en* xəbər vermə, elan etmə, xəbərdarlıq, bildiriş, elan.

**Ankunft,** *die; -, -¨e* gəlib çatma, daxil olma, gəliş, çatma, gəlmə; *~ und Abfahrt der Züge* qatarların gəlişi və yola düşməsi.

**ankuppeln** *vt* bağlamaq, qoşmaq *(et. an A/ bir şeyi bir şeyə).*

**ankurbeln** *vt* **1.** *(Motor usw.)* hərəkətə gətirmək, işə salmaq *(Süd. : a. həndil vurmaq);* **2.** *(Wirtschaft)* canlandırmaq.

**Ankurbelung,** *die; -, -en* canlandırma, təşviq; inkişaf.

**anlächeln** *vt* kiməsə gülümsəmək.

**anlachen** *vt* kiməsə baxıb gülmək; *vr sich j-n ~* bir kəs ilə tanış olmaq, bir kəs ilə məhəbbət əlaqəsi qurmaq.

**Anlage,** *die; -, -n* **1.** qurğu, təchizat; **2.** *(Fabrik)* təsisat, fabrik; **3.** *(Grünanlage)* bağça, park; **4.** *(Geldanlage)* pul *(yatırım)* qoyuluşu; **5.** *(Fähigkeit)* istedad, qabiliyyət; anadangəlmə; **6.** *(Neigung)* təmayül *(zu D/-ə)*; **7.** *(e-s Briefes usw.)* əlavə; *in der ~* əlavə olaraq.

**Anlageberater,** *der; -s, -* yatırım məs-

ləhətçisi, pul yatırma üçün məsləhətçi.

**anlangen** *vi (ankommen)* yetişmək, gəlib çatmaq, gəlib çıxmaq, gəlmək; *vt (betreffen)* aid olmaq, dəxli olmaq; *was mich anlangt, habe ich nichts dagegen* mənə gəlincə, bu işin əleyhinə *(bu işə qarşı)* deyiləm.

**Anlass,** *der; -es, -¨e.* **1.** vəsilə; **2.** *(Vorwand)* bəhanə; *veralt.* dəstaviz; təhrik; **3.** *(Gelegenheit)* fürsət; **4.** *(Grund)* səbəb, nədən, amil, münasibət, cəhət, bais, dəlil; *fig.* əsbab; *aus diesem ~* bu səbəbə *(dəlilə)* görə; *ohne jeden ~* heç bir səbəbi olmadan, heç-heçinə, haqsız yerə; *F* hələ-belə; *~ geben zu D nəyəsə* səbəb *(bais)* olmaq.

**anlassen** *vt* **1.** *(Kleidung)* əynindən çıxarmamaq; **2.** *(Hut)* götürməmək; **3.** *(Motor, Radio)* söndürməmək; **4.** *(in Gang setzen)* işə salmaq; *vr sich gut ~* işi yaxşı *(saz)* getmək.

**anlässlich** *präp. G* ...səbəbə görə; *-nə* görə, münasibətilə, səbəbindən; əsasən *~ s-s Jubiläums* yubileyi münasibətilə, yubileyinə görə.

**anlasten** *vt* boynuna atmaq, babalı başqasının boynuna yıxmaq *(j-m et. / bir kəsin üzərinə bir şeyi).*

**Anlauf,** *der; -(e)s, -¨e* **1.** *(Schwung)* yeyin qaçma, yüyürmə; *e-n ~ nehmen* sürət almaq, tov almaq; **2.***(Versuch)* təşəbbüs; *im ersten ~* ilk təşəbbüsdə.

**anlaufen** *vi* **1.**qaçmaq, *angelaufen kommen* qaça-qaça gəlmək; **2.** *(Motor)* işləmək; **3.** *(Glas),* tərləmək, buğlanmaq; **4.** *(Farbe verändern)* rəngi dəyişmək; *vt (Schiff)* yan almaq, sahilə çatmaq.

**Anlaufstelle,** *die; -, -n* ilk başvurulacaq yer, ilk başvurulan yer.

**Anlaut,** *der; -(e)s, -e gr.* əvvəldə gələn səs.

**anläuten** *vt* bir kəsə telefon etmək, zəng açmaq.

**anlegen** *vt* **1.** yanına qoymaq, dayamaq; *er legte die Leiter an die Wand* o, nərdivanı divara dayadı; **2.***(Fabrik usw.)* özül qoymaq, bünövrəsini qoymaq; **3.** *(Sammlung)* yığmaq, toplamaq;**4.** *(Geld)* qoymaq, yatırtmaq; **5.** *(Straße, Kanal)* çəkmək; **6.** *(Feuer)* od vurmaq, odlamaq; **7.** *(Gewehr)* nişanlamaq; **8.** *(Hund)* bağlamaq *(zəncirlə);* **9.** *(Säugling)* məmə vermək, əmizdirmək; **10.** *(Kleidung)* girmək; *vi Schiff :* yan almaq, sahilə çatmaq; *vr sich ~ (sich streiten)* baş-başa qoymaq, dava etmək.

**Anlegestelle,** *die; -, -n* körpü, gəminin yan aldığı yer, iskele.

**anlehnen** *vt* **1.** dayamaq, söykənmək, dirəmək, arxalanmaq *(an A/ bir şeyə)*; **2.** *(Tür, Fenster)* aralı örtmək; *vr sich ~* dayanmaq, dirənmək, söykənmək; istinad etmək *(an A/ bir şeyə).*

**Anlehnung,** *die; - : in ~ an -ə* dayanaraq, *-ə* arxalanaraq.

**Anleihe,** *die; -, -n* borc alma, borc; istiqraz; *e-e ~ aufnehmen* borc almaq *(bei D/-dən).*

**anleimen** *vt* yapışqanlamaq.

**anleiten** *vt* yol göstərmək, rəhbərlik etmək *(in/bei D, zu D/-də, da);*öyüd-nəsihət vermək.

**Anleitung,** *die; -, -en* rəhbərlik, yol göstərmə; təlimat.

**anlernen** *vt -ə* öyrətmək.

**anliefern** *vt* təhvil vermək, təslim etmək, göndərmək.

**anliegen** *vi* **1.** *(Kleider)* bədənə yaxşı yaraşmaq; kip oturmaq;**2.** *(erledigt werden müssen)* yerinə yetirilməli olmaq; *was liegt denn heute so an?* bu gün nə*(lər)* yerinə yetirilməlidir?

**Anliegen,** *das; -s* **1.** *(Wunsch)* arzu, istək, xahiş; minnət; **2.** *(Ziel)* hədəf, qayə; **3.** *(Grundstück)* daşınmaz əmlak.

**anliegend** *adj.* bitişik olan, qonşu, yanaşı; kip; *adv.* bununla bərabər, əlavə.

**Anlieger,** *der; -s, -* eyni küçədə oturan, eyni yerdə oturan, küçə sakini; *~ frei* küçə sakinlərinə azad *(avtomobillərin girişi üçün).*

**anlocken** *vt* cəlb etmək, cəzb etmək, tovlayıb gətirmək; iştahanı açmaq.

**anlöten** *vt* lehimləmək.

**anlügen** *vt -ə* yalan demək.

**Anmache,** *die; -* sataşma; söz atma.

**anmachen** *vt* **1.** *(befestigen)* bərkitmək, bağlamaq; aslamaq; **2.***(Licht, Gas)* yandırmaq; **3.** *(Feuer)* od qalamaq; **4.** *(Salat)* hazırlamaq; **5.** *(j-m sehr gefallen)* xoşuna gəlmək; *j-n ~ kiməsə* öcəşmək,sataşmaq, söz atmaq.

**anmahnen** *vt bir şeyi* xatırlatmaq, xəbərdar etmək, yadına salmaq.

**anmalen** *vt* boyamaq, rəngləmək; *sich ~ F* ənlik-kirşanla bəzənmək.

**Anmarsch,** *der; -e(s), -¨e* irəliləmə.

**anmarschieren** *vi* irəliləmək, hücüm etmək.

**anmaßen** *: sich (D) ~* **1.** haqsız yerə haqq iddia etmək; **2.** *(Rang, Amt)* qəsb etmək; **3.** *(et. zu tun)* ürəklənmək, cürətlənmək; *was maßt du dir an?* necə cürət edirsən?.

**anmaßend** *adj.* **1.** *(hochmütig)* mütəkəbbir, ağzıhavalı, ağzıyelli; **2.** *(selbstgefällig)* özünü bəyənən, özünü öyən; **3.** *(frech)* utanmaz, qudurğan.

**Anmaßung,** *die; -, -en* **1.** haqsız iddia, haqsız tələb; qəsb etmə, mənimsəmə; **2.** özünü öymə; **3.** utanmazlıq, əda.

**Anmeldeformular,** *das; -s, -e* qeydiyyat vərəqəsi.

**anmelden** *vt* bildirmək, xəbər vermək; *vr sich ~* yazılmaq, qeyd olunmaq, qeydiyyatdan keçmək.

**anmeldepflichtig** *adj.* iqamətini polisə bildirmə məcburluğu.

**Anmeldung,** *die; -, -en* **1.** elan, məlumat, bildiriş; **2.** *(Eintragung)* qeyd etdirmə, qeyd olunma, *ev dəftərinə* qeyd etmə; yazılma.

**anmerken** *vt* **1.** *(aufschreiben)* qeyd etmək; **2.** *(anstreichen)* altından xətt çəkmək, əlamət qoymaq; **3.** *j-m et. ~* üzündən anlamaq; *man merkt ihm s-e Unruhe deutlich an* narahatlığı bəllidir; *sich nichts ~ lassen* halını bəlli etməmək *(bildirməmək, görsətməmək).*

**Anmerkung,** *die; -, -en* **1.** *(schriftliche)* not, yaddaş; **2.** *(Fußnote)* sətiraltı qeyd.

**anmerkenswert** *adj.* diqqətəlayiq, fikir verməli.

**anmessen** *vt* ölçmək.

**anmieten** *vt* kirayə etmək.

**anmontieren** *vt* qurmaq, düzəltmək.

**anmotzen** *vt (beschimpfen)* söymək; deyinmək.

**Anmut,** *die; -* gözəllik, şirinlik, zəriflik, xoşagəlimlilik; qır, işvə.

**anmuten** *vt* təsir etməK*;..kimi* gəlmək; *es mutet mich an* bu xoşuma gəlir*; dieses Haus mutet mich heimatlich an* bu ev məndə vətən iyi oyadır *(mənə vətən kimi gəlir).*

**anmutig** *adj.*zərif, cazibəli, xoşagələn.

**annageln** *vt* mıxlamaq; *angenagelt* mıxlanmış.

**annagen** *vt* gəmirmək.

**annähen** *vt (an A -ə) bir şeyə* tikmək.

**annähern** *vt* yaxınlaşdırmaq; *vr sich ~ (D/nəyəsə)* yaxınlaşmaq, yanaşmaq.

**annähernd** *adj.* təqribi, təxmini; *adv.* təxminən, təqribən; *nicht ~* heç ... deyil, heç bir vəchlə.

**Annäherung,** *die; -, -en* yaxınlaşma; dostlaşma, yaxınlıq.

**Annäherungsversuch,** *der, -(e)s, -e* yaxınlaşma təşəbbüsü.

**Annahme,** *die; -, -n* **1.** *(Empfang)* təhvil alma, qəbul, qəbul etmə; **2.** *(~stelle)* təhvil alma yeri; **3.** *(Vermutung)* güman, ehtimalçılıq, sanma; **4.** *(Voraussetzung)* fərziyyə, hipotez; *in der ~, dass .. -diyini* güman edərək.

**Annahmeverweigerung,** *die; -, -en* ədəmi qəbul, qəbul etməmə.

**Annalen,** *die/Pl.* **1.** *(Jahresbericht)* salnamə; **2.** *(Geschichte)* tarix, təvarix.

**annehmbar** *adj.* əlverişli; ağlabatan, münasib; *für ~ halten* münasib görmək.

**annehmen** *vt* **1.** qəbul etmək, almaq; **2.** *(sich aneignen)* mənimsəmək; qavramaq; **3.** *(vermuten)* güman etmək, sanmaq, fərz etmək, ehtimal eləmək; **4.** *Vernunft ~* özünə *(ağıla)* gəlmək; **5.** *an Kindesstatt ~* övladlığa götürmək;*vr sich e-r Sache (od. Person) ~* 1. *(Sorgfalt verwenden auf)* qayğısına qalmaq *(kiminsə, nəyinsə);* 2. *(übernehmen)* üzərinə almaq *(bir işi); -ə* sahib çıxmaq; *angenommen, dass* ..fərz edək ki,.. deyək ki..;

*mit Dank ~* minnətlə qəbul etmək.

**Annehmlichkeit,** *die; -, -en* rahatlıq, qolaylıq, xoşluq, dad-damaq.

**annektieren** *vt* zorla birləşdirmək *(ələ keçirmək)*, zorla ilhaq etmək, zəbt etmək, torpaq tutmaq.

**Annexion,** *die; -, -en* ilhaq, zəbt etmə.

**Annonce,** *die; -, -n* elan, reklam; *e-e ~ aufgeben* qəzetə elan vermək.

**annoncieren** *vt* elan etmək.

**annullieren** *vt* ləğv etmək, fəsx etmək.

**Annullierung,** *die; -, -en* ləğv, fəsx.

**anöden** *vt* ürəyini sıxmaq, darıxdırmaq; *die Arbeit ödet mich an* iş ürəyimi sıxır, iş darıxdırır.

**anomal** *adj.*düzgün olmayan,anormal.

**Anomalie,** *die; -, -n* anormallıq.

**anonym** *adj.* adsız, imzasız; ünvansız; *~er Brief* imzasız məktub.

**Anonymität,** *die; -* adsızlıq.

**Anorak,** *der; -s, -s* anorak, su və külək keçirməyən idman gödəkçəsi.

**anordnen** *vt* **1.** *(befehlen)* əmr etmək, göstəriş vermək, dəstur vermək, fərman vermək; **2.** *(in best. Reihenfolge)* sıraya düzmək, yerbəyer etmək, sıralamaq; **3.** *(festsetzen)* təyin etmək; *~ lassen* sıraya düzdürmək.

**Anordnung,** *die; -, -en* **1.** *(Befehl)* əmr, göstəriş, sərəncam, fərman; **2.** sıra; *~ treffen* sərəncam vermək *(für A/üçün)* **3.** yerbəyer etmə; yerləş(dir)mə.

**anorganisch** *a* qeyri-üzvi, cansız.

**anormal** *adj.* qeyri-normal, anormal.

**anpacken** *vt* **1.** bir tərəfindən tutmaq; **2.** *(Arbeit, Problem)* işi görməyə başlamaq, məsələni həll etmək; **3.** *F (behandeln)* rəftar etmək, davranmaq; *mit ~* yardım etmək, köməyinə çatmaq.

**anpassen** *vt* **1.** uyğunlaş(dır)maq; **2.** *(Anzug)* yaraşdırmaq, əyninə ölçmək; *vr sich ~* uyğunlaşmaq; düşmək.

**Anpassung,** *die; -* uyğunlaşma; uyuşma *(an A/-ə).*

**anpassungsfähig** *adj.* uyğunlaşma qabiliyyəti olan, uyğunlaşa bilən.

**Anpassungsfähigkeit,** *die; -* uyğunlaşma qabiliyyəti.

**anpeilen** *vt* **1.** *(Sender)* dalğanın istiqamətini təyin etmək; **2.** *naut. , Flugw. (e-n Ort) -tərəfə* istiqamət almaq.

**anpeitschen** *vt* qırmanclamaq, qamçılamaq.

**anpfeifen** *vt* **1.** *(Sport)* oyunun başlanmasını fitlə *(düdüklə)* bildirmək; **2.** *(tadeln)* məzəmmət etmək, qınamaq.

**Anpfiff,** *der; -s, -e Sport* başlanmaq *(başlanış)* fiti; *fig. e-n ~ kriegen* danlanmaq, tənqid olmaq, qınanmaq.

**anpflanzen** *vt* əkmək, basdırmaq.

**Anpflanzung,** *die; -, -en* əkmə; *(Plantage)*zəmi,tarla;*(Baumschule)*meşə salma.

**anpinseln** *vt* fırça ilə rəngləmək.

**anpirschen** *vr* ehtiyatla yaxınlaşmaq.

**anpöbeln** *vt* sataşmaq, təhqir etmək.

**anpochen** *vt* döymək, taqqıldatmaq.

**Anprall,** *der; -(e)s, -e* zərbə,ağır təkan.

**anprallen** *vi* dəymək, çarpmaq, toqquşmaq *(an, gegen A/nəyəsə, nəiləsə)*; *an die Wand ~* divara dəymək.

**anprangern** *vt* biabır etmək, damğalamaq.

**Anprangerung,** *die; -, -en* damğalama, biabır etmə.

**anpreisen** *vt* çox tərifləmək,

**Anpreisung,** *die; -, -en* tərif, tövsiyə.

**Anprobe,** *die; -, -n* geyib baxma, əyninə ölçmə.

**anprobieren** *vt (Kleider)* geyib ölçmək.

**anpumpen** *vt F* borc istəmək *(j-n/ kimdənsə).*

**Anrainer,** *der; -s, -* qonşu, kənarında olan.

**Anrainerstaat,** *der; -(e)s, -en* qonşu ölkə *(dövlət).*

**anraten** *vt* məsləhət görmək, tövsiyə etmək *(j-m/bir kəsə); auf ~ des Arztes* həkimin tövsiyəsinə görə.

**Anratung,** *die; -* tövsiyə, məsləhət; *auf ~ G -in* məsləhətilə.

**anraunzen** *vt* üstünə qışqırmaq.

**anrechnen** *vt* **1.** hesaba almaq, hesablamaq; **2.** *(bewerten)* qiymətləndirmək, dəyər vermək; *das rechne ich ihm hoch an* onun bu işinə çox dəyər verirəm.

**Anrechnung,** *die; -, -en* hesaba alma, hesablama; *in ~ bringen* hesablamaq, hesaba almaq.

**Anrecht,** *das; -(e)s, -e* haqq, ixtiyar, hüquq *(auf A / nəyəsə);* iddia.

**Anrede,** *die; -, -n* müraciət, xitab.

**anreden** *vt* müraciət *(xitab)* etmək.

**anregen** *vt* **1.***(anspornen)* təşviq etmək, ürəkləndirmək; qıcıqlandırmaq; **2.** *(stimulierend wirken)* oyatmaq; **3.** *(beleben)* hərəkətə gətirmək, canlandırmaq; dirçəltmək; **4.** *(inspirieren)* ilham vermək; **5.** *(vorschlagen)* önəri vermək, təklif etmək; **6.** *Appetit ~* iştaha açmaq; *j-n zum Nachdenken ~* kimisə fikirləşməyə təşviq etmək.

**anregend** *adj.* həyəcanlandırıcı, maraqlı, cəlbedici, ürəkləndirici.

**Anregung,** *die; -, -en* **1.** təşviq, niyyət, təkan; təşəbbüs; həyəcanlanma; **2.** *(Vorschlag)* önəri, təklif; *auf s-e ~* onun təklifinə görə; *in ~ bringen* təklif etmək.

**anreichern** *vt* zənginləşdirmək; *vr sich ~* zənginləşmək, varlanmaq.

**Anreicherung,** *die; -, -en* zənginləşdirmə, varlı etmə, artırma.

**Anreise,** *die; -, -n* səfər; gəlib çatma.

**anreisen** *vi* -ə səfər etmək; gəlib çatmaq.

**anreißen** *vt* **1.** *(et. zu verbrauchen beginnen)* bağlamanı açmaq, cırıb açmaq; **2.** *(soziale Probleme usw.)* müzakirə etmək, haqqında danışmaq; *fig* bar-bar bağırıb müştəri cəlb etmək.

**Anreiz,** *der; -es, -e* təhrik, həvəsləndirmə; maraq, meyl.

**anreizen** *vt* **1.** *(anfeueren)* təhrik etmək, qızışdırmaq; **2.** *(locken)* həvəsləndirmək; **3.** *(stimulieren)* oyatmaq.

**anrempeln** *vt* -ə toxunmaq, *kiməsə* dəymək; yüyürərkən toxunmaq.

**anrennen** *vi* **1.** *(gegen den Feind usw.)* üstünə yürümək; **2.** qaça-qaça gəlmək, *angerannt kommen* qaça-qaça gəlmək; *F sich D an D ~* yüyürərkən nəyəsə toxunmaq.

**Anrichte,** *die; -, -n* bufet, servant.

**anrichten** *vt* **1.** *(Speisen)* hazırlamaq, süfrəyə qoymaq; *es ist angerichtet!* süfrə hazırdır! **2.** *(Schaden)* ziyan vurmaq, *bir şeyə* səbəb olmaq.

**Anriss,** *der; -es, -e* **1.** çat; **2.** eskiz.

**anrollen** *vt* diyirlətmək, gillətmək; *vi (Zug usw.)* hərəkət etmək.

**anrosten** *vi* bir az paslanmaq, bir az pas tutmaq.

**anrüchig** *adj.* adı pisə çıxmış, şübhəli; yaramaz.

**anrücken** *vi (nähern)* yaxınlaşmaq, irəliləmə.

**anrudern** *vt* kürək çəkərək bir yerə yaxınlaşmaq.

**Anruf,** *der; -(e)s, -e* **1.** səsləmə, çağırma, haylama; **2.** *(Telefonanruf)* telefon zəngi, telefon etmə, telefonla çağırış.

**anrufen** *vt* **1.** çağırmaq, səsləmək; **2.** *(Telefon)* telefon *(zəng)* etmək; **3.** *(Gott)* tanrıya yalvarmaq; **4.** *(Gericht)* müraciət etmək.

**Anrufer,** *der; -s, -* çağıran; telefon *(zəng)* edən.

**anrühren** *vt* **1.** *(anfassen) -ə* dəymək, -ə əl vurmaq; **2.** *(Eier)* çalxalamaq; **3.** *(Teig)* xəmiri yoğurmaq; **4.** *(Speise)* qarışdırmaq, hazırlamaq; *Essen nicht ~* yeməyə əl vurmamaq, yeməyi ağzına qoymamaq; **5.** *(Farbe)* əritmək; *fig.* təsir etmək; *das Lied rührte mich an* mahnı mənə çox təsir etdi.

**ans** (Präp+ Art.) *: an das : ans Meer reisen* dənizə getmək.

**Ansage,** *die; -, -n* bildiriş, elan.

**ansagen** *vt* bildirmək, xəbər vermək *(radio və s. ilə).*

**Ansager,** *der; -s, -* diktor, deyən.

**ansammeln** *vt* yığmaq, toplamaq, komalamaq;*vr sich ~* yığılmaq,toplanmaq.

**Ansammlung,** *die; -, -en* yığıncaq, toplantı; yığılma, yığıntı, komalaşma.

**ansässig** *adj.* oturaq, sakin; *~ sein* oturmaq, sakin olmaq, yurd salmaq.

**Ansässigkeit,** *die; -* oturaq həyat.

**Ansatz,** *der; -es, -¨e* **1.** *(Zusatz)* əlavə; üst, üstəlik; **2.** *(Beginn)* başlanğıc, ilk adım; **3.** *nur sg. mus.* çalma tərzi; oxuma tərzi; *e-n weichen ~ haben* nəfəsli

musiqi alətini yumşaq çalmaq *(dodaqlarla);* **4.** *(Bauchansatz)* qarın; **5.** *(Neigung, Anlage)* istedad, meyl; *im ~* lap başda, başlanğıcda, başlanğıcında.

**Ansatzpunkt,** *der; -(e)s, -e* başlanğıc nöqtəsi, hərəkət nöqtəsi.

**Ansatzstück,** *das; -(e)s, -e* əlavə hissə(si), əlavə parça*(sı).*

**ansaugen** *vt* əmmək, sormaq.

**anschaffen** *vt* almaq, əldə etmək; *ich habe mir ein Radio angeschafft* özümə bir radio aldım; *F ~ (gehen)* fahişəliklə pul qazanmaq.

**Anschaffung,** *die; -, -en* alış, alma, tədarük etmə.

**Anschaffungskosten,** *die/pl.* tədarüketmə xərci, alış *(alma)* xərci.

**anschalten** *vt (Licht, Radio)* yandırmaq.

**anschauen** *vt* *-ə* baxmaq; *sich (D) ~* diqqətlə baxmaq.

**anschaulich** *adj.* əyani, açıq, vazeh.

**Anschaulichkeit,** *die; -* aydınlıq, əyanilik, açıqlıq, sərahət.

**Anschauung,** *die; -, -en* görüş, baxış, fikir; *meiner ~ nach* mənə görə.

**Anschauungsweise,** *die; -, -n* düşünmə tərzi.

**Anschein,** *der; -(e)s* görünüş; *dem ~ nach* görünür ki; *sich den ~ geben, als ob..* özünü belə göstərmək ki, güya..

**anscheinend** *adv.* görünür *(ki),* yəqin *(ki),* ehtimal *(ki),* guya *(ki),* deyəsən.

**anscheißen** *vt F* aldatmaq.

**anschicken** *vr sich ~ zu Inf.* *bir işi* görməyə hazırlaşmaq, *-məyə* girişmək.

**anschieben** *vt (Auto usw.)* itələmək, hərəkətə gətirmək.

**anschießen** *vt* fişənglə yaralamaq; *vi angeschossen kommen* fişəng kimi gəlmək, ildırım kimi gəlmək.

**Anschlag,** *der; -(e)s, -¨e* **1.** vurma, zərbə; **2.** *(Plakat)* bildiriş, divar elanı, afişə; **3.***(Attentat)* sui-qəsd, qəsd; *e-n ~ auf j-n/ auf et. (A) verüben* *kiməsə/nəyəsə* qəsd *(təcavüz)* etmək; **4.** *im ~ (Gewehr)* nişana alma; **5.** *(Klavier)* səs vermə, səs çıxarma; *das Klavier hat keinen guten ~* piano yaxşı səs vermir; **6.** *(Haushaltsplan)* plan, gəlir-çıxar cədvəli; büdcə; **7.** *(Veranschlagung)*təxmin; **8.** *techn.* toxunma, dəymə; stop, durdurucu; *bis zum ~ aufdrehen!* axırına *(sonuna)* qədər açın!

**anschlagen** *vt* **1.** vurmaq, zərbə vurmaq; **2.** *(befestigen)* yapışdırmaq;**3.** *(mit Nägeln)* mıxlamaq; **4.** *(Gewehr)* nişana almaq; **5.** *(Fass)* dəlmək, açmaq; **6.** *(ertönen lassen)* dillərə vurub cingildətmək; **7.** *(anderen Ton)* ciddi danışmaq, danışmaq tərzini dəyişmək; **8.** *(et. beschädigen)* zədələmək; *vi* 1.*(bellen)* hürmək, hürməyə başlamaq; 2. *(Glocke)* cingildəmək; 3. *med.* təsir etmək; *die Arznei hat gut angeschlagen* dərman yaxşı təsir etdi; *angeschlagen* elan lövhəsinə asılmış; *fig.* yorğun; *ein Thema ~* bir mövzu haqda danışmaq; *den Ball ~* topu vurub oyuna başlamaq.

**anschlägig** *adj.* *(pfiffig)* mahir; bic.

**Anschlagsäule,** *die; -, -n* elan sütunu.

**Anschlagtafel,** *die -, -n* elan lövhəsi.

**anschleichen** *vr sich ~* yavaş-yavaş yaxınlaşmaq, sürünə-sürünə yaxınlaşmaq *(an A/bir şeyə).*

**anschleppen** *vt* sürüyüb çəkmək, sürümək.

**anschließen** *vt* bağlamaq *(an A/bir yerə, bir şeyə);*əlavə etmək; *vr sich ~ (D) (e-r Gruppe usw.)* qoşulmaq, şərik olmaq, birləşmək; *sich an j-n ~* bir kəs ilə dostluq qurmaq; *sich j-s Meinung ~* bir kəsin fikrinə qoşulmaq *(şərik olmaq); vi (von Kleidungsstücken)* oturmaq, kip olmaq; *der Kragen schließt eng am Hals an* yaxa boyuna dar *(kip)* gəlir.

**anschließend** *adv.* dalınca, ardınca, sonra, bundan sonra.

**Anschluss,** *der; -es, -¨e* **1.** birləşmə, qoşulma; **2.** *(Verbindung)* təmas, irtibat, əlaqə; **3.** *(Fahrplan)* uyğunlaşdır(ıl)ma *(qatarın cədvəlini);* **4.** *(e-r Leitung)* birləşdirmə, qoşma; *~ haben* birləşdirilmək *(telefonla);* **5.** *im ~ an A* -dan sonra, bilavasitə; **6.** *(Verbindung zu j-m)* tanışlıq, dostluq; *~ finden* tanışmaq, dostlaşmaq *(bei D/ ilə)*; *kein ~ unter die-*

*ser Nummer* bu nömrə heç yerlə birləşmir *(telefonda); den ~ verpassen* əldən vermək, əldən qaçırmaq *(qatar və s..).*

**anschmiegen** *vr sich ~* rahatcasına sıxılmaq; *an j-n* qılığına girmək *(kimsənin),* qısılmaq *(kiməsə).*

**anschmiegsam** *adj.* nazlı, lətif.

**anschmieren** *vt F (übers Ohr hauen)* aldatmaq.

**anschnallen** *vt* bağlamaq; *vr sich ~ (im Auto usw.)* əmniyyət kəmərini bağlamaq.

**Anschnallgurt,** *der; -e(s), -e* əmniyyət kəməri, təhlükəsizlik kəməri.

**anschnauzen** *vt F* danlamaq.

**anschneiden** *vt* **1.** *(Brot usw.)* kəsmək; **2.** *(Ball, Kurve)* kəsmək; **3.** *(Thema, Frage)* məsələyə toxunmaq, ortaya qoymaq, müzakirəyə qoymaq.

**anschrauben** *vt* vintlə *(Süd. : piç ilə)* bağlamaq.

**anschreiben** *vt* **1.** *(auf e-r Tafel usw.)* üstünə yazmaq; **2.** *(Schuld)* hesabına yaz(dır)maq; **3.** *(j-n)* bir kəsə məktub yaz-maq; *gut (schlecht) angeschrieben sein (bei j-m)* bir kəsin yanında özünü yaxşı *(pis)* göstərmək.

**anschreien** *vt* üstünə qışqırmaq, çımxırmaq, çəmkirmək, dalamaq.

**Anschrift,** *die; -, -en* ünvan, adres.

**Anschriftenliste,** *die; -, -n* ünvan siyahısı, adres listi.

**anschuldigen** *vt* ittiham etmək; təqsirləndirmək, suçlamaq.

**Anschuldigung,** *die; -, -en* günahlandırma, ittiham; cürm.

**anschüren** *vt a. fig.* təhrik etmək, qızışdırmaq.

**anschwärzen** *vt* **1.** qaralamaq, qara rəngə boyamaq; **2.** *fig.* böhtan atmaq, ləkələmək, qara yaxmaq, şər atmaq.

**anschweißen** *vt* qaynaq vermək.

**anschwellen** *vi* **1.** şişmək, köpmək, qabarmaq; **2.** *(sich vermehren)* çoxalmaq, artmaq; **3.** *med.* şişmək; *die Hand ist angeschwollen* əl şişibdir.

**anschwemmen** *vt* sahilə atmaq, axıntı ilə gətirmək; *der Fluss schwemmt Sand an* çay qum gətirir.

**anschwindeln** *vt* aldatmaq, kələk gəlmək.

**ansehen** *vt* **1.** *kiməsə, nəyəsə* baxmaq, tamaşa etmək; *j-n groß ~* bir kəsə təəccüblə baxmaq; *die Sache von der schlimmsten Seite ~* bir şeyə ən pis tərəfindən baxmaq; *über die Schulter ~* xor baxmaq; **2.** *(auffassen)* anlamaq; **3.** *(ertragen)* dözmək, səbr etmək; **4.** *j-m et. ~* kimdəsə bir şeyi hiss etmək; *man sieht es (= das Alter) Ihnen nicht an* yaşınız göstərmir *(yaxşı qalmısınız);* **5.** *(sich D ~ )* yoxlamaq, araşdırmaq; **6.** *(halten für/als)* oxşatmaq, zənn etmək, güman etmək ; **7.** *et. mit ~* bir şeyin şahidi olmaq; *sieh mal e-r an*! bir buna bax!, işimizə bax!; *vr sich e-e Stadt ~* bir şəhəri gəzib dolanmaq, bir şəhərə baxmaq.

**Ansehen,** *das; -s* **1.** *(Betrachten)* baxma, gözdən keçirmə; **2.** *(äußerer Eindruck)* zahir, görkəm, görünüş; **3.** *(Geltung)* hörmət, etibar*(lılıq);* nüfuz; cah; *ohne ~* etibarsız; *~ genießen* hörmət görmək, sözü keçmək, hörməti olmaq, nüfuza malik olmaq; *~ verlieren* etibardan düşmək, gözdən düşmək, nəzərdən düşmək, nüfuzdan düşmək, hörmətdən düşmək; *vom ~ kennen* üz(ün)dən tanımaq; *ohne ~ der Person* şəxsiyyətə *(kim olduğuna)* baxmadan.

**ansehnlich** *adj.* **1.** *(beachtlich)* görkəmli, adlı-sanlı; **2.** *(beträchtlich)* böyük, iri, əhəmiyyətli; **3.** *(gut aussehend)* gözəl.

**anseilen** *vt* iplə bağlamaq.

**ansetzen** *vt* **1.** *(et. an et. D/A ~)* yanaşdırmaq; taxmaq; *das Glas ~* stəkanı ağıza aparmaq *(dayamaq); das Messer ~* bıçağı dayamaq; **2.***(Pinsel usw.)* işlətməyə başlamaq; **3.** *(Termin, Zeitpunkt, Preis))* təyin etmək, müəyyən etmək; **4.** *(Fett)* piy bağlamaq; *F* kökəlmək; **5.** *(Getränk)* hazırlamaq; **6.** *(Knospen)* cücərmək, tumurcuqlanmaq; **7.** *(j-n auf j-n)* güdmək üçün təyin etmək; *vi* 1. *(zu D, zu Inf.) -məyə, -mağa* hazırlaşmaq, *-məyə, mağa* başlamaq; 2. *(mit*

*et.)* başlamaq, etmək; *vr sich ~ (Staub)* oturmaq, yatmaq; *(Rost)* pas atmaq; *(Fett , Kalk)* dib bağlamaq, yapışmaq.

**Ansicht,** *die; -, -en* **1.** mənzərə, görünüş, panorama; **2.** *(Anschauung))* baxış; **3.** *(Meinung)* fikir, baxış, nöqteyi-nəzər, əqidə; *meiner ~ nach* fikrimcə, mənim görüşümə görə;**4.***(Überzeugung)* inam; *ich bin der ~, dass..* mən bu fikirdəyəm ki..; *anderer ~ sein* başqa baxışı olmaq *(über A/nə haqdasa); pl.* əqayid.

**ansichtig** *adj.* : *~ werden (G)* görmək, təşxis vermək *(nəyisə)*.

**Ansichtskarte,** *die; -, -n* mənzərə kartı *(Süd. : kartpostal)*.

**Ansichtsache,** *die; -, -n : das ist ~* bu baxış *(görüş)* məsələsidir.

**ansiedeln** *vt* yerləşdirmək, köçürüb yerləşdirmək; *vr sich ~* yerləşmək, köçüb yerləşmək.

**Ansied(e)lung,** *die; -, -en* **1.** köç(dür)mə, yerləşmə; **2.** *(Ort)* yaşayış məntəqəsi, qəsəbə, koloniya *(Süd. : koloni)*.

**Ansiedler,** *der; -s, -* köçkün, gəlmə, mühacir, kolonist.

**Ansinnen,** *das; -s, -* yolverilməz tələb.

**ansonsten** *adv.* **1.** *(andernfalls)* yoxsa, əks təqdirdə; **2.** *(im Übrigen)* ancaq, ondan başqa, daha.

**anspannen** *vt* **1.** *(Pferd)* qoşmaq *(an A/ -a, -ə)*; **2.***(Seil, Muskel usw.)*dartmaq; *fig. (Kräfte)* bir yerə yığmaq *(toplamaq)*.

**Anspannung,** *die; -, -en* gərginləş(dir)mə, gərginlik, həyəcan; güc; topla(n)ma.

**anspeien** *vt* üstünə tüpürmək.

**anspielen** *vt* **1.** *(Spiel)* oynamağa başlamaq; **2.** *(Musikinstrument)* çalmağa başlamaq; **3.** *(Sport) j-n ~* bir kəsə *(oyunçuya)* topu atmaq; *vi fig.* işarə etmək, söz atmaq *(auf A/nəyəsə); er spielte auf den Vorfall von gestern an* o, dünənki hadisəyə işarə etdi.

**Anspielung,** *die; -, -en* **1.** işarə, eyham; **2.** *(boshaft)* kinayə; *das ist e-e ~ auf dich* bu sənə işarədir.

**anspitzen** *vt* **1.** itiləmək; **2.** *(Bleistift) usw.)* yonmaq, qəddəmək; *F (j-n)* təhrik etmək, qızışdırmaq.

**Ansporn,** *der; -(e)s* təşviq, təhrik; tələsdirmə.

**anspornen** *vt* **1.** *(Pferd)* mahmızlamaq; bizləmək;**2.** *fig.*təşviq etmək, həvəsləndirmək, şirnikdirmək; tələsdirmək.

**Ansprache,** *die; -, -n* nitq, çıxış; müraciət; *e-e ~ halten* nitqlə müraciət etmək.

**ansprechen** *vt* **1.** danışmağa başlamaq, xitab etmək; **2.** müraciət etmək, xahiş etmək *(j-n. um A/ bir kəsdən nəyisə; auf A/bir şey haqqında)*; **3.** *(gefallen)* xoşuna gəlmək, ürəyinə yatmaq; **4.** *(beurteilen als)* hesab etmək; **5.** *(reagieren)* yaxşı tə`sir buraxmaq, *(yaxşı)* nəticə almaq.

**ansprechend** *adj.* xoşa gələn, cazibəli, cazibədar.

**Ansprechpartner,** *der; -s, -* söz söylənilən *(şəxs)*, müxatəb, xitab olunan.

**anspringen** *vi (Motor)* işləmək; *vt -in* üstünə atılmaq.

**anspritzen** *vt -ə* su səpmək, çiləmək, sıçratmaq.

**Anspruch,** *der; -(e)s, -¨e* **1.** *(Recht, Berechtigung)* hüquq, haqq, ixtiyar, həqq *(auf A/ nəyəsə)*; **2.** *(Forderung)* istək, tələb, iddia; *e-n ~ erheben* iddia etmək, sahib çıxmaq, istəmək *(auf A/ bir şeyi)*; *~ haben* haqqı olmaq *(auf A/ nəyəyə)*; *in ~ nehmen vt* 1. *(Zeit)* almaq; 2. *(beschäftigen)* məşğul etmək; *allen Ansprüchen gerecht werden* tam haqqları ədalətlə yerinə yetirmək; *er stellt große Ansprüche* o, böyük iddialar irəli sürür.

**anspruchslos** *adj.* **1.** iddiasız, təvazökar, alçaqkönüllü, gözütox; **2.** *(schlicht)* sadə.

**Anspruchlosigkeit,** *die; -* alçaqkönüllülüq, təvazökarlıq, iddiasızlıq, gözütoxluq.

**anspruchsvoll** *adj.* **1.** tələbkar, iddialı; **2.** *(wählerisch)* çətin bəyənən.

**anspucken** *vt -ə* tüpürmək.

**anstacheln** *vt fig.* qızışdırmaq, təhrik etmək *(zu D/nəyəsə)*.

**Anstalt,** *die; -, -en* **1.** müəssisə, idarə, quruluş, qurum; **2.** *(Schule)* məktəb,

mədrəsə, oxul; **3.** *(Heilanstalt)* müalicəxana, senatoryum; **4.** *(Irrenanstalt)* dəlixana, ruhi xəstəliklər xəstəxanası; *j-n in e-e ~ einweisen* bir kəsi ruhi xəstəliklər xəstəxanasına göndərmək; **5.** *mst. pl. ~en (Vorkehrungen)* hazırlıq, tədbir; *~ treffen (machen)* hazırlıq görmək, tədarük görmək *(zu Inf./ -mək üçün).*

**Anstalten,** *die/pl. (Vorkehrungen)* tədbirlər, hazırlıq; *ohne ~* heç bir hazırlıq görmədən*; ~ machen zu gehen* getməyə hazırlaşmaq.

**Anstand,** *der; -(e)s (gutes Benehmen)* mərfət, iffət; ədəb, tərbiyə; ləyaqət.

**anständig** *adj.* **1.** *(schicklich)* münasib, uyğun; **2.** *(ehrenhaft)* vicdanlı, namuslu; **3.** *(vom guten Benehmen)* ədəbli, tərbiyəli, mərfətli, xoşgörkəm; **4.** *(ordentlich)* məqul, adamyana; təmizkar;dədəli-nənəli; **5.** *F (recht viel)* yaxşı, çox; *er verdient ~es Geld* o yaxşı *(*çox)pul qazanır.

**Anständigkeit,** *die; -* **1.** namus, şərəf, ar-namus; **2.** ədəb, tərbiyə, nəzakət, mərfət, təmizkarlıq; adamlıq.

**anstandshalber** *adv.* hörmət əlaməti olaraq, ədəb xatirinə.

**anstandslos** *adv.* sözsüz, rahatcasına.

**anstarren** *vt* gözlərini zilləyib *(bərəldib)* baxmaq,gözlərini bir yerə dirəmək.

**anstatt** *G präp.* əvəzin(d)ə, yerinə; *~ des Hutes habe ich e-e Brille gekauft* börkün yerinə gözlük aldım; *~ zu Inf., ~ dass* *-mək* əvəzinə, *~ sich zu freuen, wurde er traurig* sevinmək əvəzinə kədərləndi; *konj. (an Stelle von)* -yerinə, -əvəzinə; *ich trinke Kaffee ~ Tee* çay əvəzinə qəhvə içirəm.

**anstauen** *vt (Wasser)* bənd ilə qabağını almaq*; vr sich ~* yığılmaq; toplanmaq; bənd olmaq.

**anstaunen** *vt* *-ə* təəccüblə baxmaq.

**anstechen** *vt (Fass)* çəlləyi dəlmək.

**anstecken** *vt* **1.** *(anheften)* sancaqlamaq, sancmaq; **2.** *(anzünden)* yandırmaq; **3.** *med.* yoluxdurmaq, sirayət etdirmək; **4.** *(Ring)* taxmaq; *sich ~* xəstəlik tutmaq; *angesteckt werden (durch A, von D/ kimdənsə)* xəstəliyə tutulmaq; *Schnupfen steckt an* zökəm yoluxucudur.

**ansteckend** *adj. med.* yoluxdurucu, yoluxucu, sirayətedici; *die ~e Krankheit* yoluxucu xəstəlik .

**Ansteckung,** *die; -, -en med.* keçmə, yoluxdurma, sirayət.

**Ansteckungsgefahr,** *die; -, -en* yoluxdurma təhlükəsi, sirayət etmə xətəri.

**anstehen** *vi* **1.** *(Schlange stehen)* növbədə durmaq; **2.** *(dauern)* davam etmək; **3.** *(nicht ~ zu)* gecikdirməmək, təxirə salmamaq; **4.** *j-m ~* layiq olmaq, yaraşmaq; *ein solches Verhalten steht ihm an* belə hərəkət ona yaraşır; **5.** *(noch nicht beglichen sein)* ödənilməmiş qalmaq; **6.** *(festlegen)* təyin etmək; *der Termin steht für den 20. Dezember an* termin dekabrın 20-ə təyin olub; *et. ~ lassen* bir şeyi gecikdirmək.

**ansteigen** *vi* **1.** yuxarı çıxmaq, qalxmaq; yüksəlmək; **2.** *(Wasserstand usw.)* artmaq, çoxalmaq; **3.** *(Preise)* artmaq.

**Ansteigen,** *das; -s* artma, qalxma, yüksəlmə, artım.

**anstelle** *präp. G ~ von* *-in* yerinə, əvəzin(d)ə.

**anstellen** *vt* **1.** *(anlehnen)* dayamaq, söykəmək *(an A/-a, -ə)*; **2.***(Personal)* işə götürmək, məşğul etmək; **3.** *(Radio usw.)* açmaq;**4.** *(Versuch usw.)* aparmaq, etmək; **5.** *(et.)* etmək; *vr sich ~* 1. *~ als ob* hiylə etmək, riyakarlıq etmək, özünü tülkülüyə vurmaq; *du stellst dich so an, als ob...* özünü elə göstərirsən ki, sanki..*;* 2. *(sich ein-, anreihen)* növbədə durmaq, səfdə durmaq; 3. *(sich benehmen)* rəftar etmək, davranmaq; *was hast du da wieder angestellt?* yenə nə iş açmısan?; *stell dich nicht so an!* ədabazlıq etmə!, nazlanma!; *angestellt sein* qulluq etmək, işləmək, qulluq göstərmək *(bei D/ bri yer-də).*

**anstellig** *adj.* bacarıqlı, hünərli.

**Anstellung,** *die; -, -en* **1.** *(Amt, Stelle)* iş, məmuriyyət, vəzifə, məşğuliyyət; **2.** *nur sg. (Einstellung in den Dienst)* qulluğa götürmə; *e-e ~ finden* bir iş tapmaq .

**ansteuern** *vt* bir hədəfə doğru istiqa-

mət vermək *(almaq)*.

**Anstich,** *der; -(e)s, -e (e-s Fasses)* boçkanın *(çəlləyin)* dəlinməsi.

**Anstieg,** *der; -(e)s, -e* **1.** *nur sg. (Steigung)* yoxuş; **2.** *(Zunahme)* artma, çoxalma, yüksəliş, üstələmə.

**anstieren** *vt* öküz kimi baxmaq; gözlərini zilləyib *(bərəldib)* baxmaq.

**anstiften** *vt* **1.** *(Veranlassung sein)* səbəb olmaq, bais olmaq; **2.** təhrik etmək, qızışdırmaq, vuruşdurmaq; sövq etmək *(j-n zu D/bir kəsi bir işə)*.

**Anstifter,** *der; -s, -* təhrikçi, araqızışdıran, qızışdırıcı, səbəbkar, bais *(şəxs)*, yoldan çıxaran, araqarışdıran.

**anstimmen** *vt* **1.** *(Lied)* oxumağa başlamaq; **2.***(Geschrei)* səs-küy qaldırmaq.

**Anstoß,** *der; -es, -¨e* **1.** *(Fußball)* birinci zərbə *(vuruş)*, başlama; **2.** *(Anlass)* səbəb, nədən; təkan *(zu D/-ə)*; **3.** *(Ärgernis)* ovqattəlxlik, hirs, acıq; *bei j-m ~ erregen* kimsənin narazılığına səbəb olmaq; küskünlüyə səbəb olmaq; *den ~ geben* səbəb olmaq *(zu D/ -ə)*.

**anstoßen** *vi* **1.** toqquşmaq *(an A/nə iləsə)*, dəymək; **2.** *(mit der Zunge)* kəkələmək; dili dolaşmaq;**3.***(angrenzen)*yanaşdırmaq; **4.** *(mit den Gläsern) auf j-s Wohl ~* kiminsə sağlığına içmək;**5.***(verärgern)* hirsləndirmək; *vt* 1. zərbə vurmaq; 2. *(j-n)* itələmək; *angestoßen* zədələnmiş.

**anstößig** *adj.* ədəbsiz, yaramaz, nalayiq, ayıb.

**anstrahlen** *vt* **1.** *(Gebäude)* işıqlandırmaq, işıq salmaq; **2.** *(Person)* kiməsə sevinclə baxmaq.

**anstreben** *vt* çalışmaq, can atmaq, çaba göstərmək, səy etmək.

**anstreichen** *vt* **1.** *(mit Farbe)* boyamaq, rəngləmək; **2.** *(Fehler usw.)* altından xətt çəkmək; **4.***(Streichholz)* yandırmaq; **5.** *(heimzahlen)* əvəzini çıxmaq, acısını çıx(ar)maq.

**Anstreicher,** *der; -s, -* boyaçı.

**anstrengen** *vt* **1.** *(ermüden)* yormaq; **2.** *(Prozeß)* məhkəməyə vermək, iddia irəli sürmək; *vr sich ~* əlləşmək, çalışmaq, canqoymaq, canatmaq, çabalamaq, cidd-cəhd etmək, güc vurmaq, özünü dağ-daşa vurmaq; hıqqanmaq.

**anstrengend** *adj.* yorucu, əziyyətli, zəhmətli, üzücü.

**Anstrengung,** *die; -, -en* **1.** *(Strapaze)* gərginlik, əzab; **2.** çaba, zəhmət, səy, cəhd, cidd-cəhd, can yandırma, qeyrət; *große ~* güc-bəla.

**Anstrich,** *der; -s, -e* **1.** boya(ma), rəng*(ləmə)*; **2.** *fig. (Aussehen, Anschein)* görünüş.

**Anstricken** *vt* üzərinə toxumaq, toxuyub uzatmaq *(mil ilə)*.

**Ansturm,** *der; -(e)s, -¨e* hücum, həmlə, saldırma; *(Andrang)* basabas, axın.

**anstürmen** *vi* hücum etmək, həmlə etmək *(gegen A/ -ə)*.

**ansuchen** *vt* xahiş etmək, tələb etmək, istəmək; *bei j-m um et. ~* kimsədən bir şeyi xahiş etmək.

**Ansuchen,** *das; -s, -* xahiş, ərizə.

**Antagonismus,** *der; -, Antagonismen* barışmaz ziddiyət, düşmənçilik.

**antagonistisch** *adj.* qarşı, antaqonist.

**antanzen** *vt* gəlmək, gəlib hazır olmaq; *~ kommen* gəlib rahatsız etmək, vaxtsız gəlmək.

**Antarktis** *die; -* Güney qütbun bölgəsi, Antarktika.

**antasten** *vt* **1.** əl vurmaq; **2.** *fig.* toxunmaq, hüquqa təcavüz etmək, əl uzatmaq.

**Anteil,** *der; -s, -e* **1.** *(zustehender)* pay, hissə, dang *(an D/-də)*; **2.** *(Teilnahme)* iştirak etmə *(an D/də)*; **3.** *(Interesse)* rəğbət, əlaqə *(an D/-də)*; **4.** *(Anteil + G)* hissə, ; *~ nehmen (an)* 1. iştirak etmək, şərik olmaq; 2. rəğbəti olmaq.

**anteilig** *adv.* payına görə, mütənasib.

**Anteilnahme,** *die; -* **1.** *(bei e-m Todesfall)* başsağlığı, dərdə şərikolma; *s-e ~ ausdrücken* başsağlığı vermək; **2.** *(Interesse)* iştirak, rəğbət.

**Anteilschein,** *der; -(e)s, -e* hissə sənədi, iştirak sənədi.

**Antenne,** *die; -, -n* antena, anten.

**Antennenmast,** *der; -(e)s, -en* anten*(a)* dirəyi.

**Anthologie,** *die; -, -n* antologiya *(Süd. : antoloji),* müxtəlif müəlliflərin seçilmiş şerlər məcmuəsi.

**Anthrazit,** *der; -(e)s, -e* antrasit kömürü.

**Anthropologe,** *der, -n, -n* antropoloq.

**Anthropologie,** *die; -, -* antropologiya, *(Süd. : antropoloji),* insan və onun inkişafından bəhs edən elm, insanbilimi.

**anti-** zidd, rəqib, əks, əleyh.

**Antialkoholiker,** *der; -s, -* içki xoşlamayan adam.

**antiautoritär** *adj.* mutləqiyyətin əleyhinə olan, mütləqiyyətə zidd.

**Antibabypille,** *die; -, -n* boyluluğa *(hamiləliyə)* qarşı dərman.

**Antibiotikum,** *das; -s, Antibiotika* antibiotik.

**Antifaschismus,** *der; -, -* antifaşizm.

**antifaschistisch** *adj.* antifaşist.

**antik** *adj.* qədim, antik, ətiqə.

**Antike,** *die; -* **1.** qədim dünya, qədim dünya mədəniyyəti; **2.** *mst. -. –n pl.* qədimdənqalma şeylər *pl.*

**Antikörper,** *der; -s, - biol.* qanın müdafiə maddəsi, antikor.

**Antilope,** *die; -, -n zo.* Antilop.

**Antimilitarismus,** *der, -* militarizmə qarşı, militarizm əleyhinə hərəkət.

**Antipathie,** *die; -, -n* xoşa gəlməmə, nifrət hissi, antipati*(ya).*

**antippen** *vt* **1.** toxunmaq, barmaqla dəymək; *j-n an der Schulter ~* barmaqla çiyninə vurmaq; **2.** *fig. (heikles Thema)* ehtiyatla haqqında danışmaq, *-ə* işarə etmək.

**Antiquar,** *der; -s, -e* qədim şeylərin alverçisi, işlədilmiş şeyləri satan.

**Antiquariat** *das; -(e)s, -e* **1.** *nur sg.* qədimdən qalma kitabların alveri;**2.***(Buchhandlung)* köhnə kitabların mağazası.

**antiquarisch** *adj. (Buch)* əski, qədim; az tapılan.

**Antiquität,** *die; -, -en* qədim şey, qədimdən qalma şey, əntiq*(ə).*

**Antiquitätenhändler,** *der; -s, -* qədim *(antik)* şeylərin alverçisi, əntiqəçi.

**Antiquitätenschmuggel,** *der; -s* qədimdən qalma şeylərin qaçağı.

**Antisemit,** *der; -en, -en* yəhudi düşməni, antisemit.

**Antisemitismus,** *der; -* yəhudi düşmənçiliyi, antisemitizm.

**Antiseptikum,** *das; -s, -ka med.* mikrobu öldürücü maddə, antiseptika.

**antiseptisch** *adj.* antiseptik.

**Antiterroreinheit,** *die; -, -en* antiterror dəstəsi *(bölməsi).*

**Antithese,** *die; -, -n* antitez, əks tez.

**Antivirusprogramm,** *das; -s, -e EDV* antivirus proqramı.

**Anlitz,** *das; -es, -e* üz, sima, sifət.

**Antonym,** *das; -s, -e (Gegenwort)* antonim, əks söz; *das ~ zu „groß“ ist „klein“;* "böyük" "kiçik"in antonimidir.

**Antrag,** *der; -(e)s, -¨e* **1.** *(Gesuch)* xahiş, ərizə, tələb, diləkçə; **2.** *(Vorschlag)* təklif, önəri; *e-n ~ stellen auf ..* ... üçün ərizə vermək.

**Antragsformular,** *das; -(e)s, -e* ərizə blankı, ərizə vərəqi.

**Antragsteller,** *der; -s, -* ərizəçi, diləkçə sahibi.

**antreffen** *vt -ə* rast gəlmək, *-i* görmək.

**antreiben** *vt* **1.** hərəkətə gətirmək; **2.** *(Tier)* qovmaq, qovub gətirmək; **3.** *(et. zu tun)* tələsdirmək, sıxışdırmaq; təşviq etmək; **4.** *(ans Ufer)* sahilə atmaq.

**antreten** *vt* **1.** *-ə* başlamaq, *-ə* təşəbbüs göstərmək; girişmək; **2.***(Reise)* yola düşmək; **3.** *(Beweis)* dəlil gətirmək; **4.** *(e-e Erbschaft)* vərəsəlik hüququnu almaq; **5.** *(Arbeit, Stelle)* işə başlamaq, xidmətə başlamaq; **6.** *(Sport)* yarışa çıxış etmək *(gegen j-n/kiminsə əleyhinə);* **7.** *(Fahrzeug)* işə salmaq; **8.***(Erde, Sand)* təpiklə bərkitmək; *vi* 1. *mil. (sich aufstellen)* sıraya düzülmək, səfə düzülmək; 2. *(zum Angriff)* hücuma keçmək.

**Antrieb** *der; -(e)s, -e* **1.** *(Anreiz)* təşviq, meyl; **2.** *(Impulse)* təkan; **3.** *(treibende Kraft)* mühərrik; **4.** *techn.* ötürücü; hərəkət qüvvəsi; *aus eigenem ~* könüllü, öz istəyi ilə; öz təşəbbüsü ilə.

**Antriebskraft,** *die; -, -¨e* dartıcı qüvvə.

**Antriebsscheibe,** *die;-, -n* ötürücü çarx.

**antrinken** *vt* **1.** içmək, içməyə başlamaq; **2.** *sich (D) Mut ~* cəsarətlənmək üçün içki içmək; **3.** *sich (D) e-n Rausch ~* bilə-bilə içmək *(sərxoş olmaq).*

**Antritt** *der; -(e)s* **1.** *(Beginn)* başlanğıc, başlama;**2.** *(e-s Amtes)* girmə, giriş; **3.** *(e-r Reise)* səfərə çıxma, yola düşmə; *bei ~ s-r Reise* səfərə çıxarkən; **4.** *(Erbschaft)* vərəsəlik hüququnu alma, mirasa sahib olma.

**Antrittsbesuch,** *der; -(e)s, -e* ilk rəsmi görüş *(qulluğa başlayandan sonra).*

**Antrittsvorlesung,** *die; -, -en* giriş mühazirə*(si).*

**antun** *vt* səbəb olmaq, etmək *(j-m/ kiməsə)*; *Böses ~* pislik etmək, azar vermək, dinmək; *unser Hund tut keinem etw. an!* bizim it heç kimə dinməz! *Ehre ~* hörmət etmək; *Gewalt ~* zorlamaq, məcbur etmək *(j-m/ kimisə); sich et. ~* canına qəsd etmək, öz başına bəla gətirmək;*es j-m ~* kimisə heyran etmək.

**Antwort,** *die; -, -en* cavab; *auf e-e Frage ~ geben* bir suala cavab vermək; *auf e-n Ruf ~ geben* səsə səs vermək.

**antworten** *vt u. vi* cavab vermək *(j-m, auf A/ bir kəsə, bir şeyə);* hay vermək; *er antwortete auf mein Rufen* səsimə hay verdi.

**Antwortschreiben,** *das; -s, -* cavab yazmaq.

**Anus,** *der, -, Ani;* dal, anus dəliyi.

**anvertrauen** *vt* **1.** tapşırmaq *(j-m et. / bir kəsə bir şeyi);* **2.** *(Geheimnis)* birinə sirrini demək; *vr sich j-m ~* kiməsə ürəyini *(sirrini, dərdini..)* boşaltmaq; *j-m et. ~* amanat *(əmanət)* qoymaq, əmanətə tapşırmaq, Allah əmanətinə vermək.

**Anverwandte,** *der u. die; -n, -n* qohum.

**anvisieren** *vt* **1.** *(mit e-m Gewehr) -i* nişana almaq, nişana götürmək; **2.** *(et. Anstreben) -ə* can atmaq, çaba göstərmək, *-ə* səy etmək, *-ə* çalışmaq.

**anwachsen** *vi* **1.** *(fest mit et. verwachsen)* bitişmək; **2.** *(sich vermehren)* artmaq, çoxalmaq; **3.** *(Würzel schlagen)* kök salmaq; **4.** *(größer werden)* böyümək.

**Anwachsen,** *das; -s* artma, çoxalma.

**anwählen** *vt* telefonda *(lazım olan)* nömrəni yığmaq.

**Anwalt,** *der; -(e)s, -¨e* vəkil, müdafiəçi, advokat.

**Anwaltschaft,** *die; -* **1.** vəkillik, advokatlıq; **2.** vəkillər hey´əti *(idarəsi).*

**Anwaltskammer,** *die; -, -n* vəkillər birliyi *(palatası).*

**Anwaltskanzelei,** *die; -, -en* vəkil dəftərxanası.

**Anwaltskosten,** *die/pl.* advokat xərci.

**anwandeln** *vt* bürümək, tutmaq; *Furcht wandelte mich an* məni dəhşət bürüdü.

**Anwandlung,** *die; -, -en* həvəs, kefi gəlmə; tutma*; in e-r ~ von Großzügigkeit, schenkte er ihr e-e teuere Uhr* əliaçıqlıq həvəsindən ona bir bahalı saat bağışladı.

**anwärmen** *vt* bir az qızdırmaq.

**Anwärter,** *der; -s, -* aday, namizəd *(auf A/ -ə).*

**Anwartschaft,** *die; -, -en* namizədlik.

**anweisen** *vt* **1.** *(beauftragen)* tapşırmaq, əmr etmək, sərəncam vermək *(zu Inf.)*; **2.** *(anleiten)* göstərmək, öyrətmək; **3.** *(Überweisen)* pul göndərmək, həvalə etmək; **4.** *(zuteilen)* ayırmaq, təyin etmək; **5.** *angewiesen sein auf A* bir şeyə və ya bir kəsə möhtac olmaq.

**Anweisung,** *die; -, -en* **1.** *(Befehl)* göstəriş, əmr; **2.** *(Geldanweisung)* pul göndərmə, həvalə etmə; pul baratı; **3.** *(Rat)* tövsiyə; sərəncam; **4.** *(Gebrauchsanweisung)* istifadə etmək üçün göstəriş; **5.** *(zuteilen)* ayırmaq; *auf ~ G -in* əmrinə görə; *nach ~ G -in* tövsiyəsinə görə.

**anwendbar** *adj.* tətbiq edilə bilən, kara gələn.

**anwenden** *vt* istifadə etmək, işlətmək, tətbiq etmək; *angewandt* tətbiqi*; falsch ~* yanlış istifadə etmək .

**Anwendung,** *die; -, -en* **1.** *(Gebrauch)* işlətmə, istifadə etmə; **2.** tətbiq etmə; *zur ~ bringen vt* tətbiq etmək, uyğunlaşdırmaq; *~ von Gewalt* zor işlətmə.

**anwerben** *vt* üzv və ya işçi qüvvəsi cəlb etmək, işə almaq, *-ə* cəlb etmək.

**Anwerbung,** *die; -, -en* işə alma.

**anwerfen** *vt* **1.** *(Motor)* işlətmək; **2.** *(Ball-sport)* oyuna başlamaq, topu atmaq.

**Anwesen,** *das; -s, -* mülk, əmlak.

**anwesend** *adj.* olan, hazır, mövcud olan; *die ~en pl.* hüzzar, iştirak edənlər, iştirakçılar.

**Anwesenheit,** *die -* iştirak, hazır olma, olma; *in ~ (von)* iştirakı ilə.

**Anwesenheitsliste,** *die; -, -n* iştirak edənlərin *(iştirakçıların)* siyahısı; qeyd etdirmə vərəqəsi.

**anwidern** *vt* nifrət oyatmaq, diskindirmək; *angewidert sein von D* bir şeydən iyrənmək, diskinmək, ürəyi bulanmaq.

**anwinkeln** *vt* əymək, qatlamaq.

**Anwohner,** *der; -s, -* qonşu; birküçəli.

**Anwuchs,** *der; -es, -¨e* artma, çoxalma.

**Anwurf,** *der; -(e)s, -¨e* **1.** *(Verleumdung)* iftira, böhtan; **2.** *(Sport)* topu atma.

**anwurzeln** *vi* kök salmaq; *fig. wie angewurzelt* yerində bitib qalmış kimi.

**Anzahl,** *die -* say, ədəd, miqdar; *große ~* çoxlu; *geringe ~* bir neçə.

**anzahlen** *vt* beh *(bey)* vermək; məbləğin birinci hissəsini vermək.

**Anzahlung,** *die; -, -en* beh, bey, qabaqcadan verilən pul, hissəsini vermə.

**anzapfen** *vt* **1.** *(Fass)* dəlmək, dəlib açmaq; **2.** *(Strom, Wasser usw.)* qaçaq işlətmək; **3.** *(j-n)* bir kəsdən hiylə yolu ilə pul almaq; **4.** *(Telefon)* birisinin telefonuna gizli qulaq vermək.

**Anzeichen,** *das; -s, -* əlamət, nişanə.

**Anzeige,** *die; -, -n* **1.** *(Inserat)* bildiriş, elan, xəbər, elam; *Heiratsanzeige* evlənmə elanı; **2.** *jur.* cəza vərəqəsi; şikayət; *e-e ~ bei der Polizei machen* polisə şikayət etmək.

**anzeigen** *vt* **1.** *(zeigen)* göstərmək; **2.** *(mitteilen)* bildirmək; **3.** *(bei der Polizei)* şikayət etmək, xəbər vermək; *e-n Dieb bei der Polizei ~* oğrunu polisə xəbər vermək; **4.** *(bes. in e-r Zeitung)* elan *(bildiriş)* vermək, elan eləmək.

**Anzeigenblatt,** *das; -(e)s, -¨er* elan qəzeti.

**Anzeigedienst,** *der; -(e)s, -e* elan servisi.

**Anzeiger,** *der; -s, -* **1.** *(Zeiger)* dərəcə, göstərici, indikator; **2.** *(Zeitungstitel)* qəzet adı.

**Anzeigetafel,** *die; -, -n* elan lövhəsi.

**anzetteln** *vt fig.* səbəb olmaq, qəsdən törətmək, gizlicə hazırlamaq; *e-e Verschwörung ~* sui-qəsd hazırlamaq; *e-n Streit ~* davaya səbəb olmaq.

**Anzettelung,** *die; -, -en* təhrik, hiylə, pis niyyət.

**anziehen** *vt* **1.** *(Kleidung)* geymək; *sich ein Hemd ~* köynək geymək; *Kleider ~* paltar geymək; *j-m et. ~* geydirmək; *e-m Kind die Strümpfe ~* uşağa corab geydirmək; **2.** *(Zügel usw.)* çəkmək; *die Beine ~* ayaqları qaldırmaq *(çəkmək)*; **3.** *(Magnet)* çəkmək; **4.** *(Aufmerksamkeit)* cəlb etmək; **5.** *(Schraube)* bərkitmək; *vi (Preise)* artmaq; *sich ~* geyinmək; *sich (D) et. ~* geymək, əyninə geymək; *F sich gut ~* əyninə baxmaq; *sich ~ (Preise)* qalxmaq.

**anziehend** *adj.* cəzb edən, çəkən, cəlb edən, ürəyəyatan, xoşagəlimli.

**Anziehung,** *die; -* çəkmə; cazibə, cəlb.

**Anziehungskraft,** *die; -, -¨e (der Erde)* cazibə *(çəkmə)* qüvvəsi, çəkim; *fig.* cazibəlik, cəlb etmə, rəğbətlilik.

**Anzug,** *der; -(e)s, -¨e* **1.** geyim, kostyum, libas; **2.** *(Kraft; Beschleunigung)* güc; sürət; **3.** *(kommen)* yaxınlaşma; *oh weh, die Schwiegermutter ist im ~!* vay-vay qaynana gəlir!; **4.** *(Schach)* ilk hərəkət; *aus dem ~ hüpfen/springen* çox hirslənmək, acıqlanmaq.

**anzüglich** *adj.* kinayəli; acı, iynəli.

**Anzüglichkeit,** *die; -, -en* **1.** *(Spott)* istehza, ələ salma, məsxərə; **2.** *(Anspielung)* kinayə, işarə, eyham.

**Anzünder,** *der; -s, - techn.* çaxmaq.

**anzünden** *vt* yandırmaq, alışdırmaq; *ein Streichholz ~* kibriti yandırmaq.

**anzweifeln** *vi -dən* şübhələnmək.

**anzwinkern** *vt* göz vurmaq, göz qırpmaq *(j-n/bir kəsə)*.

**Aorta,** *die; -, Aorten med.* aorta, şahdamar.

**apart** *adj. (anziehend)*göyçək, cazibəli; *ein ~es Gesicht* göyçək üz; apart (otel).

**Apartheid,** *die; -* aparteid, irqı ayri-seçkilik, rasizm.

**Apartheidpolitik,** *die; -* aparteid siyasəti.

**Apartment,** *das; -s, -s* apartament, ev.

**Apathie,** *die; -* apati, etinasızlıq, laqeydlik, qayğısızlıq, hissizlik.

**apathisch** *adj.* qayğısız, laqeyd, sust.

**Aperitif,** *der; -s, -s* aperitif, iştaha açan alkoqollu içki.

**Apfel,** *der; -s, -¨* alma; *in den saueren ~ beißen* məcburiyyət qarşısında bir işi görmək.

**Apfelbaum,** *der; -(e)s, -¨e* alma ağacı.

**Apfelmus,** *das; -es* alma pürəsi.

**äpfeln** *vt (Pferd)* qığlamaq.

**Apfelsaft,** *der; -(e)s, -¨e* alma şirəsi *(Süd. : alma suyu).*

**Apfelsine,** *die; -, -n* portağal.

**Aphorismus,** *der; -, Aphorismen* aforizm, qısa və dərin mənalı ifadə, kəlmeyi-qisar.

**Apokalypse,** *die -* **1.** *rel.* Apokalips; qiyamət *(günü);* **2.** *fig.* dəhşət, fəlakət.

**apokalyptisch** *adj.* dəhşətli, fəlakət gətirən.

**apokryph** *adj.* saxta, süni.

**apolitisch** *adj.* siyasətə maraq göstərməyən.

**Apoll, Apollo, Apollon,** *der; -s, -s myth.* şer və musiqi Tanrısı.

**Apostasie,** *die; -, -n* dinin ziddinə getmə, irtidad.

**Apostel,** *der; -s, -* **1.** *rel.* İsa peyğəmbərin ilk tərəfdarları, həvari; **2.** *fig.* qızğın tərəfkeş *(tərəfdar);* mütəəssib.

**Apostroph,** *der; -s, -e* apostrof, kəsmə əlaməti (').

**apostrophieren** *vt* apostrof qoymaq, kəsmə əlamətini (') qoymaq.

**Apotheke,** *die; -, -n* davaxana, aptek, əczaxana.

**Apotheker,** *der; -s, -* davaxanaçı, davaçı, əczaxanaçı, aptekçi, əczaçı.

**Apparat,** *der; -(e)s, -e* **1.** cihaz, alət; aparat; **2.** *(Fernsehapparat)* televizor; **3.** *(Rasierapparat)* üzqırxma maşını; *am ~!* telefonda danışan mənən! *am ~ bleiben* telefon xəttində qalmaq *(gözləmək).*

**Appartement,** *das; -s, -s* ev, mənzil apartament.

**Appell,** *der; -s, -e* **1.** çağırış, müraciət, müraciətnamə; *e-n ~ an (A) richten* çağırış vermək, istinaf eləmək; **2.** *mil.* yoxlama, sıraya düzmək.

**Appellation,** *die; -, -en jur.* apellasiya, istinaf, çağırış.

**Appellationsgericht,** *das; -(e)s, -e* istinaf məhkəməsi, apellasiya məhkəməsi.

**appellieren** *vt* **1.** çağırmaq; müraciətnamə göndərmək *(an A/-ə),* müraciət etmək; **2.** *jur.* istinaf etmək.

**Appendix,** *der; -es, -e u. Appendizes* **1.** *(Anhang)* əlavə, zəmimə; **2.** *med.* korbağırsaq.

**Appetit,** *der; -(e)s* iştah(a); *guten ~!* nuş olsun, afiyət olsun!; *~ haben* həvəsi olmaq, iştahası olmaq *(auf A/-ə).*

**appetitanregend** *adj.* iştahagətirən, iştahaaçan, iştahaaçıcı, acıqdırıcı.

**appetitlich** *adj.* iştahalı; *fig.* cəlbedici, nəfis.

**appetitlos** *adj.* iştahasız.

**Appetitlosigkeit,** *die; -* iştahasızlıq.

**Appetitzügler;** *der; -s, -* iştaha küsdürən.

**applaudieren** *vt* əlçalmaq, alqışlamaq *(j-m/-i).*

**Applaus,** *der; -es, -e* alqışlama, əlçalma, alqışlar *pl.* .

**Apport,** *der; -s, -e (Hund)* gedib şikar olmuş heyvanı gətirmə.

**apportieren** *vt (Hund)* şikar olmuş heyvanı ovçuya gətirmək.

**Apposition,** *die; -, -en gr.* əlavə.

**appretieren** *vt* pardaqlamaq.

**appretiert** *adj.* pardaqlı.

**Appretur,** *die; -, -en* pardaq.

**Approbation,** *die; -, -en* dövlət tərəfindən praktikaya buraxılma *(həkim və davaxanaçılar).*

**approbiert,** *adj.* icazəli, dövlət tərəfindən praktikaya *(işləməyə)* buraxılmış.

**Aprikose,** *die; -, -n* ərik, qaysı.
**April,** *der; -s* aprel; *in den ~ schicken vt* zarafat edərək aldatmaq *(1. apreldə).*
**Aprilscherz,** *der; -es, -e* aprel zarafatı.
**Aprilwetter,** *das; -s* dəyişilən hava.
**apropos** *adv.* yeri gəlmişkən, vaxtı gəlmişkən.
**Aquarell,** *das; -s, -e* su boyası, akvarel.
**Aquarellfarbe,** *die; -, -n* su boyası.
**Aquarium,** *das; -s, Aquarien* akvarium, balıqlar evi.
**Äquator,** *der; -s* ekvator, xətti üstüva.
**äquivalent** *adj.* eyniqiymətli; ekvivalent, ekvivalentlik.
**Äquivalent,** *das; -(e)s, -e* müvafiq, uyğun olan, bədəl, əvəz.
**Ar,** *das; -s, -e (Flächenmaß)* ar = 100 $m^2$, yüz kvadrat metr.
**Ära,** *die; -, Ären* era, dövr.
**Araber,** *der; -s, -* **1.**ərəb; **2.***(Pferd)* ərəb atı.
**Araberhengst,** *der; -(e)s, -e* ərəb atı.
**Araberin,** *die; -, -nen* ərəb *(qadını).*
**Arabeske,** *die; -, -n (heiteres Musikstück)* şad musiqi, arabesk.
**arabisch** *adj.* ərəb; ərəbcə.
**Aralsee,** *der; -s* aral dənizi.
**Arbeit,** *die; -, -en* **1.** *(Tätigkeit)* iş, peşə; məşğuliyyət; **2.** *(geleistete)* əmək; **3.** *(Werk)* əsər; **4.** *(Mühe)* zəhmət; **5.***(Schularbeit)* tapşırıq; dərs; *an die ~!* iş başına!; *die ~ aufnehmen* işə başlamaq; *die ~ einstellen* işi dayandırmaq, tətil etmək; *zur gehen/fahren* işə getmək; *geistige ~* zehni iş; *ehrenamtliche ~* ictimaifaydalı iş *(əmək)*; *wissenschaftliche ~* elmi iş; *während der Arbeit* işarası.
**arbeiten** *vi* **1.**işləmək, zəhmət çəkmək *(an D/nəyinsə üzərində); an sich ~* öz üzərində işləmək, öz qabiliyyətini yaxşılaşdırmaq; məşğul olmaq; **2.** *(Maschine)* işləmək; **3.** *(Kapital)* faiz gətirmək; *~ lassen* işlətmək; *F wie ein Esel ~* eşşək kimi işləmək.
**Arbeiter,** *der; -s, -* işçi, fəhlə, əmələ; *ungelernter ~* qara fəhlə.
**Arbeiterin,** *die; -, -nen* işçi, fəhlə *(qadın).*
**Arbeiterbewegung,** *die; -, -en* fəhlə hərəkatı.
**Arbeitergewerkschaft,** *die; -, -en* fəhlə həmkarlar ittifaqı, fəhlə sindikası.
**Arbeiterklasse,** *die; -* fəhlə sinfi.
**Arbeiterschaft,** *die; -* fəhlələr, fəhlə sinfi.
**Axt,** *die; -, -¨e* balta; çapacaq.

**Az.** *= Abk. für Aktenzeichen.*

**Azur,** *der; -s* mavi rəng,açıq göy rəng.

**azurblau** *adj.* mavi,açıq-göy rəngində.

# B

**B, b,** *; das; -* **1.** Alman əlifbasının ikinci hərfi; **2.** *mus.* si-bemol.

**babbeln** *vi* **1.** kəkələmək; **2.** boş-boş danışmaq, sarsaxlamaq, gəvəzələmək, çərənləmək.

**Baby,** *das; -s, -s* körpə, südəmər uşaq, bəbə.

**Babyausstattung,** *die; -, -en* körpə uşaq üçün təchizat *(yorğan-döşək və s.).*

**Babylon;** *-s* babilistan.

**Babylonier,** *der; -s, -* babilistanlı.

**Babynahrung,** *die; -* körpə uşaq üçün yemək.

**Babysitter,** *der; -s, -* dayə, uşağa baxan, ata-anası evdə olmayan uşağa nəzarət edən.

**Bach,** *der; -(e)s, -¨e* kiçik çay, qanov, arx, çeşmə; *fig. den ~ runtergehen* məhv olmaq, yavaş-yavaş yox olmaq.

**Backbord,** *das; -(e)s, -e* gəminin sol yanı, bakbort.

**Bäckchen,** *das; -s, -* yanaq *(uşaqlarda).*

**Backe,** *die; -, -n* **1.** yanaq; **2.** *(Kinnbacke)* çənə, ord; **3.** *techn.* məngənə; **4.** *(Hinterteil beim Pferd)* sağrı.

**backen** *vt* **1.** *(Brot)* bişirmək; **2.** *(in e-r Pfanne)* qızartmaq; *vi* bişmək; qızarmaq.

**Backenzahn,** *der; -(e)s, -¨e* azı dişi, azı.

**Bäcker,** *der; -s, -* çörəkçi, çörəkbişirən.

**Bäckerei,** *die; -, -en* çörəkxana, çörək dükanı.

**Bäckermeister,** *der; -s, -* çörəkçi.

**Backfisch,** *der; -(e)s, -e* **1.** qızardılmış balıq; **2.** *fig.* yeniyetmə qız, cavan qız.

**Backform,** *die; -, -en* şirniyyat qəlibi.

**Backgammon,** *das; -(s)-* taxta oyunu.

**Backhefe,** *die; -, -n* maya, xəmir mayası.

**Backobst,** *das; -(e)s* sobada bişirilmiş meyvə.

**Backofen,** *der; -s, -¨* çörək sobası; təndir.

**Backpflaume,** *die; -, -n* sobada bişirilmiş gavalı.

**Backpulver,** *das; -s, -* xəmir mayası.

**Backstein,** *der; -e(s), -e* bişmiş kərpic.

**Backstube,** *die; -, -n* təndirxana, çörək bişirilən yer.

**Backwaren,** *die/pl.* xəmir məmulatları, xəmirdən bişirilən şeylər *(şirniyyat, çörək və s.)*; peçenye.

**Bad,** *das; -(e)s, -¨er* **1.** hamam; *ein ~ nehmen* vanna qəbul etmək *(Süd. : hamama getmək)*; **2.** *(Heilbad)* müalicə suları; **3.** *(im Freien)* plyaj *(Süd. : plaj).*

**Badeanstalt,** *die; -, -en* hamam, ümumi hamam; çimmək yeri.

**Badeanzug,** *der; -(e)s, ¨-e* çimərlik dəsti, çimmək paltarı, geyçim.

**Badehose,** *die; -, -n* çimərlik şortu, geyçim.

**Bademeister,** *der; -s, -* hamamçı, hamama və ya çimmək hovuzuna nəzarət eden.

**baden** *vi* **1.** hamamda yuyunmaq; **2.** *(im Freien)* çimmək, üzmək, dənizə getmək; *vt* çimdirmək; *fig. in Schweiß gebadet sein* tər içində olmaq; *damit kannst du baden gehen F* bu işdən müsbət nəticə ala bilməzsən.

**Badeort,** *der; -s, -e* **1.** plyaj *(Süd. : plaj)*, çimərlik; **2.** *(Kurbad)* kurort.

**Badesachen** *die/pl.* çimmə əşyaları, pl(y)aj əşyaları.

**Badesalz,** *das; -es, -e* vanna qəbul etmək üçün duz, vanna duzu.

**Badestrand,** *der; -(e)s, -¨e* çimərlik, dəniz sahili, plyaj *(Süd. : plaj).*

**Badetuch,** *das; -(e)s, -¨er* **1.** çimərlik dəsmalı; fitə; **2.** tüklü *(xovlu)* dəsmal *(Süd. : hamam hovləsi).*

**Badewanne,** *die; -, -n* hamam vannası.

**Badezimmer,** *das; -s, -* hamam *(otağı).*

**baff** : *~ sein F* heyrət etmək, təəccüblənmək; özünü tamamilə itirmək.

**BaföG,** *das; -s* Almanyada universitet tələbələrinə kredit vermə qanunu.

**Bagage,** *die; -, -n* **1.** əşya, yük, baqaj; **2.** *fig. (Pack)* zir-zibil, tör-töküntü.

**Bagatelle,** *die; -, -n* xırda şey, əhəmiyyətsiz şey, boş şey.

**bagatellisieren** *vt* kiçik və əhəmiyyət-

siz göstərmək, mənasını azaltmaq.

**Bagatellschaden,** *der; -s, -¨* kiçik ziyan, xırda zərər.

**Bagger,** *der; -(s), -* yerqazan maşın.

**baggern** *vt* yerqazan maşın vasitəsi ilə işləmək *(qazmaq)*.

**Baguette,** *das; -s, -* baget, baget çörəyi, uzun ağ çörək.

**Bahaismus,** *der; -, - rel.* Bahaiyət.

**bähen** *vt* isitmək; qızartmaq.

**Bahn,** *die; -, -en* **1.** yol; orbita; **2.***(Eisenbahn)* dəmiryolu; **3.** *(Zug)* qatar, tren; **4.** *(Straßenbahn)* tramvay; *per (mit der) ~* dəmiryolu ilə; *fig. freie ~ haben* yolu açıq olmaq; *auf die schiefe ~ geraten* pis yola düşmək, azmaq.

**Bahnbeamte,** *der; -n, -n* dəmiryol məmuru.

**bahnbrechend** *adj.* yeni yol açan.

**Bahnbrecher,** *der; -s, - fig.* yol açan, *(göstərən)*, yenilikçi, ilk təşəbbüsçü.

**bahnen** *vt* yol açmaq; *den Weg ~* yol açmaq; *sich (D) e-n Weg durch A ~* özünə ... arasından yol açmaq.

**Bahnfahrt,** *die; -, -en* qatar *(tren)* ilə səyahət; tramvay ilə getmək.

**Bahnhof,** *der; -(e)s, -¨e* **1.** vağzal; **2.** *fig. nur ~ verstehen* heç başa düşməmək.

**Bahnhofsvorsteher,** *der; -s, -* vağzal rəisi.

**Bahnlinie,** *die; -, -n* dəmiryol xətti.

**Bahnpolizei,** *die; -* dəmiryol polisi.

**Bahnstrecke,** *die; -, -n* dəmiryol məsafəsi.

**Bahnüberführung,** *die; -, -en* yol keçidi *(üstdən).*

**Bahnübergang,** *der; -(e)s, -¨e* dəmiryol keçidi.

**Bahnunterführung,** *die; -, -en* dəmiryol altından keçən yol *(tunel).*

**Bahnverbindung,** *die; -, -en* dəmiryol rabitəsi.

**Bahnverwaltung,** *die; -, -en* dəmiryol idarəsi.

**Bahnwärter,** *der; -s, -* dəmiryol gözətçisi.

**Bahre,** *die; -, -n* **1.** *(Totenbahre)* tabut; **2.** *(Tragbahre)* xərək; *von der Wiege bis zur ~* ömür boyu, beşikdən qəbrə qədər.

**Bahrtuch,** *das; -(e)s, -¨er* kəfən.

**Bai,** *die; -, -n* kiçik körfəz, buxta.

**Baisse,** *die; -, -n H* tənəzzül, qiymətli kağızların düşməsi.

**Bajazzo,** *der; -s, -s* təlxək, oyunbaz.

**Bajonett,** *das; -(e)s, -e* süngü, mizraq; *veralt.* hərbə.

**Bake,** *die; -, -n naut.* nişan ağacı.

**Bakterie,** *die; -, -n* bakteriya *(Süd. : bakteri),* mikrob.

**Bakterienkrieg,** *der; -(e)s, -e* bakterioloji müharibə.

**Balance,** *die; -, -n* müvazinət, balans.

**balancieren** *vi* tarazlaşdırmaq, balanslaşdırmaq.

**bald** *adv.* **1.** *(in Kürze)* tezliklə, bu yaxında; **2.** *(beinahe)* az qala, ənqərib; **3.** *recht ~* tezliklə; **4.** *~ darauf* bir az sonra; *so ~ wie möglich* mümkün qədər tez; *F bis ~!* hələlik!, görüşmək ümidilə!

**Baldachin,** *der; -s, -e* bəzəkli talvar; taxt-rəvan; çardaq.

**baldig** *adj.* tez, yaxın *(zamandaki),* irəlidə; *auf ~es Wiedersehen* tezliklə görüşənədək.

**baldigst** *adv.* mümkün qədər tez.

**baldmöglichst** *adv.* mümkün olduqca tez.

**Baldrian,** *der; -s, -e* **1.** *bot.* pişikotu; **2.** *med.* valerian, yuxu gətirən dərman.

**Balg**[1]**,** *der; -(e)s, -¨e* **1.** *(abgezogenes Fell)* heyvanın soyulmuş dərisi *(qabığı);* **2.** *techn. (Blase)* tuluq, körük.

**Balg**[2] *das/der; -s, -¨er F* tərbiyəsiz uşaq, həyasız uşaq.

**balgen** *: vr sich ~* savaşmaq, dalaşmaq, boğuşmaq.

**Balgerei,** *die; -, -en* savaşma,dalaşma.

**Balkan,** *der; -s* Balkan *(lar/pl.)*, Balkan dağları.

**Balkanhalbinsel** *die; -* balkan yarımadası.

**Balkanisierung** *die; - pol.* nizam-intizamı bir-birinə vurmaq, qarma-qarışıqlıq yaratmaq.

**Balkankriege** *die/pl.* balkan müharibə-

ləri.

**Balken,** *der; -s, -* tir, dörd guşəli dirək, dirək, şalban.

**Balkon,** *der; -s, -e u. -s* balkon, eyvan.

**Ball,** *der; -(e)s, -¨e* **1.** top; **2.** *(Veranstaltung)* bal, rəqs gecəsi; *~ spielen* top oynamaq; *fig. immer am ~ bleiben* həmişə fəal olmaq *(qalmaq).*

**Ballade,** *die; -, -n* ballada, dramatik məzmunu olan uzun poema.

**Ballast** *der; -(e)s* **1.** *(zum Gleichgewichtsausgleich)* ballast pərsəng; **2.** *fig. (unnütze Last)* dərdə dəyməyən şey, yük.

**ballen** *vt* **1.** sıxmaq; **2.** *(die Faust)* əli yumruqlamaq; *vr sich ~ (Schnee, Lehm)* büzüşüb yumağa dönmək, yumaq kimi yığılmaq, büzüşmək.

**Ballen,** *der; -s, -* **1.** *(Baumwolle, Tee, Tabak)* tay; **2.** *(Handballen)* əlin yumşaq əti.

**ballern** *vi* partlatmaq; gumbuldatmaq.

**Ballett,** *das; -s, -e* balet.

**Ballettänzer,** *der; -s, -* balet rəqqası.

**ballförmig** *adj.* yumru, kürəvi.

**Ballistik,** *die; -* hərbi ballistika, top güllələrinin və ya ağır cisimlərin uçuşundan bəhs edən elm

**Ballon,** *der; -s, -s u. -e* **1.** *(Gasballon)* balon, səbətin içinə qoyulmuş böyük şüşə; **2.** hava balonu, hava şarı.

**Ballonfahrer,** *der; -s, -* hava balonunun sürücüsü *(pilotu).*

**Ballsaal,** *der; -(e)s, -säle* rəqs salonu.

**Ballspiel,** *das; -(e)s, -e* top oyunu.

**Ballung,** *die; -, -en* bir yerə yığışma, toplanma, cəmləşmə.

**Ballungsgebiet,** *das; -s, -e s. Ballungszentrum.*

**Ballungszentrum,** *das; -s, -tren* əhalinin sıx mərkəzləşdiyi *(olduğu)* yer.

**Balsam,** *der; -s* balzam *(ağrını kəsən dərman),* mərhəm, məlhəm.

**Baltikum,** *das; -s* baltik ölkələri.

**baltisch** *adj.* baltik.

**Balz** *die; -, -en* ciftləşmək oyunu *(quşlarda).*

**balzen** *vt* ciftləşmək *(quşlarda).*

**Bambus,** *der; -ses, -se* bambuq.

**Bambusrohr,** *das; -(e)s, -e* bambuq çubuğu.

**Bammel,** *der; -s F* qorxusu olmaq, qorxu; *ich habe e-n ~* qorxuram, qorxum var *(vor D/-dən).*

**bammeln** *vi F* sallanmaq, asılmaq.

**banal** *adj.* məzmunsuz, mənasız, bayağı.

**Banalität,** *die; -, -en* bayağılıq, mənasızlıq, boşluq.

**Banane,** *die; -, -n bot.* banan *(Süd. : moz).*

**Banause,** *der; -n, -n* qabiliyyətsiz, incəsənətə duyğusuz, görüş dairəsi məhdud olan adam.

**Band**[1]**,** *der; - (e)s, -¨e (Buch)* cild; *fig. das spricht Bände* bu çox şey göstərir, bu çox şey ifadə edir.

**Band**[2]**,** *das; -(e)s, -¨er* **1.** bağ, bənd, şərit; **2.** *(Tonband)* lent; *auf ~ aufnehmen* lentə yazmaq; **3.** *(Fassband)* çənbər; *am laufenden ~* fasilə vermədən, bir-birinin ardınca.

**Band**[3]**,** *die; -, -s mus.* estrada ansamblı, orkestr qruppası.

**band** *s. binden*

**Bandage,** *die; -, -n* bandaj, tənzif, sarğı.

**bandagieren** *vt* tənzif bağlamaq.

**Bandaufnahme,** *die; -, -n* lentə köçürmə.

**Bande,** *die; -, -n* **1.** dəstə; **2.***(organisierte)* quldur dəstəsi, banda; **3.** *(Billiard)* kənar, haşiyə.

**Bandeisen,** *das; -s, -* zol dəmir.

**Bandenführer,** *der; -s, -* quldur dəstəsinin başçısı.

**Banderole,** *die; -, -n* banderol.

**- bändig** *adj.* cildli; *dreibändig* üç cilddən ibarət, üçcildlik; *vielbändig* çoxcildli *(bəndli).*

**bändigen** *vt* **1.** *(Tier)* tərbiyə etmək, ram etmək; **2.** *(Triebe, Naturgewalten)* qarşısını almaq.

**Bändigung,** *die; -, -en* ram etmə, itaət altına alma.

**Bandit,** *der; -en, -en* yolkəsən, bandit,

quldur, hərami.

**Bandmaß,** *das; -es, -e* ölçü lenti.

**Bandscheibe,** *die; -, -n anat.* disk.

**Bandwurm,** *der; -(e)s, -¨er* lent şəklində parazit qurd *(bağırsaqda).*

**Bange,** *die; - : keine ~!* qorxma*(yın)!; j-m ~ machen* bir kəsin ürəyinə qorxu salmaq.

**bang(e)** *adj.* qorxaq, qorxacaq; *mir ist ~ vor D -dən/dan* qorxuram, dəhşətə gəlirəm; *~ machen A* qorxutmaq.

**bangen** *vi sich ~ (um A/üçün),* qorxmaq, nigaran olmaq; *es bangt mir um s-e Gesundheit* onun sağlamlığı üçün nigaranam.

**Bank**[1]**,** *die; -, -¨e* **1.** oturmaq üçün taxtadan düzəlmiş uzun kürsü; skamya; **2.** *(Werkbank)* dəzgah; **3.** *fig. et. auf die lange ~ schieben A* süründürməyə salmaq; **4.** *fig. F durch die ~* istisnasız, hamısı.

**Bank**[2]**,** *die; -, -en* **1.** bank; *ein Konto bei der ~ eröffnen* bankda hesab açmaq.

**Bankanweisung,** *die; -, -en* bank həvaləsi, bank vasitəsilə keçirmə.

**Bankdirektor,** *der; -s, -en* bank müdiri.

**Banker,** *der; -s, - s. Bankier.*

**Bankett,** *das; -(e)s, -e* **1.** ziyafət, rəsmi məclis, banket; **2.** *(Straße)* küçə səkisi.

**Bankfiliale,** *die; -, -n* bank şöbəsi.

**Bankgeheimnis,** *das; -ses* bank sirrinin saxlanması; əmanət sirri, bank sirri.

**Bankgeschäft,** *das; -(e)s, -e* bank əməliyyatı; bank işi.

**Bankier,** *der; -s, -s* bank sahibi, bankir.

**Bankkonto,** *das; -s, -ten* bankda olan cari hesab, bank haqq-hesabı.

**Bankrott,** *der; -(e)s, -e* müflislik, var-yoxdan çıxma, bankrot; *~ machen/gehen* var-yoxdan çıxmaq, müflisləşmək.

**bankrott** *adj.* müflis, bankrot, iflas olmuş; *~ sein* müflis olmaq.

**Bankrotterklärung,** *die; -, -en* bankrot açıqlaması, müflislik bəyannaməsi *(elani)*; *fig.* acizlik əlaməti, acizlik nişanı.

**Banküberfall,** *der; -s, -¨e* bank soyğunu.

**Banküberweisung,** *die; -, -en* bank həvaləsi, bank köçürməsi.

**Bankwesen,** *das; -s* bank işi.

**Bann,** *der; -(e)s, -e* **1.** *(Charme)* əfsun, cazibə, sehr; *in s-n (ihren) ~ schlagen* valeh etmək, sehr etmək, bir kəsi özünə cəlb etmək; **2.** *(Verbannung)* sürgün və ixrac etmə; **3.***(Kirchenbann)* kilsədən təcrid etmə, kilsədən ayırma*; in den ~ tun* kilsədən ixrac etmək.

**bannen** *vt* **1.** *(abwehren)* dəf etmək, qarşısını almaq, qovmaq; *e-e Gefahr ~* xətəri dəf etmək; **2.** *(bezaubern)* məftun etmək, cəzb etmək; **3.** *(festhalten)* tutub saxlamaq.

**Banner,** *das; -s, -* bayraq.

**Bannträger,** *der; -s, -* bayraqdar.

**Bannkreis,** *der; -es, -e (Einflussbereich)* təsir dairəsi; *in j-s ~ geraten* kiminsə təsiri altına düşmək.

**Bannmeile,** *die; -, -n* **1.** *(Ort)* şəhər xətti; **2.** *(für Demonstrationen gesperrter Innenbezirk)* nümayişlərin keçirilən vaxtı qadağan olan şəhər dairəsi.

**bar**[1] *adj.* **1.** nağd, nəqd; *~es Geld* nağd pul; *in ~ kaufen* nağd pula almaq, nağd ödəmək.

**bar**[2] *adj.* **1.** çılpaq, açıq, yalın, lüt; *barfüßig* ayaqyalın; **2.** məhrum *(G/-dən)*; *~er Unsinn* mənasız şey, ağlasığmaz, *~ jeglicher Vernunft* tam ağıldan uzaq bir iş.

**Bar,** *die; -, -s* bar, meyxanə; *an der ~* barda.

**Bär,** *der; -en, -en* **1.** *zo.* ayı; **2.** *astr.* Ayı bürcü*; Großer ~* böyük ayı, dübbi-əkbər; *Kleiner ~* kiçik ayı, dübbi-əsğər; **3.** *fig. j-m e-n Bären aufbinden* kiməsə yalan-palan danışmaq.

**Baracke,** *die; -, -n* barak.

**Barauszahlung,** *die; -, -en* nağd *(nəqd)* pul vermə, nağd ödəmə.

**Barbar,** *der; -en, -en* qaba insan, vəhşi adam, mədəniyyətsiz adam.

**Barbarei,** *die; -* vəhşilik, barbarlıq.

**barbarisch** *adj.* vəhşi, barbarcasına.

**Barbarismus,** *der; -, -men* vəhşilik.

**bärbeißig** *adj.* deyingən.

**Barbestand,** *der; -s, -¨e* mövcud pul *(kassada).*

**Barbier,** *der; -s, -e* dəllək, bərbər.

**barbieren** *vt* qırxmaq *(ülgüclə).*

**Bardame,** *die; -, -n* barda işləyən qadın, saqi.

**Barde,** *der; -n, -n* el şairi.

**Bärenhaut,** *die; -, -¨e fig. auf der ~ liegen* veyl-veyl gəzmək, tənbəllik etmək.

**Bärenhunger,** *der; -s* bərk aclıq; *e-n ~ haben* bərk *(qurd kimi)* ac olmaq.

**bärenstark** *adj.* **1.** *F* çox yaxşı, son dərəcə gözəl; **2.** *(stark)* qüvvətli, güclü.

**Barett,** *das; -s, -e* girdə yastı papaq, biret, *(Süd. : a. beri).*

**barfuß** *adj.* ayaqyalın.

**barfüßig** *adv.* ayaqyalın.

**barg** *s. bergen.*

**Bargeld,** *das; -(e)s* nağd pul.

**bargeldlos** *adj.* nağd pulla yox, çek və ya başqa vasitələrlə alma; nisyə.

**barhäuptig** *adj.* başıaçıq.

**Bariton,** *der; -s, -e mus.* bariton, müğənninin səsi.

**Baritonsänger,** *der; -s, -* baritonist.

**Barkasse,** *die; -, -n* barkas, motorlu qayıq, kiçik gəmi.

**Barkauf,** *der; -(e)s, -¨e* nağd alma.

**Barke,** *die; -, -n* yastıdibli yük gəmisi.

**barmherzig** *adj.* mərhəmətli, rəhmli, şəfqətli.

**Barmherzigkeit,** *die; -* şəfqət, rəhmlilik, mərhəmət.

**barock** *adj.* barok üslubunda.

**Barock,** *der u. das; -s* barok üslubu.

**Barometer,** *das; -s, -* barometr.

**Barometerstand,** *der; -(e)s, -¨e* barometrin göstərdiyi dərəcə *(təzyiq).*

**Baron,** *der; -s, -e* baron *(qrafdan kiçik zadəqan rütbəsi).*

**Baronin,** *die; -, -nen* baronessa *(baronun arvadı).*

**Barrel,** *das; -s, -s* barrel *(153 Litr neft).*

**Barren,** *der; -s, -* **1.** *(Goldbarren)* tökmə qızıl, qəlibə *(qalıba)* tökülmüş qızıl; **2.** *(Turngerät)* parallel tirlər.

**Barriere,** *die; -, -n* səd, maneə, əngəl.

**Barrikade,** *die; -, -n* səngər, barrikada; *~n errichten* səngər düzəltmək; *auf ~ gehen* mübahisəyə *(davaya)* hazır olmaq.

**barrikadieren** *vt* barrikada qurmaq.

**barsch** *adj.* qaba, sərt, kəskin.

**Barsch,** *der; -(e)s, -e* xanı balığı.

**Barschaft,** *die; -, -en* nağd, nağd pul.

**Barschheit,** *die; -, -en* kobudluq.

**Bart,** *der; -(e)s, -¨e* **1.** *(Kinnbart)* saqqal; *(Schnurrbart)* bığ; **2.** *(Schlüsselbart)* açar dili, açar dişi; *fig. j-m um den ~ gehen* yaltaqlanmaq; *sich e-n ~ wachsen lassen* saqqal qoymaq; *fig. der ~ ist ab!* sonuna çatdı!; kifayətdir!.

**bärtig** *adj.* saqqallı.

**bartlos** *adj.* saqqalsız.

**Barvermögen,** *das; -s, -* nağd pul əmlakı.

**Barzahlung,** *die; -, -en* nağd pul vermə, nağd pulla ödəmə, nağd hesablaşma; *gegen ~* nağd pula.

**Barzhlungspreis,** *der; -es, -e* nağd qiymət.

**Basar,** *der; -s, -e* bazar, çarşı.

**Base**[1]**,** *die; -, -n (weibl.Verwandte)* xalaqızı, dayıqızı.

**Base**[2]**,** *die; -, -n Chem.* əsas, baza.

**Baseball,** *der; -s* beysbol.

**basieren** *vi* əsaslanmaq; *auf et. ~* bir şeyə dayanmaq, istinad etmək, əsaslan(dır)maq.

**Basilika,** *die; -, -ken* böyük kilsə.

**Basilikum,** *das; -s, -* reyhan.

**Basis,** *die; -, Basen* **1.** əsas, bünövrə; paya, baza, özül, bünyad; kök;**2.** *geom.* qaidə; *die ~ des Dreiecks* üçbucağın qaidəsi; **3.** *mil.* hərbi baza *(Süd. : orduqah);~ und Überbau* bazis və üstqurum.

**Basisdemokratie,** *die; -, -n* birbaşa demokratiya *(aşağıdan yuxarıya).*

**Baskenmütze,** *die; -, -n* beret *(Süd. : beri).*

**Basketball,** *der; -s* basketbol.

**Bass,** *der; -es, -¨e mus.* bas *(yoğun kişi səsi),* bəm; *~ singen* yoğun səslə oxumaq.

**Bassin,** *das; -s, -s* hovuz.

**Bassist,** *der; -en, -en* **1.** *(Spieler)* kontra-

bas çalan; **2.** *(Sänger)* bas səslə oxuyan.

**Bast,** *der; -(e)s* alt qabıq, lif, ağac qabığı.

**basta!** *int.* bəsdir!; yetər! *und damit ~!* daha danışma!; qurtardıq!.

**Bastard,** *der; -s, -e* **1.** *(Mischling)* mələz, hibrid; **2.** *(uneheliches Kind)* nikahdan kənar uşaq; **3.** *(Schimpfwort)* haramzadə, bic.

**Bastei,** *die; -, -en* bürc, istehkam.

**Bastelarbeit,** *die; -, -en* əl işi; hobi.

**basteln** *vt* həvəskar kimi bir şeylər qayırmaq; *er bastelt an e-m Regal* o bir rəf qayırır.

**Bastion,** *die; -, -en* bürc, qala, istehkam.

**Bastler,** *der; -s, -* sənət həvəskarı.

**bat** *s. bitten.*

**Bataillon,** *das; -s, -e mil.* Batalyon *(Süd. : qordan).*

**Batate,** *die; -, -n bot.* şirin kartof *(yeralması).*

**Batik,** *die; -, -en u. der; -s, -en* parça boyamaq üsulu.

**batiken** *vt* parça boyamaq.

**Batist,** *der; -s, -e* batist *(pambıq və ya ipəkdən olan yumşaq parça).*

**Batterie,** *die; -, -n* **1.** *mil.* bir neçə topdan ibarət hərbi hissə; **2.** *el.* batareya, *(Süd. : batri).*

**Batzen,** *der; -s, - (Klumpen)* gil yığını, laxta; *fig. ein ~ Geld* xeyli pul.

**Bau**[1]**,** *der; -(e)s, -ten* **1.** *nur sg. (das Bauen)* tikmə, bina; *der ~ des Hauses dauerte zwei Jahre* evin tikilməsi iki il çəkdi; **2.** *(Gebäude)* tikinti, bina, inşaat; **3.** *(Bauart)* struktur, quruluş; **4.** *(Körperbau)* bədən quruluşu, boy-buxun; *im ~* tikintidə.

**Bau**[2]**,** *der; -s, -e (Tierhöhle)* yuva.

**Bauarbeiten,** *die/pl.* tikinti işləri, inşaat işləri .

**Bauarbeiter,** *der; -s, -* tikinti əmələsi, əmələ, fəhlə; *pl.* əmələcat.

**Bauart,** *die; -, -en* memarlıq üslubu.

**Bauaufsicht,** *die; -* tikinti nəzarəti.

**Baubewilligung,** *die; -, -en* tikinti üçün icazə.

**Bauch,** *der; -(e)s, -¨e* qarın, gödən, bətn; *sich auf den ~ legen* qarın üstə uzanmaq; *aus den ~* havadan, necə gəldi.

**Bauchbinde,** *die; -, -n* qarınbağı.

**bauchig, bäuchig** *adj.* yumru, köpmüş.

**Bauchnabel,** *der; -s, -* göbəkbağı.

**Bauchreden** *vi* qarından danışmaq *(dodaqlar tərpənmədən);* mızıldamaq.

**Bauchschmerz,** *der; -es, -en* qarın ağrısı *(sancısı).*

**Bauchspeicheldrüse,** *die; -, -n* mədəaltı vəzi.

**Bauchtanz,** *der; -es, -¨e* qarın *(göbək rəqsi)* rəqsi.

**Bauchweh,** *das; -(e)s* qarın sancısı *(ağrısı).*

**Baudenkmal,** *das; -(e)s, -¨er u. –e* memarlıq abidəsi; heykəl.

**bauen** *vt* tikmək, qurmaq; qayırmaq; *(Mauer; Strasse)* çəkmək, düzəltmək; *vi* ümid bəsləmək, arxayın olmaq *(auf A/ kiməsə, nəyəsə); F e-n Unfall ~* bədbəxt hadisəyə *(təsadüfa)* səbəb olmaq.

**Bauer**[1]**,** *der; -n, -n* **1.** kəndli; **2.** *(Schach)* piyada; **3.** *fig.* savadsız adam, kəndli.

**Bauer**[2]**,** *das u. der; -s, -* qəfəs *(quş üçün).*

**Bäuerin,** *die; -, -nen* kəndli qadın.

**bäuerlich** *adj.* kəndli, kəndlisayağı.

**Bauernfänger,** *der; -s, - fig.*adamaldadan, quldur, kələkbaz.

**Bauernhof,** *der; -(e)s, -¨e* kənd həyəti; kəndlinin maldarlıq və təsərrüfat yerləri, kəndli həyəti.

**Bauerntum,** *das; -s* kəndli kütləsi; kəndli yaşayış sistemi, kəndçilik.

**baufällig** *adj.* çox köhnəlmis *(bina),* köhnə, yıxıq.

**Baugerüst,** *das; -(e)s, -e* tikintidə işlənən taxtabənd.

**Baugesellschaft,** *die; -, -en* tikinti şirkəti.

**Bauherr,** *der; -en, -en* tikinti sahibi.

**Bauklotz,** *der; -es, -¨e F fig. Bauklötze staunen* ağzı bir qarış açıq qalmaq.

**Baukunst,** *die; -* memarlıq.

**Bauland,** *das; -* ərazi *(tikinti üçün).*

**Baum,** *der; -(e)s, -¨e* ağac; *auf e-n ~ klettern* ağaca dırmaşmaq *(çıxmaq)*; *auf dem ~* ağacda; *im ~* ağacda, budaqların arasında; *den Wald vor lauter Bäumen nicht sehen* ağacları görüb, meşəni görməmək.

**Baumaterial,** *das; -s, -ien* tikinti materialı.

**Baumblüte,** *die; -* ağacların çiçəklənmə vaxtı.

**Baumeister,** *der; -s, -* memar.

**baumeln** *vi ~ an D -dən* sallanmaq, asılmaq, yellənmək; *die Beine ~ lassen* ayaqları sallamaq.

**bäumen** *: sich ~* **1.** *(Pferd)* qalxmaq, dik-dik durmaq; **2.** tərslik etmək, müqavimət göstərmək.

**Baumkrone,** *die; -, -n* ağacın təpəsi *(başı).*

**baumlang** *adj. ein ~er Bursche* uzundraz oğlan.

**baumlos** *adj.* ağacsız.

**Baumrinde,** *die; -, -n* ağac ğabığı.

**Baumschule,** *die; -, -n* ağac şitilliyi.

**Baumsterben,** *das, -s* ağacların ölməsi, ağacların quruması *(zəhərli hava və yağışdan).*

**Baumstamm,** *der; -(e)s, -¨e* ağac gövdəsi; kötük.

**Baumstumpf,** *der; -(e)s, -¨e* kötük.

**Baumuster,** *das; -s, -* tikinti nümunəsi, tikinti tipi.

**Baumwolle,** *die; -* pambıq, iplik.

**baumwollen** *adj.* pambıqlı, pambıqdan.

**Baumwollfaser,** *die; -, -n* pambıq lifi.

**Baumwollsamen,** *der; -s, -* çiyid.

**Baumwollspinnerei,** *die; -, -en* pambıq iplik karxanası, iplik fabrikası.

**Baumwollstoff,** *der; -(e)s, -e* pambıq parça, qədək; çit.

**Baumwurzel,** *die; -, -n* ağac kökü.

**Bauplan,** *der; -(e)s, -¨e* tikinti planı.

**Bauplatz,** *der; -es, -¨e* tikinti meydançası *(yeri).*

**Baurecht,** *das; -(e)s, -e* tikmə haqqı.

**Bausch,** *der; -(e)s, -e* **1.** *med.* tampon; **2.** *in ~ und Bogen* topdan; *Waren in ~ und Bogen kaufen* hamısını bir yerdə almaq *(çəkilməmiş, sayılmamış, ölçülməmiş malı);* **3.** bürüşdürülmüş qumaş və ya kağız.

**bauschen** *vt* şişirtmək; *vr sich ~* şişmək, qabarmaq.

**bauschig** *adj.* şişik, şişkin.

**Baustein,** *der; -s, -e* element; daş.

**Baustelle,** *die; -, -n* tikinti yeri.

**Baustil,** *der; -(e)s, -e* tikinti üslubu, memarlıq üsulu.

**Baustoff,** *der; -(e)s, -e* tikinti materialı.

**Baustopp,** *der; -s, -s* tikintinin qadağan edilməsi; *e-n ~ verhängen* tikintini qadağan etmək.

**Bauwerk,** *das; -(e)s, -e* bina, tikinti.

**Bauwesen,** *das; -s* tikinti işi *(işləri).*

**Bayer**, *der; -n, -n* bavariyalı, *(Süd. : bayerli).*

**Bayern** bavariya *(Süd. : bayern).*

**Bazar,** *der; -s, -e* bazar.

**Bazille,** *die; -, -n* basil.

**Bazillus,** *der; -, -llen* basil.

**beabsichtigen** *vt* fikrində olmaq, niyyətində olmaq, istəmək; *~ et. zu tun* bir şey etmək niyyətində olmaq.

**beachten** *vt* **1.** fikir vermək, diqqət yetirmək; **2.** *(Regeln usw.)* riayət etmək, hesaba almaq, məhəl qoymaq; *nicht ~* riayət etməmək; *F -ə* qulaq asmamaq, məhəl qoymamaq.

**beachtenswert** *adj.* diqqətəlayiq.

**Beachtlich** *adj* **1.** *(beträchtlich)* çox, xeyli; **2.** *(bedeutsam)* mühüm, əhəmiyyətli; diqqətəlayiq.

**Beachtung,** *die; -* diqqət yetirmə; riayət, gözləmə; *~ schenken* diqqət vermək.

**Beamte,** *der; -n, -n* **1.** *(Staatsbeamte)* dövlət qulluqçusu, dövlət məmuru, kargüzar; **2.** *(Polizeibeamte)* polis məmuru; **3.** *(Zollbeamte)* gömrük məmuru.

**Beamtenbeleidigung,** *die; -, -en jur.* dövlət qulluqçusunu *(məmurunu)* qulluq vəzifəsi icra edərkən təhqir etmə.

**Beamtenbestechung,** *die; -, -en* dövlət

qulluqçusuna rüşvət vermək.

**Beamtenlaufbahn,** *die; -, -en* qulluqçuluq illəri, qulluqçuluq müddəti.

**Beamtin,** *die; -, -nen* dövlət qulluqçusu *(qadın).*

**beamtet** *adj.* vəzifəli, qulluqçu, dövlət qulluğuna alınmış.

**beängstigen** *vt* qorxutmaq.

**beängstigend** *adj.* qorxuducu, ürküdücü, bağırdələn, dəhşətli.

**beanspruchen** *vt* **1.***(als sein gutes Recht)* haqq iddia etmək; **2.** *(fordern)* tələb etmək, istəmək; sahib çıxmaq; **3.** *(Motor, Maschine)* gərginləşdirmək, zora salmaq; **4.** *(j-n ganz beschäftigen)* bir kəsi çox işlətmək, çox məşğul etmək.

**Beanspruchung,** *die; -, -en (techn.,nervlich)* gərginləşdirmə; zora salma.

**beanstanden** *vt* **1.** *(Ware usw.)* nöqsanlı görmək; **2.**razı olmamaq; etiraz etmək, narazı olduğunu bildirmək.

**Beanstandung,** *die; -, -en* etiraz etmə, narazılıq, şikayət.

**beantragen** *vt* **1.** *(vorschlagen)* təklif etmək; **2.** *(fordern)* istəmək, ərizə ilə tələb etmək.

**beantworten** *vt* cavab vermək.

**Beantwortung,** *die; - in ~ Ihres Schreibens vom 8. Mai* 8. may tarixli yazınıza *(məktubunuza)* cavab olaraq.

**bearbeiten** *vt* **1.** üzərində işləmək; **2.** *(Thema)* bir mövzu üzərində tədqiq etmək; **3.***(gestalten)* şəkil vermək, formaya salmaq; **4.** *j-n ~* birisini razı salmağa çalışmaq; **5.** *(mit Fußtritten)* təpik altına salmaq, təpikləmək; **6.** *(überarbeiten)* tərtib və tənzim etmək; **7.** *(behauen)* yonmaq; *neu ~* təshih etmək, düzəliş aparmaq, bir daha gözdən keçirtmək.

**Bearbeitung,** *die; -, -en* iş, işlənilmə, işlədilmə, emal; tamamlama.

**Bearbeitungsgebühr,** *die; -, -en* **1.** tamamlanmış işin xərci; **2.** *(Bank)* müamilə haqqı.

**beargwöhnen** *vt* şübhələnmək, şübhə altına almaq; *j-n ~* bir kəsdən şübhələnmək.

**Beargwöhnung,** *die; -, -en* şübhə.

**beatmen** *vt* birisinə süni nəfəs vermək.

**beaufsichtigen** *vt* nəzarət etmək, göz olmaq, kontrol etmək.

**Beaufsichtigung,** *die; -, -en* nəzarət, kontrol.

**beauftragen** *vt* tapşırmaq *( mit D/ilə);* sifariş vermək, ismarlamaq; *ich bin beauftragt* mənə tapşırılıb; *j-n mit e-m Fall ~* bir kəsə bir tapşırıq vermək.

**Beauftragte,** *der u. die; -n, -n (Vertreter)* vəkil edilmiş şəxs, vəzifədar, müvəkkil, vəkil.

**Beauftragung,** *die; -, -en* vəkalət, tapışırıq.

**beäugen** *vt* baxıb müayinə etmək.

**bebaubar** *adj.* **1.** *(Boden)* becərməyə yararlı; **2.** *(Grundstück)* tikinti üçün yarayan.

**bebauen** *vt* **1.** *(Häuser)* salmaq, tikmək; **2.** *(Feld)* əkmək; sürmək; *bebaut* abad.

**beben** *vi* **1.** *(Erde)* tərpənmək, titrəmək; **2.** *(vor Wut, vor Erregung)* əsmək.

**Beben,** *das; -s, -* **1.** tərpənmə; əsmə; **2.** *(Erdbeben)* zəlzələ.

**bebildern** *vt* şəkillərlə bəzəmək, şəkil vurmaq.

**bebrillt** *adj.* eynəkli.

**bebrüten** *vt* : *Eier ~* kürt yatmaq.

**Becher,** *der; -s, -* piyalə, qədəh, stəkan.

**bechern** *vi* çox içki içmək.

**Becken,** *das; -s, -* **1.** ləyən, kasa, tas; **2.** *(Schwimmbecken)* hovuz; **3.** *an.* çanaq sümüyü, qılça, çanaqlıq; **3.** *geogr., geol.* hövzə.

**bedachen** *vt* damla örtmək.

**bedacht** *adj.* **1.** *s. bedenken;* **2.** *(überlegt)* düşünülmüs, diqqətli; **3.** *~ sein (auf A)* (bir şeyə) can atmaq, nəzərdə tutmaq *(nəyisə).*

**Bedacht,** *der; -(e)s* ehtiyat, düşün(ül)mə; *mit ~* ətraflı düşünərək; *~ nehmen (auf A) nəyisə* nəzərdə tutmaq.

**bedächtig, bedachtsam** *adj.* **1.** *(umsichtig, überlegt)* düşüncəli, ağıllı; diqqətli, ehtiyatlı; **2.** *(langsam)* yavaş; ağır.

**Bedachung,** *die; -, -en* damla örtmə.

**bedanken** *vr sich ~* **1.** təşəkkür etmək *(bei j-m für A / kiməsə nə üçünsə); ich habe mich bei ihm bedankt* mən ona təşəkkür etdim; **2.** *(für et.) (iron.)* istəməmək; *ich bedanke mich dafür!* bu mənə əl vermir!, məni bağışlayın!, istəmirəm!

**Bedarf,** *der; -(e)s* ehtiyac, tələb *(an D/ nəyəsə),* tələbat; *ein großer ~ an Vitaminen* vitaminə böyük ehtiyac; *~ haben* ehtiyacı olmaq; *nach ~* ehtiyaca görə, ehtiyac olduqca; *im Bedarfsfall(e)* məcburluqda, icbar halda; *mein ~ ist gedeckt! iron.* bəsimdir!, kifayətdir!

**Bedarfsartikel,** *der; -s, -* gündəlik tələbat malları.

**Bedarfsfall,** *der; -(e)s, -¨e : im ~* ehtiyac olduqda, ehtiyac olan zaman.

**bedauerlich** *adj.* təəssüf ediləcək; kədərli, hüznlü, acılı.

**bedauerlicherweise** *adv.* təəssüf ki, təəssüflər olsun ki, təəssüflə.

**bedauern** *vt* təəssüflənmək, yazığı gəlmək, yanıqmaq, acımaq; *ich bedauere diesen Vorfall* bu hadisə üçün çox təəssüf edirəm; *ich bedauere sehr, dass ..* çox təəssüf edirəm ki...

**Bedauern,** *das; -s* təəssüf; *mit ~ teilen wir Ihnen mit, dass..* təəssüf ilə sizə bildiririk ki..; *zu meinem (großen) ~* çox təəssüf ilə; çox təəssüf ilə bildirirəm ki.

**bedauernswert** *adj.* acınacaqlı, təəssüfəlayiq, təəssüf ediləcək, səfil, acılı, ağlamalı, boynuburuq.

**bedecken** *vt* **1.** örtmək, ört-basdır etmək; sərmək *(mit D/ilə)*; **2.** *mil. (schützen)* himayə etmək, qorumaq; *vr sich ~* 1. örtülmək; 2. *(Himmel)* tutulmaq, buludlanmaq.

**bedeckt** *adj.* **1.** örtülü; **2.** buludlu, tutqun; *der Himmel ist ~* hava tutqundur; *fig. sich ~ halten* öz mövqeyini müəyyən etməmək, öz nəzərini deməmək.

**Bedeckung,** *die; -, -en* **1.** *(Kopf)* örtük; **2.** *mil.* qoruma, mühafizə dəstəsi.

**bedenken** *vt* **1.** *(überlegen)* düşünmək, fikirləşmək, götür-qoy eləmək; *wenn man bedenkt, ..* fikirləşəndə; *ich gebe Ihnen zu ~, dass..* nəzərinizə çatdırıram ki..; **2.** *(j-n beschenken)* birisinə bağışlamaq; *mit et. ~* nəyisə bağışlamaq, pay vermək; *er wurde mit e-m Preis bedacht* o, mükafat aldı; *vr sich ~* 1.*(nachdenken)* dərindən düşünmək; 2. *(e-s Besseren)* daha yaxşı düşünmək, ağlına daha yaxşı fikir gelmək; 3. *(e-s anderen)* fikrini dəyişmək.

**Bedenken,** *das; -s, -* **1.** *(Zweifel)* şübhə, **2.** *(Zögern)* tərəddüd; *ohne ~* şübhəsiz; *~ haben/hegen (bei D/ -də)* şübhəsi olmaq; **3.** *(Einwände)* etiraz.

**bedenkenlos** *adj.* **1.** *(blindlings)* gözüyumulu, kor-koranə; **2.** *(skrupellos)* insafsız, rəhmsiz.

**bedenklich** *adj.* **1.** *(gefährlich)* qorxulu; **2.** *(heikel)* çətin; *ich bin in e-r ~en Lage* mən çətin bir vəziyyətdəyəm; **3.** *(zögernd)* mütərəddid, aciz.

**Bedenkzeit,** *die; -* fikirləşmək üçün verilən vaxt; *nimm dir ~!* yaxşı fikirləş!, yaxşı düşün!; *ich gebe dir bis morgen ~* sənə sabaha qədər fikirləşməyə vaxt verirəm.

**bedeuten** *vt* əhəmiyyəti olmaq, mənası olmaq; *was hat das zu ~?, was soll das (denn) ~?* bu nə deməkdir?, bunun mənası nədir?; *das hat nichts zu ~* bunun heç bir mənası yoxdur.

**bedeutend** *adj.* **1.** *(wichtig)* əhəmiyyətli, mühüm; **2.** *(beträchtlich)* çox, xeyli; böyük; **3.** *(angesehen)* görkəmli, hörmətli, əkə, heybətli; *adv. (wesentlich)* çox dərəcədə, əsaslı; *in letzter Zeit hat er sich ~ verbessert* son zamanlarda özünü xeyli dərəcədə *(çox)* düzəldibdir.

**bedeutsam** *adj.* anlamlı, mənalı, əhəmiyyətli, mühüm.

**Bedeutung,** *die; -, -en* **1.** *(Wichtigkeit)* əhəmiyyət, önəm;**2.***(Sinn)* anlam,məna; **3.** *(Geltung)* etibar; *von ~ sein* əhəmiyyətli olmaq, mühüm olmaq, önəmli olmaq; *ohne ~* əhəmiyyətsiz; *er ist ein Mann von ~* o, mühüm *(görkəmli)* bir adamdır.

**bedeutungslos** *adj.* **1.** əhəmiyyətsiz, önəmsiz, gözədəyməz; görkəmsiz; **2.**

*(ohne Sinn)* anlamsız, mənasız, yava.

**Bedeutungslosigkeit,** *die; -, -en* anlamsızlıq, mənasızlıq; əhəmiyyətsizlik.

**bedeutungsvoll** *adj.* **1.** əhəmiyyətli, mühüm, böyük; **2.** *(viel sagend)* anlamlı, mənalı.

**bedienen** *vt* **1.** xidmət etmək, qulluq etmək; **2.** *(Maschine)* işlətmək; **3.** *(am Tisch)* süfrə başında qulluq etmək, süfrəyə baxmaq; *wer bedient hier?* bura*(ya)* kim baxır? *vr sich ~* istifadə etmək, işlətmək; *(bei Tisch) ~ Sie sich!* buyuruz!; *ich bin bedient! F* bəsimdir!, bu işdən doydum!, burama gəldi!.

**Bedienstete,** *der u. die; -n, -n* qulluqçu, qulluqgöstərən, xidmətçi; dövlət məmuru.

**Bedienung,** *die; -, -en* **1.** xidmət, qulluq; **2.** *(z.B. im Restaurant)* qarson, qulluqçu; **3.** *(e-r Maschine)* işlətmə, işə salma; istifadə etmə; *~, zahlen Bitte!* qarson, hesabı gətirin lütfən!

**Bedienungsanleitung,** *die; -, -en* istifadə etmə təlimatı *(şərtləri).*

**bedingen** *vt* **1.** *(vertraglich)* şərt qoymaq; **2.** *(erfordern)* icab etmək, səbəb olmaq.

**bedingt** *adj. u. adv.*məşrut, şərti, şərtli; nisbi, nisbətən, məhdud; *~ sein durch* asılı olmaq, bağlı olmaq *(şəraitdən).*

**Bedingtheit,** *die; -* **1.** *(Beschränkung)* məhdudiyyət; **2.** *(Relativität)* nisbiyyət, nisbilik.

**Bedingung,** *die; -, -en* şərt, əgər-məgər; şərait; *~en stellen* şərt qoymaq, şərt kəsmək; *unter der ~, dass -mək (maq)* şərtilə; *unter keiner ~* heç bir vəchlə, həç bir şərtlə, əgər-məgərsiz; *mit der ~* şərtlə, beşərta, beşərti; *mit einer ~, dass ich auch komme* beşərti ki mən də gələm, bu şərtilə ki məndə gələm; *~en schaffen* şərait yaratmaq.

**bedingungslos** *adj.* danışıqsız, şərtsiz, sözsüz, qeyd-şərtsiz, əgər-məgərsiz.

**bedrängen** *vt* sıxışdırmaq; *in bedrängter Lage sein* çətin vəziyyətdə olmaq; *j-n bedrängen* bir kəsi sıxışdırmaq.

**Bedrängnis,** *die; -, -se* sıxıntı, çətin, fəlakətli vəziyyət, basqı, darlıq; *in ~ geraten* çətin vəziyyətə düşmək, darlığa düşmək.

**bedrängt** *adj.* çətin vəziyyətdə.

**bedrohen** *vt* qorxutmaq, hədələmək, hədə gəlmək, təhdid etmək, hərbələmək; *fig. F* əl-ayaq oynatmaq.

**bedrohlich** *adj.* hədələyici, təhlükəli.

**Bedrohung,** *die; -, -en* hədə, qorxu, təhdid.

**bedrucken** *vt* çap etmək; naxış basmaq.

**bedrücken** *vt* **1.** sıxışdırmaq, zülm etmək, əzmək, sıxmaq; **2.** *(traurig stimmen)* kədərləndirmək.

**bedrückend** *adj.* sıxıcı; əzici.

**Beduine,** *der; -n, -n* bədəvi, köçəri ərəb.

**bedürfen** *vt (benötigen) bir şeyə* ehtiyacı olmaq; *es bedarf e-r Erklärung* bu izahat tələb edir; *die Leute ~ unserer Hilfe* camaatın köməyimizə ehtiyacı var; *j-s Hilfe bedürfen* bir kəsin köməyinə ehtiyacı olmaq.

**Bedürfnis,** *das; -ses, -se* ehtiyac, tələb, tələbat, hacət; *ein ~ befriedigen* bir ehtiyacı yerinə yetirmək *(ödəmək); ~ nach et.* bir şeyə ehtiyac; *sein ~ verrichten* ayaqyoluna getmək, tualetə getmək.

**bedürfnislos** *adj.* qənaətkar, tələbsiz.

**bedürftig** *adj.* **1.** ehtiyacı olan, möhtac; *(G/nəyəsə); der Hilfe ~* köməyə ehtiyacı olan, köməyə möhtac olan; **2.** *(arm)* yoxsul, fağır, kasıb, ac-yalavac.

**Bedürftigkeit,** *die; -* möhtac olma.

**Beefsteak,** *das; -s, -s* biftək.

**beehren** *vt* hörmət etmək.

**Beehrung,** *die; -* ehtiram, hörmət.

**beeiden , beeidigen** *vt* and ilə təsdiq etmək.

**beeidigt** *adj.* and ilə təsdiq olunmuş.

**Beeidigung,** *die; -, -en* and içmə.

**beeifern** *vr sich ~* can atmaq, çalışmaq, səy göstərmək.

**beeilen** *vr sich ~* tələsmək, əcələ etmək, hərəkətə gəlmək *(zu Inf./-məkdə)*; *beeil dich!* tez ol!, tələs!, becid ol!, durma!, əcələ et!; *fig.* daban götürmək

*(daban almaq),* əl-ayaq tərpətmək.

**Beeilung,** *die; -* tələsmə.

**beeindrucken** *vt* bərk təsir etmək; *sich ~ lassen* bir şeyin təəssüratı altında olmaq.

**Beeindruckung,** *die; -* təəssürat.

**beeinflussbar** *adj.* çox tez təsirlənən, damarıboş.

**beeinflussen** *vt* təsir etmək, təsir göstərmək; *von j-m beeinflusst werden* kiminsə təsiri altında olmaq.

**beeinträchtigen** *vt* zərər vurmaq; mane olmaq, ziyan vurmaq.

**Beeinträchtigung,** *die; -, -en* **1.** *(Behinderung)* maneçilik, axsatma; ziyan, zərər; **2.** *(Minderung)* azal(t)ma, əksilmə, əskilmə; zəiflətmə; *~ der Menschenrechte* insan hüquqlarına təcavüz etmə, insan hüquqlarının pozulması.

**beenden** *vt* qurtarmaq, sona çat(dır)maq, sona yetirmək, bitirmək.

**beendet** *adj.* qurtulmuş, sona çatmış.

**Beendigung,** *die; -* sona çat(ıl)ma, qurtar(ıl)ma, sona yetirmə.

**beengen** *vt* **1.** *(zusammendrücken)* daraltmaq; **2.***(beschränken)* məhdudlaşdırmaq; sıxmaq; *beengt wohnen* dar mənzildə yaşamaq.

**Beengung,** *die; -* darlıq; məhdudiyyət.

**beerben** *vt* miras almaq, varis olmaq, vərəsə almaq; *s-n Vater ~* atasının varisi olmaq.

**beerdigen** *vt* basdırmaq, dəfn etmək *(eləmək)*.

**Beerdigung,** *die; -, -en* basdırma, dəfn etmə.

**Beerdigungsfeier,** *die; -, -n* basdırma mərasimi, dəfn törəni, dəfn-kəfn etmə.

**Beere,** *die; -, -n* **1.** giləmeyvə, tut; **2.** *(Weinbeere)* üzüm *(danəsi).*

**Beet,** *das; -(e)s, -e* **1.** lək; **2.** *(Blumenbeet)* çiçək ləki.

**befähigen** *vt* ixtiyar vermək, hüquq vermək *(zu D/nəyəsə).*

**befähigt** *adj. ( zu et.) nəyəsə* bacarıqlı; *nəyəsə* ixtiyarlı.

**Befähigung,** *die; -, -en* bacarıq, qabiliyyət, istedad.

**befahl** *s. befehlen.*

**befahrbar** *adj.* maşın sürülə bilən.

**befahren** *vt (Weg)* üstündən gəmi və ya miniklə *(maşınla)* keçmək; *den Kanal ~* kanaldan keçmək; *sehr ~e Straße* hərəkət çox olan küçə *(yol).*

**befallen** *vt (Krankheit, Unglück)*tutmaq, düçar olmaq; *vom Fieber ~ werden* qızdırma tutmaq; *die Pflanzen waren von Läusen ~* bitkiləri bit basmışdır; *~ werden von Angst* qorxuya düşmək.

**befangen** *adj.* **1.** *(schüchtern, verlegen)* utancaq; **2.** *(parteiisch)* bitərəf olmayan, tərəf saxlayan, tərəfgir, tərəfdar; ədalətsiz*; e-n Zeugen als ~ ablehnen jur.* şahidi bitərəf olmadığı üçün rədd etmək; *in e-m Irrtum ~ sein* səhv etmək, çaşmaq.

**Befangenheit,** *die; -* **1.** *(Verlegenheit)* utancaqlıq; **2.** *jur.* tərəfdarlıq, tərəfgirlik.

**befassen** *vt* məşğul etmək *(mit D/nə ilə*sə*)*; *vr sich ~ (mit D)* məşğul etmək *(nə iləsə); ich befasse mich mit Literatur* mən ədəbiyatla məşğulam.

**befehden** *vt* bir-birinə qarşı mübarizə etmək *(savaşmaq); vr sich ~* bir-birilə savaşmaq.

**Befehl,** *der; -(e)s, -e* əmr, buyuruq, fərman, sərəncam, fərmayiş; *veralt.* dəstur, hökm; *zu ~ ! mil.* baş üstə!; *auf ~ von (od. G) -in* əmrinə görə; *den ~ haben zu.. ..etməyə* əmr sahibi olmaq, sözü keçmək.

**befehlen** *vt* əmr etmək, buyurmaq, hökm eləmək, fərman vermək, dəstur vermək *(j-m/ kiməsə).*

**befehligen** *vt* başçılıq etmək.

**Befehlshaber,** *der; -s, -* rəis, baş komandan, hökmdar.

**Befehlsverweigerung,** *die; -, -en* itaətsizlik, əmri yerinə yetirməkdən imtina etmək.

**befeinden** *vt* düşmənçilik etmək, kin bəsləmək.

**befestigen** *vt* **1.** bərkitmək, qoşmaq, bağlamaq *(an D/-ə)*; **2.** *mil.* möhkəmlətmək, təhkim etmək; *ein Regal an der*

*Wand ~* rəfi divara bərkitmək.

**befestigt** *adj.* müstəhkəm, bərkidilmiş, bərqərar.

**Befestigung,** *die; -, -en mil.* istehkam, təhkimat; montaj.

**Befestigungswerke,** *die/pl.* **1.** təhkimat, **2.** hasar.

**befeuchten** *vt* islatmaq, nəm etmək.

**Befeuchtung,** *die; -* nəm, rütubət.

**befeuern** *vt* **1.** *naut.* işıq vermək, işıqla hidayət etmək; **2.** *fig.* qızışdırmaq, həyəcanlandırmaq.

**befinden** *vt (j-n als/für)* saymaq, haqqında qərara gəlmək*; das Gericht befand ihn für schuldig* məhkəmə onun günahkar olduğuna qərar verdi, məhkəmə onu günahkar saydı*; ich befand ihn gut* onu bəyəndim; *vr sich ~* **1.** *(irgendwo)* olmaq, yerləşmək*; er befindet sich jetzt in Täbriz* o, indi təbrizdədir; **2.** *(gut, schlecht usw.)* özünü hiss etmək; *ich befinde mich wohl* mən özümü sağlam hiss edirəm; *sich auf Reisen ~* səfərdə olmaq; *wie ~ Sie sich?* necəsiniz?, halınız necədir?

**Befinden,** *das; -s (gesundheitliches)* kef, hal, əhval; *wie ist Ihr ~?* necəsiniz?; *j-n nach dem ~ fragen* bir kəsin halını soruşmaq, əhvalpürsan olmaq.

**befindlich** *adj.* tapılan, olan *(in, auf D/-də); alle im Haus ~en Bücher* evdə olan bütün kitablar.

**beflaggen** *vt* bayraqlarla bəzəmək.

**beflaggt** *adj.* bayraqlı, bayraq vurulmuş.

**beflecken** *vt* **1.** *(sich mit et.)* ləkələmək, batırmaq; **2.** *(Ehre, Ruf) fig.* qara yaxmaq, biabır etmək, ləkələmək.

**befleckt** *adj.* ləkəli.

**befleißigen** *vr sich ~ G* səy göstərmək *(nəyəsə).*

**beflissen** *adj.* çalışqan, səyli, zəhmətkeş; *adv.* zəhmətlə, səylə.

**beflügeln** *vt (anspornen)* qol-qanad vermək, ruhlandırmaq.

**befohlen** *s. befehlen.*

**befolgen** *vt* **1.** *(Rat)* eşitmək, yerinə yetirmək, qulaq asmaq; **2.** *(Gesetze usw.)* riayət etmək, yerinə yetirmək.

**Befolgung,** *die; -* yerinə yətirmə, əməl etmə; riayət.

**befördern** *vt* **1.** *(transportieren)* yollamaq, daşımaq, irsal etmək; **2.** *(im Rang)* tərfi etmək, vəzifəni yüksəltmək *(zu D/-ə).*

**Beförderung,** *die; -, -en* yollama, daşıma, göndərmə; vəzifəni yüksəltmə.

**Beförderungskosten** *die/pl.* daşıma xərci, göndəriş xərci.

**Beförderungsliste,** *die; -, -n* yüksəltmə siyahısı.

**Beförderungsmittel,** *das; -s, -* daşıma vasitəsi.

**befrachten** *vt* yükləmək, yük vurmaq.

**befragen** *vt* **1.** soruşmaq, sual etmək *(über A)*; **2.** *( um Rat fragen)* məsləhətləşmək; **3.** *(verhören)* istintaq etmək, dindirmək; **4.** *(Auskunft erbitten)* məlumat istəmək.

**Befragung,** *die; -, -en* sual etmə, soruşma; dindirmə.

**befreien** *vt* **1.** *(retten)* azad etmək, qurtarmaq, xilas etmək*(von D/ -dən, -dan);* **2.** *(von e-r Verpflichtung)* azad etmək; *vr sich ~* azad edilmək, qurtulmaq, xilas olmaq *(von D/ -dən).*

**Befreier,** *der; -s, -* azad edən, xilaskar, qurtaran, qurtarıcı, xilasedici.

**befreit** *adj. (frei)* azad edilmiş; müaf olmuş; *~ von Abgaben* vergidən azad olmuş; *~ werden* yaxası qurtarmaq.

**Befreiung,** *die; -* azad etmə, qurtuluş, xilas etmə, yaxasını qurtarma.

**Befreiungsbewegung,** *die; -, -en* azadlıq hərəkatı, qurtuluş hərəkatı.

**Befreiungskrieg,** *der; -(e)s, -e* azadlıq müharibəsi, qurtuluş savaşı.

**befremden** *vt* təəccübləndirmək, şaşırtmaq, qəribə görünmək.

**Befremden,** *das; -s* təəccüb, heyrət.

**befremdend** *adj.* qəribə.

**befremdlich** *adj.* qəribə.

**befreunden** *vr sich ~* **1.** dostlaşmaq *(mit D/kimləsə),* yaxınlaşmaq, yaxınlıq etmək, curlaşmaq; *wir sind befreundet* biz dostuq; **2.** *(mit et.)* öyrəşmək, alış-

maq, bələd olmaq *(nəyəsə).*

**befreundet** *adj.* dost; *eng ~* can-cana dost olmaq; *er ist mit mir eng ~* o mənimlə can-cana dostdur, o mənimlə bərk dostdur.

**befrieden** *vt (nach Krieg usw.)* sakitləşdirmək, barışdırmaq.

**befriedigen** *vt* **1.** razı salmaq; qane etmək; **2.** *(ein Bedürfnis)* razı salmaq, kifayətləndirmək; **3.** *(Durst)* susuzluğunu söndürmək; **4.** *(die Schuld)* borcunu vermək, borcdan qurtarmaq; *vr sich (selbst) ~ (onanieren)* kəfləmə çəkmək, mastürbasiya etmək, mastürbasyon, özünü razı etmək.

**befriedigend** *adj.* **1.** kafi, kifayətləndirici, qaneedici; qənaətbəxş, qənaətləndirici; **2.** *(als Zensur)* orta.

**befriedigt** *adj.* razı.

**Befriedigung,** *die; -* **1.** kifayətləndirmə, razılıq, təmin etmə, razı salma; **2.** *(Zufriendenheit)* məmnuniyyət; razılıq; *s-e ~ äußern* razı qaldığını bildirmək, razılığını bildirmək.

**befristen** *vt (z.B. Vertrag)* möhlətini təyin etmək, müddətini təyin etmək; *befristet (auf A)* müddəti təyin olmuş.

**befristet** *adj.* vədəli, müddətli.

**befruchten** *vt* **1.** *(fruchtbar werden lassen)* bərəkətli etmək, münbitləşdirmək, məhsuldar etmək; **2.** *(Eizelle)* münbitləşdirmək; boylu etmək; *(bei Tieren)* dölləndirmək; *fig.* əkmək; **3.** *(anregen, fördern) fig.* ruhlandırmaq, həyəcanlandırmaq.

**befruchtet** *adj.* boylu, hamilə.

**Befruchtung,** *die; -, -en* məhsuldar etmə; münbitlik.

**Befugnis,** *die; -, -se* səlahiyyət, ixtiyar, haqq, həqq; *keine ~ haben zu (+ Inf.) -məyə* səlahiyyəti *(haqqı)* olmamaq.

**befugt** *adj.* muxtar, mücaz, səlahiyyətdar, haqqlı *(zu D/-ə); ~ sein* haqqlı olmaq *(zu D/-ə).*

**befühlen** *vt* əlləmək, əl ilə yoxlamaq.

**Befund,** *der; -(e)s, -e* **1.** *(Zustand)* vəziyyət, hal; **2.** *(Ergebnis)* muayinə və təhqiqatın nəticəsi; **3.** *ohne ~ med.* sağlam, salamət.

**befürchten** *vt* qorxmaq, vəhm etmək, ehtiyat etmək; *es steht zu befürchten, dass..* qorxu var ki...

**Befürchtung,** *die; -, -en* qorxu, ehtiyat, çəkinmə.

**befürworten** *vt* **1.** *(empfehlen)* tövsiyə etmək; üstünlük vermək; **2.** *(sich einsetzen für)* himayə etmək, tərəfdar olmaq *(çıxmaq);* **3.** *(Gesuch, Bitte)* xahiş etmək *(kimdən ötrüsə).*

**Befürworter,** *der; -s, -* himayə edən, tərəfdar, himayəçi.

**Befürwortung,** *die; -* **1.** himayə, dəstək, havadarlıq; **2.** tövsiyə; **3.** təsvib.

**begabt** *adj.* bacarıqlı, qabiliyyətli, hünərli; *~ für .. -ə* qabiliyyəti olan*, -ə* istedadlı.

**Begabung,** *die; -, -en* qabiliyyət, istedad, zəka, məharət.

**begann** *s. beginnen.*

**begatten** *vt* cütləşdirmək *(heyvanlar haqqında).*

**Begattung,** *die; -* cütləşmə.

**begeben** *vr* **1.** *sich irgendwohin ~* bir yerə getmək, bir yerə yola düşmək *(nach D/-ə)*; yönəlmək; *sich an Ort und Stelle ~* lazım olan yerə getmək; **2.** *(in Gefahr) sich in Gefahr ~* özünü təhlükəyə *(xətərə)* salmaq; **3.** *(mit G)* vaz keçmək; *sich s-r Rechte ~* öz hüququndan imtina etmək; **4.** *(an et.)* başlamaq; *sich an die Arbeit ~* işləməyə başlamaq; **5.** *(zur Ruhe)* yatmaq üçün uzanmaq; **6.** *(sich ereignen)* olmaq, baş vermək; *es begab sich, dass...* belə oldu ki...; *vt (ausgeben) H* satmaq, istifadəyə vermək.

**Begebenheit,** *die; -, -en* hadisə, qəza, olay, əhval.

**begegnen** *vi* **1.** rast gəlmək *(D/-ə)*; *ich bin ihm begegnet* mən ona rast gəldim; **2.** *(zustoßen)* üz vermək, başına gəlmək; *mir begegnete ein großes Unglück* mənə böyük bədbəxtlik üz verib; **3.** *(entgegentreten)* müqavimət göstərmək, çarə tapmaq, mane olmaq; **4.** *(behandeln)* rəftar etmək; *j-m mit Res-*

*pekt ~* birisi ilə ehtiramla rəftar etmək; *vr sich ~* qarşılaşmaq.

**Begegnung,** *die; -, -en* **1.** rastlaşma, qarşılaşma; **2.** *(Sport)* qarşılaşma; **3.** *(Besprechung)* görüşmə, təmas; **4.** *mil.* toqquşma.

**begehbar** *adj.* üzərində gedilə bilən; içinə girilə bilən.

**begehen** *vt* **1.** *(Feier, Fest)* keçirmək; **2.** *(Verbrechen usw.)* etmək, törətmək, mürtəkib olmaq; *e-n Fehler ~* xəta etmək; **3.** *(Eisenbahnstrecke)* yolu imtahan etmək *(ölçmək)* üçün dolanmaq; *Selbstmord ~* özünü öldürmək, intihar etmək, öz canına qəsd etmək.

**Begehren,** *das; -s* **1.** *(Wunsch, Verlangen)* arzu, tələb; **2.** *(Begierde)* həvəs; *~ nach -ə* arzu, *-i* arzulama.

**begehren** *vt* arzulamaq, tələb etmək, istəmək.

**begehrenswert** *adj.* istənilən, arzu edilən.

**begehrlich** *adj.* acgöz, tamahkar; *adv.* tamahla.

**begehrt** *adj.* rəğbətli, həvəsli.

**begeistern** *vt* ruhlandırmaq, həyəcanlandırmaq, ilhamlandırmaq, coşdurmaq, həvəsləndirmək; *vr sich ~* **1.** maraqlanmaq, başı qızışmaq, həyəcanlanmaq, ilhamlanmaq, coşmaq; **2.***(ganz hingerissen sein)* heyran olmaq, valeh olmaq *(für A/bir şeyə) fig.* havalanmaq.

**begeisternd** *adj.* ruhlandırıcı, həyəcanlandırıcı.

**begeistert** *adj.* həyəcanlı; valeh olmuş, heyran; həmiyyətli; coşğun, daşqın; *fig.* eşqli; *fig. ~ sein* havalanmaq, şövqə gəlmək, ruhlanmaq, vəcdə gəlmək, şövqlənmək.

**Begeisterung,** *die; -* həyəcan, ruhlanma, vəcd; ilham, fərəh, coşğunluq; həmiyyət; *in ~ geraten* ruhlanmaq, həyəcanlanmaq, vəcdə gəlmək, ilham almaq, fərəhlənmək.

**Begierde,** *die; -, -n* **1.** *(starkes Verlangen)* böyük arzu, böyük həvəs, şəhvət; **2.** *(Habsucht)* xəsislik, tamahkarlıq*; die ~ nach Reichtum* sərvətə olan hərislik; **3.** *(Appetit)* iştaha; **4.** *(Sucht)* mübtəlalıq.

**begierig** **1.** müştaq, təşnə *(nach D, auf A nəyəsə); ich bin ~ zu (+Inf. -mək üçün)* çox müştaqam; **2.** *(habgierig)* tamahkar, həris, xəsis.

**begießen** *vt* **1.** sulamaq, üstünə su səpmək; **2.** *F (Geburtstag usw.)* araq içib kef etmək.

**Beginn,** *der; -s* başlanğıc, başlantı, əzəl, əvayil; siftə; *von ~ an (lap)* başdan, əvvəlcədən, əvvəldən; *bei/zu ~* başlanğıcında; *-in* başında.

**beginnen** *vt* başlamaq *(mit D/ -ə, zu Inf./ -məyə, mağa); vi* başlanmaq; *das Konzert beginnt* konsert başlandı.

**Beginnen,** *das; -s (Unternehmen)* başlanma, işə başlama; təşəbbüs.

**beginnend** *adj.* başlayaraq *(mit D/ -dən).*

**beglaubigen** *vt (Unterschrift usw.)* təsdiq etmək, doğrulamaq, inandırmaq; *~ lassen* təsdiq etdirmək.

**beglaubigt** *adj.* təsdiq olmuş; etibarlı.

**Beglaubigung,** *die; -, -en* təsdiq etmə; şəhadət vermə, təsdiq.

**Beglaubigungsschreiben,** *das; -s, -* **1.** *(e-s Botschafters usw.)* etimadnamə; **2.** *(Bank)* etibarnamə.

**begleichen** *vt (Schuld, Rechnung usw.)* hesabı ödəmək, borcu vermək; *offene Rechnungen ~* haqlaşmaq, hesablaşmaq; hesabına yetişmək.

**begleiten** *vt* **1.** *(j-n irgendwohin)* yola salmaq; müşayiət etmək; *j-n nach Hause ~* bir kəsi evinə qədər yola salmaq; **2.** *(Fahrzeug)* eskort etmək; **3.** *(Musik) j-n auf dem Klavier ~* pianoda müşayiət etmək.

**Begleiter,** *der; -s, -* **1.** yol yoldaşı, yoldaş; **2.** *(e-r Gruppe)* rəhbər, bələdçi; **3.** *mus.* akkompaniator, dəmsaz; **4.** *pol. (Gefolge)* müşayiətçilər; *F (Begleiterin der Braut in der Hochzeitsnacht)* dərnə; *F* quyruq, cığırdaş.

**Begleiterscheinung,** *die; -, -en* əlavə effekt *(təsir)*, arizə*;* əlaqədar hadisə.

**Begleitung,** *die; -, -en* **1.** müşayiət, yola salma; **2.** *mus.* akkompanement, müşa-

yiət; *in ~ von* müşayiəti ilə; *ohne ~* yalnız olaraq, tək olaraq.

**beglich(en)** *s. begleichen.*

**beglücken** *vt* xoşbəxt etmək, sevindirmək; *j-n ~* bir kəsi xoşbəxt etmək.

**beglückwünschen** *vt (j-n zu et. D)* təbrik etmək, gözaydınlığı vermək, gözaydınlamaq.

**begnadet** *adj.* bacarıqlı, istedadlı.

**begnadigen** *vt* **1.** günahından keçmək; **2.** *pol.* bağışlamaq, əfv etmək; *begnadigt werden* bağışlanmaq.

**Begnadigung,** *die; -, -en* bağışla(n)ma, günah(ın)dan keçmə, əfv.

**Begnadigungsgesuch,** *das; -(e)s, -e* bağışla(n)ma haqqında vəsatət *(xahiş).*

**Begnadigungsrecht,** *das; -(e)s* bağışla(n)ma hüququ.

**begnügen** *vr sich ~* razı qalmaq; kifayətlənmək, keçinmək, dolanmaq *(mit D/ilə).*

**begonnen** *s. beginnen.*

**begossen** *s. begießen.*

**begraben** *vt* **1.**basdırmaq, dəfn etmək, quylamaq, gömdürmək; **2.** *(Hoffnungen)* ümidini kəsmək, ümidini itirmək; *e-n Streit ~* bir davanı *(savaşı)* yaddan çıxarmaq.

**Begräbnis,** *das; -ses, -se* **1.** basdırma; dəfn törəni *(mərasimi),* dəfn-kəfn etmə; **2.** *(Grabstätte)* qəbir, məzar.

**Begräbnisfeier,** *die; -, -n* dəfn mərasimi, basdırma mərasimi törəni.

**begradigen** *vt (z.B. Fluss, Straße)* düzləndirmək, düm-düz etmək.

**begreifbar** *adj.* anlaşılan, aydın, asan.

**begreifen** *vt (verstehen)* başa düşmək, anlamaq, qavramaq, qanmaq, hali olmaq; *nicht ~ können* anlaya bilməmək, ağlına sığışdıra bilməmək, başa düşməmək, hali olmamaq; *in sich ~* daxil etmək, əlavə etmək.

**begreiflich** *adj.* başadüşülən, aydın, ağlabatan, ağlasığan; *j-m et. ~ machen vt* kiməsə anlatmaq, başa salmaq, hali etmək.

**begreiflicherweise** *adv.* əlbəttə, söz yox ki, şübhəsiz ki.

**begrenzen** *vt* **1.** *(e-n Schaden, ein Risiko)* məhdudlaşdırmaq; **2.** *(e-e Grenze ziehen)* hədd qoymaq, sınırlamaq.

**begrenzt** *adj.* məhdud; *adv.* hüdudlu; *meine Zeit ist ~* vaxtım yoxdur, vaxtım məhduddur *(azdır).*

**Begrenztheit,** *die; -* məhdudluq.

**Begrenzung,** *die; -, -en* məhdudlaş(dır)ma, məhdudluq; sərhəd qoyma, sınır(lama).

**Begriff,** *der; -(e)s, -e* **1.** məfhum, anlayış; **2.** *(konkrete Vorstellung)* təsəvvür; **3.** *(Verstehen)* anlayış; *schwer von ~* kütbeyin; *im ~ (e) sein (od. stehen) zu Inf. -mək* niyyətində olmaq; *keinen ~ haben (von)* heç bir təsəvvürü olmamaq; *über alle ~e* son dərəcə, fövqəladə.

**begriff, ~en** *s. begreifen.*

**begrifflich** *adj.* mücərrəd, qavramsal.

**Begriffsbestimmung,** *die; -, -en* təşrih, tərif.

**begriffsstutzig** *adj.* kütbeyin, qanmaz, gec başadüşən.

**Begriffsvermögen,** *das; -s* idrak, anlayış qabiliyyəti, qavranış qüvvəsi.

**begründen** *vt* **1.** *(die Grundlage bilden)* əsaslandırmaq, əsasını qoymaq; **2.** *(z.B. e-e Behauptung)* isbat *(sübut)* etmək, səbəbini göstərmək.

**Begründer,** *der; -s, -* qurucu, əsasını qoyan, bani, yaradıcı.

**begründet** *adj.* *(gerechtfertigt)* haqlı; əsaslı, sübut olmuş, dəlilli.

**Begründung,** *die; -, -en* əsas, yaradılış; sübut; *ohne jede ~* haqsız yerə.

**begrüßen** *vt* **1.** salamlamaq, xoşgəldin demək, xoş-beş etmək; qarşılamaq; **2.** *(billigen)* uyğun görmək, müvafiq olmaq; *einander ~* salamlaşmaq, əhvallaşmaq, əhvalpürsanlıq etmək, bir-birinin halından xəbər almaq.

**Begrüßung,** *die; -, -en* salamlama, xoş-beş etmə, xoşgəldin demə, əhvalpürsan; qarşıla(n)ma.

**Begrüßungswort,** *das; -(e)s, -e* salamlama, xoşgəldin demə.

**begünstigen** *vt* **1.** *(unterstüzen, fördern)* kömək etmək, imkan yaratmaq; **2.**

*(schützen)* himayəçilik etmək, havadarlıq; **3.** *(vorziehen)* tərcih etmək, imtiyaz, üstünluk vermək; **4.** *(ein Verbrechen)* cinayəti gizlətməyə imkan yaratmaq; *vom Schicksal begünstigt sein* ulduzu parıldamaq.

**Begünstigung,** *die; -, -en* **1.** imkan yaratma; **2.** *(Bevorzugung)* tərcih.

**begutachten** *vt* **1.** *(seine Meinung äußern)* rəy vermək; **2.** *(fachmännisch beurteilen)* qiymət vermək, *ekspert* kimi öz rəyini demək *(yazmaq).*

**Begutachtung,** *die; -, -en* rəy vermə, mütəxəssis kimi fikrini demə *(yazma).*

**begütert** *adj.* varlı, zəngin, dövlətli.

**behaart** *adj.* tük basmış, tüklü, qıllı.

**behäbig** *adj.* **1.** yavaş tərpənən adam; **2.** *(Gestalt)* boylu-buxunlu; **3.** rahat.

**behaftet** *adj.* tutulmuş, mübtəla olmuş *(mit D/-ə); mit Fehlern ~ sein* səhvlə dolu olmaq.

**behagen** *vi* xoşa gəlmək, xoş olmaq; *es behagt mir* bu mənə xoşdur.

**Behagen,** *das; -s* **1.** rahatlıq, həzz; **2.** *(Genuss)*ləzzət, xoş hiss, məmnuniyyət.

**behaglich** *adj.***1.** *(angenehm)* xoş, xoşagələn; **2.** *(gemütlich)* rahat, sakit, fərəhləndirici; **3.** *(im Wohlstand lebend)* rifah içində; *sich ~ fühlen* özünü rahat hiss etmək.

**Behaglichkeit,** *die; -* rahatlıq, rifah, şərait.

**behalten** *vt* **1.** *(aufheben)* saxlamaq; **2.** *(im Gedächtnis)* yadda saxlamaq; **3.** *(recht)* haqlı çıxmaq; **4.** *(im Auge)* nəzərdən qaçırmamaq; **5.** *fig. den Kopf oben ~* ümidini kəsməmək, naümid olmamaq; **6.** *(bei sich)* bir şeyi gizlətmək; *für sich ~* özünə saxlamaq; **7.** *(die Oberhand)* üstün olmaq, qalib gəlmək *(über A/ nəyəsə).*

**Behälter,** *der; -s, -* qab; *Benzinbehälter* bak; *Wasserbehälter* xəzinə, hovuz.

**behände** *adj.* zirək; qıvraq.

**behandeln** *vt* **1.** *(umgehen mit)* rəftar etmək, davranmaq; **2.** *(ärztlich)* müalicə etmək; *sich ~ lassen* müalicə olunmaq; **3.** *(Thema)* müzakirə etmək; *wir ~ heute ein neues Thema* bugün yeni mövzu müzakirə edirik; **4.** *(gebrauchen)* istifadə etmək; *e-e Maschine richtig ~* maşından düzgün istifadə etmək.

**Behandlung,** *die; -, -en* **1.** rəftar, davranış, yanaşma; **2.** *med.* müalicə, tədavi; **3.** müzakirə; **4.** *techn.* emal etmə.

**Behandlungszimmer,** *das; -s, -* müayinə otağı.

**Behang,** *der; -(e)s, -¨e* **1.** *(Wandbehang)* divar örtüyü; **2.** *(Baumbehang)* ağacdan asılan meyvə.

**behängen** *vt* asmaq, bəzəmək *(et. mit et. /bir zadı /şeyi/ bir zaddan; bir zadı bir zad /şey/ ilə).*

**beharren** *vi* israr etmək, inadla üstündə durmaq, sabit qədəm olmaq; inad etmək, təkid eləmək, cəhl eləmək; *auf s-r Ansicht ~* fikrinin üstündə inadla durmaq *(təkid eləmək).*

**beharrlich** *adj.*daimi; inadcıl, sözünün üstündə duran; cəhlkar, təkidli; mətin, dayanıqlı.

**Beharrlichkeit,** *die; -* inadçılıq, tərslik, israr, ardıcıllıq, inadcıllıq, dayanıqlıq.

**behauchen** *vt* **1.** üfürmək; **2.** *(Spiegel usw.)* hohlamaq; *den Spiegel ~ und dann putzen* aynanı hohlayıb silmək.

**behauen** *vt* kəsmək, doğramaq; *adj.* kəsilmiş.

**behaupten** *vt* **1.** iddia etmək; inandırmaq, təsdiq etmək; **2.** *(Stellung, Feld)* müdafiə etmək, qorumaq; *vr sich ~* dayanmaq, müqavimət etmək, təsdiq olunmaq; yerində qalmaq.

**Behauptung,** *die; -, -en* iddia, fikir; tez, sübüt.

**Behausung,** *die; -, -en* ev, mənzil, məskən, sığınacaq.

**beheben** *vt* *(Fehler, Schwierigkeiten) usw.)* aradan qaldırmaq.

**Behebung,** *die; -* aradan qaldırma.

**beheimatet** *adj.* **1.***(gebürtig)* doğulmuş; **2.** *( wohnhaft)* sakin, yaşayan, müqim.

**beheizen** *vt* qızdırmaq, isitmək.

**Behelf,** *der; -(e)s, -e* müvəqqəti çarə.

**behelfen** *vr sich ~* **1.** *(mit Wenigem)* kifayətlənmək, qənaətlənmək, keçinmək

*(mit D/ nə iləsə); sich mit geringen Mitteln ~* az vəsaitlə dolanmaq *(keçinmək)*; **2.** *(sich ohne et. ~)* dolanmaq, keçinmək, bir təhər dolanmaq.

**behelfsmäßig** *adj.* müvəqqəti, ötəri.

**behelfsweise** *adv.* müvəqqəti olaraq.

**behelligen** *vt* zəhmət vermək, zəhmətə salmaq, narahat etmək, əziyyətə salmaq *(mit D/ nə ilə-sə); j-n mit et. ~* bir kəsi zəhmətə salmaq *(bir şey ilə).*

**Behelligung,** *die; -, -en* zəhmət vermə.

**behend(e), behände** *adj.* **1.** *(schnell)* tələsik, tez, sürətli; **2.** *(geschickt)* cəld, zirək, mahir, dəli-dolu.

**Behendigkeit, Behändigkeit,** *die; -* zirəklik; tələsiklik, tezlik.

**beherbergen** *vt* sığınacaq vermək; *j-n ~* bir kəsə sığınacaq vermək, evində qonaq etmək.

**beherrschen** *vt* **1.** *(regieren)* hökm sürmək, hakim olmaq; **2.** *(Sprache)* yaxşı bilmək, dili mükəmməl bilmək*; ich beherrsche die deutsche Sprache* mən alman dilini yaxşı *(mükəmməl)* bilirəm; **3.** *(im Zaum halten)* cilovlamaq, saxlamaq; *s-e Leidenschaften ~* öz ehtirasını cilovlamaq *(saxlamaq); vr sich ~* özünü ələ almaq, nəfsinə qalib gəlmək, özünə hakim olmaq.

**beherrschend** *adj.* -ə hakim.

**Beherrscher,** *der; -s, -* hökmdar.

**Beherrscherin,** *die; -, -nen* hökmdar *(qadın).*

**beherrscht** *adj.* səbrli, təmkinli.

**Beherrschung,** *die; -* **1.** hökmranlıq, -ə hakimiyyət; **2.** *(Selbstkontrolle)* özünə hakim olma, özünü ələ alma; *s-e ~ verlieren* əsəbi olmaq; *F* daşmaq.

**beherzigen** *vt* *(Ratschlag usw.)* qəbul etmək, nəsihətə baxmaq *(qulaq vermək).*

**beherzt** *adj.* *(mutig)* qoçaq, igid, cəsarətli.

**Beherztheit,** *die; -* igidlik, cəsarət.

**behexen** *vt* cadulamaq, ovsunlamaq.

**behilflich** *adj. ~ sein (D/-ə)* kömək etmək, yardım etmək, köməkçi olmaq.

**behindern** *vt* qarşısını almaq, mane olmaq *(j-n bei D/kiməsə, nədəsə); fig.* əl-ayağa dolaşmaq, əngəl olmaq.

**behindert** *adj. med.* **1.** *(körperlich)* şikəst, əlil; **2.** *(geistig)* kəmağıl, ağıldan zəif.

**Behinderte,** *der; -n, -n* **1.** üzrlü; əngələ düşmüş; **2.** *(körperlich)* şikəst, əlil.

**Behinderung,** *die; -, -en* mane, maneçilik, əngəl, fələclik.

**behorchen** *vt* **1.** gizlicə qulaq asmaq; **2.** *med.* xəstəni müayinə etmək *(qulağa taxılan alətlə).*

**Behörde,** *die; -, -n* rəsmi məqam, hakimiyyət orqanı; hökumət məmurları *(orqanı),* idarə, hakim dairələr.

**Behördenweg,** *der; -(e)s, -e* qanun yolu, rəsmi yol.

**behördlich** *adj.* rəsmi, qanuni.

**Behuf,** *der; -(e)s, -e* məqsəd, ehtiyac, tələb, lüzum; *jur. zu diesem ~* bu məqsədlə.

**behufs** *präp. G* ..üçün, ..məqsədə görə.

**behüten** *vt* qorumaq, mühafizə etmək, hifz etmək *(vor D/nədənsə)*; *fig.* saxlamaq; *Gott behüte Sie!* Tanrı sizi saxlasın!

**behutsam** *adj.(vorsichtig)* ehtiyatlı, diqqətli.

**Behutsamkeit,** *die; -* ehtiyat*(lılıq).*

**bei** *präp D* **1.** *(Ort, Person)* yanında, yaxınında, qırağında, böyüründə, yaxın, civarında*; Potsdam liegt ~ Berlin* potsdam berlinin yanındadır *(yaxınındadır); beim Arzt* həkimin yanında; **2.** *(Zeit)* vaxtı, ikən; *~ Nacht* gecə vaxtı; **3.** *(trotz)* baxmayaraq, rəğmən; *~ alledem* buna baxmayaraq, buna rəğmən; *~ mir* yanımda, əlimdə, məndə; *bei uns* bizdə, yanımızda; *ich habe kein Geld bei mir* yanımda pul yoxdur; *beim Essen* yeməkdə; *~ Gott* vallah; *bei Licht* işıq altında; *~ weitem nicht so* heç də belə deyil; *~ Sinnen sein* ağlı başında olmaq; *nicht ganz ~ sich sein* ağlı başında olmamaq.

**bei-** *präf (hinzu)* əlavə, yaxınlıq mənasını verir.

**beibehalten** *vt* olduğu kimi saxlamaq, mühafizə etmək, dəyişməmək.

**Beiblatt,** *das; -(e)s, -¨er* əlavə vərəq, əlavə səhifə.

**beibringen** *vt* **1.** *(Beweise)* gətirmək; **2.** *(Niederlage)* məğlub etmək; **3.** *(Verluste)* ziyan vurmaq; **4.** *(lehren)* başa salmaq, öyrətmək, elmləndirmək; **5.** *(beschaffen)* hazırlamaq, tədarük görmək; **6.** *(Wunde) -i* yaralamaq; **7.** *(mitteilen)* demək, söyləmək.

**Beichte,** *die; -, -n* **1.** *allg.* etiraf, boynuna alma; **2.** *rel.* tövbə.

**beichten** *vt* günahını boynuna almaq, etiraf etmək; tövbə etmək.

**beidarmig** *adj.* ikiqollu.

**beidäugig** *adj.* ikigözlü.

**beide** *adj.* hər ikisi, ikisi; *wir ~* hər ikimiz; *alle ~* hər ikisi; *auf ~n Seiten* hər iki tərəfdən; *keiner von ~n* heç birisi, nə o, nə obirisi.

**beidemal** *adv.* hər iki dəfə.

**beiderlei** *adj.* iki cür, iki tərəfli.

**beiderseits** *adv.* qarşılıqlı olaraq, ikitərəfli olaraq.

**beiderseitig** *adj. (gegenseitig)* qarşılıqlı; ikitərəfli.

**beides** *adj.* hər ikisi.

**beieinander** *adv* bir-birinin yanında, yan-yana; *F gut (schlecht) ~* özünü yaxşı *(pis)* hiss etmək.

**Beifahrer,** *der; -s, -* sürücü yanında oturan, şofer köməkçisi.

**Beifall,** *der; -(e)s* **1.** *(Applaus)* alqış; **2.** *(Zustimmung)* bəyənmə, təhsin; *~ klatschen D* alqışlamaq, əl çalmaq.

**beifällig** *adj.* müsaid, əlverişli, bəyənməli; *~ nicken* bəyənmək, razılaşmaq.

**Beifallsbezeugung,** *die; -, -en* alqışlama.

**Beifallsruf,** *der; -(e)s, -e* afərin, bravo.

**beifügen** *vt (hinzufügen)* əlavə etmək, qoymaq; *e-m Brief ein Bild ~* məktuba şəkil əlavə etmək.

**Beifügung,** *die; -* əlavə etmə, artırma.

**Beigabe,** *die; -, -n* əlavə, zəmim(e).

**beigeben** *vt* əlavə etmək, əlavələtmək; *vi klein ~ F* inad etməmək, güzəşt etmək.

**beigefügt** *adj.* əlavə, zəmimə.

**Beigeschmak,** *der; -(e)s* pis dad, tam; *fig. e-n bitteren ~ haben* acı olmaq.

**beigesellen** *vt* birləşdirmək, qoşmaq, qatmaq; *sich ~* qatılmaq, qoşulmaq.

**Beihilfe,** *die; -, -n* **1.** kömək, yardım, köməklik; **2.** *(finanzielle)* maddi yardım.

**beikommen** *vi* **1.***(meistern)* öhdəsindən gəlmək; -ə tay olmaq; **2.** *(an et. herankommen)* yaxın gəlmək, yaxınlaşmaq; **3.** *(in den Sinn kommen)* ağla gəlmək, fikrə gəlmək; **4.** təsir qoymaq.

**Beil,** *das; -(e)s, -e* balta; qazma.

**Beilage,** *die; -, -n* **1.** *(e-r Zeitung)* əlavə vərəq; **2.** *(e-s Briefes)* əlavə; **3.** *(Speisen)* yavanlıq, qarnir *(xörəklərə əlavə).*

**beiläufig** *adj. (nebenbei)* sözarası, yeri gəlmişkən; *adv. (ungefähr, circa)* təqribən, təxminən.

**beilegen** *vt* **1.***(hinzufügen)* əlavə etmək; **2.** *(Streit)* yatırtmaq, həll etmək; qaydasına salmaq; **3.** *( e-r Sache beimessen)* əhəmiyyət vermək, mühüm saymaq, önəm vermək.

**Beilegung,** *die; -* yatırtma, həll etmə, qurtarma, qaydaya salma, əl götürmə.

**beileibe** *adv. : ~ nicht* heç vaxt, əsla, əslən; *das ist ~ nicht so* bu, heç də belə deyil.

**Beileid,** *das; -(e)s* başsağlığı; *sein ~ aussprechen/bekunden* başsağlığı vermək *(j-m/-ə)*; *mein herzliches ~!* başın sağ olsun!, başınız sağ olsun!

**Beileidsschreiben,** *das; -s, -* başsağlığı yazısı.

**beiliegend** *adj.* əlavə edilmiş; *adv.* bununla bərabər, buna əlavə olunmuş.

**beimengen** *vt* əlavə etmək, qatmaq.

**beimessen** *vt* əhəmiyyət vermək, qiymət vermək*; e-r Sache große Bedeutung ~* bir şeyə böyük qiymət vermək.

**beimischen** *vt* qarışdırmaq, qatmaq.

**Beimischung,** *die; -, -en* qatma.

**Bein,** *das; -(e)s, -e* ayaq *(pəncəyə qədər),* qıç, bacaq; **1.** *(Tisch)* ayag, qıç; **2.** *(Knochen)* sümük; *es geht mir durch Mark und ~* ürəyimi *(iliyimi)* yandırır; **3.**

*(Elfenbein)* fildişi; *wieder auf die ~e bringen vt* 1. *(gesundheitlich)* bir kəsi sağaltmaq; 2. *(geschäftlich)* ayağa qaldırmaq; *sich auf die ~e machen* yola düşmək; *j-m ein ~ stellen* bir kəsə badalaq vurmaq; *fig.* bir kəsə ziyan vurmaq; *auf eigenen ~en stehen* heç kəsdən asılı olmamaq, öz başını saxlamaq; *Lügen haben kurze ~e Spr.* yalanın ömrü qısa olur.

**beinah(e)** *adv.* az qalmışdı ki, az qala, heçdən; *~ wäre er gefallen* az qalmışdı yıxılsın.

**Beiname,** *der; -ns, -n* ləqəb.

**Beinarbeit,** *die; - (Sport)* ayaq hərəkəti, qıç hərəkəti.

**Beinbruch,** *der; -(e)s, -¨e* qıçın *(ayağın)* sınması; *das ist kein ~! fig.* bu o qədər də qorxulu deyil!, qiyamət qopmadı!.

**beinern** *adj.* sümükdən, sümükdən düzəldilmiş *(düzəlmiş).*

**beinhalten** *vi* daxilində olmaq, içinə almaq, qavramaq, tərkibində yerləşmək, ehtiva etmək; *fig.* daşımaq.

**beiordnen** *vt* **1.** daxil etmək, qatmaq, əlavə etmək, yanına almaq; **2.** *(koordinieren)* bağlamaq, əlaqələndirmək.

**Beinprothese,** *die; -, -n* ayaq protezi.

**beipflichten** *vi* **1.** *e-r Sache (D) ~* bir şeyə razı olmaq; *j-m bezüglich et. ~* kimləsə nədəsə razılaşmaq; **2.** *(e-r Ansicht)* fikrini bəyənmək.

**Beirat,** *der; -(e)s, -¨e* **1.** *(Körperschaft)* müşavirlər qrupu, məsləhətçi qrupu; **2.** *(Person)* məsləhətçi, müşavir.

**beirren** *vt* şübhəyə salmaq, mütərəddid etmək; *sich nicht ~ lassen* bildiyindən şübhə etməmək.

**beisammen** *adv.* birlikdə, bir yerdə.

**Beisammensein,** *das; -s* birlikdə olma, birgə olma, yığıncaq, *geselliges ~* şadlıq məclisi.

**Beischlaf,** *der; -(e)s* cinsəl yaxınlıq etmək, eşqbazlıq; *den ~ vollziehen* sevişmək; *(vulg.)* qayırmaq.

**Beisein,** *das; -s : im ~ G (von D) -in* iştirakında; *-in* yanında.

**beiseite** *adv.* kənara, kənarda, bir yana, bir tərəfə; *Spaß ~!, Scherz ~!* zarafat bir yana!, zarafatsız!; *~ lassen* kənarda qoymaq, bir yana qoymaq; *~ legen* 1. kənara qoymaq; 2. *(sparen)* qənaət etmək, yığmaq; *~ nehmen* bir yana çəkmək, kənara çəkmək; *~ schaffen* 1. *F (ermorden)* aradan qaldırmaq, yox etmək; **2.** *(verstecken)* gizlətmək; *~ schieben* nəzərə almamaq, nəzərdə tutmamaq.

**beiseitelassen** *vt* kənarda qoymaq.

**beiseitelegen** *vt* kənara qoymaq.

**beiseitenehmen** *vt* bir yana çəkmək, kənara çəkmək.

**beiseiteschaffen** *vt* **1.** *F (ermorden)* aradan qaldırmaq, yox etmək; **2.** *(verstecken)* gizlətmək.

**beisetzen** *vt* basdırmaq, dəfn etmək.

**Beisetzung,** *die; -, -en* basdırma, dəfn mərasimi *(törəni),* dəfn-kəfn.

**Beisitzer,** *der; -s, -* məhkəmə heyətinin üzvü *(iclaslarda);* yardımçı.

**Beispiel,** *das; -s, -e* **1.** misal, nümunə, örnək, qənir; *zum ~* misal üçün; **2.** *(warnendes ~)* ibrət, dərs; *sich ein ~ nehmen (an D/-kimdənsə, nədənsə)* nümunə götürmək; *mit gutem ~ vorangehen* yaxşı nümunə olmaq; *ein ~ nennen* misal çəkmək *(vurmaq)*; *pl.* əmsal.

**beispielgebend** *adj.* nümunəvi, örnək olan.

**beispielhaft** *adj.* nümunəlik, örnək ola bilən, nümunəvi.

**beispiellos** *adj.* misilsiz, tayı-bərabəri olmayan, təkrarolunmaz; *F* qənirsiz.

**beispielshalber** *adv.* misal üçün, məsələn, örnək olaraq.

**beispielsweise** *adv.* misal üçün, örnək olaraq.

**beispringen** *vi* kömək etmək; *j-m in der Not ~* darda olana kömək etmək, dadına çatmaq.

**beißen** *vt* **1.** dişləmək; **2.***(Insekt, Schlange)* sancmaq, vurmaq, çalmaq, dalamaq; *er wurde von e-r Schlange in den Fuß gebissen* ilan onu ayağından çaldı *(vurdu);* **3.** *(Hund)* qapmaq; dalamaq; **4.** *(kauen)* çeynəmək; *er kann das trockene*

*Brot nicht ~* o quru çörəyi çeynəyənmir; *vi (Pfeffer, Säure)* yandırmaq, yaxmaq; *fig.* incitmək; əzab vermək, dalamaq; *in den Apfel ~* almanı dişləmək; *fig. ins Gras ~ müssen* ölmək; *fig. in den saueren Apfel ~* ürəyə yatmayan bir işi görmək; *vr sich auf die Zunge ~* dilini dişləmək.

**beißend** *adj.* yeyici, aşındırıcı; *fig.* zəhərli, acı; kəskin; *~er Spott* acı istehza, acı gülüş; *~es/stechendes Tier (Schlange, Skorpion)* çalağan heyvan.

**Beistand,** *der; -(e)s, -¨e* **1.** *nur sg.* kömək, yardım, tərəfdarlıq; *~ leisten* kömək *(yardım)* etmək; *fig.* dalında durmaq; **2.** *jur.* müşavir, hüquq məsləhətçisi; qəyyum.

**Beistandspakt,** *der; -(e)s, -e* qarşılıqlı kömək haqqında müqavilə.

**Beistandsvertrag,** *der; -(e)s, -¨e s. Beistandspakt.*

**beistehen** *vi* **1.** *(helfen)* kömək etmək *(D/-ə),* tərəfdar çıxmaq; **2.** *(j-s Recht verteidigen)* haqqını müdafiə etmək.

**Beistelltisch,** *der; -(e)s, -e* kiçik masa *(miz).*

**beisteuern** *vt* öz payını vermək; *Geld zu e-r Feier ~* bir əyləncə üçün pul vermək *(öz hissəsini vermək).*

**beistimmen** *vi (D)* razı olmaq, bəyənmək, razılaşmaq *(nə iləsə).*

**Beistimmung,** *die; -* razılıq.

**Beistrich,** *der; -(e)s, -e* vergül (,).

**Beitrag,** *der; -(e)s, -¨e* **1.** kömək, yardım; hissə, payına düşən; iştirak; **2.** *(Mitgliedsbeitrag)* üzvlük haqqı; **3.** *(schriftlich)* məqalə; **4.** *(Mitwirkung)* iştirak, birlikdə işləmə.

**beitragen** *vt* bir işin yerinə yetirilməsinə yardım etmək, imkan yaratmaq, zəmin yaratmaq *(zu D/nədəsə),* əlindən gələni əsirgəməmək, zənginləşdirmək.

**beitragsfrei** *adj.* üzvlük haqqından azad.

**Beitragserhöhung,** *die; -, -en* üzvlük haqqının artması.

**Beitragsleistung,** *die; -, -en* üzvlük haqqının verilməsi.

**beitreten** *vi (D)* **1.** *(e-r Partei)* üzv olmaq, daxil olmaq; **2.** *(e-r Meinung)* qoşulmaq, razılaşmaq.

**Beitritt,** *der; -(e)s, -e* girmə, daxil olma *(təşkilata);* qoşulma *(fikirə, sazişə).*

**Beitrittsbedingungen,** *die/pl.* üzvlük şərtləri.

**Beitrittserklärung,** *die; -, -en* üzvlük-ərizəsi, daxil olmaq haqda ərizə.

**Beitrittsgebühr,** *die; -, -en* üzvlük haqqı, daxil olma üzvlük haqqı.

**Beitrittsgesuch,** *das; -(e)s, -e* üzvlük ərizəsi, daxil olmaq niyyəti.

**beiwohnen** *vi (D)* **1.** *(e-m Ereignis)* iştirak etmək, hazır olmaq, -ə şahid olmaq; **2.** *(e-r Frau)* cinsi rabitəsi olmaq.

**Beiwort,** *das; -(e)s, -¨er gr.* sifət.

**Beize[1],** *die; -, -n* **1.** *(Beizmittel)* yeyici kimyəvi maddə; **2.** *(Marinade)* soys; **3.** *(für Holz)* suboyası.

**Beize,** [2] *die; -, -n (Beizjagd)* ov quşu ilə ova getmə.

**beizeiten** *adv.* **1.** *(rechtzeitig)* vaxtında; **2.** *(frühzeitig)* tezdən, qabaqcadan.

**beizen** *vt* **1.** yandırmaq *(yeyici maddə ilə);* **2.** ova getmək *(ov quşu ilə);* **3.** *(Fleisch usw.)* soysa yatırtmaq; **4.** *(Holz)* suboyası ilə boyamaq.

**bejahen** *vt* doğrulamaq, təsdiq etmək, müsbət cavab vermək,; *e-e Frage ~* bir suala müsbət *(olumlu)* cavab vermək.

**bejahend** *adj.* təsdiqedici; müsbət, olumlu .

**bejahrt** *adj.* yaşlı, ahıl, yaşıötmüş.

**Bejahung,** *die; -* müsbət *(olumlu)* cavab, razılıq.

**bejammern** *vt* oxşamaq, sızıldamaq, fəryad etmək.

**bejammernswert** *adj.* ağlamalı, zavallı, acınacaqlı.

**bejubeln** *vt* alqışlamaq.

**bekämpfen** *vt* **1.** mübarizə aparmaq, *-ilə* mübarizə etmək, dəf etmək; *e-e Krankheit ~* xəstəliyə qalib *(üstün)* gəlmək; **2.** *(Feuer)* söndürməyə çalışmaq.

**Bekämpfung,** *die; -* mübarizə, dəf etmə, yatırılma.

**bekannt** *adj.* tanış, məşhur, şöhrətli, görkəmli, məruf*;* aşna; *er ist in Täbriz ~* o təbrizdə məşhurdur; *mit j-m ~ sein* birisi ilə tanış olmaq; *ich möchte mit ihm ~ werden* onunla tanış olmaq istəyirəm; *unbekannt* tanış olmayan, naməlum, yad; *es ist ~, dass* məşhurdur ki, .., necə deyirlər; *~ machen* açıqlamaq, elan etmək, bildirmək; ifşa etmək; *das ist mir ~* onu bilirəm; *~ werden* ifşa olmaq; *F* dillərə düşmək, dildən-dilə düşmək.

**Bekannte,** *der u. die; -n, -n* tanış *(kişi, qadın),* dost*; ein ~r von mir* mənim tanışlarımdan birisi.

**Bekanntenkreis,** *der; -es, -e* tanışlar, dostlar, yanyövrə, dost-aşna *pl.*.

**Bekanntgabe,** *die;* - bildiriş, elan, açıqlama.

**bekanntgeben** *vt* bildiriş vermək, bildirmək, elan etmək, car çəkmək.

**bekanntlich** *adj.* məlum olduğu kimi.

**bekanntmachen** *vt* **1.** tanış etmək *(mit D/-ilə)*; **2.** bildirmək, elan etmək; car çəkmək.

**Bekanntmachung,** *die; -, -en* bildiriş, elan, açıqlama, elam; car.

**Bekanntschaft,** *die; -, -en* **1.** tanışlıq, aşnalıq; **2.** *(Personen)* tanışlar *pl;* **3.** *(Kenntnis)* məlumat, bilik; *~ machen/schließen* tanış olmaq.

**bekanntwerden** *vi* üzə çıxmaq, məlum olmaq, yayılmaq.

**bekehren** *vt* **1.***(Religion)* gətirmək, döndərmək *(düzgün yola, dinə); j-n zum Glauben ~* dinə gətirmək, inandıraraq qəbul etdirmək; **2.** *(j-n zu s-r Ansicht ~)* əqidəsini dəyişdirmək.

**Bekehrung,** *die;* - döndərmə, çevirmə *(başqa dinə);* əqidəsini dəyişdirmə.

**bekennen** *vt u. vi (sein Schuld usw.)* etiraf etmək; *Farbe ~ fig.* açıq danışmaq; *vr sich schuldig ~* öz günahını boynuna almaq; *sich zu j-m ~* birisinin tərəfini saxlamaq, tərəfdarlıq etmək, tərəfdar çıxmaq; *sich zur Demokratie ~* demokratiyanın tərəfdarı olmaq.

**Bekenner,** *der; -s,* - etiraf edən.

**Bekenntnis,** *das; -ses, -se* **1.***(Eingeständnis)* boynuna alma, etiraf, iqrar; **2.***(Konfession)* din; məzhəb, iman.

**beklagen** *vt* **1.** təəssüf etmək, heyfslənmək; *es ist sehr zu ~, dass ...* çox təəssüf ki,..; **2.** *(den Tod usw.)* ağlamaq, oxşamaq; *vr sich ~ (bei j-m/ über A/nədənsə)* şikayət etmək, şikayətlənmək.

**beklagenswert** *adj.* təəssüfə dəyən, acınacaq, həqir.

**Beklagte,** *der u. die; -n, -n jur.* cavabdeh, müttəhim.

**beklauen** *vt F j-n ~* bir kəsin bir şeyini *(zadını)* oğurlamaq.

**bekleben** *vt* üstünə yapışdırmaq *(mit D/ -ilə).*

**bekleckern** *vt* ləkələmək; *sich ~* üstünü ləkələmək, üstünü bulamaq, üstünü batırmaq; *fig. F sich nicht mit Ruhm ~* özünü rüsvay etmək, biabır olmaq.

**bekleiden** *vt* **1.**geymək; geyin(dir)mək; **2.** *(e-e Wand)* örtmək, vurmaq; *die Wand mit e-m Teppich ~* divara xalça vurmaq; **3.** *(schmücken)* bəzəmək; **4.** *(Amt)* vəzifə tutmaq.

**Bekleidung,** *die; -, -en* geyim, paltar, libas.

**Bekleidungsindustrie,** *die;* - tikiş *(hazır paltar istehsal edən)* sənaye, toxuculuq.

**beklemmen** *vt* sıxışdırmaq; *es beklemmt mir den Atem* nəfəsim sıxılır *(kəsilir).*

**beklemmend** *adj. (Gefühl usw.)* sıxıcı, darıxdırıcı; əzici.

**Beklemmung,** *die; -, -en* sıxıntı.

**beklommen** *adj.* ağır, sıxıcı.

**Beklommenheit,** *die;* - sıxıntı; boğucu.

**beklopfen** *vt* taqqıldatmaq, döymək; *med.* tiqqıldadaraq müayinə etmək.

**bekloppt** *adj. F* səfeh, axmaq.

**beknackt** *adj. F* səfeh, axmaq.

**beknien** *vt bir şey üçün* yalvarmaq, çox xahiş etmək.

**bekommen** *vt* almaq; əldə etmək, əxz etmək; *vi* **1.** *(erreichen) -ə* yetişmək; **2.** *(Angst)* qorxmaq; **3.** *(Arbeit)* işi tapmaq; **4.** *(Kinder)* doğmaq; *sie bekommt ein Kind* onun uşağı olacaq; **5.** *(Besuch)* qonağı gəlmək; **6.** *(Durst, Hunger)* su-

suzluq *(aclıq)* hiss etmək, susuzlamaq, acmaq *(acalmaq)*; **7.** *(Zähne, Geschwür)* diş, çiban çıxartmaq; **8.** *(Schläge)* kötək yemək; **9.** *(Krankheit)* tutmaq; *vi (j-m guttun)* xeyrinə qulluq etmək; *es bekommt mir gut* bu mənə faydalıdır; *wohl bekomm's!* nuş olsun!, nuşi can!; *et. geschenkt ~* bir şeyi hədiyyə almaq.

**bekömmlich** *adj.*faydalı, düşərli; həzm olan.

**beköstigen** *vt* yedirtmək, yedirdib-içirtmək.

**Beköstigung,** *die;* - **1.**qonaqlıq; **2.***(Kost)* yemək, xörək; ərzaq.

**bekräftigen** *vt* **1.** *(bestätigen)* təsdiq etmək, imza etməklə təsdiqləmək; **2.** *(unterstützen)* kömək etmək; qüvvətləndirmək, möhkəmləndirmək, təkid etmək, isnad etmək.

**Bekräftigung,** *die;* - təsdiq, sübut, dəlil; təkid etmə; kömək etmə.

**bekränzen** *vt* çələng ilə bəzəmək, əklillə bəzəmək.

**bekreuzigen** *vr sich ~* xaç çəkmək *(kilsəyə daxıl olan zaman).*

**bekriegen** *vt* savaşmaq, döyuş aparmaq, müharibə etmək; *vr sich ~* bir-biri ilə didişmək *(savaşmaq, döyüşmək).*

**bekritteln** *vt* yersiz irad tutmaq; pisləmək.

**bekritzeln** *vt* cızma-qara yazmaq, qaralamaq.

**bekümmern** *vt (trauig machen)* kədərləndirmək, təşvişə salmaq; *sich ~ (über A)* kədərlənmək *(nədənsə); sich ~ (um A) (sorgen für)* qayğısına qalmaq, qayğısını çəkmək *(kiminsə, nəyinsə); was bekümmert Sie das?* bunun sizə nə dəxli var?

**Bekümmernis,** *die; -, -se* qəm, qüssə, kədər, qayğı.

**bekümmert** *adj.* **1.** *(traurig)* kədərli, qüssəli; dərdli, gözüyaşlı, dağ(i)dar; **2.** *(besorgt)* qayğılı, iztirablı, fikirli.

**bekunden** *vt* **1.** *(zeigen)* göstərmək, bildirrmək, nümayiş etdirmək, bəyan etmək; **2.** *(vor Gericht)* ifadə vermək, şahidlik etmək.

**belächeln** *vt -ə* gülmək, istehza ilə gülmək; gülümsəmək.

**belachen** *vt* gülmək.

**beladen** *vt* yükləmək *(mit D/-i); (ein Maultier)* çatmaq, yükləmək.

**Belag,** *der; -(e)s, -¨e* **1.***(Schicht)* qat, lay, təbəqə; üz **2.** *(Zahnbelag)* plak; **3.** *(Zungenbelag)* bar, ərp; **4.** *(Tischtennisbelag)* raket üzü *(üstü);* **5.** *(Brotbelag)* buterbroda yaxılan yavanlıq, çörəyin üstünə yaxılan yağ, pendir və s.; **6.** *(Fußbodenbelag)* döşəmə, döşənək; *mit e-m ~ bedeckt sein* bar bağlamaq .

**Belagerer,** *der; -s, -* mühasirəçilər, mühasirə edənlər, araya alanlar.

**belagern** *vt* mühasirə etmək, qomarlamaq, araya almaq, qomarmaq.

**Belagerung,** *die; -, -en* mühasirə; *die ~ aufheben* mühasirədən çıxartmaq.

**Belagerungszustand,** *der; -(e)s, -¨e* mühasirə vəziyyəti.

**Belang,** *der; -(e)s, -e* əhəmiyyət, önəm; *~e pl.* mənafe; maraq; *von ~* əhəmiyyətli, önəmli; *ohne ~* əhəmiyyətsiz, önəmsiz; *pl. ~e (Interessen)*xeyir, fayda.

**belangen** *vt* **1.** *(betreffen)* aidiyyəti olmaq; *was mich belangt* mənə gəldikdə; **2.** məsuliyyətə cəlb etmək.

**belanglos** *adj.* əhəmiyyətsiz, önəmsiz.

**Belanglosigkeit,** *die; -, -en* **1.** *(Unwichtigkeit)* mühüm olmayan, əhəmiyyətsiz, önəmsiz, mənasız; **2.** *(Geschwätz)* boş danışıq; söhbətcillik.

**belangvoll** *adj.* mühüm, əhəmiyyətli, önəmli.

**belassen** *vt* **1.** azad buraxmaq, azad qoymaq; dəyişdirməmək; *j-n bei s-r Meinung ~* öz fikrində buraxmaq; *et. an s-m Platz ~* yerində qoymaq.

**belastbar** *adj.* -ə dayanıqlı, dayanığı olan; davamlı.

**Belastbarkeit,** *die;* - dayanıqlıq; *bis zur Grenze der ~ -in* dayanabiləcəyinə qədər.

**belasten** *vt* **1.** yükləmək, yük vurmaq *(mit D)*; **2.** *(vor Gericht)* ittiham etmək, günahlandırmaq; **3.** *(mit Schuld, Sorgen usw.)* əzmək, sıxmaq, incitmək; *diese*

*Arbeit belastet mich* bu iş məni incidir; **4.** *(mit Schadstoffen)* *-i* zəhərləmək.

**belastend** *adj.* sıxıcı, yorucu.

**belästigen** *vt* **1.** *(zudringlich sein)* təngə gətirmək, bezdirmək, zəhlə aparmaq; **2.** *(stören)* zəhmət vermək, baş ağrısı vermək, zinhara gətirmək, bənd eləmək, bənd olmaq; **3.** *(sexuell)* sataşmaq.

**Belästigung,** *die; -, -en* zəhmət, baş ağrısı, rahatsızlıq; *(sexuell)* sataşma.

**Belastung,** *die; -, -en* **1.** yükləmə; yük, ağırlıq; **2.** *jur.* ittiham, təqsir; *erbliche ~* irsi xəstəlik; *sie ist zu einer ~ geworden* o çiyinə yük olub.

**Belastungsmaterial,** *das; -s; -ein* ittihamedici material; dəlillər.

**Belastungszeuge,** *der; -n, -n jur.* ittiham şahidi.

**belauben** *vr sich ~ (Bäume)* yarpaqlanmaq, yarpaqla örtülmək.

**belaubt** *adj.* yarpaqlı.

**belauern** *vt* güdmək; *belauert werden* güdülmək.

**belaufen** *vr sich ~ auf A* dəyərində *(məbləğində)* olmaq; *Ihre Rechnung beläuft sich auf 200 Euro* hesabınız 200 € məbləğindədir.

**belauschen** *vt* gizlicə qulaq asmaq.

**beleben** *vt* **1.** canlandırmaq, dirçəltmək, canlatmaq, ehya etmək; **2.** *fig.* həvəsləndirmək, oyatmaq, hala gətirmək; **3.** *H* açılmaq, yaxşı olmaq.

**belebend** *adj.* *(anregend)* canlandırıcı, cantəzələyən; cəlbedici.

**belebt** *adj.* canlı, fəal; hərəkətli, şuluq, gur ; *e-e ~e Straße* canlı küçə, çox hərəkət olan küçə; *~ werden* canlanmaq.

**Belebung,** *die; -* canlan(dır)ma, ehya.

**belecken** *vt* yalamaq.

**Beleg,** *der; -(e)s, -e* **1.** *(Beweis)* dəlil; **2.** *(Beispiel)* misal, örnək; **3.** *(Beweis, urkunde)* vərəqə, vəsiqə, sənəd, qəbiz.

**belegen** *vt* **1.** *(Platz)* tutmaq, rezerv etmək; **2.** *(bedecken)* örtmək; sərmək; **3.** *(beweisen)* isbat etmək, sübut etmək; **4.** *(mit e-r Strafe ~)* cəzalandırmaq; **5.***(Vorlesung)* yazılmaq, seçmək; **6.** *(mit Beschlag ~)* əl qoymaq, tutmaq; **7.** *(Name)* ad qoymaq, ad vermək; *mit Bomben ~* bombalamaq; *Brot mit Käse ~* çörəyin üstünə pendir *(pənir)* qoymaq.

**Belegschaft,** *die; -, -en* bir müəssisənin işçiləri; işçi kollektivi, personel.

**belegt** *adj.* **1.***(Zunge)* ərp bağlamış, bar bağlamış; **2.** *(Platz)* tutulmuş; rezerv olmuş; **3.** *(Stimme)* boğuq; **4.** *(Brot)*üstünə qoyulmuş *(pendir, kalbas və s.),* bürünmüş; *ein ~es Brötchen* buterbrod; **5.** *(Hotel)* dolu; *das ist nirgends ~ (nachgewiesen, dokumentiert)* bu heç bir yerdə sübut olmayıb; bu heç bir yerdə qeyd olmayıb.

**belehren** *vt* öyrətmək, başa salmaq; məlumat vermək, elmləndirmək; öyüd vermək, nəsihət vermək; *j-n e-s Besseren ~* kimisə başa salıb fikrini dəyişmək; bir kəsin dərsini vermək.

**belehrend** *adj.* nəsihətverici, öyüdverici, öyrədici; ibrətli.

**Belehrung,** *die; , -en* **1.** *(Rat)* nəsihət, öyüd; **2.** *(Lehre)* dərs, ibrət, ibrət dərsi; **3.** *(Anweisung)* öyrətmə, təlimat.

**beleibt** *adj.* kök, ətli-canlı, dolu.

**beleidigen** *vt* təhqir etmək, xatirinə dəymək; incitmək, azar vermək, dilxor etmək, sinsitmək; *deine Worte beleidigten ihn* sözlərin onu incitdi; *ich wollte Sie nicht ~!* sizi incitmək istəmirdim!

**beleidigend** *adj.* toxunan, ürəksındıran, təhqiredici, təhqirli, azarverici.

**Beleidigung,** *die; -, -en* təhqir, ehtiramsızlıq; inci(t)mə, inciklik, sinsitmə, azürdəlik.

**beleihen** *vt* girov saxlamaq *(borc vermək üçün)*; ssuda vermək; *ein Haus ~* bir binanı girov saxlamaq *(borc vermək üçün)*.

**belemmert, belämmert,** *adj. F* **1.** *(Personen)* məyus; kədərli; **2.** *(Lage)* pis, xoşa gəlməyən; *F* səfeh, ağılsız; *der neue Lehrer ist ~* yeni müəllim səfehdir.

**belesen** *adj.* bilikli, çox oxumuş, məlumatlı.

**beleuchten** *vt* işıqlandırmaq; aydınlaşdırmaq. işıldatmaq.

**Beleuchtung,** *die; -, -en* işıqlandırma; aydınlaşdırma; işıq.

**Beleuchtungskörper,** *der; -s, -* lampa.

**Belgien;** *-s* Belçika, *(Süd. : beljik).*

**Belgier,** *der; -s, -* belçikalı, *(Süd. : beljikli).*

**Belgierin,** *die; -, -nen* belçikalı *(qadın).*

**belgisch** *adj.* belçikalı.

**belichten** *vt* işıq vermək, nur vermək.

**Belichtung,** *die; -* işıq *(nur)* vermə.

**Belichtungsmesser,** *der; -s, -* fotometr, işıqölçən.

**belieben** *vt* **1.** *(gefallen) wie es Ihnen beliebt* istədiyiniz kimi; ixtiyar sizindir; **2.** *(geruhen)* lütf etmək, mərhəmət etmək; **3.** *(wünschen)* arzu etmək.

**Belieben,** *das; -s* ixtiyar, arzu, istək, əzm, iradə, qərar; *nach ~* istənilən kimi, öz arzusu *(ixtiyarı)* ilə.

**beliebig** *adj.* hər hansı, istənilən*; an jeder ~en Stelle* hər hansı bir yerdə, istənilən yerdə; *zu jeder ~en Stunde* hər vaxt, istənilən vaxtda.

**beliebt** *adj.***1.** sevilən, sevimlı; **2.** *H* rəvacda olan; *sich bei j-m ~ machen* kiminsə məhəbbətini qazanmaq.

**Beliebtheit,** *die; -* məhəbbət, rəğbət; məhbubiyyət, məşhurluq.

**Beliebtheitsgrad,** *der; -* məşhurluq dərəcəsi.

**beliefern** *vt* çatdırmaq, mal təhvil vermək *(mit D/bir şeyi).*

**Belieferung,** *die; -, -en* çat(dır)ma, göndər(il)mə, təhvil ver(il)mə.

**bellen** *vt* hürmək, havlamaq.

**Bellen,** *das; -s* hürmə, hürüş.

**Belletrist,** *der; -en, -en* ədib, yazıçı, hekayəyazan.

**Belletristik,** *die; -* bədii ədəbiyyat, ədəbi əsərlər.

**belletristisch** *adj.* ədəbi.

**belob(ig)en** *vt* tərifləmək, öymək.

**Belobigung,** *die; -, -en* tərif, təhsin, öy(ül)mə.

**belohnen** *vt* mükafat vermək, mükafatlandırmaq *(für A/-ə),* ödülləndirmək; *belohnt werden* mükafatlanmaq.

**Belohnung,** *die; -, -en* mükafat, ödül, təltif; *veralt.* əcr; *F* dəs(t)xoş; *zur ~* ödül olaraq.

**belüften** *vt* havalandırmaq.

**Belüftung,** *die; -, -en* hava vermə, havanı dəyişmə.

**Belüftungsanlage,** *die; -, -n* havavermə təsisatı.

**belügen** *vt* yalan demək, yalan danışmaq; *j-n ~* birisinə yalan demək; *vr sich selbst ~* özünü aldatmaq, özünə yalan demək.

**belustigen** *vt* əyləndirmək, şənləndirmək; *vr sich ~* əylənmək, şənlənmək; *sich über j-n ~* kimisə ələ salmaq, məsxərəyə qoymaq.

**belustigend** *adj.* əyləndirici.

**Belustigung,** *die; -, -en* şənlik, əyləncə.

**bemächtigen** *vr sich ~ (G) nəyəsə* sahib olmaq, ələ keçirmək, tutmaq, pəncəsinə keçirmək, sahiblənmək.

**bemäkeln** *vt* hər şeydə bir qüsur axtarıb tənqid etmək, mızıldamaq, eyib tutmaq.

**bemalen** *vt* boyamaq, rəngləmək.

**bemängeln** *vt* eyib tutmaq; *daran ist nichts zu ~* bunda heç bir eyib *(nöqsan)* yoxdur.

**bemannen** *vt* ekip *(heyət)* ilə təchiz etmək; *das Schiff ~* gəmini ekip *(heyət)* ilə təchiz etmək.

**bemannt** *adj.* ekip ilə təchiz olmuş; *ein mit vier Astronauten ~es Raumschiff* ekipi *(heyəti)* dörd nəfərdən ibarət kosmik gəmi.

**Bemannung,** *die; -* ekip *(heyət)* ilə təchiz etmə.

**bemänteln** *vt* örtmək, gizlətmək, örtbasdır etmək.

**bemeistern** *vt (beherrschen)* hakim olmaq, sahib olmaq; *s-n Zorn ~* öz hirsinə hakim olmaq.

**bemerkbar** *adj.* diqqətəlayiq, gözəçarpan; *sich ~ machen* diqqəti özünə cəlb etmək, özünə qarşı diqqət oyatmaq.

**bemerken** *vt* **1.** *(wahrnehmen)* müşahidə etmək, görmək; **2.** *(äußern)* öz fikrini demək; **3.** *(nachdrücklich)* qeyd etmək.

**bemerkenswert** *adj.* diqqətəlayiq; mü-

hüm; layiq.

**Bemerkung,** *die; -, -en* **1.** *(mündliche)* fikir, söz; **2.** *(schriftliche)* qeyd, mülahizə.

**bemessen** *vt* ölçmək; təyin etmək.

**Bemessung,** *die; -* ölçmə.

**Bemessungsgrundlage,** *die; -, -n* vergi təyin etmək üçün dəyər kataloqu *(sistemi)*.

**bemitleiden** *vt* yazığı gəlmək, rəhmi *(rəhmə)* gəlmək, rəhm eləmək; ürəyi yanmaq, acımaq, həmdərdlik etmək.

**bemitleidenswert** *adj.* acınacaqlı, təəssüfə layiq, acınacaq durumda, səfil, ağlamalı.

**bemittelt** *adj.* varlı, zəngin.

**bemogeln** *vt F* aldatmaq.

**bemopsen** *vt F* dəyərsiz bir şeyi oğurlamaq, cibinə qoymaq.

**bemühen** *vt* zəhmət vermək, narahat etmək; yormaq, zəhmətə salmaq; *vr sich (sehr) ~ (um et.) -məyə* səy etmək, çalışmaq, canyandırmaq, çabalamaq, cidd-cəhd etmək, ciddiyyət göstərmək, özünü dağa-daşa vurmaq, dəridən çıxmaq, güc vurmaq, gücənmək *(nədən ötrüsə)* əlləşmək; *sich um j-n ~* çalışmaq; əlləşmək *(kimdən ötrüsə); ~ Sie sich nicht!* zəhmət çəkməyin!, narahat olmayın!; *darf ich Sie noch einmal ~?* icazə buyurursunuz sizə bir daha zəhmət verəm?

**Bemühung,** *die; -, -en* səy, çalışma, əlləşmə, cəhd, qayə, cidd-cəhd, çaba, haqq-say; təşəbbüs.

**bemüßigt** *adj.* məcbur; *sich ~ sehen* özünü məcbur görmək.

**bemuttern** *vt* birisinə analıq etmək.

**benachbart** *adj.* qonşu, yanaşı; *das ~e Dorf* qonşu kənd.

**benachrichtigen** *vt* xəbər vermək, xəbərdar etmək, demək *(über A/bir şey haqda)*.

**Benachrichtigung,** *die; -, -en* xəbər, məlumat, bildiriş, çağırış vərəqəsi.

**benachteiligen** *vt* haqsızlıq etmək.

**Benachteiligung,** *die; -, -en* haqsızlıq; zərər *(ziyan)* vurma.

**benageln** *vt* mıxlamaq.

**benagen** *vt* gəmirmək.

**benannt** *adj.* adlanan, adlandırılmış, adlı, *(nach D/-ə görə)*.

**benebeln** *vt* **1.** dumanlandırmaq; **2.** *(betrunken machen)* sərxoş etmək, kefləndirmək.

**benebelt** *adj. F* kefli.

**Benefiz,** *das; -es, -e* xeyriyyəçilik.

**Benefizkonzert,** *das; -(e)s, -e* xeyriyyə konserti, xeyriyyəçilik məqsədi üçün tərtib olunan konsert.

**benehmen** *vt* **1.** *(j-m die Möglichkeit) ..dən* məhrum etmək; əlindən almaq; **2.** *fig. (j-m den Atem)* nəfəsini kəsmək; **3.** *(Hoffnung)* kəsmək; *vr sich ~* özünü aparmaq, rəftar etmək, davranmaq; *F* hərəkət etmək; *benimm dich gut!* özünü yaxşı apar!, *sich anständig ~* ədəbli rəftar etmək *(davranmaq)*, ədabazlıq etməmək.

**Benehmen,** *das; -s* rəftar, davranış, hərəkət, əməl, gəliş, kirdar; qılıq, əda, əxlaq; *j-m gutes ~ beibringen* bir kəsi ədəbləndirmək; *F* adam etmək.

**beneiden** *vt (j-n um A)* həsəd aparmaq, paxıllıq etmək, qibtə yemək *(kiməsə, nədən ötrüsə)*.

**beneidenswert** *adj.*həsəd oyadan, qibtə oyadan.

**Beneluxländer,** *die/pl.*beneluks ölkələri *(belçika, hollandiya, lüksemburq)*.

**benennen** *vt* **1.**adlandırmaq; adını çəkmək; **2.** *(festsetzen)* təyin etmək; *j-n als Zeuge ~* bir kəsi şahid gətirmək.

**Benennung,** *die; -, -en* adlandırma; təyin etmə.

**benetzen** *vt* bir az islatmaq, nəm etmək, yaş etmək; sulamaq.

**Bengel,** *der; -s, -* **1.** *(Knüppel)* dəyənək, ağac; **2.** *F (Junge)* oğlan uşağı; *kleiner ~* şuluqçu, dəcəl, nadinc uşaq.

**benommen** *adj.* **1.** *(leicht betäubt)* pərt olmuş; gic, gay; **2.** *(vom Trinken)* kefli.

**benoten** *vt (Schularbeit)* qiymət vermək *(Süd. : nömrə vermək)*.

**benötigen** *vt* ehtiyacı olmaq, möhtac olmaq.

**benutzbar** *adj.*işə yararlı,dərdə dəyən.

**benutzen, benützen** *vt* istifadə etmək, qullanmaq, fazdalanmaq.

**Benutzer,** *der; -s, -* istifadə edən.

**Benutzung,** *die; -* istifadə hüququ.

**Benutzungsgebühr,** *die; -, -en* istifadə haqqı *(ücrəti)*.

**Benzin,** *das; -s, -e* benzin.

**Benzinbehälter,** *der; -s, -* benzin qabı.

**Benzinkanister,** *der; -s, -* *s. Benzinbehälter.*

**Benzinverbrauch,** *der; -(e)s, -¨e* benzin işlətmə.

**Benzol,** *das; -s, -e Chem.* benzol.

**beobachten** *vt* **1.** baxmaq, müşahidə etmək; **2.** *(heimlich)* güdmək, göz qoymaq, izləmək; **3.** *(Vorschriften)* riayət etmək; *j-n ganzen Tag ~* günləmək.

**Beobachter,** *der; -s, -* müşahidəçi; gözətçi, nəzarətçi, güdükçü.

**Beobachtung,** *die; -, -en* müşahidə; riayət; qoruma, baxma; güdük, izləmə; *unter ~ stehen* göz altında olmaq.

**Beobachtungsstation,** *die; -, -en* rəsədxana.

**beordern** *vt (nach), (zu D)* əmr vermək; *j-n zu sich ~* gəlməyinə əmr vermək; *er wurde nach Baku beordert* o bakıya göndərildi *(çağırıldı)*.

**bepacken** *vt* yük vurmaq, yükləmək.

**bepflanzen** *vt* əkmək *(mit D)*.

**bepflastern** *vt* **1.** *(kleinere Wunde)* plastır yapışdırmaq; **2.** *(Straße)* döşəmək *(mit D)*.

**bequem** *adj.* **1.***(behaglich)* rahat, dinc; **2.** *(träge)* tənbəl; rahatlıq istəyən; **3.** *(passend)* münasib; asudə; *es sich ~ machen* rahat oturmaq, özünə rahat yer etmək.

**Bequemlichkeit,** *die; -, -en* **1.** rahatlıq, dinclik; **2.** *nur sg.* tənbəllik.

**berappen** *vt F (zahlen)* ödəmək, xərcini çəkmək, *~ müssen* xərcləməyə məcbur olmaq, könülsüz xərcləmək.

**beraten** *vt* **1.** *(et. oder über et.)* danışmaq; müşavirə etmək; **2.** *(j-n)* məsləhət vermək, yol göstərmək, nəsihət vermək *(über A)*; *vr sich mit j-m ~ (über A wegen G)* məsləhətləşmək *(kimləsə, nə haqdasa)*; *~de Versammlung* müşavirə iclası.

**Berater,** *der; -s, -* məsləhətçi, müşavir, müvəkkil.

**beratschlagen** *vi* məsləhətləşmək *(mit j-m über A/kimləsə nə haqdasa)*.

**Beratung,** *die; -, -en* müşavirə, müzakirə, danışma, məsləhət*(ləşmə)*, gənəşik.

**Beratungsstelle,** *die; -, -n* məsləhətxana.

**Beratungszimmer,** *das; -s, -* müşavirə otağı, məsləhətxana.

**berauben** *vt* **1.** soymaq, var-yoxunu əlindən almaq, qarət etmək; **2.** *(j-m et. entziehen)* məhrum etmək, əlindən almaq; *j-n des Vermögens ~* var-yoxunu əlindən almaq.

**Beraubung,** *die; -, -en* qarət, soyma.

**berauschen** *vt* kefləndirmək, sərxoş etmək; *vr sich ~* **1.** *(sich betrinken)* keflənmək; **2.** *(et. Schönes auf sich wirken lassen)* həzz almaq, zövq almaq.

**berauschend** *adj.* kefləndirici.

**Berauschung,** *die; -* keflənmə.

**berauscht** *adj.* kefli; *fig.* həyəcanlı.

**berechnen** *vt* **1.** hesablamaq, saymaq, hesabaalmaq; **2.** *(schätzen)* təxmin etmək; **3.** *(j-m et. ~)* hesabına keçirtmək, hesabına yazmaq; *gut ~ fig.* ölçüb-biçmək, hesabaalmaq.

**berechnend** *adj. (eigennützig)* öz xeyrini bilən.

**Berechnung,** *die; -, -en* **1.** hesablama, hesabaalma; təxmin; haqlaşma; **2.** *nur sg. (Eigennützigkeit)* tamahkarlıq; mənfəətgüdmə.

**berechtigen** *vt* haqq vermək, ixtiyar vermək, yetki vermək *(zu D/üçün)*; *j-n ~ et. zu tun* bir işi görmək üçün birisinə ixtiyar vermək, yetki vermək.

**berechtigt** *adj.* **1.** *(Person)* haqqı olan, hüququ olan, haqlı, səlahiyyətli, yetkili *(zu D/ -ə)*; **2.***(legitim)* qanuni;**3.** *(begründet)* əsaslı, haqlı; *~ oder unberechtigt* haqlı və ya haqsız, haqq-nahaq.

**Berechtigung,** *die; -, -en* haqq, həqq, hüquq, səlahiyyət, yetki, həqqaniyyət,

tam ixtiyar *(zu et. -ə).*

**bereden** *vt* **1.** *(et. mit j-m)* müzakirə etmək, görüşüb-danışmaq; **2.** *(überreden)* yola gətirmək*; vr sich ~ (sich beraten)* görüşmək, danışmaq, müşavirə etmək *(kimləsə)*.

**beredsam** *adj.* nitq qabiliyyəti olan, cümləpərdaz, bəlağət sahibi.

**Beredsamkeit,** *die; -* gözəl danışma qabiliyyəti, bəlağət, fəsahət.

**beredt** *adj.* natiq, gözəl danışan, bəlağətlə; *F* çox danışan, sarsaqlayan.

**Bereich,** *der; -(e)s, -e* sahə, mühit; dairə; *im ~ der Literatur* ədəbiyyat sahəsində; *das gehört nicht in den ~ meiner Pflichten* bu mənə aid olan iş deyil; *im ~ der Möglichkeit* imkan daxilində.

**bereichern** *vt* **1.** zənginləş(dir)mək, varlandırmaq; **2.** *(Wissen usw.)* artırmaq, çoxaltmaq; *vr sich ~ an (D) / auf Kosten (G)* qanuna-zidd yollarla varlanmaq, bir kəsin hesabına dövlətlənmək; *fig.* həram yemək.

**Bereicherung,** *die; -, -en* varlanma, zənginləşmə, dövlətlənmə.

**bereifen** *vt* **1.** *(Fass)* çənbər taxmaq; **2.** *(Auto)* təkərlərə lastik keçirtmək.

**Bereifung,** *die; -, -en* təkərlərə lastik keçirtmə.

**bereinigen** *vt* **1.** *(Angelegenheit usw.)* sahmana salmaq, qaydaya salmaq; **2.** *(Schwierigkeiten)* aradan qaldırmaq; **3.** *(Rechnung)* ödəmək, təsviyə etmək.

**Bereinigung,** *die; -* sahmana salma; mübahisəli məsələlərin həlli.

**bereisen** *vt* səyahət etmək, gəzmək *(miniklə).*

**bereit** *adj. (zu D/ nəyəsə)* hazır, amadə; *sich ~ machen* hazırlaşma; *bist du ~?* hazırsan?; *~ sein* hazır olmaq.

**bereiten** *vt* **1.** *(Essen usw.)* hazırlamaq; **2.** *(Empfang)* qarşılamaq; **3.** *(Freude)* sevindirmək; **4.** *(j-m Schwierigkeiten ~ )* bir kəsi çətinliyə salmaq, çətinlik yaradmaq; **5.** *(Kummer)* bir kəsin kədərinə səbəb olmaq.

**bereithalten** *vt* hazır saxlamaq.

**bereitliegen** *vi* hazır olmaq.

**bereitmachen** *vt (für A)* hazırlamaq; *vr sich ~ (für A/ nəyəsə)* hazırlaşmaq, hazırlanmaq.

**bereits** *adv.* **1.** *(schon früher)* artıq, çoxdan; **2.** *(gerade eben)* elə indi, indidən.

**Bereitschaft,** *die; -, -en* **1.** *nur sg.* hazırlıq, hazır olma; **2.** *nur sg. (innere)* razılıq, istək; **3.** *mil.* hazırlıq vəziyyəti, amadəlik.

**Bereitschaftspolizei,** *die; -, -* ehtiyat polis bölməsi.

**bereitstehen** *vi* hazır olmaq, durmaq.

**bereitstellen** *vt* qabaqcadan hazırlamaq.

**bereitwillig** *adj.* həvəsli, könüllü; *adv.* könüllü olaraq, istəyərək; *ein ~er Helfer* könüllü yardımçı.

**Bereitwilligkeit,** *die; -* hazırlıq.

**berennen** *vt* hücum etmək, həmlə etmək.

**bereuen** *vt* **1.** peşman olmaq; **2.** *(bedauern)* təəssüf etmək, peşmançılıq çəkmək; *fig.* əl ovuşdurmaq; *das wirst du noch ~!* peşman olacaqsan!.

**Berg,** *der; -(e)s, -e* **1.** dağ; **2.** *(Haufen)* qalaq; *längst über alle ~e sein fig.* izi-tozu qalmamaq, əmin-aman yerə çatmaq; *fig. über den ~ sein* çətinlikləri aradan qaldırmaq; *mir stehen die Haare zu ~e (vor Schreck)* tuklərim biz-biz olur.

**bergab** *adv.* dağaşağı; *~ gehen (fahren)* aşağı getmək; *es geht ~ mit ihm (Geschäfte, Gesundheit)* işləri ağırlaşır; səhhəti ağırlaşır.

**bergan** *adv.* yuxarı, dağa.

**Bergarbeiter,** *der; -s, -* şaxtaçı, mədən işçisi.

**bergauf, bergaufwärts** *adv.* yuxarı, dağa; *~ gehen (fahren)* yuxarı getmək; *fig. es geht ~ mit ihm* vəziyyəti yaxşılaşır.

**Bergbau,** *der; -(e)s* mədənçilik.

**Bergbauingenieur,** *der; -s, -e* mədən mühəndisi.

**Bergbewohner,** *der; -s, -* dağlı, dağ əhli.

**bergehoch** *adj.* çox baha.

**bergen** *vt* **1.** *(verstecken)* gizlətmək; **2.** *(aus e-r Gefahr)*qurtarmaq, xilas etmək;

**3.** *(in Sicherheit bringen)* təhlükədən uzaqlaşdırmaq, əmniyyət altına almaq; **4.** *(in sich enthalten)* tərkibində olmaq, içində olmaq; **5.** *(Leichen usw.)* çıxartmaq *(aus Trümmern usw.).*

**Bergführer,** *der; -s, -* dağ rəhbəri.

**Berggipfel,** *der; -s, -* dağ başı, dağ zirvəsi.

**bergig** *adj.* **1.** *(gebirgig)* dağ-daş, dağlıq; **2.** *(mit Höhen u. Niederungen)* enişli-yoxuşlu, dağ-dərə.

**Bergkessel,** *der; -s, -* böyük çuxur, iri çala; vulkan ağzı.

**Bergkette,** *die; -, -n* dağ silsiləsi, dağlar.

**Bergland,** *das; -es, -¨er* dağlıq, dağlıq ərazi; *Berg Karabach* dağlıq Qarabağ.

**Bergmann,** *der; -(e)s, -leute* mədənçi, mədən işçisi, şaxtaçı.

**Bergpass,** *der; -es, -¨e* gədik.

**Bergrutsch,** *der; -(e)s, -e* çökmə, sürüşmə.

**Bergsteiger,** *der; -s, -* dağçı, alpinist.

**Bergsturz,** *der; -es, -¨e* dağ uçqunu.

**Bergung,** *die; -, -en (in Seenot usw.)* xilas etmə, köməyinə çatma, qurtarma.

**Bergwerk,** *das; -(e)s, -e* mədən, mina.

**Bergwesen,** *das; -s* mədənçilik.

**Bergziege,** *die; -, -n* dağ keçisi.

**Bericht,** *der; -(e)s, -e* məlumat; xəbər, məruzə; hesabat; güzariş *~ erstatten D -ə* məlumat vermək,*(über A/ bir şey haqqında).*

**berichten** *vt* xəbər vermək, söyləmək, məlumat vermək, güzariş vermək.

**Berichterstatter,** *der; -s, -* müxbir, referent, məruzəçı.

**Berichterstattung,** *die; -* məlumatın verilməsi; xəbər vermə.

**berichtigen** *vt (korregieren)* düzəliş aparmaq, təshih etmək, düzəltmək; *vr sich ~* səhvini düzəltmək.

**Berichtigung,** *die; -, -en* düzəliş, düzətmə, islah, qaydaya salınma.

**beriechen** *vt* iyləmək, qoxulamaq; *Hunde ~ einander* itlər bir-birlərini iyləyirlər.

**berieseln** *vt* islatmaq, sulamaq.

**Berieselung,** *die; -, -en* sulama.

**Berieselungsanlage,** *die; -, -n* sulama dəzgahı.

**beritten** *adj.* atlı.

**Berlin** Berlin.

**Berlinale,** *die; -, -n* Berlinale, Berlində kinofilm festivalı.

**Berliner,** *der; -s, -* **1.** berlinli; **2.** *(Kuchen)* bir növ şirni, berliner.

**berlinerisch** *adj.* berlinə məxsus, berlini; berlin ləhcəsində.

**Bernhardiner,** *der; -s, -* bernardiner, it növü.

**Bernstein,** *der; -(e)s* kəhrəba.

**bersten** *vi* **1.** *(Glas, e-e Mauer)* çatlamaq; **2.** *(vor Ärger, Zorn, Wut)* partlamaq; *vor Lachen ~ fig.* gülməkdən partlamaq *(ölmək).*

**berüchtigt** *adj.* bədnam, adıçıxmış, tanınmış *(pislikdə),* adıbədnam.

**berücken** *vt* özünə cəlb etmək, məftun etmək, heyran etmək; *e-e ~de Schönheit* məftun edən *(məftunedici)* gözəl *(gözəllik).*

**berückend** *adj.* məftunedici, heyranedici.

**berücksichtigen** *vt* nəzərə almaq, hesaba almaq, məhəl qoymaq; *nicht ~* nəzərdən qaçırmaq, *nicht berücksicht werden* nəzərdən qaçmaq.

**Berücksichtigung,** *die; -* nəzərə alma, hesaba alma, məhəl qoyma; *unter ~ G* nəzərə alaraq; *ohne ~* nəzərə almadan.

**Beruf,** *der; -(e)s, -e* sənət, peşə, ixtisas; *von ~ Lehrer* ixtisası müəllimçilik olan; *e-n ~ ausüben* bir ixtisasda işləmək, bir peşədə işləmək.

**berufen** *vt* **1.** *(zu et.)* təyin etmək; **2.** *(Geister)* çağırmaq; **3.** *(Parlament)* iclasa dəvət etmək; *vr sich ~ (auf A)* istinad etmək, əsaslanmaq *(nəyəsə, kiməsə).*

**beruflich** *adj. (Ausbildung usw.)* ixtisas təhsili; *adv. ~ unterwegs* iş üçün yolda olma; *was machst du ~?* ixtisasın nədir?

**Berufsausbildung,** *die; -, -en* ixtisas təhsili, peşə təlimi.

**Berufsberater,** *der; -s, -* ixtisas məs-

ləhətçisi.

**Berufsberatung,** *die; -* ixtisas məsləhətçiliyi.

**Berufskrankheit,** *die; -, -en* peşə xəstəliyi, peşə naxoşluğu.

**berufsmäßig** *adj.* professional; ixtisaslı, vəzifəli.

**Berufsschule,** *die; -, -n* sənət məktəbi, peşə məktəbi.

**berufstätig** *adj.* işləyən, iş-guc sahibi.

**berufsunfähig** *adj.* işləyə bilməyən, xəstə, bacarıqsız.

**Berufsverband,** *der; -(e)s, -¨e* peşə ittifaqı *(birliyi).*

**Berufsverbot,** *das; -(e)s, -e* iş*(ləmə)* qadağanı, müəyyən peşə ilə məşğul olma qadağanı, peşənin qadağan edilməsi.

**Berufswahl,** *die; -* peşə seçmə.

**Berufszweig,** *der; -(e)s, -e* ixtisas, peşə ixtisası.

**darauf** *adv.* **1.** *(zeitlich)* ondan sonra; *den Tag ~* ertəsi gün; **2.** *(räumlich)(bunun)* üstünə, üstündə, üzərinə; *lege das Buch ~* kitabı *(bunun)* üstünə qoy; *es kommt ~ an* bu, ondan asılıdır; *er kommt nicht ~* o heç cür yadına sala bilmir; *verlassen Sie sich ~* arxayın olun, əmin olun; *bald ~* bir az sonra, bunun dalınca; *~ wollen wir trinken!* bunun sağlığına içək!.

**darauffolgend** *adj.* gələn, gələcək, ertəsi.

**daraufhin** *adv.* **1.** *(demgemäß)* buna görə, beləliklə; **2.** *(zeitlich)* bundan sonra, bunun dalınca; **3.** *( räumlich)* ona tərəf, ona doğru.

**daraus** *adv.* bundan; ondan; *~ lernen* bundan dərs almaq; *was wird ~ ?* bunun axırı nə olacaq? *~ wird nichts* bundan bir şey olmayacaq; *ich mache mir nichts ~* heç vecimə deyil; *wer hat ~ getrunken?* bundan kim içib?

**darben** *vi* yoxsulluq çəkmək, ac qalmaq, ehtiyac içində yaşamaq.

**darbieten** *vt* təqdim etmək, göstərmək; *vr sich ~* **1.** *(Gelegenheit)* ələ düşmək; *e-e Gelegenheit bietet sich dar* imkan ələ düşüb; **2.** *(Film usw.)* tamaşaya çıxarmaq, göstərmək; *et. zum Verkauf ~* satmaq üçün təklif etmək.

**Darbietung,** *die; -, -en* **1.** *Th.* ifa, tamaşa,; **2.** təqdim.

**darbringen** *vt* **1.** *(Geschenk)* təqdim etmək, hədiyyə vermək; **2.** *(Opfer)* vermək, qurban vermək.

**darein** *adv.* içinə.

**dareinfinden** *vr sich ~* vəziyyəti olduğu kimi qəbul etmək; razılaşmaq.

**dareinfügen** *vr sich ~, s. dareinfinden.*

**darf** *s. dürfen.*

**darin** *adv.* **1.** *(räumlich)* bunun *(onun)* içində; *was ist ~?* bunun içində nə var?; **2.** *(in dieser Beziehung)* bu sahədə, bu nöqteyi nəzərdən, bu haqda;bu baxımdan *~ stimme ich mit Ihnen überein* bu haqda siz ilə razıyam; *~ irren Sie sich!* bunda yanılırsınız!; *~ bin ich sehr gut* bu işin ustasıyam, bu işin ustadıyam.

**darinnen** *adv.* içində.

**darlegen** *vt* şərh etmək, izah etmək, ifadə etmək, anlatmaq; *s-e Meinung ~* öz fikrini anlatmaq.

**Darlegung,** *die; -, -en* izah etmə, anlatma; şərh, izahat, təsvir, izah, açıqlama.

**Darlehen,** *das; -s, -* borc, ödünc, kredit, ariyət; *(ohne Schuldenschein)* əblorcu; *ein ~ aufnehmen* kredit almaq *(bei D/-dən).*

**Darlehensempfänger,** *der; -s, -* borc alan, borclu.

**Darlehensgeber,** *der; -s, -* borc verən.

**Darlehenskasse,** *die; -, -n* borc kassası, borc sandığı.

**Darlehenszins,** *der; -es, -en* borc faizi, istiqraz faizi *(Süd. : bəhrə).*

**Darm,** *der; -(e)s, -¨e* bağırsaq; *(Zwölffingerdarm)* onikibarmaq bağırsaq.

**Darmblutung,** *die; -, -en* bağırsaq qanaxması *(qanaması).*

**Darmentzündung,** *die; -, -en* bağırsaq iltihabı.

**Darmverschlingung,** *die; -, -en* bağırsaqların dolaşması.

**Darmverschluss,** *der; -es, -¨e* bağırsaq qapanması.

**darreichen** *vt* təqdim etmək, vermək.

**darren** *vt* qurutmaq.

**Darrhaus,** *das; -es, -¨er* qurudulan yer.

**darstellen** *vt* **1.** *(zeigen)* göstərmək; **2.** *(schildern)* təsvir etmək; **3.** *Th.* ifa etmək, oynamaq.

**Darsteller,** *der; -s, -* artist, aktyor, ifaçı, rolu ifa edən.

**Darstellung,** *die; -, -en* **1.** *Th.* ifa etmə; **2.** *(Aussage)* şərh vermək, göstərmə, açıqlama, təsvir etmə.

**dartun** *vt* **1.** *(beweisen)* sübut etmək; **2.** *(zeigen)* göstərmək; **3.** *(erklären)* şərh vermək, izah etmək.

**darüber** *adv.* **1.** *(örtlich)* üzərində*(n),* üzərinə, üstündə; *ein Haus mit e-r Antenne ~* üstündə anteni olan ev; **2.** *(betreffs)* bu barədə, bu babda; *denke ~ gründlich nach* bu barədə dərin düşün; *ich freue mich ~* buna sevinirəm; **3.** *(mehr)* daha çox; *~ hinaus* bundan əlavə, bundan artıq; *darüber werden Jahre vergehen* üstündən illər keçəcək.

**darum** *adv.* **1.** *(Grund)* ona görə, buna görə, bunun üçün; *es geht mir ~, dass ..* əhəmiyyət verdiyim məsələ budur ki..; *~ geht es nicht* söhbət bundan getmir; *mach dir ~ keine Sorgen!* bundan narahat olma!; **2.** *(Ort)* ətrafında; *s. a. Verben mit Präp. um.*

**darunter** *adv.* **1.** *(unten)* altında; *(nach unten)* altına; **2.** *(zwischen)* arasında, arasına; *es waren auch Kinder ~* aralarında uşaqlar da var idi; *~ liegen* altında olmaq; *was verstehst du ~?* bunu dedikdə nə başa düşürsən?

**daruntersetzen** *vt (Unterschrift)* altına *(aşağasına)* imza qoymaq, imzalamaq.

**Darwinismus,** *der; -* darvinizm.

**das** *Art. (n)*; *s.a. der, die; ~ da* bu; *~ und ~* o bu; onu bunu.

**dasein** *vi* olmaq, mövcud olmaq, hazır olmaq; *er ist gleich wieder da!* o indi gəlir!, o indi gələcək; *es ist kein Brot mehr da* çörək qalmayıb, çörək qurtayıb.

**Dasein,** *das; -s* varlıq, həyat, dolanacaq, mövcud olma; *der Kampf ums ~* yaşamaq uğrunda mübarizə; *ins ~ treten* yaranmaq, törənmək.

**daselbst** *adv. lit.* eyni yerdə.

**dasitzen** *vi (boş-boş)* oturmaq, oturub qalmaq.

**dass** *konj.* ki; üçün, ötrü, görə; *er war so müde, ~ ..* o elə yorğun idi ki..; *die Behauptung, ~ ..*bu iddia ki ; *lerne, ~ du was wirst!* adam olmaq üçün *(ötrü)* öyrən!

**dasselbe** *pron.* o, özü, həmin o, eyni şey; həman, haman.

**dastehen** *vi* dayanmaq, durmaq; *als Lügner ~* yalançı çıxmaq; *mittellos ~* pulsuz qalmaq.

**Datei,** *die; -, -en* **1.** *( Sammlung von Daten)* məlumatların məcmuəsi; dosya; **2.** *EDV* verilən məlumatların məcmuəsi, fayl.

**Daten** *die/pl.* məlumat, rəqəmlər; tarixlər *pl.*

**Datenbank,** *die; -, -en EDV* məlumat bankı, informasiya bankı, verilənlər bazası.

**datieren** *vt u. vi* tarix qoymaq, tarixini müəyyən etmək.

**Dativ,** *der; -s, -e gr.* yönlük hal, *-ə* halı.

**dato** *adv. : bis dato* bu tarixə qədər, bu tarixə kimi.

**Dattel,** *die; -, -n* xurma.

**Dattelpalme,** *die; -, -n* xurma ağacı.

**Datum,** *das; -s, Daten* tarix, gün; *welches ~ haben wir heute?* bu gün ayın neçəsidir?*; ohne ~* tarixsiz.

**Datumsangabe,** *die; -, -n* tarix (qoyulmuş); *ohne ~* tarixsiz.

**Datum(s)stempel,** *der; -s, -* tarix möhürü.

**Dauer,** *die; -* davam, vaxt, müddət, süreklilik; *von ~ sein* davamlı olmaq, uzun müddət sürmək; *auf die ~* **1.** uzun müddət; **2.** *(für lange Zeit)* davamlı ola-

raq, daimi surətdə; **3.** *(schließlich)* nəhayət, axırda; *für die ~ von zwei Wochen* iki həftəlik üçün.

**Dauerarbeitslosigkeit,** *die; -* çox sürən işsizlik, daimi işsizlik, uzunmüddətli işsizlik.

**Dauerauftrag,** *der; -(e)s, -¨e* hesabdan uzun müddət pul götürmək üçün banka verilən səlahiyyət, uzunmüddətli səlahiyyət.

**dauerhaft** *adj.* **1.** sürəkli, daimi, sabit, aramsız; bərk, davamlı; **2.** *(Stoff)* möhkəm, davamlı.

**Dauerhaftigkeit,** *die; -* sürəklilik, sarsılmazlıq, möhkəmlik, davamlılıq, sabitlik, mətinlik.

**Dauerkarte,** *die; -, -n* abunə, daimi bilet.

**Dauerlauf,** *der; -(e)s, -¨e* *(Sport)* müqavimət qaçışı, uzaq məsafəyə qaçış.

**dauern**[1] *vt* yazığı gəlmək *er dauert mich* ona yazığım gəlir; heyfi gəlmək *mich dauert das Geld, das ich dafür ausgegeben habe* bunun üçün xərclədiyim pula heyfim gəlir *(heyfslənirəm).*

**dauern**[2] *vi* davam etmək, çəkmək, sürmək; *es dauert nicht lange* çox çəkməz; *der Sommer dauert in Deutschland 2 Monate* yay Almaniyada 2 ay davam edir.

**dauernd** *adj.* uzun, daimi; *adv.* ara vermədən, daim, mütəmadi; *sie lachte ~* o, daim gülürdü; *er kommt ~ zu spät* o daim gec gəlir.

**Dauerstellung,** *die; -* davamlı iş, müddətsiz iş.

**Dauerwirkung,** *die; -, -en* davamlı təsir.

**Dauerzustand,** *der; -s, -¨e* daimi vəziyyət.

**Däumchen,** *das; -s, - F ~ drehen* tənbəllik etmək.

**Daumen,** *der; -s, -* baş barmaq; *j-m den/die ~ drücken* kiməsə uğur *(müvəffəqiyyət)* arzu etmək; *über den ~ schätzen* təxmin etmək, güman etmək; *fig. ~ drehen* tənbəllik etmək.

**Daumenabdruck,** *der; -(e)s, -¨e* baş barmağın izi.

**Däumling,** *der; -s, -e* **1.** *(im Märchen)* barmaq boyda uşaq, cırtdan; **2.** əlcəyin baş barmağı.

**Daune,** *die; -, -n* narın tük, tiftik.

**Daunendecke,** *die; -, -n* yorğan *(tükdən).*

**davon** *adv.* bundan, bu haqda, bu barədə; *~ ist nicht die Rede* söhbət bundan getmir; *was habe ich ~?* bundan mənə nə qalır?; *abgesehen ~, dass..* baxmayaraq ki...; *ich will auch et. ~ haben* mən də payımı istəyirəm; *drei ~* bundan üç dənə.

**davonfliegen** *vi* uçub getmək.

**davonjagen** *vt* qovmaq, qovalamaq.

**davonkommen** *vi* canını qurtarmaq, yaxa qurtarmaq, xilas olmaq.

**davonlaufen** *vi* qaçmaq, xilas etmək; *es ist zum Davonlaufen* təhəmmül edilməz bir vəziyyətdir.

**davonmachen** *vr sich ~* əkilmək, aradan çıxmaq, qaçıb getmək.

**davonstehlen** *vt sich ~* əkilmək, aradan çıxmaq.

**davontragen** *vt* **1.** aparmaq, götürüb getmək; **2.** *(Sieg)* qələbə çalmaq; **3.** *(Krankheit)* .. nəticəsində *(..səbəbindən)* xəstələnmək *(naxoşlamaq).*

**davor** *adv.* **1.** *(Zeit)* bundan qabaq, bundan əvvəl; *zehn Minuten ~* beş dəqiqə bundan qabaq; **2.** *(Ort)* qarşıda, qabaqda;*ich stehe ~* mən qarşıda dayanıram; *~ habe ich Angst* bundan qorxuram; *sich davor fürchten -dən* qorxmaq.

**dazu** *adv.* **1.** *(zu dem Zweck)* buna, ona, bunun üçün; *was sagst du ~ ?* buna nə deyirsən?; *~ habe ich keine Lust* buna heç könlüm *(həvəsim)* yoxdur; **2.** *(noch dazu)* buna əlavə, həm*(də)*; ayrıca; **3.** *(außerdem)* bundan başqa, bundan əlavə; *sie ist dumm und (noch) frech ~* o həm səfeh həm də sırtıqdır, o həm sarsaq, həm də həyasız adamdır.

**dazugeben** *vt* qatmaq, artırmaq, əlavə etmək, əlavələtmək.

**dazugehören** *vt* aid olmaq, bir şeyə mənsub olmaq, bağlı olmaq, *-in* bir

parçası *(hissəsi)* olmaq.

**dazugehörig** *adj.* bir şəyə mənsub olan, aid olan, buna aid.

**dazukommen** *vi* **1.** *(zufällig)* təsadüfi olaraq yaxınlaşmaq, təsadüfi yetişmək, çatmaq; **2.** *getrennt geschrieben (Zeit haben, et. zu tun)* etmək, yerinə yetirmək; *ich komme nicht dazu* mən buna vaxt tapa bilmirəm; **3.** *(zusätzlich)* qatılmaq, əlavə olmaq.

**dazulernen** *vt* təcrübə qazanmaq, təcrübəsini artırmaq.

**dazumal** *adv. (damals)* o zaman, o vaxt.

**dazutun** *vt* **1.** qatmaq, əlavə etmək, artırmaq; **2.** *ohne mein Dazutun* mənim köməyim olmadan, mənim təsirim olmadan.

**dazwischen** *adv.* arada, bu arada, bu dəmdə; onun / bunun arasında; aralarında; *~ liegen zehn Jahre* aradan on il keçir, bundan on il keçir, on ilin söhbətidir.

**dazwischenfahren** *vi (eingreifen)* sözə/ söhbətə qarışmaq, müdaxilə etmək, araya girmək.

**dazwischenkommen** *vi* mane olmaq, araya bir iş çıxmaq; *wenn nichts dazwischen kommt* əgər heç nə mane olmazsa, araya bir iş çıxmazsa.

**dazwischenliegen** *vt* arasında olmaq, arada olmaq.

**dazwischenliegend** *adj.* aradakı, aralıqdakı, ortadakı.

**dazwischenreden** *vi* sözə qarışmaq, sözünü kəsmək, sözünü ağzında qoymaq.

**dazwischentreten** *vt* qarışmaq, müdaxilə etmək, *(iki nəfərin)* arasına girmək.

**Deal,** *der; -s, -s* alver, müamilə, ticarət; anlaşma.

**Dealer,** *der; -s, -* **1.** dəllal, alverçi; **2.** *(Drogendealer)* narkotik (*müxəddir*) maddələrin alverçisi.

**Debakel,** *das; -s, - (Misserfolg)* müvəffəqiyyətsizlik, uğursuzluq, çöküklük.

**Debatte,** *die; -, -n* mübahisə, müzakirə, diskussiya; *zur ~ stellen vt* mübahisəyə qoymaq, haqqında müzakirə etmək, tartışmaq; *der Gegenstand der ~ sein* müzakirə mövzusu olmaq.

**debattieren** *vi* müzakirə etmək, mübahisə etmək *(über A/-i);* çənə vurmaq, tartışmaq.

**Debet,** *das; -s, -s H* borc, debet.

**Debüt,** *das; -s, -s* debüt, ilk dəfə səhnəyə çıxma, başlanğıc.

**Debütant,** *der; -en, -en* debütant, ilk dəfə çıxış edən adam.

**debütieren** *vt* ilk dəfə çıxış etmək.

**dechiffrieren** *vt (entschlüsseln)* şifrini açmaq, sirrini açmaq, sirrini tapmaq.

**Deck,** *das; -(e)s, -s mar.* göyərtə.

**Deckadresse,** *die; -, -n* gizli adres *(ünvan).*

**Deckblatt,** *das; -(e)s, -¨er* üz, üst sehifə, cild.

**Decke,** *die; -, -n* **1.** örtük; **2.** *(Bettdecke)* yorğan, çarpayı örtüyü; **3.** *(Zimmerdecke)* tavan, səqf; *unter e-r ~ stecken fig.* şərik olmaq, ortaqlıq etmək; *streck dich nach der ~ !* ayağını yorğanına görə uzat!; *F mir fällt die ~ auf den Kopf* xəfələnirəm, boğuluram, sıxılıram, canım sıxılır.

**Deckel,** *der; -s, -* **1.** qapaq; ağızlıq; **2.** *(Buchdeckel)* kitabın üzü; *j-m eins auf den ~ geben* bir kəsə həddini bildirmək.

**decken** *vt* **1.** örtmək; **2.** *(Tisch)* süfrəni düzəltmək, hazırlamaq *(yeməyi süfrəyə qoymaq)*; **3.** *(Bedarf)* təmin etmək; **4.** *(vertuschen)* ört-basdır etmək, örtmək; **5.** *mil.* arxanı qorumaq; *sich mit et. ~* bir şeyə tay olmaq, eyni olmaq, uyğun gəlmək; *j-n ~* bir kəsə arxa çıxmaq.

**Deckenbeleuchtung,** *die; -, -en* tavan lampası.

**Deckenlampe,** *die; -, -n s. Deckenbeleuchtung.*

**Deckmantel,** *der; -s fig.* bəhanə, pərdə; *unter dem ~ (G) -in* bəhanəsi *(pərdəsi)* altında, *-in* bəhanəsilə, *-i* bəhanə edərək.

**Deckname,** *der; -ns, -n* şərti ad, müstəar ad, təxəllüs, ləqəb.

**Deckung,** *die; -, -en* **1.** *mil.* səngər; dalda; *in ~ gehen* səngərə girmək, sipərə sığınmaq; **2.** *H* təmin etmə; **3.** *(Garantie)* təminat, qaranti.

**dedizieren** *vt* təqdim etmək; *j-m ein Buch ~* birisinə bir kitab təqdim etmək.

**Deduktion,** *die; -, -en* *(Schlussfolgerung)* nəticə alma, sona yetirmə.

**deduzieren** *vt* nəticə almaq, istintac etmək.

**defacto** *adj. u. adv.* həqiqətdə, əslində, əməldə, faktiki olaraq, defakto.

**Defaitismus, Defätismus,** *der; -* məğlubiyyətçilik, qələbəyə inamsızlıq, cəsarətsizlik.

**defätistisch** *adj.* ümidsiz, inamsız, cəsarətsiz, məğlubiyyətçilik.

**Defekt,** *der; -(e)s, -e* nöqsan*(lılıq),* zədə, xarablıq, əskiklik.

**defekt** *adj.* xarab, zədəli, nöqsanlı, kəsirli.

**defensiv** *adj.* müdafiə.

**Defensive,** *die; -* müdafiə haləti.

**Defensivwaffen,** *die/pl.* müdafiə silahları.

**defilieren** *vi* təntənə ilə keçmək.

**definieren** *vt* müəyyən etmək *(Süd. : tərif etmək).*

**Definition,** *die; -, -en* müəyyən etmə.

**definitiv** *adj.* kəskin, qəti; *adv.* kəskin olaraq, qəti olaraq.

**Defizit,** *das; -s, -e* çatışmazlıq, kəsr.

**Deflation,** *die; -, -en* deflasyon, pul miqdarının azalması.

**Defloration,** *die; -, -en* bakirəlik pərdəsinin götürülməsi, qızlığın götürülməsi.

**deflorieren** *vt* bakirəlik pərdəsini götürmək, qızlığını götürmək.

**Deformation,** *die; -, -en* deformasi*(ya),* əyrilmə, şəkildən *(yöndəmdən)* çıxma.

**deformieren** *vt* şəklini dəyişmək, xarab etmək, formasını pozmaq, yöndəmdən çıxar(t)maq.

**deftig** *adj.* **1.** *(e-e Mahlzeit)* doydurucu, doyduran; **2.** *(Wort, Witz)* kobud, qaba.

**Degen,** *der; -s, -* **1.** qılınc; *den ~ ziehen* qılınc çəkmək;**2.** pəhləvan, qəhrəman.

**Degeneration,** *die; -, -en* nəsli pozulma, soysuzlaşma, degenerasiya.

**degenerieren** *vi* nəsli pozulmaq, əslini itirmək, soysuzlaşmaq.

**degeneriert** *adj.* əslini itirmiş, nəsli pozulmuş, cırlaşmış.

**degradieren** *vt mil.* rütbəsini alçaltmaq, deqradasiya etmək; *fig.* alçaltmaq.

**Degradierung,** *die; -, -en* rütbə alçaltma, rütbəsini aşağı salma.

**dehnbar** *adj.* uzana bilən, çəkilən, elastik, çəkilə bilən.

**Dehnbarkeit,** *die; -* elastiklik, gərilə bilmə.

**dehnen** *vt* uzatmaq, çəkmək, genişləndirmək; *vi sich ~* uzanmaq, genişlənmək; *sich strecken und ~* gərnəşmək.

**Dehnung,** *die; -, -en* uzanma, gərilmə.

**Dehnungszeichen,** *das; -s, - gr.* uzanma əlaməti *(saitlərin).*

**dehydrieren** *vt* *-in* suyunu çəkmək, suyunu almaq.

**Deich,** *der; -(e)s, -e* bənd, səd.

**Deichsel,** *die; -, -n* dişlə *(faytonda, arabada).*

**dein** *pron. pross.* sənin; *~ Freund* sənin dostun; *der (die, das) Deine* səninki; *die Deinen pl.* səninkilər; *~er G* sənin.

**deinerseits** *adv.* sənin tərəfindən.

**deinesgleichen** *Pron.* sənə oxşar, sənin kimi; sənin kimilər *pl.*

**deinethalben** *adv.* sənə görə, sənin üçün, sənin xətrin üçün.

**deinetwegen** *adv. s. deinethalben.*

**(um) deinetwillen** *adv. s. deinetwegen.*

**deinige** *der (die, das)* səninki; *die Deinigen* səninkilər *pi.*

**Deja-vu-Erlebnis,** *das; -ses, -se Psych.* müşahidə olunan hadisənin keçmişdə baş verdiyini xatırlatma, dejavu.

**Dekade,** *die; -, -n* onluq; on gün, on həftə, on ay və ya on illik müddət.

**dekadent** *adj.* *(Kultur, Kunst)* dekadent, çürümüş, boş, pis.

**Dekadenz,** *die; -* məzmunsuzluq, boşluq, dəyərsizlik.

**Dekan,** *der; -s, -e* *(Universität)* dekan.

**Dekanat,** *das; -(e)s, -e* dekanlıq.

**Deklamation,** *die; -, -en* uca səslə oxuma, deklama etmə, bildirmə, bəyan etmə.

**deklamieren** *vt (Gedichte)* uca səslə oxumaq, deklama etmək, bəyan etmək.

**Deklaration,** *die; -, -en* bəyannamə, deklarasiya, qətnamə; anket.

**deklarieren** *vt* bəyan etmək.

**Deklination,** *die; -, -en gr.* hallanma *(Süd. : a. sərf).*

**deklinieren** *vt* hallandırmaq, sərf etmək.

**dekontaminieren** *vt* zəhərini almaq, zəhərini təmizləmək.

**Dekor,** *der u. das; -s, -s* dekor, bəzəmə, bəzək.

**dekorativ** *adj.* bəzənmiş, bəzənilmiş.

**dekorieren** *vt* bəzəmək, dekor etmək.

**Dekret,** *das; -(e)s, -e* fərman, qərar, dekret.

**dekretieren** *vt* hökm vermək, qərar vermək, qərara almaq.

**Delegation,** *die; -, -en* nümayəndələr, nümyəndə heyəti, deleqasyon.

**delegieren** *vt* nümayəndə göndərmək.

**Delegierte(r),** *der u. die; -n, -n* nümayəndə, elçi, deleqat.

**delikat** *adj.* **1.** *(lecker)* dadlı, ləzzətli; **2.** *(heikel)* zərif, incə; çətin, zəhmətli, həssas.

**Delikatesse,** *die; -, -n* **1.** *(Speise)* ləzzətli xörək, delikates; **2.** *(Feingefühl)* incəlik, zəriflik.

**Delikt,** *das; -(e)s, -e* günah, təqsir, cürm, qanun pozğunluğu, cinayət.

**Delinquent,** *der; -en, -en* təqsirkar, təqsirli, hüquq pozan.

**Delirium,** *das; -s, Delirien* sarsaqlama, sərsəm.

**deliziös** *adj.* çox ləzzətli, çox dadlı.

**Delle,** *die; -, -n* batıq, çuxur.

**Delphin,** *der; -s, -e* delfin.

**Delta[1],** *das; -s, -s u. Delten geogr.* delta.

**Delta[2],** *das; -(s), -s* Yunan əlifbasının dördüncü hərfi.

**dem** *D/sg. von der u. das.*

**Demagoge,** *der; -n, -n* demaqoq, xalqı aldadan.

**Demagogie,** *die; -* demaqoqluq.

**demagogisch** *adj.* demaqoqcasına, demaqojik.

**Demarkation,** *die; -, -en* sərhəd çəkmə, demarkasiya.

**Demarkationslinie,** *die; -, -n* sərhəd xətti.

**demaskieren** *vt* **1.** maskasını çıxartmaq, maskanı tullamaq; **2.** *fig. j-n ~* bir kəsin iç üzünü açıb göstərmək, ifşa etmək.

**dement** *adj.* dəli, ağlını itirmiş.

**Dementi,** *das; -s, -s* təkzib edilmə, yalana çıxarılma.

**dementieren** *vt* danmaq, təkzib etmək, yalana çıxartmaq, haşalamaq; *fig. et. heftig ~* qurandan köynək girmək.

**dementsprechend** *adj.* buna uyğun, buna müvafiq, buna görə, ona uyğun.

**demgegenüber** *adv.* bunun əksinə olaraq, onunla müqayisədə, müqayisə etdikdə, buna baxmayaraq.

**demgemäß** *adv.* buna görə, bundan ötrü, buna uyğun olaraq.

**Demission,** *die; -, -en (Regierung, Minister)* istefa, vəzifədən çəkilmə, qulluqdan *(işdən)* çıxma.

**demissionieren** *vi* istefa vermək.

**demnach** *adv.* buna görə, bunun nəticəsində, bundan dolayı.

**demnächst** *adv.* tezliklə, yaxın zamanda, bu yaxında.

**Demo,** *die; -, -s F* nümayiş.

**demobilisieren** *vt* səfərbərliyi qaldırmaq, hərbi xidmətdən tərxis etmək, tərxis etmək.

**Demobilisierung,** *die; -, -en* **1.** səfərbərliyin qaldırılması; **2.** *(Truppen)* tərxis olunma, tərxis.

**Demografie,** *die; -* demoqrafi*(ya)*, əhalinin iqtisadi və ictimai sahədə inkişafi.

**demografisch** *adj.* demoqrafik.

**Demokrat,** *der; -en, -en* demokrat.

**Demokratie,** *die; -, -n* demokratiya, *(Süd. : demokrasi).*

**demokratisch** *adj.* demokratik.

**demokratisieren** *vt* demokratikləşdirmək.

**demolieren** *vt* dağıtmaq, pozmaq, yıxmaq.

**Demolierung,** *die; -, -en* pozma; yıxıb dağıtma.

**Demonstrant,** *der; -en, -en* nümayiş iştirakçısı, nümayişçi.

**Demonstration,** *die; -, -en* **1.** *(Beweis)* sübut, isbat; **2.** *(Darlegung)* göstərmə; **3.** *(Kundgebung)* nümayiş; *e-e ~ der Macht* gücün *(qüdrətin)* göstərilməsi.

**Demonstrationsrecht,** *das; -(e)s* nümayiş etmə hüququ.

**demonstrativ** *adj.* açıq, aşkar; *adv.* nümayişkaranə.

**Demonstrativpronomen,** *das; -s, - gr.* işarə əvəzliyi.

**demonstrieren** *vt, vi* **1.** göstərmək; **2.** *(Kundgebung)* nümayiş etmək; *demonstriert werden* göstərilmək.

**Demontage,** *die; -, -n* sökmə, sökülmə, demontaj.

**demontieren** *vt* sökmək.

**demoralisieren** *vt* **1.** pozğunluq salmaq, ruhiyyədən salmaq; əxlaqını pozmaq, pozğunlaşdırmaq; **2.** *mil.*, cəsarətdən salmaq, mənəvi qüvvəsini əlindən almaq, ruhdan salmaq.

**Demoskopie,** *die; -* demoskopi*(ya)*, ümumi *(ictimai)* fikri tədqiq etmə.

**Demut,** *die; -* itaətlilik, alçaqkönüllülük, həqirlik.

**demütig** *adj.* dinc, başaşağı, itaətkar, alçaqkönüllü, itaətli, həqir, fağır.

**demütigen** *vt* alçaltmaq; tabe etmək; *vr sich ~* özünü alçaltmaq, özünü kiçiltmək *(vor D/ qarşısında).*

**Demütigung,** *die; -, -en* alçaltma, tabe etmə, təhqir; *~ des Feindes* düşməni təhqir etmə.

**demzufolge** *adv.* buna görə, bunun üçün, buna uyğun olaraq.

**den** *A/sg. von der, D/pl. von der (die, das).*

**denaturieren** *vt* mahiyyətini dəyişmək, xarab etmək, təbii şəklindən çıxarmaq.

**Denkanstoß,** *der; -es, -¨e : j-m e-n ~ geben* bir kəsi düşünməyə *(fikirləşməyə)* vadar etmək.

**Denkart,** *die; -, -en* düşünmə tərzi, ideal, dünyagörüşü, düşüncə, məfkurə.

**denkbar** *adj.* fikrə gələn, ağlasığan; *adv.* ən, daha; *die ~ beste Methode* ağlasığan ən yaxşı metod; *~ schlecht* ən pis, çox pis; *~ einfach* çox rahat.

**denken** *vt u. vi* **1.** fikirləşmək; **2.** *(vermuten)* zənn etmək, sanmaq; **3.** *(beabsichtigen)* niyyət etmək; **4.** *(an j-n, an et.)* bir kəsin, bir şeyin haqqında fikirləşmək; **5.***(sich et.)* təsəvvür etmək, təsəvvürə gətirmək; *denken Sie mal!* təsəvvür edin!, *das habe ich mir gedacht!* mən elə belə də düşünmüşdüm!; *denk daran zu... -məyi* unutma *(yadından çıxartma); was denkst du?* nə düşünürsən? .

**denkend** *adj.* fikirləşən, düşünən.

**Denker,** *der; -s, -* mütəfəkkir, filosof.

**denkfaul** *adj.* fikirləşmək istəməyən, tənbəlfikir.

**Denkmal,** *das; -s, -¨er* abidə, heykəl.

**Denkmal(s)schutz,** *der; -es* tarixi abidələrin qorunması *(mühafizə olunması).*

**Denkschrift,** *die; -, -en* məlumat vərəqəsi, yaddaş qeydləri, nota.

**Denkspruch,** *der; -(e)s, -¨e* kəlam, hikmətamiz söz, mənalı söz, nəsihət.

**Denkweise,** *die; -, -n* düşünmə tərzi, təfəkkür tərzi.

**denkwürdig** *adj.* unudulmaz, yaddan çıxarılmaz, yaddaqalan, əlamətdar.

**Denkzettel,** *der; -s, - fig.* dərs, ibrət; *j-m e-n ~ verpassen* kiməsə ibrət dərsi vermək, ağlını başına gətirmək.

**denn** **1.** *(kausal)* çünki, çünkü, ona görə ki, üçün, belə ki, çün; *ich blieb zu Hause, ~ das Wetter war schlecht* mən evdə qaldım, çünki hava pis idi; **2.** *(= als; nach Komparativ)* - dən, - dan, -dən başqa; *wer ist größer ~ als Gott?* Tanrıdan daha böyük kimdir? **3.** *(es sei ~)* məgər, yoxsa, ki, bəs, axı; *was ist ~ los?* axı nə var? nə olub? *ist er ~ hier?* məgər o burdadır?; *wie heißt du ~?* bəs

sənin adın nədir?

**dennoch** *adv. u. konj.* yenə də, hər halda; buna baxmayaraq.

**Denominativ,** *das; -s, -e* *ling.* ismdən ayrılan kəlmə, ismdən törənən kəlmə *(z.B. „bäuerlich“ von „Bauer“).*

**denominieren** *vt* təyin etmək, müəyyən etmək, adlandırmaq.

**dental** *adj.* dental, dişə aid, dişlə ilgili.

**Dentist,** *der; -en, -en* dişçi; diş həkimi.

**Denunziant,** *der; -en, -en* xəbərçi, xəbər verən, deyici, satqın, şeytançı.

**denunzieren** *vt* satqınlıq etmək, kimisə satmaq, xəbərçilik etmək, çuğulluq etmək.

**Denunzierung,** *die; -, -en* çuğulluq, xəbərçilik; xəyanət, şeytançılıq.

**Deo,** *das; -s, -s (Deodorant)*dezoderant, qoltuğa sürtülən ətirli maddə.

**Departement,** *das; -s, -s* *(Frankreich)* Vilayət; *(Schweiz)* Nazirlik *(Süd. : Vizarətxana).*

**Depesche,** *die; -, -n* təcili xəbər; teleqraf, teleqram.

**deplaziert** *adj.* yersiz.

**Deponie,** *die; -, -n* *(Mülldeponie)* zibilxana, küllük.

**deponieren** *vt* *H* banka pul yatırtmaq, əmanətə vermək *(pulu).*

**Deportation,** *die; -, -en* sürgün etmə, köçürtmə.

**deportieren** *vt* sürgün etmək, göndərmək.

**Depositen,** *die/pl.* banka əmanət qoyulan qiymətli şey *(pul və s.).*

**Depositenkonto,** *das; -s, -ten* əmanət hesabı, depozit hesabı.

**Depot,** *das; -s, -s* anbar, əmanətxana.

**Depp,** *der; -s, -en* *F* axmaq.

**Depression,** *die; -, -en* **1.** *Psych.* məyusluq, düşgünlük, əzginlik, dilxorluq; **2.** *(wirtschaftlich)* iqtisadi tənəzzül, qiymətlərin aşağı düşməsi.

**depressiv** *adj.* məyus, ümidsiz.

**deprimieren** *vt* ümidini əlindən almaq, məyus etmək.

**deprimierend** *adj.* məyus edən, məyus edici.

**deprimiert** *adj.* ümidsiz, məyus.

**Deputat,** *das; -(e)s, -e* **1.** *(zum Lohn)* işçilərə əmək haqqından əlavə verilən şeylər *(kömür, odun və s.)*; **2.** müəllimlərin dərs saatları.

**Deputation,** *die; -, -en* deputatlar heyəti,nümayəndələr heyəti, elçilər heyəti.

**Deputierte,** *der u. die; -n, -n* nümayəndə, millət vəkili, deputat.

**Deputiertenkammer,** *die; -, -n* nümayəndələr məclisi.

**der** *Art. (m), u. pron.* **1.** müəyyən artikl; **2.** *(Demonstrativpronomen)* bu, o; *~ Mann da* bu kişi, o kişi; **3.** *(Relativpronomen)* hansı, ki; *der Junge, der mit dem Bus fährt* o oğlan ki, avtobus ilə gedir.

**derart** *adv.* o qədər, o dərəcədə; *~ , dass..* o qədər ki.., o dərəcədə ki..; belə, elə, bu cür.

**derartig** *adj.* belə, buna uyğun, bu kimi; *adv.* o qədər, o dərəcədə; *e-e ~e Wärme* bu dərəcədə isti.

**derb** *adj.* **1.** *(fest)* möhkəm; **2.** *(grob)* kobud, qaba.

**Derbheit,** *die; -, -en* **1.** möhkəmlik; **2.** kobudluq, nəzakətsizlik, qabalıq.

**Derby,** *das; -s, -s* at yarışı, at müsabiqəsi.

**dereinst** *adv.* bir gün, bir vaxt, vaxtilə.

**derenthalben** *adv.* onun xətrinə *(Süd. : onun xatirinə)*, ona görə; onların xətrinə, onlar üçün.

**derentwegen** *adv. s. derenthalben.*

**dergestalt** *s. derart.*

**dergleichen** *pron.* buna bənzər, buna oxşar; *~ Fragen* belə *(elə)* sorğular; belə bir şey.

**Derivat,** *das; -(e)s, -e* *Chem.* ayrılmış, müştəq olmuş maddə.

**derjenige** *pron.* o ki, o, filan(i); *~, der (welcher)* o ki, filankəs ki; *das ist ~, von dem ich gesprochen habe* haqqında danışdığım adam budur, filanikəs *(filani)* budur.

**dermaßen** *adv. s. derart.*

**Dermatologe,** *der; -n, -n* dəri xəstəlikləri üzrə həkim.

**Dermatologie,** *die; -* dermotologi*(ya),*

dəri xəstəliklərin elmi.

**derselbe** *pron.* o, həmin o; *genau ~* həmin, eyni; *das ist ~ Mann* bu həmin kişidir; *~ Mensch* həman adam.

**Derwisch,** *der; -(e)s, -e* dərviş; qələndər.

**derzeit** *adv.* bu gün, indi; o vaxt, o zaman.

**derzeitig** *adj.* indiki, bugünkü; o zamankı; *die ~e Finanzlage* indiki maliyyə vəziyyəti.

**des** *G von der und das.*

**Desaster,** *das; -s, -* bədbəxtçilik, fəlakət, uğursuzluq.

**desavouieren** *vt* **1.**inkar etmək,rədd etmək; **2.** *j-n ~* bir kəsi etibardan salmaq, günahını başqasının boynuna atmaq.

**Deserteur,** *der; -s, -e* əsgərlikdən qaçan, fərari, dezertir.

**desertieren** *vi* əsgərlikdən qaçmaq, hərbi çağırışdan boyun qaçırmaq.

**desgleichen** *adv.* eyni surətdə, eyni cür, eyni şəkildə.

**deshalb** *adv.* ona görə, buna görə, ona əsasən, bunun üçün, bu səbəbə görə, bundan ötrü, cəhətcə; *eben ~* elə bunun üçün, elə buna görə.

**Design,** *das; -s, -s* model, taslaq; tərh, ilk tərh, dizayn.

**Designer,** *der; -s, -* dizayner, model düzəldən *(çəkən).*

**designieren** *vt* bir vəzifəyə namizədliyini irəli sürmə.

**designiert** *adj.* bir vəzifəyə seçilən şəxs, vəifəyə gelen *(gətirilən)* şəxs; *der ~e Präsident* yeni seçilən president.

**Desillusion,** *die; -, -en* xəyaldan çıxma, xəyal dünyasını tərk edib həqiqətə dönmə, xəyaldan ayılma.

**desillusionieren** *vt* xəyallardan qurtarmaq, həqiqətə yönəltmək; *F desillusioniert sein* havadan düşmək.

**Desinfektion,** *die; -, -en* dezinfeksiya, dezinfeksion.

**desinfizieren** *vt* dezinfeksiya etmək, *(Süd. :desinfeksion etmək).*

**desinfiziert** *adj.* dezinfeksiya olmuş, desinfeksion olmuş.

**Desinformation,** *die; -, -en* aldatmaq məqsədilə yalan xəbər yayma, informasiya gizlətmə; bilməməzlik.

**Desinteresse,** *das; -s* maraqsızlıq.

**desinteressiert** *adj.* maraqsız; başısoyuq.

**Deskription,** *die; -, -en* təsvir etmə.

**deskriptiv** *adj.* deskriptiv, təsvir edici, ifadə edici, təsviri.

**desolat** *adj.* kədərli, qüssəli, ümidsiz; darmadağın.

**Desorganisation,** *die; -, -en* pozğunluq, intizamsızlıq.

**desorganisieren** *vt* pozğunluq salmaq.

**desorientieren** *vt* çaşdırmaq, yanıltmaq, yanlış məlumat vermək.

**desorientiert** *adj.* yoldan azmış, yoldan çıxmış.

**despektierlich** *adj.* hörmətsiz, həqarətli.

**desperat** *adj.* ümidsiz.

**Despot,** *der; -en, -en* müstəbid, zalım, zülmkar, despot, qaniçən, qəddar.

**despotisch** *adj.* zülmkar, zalım, müstəbidcəsinə, qəddarcasına.

**Despotismus,** *der; -* istibdad, despotizm, zülmkarlıq, müstəbidlik, təkhakimiyyətlilik.

**dessen** *G sg → der 1. ; poss pron. mein Bruder und ~ Frau* qardaşım və xanımı *(arvadı).*

**dessenthalben** *adv.* ona görə, onun üçün.

**dessentwegen** *adv. s. dessenthalben.*

**dessentwillen** *adv. s. dessenthalben.*

**dessenungeachtet** *präp. G* buna baxmayaraq, buna rəğmən.

**Dessert,** *das; -s, -s* desert, yeməkdən sonra yeyilən şirnilər, meyvələr.

**Dessin,** *das; -s, -s* **1.** *(Zeichnung)* rəsm, şəkil; **2.** *(Vorlage)* nümunə; plan.

**Destillation,** *die; -, -en* destilə etmə.

**destillieren** *vt* destilə etmək; damcılatmaq.

**destilliert** *adj.* destilə edilmiş.

**desto** *koj.* daha; *~ besser* daha yaxşı; *je mehr, ~ besser* nə qədər çox, o qədər yaxşı.

**destruktiv** *adj.* yıxıcı, məhv edici, mənfi, yararsız.

**desungeachtet** *s. dessenungeachtet.*

**deswegen** *adv. s. deshalb.*

**Detail,** *das; -s, -s* təfsilat, təfərrüat, ayrıntı, cik-bik, detal; *bis ins kleinste ~* cikinə-bikinə qədər, cikinə-bikinə kimi, ayrıntılı.

**detaillieren** *vt* müfəssəl surətdə izah etmək, şərh etmək, detallaşdırmaq.

**detailliert** *adj.* müfəssəl, detallı, ətraflı, ayrıntılı.

**Detektiv,** *der; -s, -e* xəfiyyə, gizli polis, detektiv.

**Detektor,** *der; -s, -en (Radio)* axtarıb tapan alət *(dalğaları, radioaktiv şüaları).*

**Determinante,** *die; -, -n* determinant.

**determinieren** *vt* məhdudlaşdırmaq, təyin etmək, müəyyən etmək.

**Determinismus,** *der; - Phil.* determinizm, gərəkçilik, cəbr nəzəriyyəsi.

**Detonation,** *die; -, -en* partlayış.

**detonieren** *vi* partlamaq.

**deuchte** *s. dünken.*

**Deut,** *der; -(e)s, -e : nicht e-n ~ wert sein* dəyərsiz olmaq; *um keinen ~* heç, bir zərrə də; *es ist keinen ~ wert* bir zərrə də dəyəri yoxdur.

**deuteln** *vi (falsch auslegen)* yanlış təbir etmək, əksinə yozmaq, hər şeyi tərsinə yozmaq; *an dieser Wahrheit kann man nicht ~* bu həqiqəti başqa cür izah etmək olmaz.

**deuten** *vi* **1.** *(~ auf) (zeigen)* göstərmək, işarə etmək; **2.** *(~ auf) (erkennen lassen)* dəlalət etmək, bir şeyi göstərmək; işarə etmək; *vt* 1. *(Traum)* təbir etmək; 2. *(auslegen)* yozmaq, izah etmək, təfsir etmək, şərh etmək.

**deutlich** *adj.*aydın, dəqiq, açıq, aşkar, əyan*(i),* eyhamsız; fəsih, apaçıq, apaşkar, aşkara; *~ reden* aydın danışmaq; *adv.* gözgörə, ələni.

**Deutlichkeit,** *die; -* aydınlıq, açıqlıq, aşkarlıq; *in aller ~* bütün açıqlıqla, aydın-aşkar.

**deutsch** *adj.* alman; *auf ~* almanca; *auf gut ~ fig.* aydın, başa düşülən şəkildə; *mit j-m ~ reden* bir kəs ilə açıqcasına danışmaq; *~ sprechen* almanca danışmaq.

**Deutsch,** *das; -s* Alman dili; *ich lerne ~* mən alman dilini öyrənirəm; *er versteht ~* o almanca anlayır; *auf ~* almanca.

**Deutsche,** *der u. die; -n, -n* alman; almanlar; *wir ~n* biz almanlar.

**Deutschkenntnis,** *die; -, -se* Alman dili biliyi; almanca bilmə, almanca məlumatı olma.

**Deutschland** Almaniya, Germaniya.

**Deutschtum,** *das; -s* almanlıq; almanlar *pl.*

**Deutung,** *die; -, -en* başa salma, izah, şərh.

**Devaluation,** *die; -, -en* pulun dəyərdən düşməsi, devalvasiya.

**Devise,** *die; -, -n* **1.** *(Motto)* şüar, deviz; **2.** *(Geld)* xarici pul, xarici valyuta.

**Devisenhandel,** *der; -s* xarici pulun alveri, valyuta alveri.

**Dezember,** *der; -s, -* Dekabr *(Süd. : Desambr).*

**dezent** *adj.* **1.** *(geschmackvoll)* ürəyə yatan, xoşa gələn; *~e Musik* ürəyə yatan musiqi; **2.** *(Kleidung usw.)* zərif, ölçülü.

**Dezentralisation,** *die; -, -en* mərkəzdən uzaqlaş(dır)ma, ədəmi mərkəziyyət.

**dezentralisieren** *vt* mərkəzdən uzaqlaş(dır)maq, mərkəziyyətdən çıxarmaq.

**Dezernat,** *das; -(e)s, -e* şöbə, bölmə.

**dezimal** *adj.* onluq.

**Dezimalbruch,** *der; -(e)s, -¨e* onluq kəsr.

**Dezimalsystem,** *das; -s* onluq sistem.

**Dezimalwaage,** *die; -, -n* qapan *(tərəzi).*

**dezimieren** *vi* **1.** azaltmaq *(on dəfə);* **2.** *vt (durch Katastrophe usw.)* böyük itki vermək.

**Dezimierung,** *die; -, -en* azalma; kiçilmə; itki.

**dgl.** *(dergleichen)* bu kimi, buna bənzər, buna oxşar.

**d.h.** *(das heißt)* yəni, demək ki.

**Dia,** *das; -s, -s* dia *(Süd. : islayt).*

**Diabetes,** *der; - med.* şəkər xəstəliyi, diabet*(es).*

**Diabetiker,** *der; -s, -* şəkər xəstəliyi olan adam.

**diabolisch** *adj.* şeytan kimi, şeytani.

**Diadem,** *das; -s, -e* alın bağı; tac.

**Diafilm,** *der; -s, -e* dia filmi.

**Diagnose,** *die; -, -n* diaqnoz, seçmə, təşxis; *die ~ stellen* diaqnoz qoymaq.

**diagnostizieren** *vt (e-e Krankheit)* diaqnoz qoymaq.

**diagonal** *adj. math.* diyaqonal, çarpaz; *(Süd. : qutri); fig. ~ lesen* sürətlə oxumaq.

**Diagonale,** *die; -, -n* diyaqonal, qutr.

**Diagramm,** *das; -s, -e* diyaqram.

**Diakon,** *der; -s u. -en, -e* protestan kilsəsinin qulluqçusu.

**Diakonisse,** *die; -, -n* protestan kilsəsinin xəstə baxıcısı *(qadın).*

**Dialekt,** *der; -(e)s, -e* ləhcə, dialekt.

**Dialektik,** *die; - Phil.* dialektika.

**dialektisch** *adj.* dialektik.

**Dialog,** *der; -(e)s, -e* dialoq, iki nəfərin söhbəti, muhavirə.

**Dialyse,** *die; -, -n* *med.* qanın təmizlənməsi.

**Diamant,** *der; -en, -en* **1.** almaz; **2.** *fig.* çox dəyərli, çox qiymətli.

**Diamantenring,** *der; -(e)s, -e* almaz üzük.

**diametral** *adj.* zidd, qarşı-qarşıya.

**Diaprojektor,** *der; -s, -en* diaproyektor.

**Diaspora,** *die; -* diaspora, milli və ya məzhəbi bir azlığın yaşadığı yer.

**Diät,** *die; -, -en* pəhriz, rejim; *~ halten* pəhriz saxlamaq, rejim tutmaq.

**Diäten,** *die/pl.* məclis nümayəndələrinin *(deputatların)* əmək haqqı *(maaşı),* ezamiyyət pulu.

**Diätkost,** *die; -* diet *(rejim)* yeməyi.

**dich** **1.** *pron.* səni; *ich sehe ~* səni görürəm; **2.** *refl pron.* özünü; özünə.

**dicht** *adj.* **1.** möhkəm; sıx; qalın; *~er Wald* sıx meşə; *~es Haar* qalın saç, daraqbatmaz; **2.** *(undurchlässig)* su keçirməyən, bərk; *adv.* kip, çox sıx; *~ bei der Schule* məktəbin lap yanında; *~ beieinander sitzen* diz-dizə *(kip)* oturmaq; *F die Tür ~ machen* qapını kipləmək; *F er ist nicht ganz ~* ağıldan kasıbdır.

**dichtbesiedelt** *adj.* izdihamlı, əhalinin sıx yerləşən yeri.

**dichtbevölkert** *adj. s. dichtbesiedelt.*

**Dichte,** *die; -, -n* sıxlıq, kiplik, qalınlıq.

**dichten** *vt* **1.** *techn.* sıxlaşdırmaq, möhkəmləşdirmək; **2.** *(Verse)* şer yazmaq; əsər yaratmaq.

**Dichter,** *der; -s, -* şair.

**Dichterin,** *die; -, -nen* şairə.

**dichterisch** *adj.* şairanə.

**dichthalten** *vi* kiməsə söz *(sirr)* verməmək.

**Dichtkunst,** *die; -* şer, nəzm, poeziya.

**dichtmachen** *vt* **1.** *techn.* kipləşdirmək, möhkəmləndirmək; **2.** *F (Laden, Fabrik)* bağlamaq, tətil etmək.

**Dichtung**[1], *die; -, -en* *techn.* sıxlaşdırma, kipləşdirmə .

**Dichtung**[2], *die; -, -en lit.* şer, mənzum.

**dick** *adj.* **1.** qalın; enli; *5 cm ~* 5 cm qalınlıqda; **2.** *(beleibt)* kök; kömbə, göbəkli, qarnıyoğun, gombul, ətli-canlı, ətli, koppuş; *~er Mann* kök kişi;*es macht ~* kökəldir; **3.** *(Flüssigkeit)* qəliz, qatı, bərk; **4.** *(geschwollen)* şişmiş; *~e Freunde* səmimi dost(lar); *mit j-m durch ~ und dünn gehen* birisinə hər bir şəraitdə vəfalı qalmaq; *ein ~es Fell haben* gönü qalın olmaq; *adv. sich ~ anziehen* qalın geyinmək.

**dickbäuchig** *adj.* qarnıyoğun, göbəkli, daqqaqarın, lort, sallaqqarın.

**Dickdarm,** *der; -(e)s, -¨e* yoğun bağırsaq.

**Dicke**[1], *die; - techn.* qalınlıq, yoğunluq.

**Dicke**[2], *die/der; -n, -n* kök *(qadın, kişi);* qarnı yoğun, kömbə, ətli.

**dickfellig** *adj. a. fig.* qalındərili, qalınqabıq, canıbərk.

**dickflüssig** *adj.* qəliz, qatı, həlməşik.

**Dickhäuter,** *der; -s, -* qalın dərili; fil.

**dickhäutig** *adj. s. dickfellig.*

**Dickicht,** *das; -s, -e* qalın meşəlik, cəngəllik.

**Dickkopf,** *der; -(e)s, -¨e* tərs, inadkar, inadçı, inadcıl.

**dickköpfig** *adj. fig.*tərs, inadçı, inadcıl, dikbaş.

**Dickschädel,** *der; -s, - s. Dickkopf.*

**Dickmilch,** *die; -* bulama; bir növ yoğurt.

**Dickwanst,** *der; -es, -¨e fig. F* yoğun, kök, qarnı yoğun, ətli-canlı; lət.

**Didaktik,** *die; -* dərs vermə və dərs öyrənmə elmi, didaktik(a).

**didaktisch,** *adj.* didaktik(a).

**die** **1.** *Art., s. der; pl.* onlar; *die (da) sg.* bu xanım, bu qadın; *pl.* onlar; **2.** *pron. (G deren); die Frau, ~ ich sehe* gördüyüm qadın.

**Dieb,** *der; -(e)s, -e* oğru; gecəqonağı, evyaran; əliuzun; *pl.* əyri-oğru.

**Diebesgut,** *das; -(e)s, -¨er* oğurluq mal.

**Diebin,** *die; -, -nen* oğru *(qadın).*

**diebisch** *adj.* əliəyri, oğru kimi.

**Diebstahl,** *der; -(e)s, -¨e* oğurluq, əliuzunluq; *e-n ~ begehen* oğurluq etmək.

**diejenige** *s. derjenige.*

**Diele,** *die; -, -n* **1.** *(Brett)* döşəmə taxtası; **2.** *(Vorraum)* dəhliz, dalan; **3.** *(Eisdiele)* dondurma mağazası *(salonu).*

**dienen** *vi* **1.** qulluq etmək, xidmət etmək *(j-m, bei j-m ~ kiməsə)*; *dem Vaterland ~* vətənə xidmət etmək; **2.** *(zu D)* yaramaq, bir şeyə faydalı olmaq; **3.** *mil.* xidmət etmək*; womit kann ich Ihnen ~ ?* sizə nə xidmət edə bilərəm?

**Diener,** *der; -s, -* **1.** qulluqçu, xidmətçi, fərraş, baxıcı; gədə; qul, qulam, bəndə; *veralt.* xadim; **2.** *(Verbeugung)* baş əymə, əyilmə.

**Dienerschaft,** *die; -, -en* qulluqçular.

**dienlich** *adj.* xeyirli, yararlı; *zu et. ~ sein* bir işə xidmət etmək, bir işə yaramaq.

**Dienst,** *der; -es, -e* **1.** qulluq, xidmət; **2.** *(Stelle)* iş, vəzifə, məmuriyyət; *im ~ sein* iş başında olmaq; *außer ~ sein* xidmətdə olmamaq, xidmətdən azad olmaq; *ich stehe Ihnen zu ~en* qulluğunuza hazıram; *j-m e-n ~ erweisen* birinə *(kiməsə)* bir xidmət etmək, xidmət göstərmək.

**Dienstag,** *der; -(e)s, -e* çərşənbə axşamı, salı.

**Dienstalter,** *das; -s, -* iş illəri, xidmət müddəti.

**Dienstantritt,** *der; -(e)s, -e* işə girmə, qulluğa *(xidmətə)* başlama.

**dienstbereit** *adj.* qulluğa hazır, xidmətə hazır.

**Dienstbote,** *der; -n, -n* nökər, xidmətçi.

**Diensteid,** *der; -(e)s, -e* and *(qulluğa başlayanda)*, qulluq andı.

**Diensteifer,** *der; -s* iş həvəsi.

**diensteifrig** *adj.* işə can yandıran, çalışqan.

**Dienstleistung,** *die; -, -en* qulluq, xidmət, məişət xidməti *pl.*

**dienstlich** *adj.* rəsmi; işə aid.

**Dienstmädchen,** *das; -s, -* ev qulluqçusu.

**Dienstpflicht,** *die; -, -en mil.* hərbi vəzifə, hərbi borc; qulluq vəzifəsi.

**Dienstreise,** *die; -, -n* rəsmi səfər, ezamiyyət; *e-e ~ unternehmen* ezamiyyətə çıxmaq *(getmək).*

**Dienststelle,** *die; -, -n* rəsmi dairə, dövlət məqamları, idarə, iş yeri.

**Dienststunden,** *die/pl.* iş saatları.

**diensttauglich** *adj.* xidmətə yararlı; əsgərlik edə bilən.

**Dienstvorschrift,** *die; -, -en* iş nizamnaməsi, qulluq göstərişi.

**dies** *pron.* bu; *~ und das* o bu, filan behman; ayın-oyun.

**diesbezüglich** *adj.* bu barədə, bu sahədə; *adv.* buna aid olaraq.

**diese, ~r, ~s** *dem pron (hier)* bu, bu biri; *(dort)* bu, o; **diese** *pl.* bunlar.

**dieselbe** *pron. s. derselbe.*

**Dieselmotor,** *der; -s, -en* dizel motoru.

**Dieselöl,** *das; -(e)s, -e* dizel yağı.

**diesen** *pron. Akk.* bunu; *hast du das auch gehört?* bunu sən də eşidibsən?

**dieser** *pron.* bu, bu biri; *~ Mann* bu kişi.

**diesjährig** *adj.* bu illik.

**diesmal** *adv.* bu dəfə, ba baş.

**diesseitig** *adj.* bu tərəfdə olan, bu tərəfli.

**diesseits** *präp. G* bu tərəfdə.

**Diesseits,** *das; - rel.* bu dünya.

**Dietrich,** *der; -s, -e* kilidaçan *(qıfıl açmaq üçün açar əvəzində işlədilən qarmağa oxşar alət).*

**Diffamie,** *die; -, -n* iftira, töhmət.

**diffamieren** *vt* iftira demək, böhtan atmaq, ləkələmək.

**Diffamierung,** *die; -, -en* iftira, töhmət.

**different** *adj.* fərqli, ayrı, müxtəlif.

**Differenz,** *die; -, -en* fərq, təfavüt; ixtilaf; *die ~en beheben* ixtilafı aradan qaldırmaq, ixtilafı yoluna qoymaq; *ohne ~* fərqsiz.

**differenzieren** *vi* ayırmaq, fərqləndirmək.

**Differenzierung,** *die; -, -en* ayrılma, fərqlən(dir)mə.

**diffus** *adj. (Licht)* **1.** dağıdılmış, səpilmiş; **2.** *(Gedanken usw.)* anlaşılmaz; dağınıq; *F ~es Zeug* qarışıq söhbət.

**Diffusion,** *die; -, -en* dağılma, yayılma.

**digital** *adj.* ədədlərlə göstərilən, diqital, dijital.

**Digitaluhr,** *die; -, -en* diqital saat.

**Diktat,** *das; -(e)s, -e* **1.** imla, diktə; **2.** *pol.* əmr, hökm, göstəriş, zorla qəbul etdirmə siyasəti.

**Diktator,** *der; -s, -en* diktator.

**diktatorisch** *adj.* diktatorluq*(la).*

**Diktatur,** *die; -, -en* diktatorluq, diktatura; *e-e ~ errichten* diktatorluq yaratmaq.

**diktieren** *vt* **1.** imla yazdırmaq, diktə etmək, diktə demək; **2.** *pol.* əmr etmək, göstəriş vermək, diktat etmək.

**Diktiergerät,** *das; -(e)s, -e* diktafon.

**Dilemma,** *das; -s, -s u. -ta* çətin vəziyyət, çətin şərait, iki xoşa gəlməyən şeydən birisini seçmə məcburiyyəti.

**Dilettant,** *der; -en, -en* diletant, biliksiz, səriştəsiz adam, naşı, həvəskar.

**dilettantisch** *adj.* səriştəsiz, naşı; sadə.

**Dill,** *der; -s* şüyüd.

**Dimension,** *die; -, -en* ölçü, miqyas.

**Diminutiv,** *das; -s, -e* kiçiltmə *(z.B. Kindchen, Männlein usw.).*

**DIN** = *Deutsche Industrie-Norm(en); Deutsches Institut für Normen* Almaniya Normlar İnstitutu.

**Diner,** *das; -s, -s* ziyafət.

**Ding,** *das; -(e)s, -e* **1.** şey, iş; *vor allen ~en* hər şeydən əvvəl; *ein ~ der Unmöglichkeit* imkansız bir şey; **2.** *pers.* bala, qız üşağı; *F ein nettes ~* sevimli bir qız; *guter ~e sein* kefi yaxşı olmaq.

**dingen** *vt* işə götürmək, işə almaq, iş vermək.

**dingfest** *: j-n ~ machen vt* bir kəsi tutmaq, həbs etmək, yaxalamaq.

**Dingsbums,** *der u. die u. das; - F* filan, filan şey.

**dinieren** *vi* axşam yeməyini yemək, şam yemək.

**Dinosaurier,** *der; -s, -* dinozavr, tarixdən qabaqkı dövrdə yaşamış böyük heyvan.

**Diphterie,** *die; - med.* difteri*(ya).*

**Diphthong,** *der; -(e)s, -e* diftonq, iki saitin birləşməsindən yaranmış səs *(z.B. "au" od. "ei").*

**Diplom,** *das; -s, -e* diplom; *(Süd. : Abiturzeugnis).*

**Diplomat,** *der; -en, -en* diplomat.

**Diplomatie,** *die; -* diplomatiya *(Süd. : diplomasi).*

**diplomatisch** *adj.* diplomatik; *auf ~em Wege* diplomatik yolla.

**diplomiert** *adj.* diplomlu.

**Diplomingenieur,** *der; -s, -e* yüksək mühəndis, ali mühəndis.

**dir** *pron.* sənə; *mit ~* səninlə; *von ~* səndən; *~ (selbst)* özünə.

**direkt** *adj.* birbaşa, bilavasitə, vasitəsiz, direkt, müstəqim, dolaysız, sərrast, düz; *adv.* bilavasitə, düz-doğru, düzbədüz; *ich ging ~ nach Hause* buradan birbaşa *(direkt, düz)* evə getdim.

**Direktflug,** *der; -(e)s, -¨e* birbaşa uçuş.

**Direktion,** *die; -, -en* müdiriyyət.

**Direktive,** *die; -, -n* göstəriş, əmr.

**Direktor,** *der; -s, -en* müdir, direktor.

**Direktorat,** *das; -(e)s, -e* müdirlik.

**Direktrice,** *die; -, -n* paltar sənayesində müdirlik və modelçilik edən qadın.

**Direktübertragung,** *die; -, -en Rundfunk, TV* canlı yayın.

**Dirigent,** *der; -en, -en* orkestr rəhbəri, dirijor.

**dirigieren** *vt* **1.** *mus.* dirijorluq etmək, rəhbərlik etmək, idarə etmək; **2.** *(irgendwohin)* istiqamət vermək, yönəltmək.

**Dirne,** *die; -, -n vulg.* fahişə, qəhbə; sapqın.

**Discountgeschäft,** *das; -(e)s, -e* qiymətləri aşağa düşmüş malları satan mağaza, ucuzlaşmış mallar satılan mağaza .

**Disharmonie,** *die; -, -n* **1.** *mus.* həmahəngsizlik, uyğunsuzluq; **2.** *fig.* yola getməmək, ixtilaf.

**disharmonisch** *adj.* həmahəngsiz.

**Diskette,** *die; -, -n* kompyuter disketi.

**Diskothek,** *die; -, -en* disko*(tek).*

**diskreditieren** *vt* etibarsız etmək, gözdən salmaq, alçaltmaq.

**Diskrepanz,** *die; -, -en* uyğunsuzluq, fərq, təfavüt, fərqlənmə; müxtəlifrəylik.

**diskret** *adj.* **1.** *(behutsam)* ehtiyatlı, ehmallı; **2.** *(verschwiegen)* sirr saxlayan; **3.** *(geheim)* gizli, məxfi, məhrəmanə; *die Angelegenheit muß ~ bleiben* bu iş gizli qalmalıdır; *F* nə dil bilsin, nə dodaq.

**Diskretion,** *die; -* məxfilik, gizlilik; sirr saxlama; *unter strengster ~* tamamilə məxfi *(gizli).*

**diskriminieren** *vt* ayrı-seçkilik qoymaq, fərq qoyaq; xor baxmaq.

**Diskriminierung,** *die; -, -en* ayrı-seçkilik, fərq qoyma; xor baxma.

**Diskurs,** *der; -es, -e* müzakirə, mübahisə, dartışma.

**diskursiv** *adj.* müzakirə yolu ilə, danışıq yolu ilə.

**Diskus,** *der; -, -se (Sport)* disk.

**Diskussion,** *die; -, -en* mübahisə, müzakirə, dartışma, gənəşik, çək-çevir, bəhs, çənəbazar, dehade, diskussiya; *zur ~ stellen* mübahisəyə *(bəhsə)* qoymaq.

**diskutabel** *adj.* mübahisəli.

**diskutieren** *vi* mübahisə etmək, müzakirə etmək, dartışmaq, bəhs etmək *(über A/haqqında); heftig ~* ağızlaşmaq, çəkişmək, deyişmək, *F* dilləşmək.

**dislozieren** *vt* yerləşdirmək, yerini dəyişdirmək.

**Disparität,** *die; -, -en* fərqli olma, təfavüt, bərabər olmama, nisbətsizlik, biçimsizlik.

**dispensieren** *vt* azad etmək, əfv etmək *(von D/ -dən).*

**Disponent,** *der; -en, -en* bir müəssisədə müdirlik vəzifəsini daşıyan; teatrda müdirlik edən.

**disponieren** *vt* **1.** *(ordnen)* qaydaya salmaq, nizama salmaq; **2.** *(verfügen über)* ixtiyarı olmaq, istədiyi kimi istifadə etmək.

**disponiert** *adj.* **1.** hazir, əlverişli; *ich bin ~* formadayam, yaxşı haldayam; **2.** *zu, für et. ~ sein* bəzi şeyləri *(xəstəlikləri)* tez tutmaq, tez düçar olmaq.

**Disposition,** *die; -, -en* **1.** qayda, tərtib; forma; **2.** *(Veranlagung)* tez tutma, tez düçar olma; *zur ~ stellen* müvəqqətən işdən çıxarmaq.

**Disput,** *der; -(e)s, -e* mübahisə etmə, dartışma, münaqişə.

**disputieren** *vi* dartışmaq, mübahisə etmək.

**Disqualifikation,** *die; -, -en (Sport)* yarışda iştirakdan kənarlaşdırma, ixtisasdan salma.

**disqualifiziert** *adj.* yarışda iştirakdan kənarlaşdırılmış.

**Dissertation,** *die; -, -en* dissertasiya *(Süd. : doktora tezi).*

**Dissident,** *der; -en, -en* **1.** siyasi müxalif; **2.** kilsədən çıxmış, kilsəni tərk etmiş.

**Dissonanz,** *die; -, -en* uyğunsuzluq, həmahəngsizlik.

**Distanz,** *die; -, -en* ara, məsafə, uzaqlıq; *~ gegenüber -ə (qarşı)* uzaq durma *(ara saxlama).*

**distanzieren** *vr sich ~* uzaq durmaq,

uzaqlaşmaq, çəkilmək *(von D/-dən).*

**Distel,** *die; -, -n* qanqal, dəvə tikanı.

**Distribution,** *die; - , -en H* paylama, bölmə *(malı).*

**Distrikt,** *der; -(e)s, -e* sahə, dairə.

**Disziplin,** *die; -, -en* **1.** *nur sg.* intizam, nizam, dis(t)iplin, nizam-intizam; **2.** *(wissenschaftliche, sportliche)* elm şöbəsi, fənn.

**disziplinarisch** *adj.* **1.** iş nizamnaməsinə uyğun; **2.** *fig.* son dərəcə sərt.

**diszipliniert** *adj.* intizamlı, distiplinli.

**Diszipliniertheit,** *die; -* nizamlılıq.

**disziplinlos** *adj.* intizamsız, distiplinsiz.

**dito** *adv.* yuxarıdakı kimi, həmin o.

**Ditozeichen,** *das; -s, -* həmin o işarəsi *(əlaməti) (").*

**Diva,** *die; -, Diven* çox sevimli *(məşhur)* qadın sənətkarı *( sinamada, televiziyada, teatrda),* Ulduz.

**divergent** *adj.* fərqli; zidd*(iyətli).*

**Divergenz,** *die; -, -en* **1.** *(Meinungsverschiedenheit)* ixtilaf, fikir ayrılığı; **2.** *(Gegensatz)* fərqlənmə, ziddiyət.

**divers** *adj.* cürbəcür, cürəbəcürə, fərqli, müxtəlif.

**Dividend,** *der; -en, -en math.* bölünən.

**Dividende,** *die; -, -n (bei Aktien)* xeyir, qazanc, dividend.

**dividieren** *vt math.* bölmək *(durch A/ -ə).*

**Division,** *die; -, -en math.* **1.** bölmə, ayırma; **2.** *mil.* diviziya, ləşgər.

**Divisor,** *der; -s, -en* bölən.

**d.j.** *Abk. für dieses Jahres* bu ilin.

**DNA, DNS,** *die; - biol. Abk. für Desoxyribonukleinsäure* DNS.

**doch** *konj. u. adv.* **1.** *(dennoch)* hər halda, yenə də; **2.** *(jedoch)* bununla belə, lakin, buna baxmayaraq; **3.** *(auffordernd)* isə, ki, axı, baba, bəs, də, da; *sprechen Sie ~!* danışın də *(da); komm ~ !* gəl də!, gəl baba!; *du weißt ~* ..bilirsən ki ..; *hör ~ auf, was ist los mit dir?* bəsdir, nə xəbərindir? **4.** *(als Antwort auf e-e negative Frage)* bəs necə, niyə, əlbəttə; məgər, bəyəm; *F* həlbəttə; *kommst du nicht mit?* gəlmirsən? *~!* niyə, gəlirəm!, həlbəttə gəlirəm!; *ja ~ !* əlbəttə, şübhəsiz, bəs necə; **5.** *(vorwurfsvoll) nicht ~!* etmə!, eyləmə baba!; *heißt du nicht doch Elana?* məgər *(bəyəm)* sənin adın Elana deyil?.

**Docht,** *der; -(e)s, -e* fitil, piltə.

**Dock,** *das; -(e)s, -s* dok *(gəmi təmir oulnan yer) .*

**Dogge,** *die; -, -n* doq *(it cinsi) .*

**Dogma,** *das; -s, -men* doqma, ehkam.

**dogmatisch** *adj.* doqmatik, qəti.

**Dohle,** *die; -, -n* zağça, dolaşa, kiçik qarğa.

**Doktor,** *der; -s, -en* **1.** *(Titel)* doktor; **2.** *(Arzt)* həkim, doktor; *den ~ machen* doktorluğunu etmək; *~ der Philosophie (Dr. Phil.)* fəlsəfə doktoru.

**Doktorand,** *der; -en, -en* doktorluğu müdafiə edən tələbə.

**Doktorarbeit,** *die; -, -en* doktorluq işi, *(Süd. : doktora tezi).*

**Doktorat,** *das; -(e)s, -e* doktorluq dərəcəsi.

**Doktortitel,** *der; -s, -* doktorluq dərəcəsi.

**Doktorwürde,** *die; -, -en s. Doktortitel.*

**Doktrin,** *die; -, -en pol.* nəzəriyyə, doktrin*(a),* təlim.

**doktrinär** *adj.* düşüncəsini dəyişməyə hazır olmayan.

**Dokument,** *das; -(e)s, -e* sənəd.

**dokumentarisch** *adj.* sənədlərə əsaslanan, həqiqi, sənədli.

**dokumentieren** *vt* sənədlərlə göstərmək, əsaslandırmaq.

**Dolch,** *der; -(e)s, -e* xəncər, qəmə, dəşnə.

**doll** *s. toll.*

**Dollar,** *der; -s, -s* Dollar.

**Dolmetsch,** *der; -(e)s, -e* **1.** *(Fürsprecher)* havadar, müdafiəçi; **2.** tərcüməçi, mütərcim.

**dolmetschen** *vi* tərcümə etmək, çevirmək.

**Dolmetscher,** *der; -s, -* dilmanc, mütərcim, tərcüməçi.

**Dolmetscherin,** *die; -, -nen* tərcüməçi *(qadın).*

**Dom,** *der; -(e)s, -e* **1.** *(Kathedrale)* böyük kilsə; **2.** *(Gewölbe)* qübbə, günbəz.

**Domäne,** *die; -, -n* **1.** *(Staatliches Landgut)* dövlətə aid ərazı və əmlak, dövlət torpağı; **2.** *(Spezialgebiet)* ixtisas sahə; *das ist s-e ~* bu onun ixtisas sahəsidir.

**domestizieren** *vt (Zähmen)* əhliləşdirmək, ram etmək.

**dominant** *adj.* hökm sürən.

**dominieren** *vt* hökm sürmək, ağalıq etmək *(über A/ bir şey üzərində)*; *vi* üstün olmaq, üstünlük təşkil etmək.

**Domino,** *das; -s, -s* domino oyunu.

**Domizil,** *das; -s, -e* iqamətgah, oturulan yer, yaşayış yeri.

**Dompfaff,** *der; -s, -en zo.* qar quşu.

**Dompteur,** *der; -s, -e* heyvan təlimçisi, heyvan öyrədicisi.

**Donner,** *der; -s* göy gurultusu; gumbultu *wie vom ~ gerührt dastehen / sein* ildırım vurmuş *(çarpmış)* kimi durmaq *(quruyub qalmaq).*

**donnern** *vi* guruldamaq; *es donnert* göy guruldayır.

**Donnerstag,** *der; -(e)s, -e* cüməaxşamı; *am ~* cüməaxşamı.

**donnerstags** cüməaxşamları.

**Donnerwetter,** *das; -s* **1.** *F (Bewunderung)* sağ ol!, yaşa!; **2.** *(Ausruf des Ärgers)* cəhənnəm olsun!, lənətə gəlsin!; *zum ~, seid doch leiser!* lənət şeytana, bir yavaş olun!

**doof** *adj.* **1.** *F* səfeh, axmaq, ağıldan seyrək, ağıldan kasıb; **2.** *F* darıxdırıcı.

**Doofheit,** *die; -, -en* səfehlik, axmaqlıq.

**dopen** *vt (Sport)* təhrik edici maddələrdən istifadə etmək; *gedopt sein* dopinqli olmaq.

**Doping,** *das; -s (Sport)* idmanda qadağan olan təhrik edici maddə, dopinq.

**Doppel,** *das; -s, -* ikiqat, ikili; kopiya, surət.

**doppeldeutig** *adj.* ikimənalı, eyhamlı.

**Doppelgänger,** *der; -s, -* bənzər, oxşar, əş.

**Doppelkinn,** *das; -s, -e* buxaq, çənəaltı.

**doppeln** *vt* ikiləmək, ikiqat artırmaq.

**Doppelpunkt,** *der; -(e)s, -e* iki nöqtə (:).

**doppelseitig** *adj.* ikitərəfli.

**doppelsinnig** *adj.* ikimənalı, mübhəm.

**doppelt** *adj.* ikiqat; iki-iki; *adv.* iki dəfə çox, iki qat çox; *~ so viel* iki dəfə çox; *~ so groß* iki dəfə böyük.

**Doppeltür,** *die; -, -en* ikitaylı qapı.

**Doppelverdiener** *die/pl.* hər ikisi pul qazanan ər-arvad.

**Doppelzimmer,** *das; -s, -* ikiyataqlı otaq, ikiadamlıq otaq.

**doppelzüngig** *adj.* ikiüzlü, riyakar, buqələmun sifət; *~ sein* ikiüzlü olmaq; *Spr. dem Hasen "lauf" dem Windhund "faß" sagen* dovşana qaç, tazıya tut demək.

**Dorado,** *das; -s, -s* behişt, cənnət.

**Dorf,** *das; -(e)s, -¨er* kənd, köy.

**Dorfälteste,** *der u. die, -n, -n* kəndxuda.

**Dorfbewohner,** *der; -s, -* kənd əhalisi.

**Dorfgeschichte,** *die; -, -n* kənd hekayəsi.

**dörflich** *adj.* kənd(li).

**Dorn,** *der; -(e)s, -en* tikan; *fig. j-m ein ~ im Auge sein* birisinin gözünə tikan kimi batmaq, birisinin gözündə tikan olmaq.

**dornig** *adj.* tikanlı.

**dörren** *vt* qurutmaq, qovurmaq.

**Dörrobst,** *das; -es* quru meyvə, yemiş, çərəz.

**dort** *adv.* orada; *hier und ~* hər yanda, hər yerdə, hər tərəfdə; *von ~* oradan; *~ her* oradan; *~hin* oraya.

**dorther** *adv.* oradan; o tərəfdən.

**dorthin** *adv.* oraya; o tərəfə.

**dortig** *adj.* oradakı, oranın, oralı.

**Dose,** *die; -, -n* **1.** qutu; **2.** *(Steckdose)* ştepsel.

**dösen** *vi* mürgüləmək.

**Dosenfleisch,** *das; -es* konserv əti.

**Dosenöffner,** *der; -s, -* konserv açan.

**dosieren** *vt* miqdarını təyin etmək, dozalamaq.

**Dosierung,** *die; -, -en* miqdarını təyin etmə, dozalama.

**Dosis,** *die; -, -sen* miqdar, doza.

**Dossier,** *das; -s, -s* dosya.

**dotieren** *vt* vəqf etmək, bağışlamaq; yaxşı əmək haqqı vermək; *e-e gut dotierte Stelle* yaxşı pul qazanılan iş *(vəzifə).*

**Dotierung,** *die; -, -en* vəqf, bağışlama.

**Dotter,** *der u. das; -s, -* yumurta sarısı.

**doubeln** *vt* dublyorluq etmək.

**Double,** *das; -s, -s Film* dublyor; dublyorluq işi.

**Doublet,** *die; -, -n* dublet, hər hansı bir şeyin ikinci nüsxəsi; iki eyni şeydən biri.

**Dozent,** *der; -en, -en* dosent.

**dozieren** *vi* dərs vermək.

**Dr.** *= (Doktor); Doktor der Philosophie* fəlsəfə doktoru; *Doktor der Medizin* tibb doktoru.

**Drache,** *der; -n, -n* **1.** əjdaha, əjdər; **2.** *fig. (böses Weib)* bədqılıq arvad, deyingən arvad, ifritə; **3.** *fig. (stark, mutig, furchtlos) mutiger Bursche* əjdaha kimi oğlan.

**Drachen,** *der; -s, -s* kağızdan ilan *(Süd. : bərdivan); e-n ~ steigen lassen* bərdivan uçurtmaq.

**Dragee,** *das; -s, -s* draje, üstü şəkərlə örtülmüş meyvə və ya həb.

**Draht,** *der; -(e)s, -¨e* **1.** məftil, tel, sim; **2.** *fig.* telefon, teleqraf; *per ~* telefonla; *der heiße ~* iki dövlətin hökümətləri arasında telefon əlaqəsi*; e-n guten ~ zu j-m haben* birisiylə yaxşı əlaqə saxlamaq *(arası yaxşı olmaq).*

**Drahtanschrift,** *die; -, -en* teleqraf adresi.

**Drahtbürste,** *die; -, -n* sim fırçası.

**drahtlos** *adj.* simsiz, telsiz.

**Drahtnetz,** *das; -es, -e* dəmir top.

**Drahtseil,** *das; -(e)s, -e* məftil, sim.

**Drahtseilbahn,** *die; -, -en* məftil burazlı dəmir yolu.

**Drahtverhau,** *der; -(e)s, -e* məftil çəpər, məftil hörgü.

**Drahtzieher,** *der; -s, -* **1.** tel çəkən, telçi, sim çəkən; **2.** *fig.* fitnəçi, fitnə salan, gizli rəhbər.

**drakonisch** *adj.* çox ağır, çox sərt, çox şiddətli; *~e Maßnahmen* sərt tədbirlər.

**drall** *adj.* **1.** *(Frau)* ətli budlu, kök; **2.** *(gedreht)* fırlanmış, dönmüş.

**Drall,** *der; -(e)s, -e* fırlanma, hərlənmə; dövr; eşmə, burma.

**Drama,** *das; -s, -men* dram; *das ~ e-s Lebens* bir həyatın dramı, bir həyatın acı səhifələri.

**Dramatiker,** *der; -s, -* dram yazan.

**dramatisch** *adj.* dramatik.

**dramatisieren** *vt* **1.** dram şəklinə salmaq; **2.** *fig.* böyütmək, şişirtmək.

**Dramaturg,** *der; -en, -en* dramaturq.

**dran** *(daran) adv. s. daran; ich bin ~* növbə mənimdir; *er ist arm ~* onun vəziyyəti pisdir; *spät ~ sein* gecikmək, gec qalmaq.

**dranbleiben** *vi fig.* əl çəkməmək, dayanmaq; *F ~ an (D) -dən* əl çəkməmək.

**drang** *s. dringen.*

**Drang,** *der; -(e)s* **1.** *(Druck)* təzyiq, sıxışdırma; **2.** *(Begierde)* meyl, arzu, həvəs; **3.** *med.* istəmə, ehtiyac hissi, tələbat.

**Drängelei,** *die; -, -en F* itələmə, soxulma; girhagir.

**drängeln** *vt u. vi F* itələmək; *(mit der Brust)* döşləmək; *(Auto)* soxulmaq; *~ Sie doch nicht so!* itələməyin!.

**drängen** *vt* **1.** *(drücken)* sıxışdırmaq, sıxmaq; **2.** *(schieben, stoßen)* itələmək; *(mit der Brust)* döşləmək; **3.** *(j-m zusetzen)* təngə gətirmək; sıxışdırmaq; *zu tun ~ -məsi üçün* sıxışdırmaq; *vi (auf et. ~) -də* israr etmək; *die Zeit drängt* vaxt azdır, vaxt gözləmir; *vr sich ~* 1. soxulmaq; *durch die Menge ~* soxulub keçmək; 2. bir-birinin ardınca gəlmək; *die Ereignisse drängten sich* hadisələr bir-birinin dalınca baş verdi; 3. *sich ~* acil olmaq; *die Zeit drängt* vaxt azalır; *sich ~ um -in* ətrafına yığışmaq *(toplaşmaq).*

**Drängen,** *das; -s* israr; *auf ~ von .. -in* israr ilə, *-in* təkidi ilə.

**drankommen** *vi F -in* sırası gəlmək, növbəsi çatmaq *(olmaq); du kommst (als nächster) ~ (bundan sonra)* sıra səndədir, *(növbə səninidir).*

**Drangsal,** *die; -, -e* əziyyət, əzab.

**drangsalieren** *vt* əzab vermək, zülm etmək, işgəncə vermək.

**drankriegen** *vt F -in etməsini* qəbul etmək, razılaşmaq, razılıq vermək; *ihr habt mich ganz schön drangekriegt* məni yaxşı razılaşdırdız.

**drannehmen** *vt F (Schule) -dən* soruşmaq, *-dən* sual etmək.

**drapieren** *vt* parça ilə örtmək, üstünü örtmək; bəzəmək.

**drastisch** *adj.* **1.** *(sehr wirksam)* çox təsirli; **2.** *(unverblümt)* düz, aydın, sərrast; **3.** *(Maßnahme)* sərt.

**drauf** *adv.* **1.** *s. darauf;* **1.** buna; bunun dalınca; bundan sonra;*~ und dran sein, etw. zu Inf. -mək* üzrə olmaq; *ich war ~ und dran, den Plan aufzugeben* plandan əl çəkmək üzrəydim; *gut ~ sein* ke(y)fi kök olmaq.

**Draufgänger,** *der; -s, -* dəlibaş; dəliqanlı, qorxmaz, ürəkli.

**draufgehen** *vi* **1.** *(umkommen)* ölmək; tələf olmaq; **2.** xərclənmək, israf olmaq *auf dieser Reise sind 4000 € draufgegangen* bu səfərdə 4000 € xərcləndi.

**draufkommen** *vi* səbəbini tapmaq; *ich komme nicht drauf* yadıma sala bilmirəm.

**draufkriegen** *vt F* cəzalanmaq; *F eins ~* kötək yemək.

**drauflegen** *vt fig. (Geld)* qalanını vermək, pulun üstünə pul qoymaq.

**drauflos** *adv. F (durmadan)* üstünə; *~gehen* üstünə getmək, maniələrə baxmayaraq getmək.

**drauflosreden** *vi F* durmadan danışmaq, fikirləşmədən danışmaq.

**draufmachen** *vt e-n ~* yaxşı bayram etmək, doyunca ke(y)f etmək.

**draufzahlen** *vt (zusätzlich bezahlen)* əlavə olaraq ödəmək, üstünə pul qoymaq; *vi (Verluste haben) (zərəri)* cibdən qoymaq *(vermək).*

**draus** *adv. F daraus*

**draußen** *adv.* eşikdə, bayırda, açıq havada, eşiyində; *von ~* eşikdən, bayırdan.

**Drechselbank,** *die; -, -¨e* xarrat dəzgahı.

**drechseln** *vt* yonmaq *(dəzgahla).*

**Drechsler,** *der; -s, -* yonucu.

**Dreck,** *der; -(e)s* **1.** çirk, natəmizlik, kəsafət;**2.***(Straßenschmutz)*zir-zibil, cır-cındır; *j-n wie den letzten ~ behandeln* birini təhqir etmək; *das geht dich e-n ~ an* sənə dəxli yoxdur; *fig. er hat (viel) ~ am Stecken* o oğraşdır, o təmiz insan deyil.

**dreckig** *adj.* pis, kifir; çırkli, zibilli, kəsafətli; *fig.* damdabaca; *es geht mir ~* pis gündəyəm, vəziyyətim çox pisdir.

**Drecksau,** *die; -, -¨e F* pis adam, oğraş.

**Dreckskerl,** *der; -s, -e F* pis adam, oğraş.

**Dreh,** *der; -(e)s, - u. –s* **1.** *(Methode)* üsul, metod, yol; *den richtigen ~ herauskriegen* məsələnin düz yolunu tapmaq; *um den ~* təxminən bu hüdudda; **2.** *(Kniff)* hiylə, kələk; fənd.

**Dreharbeit,** *die; -, -en* film çəkmə işi.

**Drehbank,** *die; -, -¨e* torna dəzgahı.

**Drehbuch,** *das; -(e)s, -¨er* ssenari.

**drehen** *vt* **1.** fırlatmaq, çevirmək, döndərmək, burmaq, aylandırmaq; eşmək; **2.** *(drechseln)* yonmaq; **3.** *(Film) e-n Film ~* kino filmi çəkmək; **4.***(Zigaretten)* papiros bürmələmək, siqar bükmək, papiros eşmək; *vr sich ~* fırlanmaq, fırıldanmaq, aylanmaq, burulmaq, dönmək; *fig. worum dreht es sich?* məsələ nədir?; *darum dreht es sich nicht* söhbət bundan getmir, mövzu *(qonu)* bu deyil.

**drehend** *adj.* fırlanan, hərlənən, fırıldanan, fırıldana-fırıldana; *~e Bewegung* fırlanan hərəkət.

**Dreher,** *der; -s, -* tornaçı.

**Dreherei,** *die; -, -en* tornaçılıq emalatxanası.

**Drehpunkt,** *der; -(e)s, -e* dayanaq nöqtə, əsas nöqtə.

**Drehstahl,** *der; -(e)s techn.* torna tiyəsi, kəski.

**Drehstrom,** *der; -(e)s* dəyişən üçfazalı cərəyan.

**Drehstuhl,** *der; -(e)s, -¨e* fırlanan stul,

fırlanan səndəl.

**Drehung,** *die; -, -en* hərlənmə, fırlanma, dolanma, burulma, dönmə, gərdiş, dövr, devr, dövran.

**Drehzahl,** *die; -, -en* dönmə miqdarı, dönmə sayı.

**drei** *adj. fig. er kann nicht bis ~ zählen* o dərrakə sahibi deyil, o ağıldan kasıbdır.

**drei** *adj.* üç.

**Drei,** *die; -, -en* üç, üçlük.

**dreibändig** *adj.* üç cildli.

**dreiblättrig** *adj.* üç yarpaqlı.

**dreidimensional** *adj.* üç ölçülü, üç əndazəli *(üçkünclü).*

**Dreieck,** *das; -(e)s, -e* üçbücaq.

**dreieckig** *adj.* üçbucaqlı, üçkünclü.

**dreierlei** *adj.* üç cür, üç şəkildə.

**dreifach** *adj.* üçqat, üçqat artıq; *adv.* üçqat, üç dəfə.

**Dreifaltigkeit,** *die; - rel.* üçlük, təslis.

**dreifarbig** *adj.* üç rəngli.

**Dreifuß,** *der; -es, -¨e* üçayaq.

**dreihundert** *adj.* üç yüz.

**dreihundertst-** *adj.* üçyüzüncü.

**dreijährig** *adj.* üçillik, üç yaşında.

**dreikantig** *adj.* üçkünc, üçüzlü.

**Dreikäsehoch,** *der; -s, -(s) F* koppuş, pompul, kiçik uşaq.

**dreimal** *adv.* üç dəfə, üç qat, üç yol.

**dreimalig** *adj.* üç qat, üç dəfə təkrar olan.

**dreimonatlich** *adj.* üçaylıq.

**dreiseitig** *adj.* üçtərəfli, üçyanlı.

**dreispaltig** *adj.* üçsütunlu.

**dreisprachig** *adj.* üçdilli.

**dreißig** otuz; *die ~er Jahre* otuzuncu illər.

**Dreißiger,** *der; -s, -* 30-40 yaşlı kişi.

**dreißigjährig** *adj.* otuzillik.

**dreißigst** *adj.* otuzuncu.

**dreißigstel** *adj.* otuzuncu *(hissə).*

**dreißigtägig** *adj.* otuzgünlük.

**dreist** *adj.* **1.** *(frech)* sırtıq, üzsüz, üzlü, azğın, füzul; **2.** *(ungezogen)* ədəbsiz, tərbiyəsiz; **3.** *(selbstgefällig)* özündən razı, özünü bəyənən; *~ werden* azğınlaşmaq, füzulluq etmək.

**dreistellig** *adj. math.* üçqiymətli *(Süd. : üçrəqəmli).*

**dreistöckig** *adj.* üçmərtəbəli.

**dreistufig** *adj.* üçpilləli.

**dreitägig** *adj.* üçgünlük.

**dreitausend** *adj.* üç min.

**dreiviertel** *adj.* dörddə üç hissə.

**dreizehn** *adj.* on üç.

**dreizehnt-** *adj.* onüçüncü.

**Dresche,** *die; - F* kötək; *~ bekommen* kötək yemək, kötəklənmək.

**dreschen** *vt* **1.** *(Getreide)* xırman *(xərmən)* döymək, taxıl döymək; **2.** *fig.* döymək.

**Dreschflegel,** *der; -s, -* toxmaq, paya, taxıldöyən.

**Dreschmaschine,** *die; -, -n* xırmandöyən maşın, ding, taxıldöyən.

**dressieren** *vt (Tier)* təlim etmək, öyrətmək.

**Dressman,** *der; -s, -men* model *(kişi),* manikən.

**Dressur,** *die; -, -en (e-s Tier)* təlim.

**driften** *vi mar.* hərəkət etmək *(irəliyə doğru)*, getmək

**Drill,** *der; -(e)s mil.* sərt hərbi təlim.

**drillen** *vt* **1.** *mil.* əsgərlərə sərt təlim vermək; **2.** təlim və tərbiyə etmək;**3.** toxumları sıra ilə əkmək;**4.**əziyyət etmək.

**Drillich,** *der; -(e)s, -e* bez, kətan.

**Drilling,** *der; -s, -e* üç lüləli tüfəng.

**Drillinge,** *die/pl.* üç əkiz uşaq, üçüz.

**drin** *s. darin;* içində; *F es ist noch alles ~* hələ hər şey mümkündür.

**dringen** *vi* **1.** *(durch et.)* keçmək, soxulmaq; **2.** *(aus et.)* çıxmaq; **3.** *(auf et.)* israr etmək, təkid etmək; **4.** *(in j-n)* bir kəsi təngə gətirmək, sıxışdırmaq.

**dringend** *adj.* **1.** təcili, təxirəsalınmaz, əcələli; **2.** *(notwendig)* çox gərəkli, zəruri; təxirsiz; *veralt.* əlzəm; **3.** *(Verdacht, Rat)* ağır, güclü; sağlam; *in ~en Fällen* təcili vaxtda, təcili hallarda.

**dringlich** *s. dringend.*

**Dringlichkeit,** *die;* təxirə salınmazlıq, təcililik, əcələ; zərurət; təkidlilik.

**drinnen** *adv.* içəridə, daxildə, *-in* içində.

**Drink,** *der; -s, -s* içki.

**drinstecken** *vi* *-in* içində olmaq; *da steckt viel Arbeit drin* bu iş çox zəhmət aparıb, bu iş üçün çox əmək qoyulub.

**dritt** *adv.* : *zu ~* üçlükdə.

**dritte, ~r, ~s** *adj.* üçüncü; *die Dritte Welt* Üçüncü Dünya.

**Drittel,** *das; -s, -* üçdə bir.

**dritteln** *vt* üçə bölmək, üç yerə bölmək.

**drittens** *adv.* üçüncü olaraq, üçüncüsü.

**Droge,** *die; -, -n* **1.** *med.* səhiyyə malı, dava-dərman; **2.** *(Rauschgift)* narkotik maddə *(Süd. : müxəddir maddə).*

**Drogenabhängige,** *der u. die; -n, -n* narkotika xəstəsi, narkotika maddələrdən asılı adam.

**drogensüchtig** *adj.* narkotika xəstəsi *(Süd. : mötad).*

**Drogerie,** *die; -, -n* səhiyyə maddələr *(dərmanlar)* satılan mağaza.

**Drogist,** *der; -en, -en* səhiyyə dərmanları satan.

**Drohbrief,** *der; -(e)s, -e* təhdid məktubu.

**drohen** *vi (j-m/ bir kəsi)* hədələmək, qorxutmaq, təhdid etmək, hərbə-zorba gəlmək.

**drohend** *adj.* qorxuducu, hədələyici; *~e Gefahr* yaxınlaşan təhlükə.

**Drohne,** *die; -, -n* **1.** *zo.* erkək arı; **2.** *(Nichtstuer)* tənbəl, müftəxor, tüfeyli.

**dröhnen** *vi* guruldamaq; uğuldamaq; *die Erde dröhnte unter den Panzern* yer tanklar altında guruldayırdı; *mir dröhnt der Schädel!* başım guruldayır!, başım çatl(ay)ır!

**Drohung,** *die; -, -en* hədə, təhdid, qorxutma, hərbə-zorba, hədə-qorxu, hərbə.

**drollig** *adj.* **1.** *(amüsant)* əyləncəli; gülünc; **2.** *(niedlich)* məlahətli.

**Dromedar,** *das; -s, -e* *zo.* birhörküclü dəvə.

**Droschke,** *die; -, -n* fayton .

**Droschkenkutscher,** *der; -s, -* faytonçu.

**Drossel,** *die; -, -n* *zo.* qaratoyuq.

**drosseln** *vt* **1.** *techn.* axını azaltmaq; boğub azaltmaq, qısmaq; **2.** *(j-n würgen)* boğmaq.

**Drosselung,** *die; -, -en* azaltma, qısma; boğma.

**drüben** *adv.* orada, o tərəfdə, qarşıda.

**drüber** *adv.* *s. darüber;* bunun üzərində; üstündən, üzərindən.

**Druck[1],** *der; -(e)s, -¨e* **1.** *nur sg.* təzyiq, sıxışdırma, basqı, zülm, qısnama, güc; **2.** *(Last)* yük, ağırlıq; **3.** *(Händedruck)* əl vermə; **4.** *(Nachdruck)* təkid, əhəmiyyət; *~ ausüben* təzyiq göstərmək, qısnamaq, güc gəlmək; *vulg.* osturtmaq.

**Druck[2],** *der; -(e)s, -e* *(Buchdruck)* çap; mətbuat; nəşriyyat *in ~ geben* çapa vermək.

**Druckbogen,** *der; -s, -¨* vərəqə, çap vərəqi.

**Druckbuchstabe,** *der; -n, -n* mətbəə hərfi, çap hərfi.

**Drückeberger,** *der; -s, -* iş altından boyun qaçıran şəxs, işdən qaçan.

**drucken** *vt* çap etmək; *~ lassen* çap etdirmək.

**drücken** *vt* **1.** basmaq; sıxmaq, əzmək; təzyiq etmək; soxmaq, dürtmək; **2.** *(Preise)* qiymətləri aşağı salmaq; **3.** *(ans Herz)* bağrına basmaq; **4.** *j-m die Hand ~* birisinin əlini sıxmaq; **5.** *j-m et. in die Hand ~* birisinin əlinə bir şey qoymaq; *vi (Schuh)* ayağı vurmaq; *fig. ich weiß, wo dich der Schuh drückt* sənin dərdini bilirəm; *vr sich ~* 1. boyun qaçırmaq, çəkilmək, geri durmaq *(vor D, um A/-dən)*; 2. *(aus Angst)* əkilmək, aradan çıxmaq, yox olmaq.

**drückend** *adj.* **1.** ağır, sıxıcı, yorucu; **2.** *(Hitze)* bərk isti, çox isti.

**Drucker,** *der; -s, -* **1.** çapçı; **2.** *(Computer)* çap maşını.

**Drücker,** *der; -s, -* **1.** *(Tür)* sürgü, qapıqolu; açar yerinə işlənən xüsusi alət; **2.** *(am Gewehr)* çaxmaq; **3.** *F* qapı ağzında şey satan adam; **4.** narkotik *(heroin)* maddəsindən istifadə edən adam; *F auf den letzten ~* son anda, axır ləhzədə.

**Druckerei,** *die; -, -en* mətbəə, çapxana.

**Druckerschwärze,** *die; -* mətbəə rəngi *(mürəkkəbi).*

**Druckfehler,** *der; -s, -* çap səhvi, çapda gedən səhv.

**Druckfehlerverzeichnis,** *das; -ses, -se* mətbəə xətası səhvlərinin cədvəli.

**druckfertig** *adj.* çapa hazır.

**Druckkosten** *die/pl.* mətbəə xərci, çap xərci.

**Druckluft,** *die; -* sıxı(şdırı)lmış hava.

**Druckmittel,** *das; -s, -* təzyiq vasitəsi.

**Druckpapier,** *das; -(e)s, -e* çap kağızı.

**Drucksache,** *die; -, -n* çap olunmuş, mətbuat.

**Druckschrift,** *die; -, -en* **1.** çap olmuş yazı; broşur; **2.** *(Drucktypen)* çap xətti, mətbəə hərfi.

**Druckverbot,** *das; -(e)s, -e* nəşr olunma yasağı *(qadağanı).*

**drum** *adv. s. darum;* buna görə, bunun üçün; *das ganze Drum und Dran* bununla əlaqədar olan hər şey.

**drunten** *adv.* aşağıda, altda.

**drunter** *s. darunter;* qarma-qarışıq, alt-üst; *hier geht alles ~ und drüber* burada hər şey alt-üstdür.

**Drüse,** *die; -, -n* vəz, qüddə.

**Drüsenschwellung,** *die; -, -en* vəzlərin şişməsi *(iltihabı).*

**Dschungel,** *der; -s, -* meşə, orman, cəngəl.

**dt.** *Abk. für* **deutsch** alman(ca).

**Dtzd.** *Abk. für* **Dutzend** *das; -s, -e* düjün *(Süd. : dücün).*

**du** *pron.* sən; *auf ~ und ~ stehen* biriylə oturub-durmaq; *~ sagen* sən deyə müraciət etmək; *~ liebe Zeit!* əcəba!; qəribə işdir!; *F ~!* ədə!.

**Dual,** *der; -s gr.* ikili.

**Dualismus,** *der; - (z.B. das Gute u. das Böse)* ikilik, bir-birinə zidd olan, iki mahiyyətli, dualizm, ikitirəlik.

**dualistisch** *adj.* dualist, ikitirəli.

**Dübel,** *der; -s, - techn.* dübel, plastik lülə *(vint/ piç üçün).*

**dubios, dubiös** *adj.* şübhəli.

**Dublette,** *die; -, -n* **1.** ikinci nüsxə; **2.** *(Imitation)* təqlid olmuş şey.

**ducken** *vt (den Kopf)* əymək; *vr sich ~* əyilmək, tabe olmaq, baş əymək.

**Duckmäuser,** *der; -s, -* qorxaq, ikiüzlü, hiyləgər.

**duckmäuserisch** *adj.* qorxudan, hiyləgərcəsinə.

**Dudelei,** *die; -, -en* xoşa gəlməyən çalğı; zəhlətökən radio səsi.

**Dudelsack,** *der; -(e)s, -¨e* bir növ musiqi aləti.

**Duell,** *das; -s, -e* duel, təkbətək mübarizə.

**Duellant,** *der; -en, -en* duel edən, duelçi.

**duellieren** *vr sich ~* duel etmək.

**Duett,** *das; -(e)s, -e mus.* duet.

**Duft,** *der; -(e)s, -¨e* ətir, xoş iy, ənbər.

**duften** *vi* ətir qoxusu vermək, ətir kimi iy vermək, ətir saçmaq *(nach D/ kimi).*

**duftend** *adj.* ətirli; iyli.

**duftig** *adj. fig.* incə, zərif.

**Duftstoff,** *der; -(e)s, -e* ətirli maddə; parfüm.

**dulden** *vt* **1.** *(still leiden)* əzab çəkmək, iztirab çəkmək; **2.** *(ertragen)* təhəmmül etmək, dözmək, tab gətirmək; **3.** *(zulassen)* yol vermək; icazə vermək, *-ə* göz yummaq.

**duldsam** *adj.* səbirli, dözümlü, hövsələli.

**Duldung,** *die; -, -en* dözüm, dözmə; *jur.* istisna olaraq sakinlik icazəsi alma.

**dumm** *adj.* **1.** səfeh, sarsaq, axmaq, əbləh, əhməq, ətbaş; *F fig.* düdək, eşşək; **2.** *(unwissend)* cahil, nadan, başıboş, düşüncəsiz, həpənd; **3.** *(unerfahren)* təcrübəsiz, naşı;**4.** *(einfältig)* sadədil, sadəlövh; **5.** *(beschränkt)* gicbəsər, gictəhər, qanmaz, fəhmsiz, gicbaş, abdal, ağzıaçıq, dilbilməz, ətbaş, maymaq; *~es Zeug!* boş şey!, mənasız şey!; *der Dumme sein* bir şeydə zərər görmək; *sich ~ stellen* özünü bilməməzliyə vurmaq; *das war ~ von mir* axmaqlıq etdim; *ich lasse mich nicht für ~ verkaufen* özümü axmaq yerinə qoya bil-

mərəm, özümü axmaq saya bilmərəm.

**Dummheit,** *die; -, -en* axmaqlıq, səfehlik, giclik, gicbaşlıq, abdallıq, dəlilik; cahillik; *fig.* eşşəklik, malbaşlıq, maymaqlıq; *mach keine ~en!* səfehllik (*dəlilik)* etmə!; *~en machen* xalqı özünə güldürmək; cahillik etmək, əbləhlik.

**Dummkopf,** *der; -(e)s, -¨e* axmaq, səfeh, gic, sadəlövh, dəlisov, kütbeyin; ağıldan kasıb; anlamaz, beynixarab, beyniboş, əbləh; *fig.* eşşək, malbaş.

**dummdreist** *adj.* axmaq və sırtıq.

**dümmlich** *adj.* gicbəsər, gictəhər.

**dummstolz** *adj.* dikbaş, lovğa, axmaq və özünü bəyənmiş.

**dumpf** *adj.* **1.** *(Geräusch)* kar, sönük, küt, goppultu; **2.** *(Luft)* boğanaq, boğuq; **3.** *(Raum)* havasız; **4.** *(unklar)* aydın olmayan, anlaşılmaz; **5.** *(feucht)* yaş, nəmli, rütubətli; **6.** *(gefühllos)* hissiz, duyğusuz; *~e Gefühle* qarışıq hisslər, pis hisslər.

**Dumping,** *das; -s* malın öz dəyərindən aşağı satılması, dampinq.

**Dumpingpreise** *die/pl.* aşağı düşmüş qiymətlər *pl.*

**Düne,** *die; -, -n* qum təpəsi.

**Dung,** *der; -(e)s* gübrə, gübrələmə, peyin; *(Süd. : a. kud).*

**Düngemittel,** *das; -s, -* gübrə *(vəsaiti).*

**düngen** *vt* gübrələmək, kud vermək.

**Dünger,** *der; -s, -* gübrə, kud.

**Dunggrube,** *die; -, -n* gürbə çalası.

**Düngung,** *die; -, -en* gübrələmə.

**dunkel** *adj.* **1.** qaranlıq; *es wird ~* qaranlıqlaşır; **2.** *(Farbe)* tünd; **3.** *(unklar)* şübhəli, aydın olmayan; *fig. ~e Geschäfte* əyri işlər, qeyri-qanuni alverlər; *es wird mir ~ vor den Augen* gözlərim qaralır.

**Dunkel,** *das; -s* qaranlıq; *im ~n* qaranlıqda; *j-n im ~n lassen* kimsəni başa salmamaq, qaranlıq içində buraxmaq.

**Dünkel,** *der; -s* lovğalıq, təkəbbürlük, özünübəyənmə.

**dunkeläugig** *adj.* qaragöz(lü).

**dunkelblau** *adj.* sürmeyi; gömgöy.

**dunkelbraun** *adj. (Haut)*qaraşın, qarasov.

**dunkelgrün** *adj.* gömgöy.

**dünkelhaft** *adj.* təkəbbürlü, iddialı, özünü öyən.

**dunkelhäutig** *adj.* dərisiqara, qaradərili.

**Dunkelheit,** *die; -* qaranlıq.

**Dunkelkammer,** *die; -, -n phot.* qaranlıq otaq.

**dunkeln** *vi* qaranlıqlaşmaq; *es dunkelt* qaranlıqlaşır, toran düşür.

**Dunkelziffer,** *die; -, -n jur.* ifşa olmayan hadisələrin sayı.

**dünken** *vi (mir scheint, dass..) mir (mich) dünkt, es dünkt mir (mich)* mənə belə gəlir (*dass*/ ki ...), məncə ... , belə düşünürəm ki.. .

**dünn** *adj.* **1.** nazik; incə; **2.** *(schlank)* arıq, canazar; ağcavaz, alaşa, çəlimsiz, ətsiz, donqaz, sısqa; *F* əyrəmcə; **3.** *(Flüssigkeit)* duru; **4.** *(Stoff)* cırılğan, nazik; *~es Haar* nazik saç; *~ bevölkert* azəhalili, aznüfuslu.

**Dünndarm,** *der; -(e)s, -¨e* nazik bağırsaq.

**dünne** *: sich ~ machen F* əkilmək.

**Dünne,** *die; -, -n* naziklik, incəlik.

**dünnflüssig** *adj.* duru, sulu.

**dünnhäutig** *adj.* nazik dərili; *fig.* həssas.

**Dunst,** *der; -(e)s, -¨e* buxar, tüstü, buğ, dəm; duman; *fig. j-m blauen ~ vormachen* bir kəsi aldatmaq, bir kəsin gözünə kül üfürmək; *fig. keinen blassen ~ haben* heç bir təsəvvürü olmamaq *(von D/-dən).*

**dünsten** *vt (Speisen)* buğda bişirmək, buğlamaq, buğlanmaq.

**dunstig** *adj.* buğlu, buxarlı, tüstülü, sisli.

**Dunstkreis,** *der; -es fig.* atmosfer*(a).*

**Duo,** *das; -s, -s mus.* duet.

**düpieren** *vt (täuschen)* aldatmaq, ələ salmaq.

**Düpierung,** *die; -, -en* aldatma, ələ salma.

**Duplikat,** *das; -(e)s, -e* surət, kopiya, ikinci nüsxə; dublikat.

**Duplizität,** *die; -, -en* ikilik.

**durch** *präp. mit A* **1.** *(räumlich)* içindən, içərisindən *(geçərək),* arasından; **2.** *(instrumental)* ilə, vasitəsi ilə; **3.** *(kausal)* sayəsində, görə; *~ und ~* başdan ayağa, tamamilə; *es ist 3 Uhr ~* saat üçü keçir; *die ganze Nacht ~* bütün gecə; *ich bin ~!* mən keçdim!, mən qəbul oldum!; mən o biri taya keçdim.

**durchackern** *vt F* çalışmaq, fasiləsiz işləmək.

**durcharbeiten** *vt* **1.** *(ohne Objekt)* fasiləsiz işləmək, çalışmaq; *die ganze Nacht ~* bütün gecəni işləmək; **2.** *(et.)* bir mövzu üstündə işləmək, tədqiq etmək; **3.** *(sich durch et. mühsam bewegen)* çətinliklə irəli getmək, zəhmətlə qabağa getmək.

**durchatmen** *vi (tief) ~* dərin nəfəs çəkmək.

**durchaus** *adv.* hökmən, mütləq, tamamilə; *~ nicht* əsla, heç, qətiyyən; *~ möglich!* olabilir, mümkündür!

**durchbacken** *vt* yaxşı bişirmək.

**durchbeißen** *vt* dişləmək, dişləyib qopartmaq; *vr sich ~ fig. (Notlagen durchstehen)* dəf etmək, davam gətirmək, dayanıb aradan qaldırmaq.

**durchblättern** *vt* **1.** *(Buch)* vərəqləmək; **2.** gözdən keçirtmək, baxmaq.

**Durchblick,** *der; -(e)s, -e* **1.** arasından baxma; **2.** *fig. (begreifen)* başa düşmə, anlama; *keinen ~ haben* xəbəri olmamaq, baş çıxarmamaq.

**durchblicken** *vi* **1.** arasından baxmaq; **2.** *(begreifen)* başa düşmək, anlamaq; *~ lassen (andeuten)* işarə etmək.

**durchbluten** *vt* qan yetirmək, qan çatdırmaq *(bir orqana).*

**Durchblutung,** *die; -* qan dövranı.

**durchbohren** *vt* dəlmək, dəlib keçmək; deşmək, dəlik açmaq; *mit Blicken ~* təhdid edici gözlərlə baxmaq.

**durchbraten** *vt* yaxşı qızartmaq.

**durchbrechen**[1] *vt* **1.** *mil. (Blockade usw.)* yarmaq; deşmək; **2.** *(herauskommen)* çıxmaq, aşkar olmaq, doğmaq; **3.** *(Regel)* pozmaq, riayət etməmək; *vi* 1. yarılmaq; 2. *(Geschwür)* deşilmək.

**durchbrechen**[2] *vt* **1.** *(Ast, Stock usw.)* sındırmaq; **2.** *(Loch)* açmaq, dəlmək.

**durchbrennen** *vi* **1.** *el. (Sicherung; Birne usw.)* yanmaq; **2.** *fig.(weglaufen)* qaçmaq, əkilmək.

**durchbringen** *vt* **1.** keçirmək; **2.** *(e-n Kranken)* qurtarmaq, sağlatmaq; **3.** *(Vermögen, Geld)* xərcləmək, sovurmaq; **4.** *(Familie)* keçindirmək, bir təhər dolandırmaq; *ein Gesetz ~* qanun keçirmək; *vr sich ~* keçinmək, bir təhər dolanmaq.

**durchbrochen** *adj.* dəlinmiş, yarılmış.

**Durchbruch,** *der; -(e)s, -¨e* **1.** *mil.* yarılma, yarıb keçmə; **2.** *(in e-r Mauer usw.)* açılan dəlik, açılan baca; **3.** sınma; **4.** *fig. (Erfolg)* müvəffəqiyyət, uğur; *zum ~ kommen* görsənmək, təzahür etmək, aşkara çıxmaq, zahir olmaq.

**durchdacht** *adj.* yaxşı düşünülmüş; *~ denken* yaxşı düşünmək, yaxşı fikirləşmək.

**durchdenken** *vt* yaxşı düşünmək, yaxşı fikirləşmək.

**durchdiskutieren** *vt* hərtərəfli müzakirə etmək.

**durchdränge(l)n** *vr sich ~* soxulub keçmək, soxulmaq.

**durchdrehen** *vt (Fleisch)* ət maşını ilə ət çəkmək, qiymələmək *(durch A/ -dən)*; *vi F* çox hirslənmək; dəli olmaq, ağlı azmaq; *fig. durchgedreht* maşından keçmiş; *fig.* çox hirsli; dəli.

**durchdringen**[1] *vi* **1.** keçmək; **2.** *(Flüssigkeit)* sızmaq; **3.** *(sich durchsetzen)* məqsədə çatmaq, əldə etmək; **3.** *(wirken)* təsir etmək; *~der Blick* iti baxış; *~der Schrei* qulaqbatıran fəryad *(qışqırıq).*

**durchdringen**[2] *vt* dəlib keçmək, deşmək.

**durchdringend** *adj.* **1.** *(Kälte usw.)* şiddətli; güclü; **2.** *(Verstand)* ağla batan, ağıllı; **3.** *(wirksam)* təsirli, dərin.

**Durchdringung,** *die; -* nüfuz etmə, içinə girmə.

**durchdrücken** *vt* **1.** *(durch et. pressen)*

basıb arasından keçirmək, bərk basmaq, basıb əzmək; **2.** *(strecken)* gərnəşmək; **3.** *(Forderungen, Pläne, Gesetze)* qəbul etdirmək, keçirmək.

**durcheinander** *adv.* **1.** qarma-qarışıq, qat-qarışıq, qarışıq, necə gəldi, badar, dolam-dolaşıq, dolanbac, hələm-qələm; **2.***(verwirrt)* karıxdırılmış, pərt, gic, çaşqın, dolaşıq; *~ bringen* çaşdırmaq, gicəlləndirmək, karıxdırmaq; çaxnaşma salmaq, dolaşıq salmaq.

**Durcheinander,** *das; -s* qarışıqlıq, çaşbaşlıq, çaxnaşıq, çaxnaşmaq, dolaşıqlıq, dolanbac, hələm-qələm, anarşi, yöndəmsizlik.

**durcheinanderbringen** *vt* **1.** qarışdırmaq, dolaşdırmaq; **2.** *(j-n)* karıxdırmaq.

**durcheinandergeraten** *vi* **1.** qarışmaq; dolaşığa düşmək; **2.** karıxmaq.

**durcheinanderreden** *vt* pərt danışmaq, qarma-qarışıq danışmaq.

**durcheinandersein** *vi* pərt olmaq, çaşbaş qalmaq; *(Dinge)* qarma-qarışıq olmaq.

**durcheinanderwerfen** *vt s. durcheinanderbringen.*

**durchfahren¹** *vi* keçib getmək, durmadan keçmək.

**durchfahren²** *vt* **1.** *(Gegend)* keçmək, içindən keçmək;**2.** *(kreuz und quer)* durmadan getmək, başdan-başa getmək; **3.** *(Schauder)* canına işləmək, canına keçmək; *ihn durchfuhr ein heftiger Schreck* onun içindən bir qorxu keçdi, qorxudan tükləri biz-biz oldu; **4.** *(Gedanke)* birdən ağlına gəlmək.

**Durchfahrt,** *die; -, -en* **1.** keçmə; **2.** *(Ort)* keçid, yol; *~ verboten!* keçmək qadağandır!.

**Durchfall,** *der; -(e)s, -¨e* **1.** *med.* ishal; **2.** *(Misserfolg)* müvəffəqiyyətsizlik, bacarıqsızlıq; uğursuzluq.

**durchfallen** *vi* **1.** *(Mißerfolg haben)* müvəffəqiyyətsizliyə uğramaq, müvəffəq olmamaq; **2.** *(in der Prüfung)* kəsilmək, qəbul olmamaq, .

**durchfechten** *vt* müvəffəqiyyət qazanmaq, mübarizə edib qələbə çalmaq.

**durchfeiern** *vt F* əyləncə qurmaq.

**durchfeilen** *vt* yeyəylə kəsmək.

**durchfinden** *vr sich ~* yolunu tapmaq; *nicht mehr ~ können* karıxıb qalmaq, yolunu tapmamaq.

**durchfliegen¹** *vi* **1.** arasından keçmək; *der Stein flog durch die Fensterscheibe durch* daş pəncərə şüşəsini vurub keçdi; **2.** *F (im Examen)* keçməmək, müvəffəq olmamaq.

**durchfliegen²** *vt* **1.** *(Strecke)* uçub keçmək; **2.** *(Schriftstück)* tələsik gözdən keçirmək, tələsik *(səthi)* oxumaq.

**durchfließen¹** *vi* arasından axmaq.

**durchfließen²** *vt* axıb getmək.

**durchforschen** *vt* araşdırmaq, tədqiq etmək.

**durchforsten** *vt* **1.** meşədə artıq olan ağacları kəsmək; **2.** axtarmaq; axtarıb artıq olan şeyləri atmaq *(uzaqlaşdırmaq).*

**durchfragen** *vr sich ~ (nach, zu /-in yolunu)* soruşa-soruşa tapmaq, yol soruşmaq.

**durchfrieren** *vi* donmaq, çox üşümək; *ich bin ganz durchgefroren* lap donmuşam.

**durchführbahr** *adj.* yerinə yetirilə bilən, ifa oluna bilən.

**durchführen** *vt* **1.** arasından keçirmək, içindən keçirmək; **2.** *fig.* icra etmək, həyata keçirmək; keçirmək, ifa etmək, aparmaq, bərpa etmək.

**Durchführung,** *die; -, -en* icra etmə; ifa etmə; həyata keçirmə.

**Durchführungsbestimmungen** *die/pl.* icra *(etmə)* qərarı; təlimatın icrası.

**durchfurchen** *vt* **1.** *(Runzeln)* qırışdırmaq, bürüşdürmək; **2.** *(Feld, Acker)* şırım-şırım etmək.

**durchfüttern** *vt* yedizdirmək.

**Durchgabe**, *die; -, -n (e-r Nachricht)* bildirmək, demək.

**Durchgang,** *der; -(e)s, -¨e* **1.** *nur sg.* keçid; güzar; **2.** *(Tätigkeitsphase)* keçmə; **3.** *(Korridor)* koridor, dalan, dəhliz; pasaj.

**durchgängig** *adj.* ümumi, normal, mər-

sum; *adv.* ümumiyyətlə, adətən, istisnasız.

**Durchgangslager,** *das; -s, -* düşərgə.

**Durchgangsverkehr,** *der; -(e)s* nəqliyyat, iki yer arasında işləmək *(transit)*.

**Durchgangszug,** *der; -(e)s, -¨e* ekspres, sürətlə gedən qatar.

**durchgeben** *vt (e-e Nachricht, e-e Information)* vermək, yaymaq, bildirmək.

**durchgehen** *vi* **1.** keçmək, keçib getmək *(durch A/ arasından);* **2.** *(fliehen)* qaçmaq, qaçıb getmək; **3.** *(Pferd)* bərk qaçmaq, hürküb qaçmaq; **4.** *(Antrag, Gesetz)* qəbul olmaq; **5.** *(Flüssigkeit)* su keçmək; **6.** *(Sohle, Schuh)* dəlinmək; **7.** *(nachsichtig behandeln)* danlamamaq, məzəmmət etməmək; keçindirmək; *~ lassen* göz yummaq; *das kann ich nicht ~ lassen* buna göz yuma bilmərəm; *vt* 1. *(überprüfen)* yoxlamaq, gözdən keçirmək; 2. *(durchlesen)* axıra qədər oxumaq.

**durchgehend** *adj.* **1.** *(ununterbrochen)* arası kəsilmədən, sürəkli, fasiləsiz; *~ geöffnet* fasiləsiz açıq; **2.** *(Zug)* birbaşa, direkt.

**durchgießen** *vt* **1.** axıtmaq, arasından tökmək; **2.** *(filtern, seihen)* süzgəcdən keçirmək, süzmək.

**durchglühen**[1] *vt* közərtmək, qızartmaq.

**durchglühen**[2] *vt/vi* **1.** *(inspirieren)* ilham vermək; **2.** *(begeistern)* ruhlandırmaq, valeh etmək.

**durchgreifen** *vi fig.* qəti hərəkət etmək.

**durchgreifend** *adj.* qəti, kəskin, əsaslı, təsirli, etkili.

**durchhalten** *vi* tab gətirmək, dayana bilmək, davam gətirmək.

**Durchhaltevermögen,** *das; -* davam gətirmə *(dayanma)* gücü, tab gətirmə gücü.

**durchhängen** *vi F (schlapp sein)* halsız olmaq, süst olmaq.

**durchhauen** *vt* **1.** *(mit e-r Axt usw.)* yarmaq, ikiyə bölmək, kəsmək; **2.** *(j-n verprügeln)* bərk döymək.

**durchhecheln** *vt F (klatschen über)* qeybət etmək, dalınca danışmaq.

**durchhelfen** *vi* kömək etmək, çətinlikdən çıxarmaq.

**durchhungern** *vr sich ~* aclıq çəkmək, aclıqla keçinmək.

**durchkämmen**[1] *vt* **1.** *(Haar)* daramaq.

**durchkämmen**[2] *vt (nach j-m/et.)* gəzib axtarmaq.

**durchkämpfen** *vt* **1.** *(Kampf ohne Unterbrechung)* fasiləsiz döyüşmək, axıra qədər vuruşmaq; **2.** *(Schwierigkeiten)* qələbə çalmaq; *vr sich ~* 1. keçmək, yarıb keçmək *(durch et.);* 2. ruzusunu zorla qazanmaq, çətinliklə yaşamaq; *sich im Leben ~ müssen* həyatında çətinliklərə qələbə çalmaq.

**durchkauen** *vt* **1.** yaxşı çeynəmək; **2.** *(ein Thema) F* araşdırıb öyrənmək; haqqında ətraflı müzakirə etmək.

**durchkneten** *vt* **1.** *(Teig usw.)* yaxşı yoğurmaq; **2.** *(Massage)* ovmaq, masaj vermək.

**durchkommen** *vi* **1.** keçmək; **2.** *(bewältigen)* öhdəsindən gəlmək; **3.** *(Erfolg haben)* müvəffəq olmaq; **4.** *(Prüfung)* keçmək, qəbul olmaq; **5.** *(Patient)* yaxşılaşmaq; **6.** *(Sonne)* buludlar arasından çıxmaq; **7.** *F* keçinmək, birtəhər dolanmaq; **8.** *(Telefon)* istədiyi yeri ala bilmək; **9.** *(bei e-r Wahl)* seçilmək; **10.** *(Gesetz)* təsvib olmaq, qəbul olmaq.

**durchkreuzen** *vt* **1.** *(Gegenden)* gəzib dolanmaq; **2.** *(Absichten, Pläne)* pozmaq, puç etmək, puça çıxarmaq.

**Durchlass,** *der; -es, -¨e* **1.** *nur sg. (Erlaubnis)* icazə vərəqəsi, buraxılış; **2.** *(Ort)* keçid.

**durchlassen** *vt* buraxmaq, keçməyə icazə vermək.

**durchlässig** *adj.* su buraxan, su keçən; *das Dach ist ~* dam damır.

**durchlaufen**[1] *vi* **1.** qaçaraq keçmək, yüyürmək; **2.** *(Flüssigkeit)* süzüb keçmək; *der Kaffee ist noch nicht durchgelaufen* qəhvə hələ süzülüb qurtarmayıb; *vt* 1. *(Schuhe, Sohlen)* dəlinmək; 2. *(sich die Füße)* yeriməkdən ayaqları ya-

ra olmaq.

**durchlaufen**[2] *vt* **1.** *(Strecke)* keçib getmək; **2.** *(e-e Schule)* qurtarmaq.

**durchlavieren** *vr sich ~* yaxşı yolu tapmaq, necə yaşamağı bilmək.

**durchleben** *vt* hiss edib yaşamaq; *e-e schöne Jugend ~* gənclik dövrünü yaxşı keçirmək, gözəl genclik yaşamaq.

**durchlesen** *vt* axıra qədər oxumaq.

**durchleuchten** *vi* **1.** aydınlaşdırmaq; **2.** *med.* rentgen *(röntgen)* şüaları ilə işıqlandırmaq, radioqrafiyasını *(radioqrafısını)* çıxarmaq; *fig.* analiz etmək, araşdırmaq.

**Durchleuchtung,** *die; -, -en* radioskopiya, radioskopi, rentgenini almaq.

**durchlöchern** *vt* **1.** dəlmək, deşmək; **2.** *(ganz)* dəlik-dəlik etmək, göz-göz etmək; **3.** *fig. (Gesetze, Vorschriften)* təsir qüvvəsini azaltmaq.

**durchlüften** *vt/vi* havasını dəyişmək, havasını təmizləmək.

**durchmachen** *vt* **1.** *(erleiden)* çəkmək; **2.** *(Krankheit)* keçirmək; **3.** *(Ausbildung)* təhsil etmək, oxumaq, davam etmək; **4.** *(e-e Entwicklung)* inkişaf etmək, tərəqqi etmək; *er hat viel durchgemacht* o həyatında çox acı çəkib ; *vi* davam etmək; *bis zum Morgengrauen ~* səhərə qədər davam et(dir)mək.

**Durchmarsch,** *der; -(e)s, -¨e* keçmə.

**durchmarschieren** *vi* yüyürüb keçmək.

**durchmessen** *vt* bir başından o biri başına qədər ölçmək; *er durchmaß den Saal mit großen Schritten* zalı böyük addımlarla başdan-ayağa qədər ölçdü.

**Durchmesser,** *der; -s, - math.* diametr, qutr, qalınlıq.

**durchmischen** *vt* qarışdırmaq.

**durchmogeln** *vr fig. sich ~* hiləgərliklə gəmisini sudan keçirmək.

**durchnagen** *vt* gəmirib deşmək.

**durchnässen** *vt* islatmaq; *vom Regen völlig durchnässt werden* yağışdan bərk islanmaq.

**durchnehmen** *vt (ein Thema)* keçmək, oxumaq; müzakirə etmək; *was habt ihr in Mathmatik durchgenommen?* riyaziyyatda nə keçdiniz?

**durchnumerieren** *vt* başdan-başa nömrələmək, əvvəldən axıra qədər nömrələmək.

**durchpausen** *vt* surətini çıxartmaq.

**durchpeitschen** *vt* **1.** qamçılamaq, şallaqlamaq; **2.** *(ein Gesetz, e-n Beschluss)* inadla qəbul etdirmək, ildırım sürəti ilə qərar qəbul etdirmək.

**durchprobieren** *vt* bir-bir imtahan etmək, bir-bir yoxlamaq, sınamaq.

**durchprügeln** *vt* döymək, kötəkləmək, tapdalamaq.

**durchqueren** *vt* arasından keçmək, içindən keçmək; *e-e Fluss ~* çaydan keçmək.

**Durchquerung,** *die; -, -en* keçmə.

**durchrasen** *vt/vi* sürətlə keçmək.

**durchrechnen** *vt* başdan-başa hesablamaq, əvvəldən axıra qədər hesablamaq.

**durchregnen** *vi* içəriyə yağmaq, *es regnet hier durch (das Dach ist undicht)* burdan yağış keçir, dam damır; *ich bin ganz durchgeregnet* mən bərk islanmışam; *es hat den ganzen Tag durchgeregnet* bütün gün yağış yağdı.

**Durchreiche,** *die; -, -n* mətbəx ilə yemək otağı arasında olan açıq yer.

**Durchreise,** *die; -* keçib getmə; *auf der ~ sein* yolüstündə olmaq.

**durchreisen** *vt* bir məmləkəti *(bir yeri)* gəzib dolaşmaq *(gəzib-dolanmaq)*.

**durchreißen** *vt* arasından cırmaq, ortasından yırtmaq; *vi* arasından cırılmaq, ortasından yırtılmaq.

**durchringen** *vr sich ~ (zu e-m Entschluss usw.)* qərara gəlmək, təsmim tutmaq.

**durchrosten** *vi* paslanıb dəlinmək.

**durchrühren** *vt* yaxşı qarışdırmaq.

**durchrutschen** *vi* **1.** *(durch e-e Öffnung)* sürüşüb keçmək; **2.** *fig. (durch e-e Prüfung)* imtahandan keçmək; **3.** *(Wort)* ağızdan qaçmaq.

**Durchsage,** *die; -, -n (im Radio, Fernsehen)* xəbər vermə, xəbər yayma.

**durchsagen** *vt* bildirmək, xəbər ver-

mək.

**durchsägen** *vt* mişarlamaq, mişarla kəsmək.

**durchschalten** *vt (Strom, Telefon)* bağlamaq, çəkmək.

**durchschauen**[1] *vt fig.* baş çıxarmaq, anlamaq, qanmaq; *ich kann ihn nicht ~* mən onun işindən heç baş çıxara bilmirəm.

**durchschauen**[2] *vt* arasından baxmaq, içindən baxmaq.

**durchscheinen** *vi* görünmək, çıxmaq, şüa saçmaq; *die Sonne scheint durch die Wolken* günəş buludlar arasından şüa saçır.

**durchscheinend** *adj.* işıq buraxan, arasından işıq keçən; *Glas ist ~* şüşə işıq buraxandır.

**durchscheuern** *vt* **1.** *(e-n Stoff)* sürtüb yırtmaq; **2.** *(Haut)* sürtüb yaralamaq, sürtüb yara etmək.

**durchschießen** *vi* **1.** *(Kugel, Pfeil)* arasından atmaq, arasından atəş açmaq; **2.** *(Buch)* kitabın səhifələri arasında ağ vərəqlər qoymaq; *durchschossene Exemplare* ağ vərəqli nüsxələr.

**durchschimmern** *vi* **1.** *(Licht)* arasından keçib zəif şüa saçmaq; **2.** *(aus j-s Worten)* sözlərindən bir şeylər anlamaq.

**durchschlafen** *vi* rahat yatmaq; *ich habe 10 Stunden durchgeschlafen* oyanmadan 10 saat rahat yatdım.

**Durchschlag,** *der; -(e)s, -¨e* **1.** surət, nüsxə; **2.** *(Sieb)* aşsüzən, süzgəc.

**durchschlagen** *vt* **1.** vurub dəlmək; **2.** bir şeyi bir şeyin arasından keçirmək; süzmək; *vi* 1. *(Kugel)* dəlmək, deşmək; 2.*(Regen, Farbe)* keçmək, nüfuz etmək, altına keçmək; 3. *(wirken)* təsirli olmaq; *die Arznei schlägt durch* dərman təsirini göstərir; *sich ~* bir təhər dolanmaq, keçınmək; *sich mühsam ~* həyatını çətinliklə dolandırmaq.

**durchschlagend** *adj.* əsas, həlledici, qəti, tam; *~e Wirkung* əsas təsir.

**Durchschlagpapier,** *das; -s* surət çıxarma kağızı, karbon kağızı.

**Durchschlagskraft,** *die; -* **1.** deşmə gücü, dəlmə qüvvəsi; **2.** təsir qüvvəsi.

**durchschlängeln** *vr sich ~* qıvrıla-qıvrıla irəli getmək.

**durchschleusen** *vt* **1.** *(Schiff)* gəmini alçaq şlüzdən *(hovuzdan)* uca şlüzə çıxartmaq, yüksəltmək; **2.** *fig.* gizlin *(qaçaq)* keçirmək *(kontroldan və s.)*.

**durchschlüpfen** *vi* sürüşüb çıxmaq, sürüşüb keçmək *(durch A/-in içindən)*.

**durchschmuggeln** *vt (Personen, Waren)* qaçaq keçirmək.

**durchschmoren** *vi F el.* yanmaq *(kabel ve s.)*.

**durchschneiden**[1] *vt* şaqqalamaq, yarmaq; kəsmək.

**durchschneiden**[2] *vt (Weg)* arasından keçmək, kəsib keçmək.

**Durchschnitt,** *der; -(e)s, -e* **1.** *(Mittelmaß)* orta hesab; *im ~* orta hesabla; *der ~spreis* orta qiymət; **2.** profil, yandan görünüş.

**durchschnittlich** *adj.* orta; *adv.* orta hesabla.

**Durchschnittsmensch,** *der; -en, -en* adi adam, gözə çarpmayan adam.

**Durchschnittswert,** *der; -(e)s, -e* orta dəyər, orta qiymət.

**durchschnüffeln** *vt fig.* hər tərəfi axtarmaq, yoxlamaq; *j-s Zimmer ~* bir kəsin otağını axtarmaq.

**durchschreiten** *vt* **1.** *(e-n Saal)* içindən keçmək; **2.** *(mit großen Schritten)* iri addımlarla keçmək.

**Durchschrift,** *die; -, -en* surət, nüsxə.

**Durchschuss,** *der; -es, -¨e* **1.** güllə yarası, bədəni dəlib keçən güllə yeri; **2.** *typ. (Zeilenabstand)* sətir arası.

**durchschütteln** *vt* bərk silkələmək, əsdirmək.

**durchschwimmen** *vt* üzüb keçmək.

**durchschwitzen** *vt* tər ilə islatmaq; *ein durchgeschwitztes Hemd* tərdən islanmış köynək.

**durchsehen** *vt* **1.** *(überfliegen)* gözdən keçirtmək, baxmaq; **2.** *(auf et. hin)* yoxlamaq, diqqətlə oxumaq; **3.** *(nach et. suchen) F* baxmaq, axtarmaq; *sieh mal*

*deine Sachen durch, ob du die Uhr findest!* əşyaların içinə bax, gör saatı tapırsan!; *vi* 1.*(sichtbar sein)* görünmək; 2. *fig.* anlamaq, başa düşmək.

**durchsetzen**[1] *vt* məqsədə çatmaq, qəbul etdirmək *(bei D)*; *vr sich* ~ müvəffəq olmaq; *sein Wort setzte sich schließlich durch* nəhayət sözünü qəbul etdirdi.

**durchsetzen**[2] *vt (mit et.)* .. ilə doldurmaq; *das Feld ist mit Bäumen durchsetzt* çöl ağaclarla doldurulub.

**Durchsicht,** *die; -* **1.** *(Überprüfung)*gözdən keçirmə, baxma, yoxlama; **2.** *(Korrektur)* düzəltmə, düzəliş.

**durchsichtig** *adj.* şəffaf, dupduru, duru; *(Bluse usw.)* içi görünən; *fig.* bəlli, aydın, duru.

**durchsickern** *vi* **1.** sızmaq, sızıb keçmək; **2.** *F (Informationen)* bayıra *(əşiyə)* buraxmaq.

**durchsieben** *vt* ələmək, xəlbirləmək.

**durchspielen** *vt* **1.** *(ohne Pause)* fasiləsiz oynamaq; fasiləsiz çalmaq; **2.** *(Möglichkeit)* bir ehtimalı araya qoyub haqqında yaxşı fikirləşmək.

**durchsprechen** *vt* müzakirə etmək, görüşüb danışmaq, mübahisə etmək; *vi (durch ein Mikrophon)* mikrofondan danışmaq.

**durchstechen**[1] *vi (lochen)* sancmaq, sancaqlamaq.

**durchstechen**[2] *vt* **1.** *(mit e-r Nadel)* dəlmək; **2.** *(mit e-m Messer, Schwert usw.)* bıçaqlamaq, peyləmək.

**durchstecken** *vt* soxmaq, soxub keçirtmək, dürtmək.

**durchstehen** *vt* çəkmək, dayanmaq.

**durchstellen** *vt (Telefon) ein Gespräch ~ bir-birinə* bağlamaq.

**Durchstich,** *der; -(e)s, -e* **1.** dəlmə, açma; **2.** tunel, kanal.

**durchstöbern** *vt* hər tərəfi axtarmaq, araşdırmaq.

**durchstoßen**[1] *vt* vurub deşmək.

**durchstoßen**[2] *vi* dəlik açmaq, deşmək; *mil.* açmaq, yarmaq.

**durchstreichen** *vt* **1.** *(z.B. e-n Satz)* qaralamaq, pozmaq; cızıqlamaq; **2.** *(Gemüse)* süzgəcdən keçirtmək.

**durchstreifen** *vt* dolanmaq, gəzmək.

**durchströmen** *vt* arasından axıb getmək, axmaq; *fig.* doldurmaq; *Freude durchströmte mich* içim fərəhlə doldu.

**durchsuchen** *vt* axtarmaq, yoxlamaq, aramaq, baxmaq; *fig.* eşmək; ələkdən keçirmək.

**Durchsuchung,** *die; -, -en* axtarış; yoxlama; ələk-vələk .

**Durchsuchungsbefehl,** *der; -(e)s, -e jur.* axtarış əmri.

**durchtrieben** *adj. (gerissen)* hiyləbaz, bic, kələkbaz.

**Durchtriebenheit,** *die; -* kələkbazlıq, hiyləkarlıq.

**durchwachen** *vi (Nacht)* ayıq qalmaq, yatmamaq.

**durchwachsen** *adj.* **1.** *(Fleisch)* yağlı; **2.** *fig.* babat; orta, nə pis nə yaxşı; dəyişkən; *wir hatten ~es Wetter* hava dəyişkən idi.

**durchwählen** *vt* birbaşa telefon nömrələrini yığmaq.

**durchwandern** *vt* gəzib dolaşmaq, səyahət etmək.

**durchwärmen** *vt* qızdırmaq, isitmək.

**durchwaten** *vi* dayaz yerdən keçmək; *e-n Bach ~* arxdan keçmək.

**durchweg(s)** *adv.* başdan-başa, tamamilə, müstəsnasız, müstəsna olmadan.

**durchweichen** *vt* isladıb yumşaltmaq.

**durchwetzen** *vt* sürtüb yırtmaq.

**durchwinden** *vr sich ~* **1.** *(durch enge Stellen)* məharətlə çıxmaq, özünə yol açmaq; **2.** *fig.* yaxasını qurtarmaq.

**durchwühlen** *vt* **1.** alt-üst etmək, ələk-vələk etmək; tələsik axtarmaq; didişdirmək; **2.** *(Boden)* eşələmək.

**durchzählen** *vt* saymaq.

**durchziehen**[1] *vt* **1.** çəkib arasından keçirtmək; **2.** *(Linie)* çəkmək; *vi* **1.** *mil.* keçmək; **2.** *(Tee)* dəm almaq, dəm çəkmək.

**durchziehen**[2] *vt* **1.** *(Land)* gəzib dolaşmaq, səyahət etmək; **2.***(erfüllen)* ye-

rinə yetirmək.

**durchzucken** *vt* **1.** *(Schrecken usw.)* diksinmək, səksənmək; **2.** *(Gedanke)* birdən yadına gəlmək, birdən xatırlamaq; *es durchzuckte mich* birdən yadıma düşdü.

**Durchzug,** *der; -(e)s, -¨e* **1.** *mil.* keçmə, keçid; **2.** *nur sg.(Luftzug)* hava cərəyanı.

**dürfen** *mit Inf.* **1.** ixtiyarı olmaq, icazəsi olmaq; **2.** *(können)* edə bilmək; **3.** *(wagen)* cürət etmək, cəsarət etmək; *darf ich kommen?* icazə olar gəlim? *du darfst nicht!* icazən yoxdur! *man darf* olar, mümkündür; *er darf nicht hinein* o, daxil ola bilməz, o, içəri girə bilməz*; darf ich Sie einladen?* icazə olar sizi dəvət edim?

**dürftig** *adj.* **1.** *(unzureichend)* az, cüzi; **2.** *(erbärmlich)* kasıb, yoxsul; biçarə, miskin.

**Dürftigkeit,** *die; -* yoxsulluq, ehtiyac, miskinlik.

**dürr** *adj.* **1.** *(trocken)* quru; **2.** *(mager)* arıq.

**Dürre,** *die; -, -n* quraqlıq, quruluq; qıtlıq.

**Durst,** *der; -(e)s* susuzluq, yanğın, ətəş; *ich habe ~* mən susuzam, mən susamışam.

**dursten** *vt* susuzlamaq, susamaq, ətəşləmək.

**dürsten** *vi fig.* qızğın ehtiyacı olmaq *(nach D/ bir şeyə).*

**durstig** *adj.*susuz, susamış; *fig.* qanıq.

**durstlöschend** *adj.* susuzluğu yatırdan, ətəşi söndürən.

**durststillend** *adj.* susuzluğu yatırdan.

**Dusche,** *die; -, -n* duş.

**duschen** *vi* duş etmək, çimmək, duş tutmaq; *sich ~* duş qəbul etmək.

**Düse,** *die; -, -n* *techn.* forsunka; tənzimləyici aparat; jet.

**Dusel,** *der; -s* **1.** *(Trunkenheit)* başgicəllənmə; **2.** *F (Glück)* bəxt, şans.

**Düsenflugzeug,** *das; -(e)s, -e* reaktiv təyyarə *(Süd. : jet təyyarəsi).*

**Dussel,** *der; -s, -* *F* axmaq, gic, səfeh.

**düster** *adj.* qaranlıq, tutqun, dumanlı.

**Dutzend,** *das; -s, -e* düjün *(Süd. : dücün); ein ~ Eier* bir düjün yumurta.

**dutzendweise** *adv.* düjün hesabı, *(Süd. : dücün hesabı)* , dücün-dücün.

**duzen** *vt* kiməsə "sən" demək.

**Duzfreund,** *der; -(e)s, -e* ürək dostu, yaxşı yoldaş.

**Dyn,** *das; -s* *Phys.* din, qüvvə.

**Dynamik,** *die; -* dinamik.

**dynamisch** *adj.* dinamik.

**Dynamit,** *das; -(e)s* dinamit.

**Dynamo,** *der; -s, -s* dinamo.

**Dynamomaschine,** *die; -, -n* dinamomaşın.

**Dynastie,** *die; -, -n* sülalə, xanədan.

**dynastisch** *adj.* sülaləyə aid, xanədana aid.

**Dysenterie,** *die; -* *med.* qanlı ishal.

**D-Zug** *(Durchgangszug), der; -(e)s, -¨e* ekspress qatar, sürətlə gedən qatar.

# E

**E, e,** *das; -, -* **1.** e hərfi; **2.** *mus.* mi.

**Ebbe,** *die; -, -n* çəkilmə; *~ und Flut* qabarma- çəkilmə; *veralt.* mədd-cəzr.

**eben** *adj.* **1.** *(flach)* düz; hamar; çala-çuxursuz; *~e Straße* düz yol, çuxursuz yol; *~es Land* düzənlik, düzən; **2.** *geom.* yastı; *adv.* 1. *(deshalb)* ona görə; 2. *(Zeit)* indi, elə bu saat, bayaq; 3. *(genau)* düppədüz, düpbədüz, dürüst, eyni ilə, eynən; *~ das meine ich !* mənim də dediyim eyni *(eynən, elə)* budur!; 4. *(gerade noch)* güc-bəla ilə; *er hat den Bus ~ noch erreicht* o, güc-bəla ilə avtobusa çatdı; 5. elə də, çox da; *der Ring ist nicht ~ billig* üzük elə də *(çox da)* ucuz deyil .

**Ebenbild,** *das; -(e)s, -er* **1.** şəkil; **2.** oxşayış, bənzəyiş, bənzər*(lik),* bərabər*;* *er ist das ~ s-s Vaters* o, elə bil atasıdır.

**ebenbürtig** *adj.* *(gleichwertig)* bərabər olan; eyni güclü; *er ist ihm ein ~er Gegner* o, ona tam bərabər olan rəqibdir.

**Ebenbürtigkeit,** *die; -* bərabərlik, tay olma, eyni dəyərdə olma.

**ebenda** *adv.* elə orada, həmən orada, yenə orada.

**ebendaher** *adv.* elə bunun üçün, elə buna görə.

**ebendarum** *adv.* elə buna görə.

**ebendeswegen** *adv.* elə buna görə, elə o səbəbə görə, həmin ona görə.

**ebendort** *adv.* elə orada, həmən orada, eyni yerdə.

**Ebene,** *die; -, -n* **1.** *(Flachland)* aran, düzən, düzənlik, dəşt, düzəngah, düzlük; sahə; **2.***(Niveau)* səviyyə; *auf wissenschaftlicher ~* elmi səviyyədə; **3.** *geom.* düz səth, müstəvi; *schiefe ~* mail müstəvi; **4.** *(Stockwerk)* mərtəbə.

**ebenfalls** *adv.* *(auch)* həmçinin, bərabər surətdə; ..də, ..da, dəxi; *danke, ~!* həmçinin sizə də sağ olun!; *er hat ~ e-n Preis bekommen* o da mükafatlandı *(ödül aldı).*

**Ebenheit,** *die; -* hamarlıq, düzlük; bir bərabərdə olma.

**Ebenholz,** *das; -es, -¨er* *bot.* qaraağac taxtası.

**Einparteiensystem,** *das; -s, -e* birhizbli sistem, birpartiyalı sistem.

**einpauken** *vt* əzbərləmək, beyninə soxmaq, beyninə yeritmək.

**einpendeln** *vi* hər gün işləmək üçün şəhərə gəlib-getmək; *vr sich ~ (auf et.)* qaydaya düşmək, sakitləşmək; *die Preise für Benzin haben sich wieder eingependelt* benzin qiyməti yenə qaydaya düşdü.

**einpferchen** *vt* *(Tiere, Personen)* dar yerə soxmaq, dar yerə yerləşdirmək.

**einpflanzen** *vt* *(in den Boden)* əkmək, dikmək.

**Einphasen-, einphasig** *el.* bir fazlı.

**einplanen** *vt* planlaşdırmaq *(Süd. : bərnamə tökmək, tərh tökmək),* planda olmaq *(bərnamədə olmaq).*

**einpökeln** *vt* duza qoymaq, duzlamaq.

**einprägen** *vt* **1.** basmaq, vurmaq; iz buraxmaq, damğa vurmaq, naxış basmaq; **2.** *(j-m et.)* beyninə yeritmək, hafizəsində yerləşdirmək, yadında saxlamaq; **3.** *(auswendig lernen lassen)* əzbərlətdirmək, hifz etmək; *vr sich (D) ~* yadında qalmaq, yadda saxlamaq.

**einprägsam** *adj.* **1.** *(eindrucksvoll)* təsirli; **2.** *(leicht zu merken)* yadda qalan.

**einquartieren** *vt* yerləşdirmək, yerbəyer etmək; *Soldaten ~* əsgərləri yerləşdirmək; *vr sich ~* yerləşmək,qonaq qalmaq *(in D/bir yerdə); (Vogel)*qonmaq.

**Einquartierung,** *die; -, -en* **1.** *(von Gästen)* yerbəyer etmə, qonaq saxlama; **2.** *(von Truppen)* yerləşdirilmiş əsgərlər.

**einrahmen** *vt* çərçivəyə salmaq, haşiyələmək, çərçivələmək.

**einrammen** *vt* **1.** *(mit e-r Ramme)* basıb bərkitmək, toxaclamaq; **2.** *(mit e-m schweren Hammer)* döyüb içəri itələmək, döyüb bərkitmək; *e-n Pfahl in den Boden ~* dirəyi yerdə bərkitmək.

**einrasten** *vi* **1.** *(Zahnräder)* bir-birinə

keçmək, ilişib qalmaq; **2.** *F fig. (beleidigt sein)* incimək.

**einräumen** *vt* **1.** *(Zimmer)* yığışdırmaq; **2.** *(in Ordnung bringen)* düzəltmək; **3.** *(Kredite usw.)* vermək *(j-m/bir kəsə)*; **4.** *(e-n Fehler usw.)* qəbul etmək, boynuna almaq; *j-m e-e Frist ~* bir kəsə vaxt təyin etmək.

**einrechnen** *vt* hesaba keçirmək, hesaba qatmaq.

**Einrede,** *die; -, -n jur.* etiraz.

**einreden** *vt* **1.** *(j-m et.)* bir kəsi inandırmaq, yola gətirmək, beyninə yeritmək; **2.** *sich D ~* 1. özünə inandırmaq; 2. *(sich täuschen)* özünü bir şey ilə aldatmaq.

**einreiben** *vt (mit Öl usw.)* sürtmək.

**Einreibung,** *die, -, -en* sürtmə.

**einreichen** *vt* **1.** *(Gesuch, Vorschlag)* vermək; **2.** *(Klage)* şikayət etmək; *die Scheidung ~* boşanma davasını məhkəməyə vermək.

**Einreichung,** *die; -, (-en)* vermə.

**einreihen** *vt* sıraya qoymaq, ..sıralarına salmaq *(in A/-a, -ə) ; vr sich ~* sıraya durmaq, sıraya daxil olmaq.

**einreihig** *adj.* birsıralı.

**Einreihung,** *die;* - sırala(n)ma.

**Einreise,** *die; -, -n* bir ölkəyə gəlmə, daxil olma.

**Einreisegenehmigung,** *die; -, -en* giriş icazəsi, daxil olma icazəsi.

**einreisen** *vt* bir ölkəyə gəlmək, bir ölkəyə daxil olmaq.

**Einreisevisum,** *das; -s, ..visa* daxil olma vizası, gəlmə vizası, giriş vizası.

**einreißen** *vt* **1.** *(Haus)* sökmək, yıxmaq; **2.** *(Papier)* cırmaq, qopartmaq; *vi et. reißt ein* yırtılmaq; sınmaq, çatlamaq, parçalanmaq; cırılmaq.

**einrenken** *vt* **1.** *med. (Arm usw.)* yerinə salmaq; **2.** *fig.* bir işi düzəltmək, yoluna qoymaq.

**einrennen** *vt* **1.** *(durch Stoßen)* vurub yıxmaq; **2.** *(Tür usw.)* sındırmaq; *j-m das Haus ~* bir kəsi təngə gətirmək; *offene Türen ~* açıq qapıya açar salmaq, boş yerə zəhmət çəkmək.

**einrichten** *vt* **1.** *(gründen)* yaratmaq, əsasını qoymaq; **2.** *(Wohnung)* düzəltmək, səliqəyə salmaq; *(mit Möbeln und anderem Hausrat)* döşəmək; **3.** *(ermöglichen)* mümkün etmək; *vr sich ~* 1. yerləşmək; 2. *F (sparsam sein)* ayağını yorğanına görə uzatmaq; qaydaya salmaq, hazırlaşmaq.

**Einrichtung,** *die; - -en* **1.** *(Institution)* quruluş; **2.** *(Ausstattung)* təchizat, ləvazimat; **3.** *(Möbel)* mebel *(Süd. : mobl)*, ev avadanlığı, ev əşyası.

**einriegeln** *vt* rəzə ilə bağlamaq.

**einritzen** *vi* qazmaq *(in A -ə).*

**einrosten** *vt* **1.** paslanmaq, pas atmaq; **2.** *fig.* ruhdan və qüvvədən düşmək, paslanmaq.

**einrücken** *vt* **1.** *(Zeitung)* dərc etmə, yazma *(in A/-ə)*; *die Anzeige in die Zeitung ~* qəzetdə elan dərc etmək; **2.** *(Zeile) typ.* sətirbaşı qoymaq; *vi mil.* 1. bir yerə girmək, daxil olmaq; 2. *(zum Militär)* hərbi qulluğa daxil olmaq; 3. *(in j-s Stelle)* bir kəsin yerini tutmaq.

**einrühren** *vt* **1.** qatmaq; içinə tökmək; *Gewürze in die Suppe ~* şorbaya ədviyyat qatmaq; **2.** *fig. (j-m et.)* bir kəsə iş açmaq, başına bəla salmaq.

**eins** *adj.* **1.** bir; **2.** *(dasselbe)* eyni, bərabər, həmin özü; **3.** *(etwas)* bir şey *(zad)*; *~ verstehe ich nicht* bir şeyi düşünmürəm; *~ muss ich dir sagen* sənə bir şey deməliyəm; *~ nach dem anderen* bir-bir, yavaş-yavaş; *~ sein* həmdil olmaq, yekdil olmaq, bir olmaq, həmrəy olmaq.

**Eins,** *die; -, -en* **1.** bir; **2.** *(Note)* çox yaxşı, əla; *~ zu Null* bir sıfıra.

**einsacken** *vt* **1.** *(Getreide usw.)* torbaya doldurmaq, kisəyə doldurmaq; **2.** *fig.* cibə salmaq, mənimsəmək.

**einsalben** *vt* yağ sürtmək, yağ çəkmək.

**einsalzen** *vt* duzlamaq, duza qoymaq.

**einsam** *adj.* **1.** *(Ort)* tək, uzaq, yalqız; **2.** *(Person)* kimsəsiz, tənha, yalqız, adamsız, düşkün; *~ sein* tək qalmaq, kimsəsiz olmaq; *fig.* düzdə *(düzlərdə)* qalmaq.

**Einsamkeit,** *die; -* tənhalıq, kimsəsizlik, təklik, yalqızlıq, düşkünlük.

**einsammeln** *vt* yığmaq, toplamaq, cəm etmək, cəmləmək, əxz etmək.

**einsargen** *vt* tabuta qoymaq.

**Einsatz,** *der; -es, -¨e* **1.** *allg.* içinə qoyulan parça, əlavə; **2.** *(Spieleinsatz)* banka atılan pul *(Süd. : bank);* **3.** *(Musik)* çıxışı növbəti; **4.** *(Zwickel)* üstünə tikilmiş əlavə parça; **5.** *(Verwendung)* istifadə, işlətmə *(für A/üçün);* **6.** *(Leistung)* zəhmət, əmək, fəaliyyət; **7.** *(Pfand)* girov; *unter ~ aller Kräfte* var qüvvəsilə, bütün gücünü səfərbəy etməklə; *unter ~ des Lebens* həyatını təhlükəyə salaraq, heyatından keçərək.

**einsatzbereit** *adj.* əmrə müntəzir.

**einsaugen** *vt* sormaq, əmmək, canına çəkmək.

**einschalten** *vt* **1.** *(Radio usw.)* açmaq; **2.** *elek.* işığı yandırmaq; **3.** *(Gang)* dəndəyə qoymaq; **4.** *(die Polizei, e-n Anwalt)* dəxalət vermək; *vr sich ~* qarışmaq, müdaxilə etmək *(in A/ -ə).*

**Einschaltung,** *die; -* **1.** *(Radio usw.)* yandırma; **2.** qoşulma, qarışma.

**einschärfen** *vt* təkid etmək; xəbərdarlıq vermək *(j-m/-ə).*

**einscharren** *vt* yeri eşələmək, səthi qazımaq; səthi basdırmaq.

**einschätzen** *vt (beurteilen)* qiymətləndirmək; təxmin etmək.

**Einschätzung,** *die; -, -en* qiymət vermə, qiymət qoyma; təxmin etmə; *nach meiner ~* təxminimə görə.

**einschenken** *vt (Wein, Tee)* qədəhə, stəkana tökmək; *fig. j-m reinen Wein ~* bir kəsə sözün düzünü demək.

**einschichtig** *adj.* bir lay, bir təbəqə; birnövbəli.

**einschicken** *vt* göndərmək, yollamaq.

**einschieben** *vt* içəri soxmaq, içinə soxmaq, içəri keçirmək.

**einschießen** *vt* **1.** güllə ilə vurub dağıtmaq; vurub sındırmaq; **2.** *(Sport)* topu qapıya vurmaq *(Süd. : qol vurmaq)*, qolun içinə vurmaq; **3.** *(Milch)* südlənmək *(yeni ana olanlarda).*

**einschiffen** *vt* **1.** *(Waren)* gəmiyə yük vurmaq; **2.** *(Personen)* gəmiyə mindirmək; *vr sich ~* gəmiyə minmək.

**einschlafen** *vi* **1.** yuxuya getmək; *F* köpmək; **2.** *(Gliedmaßen)* keyimək, yatmaq.

**einschläfern** *vt* **1.** yatırtmaq; **2.** *(Tier)* dərman ilə öldürmək.

**einschläfernd** *adj.* yuxugətirən, yuxugətirici.

**Einschlag,** *der; -(e)s, -¨e* **1.** *(e-s Geschosses usw.)* dəymə yeri, əsabət edən yer; **2.** *(Weberei)* arğac; **3.** görünüş, diqqəti çəkən xüsusiyyət; **4.** *fig.* rəğbət, meyl, təmayül; ləhcə; *mit südländischem ~* güney ləhcəsi ilə.

**einschlagen** *vt* **1.** *(Nagel)* mıxlamaq, mıx vurmaq, mıx çalmaq; **2.** *(zerbrechen)* sındırmaq, qırmaq; **3.** *(Weg)* yol seçmək; **4.** *(verkürzen)* qısaltmaq; **5.** *(einhüllen)* bükmək, sarımaq; *in Papier ~* kağıza bükmək; *vi* 1. *(Blitz)* çaxmaq, vurmaq; *der Blitz hat eingeschlagen* ildırım çaxdı; 2.*(zustimmen)* razı olmaq, razılaşmaq; 3. *(Erfolg haben)* müvəffəqiyyət qazanmaq; bəyənilmək; 4. *(auf j-n)* bir kəsi döymək, vurmaq.

**einschlägig** *adj.* **1.** müvafiq, ilgili olan, məqsədə uyğun gələn; *die ~e Literatur* bir mövzuya dair ədəbiyyat; **2.** *jur. ~ vorbestraft sein* sabiqəli, eyni təqsir üçün mühakimə olunmuş.

**einschleichen** *vr sich ~* **1.** gizli girmək, gözə çarpmadan keçmək *(in A/ -ə)*; *sich in j-s Vertrauen ~* haqsız yerə kimsənin inamını qazanmaq; **2.** *(Fehler)* səhv olmaq.

**einschleifen** *vt* **1.** *(mit e-r Maschine)* şüşəyə həkk etmək, oymaq; **2.** *fig.* özünə adət etmək, özünə qayda etmək.

**einschleppen** *vt med.* özü ilə gətirmək; *e-e Krankheit ~* xəstəlik gətirmək, naxoşluq gətirmək.

**einschleusen** *vt* qaçaq aparmaq, qaçaq keçirmək *(in A/-ə).*

**einschließen** *vt* **1.** bağlamaq, qıfıllamaq; damla(t)maq; **2.***(umzingeln)* dövrəyə almaq, mühasirə etmək; **3.** *fig.*

daxil etmək; *in die Gemeinschaft ~* cəmiyyətə daxil etmək; *sich ~* bağlanmaq; *Schließ die Hühner ein!* toyuqları damla!

**einschließlich** *adv.* daxil olmaq şərtilə, daxil edərək; *der Laden ist bis ~ Freitag geschlossen* mağaza cümə gününə qədər bağlıdır; *präp. G (inklusive)* ..ilə, ..də daxil olmaqla; *der Preis beträgt 50 Euro ~ Frühstück* qiymət səhər yeməyi ilə 50 € dur; *bis Seite 8 ~* 8-inci səhifəyə qədər.

**Einschließung,** *die; -, (-en) mil.* dövrəyə alma, mühasirə etmə.

**einschlummern** *vi* **1.** mürgüləmək, yuxu almaq; **2.** *(sterben)* ölmək; **3.** *(enden)* sona çatmaq, qurtarmaq.

**Einschluss,** *der; -es, -¨e unter ~ G ..də* daxil olmaqla, ...daxil olaraq; *mit ~ von (D)* .. daxil edərək, .. daxil olmaq şərtilə.

**einschmeicheln** *vr sich ~* yaltaqlanmaq, qılığına girmək, gözə girmək *(bei D/-ə).*

**einschmeichelnd** *adj. (Musik)* xoşa gələn, cəzb edən.

**einschmeißen** *vt (Schaufenster usw.)* vurub sındırmaq *(dağıtmaq).*

**einschmelzen** *vt* əritmək.

**einschmieren** *vt* **1.** yağlamaq; **2.** *(beschmieren)* bulamaq, çirkləndirmək.

**einschmuggeln** *vt* qaçaq keçirmək, gömrükdən gizli mal gətirmək; *vr sich ~* gizli girmək.

**einschnappen** *vi* **1.** *(das Schloss, die Tür)* bağlanmaq, cəftəsi vurulmaq; **2.** *eingeschnappt sein F* küsmək, incimək.

**einschneiden** *vt* **1.** *(einkerben)* kərtik açmaq, biçmək; **2.** *(z.B. Schriftzeichen in Holz)* ağacı oyub yazmaq, həkk etmək; **3.** *(ins Fleisch)* ətə batmaq, kəsib batmaq.

**einschneidend** *adj. fig.* kəskin, kəskin surətdə, qəti.

**einschneien** *vi* qarla örtülmək; *eingeschneit sein* qardan örtülmək.

**Einschnitt,** *der; -(e)s, -e* **1.** kəsik, yarıq; **2.** *fig.* dönüş, dönüş nöqtəsi.

**einschnitzen** *vt* oymaq, həkk etmək.

**einschnüren** *vt* bağlamaq, qaytanlamaq.

**einschränken** *vt* **1.** *(Rechte usw.)* məhdudlaşdırmaq, məhdud etmək; **2.** *(Ausgaben, Rauchen usw.)* azaltmaq; *vr sich ~ müssen* qənaət etmək, xərcləri azaltmaq.

**einschränkend** *adj.* məhdudlaşdırıcı.

**Einschränkung,** *die; -, -en* **1.** *s. einschränken;* **2.** *(Vorbehalt)* şərt, qeyd-şərt, *ohne ~* şərtsiz.

**einschrauben** *vt* vintləmək *(Süd. : piçləmək)*, burub bərkitmək.

**Einschreibebrief,** *der; -(e)s, -e* sifarişli məktub.

**einschreiben** *vt* yazmaq, qeyd etmək; *e-n Brief ~ lassen* məktubu sifarişli olaraq göndərmək; *vr sich ~ lassen* yazılmaq, adını yazdırmaq.

**einschreiten** *vi* **1.** qarışmaq, müdaxilə etmək; **2.** *(gerichtlich)* məhkəməyə vermək *(gegen A/-ə qarşı); gegen et. ~* bir şeyə qarşı hərəkətə keçmək.

**einschrumpfen** *vi* **1.** büzüşmək, yığılmaq; **2.** *fig.* kiçilmək, daralmaq.

**Einschub,** *der; -s, -¨e* əlavə.

**einschüchtern** *vt* qorxutmaq, gözünü qorxutmaq, hədələmək; *fig.* ədəbləndirmək, hesabına yetişmək; *sich nicht ~ lassen* qorxmamaq, özünü itirməmək.

**Einschüchterung,** *die; -, -en* qorxutma, hədə-qorxu, hədələmə, hərbə.

**einschulen** *vt* məktəbə yazdırmaq, məktəbə qoymaq *(Süd. : mədrəsəyə qoymaq.*

**Einschuss,** *der; -es, -¨e* **1.** *(Verletzung durch e-e Kugel)* güllə yeri, güllə yarası; **2.** *(Weberei)* arğac.

**Einschussstelle,** *die; -, -n* güllə yeri, giliz yeri.

**einschütten** *vt* tökmək.

**einschwefeln** *vt* kükürdləmək, kükürdlü tüstü vermək.

**einschwenken** *vi* **1.** bir tərəfə dönmək, çevrilmək, istiqamətini dəyişmək; **2.** *fig. auf j-s Linie ~* əqidəsini dəyişdirmək.

**einsegnen** *vt* xeyir-dua vermək, dua etmək.

**einsehen** *vt* **1.** içinə baxmaq; **2.** *(verstehen)* anlamaq, başa düşmək, dərk etmək; **3.** *(prüfen)* gözdən keçirtmək, yoxlamaq.

**einseifen** *vt* **1.** sabunlamaq; **2.** *fig. (betrügen)* aldatmaq.

**einseitig** *adj.* **1.** birtərəfli, biryanlı; ədalətsiz; **2.** *(parteiisch)* tərəfkeş; **3.** *(beschränkt)* məhdud; *et. ~ beurteilen* haqqında birtərəfli qəzavət etmək.

**Einseitigkeit,** *die; -, (-en)* tərəfkeşlik.

**einsenden** *vt* göndərmək, yollamaq.

**Einsender,** *der; -s, -* göndərən, yollayan.

**Einsendung,** *die; -, -en* göndərmə, çatdırma.

**einsenken** *vt* batırmaq.

**einsetzen** *vt* **1.** *(Fensterscheibe, e-n Flicken)* salmaq; taxmaq; **2.** *(Zahn)* diş qoymaq; **3.** *(Geld)* qoymaq; **4.** *(Anzeige)* elan vermək, dərc etmək; *in die Zeitung ~* qəzetdə vermək; **5.** *(ernennen)* təyin etmək *(in A/-ə, als A/...)*; **6.** *(Leben)* canından keçmək; *vi (Regen usw.)* başlamaq; *vr sich ~* 1. *(für j-n / et.)* himayə etmək, havadar olmaq, müdafiəsinə qalxmaq; 2. çalışmaq, səy etmək.

**Einsetzung,** *die; -, -en* **1.** salmaq, içinə qoyma; **2.** vəzifəyə qoyulma.

**Einsicht,** *die; -, -en* **1.** *(Erkenntnis)* idrak, qavrama; şüur; **2.** *(Einsehen)* başa düşmə, anlama, nəzər, anlaşıq; **3.** *(Vernunft)* ağıl, düşüncə, kamal, düşüncəlilik, müdriklik.

**einsichtig** *adj.* düşüncəli, ağıllı, dərrakəli.

**Einsichtnahme,** *die; -, -n* baxış, tanış olma, bələd olma.

**einsichtsvoll** *adj.* ağıllı, ağlı başında, kamallı, tədbirli.

**einsickern** *vi* sızmaq, sızıb keçmək.

**Einsiedelei,** *die; -* tək-tənha yer *(ev)*.

**Einsiedler,** *der; -s, -* güşənişin, tərkidünya, münzəvi.

**einsiedlerisch** *adj.* tərki-dünya, güşənişin.

**einsilbig** *adj.* **1.** *(Wort)* birhecalı, təkhecalı; **2.** *(wortkarg)* azdanışan; **3.** *(Antwort)* qısa.

**einsinken** *vi* **1.** *(in et.)* batmaq; batırılmaq; **2.** *(Boden)* yatmaq, uç(ul)maq.

**einsitzen** *vi (inhaftiert sein)* həbsdə olmaq.

**Einsitzer,** *der; -s* biradamlıq, birnəfərlik.

**einsitzig** *adj.* biryerli, biradamlıq, birnəfərlik.

**einsortieren** *vt* çeşidləmək, yerlərinə qoymaq.

**einspannen** *vt* **1.** *(j-n zu/für et.)* bir kəsi bir işə təyin etmək; **2.** *(Blatt in die Schreibmaschine)* yazı maşınına keçirmək; **3.** *(Pferd)* qoşmaq.

**Einspänner,** *der; -s, -* təkatlı minik, təkatlı fayton.

**einspännig** *adj.* təkatlı.

**einsparen** *vt* qənaət etmək, artırmaq; *fig.* dala atmaq.

**Einsparung,** *die; -, -en* qənaət, qənaət ilə yığılmış pul.

**einspeichern** *vt (Daten)* yazmaq, yığmaq, daxil etmək.

**einsperren** *vt* **1.** içəri salıb bağlamaq, üzünə bağlamaq; **2.** *(in ein Gefängnis)* həbsxanaya salmaq, bəndə çəkmək, dama basmaq.

**einspielen** *vt* **1.** *(Musikinstrument)* çalaraq səsini düzəltmək; **2.** *(ein Musikstück usw.)* məşq etmək; **3.** *(Gewinn durch e-e Aufführung)* əldə etmək, yığmaq, qazanmaq; **4.** *(im Fernsehen usw.)* bir səhnənin *(proqramın)* içinə başqa bir səhnə qatmaq; **5.** *(EDV)* bir fayldan başqa bir fayla keçirmək; *vr sich ~* 1. *(allmählich gut in Gang kommen)* adi olmaq, normallaşmaq; 2. *(Person) gut aufeinander eingespielt sein* bir-birinə alışmaq, bir-birinə adət etmək.

**einspinnen** *vt* iplə sarımaq; *sich ~ (Raupe)* puplaşmaq; *fig.* hamıdan çəkinmək, kənar gəzmək; dalğınlaşmaq.

**einsprachig** *adj.* tək dildə; tək dilli.

**einsprechen** *vi (auf j-n)* inandırmaq, çox danışmaqla sübut etməyə çalışmaq.

**einsprengen** *vt* **1.** sındırıb açmaq; **2.**

su çiləmək, yeri sulamaq.

**einspringen** *vi fig. (für j-n)* bir kəsi tez əvəz etmək, yerinə keçmək, bir kəsin yerinə iş görmək *(kömək etmək).*

**einspritzen** *vt* **1.** *(injizieren)* iynə vurmaq; **2.** *(Wäsche)* üstünə su səpmək.

**Einspritzung,** *die; -, -en* iynə vurma, ineksiya *(Süd. : injeksiyon).*

**Einspruch,** *der;-(e)s, -¨e* etiraz, protest; *~ erheben* etiraz etmək, cavab qaytarmaq*(gegen A/ bir şeyin əleyhinə).*

**Eispruchsfrist,** *die; -, -en* etiraz möhləti *(müddəti).*

**Einspruchsrecht,** *das; -(e)s* etiraz haqqı, veto haqqı.

**einspurig** *adj.* **1.** *(Eisenbahn)* birxətli; **2.** *(Straße)* biryollu.

**einst** *adv.* **1.** *(vormals)* bir dəfə, günlərin bir günündə, keçmişdə; *hier stand ~ ein Theater* keçmişdə burada bir teatr var idi; **2.** *(künftig)* bir vaxt, gələcəkdə.

**Einstand,** *der; -(e)s, -¨e* **1.** *nur sg. (Tennisspiel)* bərabər, bərabər hesab; **2.** vəzifəyə girmə mərasimi, işə başlama törəni.

**einstauben** *vi* toz basmaq, tozlanmaq.

**einstechen** *vt* sancmaq, batırmaq; *vi* bıçaqlamaq *(auf j-n/bir kəsi).*

**einstecken** *vt* **1.** içinə soxmaq, dürtmək; **2.** *(in die Tasche)* cibinə qoymaq; oğurlamaq; **3.** *(Beleidigung, Niederlage)* dözmək, udmaq.

**einstehen** *vi* **1.** zamin olmaq *(für et./ bir şeyə);* **2.** *(für j-n)* bir kəsə zamin olmaq, kəfil olmaq.

**einsteigen** *vi* **1.** *(ins Fahrzeug)* minmək *(in A/-a, -ə);* **2.** *(in ein Geschäft)* ortaqlıq etmək, iştirak etmək, əli olmaq; *Bitte ~!* lütfən minin!

**einstellen** *vt* **1.** qoymaq, yerləşdirmək; *den Wagen ~* avtomobili qaraja qoymaq; salmaq; **2.** *(regulieren)* nizamlamaq, qaydaya salmaq, tənzim etmək; **3.** *(Mitarbeiter)* işə götürmək, təyin etmək, çalışdırmaq; **4.** *(beenden)* dayandırmaq; *vr sich ~* 1. *(auftreten)* ortaya çıxmaq, başlanmaq, zühur etmək; 2. *(auf)* hazırlanmaq, nəzərdə tutmaq;

*eingestellt* 1. qaydaya salınmış; 2. işə alınmış, işə götürülmüş; 3. *(gestoppt)* dayandırılmış.

**einstellig** *adj.* bir rəqəmli.

**Einstellknopf,** *der; -(e)s, -¨e* qurğu başlığı.

**Einstellung,** *die; -, -en* **1.** *allg.* dayandırma, kəsmə; **2.** qaydaya salma, tənzim etmə; **3.** işə al(ın)ma, qulluğa qəbul etmə; **4.** *(e-s Prozesses)* dayandırma, kəsmə; *die ~ des Verfahrens* məhkəmə işinin dayandırılması; **5.** *(von Feindseligkeiten)* əl çəkmə; **6.** *(Anschauung)* baxış, görüş, nöqteyi-nəzər, münasibət.

**Einstellungsgespräch,** *das; -(e)s, -e* işə qəbul etmə söhbəti *(danışığı).*

**Einstich,** *der; -(e)s, -e* sancma, batırma.

**Einstieg,** *der; -(e)s, -e* **1.** giriş; **2.** giriş qapısı; **3.** *fig.* başlanğıc.

**einstig** *adj. (ehemalig)* keçmiş, sabiq, əvvəlki, qədim.

**einstimmen** *vi* **1.** *(Musikinstrument)*köklәmək; sazlamaq; **2.** səsə-səs vermək, oxuyanlara səs vermək, çalanlarla qatılmaq *(in A/-ə)*; **3.** *(bewilligen)* icazə vermək; *fig. sich ~* hazırlaşmaq *(auf A, für A/ -ə).*

**einstimmig** *adj.* **1.** *mus.* tək səsli, bir səsli, həmahəng; **2.** *(einmütig)* həmdil, həmfikir; bir səslə, ağzıbir; *der Vorschlag wurde ~ angenommen* təklif *(önəri)* yekdilliklə qəbul edildi.

**Einstimmigkeit,** *die; -* səs birliyi, yekdillik.

**einstmalig** *adj.* keçmiş, əvvəlki.

**einstmals** *adv. s. einst.*

**einstöckig** *adj.* birmərtəbəli.

**einstöpseln** *vt* taxmaq; soxmaq.

**einstoßen** *vt* **1.** içəri basmaq; **2.** *(Mauer)* yıxmaq; **3.** *(Tür)* vurub sındırmaq.

**einstreichen** *vt* **1.** *(Wand usw.)* üstünə sürtmək *(yaxmaq);* suvamaq; **2.** *(Geld) fig.* cibə vurmaq, cibə salmaq; **2.** *(große Gewinne)* çox rahat qazanmaq.

**einstreuen** *vt* səpmək, səpələmək; *fig. (et. in e-e Rede)* qatmaq, doldurmaq;

---

*witzige Bemerkungen ins Gespräch ~* məzəli sözləri *(qeydləri)* söhbətə qatmaq.

**einströmen** *vi* içinə axmaq, axıb tökülmək.

**einstudieren** *vt (Rolle, Tanz)* əzbərləmək, hazırlamaq, öyrənmək.

**einstufen** *vt* **1.** *(bewerten)* qiymətləndirmək, qiymət vermək; **2.** *(klassifizieren)* qruplara bölmək.

**Einstufung,** *die; -, -en* böl(ün)mə.

**einstündig** *adj.* birsaatlıq.

**einstürmen** *vi* **1.** hücum etmək, həmlə etmək *(auf A -ə)*; **2.** *fig. (mit Fragen) auf j-n ~* çoxlu sual vermək, sual altına almaq.

**Einsturz,** *der; -es, -¨e* dağılma, uçulma, yıxılma; *zum ~ bringen* yıxmaq.

**einstürzen** *vi* uçulmaq, yıxılmaq, çökmək.

**Einsturzgefahr,** *die; -* yıxılma xətəri, yıxılma təhlükəsi.

**einstweilen** *adv.* **1.** *(vorläufig)* hələlik; **2.** *(in der Zwischenzeit)* bu arada, bu dəmdə.

**einstweilig** *adj.* müvəqqəti, keçici.

**eintägig** *adj.* birgünlük, günlük.

**Eintagsfliege,** *die; -, -n* **1.** *zo.* bir gün yaşayan milçək; **2.** *fig.* qısa ömürlü.

**eintauchen** *vt* batırmaq, suya basmaq *(in A/-ə, -a)*; *vi* batmaq *(in A/-ə)*.

**Eintausch,** *der; -(e)s* dəyişmə, əvəz etmə, mübadilə.

**eintauschen** *vt* dəyişmək, mübadilə etmək *(für, gegen A/ ilə).*

**einteilen** *vt* bölmək; qruplara bölmək *(in A/-ə); (Zeit)* ayırmaq; *j-n ~ (für, zu)* bir kəsə bir işi vermək.

**einteilig** *adj.* bütöv, bölünməyən.

**Einteilung,** *die; -, -en* böl(ün)mə, bölüşdürmə; təqsim, bölgü, paylaşma.

**eintönig** *adj.***1.** monoton, birtonlu; yeknəsəq; **2.** *fig.* darıxdırıcı, cansıxıcı; gözyorucu.

**Eintönigkeit,** *die; -* yeknəsəqlik, monotonluq.

**Eintopf,** *der; -s, -¨e* aş.

**Eintopfgericht,** *das; -(e)s, -e* aş yeməyi.

**Eintracht,** *die; -* birlik, həmfikirlik.

**einträchtig** *adj.* həmfikir, yekdil, ağzıbir.

**Eintrag,** *der; -(e)s, -¨e s. Eintragung.*

**eintragen** *vt* qeydə almaq, kitaba salmaq, yazmaq *(in A/-ə, -a); sich ~ (lassen)* yazılmaq *(in A/-ə); eingetragen* qeyd ol(un)muş.

**einträglich** *adj.* gəlirli, qazanclı, mədaxilli.

**Eintragung,** *die; -, -en* yaz(ıl)ma, qeydə alma, qeyd etmə, dərc etmə; daxil etmə, yerləşdirmə, hesabaalma.

**einträufeln** *vt* damcı-damcı tökmək, damcılatmaq.

**eintreffen** *vi* **1.** gəlib çıxmaq, gəlmək, gəliş, çatmaq, erişmək, ermək, yetişmək; **2.** *(Voraussage)* doğru çıxmaq.

**eintreiben** *vt* **1.** *(Vieh)* tövləyə salmaq; **2.** *(Geld, Steuern)* yığmaq, almaq, cəmləmək, əxz etmək.

**eintreten** *vt* **1.** *(Tür)* təpiklə vurub açmaq, təpiklə vurub dəlmək; **2.** *(neue Schuhe)* geyib genəltmək; *vi* 1. içəri girmək, daxil olmaq *(in A/-ə);* 2. *(in e-n Verein)* üzv olmaq; 3. *(in ein Amt)* vəzifə tutmaq, işə başlamaq; 4. *(für j-n)* tərəfini saxlamaq, müdafiə etmək; 5. *(geschehen)* baş vermək.

**eintrichtern** *vt fig.* beyninə soxmaq, beyninə yeritmək *(j-m/ bir kəsin).*

**Eintritt,** *der; -(e)s, -e* **1.** giriş, girmə; **2.** *(Einlass)* bura(xıl)ma, daxil olma; **3.** *(Beginn)* başlanğıc, başlama; **4.** *(Gebühr)* giriş pulu.

**Eintrittsgeld,** *das; -(e)s, -er* giriş haqqı, giriş pulu.

**Eintrittskarte,** *die; -, -n* bilet.

**eintrocknen** *vt* qurutmaq; *vi* qurumaq.

**eintröpfeln** *vt u. vi* damcı-damcı tök(ul)mək, damcıl(at)maq.

**Eintrübung,** *die; -, -en (Wetter, Himmel)* tutqunlaşma, qaralma.

**eintrudeln** *vi F* gəlmək.

**eintürig** *adj.* birqapılı.

**einüben** *vt* yaxşı öyrənmək, məşq etmək.

**einverleiben** *vt (annektieren)* tutmaq,

mənimsəmək, ilhaq etmək; *vr sich et. ~* yemək; *F* cibinə salmaq, mənimsəmək.

**Einverleibung,** *die; -, -en* qoparıb öz tərkibinə qatma, ilhaq, birləşdirmə.

**Einvernahme,** *die; -, -n jur.* sorğu-sual, istintaq, dindirilmə.

**Einvernehmen,** *das; -s* razılaşma, razı olma, anlaşma, qarşılıqlı razılıq, düzəliş; *fig.* əl qoyma; *sich ins ~ setzen* razılaşmaq, razılığa gəlmək, düzəlişmək; əl qoymaq.

**einverstanden** *adv.* razı, həmrəy; *~ !* razıyam!, olsun!; *~ sein* razı olmaq *(mit D/-ilə)*; *fig.* əl qoymaq.

**Einverständnis,** *das; -ses, (-se)* razılıq, razılaşma, anlaşma, düzəliş; *mit meinem ~* mənim razılığım ilə; *zum ~ kommen* razılığa gəlmək, düzəlişmək; *F* dilləşmək.

**Einwand,** *der; -(e)s, -¨e* etiraz; qeyd-şərt; *Einwände erheben* etiraz etmək, cavab qaytarmaq *(gegen A/-ə).*

**Einwanderer,** *der; -s, -* köçkün, mühacir, gəlmə.

**einwandern** *vi* köçmək, köçüb gəlmək *(in A/-ə).*

**Einwanderung,** *die; -, -en* mühacirət, köçüb gəlmə.

**einwandfrei** *adj.* eyibsiz, nöqsansız, qüsursuz, təmiz; *~ arbeiten* qüsursuz *(təmiz)* işləmək.

**einwärts** *adv.* ...içinə, ...daxilinə; *nach ~ gerichtet* daxilə yönəldilmiş.

**einweben** *vt* içinə tökmək, qarışdırmaq.

**einwechseln** *vt* **1.** *(Geld)* xırdalamaq; **2.** *(Währung)* dəyişdirmək *(gegen A/ilə).*

**einwecken** *vt (einmachen)* konservləşdirmək.

**Einweg…** bir dəfə istifadə olunan.

**Einwegflasche,** *die; -, -n* bir dəfə istifadə olunan şüşə.

**einweichen** *vt* isladıb yumşaltmaq.

**einweihen** *vt* **1.** *(kirchlich)* mərasimlə müqəddəs saymaq; **2.** *(feierlich)* təntənə ilə açmaq; **3.** *(j-n)* agah etmək *(in A/ haqqında).*

**Einweihung,** *die; -, -en* **1.** *rel.* müqəddəs etmə; **2.** açılma mərasimi, açılış törəni.

**einweisen** *vt* **1.** *(in ein Amt)* işə təyin etmək, bir vəzifəyə qoymaq; **2.** *(in e-e Klinik usw.)* göndərmək; **3.** *(ein Fahrzeug in e-e Parklücke)* park *(dayanacaq)* yerini göstərmək.

**Einweisung,** *die; -, -en* göndər(il)mə; *~ ins Krankenhaus* xəstəxanaya göndərilmə.

**einwenden** *vt* etiraz etmək *(gegen A/* bir şeyə); *ich habe nichts dagegen einzuwenden* buna heç bir etirazım *(sözüm)* yoxdur.

**einwerfen** *vt* **1.** atmaq, salmaq; *den Brief in den Briefkasten ~* kağızı *(məktubu)* post *(poçt)* qutusuna atmaq *(salmaq)*; **2.** *(Fenster)* sındırmaq; **3.** *fig. (Bemerkung)* əlavə etmək, demək; **4.** *(einwenden)* etiraz etmək.

**einwickeln** *vt* **1.** sarımaq, bələmək, bükmək, bürümək, çulğalamaq, dolaşdırmaq, dolamaq *(in A/-ə)*; **2.** *F* aldatmaq, ələ salmaq.

**Einwickelpapier,** *das; -s* sarğılıq kağız.

**einwilligen** *vi* razılq vermək, icazə vermək *(in A/bir şeyə).*

**Einwilligung,** *die; -, -en* razılıq *(zu D/ bir şeyə); ohne meine ~* mənim razılığım olmadan.

**einwirken** *vt* təsir etmək *(auf A/-ə).*

**Einwirkung,** *die; -, -en* təsir, etki.

**Einwohner,** *der; -s, -* sakin, əhl; *pl.* camaat, əhali.

**Einwohnermeldeamt,** *das; -(e)s, -¨er* nüfus dairəsi, adres idarəsi *(bürosu).*

**Einwohnerzahl,** *die; -, -en* əhali, camaat.

**Einwurf,** *der, -(e)s, -¨e* **1.** *(Spalt)* dəlik, deşik; **2.** *(e-r Münze)* içinə atma; **3.** *(für Briefe)* məktub atılan yer; **2.** *(Einwand)* etiraz.

**einwurzeln** *vi* kök salmaq; *vr sich ~* kök atmaq.

**Einzahl,** *die; - gr.* tək hal, müfrəd.

**einzahlen** *vt* pul vermək, ödəmək, hesab vermək.

**Einzahlung,** *die; -, -en* ödəmə, pul vermə, ödəniş.

**Einzahlungsschein,** *der; -(e)s, -e* ödəniş qəbzi.

**einzäunen** *vt* hasar çəkmək, hasarlamaq.

**Einzäunung,** *die; -, -en* hasar.

**einzeichnen** *vt* əlamət qoymaq *(auf, in A/-ə); sich ~* adını yazmaq *(in A/-ə).*

**Einzel,** *das; -s, -* təkbaşına; *(Tischtennis, Tennis)* təklər yarışı.

**Einzelbett,** *das; -(e)s, -en* birnəfərlik yataq, biryerli yataq.

**Einzelfall,** *der; -(e)s, -¨e* tək baş verən hadisə, vaqiə, müstəsnalıq.

**Einzelgänger,** *der; -s, -* təkbaşına dolanan, güşəgir, yalqız.

**Einzelhaft,** *die; -* biradamlıq həbs.

**Einzelhandel,** *der; -s* xırda alver, pərakəndə alver, xırda satış.

**Einzelhändler,** *der; -s, -* kiçik alver ilə məşğul olan.

**Einzelheit,** *die; -, -en* təfsilat, xırdalıq, ayrıntı, təfərrüat, detal, cik-bik; *in allen ~en* bütün xırdalıqları *(təfsilatı)* ilə, yerli-yataqlı, müfəssəl, cikinə-bikinə kimi, ətraflı, ayrıntılı.

**Einzelkind,** *das; -(e)s, -er* ailənin tək uşağı.

**einzellig** *adj.* təkhüceyrəli, birhüceyrəli.

**einzeln** *adv.* **1.** *(gesondert)* ayrıca, ayrı-ayrı; tək-tək, təklikdə, seyrək;dənə-dənə, birər-birər, birbəbir; *~ eintreten* tək-tək girmək: **2.** *(individuell)* fərdi, şəxsi; *adj.* tək, tənha, vahid; *bis ins Einzelne* xırdalıqları ilə, təfsilatı ilə.

**einzelne** *pl.* bəzi; birpara, təkətük.

**einzelstehend** *adj.* yalqız, tək.

**Einzelteil,** *das; -(e)s, -e* hissə

**Einzelunterricht,** *der; -(e)s* fərdi təlim.

**Einzelverkauf,** *der; -(e)s, -¨e* pərakəndə satış *(Süd. : a. xırda furuşluq).*

**Einzelzimmer,** *das; -s, -* birnəfərlik otaq, biradamlıq otaq.

**einziehen** *vt* **1.** çəkmək, içəri çəkmək; **2.** *(Gelder usw.)* almaq, yığmaq; **3.** *(Segel)* yığmaq; **4.** *(Flagge)* endirmək; **5.** *(Soldaten)* hərbi qulluğa çağırmaq; **6.** *(Wand)* çəkmək; **7.** *(beschlagnahmen)* müsadirə etmək, əl qoymaq; *vi* 1. *in e-e Wohnung ~* bir mənzilə daşınmaq, bir mənzilə köçmək; 2. *(Flüssigkeit)* canına almaq, içinə keçmək; 3. *(in e-e Stadt)* bir şəhərə gəlmək, bir şəhərə köçmək; *ins Parlament ~* parlamentə girmək.

**einzig** *adj.* tək, vahid, yeganə, amanzaman; *ein ~er* tək biri; *kein ~er* heç birisi; *adv. (nur)* yalnız; ancaq; bircə *~ und allein* yalnız, müstəsna olaraq, bircə; *ein ~es Mal* ancaq bir dəfə; *kein ~er Mensch* heç bir adam.

**einzigartig** *adj.* yeganə, vahid, misilsiz, təkrarolunmaz, qənirsiz; *fig.* dürdanə, birdanə.

**Einzimmerwohnung,** *die; -, -en* bir otaqlı ev.

**Einzug,** *der; -(e)s, -¨e* **1.** girmə, daxil olma; **2.** *(in ein Haus)* daşınma.

**Einzugsgebiet,** *das; -(e)s, -e* şəhərdən xaric bölgə, iqtisadi, sosial və mədəni baxımdan şəhərə bağlı olan rayon.

**einzwängen** *vt* içinə soxmaq, bir şeyin arasına qoyub sıxmaq, basmaq, sıxmaq.

**Eis,** *das; -es* **1.** buz; **2.** *(Speiseeis)* dondurma; *fig. das ~ ist gebrochen* buzlar əridi, əvvəlki çətinliklər *(manelər)* aradan getdi; *fig. et. auf ~ legen* bir şeyi geriyə salmaq *(başqa vaxta keçirmək).*

**Eisbär,** *der; -en, -en* ağ ayı.

**Eisbein,** *das; -(e)s, -e* donuz ayağı, paça*;* maça.

**Eisberg,** *der; -(e)s, -e* buzdağı.

**Eisblume,** *die; -, -n* buzçiçəyi.

**Eiscafe,** *das; -s, -s* dondurmaçı.

**Eisbrecher,** *der; -s, -* buzqıran gəmi.

**Eisdiele,** *die; -, -n* dondurma salonu.

**Eisen,** *das; -s, -* dəmir, çəlik; *fig. j-n zum alten ~ werfen* bir kəsi qocalıb əldən düşmüş sanmaq; *fig. ein heißes ~* zəhmətli iş, çətin *(incə)* bir məsələ.

**Eisenbahn,** *die; -, -en* dəmiryolu; *mit der ~* qatarla *(Süd. : a. : trenlə)*; *F, fig. es ist höchste ~* bunun vaxtı gəlib çatıb.

**Eisenbahnabteil,** *das; -(e)s, -e* kupe.
**Eisenbahner,** *der; -s, -* dəmiryolçu.
**Eisenbahnlinie,** *die; -, -n* dəmiryol xətti.
**Eisenbahnnetz,** *das, -es, -e* dəmiryol şəbəkəsi.
**Eisenbahnunglück,** *das; -(e)s, -e* dəmiryol qəzası *(Süd. : dəmiryol təsadüfü).*
**Eisenbahnverkehr,** *der; -(e)s* dəmiryolu nəqliyyatı.
**Eisenbahnwagen,** *der; -s, -* vaqon.
**Eisenbergwerk,** *das; -(e)s, -e* dəmir mədəni.
**Eisenbeton,** *der; -s* dəmir-beton.
**Eisenblech,** *das; -(e)s, -e* təbəqə dəmir.
**Eisendraht,** *der; -(e)s, -¨e* dəmir məftil.
**Eisenerz,** *das; -es* dəmir filizi.
**Eisengießerei,** *die; -, -en* **1.** dəmir emalatxanası; **2.** çuqunəritmə *(tökmə)* istehsalı, çuqunəridən zavod.
**eisenhaltig** *adj.* dəmirli, tərkibində dəmir olan.
**Eisenhüttenwerk,** *das; -(e)s, -e* qara metallurgia zavodu *(karxanası).*
**Eisenindustrie,** *die; -, -n* qara metallurgiya sənayesi.
**Eisenmast,** *der; -(e)s, -en u. -e* dəmir tir.
**Eisenvitriol,** *das; -(e)s* melanterit, dəmir sulfatı.
**Eisenwalzwerk,** *das; -(e)s, -e* dəmir karxanası.
**Eisenwaren,** *die/pl.* dəmir məmulatı.
**Eisenzeit,** *die; -* dəmir dövrü.
**eisern** *adj.* dəmir, dəmirdən qayrılmış; *fig.* dəmir kimi.
**eisfrei** *adj.* buzsuz.
**Eisfuchs,** *der; -es, -¨e* şimal tülküsü.
**Eisgang,** *der; -(e)s* buz axını, buz açılması.
**eisgekühlt** *adj.* buzlu.
**Eisheiligen,** *die/pl.* May ayının 11-dən 15-qədər.
**Eishockey,** *das; -s (Sport)* hokey.
**eisig** *adj.* çox soyuq, şaxta, ayaz.
**Eiskaffee,** *der; -s* dondurmalı qəhvə, içində dondurma olan qəhvə.
**eiskalt** *adj.* buz kimi soyuq, bumbuz, şaxta, ayaz.
**Eiskrem,** *die; -* dondurma.
**Eiskunstlauf,** *der; -(e)s* fiqurlu konki sürmə, buz üstündə rəqs etmə.
**eislaufen** *vi* konki sürmək.
**Eisläufer,** *der; -s, -* konki sürən.
**Eismeer,** *das; -(e)s, -e* qütb dənizi.
**Eisscholle,** *die, -, -n* kiçik buz parçası, buzlaq.
**Eisschrank,** *der; -(e)s, -¨e* soyuducu.
**Eisvogel,** *der; -s, -¨* su quzğunu.
**Eiswürfel,** *der; -s, -* buz kubudu, doğranmış buz.
**Eiszapfen,** *der; -s, -* buz sırsırası, lülə buz.
**Eiszeit,** *die; -, -en* buzlaq dövrü.
**Eiszone,** *die; -, -n* buz qurşağı.
**eitel** *adj.* **1.** *(eingebildet)* şöhrətpərəst, özünəarxayın; **2.***(zwecklos, wertlos)* boş, boş boşuna, dəyərsiz; *~es Geschwätz* boş söz, cəfəngiyat; **3.***(rein)* xalis,əsil, başdan-başa; *~ Gold* xalis *(əsil)* qızıl; **4.** *(vergänglich)* keçici, fani, müvəqqəti.
**Eitelkeit,** *die; -, -en* **1.** şöhrətpərəstlik, özünü bəyənmə; **2.** boş şey, mənasızlıq.
**Eiter,** *der; -s* çirk, irin.
**Eiterbeule,** *die; -, -n* çiban.
**eitrig** *adj.* çirkli, irinli.
**eitern** *vt* çirkləmək, irinləmək.
**eiternd** *adj.* çirkli, irinli.
**Eiweiß,** *das, -es, -e* **1.** yumurta ağı; **2.** *Chem.* albumin.
**eiweißhaltig** *adj.* tərkibində zülal olan, albuminli.
**Eiweißstoff,** *der; -(e)s, -e* albumin.
**Ejakulation,** *die; -, -en biol.* məni tökmə; püskürmə, tullama.
**ejakulieren** *vt* məni tökmək.
**Ekel,** *der; -s* **1.** *(Abscheu)* nifrət, iyrənmə, iyrənclik; **2.** *(Brechreiz)* ürəkbulanma, öyümə; *~ empfinden* iyrənmək; *~ erregend* iyrəndirici. ürəkbulandırıcı.
**ekelhaft, ekelig** *adj.* ürəkbulandırıcı, iyrənc.
**ekeln** *vr sich ~ , es ekelt D od. A* iyrənmək, nifrət bəsləmək, çimçişmək *(vor D/ bir şeydən); ich ekle mich davor* bundan iyrənirəm.

**EKG** *(Elektrokardiogramm) med.* kardioqram, ürək çırpıntısının rəsmi.

**Eklat,** *der; -s, -s* rüsvayçılıq, qalmaqal, həyəcan.

**eklatant** *adj.* **1.** *(aufsehenerregend)* diqqət *(həyəcan)* oyadıcı; **2.** *(klar)* açıq, aydın.

**Eklektiker,** *der; -s, -* başqalarının düşüncə tərzini təqlid edən, fikir təqlidçisi.

**eklig** *adj.* iyrənc.

**Eklipse,** *die; -, -n astr.* tutulma *(ay, günəş).*

**Ekstase,** *die; -, -n* vəcd, həzz, güclü sevinc; *in ~ geraten (über A/-dən )* vəcdə gəlmək.

**ekstatisch** *adj.* vəcdavər, həzz verən.

**Ekzem,** *das; -s, -e med.* ekzema; dəmro*(v).*

**Elan,** *der; -s* həyəcan, coşğunluq, yüksəliş; vüsət.

**elastisch** *adj.* elastik, əyilə bilən, uzana bilən.

**Elastizität,** *die; -* elastiklik, çeviklik; çəkilə bilmə, uzanma qabiliyyəti.

**Elch,** *der; -(e)s, -e zo.* sığın.

**Elefant,** *der; -en, -en* fil.

**Elefantenhochzeit,** *die; -, -en H* böyük müəssisələrin birləşməsi.

**elegant** *adj.* gözəl, zərif, fasonlu, biçimli, boylu-buxunlu, camallı, əndamlı; əndazəli.

**Eleganz,** *die; -* zəriflik.

**Elegie,** *die; -, -n* ağı, mərsiyə tərzində şer, qəsidə, növhə.

**elektrifizieren** *vt* elektrikləşdir(il)mək.

**Elektrifizierung,***die;-* elektrikləşdirmə.

**Elektriker,** *der; -s, -* elektrikçi.

**elektrisch** *adj.* elektrik; *fig. ~ geladen* elektrikli; *(Stimmung)* gərgin.

**Elektrizität,** *die; -* elektrik.

**Elektrizitätswerk,** *das; -(e)s, -e* elektrik stansiyası.

**Elektroherd,** *der; -(e)s, -e* elektrik sobası; elektrik ocağı.

**Elektrokardiogramm,** *das; -s, -e* elektrokardioqram, ürək çırpıntısının rəsmi.

**Elektromotor,** *der; -s, -en* elektrik motoru.

**Elektron,** *das; -s, -en phys.* elektron.

**Elektronengehirn,** *das; -(e)s, -e* elektron beyini.

**Elektronenröhre,** *die; -, -n* elektron lampası.

**Elektronik,** *die; -* elektronik.

**elektronisch** *adj.* elektronik.

**Elektroschock,** *der; -(e)s, -s* elektro şok.

**Elektrotechnik,** *die; -* elektrik mühəndisliyi, elektrotexnik.

**Elektrotechniker,** *der; -s, -* elektrik mühəndisi.

**Element,** *das; -(e)s, -e* **1.***Chem.*element, ünsür; **2.** *(Bestandteil)* parça, tərkibhissə, tərkib; **3.** *(Grundlage)* əsas; *in s-m ~ sein* özünü rahat *(azad)* hiss etmək.

**elementar** *adj.***1.** ibtidai, elementar, sadə; **2.** *(grundlegend)* əsaslı, mühüm; **3.** *(Gewalt)* kor-təbii.

**Elementarschule,** *die; -, -n* ibtidai məktəb, ibtidai sinif.

**Elementarunterricht,** *der; -(e)s* ibtidai təhsil.

**Elen,** *das u. der, -s, -* sığır.

**elend** *adj.***1.** *(ärmlich)* yazıq, kasıb, acınacaqlı, müsibətli, ac-yalavac, dılğır; **2.** *(gemein)* alçaq, mənfur; **3.** *(mager, kränklich)* xəstə kimi, naxoş; *sich ~ fühlen* özünü çox pis hiss etmək, fəlakət içində olmaq, qara gündə olmaq.

**Elend,** *das; -s* yoxsulluq, kasıblıq, fəlakət, bədbəxtlik, lütlük, müsibət, səfalət, acınacaqlı vəziyyət, dılğırlıq.

**Elendsviertel,** *das; -s, -* kasıblar *(yoxsullar)* məhəlləsi.

**Eleve,** *der; -n, -n* şagird, öyrənci.

**elf** *adj.* onbir.

**Elfe,** *die; -, -n* su pərisi.

**elfeckig** *adj.* onbirbucaqlı.

**Elfenbein,** *das; -(e)s* fil sümüyü, fil dişi, ac.

**elfmal** *adv.* onbir dəfə.

**Elfmeter,** *der; -s, -* penaltı, onbirmetrlik zərbə.

**elfte** *adj.* onbirinci.

**Elftel,** *das; -s, -* onbirinci hissə.

**elftens** *adv.* onbirinci olaraq.

**eliminieren** *vt* **1.** *(z.B. e-n Fehler)* qaldırmaq, xaric etmək, kənar etmək, silmək; **2.** *(töten)* öldürmək, yox etmək.

**elitär** *adj.* seçmə, elit, ən yaxşı.

**Elite,** *die; -, -n* **1.** seçmə, ən yaxşı; **2.** yuxarı təbəqə, hakimiyyət adamları, elita.

**Elitetruppe,** *die; -, -n* seçilmiş qoşun hissələri.

**Elixier,** *das; -s, -e* iksir, eliksir, özüt; sehrli içki.

**Ellbogen, Ellenbogen** *der; -s, -* dirsək; *die ~ gebrauchen fig.* dirsəkləyib özünə yol açmaq *(gegen A); mit dem ~ stoßen* dirsəkləmək, dümsükləmək.

**ellenbogenförmig** *adj.* dirsəkvarı.

**Ellbogengesellschaft,** *die;* - insanları rə-qabət içində yaşayan cəmiyyət, rəhm-siz cəmiyyət.

**Elle,** *die; -, -n* **1.** *an.* dirsək sümüyü; **2.** *(Maß)* arşın, qulac.

**ellenlang** *adj.* dirsək uzunluğunda.

**Ellipse,** *die; -, -n* **1.** *math.* ellips; **2.** *ling.* natamam cümlə, əskik cümlə.

**elliptisch** *adj.* elliptik.

**eleqouent** *adj.* natiq, gözəl və səlis danışan.

**Eloquenz,** *die; - (Beredsamkeit)* düzgün və səlis ifadələrlə danışma, yaxşı *(gözəl)* danışma.

**Elster,** *die; -, -n* qəcələ, sağsağan.

**elterlich** *adj.* ata-anadan, ata-ana ilə ilgili.

**Eltern,** *die/pl.* valideynlər, ata-analar.

**Elternbeirat,** *der; -(e)s, -¨e* *(in der Schule)* ata-anaları təmsil edən məsləhət şurası, valideynlər şurasi.

**Elternhaus,** *das; -es, -¨er* valideyn evi.

**elternlos** *adj.* yetim, ata-anasız, valideynsiz.

**E-Mail,** *die; -, -s* elektron poçt.

**Email,** *das, -s, -s* mina.

**Emaille,** *die; -, -n* mina.

**emaillieren** *vt* minalamaq, mina çəkmək.

**Emanation,** *die; -, -en* **1.** *(Ausstrahlung)* saç(ıl)ma, yayılma; **2.** *Phil.* törəncək, hər şeyin bir varlıqdan yaranması.

**Emanze,** *die; -, -n* qadınlar haqlarının şitini çıxardan qadın, qadınlığını unutmuş qadın; feminist.

**Emanzipation,** *die;* - qurtuluş, azad olma, ictimai və iqtisadi asılılıqdan azad olma, emansipasiya.

**emanzipieren** *vt* qurtarmaq, asılılıqdan azad etmək; *sich ~* özünü asılılıqdan azad etmək.

**Embargo,** *das; -s, -s* embarqo, ticarət qadağanlığı.

**Emblem,** *das; -s, -e* nişan, əlamət, emblem.

**Embolie,** *die; -, -n* *med.* qan damarının tutulması, amboli.

**Embryo,** *das u. der; -s, -s oder ..nen* rüşeym, embrion; nütfə.

**emeritieren** *vt (Professor)* təqaüdə göndərmək, təqaüdə çıxarmaq.

**emeritiert** *adj.* təqaüdə çıxmış.

**Emigrant,** *der; -en, -en* mühacir.

**Emigration,** *die; -, -en* mühacirət.

**emigrieren** *vt* mühacirət etmək, köçmək.

**eminent** *adj.* xeyli, çox, son dərəcə; *~ wichtig* son dərəcə *(çox)* mühüm.

**Eminenz,** *die; -, -en* **1.** *rel.* kardinal; **2.** *pol. die graue ~* mühüm rolu olan adam, nüfuzlu adam.

**Emir,** *der; -s, -e* əmir, ərəb şeyxlərinin ləqəbi.

**Emirat,** *das; -(e)s, -e* əmirlik, əmirin torpaqları.

**Emissär,** *der; -s, -e* **1.** *(Abgesandter)* elçi, nümayəndə; **2.** *(Agent)* casus, gizli vəzifəsi olan.

**Emission,** *die; -, -en* **1.** *(von Schadstoffen)* yayılma; **2.** *H* emissiya,qiymətli kağızların sərmayə bazarına buraxılması.

**Emotion,** *die; -, -en* həyəcan, ehtiras, hiss-həyəcan, ehsas, hiss, duyğu.

**emotional** *adj.* həyəcanlı, ehsasatı, emosional; *~ reagieren* hissə qapılmaq *(Süd. : ehsasatı olmaq).*

**emotionell** *adj.* həyəcanlı.

**empfahl** *s. empfehlen.*

**empfand** *s. empfinden.*

**Empfang,** *der; -(e)s, -¨e* **1.** qəbul etmə, qəbul, alma; **2.** *(von Personen)* qarşılama, qəbul, istiqbal, görüş; **3.***(Radio)* tutma; **4.** *(im Hotel)* resepsiyon; *in ~ nehmen* qəbul etmək, almaq; *den ~ bestätigen* alınmasını təsdiq etmək.

**empfangen** *vt* **1.** qəbul etmək, almaq; **2.** *(von Personen)* qarşılamaq, qəbul etmək, qabağa çıxmaq; *~ werden (Passiv)* qarşılanmaq; **3.** *(Radio)* tutmaq.

**Empfänger,** *der; -s, -* **1.** qəbul edən, alan; **2.** *techn.* qəbuledici cihaz.

**empfänglich** *adj.* **1.** *med.* tez tutan, tez düçar olan; **2.** *(zugänglich)* həssas, çox tez mütəəssir olan; tez başa düşən.

**Empfänglichkeit,** *die; -* istedad; həssaslıq, tez təsirlənmə.

**Empfängnis,** *die; -* mayalanma, döllənmə.

**Empfängnisverhütung,** *die; -* hamiləliyin qabağını alma.

**Empfängnisverhütungsmittel,** *das; -s, -* hamiləliyin qabağını alan dərman.

**Empfangsbescheinigung,** *die; -, -en* alma qəbzi.

**Empfangsdame,** *die; -, -n* qarşılama vəzifəsi olan qadın.

**Empfangstag,** *der; -(e)s, -e* qarşılama günü, görüş günü.

**Empfangszimmer,** *das; -s, -* qəbul otağı, qonaq otağı.

**empfehlen** *vt* tövsiyə etmək *(j-m et./ bir kəsə bir şeyi)*; məsləhət görmək; *sich ~* **1.** *(sich verabschieden)* vidalaşmaq, xudahafizləşmək; **2.** *(j-m)* salam-sayğı göndərmək; *~ Sie mich Ihrer Gattin* xanımınıza mənim sayğılarımı bildirin.

**empfehlenswert** *adj.* tövsiyə olunan, məsləhət görülə bilən.

**Empfehlung,** *die; -, -en* **1.** tövsiyə, təklif, təqdimat; məsləhət; **2.***(Gruß)* salam; *auf j-s ~* bir kəsin tövsiyəsinə görə.

**Empfehlungsschreiben,** *das; -s, -* təqdimat yazısı, tövsiyənamə, tövsiyə məktubu.

**empfinden** *vt* **1.** hiss etmək, duymaq, ehsas etmək; *Hunger ~* aclıq hiss etmək, ac olmaq; **2.** *(auffassen)* anlamaq, başa düşmək; *et. als Beleidigung ~* bir şeyi təhqir kimi başa düşmək.

**empfindlich** *adj.* **1.** həssas; *~ reagieren auf .. bir şeyə* həssaslıq göstərmək; **2.** *(leicht gekränkt)* tez inciyən, küsəyən, dəymədüşər; *fig. j-n an e-r ~en Stelle treffen* bir kəsin zəif *(həssas)* nöqtəsinə toxunmaq.

**Empfindlichkeit,** *die; -, -en* həssaslıq; küsəyənlik, küskünlük.

**empfindsam** *adj.* həssas, nazikürək.

**Empfindsamkeit,** *die; -* həssaslıq.

**Empfindung,** *die; -, -en* **1.***(Gefühl)* hiss, duyğu, hissiyyat; **2.***(Wahrnehmung)* hiss etmə, qavrama.

**empfindungslos** *adj.* duyğusuz, hissisiz.

**Empfindungslosigkeit,** *die; -* duyğusuzluq, hissisizlik.

**Empfindungsvermögen,** *das; -s* hiss etmə qabiliyyəti.

**empfing** *s. empfangen.*

**empfohlen** *s. empfehlen.*

**empirisch** *adj.*praktiki, təcrübi, emprik.

**Empirismus,** *der; -* praktiki, təcrübi.

**empor** *adv.* yuxarı, yuxarıya tərəf.

**emporarbeiten** *vr sich ~* özünə yol açmaq, müvəffəq olmaq.

**emporblicken** *vt* yuxarı baxmaq.

**Empore,** *die; -, -n* kilsədə balkon, eyvan, yuxarı yarus.

**empören** *vt* hirsləndirmək, acıqlandırmaq; *sich ~* **1.** hirslənmək *(über A/ -ə)*; **2.** *(revoltieren)* üsyan etmək, qiyam etmək *(gegen A/-ə qarşı).*

**empörend** *adj.* hirsləndirici; çirkin.

**Empörer,** *der; -s, -* qiyamçı, üsyançı.

**emporheben** *vt* qaldırmaq.

**emporkommen** *vi* **1.** qalxmaq, yüksəlmək; zənginləşmək; **2.** meydana çıxmaq.

**Emporkömmling,** *der; -s, -e* bambılı, sonradan görən, görməmiş.

**emporragen** *vi* yüksəlmək, qalxmaq.

**emporschießen** *vi* **1.** birdən-birə meydana çıxmaq; **2.** *(wachsen)* boy atmaq, böyümək.

**emporschnellen** *vi* yerindən sıçramaq, yerindən tullanmaq.

**emporsteigen** *vi* **1.** yuxarı çıxmaq; **2.** *fig.* yüksəlmək.

**empört** *adj.* hiddətlənmiş, özündən çıxmış, hirslənmiş *(über A, wegen G/-ə).*

**Empörung,** *die; -, -en* **1.** *nur sg.* hirslənmə, hiddət, qəzəb; **2.** *(Revolte)* üsyan, tüğyan; *~ auslösen* tüğyan qoparmaq.

**emsig** *adj.***1.** *(fleißig)* çalışqan; **2.** *(tätig)* fəal, səy göstərən, səyli; işbaz.

**Emsigkeit,** *die; -* çalışqanlıq.

**Emulsion,** *die; -, -en* emulsiya.

**en bloc** *adv.* topdan.

**Endbetrag,** *der; -(e)s, -¨e* yekun, cəm.

**Endbuchstabe,** *der; -n, -n* sonuncu hərf.

**Ende,** *das; -s, -n* **1.** son, axır; aqibət, əncam, xatimə; dib; **2.** *(Spitze)* uc; **3.** *(Seite)* tərəf, yan; **4.** *(schließlich)* nəhayət, ən axırı; *am ~* nəhayət, axırda, əvvəl-axır; *veralt.* əlhasil; **5.** *(vielleicht)* bəlkə; **6.** *am ~ sein* gücdən düşmək; *es geht mit ihm zu ~* o, ölür, əcəli gəlir; *letzten ~s* nəhayət, nəticədə, axırda; *zu ~ gehen* qurtulmaq, sona çatmaq, bitmək; *ein ~ machen / setzen* qurtarmaq, bitirmək, son qoymaq *(D/-ə)*; *kein ~ nehmen* sona *(başa)* çatmamaq, qurtarmamaq; *das dicke ~ kommt noch* çətini hələ qabaqdadır *(qarşıdadır); fig. das ~ vom Lied* işin sonu; *zu ~ gehen* başa gəlmək, bitmək; *Spr. Unrecht kann kein gutes ~ haben!* zülmün aqibəti olmaz!.

**Endeffekt,** *der : im ~* sonunda, axırda, son təhlildə.

**endemisch** *adj. (Krankheit)* endemik, müəyyən bir yerə xas olan xəstəlik.

**enden** *vi* **1.** qurtulmaq, sona çatmaq, başa çatmaq, bitmək, nəticələnmək, varmaq, çatmaq *(mit D/ilə)*;**2.***(aufhören)* qurtarmaq, kəsilmək; *nicht ~ wollend* qurtulmaz, sonsuz, tükənməz.

**Endergebnis,** *das; -ses, -se* son nəticə.

**endgültig** *adj.* qəti, son və qəti; *adv.* qəti olaraq, kəsinliklə; *das steht ~ fest* bu daha qətidir.

**Endhaltestelle,** *die; -, -n* son dayanacaq.

**endigen** *s. enden.*

**endlich** *adj.* son, sonuncu, axırıncı; axır; *adv.* nəhayət, axırda, əvvəl-axır; *F* baba; gəlhagəl; *veralt.* əlhasil, əlqərəz, əlqissə; *F komm ~!/ komm doch!* gəl baba!.

**endlos** *adj.* sonsuz, ucsuz-bucaqsız, geniş, əngin, açıq.

**Endlosigkeit,** *die; -* sonsuzluq, nəhayətsizlik.

**endogen** *adj.* içərisindən gələn, daxili.

**Endphase,** *die; -, -n* son mərhələdə.

**Endrunde,** *die; -, -n Sport* finalda, son dövrdə, son əldə, son yarışda.

**Endsieg,** *der; -(e)s ( bes. nationalsozialistisch)* son qələbə.

**Endspiel,** *das; -(e)s, -e* final, endşpil.

**Endstation,** *die; -, -en* son dayanacaq yeri.

**Endung,** *die; -, -en gr.* sonluq.

**Endursache,** *die; -, -en* əsas səbəb, birinci səbəb.

**Endverbraucher,** *der; -s, -* mal alan, müştəri.

**Endziel,** *das; -(e)s, -e* son məqsəd.

**Energie,** *die; -, -n* enerji, energiya.

**Energiekrise,** *die; -, -n* enerji böhranı.

**energielos** *adj.* enerjisiz.

**Energiewirtschaft,** *die; -* enerji təsərrüfatı.

**energisch** *adj.* **1.** iradəli, səyli, fəal, güclü; **2.** *(entschlossen)* qəti, cəsarətli.

**eng** *adj.* **1.** dar, ensiz; tutumsuz; *~er Weg* dar yol; **2.** *(nahe)* yaxın; **3.** *(Kleid)* sıx, kip, dar; **4.** *(Freund)* səmimi, yaxın; *~e Beziehungen* sıx əlaqə; *~er machen vt* daraltmaq, darlaşdırmaq; *zu ~ sein* dar gəlmək; *e-n ~en Horizont haben* dargörüşlü olmaq; *sehr ~* daram, çox dar, darısqal; *~er werden* ensizləşmək, daralmaq.

**Engagement,** *das; -s* öhdəçilik boynuna götürmə, təəhhüd; cəhd.

**engagieren** *vt* öhdəçilik qəbul etmək, qulluğa qəbul etmək; *sich ~* təəhhüd altına girmək, öhdəsinə götürmək, işə götürmək, tərəfində durmaq, cəhd

göstərmək.

**engagiert** *adj.* öhdəçilik qəbul etmiş, təəhhüd altına girmiş.

**Enge,** *die; -* **1.** *nur sg.* darısqallıq; sıxlıq, ensizlik; **2.** *(Engpass)* dərə, dar keçid; boğaz; **3.** *nur sg. (Bedrängnis)* sıxıntı; *in die ~ treiben* sıxmaq, sıxma-boğmaya salmaq, sıxışdırmaq.

**Engel,** *der; -s, -* Mələikə.

**engelhaft** *adj.* mələikə kimi.

**Engelsgeduld,** *die; -* Əyyub səbri, səbri Əyyub.

**engherzig** *adj.* **1.**dardüşüncəli, dargörüşlü; **2.** *(kleinlich)* xəsis.

**England;** *-s* İngiltərə *(Süd. : a. İngilistan).*

**Engländer,** *der; -s, -* ingilis.

**Engländerin,** *die; -, -nen* ingilis*(qadın).*

**englisch** *adj.* ingilis.

**Englisch,** *das; -(s) (Sprache)* ingilis dili.

**Engpass,** *der; -es, -¨e* **1.** dərə, dar dərə, boğaz, dərbənd; *F* dərkal; **2.** *(Mangel)* sıxıntı, çatmama, olmama.

**en gros** *adv.* topdan*(satış).*

**engstirnig** *adj.* dardüşüncəli, dargörüşlü.

**Engstirnigkeit,** *die; -* dardüşüncəlilik.

**Enkel,** *der; -s, -* nəvə.

**Enkelin,** *die; -, -nen* nəvə *(qız).*

**Enkelkind,** *das; -(e)s, -er* nəvə.

**Enklave,** *die; -, -n* bir dövlətin ərazisində yerləşən, lakin başqa bir dövlətə aid olan bölgə; anklav.

**enorm** *adj.* çox böyük, nəhəng; xeyli.

**en passant** *adv. (nebenbei)* yeri gəlmişkən, sözarası.

**Ensemble,** *das; -s, -s* *Th.* ansambl, orkestr və ya teatr qrupu; qrup.

**entarten** *vi* nəsli pozulmaq, xarab olmaq, korlanmaq.

**Entartung,** *die; -, -en* nəslin pozulması, nəslin xarab olması, xəstələnmə.

**entäußern** *vr* *sich e-r Sache ~* bir şeydən vaz keçmək, bir şeydən imtina etmək.

**entbehren** *vt* **1.** *(nicht haben)* bir şeydən məhrum qalmaq; *fig. -dən* əli kəsilmək; **2.** *(vermissen)* yoxluğunu hiss etmək; *~ können* *-dən* vaz keçmək, əl çəkmək, *-ə* möhtac olmamaq, *bir şeysiz* edə bilmək.

**entbehrlich** *adj.* lazımsız, gərəksiz, artıq.

**Entbehrung,** *die; -, -en* məhrumiyyət, yoxluq, yoxsulluq, ehtiyac, məhrum olma.

**entbehrungsreich** *adj.* məhrumiyyətlə *(yoxsulluqla)* dolu.

**entbieten** *vt* *(Grüße usw.)* göndərmək, çatdırmaq, bildirmək *(j-m/b-ə).*

**entbinden** *vt* **1.** *(von e-r Verpflichtung)* azad etmək; **2.** *(e-e Frau)* doğmaq; *von e-m Kind entbunden werden* uşaq doğmaq, dünyaya gətirmək; *vi (niederkommen)* doğurtmaq, doğmaqda kömək etmək, uşaq tutmaq.

**Entbindung,** *die; -, -en* doğuş, doğum; azad etmə.

**Entbindungsstation,** *die; -, -en* doğum evi, doğum şöbəsi *(xəstəxanada).*

**Erleuchtung,** *die; -, -en* işıqlandırma, aydınlatma; *fig.* ilham; *(Idee)*ani bir fikir.

**erliegen** *vi* **1.** *(e-r Krankheit, usw.)* ölmək *(D/ -dən)*; **2.***(e-r Verlockung, e-r Begierde)* qurbanı olmaq; məğlub olmaq; *zum Erliegen kommen* durmaq, hərəkətdən dayanmaq; *zum Erliegen bringen* dayandırmaq.

**erlogen** *adj.* yalan.

**Erlös,** *der; -es, -e* gəlir, qazanc, mədaxil.

**erloschen** *adj.(Vulkan)* sönmüş, sönük, fəaliyyətdən qalmış.

**erlöschen** *vi* **1.** sönmək, keçmək; **2.** *(enden)* bitmək, sona çatmaq; xitam; **3.** *(ungültig werden)* güçünü itirmək; **4.** *(Firma)* bağlanmaq, tətil olmaq, fəaliyyətini dayandırmaq, işləməmək.

**erlösen** *vt* dadına çatmaq, xilas etmək, qurtarmaq, nicat vermək *(aus, von D/-dən); erlöst werden* nicat tapmaq.

**Erlöser,** *der; -s, -* xilas edən, qurtaran, xilaskar.

**Erlösung,** *die; -* qurtuluş, xilas olma, xilas edilmə, nicat.

**ermächtigen** *vt* səlahiyyət vermək, yetki vermək, ixtiyar vermək, vəkil etmək *(zu D/ bir şey üçün, bir şeyə )*.

**Ermächtigung,** *die; -, -en* səlahiyyət, yetki, icazə, vəkalət; vəkalətnamə.

**ermahnen** *vt* **1.** xatırlatmaq, xəbərdar etmək; öyüd vermək, nəsihət etmək; **2.** *(zu et.)* bir şeyə təşviq etmək.

**Ermahnung,** *die; -, -en* *(Warnung)* xəbərdarlıq.

**ermangeln** *vi* *(e-r Sache)* çatmamaq, bir şeyə malik olmamaq.

**Ermangelung,** *die; - in ~ G* ..olmadığından, olmadığı üçün, çatışmazlıqdan.

**ermäßigen** *vt* aşağı salmaq, endirmək, azaltmaq, əksiltmək; ucuzlaşdırmaq.

**Ermäßigung,** *die; -, -en* əksilmə, azaldılma, aşağı salma, güzəşt; ucuzlaşma, ucuzlaşdırma, endirim.

**ermatten** *vt* yormaq, zəifləşdirmək; *vi* yorulmaq, ruhdan düşmək*(von D/-dən)*.

**Ermattung,** *die; -* yorulma, üzülmə, əzginlik, ruh düşkünlüyü, yorğunluq.

**ermessen** *vt* **1.** *(erwägen)* götür-qoy etmək, ölçüb-biçmək, fikirləşmək; **2.** dəyərləndirmək; **3.** *(verstehen)* düşünmək, anlamaq.

**Ermessen,** *das; -s* fikir, qərar; mülahizə; *nach j-s ~* bir kəsin rəyinə görə, bir kəsin qərarına görə; *nach eigenem ~* öz rəyinə görə; *nach menschlichem ~* insanın fikri çatana qədər.

**ermitteln** *vt* **1.** axtarıb tapmaq, meydana çıxarmaq; **2.** *jur.* araşdırmaq, təhqiq etmək.

**Ermittlung,** *die; -, -en* araşdırma, axtarma; əldə edilmə; *pl.* təhqiqat; *~en anstellen (über A/* haqqında təhqiqat aparmaq).

**Ermittlungsverfahren,** *das; -s, - jur.* təhqiqat aparma, sorğu-sual, dindirmə, istintaq.

**ermöglichen** *vt* mümkün etmək, imkan

yaratmaq; *j-m ~, et. zu tun* kimsəyə imkanlar yaradmaq .

**ermorden** *vt* öldürmək, məhv etmək, adam öldürmək.

**Ermordung,** *die; -* qətl, adam öldürmə.

**ermüden** *vt* yormaq; *vi* yorulmaq, əldən salmaq, tabdan düşmək, əhədi kəsilmək, əldən düşmək.

**ermüdend** *adj.* yorucu, üzücü.

**Ermüdung,** *die; -* yorğunluq, üzgünlük.

**ermuntern** *vt* təşviq etmək, ürək vermək, ürəkləndirmək, ruhlandırmaq, rəğbətləndirmək.

**ermunternd** *adj.* təşviqedici, qol-qanadverici, ruhlandırıcı, ürəkləndirici, həvəsləndirici, şirnikdirici.

**Ermunterung,** *die; -, -en* təşviq etmə, qol-qanad vermə, həvəsləndirmə, rəğbətləndirmə.

**ermutigen** *vt* ürək vermək, qol-qanad vermək, ruhlandırmaq, cəsarətləndirmək, həvəsləndirmək.

**ermutigend** *adj.*ürəkverici, ürəkləndirici.

**Ermutigung,** *die; -, -en* ürək vermə, təşviq, ruhlandırma.

**ernähren** *vt* **1.** yedirtmək; **2.** *(erhalten)* saxlamaq, çörək vermək,dolandırmaq, çörəkləmək; *e-e Familie ~* ailə dolandırmaq; *vi sich ~* yemək *(von D/-dən);...*ilə keçinmək, dolanmaq.

**Ernährer,** *der; -s, -* ailə başçısı, ailəni dolandıran.

**Ernährung,** *die; -* **1.** yedirtmə; **2.** *(Nahrung)* yemək, xörək, qida.

**ernennen** *vt* təyin etmək *(zu D/bir vəzifəyə); ernannt werden* seçilmək.

**Ernennung,** *die; -, -en* təyin edilmə, seçilmə.

**erneuern** *vt* **1.** təzələmək, yeniləmək; dəyişdirmək; **2.** *(wiederholen)* təkrar etmək; ehya etmək; *erneuert werden* yenilənmək, təzələnmək; *vr sich ~* təzələnmək, yenilənmək, özünü təzələmək.

**Erneuerung,** *die; -, -en* təzələ(n)mə; yenilə(n)mə, ehya.

**erneut** *adj.* təzədən, yenidən.

**erniedrigen** *vt* alçaltmaq, hörmətdən salmaq, təhqir etmək; *vr sich ~* özünü kiçik tutmaq, alçaltmaq, ləyaqətini itirmək; *fig.* özünü əskiltmək.

**erniedrigend** *adj.* təhqir edici.

**Erniedrigung,** *die; -, -en* hörmətdən salma, təhqir, alçaltma, həqarət.

**Ernst,** *der; -es* **1.** ciddilik, ciddiyyət; **2.** *(Gefährlichkeit)* qorxulu, təhlükəli; *der Zustand des Patienten ist ~* xəstənin durumu *(veziyyəti)* çox təhlükəlidir; *~ machen mit D* ciddi olmaq, zarafat etməmək; *im ~* ciddiyyətlə, tamamilə ciddi; ciddi olaraq; *ist das dein ~?* ciddi deyirsən?

**ernst** *adj.* ciddi; sərt; *ich meine es ~!* ciddi deyirəm; *~ werden* ciddiləşmək.

**Ernstfall,** *der; -(e)s* ciddi vəziyyət; qorxulu vəziyyət; *im ~* ciddi bir vəziyyətdə.

**ernsthaft** *adj.* ciddi; sərt; mətin; *adv.* ciddən.

**Ernsthaftigkeit,** *die; -* ciddiyyət, ciddilik.

**ernstlich** *adj.* ciddi, ciddi şəkildə; *adv.* ciddən; *~ krank sein* ciddi bir xəstəliyi olmaq.

**Ernte,** *die; -, -n* **1.**məhsul yığımı; biçin, çalın, əkin; **2.** *(Ertrag)* məhsul, hasil.

**ernten** *vt* məhsul yığmaq *(toplamaq); fig.* qazanmaq, əldə etmək; *wer Wind sät, wird Sturm ~* başqasına quyu qazan özü düşər.

**ernüchtern** *vt* ayıltmaq; *fig.* ağlını başına gətirmək.

**Ernüchterung,** *die, -, -en* ağlı başına gəlmə, ayıl(t)ma.

**Eroberer,** *der; -s, -* işğalçı, qəsbkar; fateh, istilaçı.

**erobern** *vt* işğal etmək, zəbt etmək, qəsb etmək, istila eləmək, fəth etmək.

**Eroberung,** *die; -, -en* işğal; istila, fəth qəsbkarlıq.

**Eroberungskrieg,** *der; -(e)s, -e* işğalçılıq *(qəsbkarlıq)* müharibəsi.

**erodieren** *vt* torpağını yuyub aparmaq, yuyub aparmaq.

**eröffnen** *vt* **1.** açmaq; *ein Konto bei der*

*Bank* ~ bankda hesab açmaq; **2.** bildirmək, xəbər vermək *(j-m/ bir kəsə); vr sich ~ (Aussichten, Möglichkeiten)* mümkün olmaq, meydana çıxmaq.

**Eröffnung,** *die; -* açılış, başlanğıc.

**Eröffnungsansprache,** *die; -, -n* açılış sözü, giriş sözü.

**Eröffnungsfeier,** *die; -, -n* təntənəli açılış, açılış mərasimi.

**erörtern** *vt* müzakirə etmək.

**Erörterung,** *die; -, -en* müzakirə, görüşüb bir şeyi danışma *(aydınlaşdırma),* müzakirəyə qoyulma.

**Eros**[1] eşq Tanrısı.

**Eros**[2]**,** *der; -* cinsi eşq, cinsi həyəcan.

**Erosion,** *die; -, -en* aşınma, eroziya.

**Erotika,** *die; -* eşq həyatı, erotizm, şəhvani hisslər ifadə edən.

**erotisch** *adj.* şəhvani, erotik.

**Erpel,** *der; -s, -* yaşılbaş, erkək ördək.

**erpicht** *adj. ~ sein auf (A)* bir şeyə həris olma, düşgün olma.

**erpressen** *vt* zorla almaq; zorla *(təhdid ilə)* etdirmək; *ein erpresstes Geständnis* zorla *(təhdid ilə)* alınmış etiraf.

**Erpresser,** *der; -s, -* zorla alan, şantajçı.

**erpresserisch** *adj.* hədə ilə, zorla, şantaj yolu ilə.

**Erpressung,** *die; -, -en* zorakılıq, şantaj, zorla alma, hədə-qorxu.

**erproben** *vt* yoxlamaq, sınamaq; *erprobt sein* sınaqdan çıxmaq.

**erprobt** *adj. ~es Mittel* yoxlanmış dərman.

**Erprobung,** *die; -, -en* yoxlama, sınaq.

**erquicken** *vt* yorğunluğunu almaq, təzələmək; *sich mit e-m kühlen Getränk ~* sərin içəcək ilə yorğunluğunu almaq.

**erquicklich** *adj.* ləzzət verici, sevindirici, ürəkaçan, şadlandırıcı.

**Erquickung,** *die; -* təzələ(n)mə, sərinləşmə.

**erraten** *vt* təxmin etmək; tapmaq; duymaq; *das können Sie nie ~* bunu heç bir vaxt tapanmasınız.

**errechnen** *vt* hesablamaq.

**erregbar** *adj.* tez əsəbiləşən, əsəbi.

**Erregbarkeit,** *die; -* tündməcazlıq, əsəbilik; həyəcanlanma qabiliyyəti.

**erregen** *vt* **1.** həyəcana gətirmək; **2.** *(erwecken)* təhrik etmək, həyəcanlandırmaq; **3.** *(Gefühle)* oyatmaq, coşdurmaq, törətmək; **4.** *(verursachen)* səbəb olmaq; *vr sich ~* həyəcanlanmaq.

**erregend** *adj.* həyəcanlaşdırıcı, həyəcanlı.

**Erreger,** *der; -s, - med.* törədici, virus, mikrob.

**erregt** *adj.* həyəcanlı, coşğun.

**Erregung,** *die; -* həyəcan, həvəs, təhrik, coşğunluq.

**erreichbar** *adj.* əldə edilə bilən, əlçatar, əlçatan, mümkün olan; *~ sein* əl altında olmaq, əl çatmaq.

**erreichen** *vt* **1.** çatmaq, nail olmaq, ermək, erişmək, yetişmək, vasil olmaq, ələ keçirmək, irişmək, yetirmək; **2.** *(Zug usw.)* yetişmək, gəlib-çatmaq; **3.** *(erlangen)* əldə etmək;**4.***(telefonisch)* tapmaq; **5.** *(Zweck)* yetişmək, çatmaq, ələ gətirmək; *F (das Alter)* dolmaq; *et. ~* nəticə əldə etmək; *~ lassen* çatdırmaq.

**erretten** *vt* xilas etmək, qurtarmaq *(aus D; von, vor D/-dən).*

**Errettung,** *die; -* qurtuluş, xilas ol(un)ma, xilas etmə.

**errichten** *vt* **1.** *(bauen)* tikmək; **2.** *(gründen)* qurmaq; düzəltmək, yaratmaq, bərqərar etmək; *sich ein Haus ~* ev-eşik düzəltmək; *errichtet werden* düzəlmək, bərpa olmaq, qurulmaq; *fig.* dikəlmək.

**Errichtung,** *die; -* tikmə, qurğu; qur(ul)ma, yaratma, düzəl(t)mə.

**erringen** *vt* nail olmaq, bir şeyi çətinliklə əldə etmək; *e-n Erfolg ~* müvəffəq olmaq.

**erröten** *vi* qızarmaq; *vor Verlegenheit ~* utandığından qızarmaq.

**Errungenschaft,** *die; -, -en* nailiyyət, uğur, müvəffəqiyyət.

**Ersatz,** *der; -es* **1.** əvəz, bədəl, *-in* yerinə; bərabər; **2.** *(Entschädigung)* ziyanın əvəzi, ziyanı ödəmə; **3.** *mil.* əlavə qoşun; **4.** *(Ersatzmittel)* yedək, ehtiyat hissə; **5.** *Sport* ehtiyat oyunçu; *als ~* ye-

rinə, əvəzinə.

**Ersatzanspruch,** *der; -(e)s, -¨e jur.* ziyanın əvəzini alma haqqı, təzminat tələbi.

**Ersatzdienst,** *der; -(e)s* əsgərlik yerinə edilən ictimai xidmət.

**Ersatzmann,** *der; -(e)s, -¨er u. -leute* **1.** müavin, əvəz; **2.***(Sport)* ehtiyat oyunçu.

**Ersatzmittel,** *das; -s, -* əvəz.

**Ersatzrad,** *das; -(e)s, -¨er* yedək təkər.

**Ersatzreifen,** *der; -s, -* yedək təkər, yedək çənbəri.

**Ersatzschlauch,** *der; -(e)s, -¨e* ehtiyat şlanq *(xortum)*, yedək lastik.

**Ersatzteil,** *das u. der; -(e)s, -e* yedək.

**ersaufen** *vt* qərq olmaq, batmaq, suda boğulmaq.

**ersäufen** *vt* qərq etmək, batırmaq, suda boğmaq.

**erschaffen** *vt* yaratmaq.

**Erschaffung,** *die; -* yaratma.

**erschallen** *vi* eşidilmək; səslənmək, danqıldamaq, dıqqıldamaq.

**erschaudern** *vi* diskinmək; qorxmaq.

**erscheinen** *vi* **1.** görünmək, ariz olmaq, büruz etmək; **2.** *(Zeitung usw.)* çıxmaq; **3.** *(in e-r Zeitung)* yazılmaq; **3.** *(vor Gericht)* gəlmək, hazır olmaq.

**Erscheinung,** *die; -, -en* **1.** *(Äußeres)* zahir, xarici görünüş, sifət; **2.** *(Geistererscheinung)* cin, pəri; **3.** *(Phantom)* kabus, qarabasma; **3.** *(Naturerscheinung)* hadisə, başvermə, fenomen; **4.** *(Symptom)* əlamət, nişanə; **5.** *(Zeitung usw.)* çapdan çıxma; *in ~ treten* görünmək, büruzə çıxmaq.

**Erscheinigungsjahr,** *das; -s, -e* çap ili.

**Erscheinigungsort,** *der; -s, -e* çap yeri.

**erschießen** *vt* güllələmək; *fig. F erschossen sein* çox yorğun olmaq.

**Erschießung,** *die; -, -en* güllələmə.

**erschlaffen** *vi* yorulmaq, gücdən düşmək, zəifləmək.

**erschlagen***vt* vurub öldürmək;*fig.~ sein* çox yorğun olmaq, taqətdən düşmək.

**erschleichen** *vt* aldadıb almaq.

**erschließen** *vt* **1.** *(Markt)* açmaq; **2.***(Gegend)* yol açmaq; **3.** *(Baugelände)* istifadə etməyə hazırlamaq;**4.***(durch Schlussfolgerung feststellen)* nəticə almaq.

**Erschließung,** *die; -, -en* istifadə üçün hazırlama; açma, açılma.

**erschöpfen** *vt* **1.** qurtarmaq, tükətmək, dibinə daş atmaq, tükəndirmək; **2.** *(ermüden)* yormaq, gücdən salmaq, tabdan salmaq, dildən salmaq; dayandırmaq, haldan salmaq; **3.** *(Thema)* ətraflı araşdırmaq; *vr sich ~* qurtulmaq *(in D/-ilə)*; *erschöpft sein* taqətdən düşmək, haldan düşmək; *meine Geduld ist erschöpft* səbrim tükənib.

**erschöpft** *adj.* yorğun, ölümcül, taqətsiz, üzgün, əzgin, arğın, yorğun-arğın, əzgin-üzgün, halsız; *~ sein* taqətdən düşmək, tabdan düşmək, cılız-vılız olmaq, əldən düşmək, dildən düşmək, əhədi kəsilmək, əhədi üzülmək; düşkünləşmək, əl-ayaqdan düşmək, əzginləşmək, haldan düşmək, heydən düşmək *(kəsilmək)*; *F* dayanmaq, həlak olmaq; *ich bin völlig ~* işləməkdən dayanmışam, heydən düşmüşəm, heyim qalmayıb, həlak olmuşam.

**Erschöpfung,** *die; -* qurtulma, tükənmə; yorğunluq, taqətsizlik, üzgünlük, düşkünlük, əzginlik, heydən düşmə.

**erschrak** *s. erschrecken.*

**erschrecken** *vt* qorxutmaq; hürkütmək, diskindirmək; *vi (über A -dən)* qorxmaq, diksinmək, ürkmək, hürkmək; *sich zu Tode ~* bağrı çatlamaq; *erschreckt sein* diksinmək,qorxmaq, hürkmək, ürkmək; *erschrick nicht!* qorxma!.

**erschreckend** *adj.* qorxulu, dəhşətli.

**erschüttern** *vt* tərpətmək, lərzəyə gətirmək, silkələmək; *fig.* sarsıtmaq.

**erschütternd** *adj.* kədərli, çox kədərləndirən, trajik.

**Erschütterung,** *die; -, -en* **1.** sarsıntı, sarsı(t)ma; zəlzələ; **2.** kədər, üzüntü.

**erschweren** *vt* çətinləşdirmək, mürəkkəbləşdirmək, axsatmaq, buruqdurmaq, ağırlatmaq.

**erschwerend** *adj.* çətinləşdirən, ağırlaşdırıcı; zəhmətli; *das kommt ~ hizu* bu, vəziyyəti daha da ağırlaşdırır.

**Erschwernis,** *die; -, -se* çətinlik, gir.

**Erschwerung,** *die; -* *(schwieriger machen)* çətinləşdirmə, əngəl yaratma; mürəkkəbləşmə.

**erschwindeln** *vt* aldadıb almaq, fırıldaqla almaq.

**erschwingen** *vt* zəhmətlə əldə etmək, çox pul ilə almaq, bahalı bir şey almaq.

**erschwinglich** *adj.* münasib, ucuz; *adv.* ucuzca; *~e Preise* münasib qiymətlər.

**ersehen** *vt* görmək, anlamaq, nəticə almaq; *(aus D/-dən)*; *daraus ist zu ~, dass..* buradan belə görünür ki.., buradan belə nəticə alınır ki.

**ersehnen** *vt* çox arzu etmək, həsrətini çəkmək, canı istəmək.

**ersetzbar** *adj.* əvəz oluna bilən.

**ersetzen** *vt* **1.** yerini tutmaq, əvəz etmək, dəyişmək, əvəzləmək; **2.** *(ausgleichen)* təlafi etmək, əvəzini çıxmaq; **3.** *(j-m et.)* zərər və ziyanı ödəmək, bir zərərin müəyyən qarşılığını almaq.

**Ersetzung,** *die; -* yerini tutma, əvəz etmə, dəyişmə; zərəri ödəmə, bir zərərin müəyyən qarşılığını alma.

**ersichtlich** *adj.* görünən, bəlli, aşkar, aydın; *ohne ~en Grund* bəlli olmayan bir səbəbdən; *daraus wird ~, dass* bundan görünür ki, bundan bəlli olur ki.

**ersinnen** *vt* özündən düzəltmək, uydurmaq, toxumaq; *e-e Lüge ~* yalan düzəltmək.

**erspähen** *vt* axtarıb görmək, güdmək *ein Wild ~* ovu güdüb görmək.

**ersparen** *vt* **1.** *(Geld)* qənaət etmək; **2.** *(j-m et.)* əsirgəmək, bir kəsi bir şeydən azad etmək; *~ Sie sich die Mühe!* özünüzü zəhmətə salmayın!

**Ersparnis,** *die; -, -se* **1.** *(Geld)* qənaət edib yığılmış pul; **2.** *(Einsparung)* qənaət, ehtiyat.

**ersprießlich** *adj.* əlverişli, xeyirli.

**erst**[1] *adv.* **1.** *(zuerst)* qabaqca, əvvəlcə, əvvəllər; hər şeydən qabaq; **2.** *(nur)* ancaq, yalnız; hələ; *er ist ~ 3 Jahre alt* o, hələ 3 yaşındadır; *~ jetzt* ancaq indi; *~ recht* hələ; məhz, o ki qaldı ..; inadına.

**erst**[2] *adj.* birinci, ilk; əvvəlcə; *in ~er Linie* başda, ilk növbədə, hər şeydən qabaq.

**erstarken** *vi* möhkəmlənmək, bərkimək, güclənmək.

**erstarren** *vi* **1.** *(Zement, Gips)* bərkimək; **2.** *(vor Kälte)* donmaq; **3.** *(vor Schreck)* donub qalmaq, mat qalmaq, daşa dönmək, donuxmaq, dovuxmaq.

**Erstarrung,** *die; -* bərkimə; donma; mat olma, daşa dönmə, dovuxma.

**erstatten** *vt* vermək; *Unkosten ~* xərci ödəmək, xərcini vermək; *e-e Anzeige bei der Polizei ~* polisə şikayət etmək; *Bericht ~* xəbər vermək, məlumat vermək; *e-n Besuch ~* baş çəkmək, rəsmi görüşünə getmək.

**Erstattung,** *die; -, -en* vermə, ödəmə.

**Erstaufführung,** *die; -, -en* ilk tamaşa.

**Erstauflage,** *die; -, -n* ilk çap.

**erstaunen** *vi* heyrətlənmək, təəccüblənmək, gözləri çanaqından çıxmaq; *vt* heyrətləndirmək, təəccübləndirmək.

**Erstaunen,** *das; -s* heyrət, təəccüb.

**erstaunlich** *adj.* qəribə, heyrətləndirici, təəccüblü, heyrətamiz, əcəb.

**erstaunt** *adj. ~ sein* heyrət etmək, böht içində qalmaq, təəccüb etmək, mat qalmaq *(über A/-ə).*

**Erstausgabe,** *die; -, -n* ilk çap.

**erste** *adj.* birinci, ilk, əvvəlki; *der Erste des Monats* ayın birinci günü, ayın biri; *zum ~n Mal* ilk dəfə; *als Erste(r)* birinci *(ilk)* olaraq; *Erste Hilfe* ilk *(əvvəlki)* yardım; *Erster Klasse fahren* birinci dərəcəli qatarla getmək.

**erstechen** *vt* bıçaqla vurub öldürmək.

**erstehen** *vt* almaq, satın almaq; *vi* **1.** *(Unannehmlichkeiten usw.)* törəmək, əmələ gəlmək; **2.**yenidən tikilmək, yenidən qurulmaq; *das zerstörte Schloss erstand wieder in alter Pracht* xaraba qalmış saray yenidən ziynət ilə tikildi.

**Erstehilfekasten,** *der; -s, -¨en* aptekçə.

**ersteigen** *vt* çıxmaq, dırmaşmaq.

**ersteigern** *vt* hərrac vasitəsilə almaq.

**Ersteigerung,** *die; -* hərracda alma.

**erstellen** *vt* hazırlamaq, qayırmaq; tikmək.

**erste Mal** : *s. Mal*

**erstens** *adv.* birinci*(si),* ilk öncə, başlıca, əvvələn, əvvəla, əvvəlcəsinə.

**ersterben** *vi* **1.** *(Flamme)* yavaş-yavaş sönmək; **2.** yavaş-yavaş ölmək; donub qalmaq; quruyub qalmaq.

**erstgeboren** *adj.* ilkin doğulmuş, ilk *(uşaq)*.

**Erstgeburtsrecht,** *das; -(e)s* ilklikhaqqı.

**erstgenannt** *adj.* adı çəkilən, yuxarıda deyilən.

**ersticken** *vt* **1.** boğmaq, xəfələmək; **2.** *(Feuer)*söndürmək; *vi* boğulmaq, xəfələnmək; *fig. in Arbeit ~* baş qaşımağa vaxt tapa bilməmək.

**erstickend** *adj.* boğucu.

**Erstickung,** *die; -* boğulma.

**Erstickungsgefahr,** *die; -* boğulma təhlükəsi.

**erstklassig** *adj.* birinci dərəcəli, əla.

**erstmalig** *adj.* birinci; *adv.*ilk dəfə olan.

**erstmals** *adv.* ilk dəfə, birinci dəfə olaraq.

**erstrangig** *adj.* birinci dərəcəli, ümdə; təxirəsalınmaz, təxirsiz.

**erstrahlen** *vi* parlamaq.

**erstreben** *vt* bir şeyə nail olmağa çalışmaq, əldə etməyə çalışmaq.

**erstrebenswert** *adj.* zəhmətinə dəyər, əldə etməyinə dəyər.

**erstrecken** *vr sich ~* **1.** uzanmaq *(bis an A; bis zu D/-ə qədər);* **2.** *fig. (auf)* bir şeyə şamil olmaq, aid olmaq.

**erstreiten** *vt* savaşaraq əldə etmək, mübarizə yolu ilə əldə etmək.

**Erstreckung,** *die; -* uzanış, uzanıq.

**erstürmen** *vt* hücumla tutmaq.

**ersuchen** *vt -dən* xahiş etmək, rica etmək *(um A/ bir şey üçün, -ə görə).*

**Ersuchen,** *das; -s, -* xahiş, ərizə; *auf ~ von -in* ərizəsi ilə, *- in* xahişi ilə, *-in* xahişinə görə.

**ertappen** *vt* qəflətən tutmaq, girləmək, üstünə çıxmaq; suç üstündə tutmaq; *j-n bei e-r Lüge ~* yalanını tutmaq; *sich ~ lassen* yaxa ələ vərmək, yaxalanmaq.

**ertauben** *vi* kar olmaq.

**Ertaubung,** *die; -* kar olma.

**erteilen** *vt* vermək *(D/bir kəsə); j-m e-n Befehl ~* bir kəsə fərman vermək; *das Wort ~* söz vermək *(danışmağa).*

**Erteilung,** *die; -* vermə.

**ertönen** *vi* səslənmək, eşidilmək, dillənmək; dıqqıldamaq; *~ lassen* dilləndirmək.

**ertöten** *vi (Gefühle, Regungen)* öldürmək, yatırtmaq.

**Ertrag,** *der; -(e)s, -¨e* **1.** məhsul, hasil; hasilat *pl.*; **2.***(Einnahmen)* gəlir, qazanc, mənfəət.

**ertragen** *vt* **1.** dözmək, tab gətirmək, təhəmmül etmək, davam gətirmək; **2.** *(leiden)* çəkmək; *nicht zu ~* dözülməz, təhəmmül edilməzdir.

**erträglich** *adj.* dözülə bilən, babat.

**ertraglos** *adj.* qeyri-məhsuldar; gəlirsiz.

**ertragreich** *adj.* gəlirli; çox qazanc verən, məhsuldar, mənfəətli, barlı; *(Getreidefeld)* dənli.

**ertränken** *vt* suda boğmaq, xəfələmək; *vr sich ~* özünü suda boğmaq.

**erträumen** *vt : sich (D) ~* xəyal etmək, röyasını görmək.

**ertrinken** *vi* suda boğulmaq; boğulmaq.

**Ertrinkende,** *der u. die; -n, -n* boğulan.

**ertrotzen** *vt* inadla ələ keçirmək, israrla almaq *(von D/-dən).*

**ertrug** *s. ertragen.*

**Ertrunkene,** *der u. die; -n, -n* suda boğulmuş adam.

**ertüchtigen** *vt* gücləndirmək, sağaltmaq.

**Ertüchtigung,** *die; -* gücləndirmə, sağaltma; *körperliche ~* bədən sağlamlığı, bədəni gücləndirmə.

**erübrigen** *vt* **1.** *(Zeit)* vaxt tapmaq; *für j-n Zeit ~* kiməsə vaxt ayırmaq; **2.** *(Geld)* yığmaq, qənaət etmək; *vr sich ~* artıq olmaq, gərəksiz olmaq.

**eruieren** *vt* araşdırmaq, tədqiq etmək.

**Eruption,** *die; -, -en* **1.***(Vulkan)* püskürmə, fışqırma; **2.** *med.* dəridə yara çıx-

ma.

**Erw.** = *Abk. für Erwachsene.*

**erwachen** *vi* oyanmaq, ayılmaq; törəmək, ortaya çıxmaq.

**erwachsen** *vi* **1.** *(entstehen)* törəmək, əmələ gəlmək; **2.** *adj.* böyük, yaşa dolmuş; ~ *werden* boya-başa çatmaq, ərsəmək.

**Erwachsene,** *der u. die; -n, -n* yetkin, böyük, həddi-büluğa çatmış.

**Erwachsenenbildung,** *die; -* yaşlıların təhsil alması.

**erwägen** *vt* götür-qoy etmək, fikirləşmək, mülahizə yürütmək.

**erwägenswert** *adj.* götür-qoy etməyə layiq.

**Erwägung,** *die; -, -en* mülahizə, anlama, tutuşdurma; *in ~ ziehen vt* nəzərə almaq, üzərində düşünmək.

**erwählen** *vt* seçmək.

**erwähnen** *vt* xatırlatmaq, zikr etmək, adını çəkmək, yad etmək.

**erwähnenswert** *adj.* xatırlatmağa layiq, deyilməli.

**erwähnt** *adj.* göstərilən, adı çəkilən.

**Erwähnung,** *die; -, -en* xatırlama, zikr etmə, deyilmə.

**erwärmen** *vt* qızdırmaq, istilətmək; *vr sich ~* qızınmaq, isinmək; dağlaşmaq; *fig. sich für j-n/et. ~* xoşlamaq, bəyənmək, heyran olmaq; *nədənsə* ləzzət görmək.

**Erwärmung,** *die; -* istiləşmə, isinmə.

**erwarten** *vt* gözləmək *(von D/-dən); wie es zu ~ war* gözlənildiyi kimi; *das war zu ~* belə olacağı gözlənilirdi; *ein Kind ~* uşaq gözləmək *(hamiləlikdə); Hilfe ~* kömək gözləmək.

**Erwartung,** *die; -, -en* gözləmə, intizar; ümid; *in ~* ...gözləyərək; *wider alle ~* gözlənillərin əksinə olaraq.

**erwartungsgemäß** *adj.* gözlənildiyi kimi.

**erwartungsvoll** *adj.* tam ümidlə, səbirsizliklə.

**erwecken** *vt* oyatmaq, ayıltmaq; *Verdacht ~* şübhə oyatmaq, *Furcht ~* qorxu oyatmaq; *fig. wieder zum Leben ~* yenidən diriltmək, yenidən həyat bağışlamaq, yenidən həyata qaytarmaq; *Interesse ~* maraq oyatmaq.

**Erweckung,** *die; -, -en* oyandırma, oyatma.

**erwehren** *vr sich ~ G* özünü bir şeydən uzaq saxlamaq, qorumaq; *er konnte sich der Tränen nicht ~* o, göz yaşını saxlaya bilmədi.

**erweichen** *vt* yumşaltmaq, islatmaq; *sich ~* yumşalmaq; *fig. sich ~ lassen* yumşalmaq *(durch A/vasitəsi ilə).*

**Erweichung,** *die; -, -en* yumşaltma, yumşalma.

**erweisbar** *adj.* sübut oluna bilən.

**erweisen** *vt* **1.** *(beweisen)*sübut etmək; **2.** *(Dienst)*xidmət göstərmək, qulluq etmək; *vr sich als (N) ~* ...büruzə vermək, özünü göstərmək, ..çıxmaq; *er hat sich als Betrüger erwiesen* o, yalançı çıxdı, yalançı olduğu bəlli oldu.

**erweitern** *vt* genişləndirmək, böyütmək; *fig.* artırmaq; *s-n Bekanntenkreis ~* öz tanış dairəsini genişləndirmək *(böyütmək); vr sich ~* açılmaq; genişlənmək.

**Erweiterung,** *die; -, -en* genişlənmə, böyümə; *(Blutgefäß)* açılma.

**Erwerb,** *der; -(e)s, -e* **1.** *(Unterhalt)* çörək pulu, qazanc; **2.** *(Kauf)* alış, əldə etmə, alma; nailiyyət.

**erwerben** *vt* **1.** qazanmaq, əldə etmək, ələ keçirmək, hasil etmək; **2.** *(kaufen)* almaq; *sich (D) ~* qazanmaq; *sich als Politiker Ruhm ~* siyasətçi kimi şöhrət qazanmaq.

**erwerbsfähig** *adj.* işləyib pul qazana bilən, əmək qabiliyyətli.

**erwerbslos** *adj.* işsiz, qazancsız.

**Erwerbsminderung,** *die; -* əmək qabiliyyətinin azalması *(tükənməsi).*

**Erwerbsmittel,** *das; -s, -* gəlir mənbəyi.

**erwerbstätig** *adj.* iş sahibi, işləyən.

**erwerbsunfähig** *adj.* işləyə bilməyən, əmək qabiliyyəti olmayan.

**Erwerbszweig,** *der; -(e)s, -e* peşə sahəsi.

**Erwerbung,** *die; -, -en* alış, satın alma, əldə etmə.

**erwidern** *vt* **1.** *(antworten)* cavab vermək *(auf A/-ə)*; *fig.* müqabilə etmək *(mit D/ilə)*; etiraz etmək, cavab qaytarmaq; **2.** *(Besuch)* qonaq olmaq; *e-n Gruß ~* salamı almaq.

**Erwiderung,** *die; -, -en* cavab; etiraz, müqabilə.

**erwiesen** *adj.* sübut olmuş, sabit olmuş; *es ist ~, dass er ...* sübut olub ki, o.

**erwiesenermaßen** *adv.* sübut edildiyi kimi, sübut olunduğu kimi.

**erwirken** *vt* zəhmətlə əldə etmək, çalışıb almaq, nail olmaq.

**erwischen** *vt* yerindəcə tutmaq, iş başında yaxalamaq, girləmək, haqlamaq.

**erworben** *s. erwerben.*

**erwünscht** *adj.* istənilən, arzu edilən, canasinər.

**erwürgen** *vt* boğub öldürmək, xəfələmək.

**Erythräa;** *-s* Eritrə.

**Erz,** *das; -es, -e* **1.** filiz; **2.** *(Metall)* mis, tunc.

**erz-, Erz-** : böyük, baş.

**Erzader,** *die,* - filiz damarı; mədən damarı.

**erzählen** *vt* danışmaq, nəql etmək, rəvayət etmək, çatdırmaq, anlatmaq *(von D/- dən)*; *veralt.* ərz etmək; *erzähl mir doch keine Märchen!* yalan demə!, hekayə demə! ayə oxuma!; *erzähle mal, was gibt's?* anlat görək nə var nə yox?

**Erzähler,***der; -s, -* danışan, nəql edən.

**Erzählung,** *die;-, -en* hekayə, dastan.

**Erzbischof,** *der; -s, -¨e* baş keşiş.

**erzeigen** *vt* göstərmək *(D/-ə)*; *Ehre ~* ehtiram göstərmək; *vr sich ~* görünmək; *sich j-m gegenüber dankbar ~* bir kəsin qarşısında minnətdar görünmək *(minnətdarlığını bildirmək).*

**Erzengel,** *der; -s* Cəbrayıl *(mələikə)*; baş mələkdən biri.

**erzeugen** *vt* **1.** *(hervorbringen)* yaratmaq, hasil etmək; **2.** *(produzieren)* istehsal etmək, buraxmaq; **3.** *(Kinder)* dünyaya gətirmək.

**Erzeuger,** *der; -s, -* **1.** *(Produzent)* istehsalçı, istehsal edən; **2.** *(Vater)* ata.

**Erzeugnis,** *das; -ses, -se* mal, məhsul; məmulat, hasilat; *deutsches ~* Alman malı *(məhsulu).*

**Erzeugung,** *die; -* istehsal*(at)*; hasil etmə, çıxartma, əldə etmə, istehsal edilmə.

**erzfaul** *adj.* səfeh, axmaq.

**Erzfeind,** *der; -(e)s, -e* qatı düşmən, qəddar düşmən, amansız düşmən.

**erzhaltig** *adj.* filizli, filiz yatağı olan yer.

**erziehbar** *adj.* tərbiyə olunmağa ehtiyac duyulan, *schwer ~* pis tərbiyəli, pis tərbiyə olmuş.

**erziehen** *vt* **1.** tərbiyə etmək; ədəbləndirmək; **2.** *(zu et.)* təlim vermək, öyrətmək, bəsləmək; ədəbləndirmək.

**Erzieher,** *der; -s, -* tərbiyə edən, tərbiyə verən, tərbiyəçi; lələ.

**erzieherisch** *adj.* tərbiyəvi, pedaqoji.

**Erziehung,** *die; -* tərbiyə, maarif, .

**Erziehungsanstalt,** *die; -, -en* təlim-tərbiyə evi, islah evi.

**Erziehungsberechtigte,** *der u. die; -n, -n* tərbiyə vermə səlahiyyəti olan .

**Erziehungsheim,** *das; -(e)s, -e* təlim-tərbiyə evi, islah evi.

**Erziehungswesen,** *das; -s* tərbiyə işi, tərbiyə sistemi.

**Erziehungswissenschaft,** *die; -* təlim-tərbiyə elmi, pedaqoji sahə.

**erzielen** *vt* **1.** nail olmaq, əldə etmək; *e-n Erfolg ~* müvəffəqiyyət qazanmaq; **2.** *(Tor)* qol vurmaq, qol atmaq.

**erzittern** *vt* titrəmək, əsmək, sarsımaq, sarsıntı keçirmək.

**Erzlager,** *das; -s, -* filiz yatağı.

**erzreaktionär** *adj.* mürtəce, irticaçı.

**erzürnen** *vt* hirsləndirmək; *vr sich ~* hisrlənmək, qəzəblənmək *(über A/-ə).*

**erzwingen** *vt* məcbur etmək, vadar etmək; *sich nicht ~ lassen* özünü məcbur etməmək.

**Erzwingung,** *die; -* icbar, zorlama.

**erzwungen** *adj.* məcbur edilmiş.

**es** *pron.* o; bu; *ich bin's (= ich bin es)*

mənəm; *er ist ~* bu odur; *~ gibt* vardır; *~ gibt nicht* yoxdur; *~ ist dunkel* qaranlıqdır; *~ ist kalt* soyuqdur.

**es, Es,** *das; -, - mus.* mi bemol notu.

**Eschatologie,** *die; -* axırət, ölüm və ölümdən sonrakı dövr.

**Esche,** *die; -, -n* göyrüş, vən ağacı.

**Esel,** *der; -s, -* eşşək, uzunqulaq.

**Eselei,** *die; -, -en* eşşəklik, axmaqlıq.

**Eselsbrücke,** *die; -, -n fig.* yada salma üçün kömək qafiyəsi,hafizə yardımçısı.

**Eselsfohlen,** *das; -s, -* qoduq, eşşək balası.

**Eselsohr,** *das; -(e)s, -en fig.* kitab səhifəsinin qatlanmış ucu.

**Eseltreiber,** *der; -s, -* eşşəkçi.

**Eskalation,** *die; -, -en* gərginlik, gərginləşmə, şiddətlənmə.

**eskalieren** *vi* gərginləşmək, şiddətlənmək.

**Eskimo,** *der; -s, -s* eskimo.

**Eskorte,** *die; -, -n mil.* eskort, mühafizə dəstəsi.

**eskortieren** *vt* mühafizə üçün yanınca getmək, qorumaq.

**Esoterik,** *die; -* sirr elmi, qeyb elmi.

**Espe,** *die; -, -n* ağcaqovaq ağacı; *wie ~nlaub zittern* tir-tir titrəmək.

**Esperanto,** *das; -(s)* Esperanto dili.

**Espresso,** *der; -(s), -s u. Espressi* espreso qəhvəsi.

**Essay,** *der u. das; -s, -s* məqalə, yazı.

**essbar** *adj.* yeməli, dişədəyər, yeyilə bilən.

**Essbesteck,** *das; -(e)s, -e* qab-qacaq *(Süd. : qaşıq-çəngal).*

**Esse,** *die; -, -n* tüstü bacası, dəmirçi kürəsi.

**essen** *vt* yemək; *zu Mittag ~* nahar yemək, nahar etmək; *zu Abend ~* şam yemək, şam etmək.

**Essen,** *das; -s, -* **1.** *(Mahlzeit)* yemək; **2.** *(Gericht)* yemək, biş-düş, çay-çörək, xörək; *beim ~* yeməkdə, yemək vaxtı; *j-n zum ~ einladen* bir kəsi yeməyə çağırmaq *(dəvət etmək); das ~ zubereiten* çay-çörək hazırlamaq.

**Essenszeit,** *die; -, -en* yemək vaxtı.

**essentiell** *adj.* əsas, zəruri, vacib.

**Essenz,** *die; -, -en* **1.** *nur sg.* cövhər, əsas, əsl, mahiyyət; **2.** essensiya, esans.

**Esser,** *der; -s, -* yeyən; *F ein guter ~* qarınqulu.

**Essgeschirr,** *das; -(e)s, -e* qab-qacaq, qab-qaşıq.

**Essig,** *der; -s, -e* sirkə; abqora; *in ~ einlegen* sirkəyə qoymaq, turşu*(ya)* qoymaq.

**Essigsäure,** *die; -* asid asetik, sirkə turşusu.

**Esslöffel,** *der; -s, -* xörək qaşığı.

**Esstisch,** *der; -(e)s, -e* yemək masası *(Süd. : yemək mizi).*

**Esswaren,** *die/pl.* ərzaq malları.

**Esszimmer,** *das; -s, -* yemək otağı.

**Establishment,** *das; -s* nüfuzlu təbəqə, qüdrətə sahib olan təbəqə.

**Estland;** *-s* Eston*(iya).*

**Estländer,** *der; -s, -* estoniyalı.

**estnisch** *adj.* eston; estonca.

**Estrade,** *die; -, -n* yüksək yer, estrada, podyom.

**Estragon,** *der; -s bot.* tərxun.

**Estrich,** *der; -s, -e* daş döşənək, döşənək.

**etablieren** *vt* təsis etmək, əsasını qoymaq; *vr sich ~* **1.** yerləşmək, yoluna düşmək; **2.** *(sich niederlassen)* tükan açmaq, mağaza açmaq.

**etabliert** *adj.* yerləşmiş, işi yola düşmüş.

**Etablierung,** *die; -* yerləşmə, yer alma.

**Etablissement,** *das; -s, -s* **1.** müəssisə, ticarətxana; **2.** *(Vergnügungsstätte)* əyləncə yeri; **3.** *(Gaststätte)* kiçik mehmanxana.

**Etage,** *die; -, -n* mərtəbə; *auf der ersten ~* birinci mərtəbədə.

**Etappe,** *die; -, -n* mərhələ, etap.

**etappenweise** *adj.* mərhələ-mərhələ.

**Etat,** *der; -s, -s* dövlət büdcəsi.

**et cetera** və sairə, və ilaxır.

**etepetete** *adj. F (überempfindlich)* ifrat dərəcədə həssas, nazənin.

**Ethik,** *die; -* etika, əxlaq elmi, əxlaq.
**ethisch** *adj.* əxlaqi, etik.
**Ethnie,** *die; -, -n* xalq, qovm, insanlar qrupu.
**ethnisch** *adj.* etnik.
**Ethnographie,** *die; -* etnoqrafi*(ya),* xalqşünaslıq.
**Ethnologie,** *die; -* etnoloji, qovmşünaslıq, etnik tədqiqatı.
**Ethos,** *das; -* əxlaqi dəyər.
**Etikett,** *das; -(e)s, -e(n) u. -s* yarlıq, etiket.
**Etikette,** *die; -, -n* təşrifat, adət; qayda-qanun.
**etikettieren** *vt* etiketləmək, yarlıq yapışdırmaq.
**etliche** *pron. pl.* bəziləri, bir neçə; *~ Male* dəfələrlə, təkrar-təkrar.
**Etui,** *das; -s, -s* qab, qutu.
**etwa** *adv.* **1.** *(ungefähr)* ...yaxın, təqribən, təxminən; **2.** *(in einer Frage)* bəyəm, məgər, yoxsa, olmaya, görəsən, bəlkə; **3.** *(zum Beispiel)* məsələn, misal üçün; **4.** *(bei Beunruhigung, Überraschung)* hərgah, əgər; *wenn er ~ kommen sollte* işdir, əgər gələrsə, hərgah gələrsə ... .
**etwaig** *adj.* mümkün olan, təsadüfi, ola bilən.
**etwas** *pron. (ein wenig)* bir az, bir parça, bir qədər, bir şey, azca; birhovur; *hast du ~ Geld* bir az pulun varmı?; *irgendetwas* bir şey; *~ Gutes* bir az yaxşı; *noch ~?* daha nə istəyirsiniz?; *~ mehr* bir az *(qədər)* çox; *komm ~ näher* azca qabağa gəl.
**Etwas,** *das; -* varlıq, vücudu olan.
**Etymologie,** *die; -* etimoloji*(ya),* lüğətlərin *(kəlmələrin)* kökünü axtarıb tapan elm.
**etymologisch** *adj.* etimoloji.
**EU** = *Europäische Union* Avropa birliyi.
**euch** *pron.* sizə; sizi; *ich gebe ~* sizə verirəm; *ich sehe ~* sizi görürəm; *von ~* sizdən.
**euer** *pron.* sizin; *der (die, das) eure* sizinki.
**euerseits** *adv.* sizin tərəfdən, sizdən.
**Eukalyptus,** *der; -, -; -ten* evkalipt, sıtma ağacı.
**Eule,** *die; -, -n* bayquş.
**Eulenspiegel** Almanyanın molla Nəsrəddini, zarafatçı.
**Eunuch,** *der; -en, -en* hərəm ağası; əxtə, xacə.
**Euphemismus,** *der; -, Euphemismen ling.* ədəbi kəlam, yumşaq söz, evfemizm.
**Euphorie,** *die; -* şadlıq hissi, həzz.
**euphorisch** *adj.* şad(lıq), həzz.
**Euphrat,** *der; -s* Furat çayı.
**Eurasien;** *-s* Avropa və Asiya, Avro-Asiya.
**euresgleichen** *pron.* sizin kimilər, sizə oxşarlar, sizə taylar.
**eurethalben, euretwegen** *adv.* sizə görə, sizdən ötrü, sizin xatirinizə.
**eurig** *pron. poss.* sizin, sizinki.
**Europa;** *-s* Avropa; firəng.
**Europäer,** *der; -s, -* avropalı.
**europäisch** *adj.* avropa.
**europäisieren** *vt* avropalılaşdırmaq.
**Europameister,** *der; -s, -* Avropa qəhrəmanı, Avropa çempionu.
**Europarat,** *der; -(e)s* Avropa şurası.
**Euter,** *das; -s, -* əmcək, yelin *(heyvanlarda).*
**Euthanasie,** *die; -* dərman ilə əzabsız ölümə səbəb olma.
**e.V.** = *eingetragener Verein* qeydiyyatdan keçilmiş cəmiyyət *(dərnək).*
**Eva,** *die; -* Həvva.
**evakuieren** *vt* bir yeri boşaltdırmaq, boşaltmaq.
**Evakuierung,** *die; -, -en* boşaldılma, təxliyə, köçürdülmək.
**Evaluation,** *die; -, -en* dəyərləndirmə, qiymətləndirmə.
**evaluieren** *vt (Projekte usw.)* dəyərləndirmək, işin dəyərini təxmin etmək.
**evangelisch** *adj.* evankelik, protestan.
**Evangelium,** *das; -s, Evangelien* Incil.
**evaporieren** *vt* buxarlatmaq, buğlatmaq.
**Eventualität,** *die; -, -en* ehtimal, ola bilər, şərtilik.

**eventuell** *adj.* mümkün olan, ola bilən; *adv.* ola bilsin ki, bəlkə, təsadüfən.

**evident** *adj.* aşkar, aydın.

**Evidenz,** *die; - (Deutlichkeit, Gewissheit)* aşkarlıq, aydınlıq, bəllilik.

**Evolution,** *die; -, -en* təkamül, tədricən inkişaf, evolyusiya, evolusyon, evrim.

**ewig** *adj.* daimi, əbədi, müddətsiz, həmişəlik, ömürlük, cavid, əbəd, əzəli; *für ~* həmişəlik, cavidan, əbədi, əzəli.

**Ewigkeit,** *die; -* əbədiyyət, daimilik, əbədilik, sonsuzluq; *wir haben ihn seit ~en nicht gesehen* onu, çoxdandır görməmişik.

**ex** *adv.* **1.** *(aus, heraus)* içəridən; bayıra, xaricə; **2.** *~ trinken* hamısını içmək, *(pialəni)* boşaltmaq.

**Ex-** keçmiş, sabiq; *Exminister* keçmiş nazir.

**exakt** *adj.* . *(genau)* dəqiq; düz; *(sehr gründlich)* əsaslı, dərin, möhkəm.

**Exaktheit,** *die; -* dəqiqlik, səliqəlilik.

**exaltiert** *adj.* həyəcanlı.

**Examen,** *das; -s, - u. Examina* imtahan, yoxlama; *im ~ durchfallen* imtahandan kəsilmək; *ein ~ bestehen* imtahandan qəbul olmaq.

**exekutieren** *vt (hinrichten)* edam etmək, öldürmək.

**Exekution,** *die; -, -en* **1.** icra etmə, yerinə yetirmə; **2.** edam.

**Exekutionskommando,** *das; -s, -s* edam komandası.

**Exekutive,** *die; -, -n* icraedici hakimiyyət, icraiyyə.

**Exekutivgewalt,** *die; -* icraedici hakimiyyət, icra hakimiyyəti.

**Exempel,** *das; -s, -* misal, nümunə; *ein ~ statuieren* ibrət dərsi vermək *(an D/-ə).*

**Exemplar,** *das; -s, -e* nüsxə.

**exemplarisch** *adj.* nümunəvi, nümunə olaraq; ibrət üçün.

**exerzieren** *vi mil.* təlim görmək; *vt* təlim vermək.

**Exhibitionismus,** *der; - psych.* cinsiyyət üzvünü özgələrə göstərmə *(kişilərdə).*

**Exhibitionist,** *der; -en, -en* soyunub cinsiyyət üzvünü göstərən.

**exhumieren** *vt* qazıb çıxartmaq *(ölünü).*

**Exil,** *das; -s, -e* sürgün, mühacirət; *im ~ leben* sürgündə yaşamaq.

**existent** *adj.* var olan, mövcud.

**Existentialismus,** *der; - phil.* Eksistensializm, j.p. sartenin varlıq fəlsəfəsi.

**Existenz,** *die; -, -en* **1.** *nur sg.* varlıq, mövcudluq; *F* dübərd; **2.** *(Lebensunterhalt)* gəlir, qazanc.

**Existenzberechtigung,** *die; -* yaşama hüququ.

**Existenzmittel,** *das; -s, -* yaşayış üçün vəsait.

**Existieren** *vi* yaşamaq, mövcud olmaq.

**Exitus,** *der; - med.* ölüm.

**Exklave,** *die; -, -n* bir ölkənin başqa bir ölkə içində olan ərazısı.

**exklusiv** *adj.* **1.** *(ausschließend)* daxil olmayan; **2.** *(abgesondert)* xüsusi; **3.** *(vornehm)* ən yaxşı, seçilmiş.

**Exklusivität,** *die; -* xüsusi olma, imtiyazlı olma.

**Exkommunikation,** *die; -, -en* kilsə toplumundan ayırma.

**exkommunizieren** *vt* kilsədən ixrac etmək *(ayırmaq).*

**Exkrement,** *das; -(e)s, -e med.* ifrazat, nəcis.

**Exkurs,** *der; -es, -e (Abschweifung)* haşiyə, mətləbdən uzaq söz.

**Exkursion,** *die; -, -en* elmi səyahət, elmi gəzinti, ekskursiya.

**Exmatrikulation,** *die; -, -en* universitetdən çıxma, ad sildirmə.

**exmatrikulieren** *vt -in* adını silmək, siyahıdan çıxarmaq; *vr sich ~* öz adını sildirmək.

**Exodus,** *der; -* Bəni israilin misirdən köçməsi; mühacirət.

**exotisch** *adj.* qəribə, yad, qeyri-adi.

**Expansion,** *die; -, -en* genişlənmə, ekspansiya.

**Expansionspolitik,** *die;-* işğalçılıq siyasəti.

**expansiv** *adj.* genişlənən, yayılan.
**Expedient,** *der; -en, -en* göndərən, yola salan, göndərmə məmuru.
**Expedition,** *die; -, -en* **1.** *(Versand)* göndərmə, yollama; **2.** *(Forschungsreise)* elmi səyahət.
**Experiment,** *das; -(e)s, -e* təcrübə.
**experimentell** *adj.* təcrübi.
**experimentieren** *vt* təcrübə aparmaq.
**Experte,** *der; -n, -n* işdən başı çıxan, başçıxaran, mütəxəssis, ekspert, ixtisasçı.
**Expertise,** *die; -, -n* ekspertiz*(a).*
**Expl.** *Abk. Exemplar* nüsxə.
**explizit** *adj.* aydın, aşkar; qəti.
**explodieren** *vt* partlamaq.
**Explosion,** *die; -, -en* partlayış.
**explosiv** *adj.* partlayıcı.
**Explosivstoff,** *der; -(e)s, -e* partlayıcı maddə.
**Exponat,** *das; -(e)s, -e* *(Ausstellungssück)*sərgidə göstərilən şey, eksponat.
**Exponent,** *der; -en, -en* **1.** *math.* kub *(Süd. : təvan) vier hoch drei (4³)* dördün kubu; **2.** *(Vertreter e-r Sache)* təmsilçi, nümayəndə.
**exponieren** *vt* **1.** *(darlegen)* izah etmək, söyləmək; **2.** *(e-r Gefahr aussetzen)* təhlükə yaratmaq.
**exponiert** *adj.* müdafiəsiz, açıq; *an ~er Stelle stehen* təhlükəli *(müdafiəsiz)* yerdə olmaq *(durmaq).*
**Export,** *der; -(e)s, -e* ixracat.
**Exporteur,** *der; -s, -e* ixrac edən.
**exportieren** *vt* xarici ölkələrə mal göndərmək, mal ixrac etmək.
**Exportgut,** *das; -(e)s, -¨er* ixrac malı, ixracat.
**Expose,** *das;-s, -s* təsvir, göstərmə.
**express** *adj.* təcili.
**Expressgut,** *das; -(e)s* təcili yük.
**expressiv** *adj.* ifadəli.
**Expresszug,** *der; -(e)s, -¨e* sürət qatarı, təcili qatar.
**Expressionismus,** *der; -* ekpresyonizm, bir növ rəssamlıq üslubu.
**Expressreinigung,** *die; -, -en* ekspress təmizləmə.
**exquisit** *adj.* *(auserlesen)* seçilmiş, mümtaz, əla.
**extern** *adj.* xarici, zahiri; *e-e Prüfung ~ ablegen* özgə *(yad)* məktəbdə imtahan vermək.
**exterritorial** *adj.* ölkədənxaric, ərazidənkənar; toxunulmaz.
**Exterritorialität,** *die; -* toxunulmazlıq hüquqi, təhlükəsizlik hüquqi.
**extra** **1.***(zusätzlich)* əlavə olaraq; **2.** *(gesondert)* xüsusi, ayrı, alahı, ayrıca, əlahiddə; *adv.* **1.** *(ausschließlich)* ancaq; əl-əlxüsus; **2.** *(absichtlich)* bilə-bilə, qəsdən; *~ für dich* ancaq sənin üçün.
**Extrablatt,** *das; -(e)s* fövqəladə qəzet buraxılışı.
**extrahieren** *vt* **1.** *(Zahn)* diş çəkmək; **2.** *(Substanzen)* cövhər çəkmək.
**Extrakt,** *der; -(e)s, -e* **1.** *(Quintessenz)* xülasə; **2.** *(Konzentrat)* cövhər, esans.
**Extraktion,** *die; -, -en* çıxartma, çıxarış.
**extravagant** *adj.(verstiegen, überspannt)* fövgəladə, qeyri-adi, ekzantrik.
**Extravaganz,** *die; -, -en* fövqəladəlik.
**Extrawurst,** *die; -* *F* xüsusi rəftar, müstəsna münasibət.
**extrem** *adj.* son, ifrat; çətin, ağır.
**Extrem,** *das; -s, -e* son dərəcə, ifratçılıq; *von e-m ~ ins andere fallen* ifratdan təfritə düşmək.
**Extremismus,** *der; -* ifratçılıq, radikalizm.
**Extremist,** *der; -en, -en* ifratçı.
**extremistisch** *adj.* ifrat, aşırı.
**Extremität,** *die; -, -en* *anat.* əl-ayaq.
**exzellent** *adj.* əla, mümtaz.
**Exzellenz,** *die; -, -en* zati-ali, zat-aliləri, cənab ali.
**exzentrisch** *adj.* **1.** *(im Verhalten)* qeyri-adi, qəribə; **2.** mərkəzdən xaric; eksentrik.
**Exzentrizität,** *die; -* qeyri-adilik, qəribəlik.
**exzerpieren** *vt (ein Buch usw.)* xülasəsini yazmaq, üzünü köçürmək.
**Exzess,** *der; -es, -e* ölçüsüzlük, ifrat.
**EZB** *Abk. Europaische Zentralbank*

# F

**F, f,** *das; -* **1.** Alman əlifbasının altıncı hərfi; **2.** *mus.* fa.

**Fabel,** *die; -, -n* **1.** əfsanə, qısa nağil, əsatir; **2.** təmsil; fabula **3.** *fig.* yalan, uydurma.

**fabelhaft** *adj.* *(ausgezeichnet)* çox gözəl, əla, fövgəladə; *F* yaman, qiyamət; *das ist ja ~!* bu ki qiyamətdir!.

**Fabeltier,** *das; -(e)s, -e* əfsanəvi heyvan.

**Fabrik,** *die; -, -en* fabrik.

**Fabrikanlage,** *die; -, -n* fabrik təsisatı.

**Fabrikant,** *der; -en, -en* fabrik sahibi, fabrikçi.

**Fabrikarbeiter,** *der; -s, -* fabrik işçisi, fabrik fəhləsi.

**Fabrikat,** *das; -(e)s, -e* fabrik malı, fabrik məmulatı; fabrik markası, fabrik malının üzərindəki möhür.

**Fabrikation,** *die; -, -en* fabrikdə hazırlama, fabrik istehsalı.

**Fabrikbesitzer,** *der; -s, -* fabrik sahibi, karxana sahibi.

**fabrikneu** *adj.* lap təzə, heç istifadə olunmamış.

**Fabriksirene,** *die; -, -n* fabrik fiti, fabrik sirenası.

**fabrizieren** *vt* **1.** *(produzieren)* istehsal etmək, hazırlamaq; **2.** qeyri-peşəkarcasına hazırlamaq, bir şeyi nə yaxşı nə pis hazırlamaq, yaratmaq.

**facettiert** *adj.* yonulmus, cilalanmış.

**Fach,** *das; -(e)s, -¨er* **1.** *(Schubfach)* siyirmə *(Süd. : kəşo);* **2.** *(für Bücher usw.)* rəf; **3.** *(Wissensgebiet)* sahə, ixtisas; *welche Fächer hast du studiert?* hansı sahədə oxumusan? **4.** *(Branche)* fənn, peşə, sənət; *vom ~* ixtisas sahibi; *er ist vom ~* o işinin ustasıdır, o ixtisas sahibidir.

**Facharbeiter,** *der; -s, -* ixtisasçı, ixtisaslı fəhlə.

**Facharzt,** *der; -es, -¨e* mütəxəssis həkim.

**Fachausdruck,** *der; -(e)s, -¨e* termin, istilah.

**Fachbereich,** *der; -(e)s, -e* ixtisas sahəsi.

**Fächer,** *der; -s, -* yelpik.

**Fachgebiet,** *das; -(e)s, -e* elm sahəsi.

**Fachhochschule,** *die; -, -n* ali məktəb.

**Fachidiot,** *der; -en, -en* *F* ancaq öz peşəsindən xəbəri olan, ümumi məlumatı az olan adam.

**Fachjargon,** *der; -s, -s* ixtisas dili, bir ixtisas sahəsinə aid olan məxsusi dil.

**Fachkenntnisse,** *die/pl.* ixtisas bilikləri.

**fachkundig** *adj.* peşəkar, işbilən.

**Fachleute** *die/pl.* mütəxəssislər.

**fachlich** *adj.* peşəkar, ixtisasla əlaqədar.

**Fachliteratur,** *die; -* ixtisasa aid ədəbiyyat.

**Fachmann,** *der; -(e)s, -leute* mütəxəssis, ekspert; *~ für..* ..üçün mütəxəssis .

**Fachschule,** *die; -, -n* orta ixtisas məktəbi.

**Fachwissenschaft,** *die; -, -en* ixtisas elmi.

**Fachzeitschrift,** *die; -, -en* ixtisas Jurnalı.

**Fackel,** *die; -, -n* məşəl.

**fackeln** *vi* yubanmaq, ləngimək, tərəddüd etmək; *ohne lange zu ~* çox ləngimədən, çox naz etmədən.

**Fackelzug,** *der; -(e)s, -¨e* məşəlçilər dəstəsi.

**fad(e)** *adj.* *(Essen)* dadsız, ləzzətsiz; *fig.* darıxdırıcı; *der Film ist ~* film darıxdırıcıdır.

**Faden,** *der; -s, -¨* sap, tel; *fig. den ~ verlieren* kələfin ucunu itirmək; *sein Leben hängt an e-m ~* həyatı bir qıldan asılıdır, həyatı təhlükədədir; *fig. roter ~* əsas xətt, əsas fikir.

**fadendünn** *adj.* sap kimi nazik.

**fadenförmig** *adj.* sapaoxşar, sap kimi.

**Fadennudeln,** *die/pl.* əriştə.

**fadenscheinig** *adj.* **1.** *(Stoffe)* köhnəlmiş; **2.** *(e-e Ausrede usw.)* inandırıcı olmayan, tez tanına bilən *(bəhanə)*, tutarsız dəlillər.

**Fadenwurm,** *der; -(e)s, -¨er* sapşəkilli qurd.

**Fagott,** *das; -(e)s, -e mus.* faqot.

**fähig** *adj.***1.** *(imstande)* bacarıqlı, qadir;

**2.** *(begabt)* qabiliyyətli, hünərli; **3.** *(klug)* ağıllı, fərasətli, istedadlı; *er ist zu allem ~* əlindən hər pislik gələr; *fähig sein* iqtidarında olmaq, gücü çatmaq, bacarmaq; *arbeitsfähig* işə yararlı.

**Fähigkeit,** *die; -, -en* qabiliyyət, bacarıq; istedad, fənn, məharət, səriştə.

**fahl** *adj.* solmuş, saralmış, rəngi qaçmış, solğun; *sie wurde vor Schreck ~ im Gesicht* qorxudan rəngi qaçdı, qorxudan saraldı.

**fahlbraun** *adj.* açıq-qəhveyi.

**Fahlheit,** *die; -* solğunluq, rəngsizlik.

**fahnden** *vi* axtarmaq, izləmək, təqib etmək *(nach D/ bir kəsi).*

**Fahndung,** *die; -, -en* axtarış; təqib etmə, izləmə.

**Fahne,** *die; -, -n* **1.** bayraq, ələm; **2.** *F (Mundgeruch nach Alkohol)* ağızdan araq-çaxır iyi *(qoxusu)* gəlmə; *er hat e-e ~* ağzından araq iyi gəlir; *die ~ hissen* bayrağı qaldırmaq *(açmaq)*; *die ~ einziehen* bayrağı endirmək *(aşağı salmaq).*

**Fahnendienst,** *der; -es, -e* hərbi qulluq.

**Fahneneid,** *der; -(e)s, -e* hərbi and.

**fahnenflüchtig** *adj.* hərbi xidmətdən *(əsgərlikdən)* qaçan, fərari.

**Fahnenstange,** *die; -, -n* bayraq ağacı.

**Fahnenträger,** *der; -s, -* bayraqdar, ələmdar.

**Fahrausweis,** *der; -es, -e* yol bileti, bilet.

**Fahrbahn,** *die; -, -en* avtomobil yolu, döşənmiş yol.

**fahrbar** *adj.* hərəkət edən, yerindən tərpədilə bilən; səyyar.

**fahrbereit** *adj.* hərəkətə hazır.

**Fahrdamm,** *der; -(e)s, -¨e* döşənmiş yol, avtomobil yolu.

**Fahrdienstleiter,** *der; -s, - Esbn.* stansiya rəisi.

**Fähre,** *die; -, -n* gəmi, gəmi-bərə.

**fahren** *vt* **1.** sürmək; *ein Auto ~* avtomobil sürmək, miniklə getmək; **2.** *(befördern)* aparmaq, daşımaq, götürmək *(nach, zu D/-ə); vi* 1. *(Zug usw.)* getmək; *der Zug fährt nach Berlin* qatar Berlinə gedir; 2. *(Ggs. zu Fuß gehen) (miniklə)* getmək *(von D/-dən; nach D/-ə; mit D/ilə);* 3. çarpmaq, vurmaq *(gegen A)*; 4. *(streichen)* çəkmək, sürtmək *(mit D/ -i; über A/-ə); Schi ~* ayaq xizəyilə sürüşmək *(Süd. : iski sürmək); rechts ~!* sağdan sürün!, sağ tərəfdən sürün!, sağ əldən sürün!; *langsam ~!* yavaş sürün!; *fig. j-m über den Mund ~* bir kəsin sözünü ədəbsizliklə kəsmək; *aus der Haut ~* özündən çıxmaq, hirslənmək; *fig. mit et. schlecht ~* bir şeydən pis təcrübə qazanmaq; *zur See fahren* dənizçi olmaq; *~ lernen* maşın sürmə öyrənmək; *fig. j-m an die Kehle ~* bir kəsin xirtdəyindən yapışmaq; *was ist bloß in ihn gefahren* ona nə olubdur?, o niyə belə *(rəftar)* edir?.

**fahrend** *adj.* səyyar; *~es Schiff* səyyar gəmi, hərəkətdə olan gəmi; *~e Habe jur.* daşınan əmlak.

**Fahrer,** *der; -s, -* sürücü, şofer.

**Fahrerflucht,** *die; -, -en* sürücünün hadisə yerindən qaçması *(avtomobil qəzasından sonra).*

**Fahrerlaubnis,** *die; -, -se* sürücülük vəsiqəsi *(Süd. : maşın sürmə icazəsi).*

**Fahrgast,** *der; -(e)s, -¨e* sərnişin *(Süd. : a. müsafir).*

**Fahrgeld,** *das; -(e)s, -er* yolpulu, gediş haqqı.

**Fahrgeschwindigkeit,** *die; -, -en* sürət, hərəkətin sürəti.

**Fahrgestell,** *das; -(e)s, -e* şassi.

**Fahrkarte,** *die; -, -n* yol bileti, bilet.

**Fahrkartenschalter,** *der; -s, -* bilet kassası, bilet satılan yer.

**fahrlässig** *adj.* səhlənkar, diqqətsiz, ehtiyatsız, dərrakəsiz; *jur.* təqsirli.

**Fahrlässigkeit,** *die; -* səhlənkarlıq, ehtiyatsızlıq, başısoyuqluq, dərrakəsizlik.

**Fahrlehrer,** *der; -s, -* sürücülük müəllimi.

**Fährmann,** *der; -(e)s, -¨er u. –leute* qayıqçı.

**Fahrplan,** *der; -(e)s, -¨e* hərəkət cədvəli, gediş-gəliş cədvəli.

**Fahrpreis,** *der; -es, -e* yol haqqı, gediş haqqı.

**Fahrprüfung,** *die; -, -en* sürücülük imtahanı.

**Fahrrad,** *das; -(e)s, -¨er* velosiped *(Süd. : düçərxə),* yelatı.

**Fahrradklingel,** *die; -, -n* düdük.

**Fahrrinne,** *die; -, -n* buy ilə nişanlanmış gəmi yolu, farvater.

**Fahrschein,** *der; -(e)s, -e* bilet.

**Fahrschule,** *die; -, -n* sürücülük kursu.

**Fahrstuhl,** *der; -(e)s, -¨e* lift, asansor.

**Fahrt,** *die; -, -en* **1.** *(in od. auf e-m Fahrzeug)*gediş, hərəkət *(nach D/-ə)*; **2.** *(Reise)* səfər, səyahət; **3.** *(Geschwindigkeit)* sürət; *in voller ~* tam sürətlə; *F in ~ kommen* 1. yaxşı əhvali-ruhiyyədə olmaq; 2. hirsli olmaq, qəzəbli olmaq.

**Fährte,** *die; -, -n* **1.** *(Jagd )* heyvan izi; **2.** iz, yol; **3.** *j-n auf die falsche ~ locken* bir kəsi aldatmaq; bir kəsi çaşdırmaq.

**Fahrtrichtung,** *die; -, -en* hərəkət istiqaməti.

**fahrtüchtig** *adj.* **1.** *(Wagen)* sürülə bilən, trafikə uyğun; **2.** *(Person)* minikdən istifadə edə bilən, maşın sürə bilən.

**Fahrtunterbrechung,** *die; -, -en* yolda qalma.

**Fahrunterricht,** *der; -(e)s* sürücülük *(şoferlik)* dərsi.

**Fahrverbot,** *das; -(e)s, -e* minik sürmə qadağanlığı, sürücü vəsiqəsinin polis tərəfindən alınması.

**Fahrwasser,** *das; -s, -* **1.** *(Fahrrinne)* gəmi yolu; **2.** *in j-s ~ schwimmen* bir kəsin təsiri altında olmaq.

**Fahrzeug,** *das; -(e)s, -e* nəqliyyat vasitəsi; minik.

**Fahrzeughalter,** *der; -s, -* nəqliyyat vasitəsinin sahibi, maşın sahibi.

**Fahrzeugpapiere,** *die/pl.* nəqliyyat vasitəsinin *(maşının)* sənədləri *pl.* .

**Faible,** *das; -s, -s* rəğbət, meyl.

**fair***adj.*ədalətli, vicdanlı, insaflı,ədəbli.

**Fairness,** *die; -* ədalət, insaf, vicdan, ədəb.

**Fair play,** *das; -* *(Sport)* oyun qaydalarını ədəblə riayət etmə, ədəbli davranış.

**fäkal** *adj.* nəcisdən, ifrazatdan.

**Fäkalien,** *die/pl.* ifrazat, nəcis.

**Fakir,** *der; -s, -e* sehrbaz, murtaz, zahid.

**Faksimile,** *das; -s, -s* surət, üz, nüsxə, faksimile.

**faksimilieren** *vt* surətini çıxarmaq, üzünü çıxarmaq.

**Fakt,** *der; (e)s, -en* fakt, həqiqətən olan şey; *~ ist, dass* fakt budur ki...

**faktisch** *adj.* həqiqi; *adv.* həqiqətən, faktiki olaraq.

**Faktor,** *der; -s, -en* **1.** amil, fakt; **2.** *math.* faktor, vuruq.

**Faktum,** *das; -s, Fakten s. Fakt.*

**Faktura,** *die; -, Fakturen H* faktura.

**Fakultät,** *die; -, -en* fakültə.

**fakultativ** *adj.* konüllü, ixtiyari.

**Falbel,** *die; -, -n* büzmə *(paltarların kənarında tikilən büzmə).*

**Falke,** *der; -n, -n* şahin, doğan, qırğı.

**Flechte,** *die; -, -n* **1.** *(Haarflechte)* hörük; **2.** *bot.* şibyə; **3.** *med.* dəmrov.

**flechten** *vt* hörmək; eşmək.

**Flechtwerk,** *das; -s* toxunma şey.

**Fleck,** *der; -(e)s, -e* **1.** *(Stelle)* yer; *sich nicht vom ~ rühren* yerindən tərpənməmək; **2.** *(Flicken)* yamaq, pinə; **3.** *(Schmutzfleck)* ləkə; **4.** *(Stück Land)* bir parça torpaq; *das Herz auf dem rechten ~ haben* qoçaq olmaq, cəsarətli olmaq.

**Fleckenentferner,** *der; -s, -* ləkə silən maddə.

**fleckenlos** *adj.* ləkəsiz.

**fleckig** *adj.* ləkəli; xallı; çirk.

**Fleckchen** *das; -s, - ein schönes ~ (Erde)* gözəl bir yer *(guşə).*

**Fledermaus,** *die; -, -¨e* yarasa, gecəquşu.

**Flederwisch,** *der; -(e)s, -e* süpürgə.

**Flegel,** *der; -s, -* **1.** *(Dreschflegel)* toxmaq; **2.** *fig. (unhöflicher Mensch)* qaba adam, qanmaz, tərbiyəsiz, əclaf.

**flegelhaft** *adj.* tərbiyəsiz, qanmaz, əclaf.

**flehen** *vi* yalvarmaq, yalvar-yaxar etmək, ləlimək *(um A/bir şey üçün); zu j-m ~* bir kəsə yalvarmaq.

**Flehen,** *das; -s* yalvarış, yalvarma.

**flehentlich** *adj.* yalvarıcı, yalvaran.

**Fleisch,** *das; -es* ət; *Rindfleisch* mal əti; *mageres ~* yağsız ət; *fig. sich ins eigene ~ schneiden* özünə zərər vurmaq.

**Fleischbrühe,** *die; -, -n* ət suyu, işgənə.

**Fleischer,** *der; -s, -* qəssab.

**Fleischerei,** *die; -, -en* qəssab dükanı.

**fleischig** *adj.* ətli, kök.

**fleischlich** *adj.* şəhvani, şəhvətli, cismani.

**fleischlos** *adj.* ətsiz *(yemək).*

**Fleischwolf,** *der; -(e)s, -¨e* ətçəkən, ətçəkən maşın.

**Fleischwunde,** *die; -, -n* kiçik yara.

**Fleiß,** *der; -es* cəhd, səy; əmək; *ohne ~ kein Preis* işləməyən yeməz.

**fleißig** *adj.* çalışqan, işə can yandıran, qayğıkeş; bacarıqlı, cıvrıq, çəpik, əlaçı, əl-ayaqlı; *adv.* cəhdlə, ciddiyyətlə; *~ arbeiten* çox çalışmaq.

**flektieren** *vt gr.* təsrif etmək, dəyişdirmək.

**flennen** *vi* ağlamaq, ağlayıb-sızıldamaq.

**fletschen** *vt : die Zähne ~* dişlərini göstərmək, dişləri qıcamaq.

**flexibel** *adj. (elastisch)* əyilə bilən, bükülə bilən, əyilgən, yumşaq; dəyanətsiz; dəyişkən; çevik; *~e Politik* dəyişkən siyasət .

**Flexibilität,** *die; -* yumşaqlıq; dəyişkənlik.

**Flexion,** *die; -, -en gr.* sözün dəyişməsi; hallandırma, təsrif.

**Flickarbeit,** *die; -, -en* yamama, gözəmə işi.

**flicken** *vt* yamamaq, çitə(lə)mək.

**Flieder,** *der; -s* **1.** yasəmən; **2.** *(Holunder)* gəndalaş.

**Fliege,** *die; -, -n* **1.** milçək, çibin; **2.** *(Krawatte)* papiyon; *fig. zwei ~n mit e-r Klappe schlagen* bir güllə ilə iki dovşan vurmaq, bir ox ilə iki nişan vurmaq, bir saqqa ilə iki aşıq vurmaq.

**fliegen** *vi* **1.** uçmaq; **2.** *F* işdən və ya məktəbdən çıxarılmaq; *in die Luft ~* havaya uçmaq, partlamaq; *F durchs Examen ~* imtahandan keçməmək.

**fliegend** *adj.* uçan, uçar; *~er Händler* səyyar alverçi, çərçi.

**Fliegenfänger,** *der; -s, -* milçəkqıran.

**Fliegengewicht,** *das; -(e)s Sport* milçək çəkisi, ən yüngülvarı çəki.

**Flieger,** *der; -s, - mil.* pilot; *(Flugzeug)* təyyarə, uçaq.

**Fliegeralarm,** *der; -s* hava təhlükə siqnalı, hava həyəcanı siqnalı.

**Fliegerbombe,** *die; -, -n* bomba salan təyyarə.

**Fliegerhorst,** *der; -(e)s, -e* təyyarə anbarı.

**fliehen** *vi* qaçıb yaxasını qurtarmaq, baş götürüb qaçmaq *(vor D/-dən); fig.* daban almaq, dabanına tüpürmək, itilmək, fərar etmək; *-dən* uzaq durmaq.

**fliehend** *adj.* qaçan.

**Fliehkraft,** *die; -, -¨e* mərkəzdənqaçan qüvvə.

**Fliese,** *die; -, -n* tava daşı, kaşı, keramik, döşəmə daşı; *~n legen* bir yerə kaşı döşəmək.

**fliesen** *vt* kaşı döşəmək.

**Fliesenleger,** *der; -s, -* kaşı döşəyən usta.

**Fließband,** *das; -(e)s, -¨er* daşıma təsməsi, konveyer, transportyor.

**fließen** *vi* axmaq, tökülmək, cari olmaq *(in A/-ə); ~ lassen* axdırmaq, axıtdırmaq, axıtmaq.

**fließend** *adj.* axan, axar, tökülən; *~es Wasser* axan su; *bei dem Aufstand flossen Ströme von Blut* qiyamda *(ayaqlanmada)* çox qan axdı, çox insan öldü; *fig.* rəvan, səlis; *adv. sie spricht ~ Deutsch* səlis almanca danışır, su kimi almanca danışır.

**Flimmer,** *der; -s, -* titrəyən işıq, titrəyən parıltı.

**Flimmerkiste,** *die; -, -n* televiziya *(Süd. : televiziyon)*, kino, sinema.

**flimmern** *vi* **1.** *(Sterne)* parıldamaq, sayrışmaq; **2.** *(Film)* titrəmək; **3.** *F* pardaxlamaq, cilalamaq; *es flimmert mir vor den Augen* gözlərim qaralır.

**flink** *adj.* cəld, diribaş, zirək, qıvraq, çevik, əlli; *fig.* çəpiş.

**Flinkheit,** *die; -* cəldlik, zirəklik, çeviklik.

**Flint,** *der; -(s), -e* çaxmaqdaşı.

**Flinte,** *die; -, -n* tüfəng, aynalı; *fig. die ~ ins Korn werfen* cəsarəti əldən vermək, ümidsizliyə təslim olmaq.

**flirren** *vi s. flimmern.*

**Flirt,** *der; -s, -s* eşqbazlıq, mazaqlaşma.

**flirten** *vt* eşqbazlıq etmək.

**Flittchen,** *das; -s, -* əxlaqsız qadın, *vulg.* qəhbə.

**Flitter,** *der; -s, -* **1.** *(Schmuck)* muncuq, parıldayan bəzək şeyləri; **2.** *nur sg. fig.* dəyərsiz şeylər.

**flittern** *vi* titrəyib parıldamaq.

**Flitterwochen,** *die/pl.* evlənmənin birinci ayı, bal ayı.

**flitzen** *vi* sürətlə keçmək, sürətlə getmək, ox kimi getmək.

**floaten** *vi* *(Währung)* yuxarı-aşağı getmək, dəyərini dəyişmək.

**flocht** *s. flechten.*

**Flocke,** *die; -, -n* **1.** *(Schneeflocken)* qardənəsi, qar dənəciyi; **2.** *(Wollflocken)* topa; **3.** *(Haferflocken)* doğranıb-yarılmış hububat, yarma, vələmir yarması.

**flocken** *vt* topa-topa olmaq.

**flockig** *adj.* xovlu, tüklü.

**flog** *s. fliegen.*

**floh** *s. fliehen.*

**Floh,** *der; -(e)s, -¨e zo.* birə; *F j-m e-n ~ ins Ohr setzen* bir kəsin ağlına bir şeyi soxmaq, bir kəsin başına bir şeyi yeritmək.

**flöhen** *vt* *(Hund usw.)* bitləmək.

**Flohmarkt,** *der; -(e)s, -¨e* köhnə malların bazarı, bitbazarı.

**Flor[1],** *der; -s, -e* **1.** *(Blüten)* çiçəklənmə, çiçək vermə; çiçəklər; **2.** *(Wohlstand)* firavanlıq, varlılıq.

**Flor[2],** *der, -s, -e* **1.** *(Samt)* məxmər; flor; **2.** *(Trauerflor)* matəm sarğısı.

**Flora,** *die; - Floren* **1.** *(Pflanzenwelt)* bitki aləmi; **2.** *med.* bağırsaqda yaşayan bakteriyalar.

**Florenz** Florensa şəhəri.

**Florett,** *das; -(e)s, -e* bir növ qılınc.

**florieren** *vi* *(Geschäft, Unternehmen)* yaxşı işləmək, tərəqqi etmək; çiçəklənmək.

**Florist,** *der; -en, -en* **1.** bitki aləminin tədqiqatçısı; **2.** çiçəkçi.

**Floskel,** *die; -, -n* boş söz.

**floskelhaft** *adj.* basmaqəlib, trafaret, boş-boş *(məsələn danışıq);* klişə(lənmiş).

**floss** *s. fließen.*

**Floß,** *das; -es, -¨e* sal, bərə.

**Flosse,** *die; -, -n* **1.** *(Fischflosse)* üzgəc; **2.** *F (Hand)* əl, ayaq.

**Flotation,** *die; -, -en* mədən minerallarını daşdan ayırma üsulu.

**Flöte,** *die; -, -n mus.* ney; *dial.* düdək, düdük.

**flöten** *vi* **1.** *mus.* ney çalmaq, düdək çalmaq; **2.** *F fig. ~ gehen* yox olmaq, itib-batmaq; hədərə getmək.

**Flötist,** *der; -en, -en* neyçalan.

**Flötenspieler,** *der; -s, -* neyçalan.

**flott** *adj.* **1.** *(schnell)* diribaş, sürətli, tez; *e-e ~e Verkäuferin* diribaş satıcı; **2.** *(elegant)* şik, zərif, gözəl; **3.** *(attraktiv)* cazibəli, xoşagələn; **4.** *(Fahrzeug)* sürməyə hazır edilmiş; təmir olunmuş; **5.** *(Schiff)* üzməyə hazırlaşmış; *ein Schiff ~ machen* gəmini üzməyə hazırlamaq; **6.** *ein ~ gehendes Geschäft* yaxşı işləyən bir mağaza.

**Flotte,** *die; -, -n* donanma.

**Flottenabkommen,** *das; -s, -* dəniz sazişi.

**Flottenstützpunkt,** *der; -(e)s, -e* hərbi dəniz bazası.

**flottmachen** *vt* **1.** *(Schiff)* suya salmaq; **2.** *(in Gang bringen)* hərəkətə gətirmək, yola salmaq.

**Flöz,** *das; -es, -e geol.* təbəqə.

**Fluch,** *der; -(e)s, -¨e* **1.** *nur sg. (Verwünschung)* qarğış, lənət, lənətləmə, lənət oxuma; *~ über euch!* lənət sizə! **2.** *(Schimpfen)* söyüş, yaman.

**fluchbeladen** *adj.* lənətli.

**fluchen** *vi* **1.** söyüş etmək, yaman demək; *~ auf (A)* bir kəsi söymək; **2.** qarğış eləmək, lənət oxumaq.

**Flucht**[1]**,** *die; -* **1.** qaçma, qaçıb canını qurtarma, qaçış, qopalaq, fərar, giriz; *in die ~ schlagen* qaçmağa məcbur etmək, qopalağını götürmək; *die ~ ergreifen* qaçmaq, meydandan çıxmaq, qaçıb canını qurtarmaq, fərar etmək; **2.** *mil.* fərarilik.

**Flucht**[2]**,** *die; -, -en* *(Reihe)* sıra, cərgə; yan-yana; *die Autos parkten in der ~* maşınlar bir sırada *(yanbayan)* dayandılar; *eine ~ von Zimmern* yan-yana olan *(dayanan)* otaqlar.

**fluchtartig** *adj.* qaça-qaça, əcələ ilə; *~ rennen* çovumaq, əcələ ilə qaçmaq; *adv.* dabanbasma, qaçaraq, tələsik.

**fluchten** *vi* bir sırada olmaq, bir xəttin üstündə olmaq; yanbayan etmək, bir sıraya gətirmək .

**flüchten** *vi* qaçmaq, qaçıb canını qurtarmaq, fərar etmək, qısılmaq *(aus D/ -dən; nach, zu D/-ə); F* itilmək; *sich ~* qaçmaq, sığınmaq *(zu D/-ə); sich in Ausreden ~* min bir bəhanə gətirmək.

**Fluchthelfer,** *der; -s, -* bir kəsin bir yerdən qaçmasına yardım edən.

**flüchtig** *adj.* **1.** qaçaq; *der Dieb ist seit gestern ~* oğru dünəndən qaçıbdır *(qaçaqdır)*; **2.** *(vergänglich)* ötüb keçən, müvəqqəti; davamsız, ötərgi; **3.** *(oberflächlich)* səthi, başdansovma, diqqətsiz; ayaqüstü, barmaqucu; **4.** *Chem.* tezuçan; *~e Öle* tezuçan yağlar; *~er Blick* ani baxış.

**Flüchtigkeit,** *die; -* **1.** itilik, tezlik, sürət; **2.** davamsızlıq, sürəksizlik, dəyişkənlik; **3.** *Chem.* uçucu olma, tezuçan.

**Flüchtling,** *der; -s, -e* **1.** qaçaq, fərari; **2.** *pol.* qaçqın; didərgin.

**Flüchtlingslager,** *das; -s, -* qaçqın düşərgəsi, qaçqınlar üçün düşərgə.

**Fluchtlinie,** *die; -, -n* kəsişmə xətti.

**Fluchtversuch,** *der; -(e)s, -e* qaçıb canını qurtarma cəhdi.

**fluchwürdig** *adj.* lənət oxunmağa layıq olan, lənət deməyə layıq olan.

**Flug,** *der; -(e)s, -¨e* **1.** uçuş, uçma, *der ~ der Vögel* quşların üçuşu; *auf dem ~ nach Täbriz* Təbrizə *(təyyarə ilə)* uçarkən; *einen Vogel im ~e schießen* bir quşu havada vurmaq; **2.** *Jägerspr. (Schar)* sürü, dəstə; *wie im ~e* tez, cəld, bir anda, sürətlə; ayaqüstü; *die Zeit verging wie im ~e* zaman tez *(sürətlə)* keçdi.

**Flugabwehr,** *die; -* hava hücumundan müdafiə.

**Flugbahn,** *die; -, -en* *(e-s Geschosses)* mərmi yolu; trayektoriya.

**Flugblatt,** *das; -(e)s, -¨er* siyasi vərəqə, təbliğat vərəqəsi, intibahnamə; *Flugblätter verteilen* vərəqələr *(intibahnamələr)* yaymaq.

**Flugdauer,** *die; -* uçuş müddəti.

**Flügel,** *der; -s, -* **1.** *(bei Vögeln)* qanad; *mit den ~n schlagen* qanad çırpmaq, qa-

nad çalmaq; *auf den ~en des Traumes* royanın qanadlarında; **2.** *(Tür)* tay, lay, qanad; **3.** *mus.* böyük piano, royal; **4.** *pol.* cinah.

**flügellahm** *adj.* qanadı sınıq.

**flügellos** *adj.* qanadsız.

**Flügelmann,** *der; -(e)s, -¨er u. -leute* flanqda duran əsgər.

**Flügelschlag,** *der; -(e)s, -¨e* qanad çalma.

**Flügeltür,** *die; -, -en* ikitaylı qapı.

**flugfertig** *adj.* uçuşa hazır.

**Fluggast,** *der; -(e)s, -¨e* təyyarə sərnişini, təyyarə müsafiri.

**flügge** *adj.* lələklənmiş; *fig.* müstəqil, sərbəst, həddi-büluğa çatmış.

**Fluggeschwindigkeit,** *die; -, -en* uçuş sürəti.

**Fluggesellschaft,** *die; -, -en* təyyarə şirkəti.

**Flughafen,** *der; -s, -¨* hava limanı, təyyarə meydanı, aeroport.

**Flughöhe,** *die; -, -n* uçuş yüksəkliyi.

**Flugkarte,** *die; -, -n* təyyarə bileti, üçüş sərnişin bileti, aviabilet .

**Fluglinie,** *die; -, -n* uçuş xətti.

**Flugplatz,** *der; -es, -¨e* təyyarə meydanı.

**Flugpost,** *die; -* hava poçtu *(postu).*

**flugs** *adv.* tez, cəld.

**Flugsand,** *der; -(e)s* dənəvər qum.

**Flugschein,** *der; -(e)s, -e s. Flugkarte.*

**Flugschreiber,** *der; -s, -* uçuş cərəyanını qeyd edən cihaz, qara qutu.

**Flugverbindung,** *die; -, -en* hava nəqliyyatı *(rabitəsi).*

**Flugverkehr,** *der; -(e)s* hava nəqliyyatı.

**Flugzeug,** *das; -(e)s, -e* təyyarə.

**Flugzeugabsturz,** *der; -(e)s, -¨e* təyyarənin qəzaya uğrayıb yerə düşməsi, təyyarə qəzası.

**Flugzeugentführer,** *der; -s, -* təyyarə qaçırdan.

**Flugzeugentführung,** *die; -, -en* təyyarə qaçırtma.

**Flugzeugführer,** *der; -s, -* təyyarəçi, pilot.

**Flugzeughalle,** *die; -, -n* anqar.

**Flugzeugpersonal,** *das, -s* təyyarə işçiləri *(peroneli).*

**Flugzeugstewardess,** *die; -, -en* təyyarə xidmətçisi.

**Flugzeugträger,** *der; -s, -* hərbi təyyarələri daşıyan gəmi.

**Fluidum,** *das; -s, Fluida* **1.** maye, duruluq; **2.** *(Ausstrahlung)* cazibəlik.

**Fluktuation,** *die; -, -en* dəyişkənlik, qeyri-sabitlik, aşağı-yuxarı getmə.

**fluktuieren** *vi* aşağı-yuxarı getmək, titrəmək, tərpənmək.

**Flunder,** *die; -, -n* qalxan balığı.

**flunkern** *vi F (schwindeln)* bir az üstünə qoymaq *(sözün),* yalan satmaq; aldatmaq.

**Fluor,** *das; -s Chem.* flor, rəngsiz qaz.

**Flur**[1]**,** *die; -, -en* çöl, tarla, zəmi; *allein auf weiter ~* tək olmaq, yalqız olmaq.

**Flur**[2]**,** *der; -(e)s, -e (Gang)* dəhliz, koridor, dalan.

**Flurschaden,** *der; -s, -¨* tarlalara vurulan zərər.

**Fluss,** *der; -es, -¨e* çay; *(das Fließen)* axma, axın; *fig. in ~ bringen* hərəkətə gətirmək, hərəkətləndirmək.

**flussabwärts** *adv.* çayaşağı.

**Flussarm,** *der; -(e)s, -e* çayın qolu.

**flussaufwärts** *adv.* çayyuxarı.

**Flussbett,** *das; -(e)s, -en* çayyatağı.

**flüssig** *adj.* **1.** duru, axıcı, əridilmiş, ərgin; **2.** *F (Geld)* nağd pul; *kein Geld ~ haben* nağd pulu olmamaq.

**Flüssigkeit,** *die; -, -en* maye.

**flüssigmachen** *vt F (Geld)* nağd pula çevirmək.

**Flussmündung,** *die; -, -en* çayqovuşan.

**Flusspferd,** *das; -(e)s, -e* suayqırı, begemot.

**flüstern** *vi* pıçıldamaq, xışıldamaq*(j-m ins Ohr/ bir kəsin qulağına); miteinander ~* pıçıldaşmaq, xosunlaşmaq; *F* dodaqaltı danışmaq.

**flüsternd** *adj.* pıçıltı ilə.

**Flut,** *die; -, -en* **1.** *(Ggs. Ebbe)* qabarma, yüksəlmə, mədd; **2.** *(bewegte Wassermenge)* sel, axın; **3.** *(große Menge)*

çoxlu, qalaq, xeyli miqdar; *e-e ~ von Tränen* sel kimi axan göz yaşı.

**fluten** *vi* axmaq, tökülüb gəlmək.

**Flutlicht,** *das; -(e)s, -er el.* projektorlarla işıqlandırma.

**Flutwelle,** *die; -, -n* mədd dalğası.

**focht** *s. fechten.*

**Föderalismus,** *der; -* federalizm.

**föderalistisch** *adj.* federal, federalist.

**Föderation,** *die; -, -en* federasiya *(Süd. : federasyon).*

**föderativ** *adj.* federal, federativ.

**föderieren** *vt* ittifaq təşkil etmək, federasiya təşkil etmək.

**Fohlen,** *das; -s, -* dayça, daylaq, qulan.

**fohlen** *vi* dayça doğmaq, balalamaq.

**Föhn,** *der; -(e)s, -e* **1.** isti quru külək; **2.** *(Haartrockner)* saçqurudan; *sich die Haare föhnen* saçlarını qurutmaq.

**föhnen** *vt sich die Haare ~* saçlarını (saçqurudanla) qurudmaq.

**Föhre,** *die; -, -n* küknar.

**Fokus,** *der; -, -se* **1.** fokus, zərrəbin mərkəzi; **2.** *med.* ağızda və ya boğazda bakteriya yayan yer.

**fokussieren** *vt* mərkəzlə(şdir)mək.

**folg.** *Abk. folgend(e usw.).*

**Folge,** *die; -, -n* **1.** *(Ergebnis, Wirkung)* nəticə, səbəb, təsir, əncam; **2.** *(Reihenfolge)* sıra, ardıcılıq; **3.** *(Fortsetzung)* davam, ardı, dalısı; *zur ~ haben* nəticələnmək, səbəb olmaq; *als ~ davon* bunun nəticəsi olaraq.

**Folgeerscheinung,** *die; -, -en* nəticə.

**folgen** *vi* **1.** təqib etmək, izləmək *(D, auf A/ bir kəsi),* dalına düşmək, *ardınca* düşmək; **2.** *(gehorchen)* itaət etmək *(D/-ə);* **3.** *(als Nachfolger)* yerinə keçmək; **4.** *(nachahmen)* təqlid etmək *(j-m in D/ bir kəsi);* **5.** *(sich ergeben aus)* nəticələnmək, meydana gəlmək, nəticə çıxmaq *(aus D/ -dən); wie folgt* aşağıdakı kimi; *kannst du mir folgen?* məni başa düşə bilirsən?; *hieraus folgt, dass* bundan bu nəticə çıxır ki, bundan bu nəticə alınır ki.

**folgend** *adj.* **1.** sonrakı, gələcək, ertəsi, növbəti; *der ~e Tag* ertəsi gün; *der ~e König* gələcək padşah; **2.** aşağıdakı, altdakı; *das ~e Zitat* aşağıdakı sitat; *auf ~e Weise* aşağıdakı kimi, bu cür.

**folgendermaßen** *adv.* bu qayda ilə, bu üsulla, bu surətlə.

**folgenschwer** *adj.* ağır nəticəli.

**folgerichtig** *adj.* məntiqi; ardıcıl.

**folgern** *vt* nəticə çıxarmaq; *daraus folgerte sie, dass...* bundan belə nəticə çıxartdı ki ...

**Folgerung,** *die; -, -en* nəticə.

**folgewidrig** *adj.* məntiqsiz; ardıcıl olmayan.

**Folgezeit,** *die; - : in der ~* axırda, nəticədə, ondan sonra.

**folglich** *adv.* beləliklə, buna görə, bu səbəbdən; deməli*(ki).*

**folgsam** *adj.* sözə baxan, üzüyola.

**Foliant,** *der; -en, -en* böyük və qalın cilddə olan kitab, böyük həcmli, qalın qədim kitab, foliant .

**Folie,** *die; -, -n* nazik plastik kağız, plastik və ya metal vərəq.

**Folio,** *das; -s, -s u. -lien* **1.** böyük səhifə kağızı formada olan kitab; **2.** ticari dəftərin ikiqatlı səhifəsi.

**Folklore,** *die; -* folklor, xalq musiqi və ədəbiyyatı.

**folkloristisch** *adj.* folklor.

**Folter,** *die; -, -n* işgəncə, əzab.

**Folterkammer,** *die; -, -n* işgəncə otağı.

**foltern** *vt* işgəncə vermək, əzab vermək.

**Folterung,** *die; -, -en* işgəncə, əzab.

**Fön,** *der; -(e)s, -e (Haartrockner)* saçqurudan.

**Fond,** *der; -s, -s (Rücksitz im Wagen)* avtomobilin dal tərəfi, arxa tərəf, fon.

**Fonds,** *der; -, - (Kapital)* sərmayə, kapital, fond.

**Fontäne,** *die; -, -n* fəvvarə, fantan.

**foppen** *vt* ələ salmaq, oynatmaq.

**Fopperei** *die; -, -en* məsxərə, ələ salma.

**forcieren** *vt* gücləndirmək, var qüvvəsini işə salmaq; sürətləndirmək, tezləşdirmək.

**Förde,** *die; -, -n geogr.* körfəz.

**Förderband,** *das; -(e)s, -¨er* daşıma təsməsi, təsmə.

**förderlich** *adj.* yararlı, xeyirli, işə kömək edən.

**fordern** *vt* istəmək, tələb etmək *(von D/-dən).*

**fördern** *vt* **1.** təşviq etmək, imkan yaratmaq, kömək etmək, həvəsləndirmək; **2.** *(Kohle usw.)* çıxartmaq.

**Forderung,** *die; -, -en* **1.** tələb, iddia; **2.** dəvət; *j-s ~ zurückweisen* tələbini rədd etmək.

**Förderung,** *die; -, -en* **1.** *(Unterstützung)* təşviq, himayə, kömək etmə; **2.** *Bgb.* çıxartma.

**Forelle,** *die; -, -n* qızılala balıq, ala balıq.

**Form,** *die; -, -en* **1.** şəkil, surət; qırım, forma, biçim; **2.** *(Sport)* vəziyyət; *gut in ~ sein* yaxşı vəziyyətdə olmaq; **3.** *techn.* qəlib *(qalıb),* model, nümunə, fason; **4.** *(gesellschaftlich)* adab, davranış, əxlaq tərzi; **5.** növ, cür; *in ~ G, von D* ..şəklində; *die ~ wahren* ədəb qaydalarını gözləmək.

**formal** *adj.* formal, sözdə, zahiri.

**Formalismus,** *der; -* formalizm, rəsmiyyət.

**Formalität,** *die; -, -en* rəsmiyyət.

**Format,** *das; -(e)s, -e* **1.** ölçü, əndazə, format;**2.** *(von Rang)* böyüklük, görkəmlilik; *ein Mann von ~* görkəmli bir adam.

**Formation,** *die; -, -en* **1.** *geol.* təbəqə; təşəkkül; **2.** nizam, şəkil, formasiya; **3.** *mil.* hərbi birləşmə.

**formbar** *adj.* formaya salına bilən.

**Formblatt,** *das; -(e)s, -¨er* formulyar, blank, boş yerləri doldurmalı olan sorğu vərəqi.

**Formel,** *die; -, -n* formula, formul; *e-e Sache auf e-e kurze ~ bringen* bir şeyi bir sözlə ifadə etmək.

**formell** *adj.* **1.** şəkli, zahiri; **2.** *(offiziell)* rəsmi.

**formen** *vt* şəkil vermək; qəlibə *(Süd. : qalıba)* salmaq, şəklə salmaq; *sich ~* şəkil almaq.

**Formenlehre,** *die; - gr.* morfologiya, *(Süd. : morfoloji)*

**formieren** *vt* şəkil vermək, təşkil etmək; *vr sich ~* düzəlmək, şəkl almaq.

**förmlich** *adj.* **1.** *(offiziell)* rəsmi; **2.** *(regelrecht)* doğru, əsil, düzgün; *adv.* adətən, rəsmən.

**formlos** *adj.* şəkilsiz, formasız, biçimsiz; sərbəst, azad.

**Formlosigkeit,** *die; - fig.* ədəb qaydalarını gözləməmə, tərbiyəsizlik.

**Formsache,** *die; -* formallıq, rəsmiyyət.

**Formular,** *das; -s, -e* sorğu vərəqi, blank, formulyar; *ein ~ ausfüllen* sorğu vərəqini doldurmaq.

**formulieren** *vt* ifadə etmək, qısaca ifadə etmək, dilə gətirmək, qaydaya salmaq.

**Formulierung,** *die; -, -en* ifadə etmə, dilə gətirmə; qaydaya salma, forma salma.

**formvollendet** *adj.* formaca mükəmməl.

**forsch** *adj.* dəliqanlı, igid, qoçaq, cəsarətli, qəti.

**forschen** *vi* araşdırmaq, tədqiq etmək, öyrənməyə can atmaq *(nach D/i).*

**Forscher,** *der; -s, -* araşdırıcı, tədqiqatçı, alim.

**Forschung,** *die; -, -en* tədqiqat, araşdırma.

**Forschungsergebnis,** *das; -ses, -se* tədqiqat işinin nəticəsi.

**Forschungsgebiet,** *das; -(e)s, -e* tədqiqat sahəsi.

**Forschungszentrum,** *das; -s, -tren* tədqiqat mərkəzi.

**Forst,** *der; -(e)s, -e* meşə.

**Förster,** *der; -s, -* meşəçi, meşəbəyi.

**Forsthaus,** *das; -es, -¨er* meşəbəyinin evi.

**Forstwesen,** *das; -s* meşəçilik.

**Forstwirtschaft,** *die; -* meşəçilik.

**Fort,** *das; -s, -s mil.* qala, istehkam.

**fort** *adv.* **1.** *(weg)* olmama, yox olma; **2.** *(weiter)* davam; *und so ~* və saira, və ilaxır; **3.** *(vorwärts)* irəli, qabağa;

*in e-m ~* arası kəsilmədən, fasiləsiz; *ich muss ~!* getməliyəm!; *~ mit dir!* rədd ol!, itil!.

**fortab, fortan** *adv.* bundan sonra, gələcəkdə, bundan böylə.

**Fortbestand,** *der; -(e)s* davam, bundan sonrakı yaşayış, gələcəkdəki yaşayış.

**fortbestehen** *vt* mövcud olmaq, yaşamaqda davam etmək.

**fortbewegen** *vt* yerindən tərpətmək, hərəkətə gətirmək; *vr sich ~* yerindən hərəkət etmək, irəli hərəkət etmək.

**Fortbewegung,** *die; -, -en* hərəkət.

**fortbilden** *vr sich ~* ixtisasını təkmilləşdirmək *(in D/-də).*

**Fortbildung,** *die; -, -en* təhsilin davamı, ixtisasın təkmilləşməsi.

**fortbleiben** *vi* gəlməmək, iştirak etməmək, bir yerə getməmək.

**Fortdauer,** *die; -* davam etmə, davam.

**fortdauernd** *adj.* daimi.

**fortfahren** *vi* **1.** davam etmək, davam etdirmək; *~ (etw. zu tun bir şeyi etməyə/ mit -ilə, -i, -ə);* **2.** *(wegfahren)* çıxıb getmək.

**fortfliegen** *vi* uçub getmək.

**fortführen** *vt* davam etdirmək, davam vermək.

**Fortführung,** *die; -* davam etdirilmə, davamı; sürək.

**Fortgang,** *der; -(e)s* **1.** *(Fortdauer)* davam etmə; **2.** *(Weggang)* getmə, çıxıb getmə.

**fortgehen** *vi* çıxıb getmək; *fig.* davam etmək, sürmək.

**fortgeschritten** *adj.* irəliləmiş, artmış; tərəqqi etmiş, inkişaf etmiş, mütərəqqi, qabaqcıl.

**fortgesetzt** *adj.* daimi, davamlı.

**fortjagen** *vt* qovmaq.

**fortkommen** *vi* irəli getmək; çıxıb getmək; *mach, dass du fortkommst!* rədd ol!, çıx get!

**Fortkommen,** *das; -s* **1.** *(Vorankommen)* irəli getmə, qabağa getmə; **2.** çıxıb getmə, qaçma; **3.** *(beruflich usw.)* müvəffəq olmaq; **4.** *(Lebensunterhalt)* təmin olma, ruzi qazanma.

**fortlaufen** *vi* **1.** qaçmaq, qaçıb getmək; **2.** *(weitergehen)* davam etmək, uzanmaq.

**fortlaufend** *adj.* davamlı, sürəkli, arakəsilməz, cari, daimi; *adv.* dayanmadan, dəmbədən.

**Fortleben,** *das; -s* öldükdən sonra yaşama.

**fortpflanzen** *vt* yaymaq, genişləndirmək; *sich ~* yayılmaq; çoxalmaq.

**Fortpflanzung,** *die; -* **1.** *(Menschen, Tiere)* nəslin artması, çoxalma; **2.** *Phys.* yayılma.

**fortreißen** *vt* **1.** qoparmaq, qoparıb aparmaq; **2.** *(mit sich)* özü ilə çəkib aparmaq; *sich ~ lassen* valeh olmaq.

**fortschaffen** *vt* yığışdırmaq; aparmaq, götürüb getmək.

**fortscheren** *vr sich ~* çıxıb getmək, rədd olmaq; *scher dich fort!* itil!, rədd ol!

**fortschicken** *vt* göndərmək, yollamaq.

**fortschieben** *vt* çəkmək, itələmək.

**fortschleppen** *vt* zorla aparmaq, çəkib aparmaq.

**fortschreiten** *vi* irəli getmək, qabağa getmək *(bei, in D/-də).*

**fortschreitend** *adj.* irəliləyən, artan, inkişaf edən.

**Fortschritt,** *der; -(e)s, -e* tərəqqi, irəliləmə, öncüllük. sıçrayış, uğur; *~e machen* inkişaf etmək, irərləmə göstərmək.

**fortschrittlich** *adj.* qabaqcıl, öncül, mütərəqqi, tərəqqipərvər.

**fortschrittsfeindlich** *adj.* mürtəce, gerici, irticai, tərəqqiyə zidd olan.

**fortsetzen** *vt* davam etdirmək, -ə davam vermək; *vr sich ~* davam etmək.

**Fortsetzung,** *die; -, -en* davam, ard; *~ folgt* ardı var, davamı var.

**fortstehlen** *vr sich ~* əkilmək, çıxıb getmək.

**Fortuna,** *die; - rel.* bəxt Tanrısı.

**fortwährend** *adj.* sürəkli, daimi, mütəmadi; *adv.* daimi olaraq, həmişə, mütəmadi olaraq.

**fortwirken** *adj.* daimi təsir.

**Fortzahlung,** *die; -, -en* ödəmənin davamı.

**Forum,** *das; -s, Foren u. Fora* **1.** *his.* meydan, forum; **2.** ümumi yer, ictimai yer, ictimai müzakirə; **3.** *fig. (Gericht)* məhkəmə.

**fossil** *adj.* fosil(ləşmiş), daşlaşmış.

**Fossil,** *das; -s, -ien* daşa dönmüş, daşlaşmış, fosil.

**Foto,** *das; -s, -s* foto, şəkil *(Süd. : əks); auf dem ~* şəkildə, fotoda.

**Fotoalbum,** *das; -s, -ben* albom, şəkil albomu.

**Fotoapparat,** *der; -(e)s, -e* fotoaparat, şəkil çəkən cihaz.

**fotogen** *adj.* şəkli gözəl çıxan, fotogenik.

**Fotograf,** *der; -en, -en* şəkilçəkən, fotoqraf *(Süd. : əkkas).*

**fotografieren** *vt* şəkil çəkmək, əks salmaq; *sich ~ lassen* şəklini çəkdirmək, əksini saldırmaq.

**Fotokopie,** *die; -, -n* surət, fotosurət, kopya, fotokopya, əks.

**fotokopieren** *vt* surətini çıxarmaq, kopyasını çıxartmaq.

**Fotokopierer,** *der; -s, -* surətçıxaran cihaz.

**Fötus,** *der; -ses, -se u. Föten biol.* rüşeym, cənin.

**Foul,** *das; -s, -s* oyun qaydasının pozulması *(Süd. : favl).*

**Foyer,** *das; -s, -s* zal, foyə.

**Fr.** *Abk. Frau*

**Fracht,** *die; -, -en* **1.** yük; **2.** *(Preis für Beförderung)* aparılma *(daşınma)* pulu.

**Frachtbrief,** *der; -(e)s, -e* **1.** faktura, aparılma *(nəqliyyat)* sənədi; **2.** *mar.* konosament.

**Frachter,** *der; -s, -* yük gəmisi.

**Frachtraum,** *der; -(e)s, -¨e* yük yeri, anbar.

**Frachtschiff,** *das; -(e)s, -e* yük gəmisi.

**Frachtverkehr,** *das; -s, -* nəqliyyatçılıq, yük daşıyan nəqliyyat, yük nəqliyyatı.

**Frack,** *der; -(e)s, -s u. -¨e* frak, kişilər üçün rəsmi paltar.

**Frage,** *die; -, -n* **1.**sual, sorğu; **2.** *(Problem)* məsələ, dava; müəmma, iş; *e-e ~ beantworten* suala cavab vermək; *e-e ~ stellen* sual etmək, sual vermək; *das kommt nicht in ~* bu haqda heç söhbət ola bilməz; *in ~ stellen* şübhəyə salmaq, şübhə altına almaq; *ohne ~* şübhəsiz; *die ~ erörtern* məsələyə baxmaq, məsələni müzakirə etmək; *die Lösung der ~* məsələnin həlli.

**Fragebogen,** *der; -s, - u. -¨* sorğu *(sual)* vərəqəsi, anket, blank.

**fragen** *vt* soruşmaq, sormaq, xəbər almaq *(j-n nach D/bir kəsdən bir şeyi)*; *nach j-m ~* bir kəsi soruşmaq *; j-n um Rat ~* bir kəslə məsləhətləşmək, bir kəsin fikrini soruşmaq*; vr sich ~* özündən soruşmaq; *es fragt sich, ob...* bu sualdır ki.., sual olunur ki.., soruşulur ki..; *~ kostet nichts!* soruşmaq müftədir!, soruşmağa pul alınmır!.

**Fragesteller,** *der; -s, -* soruşan, sual edən.

**Fragesatz,** *der; -(e)s, -¨e* sual cümləsi.

**Fragezeichen,** *das; -s, -* sual işarəsi, sual əlaməti.

**fragil** *adj.* incə, zərif; həssas.

**fraglich** *adj.* **1.** *(ungewiss)* şübhəli, mübahisəli; **2.** *(betreffend)* barəsində danışılan, adı çəkilən, göstərilən.

**fraglos** *adj.* şübhəsiz, sözsüz.

**Fragment,** *das; -(e)s, -e* parça, hissə, fraqment.

**fragwürdig** *adj.* şübhəli, mübahisəli, anlaşıqsız.

**Fraktion,** *die; -, -en parl.* qrup, fraksiya *(Süd. : fraksiyon).*

**Fraktur,** *die; -, -en med.* sümüyün sınması.

**frank** *adj. ~ und frei* açıq-aydın, açıqcasına, sözün açığı.

**frankieren** *vt* marka ilə ödəmək, franko etmək, markalamaq *(Süd. : təmbr yapışdırmaq).*

**frankiert** *adj.* markalı; *der Brief ist nicht ausreichend ~* məktuba kifayət qədər marka vurulmayıb.

**franko** *adv.* pulsuz.

**Frankreich;** *-s* Fransa.

**Franse,** *die; -, -n* saçaq.

**Franzose,** *der; -n, -n* fransız *(Süd. : a. fransalı).*

**französisch** *adj.* fransız; *(Sprache)* fransızca.

**frappant** *adj.* qəribə, heyrətləndirici, təəccüblü.

**frappieren** *vt* **1.** heyrətləndirmək, heyrətə salmaq; **2.** buzla soyutmaq.

**frappierend** *adj.* heyrətləndirici; sürpriz.

**Fräse,** *der; -, -n* frez*(er).*

**fräsen** *vt* frezləmək, mətələmək.

**Fräser,** *der; -s, -* frezçi.

**Fräsemaschine,** *die; -, -n* frez maşını.

**fraß** *s. fressen.*

**Fraß,** *der; -es* **1.** *(Viehfutter)* yem; **2.** *med.* sümük çürüməsi.

**Fratze,** *die; -, -n* *(hässliches Gesicht)* sir-sifət, ağız-burun; *e-e ~ schneiden* ağız-burun əymək.

**Frau,** *die; -, -en* **1.** qadın, xatun; bəyim, *alte ~* qarı; **2.***(Ehefrau)* arvad; **3.** *(Anrede)*xanım; *~ Durna* Durna xanım; *gnädige ~!* hörmətli xanım!; *zweite Frau* günü.

**Frauenarzt,** *der; -es, -¨e* qadın doktoru, qadın həkimi.

**Frauenbewegung,** *die; -* qadınlar hərəkatı, feminizm.

**Frauenemanzipation,** *die; -* qadınların bərabər hüquq hərəkatı.

**Frauenhaus,** *das; -es, -¨er* qadınlar evi.

**Frauenklinik,** *die; -, -en* qadınlar klinikası *(Süd. : kliniki).*

**Frauenrechtlerin,** *die; -, -nen* feminist, qadınların bərabər hüququ üçün mübarizə edən qadın.

**Frauenstimmrecht,** *das; -(e)s* qadınların seçmə haqqı *(hüququ).*

**Frauensache,** *die; -* qadınlara aid.

**Fräulein,** *das; -s, -* qız; cavan qız; xanım qız.

**Freak,** *der; -s, -s* valeh, aludə; dəli.

**frech** *adj.* ədəbsiz, sırtıq, utanmaz, arsız-abırsız, çəpəl, diliuzun; *F* duzsuz; *adv.* utanmazcasına, həyasızlıqla; *~ werden* utanmazlıq etmək, azğınlaşmaq, həyasızlıq eləmək, diliuzunluq etmək; *F* duzsuzlanmaq, əzilmək; *sei nicht ~!* sırtıqlanma!, əzilmə!.

**Frechheit,** *die; -, -en* sırtıqlıq, həyasızlıq, utanmazlıq, azğınlıq, füzulluq, arsızlıq; insafsızlıq; *F* duzsuzluq; *so e-e ~!* belə həyasızliq!, belə tərbiyəsizlik!, belə duzsuzluq.

**Fregatte,** *die; -, -n* freqat, hərbi gəmi.

**Fregattenkapitän,** *der; -s, -e* freqat kapitanı.

**frei** *adj.* **1.** azad, sərbəst, ərkin; **2.** *(befreit)* azad edilmiş *(von D/-dən);* asudə; əngəlsiz;**3.***(unabhängig)* bağımsız, hürr, müstəqil, özgür; **4.***(Stelle)* boş, tutulmamış; **5.** *(unentgeltlich)* pulsuz, müftə; **6.** *(Himmel)* açıq; azad; *F im Freien* açıq havada; *~e Berufe* sərbəst peşələr; *~e Übersetzung* sərbəst tərcümə, başa düşülən tərcümə; *Eintritt ~* azad giriş; *auf ~en Fuß setzen* azad etmək *(həbsdən); e-e ~e Stelle* bir boş *(tutulmamış)*iş yeri; *den Oberkörper ~ machen* beldən yuxarı soyunmaq; *ist hier ~?* bura boşmu?.

**Freibad,** *das; -(e)s, -¨er* açıq hava hovuzu.

**freibekommen** *vt* *(j-n)* azad etmək, qurtarmaq; *vi* *(von der Arbeit, von der Schule)* icazə almaq.

**Freiberufler,** *der; -s, -* müstəqil peşə sahibi.

**freiberuflich** *adj.* müstəqil peşədə, azad peşədə.

**Freibetrag,** *der; -(e)s, -¨e* vergidən azad gəlir, vergisiz gəlir.

**Freidenker,** *der; -s, -* azadfikirli; heç bir dinə bağlı olmayan adam.

**Freiexemplar,** *das; -s, -e* pulsuz nüsxə *(kitab).*

**Freigabe,** *die; -* azad olma *(etmə).*

**freigeben** *vt* **1.**azad etmək; **2.** *(Schülern)* dərsdən azad etmək, buraxmaq, icazə vermək.

**freigebig** *adj.* əliaçıq, səxavətli, gözütox, comərd, azadə, cavanmərd, hatəm; *F* kişi.

**Freigebigkeit,** *die; -* əliaçıqlıq, səxavət, comərdlik, cavanmərdlik, hatəmlik.

**Freigehege,** *das; -s, - (im Tierpark)* heyvanların azad dolanmaqları üçün yer.

**Freigeist,** *der; -(e)s, -er* azadfikirli, sərbəst düşünən.

**freihaben** *vi* icazəli olmaq.

**Freihafen,** *der; -s, -¨* azad liman.

**freihalten** *vt* **1.** qonaq etmək *(j-n/bir kəsi);* **2.** *(Platz)* boş saxlamaq, yer tutmaq.

**Freihandel,** *der; -s* azad ticarət.

**Freiheit,** *die; -* özgürlük, azadlıq, sərbəstlik, hürriyyət; *sich die ~ nehmen zu - məyə* cəsarət etmək.

**freiheitlich** *adj.* azad, azadlıq, xilaskarlıq, ipə-sapa yatmaz, özgür.

**Freiheitsberaubung,** *die; -* azadlıqdan *(özgürlükdən)* məhrum etmə.

**Freiheitskämpfer,** *der; -s, -* azadlıq uğrunda mübariz.

**freiheitsliebend** *adj.* azadlıqsevən.

**Freiheitsstrafe,** *die; -, -n* həbs, azadlıqdan məhrum etmə.

**Freiherr,** *der; -en -en* Baron.

**Freikarte,** *die; -, -n* pulsuz bilet.

**freikommen** *vt jur.* azad edilmək, azad olmaq.

**Freikörperkultur,** *die; - (FKK)* təbiətdə lüt gəzmə.

**freilassen** *vt* **1.** azad etmək; **2.** *(Gefangene)* həbsdən buraxmaq; **3.** *(Zeile)* boş qoymaq.

**Freilassung,** *die; -* azad etmə; buraxma, azad olunma, azadlıq.

**Freilauf,** *der; -(e)s, -¨e techn.* boş gediş.

**freilegen** *vt* açmaq, üstünü açmaq, açıb çıxartmaq.

**freilich** *adj.* şübhəsiz, əlbəttə.

**Freilichtbühne,** *die; -, -n* açıq səhnə.

**freimachen** *vt* **1.** *(Körperteil)* açmaq; **2.** *(Weg)* açmaq; **3.** *(Raum)* boşaltmaq; **4.** *(Brief)* markalamaq *(Süd. : təmbr yapışdırmaq); sich ~* canını qurtarmaq, yaxasını qurtarmaq; *sich beim Arzt ~* soyunmaq.

**Freimarke,** *die; -, -n* poçt markası *(Süd. : təmbr).*

**Freimaurer,** *der; -s, -* mason *(Süd. : framasyon).*

**Freimaurerei,** *die; -* masonluq, framasonluq.

**freimütig** *adj.* sözünü açıq deyən, çəkinməyən.

**Freimütigkeit,** *die; -* safdillik, açıqsözlülük.

**freischaffend** *adj.* azad peşədə işləyən, müstəqil.

**Freischar,** *die; -, -en mil.* könüllü partizan dəstəsi.

**Freischärler,** *der; -s, -* partizan.

**Freischwimmen,** *das; -s* rəsmi kontrol altında 15 dəqiqə üzə bilməyini isbat etmə; *fig. sich freischwimmen* özbaşına hərəkət etməyi öyrənmək.

**freisetzen** *vt* **1.** azad etmək; **2.** *(Gas usw.)* buraxmaq; *fig. j-n ~ (entlassen)* bir kəsi işdən çıxartmaq.

**freisprechen** *vt* bəraət qazandırmaq, təmizə çıxarmaq, bəraətləndirmək.

**Freispruch,** *der; -(e)s, -¨e* bəraət, bəraət haqqında hökm.

**Freistaat,** *der; -(e)s, -en* sərbəst dövlət.

**freistehen** *vi* icazəsi olmaq, ixtiyarı olmaq; *es steht dir frei zu ... -məkdə* ixtiyarın var.

**freistehend** *adj. (Haus)* boş; açıq yerdə duran.

**freistellen** *vt* buraxmaq *(j-m et./ öz ixtiyarına, öz öhdəsinə); j-n ~* bir kəsi azad etmək *(von D/-dən).*

**Freistil,** *der; -s* azad stil.

**Freistilringen,** *das; -s* sərbəst güləş, azad güləş.

**Freistoß,** *der; -es, -¨e (Fußball)* sərbəst zərbə.

**Freitag,** *der; -(e)s, -e* cümə ; *am ~* cümə günü.

**freitags** *adv.* cümə *(günü);* cümə günləri.

**Freitod,** *der; -(e)s, -e* özünü öldürmə, intihar.

**Freiübungen** *die/pl.* gimnastika *(Süd. :*

*jimnastik).*

**Freiumschlag,** *der; -(e)s, -¨e* markalı paket *(Süd. : təmbrili paket).*

**freiwerden** *vt* boşalmaq

**freiwillig** *adj.* könüllü.

**Freiwild,** *das; -(e)s* öldürülməsi azad *(sərbəst)* olan; ov.

**freiwillig** *adj.*könüllü, öz xoşu ilə, dovtələb.

**Freiwillige,** *der; -n, -n* könüllü, dovtələb.

**Freiwilligkeit,** *die; -* könüllülük.

**Freizeit,** *die; -* boş vaxt, asudə vaxt, fərağət.

**Freizügigkeit,** *die; -* sərbəst hərəkət hüququ, sərbəst yaşama hüququ.

**fremd** *adj.* yad, özgə, qərib, yabancı, əcnəbi, yadelli; *fig.* əcəmi; *er ist hier ~* buralı deyil; *j-m ~ werden* bir kəslə əlaqəni kəsmək; *~e Sprachen* xarici dillər.

**fremdartig** *adj.* qəribə, adət edilməmiş.

**Fremde**[1]**,** *der u. die; -n, -n* yad, əcnəbi, tanış olmayan, yadelli, qərib, kənar adam, özgə; *veralt.* əğyar *pl.*

**Fremde**[2]**,** *die; -* qürbət; *in der ~ leben* qürbətdə *(qəriblikdə)* yaşamaq.

**fremdenfeindlich** *adj.* yad sevməyən.

**Fremdenfeindlichkeit,** *die; -* yad *(əcnəbi)* düşmənçiliyi.

**Fremdenführer,** *der; -s, -* turist bələdçisi.

**Fremdenhass,** *der; -es* yadellilərə nifrət, əcnəbilərə nifrət.

**Fremdenlegion,** *die; -, -en* xarici legion *(Süd. : xarici lejyon).*

**Fremdenverkehr,** *der; -s* turizm.

**Fremdenzimmer,** *das; -s, -* kirayəyə verilən otaq; qonaq otağı.

**fremdgehen** *vi* özgə ilə cinsi əlaqə qurmaq.

**Fremdherrschaft,** *die; -, -en* yadelli ağalıq, xarici hökmranlıq.

**Fremdsprache,** *die; -, -n* xarici dil.

**Fremdwort,** *das; -(e)s, -¨er* xarici söz, əcnəbi söz.

**frenetisch** *adj.* şiddətli, coşğun; *~er Beifall* şiddətli alqışlar.

**frequentieren** *vt* tez-tez baş çəkmək, tez-tez yoluxmaq, tez-tez bir yerə getmək.

**Frequenz,** *die; -, -en* **1.** *(Besucherzahl)* gələnlərin sayı, gələnlərin miqdarı; **2.** *(Häufigkeit)* çoxluq, külli miqdar; **3.** *phys.* frekans, tezlik .

**Freske,** *die; -, -n* freska, yaş divar üzərində çəkilmiş şəkil, divar şəkili.

**Freskomalerei,** *die; -, -en* freska rəssamlığı, divar üzərinə şəkil çəkmə *(rəssamlıq etmə).*

**Fresse,** *die; -, -n* *F* **1.** *(Mund)* ağız; **2.** *(Gesicht)* üz, sir-sifət; *j-m die ~ polieren vulg.* bir kəsin ağız-burnunu əzmək; *j-n in die ~ hauen* bir kəsin ağzına yumruq vurmaq.

**fressen** *vt* **1.** *(Tier)* yem yemək; **2.** *F (Mensch)* acgözlüklə yemək, tıxmaq, aşırmaq; **3.** *(Säure)* yeyilmək, yandırmaq; *der Wagen frisst viel Benzin* avtomobil çox benzin yeyir *(yandırır).*

**Fressen,** *das; -s* **1.** yem; **2.** *ein gefundenes ~ für j-n sein* göydən düşmüş nemət kimi olmaq, yağlı tikə olmaq.

**Fresssack,** *der; -(e)s, -¨e* qarınqulu.

**Freude,** *die; -, -n* sevinc, şadlıq, fərəh, şadyanalıq, dad-damaq; *mit ~n* həvəslə, məmnuniyyətlə, sevinc hissi ilə ; *vor ~* sevincdən; *j-m e-e ~ machen* bir kəsi sevindirmək, bir kəsi şad etmək; *s-e ~ haben* şad olmaq, sevinmək *(an D/-dən, -ə).*

**Freudenbotschaft,** *die; -, -en* şad xəbər, xoş xəbər.

**Freudenfest,** *das; -(e)s, -e* şənlik, şənlik bayramı.

**Freudenhaus,** *das; -es, -¨er* fahişəxana.

**Freudenmädchen,** *das; -s, -* fahişə.

**Freudenrausch,** *der; -es* sevincdən məst olma, sərməst.

**freudenreich** *adj.* sevinc ilə dolu.

**Freudentränen** *die/pl.* sevincdən axan göz yaşları; *~ vergießen* sevincdən ağlamaq.

**freudestrahlend** *adj.* sevinc içində, fərəhdən nəşələnən.

**freudig** *adj.* sevindirən, şən, fərəhli,

xoş, fərəhləndirici; *e-e ~e Nachricht erhalten* bir xoş *(fərəhli)* xəbər almaq.

**freudlos** *adj.* sevincsiz, fərəhsiz.

**freuen** *vt* sevindirmək, şadlandırmaq; *es freut mich* bu məni sevindirir; *-dən* məmnun oldum; *vr sich ~* sevinmək, şadlanmaq, fərəhlənmək, xoşhal olmaq, şad olmaq, şadyanalıq etmək, şənlənmək *(über A/-ə, -dən); F* enlənmək, həllənmək; qabaqcadan sevinmək *(auf A/-ə).*

**Freund,** *der; -(e)s, -e* dost, tanış, əş, ayaq, dəmsaz; *fig.* tərəfdar, həvəskar; *ein ~ der Kunst* incəsənətin tərəfdarı, incəsənətin həvəskarı; *sich mit j-m befreunden* bir kəs ilə ayaq olmaq, dost olmaq, bir kəsi dost tutmaq.

**Freundeskreis,** *der; -es, -e* dostlar, tanışlar, yanyövrə *pl.*

**Freundin,** *die; -, -nen* rəfiqə, qız dostu, sevgili; tanış qız.

**freundlich** *adj.* **1.** səmimi, mehriban, dostcasına, gülərüzlü, üzügülər, güləşqabaq, açıqürəkli, hallı, istiqanlı; *adv.* səmimiyyətlə, dostcasına, dostyana, dustyanə; *seien Sie so ~ !* lütfən!, zəhmət olmasa!; *mit ~en Grüßen* səmimi salamlarla; **2.** *(Farben usw.)* xoşa gələn, gözəl.

**freundlicherweise** *adv.* dostcasına, dostyana, dostanə, dustanə.

**Freundlichkeit,** *die; -, -en* mehribanlıq, üzügülərlik, səmimiyyət.

**Freundschaft,** *die; -, -en* dostluq; *fig.* duz-çörək; *~ schließen* dost olmaq, çörək kəsmək, dostluq qurmaq, dostlaşmaq, duz-çörək yemək.

**freundschaftlich** *adj.* dostluq, dostcasına, dostyana.

**Freundschaftsdienst,** *der; -es, -e* dostun dosta yardımı; *j-m e-n ~ erweisen* bir kəsə dostluq xidməti etmək *(göstərmək).*

**Freundschaftsspiel,** *das; -(e)s, -e (Sport)* dostluq yarışı *(müsabiqəsi).*

**Frevel,** *der; -s, -* təqsir, günah; xəta, cinayət.

**frevelhaft** *adj.* pis, yararsız, günah.

**freveln** *vi* qanunlara qarşı hörmətsizlik etmək; xəta etmək.

**Friede,** *der; -ns s. Frieden.*

**Frieden,** *der; -s* **1.** barış, əmin-amanlıq, sülh, asayiş, dinclik, əminlik; **2.** *(innerer)* rahatlıq, razılıq; *~ stiften* barışdırmaq; *~ schließen* sülh bağlamaq, barışmaq *(mit D/-ilə); in ~ lassen vt* rahat buraxmaq; *lass mich in ~!* məni rahat burax!

**Friedensabkommen,** *das; -s, -* sülh sazişi, sülh müqaviləsi.

**Friedensbewegung,** *die; -, -en* sülh hərəkatı.

**Friedensforschung,** *die; -* sülhün təmini üçün elmi tədqiqat.

**Friedensnobelpreis,** *der; -es, -e* Nobel sülh mükafatı.

**Friedenspolitik,** *die; -* sülh siyasəti.

**Friedensschluss,** *der; -es* sülh sazişi, sülh bağlanması.

**Friedensvertrag,** *der; -(e)s, -¨e* sülh sazişi, sülh müqaviləsi.

**friedfertig** *adj.* sülhsevər; sakit.

**Friedhof,** *der; -(e)s, -¨e* qəbiristan, qəbiristanlıq.

**friedlich** *adj.* **1.** sülhsevər; **2.** *(ruhig)* sakit, dinc; davasız, davasız-savaşsız.

**friedliebend** *adj.* sülhsevər, sülhpərvər, barışıçı, barışçıl.

**frieren** *vi* **1.** *(Wasser usw.)* donmaq; **2.** *(Mensch)* bərk üşümək; *ich friere* mən bərk üşüyürəm; *das Wasser ist gefroren* su donubdur; *mir ~ die Hände* əllərim üşüyür *(donur); frieren lassen* dondurmaq.

**Fries,** *der; -es, -e arch.* friz.

**frigide** *adj. (Frau bei Geschlechtsverkehr)* hissisiz, duyğusuz, buz kimi, soyuq.

**Frigidität,** *die; -* duyğusuzluq, hissizlik.

**Frikadelle,** *die; -, -n* küftə.

**Frikasse,** *das; -s, -s* doğranmış ətdən bişirilmiş bir növ xörək.

**frisch** *adj.* **1.** təzə; **2.** *(Wäsche)* təmiz; **3.** *(kühl)* sərin; **4.** *(neu)* yeni; **5.** *(fröhlich)* yaxşı, əhval-ruhiyyəli; *~ gestrichen!* tə-

zə boyanmışdır!; ~ *verheiratet* təzə evlənmiş; *sich ~ machen* əl-üzünü yumaq.

**Frische,** *die; -* təzəlik, təravət; sərinlik; təmizlik; cavanlıq.

**frischgebacken** *adj.* təzə bişmiş, təzəcə bişirilmiş.

**Frischling,** *der; -s, -e* donuz balası, cavan donuz.

**Friseur,** *der; -s, -e* dəllək, bərbər.

**Friseuse,** *die; -, -n* dəllək, bərbər *(qadın).*

**frisieren** *vt* bir kəsin saçını vurmaq; *fig.* bəzəmək, daha yaxşı göstərmək; *vr sich ~* saçını *(saçlarını)* düzəltmək.

**Frisör,** *der; -s, -e* bərbər, dəllək.

**Frisörin,** *die; -, -nen* dəllək, bərbər *(qadın).*

**Frist,** *die; -, -en* **1.** *(Zeitraum)* müddət, vaxt, vədə, zaman, aman; **2.** *(Zeitpunkt)* möhlət; sürə *e-e ~ setzen* müddət qoymaq, vaxtı təyin etmək; *e-e zusätzliche ~ geben* vədəni uzatmaq; *e-e ~ überschreiten* müddətə əməl etməmək.

**fristen** *vt sein Leben ärmlich ~* yoxsulluqla həyat keçirmək.

**fristgemäß** *adj.* vaxtında.

**fristgerecht** *adj.* vaxtında.

**fristlos** *adj.* müddətsiz, vədəsiz.

**Fristverlängerung,** *die; -, -en* müddəti uzatma; möhlət.

**Frisur,** *die; -, -en* saça verilən forma; daranma; darama.

**Friteuse,** *die; -, -n* fritöz, yağda qızartma üçün elektrik qazan.

**fritieren** *vt* yağda qızartmaq.

**frivol** *adj.* **1.** *(schlüpfrig)* ədəbdən uzaq; **2.** *(zweideutig)* ikimənalı.

**froh** *adj.* şad, sevincli, sevincək, şən, dilxoş; *e-e ~e Nachricht* bir şad xəbər; *~ sein* sevinmək, şad olmaq *(über A/-ə, -dən) ich bin ~, dass ...* mən sevinirəm ki...

**frohgemut** *adj.* nəşəli, fərəhli; şənxasiyyətli.

**fröhlich** *adj.* şən, fərəhli, şad, güləşqabaq*(lı),* güləyən, deyib-gülən.

**Fröhlichkeit,** *die; -* şənlik, şadlıq.

**frohlocken** *vi (sich freuen, triumphieren)* şadlıq etmək, şənlik etmək, sevinmək *(über A/-ə).*

**Frohsinn,** *der; -(e)s* şad, xoşxasiyyət.

**fromm** *adj.* **1.** dindar, mömin, abid, dəyanətli, etiqadlı; **2.** *(Pferd)* sakit, mülayim; **3.** *ein ~er Wunsch* yerinə yetirilməz bir arzu.

**Frömmelei,** *die; -* riyakarlıq, ikiüzlülük.

**Frömmigkeit,** *die; -* dindarlıq, möminlik, dəyanət.

**Frömmler,** *der; -s, -* riyakar.

**Fron,** *die; -, -en* icbari iş.

**Fronarbeit,** *die; -, -en* icbari iş.

**fronen** *vt* icbari iş görmək.

**frönen** *vt* əsiri olmaq, mübtəlası olmaq.

**Front,** *die; -, -en* **1.** *(Vorderseite)* ön tərəf, qabaq tərəf; **2.** *mil.* cəbhə; *an der ~* cəbhədə.

**frontal** *adj.* qabaqdan, ön tərəfdən.

**Frontalangriff,** *der; -(e)s, -e* düşmənin ön sıralarına hücum.

**Frontalzusammenstoß,** *der; -es, -¨e* ön tərəfdən toqquşma.

**Frontkämpfer,** *der; -s, -* cəbhəçi.

**fror** *s. frieren.*

**Frosch,** *der; -es, -¨e* qurbağa; *fig. sei kein ~* oyunbazlıq etmə, naz etmə.

**Froschmann,** *der; -(e)s, -¨er* qurbağa adamı, balıq adamı, dalğıc.

**Froschperspektive,** *die; -, -n fig.* dargörüşlülük, məhdud dünyagörüşü.

**Frost,** *der; -(e)s, -¨e* şaxta, bərk soyuq, bürudət, don; *F* sazaq.

**frostbeständig** *adj.* şaxtaya davamlı.

**Frostbeule,** *die; -, -n med.* donma, şaxta vurmuş yer.

**frösteln** *vt es fröstelt mich, vi ich fröstele* mən üşüyürəm *(donuram).*

**frostfrei** *adj.* buzsuz.

**frostig** *adj.* şaxtalı; *fig.* çox soyuq.

**Frostmittel,** *das; -s, -* antifriz.

**Frostschaden,** *der; -* don vurma, donma.

**Frostwetter,** *das; -s* şaxta.

**frottieren** *vt* sürtmək; masaj vermək.

**Frucht,** *die; -, -¨e* **1.** meyvə, bar; **2.** *fig.* səmərə, nəticə; *Früchte tragen* meyvə

*(səmərə)* vermək, bar gətirmək.

**fruchtbar** *adj.* barlı, məhsuldar, münbit; səmərəli.

**Fruchtbarkeit,** *die;* - bərəkət, səmərə.

**fruchtbringend** *adj. s. fruchtbar.*

**fruchten** *vt fig.* təsir qoymaq, əsər etmək; *nichts ~* heç bir neticə verməmək, heç bir təsir qoymamaq.

**Fruchtjog(h)urt,** *der; -s, -e* meyvəli yoğurt *(qatıq).*

**fruchtlos** *adj.* nəticəsiz; *adv.* boşuna, boş, əbəs yerə.

**Fruchtpresse,** *die; -, -n* meyvəsıxan, şirəçıxaran.

**Fruchtsaft,** *der; -(e)s, -¨e* meyvə şirəsi, meyvə suyu.

**Fruchtzucker,** *der; -s, -* meyvə şəkəri.

**frugal** *adj.* *(bescheiden)* sadə, cüzi *(yemək).*

**früh** *adj. u. adv.* **1.** tez, erkən; **2.** *(morgens)* səhər tezdən; *~er Tod* vaxtsız ölüm; *adv. (vorzeitig)* tezdən, erkən, ertədən; qabaqcadan; *von ~ bis spät* səhər tezdən axşama qədər; *zu ~ kommen* çox tez gəlmək, ertə gəlmək, erkən gəlmək; *heute ~* bugün tezdən; *~ genug* çox tez, gec olmadan, erkən.

**Frühaufsteher,** *der; -s, -* yuxudan tez duran.

**Frühe,** *die;* - sübh; *in aller ~* səhər tezdən, sübh tezdən.

**früher** *adv.* **1.** daha tez, daha ərkən; **2.** *(ehemalig)* keçmişdə, keçmiş vaxtda, keçənlərdə, qabaqda, əvvəl*(lər);* **3.** *(seinerzeit)* vaxtilə; **4.** *(vorzeitig)* vaxtından əvvəl, tez; *am frühesten* hər şeydən qabaq; *frühestens in drei Wochen* ən tezi üç həftədən sonra; *~ oder später* gec-tez.

**Früherkennung,** *die; - (z.B. Krebs)* tez bilmə, tez tanıma.

**Frühgeburt,** *die; -, -en* **1.** *med.* vaxtından qabaq doğum; **2.** *(Kind)* vaxtından əvvəl doğulmuş uşaq, düşük.

**Frühjahr,** *das; -(e)s, -e* bahar, yaz.

**Frühjahrsmode,** *die; -, -n* bahar modası.

**Frühling,** *der; -s, -e* bahar, yaz; *im ~* yazda, baharda.

**Frühmesse,** *die; -, -n* sübh duası *(katoliklərdə).*

**frühmorgens** *adv.* səhər tezdən, sübhdən, ertədən.

**frühreif** *adj.* **1.** tezyetişən, tezyetişmiş, əroğac; **2.** *(Kind)* tezböyümüş, yaşına uyğun olmayaraq inkişaf etmiş.

**Frühschoppen,** *der; -s, -* səhər tezdən tanışlarla oturub şərab içmək.

**Frühstück,** *das; -(e)s, -e* səhər yeməyi, qəhvəaltı, qəlyanaltı.

**frühstücken** *vt* səhər yeməyi yemək.

**frühzeitig** *adj. u. adv.* tez, səhər tezdən, ertədən, erkən; qabaqcadan.

**Frühzündung,** *die; -, -en techn.* vaxtından qabaq partlama.

**Frust,** *der; -s, - en* bezikmə, bezmə.

**Frustration,** *die; -, -en* bezikmə, bezmə, frustrasiya.

**Frustrieren** *vi* bezmək, bezikmək, frustrasiyaya salmaq.

**frustriert** *adj.* bezgin, özünə əmin olmayan.

**Fuchs,** *der; -es, -¨e* tülkü; *fig. (schlau)* hiyləgər, bic.

**Fuchsbau,** *der; -(e)s, -e* tülkü yuvası.

**fuchsen** *vt* əsəbiləşdirmək; *vr sich ~* əsəbiləşmək; *das fuchst mich* məni əsəbiləşdirir.

**Fuchspelz,** *der; -es, -e* tülkü dərisi.

**Fuchtel,** *die; -, -n* qılınc; *j-n unter der ~ haben* bir kəslə sərt rəftar etmək; bir kəsə qəyyumluq etmək; *unter j-s ~ stehen* bir kəsin nəzarəti altında olmaq.

**fuchtig** *adj.* qəzəbli, qeyzli.

**Fuder,** *das; -s, -* yük, araba yükü; *fig.* çoxlu, xeyli miqdarda.

**Fuffziger,** *der; -s, - F* ikiüzlü adam.

**Fug,** *der* : *mit ~ und Recht* tam hüquqla, haqlı olaraq.

**Fuge,** *die; -, -n* **1.** *(Rille)* oyuq, nov, çatqı; **2.** *mus.* fuqa; *fig. aus den ~n gehen* dağılmaq, xarab olmaq, pozuluşmaq.

**fügen** *vt* **1.** *(aneinander)* birləşdirmək, bir-birinə bağlamaq; **2.** *(ineinander)*qoymaq, əlavə etmək; *vr sich ~* 1. *(gehorchen)* baş əymək, itaət etmək; 2. *(sich*

*ereignen )* baş vermək, olmaq; *es fügte sich, dass...* təsadüf belə gətirdi ki.., belə oldu ki...

**füglich** *adj.* yaxşı, münasib surətdə.

**fügsam** *adj. (gehorsam)* üzüyola, sözəbaxan, itaətli, itaətkar.

**Fügung,** *die; -, -en* **1.** *(Gottes)* tale, təqdir; **2.** *(des Zufalls)* təsadüf.

**fühlbar** *adj.* **1.** hiss olunan, hiss edilən; **2.** *(auffällig)* gözə çarpan.

**fühlen** *vt* hiss etmək, duymaq, ehsas etmək; *j-m den Puls ~* kiminsə nəbzini yoxlamaq; *vr sich ~* özünü hiss etmək; *sich glücklich ~* özünü xoşbəxt hiss etmək.

**Fühler,** *der; -s, -* **1.** *(bei Insekten)* buynuz, bığcıq; **2.** *fig. s-e ~ ausstrecken* ehtiyatla öyrənmək.

**fühllos** *adj.* hissiz, duyğusuz, qəlbsiz.

**fühlsam** *adj.* həssas, səmimi.

**Fühlung,** *die; -* təmas, əlaqə; *in ~ bleiben* təmasda qalmaq, əlaqədə qalmaq *(mit D/ilə); mit j-m ~ aufnehmen* bir kəslə əlaqəyə girmək *(əlaqələnmək); die ~ verlieren (mit) -i* gözdən itirmək.

**fuhr** *s. fahren.*

**Fuhre,** *die; -, -n* **1.** araba yükü, yük; **2.** yük arabası ilə daşımaq.

**führen** *vt* **1.** *(hin~)* aparmaq, götürmək, çatdırmaq *(nach, zu D/-ə)*; **2.** *(her~)* gətirmək; **3.** *(geleiten)* yol göstərmək; **4.** *(tragen)* daşımaq; **5.** *(befehligen)* əmr vermək, sərəncam vermək; **6.** *(Krieg)* müharibə aparmaq; **7.** *(Auto)* maşını sürmək; **8.** *(Buch, Liste)* yazmaq; **9.** *(Leben)* yaşamaq, həyat sürmək; **10.** *(Ware)* satmaq; **11.** *(Geschäft)* idarə etmək; **12.** *(im Museum usw.)* gəzdirmək; **13.** *(an der Hand)* əlindən tutub aparmaq; *vi* 1. *(in Rangordnung)* yer tutmaq; 2. *(Brücke, Weg)* çıxmaq, aparıb çıxarmaq; *das führt zu nichts* bundan heç bir şey çıxmaz; *wohin soll das ~?* bu nəyə gətirib çıxaracaq? *vr sich ~* özünü aparmaq.

**führend** *adj.* **1.** başçılıq edən, aparan, aparıcı, rəhbər, baş; **2.** *(Rolle)* əsas, başlıca; *e-e ~e Rolle spielen* əsas rol oynamaq.

**Führer,** *der; -s, -* **1.** rəhbər, başçı, öndər, yolgöstərən, yönətici; *(auf einer Exkursion)* bələdçi; **2.** *(Chef)* rəis, şef; **3.** *pol.* lider; **4.** *(e-s Autos)* şofer; **5.** *(Mannschaftsführer)* komanda, kapitan.

**führerlos** *adj.* rəhbərsiz, baş(çı)sız.

**Führerschaft,** *die; -, -en* rəhbərlik, liderlik, başçılıq, hakimiyyət.

**Führerschein,** *der; -(e)s, -e* maşın sürmə haqqında şəhadətnamə *( Süd. : şoferlik təsdiqi).*

**Fuhrgeld,** *das; -(e)s, -er* daşıma pulu, nəqliyyə pulu.

**Fuhrmann,** *der; -(e)s, -leute u. -¨er* arabaçı, faytonçu.

**Fuhrpark,** *der; -s, -s* bir şirkətin və ya rəsmi idarənin bütöv arabaları.

**Führung,** *die; -, -en* **1.** idarə, rəhbərlik, başçılıq, hakimiyyət, böyüklük; bələdçilik; **2.** *(Geschäfte)* aparma, idarə etmə, yönətim; **3.** *mil.* komandanlıq; **4.** *(Partei)* rəhbərlik, *die ~ der Partei* partiya rəhbərliyi; *unter der ~* rəhbərliyi altında, idarəsi ilə.

**Führungsakademie,** *die; -, -n* komandanlıq akademiyası.

**Führungszeugnis,** *das; -ses, -se* polisdən alınan sabiqəsizlik şəhadətnaməsi.

**Fuhrunternehmer,** *der; -s, -* nəqliyyat şirkəti.

**Fuhrwerk,** *das; -(e)s, -e* daşqa.

**Fülle,** *die, -* **1.** bolluq, çoxluq; *in Hülle und ~* bol, çox-çox; **2.** *(Körperfülle)* köklük.

**füllen** *vt* **1.** doldurmaq; *(in A -ə)* boşaltmaq; **2.** *(Ballon)* üfləmək, şişirtmək; *vr sich ~ (mit -lə)* dolmaq, şişmək.

**Füllen,** *das; -s, - (Fohlen)*qulan, dayça, qoduq.

**Füller,** *der; -s, -* avtomat qələm, dolma qələm.

**Füllfederhalter,** *der; -s, -* *s. Füller.*

**füllig** *adj.* kök.

**Füllung,** *die; -, -en* **1.** doldurma, iç qoyma; dolma; *-in* içi; **2.** *(Zahnfüllung)* plomb.

**Füllwort,** *das; -(e)s, -¨er* uzun söz, boş söz.

**fulminant** *adj.* əla, parlaq, böyük.

**fummeln** *vi* **1.** *(nach et.)* əllə axtarmaq; **2.** əllə düzəltməyə çalışmaq *(an D/ bir şeyi)*; **3.** *(Personen)* cinsi hisslə bir-birini əlləmək.

**Fund,** *der; -(e)s, -e* tapılan şey, tapıntı.

**Fundament,** *das; -(e)s, -e* əsas, təməl, bünövrə, baza, bünyad, özül.

**fundamental** *adj.* əsaslı, möhkəm.

**Fundamentalismus,** *der; - rel.* mütəəssib dinçilik, hədsiz dinçilik.

**Fundamentalist,** *der; -en, -en rel.* fundamentalist, mütəəssib dinçi, şitini çıxardan dinçi.

**Fundbüro,** *das; -s, -s* tapıntı bürosu.

**Fundgrube,** *die; - fig.* mədən.

**fundieren** *vt* **1.** əsasını qoymaq, əsaslandırmaq; **2.** *(finanziell)* pul qoymaq, sərmayə qoymaq.

**fünf** beş.

**Fünf,** *die; -, -en* beş, beşlik.

**fünfeckig** *adj.* beşbucaqlı.

**fünfeinhalb** beşyarım.

**fünferlei** *adj.* beşcür, beş növlü.

**fünffach** *adj.* beşqat, birə-beş.

**fünffältig** *adj.* beşqat, beşqatlı.

**fünfflächig** *adj.* beşüzlü.

**fünfhundert** beşyüz.

**fünfhundertst-** beşyüzüncü.

**fünfjährig** *adj.* beşillik, beşyaşlı.

**fünfjährlich** *adj.* hər beş ildə təkrar olunan.

**Fünfkampf,** *der; -(e)s Sport* beş növ idman oyunundan ibarət yarış.

**fünfmal** *adv.* beş dəfə.

**fünfmonatig** *adj.* beşaylıq.

**fünfstellig** *adj.* beşrəqəmli, beşədədli.

**fünfstöckig** *adj.* beşmərtəbəli.

**fünftägig** *adj.* beşgünllük.

**Fünftel,** *das; -s, -* beşdə bir.

**fünftens** *adv.* beşinci.

**fünfzehn** onbeş.

**fünfzig** əlli.

**Fünfziger,** *der; -s, -* əllilə altmış yaşı arasında olan kişi.

**fünfzigjährig** *adj.* əlliyaşlı, əlliillik.

**fünfzigste** *Ordinalzahl.* əllinci.

**fungieren** *vi* xidmət etmək, işləmək; *~ als ..kimi* vəzifəsini yerinə yetirmək.

**Funk,** *der; -s* radio; telsiz; *im ~* radio verilişindən.

**Funkanlage,** *die; -, -n* radio qurğusu; radiostansiya.

**Fünkchen,** *das; -s, - fig.* zərrə; *ein ~* bir zərrə.

**Funke,** *der; -ns, -n* qığılcım, işıltı, çaxış; *fig.* zərrə; *der ~ im Pulverfass* barıt çəlləyində *(boçkasında)* qığılcım.

**funkeln** *vi* **1.** qığılcım saçmaq; işıltı saçmaq; **2.** *(Auge)* parıldamaq.

**funkelnagelneu** *adj.* təptəzə.

**funken** *vt* radio ilə vermək; telsiz ilə bildirmək.

**Funker,** *der; -s, -* radiostansiyanın operatoru; radist.

**Funkspruch,** *der; -(e)s, -¨e* radio ilə xəbər vermə; radioqramma.

**Funkstation,** *die; -, -en* radio stansiyası, radio istasyonu.

**Funktaxi,** *das; -s, -s* telefon taksisi.

**Funktelegramm,** *das; -s, -e* radioteleqram.

**Funktion,** *die; -, -en* **1.** vəzifə, iş; rol; **2.** *math.* funksiya *(Süd. : funksiyon).*

**Funktionär,** *der; -s, -e* qulluqçu, xidmət edən, xadim; fəal.

**funktionieren** *vi* işləmək, vəzifəsini yerinə yetirmək.

**Funkturm,** *der; -(e)s, -¨e* radio qülləsi.

**Funkverbindung,** *die; -, -en* radio əlaqəsi.

**für** *präp.; mit A* **1.** üçün, ötrü*; (-ə, -a); ~ dich habe ich ein Geschenk gekauft* sənin üçün bir hədiyyə aldım, sənə bir hədiyyə aldım; **2.***(zugunsten)* uğrun(d)a, lehinə, xeyrinə; *~ das Vaterland* vətən uğrunda; **3.** *(an Stelle)* yerinə, əvəzində; **4.** *(gegen)* qarşı, zidd; *ein Medikament ~ Kopfschmerzen* başağrıya qarşı bir dərman; **5.** *(bestimmt für) -ə* məxsus; *Jahr ~ Jahr* ildən-ilə; *Schritt ~ Schritt* addım-addım; *ich ~ meine Person* mənə gəlincə; *e-e Sache ~ sich* ayrı bir məsələ, xüsusi bir məsələ; *an und ~ sich*

əslində, əslinə baxanda; *~ immer* həmişəlik.

**Fürbitte,** *die; -, -n* şəfaət, dua, xahiş,vəsatət, minnət.

**Furche,** *die; -, -n* **1.** *(Runzel)* qırışıq, bürüşük; **2.** *(Ackerfurche)* zolaq, şırım.

**furchen** *vt* bürüşdürmək, qırışdırmaq; şırım açmaq.

**Furcht,** *die; -* qorxu, dəhşət, hövl, bak, xof *(vor D/-dən); aus ~, vor ~* qorxudan, dəhşətdən, hövldən; *in ~ versetzen* qorxutmaq, dəhşətə gətirmək; *~ erregend* qorxunc, dəhşətli, bağırdələn.

**furchtbar** *adj.* **1.** dəhşətli, qorxulu, fəlakətli, bağırdələn, ətürpərdən, ətürpərdici; **2.** *(sehr)* artıq, çox, bərk; *es regnet ~* bərk yağış yağır.

**fürchten** *vt* qorxmaq *(j-n, et./-dən); vi* nigaran olmaq *(für, um A/nədən ötrüsə, kimdən ötrüsə); vr sich ~ vor D -dən* qorxmaq; *er fürchtet sich im Dunkeln* o, qaranlıqdan qorxur.

**fürchterlich** *adj. s. furchtbar.*

**furchtlos** *adj.* qorxusuz, ürəkli, qorxubilməz, qoçaq, bahadır, böyrəkli, cəsur, budal, canbaz, ciyərli, dəliqanlı, ər, ərən; *fig.* erkək; hünərli.

**Furchtlosigkeit,** *die; -* cəsarət, qorxusuzluq, qorxubilməzlik; *fig.* erkəklik, hünər.

**furchtsam** *adj.* qorxaq, ürəksiz, cürətsiz, ciyərsiz.

**Furchtsamkeit,** *die; -* qorxaqlıq, ürəksizlik, cürətsizlik.

**füreinander** *adv.* bir-bir(lər)i üçün.

**Furie,** *die; -, -n* **1.** *(in der Antike)* intiqam Məlaikəsi, öc Tanrısı; **2.** *fig.* deyingən qadın, ətiacı qadın.

**Furnier,** *das; -s, -e* faner, lay *(taxtadan).*

**furnieren** *vt* faner *(lay)* yapışdırmaq.

**Furore,** *das; -s od. die; - ~ machen* həyəcan yaratmaq, diqqət oyatmaq.

**fürs** = *für das.*

**Fürsorge,** *die; -* **1.** *(Pflege, Sorgfalt)* baxma, qayğı, himayə, kömək; *ärztliche ~* həkim kontrolu; **2.** *(amtlich)* ictimai təminat.

**fürsorglich** *adj.* qayğıkeş*(liklə).*

**Fürsprache,** *die; -* xahiş, təvəqqə, vəsatət; minnət; havadarlıq ; *für j-n ~ einlegen* bir kəs üçün vəsatət *(xahiş)* etmək.

**Fürsprecher,** *der; -s, -* havadar, qahmar duran *(çıxan)*, tərəfdar, vəkil, müdafiəçi; *sich zum ~ machen* müdafiəçisinə çevrilmək.

**Fürst,** *der; -en, -en* şazda, bəy, əmir, xan; hökmdar, knyaz.

**Fürstentum,** *das; -s, -¨er* bəylik, şahzadəlik, knyazlıq.

**fürstlich** *adj. fig.* cah-calallı.

**Furt,** *die; -, -en* çay keçidi, dayaz yer.

**Furunkel,** *der u. das; -s, - med.* çiban.

**Furunkulose,** *die; -, -n med.* bir neçə çibanın bir-birinin ardınca çıxması.

**Fürwort,** *das; -(e)s, -¨er gr.* əvəzlik.

**Furz,** *der; -es, -¨e* osturaq.

**furzen** *vt* osturmaq, pısıtmaq, əldən qoymaq, qarından qaz buraxmaq.

**Fusel,** *der; -s,-* təmizlənməmiş araq.

**fuseln**[1] *vt* təmizlənməmiş araq içmək.

**fuseln**[2] *vt (unleserlich schreiben)* cızma-qara yazmaq, cızma-qaralamaq .

**Fusion,** *die; -, -en* birləşmə, qovuşma.

**fusionieren** *vt* birləşmək, birləşdirmək, qovuşmaq, qarışmaq; *zwei Unternehmen haben fusioniert* iki şirkət birləşdilər.

**Fuß,** *der; -es, -¨e* **1.** ayaq; **2.** *(e-s Möbelstücks)* ayaq, qıç; **3.** *(e-s Berges)* ətək, yamac, dağətəyi; **4.** *(Maß)* fut, qədəm; *zu ~* piyada, ayaqla; *festen ~ fassen* ayaqları üstə möhkəm durmaq; *~ fassen* yerləşmək, daxil olmaq, qatılmaq; *auf eigenen Füßen stehen* öz ayağı üstə durmaq, müstəqil olmaq; *fig. kalte Füße bekommen* qorxmaq, çəkinmək; *j-n mit Füßen treten* bir kəslə kobud rəftar etmək; *auf freiem ~ sein* azad olmaq, həbsdə olmamaq; *mit e-m ~(e) im Grabe stehen* bir ayağı qəbirdə olmaq; *sich mit Händen und Füßen wehren* bir şeydən şiddətlə özünü müdafiə etmək; *mit Füßen treten* ayaqlamaq; *am ~e des Berges* dağın ətəyində.

**Fußabdruck,** *der; -(e)s, -¨e* ayaq izi.

**Fußball,** *der; -(e)s, -¨e* futbol.

**Fußballer,** *der; -s, -* futbolçu.

**Fußboden,** *der; -s, - u. -¨* döşəmə.

**Fußbodenbelag,** *der; -(e)s, -¨e* döşəmə örtüyü.

**Fussel,** *die; -, -n* iplik parçası, yun parçası, bez parçası; narın tük, xov.

**fußen** *vi* əsaslanmaq, arxalanmaq *(auf D/-ə).*

**Fußgänger,** *der; -s, -* piyada *(gedən).*

**Fußgängerzone,** *die; -, -n* küçə səkisi, səki.

**Fußknöchel,** *der; -s, -* topuq; aşıq sümüyü; *(Rindern)* dəkkə, maça.

**Fußnote,** *die; -, -n* sətiraltı qeyd.

**Fußsohle,** *die; -, -n* ayağın altı, daban.

**Fußpilz,** *der; -es med.* ayaq göbələyi.

**Fußspur,** *die; -, -en* ayaq izi, ayaq yeri.

**Fußsteig,** *der; -(e)s, -e* səki.

**Fußtritt,** *der; -(e)s, -e* təpik; *j-m e-n ~ versetzen (D/-ə)* təpik vurmaq.

**Fußvolk,** *das; -(e)s mil.* piyada qoşun; *fig.* avam millət.

**Fußweg,** *der; -(e)s, -e* piyada gedənlər üçün yol, səki; *e-e Stunde ~* piyada bir saat, bir saat piyada yol.

**Futon,** *der; -s, -s* Yaponiya döşəyi.

**futsch** *adj. F ~ sein* məhv olmaq, boş çıxmaq, hədər getmək.

**Futter**[1]**,** *das; -s* **1.** yeyəcək; **2.** *(Tierfutter)* yem; *(Trockenfutter für Vieh)* həşəm; *(Futterplatz für Tiere )* axır.

**Futter**[2]**,** *das; -s, - (Kleidung)* astar.

**Futteral,** *das; -s, -e* qutu, qab.

**Futterkrippe,** *die; -, -n* yemlik, yem təknəsi.

**füttern** *vt* **1.** *(Tiere)* yemləmək, yem vermək; **2.** *(Kind)* yemək yedirtmək, yemək vermək; **3.** *(Kleider)* astarlamaq, astar çəkmək.

**Fütternapf,** *der; -es, -¨e*

**Futterstoff,** *der; -(e)s, -e* astarlıq parça.

**Fütterung,** *die; -, -en* yem vermə.

**Futur,** *das; -s gr.* gələcək zaman.

**Futurismus,** *der; -* futurizm, gələcəklik.

**Futurologe,** *der; -n -n* futuroloq.

**Futurum,** *das; -s, Futura gr.* gələcək zaman.

# G

**G,** *das; -, -* **1.** alman əlifbasının yeddinci hərfi; **2.** *mus.* sol.

**gab** *s. geben.*

**Gabe,** *die; -, -n* **1.** *(Schenkung)* bəxşiş, hədiyyə, peşkəş, armağan, ərməğan; *veralt.* əta, nəmət; **2.** *(Almosen)* sədəqə; qənimət; **3.** *(Begabung)* bacarıq, qabiliyyət; **4.** *nur sg. med.* müəyyən miqdar*(dərman)* vermə.

**Gabel,** *die; -, -n* **1.** çəngəl; çatal; **2.** *(Heugabel)* yaba.

**gabelförmig** *adj.* çəngələbənzər, ikihaça.

**Gabelfrühstück,** *das; -(e)s* yüngül səhər yeməyi.

**gabeln** *vt* çəngəllə götürmək; *vr sich ~ (Weg, Ast)* iki yerə ayrılmaq.

**Gabelstapler,** *der; -s, -* yükləyib-boşaldan maşın.

**Gabelung,** *die; -, -en* iki və ya bir neçə yerə ayrılma.

**Gabriel** Cəbrayil.

**gackeln** *vi (Huhn)* qaqqıldamaq.

**gackern** *vi* qaqqıldamaq.

**gaffen** *vt* boş-boş baxmaq, ağzını açıb baxmaq, maymaqlıq etmək.

**Gaffer,** *der; -s, -* maymaq, veyil.

**Gag,** *der; -s, -s* zarafat, məzəli söz.

**Gage,** *die; -, -n künstler* əmək haqqı, ücrət, maaş.

**gähnen** *vi* əsnəmək.

**gähnend** *adj. ~e Leere* bomboş.

**Gala,** *die; -* **1.** rəsmi paltar; **2.** *(festliche Veranstaltung)* təntənəli mərasim.

**Galaabend,** *der; -s, -e* qala gecəsi.

**Galan,** *der; -s, -e* dost; aşiq, sevgili.

**galant** *adj.* qadınlara çox ədəb göstərən kişi, nəzakətli; *~es Abenteuer* aşiqanə macəra.

**Galanterie,** *die; -, -n* ədəb, nəzakət; qadınlara yaltaqlanma.

**Galeere,** *die; -, -n* avarlı hərbi gəmi.

**Galeerensklave,** *der; -n, -n* avarçəkən qul.

**Galerie,** *die; -, -n* **1.** *(Bildergalerie)* qalereya; **2.** *Th.* yuxarı yer, ən ucuz yer.

**Galgen,** *der; -s, -* dar ağacı; *j-n an den ~ bringen* bir kəsi dar ağacından asmaq.

**Galgenfrist,** *die; -, (-en) fig.* son möh-lət, qısavaxtlı möhlət.

**Galgenhumor,** *der; -s* qəmli *(acı)* məzhəkə.

**Galgenvogel,** *der; -s fig. (Strolch)* səfil, avara, sərsəri həyat sürən adam.

**Galle,** *die; -, -n* **1.** *(Sekret) nur sg.* öd, səfra; **2.** at ayağında olan şiş; **3.** *(Organ) s. Gallenblase.*

**galle(n)bitter** *adj.* öd kimi acı, zəhər kimi.

**Gallenblase,** *die; -, -n* öd kisəsi, səfra kisəsi.

**Gallenkolik,** *die; -, -en* öd kisəsinin ağrısı *(sancısı).*

**Gallenstein,** *der; -(e)s, -e* öd kisəsinin daşı.

**Gallert,** *das; -(e)s, -e* jelatin.

**Gallerte,** *die; -, -n* jelatin.

**gallertig** *adj.* jelatinli.

**gallertartig** *adj.* jelatin kimi.

**gallig** *adj.* **1.** ödlü; acı; zəhərli; **2.** *fig. (boshaft)* tezacıqlanan, tündməzac; kədərli.

**Galone,** *die; -, -n* zərli qaytan; ilgək, hörmə qaytan.

**Galopp,** *der; -s, -e* dördayaq, dördnala; *im ~ reiten* dördnala çapmaq, çaparaqlamaq, çapan getmək *(sürmək).*

**galoppieren** *vi* dördnala çapmaq, çaparaqlamaq, çapmaq; *fig.* yeyin getmək.

**Galosche,** *die; -, -n* qaloş, rezin çəkmə.

**galt** *s. gelten.*

**galvanisch** *adj.* qalvanik.

**galvanisieren** *vt* içərisindən qalvanik cərəyan keçirmək, qalvanizasiya etmək.

**gammelig** *adj. F* xarab olmuş, iylənmiş, kif atmış; pis paltar geymiş, pis geyimli; pinti, cülümbur.

**gammeln** *vi* **1.***(Brot usw.)* xarab olmaq; **2.** *(dahin leben)* avaralanmaq, veyil-veyil gəzmək; **3.** *(bei der Arbeit)* tənbəllik etmək.

**Gammler,** *der; -s, -* veyillənən.

**Gämse,** *die; -, -n* dağ keçisi.

**Gang,** *der; -(e)s, -¨e* **1.** yeriş; **2.** *(Bewegung)* hərəkət; **3.** *(Verlauf)* cərəyan, gediş; **4.** *(Weg)* yol; **5.** *(Hausflur)* koridor, dəhliz, dalan; **6.** *(Auto)* sürət tənzimləyici *(Süd. : dəndə); in ~ bringen* hərəkətə gətirmək; *in ~ halten* hərəkətdə saxlamaq; *im ~ sein* hərəkətdə olmaq.

**gang** *adj. ~ und gäbe sein* adi hadisə olmaq, dəb olmaq.

**Gangart,** *die; -, -en* **1.** *(bei Tieren)* yeriş; **2.** *fig. (bei Vorgesetzten usw.)* rəftar.

**gangbar** *adj.* **1.** *(Weg)* keçilə bilən, keçilən; **2.** *(Ware)* tezsatılan; **3.** *(Münze)* dövr edən, çox işlənən.

**Gängelband,** *das; -(e)s, -¨er am ~ führen vt (bevormunden)* bir kəsə qəyyumluq etmək; *am ~ gehen* itaətində durmaq.

**gängeln** *vt F j-n ~* bir kəsi uşaq yerinə qoymaq, kimisə uşaq hesab etmək.

**gängig** *adj.* **1.** *(gebräuchlich)* çox işlənən, adət olmuş; **2.** *H* tezsatılan, işə gedən, rəvac; *die ~e Ware* rəvac mal.

**Gangster,** *der; -s, -* qanqster.

**Gangstertum,** *das; -s* qanqsterlik.

**Gangway,** *die; -, -s* hərəkətli pilləkən, trap; *(təyyarə və gəmi üçün).*

**Ganove,** *der; -n, -n* fırıldaqçı, kələkbaz, dələduz.

**Gans,** *die; -, -¨e* qaz; *fig.* axmaq, səfeh *(qadın).*

**Gänseblümchen,** *das; -s, -* qəpikçiçəyi, qızçiçəyi.

**Gänsebraten,** *der; -s, -* qızardılmış qaz.

**Gänsefüßchen,** *das; -s, - F* dırnaq işarəsi „ ".

**Gänsehaut,** *die; -* **1.** qaz dərisi; **2.** *fig. e-e ~ bekommen* tükləri biz-biz durmaq.

**Gänsemarsch,** *der; -es, -¨e* bir-birinin dalınca yerimə, sıra ilə yerimə.

**Gänserich,** *der; -s, -e* ərkək qaz.

**ganz** *adj.* **1.** bütün, tamam, büsbütün, dəc; *(~ genau)* eynən; **2.** *(heil)* bütöv, sağlam, salim, zədəsiz; *adv.* 1. *(völlig)* tamamilə, bütünlüklə; *~ recht* tamamilə düzdür; 2. *(sehr)* çox, xeyli; *~ schlecht* çox pis; *ich bin ~ traurig* mən çox kədərliyəm; 3. *(ziemlich)* olduqca, xeyli; *~ in der Nähe* lap yaxınlıqda; *den ~en Tag* bütün gün; *ein ~es Jahr* bütün il; *die ~e Zeit* heç durmadan; *von ~em Herzen* səmimi-qəlbdən; *~ und gar* tamamilə, bütün, əməlli, əməlli-başlı, mükəmməl, tam; *~ und gar nicht* heç, əsla, qətiyyən; *~ gewiss* şübhəsiz, əlbəttə; *im ~en (insgesamt)* bütövlükdə, küllən, cəmən; *~ wie du willst* nə cür istərsən; *F ~ richtig* dopdoğru; *F ~ voll* dopdolu; *~ gerade/ ~ genau* dümdüz, düpbədüz, düppədüz; *~ klar (Wasser)* dumduru, dupduru; *F die ~e Familie* evli-eşikli; *ich habe die ~e Familie von Parviz eingeladen* Pərvizi evli-eşikli qonaq çağırmışam.

**Ganze,** *das; -n* bütün, cəm, tam, cümlə, məcmu; *das ~ (alles) -in* hamısı; *aufs ~ gehen* hamısını istəmək; *im (Großen und) ~n* ümumiyyətlə, ümumiyyətcə.

**Ganzheit,** *die; -* bütövlük, bütünlük, dəclik; məcmu, küll.

**ganzheitlich** *adj.* bütöv, tam, mükəmməl ; *adv.* bütöv *(bütün)* olaraq.

**ganzjährig** *adj.* bütün il.

**gänzlich** *adj.* tam, bitmiş, külli; bütün; *adv.* tamamilə, birdəfəlik.

**ganztägig** *adv.* bütün gün; *~ geöffnet* bütün gün açıqdır.

**gar** *adj.* biş(iril)miş, qızar(ıl)mış; *nicht ~* bişməmiş, qızarmamış; *adv.* 1. *(sehr)* çox; *sie ist ein ~ schönes Mädchen* o, çox gözəl bir qızdır; 2. *(überaus)* həddindən artıq, son dərəcə, fövqəladə; 3. *(sogar)* hətta, belə; *~ nicht* heç; *~ nichts* heç bir şey; *~ keiner* heç kim.

**Garage,** *die; -, -n* qaraj.

**Garant,** *der; -en, -en* zamin, zamin olan *(für A/-ə).*

**Garantie,** *die; -, -n* zəmanət, zaminlik, qaranti; təminat.

**garantieren** *vt* zəmanət vermək, zamin olmaq; təminat vermək, təmin etmək.

**garantiert** *adj.* zəmanətli, təminatlı.

**Garantieschein,** *der; -(e)s, -e* təminat qəbzi.

**Garaus,** *der; - j-m den ~ machen* bir kəsi həlak etmək, bir kəsi öldürmək.

**Garbe,** *die; -, -n (Getreidegarbe)* dərz, bağ.

**Garde,** *die; -, -n* qvardiya, qarovul dəstəsi; *fig. von der alten ~ sein* arxayın adam olmaq, mötəbər adam olmaq.

**Garderobe,** *die; -, -n* **1.** *(Kleider)* paltar; **2.** *(zum Umkleiden)* paltar şkafi, qarderob.

**Gardine,** *die; -, -n* pərdə, tor pərdə; *fig. er sitzt hinter schwedischen ~n* o, həbsxanadadır.

**Gardinenleiste,** *die; -, -n* pərdə taxtası.

**Gardinenpredigt,** *die : F j-m e-e ~ halten* bir kəsi danlamaq, məzəmmət etmək.

**Gardist,** *der; -en, -en* mühafizə əsgəri və ya zabiti.

**garen** *vt* bişirmək, bişirib hazırlamaq.

**gären** *vi* **1.** *(bei der Herstellung von Wein, Essig usw.)* qıçqırmaq; acımaq; **2.** *fig. es gärt im Volk* xalq arasında narazılıq artır.

**Garn,** *das; -(e)s, -e* **1.** iplik, sap; **2.** *(Falle)* tor, tələ; *fig. j-m ins ~ gehen* bir kəsin toruna düşmək, bir kəsin tələsinə düşmək.

**Garnele,** *die; -, -n zo.* xərçəngin bir növü.

**garnieren** *vt (z.B. Torte mit Sahne)* üstünü bəzəmək.

**Garnison,** *die; -, -en* qarnizon, qalada yerləşən qoşun hissəsi.

**Garnitur,** *die; -, -en* **1.** *(Verzierung)* bəzək; **2.** *(von Geschirr usw.)* dəst; *zur ersten ~ gehören* ən yaxşılarından olmaq.

**garstig** *adj.* **1.** *(böse, hässlich)* çirkin, pis, iyrənc; **2.** *(Kind)* tərbiyəsiz, yaramaz.

**Garten,** *der; -s, -¨* bağ.

**Gartenbau,** *der; -(e)s* bağçılıq.

**Gartenhaus,** *das; -es, -¨er* **1.** *(Hinterhaus)* evin həyətə baxan tərəfi; **2.** *(Häuschen im Garten)* alaçıq, köşk, çardaq.

**Gartenlaube,** *die; -, -n* talvar, çardaq; bağda tikilmiş kiçik daxma.

**Gärtner,** *der; -s, -* bağban.

**Gärtnerei,** *die; -, -en* **1.** bağçılıq, bağbanlıq; **2.** böyük bağça.

**Gärung,** *die; -, -en* qıcqırma, turşuma; *fig. (Unzufriedenheit)* təşviş, həyəcan, təlatüm.

**Gas,** *das; -es, -e* qaz; *~ geben (Auto)* qaz vermək, qaza basmaq.

**Gasanstalt,** *die; -, -en* qaz müəssisəsi, qaz idarəsi.

**Gasflasche,** *die; -, -n* qaz balonu *(Süd. : qaz kapsulu).*

**gasförmig** *adj.* qazaoxşar, qaz halında olan.

**Gashahn,** *der; -(e)s, -¨e* qaz kranı *(Süd. : qaz şiri).*

**Gasherd,** *der; -(e)s, -e* qaz ocağı.

**Gaskammer,** *die; -, -n* qaz otağı.

**Gasleitung,** *die; -, -en* qaz kəməri, qaz borusu.

**Gasmaske,** *die; -, -n* qaz maskası.

**Gasmesser,** *der; -s, -* qaz sayğacı.

**Gaspedal,** *das; -s, -e (Auto)* qaz pedalı.

**Gaspistole,** *die; -, -n* qaz tapancası.

**Gasse,** *die; -, -n* dar küçə, döngə *(Süd. : a. dərbənd).*

**Gassenhauer,** *der; -s, - F* çeynənmiş mahnı.

**Gassi** : *mit dem Hund ~ gehen* iti evdən eşiyə çıxarıb gəzdirmək.

**Gast,** *der; -(e)s, -¨e* **1.** qonaq; **2.** *(Hotelgast)* mehmanxana sakini, müsafir; **3.** *(im Lokal usw.)* müştəri.

**Gastarbeiter,** *der; -s, -* xarici ölkədən gələn işçi, xarici fəhlə, mühacir fəhlə.

**Gästebuch,** *das; -(e)s, -¨er* fəxri qonaqlar kitabı, rəy kitabı.

**Gästehaus,** *das; -es, -¨er* müsafirxana, kiçik hotel, mehmanxana, qonaq evi.

**Gastzimmer,** *das; -s, -* qonaq otağı.

**gastfreundlich** *adj.* qonaqpərvər, qonaqsevər, çörəkli; *~e Familie* çörəkli ailə.

**Gastfreundschaft,** *die; -* qonaqpərvərlik, qonaqsevərlik.

**Gastgeber,** *der; -s, -* ev yiyəsi, ev sahibi; qonaq sahibi, dəvətedici, çağıran.

**Gasthof,** *der; -(e)s, -¨e* mehmanxana.
**Gasthörer,** *der; -s, -* universitetdə qonaq dinləyici.
**gastieren** *vi Th.* qonaq olaraq səhnəyə getmək.
**gastlich** *adj.* qonaqsevən.
**Gastmahl,** *das; -(e)s, -e* ziyafət, qonaqlıq.
**Gastritis,** *die; - med.* qastrit, mə`də iltihabı.
**Gastronomie,** *die; -* gastronomiya, hotel və ya restoran işi.
**Gaststätte,** *die; -, -n* mehmanxana.
**Gastwirt,** *der; -(e)s, -e* mehmanxanaçı, mehmanxana sahibi.
**Gastwirtschaft,** *die; -, -en* mehmanxana.
**Gasuhr,** *die; -, -en* qaz sayğacı.
**Gaswerk,** *das; -(e)s, -e s. Gasanstalt.*
**Gaszähler,** *der; -s, - s. Gasuhr.*
**Gatte,** *der; -n, -n* ər.
**Gatter,** *das; -s, -* şəbəkə, məhəccər; hasar, çəpər.
**Gattin,** *die; -, -nen* arvad.
**Gattung,** *die; -, -en* cins, növ; döl.
**Gattungsname,** *der; -ns, -n gr.* ümumi isim.
**Gau,** *der; -(e)s, -e* bölgə, vilayət.
**Gaudium,** *das; -s* şənlik, şadlıq.
**Gaukelei,** *die; -, -en* oyunbazlıq; aldatma, hoqqabazlıq.
**Gaukler,** *der; -s, -* oyunbaz; hoqqabaz, hiyləbaz.
**Gaul,** *der; -(e)s, -¨e* yabı, pis at.
**Gaumen,** *der; -s, -, -e* damaq.
**Gaumenlaut,** *der; -(e)s gr.* damaq səsi.
**Gauner,** *der; -s, -* hoqqabaz, fırıldaqçı, kələkbaz, dələduz, gəldi-gedər, gədə, adamoynadan, bic, əyyar, haramzadə; *F* dodu, lotu.
**Gaunerei,** *die; -, -en* fırıldaqçılıq, dələduzluq, əyyarlıq; *F* düyələkbazlıq; çal-çap.
**Gaunersprache,** *die; -* kələkbazlar dili, fırıldaqçılar jarqonu.
**Gay,** *der; -s, -s* həmcinsbaz, homoseksual.
**Gaze,** *die; -, -n* qaz, nazik tor.
**Gazelle,** *die; -, -n* ahu, ceyran.
**Gazette,** *die; -, -n* qəzet, cəridə.
**geädert** *adj.* damarlı; xəttli.
**geartet** *adj.* düzəldilmiş, qaydaya salınmış; *anders ~ sein* başqa cür olmaq.
**geb.** = *geboren* anadan olmuş, doğulmuş.
**Gebäck,** *das; -(e)s, -e* peçenye, şirin kökə.
**geballt** *adj.* yığılmış, sıxılmış, yumruq olmuş; toplu.
**gebannt** *adj. u. adv.* gərgin vəziyyətdə; həyəcanlı.
**gebar** *s. gebären.*
**Gebärde,** *die; -, -n* jest, ağız-burun əymə.
**gebärden** *vr sich ~* özünü aparmaq, rəftar etmək, davranmaq; *er gebärdet sich wie ein Kind* o, uşaq kimi rəftar edir *(davranır).*
**Gebärdensprache,** *die; -* işarə dili.
**Gebaren,** *das; -s* davranış, rəftar, hərəkət tərzi.
**gebären** *vt* doğmaq, balalamaq, dünyaya gətirmək.
**Gebärmutter,** *die; -, -¨* uşaqlıq, ana bətni, balalıq.
**Gebäude,** *das; -s, -* bina, tikinti.
**gebefreudig** *adj.* əliaçıq, səxavətli.
**Gebefreudigkeit,** *die; -* əliaçıqlıq.
**Gebein,** *das; -(e)s, -e* **1.** sümük*(lər)*; **2.** *nur pl.* skelet.
**Gebell,** *das; -(e)s* hürmə, hürüş.
**geben** *vt* **1.** vermək *(j-m/bir kəsə),* ixtiyarına vermək; **2.** *(schenken)* bağışlamaq; **3.** *(liefern)* təmin etmək; çatdırmaq; **4.** *(Karten)* dağıtmaq, vermək; *vr* 1. *sich ~* özünü aparmaq, özünü göstərmək; *er gab sich ganz gelassen* özünü çox sakit göstərdi; 2. *(nachlassen)* zəifləmək, azalmaq; 3. *(in Ordnung kommen)* düzəlmək; *sich zufrieden ~* razı olmaq; *sich Mühe ~* çalışmaq; *es gibt* var; *was gibt es?* nə var? *was gibt es Neues?* təzə nə var? *was es nicht alles gibt!* belə şey olmaz!; nələr var, nələr!; *es gibt Regen* yağış yağacaq; *sein Wort ~* söz

vermək.

**Geber,** *der; -s, -* verən; *Geldgeber* maliyyələndirən, pul verən.

**Gebet,** *das; -(e)s, -e* **1.** dua; **2.** *(rituelles)* namaz; *fig. ins ~ nehmen* töhmət etmək, məzəmmət etmək.

**Gebetbuch,** *das; -(e)s, -¨er* dua kitabı.

**gebeten** *s. bitten.*

**Gebetskette,** *die, -, -n* təsbeh.

**Gebetsruf,** *der; -(e)s, -e* azan; *zum Gebet rufen* əzan vermək.

**Gebetsrufer,** *der; -s, -* azan verən, müəzzin, azançı.

**Gebiet,** *das; -(e)s, -e* **1.** *(Bereich)* sahə; *auf dem ~* sahəsində; **2.** *(Staatsgebiet)* ölkə ərazisi, ərazi *pl.*.

**gebieten** *vt* **1.** əmr etmək; **2.** *(erforderlich machen)* icab etmək, tələb etmək; *vi* hökm sürmək, hökmranlıq etmək *(über A/-ə).*

**Gebieter,** *der; -s, -* hökmdar, əmir.

**gebieterisch** *adj.* amiranə, bir hökmdar kimi; təkidli.

**Gebietserweiterung,** *die; -, -en* ərazının genişləndirilməsi.

**Gebilde,** *das; -s, -* **1.** qurum; formasiya; əsər, yaradıcılıq məhsulu; **2.** *(Produkt der Phantasie)* xəyali şey.

**gebildet** *adj.* təhsilli, aydın, ziyalı, fazil, fikriaçıq, gözüaçıq, açıqfikirli, bilgili, elmli.

**Gebimmel,** *das; -s* zəng səsi, cınqıltı.

**Gebirge,** *das; -s, -* dağlar, dağlar silsiləsi.

**gebirgig** *adj.* dağlıq.

**Gebirgszug,** *der; -(e)s, -¨e* dağ silsiləsi.

**Gebiss,** *das; -es, -e* **1.** dişlər, çənə; **2.** *(künstliches)* taxma dişlər, süni dişlər *pl.*; **3.** *(beim Pferd)* dəhnə, yüyən ağızlığı.

**Gebläse,** *das; -s, - techn.* körük, üfürmə aləti.

**geblümt** *adj.* güllü, çiçəkli.

**Geblüt,** *das; -(e)s* soy, nəsil, mənşə.

**gebogen** *adj.* əyri, əyrili.

**geboren** *s. gebären; adj.* doğulmuş, anadan olmuş; *~ werden* anadan olmaq, doğulmaq, göz açmaq;*~er Künstler* əsl sənətkar; *ich bin am ... geboren* mən ... tarix(in)də anadan olmuşam.

**geborgen** *s. bergen; adj.* əmin.

**Geborgenheit,** *die; -* əminlik, əmin-amanlıq, güvən, etimad; rahatlıq, qayğıkeşlik; təhlükəsizlik, toxunulmazlıq.

**Gebot,** *das; -(e)s, -e* **1.** *(Befehl)* əmr; **2.** *(Gesetz)* yasa, qanun, hökm, əhkam; *die zehn ~e* on əmr; on hökm; *zu ~ stehen D -in* əmrinə hazır olmaq; *das ~ der Vernunft* ağlın hökmü.

**gebrannt** *s. brennen; adj.* qovrulmuş, yandırılmış, yanmış.

**Gebräu,** *das; -(e)s, -e* dadsız içki.

**Gebrauch,** *der; -(e)s, -¨e* **1.** *nur sg.* işlətmə, istifadə etmə; *von et. ~ machen* bir şeydən istifadə etmək; **2.** *nur pl. (Sitte, Gewohnheit)* adət.

**gebrauchen** *vt* işlətmək, istifadə etmək; *er ist zu allem zu ~* hər iş əlindən gələr,; *er ist zu nichts zu ~* o heç nəyə yaramaz.

**gebräuchlich** *adj.* çox işlədilən, adət olmuş, istifadə olunan, mərsum; *wenig ~* azişlənən.

**Gebrauchsanweisung,** *die; -, -en* istifadə etmə üsulu, işlədilmə üsulu, düsturüləməl *(dəsturüləməl).*

**gebrauchsfertig** *adj.* istifadəyə yararlı, istifadəyə hazır olmuş.

**Gebrauchsgegenstand,** *der; -(e)s, -¨e* məişətdə işlənən şey.

**gebraucht** *adj.* istifadə olunmuş, köhnəlmiş.

**Gebrauchtfahrzeug,** *das; -(e)s, -e* köhnə maşın, işlənmiş maşın.

**Gebrauchtware,** *die; -, -n* ikinci əldən mal, işlənmiş mal.

**gebrechen** *vt* çatışmamaq; *es gebricht mir an Geld* pulsuzluq çəkirəm.

**Gebrechen,** *das; -s, -* **1.** nöqsan, eyib, qusur; **2.** gücsüzlük, zəiflik.

**gebrechlich** *adj.* **1.** *(altersschwach)* zəif, gücsüz, bitab; *fig.* əlsiz-ayaqsız; **2.** *(mangelhaft)* davamsız, tezsınan, tabsız, dözümsüz.

**Gebrechlichkeit,** *die; -* zəiflik, gücsüzlük, tabsızlıq, davamsızlıq.

**gebrochen** *s. brechen; adj.* sın(dırıl)mış, qırılmış; *~ sein* beli bükülmək; *~es Deutsch sprechen* alman dilini əyri-üyrü danışmaq.

**Gebrüder,** *die/pl.* qardaşlar.

**Gebrüll,** *das; -(e)s* bağırtı, hönkürtü, çığırtı, nərə.

**Gebühr,** *die; -, -en* **1.** xərc, haqq, gömrük, rüsum; vergi; **2.** *nach ~* münasib olaraq, uyğun olaraq, əməyə görə; *er wurde nach ~ belohnt* o, əməyinə görə mükafatlandırıldı; *über ~* həddindən artıq.

**gebühren** *vi j-m ~* bir kəsə yaraşmaq, oxşamaq.

**gebührend** *adj.* lazımi, layiqli; *die ~e Abfuhr erteilen* layiqli rədd cavabı vermək; *adv.* layiqinə görə, xidmətinə görə.

**Gebührenerhöhung,** *die; -, -en* verginin artırılması; xərci artırma.

**gebührenfrei** *adj.* vergisiz, rüsumsuz.

**gebührenpflichtig** *adj.* vergili, rüsumlu.

**gebührlich** *adj.* lazımi, münasib.

**gebündelt** *adj.* dəstələnmiş; birləşmiş.

**gebunden** *s. binden; adj.* **1.** bağlanmış, sarınmış, başıbağlı; asılı, bağlı; **2.** *(Buch)* cildlənmiş, cildli; **3.** *er ist schon ~* o, nişanlıdır; o, evlidir.

**Geburt,** *die; -, -en* **1.** doğulma, doğum, doğuluş, doğuş; **2.** *(Abstammung)* soy, əsil, mənşə; *von ~ an* doğulan gündən.

**Geburtenkontrolle,** *die; -, -n* doğum kontrolu, doğulan uşaqların sayını kontrol etmə.

**Geburtenregelung,** *die; -, -en* doğum kontrolu.

**Geburtenrückgang,** *der; -(e)s, -¨e* doğum*(un)* səviyyəsinin aşağı düşməsi.

**gebürtig** *adj.* doğulmuş, törənmiş; *ein ~er Amerikaner* nəsillikcə Amerikalı.

**Geburtsdatum,** *das; -s, -en* anadan olan tarix, doğum tarixi.

**Geburtshelfer,** *der; -s, -* mama.

**Geburtshilfe,** *die; -, -n* mamalıq, doğuz(dur)ma.

**Geburtsjahr,** *das; -€s, -e* anadan olan il, doğum ili, doğulduğu il.

**Geburtsort,** *der, u. das; -(e)s, -e* anadan olan yer, doğulduğu yer.

**Geburtsurkunde,** *die; -, -n* doğum haqqında şəhadətnamə.

**Geburtstag,** *der; -(e)s, -e* anadan olan gün, doğum günü, ad günü; *ich habe heute ~* bu gün anadan olan günümdür; *ich gratuliere dir zum ~!* doğum günün mübarək olsun.

**Geburtswehen,** *die/pl.* doğum sancısı *(ağrısı).*

**Gebüsch,** *das; -(e)s, -e* kol, kolluq, ciyil; çalı.

**Geck,** *der; -en, -en* lovğa, ədabaz.

**geckenhaft** *adj.* lovğa; bəzəkli-düzəkli.

**Gecko,** *der; -s, -s zo.* kərtənkələ.

**gedacht,** *s. denken; adj. (nur in der Vorstellung) -ə* təyin edilmiş, seçilmiş.

**Gedächtnis,** *das; -ses, -se* **1.** *(Erinnerungsvermögen)* hafizə, yaddaş; *ein ~ wie ein Elefant haben* çox yaxşı hafizəsi olmaq; **2.** *(Erinnerung)* xatir, yad; *zum ~ an (A)* .. xatirinə; *im ~ behalten* yadda saxlamaq; *aus dem ~* əzbərdən.

**Gedächtnislücke,** *die; -, -n* yaddaşın korlanması.

**Gedächtnisschwund,** *der; -(e)s* unutqanlıq, yaddaşsızlıq, hafizəsizlik.

**gedämpft** *adj.* azalmış, xəfifləşmiş.

**Gedanke,** *der; -ns, -n* fikir, düşüncə; əndişə; *sich (D) ~ machen über (A)* ...haqqında düşünmək; *(besorgt) -dən* narahat qalmaq, *-dən* nigaran qalmaq; *j-n auf den ~n bringen* kimisə fikrə gətirmək; *in ~n sein* fikir aləmində olmaq.

**Gedankenaustausch,** *der; -(e)s* fikir mübadiləsi.

**Gedankenfreiheit,** *die; -* fikir azadlığı.

**Gedankengang,** *der; -(e)s, -¨e* fikir gedişi.

**gedankenlos** *adj.* düşünülməmiş, mülahizə edilməmiş, fikirləşməmiş; *et. ~ sagen* bir şeyi fikirləşmədən *(qəflətdən)* demək; diqqətsiz, dalğın.

**Gedankenstrich,** *der; -(e)s, -e* tirə işarəsi (-) .

**Gedankenübertragung,** *die; -, -en* təlqin, telepatiya *(Süd . : telepati)*.

**Gedeck,** *das; -(e)s, -e* **1.** qab-qaşıq, xörək yemək üçün işlədilən alətlər *(boşqab, qaşıq, çəngəl və..);* **2.** menyü, yemək siyahısı.

**Gedeih,** *der : auf ~ und Verderb* şərtsiz, sözsüz, tamam*(ilə),* yaxşı və pis günlərdə.

**gedeihen** *vi* **1.** cücərmək, böyümək, çiçəklənmək; **2.** *(sich entwickeln)* inkişaf etmək, tərəqqi etmək.

**gedeihlich** *adj. (fruchtbar)* səmərəli, xeyirli, faydalı.

**gedenken** *vt* **1.** *G (an j-n oder et. denken)* anmaq, xatirəsini yad eləmək, fikirləşmək, yada salmaq, xatırlamaq, yad etmək, qeyd etmək *(bir kəsi, bir şeyi)*; **2.** *(beabsichtigen)* niyyətində olmaq; *ich gedenke, zu ihm zu gehen* mən onun yanına getmək niyyətindəyəm.

**Gedenkfeier,** *die; -, -n* xatirə mərasimi, anma törəni.

**Gedenkstätte,** *die; -, -n* xatirə yeri, xatirə mərkəzi; memorial.

**Gedenktafel,** *die; -, -n* xatirə lövhəsi.

**Gedenktag,** *der; -(e)s, -e* xatirə günü, ildönümü.

**Gedicht,** *das; -(e)s, -e* şer, nəzm; *pl. ~e* əşar.

**Gedichtsammlung,** *die; -, -en* cüng, şer antolojisi, divan.

**gediegen** *adj.* **1.** *(rein)* saf, təmiz; **2.** *(echt)* xalis, əs(i)l, həqiqi; **3.** *fig. (wertvoll)* dəyərli.

**gedieh** *s. gedeihen.*

**Gedinge,** *das; -s, -* işəmuzd işin əmək haqqı, görülən işə görə verilən muzd.

**Gedränge,** *das; -s* basabas, basırıq, izdiham, qalmaqal, girhagir; *ins ~ kommen* çətinliyi olmaq, sıxıntıya düşmək.

**gedrängt** *adj.* **1.** *(konzentriert)* sıx, sıxılmış; **2.** *(Schrift)* icmal, xülasə; *~ voll* ağzınacan dolu, dopdolu.

**gedrückt** *adj.* **1.** sıxılmış, əzilmiş; **2.** *fig. (deprimiert)* düşgün, məyus.

**gedrungen** *s. dringen; adj. (untersetzt)* enlikürək; güclü.

**Geduld,** *die; -* dözüm, dözüş, səbir, hövsələ, səbirlilik, dayanıq, ərdəm; *~ haben mit -ə* dözmək, səbir etmək.

**gedulden** *vr sich ~* səbirli olmaq.

**geduldig** *adj.* dözümlü, səbirli, hövsələli, davamlı, dayanıqlı; *adv.* səbirlə; pişim-pişimlə.

**gedunsen** *adj.* şişmiş, şişkin.

**geehrt** *adj.* sayğılı, hörmətli, möhtərəm, girami.

**geeignet** *adj.* yarayan, uyğun gələn, münasib, layiqli, yararlı, lazımi *(für A/-ə)*.

**Gefahr,** *die; -, -en* **1.** qorxu, xətər, təhlükə, xof-xətər; **2.** *(Risiko)* risk; *auf eigene ~* məsuliyyəti öz üzərinə götürərək, öz məsuliyyətilə; *sich der Gefahr aussetzen* həlakətə düşmək, özünü həlakətə salmaq, xataya düşmək.

**gefährden** *vt* xətərə salmaq, təhlükəyə salmaq.

**gefährdet** *adj.* təhlükə altında olan.

**gefährlich** *adj.* xətərli, təhlükəli, qorxulu, xatalı; budayıcı.

**gefahrlos** *adj.* xətərsiz, təhlükəsiz, qorxusuz, xatasız.

**Gefährt,** *das; - (e)s, -e* araba.

**Gefährte,** *der; -n, -n* yoldaş, yol yoldaşı, eş, arxadaş, dost; *fig.* hampa *(həmpa)*.

**Gefährtin,** *die; -, -nen* yol yoldaşı *(qadın).*

**gefahrvoll** *adj.* çox təhlükəli, xətərli.

**Gefälle,** *das; -s, -* **1.** *(Straße usw.)* eniş, yamac, endirim, enəcək; **2.** *(Neigung)* təmayül, əyinti; **3.** *(der Unterschied)* fərq, təfavüt; **4.** *fig.* səviyyə fərqi .

**gefallen**[1] *vi* xoşa gəlmək, ürəyə yatmaq; damarına düşmək; *er gefällt mir* o xoşuma gəlir, onu bəyənirəm; *wie es Ihnen gefällt* istədiyiniz *(bəyəndiyiniz)* kimi; *sich (D) et. ~ lassen* qəbul etmək.

**gefallen**[2] *adj.* şəhid olmuş.

**Gefallen**[1]**,** *das; -s* ləzzət; *~ finden an D -dən* ləzzət aparmaq, *-dən* xoşu gəlmək; *es gefällt mir nicht* xoşum gəlmir.

**Gefallen**[2]**,** *der; -s, -* yaxşılıq, lütf, iltifat,

xidmət; *e-n ~ tun D* kiməsə yaxşılıq etmək; *kannst du mir e-n ~ tun?* mənə bir yaxşılıq edə bilərsənmi?

**Gefallene,** *der; -n, -n* şəhid olmuş əsgər, həlak olmuş.

**gefällig** *adj.* **1.** *(angenehm)* xoşagələn, qəşəng; **2.** *(hilfsbereit)* iltifatlı, xidmət göstərən, köməyə hazır; *j-m ~ sein* bir kəsə hörmət *(xidmət)* göstərmək.

**Gefälligkeit,** *die; -, -en* qulluq, hörmət göstərmə, iltifat; xoşrəftarlıq; minnət.

**gefälligst** *adv.(als scharfe Aufforderung)* zəhmət olmasa, bizəhmət, lütfən, heç olma(z)sa; *halt ~ den Mund!* zəhmət olmasa ağzını yum!, bizəhmət səsini kəs!.

**gefälscht** *adj.* qəlp, saxta; *fig.* eybəcər.

**gefangen** *adj.* əsir; *~ halten* əsir saxlamaq; *~ nehmen* əsir tutmaq.

**Gefangene(r),** *der; -n, -n* **1.** dustaq, həbs edilmiş, zindani, məhbus, əliqandallı; **2.** *(Kriegsgefangene)* əsir.

**Gefangenenaustausch,** *der; -(e)s* əsirləri dəyişdirmək.

**Gefangenenlager,** *das; -s, -* əsirlər düşərgəsi.

**gefangenhalten** *vt* əsir saxlamaq.

**Gefangennahme,** *die; -* əsir tutma; həbs etmə.

**gefangennehmen** *vt* əsir almaq; həbs etmək.

**Gefangenschaft,** *die; -* əsarət, əsirlik.

**Gefängnis,** *das; -ses, -se* dustaqxana, zindan, həbsxana, qazamat; *ins ~ werfen* həbsxanaya salmaq.

**Gefängnisstrafe,** *die; -, -n* həbs cəzası.

**Gefängniswärter,** *der; -s, -* həbsxana gözətçisi, həbsxanaçı.

**Gefasel,** *das; -s* cəfəngiyat, boş danışıq.

**Gefäß,** *das; -es, -e* **1.** *(Behälter)* qab; **2.** *(Ader)* damar.

**gefäßerweiternd** *adj. med.* damaraçan.

**gefasst** *adj.* sakit, rahat; *~ sein auf A* -ə hazır olmaq; *sich ~ machen auf A* -ə hazırlaşmaq.

**Gefecht,** *das; -(e)s, -e* döyüş, vuruşma, hərb, savaş; *außer ~ setzen* sıradan çıxarmaq; *fig. in der Hitze des ~es* həyəcan içində.

**Gefechtsbereitschaft,** *die; -* döyüşə hazırlıq.

**gefehlt** *adj. weit ~ !* böyük səhviniz var!, böyük səhv edirsiniz!.

**gefeit** *adj. ~ gegen A* dözümlü, möhkəm.

**Gefieder,** *das; -s, -* quş tükü, tük, lələk.

**gefiedert** *adj.* tüklü, lələkli.

**Gefilde,** *das; -s, -* **1.** tarla, əkin yeri; **2.** *lit.* diyar, ölkə.

**Geflatter,** *das; -s* qanad çırpma, qanad çalma, pırıltı ilə uçma.

**Geflecht,** *das; -(e)s, -e* hörmə.

**gefleckt** *adj.* ala-bula, xal-xal, ləkəli.

**geflissentlich** *adv.* bilə-bilə, qəsdən; *~ übersehen* *bir şeyə* göz yummaq.

**Gefluche,** *das; -s* söyüş.

**Geflügel,** *das; -s* ev quşları *(ördək, qaz, toyuq).*

**geflügelt** *adj.* qanadlı; *~es Wort* zərbiməsəl, məsəl, aforizm, məşhur söz.

**Geflügelzucht,** *die; -* toyuqçuluq.

**Geflüster,** *das; -s* pıçıltı.

**Gefolge,** *das; -s, (-)* xədəmə, məiyyət, böyük bir şəxsin müşayiətçiləri.

**Gefolgschaft,** *die; -, -en* **1.** *nur sg.* xədəmə, məiyyət; **2.** *(Anhänger)* tərəfdarlar; davamçılar; **3.** *(Betriebsangehörige)* işçilər; *die ~ verweigern* daha işləməmək, daha itaət etməmək.

**gefragt** *adj.* axtarılan, soruşulan; *H* yaxşı satılan mal, yaxşı gedən mal.

**gefräßig** *adj.* qarınqulu, çoxyeyən, acgödən, boğazlı, dələqarın.

**Gefreite(r),** *der; -en, -en mil.* onbaşı.

**Gefrieranlage,** *die; -, -n* dondurma qurğusu *(Süd. : frizer).*

**gefrieren** *vi* donmaq, buz bağlamaq.

**Gefrierfleisch,** *das; -(e)s* donmuş ət.

**Gefrierpunkt,** *der; -(e)s, -e* donma nöqtəsi.

**gefroren** *adj.* donuq, donmuş; *s. frieren.*

**Gefrorene(s),** *das; -n* dondurma.

**Gefüge,** *das; -s, -* **1.***(Konstruktion)* quruluş, sistem;**2.***(Aufbau)* struktur, quruluş.

**gefügig** *adj. (gehorsam)*sözəbaxan, itaət edən, yolayaxın, yolagələn, üzüyola, üzüyumşaq.

**Gefügigkeit,** *die; -* itaətkarlıq, üzüyolalıq, üzüyumşaqlıq; yaxasını ələ vermə.

**Gefühl,** *das; -s, -e* **1.** hiss, duyğu, hissiyyat, ehsas; **2.** *(Verständnis)* anlayış; *ich habe das ~, dass..* belə hiss edirəm ki...

**gefühllos** *adj.* **1.** hissiz, duyğusuz; **2.** *(herzlos)* rəhmsiz, daşürək(li).

**Gefühllosigkeit,** *die; -* hissizlik, duyğusuzluq.

**gefühlsarm** *adj.* hissiz, duyğusuz.

**gefühlsvoll** *adj.* səmimi, həssas, duyğulu.

**gefunden** *s. finden.*

**gegangen** *s. gehen.*

**gegebenenfalls** *adv.* bu halda.

**gegen** *A präp.* **1.** *(feindlich, widerstrebend)* qarşı, əleyh, əks, zidd, müxalif; *das Mittel ist ~ Husten* bu dərman öskür(m)əyə qarşıdır; **2.** *(in Richtung auf, hin zu)* sarı, doğru; **3.** *(im Vergleich zu)* müqabilində, müqayisə etdikdə; **4.** *(als Entgelt)* müqabilində; *~ bar* nağd (nəqd), nağd hesabla; **5.** *(ungefähr)* yaxın, təxminən, təqribən, civarında; *~ Abend* axşama yaxın; *~ zwei Uhr* saat ikiyə yaxın, saat iki civarlarında; *et. ~ j-n haben* bir kəsə qarşı pis münasibəti olmaq.

**Gegen-, gegen-** ümumiyyətlə əksinə, əks, qarşı, zidd, müxalif və əleyhinə mənasında işlənir.

**Gegenangriff,** *der; -(e)s, -e* əks-hücum, əks-həmlə.

**Gegenanklage,** *die; -, -n* qarşılıqlı iddia *(ittiham).*

**Gegenantrag,** *der; -(e)s, -¨e* əks təklif.

**Gegenbesuch,** *der; -(e)s, -e* cavab görüşü.

**Gegenbeweis,** *der; -es, -e* əks-sübut.

**Gegend,** *die; -, -en* **1.** bölgə, məntəqə, sahə; **2.** *(Stadtviertel)* məhəllə; ətraf, həndəvər; **3.** *an.* nahiyə.

**Gegendienst,** *der; -(e)s, -e* qarşılıqlı xidmət.

**Gegendruck,** *der; -(e)s* əks təzyiq.

**gegeneinander** *adv.* bir-birinin əksinə, bir-birinə qarşı, qarşılıqlı olaraq.

**gegeneinanderhalten** *vt* tutuşdurmaq; müqayisə etmək.

**Gegenforderung,** *die; -, -en* tələb.

**Gegengift,** *das; -(e)s, -e* padzəhr.

**Gegenleistung,** *die; -, -en* əvəz, haqq; *als ~ für A* *-in* əvəzində.

**Gegenliebe,** *die; -* qarşılıqlı məhəbbət.

**Gegenmaßnahme,** *die; -, -n* əks-tədbir, cavab tədbirləri *pl.*

**Gegenmittel,** *das; -s, -* **1.** çarə; **2.** padzəhr.

**Gegenpartei,** *die; -, -en* əks tərəf, müqabil tərəf, müxalifət partiyası.

**Gegenpol,** *der; -(e)s, -e* **1.** əks-qütb; **2.** *fig.* zidd, əks, qarşı, müxalif.

**Gegenrede,** *die; -, -n* cavab nitqi.

**Gegenrevolution,** *die; -, -en* əks inqilab.

**Gegenrichtung,** *die; -, -en* əks-istiqamət.

**Gegensatz,** *der; -es, -¨e* ziddiyət, təzad, əkslik, antaqonizm, müqabillik; *im ~ zu D* əksinə olaraq, tərsinə olaraq.

**gegensätzlich** *adj.* tərs, zidd, əks, müxalif.

**Gegensätzlichkeit,** *die; -* təzad, ziddiyət.

**Gegenseite,** *die; -, -n* qarşı tərəf.

**gegenseitig** *adj.* qarşılıqlı, ikitərəfli.

**Gegenseitigkeit,** *die; -* qarşılıqlılıq, ikitərəflilik.

**Gegenspieler,** *der; -s, -* rəqib, qarşı tərəf.

**Gegenstand,** *der; -(e)s, -¨e* **1.** şey, əşya, əsbab; *pl.* əşya; **2.** *(Thema)* mövzu, tema, süjet.

**gegenständlich** *adj.* **1.** *(konkret)* əyani, konkret, maddi; şeyi; **2.** *(darstellend)* təsviri, təmsili.

**gegenstandslos** *adj.* **1.** *(unbegründet)* əsassiz, dəlilsiz; **2.** *(überflüssig)* artıq, gərəksiz.

**Gegenstimme,** *die; -, -n* müxalif səs, əleyhinə verilən səs *(Süd. : müxalif rəy)*.

**Gegenstoß,** *der; -(e)s, -¨e* əks-zərbə.

**Gegenströmung,** *die; -, -en* əks-axın, əks-cərəyan.

**Gegenstück,** *das;-s, -e* tay, eş; *~ zu -in tay*ı, *-in* eşi.

**Gegenteil,** *das; -(e)s, -e* əkslik, müqabillik, xilaf; *im ~* əksinə, bərəks.

**gegenüber** *adv.* **1.** qarşıda, qarşı(sında), irəlidən; *mein Haus steht ~ der Kirche* mənim evim kilsənin qarşısındadır; **2.** *(vergleichend) -ilə* müqayisədə; *einander ~* qarşı-qarşıya; *er war mir ~ sehr höfflich* o, mənə qarşı çox nəzakətli idi.

**gegenüberliegen** *vi* qarşıda olmaq.

**gegenüberliegend** *adj.* qarşıdakı, qarşı tərəfdə duran, qənşər.

**gegenüberstehen** *vi D* qarşısında durmaq *(bir şəyin, bir kəsin).*

**gegenüberstellen** *vt* qarşılaşdırmaq; qarşısına qoymaq; *jur.* üzləşdirmək.

**Gegenüberstellung,** *die; -, -en* **1.** qarşılaşdırma, tutuşdurma; **2.** *jur.* üzləşdirmə.

**gegenübertreten** *vt -in* qarşısına çıxmaq, qarşılaşmaq.

**Gegenverkehr,** *der; -(e)s* qarşı tərəfdən gələn trafik *(nəqliyyat).*

**Gegenvorschlag,** *der; -(e)s, -¨e* əks-təklif, əks önəri.

**Gegenwart,** *die; -* **1.** *(Jetztzeit)* müasir dövr, hazırkı vaxt, zəmanə, indiki zaman; **2.** *(Anwesenheit)* iştirak, olma, hüzur; *in ~ G -in* yanında, hüzurunda.

**gegenwärtig** *adj.*indiki, müasir, hal-hazırki; *adv.* indi.

**Gegenwartsliteratur,** *die; -, -en* müasir ədəbiyyat.

**gegenwartsnah** *adj.* müasir, zamanına yaxın.

**Gegenwehr,** *die; -* müdafiə, müqavimət.

**Gegenwert,** *der; -(e)s, -e* qarşılıq, bədəl.

**Gegenwind,** *der; -s, -e* qarşıdan əsən külək.

**Gegenwirkung,** *die; -* əks-təsir, reaksiya.

**gegenzeichnen** *vt* öz imzası ilə təsdiq etmək.

**Gegenzug,** *der; -(e)s, -¨e* **1.** *(Eisenbahn)* qarşı tərəfdən gələn qatar; **2.** *(Spiel)* qarşı hərəkət *(çəkiş); im ~ zu -ə* qarşılıq olaraq, *-in* əksinə olaraq.

**gegessen** *s. essen.*

**Gegner,** *der; -s, -* düşmən, qaç, rəqib, müxalif; qarşı tərəf, yağı, *(Süd. : a. hərif); veralt.* əleyhdar.

**gegnerisch** *adj. s. Gegner.*

**Gegnerschaft,** *die; -, -en* **1.** *nur sg.* düşmənlər, müxaliflər; rəqib; **2.** *(abstrakt)* düşmənçilik, ədavət, yağılıq; rəqabət.

**Gegröle,** *das; -s* bağırış, bağırıq, bağırma.

**Gehabe,** *das; -s* əda, ədabazlıq.

**Gehackte(s),** *das; -n* döyülmüş ət.

**Gehalt,**[1] *das; -(e)s, -¨er* maaş, aylıq; əməkhaqqı, məvacib.

**Gehalt**[2]**,** *der; -(e)s, - e* **1.** *(Inhalt)* məzmun, içində olan, içindəkilər *pl.* **2.** *(der Anteil e-s Stoffes in e-r Mischung)* hissə, miqdar; **3.** *(Feingehalt)* əyar; *~ an Öl (içində olan)* yağ miqdarı.

**gehaltlos** *adj.* dəyərsiz; əhəmiyyətsiz.

**Gehaltsanspruch,** *der; -(e)s, -¨e* aylıq haqqı, əmək haqqı alma hüququ.

**Gehaltsempfänger,** *der; -s, -* maaş alan, aylıq alan.

**Gehaltserhöhung,** *die; -, -en* maaşın artırılması, aylığın çoxalması.

**Gehaltsstufe,** *die; -, -n* maaş dərəcəsi.

**Gehaltszahlung,** *die; -, en* maaş vermə, aylıq vermə.

**Gehaltszulage,** *die; -, -n* maaşa əlavə, maaşı artırma.

**gehaltvoll** *adj.* dəyərli, mühüm; dolğun, mənalı.

**Gehaltsempfänger,** *der; -s, -* maaş alan, muzd alan.

**Gehaltserhöhung,** *die; -, -n* maaşın artması.

**gehandicapt** *adj.* əngəlli, maneəli, ən-

gəlli olan.

**Gehänge,** *das; -s, -* **1.** aslanan şey, sallanan şey; **2.** *F* kişinin cinsiyyət üzvü.

**gehangen** *s. hängen.*

**geharnischt** *adj. fig. (energisch)* qəti, sərt; *e-e ~e Antwort* sərt bir cavab.

**gehässig** *adj.* bədxah, pisniyyət, kinli, nifrətli.

**Gehässigkeit,** *die; -* kin, ədavət, düşmənçilik, qərəz.

**Gehäuse,** *das; -s, -* **1.** qutu, gövdə; qılıf; **2.** *(für Radio, Uhr usw.)* qab.

**Gehege,** *das; -s, - (Zaun)* çəpər, hasar; *fig. j-m ins ~ kommen* kiminsə işinə qarışmaq *(əngəl törətmək).*

**geheim** *adj.* gizli, məxfi, sirrli, xəfə, xəfa; *streng ~!* lap gizlidir, təmamilə məxfidir!; *~ halten* gizli saxlamaq.

**Geheimagent,** *der; -en, -en* gizli agent.

**Geheimbund,** *der; -(e)s, -¨e* gizli ittifaq, gizli birlik.

**Geheimdienst,** *der; -(e)s, -e* məxfi siyasi polis, gizli polis, məxfi polis xidməti.

**geheimhalten** *vt* gizli saxlamaq, gizlətmək.

**Geheimhaltung,** *die; -, -en* gizlətmə, gizlisaxlama; *die ~ dieser Sache wird schwer* bu işi gizlətmək çətin olacaq, bu işin gizli qalması çətin olacaq.

**Geheimnis,** *das; -ses, -se* sirr, gizlətmə, gizlilik, gizli söz; dərd-dil; *ein ~ vor j-m haben* bir kəsdən bir şeyi gizlətmək; *ein ~ preisgeben* sirri açmaq, sirri yaymaq; dərd-dilini soyləmək; *F die ~e (schlechte Seiten) von j-m verraten* eybini açmaq; *~e* əsrar *pl.*.

**geheimnisvoll** *adj.* sirrli, əsrarəngiz, müəmmalı, sirr dağarcığı, əsrarlı.

**Geheimpolizei,** *die; -* gizli polis, məxfi polis idarəsi.

**Geheimpolizist,** *der; -en, -en* gizli polis məmuru.

**Geheimtür,** *die; -, -en* gizli qapı.

**Geheimschrift,** *die; -, -en* gizli yazı.

**gehemmt** *adj.* utancaq, başıaşağı.

**Geheiß,** *das; -es* əmr, hökm; *auf ~ G -in* əmrilə; *auf sein ~* onun əmrilə.

**gehen** *vi* **1.** getmək, yerimək; **2.** *(abfahren)* çıxıb getmək; **3.** *(Maschine)* işləmək; **4.** *(Teig)* gəlmək; *der Teig geht auf* xəmir gəlir; **5.** *(Wind)* əsmək; *es geht ein starker Wind* bərk külək əsir; *wie geht es dir?* necəsən? *es geht mir gut* yaxşıyam; *so geht das nicht* belə yaramaz, belə olmaz; *an die Arbeit ~* işə başlamaq; *in sich ~* peşman olmaq, özünə qapılmaq; *zu Ende ~* sona çatmaq, qurtarmaq; *lass mich ~!* məni sakit *(rahat)* burax *(qoy)*!; *es wird schon ~* hər şey düzələcək; *das geht dich nichts an* sənə dəxli yoxdur; *geh mir aus den Augen!* gözümdən itil!, rədd ol!; *worum geht es?* məsələ nədir?, mövzu nədir?; *aufs Gymnasium ~* gimnaziyaya getmək; *bei j-m ein und aus ~* bir kəsə gedib-gəlmək, bir kəsin yanına çox *(vaxt)* getmək; *es geht um Leben und Tod* ölüm-dirim məsələsidir.

**Gehen,** *das; -s* yerimə, getmə, gəzmə; *im ~* ayaqüstü; gedə-gedə; *das ~ und Kommen* gəlib-getmə.

**gehenlassen** *vt (in Ruhe lassen)* öz halına buraxmaq, əl çəkmək; *vr sich ~* özünə hakim olmamaq, kontrolunu əldən vermək.

**geheuer** *adj. nicht ~ sein* əngəlli olmaq, nöqsanlı olmaq; *die Sache ist nicht ~* iş şübhəlidir.

**Geheul(e),** *das; -(e)s* **1.** ulama, vıyıltı; **2.** *(Weinen)* ağlama.

**Gehilfe,** *der; -n, -n* yardımçı, köməkçi.

**Gehilfin,** *die; -, -nen* köməkçi *(qadın).*

**Gehirn,** *das; -(e)s, -e* **1.** beyin; **2.** *fig.* ağıl, zəka.

**Gehirnerschütterung,** *die; -, -en* beyin silkələnməsi.

**Gehirnschlag,** *der; -(e)s, -¨e* apopleksiya, beyin səktəsi, beyinə qan vurması nəticəsində iflic.

**Gehirnwäsche,** *die; -, -n pol.* beyin yuma; *j-n e-r ~ unterziehen* bir kəsin beynini yumaq.

**gehoben** *s. heben; adj.* yüksək; *für ~e Ansprüche* yüksək tələblərə uyğun, müşkülpəsəndlər üçün; *fig. in ~er Stim-*

*mung sein* şad olmaq, ke(y)fi yerində olmaq.

**Gehöft,** *das; -(e)s, -e* kənd təsərrüfatı; kəndli mülkü.

**Gehölz,** *das; -es, -e* ağaclıq, balaca meşə.

**Gehör,** *das; -(e)s* **1.** qulaq asma, eşitmə qabiliyyəti; **2.** *mus. nach dem ~* notasız; **3.** *fig. um ~ bitten* diqqət *(qulaq)* verməyə xahiş etmək; *sich ~ verschaffen* sözünü dinlətmək; *j-m ~ schenken* bir kəsin sözlərinə qulaq asmaq.

**gehorchen** *vt D* sözünə baxmaq *(kiminsə),* qulaq asmaq *(kiməsə);* itaət etmək, boyun əymək, baş əymək.

**gehören** *vi D bzw. zu D -ə* aid olmaq, mənsub olmaq; *gehört dir das?* bu sənindirmi ?; *das gehört mir* mənimdir; *das gehört nicht zur Sache!* mövzuya aid deyil!; *das gehört nicht hierher* bunun yeri bura deyil, bu işlə ilgisi yoxdur; *vr sich ~* yaraşmaq, layiq olmaq; *es gehört sich nicht* bu yaramaz, bu olmaz.

**gehörig** *adj.* **1.** aid olan, mənsub olan; **2.** *(gebührend)* münasib, layiq; *adv.* yaxşıca.

**gehörlos** *adj.* kar, eşitmək istəməyən.

**gehorsam** *adj.* sözəbaxan, itaətkar, üzüyola; *fig.* fağır, dilsiz; *~ sein* söz eşitmək.

**Gehorsam,** *der; -s* sözəbaxma, itaət, üzüyolalıq.

**Gehorsamsverweigerung,** *die; -, -en* itaət etməmə, əmri yerinə yetirməkdən imtina.

**Gehsteig,** *der; -(e)s, -e* səkki, piyadalar üçün keçid.

**Gehuste,** *das; -s* öskürmə.

**Geier,** *der; -s, - zo.* çalağan.

**Geifer,** *der; -s* ağız suyu, tüpürcək.

**geifern** *vi* **1.** ağız suyunu sıçratmaq; **2.** *fig.* ağzı köpüklənə-köpüklənə danışmaq, əsəbi danışmaq.

**Geige,** *die; -, -n* violon, kaman; *fig. die zweite ~ spielen* aşağı mövqeyə sahib olmaq, az təsirli olmaq.

**Geigenspieler,** *der; -s, -* violon çalan, skripkaçı.

**geil** *adj.* **1.** şəhvətli; sapqın; **2.** *(üppig)* kök; *~ sein auf et.* bir şeyə həvəsli olmaq.

**Geilheit,** *die; -* şəhvət, sapqınlıq.

**Geisel,** *die; -, -n* girov saxlanan, girov götürülən; *j-n als ~ nehmen* kimisə girov götürmək.

**Geiselnahme,** *die; -, -n* girov götürmə, girov saxlama.

**Gynäkologe,** *der; -n, -n* qadın xəstəliklərinin mütəxəssisi, ginekolog *(Süd. : jinekoloq).*

**Gynäkologie,** *die; -* ginekologiya.

# H

**H, h** *das; -, -* **1.** Alman əlifbasının səkkizinci hərfi; **2.** *mus.* si.

**Haag, Den** Haaqa şəhəri.

**Haar,** *das; -(e)s, -e* saç, tük;qıl; *sich die ~e kämmen* saçını *(başını)* daramaq; *sich die ~e schneiden lassen* saçını kəsdirmək, başını qırxdırmaq; *fig. sich in die ~e geraten* savaşmaq, dava etmək, saçyolmaya çıxmaq, didişmək; *sich (D) die ~e raufen* saçlarını yolmaq;*aufs ~* olduğu kimi, lap, tamamilə, nöqtəbənöqtə; *um ein ~* az qala, az qalmışdı ki; *fig. ~e auf den Zähnen haben* dilli olmaq.

**Haarausfall,** *der; -s* saçın tökülməsi.

**Haarbürste,** *die; -, -n* saç fırçası, saç şotkası.

**Haarbüschel,** *das; -s, -* kəkil.

**haaren** *vi (Tiere)* tük tökmək.

**Haarentferner,** *der; -s, -* tüktəmizləyən, vacibi.

**Haarfärbemittel,** *das; -s, -* saç boyası.

**haarfein** *adj.* zərif, tük kimi nazik.

**haargenau** *adj.* tamamilə, nöqtəbənöqtə, dübbədüz, dümdüz, düppədüz, düpbədüz.

**haarklein** *adv.*ətraflı, bütün təfsilatı ilə.

**Haarnadel,** *die; -, -n* sancaq.

**haarscharf** *adj.* **1.** *(sehr präzise)* çox dəqiq; **2.** *(ganz knapp)* lap, lap belə; *~ am Ziel vorbeischießen* hədəfin lap yanından vurmaq.

**Haarschnitt,** *der; -(e)s, -e* qırxma, saç modeli.

**Haarspalterei,** *die; -, -en* heç nə üstündə mübahisə yaratma, çürükçülük.

**haarsträubend** *adj.* dəhşətli, biabırçı, misli görünməmiş, iyrənc.

**Haartrockner,** *der; -s, -* saç qurudan, saç qurutma aləti.

**Haarwäsche,** *die; -, -n* saç yuma, baş yuma.

**Haarwaschmittel,** *das; -s, -* şampun.

**Haarwurzel,** *die; -, -n* saç kökü, saç dibi.

**Hab,** *das; -, -(e)s - : ~ und Gut* var-yox, mal, mülk; *pl.* əmval.

**Habe,** *die; -* mal, mülk, əmlak, var; *bewegliche ~* daşınan əmlak; *unbewegliche ~* daşınmaz əmlak.

**haben** *vt -ə* malik olmaq, *-ə* sahib olmaq; *ich habe* mənim varımdır; *ich habe nichts* mənim heç nəyim yoxdur; *ich habe keine Zeit* vaxtım yoxdur; *den wievielten ~ wir heute?* bü gün ayın neçəsidir; *was ~ Sie?* sizə nə olub? *er hat ein Haus* onun bir evi var; *was habe ich zu bezahlen?* nə qədər verməliyəm? *hast du gerufen?* çağırdın? *et. auf sich ~* əhəmiyyəti olmaq; *zu sagen ~* mühüm olmaq; *unter sich ~* rəhbərliyi altında olmaq, əlinin altında olmaq.

**Haben,** *das; -s* kredit, alacaq, hesabda mövcud olan pul; *Soll und ~* mədaxil və məxaric, borc və alacaq.

**Habenichts,** *der;-(e)s, -e* çox kasıb, lüt.

**Habgier,** *die; -* acgözlük, tamahkarlıq, doymamazlıq, dövlətpərəstlik, mənfəətpərəstlik, görməmişlik, hərislik; *F* ləlöyünlük.

**habgierig** *adj.* acgöz, tamahkar, doymaz, gözüac, dövlətpərəst, mənfəətpərəst, görməmiş, həris; *F* ləlöyün.

**habhaft** *adj. : ~ werden -i* əldə etmək; axtarıb tapmaq.

**Habicht,** *der; -s, -e* qırğı.

**Habilitation,** *die; -, -en* dosentliyə keçmə, dərsvermə hüququ alma *(Süd. : professorluq tezi).*

**habilitieren** *vr sich ~* dərsdemək hüququ almaq, dosentliyi almaq, professorluq rütbəsini almaq.

**Habitat,** *das; -s, -e* məkan, sahə.

**Habseligkeiten,** *die/pl.* **1.** şeylər, əşya; **2.** *F* var-yox, mal-dövlət.

**Habsucht,** *die; - s. Habgier.*

**habsüchtig** *adj. s. habgierig.*

**Hackbrett,** *das;-s, -er* ət taxtası, kötük; *mus.* simbal.

**Hachse;** *die; -, -n* paça.

**Hacke,** *die; -, -n* külüng, toxa, kərki.

**hacken** *vt* **1.** *(Holz)* yarmaq; **2.** *(Fleisch)* doğramaq, döymək; **3.** *(Vogel)* dimdikləmək.

**Hacker,** *der; -s, - EDV F* haker.

**Hackfleisch,** *das; -(e)s* döyülmüş ət, qiymə.

**Häcksel,** *der u. das; -s* saman, doğranmış saman.

**Hader,** *der; -s* dava, çəkişmə, ixtilaf.

**hadern** *vi : mit et. ~* bir şeydən narazı olmaq, küsmək; *mit s-m Schicksal ~* taleyindən şikayət etmək.

**Hafen,** *der; -s, -¨* liman *(Süd. : bəndər); in den ~ einlaufen* limana girmək, limana daxil olmaq.

**Hafenanlagen,** *die/pl.* liman təsisatı; sığınacaq yer.

**Hafenarbeiter,** *der; -s, -* liman işçisi.

**Hafenmeister,** *der; -s, -* liman rəisi, liman məsulu.

**Hafenpolizei,** *die; -* liman polisi.

**Hafenstadt,** *die; -, -¨e* limanı olan şəhər.

**Hafer,** *der; -s* vələmir, yulaf; *fig. ihn sticht der ~* o, qudurğanlıq edir, o, həddini bilmir, o, qudurubdur.

**Haferbrei,** *der; -(e)s* vələmir sıyığı.

**Haferflocken,** *die/pl.* yulaf yarması, vələmir yarması.

**Haferschleim,** *der; -(e)s, -e* yulaf həlimi.

**Haff,** *das; -(e)s, -e* körfəz.

**Haft,** *die; -* həbs, həbs cəzası; *in ~ nehmen* həbs etmək, tutmaq; *aus der ~ entlassen* həbsdən azad etmək.

**Haftanstalt,** *die; -, -en* həbsxana, dustaqxana, qazamat, həbs yeri.

**haftbar** *adj.* məsul, cavabdeh, sorumlu *(für A/); j-n für et. ~ machen* bir kəsi bir şey üçün cavabdeh etmək.

**Haftbarkeit,** *die; -, -en* məsuliyyət, cavabdehlik, sorumluluq.

**Haftbefehl,** *der; -s, -e* həbs haqqında qərar, həbs orderi.

**haften** *vi* **1.** *(kleben)* yapışmaq, suvaşmaq *(an D/-ə)*; **2.** *(für et.)* məsul *(sorumlu)* olmaq, cavabdeh olmaq; **3.** *(für j-n)* kəfil olmaq, zamin olmaq.

**haftenbleiben** *vi* **1.** yapışıb qalmaq; **2.** *(im Gedächtnis)* hafizədə qalmaq, unutmamaq.

**Häftling,** *der; -s, -e* dustaq, məhbus, zindani, həbs olunmuş adam.

**Haftpflicht,** *die; -* məsuliyyət, sorumluluq.

**haftpflichtig** *adj.* məsul, sorumlu.

**Haftpflichtversicherung,** *die; -, -en* xəsarət *(ziyan)* sığortası *(Süd. : xəsarət biyməsi).*

**Haftstrafe,** *die; -, -n* həbs cəzası.

**Haftung**[1]**,** *die; - techn.* yapışma.

**Haftung**[2]**,** *die; -, -en* maddi məsuliyyət, sorumluluq, cavabdehlik.

**Hagebutte,** *die; -, -n* itburnu.

**Hagedorn,** *der; -(e)s, -e* yelşan.

**Hagel,** *der; -s* dolu.

**Hagelkorn,** *das; -(e)s, -¨er* dolu dənəsi.

**hageln** *vi* dolu yağmaq; *es hagelt* dolu yağır.

**Hagelschlag,** *der; -s, -¨e* dolu vurma, dolunun verdiyi ziyan.

**Hagelwetter,** *das; -s* boran, tufan.

**hager** *adj.* arıq, bir dəri bir sümük, sısqa.

**Hagestolz,** *der; -es, -e* qoca subay kişi.

**Hahn,** *der; -(e)s, -¨e* **1.** xoruz; **2.** *(Wasserhahn)* kran *(Süd. : şir);* **3.** *(am Gewehr)* çaxmaq.

**Hähnchen,** *das; -s, -* **1.** *(junger Hahn)* beçə; **2.** qızardılmış xoruz.

**Hahnenfuß,** *der; -es bot.* qaymaqçiçəyi.

**Hahnenkampf,** *der; -(e)s, -¨e* xoruz döyüşü.

**Hahnenschrei,** *der; -(e)s, -e* ban, xoruzun banlaması, xoruz banı.

**Hai(fisch),** *der; -es, -e* köpək balığı.

**Hain,** *der; -(e)s, -e* balaca meşə, ağaclıq.

**Haiti;** *-s* Haiti.

**Häkchen,** *das; -s, -* **1.** qarmaqcıq; **2.** *(Zeichen)* kontrol işarəsi.

**Häkelarbeit,** *die; -, -en* mil ilə toxuma.

**Häkelei,** *die; -, -en* mil ilə toxu(n)ma.

**häkeln** *vt u. vi* mil ilə toxumaq; hörmək.

**Häkelnadel,** *die; -, -n* toxuma mili.

**haken** *vt* **1.** *(et. an/in et.)* qarmağı ilişdirmək; **2.** *(Schlussel usw.)* ilişmək, ilişib qalmaq.

**Haken,** *der; -s, -* **1.** qarmaq, tilov; çən-

gəl; ilgək; **2.** *(Kleiderhaken)* asqı; **3.** *fig.* əngəl, müşgül; *die Sache hat e-n ~* bu işdə bir əngəl var.

**Hakenkreuz,** *das; -es, -e* sınmış xaç *(Alman faşistlərinin simvolu).*

**hakig** *adj.* qarmaq kimi.

**halb** *adj.* yarı(m), yarımçıq; *ein ~er Liter* yarım litr;*e-e ~e Stunde* yarım saat; *ein ~es Jahr* yarım il; *zum ~en Preis* yarı qiymətə; *adv.* yarısı, yarıyadək, yarıya qədər; *~ und ~* yarıya qədər, yarısı, yarı-yarı, yarıbayarı; *F mit j-m ~e ~e machen* bir kəs ilə yarı-yarıya bölüşmək; *es ist ~ drei* saat üçün yarısıdır *(Süd. : saat iki yarımdır); die Sache ist ~ so schlimm* bu iş o qədər də pis deyil; *nur die ~e Wahrheit* həqiqətin ancaq bir yanı *(tərəfi),* həqiqətin yarısı.

**halbamtlich** *adj.* yarımrəsmi.

**halbärmelig** *adj.* qısaqol.

**Halbblut,** *das; -(e)s* qatışıq, mələz.

**Halbbruder** *der; -s, -¨er* ögey qardaş.

**Halbdunkel,** *das; -s* alaqaranlıq, toran.

**...halben** *präp. G* ..üçün, ..xatirinə, ..görə, ..ötrü; *meinethalben* mənim xatirimə, mənə görə.

**halber** *präp. G* ..üçün, .. görə, ..səbəbdən, ..xatirinə, ..məqsədilə.

**halbfertig** *adj.* yarımçıq, natamam.

**halbfett** *adj.* azyağlı.

**Halbfinale,** *das; -s, -* yarımfinal.

**halbgebildet** *adj.* azsavadlı.

**halbgekocht** *adj.* ala-bişmiş.

**Halbgeschwister,** *die/pl.* ögey bacı-qardaş.

**Halbgott,** *der; -(e)s, -¨er myth.* **1.** Tanrı sırasına keçmiş qəhrəman, yarımallah; **2.** *fig.* büt.

**Halbheit,** *die; -, -en* yarımçılıq, əskiklik, natamamlıq.

**halbherzig** *adj.* könülsüz.

**halbhungrig** *adj.* yarımac.

**halbieren** *vt* yarı bölmək.

**Halbierung,** *die; -* ikiyə *(yarıya)*bölmə.

**Halbinsel,** *die; -, -n* yarımada.

**Halbjahr,** *das; -(e)s, -e* yarım il, altı ay.

**halbjährig** *adj.* altıaylıq, yarımillik.

**halbjährlich** *adj.* altıaylıq, yarımillik, yarım ildə bir dəfə olan, ; *adv.* altı ayda bir *(dəfə),* ildə iki dəfə.

**Halbkreis,** *der; -es, -e* yarımdairə, yarımçevrə, qövs.

**Halbkugel,** *die; -, -n* yarımkürə, yer kürəsinin yarısı.

**halblang** *adj.* yarımuzun; *F mach mal ~!* yavaş gəl!, şişirtmə!.

**halblaut** *adj.* yavaşca, yavaş səslə.

**Halbleinen,** *das; -s, -* yarımkətan parça.

**Halbleiter,** *der; -s, - el.* yarımkeçirici.

**halbmast** *adv.*yarı qaldırılmış; *die Flagge auf ~ setzen* bayrağı yarıya çəkmə.

**Halbmesser,** *der; -s, - math.* radius.

**halbmonatlich** *adj.* yarımaylıq, ikihəftəlik, ikihəftədənbir.

**Halbmond,** *der; -(e)s* aypara, hilal.

**halbmondförmig** *adj.* aypara şəklində.

**halbnackt** *adj.* yarımçılpaq.

**halboffen** *adj.* yarımaçıq.

**halboffiziell** *adj.* yarımrəsmi.

**Halbpension,** *die; - (Hotel)* gecə qalma, səhər yeməyi ilə ancaq nahar və ya axşam yeməyi, yarım pansiyon.

**halbrund** *adj.* yarımdairəvi.

**Halbschatten,** *der; -s, -* zəif kölgə, zəif kölgəlik.

**Halbschlaf,** *der; -s* yarıyuxu; mürgü.

**Halbschuh,** *der; -s, -e* qısa ayaqqabı, tufli.

**Halbschwergewicht,** *das; -(e)s, -e (Boxen)* yarımağır çəki.

**Halbschwester,** *die; -, -n* ögey bacı.

**halbseiden** *adj.* yarımipək.

**halbseitig** *adj.* yarımsəhifəlik; *med.* birtərəfli.

**Halbstarke,** *der; -n, -n* tərbiyəsiz cavan, davaçıl.

**halbstündig** *adj.* yarımsaatlıq.

**halbstündlich** *adj.* yarım saatdan bir.

**Halbtagsbeschäftigung,** *die; -, -en* yarımgünlük iş.

**Halbtagskraft,** *die; -, -¨e* yarımgün işləyən.

**Halbton,** *der; -(e)s, -¨e* yarım səs.

**halbtot** *adj.* yarıcan, yarımcan; *sich ~ lachen* gülməkdən ölmək.

**halbvoll** *adj.* yarıya qədər dolu.

**Halbwahrheit,** *die; -, -en* həqiqətin bir yanı *(tərəfi).*

**Halbwaise,** *die; -, -n* yetim.

**halbwegs** *adv.* **1.** yarı yolda; **2.** *(ungefähr)* birtəhər, birsayaq; təqribən.

**Halbwelt,** *die; -* cəmiyyətdə hörmətdən düşmüş təbəqə, əxlaqı pozulmuş ictimai təbəqə.

**Halbweltdame,** *die; -, -n* əxlaqsız qadın.

**halbwüchsig** *adj.* yeniyetmə, həddibüluğa çatmamış.

**Halbzeit,** *die; -, -en* *(Sport)* haftaym, yarı vaxt, oyunun birinci hissəsi.

**Halbzeug,** *das; -(e)s, -e* yarımfabrikat.

**Halde,** *die; -, -n* **1.** maillik, təpə yamacı; **2.** *(Hügel aus Schutt )* zibil yığını, zibil təpəsi; *auf ~ legen* yığmaq, qalamaq; *auf ~ liegen* qalanmaq, yığılıb qalmaq.

**half** *s. helfen.*

**Hälfte,** *die; -, -n* yarı, yarısı, *zur ~* yarısına qədər; *die ~ von -in* yarısı; *in zwei ~en* yarıbayarı *F meine bessere ~* mənim arvadım, canımın yarısı.

**Halfter,** *der u, das; -s, -* **1.** noxta, ovsar; xamıt; **2.** tapança qilafı *(qabı).*

**Halle,** *die; -, -n* böyük salon.

**hallen** *vi* səslənmək, eşidilmək.

**Hallenbad,** *das; -(e)s, -¨er* üstü örtülü göl.

**Hallo,** *das; -s, -s* səs-küy, qışqırıq.

**hallo!** allov!; ey!.

**Halluzination,** *die; -, -en* hallusinasiya, *(Süd. : halüsinasyon),* qarabasma, gözəgörünmə.

**Halm,** *der; -(e)s, -e* saman çöpü, çöp; gövdə, saplaq.

**Halogen,** *das; -s* hallogen.

**Hals,** *der; -es, -¨e* **1.** boyun; **2.** *(Kehle)* boğaz, xirtdək, qırtlaq; **3.** *(Flaschenhals)* ağız, boğaz; *~ über Kopf* çaparaq, çox cəld; *j-m um den ~ fallen* bir kəsin boynuna sarılmaq; *mir tut der ~ weh* boğazım ağrıyır; *sich j-n vom ~ schaffen* bir kəsi başdan *(rədd)* eləmək, bir kəsi başdan əkmək, bir kəsin əlindən canını qurtarmaq, başdansovmaq; *j-m den ~ umdrehen* bir kəsi öldürmək, bir kəsin boğazını üzmək; *es hängt mir zum ~(e) heraus* bundan cana gəldim *(bezdim).*

**Halsabschneider,** *der; -s, - fig.* sələmçi, müamiləçi, saxtakar, bahaçı.

**Halsband,** *das; -(e)s, -¨er* boyunbağı; boyunluq.

**halsbrecherisch** *adj.* başsındıran, son dərəcə təhlükəli, riskli.

**Halsentzündung,** *die; -, -en* boğaz ağrısı, boğaz *(xirtdək)* iltihabı.

**Halskette,** *die; -, -n* boyunbağı, boyunluq.

**Hals-Nasen-Ohren-Arzt,** *der; -es, -¨e* boğaz, burun və qulaq xəstəliklərin mütəxəssisi.

**Halsschlagader,** *die; -, -n* şah damar.

**Halsschmerzen,** *die/pl.* boğazağrısı; *~ haben* boğazı gəlmək.

**halsstarrig** *adj.* tərs, inadcıl, dikbaş.

**Halsstarrigkeit,** *die; -* inad, dikbaşlıq.

**Halstuch,** *das; -(e)s, -¨er* boyun dəsmalı; şal; boyun yaylığı.

**Halsweh,** *das; -s* boğazağrısı.

**Halswirbel,** *der; -s, -* boyun fəqərəsi.

**Halt,** *der; -(e)s, -e u. -s* **1.** dayanma, durma; **2.** *nur sg. (Stütze)* dayaq, dirək, tir; söykənəcək; **3.** *nur sg. (innere)* dayaq, kömək; *~ machen* dayanmaq, durmaq; *vor nichts ~ machen* heç bir şeydən qorxmamaq *(çəkinməmək); j-m ~ geben* kiməsə dayaq olmaq.

**halt[1]!** *Interjek.* dur!, dayan!, tərpənmə!, saxla!; bir dəqiqə, kafi, yetər.

**halt[2]** *F Partikel (eben, nun mal)* doğrusu; güya, işi; *so ist das ~ im Leben* dünyanın işi belədir; *du musst dich ~ wehren* doğrusu özünü müdafiə etməlisən.

**haltbar** *adj.* davamlı, möhkəm; xarab olmayan, dayanaklı; *(Farbe)* rəngi atmaz, rəngini itirməyən.

**Haltbarkeit,** *die; -* davamlılıq.

**halten** *vt* **1.** möhkəm tutmaq; saxlamaq; dayandırmaq; **2.** *(Versprechen)* əməl etmək, yerinə yetirmək; *sein Wort ~* sözünün üstündə durmaq; **3.** *(Rede)* nitq söyləmək; **4.***(Vortrag)* vermək; mü-

hazirə oxumaq; **5.** *(verwechseln)* bir kəsi bir kəsə bənzətmək *(für A/-ə)*; **6.** *(Zeitung)* abunə*(çi)* olmaq;**7.** *(bewharen)* saxlamaq, qorumaq; **8.** *mil.* müdafiə etmək; **9.** *(befolgen)* yerinə yetirmək, riayət etmək; **10.** *(Mund)* dilini *(ağzında)* saxlamaq; **11.** *(Schritt)* ayaq-ayağa getmək, ayaqlaşmaq; **12.** *(Maß)* həddini bilmək; **13.** *(Tier)* bəsləmək, saxlamaq; *vi* 1. dayanmaq; saxlamaq; 2. *(stabil)* sınmamaq, davam gətirmək; 3. *(zu j-m)* tərəfini saxlamaq, tərəfini tutmaq; 4. *(auf et. / j-n)* əhəmiyyət vermək; *vr sich ~* 1. *(gut)* yaxşı qalmaq; 2. *(Gleichgewicht bewahren)* özünü saxlamaq; 3. *(sich beherrschen)* özünü ələ almaq; 4. *(andauern)* davam etmək; 5. *(Essen)* xarab olmamaq; *(sich an j-n)* müraciət etmək; arxayın adam bilmək, bir kəsə güvənmək; 6. *(an et.)* riayət etmək, əməl etmək; *sich bereit ~* hazır olmaq *(qalmaq)*; *sich für mehr ~* özünü üstün tutmaq *(bilmək).*

**Halten,** *das; -s, -* durma; *zum ~ bringen* durdurmaq.

**Halter**[1]**,** *der; -s, -* dayanacaq.

**Halter**[2]**,** *der; -s, - (Eigentümer)* yiyə, sahib, mal sahibi.

**Halterung,** *die; -, -en* dayanacaq yeri.

**Haltesignal,** *das; -s, -e* dayanma siqnalı.

**Haltestelle,** *die; -, -n* dayanacaq, duracaq, duraq; stansiya.

**Halteverbot,** *das; -(e)s, -e* dayanma qadağanı, dayanmağa icazə verilməməsi; *hier ist ~* burada dayanma qadağandır.

**haltlos** *adj.* **1.** *(Behauptung)* əsassız, səbəbsiz; **2.** *(Charakter)* müvazinəsiz, səbatsız; çürük.

**haltmachen** *vi* durmaq, dayanmaq.

**Haltung,** *die; -, -en* **1.** *(Körperhaltung)* duruş; **2.** *(Benehmen)* davranış, rəftar; münasibət; **3.** *nur sg. (von Tieren)* saxlama, bəsləmə; **4.** *(Geisteshaltung)* səbir, özünü saxlama, istiqamət, mətanət; *die ~ verlieren* səbrini əldən vermək.

**Halunke,** *der; -n, -n* əclaf, şərəfsiz, rəzil, alçaq.

**Hamam,** *das; -* *(türkisches Bad)* hamam.

**Hämatologie,** *die; -* *med.* hematoloji, qan və qan xəstəliklərin elmi.

**Häme,** *die; -* *F* *voller ~* fitnə-fəsadlı, pis niyyətli, hiyləgər.

**hämisch** *adj.* *(bösartig)* fitnə-fəsadlı, pis niyyətli, hiyləgər.

**Hammel,** *der; -s, -* **1.** qoyun; **2.** *F* səfeh, axmaq.

**Hammelbraten,** *der; -s* qızardılmış qoyun əti.

**Hammelfleisch,** *das; -(e)s* qoyun əti.

**Hammelkeule,** *die; -, -n* qoyun budu.

**Hammer,** *der; -s, -¨* çəkic, çəkiş; *fig. unter den ~ kommen* hərraca qoyulmaq; *F das ist ein ~!* bu çox ağır bir zərbədir!

**hämmern** *vt* çəkic vurmaq, çəkiclə işləmək, çəkiclə döymək *(auf -i/gegen -ə).*

**Hammerschlag,** *der; -(e)s, -¨e* çəkic zərbəsi.

**Hammerwerfen,** *das; -s* *(Sport)* çəkic atma.

**Hämoglobin,** *das; -s, -* hemoqlobin.

**Hämophile,** *der; -n, -n* *med.* hemofil.

**Hämorrhoiden,** *die/pl.* babasil, hemoroid.

**Hampelmann,** *der; -(e)s, -¨er* **1.** əl-ayağı iplə oynayan kukla *(qolçaq);* **2.** *fig. (Schwächling)* zəifiradəli adam.

**Hamster,** *der; -s, -* dağsiçanı.

**Hamsterer,** *der; -s, -* məişət mallarını alıb anbar edən şəxs, mübadilə məqsədi ilə məişət mallarını alıb toplayan şəxs, azuqə alverçisi.

**hamstern** *vt* torbaçılıq etmək, azuqə malları yığmaq, acgözlüklə toplamaq.

**Hand,** *die; -, -¨e* əl; *flache ~* əlin içi; *hohle ~* ovuc; *~ in ~* əl-ələ, birgə; *et. bei der ~ haben* əlinin altında olmaq, lap yaxınında olmaq; *et. aus zweiter ~ kaufen* köhnəlmiş bir şeyi almaq, ikinci əldən almaq; *alle Hände voll zu tun haben* işi çox olmaq; *et. in die ~ nehmen* işi öz əlinə almaq, ələ tutmaq, ələ keçirmək;

*zu Händen G (Abk. z. Hd. / z.H.) -in* əlinə, özünə; *auf der ~ liegen* aydın olmaq, bəlli olmaq; *s-e Hände im Spiel haben* bir işdə əli olmaq; *einander/sich die Hände geben/reichen* əl vermək; *unter der Hand* gizli, gizlin; *j-m in die Hände fallen* bir kəsin əlinə keçmək, bir kəsin əlinə düşmək; *in die ~ bekommen* ələ keçirmək; mənimsəmək, sahib olmaq; *auf die ~* əlbəəl, əlüstü, tez, dəsti; *Hände und Füße* əl-ayaq; əl-qol; *sich die Hände und das Gesicht waschen* əl-üzünü yumaq; *von ~ zu ~ gehen* əlbəəl olmaq; *mit leeren Händen* əliboş, əliyalın; *mit vollen Händen* əlidolu.

**Handarbeit,** *die; -, -en* əl işi, əl əməyi.

**Handaufheben,** *das; -s* əl qaldırma, əl qovzama.

**Handauflegen,** *das; -s* əlbasma.

**Handball,** *der; -(e)s* *(Sport)* əltopu, həndbol.

**Handbesen,** *der; -s, -* əl süpürgəsi.

**handbreit** *adj.* bir qarış, əl enində.

**Handbremse,** *die; -, -n* əl əyləci *(tormozu).*

**Handbuch,** *das; -(e)s, -¨er* soraq kitabçası.

**Händchen,** *das; -s, -* *F ~ halten* əl-ələ vermək.

**Händedruck,** *der; -(e)s, -¨e* əl sıxma, əl vermə.

**Händeklatschen,** *das; -s* alqış, əl çalma.

**Handcreme,** *die; -, -s* əl kremi.

**Handel,** *der; -s* ticarət, alver, alış-veriş, alverçilik; *~ treiben* ticarət etmək; *im ~ sein* bazarda tapılmaq.

**Händel,** *der; -s, -¨ veralt.* dava, ixtilaf.

**handeln** *vi* **1.** ticarət etmək, alver etmək; **2.** *(feilschen)* qiymət danışmaq, sövdələşmək, bazarlaşmaq, çənə vurmaq; **3.** *(sich verhalten)* rəftar etmək, özünü aparmaq, davranmaq; **4.** *(aktiv werden)* fəal olmaq, hərəkətə keçmək; *sich ~ : worum handelt es sich?* söhbət nədən gedir?, nə olub?; *es handelt sich um...* söhbət o *(bu)* haqda gedir ki, məsələ budur ki .., söhbət ondan gedir ki.

**Handelsabkommen,** *das; -s, -* ticarət sazişi.

**Handelsbeziehungen,** *die/pl.* ticarət münasibətləri.

**Handelsgesellschaft,** *die; -, -en* ticarət şirkəti *(cəmiyyəti).*

**Handelskammer,** *die; -, -n* ticarət palatası *(Süd. : ticarət otağı).*

**Handelspolitik,** *die; -* ticarət siyasəti.

**Handelsschule,** *die; -, -n* ticarət məktəbi.

**Handelsvertreter,** *der; -s, -* ticarət nümayəndəsi.

**handeltreibend** *adj.* ticarətlə məşğul olan.

**händeringend** *adv.* yalvar-yaxar; çarəsizlik içində.

**Händeschütteln,** *das; -s, -* əl sıxma, əl vermə.

**Handfeger,** *der; -s, -* əl süpürgəsi.

**handfertig** *adj.* məharətli.

**Handfertigkeit,** *die; -* mahirlik.

**handfest** *adj.* **1.** *(kräftig)* güclü, qüvvətli; **2.** *(Lüge)* ağ yalan.

**Handfläche,** *die; -, -n* əlin içi, bəmbəçə, ovuc.

**handgearbeitet** *adj.* əl işi, əldə işlənmiş.

**Handgelenk,** *das; -(e)s, -e* bilək.

**handgemein** *: ~ werden* əlbəyaxa olmaq, döyüşmək.

**Handgemenge,** *das; -s, -* əlbəyaxa vuruşma, döyüşmə, tutaşma, tutuşma.

**Handgepäck,** *das; -(e)s* əl baqajı.

**handgerecht** *adj.* rahat, əlaltı.

**Handgranate,** *die; -, -n* əlqumbarası, əlbombası.

**handgreiflich** **1.** *(konkret)* dəqiq, aydın, konkret, aydın olmuş; **2.** *~ werden* bir kəsi vurmaq, döyüşə başlamaq.

**Handgreiflichkeiten** *pl.* döyüş, döyüşmə, tutaşma.

**Handgriff,** *der; -(e)s, -e* **1.** üsul, hərəkət; məharət, bacarıq; **2.** dəstə, qulp; *mit e-m ~ machen* bir işi tez *(məharətlə)* görmək.

**handgroß** *adj.* əl böyüklüyündə.

**Handhabe,** *die; -, -n* imkan, vəsilə, ix-

tiyar; *e-e ~ für et. haben* istifadə etmək üçün imkana malik olmaq; *j-m e-e ~ für ein Einschreiten geben* bir kəsə bir işə qarışmaq üçün ixtiyar *(imkan)* vermək; *er hat keinerlei ~* onun əlində heç bir imkan yoxdur.

**handhaben** *vt* **1.** istifadə etmək; **2.** *(Maschine usw.)* işlətmək, işə salmaq.

**Handhabung,** *die; -, -en* istifadə.

**Handicap,** *das; -s, -s* əngəl, maneə, çətinlik.

**Handkarren,** *der; -s, -* əl arabası.

**Handkoffer,** *der; -s, -* əl çamadanı.

**Handkuss,** *der; -es, -¨e* əl öpmə; *j-m e-n ~ geben* bir kəsin əlindən öpmək, əlini öpmək; *F mit ~* minnətdarlıqla, sevinclə.

**Handlanger,** *der; -s, -* **1.** *(Gehilfe)* köməkçi; **2.** *(Helfershelfer)* əlbir, əlaltı.

**Händler,** *der; - s, -* alverçi; *pl.* alverçilər, əsnaf.

**Handlesekunst,** *die; -* əl falı.

**handlich** *adj.* ələyatan, rahat.

**Handlinie,** *die; -, -n* əl yazısı,əl cizgisi.

**Handlung,** *die; -, -en* **1.** *(Tat)* hərəkət, iş, əməl, fəaliyyət, ediş; **2.** *(e-s Filmes)* akt, aksiya; **3.** *(Laden)* dükan, mağaza; *Lebensmittelhandlung* baqqal dükanı; **4.** *jur. strafbare ~* cinayət *(cürm).*

**Handlungsbedarf,** *der; -s, - : es besteht kein ~* hərəkətə gəlməyə ehtiyac yoxdur.

**handlungsfähig** *adj.* hərəkət etməyi bacaran, iş görməyə iqtidarı olmaq.

**Handlungsfreiheit,** *die; -* fəaliyyət azadlığı, hərəkət azadlığı,

**Handlungsweise,** *die; -, -n* hərəkət tərzi; rəftar, müamilə.

**Handpumpe,** *die; -, -n* əl tulumbası; əl nasosu.

**Handreichung,** *die; -, -en* kömək.

**Handrücken,** *der; -s, -* əlin arxa tərəfi.

**Handschelle,** *die; -, -n* əl buxovu, qandal.

**Handschlag,** *der; -(e)s, -¨e* əl vermə, əl sıxma.

**Handschreiben,** *das; -s, -* öz əli ilə yazılmış məktub, şəxsən yazılmış məktub; tövsiyə məktubu.

**Handschrift,** *die; -, -en* **1.** əlyazısı; *veralt.* dəst-xətt, dəsti-xətt; **2.** *(Manuskript)* əlyazma*(sı),* əlyazısı.

**handschriftlich** *adj.* əl ilə yazılmış; əlyazısı.

**Handschuh,** *der; -(e)s, -e* əlcək, əllik.

**Handspanne,** *die; -, -n* qarış.

**Handspiegel,** *der; -s, -* əl aynası, kiçik ayna.

**Handstand,** *der; -(e)s, -¨e* *(Sport)* gimnastikada *(jimnastikdə)*əl üstündə durma.

**Handstreich,** *der; -(e)s, -e* basqın; qiyam.

**Handtasche,** *die; -, -n* əl çantası.

**Handtuch,** *das; -(e)s, -¨er* dəsmal, əlüzsilən.

**Handumdrehen,** *das : im ~* bir anda, göz qırpımında.

**Handvoll,** *die;* bir ovuc, çəngə.

**Handwagen,** *der; -s, -* əl arabası.

**Handwerk,** *das; -(e)s, -e* sənət, peşə, ixtisas, sənətkarlıq; *fig. j-m das ~ legen* bir kəsin hiyləsinə son qoymaq; *er versteht sein ~* o, işində ustadır.

**Handwerker,** *der; -s, -* sənətkar, peşəkar, usta.

**Handwerkskammer,** *die; -, -n* sənətkarlar sinfinin palatası *(təşkilatı).*

**Handwerksmeister,** *der; -s, -* usta, sənətkar.

**Handwörterbuch,** *das; -(e)s, -¨er* kiçik lüğət *(kitabı),* kiçik sözlük.

**Handy,** *das; -s, -s F* əl telefonu.

**Handzeichen,** *das; -s, -* əl işarəsi.

**Handzettel,** *der; -s, -* əl elanı.

**hanebüchen** *adj. F (unglaublich)* ağla sığılmayan, ağla gəlməyən.

**Hanf,** *der; -(e)s bot.* çətənə; çətənə lifi.

**Hang,** *der; -(e)s, -¨e* **1.** yamac, dağ döşü; **2.** *fig. nur sg.* meyl, rəğbət, həvəs.

**Hängebauch,** *der; -(e)s, -¨e* sallaqqarın.

**Hängebrücke,** *die; -, -n* asma körpü.

**hängen** *vi* asılmaq *(an D / nədənsə, kimdənsə)*; bağlı olmaq *(-ə); sie hängt sehr an ihrer Mutter* o,anasına çox bağlıdır; *vt* asmaq *(an, auf A/-nəyəsə); an*

*die Wand ~* divara asmaq; *um den Hals ~* boynuna taxmaq; *j-n ~* bir kəsi asmaq; *sich ~* özünü asmaq;*~ bleiben* ilişmək, sallanıb qalmaq; *im Gedächtnis ~ bleiben* hafizədə qalmaq.

**Hängen,** *das; -s, -* *F mit ~ und Würgen* zəhmətlə, çox çətinliklə.

**hängenbleiben** *vi* **1.** sallanıb qalmaq, ilişmək *(an D/nədənsə, kimdənsə);* **2.** *F (in der Schule)* sinifdə qalmaq; **3.** *(im Gedächtnis)* xatırda qalmaq, unudulmamaq.

**hängend** *adj.* asılan, sallaq, sallanan.

**hängenlassen** *vt* **1.** *(Mantel)* yaddan çıxarmaq, unutmaq; **2.** *F (j-n)* köməksiz buraxmaq; *vr sich ~* ləngimək, meylsiz olmaq, əhvali-ruhiyyəsiz olmaq.

**Hänselei,** *die; -, -en* sataşma, acıqlandırma.

**hänseln** *vt* sataşmaq, acıqlandırmaq.

**Hanswurst,** *der; -(e)s, -e* təlxək, oyunbaz.

**Hantel,** *die; -, -n* idman daşı, hantel.

**hantieren** *vi* *(mit et.)* qurdalanmaq; əllərilə iş görmək, məşğul olmaq.

**hapern** *vi* çatmamaq, axsamaq; *es hapert am Geld* pul çatmır; *woran hapert es?* çətinlik nədədir? *bei ihm hapert's im Rechnen* hesablamada çətinliyi var.

**Häppchen,** *das; -s, -* tikə, dişləm.

**Happen,** *der; -s, -* tikə, dişləm; *ein ~ Brot* bir tikə çörək.

**happig** *adj.* *F* *(Preis, Strafe)* çox yuxarı, hədsiz.

**Harem,** *der; -s, -s* **1.** hərəm, hərəmsəra; **2.** hərəmdə olan qadınlar.

**Häresie,** *die; -, -n* *rel.* dindən azma, dindən çıxma; səhv nəzəriyyə.

**Harfe,** *die; -, -n* *mus.* arfa, çəng.

**harfen** *vt* arfa *(çəng)* çalmaq.

**Harfenist,** *der; -en, -en* arfa çalan, çənq çalan.

**Harfenistin,** *die; -, -nen* arfa çalan *(qadın).*

**Harke,** *die; -, -n* dırmıq, çəng, daraq; *fig.* *dem werde ich zeigen, was e-e ~ ist* mən ona göstərərəm, mən onun dərsini verərəm.

**harken** *vt (Laub od. Stein)* dırmıqlamaq, dırmıqla yığmaq.

**Harm,** *der; -(e)s* **1.** qüssə, dərd, kədər, üzüntü; **2.** *(Kränkung)* inciklik.

**härmen** *vr* *sich ~* qüssələnmək, kədərlənmək.

**harmlos** *adj.* zərərsiz, ziyansız; sadə; *e-e ~e Frage* sadə bir sual; *~er Mensch* zərərsiz adam; *F* heç kəsin toyuğuna kiş deməz *(daş atmaz)* adam.

**Harmonie,** *die; -, -n* həmahəng*(lik),* mütənasiblik, harmoniya; yöndəm.

**harmonieren** *vi* həmahəng olmaq, uyğun gəlmək, tutmaq, düşmək.

**Harmonika,** *die; -, -s* akordeon; qarmon.

**harmonisch** *adj.* həmahəng, mütənasib, uyğun; yöndəmli.

**harmonisieren** *vt* uyğunlaşdırmaq, həmahəng etmək; yöndəmə salmaq.

**Harn,** *der; -(e)s* idrar, sidik.

**Harnblase,** *die; -, -n* sidik kisəsi, məsanə, böyrək.

**Harndrang,** *der; -(e)s* idrar *(işəmə)* ehtiyacı.

**harnen** *vt* idrar etmək.

**Harngrieß,** *der; -es* məsanə daşı, böyrəkdə daş-qum.

**Harnisch,** *der; -(e)s, -e* zireh; *fig.* *in ~ geraten* hirslənmək, özündən çıxmaq.

**Harnleiter,** *der; -s, -* sidik kanalı.

**Harnröhre,** *die; -, -n* sidik yolu, idrar yolu.

**Harnsäure,** *die; -, -n* sidik turşusu, *(Süd. : asit urik).*

**Harpune,** *die; -, -n* nizə; qarmaq.

**harpunieren** *vt* nizə ilə vurmaq *(balığı).*

**harren** *vt* səbirsizliklə gözləmək *(auf/-i)*

**harsch** *adj.* qaba, kəskin; kobud.

**hart** *adj.* **1.** *(Ggs. weich)* bərk, davamlı; möhkəm, sərt, şiddətli; dişbatmaz; **2.** *(unbarmherzig)* qəddar, amansız, daşürəkli; **3.** *(verbissen)* tərs, inadlı; acıqlı; **4.***(schwierig)* çətin, ağır; *~e Zeiten* *pl.* ağır günlər, çətin günlər; *~ werden* bər-

kimək; *e-e ~e Arbeit* çətin iş; *~er Kampf* amansız mübarizə; *ein ~es Ei* bərk bişmiş yumurta; *~e Winter* sərt qış; *adv.* rəhmsizcəsinə, şiddətlə, bərkdən; sərt.

**Härte,** *die; -, -n* **1.** bərklik; möhkəmlik; şiddət; **2.***(Strenge) nur sg.* sərtlik; amansızlıq; kəskinlik; *soziale ~n* ağır ictimai *(sosial)* vəziyyət.

**Härtefall,** *der; -(e)s, -¨e* ağır vəziyyət, çətin şərait, çarəsizlik.

**Härtegrad,** *der; -(e)s, -e* bərklik *(sərtlik)* dərəcəsi.

**härten** *vt (Stahl)* su vermək, sulamaq.

**hartgekocht** *adj.* bərk bişmiş.

**Hartgeld,** *das; -(e)s* sikkə.

**hartgesotten** *adj.* soyuqqanlı, hissiz, duyğusuz; mənfəətgüdən.

**hartherzig** *adj.* daşürək(li), şəfqətsiz, rəhmsiz.

**hartnäckig** *adj.* inadcıl, inadçı, tərs, sözünün üstündə duran, qurnaz, canibərk, cəhlkar, dönməz, höcətçi; *(beharrlich)* sabitqədəm, ciddi; *(Krankheit)* sürəkli.

**Hartpappe,** *die; -, -n* qalın kağız karton.

**Härtung,** *die;* - **1.**sərtləşdirmə; **2.** *(Stahl usw.)* su vermə.

**Harz,** *das; -es, -e* qatran, kitrə; kündür.

**harzig** *adj.* qatranlı.

**Häscher,** *der; -s, -* güdükçü, gizlicə təqib edən, izləyən.

**Hasch,** *das; -s* həşiş.

**haschen¹** *vt* tutmaq; *vi* dalınca qaçmaq, qovalamaq.

**haschen²** *vi* həşiş çəkmək.

**Haschisch,** *das u. der; -(s)* həşiş, anaşa, bəng.

**Haschraucher,** *der; -s, -* həşiş çəkən, anaşçı, bəngi.

**Hase,** *der; -n, -n* dovşan; *fig. ein alter ~* müəyyən bir sahədə təcrübəsi çox olan adam.

**Haselnuss,** *die; -, -¨e* fındıq; fıstıq.

**Hasenfuß,** *der; -es, -¨e fig.* qorxaq, ağciyər, ağbağır.

**Hasenpanier,** *das : das ~ ergreifen* daban almaq, dabana qoymaq, qaçmaq, dabanına tüpürmək.

**Haspel,** *der; -s, - u. die; -, -n* dolamaçarx, çarxqolu.

**haspeln** *vt* **1.** *(Faden)* dolamaq, sarımaq; **2.** *(hastig sprechen)* tələsə-tələsə danışmaq.

**Hass,** *der; -es* nifrət, kin, qərəz, küdurət; *e-n ~ auf j-n haben* kiməsə qarşı nifrət bəsləmək, ədavət bəsləmək, kimsədən nifrət etmək; *aus ~* nifrətdən.

**hassen** *vt* nifrət etmək,nifrət bəsləmək, görəsi gözü olmamaq.

**hasserfüllt** *adj.* nifrətli, nifrətlə dolu, ədavətli.

**hässlich** *adj.* çirkin, kifir; eybəcər; əndamsız; *(Mensch)* licimsiz, biçimsiz; bədqılıq; *fig.* damdabaca; *~ werden* çirkinləşmək, eybəcərlənmək,kifirləşmək.

**Häßlichkeit,** *die; -* çirkinlik, kifirlik; qəbahət, eybəcərlik.

**Hassliebe,** *die; -* məhəbbət ilə nifrətin yan-yana olma hissi.

**Hast,** *die; -* tələsmə, əcələ, tələsiklik.

**hasten** *vi* tələsmək, əcələ etmək.

**hastig** *adj. u. adv.* tələsik, əcələ ilə, ayaqüstü, əcələli, başılovlu, durmaqaç; *nicht so ~!* tələsmə!, yavaş-yavaş!

**Hätschelkind,** *das; -(e)s, -er* ərköyün uşaq.

**hätscheln** *vt* nazlamaq, əzizləmək; üz vermək.

**hatte** *s. haben.*

**Hatz,** *die; -, - en* **1.** ov iti ilə ovlama; **2.** *F* izləmə, təqib etmə.

**Hau,** *der; -(e)s, -e* zərbə.

**Haube,** *die; -, -n* **1.** *(e-r Nonne)* ləçək; **2.** *(bei Vögeln)* kəkil; **3.** *(Motorhaube)* qapaq; *fig. unter die ~ bringen* ərə vermək.

**Hauch,** *der; -(e)s, -e* **1.** *(Atem)* nəfəs; **2.** *(von Parfüm usw.)* ətir, xoş iy; **3.** *fig. (Spur)* iz, əlamət.

**hauchdünn** *adj.* ən nazik, ən incə.

**hauchen** *vi* hohlamaq, üfürmək, hovxurmaq; *vt (leise sprechen)* pıçıldamaq.

**Haudegen,** *der; -s, -* **1.** yaşlı və təcrübəli bir kişi; qoçaq; **2.** qəmə.

**Haue,** *die; -, -n* **1.** *(Hacke)* külüng, toxa, kərki; **2.** *nur sg.* kötək; *F ~ kriegen*

kötək yemək.

**hauen** *vt* **1.** vurmaq, döymək; kötəkləmək; **2.** *(Holz)* yarmaq, çapmaq; **3.** yonmaq; **4.** *fig. j-n übers Ohr ~* bir kəsi aldatmaq; *vr sich ~* döyüşmək.

**Hauer,** *der; -s, -* **1.** qaban dişi; **2.** *(Bergmann)* mədən fəhləsi.

**Haufen,** *der; -s, -* **1.**qalaq; qucaq; qom; *(aus Getreidekörnern)* dəc; **2.** *(Menschenhaufen)* dəstə, camaat; *F ein ~* bir sürü, bir yığın; *F j-n über den ~ fahren (rennen)* kimisə basıb əzmək; *e-n ~ Geld verdienen* dünyanın pulunu qazanmaq, bir qucaq pul qazanmaq.

**häufeln** *vt* qalaqlamaq, qalamaq; dibini torpaqla doldurmaq.

**häufen** *vt* üst-üstə qalamaq; yığmaq, koma vurmaq; *vr sich ~* üst-üstə yığılmaq, qalanmaq, çoxalmaq, komalanmaq.

**haufenweise** *adv.* **1.** dəstə-dəstə, axın-axın; **2.** *(bei Tieren)* sürü-sürü; çoxlu.

**häufig** *adj.* tez-tez; əksər; *adv.* tez-tez, addımbaşı, axşam-sabah, dəfələrcə, dəfələrlə, dönə-dönə, bir neçə dəfə.

**Häufigkeit,** *die; -* tezlik; coxluq, çoxlu.

**Häufung,** *die; -, -en* yığ(ıl)ma, çoxalma, çoxaltma, yığışma.

**Haupt,** *das; -(e)s, -¨er* **1.** baş, kəllə, qafa; **2.** *(Oberhaupt)* başçı, rəis, müdir; **3.** *(Zentrale)* əsas, əsil, ana, əsasi.

**hauptamtlich** *adj.* maaşlı, məvacibli, ştatda olan.

**Hauptbahnhof,** *der; -(e)s, -¨e* mərkəzi vağzal.

**Hauptberuf,** *der; -(e)s, -e* əsas peşə, əsas ixtisas.

**Hauptbeschäftigung,** *die; -, -en* əsas iş *(məşğuliyyət).*

**Hauptdarsteller,** *der; -s, -* əsas rolda iştirak edən aktyor *(şəxs).*

**Haupteingang,** *der; -(e)s, -¨e* əsas giriş əsas giriş yeri.

**Hauptfach,** *das; -(e)s, -¨er* əsas fənn; başlıca sənət.

**Hauptfigur,** *die; -, -en* əsas fiqur, əsas rolda iştirak edən şəxs.

**Hauptgebäude,** *das; -s, -* mərkəzi bina.

**Hauptgericht,** *das; -(e)s, -e* *(Hauptspeise)* əsas yemək.

**Hauptgeschäftsstelle,** *die; -, -n* mərkəzi şöbə.

**Hauptgewinn,** *der; -(e)s, -e* baş uduş.

**Hauptlast,** *die; -, -en* əsl *(əsas)* yük.

**Häuptling,** *der; -s, -e* başçı, qəbilə rəisi.

**Hauptmann,** *der; -(e)s, -leute* kapitan, yüzbaşı.

**Hauptpostamt,** *das; -(e)s, -¨er* mərkəzi poçt *(post)* idarəsi.

**Hauptquartier,** *das; -s, -e* baş qərargah.

**Hauptrolle,** *die; -, -n* əsas rol.

**Hauptsache,** *die; -, -n* əsas məsələ.

**hauptsächlich** *adj.* əsas, əsli, mühüm; *adv.* başlıca olaraq, əsasən, xüsusilə.

**Hauptsatz,** *der; -es, -¨e gr.* baş cümlə.

**Hauptstadt,** *die; -, -¨e* paytaxt, mərkəz.

**Hauptstraße,** *die; -, -n* mərkəzi küçə, mərkəzi xiyaban; caddə.

**Haupttreffer,** *der; -s, -* *(Lotterie)* baş uduş.

**Hauptursache,** *die; -, -n* əsas səbəb.

**Hauptversammlung,** *die; -, -en* ümumi iclas.

**Hauptverwaltung,** *die; -, -en* baş idarə.

**Hauptwache,** *die; -, -n* baş qarovul.

**Hauptwohnsitz,** *der; -(e)s, -e* əsas yaşayış yeri.

**Hauptwort,** *das; -(e)s, -¨er gr.* isim.

**Hauptziel,** *das; -(e)s, -e* əsas məqsəd, başlıca məqsəd.

**Hauptzweck,** *der; -(e)s, -e s. Hauptziel.*

**Haus,** *das; -es, -¨er* **1.** ev, bina, tikinti; xanə, xana; **2.** *(Familie)* ailə, ev-eşik; nəsil; **3.** *H* ticarətxana;*nach ~e kommen* evə gəlmək; *zu ~e* evdə; *außer ~* eşikdə; *von ~ zu ~* evbəev; *von ~ zu ~ gehen* evbəev axtarmaq *(getmək); fig. zu ~e sein (gut kennen)* yaxşı bilmək, yaxşı tanımaq *(in D/-i, nəyisə).*

**Hausangestellte,** *der u. die; -n, -n* ev qulluqçusu.

**Hausapotheke,** *die; -, -n* evdə olan dava-dərman qutusu.

**Hausarbeit,** *die; -, -en* **1.** ev işi; **2.** *(e-s Schülers)* tapşırıq.

**Hausarrest,** *der; -* ev dustağı, evdə dustaq kimi saxlanılma.

**Hausarzt,** *der; -es, -¨e* ailə həkimi.

**Hausbar,** *die; -, -s* kokteyl dolabı.

**Hausbesitzer,** *der; -s, -* ev sahibi, ev yiyəsi.

**Hausbesuch,** *der; -(e)s, -e* həkimin xəstə evinə gəlməsi *(getməsi)*.

**Hausbewohner,** *der; -s, -* ev sakini.

**Häuschen,** *das; -s, -* kiçik ev, evcik; *F* dəmək; *fig. ganz aus dem ~ sein* özündən çıxmaq, bərk hirslənmək; həyəcan içində olmaq.

**hausen** *vi* **1.** *(in e-r Baracke)* yerləşmək, yaşamaq; **2.** *(wüten)* azğınlıq etmək, dağıtmaq.

**Hausflur,** *der; -(e)s, -e* dəhliz.

**Hausfrau,** *die; -, -en* evdar qadın, ev qadını, ev arvadı; *veralt.* evlik.

**Hausfriedensbruch,** *der; -(e)s* mənzil toxunulmazlıq hüququnu pozma.

**hausgemacht** *adj.* evdə hazır olmuş; *(Speisen)* evlik.

**Haushalt,** *der; -(e)s, -e* **1.** evdarlıq, ev işləri; **2.** *H* büdcə; *den ~ verabschieden* büdcəni təsdiq etmək; *den ~ führen* evdarlıq etmək.

**haushalten** *vt : mit et. ~* qənaətcil olmaq, qənaətlə işlətmək.

**Haushälterin,** *die; -, -nen* ev işlərini görən qadın.

**Haushaltsartikel,** *der; -s, -* ev əşyası.

**Haushaltsausschuss,** *der; -es, -¨e* büdcə komissiyası.

**Haushaltsdebatte,** *die; -, -n* büdcə haqda parlamentdə gedən mübahisə.

**Haushaltsdefizit,** *das; -(e)s, -e* büdcə çatışmazlığı.

**Haushaltsplan,** *der; -(e)s, -¨e* dövlət büdcə layihəsi, dövlət büdcəsinin layihəsi.

**Haushaltspolitik,** *die; -* büdcə siyasəti.

**Haushaltungskosten,** *die/pl.* təsərrüfat xərcləri.

**Hausherr,** *der; -(e)n, -en* ev sahibi.

**haushoch** *adj.* ev ucalığında, ev hündürlüyündə; *fig.* böyük dərəcədə, çox.

**hausieren** *vi* **1.** evlərarası alver etmək; **2.** *(mit e-r Geschichte usw.)* hər yerdə yaymaq, hər yerdə tərifləmək.

**Hausierer,** *der; -s, -* səyyar satıcı.

**häuslich** *adj.* evinə bağlı, evinin qayğısını çəkən, evdar, evə bağlı.

**Häuslichkeit,** *die; -* ailə həyatı, ev mühiti; ev.

**Hausmacheart,** *die; -, -en : nach ~* ev üsulu.

**Hausmädchen,** *das; -s, -* ev qulluqçusu.

**Hausmeister,** *der; -s, -* qapıçı; dalandar.

**Hausmittel,** *das; -s, -* ev dərmanı.

**Hausnummer,** *die; -, -n* ev nömrəsi.

**Hausordnung,** *die; -, -en* daxili nizam qaydaları, daxili nizamnamə.

**Hausrat,** *der; -(e)s* ev əşyası; *F* dirrik.

**Hausrecht,** *das; -(e)s* ev sahibinin hüququ, mənzil toxunulmazlıq hüququ.

**Hausschlüssel,** *der; -s, -* ev qapısının açarı.

**Hausschuhe,** *die; -, -n* çəkələk, yüngül ev ayaqqabısı, çust.

**Haustür,** *die; -, -en* ev qapısı.

**Hausverwalter,** *der; -s, -* evlər idarəsi rəisi.

**Hausverwaltung,** *die; -, -en* ev*(lər)* idarəsi.

**Hauswart,** *der; -(e)s, -e* qapıçı.

**Hauswirt,** *der; -(e)s, -e* ev sahibi.

**Haut,** *die; -, -¨e* **1.** *nur sg.* dəri; cild; **2.** *(bei Obst usw.)* qabıq; **3.** *(auf Flüssigkeiten)* nazik pərdə; qaysaq; *nur noch ~ und Knochen* bir dəri bir sümük; *nass bis auf die ~ werden* təpədən-dırnağa qədər islanmaq; *mit heiler ~ davon kommen* yaxasını qurtarmaq; *e-e dicke ~ haben* laqeyd olmaq, etinasız olmaq; *aus der ~ fahren* hirslənmək; *ich möchte nicht in s-r ~ stecken* onun yerində olmaq istəmirəm; *das geht e-m unter die ~* insanı həddən artıq həyəcana gətirir, qan ağ-

ladır.

**Hautabschürfung,** *die; -, -en med.* sıyırıntı, sıyırım.

**Hautarzt,** *der; -es, -¨e* dəri həkimi, dermatoloq.

**Hautausschlag,** *der; -(e)s, -¨e* səpmə, səpki; sızanaq.

**Hautcreme,** *die; -, -s* dəri kremi.

**häuten** *vt* **1.** *(Tiere)* dərisini soymaq; **2.** *(Obst)* qabığını soymaq; *vr sich ~* soyulmaq; *(bei Tieren)* dəridən çıxmaq, qabıqdan çıxmaq.

**hauteng** *adj.* çox dar, vücudu sıxan.

**Hautentzündung,** *die; -, -en* dəri iltihabı.

**Hautfarbe,** *die; -, -n* dəri rəngi.

**Hautkrankheit,** *die; -, -en* dəri xəstəliyi, dəri naxoşluğu.

**hautnah** *adj.* hiss olunan.

**Hautpflege,** *die; -* dəriyə qulluq etmə.

**Häutung,** *die; -, -en* soyulma; dəridən çıxma.

**Hautwunde,** *die; -, -n* cırmaq yarası, dəri yarası.

**Havanna** *(Hauptstadt von Kuba)* Havana.

**Havarie,** *die; -, -n* **1.** avariya, bir gəminin və ya təyyarənin qəzaya uğraması ; **2.** texniki təsisatın xarab olması.

**Havarist,** *der; -en, -en* qəzaya uğramış gəminin sahibi.

**Haxe,** *die; -, -n* maça.

**Hbf.** = *Hauptbahnhof* mərkəzi vağzal.

**h.c.** = *honoris causa* fəxri.

**he!** ey!, bura bax!.

**Hebamme,** *die; -, -n* mama, qabilə; *dial.* əbə*(çi)*.

**Hebebühne,** *die; -, -n* qaldırıcı.

**Hebel,** *der; -s, -* qaldırıcı, manivela *fig. alle ~ in Bewegung setzen* bütün vasitələri işə salmaq, bütün imkanlardan istifadə etmək; *am längeren ~ sitzen* rəqibindən üstün olmaq.

**heben** *vt* **1.** qaldırmaq; **2.** *(e-n Schatz)* çıxartmaq; **3.** *(Wohlstand)* yüksəltmək, artırmaq; **4.** *(fördern)* təşviq etmək; *die Hand ~* əl qaldırmaq; *vr sich ~* qalxmaq, artmaq.

**Hebräer,** *der; -s, -* yəhudi, ibrani.

**hebräisch** *adj.* yəhudi; ibrani

**Hebung,** *die; -, -en* **1.** qalxma, qaldırma; **2.** yüksəl(t)mə, art(ır)ma.

**hecheln**[1] *vt (Hund)* ləhləmək; hıqqıldamaq.

**hecheln**[2] *vt* **1.** *(Hanffasern)* daramaq; **2.** dalınca danışmaq, dedi-qodu.

**Hecht,** *der; -(e)s, -e* durna balığı.

**hechten** *vi* pələng kimi atılmaq.

**Heck,** *das; -s, -e u. -s mar.* gəminin dal tərəfi.

**Hecke,** *die; -, -n* çəpər, hasar.

**Heckenrose,** *die; -, -n bot.* itburnu.

**Heckenschütze,** *der; -n, -n* pusqudan atəş açan sui-qəsdçi.

**Heckscheibe,** *die; -, -n* avtomobilin dal şüşəsi.

**Heckmek,** *das; -s* cəfəngiyat, boş söz.

**Hedonismus,** *der; -* Hedonizm.

**Hedonist,** *der; -en, -en* hedonist.

**Heer,** *das; -(e)s, -e* **1.** ordu, qoşun, çəri; **2.** çoxlu, dəstə, camaat; sürü; *ein ~ von Arbeitslosen* işsizlər sürüsü.

**Heerführer,** *der; -s, -* sərkərdə.

**Heerlager,** *das; -s, -* ordugah.

**Hefe,** *die; -, -n* **1.**maya, acıtma, balata; **2.** *nur. sg. (Bodensatz)* xılt, torta; *fig. die ~ des Volkes* xalqın ən aşağı təbəqəsi.

**Heft,** *das; -(e)s, -e* **1.**dəftər; **2.** *(e-r Zeitschrift)* sayı, nüsxə, nömrə; *in ein ~ schreiben* dəftərdə yazmaq.

**heften** *vt* **1.** sancaqlamaq; yapışdırmaq; **2.** *(Buchbinderei)* bağlamaq, tikmək; **3.** *den Blick/die Augen ~* göz dikmək, diqqətlə baxmaq, gözünü zilləmək *(auf A/-ə); vr sich an j-s Fersen ~* bir kəsə yapışıb qopmamaq.

**Hefter,** *der; -s, - (Mappe)* dosya, qovluq.

**heftig** *adj.* **1.** şiddətli, güclü, gurultulu, qızğın, hiddətli; **2.***(akut)* şiddətli, kəskin, sərt; ağır; **3.** *(unbeherrscht)* əsəbi, hirsli; *~er Regen* şiddətli yağış; *ein ~er Mensch* əsəbi bir insan; *j-n ~ schlagen* bir kəsi bərk döymək; *F* döşəmək; *adv.* hiddətlə.

**Heftigkeit,** *die; -* şiddət, bətərlənmə,

hiddət; hirslilik, dəliqanlılıq; qızğınlıq, tündxasiyyətlilik, sərtlik.

**Heftklammer,** *die; -, -n* qısqac.

**Heftpflaster,** *das; -s, -* yapışqanlı plastır, yara lenti, yara bandı.

**Heftzwecke,** *die; -, -n* xırda mıx *(Süd. : a. punez).*

**Hege,** *die; -* mühafizə, qoruma, qulluq etmə.

**Hegemonie,** *die; -, -n* üstünlük, ağalıq, hegemonluq.

**hegen** *vt* **1.** *(schützen)* qorumaq, mühafizə etmək; **2.** *(pflegen) -ə* qulluq etmək; *-in* qayğısına qalmaq; *~ und pflegen -ə* həddən artıq qulluq etmək; **3.** *(Absicht usw.) -i* bəsləmək; *e-n Wünsch ~* arzu etmək; *Misstrauen gegen j-n ~* kiməsə inanmamaq; *Achtung für j-n ~* bir kəsə hörmət bəsləmək.

**Heger,** *der; -s, -* keşikçi.

**Hehl,** *der u. das; -(e)s* sirr, gizlətmə; *kein(en) ~ machen aus D -i* gizlətməmək, inkar etməmək, gizli saxlamamaq.

**Hehler,** *der; -s, -* oğurluq malı alıb-satan.

**Hehlerei,** *die; - jur.* cinayəti gizlətmə.

**hehr** *adj.* yüksək, əzəmətli; şərif.

**Heide**[1]**,** *der; -n, -n* dinsiz, kafir.

**Heide**[2]**,** *die; -* çöl, otlaq, düzənlik.

**Heidekraut,** *das; -(e)s* süpürgə kolu; gəvən.

**Heiden...** *F* dəhşətli, çox.

**Heidenangst,** *die; -* dəhşətli qorxu; *e-e ~ haben* çox qorxmaq.

**Heidengeld,** *das; -(e)s fig*. çox pul.

**Heidentum,** *das; -s* dinsizlik, kafirlik; *hist.* cahiliyyət.

**heidnisch** *adj.* dinsiz, atteist.

**heikel** *adj.* **1.** *(wählerisch)* müşkülpəsənd; **2.** *(e-e Angelegenheit usw.)* çətin, incə; *e-e heikle Frage* çətin bir sual.

**Heil,** *das; -(e)s* **1.** sağlıq, salamatlıq, xoşbəxtlik; **2.** *rel.* nicat vermə, qurtuluş, xilas etmə.

**heil** *adj.* sağlam, sağ, sağlığı yerində, əsən; *er ist mit ~er Haut davongekommen* sağ-salım qurtuldu; *F* əl-ələ, baş-başa çıxdı; *(Sache)* xarab olmamış, bütün, bütöv.

**Heiland,** *der; -(e)s* Məsih, Həzrəti İsa.

**Heilanstalt,** *die; -, -en* **1.** müalicəxana, sanatoriya; klinika *(Süd. : klinik)*; **2.** *(psychiatrische)* ağıl xəstəxanası .

**Heilbad,** *das; -(e)s, -¨er* müalicə suları *pl.*

**heilbar** *adj.* müalicə ola bilən, sağala bilən, əlaclı, əlacpəzir.

**heilbringend** *adj.* sağladan, şəfaverici.

**heilen** *vt* sağaltmaq, şəfa vermək, sağlamlaşdırmaq, dərmən etmək, babatlaşdırmaq, əlac tapmaq, əlac eləmək *(von D/-dən)*; *vi* sağalmaq, yaxşılaşmaq, şəfa tapmaq, babatlaşmaq, eyiləşmək, toxtamaq; *(Narbe)* bitişmək.

**heilend** *adj.* şəfaverici, şəfabəxş.

**Heilerde,** *die; -* şəfaverici torpaq.

**heilfroh** *adj. F ~ sein* çox məmnun olmaq, çox razı olmaq.

**Heilgymnastik,** *die; -* fizyoterapi*(ya),* sağaltmaq üçün edilən gimnastika *(Süd. : jimnastik).*

**heilig** *adj.* müqəddəs, pak; *die ~e Schrift* müqəddəs kitab.

**Heiligabend,** *der; -s, -e* milad axşamı.

**Heilige,** *der/die; -n, -n* kilsə tərəfindən müqəddəs tanınmış bir şəxs, müqəddəs şəxs.

**heiligen** *vt* müqəddəs saymaq.

**Heiligtum,** *das; -s, -¨er* müqəddəs yer, hərəm, ziyarətgah.

**Heilkraft,** *die; -, -¨e* sağaldıcı qüvvə.

**heilkräftig** *adj.* sağaldıcı, şəfaverici, şəfalı.

**Heilkraut,** *das; -(e)s, -¨er* müalicə otu.

**Heilkunde,** *die; -* tibb elmi, təbabət.

**heillos** *adj.* dəhşətli, pis, dözülməz; *ein ~es Durcheinander anrichten* qarma-qarışıq etmək.

**Heilmittel,** *das; -s, - med.* dava-dərman, dərman, əczа; əlac, çarə.

**Heilpraktiker,** *der; -s, -* həkimlik edən, ara həkimi, diplomsuz həkim; təbii otlarla mualicə edən usta.

**Heilquelle,** *die; -, -n* müalicə suları.

**heilsam** *adj.* sağaldıcı, şəfalı, şəfaverici; *fig.* xeyirli, faydalı.

**Heilung,** *die; -, -en* **1.** sağalma, müalicə; yaxşılaşma, şəfa, babatlaşma.

**Heim,** *das; -(e)s, -e* ev, mənzil; yurd.

**heim** *adv. (nach Hause)* evə, öz evinə.

**Heimarbeit,** *die; -* evdə görülən iş, ev işi; ev istehsalı.

**Heimat,** *die; -* vətən, doğma yurd; *in meiner ~* doğma yurdumda, vətənimdə.

**Heimatkunde,** *die; -* ölkəşünaslıq.

**heimatlich** *adj.* vətən, doğma vətən.

**heimatlos** *adj.* vətənsiz, vətəndaşlığı olmayan şəxs; sərsəria; *~ werden* avara düşmək, çöllərə düşmək.

**Heimatort,** *der; -(e)s, -e* doğma yurd, vətən, diyar.

**Heimatvertriebene(r),** *der u. die; -n, -n* yurdundan *(vətənindən)* qovulan.

**heimbringen** *vt* evə gətirmək, evə çatdırmaq.

**Heimchen,** *das; -s, - zo.* sisək.

**Heimcomputer,** *der; -s, -* ev kompyuteri.

**Heimfahrt,** *die; -, -en* evə qayıtma; *die ~ antreten* evə qayıtmaq.

**heimfinden** *vi* evinin yolunu tapmaq, evini tapmaq.

**heimgehen** *vi* evə getmək.

**heimisch** *adj.* **1.** *(inländisch)* yerli, buralı, daxili; **2.** *(wie zu Hause)* evdəki kimi, vətəndəki kimi, binəli; *sich ~ fühlen* özünü vətənindəki kimi *(evindəki kimi)* hiss etmək, binələnmək.

**Heimkehr,** *die; -* evə qayıtma; vətənə qayıtma.

**heimkehren** *vi* evə qayıtmaq, vətənə qayıtmaq.

**Heimkehrer,** *der; -s, -* vətənə qayıdan, vətənə qayıtmış adam.

**heimkommen** *vi* evə qayıtmaq.

**Heimleiter,** *der; -s, -* ev müdiri.

**heimleuchten** *vi : j-m ~ (tadelnd zurückweisen)* kimisə qovmaq.

**heimlich** *adj.* gizli, gizlincə, sirli, görünməz, xəbər-ətərsiz; *adv.* gizlincə, xəlvətcə, əlalt(ın)dan, gözaltı, batində, əlaltınca, için-için, məhrəmanə; *~e Abmachung* gizlicə sövdələşmə; *fig. ~ ein Zeichen geben* göz-qaş etmək.

**Heimlichkeit,** *die; -, -en* **1.** *nur sg.* gizlilik, sirlilik; **2.** *(Geheimnis)* sirr.

**Heimlichtuer,** *der; -s, -* sirr gizlədən, sirr verməyən adam.

**heimlichtun** *vi* sirr verməmək.

**Heimreise,** *die; -, -n* evə qayıtma, vətənə qayıtma.

**Heimspiel,** *das; -(e)s, -e (Sport)* bir komandanın *(timin)* öz idman zalında başqa timə qarşı yarışması.

**Heimstätte,** *die; -, -n* yurd, yaşayış yeri, doğma yurd-yuva.

**heimsuchen** *vt* **1.** *(Unglück usw.)* başına gəlmək; üz vermək; **2.** *(einbrechen, belästigen)* soxulmaq, girmək.

**Heimsuchung,** *die; -, -en* fəlakət, müsibət, bəla.

**Heimtücke,** *die; -* xəyanət, gizli kin; xainlik, qərəzkarlıq.

**heimtückisch** *adj.* **1.** *(Mord usw.)* xaincəsinə, hiyləgər, kinli, qərəzkar, qərəzli, məkrli; **2.** *(Krankheit)* təhlükəli.

**heimwärts** *adv.* evə , vətənə doğru.

**Heimweg,** *der; -(e)s, -e* evə *(vətənə)* qayıtma *(yolu).*

**Heimweh,** *das; -s* vətən həsrəti, qəribsəmə; *~ haben nach -in* həsrətini çəkmək, qəribsəmək.

**heimzahlen** *vt* əvəz çıxmaq, qisas almaq; əvəzini vermək; *j-m et. ~* bir kəsdən bir şeyin əvəzini çıxmaq.

**Heinzelmännchen,** *das; -s, -* ev işlərini görən cin *(cırtdan).*

**Heirat,** *die; -, -en* evlənmə, ərə getmə, nikah, düyün.

**heiraten** *vt* evlənmək, ərə getmək; arvad almaq; *j-n ~* bir kəs ilə evlənmək, bir kəsə ərə getmək; *fig. sie heiratet nach Aserbaidschan* qız ərə gedib, Azərbaycanda qalmağa *(yaşamağa)* gedir.

**Heiratsantrag,** *der; -(e)s, -¨e* evlənmək təklifi.

**Heiratsanzeige,** *die; -, -n* evlənmək elanı *(qəzetdə).*

**heiratslustig** *adj.* evlənmək istəyən.

**Heiratsschwindler,** *der; -s, -* evlənmək vədilə qadından pul alan fırıldaq-

çı, varlanmaq məqsədilə evlənmə təklif edən şəxs.

**Heiratsurkunde,** *die; -, -n* evlənmək haqda şəhadətnamə.

**Heiratsvermittler,** *der; -s, -* elçi.

**Heiratsvermittlung,** *die; -, -en* elçilik; evləndirmə bürosu.

**heischen** *vt* təkidlə tələb etmək, israrla istəmək.

**heiser** *adj.* boğuq, səsi batmış; *ich bin ~* səsim batıb; *sich ~ schreien* səsi batana qədər qışqırmaq.

**Heiserkeit,** *die; -* boğuqluq, xırıltı, tutqunluq.

**heiß** *adj.* **1.** çox isti; *(Kinderspr.)* cız; *Vorsicht, es ist ~!* cız, əl vurma! **2.** *(leidenschaftlich)* alovlu, odlu; *es ist ~* hava çox istidir; *was ich nicht weiß, macht mich nicht ~* bilmədiyim işə qarışmaram; *~e Zone* isti qurşaq; *~er Tip* tövsiyə, məsləhət; *et. ~ machen* bir şeyi qızdırmaq.

**heißblütig** *adj.* alovlu, odlu.

**heißen** *vt* **1.** adlandırmaq, ad vermək; ləqəb vermək; **2.** *(befehlen)* əmr etmək; *er hieß sie, Platz zu nehmen* o, ona oturmağı əmr etdi; *vi* 1. adı ... olmaq, adlanmaq; 2. *(bedeuten) das heißt (d.h.)* yəni, bu o deməkdir ki.., deməli; *es heißt, (dass)...* deyirlər ki...; *j-n willkommen ~* bir kəsə xoşgəldiniz demək; bir kəsi salamlamaq; *was soll das ~?* bu nə deməkdir?; *wie ~ Sie?* adınız nədir?; *was heißt das auf Türkisch?* bunun türkcəsi nə olur?

**Heißhunger,** *der; -s* bərk aclıq; *~ haben nach..* birdən canı istəmək *(bir şeyi),* nəfsi çəkmək *.*

**Hinweis,** *der; -es, -e* **1.** işarə; göstəriş; **2.** *(Anzeichen)* əlamət, nişanə; dəlil; ima; *e-n ~ geben* bir kəsin diqqətini nəyə isə cəlb etmək; *e-n ~ erhalten* xəbər almaq.

**hinweisen** *vt* işarə etmək *(auf A/-ə);* qeyd etmək, duydurmaq, əsaslan(dır)maq, bildirmək, *(j-n auf A/bir kəsə bir şeyi ).*

**hinweisend** *adj.* *~es Fürwort gr.* işarə əvəzliyi.

**Hinweisschild,** *das; -(e)s, -er* işarə lövhəsi; istiqamət lövhəsi.

**Hinweistafel,** *die; -, -n s. Hinweisschild.*

**hinwerfen** *vt* **1.** atmaq, tullamaq; **2.** *(Worte)* sözarası demək, söz atmaq; **3.** *(Arbeit)* buraxmaq, əl çəkmək; **4.** *(Skizze)* qarasını çəkmək; *vr sich ~* yıxılmaq.

**hinwollen** *vi F* -ə getmək istəmək.

**Hinz** *~ und Kunz* hər kəs, hər kim.

**hinziehen** *vt* **1.** bir yerə çəkmək, sürümək; **2.** *(zeitlich)* uzatmaq, süründürmək; *vi* daşınmaq; *vr sich ~* uzanmaq, sürmək; *sich hingezogen fühlen zu* -ə çəkilmək, -ə cəzb olmaq.

**hinzielen** *vi* məqsəd qoymaq, hədəf tutmaq.

**hinzufügen** *vt* qoşmaq, əlavə etmək, əlavələtmək.

**hinzukommen** *vi* **1.** *(zu Person)* qoşulmaq; **2.** *(zu et.)* əlavə edilmək; *hinzu kommt, dass..* bu da var ki...

**hinzusetzen** *vt* əlavə etmək, əlavələtmək; *vr sich ~* yanında oturmaq.

**hinzutreten** *vi* qoşulmaq, yanına gəlmək.

**hinzutun** *vt s. hinzufügen.*

**hinzuzählen** *vt* hesaba əlavə etmək, hesaba qatmaq.

**hinzuziehen** *vt (Experten)* məsləhətləşmək, danışmaq.

**Hiobsbotschaft,** *die; -, -en* bəd xəbər, pis xəbər.

**Hirn,** *das; -(e)s, -e* beyin, dimağ.

**Hirngespinst,** *das; -(e)s, -e* xəyal, xülya.

**Hirnhaut,** *die; - med.* beyin qişası.

**hirnlos** *adj.* beyinsiz, ağılsız.

**hirnrissig** *adj.* səfeh, ağılsız, axmaq.

**Hirnschlag,** *der; -(e)s, -¨e* beyin səktəsi, beyinə qan sızma.

**Hirntumor,** *der; -s, -en* beyin şişi.

**hirnverbrannt** *adj.* səfeh, axmaq, dəli, beyinsiz.

**Hirsch,** *der; -(e)s, -e* ceyran; geyik.

**Hirschkuh,** *der; -, -¨e* maral.

**Hirse,** *die; - bot.* darı.

**Hirt,** *der; -en, -en* çoban.

**Hirte,** *der; -n, -n* **1.** çoban; **2.** *rel.* həzrəti İsa.

**hissen** *vt* **1.** bayraq qaldırmaq; **2.** *(Segel)* yelkəni çəkmək.

**Historie,** *die; -, -n* tarix.

**Historiker,** *der; -s, -* tarixçi.

**historisch** *adj.* tarixi.

**Hit,** *der; -(s), -s mus.* gün mahnısı.

**Hitze,** *die; -* **1.** istilik, çox *(bərk)* isti, hərarət; **2.** *fig.* həyəcan; *in der ~ des Gefechts* qızğın çağında, həyəcan içində.

**hitzebeständig** *adj.* istiyə davamlı.

**hitzefrei** *adj.* istiyə görə tətil; *die Kinder haben ~* uşaqların məktəbi istiyə görə tətildədirlər.

**Hitzegrad,** *der; -(e)s, -e* istilik dərəcəsi.

**Hitzewelle,** *die; -, -n* istilik, bürkü.

**hitzig** *adj.* **1.** *(Mensch)* hirsli, tez hirslənən; **2.** *(Debatte)* şiddətli, hərarətli, qızğın.

**Hitzkopf,** *der; -(e)s, -¨e* tez hirslənən.

**hitzköpfig** *adj.* hirsli.

**Hitzschlag,** *der; -(e)s, -¨e* gün vurması.

**H-Milch,** *die; -* uzun müddət qalan süd, tez xarab olmayan süd.

**hob** *s. heben.*

**Hobby,** *das; -s, -s* bir kəsin ən çox sevdiyi sahə, maraq, həvəskarlıq.

**Hobel,** *der; -s, -* rəndə.

**Hobelbank,** *die; -, -¨e* yonma dəzgahı, rəndələmə dəzgahı.

**hobeln** *vt* rəndələmək.

**Hobelspäne,** *der/pl.* yonqar.

**hoch,** *höher; höchst-* *adj.* **1.** uca, hündür; **2.** *(unerreichbar)* əlyetməz, əlçatmaz; **3.** böyük, çox; aliyə; **4.** *(Strafe)* ağır; *das Haus ist 10 Meter ~* evin on metr hündürlüyü var; *F das ist mir zu ~* buna ağlım çatmır, başa düşmürəm; *in hohem Maße* yüksək dərəcədə; *Hände ~!* əlləri qaldır!; *Kopf hoch!* başını dik saxla*; fünf ~ 3* beşin kubu.

**Hoch,** *das; -s, -s* **1.** ura!, yaşasın ...!; **2.** *(Wetter)* yüksək hava təzyiqi.

**Hochachtung,** *die; -* dərin hörmət, sayğı; *alle ~!* yaşa!, yaşasın!, sağ ol! .

**hochachtungsvoll** *adv.* dərin hörmətlə, sayğılarla.

**hochaktuell** *adj.* çox aktual.

**Hochamt,** *das; -(e)s* *rel.* mərasim.

**hocharbeiten** *vr sich ~* *(çalışıb)* özünü yüksək dərəcəyə çatdırmaq.

**Hochbau,** *der; -s, -ten* yüksək tikinti; *Hoch- und Tiefbau* yerüstü və yeraltı tikinti.

**hochbegabt** *adj.* yüksək qabiliyyətli, çox bacarıqlı.

**hochberühmt** *adj.* tanınmış.

**hochbetagt** *adj.* yaşı keçmiş.

**Hochbetrieb,** *der; -(e)s* ən qızğın vaxt; *es herrschte ~* basabas idi.

**hochbringen** *vt* **1.** yuxarı*(ya)* aparmaq; yüksəltmək, canlandırmaq; **2.** *(kranke)* sağaltmaq; ayağa qaldırmaq; **3.** hirsləndirmək, özündən çıxartmaq.

**Hochburg,** *die; -, -en* *fig.* mərkəz; istehkam.

**Hochdeutsch,** *das; -(s)* Alman ədəbi dili.

**Hochdruck,** *der; -(e)s* yüksək təzyiq*; fig. mit ~ arbeiten* çox iti işləmək.

**Hochebene,** *die; -, -n* yayla.

**hocherfreut** *adj.* çox şad, çox məmnun *(über A/-dən).*

**hochfahrend** *adj.* mütəkəbbir, dikbaş, lovğa.

**hochfliegend** *adj. fig.* yüksəkdən uçan.

**Hochform,** *die; - Sport* ən yaxşı vəziyyətdə.

**Hochfrequenz,** *die; -, -en* *el.* yüksək frekans.

**Hochgebirge,** *das; -(e)s, -* uca dağlar silsiləsi.

**hochgehen** *vi* **1.** yuxarı*(ya)* getmək, yuxarıya çıxmaq; **2.** *(Bombe)* partlamaq; **3.** *(wütend werden)* özündən çıxmaq, qəzəblənmək; **4.** *(Teig)* gəlmək; *fig.* *(verhaftet werden)* yaxalanmaq, həbs edilmək; *j-n ~ lassen* bir kəsi ələ vermək.

**hochgelegen** *adj.* uca; dağüstü.

**hochgemut** *adj.* şad və arxayın.

**Hochgenuss,** *der; -es, -¨e* böyük həzz, böyük ləzzət.

**hochgesteckt** *adj. fig.* böyük; *~e Ziele* böyük məqsədlər, böyük hədəflər.

**hochgestellt** *adj.* *fig.* yüksək rütbəli *(məmur və s.); veralt.* əzimmüşşan.

**hochgestimmt** *adj. (Publikum)* fərəhli, şad.

**hochgestochen** *adj.* təmtəraqlı, bəzəkli; iddialı.

**hochgewachsen** *adj.* ucaboylu.

**hochgradig** *adj.* son dərəcə, fövqəl`adə.

**hochhalten** *vt* **1.** yuxarı saxlamaq; **2.** *(Bräuche usw.)* yüksək qiymətləndirmək, təqdir etmək, əziz tutmaq.

**Hochhaus,** *das; -es, -¨er* uca bina, çoxmərtəbəli ev.

**hochheben** *vt* yuxarı*(ya)* qaldırmaq, qalxızmaq, qavzamaq.

**hochherzig** *adj.* alicənab, mərd.

**hochjubeln** *vt F* göylərə qaldırmaq, tərifini göylərə ucaltmaq.

**hochkant(ig)** *adv.* yanakı; *fig. ~ hinauswerfen* qovmaq, çıxartmaq.

**hochkarätig** *adj.* **1.** yüksək əyarlı; **2.** adlı-sanlı, məşhur.

**hochkommen** *vi* **1.** *(Treppe)* yuxarı çıxmaq; **2.** *(aus e-m Sessel)* qalxmaq; **3.** *(in die Höhe kommen)* yüksəlmək; **4.** *(gesund werden)* sağalmaq, yaxşılaşmaq; **5.** *es kommt mir hoch* ürəyim qalxır.

**Hochkonjunktur,** *die; -* iqtisadın yaxşı vəziyyəti; əlverişli şərait.

**hochkrempeln** *vt* çırmalamaq *(çirmə-*

*ləmək).*

**Hochland,** *das, -(e)s, -¨er* yayla; yüksəklik.

**hochleben:** *j-n ~ lassen vt* bir kəsə yaşasın demək; *er lebe hoch!* yaşasın!.

**hochmodern** *adj.* çox modalı, dəbdə olan, olduqca müasir.

**Hochmut,** *der; -(e)s* təkəbbür, qürur, lovğalıq, ağzıyellilik, qudurğanlıq, kibr.

**hochmütig** *adj.* lovğa, təkəbbürlü, ağzıyelli, məğrur, qudurğan, ağzıhavalı, dambat; qürurla.

**hochnäsig** *adj.* təkəbbürlü, dikbaş, forslu; *~ werden* özünü uca tutmaq.

**hochnehmen** *vt* qucağa almaq; *fig. j-n ~* bir kəsi ələ salmaq.

**Hochofen,** *der; -s, -¨* domna peçi.

**Hochparterre,** *das; -s, -s* birinci mərtəbə.

**hochprozentig** *adj.* yüksək dərəcəli.

**hochrechnen** *vt* ilk hesablamaq.

**Hochrechnung,** *die; - (z.B. bei Wahlen)* ilk hesablama, təxmin hesabı.

**Hochruf,** *der; -(e)s, -e* alqış səsi, yaşasın səsi.

**Hochsaison,** *die; -, -s* fəslin ən qızğın vaxtı.

**hochschätzen** *vt* çox hörmət etmək, yüksək qiymətləndirmək.

**Hochschätzung,** *die; -, -en* dərin hörmət, ehtiram, sayqı.

**hochschaukeln** *vt* böyütmək, şişirtmək; *fig. sich (gegenseitig) ~* bir-birini hirsləndirmək, bir-birini əsəbiləşdirmək.

**Hochschule,** *die; -, -n* ali məktəb.

**Hochschullehrer,** *der; -s, -* ali məktəb müəllimi.

**hochschwanger** *adj.* doğmağına az qalmış.

**Hochsommer,** *der; -s, -* yayın qızğın vaxtı; *im ~* yayın ortasında.

**Hochspannung,** *die; - el.* yüksək gərginlik.

**hochspielen** *vt* böyütmək, şişirtmək.

**Hochsprache,** *die; -, -n* ədəbi dil.

**Hochsprung,** *der; -(e)s* yüksək atlama, hündürlüyə tullanma.

**höchst** *adj.* **1.** ən yüksək, ən uca, ən hündür;*das ~e Haus* ən uca ev;**2.***(größt-)* ən böyük; *adv. (sehr)* ən son, ən axırıncı, son dərəcə, böyük, qayət; *~ gefährlich* son dərəcə təhlükəli; *es ist ~e Zeit* son dərəcə zəruridir *(əsl vaxtıdır).*

**Hochstapelei,** *die; -, -en* özünü olduğundan çox zəngin və ya məlumatlı göstərmə, adamaldatma, gopculluq, şişirtmə, böyütmə.

**Hochstapler,** *der; -s, -* fırıldaqçı, gəldi-gedər, macəraçı, gopcu.

**höchstens** *adv.* ən çoxu, hədd əksər, artıq olmayaraq, çarəsiz qaldıqda, əlacsız qaldıqda; *er ist ~ 10 Jahre alt* onun ən çoxu *(hədd əksər)* on yaşı var; *vor der Reise kann ich dich ~ noch einmal sehen* səfərden qabaq səni ən çox bir dəfə görə bilərəm; *am ~* əla, ən yüksək.

**Höchstgeschwindigkeit,** *die; -, -en* ən yüksək *(yuxarı)* sürət.

**Höchstgrenze,** *die; -, -n* ən son hədd.

**Höchstleistung,** *die; -, -en* **1.** *(Sport)* ən yüksək müvəffəqiyyət, rekord; **2.** *techn.* ən yüksək randıman/performans, ən yüksək güc.

**Höchstmaß,** *das; -es* ən son dərəcə, maksimum *(an D/bir şeyin).*

**höchstmöglich** *adj.* ən yüksək, mümkün olan qədər.

**höchstpersönlich** *adj.* çox şəxsi.

**Höchstpreis,** *der; -es, -e* ən yüksək qiymət; ən yüksək mükafat.

**Höchststand,** *der; -(e)s, -¨e* ən yüksək səviyyə, ən yüksək dərəcə.

**höchstwahrscheinlich** *adv.* çox ehtimalla, çox ehtimal ki.

**Hochtouren,** *die/pl. : auf ~* ən yüksək güc ilə, ən yüksək randımanla, çox sürətlə; *auf ~ laufen* ən yüksək sürətlə işləmək *(irəliləmək).*

**hochtrabend** *adj.* dəbdəbəli, təmtəraqlı *(sözlər).*

**hochverdient** *adj.* **1.** çox xidmət etmiş, əməkdar; **2.** *(Sport)* çox layiq.

**hochverehrt** *adj.* çox hörmətli.

**Hochverrat,** *der; -(e)s* dövlətə xəyanət.

**Hochverräter,** *der; -s, -* dövlət xaini.

**Hochwasser,** *das; -s, -* sel, daşqın.

**Hochwassergefahr,** *die; -* sel təhlükəsi.

**hochwertig** *adj.* **1.** yüksəkkeyfiyyətli, çox dəyərli; **2.** *(Alkohol)* yüksək dərə-cəli.

**Hochzeit,** *die; -, -en* **1.** toy, düyün; **2.** *(Trauung)* nikah, kəbinkəsmə; *~ feiern* toy tutmaq; *goldene ~* evlənmənin əllinci ildönümü, qızıl toy.

**Hochzeitskleid,** *das; -(e)s, -er* toy paltarı.

**Hochzeitsnacht,** *die; -, -¨e* toy gecəsi, zifaf gecəsi.

**hochziehen** *vt* **1.** yuxarı çəkmək; *die Nase ~* burnunu çəkmək; **2.** *(Gewitter usw.)* yaxınlaşmaq; qopmaq.

**Hocke,** *die; -, -n* **1.** çömbəlmə, sallağı oturma; **2.** *(Sport)* keçidən atılma; *in die ~ gehen* çömbəl(ə)mək.

**hocken** *vi* çömbəl(ə)mək, çökmək; *dial.* dümüşmək; *vr sich ~* çömbələrək oturmaq; *über s-n Büchern ~* oturub arası kəsilmədən kitablarını oxumaq.

**Hocker,** *der; -s, -* kürsü, kətil, çarpayı.

**Höcker,** *der; -s, -* qoz, donqar; hürgüc.

**höckerig** *adj.* quzlu, kələ-kötür.

**Hockey,** *das; -s (Sport)* hoki.

**Hoden,** *der; -s, -* xaya, beyzə; *F vulg.* daşşaq, qoz.

**Hof,** *der; -(e)s, -¨e* **1.** həyət; **2.** *(Bauernhof)* mülk, malikanə; **3.** *(e-s Fürsten)* saray; dərbar; **4.***(Gasthaus)* mehmanxana, karvansara; *im ~ spielen* həyətdə oynamaq.

**Hofdame,** *die; -, -n* nədimə.

**hoffen** *vt* ümid etmək *(auf A/-ə); ich hoffe es!* ümid edirəm!.

**hoffentlich** *adv.* ümid edirəm ki, inşallah, bəlkə.

**Hoffnung,** *die; -, -en* ümid; *in der ~, dass..* bu ümidlə ki..; *~en machen* ümid vermək *(j-m/bir kəsə),* ümidvar eləmək; *die ~ aufgeben* ümidini kəsmək, əlini üzmək; *es besteht keine ~* heç bir ümid yoxdur.

**hoffnungslos** *adj.* ümidsiz, nagüman, naümid, çarəsiz; *adv.* naümidcəsinə.

**Hoffnungslosigkeit,** *die; -* ümidsizlik, nagümanlıq, naümidlik, çarəsizlik.

**Hoffnungsschimmer,** *der; -s, -* ümid işığı, işıqyeri, ümid yeri.

**hoffnungsvoll** *adj.***1.** ümidli, ümidlə dolu **2.** *(verheißungsvoll)* ümidverici.

**hofieren** *vt* yaltaqlıq etmək.

**höfisch** *adj.* saraya uyğun.

**höflich** *adj.*ədəbli, nəzakətli, düşüncəli, tərbiyəli; *~es Kind* düşünən *(ədəbli, tərbiyəli)* uşaq; *adv.* nəzakətlə, ədəblə.

**Höflichkeit,** *die; -* ədəb, nəzakət, gəliş, hörmətcillik.

**Hofnarr,** *der; -en, -en* saray təlxəyi.

**Hofrat,** *der; -e(s), -¨e* saray müşaviri.

**Höhe,** *die; -, -n* **1.** ucalıq, yüksəklik; hündürlük, irtifa; *in e-r ~ von..* ...irtifada; **2.** *(Anhöhe)* təpə; təpəlik; **3.** *(Gipfel)* zirvə, son nöqtə; **4.** *(Strafe usw.)* miqdar; *die ~ des Berges* dağın zirvəsi; *das ist die ~!* bu utanmazlıqdır!; *in die ~ schießen* boylanmaq, boy atmaq.

**Hoheit,** *die; -, -en* **1.** *nur sg. (Souveränität)* hakimiyyət; toxunulmazlıq; **2.** *(als Anrede)* alicənab!, əlahəzrət!.

**Hoheitsgebiet,** *das; -(e)s, -e* milli ərazi, dövlət ərazisi.

**Hoheitsgewässer,** *die/pl.* ərazi suları, məhəlli sular.

**Höhenangst,** *die; -* ucalıqdan *(uca yerdən)* qorxu hissi.

**Höhenflug,** *der; -(e)s, -¨e* yüksək uçuş.

**Höhenluft,** *die; -* dağ havası.

**Höhenmesser,** *der; -s, -* altimetr; hündürlükölçən cihaz.

**Höhensonne,** *die; -, -n* **1.** *nur sg.* dağ günəşi; **2.** *(Gerät)* ultrabənövşeyi *(ultraviolet)* lampa.

**Höhenunterschied,** *der; -(e)s, -e* irtifa *(yüksəklik)* fərqi.

**Höhepunkt,** *der; -(e)s, -e* ən yüksək dərəcə, ən yüksək nöqtə, övc, evc; *~ des Abends* axşamın ən mühüm hadisəsi; *fig.* təpə, zirvə; *auf dem ~* zirvədə, övcdə.

**höher** *adj.* daha uca, daha yüksək, daha hündür *(als N/-dən); in ~em Maße*

lap yüksək dərəcədə.

**hohl** *adj.* **1.** *(Zahn, Baum)* oyuq, içiboş, içsiz, batıq, çökük; *fig.* puç; **2.** *(Klang)* boğuq; *~e Hand* ovuc.

**Höhle,** *die; -, -n* **1.** mağara, yuva, çuxur ; **2.** *med.* boşluq, oyuq; *sich in die ~ des Löwen wagen* cürət edib qorxduğu adamın yanına getmək.

**Höhlenforscher,** *der; -s, -* mağara tədqiqatçısı *(alimi).*

**Hohlheit,** *die; - fig.* avamlıq.

**Hohlmaß,** *das; -es, -e* ölçü qabı; ölçü vahidi.

**Hohlraum,** *der; -(e)s, -¨e* çuxur, boşluq, oyuq.

**Höhlung,** *die; -, -en* çuxur, çökək, batqın; oyuq.

**Hohlweg,** *der; -(e)s, -e* dar yol, dayaz dərə.

**Hohlziegel,** *der; -s, -* dəlikli kərpic.

**Hohn,** *der; -(e)s* istehza, rişxənd, ələ salma, məsxərə; *es ist der reinste ~* bu insanı ələ salmaqdır, bu təhqir etməkdir.

**höhnen** *vi* istehza etmək, məsxərəyə qoymaq.

**höhnisch** *adj.* istehzalı, acı, kinayəli.

**hohnlachen** *vi* acı-acı gülmək, ələ salmaq, məsxərəyə qoymaq.

**hohnsprechen** *vi (im Widerspruch stehen)* zidd olmaq *(D/-ə).*

**Höker,** *der; -s, -* xırdavatçı.

**hökern** *vt* xırda alverlə məşğul olmaq.

**Hokuspokus,** *der; -* oyunbazlıq; gözübağlılıq.

**hold** *adj.* sevimli, qəşəng, çox gözəl; *das Glück ist ihm ~* bəxti üzünə gülür.

**holen** *vt* **1.** gətirmək, gedib gətirmək; *Kohlen aus dem Keller ~* zirzəmidən kömür gətirmək; **2.** *(aus e-m Behälter)* çıxartmaq; *den Schlüssel aus der Tasche ~* açarı cibdən çıxartmaq; **3.** *(Arzt, Polizei)* çağırmaq; **4.** *(Atem)* nəfəs almaq; **5.** *sich (D) e-e Grippe ~* zökəm olmaq; *sich (D) e-n Rat ~* məsləhət almaq.

**Holland;** *-s* Hollandiya.

**Holländer,** *der; -s, -* hollandiyalı.

**holländisch** *adj.* hollandca.

**Hölle,** *die; -* cəhənnəm, duzəx; *fig. j-m die ~ heiß machen* bir kəsi təhdidlə qorxutmaq; *j-m das Leben zur ~ machen* bir kəsin atasını yandırmaq; *fahr zur ~!* cəhənnəm ol!.

**Höllenlärm,** *der; -(e)s* bərk səs-küy, gurultu.

**Höllenqual,** *die; -, -en* cəhənnəm əzabı.

**Höllenstein,** *der; -(e)s* cəhənnəm daşı, gümüş nitratı, liaps.

**höllisch** *adj.* cəhənnəm kimi; dəhşətli; *adv.* çox, bərk; *~ aufpassen* çox diqqət etmək; *~ wehtun* çox ağrımaq.

**Holm,** *der; -(e)s, -e* **1.** *(e-r Axt)* balta dəstəsi; **2.** *(Querbalken)* uzununa yerləşən tir; **3.** *(bei Leiter)* nərdivan payası; **4.** *(Flussinsel)* adacıq.

**Holocaust,** *der; -(s), -s* **1.** Nasionalsosialistlər tərəfindən yəhudilərin kütləvi qırğını *(soyqırımı);* **2.** *(Massenvernichtung)* kütləvi qırğın.

**Hologramm,** *das; -s, -e* holoqram.

**holp(e)rig** *adj.* **1.** çala-çuxur, əyri-üyrü; **2.** *(lesen, sprechen)* hıqqana-hıqqana oxuma *(danışma).*

**holpern** *vi* **1.** *(Fahrzeug)* yırğalanmaq; **2.** *(stolpern)* çala-çuxura düşmək, atılıb-düşmək; **3.** *(beim Lesen)* hıqqana-hıqqana oxumaq.

**Holunder,** *der; -s, - bot.* gəndalaş.

**Holz,** *das; -es, -¨er* **1.** *nur sg.* taxta; **2.** *(Brennholz)* odun; *aus ~* taxtadan; *~ hacken* odun yarmaq.

**holzen** *vt* **1.** meşə qırmaq; odun yarmaq; **2.** *F (Fußball)* sərt oynamaq.

**hölzern** *adj.* **1.** taxtadan, ağacdan; **2.** *(Bewegung)* ağırtərpənən, yavaştərpənən.

**Holzfäller,** *der; -s, -* odunqıran, meşəqıran, odunçu.

**Holzfaser,** *die; -, -n* ağac lifi, ağac teli.

**holzig** *adj.* odun kimi, oduncaq kimi.

**Holzindustrie,** *die; -* meşə sənayesi.

**Holzspan,** *der; -* yonqa, çalpanaq, talaşa.

**Holzweg,** *der; -(e)s, -e : auf dem ~ sein* yolundan sapmaq, pis yol tutmaq.

**Holzwurm,** *der; -(e)s, -¨er* taxta qurdu.

**Hommage,** *die; -, -n (e-n Künstler)* təqdir etmə mərasimi, dəyərləndirmə törəni.

**Homo,** *der; -s, -s* homoseksual; *F* homo, həmcinsbaz.

**homogen** *adj.* yekcins, eyni, mütəcanis, homojen, homogen.

**Homöopathie,** *die; -* xəstəlik törədən maddə ilə dərman etmə üsulu, homeopati.

**homöopathisch** *adj.* homeopatik.

**Homosexualität,** *die; -* həmcinsbazlıq, homoseksualizm.

**homosexuell** *adj.* həmcinsbaz, homoseksual.

**Homosexuelle,** *der u. die; -n, -n* həmcinsbaz.

**Honig,** *der; -s, -e* bal; *veralt.* əsəl; *j-m ~ um den Bart schmieren* bir kəsə yaltaqlanmaq.

**Honigbiene,** *die; -, -n* bal arısı.

**Paniglecken,** *das; - : kein ~ sein* rahat bir iş olmamaq; *F das war kein ~ !* heç də rahat bir iş deyildi.

**Honigmelone,** *die; -, -n* qovun, yemiş.

**honigsüß** *adj.* bal kimi şirin.

**Honigwabe,** *die; -, -n* bal pətəyi, arı şanı.

**Honorar,** *das; -s, -e* haqq, maaş, ücrət, qonorar.

**Honorarprofessor,** *der; -s, -en* fəxri professor.

**Honoratioren,** *die/pl.* əyan-əşraflar.

**honorieren** *vt (j-n für e-e Leistung)* əmək haqqını vermək, ücrət vermək; *et. ~* bir şeyi təqdir etmək; bir şeyin dəyərini bilmək.

**honoris causa** *(h.c.) : Doktor ~* fəxri doktor; *Professor ~* fəxri professor.

**Hooligan,** *der; -s, -s (Sport)* xuliqan, *(Süd. : hooliqan);* tərəfdar.

**Hopfen,** *der; -s, -* mayaotu; *fig. bei ihm ist ~ und Malz verloren* onu islah etmək olmaz.

**hopp!** tez ol!.

**hopsen** *vi* hoppanmaq; hoppana-hoppana oynamaq.

**Hopser,** *der; -s, -* hoppanma, sıçrayış.

**hopsgehen** *vi F* ölmək.

**hörbar** *adj.* eşidilə bilən, aydın; *nicht ~* eşidilməz.

**hörbehindert** *adj.* kar, qulağı ağır eşidən.

**horchen** *vi* **1.** qulaq vermək; **2.** *(lauschen)* gizlicə qulaq asmaq.

**Hörgerät,** *das; -(e)s, -e* eşitmə cihazı, qulaqlıq.

**Horde,** *die; -, -n* camaat, sürü, dəstə, qrup.

**hören** *vt* eşitmək, qulaq asmaq, dinləmək; *vi* qulaq asmaq *(auf j-n/bir kəsin sözünə); (auf e-n Rat) bir məsləhətə); hören Sie mal zu!* qulaq asın!; *ich habe gehört, dass...* eşitmişəm ki...; *von sich ~ lassen* özündən xəbər vermək; *schwer ~* qulağı ağır eşitmək; *Sie ~ von mir* sizə xəbər verəcəyəm; *das lässt sich ~* bu qəbul oluna bilər, bu haqda danışmaq olar; *ich will nichts davon ~!* bu haqda eşitmək belə istəmirəm!.

**Hören,** *das; -s* eşitmə; eşitmə qabiliyyəti.

**Hörensagen,** *das : vom ~* eşidilənə görə, deyilənlərə görə.

**Hörer,** *der; -s, -* **1.** qulaqasan, dinləyici; **2.** *(Telefonhörer)* telefon dəstəyi.

**Hörerschaft,** *die; -, -en* dinləyicilər *pl.*

**Hörfehler,** *der; -s, -* **1.** səhv eşitmə; **2.** *med.* eşitmə arizəsi, ağır eşitmə.

**Hörgerät,** *das; -(e)s, -e* eşitmə cihazı.

**hörig** *adj. : j-m ~ sein* bir kəsdən asılı olmaq *(cinsi baxımdan)*, bir kəsə tabe olmaq.

**Horizont,** *der; -(e)s, -e* **1.** üfüq; görüş dairəsi; *am ~* üfüqdə; **2.** *fig.* ağıl, dərrakə; *das geht über meinen ~* bunu ağlım kəsmir.

**horizontal** *adj.* üfüqi.

**Hormon,** *das; -s, -e* hormon.

**Horn,** *das; -(e)s, -¨er* **1.**buynuz;**2.***(Hörnchen)* danqış; *mus.* şeypur; *fig. ins gleiche ~ blasen* bir kəslə həmfikir olmaq.

**hornartig** *adj.* buynuz kimi.

**Hornhaut,** *die; -, -¨e* **1.** *(Schwiele)* döyənək, qabar; **2.** *(des Auges)* buynuz tə-

bəqə.

**Hornisse,** *die; -, -n zo.* eşşəkarısı.

**Hornist,** *der; -en, -en mus.* şeypurçu, şeypurçalan.

**Hornochse,** *der; -n, -n F* axmaq, səfeh, sarsaq.

**Horoskop,** *das; -s, -e* ulduz falı, horoskop; *j-m das ~ stellen* bir kəsin ulduz falına baxmaq.

**horrend** *adj.* dəhşətli, çox; *die Preise sind ~ gestiegen* qiymətlər dəhşətli artıb.

**Horror,** *der; -s* dəhşət, qorxu.

**Horrorfilm,** *der; -s, -e* qorxulu film, qorxu filmi.

**Hörsaal,** *der; -(e)s, -säle* dərs salonu; konfrans salonu.

**Horst,** *der; -(e)s, -e* yuva.

**Hort,** *der; -(e)s, -e* **1.** *(Kinderhort)* uşaq evi; **2.** *(Schatz)* xəzinə; **3.** *lit.* istinadgah, dayaq.

**horten** *vt* saxlamaq, yığıb saxlamaq, yığmaq.

**Hörtest,** *der; -(e)s, -s u. –e* eşitmə qabiliyyətini yoxlama.

**Hörvermögen,** *das; -s* eşitmə qabiliyyəti.

**Hose,** *die; -, -n* **1.** şalvar; **2.** *(Unterhose)* tuman; **3.** *(Frauenhose)* darbalaq; *in die ~ machen* özünü/altını batırmaq.

**Hosenscheißer,** *der; -s, -* qorxaq adam.

**Hosentasche,** *die; -, -n* şalvar cibi.

**Hosenträger,** *der; -s, -* çiyinbağı, aşırma, askı *(asqı).*

**Hospital,** *das; -s, -¨er u. -e* xəstəxana.

**hospitieren** *vi* dərslərdə azad iştirak etmək.

**Hospiz,** *das; -es, -e* **1.** hotel, mehmanxana; **2.** *(Krankenhaus)* xəstəxana.

**Hostess,** *die; -, -en* hostes; xidmətçi qadın.

**Hostie,** *die; -, -n rel.* müqəddəs çörək *(yemək).*

**Hotdog,** *der; -s, -s* hotdoq, sosiskalı *(Süd. : sosisli)* sandviç.

**Hotel,** *das; -s, -s* otel, hotel, mehmanxana.

**Hotelgast,** *der; -(e)s, -¨e* otel qonağı.

**Hotelgewerbe,** *das; -(e)s* otelçilik.

**Hotelier,** *der; -s, -s* otelçi, otel sahibi.

**Hotline,** *die; -, -s (von Firmen usw.)* vasitəsiz telefon servisi *(xətti)*, hotlayn.

**HP** = *Abk. für Halbpension* yarım pansiyon.

**Hr.** = *Abk. für Herr* ağa, bəy.

**Hrn.** = *Abk. für Herrn* ..ağaya, ..bəyə.

**Hrsg.** = *Abk. für Herausgeber(in)* nəşr edən.

**Hub,** *der; -(e)s, -¨e* qalxma, qaldırma.

**hüben** *adv. : ~ und drüben* həm orada, həm burada, hər iki tərəfdə.

**Hubraum,** *der; -(e)s* silindir həcmi.

**hübsch** *adj.* gözəl, qəşəng; qaş-gözlü, camallı; allı-güllü, aybəniz; əndamlı; *fig.* yaxşı, dadlı-duzlu; əndazəli; *sehr ~* gəlin kimi.

**Hubschrauber,** *der; -s, -* dikuçar, helikopter, vertolyot.

**huckepack** *adv.* kürəyində, dalında; *j-n ~ tragen* bir kəsi kürəyində daşımaq.

**hudeln** *vi F* yavaş işləmək, pis işləmək.

**Huf,** *der; -(e)s, -e (beim Pferd)* dırnaq.

**Hufeisen,** *das; -s, -* nal.

**hufeisenförmig** *adj.* nal şəklində.

**Hufschmied,** *der; -(e)s, -e* nalbənd.

**Hüfte,** *die; -, -n* omba.

**Hüftgelenk,** *das; -(e)s, -e* çanaq-bud oynağı.

**Huftier,** *das; -(e)s, -e* dırnaqlı heyvan.

**Hügel,** *der; -s, -* təpə, təpəlik, köbər.

**hügelig** *adj.* dərəli, dərəli-təpəli.

**Huhn,** *das; -(e)s, -¨er* toyuq.

**Hühnchen,** *das; -s, -* fərə, fərik; cücə.

**Hühnerauge,** *das; -s, -n* qabar, mıxça.

**Hühnerbrühe,** *die; -* toyuq ətinin suyu.

**Hühnerstall,** *der; -(e)s, -¨e* toyuq hini, hin.

**Hühnerzucht,** *die; -* toyuqçuluq.

**Huld,** *die; -* iltifat, mərhəmət, lütf, yaxşılıq; meyl.

**huldigen** *vi* **1.** *(e-er Anschauung)* tərəfdar olmaq *(D/-ə)*; **2.** *(j-m)* pərəstiş etmək, beyət etmək.

**Huldigung,** *die; -, -en* ehtiram; sitayiş,

pərəstiş, beyət.

**huldvoll** *adj.* xeyirxah, mərhəmətli.

**Hülle,** *die; -, -n* **1.** örtük, qab; qilaf, qın; **2.** *(Schleier)* pərdə, niqab, leffafə; *in ~ und Fülle* bol, firavan; *F* evdolusu.

**hüllen** *vt sich in Schweigen ~* sükuta dalmaq *(batmaq).*

**hüllenlos** *adj.* örtüksüz; çılpaq.

**Hülse,** *die; -, -n* **1.** *bot.* qabıq; **2.** *techn.* qab, qutu; **3.** *(Patronenhülse)* fişəng gilizi, giliz.

**Hülsenfrucht,** *die; -, -¨e* qabıqlı bitki.

**human** *adj.* insanpərvər*(cəsinə)*; insani, insaniyyətli, insaflı.

**Humanismus,** *der; -* insanpərvərlik, humanizm.

**Humanist,** *der; -en, -en* humanizm tərəfdarı, insanpərvər, insansevən.

**humanistisch** *adj.* insanpərvərcəsinə.

**humanitär** *adj.* insanpərvərlik, insanlara kömək edən, humanitar; *~e Hilfe* humanitar yardım.

**Humanität,** *die; -* insanlıq, insanpərvərlik, insaniyyət; insaf.

**Hummel,** *die; -, -n* eşşəkarısı; itarısı.

**Hummer,** *der; -s, - zo.* iri dəniz xərçəngi, omar.

**Humor,** *der; -s* məzhəkə, zarafatçılıq, yumor; *er hat keinen Sinn für ~* zarafat bilməyən adamdır, ruhsuz adamdır.

**Humoreske,** *die; -, -n* məzhəkəli musiqi və ya hekayə.

**Humorist,** *der; -en, -en* məzhəkəçi.

**humoristisch** *adj.* gülməli, məzhəkəli.

**humorvoll** *adj.*məzəli, xoşməşrəb, zarafatçı.

**humpeln** *vi* axsamaq.

**Humus,** *der; -* qara torpaq.

**Hund,** *der; -(e)s, -e* it, köpək; *wie ~ und Katze* it-pişik kimi, daima savaşmaq; *fig. vor die ~e gehen* məhv olmaq, tələf olmaq; *F auf den Hund kommen* dilənçi halına düşmək, yaman kökə *(günə)* düşmək.

**Hundeausstellung,** *die; -, -en* itlərin sərgişi.

**hundeelend** *adj. fig.* pis vəziyyət, yaman gün; *mir ist ~* pis vəziyyətdəyəm, yaman gündəyəm; *F* it günündəyəm.

**Hundehütte,** *die; -, -n* it damı.

**Hundekälte,** *die; - F* bərk soyuq.

**Hundeleben,** *das; -s F* it yaşayışı.

**Hundeleine,** *die; -, -n* itin boynuna bağlanan ip, xalta, kəmsik; *den Hund an der Leine haben* iti bağlı saxlamaq.

**hundemüde** *adj. F* bərk yorğun.

**hundert** *Zahladj.* yüz; *einige Hunderte von Menschen* bir neçə yüz insan, yüzlərlə insan; *an die ~ Menschen* yüzə yaxın insan.

**Hundert,** *das; -s, -e* yüz, yüz dənə; *drei von ~ (3%)* üç faiz, yüzdə üç; *zu ~en* yüzlərlə, yüz-yüz.

**Hunderter,** *der; -s, -* yüzlük.

**hundertfach** *adj.* yüz dəfə, yüz qat.

**hundertfältig** *adj.* yüz dəfə, yüz qat.

**hundertjährig** *adj.* yüzillik.

**hundertmal** *adv.* yüz dəfə.

**hundertprozentig** *adj.* yüzdə yüz, yüz faiz.

**Hundertschaft,** *die; -, -en* yüz nəfər.

**hundertst-** *Zahladj.* yüzüncü.

**Hundertstel,** *das; -s, -* yüzüncü, yüzdə bir.

**hundertstel** *adj.* yüzdə bir.

**hunderttausend** *Zahladj.* yüzmin.

**Hündin,** *die; -, -nen* qancıq it.

**hündisch** *adj. (unterwürfig)* yaltaq, quyruqbulayan.

**hundsgemein** *adj.* alçaq, əclaf.

**Hüne,** *der; -n, -n* nəhəng adam; dev.

**hünenhaft** *adj.* nəhəng kimi.

**Hunger,** *der; -s* **1.** aclıq, ac qalma; **2.** *fig. (e-e Begierde)* coşqun *(coşğun)* arzu, bir şeyi möhkəm arzulamaq *(istəmək)*; *ich habe ~* mən acam; *hast du ~?* acsan *(mi)? ~ leiden* aclıq çəkmək; *vor ~ sterben* acından ölmək, aclıqdan ölmək.

**Hungerkur,** *die;-, -en* aclıq ilə müalicə.

**Hungerleider,** *der; -s, -* yoxsul.

**Hungerlohn,** *der; -(e)s, -¨e* çox az maaş, cüzi əmək haqqı.

**hungern** *vi* **1.** ac qalmaq, ac olmaq; **2.** *(Diät)* pəhriz etmək; *fig.* bir şeyin həsrətini çəkmək *(nach D/-in); sich zu*

*Tode ~* pəhrizdən ölmək.

**hungernd** *adj.* ac qalan, aclıq çəkən.

**Hungersnot,** *die; -* kütləvi aclıq, qəhətlik, qıtlıq.

**Hungerstreik,** *der; -(e)s, -s* aclıq, aclıq elan etmə.

**Hungertod,** *der; -(e)s, -e* acından ölmə.

**hungrig** *adj.* ac; *ich bin ~* mən acam; *fig.* bir şeyin həsrətini çəkmək *(nach D/-in).*

**Hunne,** *der; -n, -n* hun.

**Hupe,** *die; -, -n (Auto)* fit *(Süd. : siqnal, düdük).*

**hupen** *vi* fit çalmaq, siqnal çalmaq, düdük çalmaq.

**hüpfen** *vi* atılmaq, hoppanmaq.

**Hürde,** *die; -, -n* **1.** *(Hindernis)* maneçilik, maneə, əngəl, sədd; **2.** *(für Tiere)* hörmə çəpər; *e-e ~ nehmen* əngəli aşmaq.

**Hure,** *die; -, -n* fahişə, qəhbə, cında.

**huren** *vi* fahişəlik etmək.

**Hurenhaus,** *das; -es, -¨er* fahişəxana.

**Hurerei,** *die; -, -en* fahişəlik.

**hurra!** ura!, yaşa!.

**Hurrikan,** *der; -s, -e u. –s* qasırğa, tufan, burulğan.

**hurtig** *adj.*cəld, zirək; iti, yeyin, sürətli.

**huschen** *vi* səssiz və cəld bir yerə qaçmaq; *husch, hush !* haydı!.

**hüsteln** *vt* arabır ösgürmək.

**husten** *vt* ösgürmək; *F dem werde ich was ~!* ona göstərəcəyəm!, payını verəcəyəm!

**Husten,** *der; -s* öskürək.

**Hustenanfall,** *der; -(e)s, -¨e* öskürək tutma; göyöskürək.

**Hustenmittel,** *das; -s, -* öskürək dərmanı.

**Hustensaft,** *der; -(e)s, -¨e* öskürək şərbəti *(dərmanı).*

**Hut[1],** *der; -(e)s, -¨e* börk, papaq, başlıq; *den ~ abnehmen* papağını çıxarmaq; *den ~ aufsetzen* börkü qoymaq; *unter e-n ~ bringen* müxtəlif fikirləri birləşdirmək; *fig. ein alter ~!* məlum bir şey!, adi bir hadisə!

**Hut[2],** *die; - : auf der ~ sein* ayıq olmaq, göz-qulaq olmaq, ehtiyatlı olmaq, ehtiyatlılıq.

**hüten** *vt* **1.** *(Tiere)* otarmaq; **2.** *(beaufsichtigen)* qorumaq, keşiyində durmaq, nəzarət etmək; *das Bett ~ (wegen Krankheit)* yorğan-döşəkdə qalmaq, yataqda olmaq; *vr sich ~* özünü gözləmək *(vor D/-dən); veralt.* həzər etmək; *sich ~, et. zu tun* bir şeyi *(zadı)* etməkdən çəkinmək *(qaçınmaq).*

**Hüter,** *der; -s, -* qoruyan, mühafizə edən, gözətçi, qorucu; çoban; *~ des Gesetzes* qanunun gözətçisi.

**Hutkrempe,** *die; -, -n* börkün kənarı, papağın kənarı.

**Hutmacher,** *der; -s, -* börkçü, papaqçı.

**Hütte,** *die; -, -n* **1.** daxma, dəyə; kabin; **2.** *techn.* metallurgiya *(Süd. : metalurji)* karxanası; **3.** *(Berghütte)* dağ-mədən zavodu.

**Hüttenindustrie,** *die; -, (-n)* mədən sənayesi, metallurgiya sənayesi.

**Hüttenkunde,** *die; -* metallurgiya, metalurji.

**Hüttenwerk,** *das; -(e)s, -e* metalurgiya zavodu, metalurji karxanası.

**Hyäne,** *die; -, -n* kaftar, goreşən.

**Hyazinthe,** *die; -, -n* sünbül.

**hybrid** *adj.* **1.** *(gemischt)* mələz, hibrid; qarışıq, dürək; **2.** *(hochmütig)* təkəbbürlü, lovğa, həddini bilməyən, ağzıyelli, məğrur.

**Hybride,** *die; -, -n (Mischling)* mələz, hibrid, dürək.

**Hydra,** *die; -, Hydren mythol.* doqquzbaşlı əjdaha.

**Hydrant,** *der; -en, -en* hidrant; yanğın kranı.

**Hydrat,** *das; -s, -e Chem.* hidrat.

**Hygiene,** *die; -* səhiyyə tədbirləri; gigiyena.

**hygienisch** *adj.* səhiyyə tədbirlərinə uyğun; gigiyena tələblərinə uyğun.

**Hymne,** *die; -, -n* himn, milli marş.

**Hyperbel,** *die; -, -n* **1.** *math.* hiperbola *(Süd. : münhəniye həzluli);* **2.** *fig.* şişirtmə, böyütmə.

**hypermodern** *adj.* son dərəcə modern, ultra modern.

**Hypnose,** *die; -, -n* hipnoz.

**hypnotisieren** *vt* hipnoz etmək.

**Hypnotismus,** *der; -* hipnoz elmi.

**Hypothek,** *die; -, -en* girov kağızı, ipoteka; borc; *e-e ~ aufnehmen (auf A/-i) -i* girov qoyub borc almaq; *mit e-r ~ belasten* əmlakı ipoteka ilə yükləmək.

**Hypothekenbank,** *die; -, -en* əmlak bankı.

**Hypothekenpfandbrief,** *der; -(e)s, -e* girov sənədi *(kağızı).*

**Hypothese,** *die; -, -n* fərziyyə, hipotez*(a).*

**hypothetisch** *adj.* fərzi.

**Hypozentrum,** *das; -s, Hypozentren* zəlzələ mərkəzi.

**Hysterie,** *die; -, -n* *med.* histeri; əsəb naxoşluğu, isteriya.

**hysterisch** *adj.* isteriyalı, histerik, əsəbi.

# I

**I, i,** *das; -, -* Alman əlifbasının doqquzuncu hərfi.

**i. A.** = *Abk. für: im Auftrag* *kiminsə* adından.

**ICE** *Abk. Intercity-Express*

**ich** *pron pers.* mən; *~ bin's!* mənəm!; *~ selbst* mən özüm, özüm.

**Ich,** *das; -(s), -(s)* mən, mənim varlığım, özüm, mən özüm.

**ichbezogen** *adj.* özünəvurğun.

**Ideal,** *das; -s, -e* ideal, ən yüksək arzu, ən yüksək məqsəd.

**ideal** *adj.* ideal, nümunəvi, əla, *im ~fall* ideal vəziyyətdə.

**Idealismus,** *der; -* idealizm.

**Idealist,** *der; -en, -en* idealist, xəyalpərəst, xəyalpərvər.

**idealistisch** *adj.* idealist; *adv.* idealistcəsinə.

**Idealzustand,** *der; -* ideal vəziyyət.

**Idee,** *die; -, -n* **1.** fikir, düşüncə; əqidə, ideya, məfkurə; *gute ~!* yaxşı fikir!; **2.** *e-e fixe ~* beynə girmiş fikir; **3.** *F (ein bisschen)* bir az, azacıq; *e-e ~ Salz geben* bir az duz vurmaq.

**ideell** *adj.* mənəvi, məfkurəvi; *~er Wert* mənəvi dəyər.

**ideenarm** *adj.* ideyasız, mənasız.

**ideenlos** *adj.* ideyasız, mənasız; məsləksiz.

**ideenreich** *adj.* yeniliklə dolu *(ideya)*.

**identifizieren** *vt* **1.** kimliyini bəlli etmək, şəxsiyyətini müəyyən etmək, tanımaq; **2.** *(einander gleichsetzen)* eyniləşdirmək, oxşatmaq, fərq qoymamaq; *vr sich ~ mit -i* mənimsəmək, özünü bir *.. ilə* eyniləşdirmək.

**Identifizierung,** *die; -, -en* tanıma, kimliyin bəlli olması, şəxsiyyətin müəyyənləşdirilməsi; bənzətmə, eyniləşdirmə.

**identisch** *adj.* eyni, oxşar.

**Identität,** *die; - ,-en* **1.** *(bei Person)* kimlik, şəxsiyyət, fərdiyyət; **2.** *(Gleichheit)* eynilik, oxşarlıq, bənzərlik.

**Identitätskrise,** *die; -, -n* kimlik böhranı.

**Ideologe,** *der; -n, -n* ideoloq.

**Idelogie,** *die; -, -n* ideologiya *(Süd. : ideoloji),* məfkurə.

**ideologisch** *adj.* ideoloji; ideya.

**Idiom,** *das; -s, -e* **1.** ifadə, idiom; **2.** *(Dialekt)* şivə, ləhcə, dialekt.

**idiomatisch** *adj.* bir dilə məxsus, bir ləhcəyə məxsus.

**Idiot,** *der; -en, -en* axmaq, səfeh, gic, əbləh.

**Idiotie,** *die; -, -n* axmaqlıq, səfehlik, əbləhlik.

**idiotisch** *adj.* axmaq, səfeh; *adv.* əbləhcəsinə, əbləhanə.

**Idol,** *das; -s, -e* büt, pərəstiş edilən şey və ya şəxs.

**Idyll,** *das; -s, -e* *lit.* sakit və xoşagələn vəziyyət.

**idyllisch** *adj.* könül açan, ürək açan.

**Igel,** *der; -s, -* *zo.* kirpi.

**Iglu,** *der u. das; -s, -s* qar və ya buzdan tikilmiş ev, eskimo evi.

**Ignorant,** *der; -en, -en* cahil, biliksiz, savadsız.

**ignorant** *adj.* cahil, biliksiz.

**Ignoranz,** *die; -* cahillik, biliksizlik, cəhalət, avamlıq, nadanlıq, savadsızlıq; etinasızlıq.

**ignorieren** *vt* özünü bilməməzliyə vurmaq; nəzərə almamaq, əhəmiyyət verməmək, göz yummaq, məhəl qoymamaq, boşlamaq, saymamaq.

**ihm** *pron.* ona; *ich glaube es ihm* ona inanıram, onun bu sözünə inanıram; *sag es ~!* ona de!; *ein Bruder von ~* onun bir qardaşı; *bei ~* onda.

**ihn** *pron.* onu; *ich habe ~ gesehen* onu gördüm.

**ihnen** *pron. sie* onlara; *ich habe es ~ gesagt* onlara dedim.

**Ihnen** *pron. Sie* sizə.

**ihr** *pron. sie* **1.** *(Dat. zu sie sg.)* ona; **2.** *(Nom. pl. von du)* siz; **3.** onun; onların.

**Ihr** *pron. Sie* Sizin.

**ihre** *pron.* onun; onların.

**Ihre** *pron.* sizin.

**ihrer** *pron.* **1.** *sg.* onun; **2.** *pl.* onların.

**Ihrer** *pron.* sizin.

**ihrerseits** *adv.* onun tərəfindən, onla-

rın tərəfindən.

**Ihrerseits** *adv.* sizin tərəfinizdən.

**ihresgleichen** *pron.* ona oxşar, onun kimi.

**Ihresgleichen** *pron.* sizin kimi, sizə oxşar.

**ihretwegen** *adv.* ona görə, onun xatirinə, onlara görə, onların xatirinə.

**Ihretwegen** *adv.* sizə görə.

**ihrig-** *pron.* onun, onların.

**Ihrig-** *pron.* sizin; özünün.

**Ikone,** *die; -, -n* müqəddəs şəxslərin şəkili, ikon.

**illegal** *adj.* qeyri-qanuni, qeyri-leqal; gizli, qanunazidd.

**illegitim** *adj.* qanunsuz.

**illoyal** *adj.* sədaqətsiz.

**Illoyalität,** *die; -, -en* sədaqətsizlik.

**Illumination,** *die; -, -en* çıraqbanlıq, çıraqban.

**Illusion,** *die; -, -en* xülya, xəyal, röya; *sich ~en machen* röya görmək, xəyala qapılma.

**illusionär** *adj.* xəyali, təsəvvür edilən, aldadıcı, xəyalpərəstliklə.

**illusionslos** *adj.* həqiqi.

**illusorisch** *adj.* xəyali, aldadıcı.

**Illustration,** *die; -, -en* rəsm, şəkil.

**illustrieren** *vt* **1.** *(Texte)* şəkil vermək, misallar göstərmək; **2.** *(erläutern)* aydınlaşdırmaq, izah etmək.

**Illustrierte,** *die; -, -n* şəkilli dərgi.

**im** = *in dem; im Kino* kinoda, sinemada.

**Image,** *das; -(s), -s* *(Persönlichkeitsbild)* ictimai şəxsiyyət, ictimai hörmət, ad; *sein ~ ist angeschlagen* adı pisə çıxıb, adı batıb.

**imaginär** *adj.* xəyali; saxta.

**Imbiss,** *der; -es, -e* qəlyanaltı, bir az xörək; *e-n ~ zu sich nehmen* azacıq bir şey yemək, qəlyanaltı etmək.

**Imbissstand,** *der; -(e)s, -¨e* ayaqüstü yeməkxana.

**Imitation,** *die; -, -en* oxşatma, bənzətmə, təqlid, imitasyon, saxtakarlıq.

**imitieren** *vt* yamsılamaq,təqlid etmək.

**Imker,** *der; -s, -* arıçı.

**Imkerei,** *die; -, -en* arıçılıq.

**immanent** *adj.* tərkibindəki, içindəki.

**immateriell** *adj.* qeyri-maddi, mənəvi.

**Immatrikulation,** *die; -, -en* ali məktəbə qəbul, ad qeyd etdirmə.

**immatrikulieren** *vt* universitetə ad yazdırmaq *(qəbul olmaq)*; *sich ~ lassen* ali məktəbə qəbul olmaq.

**immens** *adj.* ucsuz-bucaqsız, sonsuz, hədsiz, zəngin.

**immer** *adv.* həmişə, daim*(a); er hielt sich ~ hier auf* daim burada olardı; *auf ~, für ~* həmişəlik, ömürlük, birdəfəlik, biryolluq; *~ wenn* hər dəfə; *~ noch, noch ~* hələdə, indiyədək, əlan; *~ mehr* getdikcə çox; *~ besser* getdikcə yaxşı; *~ wieder* təkrarən, daim; *wann auch ~* hər nə vaxt, hər nə zaman; *wer auch ~ er sei* hər kim olur olsun; *~ mit der Ruhe!* tələsmə!, yavaş-yavaş!.

**immerfort** *adv.* daimi olaraq, fasiləsiz, həmişə, daima, sürəkli.

**immergrün** *adj.* həmişəyaşıl.

**immerhin** *adv.* **1.** *(zumindest)* ən azı; **2.** *(wenigstens)* heç olma(z)sa; **3.** *(schließlich)* nəhayət, yenə də, bununla belə.

**immerwährend** *adj.* daimi, aravermədən, həmişəki.

**immerzu** *adv.* daimi, arası kəsilmədən, sürəkli.

**Immigrant,** *der; -en, -en* mühacir.

**Immigration,** *die; -, -en* mühacirət.

**immigrieren** *vi* köçmək, köç etmək.

**Immission,** *die; -, -en* gurultu *(səs-küy),* kirlənmə və şüa cərəyanının tə´sir buraxması.

**Immobilien,** *die/pl.* daşınmaz əmlak.

**Immobilienhandel,** *der; -s* əmlak alveri *( alıb-satması).*

**immun** *adj.* **1.** *pol.* toxunulmazlıq hüququ olan; **2.** *med.* xəstəliyə tutulmayan, xəstəlik keçməyən.

**Immunität,** *die; -* **1.** *pol.* toxunulmazlıq; **2.** *med.* xəstəliyə tutulmama.

**Imperativ** *der; -s, -e* *gr.* felin əmr forması.

**Imperator,** *der; -s, -en* hökmdar, imperator.

**Imperfekt,** *das; -s, -e* *gr.* imperfekt, keçmiş, bitməmiş.

**Imperialismus,** *der; -* imperializm.

**imperialistisch** *adj.* imperialist.

**Imperium,** *das; -s, -rien* imperatorluq, imperiya.

**impertinent** *adj.* utanmaz, sırtıq.

**impfen** *vt med.* vaksinləmək, vaksinlə peyvəndləmək, aşılamaq, döymək *(gegen A/-ə qarşı); sich gegen Pocken ~ lassen* çiçək döydürmək.

**Impfschein,** *der; -(e)s, -e* vaksin *(peyvənd)* vurulma haqqında vəsiqə.

**Impfstoff,** *der; -(e)s, -e* vaksin, vaksin maddəsi.

**Impfung,** *die; -, -en* vaksin, peyvənd, calaq, aşı; vaksin vurma, calaq etmə, çiçəkdöymə.

**Implantant,** *das; -s, -e med.* köçürülən orqan.

**Implantation,** *die; -, -en* *med.* köçürülmə, transplantasiya.

**implantieren** *vt* *med.* *-i* köçürmək.

**Implementierung,** *die; -, -en* yerinə yetirmək, icra etmək; sahmanlamaq.

**implizieren** *vt* daxil etmək, əlavə etmək; göstərmək, işarə etmək.

**implodieren** *vt* partlamaq, partlayıb dağılmaq.

**Implosion,** *die; -, -en* partlayış.

**imponieren** *vt* yaxşı təsir buraxmaq, xoşa gəlmək; təsir etmək.

**imponierend** *adj.* **1.** xoşagələn, xoş təsir edən; **2.** *(ansehnlich)* adlı-sanlı, görkəmli.

**Import,** *der; -(e)s, -e* idxal, xaricdən mal gətirilməsi, *fig.* eşikdən gəlmə; *~ware* eşikdən gəlmə mal.

**Importeur,** *der; -s, -e* xaricdən mal gətirən, idxalçı.

**importieren** *vt* idxal etmək, xaricdən mal gətirmək *(almaq).*

**imposant** *adj.* görkəmli, əzəmətli; təsiredici.

**impotent** *adj.* cinsi baximdan haldan düşmüş, gücsüz, bacarıqsız.

**Impotenz,** *die; -* gücsüzlük, haldan düşmə, cinsi gücü itirmə.

**imprägnieren** *vt* **1.** *(wasserdicht machen)* su keçməyən hala gətirmək; **2.** *(Holz usw.)* canına çəkdirmək, hopdurmaq.

**Impression,** *die; -, -en* təəssürat, təsir.

**Impressionismus,** *der; -* impressionizm.

**Impressum,** *das; -s, Impressen* *(Buch)* *(bir qəzet, dərgi və ya kitabda)* naşirin, çapçının və redaktə edənin qeyd olmuş adları.

**improvisieren** *vt* **1.** *(et. spontan tun)* hazırlanmadan bir işi görmək, hazırlıq görmədən bir işi etmək; **2.** *(Musik usw.)* müxtəlif havalarda çalmaq.

**Impuls,** *der; -es, -e* təkan, stimul; *neue ~e geben* yeni fikirlər *(istiqamət)*vermək.

**impulsiv** *adj.* kor-koranə, düşünmədən, fikirləşmədən, ehsasatı; daşğın; hay-küyçü; *~ handeln* kor-koranə bir iş(i) görmək, ehsasatı olmaq.

**imstande** *adj. : ~ sein et. zu tun* bir işi görməyə imkanı olmaq, bacarmaq, iqtidarında olmaq, öhdəsindən gəlmək.

**in**[1] *präp.* **1.** *mit A* içinə; **2.** *mit D* içində; **3.** *(innerhalb)* ərzində, sonra; *~ drei Stunden* üç saat ərzində; üç saatdan sonra; *~ dieser Woche* bu həftə içində, bu həftədə.

**in**[2] *F : et. ist ~* bir şey dəbdədir; *lange Haare sind ~* uzun saçlar dəbdədir, modadadır *(moddadır).*

**in-** **1.** içində, içinə; **2.** -siz.

**inaktiv** *adj.* hərəkətsiz, fəaliyyətsiz.

**inakzeptabel** *adj.* qəbul edilməz.

**Inangriffnahme,** *die; -* başlanğıc; ələ alma.

**Inanspruchnahme,** *die; -***1.** *(e-s Rechts)* istifadə etmə; tələb irəli sürmə; **2.** *techn.* gərginlik.

**Inbegriff,** *der; -(e)s, -e* cəm, yekun; nümunə, misal.

**inbegriffen** *adj.* ...daxil etməklə, daxil edilməklə, daxil olmaqla.

**Inbesitznahme,** *die; -, -n* ələ keçirmə, işğal etmə, mənimsəmə, yiyələnmə.

**Inbetriebnahme,** *die; -, -n* işə salma,

istifadəyə verilmə.

**Inbrunst,** *die; -* həyəcan, hərarət; qeyrət.

**inbrünstig** *adj.* hərarətli, həyəcanlı; qeyrətli, cəhd göstərən.

**indem** *konj.* **1.** *(dadurch, dass)* -məklə, -üçün; *du hast ihm e-e Freude bereitet, ~ du ihn angerufen hast* ona zəng etməklə sevincinə səbəb oldun; **2.** *(während)* bu arada, bu əsnada; bu dəmdə; -ikən.

**Indemnität,** *die; -* deputatların parlamentdə dedikləri söz və davranışları üçün cəzalandırılmamaları, cəza maflığı, təzminat.

**Independenz,** *die; -* müstəqillik, özgürlük, azadlıq.

**Inder,** *der; -s, -* hindli.

**Inderin,** *die; -, -en* hindli *(qadın).*

**indessen** *adv.* bu arada, bu əsnada, bu dəmdə; bu müddətdə; *konj.* lakin, amma, bununla belə, ancaq.

**Index,** *der; -es, -e u. Indizes* **1.** siyahı, föhrüst; mündəricat, içindəkilər; **2.** *H* göstərici, indeks.

**Indianer,** *der; -s, -* hindi, qızıldərili.

**Indien;** *-s* Hindistan.

**indifferent** *adj.* laqeyd; bitərəf, etinasız.

**Indifferenz,** *die; -, -en* laqeydlik, etinasızlıq.

**indigniert** *adj.* narazı, qəzəbli.

**Indikativ,** *der; -s, -e gr.* xəbər forması.

**Indikator,** *der; -s, -en* indikator, göstərici.

**indirekt** *adj.* dolayısı, vasitəli, bilavasitə *; adv.* dolayısı ilə, bilavasitə.

**indisch** *adj.* hindli.

**indiskret** *adj.* çox danışan, sirr saxlamayan, ağzı boş, yüngül.

**Indiskretion,** *die; -, -en* boşboğazlıq; yüngüllük, ədəbsizlik.

**indiskutabel** *adj.* müzakirə edinilməz *(məsələ).*

**indisponiert** *adj.* kefsiz.

**Individualismus,** *der; -* fərdiyyətçilik.

**Individualist,** *der; -en, -en* fərdiyyətçi.

**individualistisch** *adj.* fərdiyyətçi.

**Individualität,** *die; -* fərdiyyət, şəxsiyyət.

**individuell** *adj.* şəxsi, fərdi.

**Individuum,** *das; -s, -duen* fərd, şəxs.

**Indiz,** *das; -es, -ien* nişanə, əlamət; dəlil, sübut, dolayı dəlil.

**indizieren** *vt* **1.** *(Buch)* siyahıya keçirmək; **2.** bir şeyə işarə etmək.

**indoeuropäisch** *adj. ling.* hind-avropa dillərinə aid.

**indogermanisch** *adj. s. indoeuropäisch*

**indoktrinieren** *vt : j-n ~* bir kəsə ideologiya *(Süd. : ideoloji)* baxımdan təsir etmək.

**Indonesien;** *-s* İndoneziya.

**Induktion,** *die; -, -en* **1.** *phils.* induktiv; **2.** *phys.* induksiya, induksiyon.

**industrialisieren** *vt* sənayeləşdirmək.

**Industrialisierung,** *die; -* sənayeləşdirmə.

**Industrie,** *die; -, -n* sənaye.

**Industrieabfälle,** *der/pl.* sənaye tullantıları.

**Industrieanlage,** *die; -, -n* sənaye qurğusu.

**Industriegebiet,** *das; -(e)s, -e* sənaye bölgəsi, sənaye məntəqəsi.

**industriell** *adj.* sənaye.

**Industrielle,** *der u. die; -n, -n* sənaye sahibi *(sahibkarı).*

**Industriespionage,** *die; -* sənaye casusluğu.

**Industriezweig,** *der; -(e)s, -e* sənaye sahəsi.

**ineinander** *adv.* bir-birinə; bitişik, içəridən-içəriyə; *~ fließen* axıb birləşmək.

**ineinandergreifen** *vi* bir-birinə bağlanmaq, bir-birinə qoşulmaq.

**ineinanderschieben** *vt* bir-birinə keçirmək.

**ineinanderverliebt** *adj.* bir-birinə aşiq olmuş.

**infam** *adj.* alçaq, namussuz, əclaf.

**Infamie,** *die; -, -n* alçaqlıq, namussuzluq, rəzillik.

**Infanterie,** *die; -, -n* piyada qoşun.

**infantil** *adj.* uşaq kimi, uşaqcasına.

**Infarkt,** *der; -(e)s, -e* infarkt, səktə.

**Infekt,** *der; -(e)s, -e* infeksiya *(Süd. :*

*infeksiyon naxoşluğu*).

**Infektion,** *die; -, -en* infeksiya; yoluxma.

**Infektionsgefahr,** *die; -, -en* infeksiya təhlükəsi.

**Infektionsherd,** *der; -(e)s, -e* infeksiya qaynağı.

**infektiös** *adj.* yoluxdurucu, yoluxucu.

**Inferno,** *das; -s* cəhənnəm.

**infiltrieren** *vt* **1.** sızmaq, sızıb keçmək; **2.** *pol.* bir başqa ölkəyə *(təşkilata)* girib təxribat işləri aparmaq.

**Infinitiv,** *der; -s, -e gr.* məsdər.

**infizieren** *vt med.* yoluxdurmaq *(mit D/-ilə); vr sich ~ bei -dən* xəstələnmək.

**in flagranti** *adv. ~ ertappen* isti-isti yaxalamaq, cinayət başında tutmaq.

**Inflation,** *die; -, -en* pulun dəyərdən düşməsi, bahalıq, inflyasiya *(Süd. : inflasyon).*

**Inflationsrate,** *die; -, -n* inflasyon *(inflyasiya)* dərəcəsi *(nisbəti).*

**Influenza,** *die; -* infülanza; qrip.

**Info,** *das; -s, -s F Information.*

**infolge** *präp. G*...görə, ...nəticəsində, ...səbəb(in)dən.

**infolgedessen** *adv.* bunun nəticəsində, buna görə də, bu səbəbdən.

**Informant,** *der; -en, -en* xəbərverən; casus, xəbərçi.

**Informatik,** *die; -* informatik, kompyuter elmi.

**Informatiker,** *der; -s, -* kompyuter mühəndisi *(alımı).*

**Information,** *die; -, -en* xəbər, məlumat, informasiya, agahi, bilgi; *e-e ~ erhalten* xəbər tutmaq, məlumat yığmaq; *die neuesten ~en* son xəbərlər, son məlumatlar *pl.*

**Informationsaustausch,** *der; -* məlumat dəyişmə, məlumat mübadiləsi.

**Informationsschalter,** *der; -s, -* məlumat pəncərəsi; bilet kassası.

**informativ** *adj.* məlumatla dolu, bilik verən, bilik verici.

**informell** *adj.* qeyri-rəsmi.

**informieren** *vt* məlumat vermək, xəbərdar etmək, bilik *(biliş, xəbər)* vermək; *richtig ~* düz məlumat vermək; *vr sich ~* məlumat almaq, xəbər tutmaq *(über A/haqqında).*

**informiert** *adj. : ~e Kreise* yaxşı xəbəri *(xəbərləri)* olan məhfillər *(çevrələr).*

**infrage** *adv. ~ kommen* nəzərə alınmaq; *~ stellen :* **1.** *(hinterfragen) kimdənsə* şübhələnmək; *nədənsə* şübhə etmək; **2.** *(gefährden)* təhlükəyə salmaq.

**infrarot** *adj.* infraqırmızı *(şüalar).*

**Infrastruktur,** *die; -, -en* infrastruktur, altquruluş, binövrə, bünövrə.

**Infusion,** *die; -, -en med.* cövhər, şirə, dəri altına iynə ilə maye axdırma, infuzyon.

**Ingangsetzung,** *die; -(e-r Maschine)* işə salma, işlətmə, istifadəyə verilmə.

**Ingebrauchnahme,** *die; -* işlətməyə başlama, istifadə etməyə başlama; *vor ~* işlətmədən əvvəl.

**Ingenieur,** *der; -s, -e* mühəndis.

**Ingenieurschule,** *die; -, -n* mühəndislik məktəbi.

**Ingenieurwesen,** *das; -s* mühəndislik.

**Ingrimm,** *der; -(e)s, -* qəzəb, acıq, kin.

**Ingwer,** *der; -s, -* zəncəfil.

**Inhab.** *Abk. Inhaber(in).*

**Inhaber,** *der; -s, -* sahib, yiyə, sahibkar; *~ e-s Ladens* dükan yiyəsi *(sahibi); ~ e-s Amtes* məqam sahibi.

**inhaftieren** *vt* həbs etmək, damlamaq, həbsə almaq; *inhaftieren lassen* damlatmaq.

**Inhaftierung,** *die; -, -en* həbs etmə, damla(n)ma; dustaqlıq *inhaftiert werden* damlanmaq.

**Inhalation,** *die; -, -en* nəfəslə çəkmə, içəriyə çəkmə.

**inhalieren** *vt* buxur etmək, nəfəslə içəriyə çəkmək, buxurlamaq.

**Inhalt,** *der; -(e)s, -e* **1.** içindəki, ...içində olan şey; məğz; **2.** *(e-r Rede)* məzmun; **3.** *(Rauminhalt)* həcm; **4.** *(Inhaltsverzeichnis)* mündəricat, içindəkilər.

**inhaltslos** *adj.* boş, içi boş; məzmunsuz, ələşən-güləşən, əsassız.

**inhaltsreich** *adj.* məzmunlu, dolğun,

mənalı.

**Inhaltsverzeichnis,** *das; -ses, -se (Buch)* mündəricat, kitabın içindəkilər.

**inhuman** *adj.* insanlıqdan uzaq, qeyri-insani, rəhmsiz.

**Initiative,** *die; -, -n* təşəbbüs, girişmə; *die ~ ergreifen* təşəbbüsü ələ almaq, girişmək; *aus eigener ~* öz təşəbbüsü ilə.

**Initiator,** *der; -s, -en* təşəbbüsçü, başladan, hərəkətə gətirən.

**Injektion,** *die; -, -en med.* iynə.

**injizieren** *vt* iynə vurmaq.

**Injurie,** *die, -, -n* təhqir, aşağılama.

**injuriieren** *vt* təhqir etmək.

**Inkarnation,** *die; -, -en* təcəssüm; vücuda gəlmə; nümünə, əsas.

**Inkasso,** *das; -s, -s* pul alma, inkasso etmə, ödənişin qəbulu.

**inkl.** *= Abk. inkulsiv.*

**inklusiv** *adj.* ..daxil etməklə, ...daxil olmaq şərtilə, ...daxil edərək.

**Inkognito,** *das; -s, -s* həqiqi kimliyini gizlətmə, özgənin adı altında yaşama.

**Inkompatibilität,** *die; -, -en* uyğun gəlməmə, bir araya sığmayan; biri digərini inkar etmə.

**inkompetent** *adj.* səlahiyyətsiz, təcrübəsiz, biliksiz, səriştəsiz.

**inkonsequent** *adj.* qeyri-ardıcıl, ardıcıl olmayan, davamsız, mütərəddid, ziddiyyətli; məntiqsiz.

**Inkonsequenz,** *die; -, -en* ardıcıl olmama, davamsızlıq.

**inkorrekt** *adj.* səhv, yanlış, üsulsuz.

**Inkraftsetzung,** *die; -* qüvvəyə minmə, həyata keçirilmə, işə salınma.

**Inkrafttreten,** *das; -s* qüvvəyə minmə.

**inkriminieren** *vt* təqsirləndirmək.

**Inkubationszeit,** *die; -, -en med.* xəstəliyin gizli dövrü.

**Inland,** *das; -(e)s* ölkə daxili, məmləkət içi; *im ~* ölkə daxilində, ölkədə.

**Inländer,** *der; -s, -* ölkə vətəndaşı.

**Inlandflug,** *das; -s, -¨e* daxili uçuş.

**inländisch** *adj.* yerli, daxili.

**Inlandsabsatz,** *der; -(e)s, -¨H* daxili satış.

**Inlandsmarkt,** *der; -(e)s, -¨e* daxili bazar.

**Kufe,** *die; -, -n* **1.** *(Gefäß)* çəllək, çən; **2.** *(beim Schlittschuh)* xizəyin dəmir dabanı.

**Küfer,** *der; -s, -* **1.** *(Böttcher)* çəlləkçi; **2.** *(Kellermeister)* şərabçı.

**Kugel,** *die; -, -n* **1.** kürə, şar; **2.** *(Gewehrkugel usw.)* güllə; **3.** *(Geschosskugel)* qumbara.

**kugelfest** *adj.* gülləkeçirməz.

**kugelförmig** *adj.* şarşəkilli, kürəvi, kürəvarı.

**Kugelgelenk,** *das; -(e)s, -e* **1.** *an.* oynaq; **2.** *techn.* şarşəkilli birləşmə.

**kugeln** *vi* diyirlənmək; *vt* diyirlətmək, yuvarlatmaq.

**kugelrund** *adj.* şar kimi yumru, girdə.

**Kugelschreiber,** *der; -s, -* diyircəkli qələm.

**kugelsicher** *adj. s. kugelfest*.

**Kugelstoßen,** *das; -s* şar atma.

**kugelig** *adj.* kürəvi, şarşəkilli.

**Kuh,** *die; -, -¨e* inək.

**Kuhfladen,** *der; -s, -* inək təzəyi.

**Kuhhandel,** *der; -s, -* *fig.* gizli alver, əlaltından alver, gizli sövdələşmələr *pl.*

**Kuhhaut,** *die; -, -¨e* **1.** inək dərisi; **2.** *fig. das geht auf keine ~!* şoru çıxdı; həddini aşdı!.

**kühl** *adj.* sərin; *es ist ~* hava sərindir; *fig.* soyuq; *j-n ~ behandeln* bir kəslə soyuq rəftar etmək.

**Kühlanlage,** *die; -, -n* soyuducu cihaz.

**Kuhle,** *die; -, -n* çuxur.

**Kühle,** *die; -* sərinlik; *fig.* soyuqluq.

**kühlen** *vt* sərinləşdirmək; soyutmaq.

**Kühler,** *der; -s, -* *(Auto)* radiator.

**Kühlhaus,** *das; -es, -¨er* buzxana.

**Kühlschrank,** *der; -(e)s, -¨e* soyuducu, buzdolabı.

**Kühltruhe,** *die; -, -n* soyuducu cihaz.

**Kühlung,** *die; -, -en* soyu(t)ma, sərinlə(t)mə, soyudulma.

**Kühlwasser,** *das; -s* soyuducu su.

**Kuhmilch,** *die; -* inək südü.

**Kuhmist,** *der; -es* təzək.

**kühn** *adj.* qoçaq, cəsur, igidcəsinə, qorxubilməz, qorxusuz, mərd, rəşadətli, ürəkli, hünərli, şücaətli, bahadır, dilavər; *adv.* cürətlə, şücaətlə.

**Kühnheit,** *die; -, -en* cəsarət, qorxubilməzlik, ürəklilik, hünər, cürət, şücaət, cəsurluq, dilavərlik, igidlik.

**Kuhstall,** *der; -(e)s, -¨e* tövlə, pəyə.

**Küken,** *das; -s, -* cücə.

**kulant** *adj.* **1.** *(großzügig)* əliaçıq; iltifatlı; **2.** *(Preise)* münasib.

**Kulanz,** *die; -, -* alicənablıq, iltifat,

**Kuli,** *der; -s, -s* **1.** hambal, yükdaşıyan; **2.** *F s. Kugelschreiber.*

**kulinarisch** *adj.* ləzzətli yemək, ləziz.

**Kulisse,** *die; -, -n* kulisa; səhnə arxası; *hinter den ~n* səhnə arxasında; gizlicə.

**kullern** *vi* **1.** *(rollen)* diyirlənmək; axmaq; *die Tränen ~ ihm über das Gesicht* göz yaşları üzünə axır; **2.** *(Augen)* gözləri oynatmaq; *vr sich vor Lachen ~* gülməkdən qırılmaq.

**Kulmination,** *die; -, -en* zirvə, ən yüksək nöqtə, ən hündür nöqtə.

**kulminieren** *vt* ən yüksək zirvəyə *(nöqtəyə)* çatmaq.

**Kult,** *der; -(e)s, -e* ibadət etmə; pərəstiş, aşırı sevgi.

**kultisch** *adj.* ibadətə aid, dini.

**kultivieren** *vt* **1.** *(Boden )* becərtmək; **2.** mədəniləşdirmək.

**kultiviert** *adj.* **1.** mədəni, kulturlu, aydın; **2.** becərilən.

**Kultur,** *die; -, -en* **1.** *nur sg.* mədəniyyət, kultur; **2.** *(Anbau)* becərmə; bəsləmə.

**Kulturabkommen,** *das; -s, -* mədəni əlaqələr haqda saziş.

**kulturell** *adj.*mədəni, kulturel; çağdaş.

**Kulturgeschichte,** *die: -, -n* mədəniyyət tarixi, kultur tarixi.

**Kulturgut**, *das; -(e)s, -güter*mədəni irs.

**Kulturleben,** *das; -s* mədəni həyat.

**kulturlos** *adj.* mədəniyyətsiz, kultursuz.

**Kulturpolitik,** *die; -* mədəniyyət siyasəti, kultur siyasəti.

**Kulturschätze,** *die/pl.* mədəniyyət xəzinəsi.

**Kulturstufe,** *die; -, -n* mədəniyyət dərəcəsi.

**Kulturzentrum,** *das; -s; -tren* mədəniyyət *(kultur)* mərkəzi.

**Kultus,** *der; -* pərəstiş, ibadət.

**Kultusminister,** *der; -s, -* mədəniyyət naziri.

**Kultusministerium,** *das; -s, -rien* mədəniyyət nazirliyi.

**Kümmel,** *der; -s bot.* zirə.

**Kummer,** *der; -s* kədər, dərd, qəm, qüssə, fikir-xəyal, hüzn; qayğı; *~ haben* dərdi olmaq; *sich ~ machen* qüssə yemək *(wegen G/ bir şeyə görə); F vor ~ sterben* dığ tutub ölmək, dığlamaq..

**kümmerlich** *adj.***1.** yazıq, zavallı, aciz, ac-yalavaz; **2.** *(gering)* az, cüzi.

**kümmern** *vt* dəxli olmaq, ilgiləndirmək;*was kümmert mich ..* mənim bu işlə nə əlaqəm var?; *-dan/-dən* mənə nə? *vr sich ~* qeydinə qalmaq *(um A/-kiminsə, nəyinsə),* qayğısını çəkmək, baxmaq; gün ağlamaq; can yandırmaq; *F sich liebvoll um j-n ~* dədəlik etmək; *sich um das eigene Leben ~* özünə bir gün ağlamaq; *ich muß mich auch um meine Eltern ~* mən ata-anama da baxmalıyam.

**Kümmernis,** *die; -, -se* kədər, qəm, qüssə, dərd; fikir.

**kummervoll** *adj.* kədərli, dərdli, qüssəli.

**Kumpan,** *der; -s, -e* yoldaş, ayaqdaş; içki yoldaşı.

**Kumpel,** *der; -s, -* **1.** mədən fəhləsi, şaxtaçı; **2.** *F* yoldaş.

**kündbar** *adj.* rədd oluna bilən, ləğv oluna bilən; dəyişdirilə bilən.

**Kunde[1],** *der; -n, -n* müştəri, alıcı.

**Kunde[2],** *die; -, -n* məlumat, xəbər; bilik, bilim.

**künden** *vt* xəbər vermək, bildirmək.

**Kundendienst,** *der; -(e)s, -e* müştərilərə xidmət şöbəsi, müştəri servisi.

**kundgeben** *vt* bildirmək, xəbər vermək.

**Kundgebung,** *die; -, -en* **1.** göstərmə, bildirmə; **2.** *(Demonstration)* nümayiş, mitinq.

**kundig** *adj.* təcrübəli, bilikli, səriştəli, agah, dana, dərin.

**kündigen** *vt* **1.** *(e-n Vertrag)* pozmaq, ləğv etmək; **2.***(j-m)* işdən çıxarmaq, işdən azad etmək.

**Kündigung,** *die; -, -en* ləğv etmə, pozma.

**Kündigungsfrist,** *die; -, -en* ləğv etmə *(imtina)* möhləti.

**Kündigungsrecht,** *das; -(e)s* ləğv etmə hüququ.

**Kündigungsschreiben,** *das; -s, -* işdən çıxarılması haqqında xəbər; ləğv etmə haqqında xəbər.

**Kündigungsschutz,** *der; -es* işdən çıxarma *(imtina)* məqsədinə qarşı qahmar çıxma.

**Kundin,** *die; -, -nen* müştəri, alıcı *(qadın).*

**Kundschaft[1],** *die; -, -en* müştərilər, alıcılar.

**Kundschaft[2],** *die; -* *(Erkundung)* kəşfiyyat.

**Kundschafter,** *der; -s, -* casus.

**kundtun** *vt* xəbər vermək, bildirmək.

**künftig** *adj.* gələcək, qarşıdakı; *~e Generationen* gələcək nəsillər; *adv.* gələcəkdə.

**kungeln (kunkeln)** *vt* kələk gəlmək; fitnə törətmək.

**Kunst,** *die; -, -¨e* **1.** incəsənət; **2.** *(Geschicklichkeit)* bacarıq, qabiliyyət, məharət, sənət, fənn, hünər; *fig.* dilçək; **3.** *(Kniff)* kələk, hiylə.

**Kunstausstellung,** *die; -, -en* incəsənət sərgisi.

**Kunstdünger,** *der; -s, -* mədən gübrələri.

**Künstelei,** *die; -, -en* sünilik, qəribəlik.

**kunstfertig** *adj.* məharətli, bacarıqlı.

**Kunstfertigkeit,** *die; -, -en* məharət, yaradıcılıq, hünər.

**Kunstgeschichte,** *die; -* incəsənət tarixi.

**Kunstgriff,** *der; -(e)s, -e* kələk, hiylə,

biclik; məharət.

**Kunsthandwerk,** *das; -(e)s, -e* incəsənət ixtisası.

**Kunsthistoriker,** *der; -s, -* incəsənət tarixi üzrə mütəxəssis, sənətşünas.

**Kunsthochschule,** *die; -, -n* ali incəsənət məktəbi.

**Künstler,** *der; -s, -* sənətkar, artist.

**künstlerisch** *adj.* sənətkarcasına, sənətkaranə, bədii, sənətsal.

**künstlich** *adj.* qondarma, qeyri-təbii, süni; sintetik.

**Kunstliebhaber,** *der; -s, -* incəsənət sevən.

**kunstlos** *adj.* sadə, təbii.

**Kunstmaler,** *der; -s, -* rəssam, nəqqaş.

**Kunstsammlung,** *die; -, -en* incəsənət əsərlərin toplusu *(külliyyatı).*

**Kunstschätze,** *die/pl.* dəyərli incəsənət əsərləri.

**Kunstseide,** *die; -* qondarma ipək.

**Kunststoff,** *der; -(e)s, -e* plastik maddə.

**Kunststück,** *das; -(e)s, -e* ustalıq, hünər; *das ist kein ~ !* bu bir hünər deyil!.

**Kunstverständige,** *der; -n, -n* incəsənətdən başı çıxan adam.

**kunstvoll** *adj.* bədii, hünərli.

**Kunstwerk,** *das; -(e)s, -e* bədii əsər, incəsənət əsəri, sənət əsəri.

**kunterbunt** *adj.* **1.** *(sehr bunt)* rəngbərəng, ala-bəzək; **2.** *(durcheinander)* qatma-qarış.

**Kupee,** *das; -s, -s* *s. Coupe.*

**Kupfer,** *das; -s* mis.

**Kupferbergwerk,** *das; -(e)s, -e* mis mədəni.

**kupferfarbig** *adj.* misrəngli.

**kupferhaltig** *adj.* misli.

**kupferig** *adj.* misəbənzər, mis.

**Kupferschmied,** *der; -(e)s, -e* misgər.

**Kupferstich,** *der; -(e)s, -e* mis üzərinə həkk olmuş şəkil.

**Kupon,** *der; -s, -s* kupon.

**Kuppe,** *die; -, -n* **1.** *(Bergkuppe)* təpə; **2.** *(Fingerkuppe)* barmaq ucu.

**Kuppel,** *die; -, -n* gümbəz, günbəz, qübbə, tağ, günbəd, kümbəd.

**Kuppelei,** *die; -* *jur.* oğraşlıq; dəllallıq, məhəbbət dəllallığı.

**kuppelförmig** *adj.* gümbəz kimi, qübbə şəklində, kümbədli.

**kuppeln** *vt* bir-birinə bağlamaq, birləşdirmək; əlaqələndirmək.

**Kuppler,** *der; -s, -* qurumsaq; vasitəçi; aradüzəldən, dəllal.

**Kupplung,** *die; -, -en* **1.** *techn.* ilişmə, yapışma; qarmaqlama; **2.** *(Auto)* əyləc *(Süd. : klac).*

**Kur,** *die; -, -en* müalicə, rejim; *zur ~ fahren* müalicəyə getmək.

**Kür,** *die; -, -en* *(Sport)* azad hərəkət, ixtiyari məşq.

**Kuratel,** *die; -, -en* *jur.* qəyyumluq, himayə.

**Kurator,** *der; -s, -en* qəyyum.

**Kuratorium,** *das; -s, -rien (Verwaltung)* idarə heyəti, müdiriyyət.

**Kurbel,** *die; -, -n* dəstək, tutğac.

**Kurbelwelle,** *die; -, -n* *techn.* dirsəkli vərdənə.

**Kürbis,** *der; -ses, -se* qabaq, balqabaq, kudu, boranı.

**Kurde,** *der; -n, -n* kürd.

**kurdisch** *adj.* kürd; kürdcə.

**Kurdisch,** *das; -* *(Sprache)* kürdcə.

**Kurfürst,** *der; -en, -en* hökmdar, Almaniya padşahını seçən hökmdarlardan biri.

**Kurgast,** *der; -(e)s, -¨e* müalicə üçün gələn xəstə.

**Kurhaus,** *das; -es, -¨er* müalicə olanların hoteli.

**Kurie,** *die; -, -n* Vatikan.

**Kurier,** *der; -s, -e* xəbərgətirən, carçı, kuryer.

**kurieren** *vt* müalicə etmək, şəfa vermək; *fig.* dincəltmək.

**kurios** *adj.* qəribə, əcaib, təəccüblü.

**Kurisorität,** *die; -, -en* qəribəlik.

**Kurort,** *der; -(e)s, -e* müalicə yeri.

**Kurs,** *der; -es, -e* **1.** *(Richtung)* istiqamət, səmt; **2.** *(Kurswert)* dəyər, qiymət, məzənnə, kurs; **3.** *(Lehrgang)* kurs; **4.** *(politische Linie)* aparılan siyasət.

**Kursanstieg,** *der; -(e)s, -e* qiymətlərin *(məzənnənin)* artması.

**Kursbericht,** *der; -(e)s, -e* birja *(Süd. : burs)* məlumatı *(hesabatı).*

**Kursbuch,** *das; -(e)s, -¨er* **1.** qatarların hərəkət cədvəli *(planı);* **2.** kurs kitabı *(dərsdə).*

**Kürschner,** *der; -s, -* xəzçi, kürkçü.

**kursieren** *vt* **1.** *(Geld)* işlənmək; **2.** *(Gerüchte)* yayılmaq.

**kursiv** *adj.* kursiv, italik.

**Kursivschrift,** *die; -, -en* kursiv şrift.

**Kursnotierung,** *die; -, -en* birja *(Süd. : burs)* bazarında məzənnə qeydi.

**Kursschwankung,** *die; -, -en* qiymət dəyişkənliyi.

**Kursus,** *der; -, Kurse* kurs.

**Kurswert,** *der; -(e)s, -e* bazar məzənnəsi, bu günkü məzənnə.

**Kurtaxe,** *die; -, -n* müalicə yerində alınan pul, kurort rüsumu.

**Kurve,** *die; -, -n* **1.** *math.* əyri; **2.** *(Straßenkurve)* döngə, dönəcək, buruq, tin.

**kurven** *vi* dönmək, burulmaq; çönmək; viraj etmək.

**kurvenreich** *adj.* çox döngəli.

**kurz** *adj.* qıs(s)a, yığcam, gödək, gödə; uzun sürməyən; *sie hat ~e Haare* onun qısa saçları var; *nach ~er Zeit* bir az sonra; *~e Zeit vorher* bundan bir az qabaq, bayaq, dəmin; *adv.* qısaca, müxtəsərcə; tez; *~ und bündig* yığcam, qısa və qəti; *binnen ~em* yaxın zamanda; *zu ~ kommen* zərər çəkmək; *den ~en ziehen* zərərə düşmək; *über ~ oder lang* gec-tez; *~ und schmerzlos* tez, nazsız, ədasız; *~ und klein schlagen* darmadağın etmək; *sich ~ fassen* qısa kəsmək, yığcam danışmaq, uzatmamaq, müxtəsər ifadə etmək; *mit ~en Worten* sözün qısası; *veralt.* əlhasil, əlqərəz, hasili-kəlam, əl-qissə.

**Kurzarbeit,** *die; -* qısa iş günü.

**kurzärmelig** *adj.* qısa qollu, gödəkqol.

**kurzatmig** *adj.* təngnəfəs.

**kurzbeinig** *adj.* gödəkayaq.

**Kurzbiografie,** *die; -, -n* qısa bioqrafi, qisa tərcümeyi-hal.

**Kürze,** *die; -* yığcamlıq, qısalıq, müxtəsərlik; *in ~* bu yaxında, yaxınlarda; qısaca.

**kürzen** *vt* qısaltmaq, gödəltmək; azaltmaq; qırxdırmaq *(Haare).*

**kürzer** *adj.* daha qısa.

**kurzerhand** *adv.*tez,çox fikirləşmədən.

**kurzfristig** *adj.* qısamüddətli, azmüddətli.

**kurzgefasst** *adj.* yığcam, qısa.

**Kurzgeschichte,** *die; -, -n* qısa hekayə, novella.

**kurzhalten** *vt* bir kəsi sıxışdırmaq, gözümçıxdıya salmaq.

**kurzlebig** *adj.* azömürlü, qısaömür, ötərgi.

**kürzlich** *adv.* bir az bundan qabaq, bu yaxınlarda, bayaq.

**Kurzschluss,** *der; -es, -¨e el.* qısa qapanma *(Süd. : ittisal, kontakt).*

**Kurzschlusshandlung,** *die; -, -en* düşünülməmiş hərəkət; *e-e ~ begehen* düşünmədən əməl etmək.

**Kurzschrift,** *die; -, -en* stenoqrafi.

**kurzsichtig** *adj.* uzağı görməyən, qarov.

**Kurzstreckenlauf,** *der; -(e)s, -¨e* qısa məsafəyə qaçış.

**Kurzstreckenläufer,** *der; -s, -* sprinter, qısa məsafəyə qaçış idmançı.

**kurzum** *adv.* bir sözlə, sözün qısası.

**Kürzung,** *die; -, -en***1.** ixtisar; qısaltma; **2.** *(Gehaltskürzung)* kəsmə, azaltma.

**Kurzwaren,** *die/pl.* xırdavat.

**Kurzwelle,** *die; -, -n* qısa dalğa.

**Kurzweilig** *adj.* maraqlı; əyləndirici.

**kurzzeitig** *adj.* qısavaxtlı, qısamüddətli, qısasürəli.

**kuschelig** *adj. (warm, weich)* isti, xoşagələn; rahat, yumşaq.

**kuscheln** *vr sich an j-n ~* bir kəsin qoynuna girmək, bir kəsə qısılmaq.

**kuschen** *vi* cınqırını çıxarmamaq, susmaq; itaət etmək; *F vor j-m. ~* bir kəsə boyun eymək, bir kəsdən qorxmaq.

**Kusine,** *die; -, -n* əmiqızı, dayıqızı.

**Kuss,** *der; -es, -¨e* öpüş, öpmə.

**küssen** *vt* öpmək, dodaq almaq; *den*

*Mund ~* dodaqlarından öpmək; *vr sich ~* öpüşmək; *(sich gegenseitig innig küssen)* dodaqlaşmaq.

**Kusshand,** *die; -, -¨e* sevinc, məmnuniyyət, həvəs; *et. mit ~ nehmen* bir zadı sevinclə qəbul etmək.

**Küste,** *die; -, -n* dəniz kənarı, sahil.

**Küstenschifffahrt,** *die; -* sahil gəmiçiliyi.

**Küstenschutz,** *der; -es* sahili qoruma.

**Küstenstraße,** *die; -, -n* sahil yolu.

**Küster,** *der; -s, -* kilsə xadimi.

**Kutsche,** *die; -, -n* fayton, minik arabası, araba.

**Kutscher,** *der; -s, -* faytonçu, faytonsürən, arabaçı, daşqaçı.

**kutschieren** *vi* arabanı sürmək, faytonu sürmək.

**Kutte,** *die; -, -n* keşiş cübbəsi, əba.

**Kutteln,** *die/pl.* işgəmbə.

**Kutter,** *der; -s, -* *naut.* kater, balıq tutmaq üçün gəmi.

**Kuvert,** *das; -s, -s* **1.** *(Briefumschlag)* paket; **2.** *(Gedeck)* xörək yemək üçün işlədilən alətlər *(çəngəl, bıçaq ...),* xörək dəsti, yemək servisi.

**kuvertieren** *vt* marka yapışdırmaq**.**

**Kuvertüre,** *die; -, -n* şirniyyatın üzərindəki kakao, şokolat örtüsü.

**Kuwait;** *-s* Kuveyt.

**Kybernetik** *die; -* gibernetik, kibernetik.

**kyrillisch** *adj.* kiril; *~e Buchstaben* kiril hərfləri *(əlifbası)* .

**KZ** *(Konzentrationslager), das; -s, -* ölüm düşərgəsi, həbs düşərgəsi.

# L

**L, l** *das; -, -* Alman əlifbasının on ikinci hərfi.

**Lab,** *das; -s, -e* **1.** qursaq mayası; **2.** pəndir mayası, qatıq mayası.

**laben** *vi* təzələmək; canlandırmaq; hərarətini söndürmək; *vr sich ~ an D -i* ləzzətlə yemək və ya içmək, ləzzət almaq; möhkəmlənmək; *bir şeylə* mutlu olmaq.

**labern** *vi F* boşboğazlıq etmək.

**Labial(laut),** *der; -s, -e phon.* dodaq səsi.

**labil** *adj.* dəyişkən, möhkəm olmayan, qeyri-sabit, sarsıntlı, qərarsız, dəyanətsiz; dözümsüz; damarıboş, dəmdəməki *~es Gleichgewicht* dəyişkən müvazinətsiz.

**Labilität,** *die; -* dəyişkənlik, laxlıq; dözümsüzlük; damarıboşluq.

**Labor,** *das; -s, -s* laborator*(iya).*

**Laborant,** *der; -en, -en* laborant.

**Laboratorium,** *das; -s, -rien s. Labor.*

**laborieren** *vi* **1.** *(an e-r Krankheit usw.)* xəstəlik çəkmək; **2.** çalışmaq, işləmək, təcrübə qoymaq.

**Labsal,** *das; -(e)s, -e* **1.** fərəhləndirici şey, təzələndirici şey, güc verən şey; **2.** *fig.* ürəyə su səpmə, təsəlli.

**Labyrinth,** *das; -(e)s, -e* **1.** labirint, dolanbac, dolaşıq yol; qarışıqlıq; **2.** *anat.* ortaqulaq.

**Lache,** *die; -, -n (Pfütze)* gölməçə, nohur.

**Lache²,** *die; -, -n* gülüş; qımışıq.

**lächeln** *vi* gülümsəmək, gülümsünmək, təbəssüm, qımışmaq *(über A/-ə).*

**lachen** *vt* gülmək *(über A/-ə); du hast gut ~!* sənin kefin kökdür!, sən gülə bilərsən!; *wer zuletzt lacht, lacht am besten* qələbə son gülənindir; *er hat nichts zu ~* o çətin bir vəziyyətdədir.

**Lachen,** *das; -s* gülüş; qəhqəhə; *zum ~ bringen* güldürmək; *F das ist nicht zum ~* gülməyə heç bir yer yoxdur.

**lachend** *adj.* gülən, güləyən; *der ~e Dritte* iki nəfərin davasından xeyir götürən üçüncü adam; *adv.* gülərək, gülə-gülə.

**Lacher,** *der; -s, -* gülən, gülümsəyən.

**lächerlich** *adj.* **1.** gülməli, gülünc; **2.** *(unbedeutend)* əhəmiyyətsiz, cüzi; *sich ~ machen* aləmi özünə güldürmək; *et. ins Lächerliche ziehen* lağa qoymaq, gülünc etmək.

**lachhaft** *adj.* gülməli, gülünc, komik.

**Lachkrampf,** *der; -(e)s, -¨e* gülməsi tutma; əsəbi gülüş.

**Lachs,** *der; -es, -e* qızıl balıq.

**Lack,** *der; -(e)s, -e* lak, cila; *fig. der ~ ist ab* köhnəlibdir; qocalıbdır.

**lackieren** *vt* lak çəkmək, lak sürtmək, cilalamaq.

**Lade,** *die; -, -en* sandıq, siyirtmə yeşik.

**Ladefläche,** *die; -, -n* yükləmə yeri.

**Ladegerät,** *das; -(e)s, -e el.* şarj etmə cihazı.

**laden** *vt* **1.** *(Fracht)* yükləmək; **2.** *(Waffe)* doldurmaq; **3.** *jur.* çağırmaq, də - vət etmək;cəlb etmək;**4.** *el.* doldurmaq, şarj etmək; *den Akku ~* akunu şarj etmək; *geladene Gäste* dəvət olmuş qonaqlar;*schwer geladen haben* çox içmək.

**Laden,** *der; -s, -¨* dükan, mağaza; *den ~ schmeißen F* sona çatdırmaq, həyata keçirmək; *den ~ hinwerfen F* işi buraxmaq, işdən əl çəkmək.

**Ladendiebstahl,** *der; -(e)s, -¨e* mağaza oğurluğu.

**Ladenfenster,** *das; -s, -* mağaza sərgisi, vitrin.

**Ladeninhaber,** *der; -s, -* mağaza sahibi, dükançı.

**Ladenschluss,** *der; -es* mağazanın bağlanma saatı.

**Ladentisch,** *der; -es, -e* piştaxta.

**Laderampe,** *die; -, -n* yükləmə səkisi.

**Laderaum,** *der; -(e)s, -¨e* **1.** anbar; **2.** *mil.* sandıq.

**lädieren** *vt* zədələmək, xarab etmək, korlamaq; yaralamaq.

**lädiert** *adj.* zədələnmiş, xarab olmuş.

**Lädierung,** *die; -, -en* zədə; yara.

**Ladung,** *die; -, -en* **1.** *(Güter)* yük, tay; **2.** *(in e-r Waffe)* güllə; barıt; **3.** *jur.* dəvətnamə; çağırma.

**Lady,** *die; -, -s* xanım, qadın.

**Lafette,** *die; -, -n* ərradə.
**Laffe** *der; -n, -n veralt.* ədabaz adam, özünü bəyənən adam.
**lag** *s. liegen.*
**Lage,** *die; -, -n* **1.***(Zustand)*vəziyyət, durum, hal, şərait, kök; **2.** *(Schicht)* qat, lay, təbəqə; **3.** *(Ort)* yer; *in der ~ sein zu ..* *etməyə* qabil *(qadir)* olmaq, gücü çatmaq, bacarmaq, başarmaq; *in e-e schwere ~ geraten* yaman kökə *(günə, vəziyyətə)* düşmək.
**Lageplan,** *der; -s, -¨e* düşərgə planı.
**Lager,** *das; -s, -* **1.** *(Ruhestätte)* yataq, yatacaq; **2.** *(Warenlager)* anbar, baza, depo; **3.** *(Camp)* düşərgə, ordugah, baza, oturaq; *ein ~ errichten* düşərge salmaq; **4.** *geol.* mədən yatağı; *auf ~ haben* anbarda olmaq.
**Lagergebühr,** *die; -, -en* yükün saxlanma haqqı, anbarpulu.
**Lagerhaus,** *das; -es, -¨er* anbar.
**Lagerist,** *der; -en, -en* anbarçı.
**lagern** *vt* anbarda saxlamaq, anbara vurmaq; *kühl ~* sərin yerdə saxlamaq; *vi* **1.** anbarda olmaq, anbarda yerləşmək; **2.** *mil.* düşərgə salmaq; *vr sich ~* uzanmaq, uzanıb dincəlmək.
**Lagerplatz,** *der; -es, -¨e* **1.** anbar; **2.** düşərgə yeri.
**Lagerraum,** *der; -s, -¨e* anbar.
**Lagerstätte,** *die; -, -n* **1.** düşərgə yeri, ordugah; **2.** *geol.* mədən yatağı, yataq.
**Lagerung,** *die; -* **1.** anbara qoyma, anbarda saxlama; **2.** *geol.* laylaşma, təbəqələşmə.
**Lagune,** *die; -, -n* bataqlıq, batlaq.
**lahm** *adj.* **1.** iflic, fələc, şil; topal, axsaq; *~ legen* fələc etmək, dayandırmaq, saxlamaq; **2.***(kraftlos)* gücsüz, qüvvətsiz, inandırıcı olmayan, zəif; **3.** *F. (langweilig)* durğun, hərəkətsiz; darıxdırıcı; *(Ausrede)* ağlabatmayan.
**lahmen** *vi* axsamaq.
**lähmen** *vt* iflic etmək; *fig.* axsatmaq, ziyan vurmaq; *wie gelähmt sein vor (D)* qarşısında donmaq, donub qalmaq.
**lahmlegen** *vt* axsatmaq; iflic etmək.
**Lähmung,** *die; -, -en* axsatma; topallıq, iflic, çolaqlıq; *fig.* hərəkətsizlik; durğunluq; *Kinderlähmung* uşaqlar iflici.
**Laib,** *der; -(e)s, -e* **1.** *(Brot)* kömbə çörək; **2.** *(Käse)* girdə pendir.
**Laich,** *der; -(e)s, -e* kürü.
**laichen** *vi* *(Fische)* kürü tökmək.
**Laie,** *der; -n, -n* səriştəsiz, amatör, həvəskar, əcəmi, təcrübəsiz; *rel.* dini bilgisi olmayan adam.
**laienhaft** *adj.* təcrübəsiz, biliksiz, naşı.
**Laienschauspieler,** *der; -s, -* amatör artist, təcrübəsiz aktyor.
**Laizismus,** *der; -* laiklik, dinin dövlət işlərinə qarışmaması.
**laizistisch** *adj.* laik.
**Lakai,** *der; -en, -en* qulluqçu, nökər.
**Lake,** *die; -, -n* şor su, duzlu su.
**Laken,** *das; -s, -* **1.** *(Betttuch)* döşəkağı; **2.** *(Badetuch)* hamam hövləsi; kətan parça.
**lakonisch** *adj.* yığcam, qısa; sərrast.
**lallen** *vi* dili dolaşa-dolaşa danışmaq, dili topuq çalmaq.
**Lama[1],** *das; -s, -s* lama.
**Lama[2],** *der; -(s), -s* Tibet Budisminin rahibi, Lama.
**Lamelle ,** *die; -, -n* nazik vərəq.
**lamentieren** *vt* ah-nalə etmək, şikayətlənmək, sızıldamaq.
**Lametta,** *das; -s* rəngli zolaq.
**Lamm,** *das; -(e)s, -¨er* quzu, əmlik.
**Lammfleisch,** *das; -es* quzu əti.
**lammfromm** *adj.*dözümlü; sözəbaxan.
**Lampe,** *die; -, -n* lampa.
**Lampenfieber,** *das; -s* aktyorun səhnəyə çıxmadan əvvəl həyəcanı, mühüm bir hadisə ərəfəsindəki həyəcan.
**Lampenschirm,** *der; -(e)s, -e* abajur, çıraq örtüyü.
**Lampion,** *der; -s, -s* rəngli fənər, rəngli kağızdan düzəlmiş fanus.
**lancieren** *vt (e-e Nachricht)* yaymaq, açıqlamaq, ortaya atmaq.
**Land,** *das; -(e)s, -¨er* **1.** *(Boden)* torpaq, yer; *flaches ~* düzən yer, aran; **2.** *(Feld)* tarla, əkin yeri, ərazi; **3.** *(Ggs. Wasser)* quru; *ein Frosch kann auch auf dem Land leben* qurbağa quruda da yaşaya

bilər; **4.** *(Ggs. Stadt)* kənd; *vom ~e* kəndli; **5.** *(Staat)* ölkə, məmləkət, diyar; dövlət; *fremdes ~* diyari qurbət; *von ~ zu ~* diyarbədiyar, diyar-diyar; **6.** *(Bundesland)* əyalət.

**Landarbeiter,** *der; -s, -* tarla işçisi, muzdur kəndli, kənd təsərrüfatı işçisi.

**Landbesitz,** *der; -es* mülk.

**Landbesitzer,** *der; -s, -* mülkədar, torpaq sahibi.

**Landbewohner,** *der; -s, -* kəndli, kənd sakini.

**Landebahn,** *die; -, -en* uçuş-enmə zolağı *(yolu),* uçuş-enmə pisti.

**Landeerlaubnis,** *die; -, -se* yerə enmə icazəsi.

**landeinwärts** *adv.* ölkənin içinə tərəf.

**landen** *vt (aus der Luft od. Wasser)* düşürmək, endirmək; *vi* **1.** *(aus der Luft)* yerə enmək; **2.** *(Schiff)* sahilə çıxarmaq, sahilə yan almaq; *F damit kannst du bei ihr nicht ~* onu bununla tovlaya bilməzsən.

**Landenge,** *die; -, -n* boyun, bərzəx.

**Landeplatz,** *der; -es, -¨e* enmə meydançası.

**Ländereien,** *die/pl.* təsərrüfat yerləri, ərazi.

**Länderspiel,** *das; -(e)s, -e* ölkələr arası yarıs.

**Landesfarben,** *die/pl.* milli rənglər.

**Landestracht,** *die; -, -en* milli geyim.

**Landesverrat,** *der; -(e)s* vətənə xəyanət.

**Landesverteidigung,** *die; -* ölkə müdafiəsi.

**Landesverweisung,** *die; -, -en* ölkədən sürgün etmə.

**Landflucht,** *die; -* kənddən şəhərə qaçma, kənd əhalısının şəhərə axını.

**Landhaus,** *das; -es, -¨er* yaylaq.

**Landkarte,** *die; -, -n* ölkə xəritəsi.

**landläufig** *adj.* adi, çoxişlənən, tanış.

**Landleben,** *das; -s* kəndəki yaşayıs.

**ländlich** *adj.* kənd*(li)* sayağı.

**landlos** *adj.* torpaqsız, mülksüz.

**Landmann,** *der; -(e)s, -leute* kəndli.

**Landplage,** *die;-, -en* afət.

**Landregen,** *der; -s* bərk yağış.

**Landrücken,** *der; -s, -* hündürlük.

**Landschaft,** *die; -, -en* **1.** ölkə, ərazi; *flache ~* düzən, düzəngah, düzənlik; *bergige ~* dağlıq ölkə, dağlıq ərazi; *dürre ~* bozqır, çöl; **2.** mənzərə.

**landschaftlich** *adj.* **1.** *(regional)* vilayət, əyalət; **2.** mənzərəli.

**Landsmann,** *der; -(e)s, -leute* həmyerli, həmşəhərli, həmvətən, biryerli, eldaş, elli; *was für ein ~ sind Sie?* siz haralısınız?

**Landsmännin,** *die; -, -nen* həmyerli, həmşəhərli, həmvətən, eldaş *(qadın).*

**Landstraße,** *die; -, -n* şose yol, kənd yolu.

**Landstreicher,** *der; -s, -* evsiz-yurdsuz adam, avara, sərgərdan; heyvərə.

**Landstreitkräfte,** *die/pl.* quru qoşunları.

**Landstrich,** *der; -(e)s, -e* yer, zolaq.

**Landtag,** *der; -(e)s, -e* vilayət parlamenti, əyalət məclisi.

**Landung,** *die; -, -en* **1.** *(Flugzeug)* yerə enmə; **2.** *(Schiff)* sahilə yan alma, sahilə çıxartma.

**Landungssteg,** *der; -e(s) –e* taxta körpü, skelə.

**Landvermessung,** *die; -, -en* ərazı ölçmə.

**Landvolk,** *das; -(e)s* kənd əhalisi.

**Landwirt,** *der; -(e)s, -e* təsərrüfat sahibi; əkinçi, tarlaçı.

**Landwirtschaft,** *die; -* kənd təsərrüfatı, ziraət, əkinçilik.

**landwirtschaftlich** *adj.* kənd təsərrüfatı.

**Landzunge,** *die; -, -n* *geogr.* burun.

**lang** *adj.* **1.** *(räuml.)* uzun; *zwei Meter ~* iki metr uzunluğunda; **2.** *(zeitl.)* uzunmüddətli, uzunsürən; *vor ~er Zeit* uzaq keçmişdə, çoxdan; *vor nicht ~er Zeit* bu günlərdə, bir az bundan qabaq; *auf längere Zeit* uzun müddətə, uzun vaxta, uzun zamana; *fünf Jahre lang* beş il boyu, beş il ərzində; *über kurz oder ~* gec-tez, bu gün-sabah; **3.** *(person)*uzun boylu, caydaq;**4.** ..boyunca, ..uzununa;

*den Bach ~* çay boyunca; *fig. ein ~es Gesicht machen* qaşqabağını sallamaq, narazı qalmaq; *ein ~es Leben wünschen* uzun ömür arzulamaq *(arzu etmək); sich langmachen* uzanmaq.

**langärm(e)lig** *adj.* uzunqollu.

**langatmig** *adj.* uzun, davamlı, sonsuz; ətraflı, müfəssəl.

**langbeinig** *adj.* uzun, uzunayaqlı, hündürböy, bacaqlı.

**lange** *adv.* uzun müddət; uzun zaman; uzun zamandan bəri, çoxdan bəri; *wie ~?* nə müddət?, nə qədər?; *es ist ~ her* çoxdandır, müddətlərdi ki; *schon ~* artıq çoxdan; *er ist noch ~ nicht fertig* onun hələ çox işi var*; so ~ bis…* o vaxta qədər ki, … ta ki.

**Länge,** *die; -, -n* **1.** *(bei Flächen)* uzunluq, boy; **2.** *(zeitl.)* müddət, sürə; *der ~ nach* boyunca, uzununa; uzatmaq; *sich in die ~ ziehen* uzanmaq, uzun çəkmək; *in die ~ ziehen vt* uzatmaq, uzun sürmək; *von gleicher ~* boya-boy.

**langen** *vi* **1.** *(greifen)* əlini uzatmaq *(nach et./nəyəsə, bir şeyi tutmaq üçün);* **2.** *(genügen)* kifayət etmək, çatmaq, çatışmaq; *F j-m e-e ~* kiməsə birini ilişdirmək; *es langt mir* cana gəldim, kafıdır, yetər artıq.

**Längeneinheit,** *die; -, -en* uzunluq vahidi.

**Längengrad,** *der; -(e)s, -e* uzunluq dərəcəsi.

**Längenmaß,** *das; -es, -e* uzunluq ölçüsü.

**länger** *adj.* daha uzun; *~ machen vt* uzatmaq; *~ werden vi* uzanmaq; *~e Zeit* uzun müddət; *seit ~er Zeit* çoxdan.

**Langeweile,** *die;* - darıxma, ürək sıxıntısı; zəhlətökənlik *~ haben* darıxmaq.

**Langfinger,** *der; -s, - F* oğru.

**langfristig** *adj.* uzunmüddətli.

**langgestreckt** *adj.* uzanmış.

**langhaarig** *adj.* uzunsaç, uzunsaçlı.

**langjährig** *adj.* uzunömürlü, uzunillər sürən, illərlə davam edən, çoxillik, çoxyaşlı.

**Langlauf,** *der; -(e)s, -¨e* uzaq məsafəyə qaçış

**langlebig** *adj.* uzunömürlü, uzunömür sürən, çoxyaşayan.

**länglich** *adj.* uzunsov.

**Langmut,** *die; -* səbirlilik, dözümlülük.

**langmütig** *adj.* səbirli, dözümlü, hövsələli.

**Langohr,** *das; -(e)s, -en* uzunqulaq, eşşək; dovşan.

**längs** *G* ...uzununa, boyunca; *~ des Flusses* çay boyunca, çay uzunu.

**langsam** *adj.* yavaş, asta, ağırtərpənən, ləng; *adv.* anbaan, gedə-gedə, az-az; bala-bala, xırda-xırda; ehmal; *immer ~!* yavaş-yavaş!, asta-asta!; ehmalcasına, yavaşca; *~ fahren!* yavaşca sürün!; *fig. ~er fahren* özünü yormamaq; *du sollst etwas langsamer gehen, damit ich auch mitkommen kann!* ehmal*(casına)* get ki məndə gəlim!; *~er werden* yavaşlamaq.

**Langsamkeit,** *die; -* yavaşlıq, ağırlıq, ehmallıq; tənbəllik; laqeydlik.

**Langschläfer,** *-s, -* yuxucul adam, yatağan, çeştəxumar.

**Längsschnitt,** *der; -(e)s, -e* uzununa kəsik.

**längst** *adv.* çoxdan bəri, lap çoxdan; *ich weiß es ~* çoxdan bəri bunu bilirəm; *schon ~ vorbei* çoxdan keçib gedib, çoxdan qurtarıb; *der Zug ist schon ~ abgefahren* qatar çoxdan gedibdir.

**längstens** *adv. (höchstens)* ən çoxu, ...qədər, -dən/-dan artıq olmayan; *die Besprechung wird ~ zwei Stunden dauern* müzakirə ən çoxu iki saat çəkəcək; *das ist mir schon ~ bekannt* bunu artıq çoxdan bilirəm.

**langstielig** *adj.* uzundəstəli.

**Langstrecke,** *die; -, -n* uzun məsafə.

**Langstreckenflug,** *der; -(e)s, -¨e* uzun məsafəli uçuş.

**Langweile,** *die; - s. Langeweile*

**langweilen** *vt -i* darıxdırmaq, ürəyini sıxmaq; *vr sich ~* darıxmaq, ürəyi sıxılmaq, bezikmək, bıqmaq.

**Langweiler,** *der; -s, -* darıxdırıcı adam.

**langweilig** *adj.* darıxdırıcı, cansıxıcı,

monoton, cansıxan, yorucu.

**Langwelle,** *die; -, -n* uzun dalğa.

**langwierig** *adj.* uzunsürən, sürəkli.

**Lanze,** *die; -, -n* nizə-mizraq, cida; *veralt.* hərbə; *fig. für j-n e-e ~ brechen* kiməsə tərəfdar çıxmaq.

**Lanzette,** *die; -, -n* neştər.

**lapidar** *adj. (prägnant)* yığcam və ifadəli, yığcam və dəqiq; təsirli.

**Lappalie,** *die; -, -n* xırda şey, boş şey, dəyərsiz şey.

**Lappen,** *der; -s, -* **1.** silgi, cındır, əsgi; bez parçası; **2.** *F* pul; *j-m durch die ~ gehen* əkilmək, bir kəsin gözündən itmək, əlindən qaçmaq.

**läppisch** *adj. (trivial)* boş, şit, bayağı, gülünc; dadsız-duzsuz, kobud.

**Laptop,** *der; -s, -s* dizüstü bilgisayar.

**Lapsus,** *der; -, -* kiçik səhv, kiçik xəta.

**Lärche,** *die; -, -n bot.* qaraşam *(ağac).*

**Larifari,** *das; -s* mənasız söz,boş şey.

**Lärm,** *der; -s* səs-küy, hay-küy, qalmaqal, çığır-bağır, küy; *viel ~ um nichts* boş yerə hay-küy qaldırmaq *(salmaq).*

**lärmen** *vi* hay-küy salmaq, səs salmaq, çığır-bağır salmaq, hay qoparmaq; baş-beyin aparmaq.

**lärmend** *adj.* gurultulu, hay-küylü, səs-küylü, qalmaqallı.

**larmoyant** *adj.* həssas, ağlağan, nazikürəkli, sentimental.

**Lärmschutz,** *der; -es* gurultudan qoruma.

**Larve,** *die; -, -n* **1.** *zo.* sürfə, pup; **2.** maska; **3.** *fig. e-e schöne ~* çöhrəli, təhərli.

**lasch** *adj.* həvəssiz, meylsiz; bitkin, yorğun; tənbəl, disiplinsiz; dadsız; şit.

**lassen** *vt* **1.** *(bleiben lassen)* *-dən* əl çəkmək, *-i* boşlamaq, *-i* tərk etmək; **2.** *(erlauben)* ixtiyar vermək, icazə vermək;**3.***(bewirken)* *-ə* səbəb olmaq, *-i* etdirmək;**4.***(befehlen)* əmr etmək; *lass uns gehen!* gedək!; *lass mich in Ruhe!* məni dinc burax!; *lass das!* etmə!; *von sich hören ~* özündən xəbər vermək; *außer Acht ~* nəzərə almamaq, etina etməmək;*sich et. gefallen ~* bir şeyə dözmək; *im Stich ~* darda qoymaq; *ein Tier am Leben ~* bir heyvanı öldürməmək; *von et. / j-m ~* bir şeydən/ kəsdən vaz keçmək, əl çəkmək;*sich sehen ~* görünmək.

**lässig** *adj.* **1.** *(träge)* süst, tənbəl, ağırtərpənən; təpərsiz; **2.** *(leicht)* asan, rahat; *e-e Prüfung ~ bestehen* imtahanı çox asan vermək; **3.** *(ungezwungen)* sadə, təbii; *~ gekleidet* sadə geyinmək.

**Lasso,** *das; -s, -s* kəmənd.

**Last,** *die; -, -en* **1.** yük; **2.***(Gewicht)* ağırlıq; çəki; *e-e schwere ~ tragen* ağır yük daşımaq; *zu ~en G* *-in* hesabına; *zu ~en der Firma* şirkətin hesabına; *j-m zur ~ fallen* kiməsə yük olmaq; *j-m et. zur ~ legen* kimisə təqsirləndirmək.

**Laster**[1]**,** *der; -s, -* kamyon, yük maşını.

**Laster**[2]**,** *das; -s, -* əxlaqsızlıq.

**lasterhaft** *adj.* əxlaqsızlıq.

**Lästermaul,** *das; -(e)s, -¨er fig.* ağzı pis, acıdil; böhtançı, iftiraçı, ətiacı.

**lästern** *vi* **1.** pisləmək *(über j-n/-i)*; **2.** *(verleumden)* başqasına iftira demək, bir kəsi ləkələmək, öcəşmək; **3.** *rel.* küfr danışmaq.

**Lästerung,** *die; -, -en* öcəşmə; böhtan, iftira, şər, qeybət; küfr.

**lästig** *adj.* təngəgətirən, zəhlətökən, yorucu, ürəksıxan, başağrıdıcı.

**Lastkraftwagen,** *der; -s, -* kamyon, yük maşını.

**Last-Minute-Flug,** *der; -(e)s, -¨e* son dəqiqə uçuşu, ucuz qiymətlə uçma.

**Lastpferd,** *das; -s, -e* ənək, yük atı, qoşqu atı.

**Lastschiff,** *das; -(e)s, -e* yük gəmisi.

**Lastschrift,** *die; -, -en* **1.** borcun qeyd edilməsi; **2.** pulun bank hesabından alınması.

**Lastträger,** *der; -s, -* hambal.

**Lastwagen,** *der; -s, -* yük maşını.

**Lastzug,** *der; -es, -¨e* yük qatarı.

**Lasur,** *die; -, -en* şir, mina.

**lasurblau** *adj.* mavi, göy.

**lasziv** *adj.* təkəbbürlü; azğın; ədəbsiz.

**Latein,** *das; -s* latın dili; *fig. mit s-m ~ am Ende sein* çıxış yolu tapmamaq.

**Lateinamerika,** *-s* Latın Amerika.

**lateinisch** *adj.* latın; *adv.* latınca.

**latent** *adj.* gizli, gizlin; *~e Gefahr* gizli təhlükə.

**Laterne,** *die; -, -n* fənər; fanus; qəndil.

**Laternenpfahl,** *der; -(e)s, -¨e* çıraq dirəyi.

**Latrine,** *die; -, -n* ayaqyolu;zibil çalası.

**Latsche,** *die; -, -n* **1.***(Pantoffel)* ev başmağı; **2.** *bot.* dağ şam ağacı.

**latschen** *vi* ayaqları sürümək, başmaqları sürtərək yerimək.

**Latschen,** *der; -s, -* köhnə başmaq, ev ayaqqabısı; *fig. aus den ~ kippen* özündən getmək; çox təəccüblənmək.

**Latte,** *die; -, -n* **1.** uzun və nazik taxta; **2.** *F* uzundraz adam**;** **3.** planka.

**Lattenzaun,** *der; -(e)s, -¨e* taxta hasar.

**Latz,** *der; -es, -¨e* önlük, döşlük.

**lau** *adj.* **1.**ılıq; **2.** *(desinteressiert)* etinasız, laqeyd; **3.** *(mäßig)* orta; mülayim.

**Laub,** *das; -(e)s* xəzəl; yarpaq.

**Laubbaum,** *der;-(e)s, -¨e*yarpaqlı ağac.

**Laube,** *die; -, -n* çardaq, köşk, alaçıq.

**Laubenkolonie,** *die;-, -n* istirahət üçün yüngül tikintili bağ *(qəsəbə).*

**Laubfrosch,** *der; -es, -¨e* ağacqurbağası.

**Lauch,** *der; -(e)s, -e* soğan, kalış.

**Lauer,** *die; -* pusqu, güdmə; *: auf der ~ liegen/ sein* güdmək, pusmaq.

**lauern** *vt* güdmək, pusmaq.

**Lauf,** *der; -(e)s, -¨e* **1.** *(das Laufen)* yüyürmə, qaçış, yüyürüş; **2.** *(Wettlauf)* yarış, müsabiqə; **3.** *(Verlauf)* gediş, axış; boyunca, əsna; gəlişmə; **4.** *(Strömung)* axma, getmə, cərəyan; **5.** *(e-r Waffe)* lülə;**6.***(Bein)* ayaq; pəncə; *im ~e der Zeit* zaman kecdikcə, gedə-gedə, tədriclə, getdikcə; *im ~e des Monats* ay ərzində; *im ~e dieser Woche* bu həftə ərzində*; im ~ der Verhandlungen* danışıqlar zamanı; *et. (D) freien ~ lassen* qabağını almamaq, işi öz axarına buraxmaq.

**Laufbahn,** *die;, -, -en* **1.** qaçış meydanı; **2.** *(Karriere)* karyer, inkişaf yolu.

**Laufbursche,** *der; -n, -n pej.* qulluqçu; kuryer, kağız paylayan oğlan.

**laufen** *vi* **1.** *(rennen)* qaçmaq; *fig.* daban almaq; götürülmək; **2.** *(gehen)* yerimək, getmək; **3.***(fließen)* axmaq;**4.** *(Zeit)* keçmək, ötmək; **5.** *(leck sein)* sızmaq, axmaq; **6.** *(Maschine)* işləmək; **7.** *(Vertrag)* qüvvədə olmaq; davam etmək; *Gefahr ~* təhlükəyə uğramaq; *auf Grund ~* batmaq;*~ lassen* buraxmaq, azad etmək; *die Dinge ~ lassen* işləri öz başına buraxmaq, nəzarətsiz buraxmaq; *meine Nase läuft* burnum axır; *vr sich müde ~* yüyürməkdən yorulmaq, əldən düşənə kimi qaçmaq; *sich warm ~* qaçmaqdan qızışmaq;*techn.*sürtünmədən *(işləməkdən)* qızışmaq; *Na, wie läuft's ?* necəsən?, işlər necə gedir?; *lauf doch!* qaç də!, qaç görüm! .

**laufend** *adj.* **1.** yüyürən; daimi, cari; **2.** *H* cari; *~e Kosten* daimi xərclər; *der ~e Monat* bu ay; *im ~en Jahr* cari ildə, bu ildə; *auf dem Laufenden sein* işdən xəbərdar olmaq, işin içində olmaq.

**Läufer,** *der; -s, -* **1.** qaçışçı; **2.** *(Schach)* fil; **3.** *(Teppich)* ayaqaltı.

**Lauferei,** *die;-, -en* qaçışma, yürüşmə.

**Lauffeuer,** *das; -s, - : wie ein ~* süratlə; *sich wie ein ~ verbreiten* ildırım süräti ilə yayılmaq.

**läufig** *adj. (e-e Hündin)* cütləşməyə hazır olan qancıq it; qızğın, kürsək.

**Laufmasche,** *die; -, -n (in e-m Strumpf)* ilməyi qaçmış.

**Laufpass,** *der; -es, -¨e j-m den ~ geben* kimisə işdən çıxarmaq; ayrılmaq.

**Laufschritt,** *der; -(e)s, -e : im ~* sürətli addım.

**Laufsteg,** *der; -(e)s, -e* yüksək yer; taxta pillə, podyum.

**Laufwerk,** *das; -(e)s, -e tech.* işləkmexanizm; *EDV (disket)* işlədici.

**Laufzeit,** *die; -, -en* müddət, zaman, vaxt, sürə.

**Lauge,** *die; -, -n* torta; qələvi.

**laugen** *vt* qələvidə yumaq.

**Lauheit,** *die; -* ılıqlıq; *fig.* qərarsızlıq.

**Laune,** *die; -, -n* əhval, kef, damaq; *guter ~* kefi kök, damağı saz; *schlechte ~ haben* kefi pis olmaq, damaqsız olmaq.

**launenhaft** *adj.* şıltaq*(çı),* tərs, inadcıl, bədməzac, ədabaz.

**launig** *adj.* şad, şən, zarafatçı.

**launisch** *adj.* şıltaq, ağırxasiyyət, cırtqoz; dəmdəməki, ədabaz.

**Laus,** *die; -, -¨e* bit; *(Kinderspr.)* cücü.

**Lausbub(e),** *der; -en, -en* nadinc uşaq, şuluq uşaq, dəcəl.

**Lauschangriff,** *der; -s, -e* şübhəli adamların telefon danışıqlarına qulaq vermə.

**lauschen** *vt* qulaq asmaq, qulaq vermək; gizlicə qulaq asmaq.

**Lauscher,** *der; -s, -* **1.** çuğul; **2.** qulaq.

**lauschig** *adj. (Ort)* sakit, dinc, aram; gizli.

**lausen** *vt* bitləmək; *sich ~* bitlənmək.

**lausig** *adj.* bitli, bit basmış; çox, bərk; *es ist ~ kalt* hava bərk soyuqdur.

**laut**[1] *adj.* **1.** *(Stimme)* uca, bərk, gur; *~ sprechen* uca danışmaq; **2.** *(lärmend)* səs-küylü, gurultulu; *seid nicht so ~!* səs-küy salmayın!; **3.** *~ werden* yayılmaq, məşhur olmaq; *adv.* bərkdən; *mit ~er Stimme*uca səslə, ucadan, bərkdən.

**laut**[2] *präp. D (gemäß)* ..görə, ..əsasən, ..müvafiq olaraq; *~ dem Bericht* məlumata əsasən; *~ dem Gesetz* qanuna görə; *~ Presse* mətbuatın yazdığına görə.

**Laut,** *der; -(e)s, -e* səs, gurultu, ton.

**Laute,** *die; -, -n mus.* ud.

**lauten** *vi* **1.** *(Text)* deyilmək, belə olmaq; *die Antwort lautet* cavab belədir, cavabda belə deyilir; **2.***(wirken, klingen) fig.* təsir etmək, səslənmək.

**läuten** *vt* zəng çalmaq; *vi* zəng çalınmaq; *es läutet!* zəng çalınır!.

**lauter** *adj.* **1.** *(nur, nichts als)* tamam, başdan-ayağa, ancaq; *vor ~ Angst* tam qorxudan; **2.** *(rein)* əsil, saf, həqiqi, başdan-başa; *lautes Gold* əsil qızıl.

**läutern** *vt* təmizləmək, saflaşdırmaq.

**Läuterung,** *die; -* saflaşdırma, təmizləmə.

**Lautgesetz,** *das; -es, -e gr.* fonetik*(a)* qaydası, səs qanunu.

**lauthals** *adv.* bərk səslə, uca səslə.

**Lautlehre,** *die; - gr.* fonetik*(a).*

**lautlos** *adj.* səssiz, sakit; qalmaqalsız.

**Lautlosigkeit,** *die; -* sessizlik, sakitlik

**Lautmalerei,** *die; -* səs təqlidi.

**Lautschrift,** *die; -* fonetik yazı.

**Lautsprecher,** *der; -s, -* səsucaldan cihazı, mikrofon.

**lautstark** *adj.* gurultulu, səs-küylü, uca; *er verkündete ~ ...* uca bir səslə dedi ki..., uca bir səslə elan etdi ki…

**Lautstärke,** *die; -, -n* səs ucalığı, səs şiddəti *(qüvvəti, gücü).*

**Lautverschiebung,** *die; -, -en* səs dəyişikliyi.

**lauwarm** *adj.* ılıq, ılıqsayaq.

**Lava,** *die; -* lava.

**lavieren** *vt fig.* öz istəyini irəli sürmək; məharətlə çətinliklərə qələbə çalmaq.

**Lawine,** *die; -, -n* qar uçqunu.

**lax** *adj.* **1.** *(lasch)* süst, həvəssiz, meylsiz, laqeyd; **2.** *(Moral)* pozğun; *~e Sitten* pozğun adətlər.

**Layout,** *das; -s, -s* səhifəni lazımi forma salma.

**Lazarett,** *das; -s, -e* hərbi xəstəxana.

**Lebemann,** *der; -(e)s, -¨er* kefcil adam, əyyaş, əhlikef adam.

**leben** *vi* **1.** yaşamaq, dolanmaq; **2.** *(am Leben sein)* həyatda olmaq; **3.** *(wohnen)* oturmaq; **4.***(von et.)* hər hansı bir vasitə ilə yaşamaq; *ich lebe von meiner Rente* mən təqaüdümdən dolanıram; *für et. ~* bir şeyin xatirinə yaşamaq; *es lebe..* yaşasın; *von der Hand in den Mund leben* bu günündən sabahına yaşamaq, tapdığını yemək; *in den Tag hineinleben* qayğısız yaşamaq; arsız olmaq; *in Saus und Braus ~* kef içində yaşamaq; *lebe wohl!* əlvida!, sağlıqla qalın!

**Leben,** *das; -s, -* **1.** həyat, yaşayış, yaşam; tale; can; **2.** *(Lebenszeit)* ömür; *am ~ bleiben* sağ *(diri)*qalmaq; *sich das ~ nehmen* özünü öldürmək; *ums ~ kommen* həlak olmaq; *mein ~ lang* ömrüm boyu; *ins ~ rufen* bünövrəsini qoymaq, yaratmaq; *~ in die Bude bringen* canlandırmaq; *sein ~ riskieren* həyatını təhlükəyə atmaq; *das ~ genießen* həyatdan həzz almaq.

**lebend** *adj.* diri, canlı; *~e Sprache* canlı dil.

**lebendig** *adj.* **1.** *(lebhaft)* şən, diribaş, dimdiri, dirigöz; *F* hallı; **2.** *(am Leben)* sağ, diri, diri-diri; **3.** *(wirksam)* canlı, təsirli; *~ machen* canlatmaq, canlandırmaq, diriltmək.

**Lebensabend,** *der; -s* ömrün sonu, ömrün payızı.

**Lebensart,** *die; -* yaşam tərzi, həyat tərzi, dolanış.

**Lebensauffassung,** *die; -, -en* həyat fəlsəfəsi.

**Lebensbedingungen,** *die/pl.* yaşayış şəraiti *pl.*

**Lebensbedürfnisse,** *das/pl.* həyat tələbatı *pl.* .

**Lebensdauer,** *die; -* **1.** ömür uzunluğu, ömür müddəti, həyat davamı; **2.** *techn.* işlənmə müddəti.

**Lebenserfahrung,** *die; -, -en* həyat təcrübəsi.

**Lebenserwartung,** *die; -* ömür.

**lebensfähig** *adj.* yaşamağa qabil, həyat qabiliyyəti olan.

**Lebensfreude,** *die; -* yaşam sevinci.

**Lebensgefahr,** *die; -* həyat üçüçn təhlükə.

**lebensgefährlich** *adj.* həyat üçün təhlükəli.

**Lebensgefährte,** *der; -n, -n* həyat yoldaşı, ər.

**Lebensgefährtin,** *die; -, -nen* həyat yoldaşı, arvad.

**Lebensgemeinschaft,** *die; -, -en* birgə yaşayış, birlikdə yaşama; ər-arvadlıq.

**Lebenshaltungskosten,** *die/pl.* gündəlik xərclər, yaşam xərcləri *pl.* .

**Lebensjahr,** *das; -(e)s, -e* yaş, ömrün bir ili.

**Lebenskraft,** *die; -* yaşam gücü.

**lebenslang** *adj.* ömür boyu.

**lebenslänglich** *adj.* ömürlük, ömür boyu, əbədi; *~e Freiheitsstrafe* ömürlük həbs cəzası, həbsi əbəd.

**Lebenslauf,** *der; -(e)s, -¨e* tərcümeyihal, bioqrafi, yaşam hekayəsi.

**lebenslustig** *adj.* yaşamsevər; gülərüzlü.

**Lebensmittel,** *das/pl.* yeyinti, ərzaq, azuqə, qida maddələri.

**Lebensmittelgeschäft,** *das; -(e)s, -e* baqqal, ərzaq mağazası.

**lebensmüde** *adj.* canından bezmiş, həyatdan doymuş.

**lebensnotwendig** *adj.* həyat üçün gərəkli, həyat üçün lazım.

**Lebensqualität,** *die; -* həyat keyfiyyəti.

**Lebensraum,** *der; -(e)s, -¨e* həyat sahəsi.

**Lebensretter,** *der; -s, -* *adj.* canqurtaran, canqurtarıcı.

**Lebensstandard,** *der; -s, -s* həyat səviyyəsi, güzəran səviyyəsi, həyat tərzi.

**Lebensunterhalt,** *der; -(e)s* ruzi, çörək pulu, yaşamaq üçün vəsait, keçinəcək, güzəran, dolanacaq; *s-n ~ verdienen* gündəlik çörək pulunu qazanmaq.

**Lebensversicherung,** *die; -, -en* həyatını sığorta etmə.

**Lebenswandel,** *der; -s* həyat tərzi, rəftar.

**Lebensweg,** *der; -(e)s, -e* həyat.

**Lebensweise,** *die; -, -n* həyat tərzi; dolanış.

**Lebenswerk,** *das; -(e)s, -e* həyat yaradıcılığı.

**lebenswichtig** *adj.* həyati, çox mühüm, olduqca vacib, zəruri, həyatverici.

**Lebenswille,** *der; -ns, -n* yaşama iradəsi.

**Lebenszeichen,** *das; -s, -* **1.** həyat əlaməti, yaşayış nişanəsi; **2.** *fig.* xəbər, xəbər-ətər; *der Verletzte gibt kein ~ mehr von sich* yaralı daha heç bir həyat əlaməti göstərmir.

**Lebenszeit,** *die; -, -* ömürlük, həyat müddəti; *auf ~* ömürlük, həmişəlik.

**Leber,** *die; -, -n* qara ciyər; *frei von der ~ weg sprechen* açıq danışmaq, sözün düzünü demək.

**Leberfleck,** *der; -(e)s, -e* ciyər ləkəsi.

**leberkrank** *adj.* qara ciyər xəstəliyi olan.

**Lebertran,** *der; -s* balıq yağı.

**Lebewesen,** *das; -s, -* canlı*(lar),* məxluq, varlıq, canlı orqanizm.
**Lebewohl,** *das; -s* vidalaşma; *~ sagen* vidalaşmaq *(D/- bir kəslə).*
**lebhaft** *adj.* canlı, ruhlu, qızğın, diribaş, dimdiri; coşqun; dəli-dolu, dipdiri; *e-e ~e Straße* hayküylü küçə, səs-səmirli küçə; *~es Kind* diribaş uşaq.
**leblos** *adj.* cansız, ölü.
**Lebzeiten,** *die/pl. : zu ~ G, bei ~ G* ..sağlığında; *zu ~ meiner Mutter* anamın sağlığında.
**lechzen** *vi (nach et.)* bir şeyin həsrətini çəkmək, bir şeyin təşnəsi olmaq, arzulamaq, nəyəsə susamaq.
**Leck,** *das; -(e)s, -s od. -e* çatdaq, yarıntı, dəlik.
**leck** *adj.* çatlamış, dəlmə-deşik.
**lecken[1]** *vi* sızmaq; su buraxmaq.
**lecken[2]** *vt* yalamaq; *(vulgär) leck mich!* götümü yala!, sikdir!.
**lecker** *adj.* dadlı, ləzzətli, iştaha açan.
**Leckerbissen,** *der; -s, -* dadlı tikə, dadlı yemək.
**Leckermaul,** *das; -(e)s, -¨er* şirniyyat sevən.
**Leder,** *das; -s* **1.** dəri, meşin, gön; *aus ~* dəridən, meşindən; **2.** *(Fußball)* futbol topu.
**Lederhandel,** *der; -s* dəri alveri.
**Lederhändler,** *der; -s, -* dəri alverçisi, gönçü.
**Lederhose,** *die; -, -n* dəri şalvar.
**Lederimitation,** *die; -, -en* süni dəri.
**ledern** *adj.* dəridən, dəridən qayrılmış.
**Lederwaren,** *die/pl.* dəri malları *pl.*
**ledig** *adj. (unverheiratet)* subay, evlənməmiş;*(unbenutzt)* azad, özgür, istifadə olunmamış; *s-r Verantwortung ~ sein* məsuliyyətindən azad olmaq.
**lediglich** *adv.* ancaq, yalnız, tək.
**Lee,** *die; - (Windschatten)* külək tutmayan tərəf, küləksiz tərəf.
**leer** *adj.* boş, içiboş; *~es Gerede* boş sözlər; *den Teller ~ essen* yeyib qurtarmaq; *~ stehen (Wohnung)* boş olmaq *(durmaq),* boş qalmaq; *~e Behauptung* yersiz iddia; *~ werden* boşalmaq.
**Leere,** *die; -* boşluq, boş yer; heçlik; *ins ~ gehen* boşa çıxmaq.
**leeren** *vt* boşaltmaq; *vr sich ~* boşalmaq.
**Leerlauf,** *der; -(e)s* boş*(una)* işləmə, boş gediş.
**leerstehend** *adj. (Haus)* boş.
**Leerung,** *die; -, -en* boşaltma.
**Lefze,** *die; -, -n* itin dodaqları.
**legal** *adj.* qanuni, məşru, leqal, açıq, qanunauyğun, azad; ələni.
**legalisieren** *vt* qanuniləşdirmək.
**Legalität,** *die; -* qanunilik, leqallıq.
**Legat[1],** *das; -(e)s, -e jur.* vəsiyyət.
**Legat[2],** *der; -en, -en* elçi, səfir.
**Legation,** *die; -, -en* elçilik.
**legen** *vt* **1.** qoymaq, uzandırmaq; **2.** *(Eier)* yumurtlamaq; **3.** *(Teppich usw.)* döşəmək; *vr sich ~* 1. uzanmaq; 2. *(Sturm)* sakitləşmək, yatmaq; 3. *(auf et.)* bir şeylə bərk məşğul olmaq; *Feuer ~* od vurmaq; *Geld beiseite ~* pul yığmaq; *Karten ~* fala baxmaq; *ins Bett ~* yatırtmaq; *Hand an et. ~* bir şeyə əl qoymaq.
**legendär** *adj.* əfsanəvi; inanılmaz.
**Legende,** *die; -, -n* əfsanə.
**legendenhaft** *adj.* əfsanəvi.
**leger** *adj.* rahat; yüngül, səthi; azad.
**legieren** *vt* **1.** iki metalı əridib bitişdirmək; **2.** *(Kochkunst)* qəlizləşdirmək.
**Legion,** *die; -, -en* **1.** legion; **2.** *(Menge)* çoxlu, külli miqdar.
**Legionär,** *der; -s, -e* legiyon əsgəri.
**Legislative,** *die; -, -n* qanunverici orqan.
**Legislaturperiode,** *die; -, -n* parlamentin qanunvericilik müddəti.
**legitim** *adj.* qanuni, məşru, yasal.
**Legitimation,** *die; -, -en* **1.** *allg.* məşruiyyət, qanuna salma; **2.** *jur.* şəxsi vəsiqə, kimlik vəsiqəsi.
**legitimieren** *vt* **1.** qanuniləşdirmək; **2.** bir kəsin şəxsiyyətini təsdiq etmək.
**Legitimität,** *die; -* qanunilik.
**Lehen,** *das; -s, - hist.* tiyul əmlakı.
**Leh(e)nwesen,** *das; -s* feodalizm, iri torpaq mülkiyyəti.
**Lehm,** *der; -s* gil, palçıq, çamır; *(ver-*

*mischt mit Ziegenhaar)* bad.

**Lehmboden,** *der; -s, -¨* gilli torpaq, palçıqlı torpaq.

**lehmig** *adj.* gilli, palçıqlı.

**Lehne,** *die; -, -n* söykənəcək; dirsəklik.

**lehnen** *vt* dayamaq, söykəmək *(an, gegen A/-ə); vi* dayanmaq; *vr sich ~* dayanmaq, söykənmək *(auf A/-ə).*

**Lehnstuhl,** *der; -(e)s, -¨e* qoltuqlu səndəl.

**Lehnwort,** *das; -(e)s, -¨er* alınma söz.

**Lehramt,** *das; -(e)s, -¨er* müəllimlik vəzifəsi.

**Lehranstalt,** *die; -, -en* təhsil ocağı.

**Lehrbuch,** *das; -(e)s, -¨er* dərslik.

**Lehre,** *die; -, -n* **1.** *(Berufsausbildung)* ixtisas təhsili; **2.** *(Doktrin)* nəzəriyyə; **3.** *(Erfahrung)* ibrət, dərs, ibrət dərsi; *e-e ~ aus et. ziehen* bir şeydən ibrət götürmək; *das wird ihm e-e ~ sein* bu ona bir dərs olacaq *(ibrət dərsi olacaq)*; **4.** *(Rat)* öyüd, nəsihət; *die ~ erteilen* öyüd *(nəsihət)* vermək; **5.** *(Muster)* nümunə, model, ülgü.

**lehren** *vt* öyrətmək, dərs vermək *(j-n et./ bir kəsə).*

**Lehrer,** *der; -s, -* müəllim.

**Lehrerin,** *die; -, -nen* müəllimə.

**Lehrerkollegium,** *das; -s, -ien* müəllim heyəti.

**Lehrerschaft,** *die; -* müəllim heyəti.

**Lehrerzimmer,** *das; -s, -* müəllimlər otağı.

**Lehrfach,** *das; -(e)s -¨er* tədris fənni.

**Lehrgang,** *der; -(e)s, -¨e* tədris kursu.

**Lehrgeld,** *das; -(e)s, -er* təhsilhaqqı *(pulu)*; *fig. ~ zahlen* zərərini çəkmək.

**lehrhaft** *adj.* *(belehrend)* ibrətverici, ibrətli.

**Lehrjahre,** *das/pl.* dərs ili.

**Lehrkörper,** *der; -s, -* müəllimlər heyəti, pedaqoji kollektiv.

**Lehrkraft,** *die;-,-¨e* müəllim, pedaqoq.

**Lehrling,** *der; -s, -e* öyrənci, şəyird.

**Lehrmeister,** *der; -s, -* usta.

**Lehrmethode,** *die; -, -n* öyrətmə üsulu *(metodu),* tədris üsulu.

**Lehrplan,** *der; -(e)s, -¨e* dərs proqramı

**lehrreich** *adj.* ibrətli, ibrətverici; *fig.* hikmətli.

**Lehrsatz,** *der; -es, -¨e* **1.** *math.* teorem; **2.** *(Doktrin)* elmi nəzəriyyə; tezis.

**Lehrstelle,** *die; -, -n* ixtisas təhsili alınan yer.

**Lehrstuhl,** *der; -(e)s, -¨e* kafedra, universitet kürsüsü, professorluq.

**Lehrvertrag,** *der; -(e)s, -¨e* şagirdlik müqaviləsi.

**Lehrzeit,** *die; -, -en* tədris müddəti.

**Leib,** *der; -es, -er* **1.** bədən, gövdə; vücud; can; əyin; **2.** *(Bauch)* qarın; *et. am eigenen ~ erfahren* başına gəlmək, öz üstündə sınamaq, bir şeyi təcrübə etmək; *mit ~ und Seele* canla-başla; *bei lebendigem ~e* diri-diri; *sich j-n vom ~e halten* kimisə yaxına buraxmamaq.

**Leibarzt,** *der; -es, -¨e* şəxsi həkim.

**Leibbinde,** *die; -, -n* bel sarğısı, bel bağı.

**Leibeigene(r),** *der u. die; -n, -n* *hist.* təhkimçi, qul.

**Leibeskräfte,** *die/pl.* bədən gücü, fiziki güc; *aus ~n* var gücü ilə.

**Leibesübung,** *die; -, -en* idman məşğələsi, gimnastik*.*

**Leibesvisitation,** *die; -, -en* bədən axtarışı.

**Leibgarde,** *die; -, -n* qoruyucu.

**Leibgericht,** *das; -(e)s, -e* əziz xörək.

**leibhaft(ig)** *adj.* həqiqi, cismani; diri.

**leiblich** *adj.* **1.** cismani, bədəni; **2.** *(blutsverwandt)* doğma; *~er Bruder* doğma qardaş.

**Leibrente,** *die; -, -n* ömürlük pensiya *(təqaüd).*

**Leibschmerzen,** *der/pl.* qarınağrısı, qarınsancısı.

**Leibwache,** *die; -, -n* şəxsi mühafizə.

**Leibwächter** qorucu, mühafizəçi.

**Milz,** *die; -, -en an.* dalaq.
**Milzbrand,** *der; -es med.* qarayara.
**Mime,** *der; -n, -n* aktyor, mimikaçı.
**Mimik,** *die; -* mimik*(a).*
**mimisch** *adj.* mimiki.
**Mimose,** *die; -, -n bot.* mimoza, küsdüm ağacı; *fig.* tezinciyən, dəymədüşər.
**Minarett,** *das; -s, -s u. -e* minarə, güldəstə.
**minder** *adj.* daha az, daha kiçik, daha əhəmiyyətsiz.
**minderbelastet** *adj. jur.* nisbətən az günahı olan, azgünahlı .
**minderbemittelt** *adj.* pis təmin olunmuş, az gəlirli.
**Minderheit,** *die; -, -en* azlıq.
**Minderheitsregierung** *die; -, -en* azlıq hökuməti.
**minderjährig** *adj.* azyaşlı, çağa, həddi-büluğa çatmamış; *F* sütül.
**mindern** *vt* azaltmaq, əskiltmək, ixti-

sar etmək; aşağı salmaq.

**Minderung,** *die; -, -en* azalma, azaltma, əskilmə.

**minderwertig** *adj.* keyfiyyətsiz, pis keyfiyyətli, azdəyərli, qabiliyyətsiz, dəyərsiz, həqir; *fig.* alçaq, xor, ədna, alçaqcasına; *für ~ halten* xor baxmaq.

**Minderwertigkeit,** *die; -* keyfiyyətsizlik, az dəyərlilik, dəyərsizlik, həqirlik.

**Minderwertigkeitskomplex,** *der;-es, -e* azdəyərlilik *(əskiklik)* kompleksi *(Süd. : azdəyərlilik/ həqarət hissi).*

**mindest** *adj.* ən az, ən kiçik; *nicht im ~en* heç, əsla.

**Mindestalter,** *das; -s* ən kiçik yaş, ən aşağı sinn.

**mindestens** *adv.* heç olmazsa; *veralt.* əqəllən, laəqəl*(lən);* ən az, azı; *er ist ~ 10 Jahre alt* onun ən az on yaşı var.

**Mindestbetrag,** *der; -(e)s, -¨e* cüzi məbləğ.

**Mindestgeschwindigkeit,** *die; -, -en* ən aşağı sürət, ən az sürət.

**Mindestlohn,** *der; -(e)s, -¨e* ən aşağı muzd, ən aşağı əməkhaqqı.

**Mindestmaß,** *das; -es, -e* minimal, minimum, aşağı hədd.

**Mine,** *die; -, -n* **1.** *mil.* min*(a);* **2.** *(Bergwerk)* mədən, mədən ocağı.

**Minenleger,** *der; -s, - naut.* minadüzən gəmi.

**Minensuchboot,** *das; -(e)s, -e* minaaxtaran qayıq.

**Minenwerfer,** *der; -s, -* minaatan gəmi.

**Mineral,** *das; -s, -e u. -ien* mineral, mədən.

**mineralisch** *adj.* mədəni, mineral.

**Mineralog(e),** *der; -n , -n* mineraloq.

**Mineralogie,** *die; -* mineralogiya *(Süd. : mineraloji)*, minerallardan bəhs edən elm.

**Mineralöl,** *das; -(e)s, -e* mineral yağı.

**Mineralquelle,** *die; -, -n* mineral bulaq.

**Mineralwasser,** *das; -s, -* mədən suyu.

**Miniatur,** *die; -, -en* miniatür.

**Miniaturmalerei,** *die; -, -en* miniatür rəssamlığı.

**Minigolf,** *das; -(e)s* mini qolf.

**minimal** *adj.* çox az, ən az.

**Minirock,** *der; -(e)s, -¨e* qısa ətək.

**Minimum,** *das; -s, -ma* minimum, ən az miqdar.

**Minister,** *der; -s, -* nazir, vəzir.

**Ministeramt,** *das; -(e)s, -¨er* nazir vəzifəsi.

**Ministerialbeamte(r),** *der; -n, -n* nazirlik məmuru, nazirlik qulluqçusu.

**ministeriell** *adj.* nazirlik.

**Ministerium,** *das; -s, -rien* nazirlik.

**Ministerpräsident,** *der; -en, -en* baş nazir.

**Ministerrat,** *der; -(e)s, -¨e* nazirlər şurası.

**Ministrant,** *der; -en, -en* keşişin köməkçisi.

**Minne,** *die; - poet.* sevgi, eşq.

**Minorität,** *die; -, -en* azlıq.

**Minuend,** *der; -en, -en math.* azalan ədəd.

**minus** *konj.* **1.** *math.* minus; **2.** *phys.* mənfi; *adv. 5 Grad ~* minus beş dərəcə *(sıfırdan aşağı).*

**Minus,** *das; -* əski; zərər; borc; *~ machen* zərər etmək; *im ~ sein* borclu olmaq.

**Minuspol,** *der; -s, -e* mənfi elektrod *(Süd. : mənfi qütb).*

**Minuszeichen,** *das; -s, -* minus əlaməti.

**Minute,** *die; -, -n* dəqiqə; *auf die ~ genau* dəqiqəsinə qədər, dəqiqəsi dəqiqəsinə; *in letzter ~* son dəqiqədə; *jede ~* dəqiqə-dəqiqə, dəqiqəbaşı.

**minutenlang** *adj.* dəqiqələrcə, neçə dəqiqə sürən.

**Minutenzeiger,** *der; -s, -* dəqiqəgöstərən, dəqiqə əqrəbi.

**minutiös** *adj. (sehr genau)* çox dəqiq, müfəssəl surətdə, diqqətli.

**minuziös** *adj. s. minutiös.*

**Minze,** *die; -, -n* nanə.

**mir** *(D)* mənə, özümə; *von ~* məndən; *sag ~!* mənə de! *von ~ aus* necə istəyirsiniz; *wie du ~, so ich dir* necə sən mənə, eləcə də mən sənə, gözə göz-dişə diş; *mit ~* mənimlə; *von mir* məndən.

**Mirabelle,** *die; -, -n* sarı gavalı, sarı ərik.

**Mirakel,** *das; -s, -* möcüzə.

**Misanthrop,** *der; -en, -en* insan düşməni.

**Mischehe,** *die; -, -n* bir dindən və ya irqdən olmayanlar arasında nikah, qarışıq nikah.

**mischen** *vt* qarışdırmaq, qatmaq; *vr sich ~* qarışmaq, qatışmaq *(in A/-ə); sich in ein Gespräch ~* söhbətə qatışmaq *(qarışmaq).*

**Mischling,** *der; -s, -e* mələz, dürək.

**Mischmasch,** *der; -(e)s, -e* qatmaqarışıq; *fig.* hərc-mərclik, qarışıqlıq.

**Mischmaschine,** *die; -, -n* qatışdıran maşın, qarışdırıcı maşın.

**Mischung,** *die; -, -en* **1.** qarışdırma; aşqar; **2.** *(Metallmischung)* qarışıq.

**miserabel** *adj.* çox pis, fəlakət, yazıq ; müsibətli, səfil.

**Misere,** *die; -, -n* yoxsulluq, bədbəxtlik, səfalət; dərd, ağır vəziyyət.

**Mispel,** *die; -, -n bot.* əzgil.

**missachten** *vt* **1.** *(j-n)* bir kəsə hörmət etməmək, saymamaq, barmaqarası baxmaq; **2.** *(et.)* riayət etməmək, diqqət yetirməmək, nəzərə almamaq; *fig.* əl uzaltmaq; **3.** *(verachten)* nifrət etmək, xor baxmaq, zəhləsi getmək, xoşu gəlməmək.

**Missachtung,** *die; -* hörmətsizlik, ehtiramsızlıq, etinasızlıq, laqeydlik; nifrət.

**Missbehagen,** *das; -s* narazılıq, dilxorluq.

**Missbildung,** *die; -, -en* eybəcərlik.

**missbilligen** *vt* **1.** bəyənməmək; **2.** *(tadeln)* danlamaq, qınamaq; pisləmək.

**Missbrauch,** *der; -* sui-istifadə; xəyanət; zorlama.

**missbrauchen** *vt* **1.** sui-istifadə etmək; **2.** *(vergewaltigen)* zorlamaq, namusuna təcavüz etmək, adam zorlamaq; **3.** *(falsch anwenden)* yanlış istifadə etmək.

**missbräuchlich** *adj.* yersiz, qanunsuz.

**missdeuten** *vt* səhv başa salmaq, ikimənalı qələmə vermək, düzgün izah etməmək, yanlış yozdurmaq *(yormaq).*

**missen** *vt* bir şeydən məhrum olmaq, bir şeysiz keçinmək.

**Misserfolg,** *der; -(e)s, -e* uğursuzluq, müvəffəqiyyətsizlik, pis gətirmə, başarısızlıq; aqibətsizlik; *e-n ~ haben* uğursuz olmaq, pis gətirmək.

**Missernte,** *die; -, -n* qıtlıq, məhsulsuzluq.

**Missetat,** *die; -, -en* pis əməl, təqsir, günah; cinayət, mərdimazarlıq, xəbislik.

**Missetäter,** *der; -s, -* **1.** təqsirkar, günahkar; **2.** *(Verbrecher)* cani, cinayətkar.

**missfallen** *vt D* xoşa gəlməmək; *sein Benehmen missfällt mir* onun rəftarı xoşuma gəlmir.

**Missfallen,** *das; -s* narazılıq; anlaşılmazlıq; *j-s ~ erregen* bir kəsin narazılığına səbəb olmaq.

**missfällig** *adj.* xoşagəlməyən, iyrənci; narazı.

**Missgeburt,** *die; -, -en* eybəcər, qorxunc görünüşlü.

**Missgeschick,** *das; -(e)s, -e* **1.** fəlakət, bədbəxtlik, qada; **2.** *(Pech)* bəxti gətirməmək, müvəffəqiyyətsizlik, talesizlik.

**Missgestalt,** *die; -, -en* eybəcərlik, kifirlik.

**missgestaltet** *adj.* biçimsiz, eybəcər.

**missgestimmt** *adj.* narazı; əhvalsız.

**missglücken** *vi* baş tutmamaq, uğursuz qalmaq, boşa getmək.

**missgönnen** *vt* paxıllıq etmək, qısqanmaq, həsəd aparmaq, əsirgəmək *(j-m et./kiməsə, nədəsə).*

**Missgriff,** *der; -(e)s, -e* yanılma, səhv.

**Missgunst,** *die; -* paxıllıq, qısqanclıq; qibtə, həsəd, bədxahlıq.

**missgünstig** *adj.* paxıl, bədxah.

**misshandeln** *vt* kobud rəftar etmək, amansız rəftar etmək *(j-n/bir kəs ilə).*

**Misshandlung,** *die; -, -en* amansız rəftar; ələ salma, təhqir, lağa qoyma.

**Misshelligkeit,** *die; -, -en* anlaşılmazlıq, çəkişmə, dolaşıqlıq.

**Mission,** *die; -, -en* **1.** *(Aufgabe)* missiya, misyon, vəzifə, tapşırıq; **2.** *pol.* el-

çilik, nümayəndəlik, ezamiyyət; **3.** *rel.* dini təbliğat.

**Missionar,** *der; -s, -e* misyoner, xüsusi tapşırıq yerinə yetirən adam.

**Missklang,** *der; -(e)s, -¨e* **1.** pozğunluq, ahəngsizlik, səslərdə uyğunsuzluq; **2.** *fig. (Unstimmigkeit)* ixtilaf.

**Misskredit,** *der; -(e)s : in ~ geraten, in ~ kommen vi* etibardan düşmək, etibarını itirmək; *in ~ bringen vt* etibardan salmaq, nüfuzdan salmaq.

**misslang** *s. misslingen.*

**misslich** *adj.* çətin, zəhmətli, qarışıq.

**missliebig** *adj.* sevilməyən, sevilməz; *sich bei j-m ~ machen* bir kəsin gözündən düşmək.

**misslingen** *vi* müvəffəq olmamaq, baş tutmamaq, nəticə verməmək; aqibətsizlik; *der Versuch misslang ihm* təşəbbüsü baş tutmadı, müvəffəq olmadı; *mißlungen* nəticəsiz, aqibətsiz.

**Missmut,** *der; -(e)s* pərtlik, narazılıq.

**missmutig** *adj.* pərt, narazı, qaşqabaqlı, üzügülməz.

**missraten** *vi* **1.** baş tutmamaq, qismət olmamaq; **2.** *fig. (Kind)* tərbiyəsiz, ədəbsiz.

**Mis(s)stand,** *der; -(e)s, -¨e* çatmamazlıq, nöqsan, pozğunluq, çatışmazlıq, qüsur.

**Misston,** *der; -(e)s, -¨e* **1.** yanlış not; **2.** *fig. (Misstimmung)* ixtilaf.

**misstrauen** *vi D* inanmamaq, etibar etməmək.

**Misstrauen,** *das; -* inamsızlıq, etibarsızlıq, etimadsızlıq; *j-s ~ erregen* bir kəsi şübhəyə salmaq.

**Misstrauensvotum,** *das; -s, -ten u. -ta* etimadsızlıq rəyi *(votumu).*

**misstrauisch** *adj.* inamsız, şübhəli, ehtiyatlı; etimadsız; *~ sein* gümana düşmək, dumruxmaq; ehtiyatlanmaq.

**missvergnügt** *adj.* narazı,dilxor olmuş.

**Missverhältnis,** *das; -ses, -se* uyğunsuzluq, qeyri-mütənasiblik.

**missverständlich** *adj.* anlaşılmazlıq, ixtilaf yaradan.

**Missverständnis,** *das; -ses, -se* anlaşılmazlıq, səhv, çəkişmə.

**missverstehen** *vt* yanlış başa düşmək, səhv anlamaq.

**Misswirtschaft,** *die; -* təsərrüfatsızlıq, pis idarə etmə, pis dolandırma.

**Mist,** *der; -es (Tierkot)* peyin, gübrə; *F* dəyərsiz şey,zibil; *so ein ~!* lənətə gələsən!

**Mistel,** *die; -, -n bot.* bağambürc.

**misten** *vt* peyinləmək, gübrələmək.

**Mistgabel,** *die; -, -n* dəmir yaba.

**Misthaufen,** *der; -s, -* peyin qalağı.

**Mistkäfer,** *der; -s, -* peyin böcəyi.

**Mistkerl,** *der; -s, -e* əclaf, pis adam.

**Miststück,** *das; -(e)s, -e F* zatıqırıq, pis, əskik adam, əclaf.

**mit** *präp. D* ..ilə, birlikdə, bir yerdə; *~ Gewalt* zorla; *~ e-m Wort* bir sözlə; *~ dem Geld* pul ilə;*~ der Zeit* tədricən, getdikcə; *~ Absicht* bilə-bilə; *was ist ~ dir los?* sənə nə olub?; *fig. da komme ich nicht ~* başa düşmürəm; *adv. (ebenfalls)* həmçinin, ..də, ..da; *~ dabei sein* həmçinin iştirak etmək, aralarında olmaq.

**Mitangeklagte(r),** *der; -n, -n* eyni iş üçün təqsirləndirilən.

**Mitarbeit,** *die; -* əməkdaşlıq, həmkarlıq; kömək; *untert ~ von -in* əməkdaşlığı ilə.

**mitarbeiten** *vt* əməkdaşlıq etmək, bir yerdə işləmək.

**Mitarbeiter,** *der; -s, -* əməkdaş, iş yoldaşı.

**mitbekommen** *vt* **1.** *(et. bekommen)* bir şeyi almaq *(von j-m/ bir kəsdən)*; əldə etmək; **2.** *(erfahren)* bilmək, xəbər tutmaq, duymaq, eşitmək; *fig.* qulağa dəymək; **3.** *(verstehen)* başa düşmək, anlamaq.

**mitbenutzen** *vt* birlikdə istifadə etmək.

**mitbesitzen** *vt* bir şeyə şərik olmaq.

**mitbestimmen** *vi* səs verməyə qatılmaq, başqaları ilə birlikdə qərar almaq.

**Mitbestimmung,** *die; -* səs vermə ixtiyarı, başqaları ilə birlikdə təyin etmə.

**Mitbestimmungsrecht,** *das; -(e)s, -e* həlledici səsvermə hüququ.

**Mitbewerber,** *der; -s, - (Konkurrent)* rəqib.

**Mitbewohner,** *der; -s, -* həmmənzil.

**mitbringen** *vt* özü ilə gətirmək.

**Mitbürger,** *der; -s, -* vətəndaş, həmvətən, həmyerli, həmşəhərli, həmşəhri.

**Miteigentümer,** *der; -s, -* mülkiyyət şəriki.

**miteinander** *adv.* birlikdə; bir-birilə, əl-ələ.

**miteinbeziehen** *vt* hesaba daxil etmək, hesaba keçmək.

**mitempfinden** *vt* rəğbət göstərmək, həmdərd olmaq.

**Miterbe,** *der; -n, -n* miras şəriki.

**Mitesser,** *der; -s, -* *med.* sızanaq, çivzə.

**mitfahren** *vi mit j-m ~* bir kəs ilə birlikdə yola düşmək.

**Mitfahrer,** *der; -s, -* yol yoldaşı.

**Mitfahrerzentrale,** *die; -, -n* eyni yerə gedən müsafirlərə sürücü və maşın tapan agentur*(a).*

**mitfühlen** *vt* həmdərd olmaq, rəğbət göstərmək; *mit j-m ~* bir kəs ilə həmdərd olmaq.

**mitfühlend** *adj.* həmdərd, canıyanan.

**mitführen** *vt* özü ilə aparmaq, yanında aparmaq.

**mitgeben** *vt* özü ilə vermək, *(j-m/ kiməsə).*

**Mitgefühl,** *das; -(e)s* dərdə şərik olma, canıyanma, , canyandırma, başsağlığı; *sein ~ aussprechen (im Trauerfall)* başsağlığı vermək.

**mitgehen** *vi* birgə getmək, yanınca getmək; *et. ~ lassen vt F* bir şeyi oğurlamaq, cibə qoymaq.

**Mitgift,** *die; -, -en* cehiz, cihaz, dədəverdi, dədəmalı.

**Mitglied,** *das; -(e)s, -er* üzv, üyə.

**Mitgliederversammlung,** *die; -, -en* ümumi iclas, üzvlərin yığıncağı.

**Mitgliederzahl,** *die; -, -en* üzvlərin say tərkibi, üzvlər sayı.

**Mitgliedsbeitrag,** *der; -(e)s, -¨e* üzvlük haqqı.

**Mitgliedschaft,** *die; -, -en* üzvlük, üyəlik; üzvlər; *j-m die ~ aberkennen* bir kəsi üzvlükdən *(üyəlikdən)* çıxarmaq.

**Mitgliedskarte,** *die; -, -n* üzvlük kartı, bilet.

**Mitgliedsstaat,** *der; -(e)s, -en* üzv olan dövlət, iştirakçı dövlət.

**mithaben** *vt* yanında olmaq, özü ilə olmaq; *er hat kein Geld mit* yanında pul yoxdur.

**mithalten** *vi (bei e-r Tätigkeit)* axıra qədər davam gətirmək, arada yorulmamaq; *fig. ~ mit* axıra qədər ayaq olmaq.

**mithelfen** *vi* kömək etmək.

**Mithelfer,** *der; -s, -* köməkçi.

**Mithilfe,** *die; -* köməkçilik, kömək etmə, yardım etmə.

**mithin** *adv.* beləliklə, nəticə etibarilə, buna görə.

**mithören** *vi* birlikdə eşitmək, birlikdə dinləmək, qulaq asmaq.

**Mitinhaber,** *der; -s, -* şərik, ortaq.

**Mitkämpfer,** *der; -s, -* silahdaş.

**mitkommen** *vi* **1.** birlikdə getmək *(gəlmək);* **2.** *(geistig)* düşünə bilmək, anlaya bilmək; *nicht mehr ~* geri qalmaq, dalı düşmək.

**mitkriegen** *vt s. mitbekommen.*

**Mitläufer,** *der; -s, -* *pol.* cığırdaş, aktiv rolu olmayan təşkilat üzvü; opportunist, min dina girən.

**Mitlaut,** *der; -(e)s, -e* *(Konsonant)* samit, səssiz.

**Mitleid,** *das; -(e)s* **1.** rəhm, ürəyiyanma, acıma, canıyanma; *~ haben* ürəyi yanmaq, yazığı gəlmək *(mit D/- ə);*halına ağlamaq, halına yanmaq; **2.** *(Anteilnahme am Leid)* başsağlığı, dərdə şəriklik, canıyanma.

**Mitleidenschaft,** *die; -* zərər, ziyan; *in ~ gezogen werden durch (A)* *-dən* zərər görmək, zərər çəkmək, təsirlənmək, cəlb olunmaq.

**mitleidig** *adj.* rəhmdil, ürəyiyanan.

**mitleidslos** *adj.* rəhmsiz, daşürəkli, qəddar; *adv.* rəhmsizcəsinə.

**mitmachen** *vt* **1.** iştirak etmək; görüb keçirmək; **2.** tərəfdar olmaq, birgə iş görmək; **3.** *(erdulden)* dözmək, səbr et-

mək; **4.** *(erleben)* çəkmək, başına gəlmək; *da mache ich nicht mit* mən bu işdə yoxam.

**Mitmensch,** *der; -en, -en* insan, bəni adəm.

**mitmischen** *vi* qarışmaq *(bei D/-ə).*

**mitnehmen** *vt* **1.** özü ilə götürmək, özü ilə aparmaq; **2.** *(erschöpfen)* zəiflətmək, gücdən salmaq.

**mitrechnen** *vt* saymaq, hesaba qatmaq, hesaba daxil etmək.

**mitreden** *vi* **1.** *(in e-m Gespräch)* danışıqda iştirak etmək; **2.** *(mitbestimmen)* ixtiyarı olmaq *(bei et./ bir şeyə); nicht ~ können* məlumatı olmamaq; *et. mitzureden haben (bei/-də)* söz sahibi olmaq, məlumat sahibi olmaq.

**Mitreisende,** *der; -n, -n* yol yoldaşı.

**mitreißen** *vt* **1.** aparmaq, çəkib özü ilə aparmaq; **2.** *fig. (begeistern)* valeh etmək, həyəcanlandırmaq.

**mitreißend** *adj. Musik, Rede usw.* həyəcanlandırıcı, valeh edici.

**mitsamt** *präp. D* ... ilə birlikdə, ...daxil olmaqla; *er kam ~ seiner ganzen Familie* o, bütün ailəsilə birlikdə gəldi.

**mitschleppen** *vt* çəkib aparmaq; çəkib gətirmək.

**mitschneiden** *vt (Tv. Radio)* lenta yazmaq.

**mitschreiben** *vt* yazmaq *(danışığı),* söhbəti yazmaq; *Vorlesungen ~* mühazirəni yazmaq, konspektləşdirmək.

**Mitschuld,** *die; -* cinayətdə əlbirlik, birgə günahkarlıq.

**mitschuldig** *adj.* bir hadisədə əli olan, cinayətdə əlbir, günahkar, cavabdeh; *~ sein* cinayətdə əlbir olmaq.

**Mitschuldige(r)** *der; -n, -n* cürmdə əli olan, cinayətdə əlbir.

**Mitschüler,** *der; -s, -* məktəbyoldaşı.

**mitspielen** *vi* oyunda iştirak etmək, oyuna qatılmaq; *fig. j-m grausam ~* kiməsə böyük zərər yetirmək.

**Mitspieler,** *der; -s, -* oyun yoldaşı.

**Mitspracherecht,** *das; -(e)s, -e* məsələnin müzakirəsində iştirak etmə hüququ.

**Mitstreiter,** *der; -* yol yoldaşı, mübarizə yoldaşı, silahdaş, arxadaş, əməkdaş.

**Mittag,** *der; -s, -e* günorta; *gegen ~* günortaya yaxın, günorta üstü; *zu ~ essen* nahar etmək, günorta yeməyi yemək; *was gibt es zum ~?* nahara nə var?

**Mittagessen,** *das; -s, -* nahar, günorta yeməyi.

**mittags** *adv.* nahar zamanı, naharda.

**Mittagspause,** *die; -, -n* nahar fasiləsi.

**Mittagsruhe,** *die; -* günorta istirahəti.

**Mittagsstunde,** *die; -, -n* **1.** günorta; **2.** *(Essenszeit)* nahar vaxtı.

**Mittagszeit,** *die; -* nahar vaxtı.

**Mittäter,** *der; -s, -* cinayət iştirakçısı, cinayət yoldaşı.

**Mittäterschaft,** *die; -* iştirakçılıq, şəriklik *(cinayətdə).*

**Mitte,** *die; -, -n* **1.** orta, ortalıq, ara; **2.** *(Mittelpunkt)* mərkəz; *in der ~* ortada; *~ Januar* yanvarın ortalarında; *in der ~ der Nacht* gecə yarısında; *aus unserer ~* bizim aramızdan.

**mitteilen** *vt* xəbər vermək, bildirmək, məlumat vermək *(j-m/bir kəsə).*

**mitteilsam** *adj. (gesprächig)* adamayovuşan, qaynayıb-qovuşan, danışqan.

**Mitteilung,** *die; -, -en* xəbər, məlumat; veriliş; bildiriş.

**Mittel,** *das; -s, -* **1.** vasitə, əsbab, çarə, əlac; üsul; **2.** *(Arznei)* dava, dərman; **3.** *(Geld)* pul, maddi vəsait; **4.** *math.* orta; *~ und Wege finden* çarə yolunu *(əlacını)* tapmaq; *mit allen ~n* hər yolla, hər vasitə ilə.

**Mittelalter,** *das; -s* orta əsrlər.

**mittelalterlich** *adj.* orta əsrlərə aid.

**Mittelasien,** *das* orta asiya.

**mittelbar** *adj.* dolayı, bilavasitə.

**Mitteleuropa** *das* Mərkəzi Avropa.

**mitteleuropäisch** *adj. ~e Zeit* mərkəzi avropa saatı *(ilə).*

**Mittelfeld,** *das; -s, -* mərkəzi sahə, orta sahə.

**Mittelfinger,** *der; -s, -* orta barmaq.

**mittelfristig** *adj.* ortamüddətli, ortavədəli.

**Mittelgebirge,** *das/pl.* orta hündürlüyü olan dağlar.

**Mittelgewicht,** *das; -(e)s, -e* *(Sport)* orta çəki dərəcəsi.

**mittelgroß** *adj.* ortaboylu.

**Mittelhochdeutsch,** *das; -* alman dilinin 11-ci əsrdən 14-cü əsrə qədər inkişaf dövrü.

**Mittelklasse,** *die; -, -n* **1.** orta sinif; **2.** *(Auto)* orta böyüklük.

**Mittellinie,** *die; -, -n* orta xətt.

**mittellos** *adj.* yoxsul, pulsuz, kasıb, fağır, əsir-yesir, güzəransız, ləmyesir.

**Mittellosigkeit,** *die; -* yoxsulluq.

**mittelmäßig** *adj.* orta, nə yaxşı nə pis, orta dərəcədə, ortabab.

**Mittelmäßigkeit,** *die; -* orta dərəcədə olma, ortabab.

**Mittelmeer,** *das; -(e)s* aralıq dənizi.

**Mittelohr,** *das; -(e)s anat.* ortaqulaqcıq.

**Mittelohrentzündung,** *die; -, -en* ortaqulaqcıq iltihabi.

**Mittelpunkt,** *der; -(e)s, -e* mərkəz.

**mittels** *präp. G (mit Hilfe von) ...*köməyi ilə, vasitəsilə, yardımı ilə.

**Mittelschule,** *die; -, -n* orta məktəb.

**Mittelsmann,** *der; -(e)s, -¨er* ortaq adam; aradüzəldən, vasitəçi, araçı, barışdırıcı, elçi.

**Mittelsperson,** *die; -, -en s. Mittelsmann.*

**Mittelstand,** *der; -(e)s* orta təbəqə.

**Mittelstreckenlauf,** *der; -(e)s, -¨e* orta məsafəli qaçış.

**Mittelstreckenrakete,** *die; -, -n* orta mənzilli raket.

**Mittelstreifen,** *der; -s, - (auf Fahrbahn)* yolu ikiyə ayıran çəmənlik.

**Mittelstürmer,** *der; -s, - (Fußball)* mərkəz hücumçusu.

**Mittelweg,** *der; -(e)s (Kompromiss)* saziş yolu, orta yol.

**Mittelwelle,** *die; -* orta dalğa.

**Mittelwert,** *der; -(e)s, -e math.* orta hesab; orta qiymət.

**Mittelwort,** *das; -(e)s, -¨er gr.* feli sifət.

**mitten** *adv.* : **1.** *~ in (an, auf, unter) D-in* ortasın(d)a; *~ aus D* arasından, ortasından, içindən; *~ durch A -in* ortasından, içindən, arasından; *~drin -in* ortasında, *-in* arasında; *~ auf der Straße* küçənin arasında *(ortasında)*; *~ im Winter* qışın ortasında; **2.** *(genau)* lap, düz, dürüst; *~ ins Herz* düz ürəyinə, ürəyin lap ortasından.

**mittendrin** *adv.* lap ortasında, lap içində.

**mitten(hin)durch** *adv.* ortasından, arasından, içərisindən, yarıbayarı.

**Mitternacht,** *die; -* gecə yarısı; *um ~* gecə yarısında.

**mitternachts** *adv.* gecəyarısı, gecə yarısında, gecəyarı.

**Mittler,** *der; -s, -* araçı, vasitəçi, aradüzəldən.

**mittlere** *-r, -s adj.* orta, ortancıl; *~en Alters* ortayaşlı; *das ~ Afrika* orta Afrika; *(durchschnittlich)* orta dərəcədə.

**Mittlerrolle,** *die; -, -n* araçılıq.

**mittlerweile** *adv.* bu arada.

**mittschiffs** *adv.* gəminin ortasında.

**Mittwoch,** *der; -s, -e* çərşənbə, *am ~* çərşənbə günü.

**mittwochs** çərşənbə günləri.

**mitunter** *adv.* hərdənbir, ara-sıra, bəzən.

**mitverantwortlich** *adj.* cavabdeh, bir kəslə birlikdə məsuliyyət daşıyan.

**Mitverantwortung,** *die; -* birgə cavabdehlik, məsuliyyətdə iştirak etmə.

**mitverdienen** *vi* ailə büdcəsini birgə *(şəriklıklə)* qazanmaq.

**Mitverfasser,** *der; -s, -* şərikli müəllif, müəlliflərin biri.

**Mitverschulden,** *das; -s jur.* təqsirdə iştirakı olma.

**mitwirken** *vt* iştirak etmək, birlikdə işləmək *(an, bei D/ -də)*; *fig.* əli olmaq.

**Mitwirkung,** *die; -* iştirak, kömək, yardım, əməkdaşlıq; dəxalət *unter ~ ..*iştirakı ilə.

**Mitwissen,** *das; -s : ohne ~ von D ..*xəbəri olmadan.

**Mitwisser,** *der; -s, -* ört-basdır edən,

gizlədən.

**mitzählen** *vt* hesaba daxil etmək, saymaq, sayılmaq; *das zählt nicht mit* bu sayılmır.

**mitziehen** *vt* sürüyüb özü ilə aparmaq; *vi* bir kəslə birlikdə getmək.

**mixen** *vt* qarışdırmaq, qatmaq.

**Mixer,** *der; -s, -* **1.** *(Gerät)* qarışdırıcı dəzgah; **2.** *(Barmixer)* barmen.

**Mixgerät,** *das; -(e)s, -e* qarışdırıcı dəzgah.

**Mob,** *der; -s* qara camaat, aşağı təbəqə, tör-töküntü; *veralt.* əvamünnas.

**mobben** *vi* bir iş yoldaşını başqa əməkdaşlar ilə birlikdə davamlı olaraq narahat etmək.

**Mobbing,** *das; -s* mobbinq, psixoterrorun bir növü, iş yerində terrorçuluq.

**möbl.** *= Abk. für möbliert* mebelli.

**Möbel,** *das; -s, -* mebel.

**Möbelhändler,** *der; -s, -* mebel satan.

**Möbelspedition,** *die; -, -en* mebel nəqliyyatı; ev əşayası daşıma şirkəti.

**Möbeltischler,** *der; -s, -* mebelçi.

**mobil** *adj.* **1.** hərəkətə gətirilən, hərəkətli; **2.** *mil.* səfərbər; *~ machen* səfərbərlik elan etmək, səfərbərliyiə almaq.

**Mobiliar,** *das; -s* mebel; ev avadanlığı, ev əşyası.

**Mobilien** *pl.* daşınar əmlak, mənqul mallar.

**mobilisieren** *vt* səfərbər etmək, toplamaq, cəm etmək, yığmaq.

**Mobilisierung,** *die; -* səfərbərlik.

**Mobilität,** *die; -* hərəkətlilik.

**mobilmachen** *vt* səfərbər etmək.

**Mobilmachung,** *die; -* səfərbərlik.

**möblieren** *vt* mebellə döşəmək, döşəmək; *möbliertes Zimmer* mebelli otaq, döşənmiş otaq.

**möbliert** *adj.* mebelli, döşənəkli.

**mochte** *s. mögen.*

**möchte** *s. mögen; ich ~ Inf.* *-mək* istəyirəm.

**modal** *adj. gr.* modal.

**Modalität,** *die; -, -en* **1.** üsul, tərz, qayda; **2.** *phil.* keyfiyyət.

**Mode,** *die; -, -n* **1.** *(Gepflogenheit)* dəb, adət; **2.** moda; *~ sein* mod*(a)* olmaq; *aus der ~ sein* dəbdən düşmək; modadan düşmək.

**modebewusst** *adj.* moda tanıyan.

**Modefarbe,** *die; -, -n* modada olan rəng.

**Modegeschäft,** *das; -(e)s, -e* butik, moda mağazası.

**Model,** *der; -s, -* taxta qəlib *(qalıb).*

**Model²,** *das, -s, -s* model qadın, mankən.

**Modell,** *das; -s, -e* model, nümunə.

**Modellfall,** *der; -(e)s, -¨e* nümunə, misal.

**modellieren** *vt* qəlibləmək, qəlibə tökmək.

**Modem,** *das; -s, -s* *EDV* modem.

**Modenschau,** *die; -, -en* moda sərgisi.

**Moder,** *der; -s* çürüntü; kif.

**moderat** *adj.* münasib, ölçülü.

**Moderator,** *der; -s, -en* *(im Funk u. Fernsehen)* icra edən, rəhbərlik edən, moderator, aparıcı.

**moderieren** *vt* *(Fernsehen)* icra etmək, rəhbərlik etmək, aparmaq.

**moderig** *adj.* kif atmış, iylənmiş.

**modern** *vi* çürümək, kiflənmək.

**modern** *adj.* **1.** *(zeitgemäß)* modern, qabaqcıl, müasir; **2.** *(modisch)* modalı, dəbdə olan.

**modernisieren** *vt* müasirləşdirmək, modernizə etmək.

**Modernisierung,** *die; -, -en* müasirləş(dir)mə, modernləş(dir)mə.

**Modernismus,** *der; -* muasirlik, modernizm.

**Modesalon,** *der; -s, -s* moda salonu.

**Modifikation,** *die; -, -en* dəyişiklik, dəyişilmə.

**modifizieren** *vt* dəyişmək, şəklini dəyişmək; islah etmək.

**Modifizierung,** *die, -, -en* dəyişmə, islah.

**modisch** *adj.* modalı, modaya uyğun, dəbəuyğun.

**Modul,** *das; -s, -e* modul.

**Modulation,** *die; -, -en* modullaşma, modulasyon.

**modulieren** *vt* modullaşmaq, dəyişmək.

**Modus,** *der; -, -di* **1.** üsul, tərz, qayda; **2.** *gr.* fel forması.

**Mofa,** *das; -s, -s (Fahrrad mit e-m Motor)* motosiklet, motorlu bisklet.

**Mogelei,** *die; -, -en* hiyləgərlik, kələk gəlmə.

**mogeln** *vt* kələk gəlmək, hiyləgərlik etmək, dələduzluq etmək, oyunda aldatmaq.

**mögen** *vi* **1.** *(wollen)* istəmək, arzu etmək; **2.** *(gerne haben)* sevmək, bəyənmək, xoşu gəlmək, əlaqə tapmaq; **3.** *(wünschen)* arzu etmək; *ich mag nicht!* istəmirəm!, sevmirəm!; *ich möchte gern wissen* bilmək istərdim ki...; *ich möchte trinken* içmək istəyirəm; *das mag (schon) sein* bu elə ola bilir; *er mag krank sein* ola bilsin ki, o, xəstədir; *ich mag ihn nicht sehen* onu görmək istəmirəm; *mag er doch gehen, wohin er will! (qoy)* haraya istəyir getsin!; *ich möchte gern bleiben* qalmaq istərdim, qalmaq istəyirəm; *ich möchte, dass er käme* kaş *(ki)* gələydi; *lieber ~* üstün tutmaq, tərcih etmək.

**möglich** *adj.* mümkün, mümkün olan, ola bilən; *so bald wie ~* mümkün qədər tez; *so oft wie ~* mümkün qədər tez-tez *(çox)*; *alles Mögliche* əlindən gələn, mümkün olan hər bir şeyi; *ist es ~?* ola bilər?, mümkündürmü?; *das ist nicht ~* ola bilməz, mümkün deyil.

**möglicherweise** *adv.* ola bilsin ki, bəlkə, ehtimalən.

**Möglichkeit,** *die; -, -en* imkan, macal, mümkünat, şərait; ehtimal; *(Gelegenheit)* fürsət; *(Aussicht)* şans, ümid; *keine ~ sehen, zu Inf.* *-ə* imkan görməmək; *nach ~* imkan daxilində, imkan dairəsində; *ist das die ~!* belə bir iş ola bilməz!, imkansızdır!.

**möglichst** *adv.* mümkün olan qədər; *~ schnell* mümkün qədər tez; *~ viel* mümkün qədər çox; *sein Möglichstes tun* əlindən gələni etmək, əlindən gələni əsirgəməmək.

**Mohair,** *der; -s, -e* tiftik; moher.

**Mohammedaner,** *der; -s, -* müsəlman.

**mohammedanisch** *adj.* müsəlman.

**Mohn,** *der; -s, -e* xaşxaş.

**Mohnblume,** *die; -, -n* lalə.

**Mohr,** *der; -en, -en* zənci.

**Möhre,** *die; -, -n* yerkökü.

**Mohrrübe,** *die; -, -n* yerkökü.

**mokieren** *vr : sich ~* ələ salmaq, gülmək *(über A/kiməsə, nəyəsə).*

**Mokka,** *der; -s, -s* qəhvə növü, mokko.

**Molch,** *der; -(e)s, -e* səməndər.

**moldauisch** *adj.* moldavca.

**Moldawien** Moldav*(iya).*

**Mole,** *die; -, -n* dalğaqıran, bənd.

**Molekül,** *das; -s, -e* molekul.

**molekular** *adj.* molekullu.

**Molke,** *die; -* zərdab.

**Molkerei,** *die; -, -en* südçülük.

**Moll,** *das; - mus.* minor.

**mollig** *adj.* **1.** *(Frau)* ətli, dolu, əti-budu yerində, dolğun, əndamlı, ətli-budlu, ətli-canlı, kök, , matan, arğaz; gombul, koppuş; kömbə; **2.** *(weich)* yumşaq, incə, zərif; **3.** *(behaglich)* rahat.

**Molluske,** *die; -, -n* ilbiz, yumşaqbədənli.

**Moloch,** *der; -s, -e fig.* amansız güc, rəhmsiz güc *der ~ Krieg* amansız müharibə.

**Molotowcocktail,** *der; -s, -s* molotov-koktel bombası.

**Moment,** *der; -(e)s, -e* an, ləhzə, bir göz qırpımı, dəm, hal, hin; *F* hovur; *(e-n) ~ bitte!* bir dəqiqə!; bir dəm!; *F* bir hovur!; *im richtigen ~* düz vaxtında; *jeden ~* hər an, hər dəm, hər dəqiqə; *in dem ~* düz o anda, düz o halda, o hində.

**momentan** *adj.* ani, ötəri, müvəqqəti; *adv.* bu saat, bu anda.

**Momentaufnahme,** *die; -, -n phot.* növri foto *(şəkil).*

**Monarch,** *der; -en, -en* padşah, hökmdar, mütləqiyyətçi.

**Monarchie,** *die; -, -n* padşahlıq, monarxiya *(Süd. : monarşi).*

**monarchisch** *adj.* padşahlıq.
**Monarchist,** *der; -en, -en* padşahlıq sistemi istəyən.
**Monat,** *der; -(e)s, -e* ay; *im ~ Mai* may ayında; *zweimal im ~* ayda iki dəfə; *F sie ist im dritten ~* o üç aylıq boyludur, o üç aylıq hamilədir.
**monatelang** *adj.* aylarla, aylar boyu.
**-monatig** *adj.* aylıq; *sechs ~* altı aylıq.
**monatlich** *adj.* hər ay, hər ayda, aylıq, həraylıq, ayda bir, aybaay.
**Monatsblutung,** *die; -, -en* adət, aylıq, aybaşı.
**Monatsfrist,** *die; -, -en* bir aylıq vaxt; bir ay müddəti.
**Monatsgehalt,** *das; -(e)s, -¨er* aylıq məvacib, aylıq maaş.
**Monatskarte,** *die; -, -n* aylıq bilet.
**Monatsmiete,** *die; -, -n* aylıq kirayə.
**Monatsrate,** *die; -, -n* aylıq hissə.
**Monatsschrift,** *die; -, -en* aylıq nəşr.
**monatsweise** *adv.* aybaay, hər ay.
**Mönch,** *der; -e(s), -e* rahib, keşiş.
**mönchisch** *adj.* keşiş kimi.
**Mönchstum,** *das; -s* rahiblik.
**Mond,** *der; -(e)s, -e* ay; qəmər; *fig. hinter dem ~ leben* zamanın ruhundan*(dünyadan)* xəbərsiz olmaq, geri qalmaq.
**mondän** *adj.* **1.** *(Frau)* çox zərif, çox gözəl; **2.** *(vornehm)* adlı- sanlı, tanınmış; aristokrat.
**Mondaufgang,** *der; -(e)s, -¨e* ayın çıxması.
**Mondfinsternis,** *die; -, -se* ayın tutulması.
**mondhell** *adj.* aydın, açıq; *e-e ~e Nacht* aydın bir gecə.
**Mondjahr,** *das; -(e)s, -e*ay ili, qəməri il.
**Mondlicht,** *das; -(e)s* ay işığı.
**Mondschein,** *der; -(e)s* ay işığı.
**Mondsichel,** *die; -* hilal, aypara.
**mondsüchtig** *adj.* lunatik, yuxudagəzən.
**Monduntergang,** *der; -(e)s, -¨e* ayın batması.
**monetär** *adj.* maddi, maliyyə.
**Moneten,** *die/pl. F* pul.
**Mongole,** *der; -n, -n* monqol.
**Mongolei;** *die, -* Monqolustan.
**mongolisch** *adj.* monqolca.
**monieren** *vt* **1.** *(beanstanden)* etiraz etmək, narazılığını bildirmək; **2.** *(mahnen)* ixtar etmək, xatırlatmaq.
**Monitor,** *der; -s, -en* ekran, monitor.
**mono** *adj.* mono, tək.
**Monogamie,** *die; -* monoqami*(ya)*, təkevlilik, birarvadlılıq.
**Monogramm,** *das; -s, -e* monoqram, ad və familiyanın birinci hərfləri.
**Monographie,** *die; -, -n* monoqrafi*(ya)*, hər hansi bir mövzunu, yaxud bioqrafiyanı açıqlayan elmi əsər
**Monokel,** *das; -s, -* monokl, bir gözlü gözlük *(eynək).*
**Monokultur,** *die; -, -en* **1.** tək bir növ bitkinin daimi şəkildə becərilməsi; **2.** *(Ackerfläche)* əkin sahəsi.
**Monolith,** *der; -en, -en* monolit, yekparə.
**Monolog,** *der; -s, -e* **1.***(Ggs. Dialog)*monoloq, bir nəfərin uzun nitqi; **2.** *(Selbstgespräch)* özü ilə danışma, monoloq.
**Monopol,** *das; -s, -e* monopol*(iya),* inhisarçı ticarət.
**monopolisieren** *vt* inhisara almaq.
**Monopolkapitalismus,** *der; -* inhisarçı kapitalizm.
**monoton** *adj.* monoton, yeknəsəq, birtonlu.
**Monotonie,** *die; -, -n* monotonluq, yeknəsəqlik.
**Monster,** *das; -s, -* div, nəhəng, əcaib.
**Monsterveranstaltung,** *die; -, -en* böyük tədbir.
**monströs** *adj.* nəhəng, əcaib.
**Monstrum,** *das; -s, -ren u. –ra* əcaib, div.
**Monsun,** *der; -s, -e* muson yeli *(cənub-şərq Asiyada).*
**Montag,** *der; -(e)s, -e* bazar ertəsi, birinci gün; *(Süd. : a. düşənbə); am ~* bazar ertəsi günü.
**Montage,** *die; -, -n* montaj, qurma.
**montags** *adv.* bazar ertələri, bazar ertəsi günləri.
**Montanindustrie,** *die; -* dağ-mədən

sənayesi.

**Monteur,** *der; -s, -e* montyor, montajci.

**montieren** *vt* qurmaq, düzətlmək, quraşdırmaq.

**Monument,** *das; -s, -e* heykəl, abidə, monument.

**monumental** *adj.* əzəmətli, möhtəşəm, böyük, monumental.

**Moor,** *das; -s, -e* torflu bataqlıq,batlaq.

**Moorbad,** *das; -(e)s, -¨er* palçıq müalicəsi.

**moorig** *adj.* bataqlıq, batlaqlı.

**Moos**[1]**,** *das; -es* mamır.

**Moos**[2]**,** *das; -es, -* *F (Geld)* pul.

**moosig** *adj.* mamırlı, mamırla örtülmüş.

**Moped,** *das; -s, -s* kiçik motosiklet.

**Mops,** *der; -es, -¨e* it cinsi.

**mopsen** *vt F* oğurlamaq *(j-m et./ bir kəsdən bir şeyi).*

**Moral,** *die; -, -(en)* **1.** *(Sittlichkeit)* əxlaq, mənəviyyat; **2.** *(Selbstvertrauen)* öz qüvvəsinə inanma; **3.** *mil.* mənəviyyat; **4.** *(seelicher Zustand)* əhval, əhval-ruhiyyə; *e-r Geschichte* dərs, ibrət; *~ predigen* əxlaq dərsi vermək.

**Moralapostel,** *der; -s, -* öyüdbaz, nəsihət verən.

**moralisch** *adj.* əxlaqi; mənəvi; *die ~e Verantwortung* mənəvi cavabdehlik; *adv.* əxlaqi cəhətdən.

**Moralpredigt,** *die; -, -en* öyüd, nəsihət.

**Morast,** *der; -(e)s, -e* bataqlıq, batlaq.

**morastig** *adj.* bataqlıq.

**Moratorium,** *das; -s, -ien* moratorium, ödəmə müddətinin uzadılması.

**Morchel,** *die; -, -n* *bot.* quzugöbələyi.

**Mord,** *der; -(e)s, -e* adamöldürmə, qətl; *e-n ~ begehen* adam öldürmək.

**Mordanschlag,** *der; -(e)s, -¨e* öldürmə cəhdi, qətlə yetirmə cəhdi, sui-qəsd; *e-n ~ auf j-n verüben* bir kəsə sui-qəsd etmək.

**Mordbrenner,** *der; -s, -* qəsdən od vurub adam öldürən.

**morden** *vt* öldürmək.

**Mörder,** *der; -s, -* adamöldürən, qatil, əliqanlı; cəllad, başkəsən.

**Mördergrube,** *die; -, -n* : *aus s-m Herzen keine ~ machen* açıq danışmaq, öz fikrini gizlətməmək.

**mörderisch** *adj.* **1.** öldürücü; **2.** *(grausam)* dəhşətli, qorxulu, qanlı.

**Mordkommission,** *die; -, -en* qətl işini təhqiq edən komissiya.

**Mordskerl,** *der; -(e)s, -e F* dolu və güclü adam, yekəpər; cəsarətli adam.

**mordsmäßig** *adj.* həddindən artıq, son dərəcə, çox.

**Mordtat,** *die; -, -en* qətl hadisəsi.

**Mordverdacht,** *der; -(e)s* qətl şübhəsi.

**Mordversuch,** *der; -(e)s, -e* *s. Mordanschlag.*

**Mordwaffe,** *die; -, -n* cinayət silahı.

**morgen** *adv.* sabah; *~ früh* sabah səhər, sabah tezdən, ertə; *~ in 8 Tagen* bir həftədən sonra; *~ um diese Zeit* sabah bu vaxtda, sabah bu saatda.

**Morgen,** *der; -s, -* **1.** sabah, səhər; **2.** *(altes Feldmaß)* yer ölçü vahidi, morqen; **3.** *(Osten)* şərq; *guten ~ !* sabahınız xeyir!; *heute ~* bu səhər; *am nächsten ~* ertəsi gün, sabah, sabahısı.

**Morgendämmerung,** *die; -, -en* sübh, ala-qaranlıq, dan.

**Morgengrauen,** *das; -s* ala-qaranlıq, sübh; *im ~* ala-qaranlıqda.

**Morgenland,** *das; -(e)s* Yaxın Şərq.

**Morgenluft,** *die; -* səhər küləyi, nəsim.

**Morgenrock,** *der; -(e)s, -¨e* səhər paltarı, xələt.

**Morgenröte,** *die; -* şəfəq, dan yeri sökülən vaxt.

**morgens** *adv.* səhər çağı, səhər; *von ~ bis abends* səhərdən axşama qədər *(can).*

**Morgenstern,** *der; -(e)s* dan ulduzu.

**morgig** *adj.* sabahkı; *die ~en Ereignisse* sabahkı hadisələr.

**Mormone,** *der; -s, -* mormon.

**Morphium,** *das; -s* morfi *(Süd. : morfin).*

**morphiumsüchtig** *adj.* morfiyə müb-

təla, morfinist.

**Morphologie,** *die; -* morfologiya *(Süd. : morfoloji).*

**morsch** *adj.* çürük; *~ werden* çürümək.

**Morsealphabet,** *das; -s, -e* morze əlifbası.

**morsen** *vt* morze əlifbası ilə xəbər vermək.

**Mörser,** *der; -s, -* **1.** həvəng; dibək; **2.** *mil.* qumbaraçı, qumbaraatan .

**Mörserkeule,** *die; -, -n* həvəng dəstəsi *(qulupu)*, dəstəcik.

**Mörtel,** *der; -s* sement məhlulu.

**Mosaik,** *das; -s, -en* mozaik.

**Mosaikstein,** *der; -(e)s, -e* mozaik daşı.

**mosaisch** *adj.* yəhudi, musəvi.

**Moschee,** *die; -, -n* məscid, came.

**Moschus,** *der; -* müşk.

**Moskau** Moskva.

**Moskito,** *der; -s, -s* mığmığa; ağcaqanad.

**Moskitonetz,** *das; -es, -e* mığmığa toru.

**Moslem,** *der; -s, -s* müsəlman.

**moslemisch** *adj.* müsəlman.

**Most,** *der; -(e)s, -e* meyvə şirəsi; meyvə çaxırı.

**Mostrich,** *der; -(e)s* xardal.

**Motel,** *das; -s, -s* motel, mehmanxana.

**Motiv,** *das; -s, -e* **1.** səbəb, dəlil, əsas; **2.** *(künstlerisches)* motiv.

**Motivation,** *die; -, -en* əsas, səbəb.

**motivieren** *vt* **1.** əsaslandırmaq, səbəb göstərmək; **2.** *(anregen)* maraq oyatmaq, həvəsləndirmək.

**Motor,** *der; -s, -en* motor, mator.

**Motorboot,** *das; -(e)s, -e* motorlu qayıq.

**Motorenbau,** *der; -(e)s* motorqayırma.

**motorisieren** *vt* mexanikləşdirmək.

**motorlos** *adj.* motorsuz.

**Motorrad,** *das; -(e)s, -¨er* motosiklet.

**Motorradfahrer,** *der; -s, -* motosiklet sürən.

**Motorschaden,** *der; -s, -¨* motor xarablığı.

**Motorschiff,** *das; -(e)s, -e* motorlu gəmi.

**Motte,** *die; -, -n* *zo.* güvə; *von ~n befallen sein* güvə vurmaq.

**mottenfest** *adj.* güvə yeyə bilməyən, güvəyə qarşı möhkəm.

**Mottenkiste,** *die; -, -* *fig. aus der ~* köhnəlmiş, modadan düşmüş.

**Mottenpulver,** *das; -s* güvə dərmanı, naftalin, güvəqıran.

**Motto,** *das; -s, -s* şüar, çağırış, deviz, müddəa.

**motzen** *vi* deyinmək *(über A/-ə);* bir şeydən şikayət etmək.

**Mountainbike,** *das; -s, -s* dağda sürülən yelatı, dağ velosipedi.

**Möwe,** *die; -, -n* qağayı.

**Mrd.** *= Abk. für Milliarde, die: -, -n* milyard.

**Mucke,** *die; -, -n* şıltaq, naz; tərslik, inad.

**Mücke,** *die; -, -n* mığmığa, ağcaqanad; *aus e-r ~ e-n Elefanten machen* milçəkdən fil düzəltmək.

**Mückenstich,** *der; -(e)s, -e* mığmığa sancması.

**Mucker,** *der; -s, -* ikiüzlü, riyakar.

**Mucks,** *der; -es, -e* zəif səs; *keinen ~ von sich geben* cınqırını çıxartmamaq.

**mucksen** *vr sich ~* cınqırını çıxartmaq.

**mucksmäuschenstill** *adj.* səs-sədasız, səssiz.

**müde** *adj.* yorğun, yorğun-arğın, əzgin *(Süd. : a. xəstə)*; *~ werden* yorulmaq, əldən düşmək; *~ machen* yormaq; *et. ~ sein* bir şeydən usanmaq; *ich bin es ~* usanmışam.

**Müdigkeit,** *die; -* yorğunluq, xəstəlik.

**Muff¹,** *der; -(e)s* **1.** *(Schimmel)* kif; **2.** *(Modergeruch)* pis iy.

**Muff²,** *der; -(e)s, -e* *(Pelz)* xəz.

**Muffe,** *die; -, -n* **1.** *techn.* mufta; **2.** *(Angst)* qorxu; *vor j-m ~ haben* bir kəsdən qorxmaq.

**Muffel,** *der; -s, -* **1.** *F* deyingən adam; **2.** *(desinteressiert)* laqeyd, etinasız.

**muffelig** *adj.* deyingən.

**muffig** *adj.* **1.** *(mürrisch)* deyingən; **2.** *(Luft, Kleidung usw.)* qoxumuş.

**Mühe,** *die; -, -en* zəhmət, əziyyət, çə-

tinlik, ölüm-zülüm; *fig.*əmək, haqq-say; *j-m ~ machen* kiməsə zəhmət vermək, kimisə əziyyətə salmaq; *sich ~ geben* zəhmət çəkmək, çalışmaq, gücənmək, can yandırmaq, çabalamaq; *es ist der ~ Wert* zəhmət(in)ə dəyər; *mit ~ und Not* zəhmətlə, güclə, güc-bəla ilə, ölüm-zülümlə; *das hat mich viel ~ gekostet* bu mənə çox əziyyət bahasına başa gəldi; *die ~ kannst du dir sparen* boş yerə zəhmət çəkmə.

**mühelos** *adj.*asan, zəhmətsiz, əziyyətsiz, rahat, gözüyumulu; *adv.* asanca, asanlıqla, havayı.

**muhen** *vi (Rind)* böyürmək, mələmək.

**mühen** *: sich ~* əlləşmək, çalışmaq, zəhmət çəkmək.

**mühevoll** *adj.* zəhmətli, çətin, əziyyətli; *~e Arbeit* çətin *(əziyyətli)* iş; *fig.* eniş-yoxuşlu.

**Mühle,** *die; -, -n* dəyirman.

**Mühlrad,** *das; -(e)s, -¨er* dəyirman təkəri.

**Mühlstein,** *der; -(e)s, -e* dəyirman daşı.

**Mühsal,** *die; -, -e* zəhmət, əziyyət, məşəqqət.

**mühsam** *adj.* zəhmətli, çətin, ağır, düşvar.

**mühselig** *adj. s. mühsam.*

**Mulatte,** *der; -n, -n* ağ və qara dərilidən doğulan mələz, mulat.

**Mulde,** *die; -, -n (Vertiefung)* çuxur, çala, çala-çuxur; gölmə, gölməcə.

**Muli,** *das; -s, -s* qatır.

**Mull,** *der; -(e)s, -e* zərif parça, tənzif.

**Müll,** *der; -s* zibil, tullantı.

**Müllabfuhr,** *die; -, -en* zibilin aparılması, zibildaşıma.

**Mullbinde,** *die; -, -n med.* bint, sarğı *(tənzifdən).*

**Mülleimer,** *der; -s, -* zibil vedrəsi, zibil qabı.

**Müller,** *der; -s, -* dəyirmançı.

**Müllhaufen,** *der; -s, -* zibil qalağı.

**Müllkasten,** *der; -s, -¨* zibil qutusu.

**Müllkippe,** *die; -, -n* zibillik, küllük.

**Müllmann,** *der; -(e)s, -¨er* zibil daşıyan, zibilçi.

**Mülltonne,** *die; -, -n* zibil qabı.

**Müllverbrennung,** *die; -, -en* zibil yandırma.

**Müllwagen,** *der; -s, -* zibil maşını.

**mulmig** *adj.* **1.** *(vermodert)* çürümüş, çürük; **2.** *F (unbehaglich)* xoşa gəlməyən, pis, pislik; **3.** *(gefährlich)* qorxulu, xətərli; *e-e ~ Lage* qorxulu vəziyyət; *mir ist ganz ~ zumute* içərimdə bir qorxu var.

**Multi,** *der; -s, -s H F* çoxmillətli şirkət.

**multikulturell** *adj.* çox mədəniyyətli.

**multilateral** *adj.* çoxtərəfli, hərtərəfli, çoxşaxəli.

**Multimillionär,** *der; -s, -e* multimilyoner.

**multinational** *adj.* çoxmillətli.

**Multiplikand,** *der; -en, -en math.* vurulan.

**Multiplikation,** *die; -, -en math.* vurma.

**Multiplikator,** *der; -s, -en math.* vuran *(ədəd).*

**multiplizieren** *vt math.* vurmaq.

**Mumie,** *die; -, -n* mumiya.

**Mumm,** *der; -s F* cəsarət, cürət, ürək; *keinen ~ in den Knochen haben* ürəksiz olmaq, cürətsiz olmaq.

**Mumme,** *die; -, -n* maska.

**Mümmelmann,** *der; -(e)s, -¨er* dovşan.

**Mummenschanz,** *der; -es (im Karneval)* maskarad.

**Mumpitz,** *der; -es F* boş söz.

**Mumps,** *der; - med.* xənazir.

**München** Münxen *(Süd. : Münix).*

**Mund,** *der; -(e)s, -¨er* ağız; damaq; *halt den ~!* ağzını yum!, kəs səsini!; *j-m nach dem ~e reden* kiməsə yaltaqlanmaq; *kein Blatt vor den ~ nehmen* açıq demək, heç nəyi gizlətməmək; *den ~ nicht aufmachen* danışmamaq, susmaq, dinməmək; *mach doch den ~ auf!* sən də danış!, səndə bu haqda bir söz de!;*den ~ voll nehmen* özündən dəm vurmaq, öyünmək; *von der Hand in ~ leben* qənaətlə keçinmək, güc-bəla ilə dolanmaq.

**Mundart,** *die; -, -en* ləhcə, şivə, dia-

lekt.

**Mündel,** *das; -s, -* qəyyumluq altında olan yetim uşaq.

**mündelsicher** *adj.* etibarlı, zəmanətli, zəmanət altında olan; *~e Wertpapiere* zəmanət altında olan qiymətli sənədlər, qiymətli kağızlar.

**munden** *vi* xoşa gəlmək; *der Wein mundet mir* şərab xoşuma gəlir.

**münden** *vt* tökülmək, axmaq, axıb tökülmək *(in A/-ə)*; *der Fluss mündet ins Meer* çay dənizə tökülür.

**mundfaul** *adj.* azdanışan.

**Mundgeruch,** *der; -(e)s* ağız iyi.

**Mundharmonika,** *die; -, -s* ağızla çalınan qarmon, ağız sənturu.

**Mundhöhle,** *die; -, -n* ağız boşluğu.

**mündig** *adj.* həddi-büluğa çatmış, yetkin; *~ werden* həddi-büluğa çatmaq.

**Mündigkeit,** *die; -* həddi-büluğ, yetkinlik, yetişkənlik.

**mündlich** *adj.* ağızdan, şifahi; dilcavabı; *~e Prüfung* şifahi imtahan.

**Mundpflege,** *die; -* ağız səhhəti; dişləri yuyub təmizləmə.

**Mundraub,** *der; -(e)s* az miqdarda yeyinti oğurluğu.

**Mundstück,** *das; -(e)s, -e* **1.** *(e-r Zigarette usw.)* müştük; **2.** *(an Blasinstrument)* ambuşyur; **3.** *(e-s Zugtieres)* ağızlıq, dəhnə.

**mundtot** *adj. : j-n ~ machen* kimisə susmağa məcbur etmək, kiminsə ağzını yummaq.

**Mündung,** *die; -, -en* **1.** *(Flussmündung)* ağız, mənsəb; **2.** *(e-r Feuerwaffe)* top ağzı, ağız.

**Mundvoll,** *der (Bissen)* tikə.

**Mundvorrat,** *der; -(e)s, -¨e* ərzaq, azuqə.

**Mundwerk,** *das; -(e)s, -e* **1.** *(ununterbrochen reden)* çox danışma, çənəsi qızışma; *ein gutes ~ haben* çənəsi boş *(qüvvətli)* olmaq; **2.** *(Schlagfertigkeit)* hazırcavablıq; *ein schnelles ~ haben* hazırcavab olmaq.

**Mundwinkel,** *der; -s, -* ağzın bir küncü, cəhəng.

**Munition,** *die; -, -en* sursat, güllə-barıt.

**Munitionslager,** *das; -s, -* silah anbarı, cəbbəxana.

**munkeln** *vi* pıçıldaşmaq, gizli danışmaq; *man munkelt, dass..* danışırlar ki.., deyirlər ki..

**Münster,** *das; -s, -* baş kilsə, katedral.

**munter** *adj.* **1.** *(fröhlich)* şən, şad; **2.** *(wach)* ayıq; **3.** *(lebhaft)* canlı.

**Munterkeit,** *die; -* şadlıq, şənlik; ayıqlıq.

**Münze,** *die; -, -n* **1.**sikkə; pul; **2.** *(Münzstätte)* sikkəxana; **3.** *(Gedenkmünze)* medal; *fig. für bare ~e nehmen vt -ə* inanmaq; *j-m et. mit gleicher ~ heimzahlen* pisliyin əvəzini çıxmaq, pisliyə pislik ilə cavab vermək.

**Münzeinheit,** *die; -, -en* sikkə vahidi.

**münzen** *vt* sikkə vurmaq; *das ist auf dich gemünzt fig.* bu sənə aiddir, bu sənə atılan daşdır.

**Münzfernsprecher,** *der; -s, -* ümumi telefon.

**Münzkunde,** *die; -* sikkəşünaslıq.

**Münzsammlung,** *die; -, -en* sikkə kolleksi(ya)si.

**Münzwesen,** *das; -s* pul sistemi; pula aid olan işlər.

**Muräne,** *die; -, -n* murena balığı.

**mürbe** *adj.* yumşaq, kövrək; *j-n ~ machen* kimisə yumşaltmaq; *fig.* kiminsə müqavimətini qırmaq.

**Mürbeteig,** *der; -(e)s, -e* yağlı-yumurtalı xəmir.

**murksen** *vi F* xaltura etmək; başdansovmaqla iş görmək.

**Murmel,** *die; -, -n* mazı, kiçik daş.

**murmeln** *vt* mırıldamaq, burnunun altında danışmaq.

**Murmeltier,** *das; -(e)s, -e* baybak; *wie ein ~ schlafen* bərk yatmaq.

**murren** *vi* mırıldamaq, deyinmək, gileylənmək *(über A/-ə).*

**mürrisch** *adj.* deyingən; üzügülməz.

**Mus,** *das; -es, -e* cem, əzmə *(meyvədən)* ; püre.

**Muschel,** *die; -, -n* **1.** balıqqulağı, ilbiz qabığı; **2.** *(Ohrmuschel)* telefon borusu.

**Muschelschale,** *die; -, -n* balıqqulağı tayı, ilbiz qabığı.

**Muse,** *die; -, -n* muz*(a),* qədim yunan mifologiyasında elm və sənət ilahəsi.

**Muselman,** *der; -en, -en* müsəlman.

**Museum,** *das; -s, -seen* muzey.

**Musical,** *das; -s, -s* musiqili tamaşa.

**Musik,** *die; -* musiqi.

**Musikalien,** *die/pl.* notlar.

**musikalisch** *adj.* **1.** *(klangvoll)* musiqili, ahəngli; **2.** *(mit e-r Begabung für Musik)* musiqidən baş çıxardan.

**Musikant,** *der; -en, -en* çalğıçı, musiqiçi.

**Musiker,** *der; -s, -* musiqiçi.

**Musikhochschule,** *die; -, -n* konservatoriya.

**Musikinstrument,** *das; -(e)s, -e* çalğı, musiqi aləti.

**Musikkapelle,** *die; -, -n* kapella, musiqi kapellası.

**Musikstück,** *das; -(e)s, -e* musiqi əsəri.

**Musikunterricht,** *der; -(e)s* musiqi dərsi.

**musizieren** *vi* çalğı çalmaq.

**Muskatnuss,** *die; -, -¨e* hind qozu, bir növ ədvə.

**Muskel,** *der; -s, -n* əzələ.

**Muskelkater,** *der; -s* əzələ ağrısı.

**Muskelkraft,** *die; -* əzələ qüvvəsi.

**Muskelkrampf,** *der; -(e)s, .-¨e* əzələ çəng olması, əzələ sancısı.

**Muskelprotz,** *der; -es, -e* qüvvətli *(güclü)* əzələləri ilə fəxr edən.

**Muskelzerrung,** *die; -, -en med.* əzələnin zədələnməsi *(gərilmə və ya zərbə nəticəsində).*

**Muskete,** *die; -, -n* muşket, qədim fitilli tüfəng.

**Musketier,** *der; -s, -e hist.* müşketyor.

**Muskulatur,** *die; -, -en* əzələlər *pl.*

**muskulös** *adj.* əzələli, güclü.

**Muslim,** *der; -s, -e* müsəlman.

**muslimisch** *adj.* müsəlman.

**Muss,** *das; -* zərurət, zəruriyyət, ehtiyac, lüzum, gərək.

**Muße,** *die; -* boş vaxt, asudə vaxt.

**Musselin,** *der; -s, -e* muslin, nazik parça.

**müssen** *vi* məcbur olmaq, lazım olmaq, özünə vacib bilmək; *ich muss gehen* mən gərək gedəm; *man muss arbeiten* işləmək gərək, işləmək lazımdır; *sie müsste zu Hause sein* evdə olmalıdır; *das müsstest du doch wissen* bunu bilməliydin; *ich muss!* başqa çarəm yoxdur! *F (vulg.) ich muss mal* işəməyim var.

**Mußheirat,** *die; -, -en* məcburi nikah *(nigah).*

**müßig** *adj.* **1.** *(untätig)* işsiz, avara, haylaz; **2.** *(arbeitsfrei)* boş vaxt, azad vaxt; **3.** *(überflüssig)* artıq, lüzumsuz; *~ dastehen* avara gəzmək, boş-bekar gəzmək; *~e Frage* mənasız sual.

**Müßiggang,** *der; -(e)s* avaralıq, bekarçılıq, tüfeylilik.

**Müßiggänger,** *der; -s, -* avara, darğaşayırd, ərincək, əringən; *fig.* lotu.

**Muster,** *das; -s, -* **1.** nümunə, örnək; **2.** *(Vorbild)* nümunə, misal; **3.** *(Modell)* model; naxış.

**Musterbeispiel,** *das; -s, -e* misal, nümunə.

**musterhaft** *adj.* nümunəvi; *sich ~ benehmen* nümunəvi rəftar göstərmək.

**mustern** *vt* **1.** baxmaq, yoxlamaq, göz gəzdirmək; **2.** *(Stoff)* naxışlamaq, naxış vurmaq; **3.** *mil.* yoxlamaq.

**Musterung,** *die; -, -en* yoxlama, müayinə etmə.

**Mut,** *der; -(e)s* cəsarət, igidlik, qoçaqlıq, mərdlik, cürətlilik, şücaət, dilavərlik; *fig.* ciyər, erkəklik, hünər; *F* dəşşaq; *nur ~!* qorxma!, cəsarətin olsun!; *den ~ verlieren* ruhdan düşmək, naümid olmaq; *~ fassen* cürətlənmək, qeyrətə gəlmək, hünərlənmək; *j-m ~ machen* kiməsə ürək *(cürət)* vermək, ürəkləndirmək.

**Mutation,** *die; -, -en* **1.** *biol.* mutasiya *(Süd. :* mutasyon); **2.** *med. (Stimmwechsel)* səsin dəyişilməsi.

**Mütchen,** *das; -s : sein ~ kühlen* acığını tökmək *(an j-m /bir kəsin üstünə).*

**mutig** *adj.*cəsarətli, ürəkli, qoçaq, cürətli, mərdcəsinə, rəşadətli, ciyərli, şü-

caətli, ağızdolusu, budal, dəliqanlı, dilavər, ər, ərən; *fig. F* kişi, ərkək kimi; hünərli; *adv.* cürətlə, şücaətlə.

**mutlos** *adj.* cəsarətsiz, qorxaq, biqeyrət; naümid; *adv.* naümidcəsinə.

**Mutlosigkeit,** *die; -* naümidlik, ümidsizlik.

**mutmaßen** *vt* təxmin etmək, güman etmək, fərz etmək.

**mutmaßlich** *adj.* təxmini, təxminən.

**Mutmaßung,** *die; -, -en* güman, zənn, ehtimal, fərz.

**Mutter,** *die; -, -¨* **1.** ana, mama; *~ Gottes* Məryəm ana; **2.** *(-, -n) techn.* çoxüzlü halqa.

**Mutterbrust,** *die; -, -¨e* ana qucağı, ana bağrı.

**Muttergottes,** *die, -* Məryəm ana.

**Mutterkorn,** *das; -(e)s, -e* *bot.* çovdar mahmızı.

**Mutterkuchen,** *der; -s* *anat.* son, ətənə.

**Mutterland,** *das; -(e)s, -¨er* ana yurdu, ana vətən.

**Mutterleib,** *der; -(e)s, -er* ana bətni.

**mütterlich** *adj.* ana, ana kimi.

**mütterlicherseits** *adv.* ana tərəfindən.

**Mutterliebe,** *die; -* ana məhəbbəti.

**Muttermal,** *das; -(e)s, -e* xal, bənək.

**Muttermilch,** *die; -* ana südü.

**Mutterschaft,** *die; -* analıq.

**mutterseelenallein** *adj.* tək-tənha, yalqız.

**Muttersprache,** *die; -, -n* ana dili.

**Muttertag,** *der; -(e)s* analar günü.

**Mutterwitz,** *der; -es* fitri ağıl, təbii dərrakə.

**Mutti,** *die; -, -s* *F* anacan.

**Mutwille,** *der; -ns* qəsd, pis niyyət.

**mutwillig** *adj.* qəsdən, bilə-bilə, qərəzlə.

**Mütze,** *die; -, -n* papaq, şapka.

**MWSt.** *s. Mehrwertsteuer*

**Myriaden** *die/pl.* saysız, çox.

**Myrte,** *die; -, -n* mərsin ağacı.

**mysteriös** *adj.* sirli, gizli, əsrarlı.

**Mysterium,** *das; -s, -rien* sirr.

**Mystik,** *die; -* təsəvvüf, sufizm, mistik*(a),* sufilik; *fig.* müəmma, sirr.

**Mystiker,** *der; -(e)s, -* mistik.

**mystisch** *adj.* sufiyanə; mistik; *fig.* müəmmalı, anlaşılmaz.

**Mythe,** *die; -, -n* əfsanə, əsatir, mif.

**mythisch** *adj.* əfsanəvi.

**Mythologie,** *die; -, -n* əsatir, mifologiya *(Süd. : mifoloji).*

**mythologisch** *adj.* mifolojik, mifik.

**Mythos,** *der; -, -then* mif, əfsanə, əsatir.

**Mythus,** *der; -, -then* *s. Mythos.*

# N

**N, n,** *das; -, -* Alman əlifbasının on dördüncü hərfi.

**na!** *int.* di!; eh; *na so was!* eh!, bele bir iş olmaz!; *~ also!* indi başa düşdünmü!; *~ warte nur!* sənə göstərərəm!; *~ und?* nə olsun *(belə)*?, əlbəttə!.

**Nabe,** *die; -, -n techn.* çarx dəndəsi.

**Nabel,** *der; -s, -* göbək.

**Nabelbruch,** *der; -(e)s, -¨e* göbək yırtığı.

**Nabelschnur,** *die; -, -¨e* göbəkbağı.

**nach** *prp. D* **1.** *(Zeit) -dən* sonra*, -keçəndən* sonra; **2.** *(Reihenfolge) -dən* sonra; **3.** *(örtlich) - a, -ə, -ya, -ye,* -sarı, doğru, tərəf*;* **4.** *(gemäß) -ə* görə, uyğun olaraq, münasib olaraq; **5.** *(nach et.)* -dan, -dən, üzrə, -görə, -əsasən; *~ Täbriz* Təbrizə; *~ oben* yuxarıya; *nach zehn Minuten* on dəqiqədən sonra; *es ist fünf Minuten nach sechs* yeddiyə beş dəqiqə işləyir; *meiner Meinung ~* mənim fikrimcə, mənə görə; *einer ~ dem anderen* bir-birinin dalınca; *~ Maß* ölçü üzrə; *der Reihe ~* sıra ilə; *nach j-m fragen* bir kəsin sorağını almaq; *adv. ~ wie vor* əvvəlki kimi, həmişə olduğu kimi, hələ də; *~ und ~* yavaş-yavaş, tədricən, gəldikcə, getdikcə, günbəgün, anbaan, astabaasta, bala-bala, damcı-damcı, xırda-xırda; *(Bitte) ~ Ihnen!* siz buyurun, sizdən sonra!; *mir ~!* arxamca gəlin!, dalımca gəlin!; *j-n nur dem Namen ~ kennen* bir kəsi yalnız *(ancaq)* adından tanımaq; *hier riecht es ~ Parfüm* ətir iyi gəlir.

**nachäffen** *vt* yamsılamaq, təqlid etmək.

**nachahmen** *vt* yamsılamaq, təqlid etmək; saxtalaşdırmaq, bənzətmək.

**nachahmenswert** *adj.* təqlidəlayiq, nümunəvi.

**Nachahmung,** *die; -, -en* təqlid etmə, yamsılama; saxtalaşdırma; qəlb.

**nacharbeiten** *vt* **1.** əlavə işləmək; **2.** *(nachträglich bearbeiten )* sonradan təkmilləşdirmək *(yaxşılaşdırmaq)*

**Nachbar,** *der; -n, -n* qonşu; *veralt.* həmsayə.

**nachbarlich** *adj.* qonşu, qonşudakı; *die gutnachbarlichen Beziehungen* mehriban qonşuluq münasibətləri.

**Nachbarschaft,** *die; -* **1.** qonşuluq; civar; **2.** *(alle Nachbarn)* qapı-qonşu, qonşular.

**Nachbeben** *das; -s, -* sonradan gələn zəlzələ.

**nachbessern** *vt* düzəliş aparmaq, əlavə qeydlər etmək.

**Nachbesserung,** *die; -, -en* düzəliş, əlavə qeyd.

**nachbestellen** *vt* əlavə sifariş etmək, sonradan sifariş etmək.

**Nachbestellung,** *die; -, -en* əlavə sifariş.

**nachbeten** *vt fig.* bir kəsin söz və əməllərini düşünmədən təkrar etmək, tutuquşu kimi təkrar etmək.

**nachbezahlen** *vt* sonradan vermək.

**nachbilden** *vt* yamsılamaq, təqlid etmək; *-in* oxşarını düzəltmək.

**Nachbildung,** *die; -, -en* **1.** *(Attrappe)* təqlid; **2.** surət, kopya.

**nachblicken** *vi (j-m)* arxasınca baxmaq.

**nachdem** **1.** *konj.* ..dan sonra, ..dən sonra, ..kimi; *~ ich s-n Brief gelesen hatte, ging ich ins Bett* mən onun məktubunu oxuyandan sonra yatdım; **2.** *(da, weil)* ..görə, ..üçün; *~ du nicht da warst, kannst du dazu nichts sagen* orada olmadığın üçün *(olmadığıva görə)* bu haqda danışa bilməzsən; *adv. je ~* vəziyyətə görə, şəraitə görə, ona baxaraq.

**nachdenken** *vi* düşünmək, fikir etmək, götür-qoy etmək, atıb-tutmaq, fikirləşmək, dalğınlaşmaq *(über A/ -in haqqında); Zeit zum Nachdenken* düşünmə vaxtı; *ich denke ständig über dieses Wort nach* bu söz məni çox düşündürür *(fikrə salır).*

**nachdenklich** *adj.* fikirli, dalğın; fikrə aparan, fikrə salan; *es macht e-n ~* insanı fikrə aparır *(salır); ~ sein* fikrə getmək.

**Nachdichtung,** *die; -, -en lit.* sərbəst *(azad)* tərcümə etmək *(şeri).*

**Nachdruck,** *der; -(e)s, -e* **1.** *(Buchwesen)* yenidən çap edilmə; **2.** *(Betonung)* nəzərə çatdırma; təkid, vurğu; *mit ~* təkidlə; **3.** *(Festigkeit)* kəskinlik, möhkəmlik; *et. mit ~ fordern* bir şeyi *(zadı)* təkidlə istəmək.

**nachdrucken** *vt* yenidən çap etmək.

**nachdrücklich** *adj.* təsirli, təkidli, ciddi; *adv.* təkidlə, inadla.

**nachdunkeln** *vi* yavaş-yavaş qaraltmaq, sonradan qaraltmaq.

**nacheifern** *vi* yarışmaq *(j-m in D/ kim –ləsə, nədəsə);* kimdənsə nümunə *(örnək)* götürmək, *-dən* dərs almaq.

**Nacheiferung,** *die; -* rəqabət, yarışma, bir kəsi özünə nümunə götürmə.

**nacheinander** *adv.* bir-birinin ardınca, dalbadal, bir-birinin dalınca; *schnell ~* durmadan *(dayanmadan)* bir-birinin dalınca.

**nachempfinden** *vt s. nachfühlen.*

**Nachen,** *der; -s, - poet.* qayıq.

**nacherzählen** *vt (wiedererzählen)* nəql etmək, öz sözlərilə ifadə etmək.

**Nacherzählung,** *die; -, -en* öz sözlərilə ifadə etmə, nəql etmə, danışma.

**Nachfolge,** *die; -* varislik, yerinə keçmə; vərəsəlik; *j-s ~ antreten* bir kəsin yerinə keçmək.

**nachfolgen** *vi j-m ~* **1.** kiminsə dalınca getmək, izi ilə getmək; **2.** *(im Amt)* kiminsə yerinə keçmək.

**nachfolgend** *adj.* sonrakı, ardınca gələn; *adv.* irəlidəki.

**Nachfolger,** *der; -s, -* vərəsə, varis, xələf, davamçı.

**nachforschen** *vi* tədqiq etmək, araşdırmaq, məlumat toplamaq.

**Nachforschung,** *die; -, -en* araşdırma, axtarış, tədqiq etmə; axtarış.

**Nachfrage,** *die; -, -n* **1.** *(Erkundigung)* sorğu, məlumat istəmə; **2.** *H.* tələbat *(nach D/-ə); Angebot und ~* təklif və tələbat *pl.*

**nachfragen** *vt* **1.** soruşub bilmək; **2.** *(nachbohren) -in* nədənini soruşmaq, bir şeyin səbəbini soruşmaq.

**nachfühlen** *vt : j-m et. ~* bir kəsin dərdinə şərik olmaq.

**nachfüllen** *vt* üstünü doldurmaq; əlavə tökmək.

**nachgeben** *vi* **1.** *(nicht standhalten)* davam gətirməmək; **2.** *(j-m et.)* güzəştə getmək, baş əymək, razılaşmaq, qısa gəlmək.

**Nachgebühr,** *die; -* əlavə pul vermə, kəsiri ödəmə.

**nachgehen** *vi* **1.** *(verfolgen)* dalınca düşmək, izləmək *(j-m/ kiminsə);* **2.** *(seinen Geschäften)* öz işi ilə məşğul olmaq; **3.** *(Uhr)* geri qalmaq; **4.** *et. (D) ~* araşdırmaq, hər hansı bir məsələni aydınlaşdırmağa çalışmaq.

**nachgemacht** *adj.* saxta, qəlp.

**nachgenannt** *adj.* aşağıda adı çəkilən.

**nachgerade** *adv.* **1.** *(schließlich, allmählich)* nəhayət, əvvəl-axır, yavaş-yavaş; **2.** *(geradezu)* lap, həqiqətən, doğrudan da.

**Nachgeschmack,** *der; -s* təm, dad.

**nachgiebig** *adj.* **1.** yumşaq, elastik; **2.** *fig.* tez razılaşan, güzəştə gedən, yolayaxın, yolagələn, üzüyumşaq.

**Nachgiebigkeit,** *die; -* güzəştə getmə, mehribanlıq, üzüyumşaqlıq; *~ zeigen* yaxasını ələ vermək.

**nachgießen** *vt* əlavə tökmək, doldurmaq.

**nachhaken** *vi* bir daha soruşmaq, inadla soruşmaq.

**Nachhall,** *der; -s* əks-səda, resonans, səsə səs vermə; *fig.* təsir.

**nachhaltig** *adj.* möhkəm, davamlı, sarsılmaz; dərin, təsirli.

**nachhängen** **1.** *(e-r Sache)* bir şeye dalmaq; qüssəsini çəkmək; *s-n Gedanken ~* xəyala qapılmaq, fikrə dalmaq; **2.** *(zurückliegen)* dala qalmaq, dalı düşmək *(in et. D/ bir şeydə).*

**Nachhauseweg,** *der; -(e)s : auf dem ~* evə gedərkən *(dönərkən).*

**nachhelfen** *vt D -ə* kömək etmək.

**nachher** *adv.* **1.** sonra, ondan *(bundan)* sonra, daldan; *das mache ich ~* bunu sonra edərəm; **2.** *bis ~ !* hələlik!.

**Nachhilfe,** *die; -* kömək, yardım.

**Nachhilfestunde,** *die; -, -n* əlavə dərs, özəl dərs.

**nachhinein** *adv. : im ~* sonra*(dan).*

**nachhinken** *vi fig.* geri qalmaq.

**Nachholbedarf,** *der; -(e)s, -* keçmişdən qalan çatmamazlıqların yerini doldurma *(təlafi etmə)* istəyi.

**nachholen** *vt* **1.** sonradan gətirmək; **2.** sonradan etmək; təlafi etmək.

**Nachhut,** *die; - mil.*qoşunun arxa dəstəsi.

**nachjagen** *vt D* arxasınca qaçmaq, tə`qib etmək.

**Nachklang,** *der; -s, -¨e* əks-səda, rezonans; *fig.* təsir.

**Nachkomme,** *der; -n, -n* evlad, nəsil, övlad, xələf.

**nachkommen** *vi* **1.** *(später kommen)* sonradan gəlmək; **2.** *(mitkommen)* özünü çatdırmaq, ayaqlaşmaq, yetişmək; **3.** *(e-m Befehl)* bir əmri yerinə yetirmək.

**Nachkommenschaft,** *die; -, -en* evlad, nəsil, nəvə-nəticə, övlad.

**Nachkömmling,** *der; -s, -e* **1.** *s. Nachkomme;* **2.** *(Spätling)* son beşik.

**Nachkriegszeit,** *die; -, -en* müharibədən sonrakı dövr.

**Nachkur,** *die; -, -en* əlavə müalicə kursu.

**Nachlass,** *der; -es, -¨e* **1.** *H.* zəifləmə, aşağı sal(ın)ma, azalma; **2.** *(e-r Strafe)* əfv, güzəşt; cəzanın azalması; **3.** *(Erbschaft)* irs, miras.

**nachlassen** *vt (Preis usw.)* aşağı salmaq; azaltmaq; *vi* **1.** *(Schmerzen; der Regen usw.)* azalmaq; **2.** *(Kraft, Leistungen)* zəifləmək, azalmaq.

**nachlässig** *adj.* səliqəsiz, başısoyuq, səhlənkar, qafil; *F* kahıl.

**Nachlässigkeit,** *die; -, -en* başısoyuqluq, səliqəsizlik, başsızlıq, səhlənkarlıq, tədbirsizlik.

**nachlaufen** *vi D -in* ardınca qaçmaq.

**nachleben** *vi (e-m Vorbild)* özünə nümunə *(örnək)* götürmək.

**Nachlese**, *die; -, -n* **1.** *(bei der Traubenernte usw.)* başaq yığımı;**2.** *fig.* külliyyat düzəltmə, bir yerə toplama, məcmuə; *~ von Gedichten* şerlər külliyyatı.

**nachlesen** *vt* kitaba baxmaq; gözdən keçirmək.

**nachliefern** *vt* sonradan təhvil vermək, sonradan mal çatdırmaq.

**nachmachen** *vt* yamsılamaq, təqlid etmək, bənzətmək; *F* ağız əymək.

**nachmessen** *vt* bir daha ölçmək.

**Nachmieter,** *der; -s, -* yeni kirayənişin.

**Nachmittag,** *der; -(e)s, -e* nahardan sonra, günortadan sonra; ikindi; *am späten ~* axşamçağı, axşamüstü.

**nachmittags** *adj.*nahardan sonra, günortadan sonra, ikindi.

**Nachmittagsgebet,** *das; - (e)s, -e* günorta namazı.

**Nachnahme,** *die; -, -n : gegen / per ~* ödəmə tələbilə.

**Nachname,** *die; -, -n* familiya.

**nachplappern** *vt* tutuquşu kimi təkrar etmək.

**Nachporto,** *das; -s, -s u. -ti (Post)* əlavə poçt xərci.

**nachprüfen** *vt* əlavə yoxlamaq, kontrol etmək; təkrar imtahan etmək; *F* əndər-döndər eləmək.

**Nachprüfung,** *die; -, -en* kontrol etmə; təkrar imtahan etmə.

**nachrechnen** *vt* yenidən hesablamaq.

**Nachrede,** *die; -, -n : üble ~* böhtan, iftira; *üble ~ verbreiten* böhtan atmaq.

**Nachricht,** *die; -, -en* xəbər,xəbər-ətər, soraq, salıq; məlumat, bilgi; *die neuesten ~en* son xəbərlər; *j-m ~ geben* kiməsə məlumat vermək; *e-e gute (Schlechte) ~* yaxşı *(pis)* bir xəbər; *frohe ~* müjdə; *pl.* xəbərlər, əxbar.

**Nachrichtenagentur,** *die; -, -en* məlumat agentliyi, xəbərlər agentliyi.

**Nachrichtendienst,** *die; -(e)s, -e* **1.** xəbərlər agentliyi; **2.** *(Geheimdienst)* kəşfiyyat işi, məlumat xidməti.

**Nachrichtensperre,** *die; -* bir mövzu haqda məlumat verməyin qadağan olması, məlumat verilməsinin qadağan olunması.

**Nachrichtensprecher,** *der; -s, -* xəbər deyən, spiker.

**nachrücken** *vi (j-s Amt übernehmen)* bir kəsin yerinə keçmək; dalınca getmək, izləmək *(D/-in).*

**Nachruf,** *der; -(e)s, -e* anma yazısı, ölən adamın həyatı haqqında qısa məlumat.

**nachrüsten** *vt techn.* hissələr əlavə etmək, təkmilləşdirmək.

**nachsagen** *vt* **1.** *(nachsprechen)* başqasının sözlərini təkrar etmək *(j-m et./ bir kəsin bir şeyini)*; **2.** *(j-m et.)* dalınca danışmaq, iftira demək, böhtan atmaq; *man sagt ihm nach, dass er...* onun haqqında deyirlər ki..

**nachsalzen** *vt* duz əlavə etmək.

**Nachsatz,** *der; -es, -¨e* əlavə; *gr.* baş cümlədən sonra duran budaq cümlə.

**nachschauen** *vi s. nachsehen.*

**nachschenken** *vi vt j-m et. ~* bir kəsin fincanını yenidən doldurmaq.

**nachschicken** *vt* ardınca göndərmək; yeni ünvanına göndərmək.

**Nachschlag,** *der; -(e)s, -¨e (in e-r Kantine)* əlavə pay, əlavə porsion.

**nachschlagen**[1] *vt* **1.** kitaba baxmaq; *im Lexikon ~* lüğətə baxmaq; **2.** *(Wort usw.)* axtarıb tapmaq.

**nachschlagen**[2] *vi (j-m ähneln)* kiməsə bənzəmək, kiməsə oxşamaq.

**Nachschlagewerk,** *das; -(e)s, -e* soraq kitabçası; sözlük.

**Nachschub,** *der; -s, -¨e mil.* təchizat.

**nachsehen** *vi (j-m. nachsehen)* bir kəsin dalınca baxmaq; *vt* **1.** *(prüfen)* yoxlamaq, gözdən keçirmək;**2.** *(j-m et.)* bir kəsin günahından keçmək, günahını bağışlamaq, göz yummaq.

**Nachsehen,** *das; -s, - : das ~ haben* bir işdə gətirməmək, paysız qalmaq.

**nachsenden** *vt s. nachschicken.*

**Nachsicht,** *die; -* göz yumma, mərhəmət, iltifat; *~ üben* günahından keçmək, bağışlamaq.

**nachsichtig** *adj.* mərhəmətli, rəhmdil; dözümlü, əkrəm, kəramətli, alicənab.

**nachsinnen** *vi über A* fikrə dalmaq; *in Nachsinnen versunken sein* dərindən fikirləşmək.

**nachsitzen** *vi (Schüler)* cəza üçün məktəbdə qalmaq.

**Nachspeise,** *die; -, -n* desert, şirniyyat.

**Nachspiel,** *das; -(e)s, -e fig.* nəticə, son, axır; *diese Sache wird ein ~ haben* bu iş pis nəticə verəcək.

**nachsprechen** *vt* təkrarlamaq, təkrar etmək *(j-m et./ başqasının dediyini).*

**nachspüren** *vi D* izləmək, güdmək.

**nächst** *adj.* **1.** *(örtlich, Angehörige)* yaxındakı, ən yaxın; *aus ~er Entfernung* ən yaxın məsafədən; **2.** *(darauffolgend)* sonrakı, o biri, ertəsi; **3.** *(kommend)* gələcək, gələn; *das ~e Mal* gələn dəfə, qayıdanbaş; *~es Jahr* gələn il; *nächster Tag* ertəsi gün; *präp. D (neben)* yanında, *-dən* sonra, ardı, növbəti; *der Nächste, bitte!* sırası olan buyursun!; *bei ~er Gelegenheit* birinci fürsətdə, gələn dəfə, növbəti fürsətdə.

**Nächste,** *der; -n, -n* həmcins; qohum, yaxın.

**nächstbeste** *adj.* ilk, gələn, hər hansı; *bei ~r Gelegenheit* ən yaxşı fürsətdə.

**nächstdem** *adv.* bundan sonra, bu yaxında.

**nachstehen** *vi* aşağı olmaq, aşağı durmaq, dala qalmaq; *(j-m in et. / bir kəsdən bir şeydə).*

**nachstehend** *adj.* aşağıdakı, aşağıda göstərilən; *adv.* aşağıda.

**nachstellen** *vt techn.* **1.** nizama salmaq, tənzim etmək; **2.** *(Uhr)* geri çəkmək; *vi (j-m)* güdmək, təqib etmək; *e-r Frau ~* bir qadının dalına düşmək.

**Nächstenliebe,** *die; -* özgələri sevmə, insanlara məhəbbət.

**nächstens** *adv.* bu yaxında.

**nächstliegend** *adj.* ən yaxın, *fig.* ən təbii, ən doğal.

**nachstreben** *vi (j-m)* özünə nümunə götürmək.

**nachsuchen** *vi* xahiş etmək *(um A/ nəyisə).*

**Nacht,** *die; -, -¨e* gecə; *gute ~!* gecəniz xeyir!; *in der ~* gecə, gecə vaxtında; *mitten in der ~* gecə yarısı*(nda); die ganze ~* bütün gecə; *bei ~ und Nebel*

gecə qaranlığında, gizlicə.

**Nachtarbeit,** *die; -* gecə işi.

**Nachtdienst,** *der; -es, -e* gecə növbəsi; *~ haben* növbətçi olmaq.

**Nachteil,** *der; -(e)s, -e* zərər, ziyan, itki; *j-m ~e bringen* kiməsə zərər vurmaq; *im ~ sein* əlverişsiz vəziyyətdə olmaq, pis vəziyyətdə olmaq, ziyanda olmaq; *F* dəsxoşa getmək.

**nachteilig** *adj.* zərərli, itgili, itkili, əlverişsiz, sərfəsiz; *sich ~ auswirken auf* bir şeyə zərərli olmaq.

**nächtelang** *adv.* gecələr, gecələr boyu, səhərə qədər.

**Nachteule,** *die; -, -n fig.* gecə quşu.

**Nachtfalter,** *der; -s, -* haf.

**Nachtfrost,** *der; -(e)s, -¨e* gecə şaxtası.

**Nachthemd,** *das; -(e)s, -en* gecə paltarı *(köynəyi),* gecəlik.

**Nachtigall,** *die; -, -en* bülbül.

**nächtigen** *vi* gecələmək.

**Nachtisch,** *der; -(e)s* şirniyyat, deser(t); çərəz.

**Nachtklub,** *der; -s, -s* gecə klubu.

**nächtlich** *adj.* gecə, gecəki; *~e Ruhe* gecə sakitliyi.

**Nachtlokal,** *das; -(e)s, -e* gecə klubu, kabare.

**Nachtmahl,** *das; -(e)s, -e* şam.

**Nachtquartier,** *das; -(e)s, -e* gecələmə yeri, gecə qalmaq yeri.

**Nachtrag,** *der, -(e)s, -¨e* əlavə..

**nachtragen** *vt* **1.** *(j-m et.)* aparmaq, daşımaq *(bir şeyi bir kəsin dalınca);* **2.** *fig. (nicht verzeihen)* bir kəsi bağışlamamaq, bir kəsə kin saxlamaq; *sei doch nicht so ~d!* kin bəsləmə!; **3.** *(hinzufügen)* bir şeyi əlavə etmək, bir şeyi yazmaq.

**nachtragend** *adj.* kinli, kin bəsləyən.

**nachträglich** *adj.* əlavə, ardıınca gələn; *adv.* əlavə olaraq, sonradan; *~ herzlichen Glückwunsch!* keçmiş ... mübarək olsun!

**nachtrauern** *vi D* bir şeyə kədərlənmək, sonradan yas saxlamaq.

**Nachtruhe,** *die; -* gecə rahatlığı, gecə istirahəti.

**nachts** *adv.* gecə, gecələr.

**Nachtschicht,** *die; -, -en* gecə (iş) növbəsi, gecə işi; *~ haben* gecə növbəsi işləmək, növbətçi olmaq.

**Nachtschwärmer,** *der; -s, - F* gecə quşu, gecə yatmayan.

**Nachtstuhl,** *der; -(e)s, -¨e* sidik qabı, ləyən *(xəstələr üçün ).*

**nachtsüber** *adv.* gecə*(də).*

**Nachttopf,** *-(e)s, -¨e* sidik qabı.

**nachtun** *vt : es j-m ~* yamsılamaq.

**Nachtwache,** *die; -, -n* gecə növbəti, gecə növbətçiliyi.

**Nachtwächter,** *der; -s, -* gecə gözətçisi.

**Nachtwandler,** *der; -s, -* yuxuda durub gəzən adam.

**Nachuntersuchung,** *die; -, -en med.* əlavə müayinə; *jur.* əlavə təhqiqat.

**nachvollziehen** *vt* anlamaq, başa düşmək, qanmaq; mənimsəmək.

**nachwachsen** *vi* yenidən bitmək, yenidən çıxmaq.

**Nachwahl,** *die; -, -en* əlavə seçki, təkrar keçirilən yeni seçki.

**Nachwehen** *die/pl. fig.* pis nəticələr, pis təsirlər.

**Nachweis,** *der; -es, -e* dəlil, sübut, dəlalət; şəhadətnamə; *den ~ führen (erbringen, liefern)* sübut etmək, dəlil gətirmək, dəlalət etmək.

**nachweisbar** *adj.* sübut oluna bilən.

**nachweisen** *vt* sübut etmək, isbat etmək, dəlalət etmək.

**nachweislich** *adj. s. nachweisbar; adv.* sübut edildiyi kimi.

**Nachwelt,** *die; -* gələcək nəsil.

**nachwiegen** *vt* yenidən çəkmək.

**nachwirken** *vt* sonradan təsir etmək, sonradan nəticə vermək.

**Nachwirkung,** *die; -, -en* sonradan təsir etmə.

**Nachwort,** *das; -(e)s, -e* son söz.

**Nachwuchs,** *der; -es* yetişən nəsil, cavan nəsil.

**nachzahlen** *vt* qalanını vermək, əlavə olaraq pul ödəmək.

**nachzählen** *vt* bir daha saymaq.

**Nachzahlung,** *die; -, -en* kəsiri vermə, əlavə ödəniş.

**Nachzählung,** *die; -, -en* bir daha sayma, yenidən sayma.

**nachzeichnen** *vt* üzündən çəkmək, üzünü köçürmək.

**nachziehen** *vt* **1.** *(Bein)* ayağı öz ardınca sürümək; **2.***(nachzeichnen)* üzündən bir daha çəkmək; **3.** *(Schrauben)* bərkitmək; *vi* ardınca getmək, ardınca hərəkət etmək *(j-m/bir kəsin).*

**Nachzügler,** *der; -s, -* **1.** geridə qalmış; **2.** *(Kind)* gecikmiş uşaq.

**Nacken,** *der; -s, -* peysər, boyun; *j-m im ~ sitzen* bir kəsə təzyiq etmək; bir kəsi təngə gətirmək; təqib etmək; *j-m den ~ steifen / stärken* bir kəsə qol-qanad vermək, bir kəsi təşviq etmək.

**nackend** *adj.* lüt, çılpaq, yalın.

**nackt** *adj.* lüt, çılpaq, yalın, lümlüt; *sich ~ ausziehen* lüt olmaq, soyunmaq; *~ baden* çılpaq çımmək; *das ~e Leben retten* ancaq canını qurtarmaq; *die ~e Wahrheit* açıq-aydın həqiqət.

**Nacktheit,** *die; -* çılpaqlıq.

**Nadel,** *die; -, -n* **1.** iynə; **2.** *(Zeiger)* əqrəb; **3.** *(Stecknadel)* sancaq; **4.** *bot.* iynəyarpaq.

**Nadelbaum,** *der; -(e)s, -¨e* iynəyarpaqlı ağac.

**nadeln** *vi (Nadelbaum)* iynələri tökülmək.

**Nadelöhr,** *das; -(e)s, -e* iynə gözü.

**Nadelstich,** *der; -(e)s, -e* **1.** iynə vurma; iynə batma; **2.** *(grober Nadelstich)* kök; *fig.* sancma, söz atma; *j-m ~e versetzen* bir kəsi sancmaq, bir kəsə söz atmaq.

**Nagel,** *der; -s, -¨* **1.** mıx, mismar; *e-n Nagel aus der Wand ziehen* bir mıxı divardan *(duvardan)* çıxartmaq; **2.** *an.* dırnaq; **3.** *fig. den ~ auf den Kopf treffen* lap yerinə düşmək, sözün lap düzünü demək; *an den ~ hängen vt* uzun çəkən bir işdən əl çəkmək; *Nägel mit Köpfen machen* bir işi yarı qoymamaq, işi aşırmaq; *an den Nägeln kauen* dırnaqları gəmirmək; *kleiner ~* gülmıx.

**Nagelbürste,** *die; -, -n* dırnaq şotkası, dırnaq fırçası.

**Nagelfeile,** *die; -, -n* dırnaq üçün yeyə, dırnaq yonan.

**Nagelkopf,** *der; -(e)s, -¨e* mıxın başı.

**Nagellack,** *der; -(e)s, -e* dırnaq lakı.

**nageln** *vt* mıx vurmaq, mıxlamaq.

**nagelneu** *adj.* lap təzə, təp-təzə, yepyeni.

**Nagelpflege,** *die; -* manikür.

**Nagelschere,** *die; -, -n* dırnaqtutan, dırnaq qayçısı.

**nagen** *vi* **1.** gəmirmək *(an D/bir şeyi);* **2.** *fig.* incitmək, əzab vermək.

**Nagetier,** *das; -(e)s, -e zo.* gəmirici.

**nah(e)** *adj.* yaxın; *präp. D, ~ an, bei D –nəyəsə* yaxın; *~ beim Bahnhof wohnen* vağzalın yaxınlığında *(yanında)* yaşamaq; *~ beieinander* bir-bir(lər)inə yaxın; *von ~m betrachtet* yaxından baxanda; *~ daran sein, et. zu tun* bir şeyin etməsinə az qalmaq; *j-m zu ~ treten* bir kəsi təhqir etmək, bir kəsi incitmək; *den ~n Tod fürchten* yaxınlaşan ölümdən qorxmaq; *s. nächst-, näher.*

**Nähe,** *die; -* yaxınlıq, civar, qonşuluq; *in der ~* yaxınlıqda, qonşuluqda; *aus nächster ~* çox yaxından; *ihre ~ ist mir lästig* ondan zəhləm gedir; *ganz in der ~* çox yaxında; *in seiner ~* yaxınında, civarında; *er wohnt hier in der ~* o, bu yaxında *(civarda)* oturur.

**nahebei** *adv.* yaxında, yaxınlıqda.

**nahebringen** *vi* **1.** bir kəsdə bir şeyə maraq oyatmaq; *j-m die Literatur ~* bir kəsdə ədəbiyyata qarşı maraq *(sevgi)* oyatmaq; **2.** bir-brinið yaxınlaşdırmaq.

**nahegehen** *vi (e-m)* həyəcanlandırmaq, kədərləndirmək, ürəyini yandırmaq, ürəyinə salmaq *(nəyi isə).*

**nahekommen** *vi* **1.** *(Personen)* həmfikir olmaq, bir-birini başa düşmək; **2.** *(e-r Sache)* çox oxşamaq, bənzəmək; *der Wahrheit ~* həqiqətə yaxınlaşmaq.

**nahelegen** *vt (vorschlagen)* tövsiyə etmək *(j-m et./bir kəsə bir şeyi).*

**naheliegen** *vi* ağla gəlmək, aydın olmaq.

**naheliegend** *adj.* ağla gələn, aşkar,

aydın; *aus ~en Gründen* aydın dəlillərə görə.

**nahen** *u.* **sich nahen** *vi* yaxınlaşmaq; *die Entscheidung naht* qərar yaxınlaşır.

**nähen** *vt* tikmək.

**Nähen,** *das; -s* tikiş, tikmə.

**näher** *adj.* daha yaxın; *dieser Weg ist ~* bu yol daha yaxındır; *bei ~er Betrachtung* yaxından baxanda; *adv. ~ kommen* yaxınlaşmaq, yaxına gəlmək; *j-m ~ kommen* kiməsə yaxınlaşmaq; *ich kenne ihn ~* onu yaxından tanıyıram.

**Nähere(s),** *das; -n* təfsilat; əlavə məlumat; *ich weiß nichts ~s* əlavə məlumatım yoxdur.

**näherbringen** *vt* **1.** *(nahebringen)* yaxınlaşdırmaq, sıx əlaqə yaratmaq; **2.** *fig.* tanış etmək *(j-m et./ bir kəsi bir şey ilə).*

**Näherei,** *die; -, -en* **1.** tikiş işi; **2.** *(Ort)* dərzixana.

**Näherin,** *die; -, -nen* dərzi *(qadın).*

**näherkommen** *vi* yaxınlaşmaq; *einander ~* bir-birinə yaxınlaşmaq, sıx əlaqəyə girmək.

**nähern** *vt* yaxınlaşdırmaq *(et. j-m/bir şeyi bir kəsə)*; *vr sich ~* yaxınlaşmaq *(D/-ə); sich e-r Frau ~* bir qadın ilə dost olmağa çalışmaq.

**nähertreten** *vi* **1.** *(j-m)* bir kəs ilə əlaqə yaratmaq; **2.** *(e-r Sache)* bir şey ilə məşğul olmaq.

**nahestehen** *vi* yaxın münasibətdə olmaq *(j-m/bir kəsə).*

**nahestehend** *adj.* yaxın, səmimi.

**nahezu** *adv.* **1.** *(beinah)* az qala; **2.** *(ungefähr)* təqribən, təxminən.

**Nähgarn,** *das; -(e)s, -e* sap, iplik.

**Nahkampf,** *der; -(e)s, -¨e mil.* əlbəyaxa vuruşma.

**nahm** *s. nehmen.*

**Nähmaschine,** *die; -, -n* tikiş maşını.

**Nähnadel,** *die; -, -n* iynə, tikiş iynəsi.

**Nahost,** - *der Nahe Osten* Yaxın Şərq.

**Nährboden,** *der; -s, -¨* **1.** bəsləyici mühit; **2.** *fig.* yuva; *~ schaffen* şəra(y)it yaratmaq, imkan yaratmaq.

**nähren** *vt* yedirtmək, qidalandırmaq; *vr sich ~* yemək, qidalanmaq.

**nahrhaft** *adj.* **1.** doydurucu, qüvvətli; **2.** *(vitaminreich)* vitaminli.

**Nährstoff,** *der; -(e)s, -e* yeyinti maddələri *pl.*

**Nahrung,** *die; -* **1.** yemək, qida, xörək; **2.** *fig.* təşviq, kömək.

**Nahrungsmittel,** *das; -s, -* ərzaq malları, yeyinti məhsulları, qida.

**Nährwert,** *der; -(e)s, -e* vitaminlilik, qida dəyəri.

**Nähseide,** *die; -, -n* ipək sap.

**Naht,** *die; -, -¨e* **1.** tikiş, tikiş yeri, baxya *(bəxyə);* **2.** *(Lötstelle)* qovuşuq, qaynaq yeri.

**nahtlos** *adj.* tikişsiz; qaynaqsız.

**Nahtstelle,** *die; -, -n* tikiş yeri; baxya, bəxyə; qaynaq yeri.

**Nahverkehr,** *der; -s* yaxın yerə nəqliyyat.

**Nahverkehrszug,** *der; -(e)s, -¨e* şəhərətrafı qatar.

**Nähzeug,** *das; -s* tikiş ləvazimatı.

**Nahziel,** *das; -(e), -e* yaxın hədəf.

**naiv** *adj.* sadə, sadəlövh, fərasətsiz, avam, əvam, avamyana, bayağı; *F fig.* dayaz, düdək.

**Naivität,** *die; -* sadəlövhlük, sadəlik, avamlıq, bayağılıq, xamlıq.

**Name,** *der; -ns, -n* **1.** ad; ad-san, şöhrət; **2.** *(Familienname)* familiya, soy ad*; im ~n G -in* naminə, *-in* adından; *dem ~n nach* adından, qiyabi; *wie ist Ihr ~ ?* adınız nədir? *mein ~ ist Sanaa* mənim adim Sana dir; *sich e-n ~n machen* şöhrət qazanmaq, ad-san qazanmaq.

**Namensliste,** *die; -, -n* ad siyahısı.

**namenlos** *adj.* **1.** adsız; **2.** *fig.* təsvir edilməz, çox böyük; *~es Elend* təsvir edilməz fəlakət.

**namens** *adv.* **1.** ...adı ilə, familiyası ilə, adında; *e-e Frau ~ elnaz* elnaz adı ilə bir qadın, elnaz adında bir qadın; **2.** ..adına.

**Namensschild,** *das; -(e)s, -er* ad yazılmış lövhə.

**Namenstag,** *der; -(e)s, -e* ad günü.

**Namensvetter,** *der; -s, -n* adaş, eyni fa-

miliyalı, eyni adda olan.

**Namenszug,** *der, -(e)s, -¨e* imza.

**namentlich** *adj.* adla, adbaad düzəlmiş; *j-n ~ erwähnen* bir kəsin adını çəkmək; *adv. (besonders)* başlıca olaraq, əsasən, ələlxüsus.

**namhaft** *adj.* **1.** *(berühmt)* adlı-sanlı, məşhur; **2.** *(beträchtlich)* böyük, əhəmiyyətli.

**nämlich** *adj.* həmin özü, həman; *adv.* **1.** *(und zwar)* yəni, daha doğrusu; **2.** *(denn)* çünkü.

**nannte** *s. nennen.*

**nanu !** *int.* əcəba!, elə bu qalmışdı!.

**Napf,** *der; -(e)s, -¨e* kasa; dayaz qab.

**Naphta,** *das; -s* neft.

**Naphtalin,** *das; -s* naftalin.

**Narbe,** *die, -, -n* **1.** yara yeri, çapıq; **2.** *bot.* dilimcik ağzı; *fig. ~n hinterlassen* iz qoymadan keçməmək.

**narbig** *adj.* çapıq-çapıq.

**Narkose,** *die; -, -n* narkoz.

**narkostisieren** *vt* bihuş etmək.

**Narr,** *der; -en, -en* dəli, səfeh, divanə; *j-n zum ~en halten* bir kəsi ələ salmaq.

**Narrativik,** *die; - (Sprachw.)* nəql etmə teorisi, danışma teknikası.

**narren** *vt* ələ salmaq, məsxərəyə qoymaq.

**Narrenfreiheit,** *die; - fig.* tam azadlıq.

**Narrenhaus,** *das; -es, - F* dəlixana.

**Narrenkappe,** *die; -, -n* təlxək papağı.

**Narren(s)posse,** *die; -, -n* dəcəllik.

**Narrheit,** *die; -, -en* dəlilik, səfehlik.

**Närrin,** *die; -, -nen* dəli, səfeh *(qadın).*

**närrisch** *adj.* dəli, səfeh, divanə, sarsaq, əbləh.

**Narzisse,** *die; -, -n bot.* nərgiz.

**Narzissmus,** *der; - psych.* narzism, özünü son dərəcə sevmə.

**nasal** *adj.* burundan söylənən.

**Nasallaut,** *der; -(e)s, -e* burun səsi; *„m“ u. „n“.*

**naschen** *vt* **1.**yeyib ləzzət almaq;**2.***(von et. heimlich)* gizlicə dadına baxmaq.

**naschhaft** *adj.* şirnisevən.

**Naschhaftigkeit,** *die; -* şirni həvəsi, şirni sevmə.

**Nase,** *die; -, -n* **1.** burun; **2.** *(Geruchssinn)* iybilmə qabiliyyəti; *e-e feine ~ für et. haben* bir şeyi tez hiss etmək; *die ~ in jeden Dreck stecken* hər şeyə burun soxmaq, hər şeyə qarışmaq; *der Zug fuhr mir vor der ~ weg* yetişərkən qatarım getdi; *sich die ~ putzen* burnunu silmək; *immer der ~ nach* düz getmək; *die ~ voll haben von..* bir şeydən cana gəlmək, bez(ik)mək, bıqmaq, çiyrənmək; *F pro ~ e-n Euro* adambaşı*(na)* bir €.

**näseln** *vt* burunda danışmaq.

**näselnd** *adj.* tintin, burunda danışan.

**Nasenbein,** *das; -s, -e* burun sümüyü.

**Nasenbluten** *das; -s* burundan qanaxma.

**Nasenflügel,** *der; -s, -* burun qanadı.

**nase(n)lang** : *F alle ~* tez-tez, ikidə bir.

**Nasenlänge,** *die; -, -n fig. (kleiner Vorsprung)* bir az üstünlük; *j-n um e-e ~ schlagen* bir kəsdən çox az üstünlüklə udmaq.

**Nasenloch,** *das; -(e)s, -¨er* burun bacası, burun dəliyi.

**Nasenschleim,** *der; -(e)s* burun suyu, *vulg.* fırtıq.

**Nasenspitze,** *die; -, -n* burun ucu.

**Nasentropfen,** *die/pl.* burun qətrəsi.

**Nasenstüber,** *der; -s, - F* məzəmmət etmə.

**naseweis** *adj.* zəhlətökən, utanmaz, həyasız, ədəbsiz.

**Nashorn,** *das; -(e)s, -¨er* kərgədən.

**nass** *(nasser, nässer; nassest-, nässest-) adj.* yaş, nəm, rütubətli, islaq; *~ machen* islatmaq, *~ werden* islanmaq.

**Nassauer,** *der; -s, - F* müftəxor.

**nassauern** *vi* müftəxorluq etmək.

**Nässe,** *die; -* rütubət, şeh, islaqlıq, nəm, höyüş.

**nässen** *vt* islatmaq; *vi* **1.** islanmaq; **2.** *(Wunde)* sulanmaq, su vermək.

**nasskalt** *adj.* nəm və soyuq.

**Nation,** *die; -, -en* millət, ulus.

**national** *adj.* milli, ulusal.

**Nationalbewusstsein,** *das; -s* milli şü-

ur, milliyyətçilik.

**Nationaleinkommen,** *das; -s, -* milli gəlir.

**Nationalfahne,** *die; -, -n* milli bayraq.

**Nationalfeiertag,** *der; -(e)s, -e* milli bayram.

**Nationalhymne,** *die; -, -n* milli himn, milli marş.

**nationalisieren** *vt* dövlətiləşdirmək, milliləşdirmək.

**Nationalisierung,** *die; -, -en* dövlətiləşdirmə, milliləşdirmə.

**Nationalismus,** *der; -* milliyyətçilik, millətçilik, nasionalizm.

**nationalistisch** *adj.* mill(iyy)ətçi

**Nationalität,** *die; -, -en* vətəndaşlıq, milliyyət.

**Nationalmannschaft,** *die; -, -en* milli komanda *(Süd. : milli tim).*

**Nationalökonomie,** *die; -* milli iqtisad.

**Nationalrat,** *der; -(e)s, -¨e* milli şura.

**Nationalsozialismus,** *der; -* nasionalsosializm, Almanyada faşizm hərəkatı, nasizm *(Süd. : nazism).*

**Nationalstaat,** *der; -(e)s, -en* milli dövlət.

**Nationaltracht,** *die; -, -en* milli paltar.

**Nationalversammlung,** *die; -, -en* milli məclis.

**Nato,** *die; -* Nato.

**Natrium,** *das; -s* natrium.

**Natriumchlorid,** *das; -s* yemək duzu; natrium xlorid.

**Natron,** *das; -s* natron.

**Natter,** *die; -, -n* suilanı.

**Natur,** *die; -, -en* **1.** təbiət, doğa; **2.** *(Wesen, Charakter)* xasiyyət, xarakter, fitrət, cövhər; *Fragen grundsätzlicher ~* əsasi suallar; *e-e gesunde ~* sağlam və qüvvətli; *von ~ aus* təbii olaraq, doğal olaraq, kortəbii.

**Naturalien,** *die/pl.* **1.** *(Bodenerzeugnisse)* torpaq məhsulları; **2.** *(Lebensmittel)* ərzaq məhsulları, qida vasitələri.

**naturalisieren** *vi* vətəndaşlığa götürmək.

**Naturalismus,** *der; -* naturalizm.

**Naturanlage,** *die; -, -n* anadangəlmə qabiliyyət, fitrət, tinət, huy.

**Naturell,** *das; -s, -e* huy, məzac.

**Naturereignis,** *das; -ses, -se* təbiət hadisəsi.

**Naturerscheinung,** *die; -, -en* təbiət hadisəsi, təbii təzahür, doğa hadisəsi.

**Naturforscher,** *der; -s, -* təbiətşünas, təbiətçi.

**Naturfreund,** *der; -(e)s, -e* təbiət sevən.

**naturgemäß** *adj.* təbii, doğal; *adv.* təbii olaraq, təbii halda.

**Naturgesetz,** *das; -es, -e* təbiət qanunu, doğal qanunu.

**naturgetreu** *adj.* təbiətlə uyğun.

**Naturheilkunde,** *die; -* təbii dərman.

**Naturkatastrophe,** *die, -, -n* təbii fəlakət, doğal fəlakət.

**Naturkunde,** *die; -* təbiətşünaslıq.

**natürlich** *adj.* **1.** təbii, doğal; anadangəlmə;**2.** *(echt)* həqiqi; **3.** *(einfach)* sadə; **4.** *(normal)* adi; *adv.* əlbəttə, şübhəsiz, söz yox ki, doğal olaraq; *F* həlbəttə.

**Natürlichkeit,** *die; -* təbiilik, sadəlik.

**Naturrecht,** *das; -(e)s* təbii hüquq *pl.*

**Naturschutz,** *der; -es* təbiəti mühafizə.

**Naturschutzgebiet,** *das; -(e)s, -e* qoruq.

**Naturwissenschaft,** *die; -, -en* təbiətşünaslıq, təbiət *(doğa)* elmləri.

**Naturwissenschaftler,** *der; -s, -* təbiətşünas, təbiiyyatçı, təbiətçi.

**naturwissenschaftlich** *adj.* təbiət elmlərinə aid.

**Naturwunder,** *das; -s, -* təbiət *(doğa)* möcüzəsi.

**Nautik,** *die; -* gəmiçilik elmi, dənizçilik.

**Navigation,** *die; - mar.* gəmiçilik, dənizçilik.

**navigieren** *vt* yolun istiqamətini göstərmək.

**Nazi,** *der; -s, -s* nasist, alman faşisti.

**Nazismus,** *der; -* Nasizm.

**Nebbich,** *der; -s, -e* bədbəxt insan.

**Nebel,** *der; -s, -* **1.** duman, çən, sis; **2.** *fig. (Schleier)* pərdə, qaranlıq; *et. dem ~ der Vergangenheit entreißen* bir şeyi tarixin qaranlığından çıxartmaq, aydınlaşdırmaq; *in e-m ~ der Unwissenheit le-*

*ben* tam cəhalətdə yaşamaq; *e-n Nebel vor den Augen haben* bulanlıq görmək.

**nebelhaft** *adj.* **1.** dumanlı; **2.** *fig.* anlaşılmaz, qaranlıq, mübhəm.

**Nebelhorn,** *das; -(e)s, -¨er* duman şeypuru, duman sirenası.

**nebelig** *adj.* dumanlı; *fig.* anlaşılmaz, tutqun, qaranlıq.

**nebeln** *vi* duman etmək.

**Nebelscheinwerfer,** *der; -s, -* duman lampası.

**neben** *präp.* **1.** *A -in* yanına, *-in* böyürünə; *etwas neben das Haus stellen* bir şeyi evin yanına qoymaq; *D -in* yanında, *-in* qırağında, *-in* böyüründə, *-in* civarında; tərəfində; *~ einem sitzen* bir kəsin yanında oturmaq; **2.** *D (außer, nebst) -dən* başqa, *-dən* əlavə, *-dən* savayı, yanında; *~ s-m Einkommen* gəlirindən savayı, gəlirinin yanında; **3.** *D (im Vergleich zu) -ilə* müqayisədə; *~ s-m Bruder ist er klein geblieben* qardaşı ilə müqayisədə o kiçik qalıbdır.

**Nebenabsicht,** *die; -, -en* gizli məqsəd, gizli fikir, yan niyyət.

**Nebenamt,** *das; -es, -¨er* əlavə vəzifə, əlavə iş.

**nebenan** *adv.* yanında, yan-yana, yanaşı, qonşu, yan tərəfdə.

**Nebenarbeit,** *die; -, -en* əlavə iş, əlavə məşğuliyyət.

**Nebenausgaben,** *die/pl.* əlavə xərclər.

**Nebenausgang,** *der; -(e)s, -¨e* yan qapı.

**Nebenbedeutung,** *die; -, -en* ikincidərəcəli məna; ikinci məna; *das Wort hat noch e-e ~* kəlmənin ikinci mənası da var.

**nebenbei** *adv.* **1.** yanında, yanaşı; **2.** *(außerdem)* bundan başqa, bununla yanaşı; **3.** *(beiläufig)* yeri gəlmişkən, sözarası.

**Nebenberuf,** *der; -(e)s, -e* əlavə sənət *(ixtisas).*

**Nebenbeschäftigung,** *die; -, -en* əlavə məşğuliyyət, əlavə iş.

**Nebenbuhler,** *der; -s, -* rəqib.

**nebeneinander** *adv.* bir-birinin yanında, yanaşı, yan-yana, daraq-daraq, yanbayan.

**nebeneinanderstellen** *vt* **1.** bir-birinin yanına qoymaq; **2.** *fig.* tutuşdurmaq, müqayisə etmək.

**Nebeneinkünfte,** *die/pl.* əlavə gəlir.

**Nebeneinnahmen,** *die/pl.* əlavə gəlir.

**Nebenerscheinung,** *die; -, -en* əlavə təsir.

**Nebenfach,** *das; -(e)s, -¨er (beim Studium)* əlavə dərs.

**Nebenfluss,** *der; -es, -¨e* çay qolu, budaq çay.

**Nebengebäude,** *das; -s, -* yan bina.

**Nebengeräusch,** *das; -(e)s, -e (Radio)* parazit, əlavə *(kənar)* səs-küy.

**Nebengeschmack,** *der; -(e)s* təm, dad.

**Nebengewinn,** *der; -(e)s, -e* əlavə qazanc.

**nebenher** *adv.* **1.** *(nebenbei)* sözarası, yeri gəlmişkən; **2.** yanaşı.

**nebenherlaufen** *vi* yanaşı getmək.

**nebenhin** *adv.* **1.** *(beiläufig)* yeri gəlmişkən, sözarası; **2.** *(daneben hin)* bununla yanaşı.

**Nebenkläger,** *der; -s, - jur.* əlavə iddiaçı, tələbkar.

**Nebenkosten,** *die/pl.* əlavə xərc.

**Nebenlinie,** *die; -, -n* əlavə xətt, qol.

**Nebenmann,** *der; -(e)s, -¨er* yanında duran, yanında oturan.

**Nebenprodukt,** *das; -(e)s, -e* əlavə məhsul, əlavə ərzaq.

**Nebenrolle,** *die; -, -n Th.* ikinci dərəcəli rol.

**Nebensache,** *die; -, -n* əhəmiyyətsiz şey, xırda şey.

**nebensächlich** *adj.* əhəmiyyətsiz, ikinci dərəcəli.

**Nebensatz,** *der; -es, -¨e gr.* budaq cümlə.

**nebenstehend** *adj.* yanında olan, yanında duran; *die ~en Bemerkungen nicht lesen* yanında olan *(duran)* qeydiyyatı oxumamaq.

**Nebenstraße,** *die; -, -n* yan*(aşı)* küçə, yan*(aşı)* yol, döngə.

**Nebentisch,** *der; -es, -e* yan*(aşı)* miz, qonşu miz; əlavə stol.

**Nebenverdienst,** *der; -es, -e* əlavə gəlir, əlavə qazanc.

**Nebenwirkung,** *die; -, -en* əlavə təsir.

**Nebenzimmer,** *das; -s, -* yanaşı otaq, qonşu otaq, əlavə otaq.

**neblig** *adj.* dumanlı, çənli.

**nebulos, nebulös** *adj.* dumanlı, aydın olmayan, bulanlıq.

**nebst** *präp. D* *-ilə* birlikdə; *er kam ~ Gattin* o xanımı ilə birlikdə gəlmişdi.

**Necessaire,** *das; -s, -s* neseser *(içərisində xırda bəzək şeyləri olan qutu)*; *Nagelnecessaire* dırnaq tutma alətləri üçün kiçik çanta.

**necken** *vt* sataşmaq *(j-n/bir kəsə).*

**Neckerei,** *die; -, -en* sataşma, acıqlandırma.

**neckisch** *adj.* gülməli, istehzalı; zarafatçı.

**Neffe,** *der; -n, -n* qardaşoğlu, bacıoğlu.

**Negation,** *die; -, -en* **1.** rədd etmə, leğv etmə; **2.** *gr.* danma, inkar etmə.

**negativ** *adj.* neqativ, mənfi, inkar.

**Negativ,** *das; -s, -e (Photo)* neqativ.

**Neger,** *der; -s,-* zənci.

**Negerin,** *die; -, -nen* zənci qadın.

**negieren** *vt* danmaq, inkar etmək, rədd etmək.

**Negligé,** *das; -s, -s* gecə paltarı, gecə donu, neqalije.

**nehmen** *vt* **1.** almaq, götürmək, qəbul etmək; qəbz etmək; əxz etmək; **2.** *(j-m et.)*zorla əlindən almaq; **3.** *(stehlen)* oğurlamaq; **4.** *(j-n bei der Hand)* əlindən tutmaq; **5.** *(auffassen)* anlamaq, baxmaq, hesab etmək; *für Ernst ~* ciddi hesab etmək; **6.** *(Speise zu sich ~)* xörək yemək; **7.** *(et. in Angriff)* nəyəsə başlamaq, nəyəsə girişmək; **8.** *(e-n Anfang ~)* başlamaq; **9.** *(ein Ende ~)* sona çatmaq; **10.** *(in die Hand ~)* əlinə almaq; *ein Bad ~* hamam eləmək; *e-n Bus ~* avtobus ilə getmək; *Abschied ~* vidalaşmaq; *sich in Acht ~* özünü gözləmək; *j-n in Haft ~* bir kəsi həbs etmək; *von et. Abstand ~* bir şeydən çəkinmək; bitərəf mövqe tutmaq; *die Verantwortung auf sich ~* məsuliyyəti öz üzərinə *(boynuna)* götürmək; *auf Band ~* banda *(lentə)* yazmaq; *dieses Kleid werde ich nicht nehmen* bu paltarı almayacağam.

**Neid,** *der; -(e)s* paxıllıq, qibtə, gicik, qısqanma, büxl, dargözlülük, həsəd.

**neiden** *vi* paxıllıq etmək; qısqanmaq *(j-m et. / bir kəsə bir şeyə görə).*

**neidisch** *adj.* paxıl, ürəyiqurdlu; qısqanc; *~ sein* paxıllıq etmək, gicik etmək, həsəd aparmaq *(auf A/bir şeyə).*

**Neige,** *die; -, -n* **1.** *(Neigung)* enişlik, maillik, eniş; **2.** *(Rest)* qalıq; **3.** *(Vorräte) zur ~ gehen* yavaş-yavaş qurtarmaq.

**neigen** *vt* əymək, aşağı salmaq; *vi* meyli olmaq, həvəsi olmaq *(zu D / bir şeyə);sich ~ (vor D -in önündə)*əyilmək.

**Neigung,** *die; -, -en* **1.** əyinti, təmayül, maillik; **2.** *(innere)* meyl, həvəs, rəğbət; *~ haben (zu D -ə)* meyl eləmək.

**Neigungswinkel,** *der; -s, -* *math.* maili bucaq.

**nein** *adv.* yox, xeyr, xayır; *er kann nicht ~ sagen* yox demək bilmir.

**Nein,** *das; -s, -s* *mit ~ antworten* yox cavabı vermək, xeyr *(xayır)* demək.

**Neinstimme,** *die; -, -n* əleyhinə verilən səs.

**Nekrolog,** *der; -(e)s, -e* *s. Nachruf.*

**Nektar,** *der; -s* **1.** *mythol.* ab-həyat; **2.** *bot.* nektar, bal şirəsi.

**Nelke,** *die; -, -n* *bot.* **1.** qərənfil; **2.** *(Gewürz)* mixək.

**nennbar** *adj.* ifadə oluna bilən, deyilə bilən; adlanan.

**nennen** *vt* **1.** adlandırmaq, ad vermək; **2.** *(erwähnen)* adını çəkmək, demək, xatırlatmaq; **3.** *(zeigen)* göstərmək; *vr sich ~* adlanmaq; *wie ~ Sie das?* buna nə deyirsiniz?; *genannt* adı çəkilən, yuxarıda deyilən.

**nennenswert** *adj.* adı çəkilməyə layiq.

**Nenner,** *der; -s, -* *math.* məxrəc; *auf e-n ~ bringen* ümumi məxrəcə gətirmək, müxtəlif fikir və maraqları birbirinə yaxınlaşdırmaq.

**Nennung,** *die; -, -en* **1.** adlandırma, demə; **2.** *(Sport)* yarış üçün ad yazdırma.

**Nennwert,** *der; -(e)s, -e* ismi dəyər, no-

minal qiymət.

**Neofaschismus,** *der; -* neofaşizm.

**Neokolonialismus,** *der; -* neokolonializm, yeni müstəmləkəçilik.

**Neologismus,** *der; -, -men ling.* neoloqizm, yeni kəlmə *(deyim)*, yeni terminus.

**Neon,** *das; -s* neon.

**Neonröhre,** *die; -, -n* neon lampası.

**Nepotismus,** *der; -* qohumbazlıq.

**Nepp,** *der; -s, - F* fırıldaqçılıq, kələkbazlıq.

**neppen** *vt* kələkbazlıq etmək, fırıldaqçılıq etmək; *geneppt werden* kələk yemək, tovlanmaq.

**Nerv,** *der; -s, -en* əsəb, sinir; *die ~en verlieren* əsəbləri pozulmaq, dəng olmaq, sinirlənmək; *j-m auf die ~en gehen/ fallen* bir kəsi əsəbiləşdirmək, dəng etmək, narahat etmək; *die ~en behaltan* əsəbiləşməmək, əsəbləri pozmamaq.

**nerven** *vt F* əsəbləri pozmaq, hirsləndirmək, dəng etmək, dəngəsər etmək.

**Nervenarzt,** *der; -(e)s, -¨e* əsəb həkimi, əsəb mütəxəssisi.

**nervenaufreibend** *adj.* əsəbiləşdirici.

**Nervenentzündung,** *die; -, -en* əsəb iltihabı.

**Nervenheilanstalt,** *die; -, -en* əsəb xəstəxanası.

**Nervenkrankheit,** *die; -, -en* əsəb xəstəliyi.

**Nervenkrieg,** *der; -(e)s* əsəb müharibəsi.

**Nervenkrise,** *die; -, -n* əsəb böhranı.

**Nervenleiden,** *das; -s, -* əsəb xəstəliyi, əsəb naxoşluğu.

**Nervensäge,** *die; -, -n fig.* əsəbiləşdirici şey və ya adam.

**nervenschwach** *adj.* əsəbi, əsəbləri zəif.

**Nervenschwäche,** *die; -, -n* əsəb zəifliyi.

**Nervensystem,** *das; -s, -e* əsəb sistemi.

**Nervenzusammenbruch,** *der; -(e)s, -¨e* əsəb sisteminin pozulması.

**nervig** *adj.* güclü, qüvvəli, davamlı.

**nervlich** *adj.* əsəbi, əsəblərə aid.

**nervös** *adj.* əsəbi.

**Nervosität,** *die; -* əsəbilik.

**Nerz,** *der; -es, -e zo.* su samuru.

**Nessel**[1]**,** *der; -s (Gewebe)* kətan parça, parça.

**Nessel**[2]**,** *die; -, -n bot.* gicitkən; *F sich in die ~n setzen* öz başına bəla açmaq.

**Nesselausschlag,** *der; -s* örə xəstəliyi.

**Nesselfieber,** *das; -s s. Nesselausschlag.*

**Nest,** *das; -(e)s, -er* **1.** yuva; **2.** *fig.* daxma; **3.** *(Kleinstadt)* qəsəbə; ucqar.

**nesteln** *vi* **1.***(knüpfen)* bağlamaq, bənd etmək; **2.** *(an et. herumfingern)* bir şeyi açmağa əlləşmək.

**Nestling,** *der; -s, -e* ətbala, ətcəbala.

**nett** *adj.* **1.** *(freundlich)* mehriban, xoşsifət; **2.** *(hübsch)* gözəl, qəşəng; **3.** *(ansprechend)* xoş, sevimli, əziz, xoşagəlimli; *er war sehr ~ zu mir!* o, mənimlə *(mənə qarşı)* çox mehriban idi; *das ist sehr ~ von dir* çox lütf edirsən, mərhəmət edirsən.

**netto** *adv.* xalis, netto.

**Nettoeinkommen,** *das; -s, -* xalis gəlir.

**Nettogewicht,** *das; -(e)s, -e* təmiz çəki, xalis çəki.

**Nettolohn,** *der; -(e)s, -¨e* xalis gəlir.

**Netz,** *das; -es, -e* **1.** tor; şəbəkə *ins ~ gehen fig.* tora düşmək, tələyə düşmək; **2.** *an.* piylik.

**Netzanschluss,** *der; -es, -¨e* elektrik şəbəkəsinə bağlama.

**netzartig** *adj.* torşəkilli, tora oxşar, şəbəkəli.

**Netzhaut,** *die; - anat. (des Auges)* tor qişa.

**Netzwerk,** *das; -s, -e* şəbəkə.

**neu** *adj.* təzə, yeni, əcəri; *ganz ~* lap təzə; *das ist mir ~!* bunu təzə eşidirəm!; *was gibt es Neues?* təzə xəbər varmi?, nə var nə yox?; *von ~em anfangen* yenidən başlamaq, *seit ~(est)em* qısa bir müddətdən bəri; *adv. ~ anfangen* təzədən *(yenidən)* başlamaq; *~ eröffnen* təzə açmaq; *~es Kleid* təzə *(əcəri)* paltar.

**Neuankömmling,** *der; -s, -e* təzə gələn, yeni gələn.

**Neuanschaffung,** *die; -, -en* təzə alınan

şey.

**Neuauflage,** *die; -, -n* yeni nəşr.

**Neuausgabe,** *die; -, -n* yeni nəşr.

**Neubau,** *der; -s, -ten* yeni tikinti.

**Neubauwohnung,** *die; -, -en* yeni tikilmiş mənzil.

**Neubearbeitung,** *die; -, -en* yenidən üzərində işləmə, yoxlama.

**Neubildung,** *die; -, -en* **1.** yenidən yaradılma, yenitörəmə; **2.** *(Wort)* yeni kəlmə, neologizm.

**Neueinrichtung,** *die; -, -en* yeni qurulmuş, yeni açılmış.

**Neueinstellung,** *die; -, -en* yeni işə götürmə, yeni istixdam etmə.

**Neuentdeckung,** *die; -, -en* yeni kəşf.

**neuerdings** *adv.* **1.** *(seit neuestem)* bu günlərdə, son zamanlarda, əvaxir; **2.** *(wieder)* ikinci dəfə, ikinci kərə.

**Neuerer,** *der; -s, -* yenilikçi, islahatçı.

**neuerlich** *adj.* bu günlərdə, bir az bundan qabaq; *adv.* yeni, təzə.

**Neueröffnung,** *die; -, -en* yeni*(dən)* açılmış, təzə açılmış.

**neuerrichtet** *adj.* yeni düzəlmiş.

**Neuerscheinung,** *die; -, -en* yeni nəşr olmuş, yeni çıxmış əsər.

**Neuerung,** *die; -, -en* yenilik.

**Neue(s),** *das; -* yeni *(təzə)* xəbər, yenilik; *was gibt es ~ ?* təzə nə xəbər var?, nə var nə yox?.

**neugeboren** *adj.* anadan təzə olmuş, təzə doğulmuş; *F ich fühle mich wie ~* özümü təzə anadan olmuş kimi hiss edirəm.

**neugestalten** *vt* yenidən qurmaq, yenidən düzəltmək, lazımi şəklə salmaq.

**Neugestaltung,** *die; -* yenidəntəşkil, yenidənqurma.

**Neugier(de),** *die; -* maraq, hər şeyi bilmək həvəsi.

**neugierig** *adj.* maraqlanan; hər şeyi bilməyə çalışan.

**Neuheit,** *die; -, -en* yenilik, yeni şey.

**Neuigkeit,** *die; -, -en* təzə xəbər, xəbər; *die ~ des Tages* günün yenilikləri.

**Neujahr,** *das; -(e)s, -* yeni il; *Prosit ~!* yeni iliniz mübarək! .

**Neujahrsfest,** *das; -(e)s, -e* yeni il bayramı; novruz bayramı.

**Neujahrswünsche,** *die/pl.* yeni ilin təbrikləri.

**Neujahrstag,** *der; -(e)s, -e* yeni ilin birinci günü, il başı.

**Neuland,** *das; -es, -¨er* yeni ərazi, xam torpaq; *F das ist für mich ~* mənim bu işdə hələ təcrübəm yoxdur.

**neulich** *adv.* bu günlərdə, bir az bundan qabaq.

**Neuling,** *der; -s, -e* təzə işçi, yeni şagird.

**neumodisch** *adj.* təzə modalı.

**Neumond,** *der; -(e)s* təzə ay, hilal.

**neun** *Zahladj.* doqquz.

**Neun,** *die; -, -en* doqquzluq; doqquz; *mit der 9 fahren* doqquz ilə getmək.

**neunfach** *adj.* doqquz dəfə.

**neunfältig** *adj.* doqquz dəfə.

**neunhundert** *Zahladj.* doqquz yüz.

**neunhundertste** *Zahladj.* doqquzyüzüncü.

**neunjährig** *adj.* doqquz yaşlı, doqquz yaşında.

**neunmal** *adv.* doqquz dəfə.

**neunmalklug** *adj.* özünü çox məlumatlı bilən, loğmanlıq edən.

**neuntägig** *adj.* doqquzgünlük.

**neunte** *adj.* doqquzuncu.

**Neuntel,** *das; -s, -* doqquzuncu hissə.

**neunzehn** *Zahladj.* on doqquz.

**neunzig** *Zahladj.* doxsan.

**neunzigste** *adj.* doxsanıncı.

**neuordnen** *vt* yenidən qurmaq, yenidən təşkil etmək.

**Neuordnung,** *die; -* dəyişdirmə, islah etmə; yeni quruluş, yeni qayda, yeni düzən.

**Neuralgie,** *die; -, -n* əsəb ağrısı, nevralgiya *(Süd. : nevralji).*

**neuralgisch** *adj.* nevralji ağrı; *~er Punkt fig.* həssas nöqtə.

**Neurasthenie,** *die; -, -n med.* əsəb xəstəliyi.

**Neurastheniker,** *der; -s, -* əsəb xəstəsi.

**Neuregelung,** *die; -, -en* yeni qaydaya

salma, yenidən təşkil.

**neureich** *adj.* sonradan görmə.

**Neurologe,** *der; -n, -n* əsəb həkimi.

**Neurologie,** *die; -* nevrologiya.

**Neurose,** *die; -, -n* nevroz.

**Neurotiker,** *der; -s, -* əsəb xəstəsi, vasvası.

**neurotisch** *adj.* nevrozlu

**Neuseeland;** *-s* Yeni Zelandiya.

**neuseeländisch** *adj.* yeni zelandiyalı.

**neutral** *adj.* **1.** bitərəf, neytral; **2.** *Chem.* neytral.

**neutralisieren** *vt* bitərəfləşdirmək, neytrallaşdırmaq.

**Neutralität,** *die; -* bitərəflik, neytrallıq.

**Neutron,** *das; -s, -en* neytron.

**Neutronenbombe,** *die; -, -n* neytron bombası.

**Neutrum,** *das; -s, -ra/-ren* *gr.* orta cinsli söz, cinssiz.

**neuvermählt** *adj.* yeni evlənmiş.

**Neuwahl,** *die; -, -en* yenidən seçki, yenidən seçilmə.

**neuwertig** *adj.* təzə, təzə kimi.

**Neuzeit,** *die; -* yeni əsr.

**neuzeitlich** *adj.* modern.

**New York** nyu york.

**nicht** *adv.* yox; *(Vern.part)* deyil; *noch ~* hələ yox; *warum ~?* niyə yox?; *~ doch !* etmə!, eləmə !; *~ wahr?* belə deyilmi?, doğru deyilmi?; *er ist nicht verheiratet* o, evli deyil; *er ist nicht allein* o, tək deyil; *bitte ~ rauchen!* xahiş edirik *(lütfən)* papiros çəkməyin!; *durchaus ~* əsla, qətiyyən; *nicht mehr* artıq; *ich liebe dich ~ mehr!* artıq səni sevmirəm!; *hier ist doch nicht Berlin* bura Berlin deyil; *adv. ~ nicht* heç, əbəda, əsla, əslən.

**Nichtachtung,** *die; -* hörmətsizlik, saymamazlıq.

**nichtamtlich** *adj.* qeyri-rəsmi.

**Nichtanerkennung,** *die; -* qəbul etməmə, tanımama.

**Nichtangriffspakt,** *der; -(e)s, -e* hücum etməmə haqqında pakt *(müqavilə)*.

**Nichtbeachtung,** *die; -* riayət etməmə, məhəl qoymama, saymama, yerinə yetirməmə .

**Nichtbefolgung,** *die; -* *s. Nichtbeachtung.*

**Nichte,** *die; -, -n* qardaşqızı, bacıqızı.

**Nichteinhaltung,** *die; -* riayət etməmə.

**Nichteinmischung,** *die; -* qarışmama.

**Nichterfüllung,** *die; -* yerinə yetirməmə; icra etməmə.

**Nichterscheinen** *das; -s* **1.** *(bei e-r Behörde)* gəlməmə; **2.** *(e-s Buches)* çıxmama.

**nichtexistent** *adj.* yox, mövcud olmayan.

**nichtig** *adj.* **1.** *(ungültig)* batil, ləğv edilmiş, etibarsız; *für ~ erklären* etibarsız elan etmək, batil etmək; **2.** *(eitel)* boş, dəyərsiz;

**Nichtigkeit,** *die; -, -en* *jur.* etibarsızlıq, təsiri olmama.

**nichtöffentlich** *adj.* ümumi olmayan, açıq olmayan, bağlı qapı dalında, xüsusi.

**Nichtleiter,** *der; -s, -* qeyrikeçirici.

**Nichtmitglied,** *das; -(e)s, -er* üzv olmayan.

**Nichtraucher,** *der; -s, -* papiros çəkməyən.

**Nichtraucherzone,** *die; -, n -* papiros çəkilməyən yer.

**nichtrostend** *adj.* paslanmayan.

**nichts** *pron.* **1.** heç, heç bir şey, heç nə; *das macht ~* heç eybi yoxdur; **2.** *~ als ..., ~ wie ...* ancaq; *-dən* başqa heç nə; **3.** *für ~* heçə, hədər, əbəs yerə; **4.** *wie ~* çox tez, zəhmətsiz; **5.** *~ da! F* olmaz, bu haqda heç söhbət ola bilməz; **6.** *mir ~, dir ~ F* birdən, öz-özünə, səbəbsiz, duran yerdə; **7.** *für ~ und wieder ~* lap boş yerə, heç bir şeydən ötrü; *das hat ~ auf sich* bu əhəmiyyətsiz bir şeydir; *es bleibt mir weiter ~ übrig* bundan başqa çarəm yoxdur.

**Nichts,** *das; -* **1.** heç, heç bir şey, həç nə, heçlik; *aus dem ~* heçdən; **2.** *fig.* əhəmiyyətsizlik; əhəmiyyəti olmayan, cüzi.

**nichtsahnend** *adj.* xəbərsiz.

**Nichtschwimmer,** *der; -s, -* üzmək ba-

carmayan.

**nichtsdestotrotz** *adv.* buna baxmayaraq, bununla belə.

**nichtsdestoweniger** *adj.* buna baxmayaraq, bununla belə.

**Nichtsnutz,** *der; -es, -e* avara, yaramaz; tüfeyli.

**nichtsnutzig** *adj.* yaramaz, faydasız.

**nichtssagend** *adj.* əhəmiyyətsiz, cüz`i.

**Nichtstuer,** *der; -s, -* avara, tənbəl, tüfeyli, haylaz.

**nichtswürdig** *adj.* alçaq, murdar, yaramaz.

**Nichtwürdigkeit,** *die; -* alçaqlıq.

**Nichtvorhandensein,** *das; -s* olmama, mövcud olmama, əldə olmama.

**Nichtwissen,** *das; -s* bilməməzlik, xəbərsizlik.

**Nichtzulassung,** *die; -* yol ver(il)məmə.

**nichtzutreffend** *adj.* əlaqəsiz, mərbut olmayan.

**Nickel,** *das; -s* nikel *(Süd. : a. vərşo).*

**nicken** *vt : mit dem Kopf ~* başını yırğalamaq, başını əymək *(salam üçün).*

**Nickerchen,** *das; -s, - : ein ~ machen* yuxu almaq.

**nie** *adv.* əsla, heç bir zaman, heç bir vaxt, əbəda, əbədən, əslən; *~ und nimmer* əsla; *noch ~* heç bir vaxt; *~ wieder* daha birdə, heç vaxt; *komm ~ wieder hierher!* bir daha *(əslən)* buralara gəlmə!; *interj. ~!* məbada!

**nieder** *adj.* **1.** *(primitiv)* alçaq, rəzil, dəni; **2.** *(Rang)* aşağı, alçaq; *adv.* aşağı*(ya); auf und ~* yuxarı-aşağı; *~ mit ...!* məhv olsun !, rədd olsun!; *er ging im Zimmer auf und ~* otaqda bir o tərəfə bir bu tərəfə gedib gəlirdi.

**niederbeugen** *vt* əymək; *sich ~* əyilmək.

**niederbrennen** *vt* yandırıb kül etmək; *vi* yanıb kül olmaq.

**niederbrüllen** *vt* üstünə bağırıb səsini batırmaq.

**niederdeutsch** *adj.* almaniyanın şimal məntəqəsində danışılan ləhcələr.

**Niederdruck,** *der; -(e)s* aşağı təzyiq.

**Regierung,** *die; -, -en* hökumət, dövlət, hakimiyyət, hökmdarlıq; *an der Regierung sein* hökumət başında olmaq; *an die ~ kommen* hökumət başına gəlmək, iqtidara gəlmək; *die deutsche ~* Alman dövləti.

**Regierungsbildung,** *die; -* hökumətin təşkili.

**Regierungserklärung,** *die; -, -en* hökumət bəyanatı.

**regierungsfeindlich** *adj.*hökumətə qarşı, dövlət əleyhinə, hökumətin ziddinə, dövlətəzidd.

**Regierungsform,** *die; -, -en* hökumətin idarə forması.

**Regierungskoalition,** *die; -, -en* höku-

mət ittifaqı *(koalisiyası)*.

**Regierungspräsident,** *der; -en, -en* əyalət idarəsinin rəisi, vali.

**Regierungssprecher,** *der; -s, -* hökumət sözcüsü.

**Regierungswechsel,** *der; -s, -* hökumətin dəyişməsi.

**Regierungszeit,** *die; -* hökumət dövrü.

**Regime,** *das; -s, -s* rejim, totaliter dövlət quruluşu; *das reaktionäre ~* irticai *(irticaçı)* rejim.

**Regiment,** *das; -(e)s, -er* **1.** *mil.* alay; **2.** *(Leitung)* idarə, idarə etmə.

**Region,** *die; -, -en* sahə, məntəqə, bölgə; vilayət.

**regional** *adj.* məhəlli, yerli, reqional.

**Regisseur,** *der; -s, -e* rejissor.

**Register,** *das; -s, -* **1.** *(Index)* siyahı; mündəricat, föhrüst; **2.** *mus.* registr.

**Registratur,** *die; -, -en* **1.** *(Ort)* qeydiyyat idarəsi; **2.** *(Tätigkeit)* qeyd etmə.

**registrieren** *vt* qeydə almaq, dəftərə keçirmək, kitaba salmaq; *fig.* izləmək, nəzər etmək; *aufmerksam ~e er alle seine Bewegungen* onun bütün hərəkətlərini diqqətlə izləyirdi.

**registriert** *adj.* qeydiyyatlı.

**Registrierung,** *die; -, -en* qeydə alma, dəftərə keçirmə, qeydetmə.

**Reglement,** *das; -s, -s* *(Satzung, Vorschriften)* nizamnamə, əsasnamə; *veralt.* dəsturüləməl; qayda.

**Regler,** *der; -s, - techn.* requlator.

**regnen** *vi* yağmaq; *es regnet* yağış yağır; *es regnet in Strömen* sel kimi yağış yağır.

**regnerisch** *adj.* yağışlı.

**Regress,** *der; -es, -e* *jur. (Entschädigung, Rückgriff)* təzminat haqqı; geri vermə haqqı, qaytarma haqqı.

**Regressanspruch,** *der; -s, -¨e* müraciət haqqı.

**Regressforderung,** *die; -, -en* geri alma tələbi, təzminat tələbi.

**regsam** *adj.* fəal; hərəkətli.

**regulär** *adj.* **1.** müntəzəm; normal; **2.** *mil.* intizami.

**regulieren** *vt* qaydaya salmaq, tənzim etmək, düzəltmək, yoluna qoymaq, nizama salmaq.

**Regulierung,** *die; -, -en* tənzim, qaydaya salma; düzəltmə.

**Regung,** *die; -, -en* **1.** hərəkət; **2.** *(Gefühlsregung)*əmələ gələn hiss; coşğunluq; ilham.

**regungslos** *adj.* hərəkətsiz, cansız.

**Regungslosigkeit,** *die; -* hərəkətsizlik.

**Reh,** *das; -(e)s, -e* ahu.

**Rehabilitation,** *die; -, -en* **1.** şərəf və etibarını yenidən ələ keçirmə, bəraət, təmizə çıxarma; **2.** *med.* cismi və ruhi qabiliyyəti yenidən sağaltma, rehabilitasiya *(Süd. : a. rehabilitasion).*

**rehabilitieren** *vr sich ~* bəraət qazanmaq, təmizə çıxarmaq.

**Reibe,** *die; -, -n* sürtgəc, rəndə.

**Reibeisen,** *das; -s, - s. Reibe.*

**reiben** *vt* **1.** sürtmək; ov(uşdur)maq; **2.** *(zerreiben)* rəndələmək; *sich (D) et. ~* ovuşdurmaq; *et. von/aus et. ~* bir şeyi bir şeydən silmək; *vi et. reibt* bir şey sürtür; *vr sich an j-m ~ F* kiməsə hirslənmək, kiməsə acıqlanmaq; *fig. sich die Hände ~* başqasının ziyan görməsindən sevinmək; *fig. j-m et. unter die Nase ~* bir kəsin başına qaxanc *(qaxınc)* etmək; edilən yaxşılığı adamın üzünə vurmaq, minnət qoymaq.

**Reiberei,** *die; -, -en* sözləşmə, dalaşma, ziddiyyət, fikir ayrılığı; sürtünmə.

**Reibung,** *die; -, -en* sürtünmə; ovuşdurma; didişmə.

**reibungslos** *adj. (problemlos)* maneəsiz,əngəlsiz, ziddiyyətsiz, qalmaqalsız.

**Reich,** *das; -(e)s, -e* **1.** imperatorluq, imperiya, böyük dövlət; **2.** *(Bereich, Gebiet)* sahə; **3.** *(Pflanzenreich, Tierreich)* aləm; *rel. das ~ Gottes* əbədiyyət.

**reich** *adj.* **1.** *(an D)* zəngin, dövlətli, varlı, pullu, sərvətli, qəni, başıətli, cahcalallı, dəm-dəsgahlı, dövlətmənd; **2.** *(reichlich)* bol; *~ werden* varlı olmaq, zəngin olmaq, pullanmaq, dövlətlənmək; *F* dəsgah *(dövlət)* sahibi olmaq.

**Reiche,** *der u. die; -n, -n pl.* zənginlər, varlılar, dövlətlilər, əğniya.

**reichen** *vt* vermək, uzatmaq; *die Hand ~* əl vermək; *dem Säugling die Brust ~* körpə uşağa məmə vermək, *vi (genügen)* kifayət etmək, çatmaq; *das Geld reicht nicht* pul çatmır; *das reicht!* yetər!; *mir reicht´s*! daha bəsdir! burama gəldi!

**reichhaltig** *adj.* **1.** bol, zəngin; **2.** məzmunlu, mənalı.

**reichlich** *adj.* **1.** *(sehr viel)* bol, bollu, çoxlu, firavan; **2.** *(et. mehr)* bir az çox, lazımi qədər; *adv.* çox, xeyli, həddindən artıq; istədikcə; *fig.* evdolusu; *~ spät* çox gec; *~ werden* çoxalmaq.

**Reichstag,** *der; -(e)s, -e* raystaq, almaniyanın milli məclisi, milli məclisin binası.

**Reichtum,** *der; -(e)s, -¨er* sərvət, zənginlik; bolluq, var-dövlət, varlılıq, dövlətlilik, firavanlıq, mal-mülk, mal-madar; dəbdəbə, dəs(t)gah.

**Reichweite,** *die; -, -n* **1.** əl çatma; *das liegt außerhalb meiner ~* əlim ona çatmır; *innerhalb der ~* əl çatan; **2.** *mil.* uzaq vurma qabiliyyəti; təsir dairəsi; çağırım.

**reif** *adj.* **1.** *(Obst)* yetişmiş, dəymiş; **2.** *(körperlich)* yetişkən, həddi-büluğa çatmış, yetgin, ərgən; **3.** *(erfahren)* kamallı, dolğun; *~ werden* yetişmək.

**Reif¹,** *der; -(e)s, - (Tau)* qırov.

**Reif²,** *der; -(e)s, -e* **1.** halqa; **2.** *(Ring)* üzük; **3.** *(Armreif)* bilərzik.

**Reife,** *die; -* **1.** yetişmə; **2.** *(körperlich)* yetişkənlik, büluğ, ərgənlik; kamillik.

**reifen¹** *vi* yetişmək, dəymək; həddi-büluğa çatmaq; *die Trauben sind reif* üzümlər dəymişdir.

**reifen²** *vt* çənbər taxmaq.

**Reifen** *der; -s, -* **1.***(Auto)* çənbər, qurşaq; **2.** *(Gummireifen)* lastik, təkər lastiyi.

**Reifenpanne,** *die; -, -n* təkərin *(lastiyin)* deşilməsi

**Reifenwechsel,** *der; -s, -* təkərin *(lastiyin)* dəyişdirilməsi.

**Reifeprüfung,** *die; -, -en (Abitur)* buraxılış imtahanı *(orta məktəbdə)*.

**Reifezeugnis,** *das; -ses, -se* attestat və ya diplom.

**reiflich** *adj.* əsaslı, dərin; yetgin; *nach ~er Überlegung* dərin düşüncədən sonra, yaxşı düşünməkdən sonra.

**Reigen,** *der; -s, -* dairə şəklində oynama, yallı.

**Reihe,** *die; -, -n* **1.** sıra, növbə, səf, cərgə; düzüm; **2.** *math.* silsilə; *in ~n ordnen* düzmək, düzüb-qoşmaq; **3.** *(Menge)* dəstə; **4.** *(Serie)* seriya, külli miqdar; *der ~ nach* növbə ilə; *ich bin an der ~* növbə mənimdir; *aus der ~ fallen/ tanzen* qaydanı pozmaq; öz bildiyini etmək.

**reihen** *vt* **1.** sıraya düzmək, cərgələmək; **2.** *(Perlen usw.)* düzmək; *vr et. reiht sich an et.* bir-birinin ardınca gəlmək.

**Reihenfolge,** *die; -, -n* növbə, növbə ilə, sıra ilə gəlmə; *in alphabetischer ~* əlifba sırası ilə.

**Reihenhaus,** *das; -es, -¨er* sıra ilə tikilmiş evlər, cərgə ilə tikilmiş evlər *pl.*

**Reihenschaltung,** *die; -, -en el.* ardıcıl birləşdirmə.

**Reihenuntersuchung,** *die; -, -en* dəstə-dəstə müayinə, qrup-qrup müayinə.

**reihenweise** *adv.* **1.** cərgə-cərgə; daraq-daraq; **2.** *fig.* külli miqdarda.

**Reiher,** *der; -s, - zo.* vağ quşu.

**reihum** *adv.* növbə ilə, sıra ilə.

**Reim,** *der; -(e)s, -e* qafiyə.

**reimen** *vt* qafiyəyə salmaq; *vr sich ~* qafiyələşmək.

**rein¹** *adj.* **1.** *(echt)* xalis, əsil, həqiqi, cılxa, çim; **2.** *(sauber)* təmiz, saf, arı, aşqarsız, cılğı; **3.** *(klar)* aydın, duru; **4.** *(aufrichtig, unschuldig)* təmiz, düzgün; ismətli, günahsız; *adv.* tamamilə; *fig. die Luft ist ~ !* qorxulu bir şey yoxdur, təhlükə yoxdur; *j-m ~en Wein einschenken* bir kəsə həqiqəti açıq söyləmək; *et. ins Reine bringen* bir şeyi düzəltmək; *für (um) ~ gar nichts* heç üçün, heç bir şey üçün; *~en Tisch machen* bir şeyi aydınlaşdırmaq, qaydaya salmaq; *~ zufällig* təsadüfən; *ein ~es Gewissen* təmiz vic-

dan; *mit sich (D) im Reinen sein* vicdanı rahat olmaq.

**rein**[2] *F s. herein, hinein.*

**Reinemachen** *das; -s* təmizləmə.

**Reinerlös,** *der; es, -e* xalis gəlir.

**Reinertrag,** *der; -(e)s, -¨e* xalis gəlir.

**Reinfall,** *der; -(e)s, -¨e F* müvəffəqiyyətsizlik; yanılma; batma.

**reinfalln** *vi* aldanmaq *(auf j-n/et. bir kəsə/ bir şeyə).*

**Reingewinn,** *der; -(e)s, -e* təmiz mənfəət, xalis gəlir, təmiz *(saf)* qazanc.

**reinhängen** *vr sich ~ fig. (engagieren)* öhdəsinə götürmək, *-ə* girişmək.

**reinhauen** *vi F* **1.** *(beim Essen)* doyunca yemək, tıxmaq; **2.** *j-m e-e ~* bir kəsi döymək, bir kəsi vurmaq.

**Reinheit,** *die; -* **1.** *(Sauberkeit)* təmizlik; **2.** *(Klarheit)* duruluq, aydınlıq, saflıq.

**reinigen** *vt* təmizləmək; arıdmaq, arıtmaq; durultmaq; *das Wasser ~* suyu durultmaq *(təmizləmək); sich ~* arınmaq; təmizlənmək, durulmaq.

**Reiniger,** *der; -s, -* təmizləyən maddə, təmizləyici maddə.

**Reinigung,** *die; -, -en* təmizləmə, təmizlənmə, təmizlik; *in die ~ bringen* təmizləməyə vermək.

**Reinigungsmilch,** *die; -* təmizləmə südü.

**Reinigungsmittel,** *das; -s, -* təmizləyici maddə.

**Reinkarnation,** *die; -, -en* yenidən doğulma, öləndən sonra başqa bir vücudda doğulma, reinkarnasiya.

**Reinkultur,** *die; - fig. : in ~* ən saf *(əsl)* şəkildə.

**reinlegen** *vt fig.* aldatmaq *(j-n/bir kəsi).*

**reinlich** *adj.* **1.** *(sauber)* təmiz; **2.** təmizkar.

**Reinlichkeit,** *die; -* təmizlik.

**reinrassig** *adj.* əsl cins, əsl qan.

**Reinschrift,** *die; -, -en* təmiz köçürülmüş yazı, təmiz kopiya.

**reinseiden** *adj.* xalis ipək.

**reinwaschen** *vt (sich von e-m Verdacht usw.)* günahsızlığını bildirmək, təmizə çıxarmaq.

**Reis**[1]**,** *der; -es* **1.** düyü; *(ungeschälter Reis)* çəltik; **2.** *(Speise)* p(i)lov .

**Reis**[2]**,** *das; -es, -er* cavan budaq; *viele ~er machen e-n Besen* güc birlikdədir.

**Reismehl,** *das; -s, -e* düyü unu.

**Reise,** *die; -, -n* səfər, səyahət; *gute ~!* yaxşı yol!; *auf ~n sein* səyahətdə *(səfərdə)* olmaq; *die ~ antreten* səfərə çıxmaq; *e-e Reise nach Berlin* Berlinə bir səfər.

**Reiseandenken,** *das; -s, -* sovqat.

**Reisebegleiter,** *der; -s, -* yol yoldaşı, səyahət yoldaşı.

**Reisebeschreibung,** *die; -, -en* səyahətnamə.

**Reisebüro,** *das; -s, -s* səyahət bürosu.

**Reisebus,** *der; -ses, -se* səyahət avtobusu.

**Reiseführer,** *der; -s, -* səyahət rəhbəri.

**Reisegepäck,** *das; -(e)s* yük, baqaj.

**Reisegesellschaft,** *die; -, -en* səyahət şirkəti, turist şirkəti.

**Reisegruppe,** *die; -, -en* səyahət qrupu.

**Reisekoffer,** *der; -s, -* çamadan.

**Reisekosten,** *die/pl.* yolxərci.

**Reiselust,** *die; -* səyahət arzusu.

**reiselustig** *adj.* səyahət etməyi sevən.

**reisen** *vi* səyahət etmək, səfərə çıxmaq, səfərə getmək; *durch Aserbaidscahn ~* Azərbaycanı gəzmək; *ins Ausland ~* xaricə səyahət etmək.

**Reisen,** *das; -s, -* səfər, səyahət, gəzmə.

**Reisende,** *der u. die; -n, -n* səyahət edən, turist, səfərdə olan, səyahətçi.

**Reisenecessaire,** *das; -s, -s* bəzək *(kosmetika)* çantası.

**Reisepass,** *der; -es, -¨e* xarici pasport, səfər pasportu.

**Reiseproviant,** *der; -(e)s* sovqat.

**Reiseroute,** *die; -, -n* səyahət yolu.

**Reisescheck,** *der; -s, -s* turistlik çeki.

**Reiseziel,** *das; -(e)s, -e* səfərin *(səyahətin)* məqsədi.

**Reisfeld,** *das;-(e)s, -er* çəltik tarlası.

**Reisig,** *das; -s* çırpı, çör-çöp, çalın-çır-

pı.

**Reißaus :** *~ nehmen (vor j-m/et.)* qaçmaq, əkilmək.

**Reißbrett,** *das; -(e)s, -er* cizgi taxtası.

**reißen** *vt* **1.** çəkmək; **2.***(zerreißen)* dartmaq, cırmaq; *in Stücke ~* parçalamaq, parça-parça etmək; **3.** *(herausreißen)* çəkib qopar(t)maq; yolmaq; **4.** *(an sich)* öz tərəfinə çəkmək, pəncəsinə keçirmək, qarmalamaq, qamarlamaq; *fig.* qəsb eləmək, qəsb etmək; **5.** *mit sich (D) ~* yerdə sürümək; **6.** *(Tier)* yırtmaq; *vr sich ~* 1. *(um j-m/et.)* çətinliklə əldə etmək, vuruşa-vuruşa almaq, *bir şey üçün* mübarizə etmək; 2. *(die Haut)* çatlamaq; *vi* 1.*(Faden usw.)* qırılmaq; 2. *(Geduld)* səbri tükənmək; 3. *(platzen)* partlamaq; çatlamaq; tikə-tikə olmaq; *fig. gerissen* bic, bərkdən-boşdan çıxmış; *fig. ein Loch in die Kasse ~* xərcə salmaq.

**Reißen,** *das; -s* **1.** *s. reißen;* **2.** *med. :* 1. *(Rheuma)* revmatizm *(Süd. : romatizm)*; 2. *(Schmerz)* sancı, ağrı.

**reißend** *adj.* **1.** *(Fluss)* coşqun,coşğun; **2.** *(Tier)* yırtıcı, vəhşi, budayıcı; *~den Absatz finden* çox satılmaq, əlüstü satılmaq.

**Reißer,** *der; -s, - (Film, Buch)*çox tamaşa olunan film və ya çox satılan kitab.

**reißerisch** *adj.* fövqəladə, gurultulu.

**Reißnagel,** *der; -s, ¨-* basma düymə.

**Reißverschluss,** *der; -es, -¨e* bənd.

**Reißzwecke,** *die; -, -n s. Reißnagel.*

**Reitbahn,** *die; -, -en* at sürmə meydanı.

**reiten** *vi* ata minmək, at üstündə getmək, at sürmək.

**Reiter,** *der; -s, -* atlı, ata minmiş, atminən.

**Reiterei,** *die; -* süvari qoşun.

**Reithose,** *die; -, -n* at sürmə şalvarı, dar şalvar.

**Reitlehrer,** *der; -s, -* at sürmə öyrədən, at sürmə təlimçisi.

**Reitpferd,** *das; -(e)s, -e* minik atı.

**Reitsport,** *der; -(e)s* at sürmə idmanı, atçılıq.

**Reitstall,** *der; -(e)s, -¨e* tövlə.

**Reiz,** *der; -es, -e* **1.** *(Anziehungskraft)* cazibə, cəlb, cəlb etmə; **2.** *(Schönheit)* gözəllik; **3.** *(Erregung)* həyəcan.

**reizbar** *adj.* tez hirslənən, tez acıqlanan; həssas adam, cır.

**Reizbarkeit,** *die; -* tez hirslənmə, tez acıqlanma, əsəbilik, tündməcazlıq.

**reizen** *vt* **1.** *(anziehen)* cəzb etmək, cəlb etmək; tamahlandırmaq; **2.** *(bezaubern)* heyran etmək, məftun etmək; **3.** *(aufhetzen)* hirsləndirmək, acıqlandırmaq, təhrik etmək; **4.** *med.* ağrıtmaq, göynətmək; qamaşdırmaq.

**reizend** *adj.* **1.** cazibəli, məftunedici, cəzbedici, cəlbedici, heyranedici; **2.** *F* çox qəşəng, çox gözəl, ürəyəyatan.

**Reizgas,** *das; -es, -e* göz qamaşdırıcı qaz.

**reizlos** *adj.* cazibəsiz; rəğbətsiz.

**Reizung,** *die; -, -en* təhrik; gicişmək.

**reizvoll** *adj.* cazibəli; çox gözəl.

**Reizwort,** *das; -(e)s, -¨er* ağır söz, əsəbi edən söz, təhrikləndirici söz.

**rekapitulieren** *vt (e-n Text)* təkrar etmək, nəticəsini yığcam şəkildə təkrar etmək.

**rekeln** *vr sich ~* gərnəşmək; rahat uzanmaq.

**Reklamation,** *die; -, -en* şikayət, etiraz, səhvləri bildirmə; haqq iddiası.

**Reklame,** *die; -, -n* **1.** reklam, elan; **2.** *(Propaganda)* təbliğat.

**Reklamefläche,** *die; -, -n* reklam lövhəsi, elan taxtası, afişa.

**reklamieren** *vt* tələb etmək, iddia etmək, iddiasını bildirmək; şikayət etmək.

**rekonstruieren** *vt* yenidən qurmaq, yenidən tikmək, yenidən bərpa etmək.

**Rekonstruktion,** *die; -, -en* yenidənqurma, yenidən təşkil etmə, yenidənbərpa.

**Rekonvaleszent,** *der; -en, -en* nəqahət dövrü, sağalma dövrü.

**Rekord,** *der; -(e)s, -e* rekord; *e-n ~ brechen* rekord qazanmaq.

**Rekrut,** *der; -en, -en* çağırışçı.

**rekrutieren** *vt* yeni əsgər yığmaq, xidmətə çağırmaq; *vr sich ~* ibarət olmaq.

**Rektion,** *die; -, -en gr.* müəyyən hala gətirmə, idarə etmə.

**Rektor,** *der; -s, -en* **1.** *(Universität)* rektor; **2.** *(e-s Gymnasiums)* müdir, orta məktəb müdiri.

**Rektorat,** *das; -(e)s, -e* rektorluq.

**Rekurs,** *der; -es, -e jur.* istinad etmə; şikayət, etiraz; *mit ~ auf* ... ..istinad olaraq.

**Relais,** *das; -, - el.* relə.

**Relation,** *die; -, -en* nisbət, tənasüb, münasibət.

**relativ** *adj.* nisbi; *die ~e Mehrheit* nisbi çoxluq.

**relativieren** *vt* -in önəmini *(əhəmiyyətini)* azaltmaq.

**Relativismus,** *der; -* nisbiyyət, nisbilik.

**Relativitätstheorie,** *die; -* nisbilik nəzəriyyəsi.

**Relativpronomen,** *das; -s, - gr.* nisbi əvəzlik, nisbi zəmir.

**Relativsatz,** *der; -es, -¨e gr.* nisbi cümlə.

**Relegation,** *die; -, -en* xaric etmək, kənar etmək; *(Sport)* enmək.

**relegieren** *vt (Schüler)* məktəbdən xaric etmək, məktəbdən çıxartmaq.

**relevant** *adj.* mühüm, vacib.

**Relief,** *das; -s, -s* nəqş, naxış.

**Religion,** *die; -, -en* din; ədyan *pl.*

**Religionsfreiheit,** *die; -, -en* din azadlığı.

**Religionsgeschichte,** *die; -* din*(lər)* tarixi.

**religionslos** *adj.* dinsiz, dinə inanmayan.

**Religionsunterricht,** *der; -(e)s, -e* din dərsi.

**Religionswissenschaft,** *die; -, -en* ilahiyyat.

**Religionszugehörigkeit,** *die; -* din mənsubiyyəti.

**religiös** *adj.* **1.** dini; **2.** *(fromm)* dindar; *adv.* dinən; *~e Angelegenheiten* dini işlər, din işləri.

**Religiosität,** *die; -, -* dindarlıq, dəyanət.

**Relikt,** *das; -(e)s, -e (Rest)* qalıq, artıq.

**Reliquie,** *die; -, -n* **1.** müqəddəs şey; **2.** *fig.* dəyərli əşya, bahalı şey.

**Reminiszenz,** *die; -, -en* **1.** *(Erinnerung)* xatirə; **2.** *(Anklang)* oxşarlıq.

**remis** *adj. (Schach)* bərabər, remi.

**remittieren** *H* geri göndərmək, geri yollamaq, həvalə etmək; *fig. med.* düşmək, azalmaq; *das Fieber remittiert* qızdırma azalır *(düşür).*

**remontant** *adj.* yenidən açan, ikinci dəfə çiçək açan.

**rempeln** *vt* itələmək; qəsdən toqquşmaq.

**Renaissance,** *die; -* renessans, keçmiş bir dövrün yenidən canlanması; intibah dövrü; oyanış.

**Rendezvous,** *das; -, -* görüş , randevu.

**Rendite,** *die; -, -n* faiz, qazanc.

**Renegat,** *der; -en, -en* mürtəd, başqa bir dinə keçmiş adam; xain.

**renitent** *adj.* inadcıl, tərs, itaətsiz, sərkeş.

**Renitenz,** *die; -* tərslik, inad, sərkeşlik.

**Rennbahn,** *die; -, -en* yarış meydanı; at sürmə meydanı; yarış pisti.

**rennen** *vi* **1.** qaçmaq, cəld qaçmaq; **2.** *vt bir yerə* çox getmək, həmişə getmək; **3.** vurub yıxmaq, *-ə* toqquşmaq, *-ə* dəymək; **4.** soxmaq; *j-m ein Messer zwischen die Rippen ~* bir kəsin qabırğasına bıçaq soxmaq; *um die Wette ~* yarışmaq.

**Rennen,** *das; -s, -* **1.** yarış; **2.** *(Einzelrennen)* qaçış; cövlan; *das ~ machen* müvəffəqiyyət *(uğur)* qazanmaq.

**Renner,** *der; -s, - fig.* çox yaxşı satılan mal, çox tələbatı olan mal.

**Rennfahrer,** *der; -s, -* avtomobil *(motosiklet, yelatı)* yarışçısı.

**Rennpferd,** *das; -(e)s, -e* yarış atı.

**Rennwagen,** *der; -s, -* yarış avtomobili.

**Renommee,** *das; -s, -s* şöhrət, etibar.

**renommieren** *vt* öyünmək *(mit D/-bir şey ilə).*

**renommiert** *adj.* şöhrətli, tanınmış, etibarlı, məşhur, hörmətli.

**Renovation,** *der; -, -en s. Renovierung.*

**renovieren** *vt* təzələmək, yeniləşdirmək, təmir etmək.

**Renovierung,** *die; -, -en* təzələmə, təmir etmə, bərpaolunma.

**rentabel** *adj.* səmərəli, gəlirli, qazanclı, mədaxilli, rentabelli.

**Rentabilität,** *die; -* mənfəətlilik, gəlirlilik, faydalılıq, rentabellilik, verimlilik.

**Rente,** *die; -, -n* **1.** *(Einkommen)* gəlir, mədaxil; **2.** *(Pension)* pensiya, təqaüd; *in/auf ~ gehen* təqaüdə çıxmaq.

**Rentenalter,** *das; -s* təqaüd yaşı, pensiya vaxtı.

**Rentenempfänger,** *der; -s, -* təqaüd alan, təqaüdçü.

**Rentenversicherung,** *die; -, -en* təqaüd sığortası.

**Rentier,** *das; -s, -e* şimal maralı.

**rentieren** *vr sich ~* səmərə vermək, qazanc vermək, fayda vermək, zəhmətinə dəymək.

**Rentner,** *der; -s, -* təqaüdçü, pensiyaçı.

**Reorganisation,** *die; -, -e* yenidən qurma, yenidən təşkil.

**reorganisieren** *vt* yenidən təşkil etmək, yenidən qurmaq.

**reparabel** *adj.* təmir oluna bilən, düzəltiləbilən.

**Reparationen** *die/pl.* qəramət, əvəzini vermə, təzminat.

**Reparatur,** *die; -, -en* təmir, qayırma; *zur ~ geben* təmirə vermək, qayırtdırmaq.

**Reperaturanfällig** *adj.* çox təmirə verilən, tez xarab olan.

**reparaturbedürftig** *adj.* təmir olunmalı, təmirə ehtiyacı olan.

**Reparaturkosten** *die/pl.* təmir xərci *(xərcləri).*

**Reparaturwerkstatt,** *die; -, -¨en* təmirxana.

**reparieren** *vt* təmir etmək, qayırmaq, cürləmək, düzəltmək.

**repatriieren** *vt* **1.** *(Kriegsgefangene)* vətəninə qaytarmaq; **2.** *(Ausgebürgerte)* vətəndaşlıq hüququnu bərpa etmək, yenidən vətəndaşlığa qəbul etmək.

**Repatriierung,** *die; -* vətən(in)ə qaytarılma.

**Repertoire,** *das; -s, -s* repertuar, bir aktyorun oynadığı rollar.

**Repetitor,** *der; -s, -en* müzakirə edən.

**Repetitorium,** *das; -s, -ien* öyrənilmiş dərsləri icmali şəkildə təkrar etmə, məşq etmə.

**Replik,** *die; -, -en* **1.** *jur.* cavab, replika; etiraz; **2.** bir sənət əsərinin eyni sənətkar tərəfindən hazırlanmış kopiyası.

**Report,** *der; -(e)s, -e* xəbər, məlumat.

**Reportage,** *die; -, -n* reportaj, xəbər vermə.

**Reporter,** *der; -s, -* müxbir, reportajçı.

**Repräsentant,** *der; -en, -en* nümayəndə, görkəmli şəxsiyyət, rəsmi şəxs; yüksək vəzifəli şəxs.

**Repräsentation,** *die; -, -en* **1.** nümayəndəlik; **2.** *(Zurschaustellung)* göstərmə, sərgiyə qoyma.

**repräsentativ** *adj.* **1.** səlahiyyətli; görkəmli; **2.** bir qrupu və ya cərəyanı təmsil edən, nümayəndəlik; *~e Demokratie* nümayəndələr demokratiyası.

**repräsentieren** *vt (vertreten)* təmsil etmək; *vi* **1.** *(in der Öffentlichkeit)* təqdim etmək; **2.** dəyəri olmaq; *das Grundstück repräsentiert e-n Wert von 30,000 Euro* torpaq sahəsinin 30-min € dəyəri var.

**Repressalie,** *die; -, -n* cəza tədbiri, təzyiq tədbiri; intiqam.

**Repression,** *die; -, -en* zülm, cəza, basqı altında saxlama, şəxsi-siyasi azadlığı əzmə, repressiya.

**repressiv** *adj.* əzici, zalim; *~e Maßnahmen* təzyiq tədbirləri.

**reprivatisieren** *vt* xüsusi mülkiyyətə keçirmək, şəxsi mülkiyyətə çevirmək, özəlləşdirmək.

**Reprivatisierung,** *die; -, -en* yenidən özəlləşdir(il)mə.

**Reproduktion,** *die; -, -en* **1.** *(Kopie)* surət, kopiya; **2.** *(Vorgang)* surətini çıxart-

ma; **3.** reproduksiya, dövriyyə.

**Reproduktionsrecht,** *das; -(e)s, -e* iqtibas haqqı, çoxaltma haqqı.

**reproduzieren** *vt* surətini çıxartmaq, kopiya etmək, çoxaltmaq.

**Reptil,** *das; -s, -ien* sürünən heyvanlar, ilan-qurbağa.

**Republik,** *die; -, -en* cümhuriyyət, respublika.

**Republikaner,** *der; -s, -* cümhuriyyətçi, respublikaçı.

**republikanisch** *adj.* cümhuriyyət*(çi),* respublika.

**Reputation,** *die; -, -en* şöhrət, şərəf, şan, etibar.

**Requiem,** *das; -s, -s* matəm musiqisi, rekviem.

**requirieren** *vt* əl qoymaq, müsadirə etmək.

**Reseda,** *die; -, -s u. Reseden* əsnərək, məhəbbət çiçəyi.

**Reservat,** *das; -(e)s, -e* **1.** *(Schutzbezirk)* qoruyucu sahə, mühafizə olunan bölgə *(məntəqə),* qoruq; **2.** *(Indianerreservat)* qızıl dərililərə *(hindilərə)* məxsus olan yaşayış bölgəsi; **3.** *(Vorbehalt)* qeyd-şərt.

**Reserve,** *die; -, -n* **1.** *(Vorrat)* rezerv, ehtiyat; yedək; *in ~ halten* ehtiyat üçün saxlamaq; **2.** *mil.* ehtiyat hissəsi; **3.** *(Zurückhaltung)* çəkinmə, utanma.

**Reserverad,** *das; -(e)s, -¨er* yedək təkər.

**reservieren** *vt* **1.** *(für den Notfall usw.)* ehtiyat üçün saxlamaq, ehtiyatda saxlamaq; **2.** *(Platz, Zimmer)* tutmaq, rezerv etmək.

**reserviert** *adj.* **1.** saxlanmış, rezerv olmuş; **2.** *fig.* soyuq yanaşan adam.

**Reservist,** *der; -en, -en* ehtiyatda olan hərbçi, ehtiyat nəfəri.

**Reservoir,** *das; -s, -e* **1.** *(Sammelbecken)* çarhovuz; anbar; **2.** *(Vorrat)* ehtiyat; *fig.* yedəklər.

**Residenz,** *die; -, -en* **1.** paytaxt; hökumət mərkəzi; **2.** *(Palast)* saray, igamətgah, imarət, bar(i)gah.

**residieren** *vt* yerləşmək, qalmaq.

**Resignation,** *die; -* ümidsizlik, məyusluq, olacağa boyun əymə.

**resignieren** *vt* ümidini kəsmək, ümidini itirib əl çəkmək.

**resigniert** *adj.* ümidsiz, məyus, cəsarətsiz.

**Resistance,** *die; -* ikinci dünya savaşında Fransada müqavimət *(dirəniş)* hərəkati.

**resistent** *adj. med.* müqavim, müqavimət göstərən, dayanıqlı.

**Resistenz,** *die; -, -en med.* müqavimət, əks-təsir.

**resolut** *adj.* cəsur, ürəkli, cəsarətli, qəti, iradəli.

**Resolution,** *die; -, -en* qətnamə, qərar.

**Resonanz,** *die; -, -en* əks-səda; rezonans; cavab.

**resorbieren** *vt* somurmaq, sormaq.

**resozialisieren** *vt* ictimaiyyət ilə alışdırmaq, toplum yaşayışına hazırlamaq.

**Respekt,** *der; -(e)s* **1.** hörmət, ehtiram, sayğı; **2.** *(Angst)* çəkinmə, qorxma; *vor j-m ~ haben* bir kəsə hörmət etmək, bir kəsə hörmət qoymaq; *mit ~* ehtiramla, sayğıyla, ehtiramən; *er hat großen ~ vor Hunden* o itlərdən çox qorxar.

**respektabel** *adj.* möhtərəm, hörmətli.

**respektieren** *vt* hörmət etmək, ehtiram qoymaq, nəzərə almaq.

**respektive** *adv.* yaxud, və ya; daha doğrusu.

**respektlos** *adj.* hörmətsiz, ehtiramsız; əskik-əskik; *~ reden* əskik-əskik danışmaq.

**Respektlosigkeit,** *die; -, -en* hörmətsizlik, ehtiramsızlıq.

**respektvoll** *adj.* hörmətli, ehtiramlı, hörmətcil; *adv.* ehtiramla, sayğıyla, ehtiramən.

**Ressentiment,** *das; -s, -s* xoşu gəlməmə; nifrət.

**Ressort,** *das; -s, -s* **1.** *(Aufgabenkreis)* səlahiyyət, vəzifə çərçıvəsi; ixtisas sahəsi; *das gehört nicht in mein ~* bu mənim səlahiyyətimə aid olan iş deyil; **2.** *(Abteilung e-r Behörde)* şöbə, müəssisə.

**Rest,** *der; -(e)s, -e* qalıq, qalan-qulan,

qalan, qalğı, artıq, bəqiyyə, əlbaqı, artıq qalan, yerdə qalan, kəsir; *den ~ verkaufen* qalanını satmaq; *(Stoff)* kəsinti; *fig. j-m den ~ geben* bir kəsə son zərbəni vurmaq; *das hat ihm den ~ gegeben* bu onu əldən saldı.

**Restaurant,** *das; -s, -s* restoran.

**Restauration,** *die; -, -en* **1.** *(e-s Kunstwerkes)* təmir etmə, yenidənbərpa; **2.** *pol.* bərpa etmə, berpa edilmə; **3.** *(Restaurant)* restoran.

**Restaurator,** *der; -s, -en* təmirçi, təmir edən, bərpaçı.

**restaurieren** *vt* təmir etmək; əvvəlki şəklinə salmaq, bərpa etmək.

**Restbestand,** *der; -(e)s, -¨e* **1.** qalan, qalıq, bəqiyyə; **2.** *Chem.* çöküntü, xılt, yığıntı.

**Restbetrag,** *der; -(e)s, -¨e* qalan pul, qalan məbləğ, qalıq, kəsir.

**restlich** *adj.* qalan, qalıq, qalan-qulan; *der ~e Be-trag* qalan məbləğ.

**restlos** *adj.* *(völlig)* tam, qalıqsız, bütün; *adv.* tamamilə; *~ ausverkauft sein* tamamilə satılmaq.

**restriktiv** *adj.* məhdudlaşdırıcı; məhdud.

**Resultat,** *das; -(e)s, -e* nəticə; axirət; cavab, əncam; *fig.* dal, hasil.

**resultieren** *vt* nəticə vermək, nəticə hasil olmaq, çıxmaq *(aus D/-dən).*

**Resümee,** *das; -s, -s* xülasə, nəticə.

**resümieren** *vt* yekunlaşdırmaq, xülasə etmək.

**retardieren** *vt* uzatmaq, gecikdirmək, süründürmək *(işi).*

**retour** *adv.* geriyə.

**Retourfahrkarte,** *die; -, -n* geriyə dönmə bileti, gəliş-gediş *(dönüş)* yol bileti.

**Retrospektive,** *die; -, -n* keçmişə baxış.

**retten** *vt* xilas etmək, can qurtarmaq, nicat vermək; *j-m das Leben retten* bir kəsi xilas etmək; *vr sich ~* xilas olmaq, canını qurtarmaq, nicat tapmaq *(vor, aus D/-dən), F* dərisini sudan çıxarmaq.

**Retter,** *der; -s, -* xilaskar, qurtarıcı.

**Rettich,** *der; -s, -e* turp, ağturp.

**Rettung,** *die; -, -en* çıxış, xilas, qurtarma, qurtuluş; *fig. letzte ~* son çarə.

**Rettungsaktion,** *die; -, en* xilas etmə *(qurtarma)* əməliyyatı *(işləri) pl.* .

**Rettungsboot,** *das; -(e)s, -e* xilas etmə qayığı, təcili yardım qayığı.

**Rettungsring,** *der; -(e)s, -e* xilas kəməri.

**Rettungsstation,** *die; -, -en* təcili tibbi yardım.

**Rettungswagen,** *der; -s, -* təcili yardım maşını *(Süd. : ambulans maşını).*

**retuschieren** *vt* *(Fotografie)* təmiz etmək, tamamlamaq, rötuş etmək.

**Reue,** *die; -* peşmanlıq, peşmançılıq; *~ empfinden* peşman olmaq, peşmançılıq çəkmək.

**reuen** *vt* peşman olmaq; *es reut mich, dass ich es getan habe* etdiyimə peşmanam.

**reuevoll** *adj.* tam peşman.

**reumütig** *adj.* peşman.

**Revanche,** *die; -, -n* intiqam, qisas, revanş, əvəzçıxma; əcr.

**Revanchepartie,** *die; -, -n* əvəz çıxma görüşü.

**revanchieren** *vr sich ~ für A (positiv)* əvəzini çıxmaq; *(negativ)* intiqamını almaq.

**Revanchismus,** *der; -* revanşizm, qisasçılıq, intiqam siyasəti.

**Reverenz,** *die; -, -en* hörmət göstərmə.

**revidieren** *vt* **1.** *(Vertrag usw.)* yoxlamaq, yenidən baxmaq, dəyişmək; **2.** *(Meinung)* düzəltmək, dəyişdirmək.

**Revier,** *das; -s, -e* **1.** *(Gebiet)* məntəqə, bölgə; **2.** *(Polizeirevier)* polis idarəsi.

**Revision,** *die; -, -en* **1.** *(Überprüfung)* yenidən bax(ıl)ma; yoxlama, təftiş, dəyişmə; dəyişiklik, müfəttişlik; **2.** *jur.* məhkəmə işinə bir daha baxma, kassasiya şikayəti.

**Revisionismus,** *der; -* təftişçilik, yenidən baxma, revizionizm.

**Revisionist,** *der; -en, -en* təftişçi, revizionist.

**revisionistisch** *adj.* təftiş, revizionist.

**Revisor,** *der; -s, -en* *(beruflich)* yoxla-

yıcı, təftişçi, kontrolçu, müfəttiş; hesab və balans müfəttişi.

**Revolte,** *die; -, -n* qiyam, üsyan, iğtişaş.

**revoltieren** *vt* qiyam etmək, üsyan etmək.

**Revolution,** *die; -, -en* inqilab, devrim.

**Revolutionär,** *der; -s, -e* inqilabçı.

**revolutionär** *adj.* inqilabçı, devrimçi.

**Revolutionsrat,** *der; -(e)s, -¨e* inqilab şurasi.

**Revolutionstribunal,** *das; -s, -e* inqilab məhkəməsi.

**Revolver,** *der; -s, -* tapança.

**Revue,** *die; -, -n* **1.** *(Parade)* parad, qoşunun gözdən keçirilməsi; **2.** *Th.* tamaşa; **3.** *(Zeitschrift)* müşahidə etmə, gözdən keçirmə.

**Rezensent,** *der; -en, -en* tənqidçi.

**rezensieren** *vt (Bücher, Filme)* tənqid etmək.

**Rezension,** *die; -, -en* tənqid; rəy; tanıtdırma *(kitabı).*

**Rezept,** *das; -(e)s, -e* nüsxə.

**Rezeption,** *die; -, -en* **1.** *(Hotel usw.)* qəbul etmə, qarşılama; **2.** *(e-s literarischen Werkes)* qarşılama, qiymət vermə.

**rezeptpflichtig** *adj.* nüsxə ilə *(reseptlə)* satılan *(verilən).*

**Rezession,** *die; -, -en* iqtisadi cəhətdən zəifləmə, tənəzzül.

**rezipieren** *vt* qiymət vermək, qarşılamaq.

**reziprok** *adj.* qarşılıqlı.

**Rezitation,** *die; -, -en* bir mətni xüsusi intonasiya və ritmlə oxuma, ucadan oxuma.

**rezitieren** *vt* ucadan oxumaq; əzbərdən şer oxumaq.

**Rhabarber,** *der; -s* ravənd.

**Rheinland,** *das; -(e)s* Reyn vilayəti.

**Rhetorik,** *die; -* bəyan və bəlağət elmi, retorik*(a).*

**rhetorisch** *adj.* retorik.

**Rheuma,** *das; -s* revmatizm *(Süd. : romatizm),* yel, çər.

**Rheumatiker,** *der; -s, -* revmatizm *(romatizm)* xəstəsi.

**rheumatisch** *adj.* revmatizm.

**Rheumatismus,** *der; -* revmatizm.

**Rhinozeros,** *das; -ses, -se* kərgədan.

**rhythmisch** *adj.* ritmli, ahəngli, vəznli.

**Rhythmus,** *der; -, Rythmen* vəzn, ahəng.

**Richtbeil,** *das; -(e)s, -e* cəllad baltası; gilyotin.

**richten** *vt* **1.** *(ordnen)* düzəltmək; **2.** *(lenken)* istiqamətləndirmək, yönəltmək, cəhətləndirmək *(auf A/-ə)*; **3.** *(Waffe)*nişan almaq, tutmaq; **4.** *(Aufmerksamkeit)* bir şeyə diqqət etmək; **5.** *(vorbereiten)* hazırlamaq; **6.** *(adressieren)* adresə göndərmək, yollamaq; **7.** *(über j-n)* bir kəsin haqqında hökm vermək; **8.** *(in die Höhe)* qaldırmaq; **9.** *(hinrichten)* edam etmək; *vr sich nach j-m / et. ~* bir kəsi/bir şeyi əldə rəhbər tutmaq; *sich selbst ~* özünü öldürmək; *j-n zugrunde ~* bir kəsi yazıq etmək *(tələf etmək); mil. Richt euch!* düzlən!

**Richter,** *der; -s, -* hakim; *der höchste ~* tanrı.

**Richteramt,***das; -(e)s, -* hakim vəzifəsi.

**richterlich** *adj.* məhkəmə; *e-e ~e Entscheidung* məhkəmə qərarı.

**Richterspruch,** *der; -(e)s, -¨e* məhkəmə qərarı *(hökmü).*

**richtig** *adj.* **1.** *(zutreffend)* düz, doğru, gerçək; **2.** *(fehlerfrei)* səhvsiz, eyibsiz, nöqsansız, sərrast; **3.** *(passend)* münasib, uyğun gələn, yaxşı, əməllicə; **4.** *(echt)* xalis, əsil, həqiqi; **5.** *(vernünftig, anständig)* ağıllı, dürüst, əməlli, ləyaqətli, hesabi; *~!* doğrudur!, düzdür!; *am ~en Platz* düz yerində; *mein ~er Name ist Sanaa* mənim düz *(həqiqi)* adım Sanaadır; *~ rechnen* düz hesablamaq; *er ist nicht ganz ~ im Kopf* ağlı yerində deyil; *es für ~ halten zu (+ Infinitiv) -məyi* düz bilmək; *für ~ halten* doğrulamaq, təsdiq etmək, müsbət cavab vermək, düz bilmək.

**richtiggehend** *adj.* **1.** *(Uhr)* düz işləyən;**2.** *(ausgesprochen, im wahresten Sin-*

*ne)* tam, lap.

**Richtigkeit,** *die; -* düzgünlük, doğruluq, yəqinlik, gerçəklik, dürüstlük; əsillik.

**richtigstellen** *vt* düzəltmək.

**Richtlinie** *die; -, -n* direktiv, əsas xətt, əsas istiqamət, göstəriş.

**Richtschnur,** *die; -, -en* şaqul; *fig.* əsas qayda, norm, model.

**Richtung,** *die; -, -en* **1.** yan, istiqamət, tərəf, səmt, cəhət, güzar, sarı, yön; *in ~ auf (A) -ə* tərəf, *-ə* doğru, *-ə* sarı; *in dieser ~* bu tərəfə doğru, bu yana; **2.** *(Strömung)* cərəyan; *in alle ~en* hər yana, hər təfərə; *aus allen ~en* hər tərəfdən; *fig. die ~ stimmt* yol düzdür.

**Richtungsanzeiger,** *der; -s, -* yolgöstərən.

**richtungsweisend** *adj.* yolgöstərici, yönəldici, istiqamətverici.

**rieb** *s. reiben.*

**riechen** *vt* **1.** iyləmək, qoxulamaq; **2.** *(ahnen)* duymaq, hiss etmək; *vi :* 1. *(nach et.)* ... iyi vermək, iyi gəlmək; 2. *(an et./D) nəyisə* iyləmək; *gut ~* yaxşı iy vermək; *das konnte ich nicht ~* bunu qabaqcadan duya bilməzdim; *ich kann ihn nicht ~* o heç xoşuma gəlmir, ondan zəhləm gedir.

**Riecher,** *der; -s, -* **1.** *(Nase)* burun; **2.** *F e-n guten ~ für et. haben* bir şeyi tez hiss etmək, bir şeyi tez bilmək.

**Ried,** *das; -(e)s, -e* **1.** qamış; **2.** *(Moor)* bataqlıq, batlaq.

**rief** *s. rufen.*

**Riege,** *die; -, -n* *(Sport)* gimnastika komandası *(Süd. : jimnastik timi).*

**Riegel,** *der; -s, -* **1.** *(an Türen usw.)* cəftə, siyirmə, işgil;**2.***(Schokolade, Seife)* bir parça; **3.** *fig. e-r Sache e-n ~ vorschieben/ vorlegen* bir şeyə mane olmaq, qarşısını almaq; nəyəsə son qoymaq.

**Riemen,** *der; -s, -* **1.** qayış, kəmər; **2.** *(Ruder)* kürək, avar; *fig. sich in die ~ legen* çalışmaq, əlləşmək, səy etmək *(bir şey uğrunda).*

**Ries,** *das; -es, -e* *(Papiermaß)* bir top kağız.

**Riese,** *der; -n, -n* **1.** *(im Märchen)* div, ərdo; **2.** *(sehr großer Mensch)* yekə adam, nəhəng, azman.

**rieseln** *vi* **1.** *(Wasser)* şırıldamaq; şırıltı ilə axmaq; **2.** *(Regen)* səpmək, yavaş-yavaş yağmaq; **3.** *(Sand)* yavaş-yavaş tökülmək *(axmaq).*

**Riesendummheit,** *die; -, -en* böyük axmaqlıq.

**Riesenerfolg,** *der; -(e)s, -e* böyük müvəffəqiyyət, böyük başarı.

**riesengroß** *adj.* çox böyük, nəhəng; *fig.* dağ kimi.

**riesenhaft** *adj.* çox böyük.

**Riesenhunger,** *der; -s : ~ haben* çox ac olmaq.

**riesig** *adj.* çox böyük, nəhəng, cüssəli, iri, dınbız; qocaman, azman; kömbə; *fig.* dağ kimi, dev kimi, div kimi, heyvərə.

**Riesenschritt,** *der; -(e)s, -e fig.* böyük addım, iri addım.

**Riesling,** *der; -s, -e* bir növ çaxır *(şərab).*

**riet** *s. raten.*

**Riff,** *das; -(e)s, -e* rif, sualtı qayalar.

**rigid(e)** *adj.* çox sərt, şiddətli, bərk; *~ Maßnahmen* çox sərt tədbirlər.

**rigoros** *adj. (streng)* çox sərt, şiddətli, amansız; ciddi.

**Rigorosität,** *die, -* amansızlıq, qəddarlıq, sərtlik.

**Rigorosum,** *das; -s, ..sa* doktorada şifahi imtahan.

**Rille,** *die; -, -n* nov; qanov; kanal; şırım.

**Rind,** *das; -(e)s, -er* öküz, inək, sığır.

**Rinde,** *die; -, -n* *(bei Bäumen usw.)* qabıq.

**Rinderherde,** *die; -, -n* inək sürüsü.

**Rindfleisch,** *das; -es, -* inək əti, sığır əti.

**Rindsleder,** *das; -s, -* inək dərisi.

**Rindvieh,** *das; -s* qaramal; *F* qanmaz, eşşək adam.

**Ring,** *der; -(e)s, -e* **1.** halqa, həlqə; aylam; çənbər; **2.** *(Fingerring)* üzük, halqa, barmaqlıq; *veralt.* xatəm; **3.** *(Box-*

*ring)* rinq, boks meydançası; **4.** *(Gruppierung)* qrup, dəstə; **5.** *(Vereinigung)* ittifaq, birləşmə, kartel; *e-n ~ tragen* üzük taxmaq; *in den ~ steigen* rinqə çıxmaq; *mit dem ~ versehen* çənbərləmək.

**Ringbahn,** *die; -, -en* dairəvi dəmir yolu.

**ringeln** *vt (Haare)* burmaq; *vr sich ~* burulmaq, qıvrılmaq.

**Ringelnatter,** *die; -, -n* su ilanı.

**ringen** *vi* **1.** *(mit j-m)* güləşmək *(mit D/ bir kəslə);* **2.** *(um et.)* mübarizə etmək; vuruşmaq; **3.** *(mit et.)* əlbəyaxa olmaq; *vt fig. die Hände ~* çox pərişan olmaq, çox məyus olmaq; *mit dem Tod ~* ölüm ilə əlbəyaxa olmaq.

**Ringen,** *das; -s* güləş*(mə).*

**Ringer,** *der; -s, -* güləşçi.

**Ringfinger,** *der; -s, -* adsız barmaq.

**ringförmig** *adj.* halqaşəkilli, halqayaoxşar, halqa-halqa, halqavarı, həlqəvi.

**Ringkampf,** *der; -(e)s, -¨e* güləşmə.

**Ringkämpfer,** *der; -s, -* güləşçi.

**Ringrichter,** *der; -s, -* rinq hakimi.

**rings** *adv.* ətrafda, hər tərəfdə; *~ um A -in* ətrafında.

**ringsherum** *adv.* ..ətrafında, ətrafda, hər tərəfdə, hər yandan.

**ringsum(her)** ..ətrafında, ətrafda, hər tərəfində.

**Rinne,** *die; -, -n* **1.** *(aus Holz od. Metall)* novalça; **2.** *(Wasserrinne)* balaca arx, kiçik qanov.

**rinnen** *vi* **1.** axmaq, sızmaq; **2.** *(lecken)* sızmaq, su buraxmaq.

**Rinnsal,** *das; -(e)s, -e* kiçik qanov, balaca arx.

**Rinnstein,** *der; -(e)s, -e* **1.** nov, novalça; **2.** *fig.* fəlakət, bədbəxtlik; *im ~ enden* fəlakətə uğramaq.

**Rippe,** *die; -, -n* **1.** qabırğa; **2.** *bot.* damarcıq, yarpaq damarcığı.

**Rippenfell,** *das; -(e)s* ağciyər qişası.

**Rippenfellentzündung,** *die; -, -en med.* plevrit, ağciyər qişasının iltihabı.

**Risiko,** *das; -s, -ken* risk; *ein ~ eingehen* risk etmək, qorxulu işə girişmək, canbazlıq etmək; *auf eigenes ~* öz riskini nəzərə alaraq.

**risikofrei** *adj.* risksiz.

**risikofreudig** *adj.* riski sevən.

**risikoreich** *adj.* çox riskli.

**riskant** *adj.* riskli, təhlükəli.

**riskieren** *vt* risk etmək.

**Rispe,** *die; -, -n* çiçək salxımı.

**riss** *s. reißen.*

**Riss,** *der; -es, -e* **1.** *(das Reißen)* qırılma; *der ~ des Fadens* sapın qırılması; **2.** *(Sprung)* çat, yarıq; *e-n ~ bekommen* çatlamaq, cadarlanmaq; yırtılmaq; **3.** *(Zeichnung)* eskiz, plan; *fig. (Bruch)* əlaqələrin kəsilməsi, ixtilaf, ikitirəlik.

**rissig** *adj.* **1.** *(Haut)* çatlamış; **2.** *(Boden)* yarılmış, çatlaq, cadar-cadar.

**Rist,** *der; -(e)s, -e (Fußrücken)* ayağın üst tərəfi.

**ritt** *s. reiten.*

**Ritt,** *der; -(e)s, -e* atla gəzinti.

**Ritter,** *der; -s, - hist.* rıtsar, şövaliyə, cəngavər.

**ritterlich** *adj.* iğid, cavanmərd, vicdanlı, sayğılı; mərdcəsinə.

**Ritterlichkeit,** *die; -* iğidlik, cavanmərdlik; şovaliyəlik, cəngavərlik.

**Ritterschlag,** *der; -(e)s, -¨e* rıtsarlığa *(cəngavərliyə)* qəbul etmə mərasimi *(törəni).*

**rittlings** *adv.* ata minmiş kimi; *sich ~ auf e-n Stuhl setzen* at*(a)* minmiş kimi səndəl üstündə oturmaq.

**Ritual,** *das; -s, -e* mərasim; dini mərasim *(törən).*

**rituell** *adj.* törən, mərasim, ayin.

**Ritus,** *der; -, Riten s. Ritual.*

**Ritz,** *der; -es, -e* çatdaq, yarıq.

**Ritze,** *die; -, -n s. Ritz.*

**ritzen** *vt (einritzen)* qazmaq, həkk etmək; *vr sich ~* cırmaqlamaq; cırmaqlaşmaq.

**Rivale,** *der; -n, -n* rəqib.

**rivalisieren** *vt* rəqabət etmək.

**Rivalität,** *die; -, -en* rəqabət.

**Rizinus,** *der; -* gənəgərçək.

**Rizinusöl,** *das; -(e)s* gənəgərçək yağı.

**Robbe,** *die; -, -n zo.* suiti.

**Robe,** *die; -, -n* **1.** *(Amtstracht)* cübbə; **2.** *(Damenrobe)* qadın paltarı.

**Roboter,** *der; -s, -* robot.

**robust** *adj.* möhkəm, sağlam; güclü.

**roch** *s. riechen.*

**Rochade,** *die; -, -n (Schachspiel)* şah ilə qalanın yer dəyişməsi.

**röcheln** *vi* xırıldamaq.

**Rock¹,** *der; -(e)s, -¨e* **1.** *(Damenrock)* ətək*(lik)*, don; **2.** *(Jacke)* pencək; xot.

**Rock²,** *der; -s mus.* rok *(musiqisi).*

**Rockschoß,** *der; -es, -¨e* ətək.

**Rockzipfel,** *der; -s, - : fig. an j-s ~ hängen* **1.** *(Kinder)* anasının ətəyindən tutmaq; **2.** müstəqil olmamaq.

**Rodelbahn,** *die; -, -en* xizək yolu.

**rodeln** *vi* xizəkdə sürüşmək.

**roden** *vt* qazıb çıxartmaq; kökündən təmizləmək.

**Rodung,** *die; -, -en* **1.** açılmış bölgə *(məntəqə);* **2.** ağacları kəsilmiş yer.

**Rogen,** *der; -s, -* balıq kürüsü.

**Roggen,** *der; -s* çovdar.

**Roggenbrot,** *das; -s, -e* çovdar çörəyi.

**roh** *adj.* **1.** *(ungekocht)* çiy, bişməmiş, xam; **2.** *(unbearbeitet)* xam; *fig.* kobud, qaba; *mit ~er Gewalt* kobud zor ilə.

**Rohbau,** *der; -(e)s, -ten* divarları suvaqlanmamış bina, hələ tikilib qurtarmamış bina.

**Roheisen,** *das; -s, -* xam dəmir.

**Roheit,** *die; -, -en* kobudluq, qabalıq.

**Rohkost,** *die; -* bişməmiş yemək.

**Rohmaterial,** *das; -s, -ien* xam mal.

**Rohöl,** *das; -(e)s, -e* təbii neft, təmizlənməmiş neft.

**Rohr,** *das; -(e)s, -e* **1.** *bot.* qamış, qarğı; **2.** *techn.* boru, lülə.

**Rohrbruch,** *der; -(e)s, -¨e* borunun partlaması.

**Röhre,** *die; -, -n* **1.** boru, lülə; çubuq; **2.** *(Radioröhre)* lampa, boru; **3.** *(Ofenröhre)* çörək peçi.

**Röhrchen,** *das; -* kiçik *(nazik/incə)* boru.

**röhren** *vt* **1.** *(Hirsch)* qızğınlıq vaxtıında nərə çəkmək; **2.** *fig. (Motor usw.)* gürültü salmaq, səs-küy salmaq.

**röhrenförmig** *adj.* boruşəkilli, boruvarı.

**Rohrleger,** *der; -s, -* boru çəkən, boru qoyan.

**Rohrleitung,** *die; -, -en* boru xətti, kəmər.

**Rohrpost,** *die; -* pnevmatik poçt, bir binada və ya şəhərdə boru ilə daşınan poçt *(post).*

**Rohrspatz,** *der; -en, -en : schimpfen wie ein ~* ucadan söyüş söyləmək.

**Rohrstock,** *der; -(e)s, -¨e* əl ağacı.

**Rohrzucker,** *der; -s* qamış şəkəri.

**Rohseide,** *die; -* xamna.

**Rohstoff,** *der; -(e)s, -e* xammal.

**Rolladen,** *der; -s, -¨* jalyuzi, *(Süd. : kərkərə).*

**Rollbahn,** *die; -, -en Flugw.* pist.

**Rolle,** *die; -, -n* **1.** vərdənə, çarx; rolik; blok; qarqara; **2.** *(Stoffrolle, Papierrolle)* top; **3.** *(Walze)* val, silindr; **4.** *(e-s Schauspielers)* rol; *keine ~ spielen* əhəmiyyəti olmamaq, əhəmiyyətsiz olmaq, rol oynamamaq; *aus der ~ fallen* özünü pis aparmaq.

**rollen** *vt* **1.** *(drehen)* fırlatmaq, gillətmək; **2.** *(Augen)* fırlatmaq, oynatmaq; **3.** *(Wäsche)* ütüləmək üçün girdə ağac parçasından keçirtmək; *vi* 1. *(sich drehen)* fırlanmaq, diyirlənmək, gillənmək, dığırlanmaq, hellənmək; 2. *(dröhnen)* guruldamaq; 3. *(Tränen)* axmaq; *vr sich ~* diyirlənmək, dığırlanmaq, eşələnmək; *der Hund rollt sich im Sand* it qumda eşələnir.

**Roller,** *der; -s, -* kiçik motosiklet; kiçik araba.

**Rollfeld,** *das; -(e)s, -er* uçuş-enmə zolağı *(pisti).*

**Rollkragen,** *der; -s, -* girdə yaxalı köynək.

**Rollschuh,** *der; -(e)s, -e* ayaq diyircəyi, rolik.

**Rollstuhl,** *der; -(e)s, -¨e* təkərli kürsü *(səndəl).*

**Rolltreppe,** *die;-, -n* hərəkət edən pilləkən.

**Rom** Roma.

**Roman,** *der; -s, -e* roman.

**Romancier,** *der; -s, -s* roman yazan, roman yazıçısı.

**Romanist,** *der; -en, -en* romanist, roman dillərinin tədqiqatçısı.

**Romanistik,** *die; -* latın dili və ədəbiyyatı elmi.

**Romantik,** *die; -* romantik, romantizm.

**Romantiker,** *der; -s, -* romantik.

**romantisch** *adj.* romantik.

**Romanze,** *die; -, -n* şer; romans.

**Römer,** *der; -s, -* **1.** romalı; **2.** *(Glas)* qədəh, badə.

**römisch** *adj.* roma*(lı).*

**röntgen** *vt* rentgen ilə şüalandırmaq.

**Röntgenarzt,** *der; -(e)s, -¨e* rentgenoloq *(Süd. : radioloq).*

**Röntgenaufnahme,** *die; -, -n* radioqrafi*(ya)*, rentgen şəkili.

**Röntgenbild,** *das; -(e)s, -er* rentgen şəkili, radioqrafi*(ya)*.

**Röntgenstrahlen,** *die/pl.* rentgen (X) şüaları.

**Röntgenuntersuchung,** *die; -, -en* rentgen ilə müayinə etmə.

**rosa** *adj.* çəhrayı.

**rosarot** *adj.* qızılgül rəngində, çəhrayı, gülgəz, al; *fig. alles durch e-e ~e Brille sehen* hər şeyi müsbət *(yaxşı)* görmək.

**Rose,** *die; -, -n* **1.** qızılgül; **2.** *med.* qızıl yel; *fig. nicht auf ~n gebettet sein* çətinliklə yaşamaq, çətinlik çəkmək.

**Rosengarten,** *der; -s, -¨* qızılgül bağı.

**Rosenkranz,** *der; -es, -¨e* **1.** təsbeh; **2.** təsbeh ilə oxunan dua.

**Rosenkohl,** *der; (e)s, -* Brüssel kələmi.

**Rosenöl,** *das; -(e)s, -e* qızılgül yağı.

**rosenrot** *adj. s. rosarot.*

**Rosenstock,** *der; -(e)s, -¨e* qızılgül kolu.

**Rosenstrauch,** *der; -(e)s, -¨er s. Rosenstock.*

**Rosenwasser,** *das; -s* qızılgül suyu, gülab.

**Rosette,** *die; -, -n* gül şəklində naxış, rozet.

**rosig** *adj.* **1.** çəhrayı; qırmızı; **2.** *fig.* xoş, fərəhləndirici, sevindirici.

**Rosine,** *die; -, -n* kişmiş, mövüc, quru üzüm; *fig. sich die größten ~n herauspicken* özünə ən yaxşı tikəni götürmək.

**Ross,** *das; -es, -e* at; *auf dem hohen ~ sitzen* lovğalanmaq.

**Rossapfel***; der; -s, -¨* təzək.

**Rosshaar,** *das; -(e)s, -e* at qılı.

**Rosskastanie,** *die; -, -n* cır şabalıd.

**Rost,** *der; -es* pas.

**Rost**[2]**,** *der; -(e)s, -e* *(Gitter)* şəbəkə, barmaqlıq.

**Rostbraten,** *der; -s, -* mal ətindən qızartma.

**Röstbrot,** *das; -(e)s, -e* tost çörəyi.

**rosten** *vt* paslanmaq, pas atmaq; *nicht ~d* paslanmaz.

**rösten** *vt* **1.** *(Fleisch usw.)* qızartmaq; **2.** *(Kaffee usw.)* qovurmaq.

**rostfrei** *adj.* passız.

**rostig** *adj.* paslı, paslanmış.

**Rostschutzmittel,** *das; -s, -* paslanmaya qarşı maddə.

**rot** *adj.* **1.** qırmızı, al; **2.** *(links)* sol; *~ werden* qızarmaq; *Rotes Kreuz* qızıl xaç; *in den ~en Zahlen stehen* borc içində olmaq, müflis olmaq.

**Rot,** *das; -s* qırmızı rəng.

**Rotation,** *die; -, -en* fırlanma, hərlənmə; hərlətmə; rotasiya.

**Rotationsmaschine,** *die; -, -n* rotasiya maşını.

**rotbäckig** *adj.* qırmızıyanaq, alyanaqlı.

**Rotbart,** *der; -(e)s, -¨e* qırmızısaqqal*.*

**rotblond** *adj.* sarı-qırmızı, kürən.

**rotbraun** *adj.* qonur-qırmızı; kəhər.

**Röte,** *die; -* **1.** qırmızılıq, qızartı; şəfəq; **2.** *(Schamröte)* qızarma.

**Röteln** *pl. med.* məxmərək.

**röten** *vt* qızartmaq; *vr sich ~* qızarmaq.

**rotglühend** *adj.* qıpqırmızı, közərdilmiş.

**rothaarig** *adj.* sarışın, kürən saç.

**Rothaut,** *die; -, -¨e* *(Indianer)* qızıldərili.

**rotieren** *vi* fırlanmaq, hərlənmək.

**Rotkäppchen,** *das; -s, -* qırmızıpapaq *(nağılda).*

**Rotkehlchen,** *das; -s, -* birəbitdən quşu.

**Rotkohl,** *der; -(e)s* qırmızı kələm.

**rötlich** *adj.* qırmızımtıl, sarı-qırmızı.

**Rotor,** *der; -s, -en (Hubschrauber)* pər, rotor, helikopter pərvanəsi.

**Rotstift,** *der; -(e)s, -e* qırmızı karandaş *(Süd. : qırmızı midad)* ; *fig. den ~ ansetzen* qənaət etmək üçün pul verməmək və ya az pul vermək.

**Rotte,** *die; -, -n* **1.** *mil.* cərgə; **2.** *(Horde)* quldur dəstəsi; yığın, dəstə.

**rottenweise** *adj. mil.* cüt-cüt, qoşa-qoşa, iki-iki.

**Rötung,** *die; -, -en* qızartı.

**Rotwein,** *der; -s, -e* qırmızı çaxır *(şərab).*

**Rotwelsch,** *das; -(e)s* jarqon, fırıldaqçılar dili.

**Rotz,** *der; -es* **1.** fırtdıq, selik; **2.** *med.* saqqo xəstəliyi, manqo xəstəliyi.

**rotzen** *vt* fınxırmaq; fırtdığı boğaza çəkib tüpürmək.

**rotzfrech** *adj.* utanmaz, tərbiyəsiz adam.

**rotzig** *adj.* fırtıqlı.

**Rotznase,** *die; -, -n* fırtıqlı burun; *fig.* sırtıq.

**Roulett,** *das; -(e)s, -e* rulet.

**Route,** *die; -, -n* yol, yolun istiqaməti.

**Routine,** *die; -* **1.** rutin; **2.** *(Erfahrung)* təcrübə, bacarıq.

**routinemäßig** *adj.* adi, növbəti.

**routiniert** *adj.* təcrübəli, bacarıqlı, yolbilən.

**Rowdy,** *der; -s, -s* davaçıl, davakar.

**Rowdytum,** *das; -s, -* davakarlıq.

**rubbeln** *vt* sürtmək.

**Rübe,** *die; -, -n* **1.** şalğam; **2.** *(gelbe)* kök; **3.** *(rote)* çuğundur; **4.** *fig. (Kopf)* baş.

**Rübenzucker,** *der; -s* çuğundur şəkəri.

**rüber** *s. herüber, hinüber.*

**Rubin,** *der; -s, -e* yaqut, lə'l.

**Rubrik,** *die; -, -en* **1.** *(Zeitungsrubrik)* sütun; **2.** *(Tabelle usw.)* cədvəl, kateqori*(ya)*; fəsil, sütun, yazı başlığı.

**rubrizieren** *vt* başlıq vermək; *fig.* tənzim etmək, sıraya düzmək, qruplara bölmək.

**ruchbar** *adj.* eşidilən, hər yerdə deyilən, ağızdan ağıza dolanan *(dolaşan); ~ werden* bəlli olmaq, aşkar olmaq.

**ruchlos** *adj.* vicdansız, həyasız.

**Ruchlosigkeit,** *die; -, -en* əclaflıq, pislik.

**Ruck,** *der; -(e)s, -e* **1.** təkan, birdən-birə çəkmə; **2.** *(Stoß)* zərbə; **3.** *pol. ein ~ nach rechts/links* siyasi vəziyyətin birdən-birə sağa/sola inkişaf etməsi; *mit e-m ~* birdən-birə; *sich (D) e-n ~ geben* özünü məcbur etmək *(bir şeyi etmək üçün).*

**Rückantwort,** *die; -, -en* əks-cavab.

**ruckartig** *adj.* birdən-birə, ani.

**Rückäußerung,** *die; -, -en* cavab.

**Rückberufung,** *die; -, -en* geri çağır(ıl)ma.

**Rückblende,** *die; -, -n (Film)* geriyə dönmə.

**rückblenden** *vt (Film)* geriyə dönmək, geriyə baxmaq.

**Rückblick,** *der; -(e)s, -e* keçmişə baxış, geriyə nəzər.

**rückblickend** *adj.* keçmişə nəzər salaraq, keçmişə baxaraq.

**rucken** *vi* birdən hərəkət etmək, təkan yemək.

**rücken** *vt* yerindən tərpətmək, hərəkətə gətirmək; çəkmək; *vi* tərpənmək, hərəkət etmək; çəkilmək, yol *(yer)* vermək; *kannst du ein Stückchen zur Seite ~?* bir az yan tərəfə çəkilə bilərsənmi?; *näher ~* yaxınlaşmaq; *in den Vordergrund ~* ön plana çəkilmək *(keçmək); an j-s Stelle ~* bir kəsin yerinə keçmək, bir kəsin yerini almaq.

**Rücken,** *der; -s, -* **1.** kürək, sırt; **2.** *(Rückseite)* arxa, dal; *im ~* arxada; *j-m in den ~ fallen* bir kəsi arxadan vurmaq, bir kəsə arxadan zərbə endirmək; *auf dem ~ liegen fig.* tənbəllik etmək; *hinter dem ~* dalınca; gizlicə; *auf dem ~ schla-*

*fen* kürək üst(ünd)ə yatmaq; *j-m den ~ kehren* bir kəsə arxasını çevirmək, üz çöndərmək; *j-m den ~ stärken* bir kəsə dayaq olmaq, bir kəsə ürək vermək; *er hat e-n breiten ~* o enli kürəkdir, o dayanaqlı adamdır; *~ an ~* dal-dala.

**Rückendeckung,** *die; -* arxa-arxaya vermə, arxabaarxa durma, dal-dala vermək, dayaq.

**Rückenlehne,** *die; -, -n (Stuhl)* söykənəcək.

**Rückenmark,** *das; -s* onurğa beyni.

**Rückenschmerzen** *die/pl.* belağrısı.

**Rückenwind,** *der; -(e)s, -e* arxadan əsən külək, arxadan gələn yel.

**Rückenwirbel,** *der; -s, -* bel fəqərəsi.

**rückerstatten** *vt* geri vermək, geri qaytarmaq.

**Rückerstattung,** *die; -, -en* geri alma.

**Rückfahrkarte,** *die; -, -n* geriyə minik bileti.

**Rückfahrt,** *die; -, -en* miniklə geriyə dönmə, qayıdanbaş, dönüş; *auf der ~* qayıdanbaş.

**Rückfall,** *der; -(e)s, -¨e* **1.** *med.* qayıtma, daha ağır vəziyyətə qayıtma; **2.** *jur.* təkrar cinayət *(cürm).*

**rückfällig** *adj.* **1.** *jur.* eyni cinayəti təkrar etmə; **2.** *med.* xəstəliyi qayıtma.

**Rückflug,** *der; -(e)s, -¨e* təyyarə ilə geriyə uçuş *(geri dönmə, dönüş).*

**Rückführung,** *die; -, -en* geri qaytarılma.

**Rückgabe,** *die; -, -n s. Rückführung.*

**Rückgang,** *der; -(e)s, -¨e* azalma, aşağı düşmə, tənəzzül, enmə.

**rückgängig** *adj.* **1.** *(rückläufig)* azalan; **2.** *(e-n Vertrag usw.)* ləğv etmə; *~ machen* ləğv etmək.

**Rückgrat,** *das; -(e)s, -e* bel sümüyü, onurğa; *fig. j-m das ~ stärken* bir kəsə dayaq olmaq, bir kəsə ürək vermək.

**Rückgriff,** *der; -(e)s, -e* **1.** yenidən işlətmə, yenidən istifadə etmə; **2.** *jur. s. Regress.*

**Rückhalt,** *der; -(e)s* dayaq, kömək.

**rückhaltlos** *adj.* danışıqsız, sözsüz, qeyd-şərtsiz.

**Rückkauf,** *der; -(e)s, -¨e jur.* girovdan çıxartma, girovu geri alma.

**Rückkehr,** *die; -* geri qayıtma, qayıdış, dönüş; *bei der ~* qayıdanbaş.

**Rücklage,** *die; -, -n* ehtiyat üçün yığılmış pul, yatar.

**rückläufig** *adj.* azalan, geri gedən.

**rücklings** *adv.* **1.** *(rückwärts)* dalıya, geriyə; **2.** *(von hinten)* daldan, arxadan.

**Rückmarsch,** *der; -(e)s, -¨e* geriyə qayıtma, geri çəkilmə.

**Rücknahme,** *die; -, -n* geriyə alma, geriləmə.

**Rückporto,** *das; -s, -s* geriyə qaytarma xərci.

**Rückreise,** *die; -, -n* geriyə səfər, qayıdanbaş; *bei der ~* qayıdanbaş.

**Rucksack,** *der; -(e)s, -¨e* arxa çantası.

**Rückschlag,** *der; -(e)s, -¨e* **1.** *(z.B. des Balles)* geri vurulma, əks zərbə; **2.** *(Rückprall)* geri atılma; təpmə; **3.** *(negative Entwicklung)* gerilәmə, böhran, zəifləmə.

**Rückschluss,** *der; -es, -¨e* məntiqi nəticə, nəticə; *Rückschlüsse aus et. ziehen* bir şeydən nəticə almaq.

**Rückschritt,** *der; -(e)s, -e* dala getmə, tənəzzül.

**rückschrittlich** *adj.* mürtəce, geriçi, irticaçı.

**Rückseite,** *die; -, -n* tərs üz, arxa tərəf, ard, dal.

**Rücksendung,** *die; -, -en* geri göndər(il)mə, qaytar(ıl)ma.

**Rücksicht,** *die; -, -en* hörmət, ehtiram, riayət *(auf A/nəyəsə); ohne ~ auf A* bir şeyi riayət etmədən; necə gəldi, necə oldu, düşünmədən; *~ nehmen auf j-n* bir kəsə hörmət etmək; *mit ~ auf et.* bir şeyi nəzərə alaraq; *ohne ~ auf Verluste fig.* hər halda, necə olur-olsun, nə bahasına olursa olsun.

**Rücksichtnahme,** *die; -* diqqətə alma, riayət etmə, hörmət; saya salınma.

**rücksichtslos** *adj.* **1.** *(egoistisch)* hörmətsiz, riayət etməyən; özünüsevən, qaba; **2.** *(hart, streng)* amansız, qəddar, şəfqətsiz, rəhmsiz; düşünmədən.

**Rücksichtlosigkeit,** *die;* - hörmətsizlik.

**rücksichtsvoll** *adj.* hörmətcil, sayğılı, nəzakətli, ədəbli; diqqətli.

**Rücksitz,** *der; -es, -e* *(im Auto usw.)* dal səndəl, arxa yer.

**Rückspiel,** *das; -(e)s, -e* cavab oyun.

**Rücksprache,** *die;* - məşvərət, danışıq, məsləhətləşmə; *~ nehmen* məsləhət almaq.

**Rückstand,** *der; -(e)s, -¨e* **1.** *Chem.* xılt, çöküntü; **2.** *(Zahlungsrückstand)* qalıq, ödənməmiş borc; **3.** *(Schulden, Raten)* vaxtını keçirtmə, yubatma; **4.** *(in e-m Wettbewerb)* geri qalma, geri düşmək; dalılıq, ara.

**rückständig** *adj.* inkişafsız, geri qalmış, dalda qalmış, geridə qalan, köhnəbeyin *~e Miete* ödənməmiş kirayə.

**Rückständigkeit,** *die;* - gerilik.

**Rückstoß,** *der; -es, -¨e* *mil.* təpmə, təpiş.

**Rücktritt,** *der; -(e)s, -e* çıxma, getmə, istefa, gediş.

**Rücktrittsgesuch,** *das; -(e)s, -e* istefanamə, istefa ərizəsi, istefa diləkçəsi; *sein ~ einreichen* istefa erizəsini vermək.

**Rückübersetzung,** *die; -, -en* orijinal dilə tərcümə etmə.

**Rückvergütung,** *die; -, -en* məbləğin *(pulun)* geri qaytarılması; əvəzini vermə.

**Rückversicherung,** *die; -, -en* təkrar sığorta.

**rückwärtig** *adj.* daldakı, arxadakı, arxada duran.

**rückwärts** *adv.* geri, geriyə; dalı, daldalı; *~ fahren* dal-dalı getmək, dal-dalı sürmək; *sich ~ bewegen* geri çəkilmək; həsləmək.

**Rückwärtsgang,** *der; -(e)s, -¨e* dal sürəttənzimləyici*(Süd. : dal dəndə).*

**Rückweg,** *der; -(e)s, -e* geriyə yol, qayıtma yolu; *den ~ antreten* geri qayıtmaq.

**ruckweise** *adj.* itəliyərək, sarsıdaraq, təkanla, təkan verə-verə.

**rückwirkend** *adj.* *-dən* etibarda olaraq, *-dən* etibarən; *meine Gehaltserhöhung gilt ~ vom 1. Oktober* maaşımın artması Oktyabrın birindən etibardadır.

**Rückwirkung,** *die; -, -en* əks təsir, qarşı etki; qanunun geriyə qüvvəsi.

**Rückzahlung,** *die; -, -en* pulun geri qaytarılması.

**Rückzieher,** *der; -s, -* *F, fig.* *: e-n ~ machen fig.* sözünü geri almaq, sözündən qaçmaq.

**Rückzug,** *der; -(e)s, -¨e* geri çəkilmə, çıx(arıl)ma.

**rüde** *adj.* qaba, kobud, yonulmamış.

**Rüde,** *der; -n, -n* erkək it, köpək; canavar.

**Rudel,** *das; -s, -* sürü, dəstə; qatar.

**Ruder,** *das; -s, -* **1.**kürək, avar; **2.** *(Steuerruder)* sükan; **3.** *fig.* *am ~ sein* hakimiyyət başında olmaq; *am ~ bleiben* hakimiyyət başında qalmaq.

**Ruderboot,** *das; -(e)s, -e* avarlı qayıq.

**Ruderer,** *der; -s, -* avarçı, avarçəkən.

**rudern** *vt* avar *(kürək)* çəkmək.

**Rudern,** *das; -s* avar çəkmə.

**Ruderregatta,** *die; -, -tten* qayıq sürmə yarışı, qayıq sürmə müsabiqəsi

**Rudiment,** *das; -(e)s, -e* qalıntı, qalıq.

**rudimentär** *adj.* az, kifayət etməyən.

**Ruf,** *der; -(e)s, -e* **1.** *(Schrei)* qışqırıq, çığırtı; **2.** *(Aufruf)* çağırış, müraciət; **3.** *(Ansehen)* şöhrət, etibar, şərəf, ad, adsan; məşhurluq; **4.** *(Berufung)* çağırma, dəvət etmə; *übler ~* pis ad.

**rufen** *vt* **1.** qışqırmaq; **2.** *(nach j-m)* çağırmaq, səsləmək; haylamaq *den Arzt ~* həkim çağırmaq; *j-n zu Hilfe ~* bir kəsi köməyə çağırmaq; *wie gerufen kommen* lap yerində gəlmək; *ins Gedächtnis ~* yada salmaq; *einander laut ~* haylaşmaq.

**Rüffel,** *der; -s, -* məzəmmət, töhmət; *e-n ~ erteilen* məzəmmət etmək, danlamaq *(j-m/bir kəsi).*

**Rufmord,** *der; -(e)s, -e* iftira, şər, böhtan.

**Rufname,** *der; -ns, -n* ad; ləqəb.

**Rufnummer,** *die; -, -n* telefon nömrəsi.

**Rufweite,** *die; -, -n* eşidilmə məsafəsi.

**Rufzeichen,** *das; -s, -* çağırış siqnalı.
**Rüge,** *die; -, -n* məzəmmət, töhmət, danlaq, dansaq.
**rügen** *vt* **1.** *(j-n)* bir kəsi məzəmmət etmək, bir kəsi danlamaq, abırlamaq; **2.** *(et.)* bir şeyin eybini demək, tənqid etmək.
**Ruhe,** *die; -* **1.** *(Stille)* sakitlik, dinclik, dincəliş, əmin-amanlıq, qərar, əminlik, əmniyyət, xəlvət; *gebt ~, Kinder!* sakit olun uşaqlar!; **2.** *(Stillstehen)* hərəkətsizlik; **3.** *(Entspannung)* rahatlıq, istirahət, asayiş; *j-m keine ~ lassen* bir kəsi narahat etmək; **4.** *(Kaltblütigkeit)* soyuqqanlılıq, laqeydlik; **5.** *(öffentliche)* asayiş, əmin-amanlıq; *lassen Sie mich in ~!* məni rahat buraxın!, yaxamdan əl çəkin; *immer mit der ~* yavaş-yavaş; *~ ausstrahlen* soyuqqanlı olmaq; *sich zur ~ legen* uzanıb yatmaq; *sich zur ~ setzen* təqaüdə çıxmaq, pensiyaya çıxmaq; *~, bitte!* zəhmət olmasa sakit olun!, sakit olun lütfən!; *adv. in aller ~* ağacasına, rahat, sakit.
**ruhebedürftig** *adj.* istirahətə möhtac.
**Ruhegeld,** *das; -(e)s, -er* pensiya, təqaüd pulu.
**Ruhegehalt,** *das; -s, -¨er s. Ruhegeld.*
**ruhelos** *adj.* həyəcanlı, iztirablı; *adv.* dincəlmədən, istirahət etmədən.
**Ruhelosigkeit,** *die; -* iztirab, həyəcan.
**ruhen** *vi* **1.** dincəlmək, istirahət etmək; **2.** *(Arbeit)* işləməmək, işi dayandırmaq; **3.** *(Augen, Blicke)* baxmaq, diqqət yetirmək *(auf j-m/auf et./bir kəsə/bir şeyə);* **4.** *(auf et.)* dayanmaq, durmaq; *die Brücke ruht auf 4 Pfeilern* körpü 4 sütunun üstündə dayanır *(durur).*
**Ruhepause,** *die; -, -n* tənəffüs.
**Ruheplatz,** *der; -es, -¨e* istirahət yeri.
**Ruheraum,** *der; -s, -¨e* istirahət otağı.
**Ruhestand,** *der; -(e)s* təqaüdə çıxma; istefa; *im ~* pensiyaçı; *in den ~ treten* təqaüdə çıxmaq; *in den ~ versetzen* təqaüdə buraxmaq.
**ruhestörend** *adj. : ~er Lärm* rahatlığı pozan səs-küy.
**Ruhestörer,** *der; -s, -* səs-küy salan, hay-küy salan, sakitliyi pozan.
**Ruhetag,** *der; -(e)s, -e* **1.**istirahət günü; **2.** *(Lokal)* bağlı gün; *Montag ~* bazar ertəsi bağlıdır.
**ruhig** *adj.***1.***(Mensch)* sakit, dinc, aram; asta; soyuqqanlı; *(Ort)* lax-tax; səssiz; **2.** *(ohne Bedenken)* qayğısız, qeydsiz; **3.** *(unbewegt)* hərəkətsiz; *adv.* sakitcə, yavaş; *sei ~!* sakit ol!, səs salma!; *du musst ruhig bleiben!* hirslənməməlisən!, özündən çıxmamalısan!
**Ruhm,** *der; -(e)s* şərəf, şan, şöhrət, şan-şöhrət, ad-san, cah-calal, məşhurluq, san.
**ruhmbedeckt** *adj.* şöhrətli, şanlı.
**Ruhmbegierde,** *die; -* şöhrətpərəstlik.
**ruhmbegierig** *adj.* şöhrətpərəst.
**rühmen** *vt* tərifləmək, mədh etmək; *vr sich ~* iftixar etmək, lovğalanmaq *(G/*ilə*).*
**rühmenswert** *adj.* şöhrətəlayiq, tərifəlayiq.
**rühmlich** *adj. s. rühmenswert.*
**ruhmlos** *adj.* şöhrətsiz.
**ruhmreich** *adj.* şöhrətli, cah-calallı, şanlı.
**Ruhmsucht,** *die; -* şöhrətpərəstlik.
**ruhmvoll** *adj. s. ruhmreich.*
**Ruhr,** *die; - med.* qanlı ishal, dizenteri*(ya).*
**Rührei,** *das; -(e)s, -er* qayqanaq *(Süd. : mirəssə).*
**rühren** *vt* **1.** *(Flüssigkeit)* qarışdırmaq; çalxalamaq; *die Suppe ~* şorbanı qarışdırmaq; **2.** *(bewegen)* tərpətmək, hərəkətə gətirmək; **3.** *(gefühlsmäßig)* təsir etmək; dərdini təzələmək; **4.** *(Trommel)* təbil çalmaq; *vi* 1. toxunmaq, dəymək *(an D/nəyəsə);* 2. əmələ gəlmək, törənmək *(von D/-dən) vr sich ~* tərpənmək, hərəkət etmək; *rühren Sie sich nicht!* tərpənməyin!; *da rührt sich nichts* heç bir xəbər yoxdur, heç bir cavab yoxdur; *mil. Rührt euch!* azad!.
**rührend** *adj.* **1.** təsirli, etkili, təsir oyadıcı, həyəcanlandırıcı; **2.** *(Mitleid erregend)* riqqətgətoyadıcı, ağlamalı.
**rührig** *adj.* çalışqan; diribaş, cəld, fə-

al.

**rührselig** *adj.* nazikürəkli, sentimental, gözü hər an yaşlı.

**Rührseligkeit,** *die;* - nazikürəklilik.

**Rührung,** *die; -, -* ürək yanma, riqqət, tərəhhüm; mütəəssir olma.

**Ruin,** *der; -s* dağılma, dağıtma; viran olma; fəlakət; iflas; *vor dem ~ stehen* fəlakətlə üzbəüz gəlmək, uçuruma baxmaq.

**Ruine,** *die; -, -n* viranə, xaraba*(lıq),* xarabazarlıq, bərbadlıq.

**ruinieren** *vt* xaraba qoymaq, dağıtmaq, viran etmək; iflas etmək, alt-üst etmək, bərbad etmək; *F* ev yıxmaq; *vr sich ~* dağılmaq, xaraba qalmaq; var-yoxdan çıxmaq, bərbad bir hala qalmaq, evi yıxılmaq; *das Rauchen hat s-e Gesundheit ruiniert* papiros çəkmək onun səhhətini pozdu; *die Wirtschaftskrise hat ihn ruiniert* iqtisadi böhran onu var-yoxdan çıxartdı *(evini yıxdı).*

**ruiniert** *adj.* **1.** viran, xarabazar; korlanmış; **2.** *H* var-yoxdan çıxmış, müflis.

**rülpsen** *vi* gəyirmək.

**Rülpser,** *der; -s, -* gəyirmə, gəyirik, gəyirti.

**rum** *adv.* ətrafında, yanında.

**Rum,** *der; -s, -s* Rom.

**Rumäne,** *der; -n, -n* rumen, rumıniyalı *(Süd. : rumanılı).*

**Rumänien;** *-s* Rumıniya, Rumanı.

**Rummel,** *der; -s, -* **1.** *(Lärm)* səs-küy, qalmaqal, qarmaqarışıqlıq; yığnaq; **2.** *(Jahrmarkt)* yarmarka, lunapark; **3.** *(Plunder)* cır-cındır; **4.** *fig. ich kenne den ~* işdən başım çıxır.

**Rummelplatz,** *der; -es, -¨e* lunaprk.

**rumoren** *vt* gurultu salmaq; quruldamaq; *mein Magen rumort vor Hunger* acımdan qarnım quruldayır.

**Rumpelkammer,** *die; -, -n* kiçik anbar, sandıqxana.

**rumpeln** *vi* **1.** *(Wagen)* taqqıldamaq, taqqıldaya-taqqıldaya getmək; **2.** *(donnern)* guruldamaq.

**Rumpf,** *der; -(e)s, -¨e* gövdə, bədən.

**rümpfen** *vt : die Nase ~* ağız-burnunu büzmək *(über A/-ə).*

**rund** *adj.* **1.** girdə, yumru, dəyirmi; *~er Tisch* dəyirmi stol *(miz).* **2.** *(dick)* yumru, tosqun; *dial.* düyələk kimi; **3.** *(ungefähr)* təqribən, təxminən; **4.** *(e-e Zahl)* tamamlanmış; *~ gerechnet* tam hesabla; **5.** *(Ton)* dolğun; *ein ~er Klang* dolğun səs; *adv.* ətrafında, ətrafda; təxminən; *~ um A herum ..in* ətrafında.

**Rundblick,** *der; -(e)s, -e* panorama, görüş dairəsi.

**Rundbrief,** *der; -(e)s, -e* nüsxəsi *(surəti)* çox yerlərə göndərilmiş məktub, təmimnamə.

**Runde,** *die; -, -n* **1.** *(Kreis)* dairə, çevrə; **2.** *(kreisförmige Bewegung)* dövrə; **3.** *(Sport)* dövr, əl; **4.** *(Bier usw.) e-e ~ Bier spendieren* qrupda oturanların hərəsini bir pivəyə qonaq etmək; *die ~ machen (Nachricht usw.)* ağızdan ağıza yayılmaq; *fig. gerade so über die ~n kommen* güc-bəla ilə keçinmək; *lasst uns eine ~ Schach spielen!* bir əl şahmat oynayaq!

**runden** *vt* **1.** girdələmək, girdələşdirmək; **2.** təkmilləşdirmək, tamamlamaq; *vr sich ~* girdələşmək; təkmilləşmək, bütünləşmək.

**Rundfahrt,** *die; -, -en* gəzinti, tur.

**Rundflug,** *der; -(e)s, -¨e* təyyarə ilə gəzinti, təyyarə turu.

**Rundfrage,** *die; -, -n* ictimaiyyətin rəyini öyrənmə.

**Rundfunk,** *der; -(e)s* radio, radio qovşağı; radio idarəsi; *im ~* radioda; *im ~ übertragen* radiodan yaymaq, radiodan xəbər vermək.

**Rundfunkanstalt,** *die; -, -en* radio idarəsi, radio stansiyası.

**Rundfunkgerät,** *das; -(e)s, -e* radio cihazı, radio dəsgahı *(qovşağı).*

**Rundfunksender,** *der; -s, -* radio stansiyası.

**Rundfunkübertragung,** *die; -, -en* radio verilişi, radio ilə xəbər vermə.

**Rundgang,** *der; -(e)s, -¨e* dolanma, dövretmə.

**rundheraus** *adv.* açıqcasına, açıqdan-açığa; *~ gesagt* açıqcasına desək.
**rundherum** *adv.* ətraf(ın)da, dövrəsində.
**rundlich** *adj.* **1.** girdə, dairəvi; **2.** *(dicklich)* dolu, yumru, ətli-canlı.
**Rundreise,** *die; -, -n* dövrə səyahət *(Süd. : tur).*
**Rundschau,** *die; -* **1.** seyretmə, panorama; **2.** *(Zeitschrift, Zeitung)* dərgi, qəzet, məcmuə; radio proqramının adı.
**Rundschreiben,** *das; -s, - s. Rundbrief.*
**rundum** *adv.* **1.** *(rings)* ətrafda, ..ətrafında, hər tərəfdə; **2.** *(ganz, völlig)* tam, tamamilə; *~ zufrieden sein* tam razı olmaq.
**rundumher** *adv. s. rundum 1.*
**Rundung,** *die; -, -en* girdəlik; yumruluq.
**rundweg** *adv.* qəti, qəti surətdə.
**Rune,** *die; -, -n* run hərfi.
**runter** *s. hinunter, herunter.*
**runterhauen** *vt F j-m e-e ~* bir kəsi döymək, bir kəsi vurmaq.
**runterholen** *vt* **1.** *(j-n/et.)* aşağı gətirmək; **2.** *vulg. sich/j-m (D) e-n ~* kəfləmə çəkmək, mastürbasiya etmək.
**Runzel,** *die; -, -n* bürüş(ük), qırış.
**runzelig** *adj.* bürüşük.
**runzeln** *vt : die Stirn ~* alnını qırışdırmaq, qaş-qabağını tökmək.
**Rüpel,** *der; -s, -* qanmaz.
**rüpelhaft** *adj.* ədəbsiz, tərbiyəsiz, qaba.
**rupfen** *vt* **1.** *(Geflügel)* ütmək, tüklərini yolmaq; **2.** *(Blätter)* qopartmaq; **3.** *F j-n ~* bir kəsi soymaq, bir kəsdən çox pul almaq.
**ruppig** *adj.* **1.** *(unhöflich, grob)* ədəbsiz, tərbiyəsiz, qaba, qanmaz; **2.** *(zerlumpt, schäbig)* pırtlaşıq; acınacaqlı, bədbəxt.
**Ruß,** *der; -es, -* his, qurum, duda.
**Russe,** *der; -n, -n* rus, rusiyalı.
**Rüssel,** *der; -s, -* **1.** *(Elefant)* xortum; **2.** *(Schwein)* burun, donuz burnu.
**rußen** *vi* his eləmək, his etmək.
**rußig** *adj.* hisli, hislənmiş.
**Russin,** *die; -, -nen* rus qadını, rusiyalı.
**russisch** *adj.* rus; *(Sprache)* rusca.
**Russland;** *-s* Rusiya.
**rüsten** *vt* hazırlamaq; *vi* silahlandırmaq; *sich ~* hazırlanmaq *(für A/-ə) sich für e-e Reise ~* səfərə hazırlanmaq.
**rüstig** *adj.* qüvvətli; möhkəm, canlı; *e-e ~e alte Dame* canlı qoca bir xanım.
**rustikal** *adj.* kəndli, kəndli sayağı.
**Rüstung,** *die; -, -en* **1.** *mil.* silahlanma; silah; **2.** *(Ritterrüstung)* zireh.
**Rüstungsfabrik,** *die; -, -en* silah karxanası.
**Rüstungsindustrie,** *die; -, -n* hərbi sənaye.
**Rüstungskontrolle,** *die; -, -n* silahlar üzərində nəzarət, silahlar kontrolu.
**Rüstungswettlauf,** *der; -(e)s, -¨e* sürətlə *(qızğın)* silahlanma.
**Rüstzeug,** *das; -(e)s* silah, təchizat, yaraq-yasaq.
**Rute,** *die; -, -n* **1.** çubuq, qamçı, qırmanc; **2.** *(Schwanz)* quyruq; **3.** *(zum Schlagen, Züchtigen)* fələkə; **4.** erkək heyvanlarda cinsiyyət orqanı.
**Rutengänger,** *der; -s, -* çubuqla su mədəni axtaran.
**Rutsch,** *der; -(e)s, -e* **1.** çökmə, çöküntü; yerindən tərpənmə; **2.** *F (kleiner Ausflug)* səyahət; *in e-m ~* fasiləsiz, dayanmadan; *F e-n guten ~ (ins neue Jahr)!* yeni iliniz mübarək olsun!
**Rutschbahn,** *die; -, -en* sürüşmək üçün təpəcik.
**rutschen** *vi* **1.** sürüşmək; buz üstündə züvmək, züvüldəmək, züyüldəmək; burxulmaq; **2.** *(Erde, Gestein)* ağnamaq; **3.** *F das Essen will nicht ~* xörək dadsızdır, yemək boğazdan keçmir.
**rutschig** *adj.* *(Straße usw.)* sürüşkən, züyüldaq.
**rütteln** *vt* silkələmək; laxlatmaq; çırpmaq *(an D/ -i)*; *aus dem Schlaf ~* yatan adamı silkələyib oyatmaq; *den Obstbaum ~* meyvə ağacını silkələmək; *an der Tür ~* bağlı qapını silkələmək; *fig. daran ist nicht zu ~!* bunun üstündə danışmaq olmaz!

# S

**S, s** *das; -, -* Alman əlifbasının on-doqquzuncu hərfi.

**Saal,** *der; -(e)s, Säle* zal, böyük salon.

**Saat,** *die; -, -en* **1.***(Saatgut)* toxum, əkin; **2.** *(aussäen)* əkmək, toxum səpmək; **3.** *(aufkeimende Pflanzen)* cücərti; *wie die ~, so die Ernte* nə əkərsən, onu biçərsən.

**Saatgut,** *das; -(e)s* toxum, səpin, əkin.

**Sabbat,** *der; -s, -e* yəhudilərin şənbə günləri *(tətil günü).*

**sabbeln** *vi s. sabbern.*

**sabbern** *vi* **1.** ağzından tüpürcəyi axmaq; **2.** *(schwafeln)* çox danışmaq, ən-gə vermək, əngi qızışmaq, əngini yormaq.

**Säbel,** *der; -s, -* qılınc; *mit dem ~ rasseln* qılınc oynatmaq; hədələmək, meydan oxumaq.

**Säbelhieb,** *der; -(e)s, -e* qılınc zərbəsi.

**säbeln** *vt F* doğramaq; *das Brot in Stücke ~* çörəyi tikə-tikə doğramaq.

**Sabotage,** *die; -, -n* sabotaj, təxribat, ziyankarlıq.

**Saboteur,** *der; -s, -e* təxribatçı, ziyankar.

**sabotieren** *vt* sabotaj etmək.

**Sachbearbeiter,** *der; -s, -* *(in e-r Behörde usw.)* şöbə rəisi, iş icraçısı.

**Sachbeschädigung,** *die; -, -en* maddi zərər, mal xarab etmə.

**sachbezogen** *adj.* mövzuya mərbut, mövzu ilə tam əlaqədar.

**Sachbuch,** *das; -e(s), -¨er* müəyyən mövzu barəsində məlumat verən kitab.

**sachdienlich** *adj.* işəgələn, faydalı, xeyirli, yararlı; *~e Hinweise* işəgələn əlamətlər *(qəziyyənin həlli üchün).*

**Sache,** *die; -, -n* **1.** şey; **2.** *(Gegenstand)* şeylər, əşya *pl.*; **3.** *(Angelegenheit, Frage)* iş, məsələ; *e-e wichtige ~* mühüm bir iş; *das ist e-e ~ der Erziehung* bu tərbiyə məsələsidir; **4.** *(Umstand)* vəziyyət, şərait; **5.** *(Vorfall)* hadisə; **6.** *(Thema)* mövzu; *bei der ~ bleiben* mövzudan çıxmamaq; *zur ~ kommen* mövzuya gəlmək; *fig. mit j-m gemeinsame ~ machen* bir kəslə əlbir olmaq; *das gehört nicht zur ~!* bunun işə dəxli yoxdur!; *e-e halbe ~* səliqəsiz bir iş.

**Sachen,** *die/pl.* **1.** şeylər, əşya; **2.** *(Kleider)* paltarlar; **3.** *abwert.* cır-cındır, tör-töküntü; *F mit 100 ~* 100 kilometr sürətlə.

**Sacherklärung,** *die; -* bir mövzu haqqında açıqlama.

**Sachgebiet,** *das; -(e)s, -e* sahə, iş mövzusu.

**sachgemäß** *adj.* münasib, uyğun gələn.

**sachgerecht** *adj. s. sachgemäß.*

**Sachkenner,** *der; -s, -* işi bilən adam, mütəxəssis.

**Sachkenntnis,** *die; -, -se* təcrübə, səriştə*(lilik),* işi bilmə.

**sachkundig** *adj.* iş bilən, səriştəli, hali; *sich ~ machen* lazım olan məlumatı almaq.

**Sachlage,** *die; -* işlərin vəziyyəti.

**sachlich** *adj.* **1.** *(objektiv)* əməli, işgüzar; işcil; **2.** *(neutral)* qərəzsiz, bitərəf.

**sächlich** *adj. gr.* ortacinsli.

**Sachlichkeit,** *die; -* işgüzarlıq, obyektivlik, məqsədyönlülük, işcillik.

**Sachregister,** *das; -s, -* mövzular cədvəli; şeylərin siyahısı.

**Sachschaden,** *der; -s, -¨* maddi zərər.

**sachte** *adj.* **1.** *(allmählich)* yavaş-yavaş, asta; **2.** *(sanft u. behutsam)* mülayim, yumşaq; incə.

**Sachverhalt,** *der; -(e)s, -e* işin vəziyyəti, işin məzmunu, işin gedişi, məsələnin nə yerdə olduğu.

**Sachverständige(r),** *der u. die; -n, -n* mütəxəssis, ekspert, işbilən.

**Sachwert,** *der; -(e)s, -e* **1.** həqiqi qiymət; **2.** *(Wertobjekte)* dəyərli əşya *pl.*

**Sack,** *der; -(e)s, -¨e* **1.** çuval, torba, qıyıq; bardan, xaral; *(aus Fell)* dağar, eymə; **2.** *(kleiner)* kisə; dağarcıq; **3.** *vulg. fauler ~* tənbəl oğlu tənbəl; *mit ~ und Pack* bütün var-yoxu ilə; *j-n in den ~ stecken* bir kəsi cibə qoymaq.

**Sackgasse,** *die; -, -n* dalan; *fig.* çətin vəziyyət; *in e-e ~ geraten* çıxılmaz *(çə-*

*tin)* vəziyyətə düşmək.

**Sackleinwand,** *die; -, -¨e* qalın kətan.

**Sadismus,** *der; -* sadizm.

**Sadist,** *der; -en, -en* sadist, başqalarına azar verməkdən ləzzət alan adam.

**sadistisch** *adj.* sadist.

**Sadomasochismus,** *der; -* mazoxizm ilə birlikdə sadizm.

**säen** *vt* toxum əkmək, toxum səpmək, əkib-biçmək, əkib-becərmək; aratlamaq.

**Säer,** *der; -s, -* toxum əkən, əkinçi.

**Safe,** *der; -s, -s* seyf.

**Safran,** *der; -s, -e* zəfəran.

**Saft,** *der; -(e)s, -¨e* **1.** *(Obstsaft)* meyvə şirəsi; **2.** *(in Pflanzen)* şirə; *fig. ohne ~ und Kraft* dadsız-duzsuz, qüvvə(t)siz.

**saftig** *adj.* **1.** şirəli; sulu; **2.** *(derb)* kobud, qaba; *~e Witze erzählen* qaba zarafat etmək; **3.** *(Preise usw.)* çox, çox yuxarı.

**saftlos** *adj.* quru, susuz; *fig.* qüvvə(t)siz.

**Sage,** *die; -, -n* **1.** əfsanə, əsatir; **2.** *(Gerüchte)* şayiə, xəbər, səs-səda.

**Säge,** *die; -, -n* mişar; bıçqı; ərrə.

**Sägemehl,** *das; -(e)s* mişarağzı, taxta kəpəyi.

**sagen** *vt* **1.** demək, danışmaq *(j-m et./ zu j-m et. bir kəsə bir şeyi); veralt.* ərz etmək; **2.** *(meinen)* fikrini söyləmək, rəyini bildirmək; **3.** *(behaupten)* demək; **4.** *(mitteilen)* xəbər vermək, bildirmək, çatdırmaq; *j-m ~ lassen* bir kəsə xəbər göndərmək; *ich habe mir ~ lassen* mənə deyiblər, eşitmişəm; *er will sich nichts ~ lassen* qulaq asmaq istəmir; *zu sich selbst ~* öz-özünə demək; *et. zu ~ haben* sözü keçmək, hörmət sahibi olmaq; *was wollen Sie damit ~?* nə demək istəyirsiniz?; *was ~ Sie dazu?* bu haqda fikriniz nədir?; *das hat nichts zu ~* bunun heç bir mənası yoxdur; *gesagt, getan!* söz danışdın, əməl et!; *ich muss schon ~* sözün açığını deməliyəm ki, etiraf etməliyəm ki, ərz olsun ki ; *sage und schreibe* inanmazsan!; *lass dir das gesagt sein!* bunu yadında saxla!, bunu unutma!; *unter uns gesagt* öz aramızdır.

**sägen** *vt* **1.** mişarlamaq; **2.** *F (schnarchen)* xoruldamaq.

**sagenhaft** *adj.* **1.** əfsanəvi; **2.** *fig. (sehr)* çox, inanılmaz, həddən artıq.

**Sägespäne** *die/pl.* mişarağzı, yonqar, talaşa.

**Sägewerk,** *das; -(e)s, -e* taxta mişarlama karxanası.

**sah** *s. sehen.*

**Sahara,** *die; -* sahara; Afrikanın şimalında böyük səhralıq.

**Sahne,** *die; -* **1.** qaymaq, süd üzü; **2.** *saure ~* xama.

**sahnig** *adj.* qaymaqlı, yağlı.

**Saison,** *die; -, -s* fəsil, mövsüm, sezon.

**Saisonarbeiter,** *der; -s, -* mövsümçü, sezon işçisi, amanı işçi, mövsümi fəhlə.

**saisonbedingt** *adj.* mövsümlük.

**Saite,** *die; -, -n* sim, tel; *fig. Strengere ~n aufziehen* çox ciddi olmaq.

**Saiteninstrument,** *das; -(e)s, -e* simli musiqi aləti.

**Sakko,** *der; -s, -s* pencək, kot.

**sakral** *adj.* dini, məzhəbi; müqəddəs.

**Sakrament,** *das; -(e)s, -e* dini törən, dini mərasim *(Katoliklərdə);* müqəddəs ruhun insanlar vasitəsilə özünü göstərmə yolları.

**Sakrileg,** *das; -s, -e* günah, müqəddəsata hörmətsizlik.

**säkular** *adj. (weltlich)* dünyəvi.

**säkularisieren** *vt* dünyəviləşdirmək, dinin təsiri altından çıxartmaq.

**Säkularismus,** *der; -* din və dövlət işlərinin ayrılığı, laiklik.

**Salamander,** *der; -s, -* səməndər.

**Salami,** *die; -, -s* salami.

**Salat,** *der; -(e)s, -e* salat; *F jetzt haben wir den ~!* işə bax ha!, işə düşdük!

**Salatöl,** *das; -(e)s, -e* salat yağı.

**Salbe,** *die; -, -n* məlhəm.

**salben** *vt* **1.** məlhəm sürtmək, məlhəm çəkmək; **2.** *rel. j-n zum König ~* bir kəsi *(alnına müqəddəs yağ sürtərək)* paklayıb şahlığa gətirmək, bir kəsi

hökmdar etmək.

**Salböl,** *das; -(e)s* məlhəm yağı.

**salbungsvoll** *adj. : ~ reden* dəbdəbə ilə danışmaq; *~ predigen* riyakarcasına moizə etmək.

**Sälchen,** *das; -s, -* kiçik salon.

**saldieren** *vt (e-e Rechnung)* hesabı ödəmək; hesabı bağlamaq.

**Saldo,** *der; -s, -den* hesabın qalanı, qalan məbləğ.

**Saline,** *die; -, -n* duz karxanası.

**Salmiak,** *der; -* naşatır, amonyak.

**Salmonelle,** *die; -, -n* bağırsaq xəstəliyinə səbəb olan bakteriya.

**salomonisch** *adj. fig.* ağıllı , dərrakəli, bəsirətli.

**Salon,** *der; -s, -s* salon, zal.

**salonfähig** *adj.* xoşa gələn, qəbul oluna bilən; *nicht ~* qəbul olunmaz, göz qabağına qoyulmaz.

**salopp** *adj.* **1.** *(schlampig)* pinti, səliqəsiz; **2.** *(ungezwungen)* azad, təbii; biçimsiz.

**Salpeter,** *der; -s, - Chem.* şora.

**Salsa,** *der; - mus.* salsa musiqisi.

**Salto,** *der; -s, -s* havada mayallaq vurma, mayallaq.

**salü** *adv.* salam!; hələlik!

**Salut,** *der; -(e)s, -e* salam atəşi.

**salutieren** *vi* salamlamaq.

**Salve,** *die; -, -n mil.* yaylım atəşi.

**Salz,** *das; -es, -e* duz; *fig. j-m nicht das ~ in der Suppe gönnen* bir kəsə bir zadı *(şeyi)* qıymamaq; *~ auf Wunde(n) streuen* yaraya duz səpmək.

**salzarm** *adj.* duzsuz.

**Salzbergwerk,** *das; -(e)s, -e* duz mədəni, duzlaq, duzdaq.

**salzen** *(hat gesalzt/gesalzen) vt* **1.** duzlamaq, duz səpmək; **2.** *fig. gesalzene Preise* yuxarı qiymətlər.

**Salzgurke,** *die; -, -n* duza qoyulmuş xiyar, duzlu xiyar.

**salzhaltig** *adj.* duzlu, duz saxlayan.

**salzig** *adj.* duzlu.

**Salzlake,** *die; -, -n* şor su.

**Salzsäure,** *die; -* xlorid turşusu.

**Salzsee,** *der; -s, -n* duz gölü, duzlu göl.

**Salzstreuer,** *der; -s, -* duzqabı.

**Salzwasser,** *das; -s* şor su.

**Samariter,** *der; -s, - fig.* xəstələrə ilk təmənnasız yardım edən şəxs.

**Samba,** *die; -, -s* zamba, bir növ rəqs.

**Same,** *der; -ns, -n s. Samen.*

**Samen,** *der; -s, -* **1.** *bot.* toxum, rüşeym, dən; **2.** *(Sperma)* şperma, məni.

**Samenerguss,** *der; -es, -¨e* məni *(şperma)* tök(ül)mə; *(im Schlaf)* cunub olma.

**Samenkorn,** *das; -(e)s, -¨er* dənə, dən.

**Sämerei,** *die; -, -en* toxum.

**sämig** *adj. (Soße usw.)* qəliz, qatı.

**Sammelband,** *der; -(e)s, -¨e* külliyyat.

**Sammelbecken,** *das; -s, -* **1.** su yığılan yer; reservuar; **2.** *fig.* görüş yeri, toplanış yeri.

**Sammelbegriff,** *der; -(e)s, -e* kollektiv məfhum; toplu isim.

**sammeln** *vt* yığmaq, toplamaq, döşürmək; *vr sich ~* 1. toplanmaq, yığılmaq, birikmək; 2. *(konzentrieren)* fikrini toplamaq, fikrini bir yerə yığmaq; *gesammelte Werke* əsərlər külliyyatı.

**Sammellager,** *das; -s, -* toplanış məntəqəsi; düşərgə.

**Sammelstelle,** *die; -, -n* toplanış yeri.

**Sammelsurium,** *das; -s, -rien* qarışıq; qarışıqlıq.

**Sammler,** *der; -s, -* **1.** toplayıcı, yığıcı, kolleksiyaçı *(Süd. : kolleksiyonçu)*; **2.** *el.* akkumul(y)ator.

**Sammlung,** *die; -, -en* **1.** *(sammeln)* yığma, toplama; **2.** *(Münzen usw.)* kolleksiya *(Süd. : kolleksiyon);* **3.** məcmuə, toplu; **4.** *(Museum)* muzey, sərgi; **5.** *(geistig)* fikrini bir yerə yığma, fikrini cəmləşdirmə.

**Samowar,** *der; -s, -e* samovar.

**Samstag,** *der; -(e)s, -e* şənbə, altıncı gün; *am ~* şənbə günü, altıncı gün.

**samstags** şənbə günləri.

**samt** *D präp.* ...birlikdə, ..ilə birlikdə; *adv. : ~ und sonders* hamısı birlikdə, istisnasız.

**Samt,** *der; -(e)s, -e* məxmər.

**samtartig** *adj.* məxmər kimi.

**sämtlich** *adj. (alle)* hamı, bütün; *adv.*

hamısı birlikdə, istisnasız, müstəsnasız.

**samtweich** *adj.* məxmər kimi yumşaq.

**Sanatorium,** *das; -s, -rien* sanatoriya.

**Sand,** *der; -(e)s, -e* qum; gahgir; *fig. auf ~ bauen* əsassız iş görmək; *wie ~ am Meer* saysız-hesabsız; *~ ins Getriebe streuen* əngəl törətmək; *im ~e verlaufen* yaddan çıxıb getmək, unudulmaq.

**Sandale,** *die; -, -n (leichter Schuh)* səndəl.

**Sandbank,** *die; -, -¨e* dayaz qumlu yer, qumsal.

**Sandboden,** *der; -s, -¨* qumlu yer.

**sandig** *adj.* qumlu.

**Sandkasten,** *der; -s, -¨* qumla dolu sandıq, qum sandığı *(uşaqlar üçün).*

**Sandkorn,** *das; -(e)s, -¨er* qum dənəsi.

**Sandpapier,** *das; -s, -e* sumbata kağızı.

**Sandsack,** *der; -(e)s, -¨e* qum kisəsi.

**Sandstein,** *der; -(e)s, -e* qum daşı.

**Sandstrahlgebläse,** *das; -s, -* qum püskürən alət.

**Sandstrand,** *der; -(e)s, -¨e* plyaj *(Süd. : plaj),* dəniz sahili, qumlu sahil.

**Sandsturm,** *der; -(e)s, -¨e* qum tufanı.

**sandte** *s. senden.*

**Sanduhr,** *die; -, -en* qum saatı.

**Sandwüste,** *die; -, -n* qum səhrası.

**sanft** *adj.* **1.** *(zahm)* mülayim; **2.** *(mild, freundlich)* məlahətli; yumşaq, həlim; incə; **3.** *(friedlich)* sakit, dinc, yavaşca.

**Sänfte,** *die; -, -n* taxt-rəvan, xərək.

**Sanftmut,** *die; -* mülayimlik, yumşaqlıq.

**sanftmütig** *adj.* mülayim, həlim, yumşaqxasiyyət(li).

**sang** *s. singen.*

**Sang,** *der; -(e)s, -¨e* mahnı, oxuma; *mit ~ und Klang* saz-avaz ilə, sazla-avazla.

**Sänger,** *der; -s, -* müğənni, xanəndə.

**sang-und klanglos** *adv.* səssiz- küysüz, məlum olmadan, xəlvəti.

**sanieren** *vt* **1.** *med.* sağlamlaşdırmaq; **2.** *(altes Gebäude)* təmir etmək, təzələmək; **3.** *H.* səmərəli etmək, əlverişli etmək.

**Sanierung,** *die; -, -en* sağlamlaşdırma; qaydaya salma; təzələmə.

**sanitär** *adj.* səhiyyə tədbirləri; sanitariya; *~e Einrichtung* səhiyyə təsisatı *pl.*

**Sanitär,** *der; -s, -e (Klempner)* tənəkəçi.

**Sanitäter,** *der; -s, -* sanitar.

**Sanitätsflugzeug,** *das; -(e)s, -e* təcili yardım təyyarəsi.

**Sanitätswache,** *die; -, -n* təcili yardım mərkəzi *(məntəqəsi).*

**Sanitätswagen,** *der; -s, -* təcili yardım maşını *(Süd. : ambulans).*

**Sanitätswesen,** *das; -s* səhiyyə işləri *pl.*

**sank** *s. sinken.*

**Sankt;** müqəddəs.

**Sanktion,** *die; -, -en* **1.** *(Billigung)* təsdiq etmə, razılıq; **2.** *pl. (gegen j-n/et. ~en verhängen)* məcburi tədbirlər görmək, sanksiya.

**sanktionieren** *vt* **1.** sanksiya vermək; cəzalandırmaq; **2.** *(positiv)* təşviq etmək.

**sann** *s. sinnen.*

**Saphir,** *der; -s, -e* yaqut.

**Sardine,** *die; -, -n* sardina *(balığı).*

**Sarg,** *der; -(e)s, -¨e* tabut.

**Sarkasmus,** *der; -, -men* istehza, kinayə.

**sarkastisch** *adj.* istehzalı, kinayəli.

**saß** *s. sitzen.*

**Satan,** *der; -s* şeytan, iblis.

**satanisch** *adj.* şeytanca, şeytancasına, şeytan*(i).*

**Satellit,** *der; -en, -en* satelit; peyk.

**Satellitenstaat,** *der; -(e)s, -en* əlaltı dövlət, asılı dövlət, tərəfdar dövlət.

**Satin,** *der; -s, -s* atlas, ipək

**Satire,** *die; -, -n* satira, həcv, məzhəkə.

**Satiriker,** *der; -s, -* həcvçi.

**satirisch** *adj.* satirik, məzhəkəli.

**satt** *adj.* **1.** tox, doymuş; *ich bin ~* toxam; *sich ~ essen* doyunca yemək, doymaq; **2.** *(Farbe)* tünd; *ein ~s Rot* tünd qırmızı rəng; *fig. ich habe ihn ~*

ondan lap zəhləm gedir, ondan doymuşam.

**Sattel,** *der; -s, -¨* **1.** yəhər; **2.** *geol.* dağaşırımı; *fig. fest im ~ sitzen* yerində bərk oturmaq; *er ist in allen Sätteln gerecht* onun əlindən hər iş gəlir.

**Satteldecke,** *die; -, -n* yəhəraltı.

**sattelfest** *adj. fig.* yaxşı bilən; *~ in* yeri möhkəm olmaq.

**Sattelgurt,** *der; -(e)s, -e* tapqır, qarınaltı.

**satteln** *vt* yəhərləmək.

**Sattelschlepper,** *der; -s, -* traktor.

**Satteltasche,** *die; -, -n* xurcun.

**sättigen** *vt* **1.** doyana qədər yedizdirmək, doyuzdurmaq, doyurmaq; **2.** *Chem.* hopdurmaq, doymuş hala gətirmək; **3.** *(Markt)* doldurmaq; *der Markt ist mit Waren gesättigt* bazar mal ilə doludur; *vr sich ~* doymaq, canına çəkmək, hopmaq.

**sattsam** *adv.* kifayət qədər, yetərincə.

**Saturn,** *der; -s astr.* saturn, zühal, keyvan, sekendiz.

**Satz,** *der; -es, -¨e* **1.** *gr.* cümlə; **2.** *mus.* hissə; **3.** *(Lehre)* nəzəriyyə, elmi fikir, müddəa; **4.** *(Sprung)* atılma, sıçrama, sıçrayış, tullanma; **5.** *(Bodensatz)* xılt, çöküntü, torta; **6.** *(Sport)* set *(Süd. : qeym, əl);* **7.** *(Briefmarken)* seriya; **8.** *typ.* yığılmış hərflər; mətn; **9.** *(Tarif)* təyin edilmiş miqdar, müəyyən olunmuş miqdar; **10** *(Geschirr usw.)* dəst, əl.

**Satzbau,** *der; -(e)s* cümlə quruluşu.

**Satzgefüge,** *das; -s, - gr.* tabeli mürəkkəb cümlə.

**Satzteil,** *der; -(e)s, -e* cümlə üzvü.

**Satzung,** *die; -, -en* əsasnamə, nizamnamə.

**satzungsgemäß** *adj.* nizamnaməyə uyğun, nizamnaməyə görə.

**Satzzeichen,** *das; -s, -* durğu işarəsi.

**Sau,** *die; -, Säue u. -en* dişi donuz; *fig.* pis arvad; pinti adam; *fig. j-n zur ~ machen* bir kəsi amansızca məzəmmət etmək, bir kəsin abrını ətəyinə bükmək; *F unter aller ~* fəlakətdir fəlakət, çox pis bir iş.

**Sauarbeit,** *die; -, -en F* pis iş; çirkli iş.

**sauber** *adj.* **1.** *(frei von Schmutz)* təmiz, saf; arı; *~ machen* təmizləmək, arıdmaq; **2.** *(ordentlich)* səliqəli; *e-e ~e Arbeit* səliqəli iş; **3.** *(anständig)* ədəbli, ləyaqətli.

**Sauberkeit,** *die; -* təmizlik, səliqə*(lilik),* təmizkarlıq.

**säuberlich** *adj.* təmiz, səliqəli.

**saubermachen** *vt* təmizləmək.

**säubern** *vt* təmizləmək, arıdmaq, arıtmaq *gesäubert werden* arınmaq, təmizlənmək, arıtlanmaq.

**Säuberung,** *die; -, -en a. pol.* təmizləmə işləri, xoşa gəlməyən ünsürləri işdən azad etmə.

**Saubohne,** *die; -, -n bot.* paxla.

**Saudi-Arabien;** Səudiyyə Ərəbistanı.

**Sauce,** *die; -, -n* sous.

**saudumm** *adj. F* çox axmaq.

**sauer** *adj.* **1.** turş; **2.** *(hart, schwierig, mühselig)* çətin, ağır, yorucu; **3.** *(böse, ärgerlich)*qaşqabaqlı, tutqun; küskün; *er ist heute ~* o bu gün qaşqabaqlıdır, o bu gün hirslidir; *fig. j-m Saures geben* bir kəsi məzəmmət etmək və ya döymək; *~ verdientes Geld F* çox zəhmətlə qazanılmış pul.

**Sauerampfer,** *der; -s, -* turşəng, quzuqulağı.

**Sauerbraten,** *der; -s, -* turşuqovurma.

**Sauerei,** *die; -, -en* ədəbsizlik, pislik.

**Sauerkirsche,** *die; -, -n* gilanar.

**Sauerkraut,** *das; -(e)s* duzlu kələm.

**säuerlich** *adj.* turş, turşməzə*(li);* ağızqamaşdıran; *fig.* tutqun, qaşqabaqlı.

**säuern** *vt* turşutmaq, qıcqırtmaq; *vi* turşumaq.

**Sauerstoff,** *der; -(e)s* oksigen.

**Sauerstofflasche,** *die; -, -n* oksigen balonu *(Süd. : oksijen kapsulu).*

**sauersüß** *adj.* turşaşirin.

**sauertöpfisch** *adj.* deyingən, üzügülməz.

**saufen** *vt* **1.** *(Tier)* içmək; **2.** *(Mensch)* 1. *(unmäßig trinken)* çox içmək; 2. *(Alkohol)* çox içki içmək.

**Säufer,** *der; -s, -* içki düşgünü, alkoqo-

lik, alkoholik.

**Sauferei,** *die; -, -en* sərxoşluq, içhaiç.

**saugen** *vt u. vi* **1.** *(aus et.) bir şeydən* sormaq, əmmək, hopdurmaq; **2.** *(an et.) bir şeyi* sormaq, *bir şeyi* əmmək, əmişmək.

**säugen** *vt* əmizdirmək.

**Säugetier,** *das; -(e)s, -e* məməli heyvanlar.

**Saugflasche,** *die; -, -n* əmzik şüşəsi.

**Saugglocke,** *die; -, -n med.* badkeş.

**Saugheber,** *der; -s, -* sifon.

**Säugling,** *der; -s, -e* südəmər uşaq, körpə uşaq, bala, çağa.

**Säuglingsfürsorge,** *die; -* südəmər uşaqların ictimai təminat idarəsi.

**Säuglingspflege,** *die, -* südəmər uşaqlara qulluq.

**Säuglingssterblichkeit,** *die; -* körpə uşaqların ölüm nisbəti.

**Saugpapier,** *das; -s, -e* suçəkən kağız.

**Saugpumpe,** *die; -, -n* su çəkən tulumba, nasos, pompa.

**Saugrohr,** *das; -(e)s, -e* sorub çəkən boru.

**saukalt** *adj. F* çox soyuq, şaxta.

**Säule,** *die; -, -n* sütun, dirək.

**Säulengang,** *der;-(e)s, -¨e* sütunlar cərgəsi.

**Saum,** *der; -(e)s, -¨e* **1.** sırıq; **2.** *(Rand)* kənar, qıraq, ətək; haşiyə.

**saumäßig** *adj. F* **1.** *(sehr schlecht)* çox pis; pinti, çirkli; **2.** *(intensiv)* gərgin, şiddətli.

**säumen**[1] *vt* **1.** haşiyələmək; **2.** *(Kleid)* qırağını basdırmaq; **3.** *(umgeben)* əhatə etmək, dövrəyə almaq; **4.** *( Straßen)* kənarında *(qırağında)* düzülmək *(durmaq).*

**säumen**[2] *vi* **1.** *(zögern, zaudern)* tərəddüd etmək, ləngimək; **2.** *(sich verspäten)* geçikmək .

**säumig** *adj. (ein Schuldner usw.)* gecikən, borcunu gec verən.

**Saumpfad,** *der; -(e)s, -e* dağ cığırı, qatır yolu.

**Saumpferd,** *das; -(e)s, -e* yük atı.

**saumselig** *adj.* tənbəl, astagəl; gecikən, yavaş isləyən.

**Saumtier,** *das; -s. -e* yük heyvanı, qatır, eşşək.

**Sauna,** *die; -, -s* fin hamamı, savna; *in die ~ gehen* savnaya getmək.

**Säure,** *die; -, -n* turşu *(Süd. : a. asit).*

**säurefrei** *adj.* turşusuz, asitsiz.

**Säuregehalt,** *der; -(e)s, -e* turşu dərəcəsi, asit dərəcəsi.

**Sauregurkenzeit,** *die; -, -en F* kasad vaxt *(mətbuatın).*

**säurehaltig** *adj.* turşulu, asitli.

**Saurier,** *der; -s, -* dinozavrlar, ibtidai zamanlarda yerdə sürünən böyük heyvanlar.

**Saus** *in ~ und Braus leben* kefdə yaşamaq, kef içində həyat sürmək.

**säuseln** *vi* **1.** *(rauschen)* xışıldamaq; *der Wind säuselt in den Bäumen* külək ağaclar arasında xışıldayır; **2.** *(flüstern)* pıçıldamaq.

**sausen** *vi* **1.** *(rasen)* sürətlə qaçmaq; **2.** *(Wind, Sturm)* vıyıldamaq, gurultu salmaq; **3.** *(durch et.)* kəsilmək, düşmək; *durchs Examen ~* imtahandan kəsilmək, imtahandan düşmək.

**Saustall,** *der; -(e)s, -¨e* **1.** donuz tövləsi; **2.** *fig.* pis yer, çirkli mənzil, qarmaqarışıq yer.

**Sauwetter,** *das; -s, - F* çox pis hava.

**Saxophon,** *das; -s, -e* saksofon.

**Schabe,** *die; -, -n* tarakan, mətbəx böcəyi.

**Schabefleisch,** *das; -(e)s* döyülmüş sığır əti.

**schaben** *vt* **1.** qazımaq; qaşımaq; **2.** *(auf Reibeisen)* rəndələmək.

**Schabernack,** *der; -s, -e* pis zarafat.

**schäbig** *adj.* **1.** *(abgetragen)* sürtülmüş, geyilmiş, nimdaş; **2.** *(geizig)* simic, xəsis; **3.** *(karg)* cüzi; adi; *er hat ein ~es Gehalt* onun cüzi maaşı var; **4.** *(ungepflegt)* yırtıq-yamaqlı; *~ angezogen sein* yırtıq-yamaqlı paltar geymək.

**Schäbigkeit,** *die; -, -en* adilik; şitlik; pəjmürdəlik, bayağılıq.

**Schablone,** *die; -, -n* şablon; qəlib *(Süd. : qalıb).*

**Schach,** *das; -(e)s* şahmat oyunu, şətrənc oyunu; *~ (dem König)!* kiş!; *fig. j-n in ~ halten* bir kəsi yerində oturtmaq, bir kəsin qabağını almaq.

**Schachbrett,** *das; -(e)s, -er* şahmat taxtası.

**Schacher,** *der; -s* müamiləçilik, tamahkarlıq, mənfəət güdmək, fırıldaq, fırıldaq qurmaq *~ treiben* möhtəkirlik etmək *(mit D/ nəiləsə).*

**schachern** *vt* möhtəkirlik etmək *(um A/* üçün*),* öz xeyrinə çalışmaq.

**Schachfigur,** *die; -, -en* şahmat oyununda 32 daşdan hər biri.

**schachmatt** *adj.* şah və mat; *fig.* yorğun, taqətdən düşmuş.

**Schachpartie,** *die; -, -n (bir əl)* şahmat *(oyunu).*

**Schachspiel,** *das; -(e)s, -e* şahmat oyunu, şətrənc oyunu.

**Schachspieler,** *der; -s, -* şahmat oyunçusu, şətrənc oynayan, şahmatçı.

**Schacht,** *der; -(e)s, -¨e* **1.** şaxta; quyu; **2.** *(im Bergbau)* mədən quyusu, mina.

**Schachtel,** *die; -, -n* qutu; *e-e ~ Zigaretten* bir qutu papiros *(siqaret); fig. alte ~* küpəgirən qarı.

**Schachtelsatz,** *der; -es, -¨e* uzun və çətin cümlə.

**Schachzug,** *der; -(e)s, -¨e* şahmat oyununda yol, həmlə; *fig.* fəndgir hərəkət.

**schade** *adj.* əfsus, heyf; *es ist ~* heyf olsun; *es ist ~ um ihn* heyf ondan; *wie ~!* heyf olsun!; *~, dass ich nicht dabei war* əfsus ki mən or(a)da deyildim.

**Schädel,** *der; -s, -* kəllə, cümcümə; *fig. e-n hohlen ~ haben* kəlləsi boş olmaq, axmaq olmaq; *mir dröhnt der ~* başım ağrıyır.

**Schädelbruch,** *der; -(e)s, -¨e* kəllənin sınması, kəllənin yarılması, kəllənin çatlaması.

**schaden** *vt* ziyan vermək, zərər vermək, xəsarət yetirmək; *das schadet nicht* bunun heç bir zərəri yoxdur.

**Schaden,** *der; -s, -¨* ziyan, zərər, itki, itigi, xələl, xəsarət, gethaget; *~ anrichten* zərər vurmaq; *~ erleiden* ziyan çəkmək; *j-m ~ zufügen* bir kəsə zərər *(ziyan)* vurmaq, xələl vermək, xəsarət yetirmək.

**Schadenfreude,** *die; -* başqasının zərərə düşməsinə sevinmə.

**schadenfroh** *adj.* başqasının zərərə düşməsinə sevinmə.

**Schaden(s)ersatz,** *der; -es* ziyanı ödəmə, ziyanın əvəzinin çıxılması, zərərin ödənilməsi, qəramət; *~ leisten* ziyanın əvəzini ödəmək.

**schadhaft** *adj.* **1.** korlanmış, nöqsanlı, zədələnmiş; **2.** *(Zähne)* çürümüş; *~e Kleider* yırtıq paltarlar.

**Schadhaftigkeit,** *die; -* çürüklük, xarablıq.

**schädigen** *vt* ziyan vurmaq, zərər gətirmək, xələl vermək.

**Schädigung,** *die; -, -en* ziyan, zərər; xəsarət.

**schädlich** *adj.* zərərli, ziyanlı.

**Schädling,** *der; -s, -e* **1.** zərərverici, ziyanvuran adam, zərərvuran adam, ziyankar; **2.** *(Schädlinge)* ziyanvuran həşərat, gənə, bit, afət.

**Schädlingsbekämpfung,** *die; -, -en* ziyanvuran həşaratla mübarizə *pl.*

**schadlos** *adj.* **1.** zərərsiz, ziyansız; **2.** *sich ~ halten an D* çəkdiyi zərərin yerini doldurmaq, *bir şeydən* əvəzini çıxmaq *(almaq).*

**Schadstelle,** *die; -, -n* zədələnmiş yer, xarab olmuş yer.

**Schadstoff,** *der; -(e)s, -e* zərərli maddə.

**Schaf,** *das; -(e)s, -e* **1.** qoyun; **2.** *(Lamm)* quzu; **3.** *F (Dummkopf)* axmaq.

**Schafbock,** *der; -(e)s, -¨e* qoç.

**Schäfchen,** *das; -s, -* quzu; *fig. sein ~ ins Trockene bringen* kisəsini doldurmaq, yolunu tapmaq, mənfəətini əmin etmək.

**Schäfer,** *der; -s, -* çoban.

**Schäferhund,** *der; -(e)s, -e* çobaniti.

**Schaffell,** *das; -(e)s, -e* qoyun dərisi.

**schaffen** *vt* **1.** *(errichten, gründen)* qurmaq, yaratmaq, meydana gətirmək; **2.** *(herbringen)* gətirmək; **3.** *(wegbringen)* götürmək, aparmaq; **4.** *(tun)* etmək, ye-

rinə yetirmək; **5.** *(bewirken) -ə* yol açmaq, *-ə* səbəb olmaq; **6.** *F (arbeiten)* işləmək; *j-m viel zu ~ machen* bir kəsə çox başağrısı vermək; *zu ~ haben* işi olmaq; *mit j-m nichts zu ~ haben wollen* bir kəs ilə heç bir əlaqə qurmaq istəməmək; *Ordnung ~* qaydaya salmaq, nizam-intizam yaratmaq; *et. aus dem Weg ~* bir şeyi yoldan kənar etmək, aradan qaldırmaq; *F ich bin geschafft!* öldüm!, həlak oldum!.

**Schaffen,** *das; -s* yaratma; yaradıcılıq; iş, əmək.

**Schaffenskraft,** *die; -, -¨e* yaradıcılıq qabiliyyəti.

**Schaffleisch,** *das; -(e)s, -* qoyun əti.

**Schaffner,** *der; -s* konduktor, biletçi.

**Schaffung,** *die, -* yaradılış, yaratma, icad; tədarük.

**Schafherde,** *die; -, -n* qoyun sürüsü.

**Schafgarbe,** *die; - bot.* boymadərən, qanotu.

**Schafhirte,** *der; -en, -en* çoban.

**Schafott,** *das; -(e)s, -e* edam kürsüsü.

**Schafpelz,** *der; -es, -e* kürk; *Wolf im ~* qoyun dərisinə *(cildinə, donuna)* girmiş qurd, hiyləgər, riyakar.

**Schafskäse,** *der; -s, -* qoyun pendiri *(Süd. : qoyun pəniri).*

**Schafskopf,** *der; -(e)s, -¨e fig.* axmaq.

**Schaft,** *der; -(e)s, -¨e* **1.** mil, lülə; dəstək; **2.***(Gewehrschaft)* qundaq; **3.** *(Stiefelschaft)* çəkmə boğazı.

**Schaftstiefel,** *der; -s, -* uzunboğaz çəkmə.

**Schafwolle,** *die; -* yun, *(Süd. : yün).*

**Schafzucht,** *die; -* qoyunçuluq, davarçılıq.

**Schah,** *der; -s, -s* Şah, Şahənşah.

**Schakal,** *der; -s, -e zo.* çaqqal.

**schäkern** *vi (flirten)* eşqbazlıq etmək *(mit D/bir kəs ilə).*

**Schal,** *der; -s, -s* şal, boğazlıq; dolaq.

**schal** *adj.* dadsız, bayat.

**Schale,** *die; -, -n* **1.** *(Gefäß)* kasa, piyalə; **2.** *(Tasse)* fincan; **3.** *(Hülle von Früchten usw.)* qabıq; **4.** *(von Schalentieren )* qın.

**schälen** *vt -in* qabığını soymaq; *vr sich ~* dəridən çıxmaq; qabıq vermək.

**Schalk,** *der; -(e)s, -e* dəcəl, təlxək.

**schalkhaft** *adj.* təlxək, zarafatcıl.

**Schall,** *der; -(e)s, -e* səs, səda.

**Schalldämpfer,** *der; -s, -* səsboğucu.

**schalldicht** *adj.* səskeçirməyən, səsboğucu.

**schallen** *vi* səslənmək.

**Schallgeschwindigkeit,** *die; -* səsin yayılma sürəti.

**Schallmauer,** *die; -* səs divarı.

**Schallplatte,** *die; -, -n* qrammofon valı *(Süd. : qrammofon səfhəsi).*

**Schallwelle,** *die; -, -n* səs dalğası.

**Schalltrichter,** *der; -s, -* səs borusu.

**Schalmei,** *die; -, -en* tütək.

**schalt** *s. schelten.*

**schalten** *vt* **1.** *el.* qoşmaq, cərəyanı birləşdirmək; **2.** *(Auto)* sürət tənzim ediciyə keçirmək *(Süd. : dəndəyə qoymaq); in den ersten Gang ~* birinci sürəttənzimediciyə *(Süd. : dəndəyə)* qoymaq *(keçirmək); vi* 1. *(umgehen, wirtschaften)* idarə etmək, sərəncam vermək; 2. *(begreifen)* anlamaq, başa düşmək; *~ und walten* istədiyini etmək.

**Schalter,** *der; -s, -* **1.** kassa, gişə; **2.** *el.* işıq açarı, işıq düyməsi.

**Schaltjahr,** *das; -(e)s, -e* uzun il, kəbisə ili.

**Schalttag,** *der; -(e)s, -e* kəbisə günü, fevral ayının 29-u.

**Schaltung,** *die; -, -en* **1.** *el.* qoşma; devrə; **2.** *(im Auto)* sürəttənzimedici, *(Süd. : dəndə).*

**Scham,** *die; -* **1.** utancaqlıq, utanma, həya, abır, ar, xəcalət; **2.***(Schamteile)* cinsiyyət üzvləri, qasıq.

**schämen** *: vr sich ~* utanmaq, xəcalət çəkmək, həya eləmək, qısılmaq, ar etmək, arlanmaq, qızarmaq *(über A,wegen G/-dən* ötrü*; vor D/ kimdənsə, nədənsə); du solltest dich ~!* utan!, həya et!, xəcalət çək!; *fig. du solltest dich wirklich ~!* ətin-əndamin tökülsün!, həya elə!; *ich schäme mich!* arıma gəlir!

**Schamgefühl,** *das; -(e)s, -e* həya hissi,

ar.

**schamhaft** *adj.* utancaq, arlı.

**schamlos** *adj.* utanmaz, həyasız, abırsız, utanmazcasına, arsız, behəya, çəngi.

**Schamlosigkeit,** *die; -, -en* utanmazlıq, həyasızlıq, abırsızlıq.

**schamrot** *adj. ~ werden* üzü qızarmaq *(utanmaqdan).*

**Schamteile** *der/pl.* cinsiyyət üzvləri.

**Schande,** *die; -* ayıb, biabırçılıq, rüsvayçılıq, üzüqaralıq; ləkə, şərəfsizlik, abırsızlıq, eyb; *fig.* fahişəlik; *mach mir keine ~!* üzümü qara etmə!, üzüqaralıq gətirmə!

**schänden** *vt* namusunu ləkələmək, biabır etmək, rüsvay etmək, xar etmək.

**Schandfleck,** *der; -(e)s, -e* rüsvayçılıq ləkəsi, rüsvayçı ləkə.

**schändlich** *adj.* biabırçı, rusvayediçi, rəzil, rüsvayçı.

**Schändlichkeit,** *die; -, -en* alçaqlıq, rəzalət, xəbislik, biabırçılıq, rüsvayçılıq.

**Schandmal,** *das; -(e)s, -e* rüsvayçılıq damğası, rüsvayçı ləkə.

**Schandtat,** *die; -, -en* biabır(çı)lıq, alçaq hərəkət, pis hərəkət.

**Schändung,** *die; -, -en* zorlama, təcavüz etmə; murdarlama.

**Schankwirt,** *der; -(e)s, -e* meyxanaçı.

**Schanze,** *die, -, -n* **1.** *(Befestigung)* səngər, istehkam; **2.** *(Skischanze)* atılma səddi; *fig. sein Leben in die ~ schlagen* həyatını təhlükə altına qoymaq.

**Schar,** *die; -, -en* **1.** dəstə, sürü, qrup, yığın; **2.** *(Pflugschar)* gavahın; *in ~en* dəstə-dəstə, sürü-sürü.

**scharen** *vt um sich ~* ətrafına yığmaq, bir yerə toplamaq; *vr sich ~* toplanmaq, yığışmaq *(um A/bir şeyin* ətrafına*).*

**scharenweise** *adv.* dəstə-dəstə, qrup-qrup.

**scharf** *adj.***1.** iti, kəskin, sərt; **2.** *(Messer usw.)* iti, sivri, itiuclu, kəsərli; **3.** *(Pfeffer usw.)* acı; **4.** *(ätzend)* yandırıcı, aşındırıcı; **5.** *(beißend)* yeyici, aşındırıcı; **6.** *(Munition)* dolu güllə; *~ schießen* sərrast atmaq, dolu güllə ilə atmaq; **7.** *(Film, Buch)* şəhvani; **8.** *(Ohr)* həssas; **9.** *(Verstand)* zəkalı, gözüaçıq; **10.** *(Bild)* şəffaf; **11.** *(spitzwinklig)* itibucaqlı; *j-n ~ ansehen* bir kəsə diqqətlə *(itibaxışla)* baxmaq; *~ sein auf A* bir şeyə tamahı düşmək, bir şeydə gözü olmaq; *~e Antwort* sərt cavab; *~er Protest* şiddətli etiraz; *adv. ~ nachdenken* yaxşı düşünmək, götür-qoy etmək, ölçüb-biçmək.

**Scharfblick,** *der; -(e)s* fərasət, bəsirət, ağıllılıq.

**scharfblickend** *adj.* fərasətli, bəsirətli, ağıllı.

**Schärfe,** *die; -* itilik; *s. scharf.*

**schärfen** *vt* **1.** *(Messer usw.)* itiləmək; yonmaq; **2.** *(Sinne)* inkişaf etdirmək, qüvvətləndirmək; möhkəmləndirmək.

**scharfkantig** *adj.* itibucaqlı.

**scharfmachen** *vt* **1.** *(aufhetzen)* təhrik etmək, qızışdırmaq; **2.** *(begierig machen auf Sex)* şəhvət hissini oyatmaq.

**Scharfmacher,** *der; -s, -* fitnəkar, araqarışdıran, təhrikçi, qızışdırcı.

**Scharfrichter,** *der; -s, -* cəllad.

**Scharfschießen,** *das; -s, -* dolu *(həqiqi)* güllə ilə atmaq.

**Scharfschütze,** *der; -n, -n* düzvuran, mahir atıcı, mahir güllə atan.

**scharfsichtig** *adj.*itigözlü, gözüaçıq, itigörən; *fig.* uzaqgörən, gələcəyi görən.

**Scharfsinn,** *der; -(e)s* fərasət, zəka, bəsirət.

**scharfsinnig** *adj.* fərasətli, zəkalı, fəhmli; hafizəli; əllamə.

**Scharlach,** *der; -s* **1.** alqırmızı rəng; **2.** *med.* qızılca, skarlatina.

**scharlachrot** *adj.* alqırmızı rəng.

**Scharlatan,** *der; -s, -e* fırıldaqçı, şarlatan, dələduz, fəndbaz, fəndcil, fəndgir.

**Scharmützel,** *das; -s, - mil.* toqquşma, atışma; *fig.* dalaşma, küsmə.

**Scharnier,** *das; -s, -e* rəzə.

**Schärpe,** *die; -, -n* enli lent.

**scharren** *vt* eşmək; *vi* **1.** *(in der Erde)* eşələmək; **2.** *(kratzen)* qazımaq.

**Scharte,** *die; -, -n* **1.**diş, dişək; *ein Messer mit vielen ~n* dişli bıçaq, ziq-zaqlı bıçaq; **2.** *(Riss)* çatlaq, çatlamış yer, ya-

rıq; **3.** *fig. (Misserfolg, Fehler)* səhv, zərər; *fig. e-e ~ auswetzen* səhvi düzəltmək, zərəri aradan qaldırmaq.

**schartig** *adj.* diş-diş edilmiş, ziq-zaqlı, diş-diş.

**scharwenzeln** *vi* yaltaqlanmaq *(um j-n/ bir kəsə).*

**Schaschlik,** *der u. das; -s, -s* şişlik, şiş kabab.

**schassen** *vt F* işdən çıxartmaq.

**Schatten,** *der; -s, -* **1.** kölgə; *im ~* kölgədə; **2.** *(Spur)* iz; **3.** *(e-s Toten)* kabus; *fig. in den ~ stellen* kölgədə buraxmaq.

**Schattenbild,** *das; -(e)s, -er* siluet, kölgə şəklində rəsm.

**schattenhaft** *adj.* kölgə kimi, xəyal kimi, xəyali; mübhəm.

**Schattenkabinett,** *das; -(e)s, -e* xəyali kabinet, müxalifətin gələcəkdə hakimiyyətə keçəbiləcəyi halda yaratdığı bir qrup, oyuncaq kabinet.

**Schattenseite,** *die; -, -n* **1.** kölgəli tərəf; **2.** *fig.* tərs üzü, nöqsanlı tərəf.

**schattenspendend** *adj.* kölgəli.

**Schattenspiel,** *das; -(e)s, -e* kölgə oyunu.

**Schattierung,** *die; -, -en* **1.** rəngə çalma; **2.** çalar, incə fərq, nüans, təmayül.

**schattig** *adj.* kölgəli.

**Schatulle,** *die; -, -n* qutu, sandıqça, mücrü.

**Schatz,** *der; -es, -¨e* **1.** xəzinə, dəfinə; **2.** *F (Liebling)* əzizim!, sevgilim!.

**Schatzamt,** *das; -(e)s, -¨er* xəzinədarlıq.

**schätzen** *vt* **1.**qiymət vermək, nırx qoymaq, qiymətləndirmək, dəyərləndirmək *(auf A/*nəyisə*);***2.***(vermuten)* zənn etmək, güman etmək; **3.** *(verehren, achten) bir kəsə* hörmət etmək; *et. zu ~ wissen* bir şeyin dəyərini bilmək, bir şeyin qədrini bilmək; *vr sich glücklich ~, (dass..)* özünü xoşbəxt saymaq *(ki..).*

**schätzenswert** *adj.* qiymətli, dəyərli.

**Schatzgräber,** *der; -s, -* xəzinə *(dəfinə)* axtaran.

**Schatzkammer,** *die; -, -n* xəzinə.

**Schatzmeister,** *der; -s, -* xəzinədar.

**Schätzung,** *die; -, -en s. schätzen.*

**schätzungsweise** *adv.* gözəyarı, təxminən, təqribən.

**Schau,** *die; -, -en* **1.***(Ausstellung)* sərgi, göstərilmə; **2.** *(Blick)* baxış, nəzər, nöqteyi-nəzər; **3.** *(Betrachtung)* gözdən keçirtmə; **4.** *(Anblick)* mənzərə, tamaşa; *et. zur ~ stellen* bir şeyi sərgiyə qoymaq, göstərmək.

**Schaubild,** *das; -(e)s, -er* diaqram.

**Schaubude,** *die; -, -n* balaqan, sərgi balağanı.

**Schaubühne,** *die; -, -n* səhnə, teatr səhnəsi.

**Schauder,** *der; -s, -* **1.***(Schauer)* əsmə, titrəmə; **2.** *(Grauen)* dəhşət, vahimə.

**schauderhaft** *adj.* dəhşətli, qorxulu.

**schaudern** *vi* **1.** *(vor Kälte usw.)* titrəmək, əsmək;**2.** *j-n/j-m schauderte es vor D* bir şeydən dəhşətə gəlmək, bir şeydən qorxmaq; *mir/ mich schaudert* tüklərim biz-biz olur *(vor D/-dən).*

**schauen** *vi* **1.** baxmaq; **2.** *(auf A)* bir şeyə diqqətlə baxmaq; **3.** *(nach D)* bir şeyi yoxlamaq; *nach j-m ~* bir kəsə baxmaq, bir kəsə qulluq etmək; *Schau, schau!* əcəba!, bir bax!.

**Schauer,** *der; -s, -* **1.** *s. Schauder;* **2.** *(Regenschauer)* leysan, yağışlıq.

**schauerlich** *adj.* dəhşətli.

**Schaufel,** *die; -, -n* **1.** bel, kürək; **2.** *(Handschaufel)* xəkəndaz, zibil götürmək üçün qısa dəstəli alət; *tech.* pər, qanad.

**schaufeln** *vt* kürəklə çevirmək, kürəmək; bellə işləmək; *sich sein eigenes Grab ~* öz əlilə öz qəbrini qazmaq.

**Schaufenster,** *das; -s, -* vitrin.

**Schaukel,** *die, -, -n* yelləncək, kiflan.

**schaukeln** *vi* yellənmək; *vt* yelləmək; *fig. wir werden das Kind schon ~* biz bu işi düzəldərik *(yoluna salarıq).*

**Schaukelpferd,** *das; -(e)s, -e* yelləncək at *(üşaqlar üçün).*

**Schaukelstuhl,** *der; -(e)s, -¨e* yellənən-səndəl.

**schaulustig** *adj.* hər şeylə maraqlanan.

**Schaum,** *der; -(e)s, -¨e* köpük, kəf; *zu ~ schlagen* kəfləndirmək, köpükləndirmək.

**schaumbedeckt** *adj.* köpüklənmiş.

**schäumen** *vi* köpüklənmək, kəflənmək.

**schäumig** *adj.* köpüklü, qazlı.

**Schaumlöffel,** *der; -s, -* kəfgir.

**Schaumlöscher,** *der; -s, -* köpüklü odsöndürən.

**Schaumschläger,** *der; -s, - fig.* lovğa, gopçu.

**Schaumschlägerei,** *die; -, -en* lovğalıq, gopçuluq.

**Schaumünze,** *die; -, -n* medal.

**Schaumwein,** *der; -s, -e* köpüklü şərab, qazlı şərab.

**Schauplatz,** *der; -es, -¨e* səhnə, hadisənin baş verdiyi yer.

**Schauprozess,** *der; -es, -e pol.* gözqorxutma məhkəməsi, saxta mühakimə.

**schaurig** *adj.* dəhşətli, qorxunc.

**Schauspiel,** *das; -(e)s, -e* tamaşa; pyes.

**Schauspieler,** *der; -s, -* artist, aktyor.

**Schauspielerin,** *die; -, -en* aktyor, artist *(qadın).*

**schauspielern** *vt* **1.** artistlik etmək; **2.** *fig. (et. vortäuschen) bir şeyi* yalandan eləmək, özünü artistliyə vurmaq.

**Schauspielhaus,** *das; -es, -¨er* teatr, aktyor evi.

**Schauspielkunst,** *die; - Th.* aktyorluq, artistlik sənəti.

**Schausteller,** *der; -s, -* sərgiyə qoyan, tamaşaya qoyan.

**Schaustück,** *das; -(e)s, -e* tamaşa üçün qoyulmuş mal.

**Scheck,** *der; -(e)s, -s* çek; *e-n ~ ausstellen/schreiben* çek yazmaq.

**Scheckheft,** *das; -(e)s, -e* çek dəftəri.

**scheckig** *adj.* ala-bula, ləkəli.

**scheel** *adj.* **1.** *(schief)* əyri, çəp; **2.** *(neidisch)* paxıl.

**Scheffel,** *der; -s, -* şeffel; *fig. sein Licht unter den ~ stellen* öz bacarığını gizlətmək, təvazökarlıq etmək.

**scheffeln** *vt Reichtümer ~* sərvət yığmaq.

**Scheibe,** *die; -, -n* **1.** disk, dairəcik; **2.** *(Brotscheibe usw.)* fal, dilim, parça; *e-e ~ Brot* bir dilim *(parça)* çörək; *in ~n* dilim-dilim; *in ~n schneiden* dilimləmək, dilim-dilim kəsmək; *e-e ~ Zitrone* bir dilim limon; **3.** *(Glasscheibe)* cam, pəncərə şüşəsi; **4.** *(Schießscheibe)* nişan, hədəf.

**Scheibenschießen,** *das; -s* hədəfə atma.

**Scheibenwischer,** *der; -s, -* şüşəsilən.

**Scheich,** *der; -s, -s* şeyx.

**Scheide,** *die; -, -n* **1.** *(Säbelscheide)* qın; **2.** *an.* uşaqlıq yolu; *vulg.* am, amcıq, çatlaq.

**Scheidelinie,** *die; -, -n* ayırıcı xətt.

**scheiden** *vt* **1.** ayırmaq; **2.** *jur.* boşamaq; *vi* getmək, ayrılmaq *(von D/ bir şeydən)*; *sich ~ lassen* boşanmaq, ayrılmaq; *geschieden* boşanmış, ayrılmış.

**Scheidewand,** *die; -, -¨e* ayırıcı divar, arakəsmə *(divar).*

**Scheideweg,** *der; -(e)s, -e* yolayrıcı; *fig. am ~ stehen* ikisindən birisini seçmək, qərarına gəlmək məcburiyyətində olmaq.

**Scheidung,** *die; -, -en* **1.** ayrılma; ayrılıq; **2.** *(Ehescheidung)* boşa(n)ma; *die ~ einreichen* boşanma üçün ərizə vermək.

**Scheidungsklage,** *die; -, -n* boşanma haqqında ərizə, boşa(n)ma iddiası.

**Schein,** *der; -(e)s, -* **1.** *(Licht)* parıltı, işıltı, işıq; *Mondschein* ay işığı; **2.** *(Aussehen)* zahir, görünüş, xarici görünüş; *der ~ trügt* xarici görünüş *(zahir)* aldadıcıdır; *dem ~ nach (zu urteilen)* zahirə baxıb qəzavət edilirsə.

**Schein²,** *der; -s, -e* **1.** *(Attest, Bescheinigung)* şəhadətnamə, vəsiqə, qəbz; **2.** *(Geldschein)* kağız pul, əsginas.

**Scheinangriff,** *der; -(e)s, -e* zahiri hücum, saxta *(yalançı)* həmlə.

**scheinbar** *adj.* zahiri, xəyali; *adv.* güman ki, görünür ki, guya ki, zahirən, deyəsən, deyən.

**Scheinehe,** *die; -, -n* saxta nikah, fiktiv evlənmə.

**scheinen** *vi* **1.** işıqlanmaq, işıq vermək; **2.** *(glänzen)* parıldamaq; **3.** *fig.* güman edilmək, zənn olunmaq, oxşamaq, bənzəmək, görünmək *(dass.../ als ob .../ ... kimi)*; *er scheint krank zu sein* o xəstə görünür; *es scheint mir, als ob...* mənə elə gəlir ki .., deyəsən, deyən; *es scheint, als wolle es schneien* elə bil ki, qar yağacaq.

**Scheingefecht,** *das; -es, -e* zahiri döyüş, uydurma döyüş.

**scheinheilig** *adj.* ikiüzlülüklə, riyakarlıqla.

**Scheinheiligkeit,** *die; -, -en* riyakarlıq, ikiüzlülük.

**Scheintod,** *der; -(e)s* uydurma ölüm, letargiya.

**scheintot** *adj.* zahiri ölmə, müvəqqəti olaraq canı çıxma.

**Scheinwerfer,** *der; -s* **1.** projektor; **2.** *(Auto)* maşının qabaq çırağı.

**Scheißdreck,** *der; -s vulg.* pox, nəcis.

**Scheiße,** *die; - vulg.* pox, nəcis, peyin.

**scheißegal** *adj. : das ist mir ~!* mənim üçün fərqi yoxdur!; mənim üçün hamısı eynidir!.

**scheißen** *vi u. vt.* qarnını boşaltmaq; *vulg.* sıçmaq.

**Scheißkerl,** *der; -s, -e* murdar, alçaq, rəzil, əclaf, namərd, haramzada.

**Scheit,** *das; -(e)s, -e* odun parçası.

**Scheitel ,** *der; -s, -* **1.** təpə; *vom ~ bis zur Sohle* başdan-ayağa kimi, təpədən-dırnağa can; **2.** *(Haar)* saç ayrımı, tağ.

**scheiteln** *vt* tağ ayırmaq, saçı ayırmaq.

**Scheitelpunkt,** *der; -(e)s, -e* zirvə; *fig.* ən yüksək nöqtə.

**Scheiterhaufen,** *der; -s, -* tonqal.

**scheitern** *vi* **1.** boşa çıxmaq, uğursuz nəticələnmək, müvəffəqiyyətsizliyə uğramaq, baş tutmamaq, puça çıxmaq, istədiyinə nail olmamaq; iflasa uğramaq; *fig.* əli boşa çıxmaq; **2.** *(Schiff)* saya oturmaq; *~ lassen* məğlubiyyətə uğratmaq.

**Schelle,** *die; -, -n* **1.** zınqırov, zəng; **2.** *(Ohrfeige)* sillə; **3.** *pl. (Handfesseln)* qandal*(lar); j-m Handschellen anlegen* bir kəsi qandallamaq

**schellen** *vi* zəng çalmaq; *es schellt* zəng çalınır.

**Schellfisch,** *der; -(e)s, -e* treska balığı.

**Schelm,** *der; -(e)s, -e* **1.** *(Spaßvogel)* zarafatcıl adam; **2.***(Schlingel)* şeytan, dəcəl; kələkbaz, fırıldaqçı, lotu.

**Schelmenstreich,** *der; -(e)s, -e* kələk, fırıldaq.

**schelmisch** *adj.* kələkbazlıqla, hiyləgərliklə; zarafatçı.

**Schelte,** *die; -, -n* məzəmmət, töhmət.

**schelten** *vt* məzəmmət etmək, danlamaq, söyüşə basmaq; *j-n ~* bir kəsi məzəmmət etmək, bir kəsi danlamaq.

**Schema,** *das; -s, -s u. –ta* **1.** sxema *(Süd. : şema)*; **2.** *(Muster)* nümunə, örnək; **3.** *(Entwurf)* plan, layihə.

**schematisch** *adj.* şxemli; klişe kimi; *fig.* monoton.

**Schemel,** *der; -s, -* kətil, çarpayı.

**Schemen,** *der; -s, -* xəyal, kabus, kölgə.

**schemenhaft** *adj.* kabus kimi, xəyali.

**Schenke,** *die; -, -n* meyxana.

**Schenkel,** *der; -s, -* **1.** *(Oberschenkel)* bud; omba; **2.** *(Unterschenkel)* baldır; **3.** *math.* bucaq tərəfi, tərəf.

**schenken** *vt* **1.** hədiyyə vermək, bağışlamaq, peşkəş eləmək *(j-m et. /bir kəsə)*; **2.** *(erlassen)* bağışlamaq, əfv etmək; **3.** *j-m Gehör ~* bir kəsi dinləmək, bir kəsə qulaq asmaq, dinləmək; *j-m Vertrauen ~* bir kəsə inanmaq.

**Schenkung,** *die; -, -en* bağışlama.

**Schenkungsurkunde,** *die; -, -n* bağışlama sənədi *(aktı)*.

**scheppern** *vi* cingildəmək; taqqıldamaq.

**Scherbe,** *die; -, -n* saxsı qırığı, şüşə qırığı; çarpanaq.

**Schere,** *die; -, -n* qayçı.

**scheren**[1] *vt* qırxmaq; biçmək.

**scheren**[2] *vt (j-n)* qəm vermək, narahat etmək; *es scherte ihn nicht, dass der Tee kalt war* çayın soyuğluğu onu heç narahat etmədi; *vr sich (um A) ~* **1.** qey-

dinə qalmaq, fikir vermək; *was schert euch das?* bundan sizə nə?; *was schert mich das?* bunun niyə qeydinə qalım?; **2.** *(weglaufen)* rədd olub getmək; *scher dich zum Teufel!* rədd ol get!, cəhənnəm ol!.

**Scherenschleifer,** *der; -s, -* bıçaqitiləyən.

**Schererei,** *die; -, -en* narahatlıq, çətinlik, başağrısı, əngəl, zəhmət.

**Scherflein,** *das; -s, -* pay; *sein ~ zu et. beitragen* əlindən gələn hər bir şeyi etmək; zənginləşdirmək.

**Scherge,** *der; -n, -n* köməkçi, qulluq edən; xəfiyyə.

**Scherz,** *der; -es, -e* zarafat *(Süd. : şuxluq)*, hənək*; ~ beiseite!* zarafat bir yana!; *zum (im) ~* zarafatla, zarafatyana.

**scherzen** *vi* zarafat etmək, şuxluq etmək; *damit ist nicht zu ~* bu zarafat deyil.

**scherzhaft** *adj.* məzəli, gülməli; zarafatyana, zarafatla.

**Scherzwort,** *das; -(e)s, -e* lətifə.

**scheu** *adj.* qorxaq, utancaq, çəkingən, cürətsiz.

**Scheu,** *die; -* qorxaqlıq, çəkinmə; qorxu.

**scheuchen** *vt* qorxutmaq, qovmaq.

**scheuen** *vt* *-dən* qorxmaq, *-dən* çəkinmək; *vi (Pferd)* hürkmək, diskinmək *(vor D/-dən); vr sich ~* qorxmaq *(vor D/ -dən)* .

**Scheuer,** *die; -, -n* taxıl anbarı.

**Scheuerlappen,** *der; -s, -* silgi, əsgi.

**scheuern** *vt* silmək, təmizləmək; *F j-m e-e ~* bir kəsə bir sillə yapışdırmaq; *vr* sürtmək *(an D/-ə)* .

**Scheuklappe,** *die; -, -n* atın gözbəndi; *fig. ~n vor den Augen haben* gözü bağlı olmaq, həqiqəti görməmək,.

**Scheune,** *die; -, -n* taxıl anbarı.

**Scheusal,** *das; -(e)s, -e* **1.** *(Tier)* canavar, dev; **2.** *(Mensch)* qəddar, zalım.

**scheußlich** *adj.* **1.** *(abscheulich)* çirkin, iyrənc, eybəcər; **2.** *(Wetter)* çox pis, dəhşətli.

**Schi,** *der; ,-s, - u. -er* ayaq xizəyi; *~ fahren* ayaq xizəyi ilə sürüşmək.

**Schicht,** *die; -, -en* **1.** *(Farbschixht)* qat, lay; **2.** *(Arbeitsschicht)* növbə, əvəz; *in zwei Schichten* ikinövbəli; **3.** *(Gesellschaftsschicht)* ictimai təbəqə; *die obere ~* yuxarı təbəqə.

**Schichtarbeit,** *die; -, -en* növbəli iş.

**schichten** *vt* qat-qat yığmaq, təbəqələşmək.

**Schichtwechsel,** *der; -s, -* iş növbəsini dəyişmə.

**schichtweise** *adv.* **1.** qat-qat, lay-lay; damar-damar; **2.** növbə ilə.

**schick** *adj.* şik, gözəl, qəşəng.

**Schick,** *der; -(e)s* qəşənglik, gözəllik.

**schicken** *vt* göndərmək, yollamaq; *nach j-m ~ bir kəsi* çağırmaq; *nach dem Arzt ~* həkim çağırmaq; *vr sich ~* **1.** yaraşmaq; nəzakət qaydaları ilə uyğun olmaq; *es schickt sich nicht, in der Nase zu bohren* burunu qurtdalamaq nəzakətdən uzaqdır; **2.** *(sich in et.)* itaət etmək, tabe olmaq; **3.** *(sich für et.) bir işə* yaramaq; **4.** *(sich beeilen)* tələsmək.

**schicklich** *adj.* yaraşan, münasib, uyğun gələn, yaraşıq.

**Schicklichkeit,** *die; -* uyğunluq; nəzakət, ədəb.

**Schicksal,** *das; -s, -e* alın yazısı, tale, qismət, fələk yazan, aqibət, qədər, iqbal, bəxt, müqəddərat, qəza, olacaq; *fig.* fal; *das ~ herausfordern* qədərə meydan oxumaq; *vom ~ gezeichnet* bağrıqara, başıbəlalı, bəladidə, bəlalı.

**schicksalhaft** *adj.* mühüm, əhəmiyyətli, aqibətini təyin edən.

**Schicksalsschlag,** *der; -(e)s, -¨e* bədbəxtlik, fələyin üz döndərməsi.

**Schiebedach,** *das; -s, -¨er (Auto)* açılıb bağlanan üstpəncərə.

**schieben** *vt* **1.** itələmək; *den Wagen ~* avtomobili itələmək; *die Schuld auf j-n ~* təqsiri bir kəsin boynuna yıxmaq; *auf die lange Bank ~* bir işi yubatmaq; *zur Seite ~* kənara çəkmək; **2.** *(mit et.)* ehtikarçılıq etmək, möhtəkirlik etmək.

**Schieber,** *der; -s, -* **1.** *(Riegel)* siyirtmə, cəftə; **2.** *(Schwarzhändler)* möhtəkir; qa-

çaq mal satan.

**Schiebetür,** *die; -, -en* siyirtmə qapı.

**Schiebung,** *die; -, -en* **1.** kələkbazlıq, hiyləgərlik; **2.** ehtikarçılıq; *e-e ~ aufdecken* ehtikarçılığın üstünü açmaq.

**schied** *s. scheiden.*

**Schiedsgericht,** *das; -(e)s, -e* münsiflər məhkəməsi.

**Schiedsrichter,** *der; -s, -* hakim.

**Schiedsspruch,** *der; -(e)s, -¨e* hakimin qərarı, münsiflər məhkəməsinin qərarı.

**schief** *adj.* **1.** əyri, çəp, çəpəki, əyri-üyrü, əyri-büyrü, əyməli; mail, qıyğac; *phys. ~e Ebene* mail müstəvi; *der Tisch steht ~* miz *(stol)* əyri duyur; *fig. auf die ~e Ebene geraten* əyri yola düşmək; *j-n ~ ansehen* bir kəsə əyri baxmaq, qıyğacı baxmaq; **2.** *(falsch)* yanlış, saxta; *ein ~es Bild von et. haben* bir şey barədə yanlış təsəvvürü olmaq.

**Schiefer,** *der; -s (Gestein)* şist; şifer.

**Schieferdach,** *das; -s, -¨er* şifer-dam örtüyü, şifer ilə örtülmüş dam .

**schiefgehen** *vi* baş tutmamaq, pis gətirmək; *F iron. das wird schon ~!* işin axırı yaxşı olacaq!.

**schieflachen** *vr sich ~ (über A/)* gülməkdən qırılmaq *(ölmək).*

**schiefliegen** *vi F* səhv etmək, yanlış düşünmək.

**schieftreten** *vt (Absatz)* dabanı sürtmək.

**schiefwink(e)lig** *adj.* çəpbucaqlı.

**schielen** *vt* **1.** çəpgöz olmaq, əyrigöz olmaq, çeri olmaq ; **2.** *(nach et.) :* 1. *(heimlich)* gizlicə baxmaq, gizli baxmaq; 2. *(begehrlich)* tamah salmaq, göz dikmək *(nach D/ nəyəsə).*

**schien** *s. scheinen.*

**Schienbein,** *das; -s, -e* baldır sümüyü.

**Schiene,** *die; -, -n* **1.** *techn.* şin, rels; **2.** *med.* sarğı taxtası.

**schienen** *vt* sarğı taxtası ilə bağlamaq.

**Schienenstrang,** *der; -(e)s, -¨e* rels yolu.

**schier** *adj.* **1.** təmiz, qatışıqsız; **2.** *(Fleisch)* sümüksüz, tikə ət; *~e Lüge* açıq yalan; *adv. (fast, beinahe)* az qala, təqribən.

**Schierling,** *der; -s, -e bot.* su baldırğanı.

**Schießbefehl,** *der; -s, -e* atəş açmaq əmri.

**schießen** *vt* **1.** atəş açmaq, atmaq; *j-m ins Bein ~* bir kəsi ayağından vurmaq; **2.** *(Reh usw.)* vurmaq; **3.** *(ein Tor)* qol vurmaq; **4.** *(ein Foto)* şəkil salmaq *(von D/ -dən); vi* 1. atəş etmək; 2. *(sich eilig bewegen)* ox kimi atılmaq; yerindən sıçramaq; 3. *(aus dem Boden)* çıx-maq; 4. *(in die Höhe)* sıçramaq; boy atmaq; *das schoss mir durch den Kopf* birdən ağlımdan keçdi; *fig. schieß los!* sözünü de!, de gəlsin!

**Schießen,** *das; -s* **1.** atışma; **2.** *(Sport)* atıcılıq.

**Schießerei,** *die; -, -en* atışma.

**Schießgewehr,** *das; -(e)s, -e* tüfəng.

**Schießplatz,** *der; -es, -¨e* atəş meydanı.

**Schießpulver,** *das; -s* barıt.

**Schießscharte,** *die; -, -n* mazğal.

**Schießscheibe,** *die; -, -n* hədəf, nişan.

**Schießsport,** *der; (e)s* atıcılıq.

**Schießstand,** *der; -(e)s, -¨e* nişanatma yeri.

**Schiff,** *das; -(e)s, -e* gəmi; *auf dem ~* gəmidə.

**Schiffahrt,** *die; -, -en* gəmiçilik, dənizçilik.

**Schiffahrtsgesellschaft,** *die; -, -en* gəmiçilik *(dənizçilik)* şirkəti.

**schiffbar** *adj.* gəmilərin üzməsi üçün yararlı, gəmi işləyə bilən.

**Schiffbau,** *der; -(e)s* gəmiqayırma.

**Schiffbruch,** *der; -(e)s, -¨e* gəmi qəzası, gəminin batması; *fig. (Misserfolg)* müvəffəqiyyətsizlik; *~ erleiden* müvəffəqiyyətsiz olmaq, uğursuz olmaq.

**schiffbrüchig** *adj.* gəmi qəzasına uğramış.

**Schiffchen,** *das; -s, -* **1.** balaca gəmi; **2.** *(Weberschiffchen)* məkik, toxucu məkik.

**schiffen** *vi* gəmi ilə getmək, gəmidə üzmək; *F (urinieren)* işəmək.

**Schiffer,** *der; -s, -* gəmiçi.

**Schifferklavier,** *das; -s, -e* akordeon.

**Schiffsarzt,** *der; -es, -¨e* gəmi həkimi.

**Schiffseigner,** *der; -s, -* gəmi sahibi.

**Schiffsfracht,** *die; -, -en* gəmi yükü.

**Schiffsjunge,** *der; -n, -n* gəmi şagirdi.

**Schiffskapitän,** *der; -s, -e* gəmi kapitanı.

**Schiffskoch,** *der; -(e)s, -¨e* gəmi aşpazı, gəmidə aşpaz.

**Schiffsladung,** *die; -, -en* gəmi yükü.

**Schiffsraum,** *der; -(e)s, -¨* gəmi anbarı.

**Schiffsschraube,** *die; -, -n* gəmini hərəkətə gətirən pər.

**Schiffswerft,** *die; -, -en* gəmi qayırılan yer, verf; gəmi tərsanəsi.

**Schiit,** *der; -en, -en* şi(y)ə.

**schiitisch** *adj.* şi(y)ə, şi(y)ə məzhəbli.

**Schikane,** *die; -, -n* **1.** azar, öcəşmə, bəhanə; *aus reiner ~* ancaq əziyyət üçün; **2.** *fig. mit allen ~n* tam rahatlıq hissələrilə, superspesial, modern.

**schikanieren** *vt* bəhanə axtarmaq, yersiz irad tutmaq, çətinliyə salmaq, azar vermək, təngə gətirmək; qan qusdurmaq, qısnamaq, ağlatmaq, cana gətirmək, bıqdırmaq, dərd vermək; *F* dərisini soymaq; *vulg. j-n ~* osturtmaq.

**schikanös** *adj.* fitnəli, pis niyyətli.

**Schilaufen,** *das; -s* xizək sürmə.

**Schiläufer,** *der; -s, -* xizək sürən.

**Schild**[1]**,** *der; -(e)s, -e* **1.** qalxan; **2.***(Wappenschild)* gerb; *F et. im ~e führen* gizli *(pis)* bir niyyəti olmaq, bir şeyin qəsdində olmaq.

**Schild**[2]**,** *das; -(e)s, -er* **1.** *(Ladenschild usw.)* lövhə, tablo; **2.** *(Nummernschild)* plak, nömrə; **3.** *(Etikett)* yarlıq, etiket.

**Schildbürger,** *der; -s, -* sadədil adam.

**Schilddrüse,** *die; -, -n* qalxanvarı vəzi.

**Schilderhaus,** *das; -es, -¨er* qarovul budkası.

**schildern** *vt* təsvir etmək, bir şeyi təfsilatı ilə danışmaq.

**Schilderung,** *die; -, -en* təsvir.

**Schildkröte,** *die; -, -n* tısbağa.

**Schildlaus,** *die; -, -¨e* qırmızıböcəyi.

**Schildpatt,** *das; -(e)s* tısbağa çanağı.

**Schilf,** *das; -(e)s, -e* qamış; qarğı.

**Schilfmatte,** *die; -, -n* həsir.

**Schilfrohr,** *das; -(e)s, -e* qarğı çubuğu.

**schillern** *vi* müxtəlif rəngə çalmaq; *fig.* rəngdən rəngə girmək.

**schillernd** *adj.* rəngdən rəngə düşən; *fig.* etibarsiz, inanılmaz.

**Schilling,** *der; -s, -e* şillinq.

**Schimäre,** *die; -, -n* boş xəyal.

**Schimmel**[1]**,** *der; -s, -* **1.** *(Pferd)* ağ at, boz at; **2.** *(Pilzüberzug)* kif.

**Schimmel**[2]**,** *der; -s, -* kif, paxır.

**schimmelig** *adj.* kiflənmiş.

**schimmeln** *vi* kiflənmək, kif tutmaq.

**Schimmer,** *der; -s* işıltı, parıltı; *fig.* iz, xəbər, təsəvvür; *keinen blassen ~ haben* heç bir xəbəri *(təsəvvürü)* olmamaq *(von D/ bir şeydən).*

**schimmern** *vi* sayrışmaq, parlamaq, parıldamaq.

**schimmlig** *adj.* kiflənmiş.

**Schimpanse,** *der; -n, -n* şimpanze.

**Schimpf,** *der; -(e)s* təhqir, söyüş, yaman; *mit ~ und Schande* söyüş ilə.

**schimpfen** *vi* söyüş etmək, yamanlamaq, söymək *(auf, über A/-ə); vt* adlandırmaq; *j-n e-n Feigling ~* bir kəsi qorxaq adlandırmaq.

**Schimpferei,** *die; -, -en* söyüş, yaman, söyüşmə.

**schimpflich** *adj.* təhqiramiz, biabırçı.

**Schimpfwort,** *das; -(e)s, -e u. -¨er* söyüş, yaman, kifir söz.

**schinden** *vt* **1.** *(quälen)* əzab vermək, incitmək; *ein Tier zu Tode ~* bir heyvanı incidib öldürmək; **2.** *(Haut)* dərisini soymaq; *vr sich ~* özünü yorub üzmək, özünü bezdirmək; *fig. (nicht bezahlen) Eintrittsgeld/Fahrgeld ~* biletsiz getmək, müftə getmək; *fig. Eindruck ~* təsir buraxmağa çalışmaq.

**Schinder,** *der; -s, -* dərisoyan; *fig.* əziyyət verən, əzab verən.

**Schinderei,** *die; -, -en* ağır iş, əziyyətli iş, yorucu iş.

**Schindluder** *: ~ treiben -i fig.*incitmək, ələ salmaq, məsxərəyə qoymaq *(mit D/bir kəsi, bir şeyi).*

**Schinken,** *der; -s, -* **1.** jambon, donuz

budu; **2.** *(Buch)* çox böyük və qalın kitab.

**Schintoismus,** *der; -* yaponiyaya məxsus olan inanc və ibadət sistemi, şinto.

**Schippe,** *die; -, -n* bel, kürək; *fig. j-n auf die ~ nehmen* bir kəsi ələ salmaq.

**schippen** *vt* kürümək.

**Schirm,** *der; -(e)s, -e* **1.** *(Regenschirm)* çətir; **2.** *(Mützenschirm)* günlük; **3.** *(Projektionsschirm)* pərdə, ekran; **4.** *(Schutzschirm)* sipər, qalxan; *fig.* himayə, mühafizə; *unter dem ~* himayəsi altında.

**Schirmbild,** *das; -(e)s, -er* rentgen ekranında görünən şəkil; radioskopiya, rengenoskopiya.

**schirmen** *vt* qorumaq *(vor D/-dən).*

**Schirmherr,** *der; -(e)n, -en* hami, qoruyan.

**Schirmherrschaft,** *die; -* himayədarlıq, qoruma; *unter der ~ G -in* himayəsi altında.

**Schirmständer,** *der; -s, -* çətir dayağı, çətir dirəyi.

**Schirokko,** *der; -s, -s* siroko, isti külək.

**schirren** *vt* qoşmaq; *Pferde an den Wagen ~* atları arabaya qoşmaq.

**Schisma,** *das; -s, Schismen rel.* təfriqə, ayrılma.

**Schiss,** *der; -es : F ~ haben* qorxmaq *(vor D/ -dən); ~ bekommen* qorxuya düşmək.

**Schistock,** *der; -(e)s, -¨e* ayaq xizəyi üçün ağac.

**schizophren** *adj.* şizofren, ruhi xəstə.

**Schizophrenie,** *die; -, -n* şizofreni*(ya).*

**schlabberig** *adj.* sulu və yumşaq, jele kimi; çox sulu aş.

**schlabbern** *vt* **1.** qurtaqurt içmək, qurtaqurt yemək; *die Katze schlabbert ihre Milch* pişik sütünü qurtaqurt içir; **2.** *(sich seine Kleidung)* batırmaq, ləkələmək.

**Schlacht,** *die; -, -en* döyüş, çarpışma, vuruşma; *e-e ~ liefern* döyüşmək, savaşmaq, vuruşmaq, çarpışmaq.

**Schlachtbank,** *die; -, -¨e* sallaqxana.

**Schlachtbeil,** *das; -(e)s, -e* qəssab baltası.

**schlachten** *vt (Tier)* kəsmək, öldürmək; *fig.* qırıb-kəsmək.

**Schlachtenbummler,** *der; -s, - fig.* tamaşaçı, bir komandanın *(timin)* başqa şəhərlərdəki yarışına gedən fanatik tərəfdar.

**Schlachter,** *der; -s, -* qəssab, sallaq.

**Schlächter,** *der; -s, -* qəssab, sallaq; *fig.* cəllad.

**Schlächterei,** *die; -, -en* ət dükanı; *fig.* qırğın, qırhaqır.

**Schlachtfeld,** *das; -(e)s, -er* döyüş meydanı.

**Schlachthaus,** *das; -es, -¨er* sallaqxana.

**Schlachthof,** *der; -(e)s, -¨e* sallaqxana.

**Schlachtopfer,** *das; -s, -* qurban.

**Schlachtordnung,** *die; -, -en* döyüş nizamı *(qaydası).*

**Schlachtschiff,** *das; -(e)s, -e* hərbi gəmi.

**Schlachtung,** *die; -, -en* kəsmə; heyvan kəsmə.

**Schlachtvieh,** *das; -s* ətlik heyvan, ətlik.

**Schlacke,** *die; -, -n* kəf, qəlpə; köpük.

**schlackern** *vi* yellənmək; titrəmək; *mit den Ohren ~* heyrətdən heyrətə düşmək.

**Schlaf,** *der; -(e)s* yuxu; duş; *im ~* yuxuda.

**Schlafabteil,** *das; -(e)s, -e* yataqlı kupe.

**Schlafanzug,** *der; -(e)s, -¨e* pijamə, gecə paltarı, yataq paltarı.

**Schläfchen,** *das; -s, -* qısa yuxu, çimir; *ein ~ machen* mürgüləmək.

**Schlafdecke,** *die; -, -n* yorğan, adyal.

**Schläfe,** *die; -, -n* gicgah.

**schlafen** *vt* yatmaq; *~ gehen* yatmağa getmək; *sich ~ legen* uzanıb yatmaq; *mit j-m ~* bir kəs ilə yatmaq; *vulg. F* bir kəs ilə cinsi əlaqəyə girmək.

**Schläfer,** *der; -s, -* yatan, yuxulayan.

**schläferig** *adj.*yuxulu, mürgülü; tənbel.

**schlaff** *adj.* **1.** *(nicht straff)* boş;**2.** *(kraftlos)* ölüvay, cansız, gücsüz; **3.** *(welk)* solğun; *fig.* cəsarətsiz, qeyrətsiz.

**Schlafittchen** *: j-n beim ~ kriegen* kiminsə yaxasından yapışmaq.

**Schlafkrankheit,** *die; -* yuxu xəstəliyi.
**schlaflos** *adj.* yuxusuz, *dial.* dəvəcər.
**Schlaflosigkeit,** *die; -* yuxusuzluq.
**Schlafmittel,** *das; -s, -* yuxu dərmanı.
**Schlafmütze,** *die; -, -n* **1.** gecə papağı; **2.** *fig.* yuxu sevən, yatağan adam.
**schläfrig** *adj.* yuxulu, yoxusu gələn; çox yorğun, süzgün.
**Schlafsack,** *der;-(e)s, -¨e* yataq torbası.
**Schlafstörung,** *die; -, -en* yuxu narahatlığı.
**Schlafsucht,** *die; -* yuxu xəstəliyi.
**Schlaftablette,** *die; -, -n* yuxu dərmanı.
**schlaftrunken** *adj.* yuxulu.
**Schlafwagen,** *der; -s, -* yataqlı vaqon.
**Schlafwandler,** *der; -s, -* yuxuda durub gəzən adam, lunatik.
**Schlafzimmer,** *das; -s, -* yataq otağı.
**Schlag,** *der; -(e)s, -¨e* **1.** vuruş, zərbə, vurma; **2.** *(Herzschlag)* vurma, döyünmə, çırpınma; **3.***(der Uhr)* vurma, çalma; **4.** *(Puls)* vurma; **5.** *(mit der Faust)* yumruq; **6.** *med.* iflic; **7.** *fig.* *(Art, Sorte)* növ, cins; *Schläge bekommen* kötək yemək; *auf e-n ~* birdən; *~ auf ~* bir-birinin ardınca; *F e-n ~ haben* səfeh olmaq, dəli olmaq; *Leute s-s ~es* özünə tay insanlar.
**Schlagabtausch,** *der; -* şiddətli mübahisə, şiddətli dartışma.
**Schlagader,** *die; -, -n* şahdamar.
**Schlaganfall,** *der; -(e)s, -¨e* iflic.
**schlagartig** *adj.* ani, birdən, birdən-birə, ansız, ildırım sürətli.
**Schlagbaum,** *der; -(e)s, -¨e (an Grenzübergängen)* yolbənd, şlaqbaym.
**Schlagbolzen,** *der; -s, -* çaxmaq iynəsi *(tüfəngdə).*
**Schläge** *die/pl.* kötək.
**Schlägel,** *der; -s, - Bgb.* toxmaq; toxac; çəkic.
**schlagen** *vt* **1.** vurmaq, döymək, küpsəmək; döyəcləmək; **2.***(besiegen)* məğlub etmək; **3.** *(Münze)* pul kəsmək; **4.** *(Sahne, Eier)* çalmaq; **5.***(Schlacht)* döyüşə başlamaq; **6.** *(Wurzeln)* kök salmaq; **7.** *(Baum)* kəsmək; **8.** *(Alarm)* təhlükə siqnalı vermək; *vi* 1. vurmaq; dəymək, toqquşmaq; döyünmək; 2. *(ähneln)* oxşamaq, bənzəmək*(nach D/-ə)*;3.*(Vögel)* oxumaq, cəh-cəh vurmaq; 4. *(mit den Flügeln)* qanad çalmaq;5.*(Puls)*vurmaq; *vr sich ~* döyüşmək, vuruşmaq, dalaşmaq, çarpışmaq; *sich irgendwohin ~* bir yerə getmək, yola düşmək; *sich auf j-s Seite ~* bir kəsin tərəfinə keçmək, bir kəsdən tərəfdarlıq etmək; *sich geschlagen geben* güzəştə getmək.
**schlagend** *adj.* **1.** *(überzeugend)* inandırıcı; **2.** *(entscheidend)* qəti, həlledici.
**Schlager,** *der; -s, -* **1.** *mus.* çox dinlənilən *(dəbə düşmüş)* musiqi; **2.** *(Ware)* çox satılan mal, rəvacı olan mal.
**Schläger,** *der; -s, -* **1.** *( Raufbold)* dalaşqan adam, davakar; **2.** *(Tennisschläger)* raket.
**Schlägerei,** *die; -, -en* dava, vuruşma, dava-dalaş; *F* itqırdı.
**Schlagersänger,** *der; -s, -* müğənni, xanəndə.
**schlagfertig** *adj. fig.* hazırcavab.
**Schlagfertigkeit,** *die; -* hazırcavablıq; sərrastlıq.
**Schlaginstrument,** *das; -(e)s, -e* çalğı *(zərb)* aləti.
**Schlagkraft,** *die; -* **1.** *(Kampfkraft)* döyüş əzmi;**2.** *fig.(Wirksamkeit)* təsir gücü.
**schlagkräftig** *adj.* **1.** güclü, qüvvətli, əliağır, əlli; **2.** *mil.* güclü ordu, döyüş əzmli; **3.** *(Beweis)* inandırıcı dəlil.
**Schlaglicht,** *das; -(e)s, -er : auf j-n/et. ein ~ werfen* bir kəsi/şeyi səciyyələndirmək, xarekterini göstərmək.
**Schlagloch,** *das; -(e)s, -¨er* yol çuxuru, batqın.
**Schlagring,** *der; -(e)s, -e* beşbarmaq.
**Schlagsahne,** *die; -* qaymaq.
**Schlagseite,** *die; - naut.* yanayatma, əyilmə.
**Schlagstock,** *der; -e(s), -¨e* dəyənək, çomaq.
**Schlagwort,** *das; -(e)s, -e u. -¨er* şüar.
**Schlagzeile,** *die; -, -n (in der Zeitung)* sərlövhə, başlıq; *fig. ~n machen* diqqəti özünə cəlb etmək.
**schlaksig** *adj.* ucaboy.

**Schlamassel,** *das u. der; -s* çətin vəziyyət, insanı narahat edən durum; *im ~ sitzen* çətin vəziyyətdə olmaq.

**Schlamm,** *der; -(e)s, -e u. -¨* zığ, palçıq; lığ, çamır.

**Schlammbad,** *das; - (e)s, -¨er* palçıq hamamı, palçığı bədənə sürtmə.

**schlämmen** *vt* **1.** *tech.* yumaq, təmizləmək; **2.** *(Pflanzen)* su vermək.

**schlammig** *adj.* palçıqlı; lilli.

**Schlampe,** *die; -, -n* **1.** pinti arvad; **2.** *vulg.* əxlaqsız qadın, qəhbə, cında.

**schlampen** *vi* qeyri-dürüst işləmək, bir işi diqqətsiz görmək.

**Schlamperei,** *die; -, -en* diqqətsizlik.

**schlampig** *adj.* pinti; diqqətsiz, səhlənkar.

**schlang** *s. schlingen.*

**Schlange,** *die; -, -n* **1.** ilan; **2.** *(Reihe)* növbə, uzun sıra; düzüm *~ stehen* növbədə durmaq, sıraya düzülmək *(düzüşmək);* **3.** *F* hiyləgər.

**schlängeln** *vr sich ~* qıvrılmaq, burulmaq.

**Schlangenbiss,** *der; -es, -e* ilan sancması, ilan çalması.

**schlangenförmig** *adj.* ilanvari, ilansyağı.

**Schlangengift,** *das; -(e)s, -e* ilan zəhəri.

**Schlangenlinie,** *die; -, -n* qıvrım.

**schlank** *adj.* arıq; çevik, qamətli; *auf die ~e Linie achten* çəkişinə diqqət etmək.

**Schlankheit,** *die; -* arıqlıq; qəd-qamət.

**schlankweg** *adv.* düz-düzünə, eyhamsız.

**schlapp** *adj.* süst; zəif, halsız; tənbəl.

**Schlappe,** *die; -, -n* müvəffəqiyyətsizlik, məğlubiyyət, uğursuzluq.

**schlappmachen** *vt* yorulub işdən əl çəkmək, yorulub işi qurtarmamış buraxmaq.

**Schlappschwanz,** *der; -es, -¨e F* ölüvay adam, zəifiradəli adam.

**Schlaraffenland,** *das; -(e)s* əfsanəvi ölkə, yeyib-yatma ölkəsi, xəyali ölkə.

**schlau** *adj. (listig)* bic, kələkbaz, nadürüst; fəndgir, cin kimi, küpəgirən; *fig. F* zirək, əyyar; *ich werde nicht ~ daraus* mən bu işi başa düşmədim, bu işdən baş çıxarmadım.

**Schlauberger,** *der; -s, -* kələkbaz, nadürüst.

**Schlauch,** *der; -(e)s, -¨e* **1.** *(Wasserschlauch usw.)* şlanq, xortum; **2.** *(Fahrrad, Auto usw.)* lastik, iç lastiyi; **3.** *(Behälter)* tuluq.

**Schlauchboot,** *das; -(e)s, -e* hava ilə doldurulan qayıq.

**schlauchen** *vt F* yormaq, əldən salmaq; *j-n ~* kimisə əldən salmaq.

**Schläue,** *die; - s. Schlauheit.*

**Schlaufe,** *die; -, -n* bant, ilgək.

**Schlauheit,** *die, -* biclik, zirəklik, nadürüstlük; *F* əyyarlıq.

**Schlaukopf,** *der; -(e)s, -¨e* bic, hiyləgər, kələkbaz, nadürüst.

**Schlawiner,** *der; -s, -* bic, kələkbaz.

**schlecht** *adj.* **1.** pis, fəna; fırıq; **2.** *(faul)* korlanmış, iylənmiş, xarab; *(Milch)* çürümüş; *~ werden* xarab olmaq, iylənmək; çürümək; *das Fleisch ist ~ geworden* ət xarab olub; *~ und recht* bir təhər; *mir ist ~* halım pisdir; *es geht ihm ~* vəziyyəti pisdir; *~e Laune haben* əhvalı pis olmaq; *~ reden von* haqqında pis danışmaq; *~ Zeiten* pis zəmanə, pis dövr.

**schlechter** *adj.* daha pis, bətər; *~ werden* daha da pisləşmək.

**schlechterdings** *adv.* sözsüz, yəqin, mütləq.

**schlechtest-** *adj.* ən pis.

**schlechthin** *adv.* tam, mütləq, qısa və aydın; sadəcə olaraq.

**Schlechtigkeit,** *die; -, -en* pislik, alçaqlıq.

**schlechtmachen** *vt* pisləmək, iftira demək.

**schlechtweg** *adv.* sadəcə olaraq.

**schlecken** *vt* yalamaq.

**Schlegel,** *der; -s, -* **1.** şaxşax; **2.** *(Keule)* bud.

**Schlehdorn,** *der; -(e)s, -e bot.* göyəm.

**Schlei,** *der; -(e)s, -e* tinqa balığı.

**schleichen** *vi* yavaş-yavaş yaxınlaşmaq, sürünmək; *vr sich ~* **1.** gizlicə

girmək *(in A/bir yerə);* **2.** gizlicə çıxıb getmək *(aus D/bir yerdən).*

**schleichend** *adj.* **1.** sürünən; yavaş-yavaş; **2.** *(heimlich)* gizli; **3.** *med.* tədricən təsir edən.

**Schleicher,** *der; -s, - fig.* sümsük.

**Schleichhandel,** *der; -s, -* qaçaq alver *(ticarət).*

**Schleichweg,** *der; -(e)s, -e* gizli yol.

**Schleier,** *der; -s, -* **1.** örtük; **2.** *(Frauenschleier)* çarşab, çadra; **3.** *fig.* pərdə.

**schleierhaft** *adj.* dumanlı; mübhəmli, müəmmalı.

**Schleife,** *die; -, -n* **1.** ilgək, bant; **2.***(Windung)* dirsək; **3.***(Rutschbahn)* sürüşmək üçün buz meydançası; **4.** *(Bandschleife)* papiyon.

**schleifen** *vt* **1.** *(Messer usw.)* itiləmək, bülövləmək, daşa çəkmək; **2.** *(Glas, Edelstein)* yonmaq; hamarlamaq; **3.** *(polieren)* cilalandırmaq; **4.** *(Festung)*qalanı sökmək, dağıtmaq; **5.** sürümək, çəkmək *(j-n irgendwohin/ bir kəsi bir yerə); fig.* öyrətmək, təlim vermək.

**schleifen²** *vi* **1.** *(über den Boden)* sürtülmək; **2.** *F (Arbeit usw.)* süründürmək; *mit dem Fuß ~* axsamaq.

**Schleifer,** *der; -s, -* **1.** bıçaqitiləyən; **2.** *mil. (Ausbilder)* sərt təlim verən.

**Schleifmaschine,** *die; -, -n* cilalama maşını; hamarlayıcı.

**Schleifstein,** *der; -(e)s, -e* bülöv daşı.

**Schleim,** *der; -(e)s, -e* **1.** *(Nasenschleim)* selik, fırtıq; **2.** *(Auswurf)* bəlğəm.

**Schleimdrüse,** *die; -, -n* selikli vəzi.

**schleimen** *vi* selik ifraz etmək.

**Schleimhaut,** *die; -, -¨e* selikli qişa.

**schleimig** *adj.* selikli.

**Schleimscheißer,** *der; -s, - vulg.* yaltaq.

**schleißen** *vt (Holz usw.)* yarmaq, doğramaq; *vi (sich abnutzen)* köhnəlmək, dağılmaq.

**schlemmen** *vi* yaxşı yeyib-içmək.

**Schlemmer,** *der; -s, -* kefcil, yaxşı yeyib-içən, bədxərc; əyyaş.

**Schlemmerei,** *die; -, en* əyyaşlıq, bədxərclik.

**schlendern** *vi* veyllənmək; avara gəzmək.

**Schlendrian,** *der; -(e)s* səhlənkarlıq, başısoyuqluq.

**schlenkern** *vi* tullamaq; *mit den Armen ~* qolları tullamaq *(atmaq).*

**Schleppe,** *die; -, -n* yerdə sürünən uzun ətək; şleif.

**schleppen** *vt* **1.** sürüyüb çəkmək, sürümək; **2.** *naut.* çəkmək, çəkib yedəyə götürmək; *vr sich ~* sürünmək.

**schleppend** *adj.* yavaş-yavaş, asta; ağır-ağır; *die Arbeit geht ~ voran* iş yavaş-yavaş irəli *(qabağa)* gedir.

**Schlepper,** *der; -s, -* **1.** traktor, yedəkçi; **2.** *naut.* yedək gəmisi; **3.** *F (Kundenwerber)* müştəri yığan.

**Schlepperei,** *die; -, -en* ağır yük daşıma.

**Schleppkahn,** *der; -(e)s, -¨e* **1.** barj; **2.** yedək gəmisi.

**Schleppnetz,** *das; -es, -e* balıq toru.

**Schlepptau,** *das; -(e)s, -e* yedək kanatı, yedək burazı; *fig. j-n ins ~ nehmen* bir kəsə kömək etmək; *F in j-s ~* bir kəsin müşayiətində.

**schlesisch** *adj.* sileziyalı.

**Schlesien** sileziya.

**Schleuder,** *die; -, -n* sapand; mancanaq.

**schleudern** *vt* **1.** sapandla *(mancanaqla)* atmaq *(tullamaq);* tovlamaq; **2.** *(Honig)* süzmək; **3.** *(Waschmaschine usw.)* suyunu almaq; *Wäsche ~* paltarların suyunu almaq; *vi (ins Schleudern geraten) (Auto, Motorrad)* züvüldəmək, züyüldəmək; *F ins ~ kommen/geraten* özünü itirmək.

**Schleuderpreis,** *der; -es, -e* dəyərindən az qiymət; *zum ~* çox ucuz qiymətə.

**Schleudersitz,** *der; -es, -e* öz-özünə açılan səndəl *(stul).*

**schleunig(st)** *adv.* mümkün qədər tez, təxirə salınmaz.

**Schleuse,** *die; -, -n* şlüz, ara qapı.

**schleusen** *vt fig.* gizli keçirtmək *(durch A/-dən, içindən); j-n durch die Grenze ~* bir kəsi sərhəddən gizli *(qaçaq)* keçirt-

mək.

**schlich** *s. schleichen.*

**Schlich,** *der; -(e)s, -e : j-m auf die ~e kommen/hinter j-s ~e kommen* bir kəsin niyyətinin üstünü açmaq, bir kəsin hiyləsini tanımaq *(bilmək).*

**schlicht** *adj.* **1.** sadə, təvazökar; bəzəksiz; *F* loru; *fig.* dərviş*(anə);* **2.***(Haar)* hamar, düz; *~ und einfach* əyri-üyrüsüz, dümdüz, sadə.

**schlichten** *vt* **1.** *(glätten)* hamarlamaq, hamarlayıb düzəltmək; **2.** *(Streit usw.)* araçılıq etmək, mübahisəli məsələni həll etmək; **3.** *(Holz usw.)* qalaq vurmaq.

**Schlichter,** *der; -s, -* araçı, ara barışdıran; həkəm, müncif.

**Schlichtheit,** *die; -* sadəlik, təvazökarlıq; *F* dərvişlik.

**Schlichtung,** *die; -, -en* araçılıq, yoluna qoyma *(qoyulma),* həll etmə.

**Schlichtungsausschuss,** *der; -es, -¨e* barışdırıcı komissiya, razılıq komissiyası.

**schlief** *s. schlafen.*

**schließen** *vt* **1.** *(zumachen)* bağlamaq; **2.** *(zuschließen)* qıfıllamaq, cəftələmək; **3.** *(Augen)* yummaq; **4.** *(beenden)* tamamlamaq, başa çatdırmaq, bitirmək; **5.** *(schlussfolgern)* nəticə çıxartmaq; *vi* 1. bağlanmaq; 2. nəticə çıxartmaq, qənaətə gəlmək; *daraus kann man ~, dass* ... bundan o *(bu)* nəticəyə gəlmək olar ki ...; *von sich auf andere ~* özünə baxıb, özgələrin haqqında qərar vermək; *vr sich ~* bağlanmaq; *geschlossen* bağlı.

**Schließfach,** *das; -(e)s, -¨er* poçta qutusu.

**schließlich** *adv.*nəhayət, axır ki, ən sonu*(unda),* axırda, əvvəl-axır, hər halda; gəlhagəl; *veralt.* əlhasil, əlqərəz.

**Schließmuskel,** *der; -s, -n an.* sfinkter, deşiyi bağlayan və ya daraldan əzələ.

**Schließung,** *die; -, -en* bağlama, tətil etmə; son.

**schliff** *s. schleifen.*

**Schliff,** *der; -(e)s, -e* **1.** *(Politur)* cila, pardaq, pardaqlıq; **2.** *(Schärfe)* kəskinlik, itilik; **3.** *(Kuchen usw.)* xəmir; **4.** *fig. (gutes Benehmen)* özünü yaxşı aparma, ədəbli olma.

**schlimm** *adj.* **1.** pis, xarab; fırıq; *das ist halb so ~* bu o qədər də pis deyil, nə eybi var; **2.** *(krank)* xəstə; *e-n ~en Zahn haben* dişi ağrımaq; *auf das Schlimmste gefasst sein* ən pisinə hazır olmaq, ən pisini nəzərdə tutmaq.

**schlimmer** daha pis, bətər; *~ werden (daha)* pisləşmək.

**schlimmst-** ən pis; *auf das ~e gefasst sein* hər pis tərəfini gözə almaq.

**schlimmstenfalls** *adv.* ən pis halda, bədəbəddə, lap bəd ayaqda.

**Schlinge,** *die; -, -n* **1.** ilgək, ilmə; **2.** *(Fanggerät)* tələ, duzaq; **3.** *(zuziehbare)* bağ; asqı; *den Arm in der ~ tragen* qolu asqıda olmaq; *fig. den Kopf aus der ~ ziehen* özünü pis bir vəziyyətdən qurtarmaq.

**Schlingel,** *der; -s, -* dəcəl; sırtıq.

**schlingen** *vt* **1.** *(winden)* sarımaq, dolamaq; **2.***(knoten)* düyünləmək; **3.** *(gierig essen)* acgözlüklə udmaq; *sich ~* sarılmaq *(um A/bir zada, bir şeyə).*

**Schlingpflanze,** *die; -, -n* sarmaşan bitki, sarmaşıq.

**Schlips,** *der; -es, -e* qalstuk, kravat.

**Schlitten,** *der; -s, -* xizək; *~ fahren* xizəkdə sürüşmək.

**Schlittenbahn,** *die; -, -en* xizək yolu.

**Schlittenfahrt,** *die; -, -en* xizəklə getmə.

**schlittern** *vi* buz üzərində sürüşmək.

**Schlittschuh,** *der; -(e)s, -e* ayaq xizəyinin tayı.

**Schlittschuhlaufen** *vi* ayaq xizəyində sürüşmək.

**Schlittschuhläufer,** *der; -s, -* ayaq xizəyində sürüşən, konki sürən.

**Schlitz,** *der; -es, -e* dəlik, deşik; kəsik.

**Schlitzauge,** *das; -s, -n* qıyıqgöz, badamgöz.

**schlitzen** *vt* ortadan kəsmək, yırtmaq, yarmaq.

**schloss** *s. schließen.*

**Schloss,** *das; -es, -¨er* **1.** *(Palast)* qəsr,

saray; **2.** *(Gewehrschloss)* sürgü; **3.** *(Türschloss)* qıfıl, kilid, cəftə; *ins ~ fallen (Tür)* birdən qıfıllanmaq; *hinter ~ und Riegel sitzen* həbsxanada yatmaq, həbsə düşmək.

**Schlosser,** *der; -s, -* çilingər, kilidçi.

**Schlosserei,** *die; -, -en* çilingər emalatxanası; çilingərlik.

**Schlosserhandwerk,** *das; -s* çilingərlik.

**Schlot,** *der; -(e)s, -e* tüstü bacası.

**schlottern** *vi* **1.** *(vor Angst)* titrəmək, əsmək; **2.** *(Kleidungsstück)* sallanmaq, *-in* üstündən tökülmək.

**Schlucht,** *die; -, -en* dərə, yarğan.

**schluchzen** *vi* hıcqırmaq; hönkür-hönkür ağlamaq, şivən qoparmaq, hönkürmək.

**Schluck,** *der; -(e)s, -e* qurtum, udum, cürə, içim; *e-n ~ nehmen* bir qurtum içmək.

**Schluckauf,** *der; -s* hıçqırıq, hıçqırtı; *den ~ haben* hıçqırmaq.

**schlucken** *vt* udmaq; qurtuldatmaq.

**Schlucken,** *der; -s* *s. Schluckauf.*

**Schlucker,** *der; -s, - : armer ~* yazıq adam, biçarə adam.

**Schluckimpfung,** *die; -, -en* vaksinlə daxilə peyvənd etmə.

**schluckweise** *adj.* qurtum-qurtum.

**Schluderei,** *die; -, -en* başdansovma iş.

**schlud(e)rig** *adj.* səliqəsiz, diqqətsiz; pis.

**schlug** *s. schlagen.*

**Schlummer,** *der; -s* mürgüləmə.

**schlummern** *vi* mürgüləmək, yatmaq.

**Schlund,** *der; -(e)s, -¨e* **1.** *an.* udlaq, hülqum; **2.** *(tiefe Öffnung)* dərin uçurum.

**schlüpfen** *vi* **1.** *(aus et.)* sürüşüb çıxmaq; *der Fisch ist ihm aus der Hand geschlüpft* balıq əlindən sürüşüb çıxdı; *das Kücken ist geschlüpft* cücə yumurtadan çıxıb; **2.** *(in et.)* girmək, səssiz və cəld sürüşüb girmək; *die Maus schlüpfte ins Loch* siçan deşiyə girdi; *in Schuhe ~* başmaqları cəld geymək, ayağına keçirmək; *aus Schuhen ~* başmaqları cəld çıxartmaq.

**Schlüpfer,** *der; -s, -* qısa tuman.

**schlüpfrig** *adj.* **1.** sürüşkən; **2.** *fig. (unanständig)* ədəbsiz, həyasız, ikimə`nalı; *ein ~er Witz* ədəbsiz zarafat.

**Schlupfloch,** *das; -(e)s, -¨er* **1.** *(von Tieren)* yuva; baca; **2.** *(Schlupfwinkel)* sığınacaq yer, sığınacaq.

**schlüpfrig** *adj.* **1.** züyüldaq; **2.** ikimənalı; iyrənc, pis.

**Schlupfwinkel,** *der; -s, -* sığınacaq yer, sığınacaq.

**schlurfen** *vi* yeriyərək ayaqları yerə sürtmək.

**schlürfen** *vt* hortuldatmaq, hortlatmaq; *(Getränke, Suppe)* qurtaqurt içmək, qurtaqurt yemək.

**Schluss,** *der; -es, -¨e* **1.** *(Ende)* son, axır; **2.** *(Schlussfolgerung)* nəticə, yekun; *zu e-m ~ kommen* nəticə almaq; *e-n ~ ziehen* nəticə çıxartmaq; *mit j-m ~ machen* bir kəsdən ayrılmaq; *mit et. ~ machen* bir şeyi buraxmaq, bir şeydən əl çəkmək; *nun aber ~ !* daha yetər; *zum ~* axırda; *~ mit ...!* dayandırılmalı ..!, rədd olsun..!

**Schlussakt,** *der; -(e)s, -e* **1.** *Th.* axırıncı pərdə; **2.** yekun sənədi.

**Schlussbemerkung,** *die; -, -en* son söz, son qeyd.

**Schlüssel,** *der; -s, -* **1.** açar; **2.** *(Code)* kod, şifr.

**Schlüsselbart**, *der;-(e)s, -¨e* açarın dili, açarın dişi.

**Schlüsselbein,** *das; -(e)s, -e* körpücük sümüyü.

**Schlüsselbund,** *der; -(e)s, -¨e* açar dəstəsi.

**schlüsselfertig** *adj.* tikilib hazır olmuş *(bina).*

**Schlüsselloch,** *das; -(e)s, -¨er* açar deşiyi.

**Schlüsselring,** *der; -(e)s, -e* halqa, açar taxma halqası.

**Schlüsselstellung,** *die; -, -en* mühüm vəzifə; mühüm vəziyyət.

**Schlussfolgerung,** *die; -, -en* nəticə, qərar; *e-e ~ ziehen* qərara gəlmək.

**schlüssig** *adj.* **1.** *(Behauptung, Beweis)*

məntiqi, inandırıcı; **2.** *sich (D) ~ werden* qərara gəlmək.

**Schlusslicht,** *das; -(e)s, -er* **1.** maşının arxa tərəfində qırmızı lampa; **2.** *fig. (bei Sportwettkämpfen usw.)* dalı düşən, axıra qalan, ən axırıncı.

**Schlusspfiff,** *der; -(e)s, -e* oyunun qurtardığını bildirən fit səsi.

**Schlussrede,** *die; -, -n* son nitq, yekun nitqi.

**Schlussstrich,** *der; -(e)s, -e : fig. e-n ~ unter e-e Angelegenheit ziehen* bir məsələyə son qoymaq, bir işi qurtarmaq.

**Schlusswort,** *das; -(e)s, -e* son söz, yekun nitqi.

**Schmach,** *die; -* biabırçılıq, rüsvayçılıq, üzüqaralıq, şərəfsizlik, fahişəlik; təhqir, ləkə, abırsızlıq, eyb.

**schmachten** *vt* **1.** *(hungern und dürsten)* əzab çəkmək, üzülmək; **2.** *(nach et.)* bir şeyin həsrətini çəkmək; *j-n ~ lassen* bir kəsi intizar*(da)* qoymaq.

**schmächtig** *adj.* zəif, cansız.

**schmachvoll** *adj.* **1.** biabırçı, rüsvayçı, şərəfsiz; **2.** *(beleidigend)* təhqiredici, toxunan.

**schmackhaft** *adj.* dadlı, ləzzətli; *j-m et. ~ machen* bir kəsin bir şeyə iştahasını açmaq.

**schmähen** *vt* söymək, yaman demək, qara yaxmaq, təhqir etmək, yamanlamaq, söyüşə basmaq, xar etmək.

**schmählich** *adj.* biabırcasına, alçaq; təhqiredici, təhqiramiz, şərəfsiz; *j-n ~ behandeln* bir kəs ilə biabırcasına davranmaq.

**Schmähschrift,** *die; -, -en* həcv, həcvnamə, həcviyyə.

**Schmähung,** *die; -, -en* söyüş, təhqir; qeybət.

**schmal** *adj.* **1.** ensiz, dar; **2.** *F* az, kifayət etməyən; *~er werden* darlaşmaq, ensizləşmək; *~er machen* ensizlətmək, daraltmaq.

**schmälern** *vt* daraltmaq; kiçiltmək, ensizlətmək; azaltmaq, ixtisar etmək.

**Schmälerung,** *die; -, -en* azal(t)ma; daral(t)ma, ixtisar etmə.

**Schmalhans** *fig. : ~ ist Küchenmeister* yeməyə bir şey yoxdur, yemək çox azdır.

**Schmalspur,** *die; -, -en* dar iz, dar xətt.

**schmalspurig** *adj.* **1.**dar izli, dar xəttli; **2.** *F* az məlumatı olan; dardüşüncəli.

**Schmalz**[1]**,** *das; -es, -e* əridilmiş piy; əridilmiş donuz piyi.

**Schmalz**[2]**,** *der; -es, - (Sentimentalität)* sentimentallıq, həssaslıq.

**schmalzig** *adj.* yağlı; sentimental.

**schmarotzen** *vt* başqasının hesabına yaşamaq, tüfeyli həyat sürmək, parasitlik etmək.

**Schmarotzer,** *der; -s, -* tüfeyli, başqasının hesabına yaşayan, müftəxor, parasit, havayıyeyən.

**Schmarotzertum,** *das; -s* müftəxorluq, dələduzluq, tüfeylilik, ələbaxımlıq, parasitlik.

**Schmarren,** *der; -s, -* **1.** bir növ şirni; **2.** *fig.* boş şey, əhəmiyyətsiz şey; heç.

**Schmatz,** *der; -es, -e* bərk öpüş, maç.

**schmatzen** *vt* **1.** *(laut essen)* marçıldatmaq; **2.** *(laut küssen)* bərk öpmək, maç eləmək.

**schmauchen** *vt (Pfeife, Zigarre)* çəkmək; tüstülətmək.

**Schmaus,** *der; -es, -¨e* ziyafət, qonaqlıq.

**schmausen** *vt* ləzzət ilə yemək; doyunca yeyib-içmək.

**schmecken** *vt (kosten) -in* dadına baxmaq, dadmaq; *F fig.* duzuna baxmaq, dadına-duzuna baxmaq; *vi* **1.** *(schmecken nach)* dadı olmaq; **2.** *(gefallen)* xoşa gəlmək; *gut ~* dadlı olmaq; *schmeckt es?* dadlıdırmı?, ləzzətlidirmi, xoşunuza *(xoşuna)* gəlir?; *es schmeckt nach nichts* heç dadı yoxdur.

**Schmeichelei,** *die; -, -en* yaltaqlıq.

**schmeichelhaft** *adj.* tərifli; xoşa gələn, yaltaqcasına.

**schmeicheln** *vi* **1.** yaltaqlanmaq; **2.** şişirtmək; *das Foto schmeichelt ihm* şəkil onu çox şişirdir; *vr sich ~, zu Inf.* qürrələnmək; *er schmeichelte sich, ein guter Philolog zu sein* o yaxşı dilşünas oldu-

ğu üçün qürrələnirdi; *sich geschmeichelt fühlen* iltifat görmək, mərhəmət görmək.

**Schmeichler,** *der; -s, -* yaltaq, üzə gülən; *~ sind Heuchler* yaltaqlar, riyakar adamlardır.

**schmeißen** *vt* **1.** *(werfen)* atmaq, tullamaq, tolazlamaq; **2.** *(Job, Ausbildung usw.)* əl çəkmək, boşlamaq, dayandırmaq; **3.** *(die Tür)* qapını çırpmaq; *F das werden wir schon ~* bu işi düzəldərik; *mit Geld um sich ~* pulu sağa-sola xərcləmək; *fig. sich e-m Mann an den Hals ~* bir kişiyə yapışıb qopmamaq.

**Schmeißfliege,** *die; -, -n* ət milçəyi.

**Schmelz,** *der; -es, -e* **1.** mina; **2.** *fig.* cazibə, təravət; parıltı.

**schmelzbar** *adj.* əriyə bilən, əriyən.

**schmelzen** *vt* əritmək; *vi* ərimək.

**Schmelzofen,** *der; -s, -¨* metaləridən soba; kürə.

**Schmelzpunkt,** *der; -(e)s, -e* ərimə nöqtəsi.

**Schmerbauch,** *der; -(e)s, -¨e* kök qarın; qarnı yoğun, kök adam.

**Schmerz,** *der; -es, -en* **1.** ağrı, sancı, girgi, dirə; *Kopfschmerzen* başağrısı; **2.** *(Kummer)* dərd, qəm, kədər, qüssə, acı; *veralt.* ələm.

**schmerzen** *vi* ağrımaq; *mir schmerzt der Zahn* dişim ağrıyır; *vt (kränken)* qüssələndirmək, kədərləndirmək, dərd vermək, dirə çəkmək; *es schmerzt mich* kədərlənirəm, qüssələnirəm, acı çəkirəm; *stark ~* lökküldəmək.

**Schmerzensgeld,** *das; -(e)s, -er* cismani zərər üçün təzminat.

**schmerzhaft** *adj.* ağrılı, dərdli; acılı, dalayan; *fig.* bətər.

**schmerzlich** *adj. s. schmerzhaft.*

**schmerzlindernd** *adj.* ağrıkəsən, ağrıkəsici.

**schmerzlos** *adj.* ağrısız, dərdsiz; *kurz und ~* ədasız, nazsız.

**schmerzstillend** *adj.* ağrıkəsən, ağrıkəsici.

**schmerzvoll** *adj.* ağrılı, dərdli-qəmli; qüssəli, bətər.

**Schmetterball,** *der; -(e)s, -¨e (Sport)* smaç *(Süd. : abşar).*

**Schmetterling,** *der; -s, -e* kəpənək, pərvanə.

**schmettern** *vt* **1.** tolazlamaq, var gücü ilə tullamaq; **2.** *(Tennisball usw.)* smaç vurmaq *(Süd. : abşar vurmaq);* **3.** *(Lied)* cəh-cəh vurmaq; *vi (Trompete)* çalmaq; *fig. e-n Schnaps ~* araq içmək, araq atmaq.

**Schmied,** *der; -(e)s, -e* **1.** dəmirçi; **2.** *(Hufschmied)* nalbənd; **3.** *(Goldschmied)* zərgər.

**Schmiede,** *die; -, -n* dəmirçixana.

**schmieden** *vt* **1.** dəmiri döymək; **2.** *(Pläne)* plan düzəltmək, plan tərtib vermək; **3.** *(Komplott, Ränke)* quyu qazmaq.

**schmiegen** *vr sich ~* **1.** əyilmək, bükülmək, qatlanmaq; **2.** *(an A)* qısılmaq; *sich in j-s Arme ~* bir kəsin qucağına qısılmaq.

**schmiegsam** *adj.* əyilgən, ələyatan.

**Schmiere,** *die; -, -n* sürtkü yağı, yağ; *F ~ stehen* ev kəsmə *(oğurluq)* zamanı keşikdə durmaq.

**schmieren** *vt* **1.** *(mit Fett)* yağlamaq, yağ sürtmək; **2.** *(Butter, Honig usw.)* sürtmək; **3.** *(schlecht schreiben)* qaralamaq; **4.** *fig.* rüşvət vermək; *F j-m e-e ~* bir kəsə sillə vurmaq; *es geht wie geschmiert* yağ kimi gedir.

**Schmiererei,** *die; -, -en* cızma-qara.

**Schmierfink,** *der; -en, -en* **1.** *F* üstübaşını batıran *(bələyən)* uşaq; pinti adam; **2.** siyasi şüarları divarlara yazan adam.

**Schmiergeld,** *das; -(e)s, -er* rüşvət, bığyağı.

**schmierig** *adj.* **1.** yağlı, çirkli; **2.** *fig. (unanständig)* ədəbsiz; iyrənc; *F* yaltaq.

**Schmiermittel,** *das; -s, -* sürtkü yağı.

**Schmierung,** *die, -, -en* yağla(n)ma.

**Schminke,** *die; -, -n* ənlik-kirşan; qrim.

**schminken** *vt* ənlik-kirşan çəkmək; *sich ~* bəzənmək, düzənmək.

**Schmirgel,** *der; -s* sumbata.

**schmirgeln** *vt* sumbatalamaq.

**Schmirgelpapier,** *das; -s* sumbata kağızı.

**schmiss** *s. schmeißen.*

**Schmiss,** *der; -es, -e* **1.** qılınc yarası; **2.** *fig. F* canlılıq, ruh yüksəkliyi.

**schmissig** *adj. F* canlı, şən.

**Schmöker,** *der; -s, -* bulvar romanı, qiymətsiz kitab.

**schmökern** *vi F* kitabı vərəqləmək; çox oxumaq.

**schmollen** *vi* küsmək, qaş-qabağını sallamaq.

**Schmollwinkel,** *der; -s, - F : sich in den ~ zurückziehen* küsüb getmək, küsüb geri çəkilmək.

**schmolz** *s. schmelzen.*

**Schmorbraten** *der; -s, -* pörtülmüş mal əti, buğda bişmiş mal əti.

**schmoren** *vt* pörtləmək, buğda bişirmək; *vi* pörtlənmək, buğda bişmək; *fig. j-n ~ lassen* bir kəsi intizar*(da)* qoymaq.

**Schmu,** *der; -s F* aldatma; *~ machen* işi ört-basdır etmək.

**schmuck** *adj.* qəşəng, gözəl, şik.

**Schmuck,** *der; -(e)s* **1.** bəzək; **2.** *(Juwelen)* qızıl-gümüş, daş-qaş, cavahirat, ləl-cavahirat.

**schmücken** *vt* bəzəmək; *vr sich ~* bəzənmək, bəzənib-düzənmək.

**Schmuckkästchen,** *das; -s, -* daş-qaş qutusu, cavahirat qutusu.

**schmucklos** *adj.* bəzəksiz.

**Schmucksachen** *die/pl.* daş-qaş, cavahirat; bəzək şeyləri.

**Schmuckstück,** *das; -(e)s, -e* cavahir.

**schmudd(e)lig** *adj.* çirkli.

**Schmuggel,** *der; -s* qaçaqçılıq.

**schmuggeln** *vi* qaçaqçılıq etmək.

**Schmuggelware,** *die; -, -n* qaçaqmal.

**Schmuggler,** *der; -s, -* qaçaqçı, qaçaqmalçı.

**schmunzeln** *vi* gülümsəmək.

**schmusen** *vi* **1.** nəvaziş etmək, tumarlamaq; **2.** yaltaqlanmaq.

**Schmutz,** *der; -es* çirk, kir; zibil; *fig. j-n in den ~ ziehen* bir kəsə qara yaxmaq, bir kəsə şər atmaq.

**schmutzabweisend** *adj.* çirklənməyən.

**schmutzen** *vt* çirkləmək; *vi* çirklənmək.

**Schmutzfink,** *der; -en, -en* pinti.

**Schmutzfleck,** *der; -(e)s, -e* ləkə.

**schmutzig** *adj.* **1.** çirkli, kirli, kifir; *sich ~ machen* üst-başını batırmaq; *~ werden* çirklənmək; **2.** *fig.* pis, yaramaz, nalayiq, natəmiz, damdabaca; *~e Geschäfte* qanunsuz işlər.

**Schmutzschicht,** *die; -, -en* çirk qatı.

**Schnabel,** *der; -s, -̈* **1.** dimdik; **2.** *fig. halt den ~ !* kəs səsini! , danışma!, sus!

**schnäbeln** *vi sich ~* **1.** *(Vögel)* dimdikləmək, dimdiklə öpüşmək; **2.** *fig.* öpüşmək.

**Schnabeltier,** *das; -(e)s, -e* ördəkburun.

**schnabulieren** *vt* yeyib ləzzət almaq, ləzzətlə yemək.

**Schnake,** *die; -, -n* hünü, mız-mızı; mığmığa, ağcaqanad.

**Schnalle,** *die; -, -n* **1.** toqqa; **2.** *vulg. (Prostituierte)* qəhbə.

**schnallen** *vt* toqqanı bağlamaq; *fig. den Gürtel enger ~* xərcləri azaltmaq, qənaət etmək.

**schnalzen** *vi* şıqqıldatmaq, şaqqıldatmaq; *mit den Fingern ~* barmaqları şaqqıldatmaq.

**schnappen** *vt* **1.** *(packen)* qapmaq, qamarlamaq, qarmalamaq; **2.** *(j-n) F* tutmaq, yaxalamaq; *vi* 1.*(nach Luft)* ləhləyə-ləhləyə nəfəs almaq, çətinliklə nəfəs almaq; 2. *(nach et.)* *bir şeyi* tutmağa səy etmək, qapmaq, *nədənsə* yapışmaq; *ich muss eín bisschen frische Luft ~* bir az təmiz hava almalıyam.

**Schnappsack,** *der; -(e)s, -̈e* yol çantası.

**Schnappschuss,** *der; -es, -̈e (Photo)* təbii şəkil, pozsuz şəkil.

**Schnaps,** *der; -es, -̈e* araq.

**Schnapsidee,** *die; -, -n F* səfeh fikir.

**schnarchen** *vi* xoruldamaq.

**Schnarchen,** *das; -s* xorultu.

**schnarren** *vi* çatırdamaq, cırıldamaq; zırıldamaq; *et. ~* bir şeyi kəskin və pis səs ilə demək.

**Schnatterei,** *die; -, -en* qığıldama, qaq-

qıldama; *fig.* boş söz, cəfəngiyat.

**schnatterig** *adj.* boşboğaz, naqqal, uzundanışan, çərənçi, çoxdanışan, uzunçu, ağzıboş, ağzıcırıq, əngiboş.

**schnattern** *vi* **1.** *(Enten, Gänse)* qaqqıldamaq, qığıldamaq; **2.** *fig.* boş-boş danışmaq.

**schnauben** *vt* **1.** burundan ağır nəfəs almaq; **2.** *(vor Empörung usw.)* həyəcanlanmaq, əsəbiləşmək; **3.** *(Nase)* fınxırmaq, fınqırmaq; *vr sich ~* burnunu silmək.

**schnaufen** *vi (keuchen)* ləhləmək, tövşəmək, tövşümək.

**Schnauz,** *der; -es, -¨e* bığ.

**Schnauzbart,** *der; -(e)s, -¨e s.Schnauz.*

**Schnauze,** *die; -, -n* **1.** *(von Tieren)* ağız, burun; **2.** *F* ağız; *halt die ~!* ağzını yum!.

**schnauzen** *vi* bir kəsin üstünə qışqırmaq, təpinmək.

**Schnauzer,** *der; -s, -* bığ.

**schnäuzen** *vr sich ~* burnunu silmək, fınxırmaq.

**Schnecke,** *die; -, -n* **1.** *zo.* ilbiz, hələzun; **2.** *(spiralförmig)* spiralşəkilli; buruq-buruq; *fig. j-n zur ~ machen* bir kəsi bərk danlamaq, söymək.

**schneckenförmig** *adj.* buruq-buruq, həlәzuni, ilbizşəkilli.

**Schneckenhaus,** *das; -es, -¨er* ilbiz qabığı.

**Schneckentempo,** *das; -s : im ~* çox yavaş.

**Schnee,** *der; -s* **1.** qar; **2.** *(geschlagenes Eiweiß)* çalınmış yumurta ağı.

**Schneeball,** *der; -(e)s, -¨e* qargülləsi, qartopu.

**schneebedeckt** *adj.* qarla örtülmüş.

**Schneebeseitigung,** *die; -* qartəmizləmə.

**schneeblind** *adj.* qardan gözləri qamaşan.

**Schneebrille,** *die; -, -n* qar gözlüyü, qar eynəyi.

**Schneefall,** *der; -(e)s, -¨e* bərk qar yağma.

**Schneeflocke,** *die; -, -n* qar dənəciyi.

**schneefrei** *adj.* qarsız.

**Schneegestöber,** *das; -s, -* boran.

**Schneeglöckchen,** *das; -s, -* xəccəgülü, novruzgülü.

**Schneekette,** *die; -, -n* qar zənciri.

**Schneemann,** *der; -(e)s, -¨er* qar adamı.

**Schneepflug,** *der; -(e)s, -¨e* qar təmizləyən.

**Schneeregen,** *der; -s* sulu qar, tez əriyən qar, ala-çalpov.

**Schneeschmelze,** *die; -, -n* qar ərimə.

**Schneesturm,** *der; -(e)s, -¨e* boran, qar çovğunu, ala-çalpov, çovğun.

**Schneeräumung,** *die; - s. Schneebeseitigung.*

**Schneetreiben,** *das; -s* boran, çovğun.

**Schneeverwehung,** *die; -, -en* qar yığını.

**Schneewehe,** *die; -, -n s. Schneeverwehung.*

**schneeweiß** *adj.* ağappaq, qar kimi ağ, düm ağ, apağ.

**Schneewittchen,** *das; -s* qarqız.

**Schneid,** *der; -(e)s* cəsarət, hünər; *vulg. F* göt; *keinen ~ haben* cəsarəti olmamaq; *vulg.* götü olmamaq.

**Schneide,** *die; -, -n* tiyə, ağız, dil.

**schneiden** *vt* **1.** kəsmək; doğramaq; *mit e-m Messer ~* bıçaq ilə kəsmək; *in Stücke ~* doğramaq; **2.** *(Haare)* qırxmaq; **3.** *(Fingernägel)* dırnaqları tutmaq; **4.** *math.* ikiyə bölmək; **5.** *F j-n ~* bir kəsə əhəmiyyət verməmək, bir kəsi saymamaq; **6.** *(et. in et.)* qatmaq; *Ei in den Salat ~* salata yumurta qatmaq; **7.** *(Fratzen)* ağız-burun əymək; *glatt ~* biçmək; *vi gut ~* iti olmaq; *schlecht ~* küt olmaq; *vr sich ~* 1. özünün bir yerini kəsib yaralamaq; 2. çarpazlanmaq; *fig.* səhv etmək; *fig. e-e Luft zum Schneiden* kəskin hava .

**schneidend** *adj. (Kälte)* şiddətli.

**Schneider**[1]**,** *der; -s, -* dərzi.

**Schneider**[2] *: aus dem ~ sein* çətin vəziyyətdən qurtulmaq *(çıxmaq).*

**Schneiderei,** *die; -, -en* dərzilik, dərzixana.

**Schneiderin,** *die; -nen* dərzi qadın.
**schneidern** *vt* dərzilik etmək.
**Schneidersitz,** *der; -es* bağdaş; *im ~ sitzen* bağdaş qurmaq.
**Schneidewerkzeug,** *das; -(e)s, -e* kəsici alət.
**Schneidezahn,** *der, -(e)s, -¨e* kəsən diş.
**schneidig** *adj.* igid, qoçaq, qorxmaz.
**schneien** *vi : es schneit* qar yağır.
**Schneise,** *die; -, -n* **1.** cığır; **2.** *(Flugschneise)* koridor.
**schnell** *adj.* tez, cəld, tələsik, yeyin, sürətli, acil, əcələ; *F* dıbbırıq; *adv.* tez, tələsərək, cəld, anən, əlüstü, barmaqucu, çaparı, dördayaq, əcələ ilə, əlimyandı, iti, dayanmadan; *mach ~!* tez ol!, cəld ol!, əcələ et; *nicht so ~!* yavaş-yavaş!; *es geht ~* tez olur, çox çəkməz; *auf dem ~sten Wege* ən tez yolla; *sehr ~* güllə kimi, yeyin.
**Schnelläufer,** *der; -s, -* iti qaçan, sürətlə qaçan; çapar.
**Schnelläuferin,** *die; -, -nen* iti qaçan, sürətlə qaçan *(qadın).*
**Schnelle,** *die; -, -n* **1.** yeyinlik, sürət; *F auf die ~* əcələ ilə; ayaq üstündə; *j-n auf die ~ besuchen* bir kəsə ayaq üstündə baş çəkmək; **2.** *(Stromschnelle)* çayın iti axan yeri.
**schnellen** *vi* **1.** atılmaq, yerindən sıçramaq; *in die Höhe ~* yuxarı atılmaq; **2.** *(Preise, Aktien usw.)* qalxmaq; *vt* atmaq, tullamaq.
**schneller** *adj.* daha tez.
**Schnellfeuergewehr,** *das; -(e)s, -e* odlu silah *(Süd. : a. müsəlsəl).*
**schnellfüßig** *adj.* iti ayaq, qaçağan.
**Schnellgericht,** *das; -(e)s, -e (Essen)* tez hazır olan xörək, tez bişən yemək.
**Schnellhefter,** *der; -s, -* sancaqlı qovluq.
**Schnelligkeit,** *die; -, -en* itilik, tezlik, cəldlik, sürət*(lilik).*
**Schnellkochtopf,** *der; -(e)s, -¨e* tezbişirən qazança.
**schnellstens** *adv.* mümkün qədər tez, yubanılmadan, təxirə salınmadan.
**Schnellpost,** *die; -* təcili poçt *(post).*
**Schnellstraße,** *die; -, -n* otoyol, ekspress yolu, nəqliyyatın daha sürətli hərəkəti üçün ayrılmış yol zolağı.
**Schnellzug,** *der; -es, -¨e* ekspres qatar.
**Schnepfe,** *die; -, -n zo.* cüllüt.
**schneuzen** *vr : sich ~* burnunu silmək, fınxırmaq.
**Schnickschnack,** *der; -s* **1.** *(Krempel)* zir-zibil; **2.** *(sinnloses Gerede)* cəfəngiyat, boş sözlər.
**Schnippchen** *: j-m ein ~ schlagen* bir kəsi dolamaq, bir kəsə zərərsiz bir oyun oynamaq.
**schnippeln** *vt* doğramaq, tikə-tikə etmək.
**schnippen** *vi : mit den Fingern ~* çırtma vurmaq.
**schnippisch** *adj.* həyasız, hörmətsiz.
**Schnipsel,** *der u. das; -s, -* parça, tikə.
**schnitt** *s. schneiden.*
**Schnitt,** *der; -(e)s, -e* **1.** *(schneiden)* kəsmə, doğrama; **2.** *(Schnittwunde)* kəsik, çapıq, yarıq; **3.** *(Kleid)* biçim, ülgü; **4.** *(am Buch)* kənar, qıraq; **5.** *med.* əməliyyat; **6.** *(Durchschnitt) F* orta hesab; *im ~* orta hesabla; **7.** *(Gewinn)* qazanc; *F s-n ~ machen -dən* yaxşı pul çıxarmaq.
**Schnittblume,** *die; -, -n* kəsilmiş çiçək.
**Schnittbohnen** *die/pl.* lobya.
**Schnitte,** *die; -, -n* dilim, parça, doğram.
**schnittig** *adj. (Boot, Auto)* gözəl və iti gedən *(sürətli),* axarlı.
**Schnittlauch,** *der; -(e)s* bir növ soğan, sövzü.
**Schnittmuster,** *das; -s, -* ülgü, əndazə.
**Schnittpunkt,** *der; -(e)s, -e math.* birləşmə nöqtəsi, qovşaq.
**Schnittwunde,** *die; -, -n* kəsik yarası, bıçaq yarası.
**Schnitz,** *der; -es, -e* dilim, parça, doğram.
**Schnitzel**[1]**,** *das; -s, -* qızardılmış dana və ya donuz əti.
**Schnitzel**[2]**,** *der; -s, -* kəsik, parça; *Papierschnitzel* kağız parçası.
**schnitzeln** *vt* doğramaq, xırda-xırda kəsmək.

**schnitzen** *vt* naxış açmaq, oymaq; qəddəmək; *fig. er ist aus hartem Holz geschnitzt* o, çox iradəli adamdır.

**Schnitzer,** *der; -s, -* **1.**naxışaçan, həkkak; **2.***(Fehler)* səhv; *e-n ~ machen* səhv etmək.

**Schnitzerei,** *die; -, -en* oyma, naxış, naxışlama.

**schnob** *s. schnauben.*

**schnodd(e)rig** *adj.* sırtıq, hörmət etməyən, dəcəl, sayğısız.

**schnöde** *adj.* **1.** *(gemein)* alçaq, adi, bayağı; **2.** *(beleidigend)* təhqiredici, saymazyana; *e-e ~ Antwort* saymazyana cavab; *~r Undank* yaxşılığa yamanlıq.

**Schnödigkeit,** *die; -* bayağılıq, adi söz və davranış *(rəftar).*

**Schnorchel,** *der; -s, -* *(Atemrohr)* nəfəs alma borusu.

**Schnörkel,** *der; -s, -* **1.** *(an Schriftzügen)* quyruq; **2.** *(in der Rede)* bəzək-düzək; *ohne ~* bəzək-düzəksiz.

**schnorren** *vt* dilənçilik etmək.

**Schnorrer,** *der; -s, -* dilənçi.

**Schnösel,** *der; -s, - F* darğaşayırd, sırtıq, həyasız.

**schnüffeln** *vi* **1.** *(an et.)* iyləmək, qoxulamaq; **2.** *fig.* casusluq etmək, burnunu hər yerə soxmaq.

**Schnüffler,** *der; -s, -* casus.

**Schnuller,** *der; -s, -* əmzik.

**Schnulze,** *die; -, -n F* yüngül mahnı; sentimental film.

**Schnupfen,** *der; -s, -* zökəm, soyuqdəymə; *e-n ~ bekommen* zökəm olmaq, soyuq dəymək.

**schnupfen** *vt* **1.** burunotu *(tütün)* iyləmək, burunotu *(tütün)* qoxulamaq; **2.** *(schluchzen)* hıcqırmaq; **3.** *F es schnupft mich* məni hirsləndirir, məni acıqlandırır.

**Schnupftabak,** *der; -(e)s, -e* tütün, ənfiyə, burunotu, buruna çəkilən tütün tozu.

**schnuppe** *adj. : das ist mir ~* mənim üçün bunun heç bir fərqi yoxdur.

**Schnupperkurs,** *der; -es, -e* yoxlama dərsi, tanış olma dərsi.

**schnuppern** *vi* iyləmək, qoxulamaq *(an D/bir şeyi).*

**Schnur,** *die; -, -¨e* **1.** ip, qaytan, bağ; **2.** *(seidene ~)* bafta; **3.** *(Kabel)* kab(e)l.

**Schnürchen,** *das; -s, - fig. : es läuft wie am ~* hər şey yağ kimi gedir, su kimi axır, saat kimi işləyir.

**schnüren** *vt* düyünləmək, qaytanla bağlamaq.

**schnurgerade** *adj.* dümdüz.

**Schnurrbart,** *der; -(e)s, -¨e* bığ.

**Schnurre,** *die; -, -n* gülməli hekayə.

**schnurren** *vi* **1.** *(Katze)* mırıldamaq; **2.** *(Motor)* guruldamaq.

**Schnürschuh,** *der; -(e)s, -e* qaytanlı başmaq, bağlı başmaq.

**Schnürsenkel,** *der; -s, -* başmaq bağı.

**schnurstracks** *adv.* o saat, həmin dəqiqə, yubanılmadan, dərhal.

**schnurz(egal)** *adj. F das ist mir ~* mənim üçün bunun heç bir fərqi yoxdur.

**Schnute,** *die; -, -n F* ağız; dodaq; *e-e ~ ziehen* dodaq büzmək.

**schob** *s. schieben.*

**Schober,** *der; -s, -* *(Heuschober)* taya, ot tayası; taxıl qalağı.

**Schock[1],** *der; -s, -s* şok, ürəkkeçmə; *unter ~ stehen* şokda olmaq.

**Schock[2]** *das; -(e)s, -e* **1.** 60 ədəd; *ein ~ Eier* 60 ədəd yumurta; **2.** *fig. (große Menge)* böyük miqdar.

**Schockbehandlung,** *die; -, -en* şok müalicəsi.

**schockieren** *vt* şok vermək, şokə etmək.

**schofel** *adj. F* alçaq, əclaf; acınacaqlı.

**Schöffe,** *der; -n, -n* məhkəmənin fəxri üzvü.

**Schofför,** *der; -s, -e* şofer.

**Schokolade,** *die; -, -n* şokolad.

**Schokoladenseite,** *die; -, -n fig.* yaxşı tərəf; *sich von seiner ~ zeigen* özünün ən yaxşı tərəfini göstərmək.

**Scholastik,** *die; -* **1.** *phil.* sxolastika; **2.** *fig.* dardüşüncəli təlim.

**Scholle[1],** *die; -, -n* **1.** *(Eisscholle)* buz qayası, buz parçası; **2.** *(Erdscholle)* bir parça torpaq; **3.** *(Heimat)* doğma yurd,

vətən.

**Scholle**[2]**,** *die; -, -n zo.* qalxan balığı.

**schon** *adv.* **1.** artıq; **2.** *(frühzeitig)* qabaqcadan, tezdən; *warum willst du ~ gehen?* niyə tezdən gedirsən?; **3.** *(rechtzeitig, bestimmt)* vaxtında; yəqin ki; *er wird es ~ noch früh genug erfahren* o bunu *(artıq)* vaxtında biləcəkdir; *er wird ~ kommen* o yəqin ki gələr; **4.** *(endlich)* artıq; *nun schweig doch ~* artıq danışma; **5.** *(jemals)* heç; *hast du ~ einmal ...?* sən heç … mi? **6.** *(sogar ~)* hətta; *~ gut!* yaxşı!; *das wird ~ stimmen, nur..* bu düz olacaq, ancaq..; *~ der Gedanke daran* bunun təsəvvürü belə; *~ möglich* imkanı var; *wenn ~, denn ~!* əgər belədirsə, qoy belə də olsun!.

**schön** *adj.* gözəl, qəşəng, göyçək, zərif; allı-güllü, aybəniz; *~e Augen* gözəl gözlər; *~e Augen haben* gözəl gözləri olmaq, durnagöz*(lü)*; *~e Stimme* gözəl səs; *~e Literatur* bədii ədəbiyyat; *e-e ~e Summe* baha; *wie ~!* nə gözəl!; *adv.* çox gözəl, çox qəşəng, çox yaxşı; *~!* yaxşı!, razıyam!; *~ kühl* çox *(yaxşı)* sərin; *das wäre noch ~er* elə bu qalmışdı; *danke ~!* çox təşəkkür edirəm!, çox sağ ol*(un)!*; *du bist mir ja ein ~er Freund (iron.)* əcəb yaxşı dostsan; *~e Augen machen* naz etmək; *e-s ~en Tages* günlərin gözəl bir günündə, bir gözəl gündə; *der ~ste Tag* ən gözəl gün.

**Schöne,** *die; -n, -n F* gözəl qadın, dilbər, camallı qadın.

**schonen** *vt* müğayat olmaq, aman vermək, hifz etmək; yazığı gəlmək; *vr sich ~* özünə rəhmi gəlmək, özündən müğayat olmaq, özünü hifz etmək, özünü gözətləmək.

**schonend** *adj.* nazik; yumşaq; *adv. ~ umgehen mit .. -dən* səliqə *(diqqət/ehtiyat)* illə istifadə etmək.

**Schoner,** *der; -s, -* çox dorlu yelkənli gəmi, şxuna.

**schönfärben** *vt fig.* olduğundan gözəl göstərmək.

**schöngeistig** *adj.* estetik; incəsənəti sevən; *die ~e Literatur* bədii ədəbiyyat.

**Schönheit,** *die; -, -en* **1.** gözəllik, hüsn, göyçəklik; camal; **2.***(Frau)* gözəl qadın.

**Schönheitschirurgie,** *die; -* kosmetik cərrahlıq.

**Schönheitsfehler,** *der; -s, -* cismani eyib.

**Schönheitskönigin,** *die; -, -nen* gözəllik kraliçası, gözəllik mələyi *(mələki)*.

**Schönheitsoperation,** *die; -, -en* kosmetik cərrahlıq.

**Schönheitspflege,** *die; -* kosmetik qulluq.

**Schönheitssinn,** *der;-(e)s* gözəllik hissi, gözəllik duyğusu.

**Schönheitswettbewerb,** *der; -(e)s, -e* gözəllik yarışı *(müsabiqəsi)*.

**Schonkost,** *die; -* pəhriz yeməyi.

**schönmachen** *vr sich ~* bəzənmək, üst-başını düzəltmək.

**schönreden** *vt* yaltaqlanmaq *(j-m/bir kəsə)*.

**schönschreiben** *vt* xəttatlıq etmək.

**Schönschreibekunst,** *die; -* xəttatlıq, kalliqrafiya.

**schöntun** *vi : j-m ~* bir kəsə yaltaqlanmaq.

**Schöntuerei,** *die; -, -en* yaltaqlanma, kompliment demə.

**Schonung,** *die; -, -en* **1.** *(Gnade)* rəhm, aman, şəfqət; **2.** *(Sorgfalt)* ehtiyat*(lıq)*; *mit ~ behandeln* ehtiyatla *(güzəşlə)* rəftar etmək; **3.** *(Forst)* qoruq.

**schonungslos** *adj.* rəhmsiz, amansız, şəfqətsiz.

**Schonzeit,** *die; -, -en* **1.** *(für Tiere)* ov qadağanı olunmuş vaxt; **2.** *(für Berufsanfänger usw.)* keçinmə vaxtı, güzəşt müddəti.

**Schopf,** *der; -(e)s, -¨e* kəkil; *fig. beim ~ ergreifen* fürsəti əldən verməmək, fürsətdən istifadə etmək.

**schöpfen** *vt* **1.** *(Wasser)* su çıxartmaq; su çəkmək; **2.** *(Atem, Luft)* dərin nəfəs almaq, hava almaq; **3.** *(Mut)* ürəklənmək; **4.** *(Verdacht)* şübhələnmək; **5.** *(mit dem Löffel)* qaşıqlamaq; çömçələmək; **6.** *(schaffen)* yaratmaq.

**Schöpfer,** *der; -s, -* **1.** *(e-s Werkes usw.)*

yaradıcı, müəllif, qurucu; **2.** *(Gott)* yaradan, xaliq; **3.** *(großer Löffel)* çömçə.

**schöpferisch** *adj.* yaradıcı, zehni; bədii; *~e Arbeit leisten* yaradıcı əməklə məşğul olmaq.

**Schöpferkraft,** *die; -* yaradıcılıq qüvvəsi, yaradıcı qüvvə.

**Schöpfkelle,** *die; -, -n* çömçə, abgərdən.

**Schöpflöffel,** *der; -s, -* çömçə.

**Schöpfung,** *die; -, -en* **1.** yaratma; **2.** *(das Geschaffene)* məhsul, yaradıcılıq, yaranış; **3.** *(Werk)* əsər.

**Schoppen,** *der;-s, -* yarım litrik ölçü qabı.

**Schöps,** *der; -es, -e* qoyun.

**Schorf,** *der; -(e)s, -e* yara qabığı, yara közü.

**schorfig** *adj.* qotur.

**Schornstein,** *der; -(e)s, -e* tüstü bacası, ban *(Süd. : a. dudkeş); fig. et. in den ~ schreiben* buz üstünə yazıb günəş qabağına qoymaq, üstündən qələm çəkmək.

**Schornsteinfeger,** *der; -s, -* bacatəmizləyən.

**schoss** *s. schießen.*

**Schoss,** *der; -es, -e bot.* zoğ, cavan budaq.

**Schoß,** *der; -es, -¨e* **1.** qucaq, qoyun; *das Kind auf den ~ nehmen* üşağı qucağa almaq; **2.** *(Mutterleib)* bətn, ana bətni; **3.** *(Rockschoß)* ətək; *im ~e der Familie* ailə daxilində, ailə qucağında; *fig. die Hände in den ~ legen* əlini ağdan-qa-raya vurmamaq.

**Schoßhund,** *der; -(e)s, -e* qucaq iti, çox kiçik və qucaqda oturan it.

**Schössling,** *der; -s, -e* zoğ, cavan budağ, fidan.

**Schote,** *die; -, -n (Hülse)* qabıq, qın.

**Schotte,** *der; -n, -n* şotlandiyalı.

**Schotter,** *der; -s, -* daş; *Straßenschotter* cınqıl, qırma daş.

**Schottin,** *die; -, -nen* şotlandiyalı qadın.

**schottisch** *adj.* şotlandiya*(lı).*

**Schottland** Şotlandiya.

**schraffieren** *vt* cizgiləmək *(Süd. : a. haşur vurmaq).*

**schraffiert** *adj.* cizgili, haşurlu.

**Schraffur,** *die; -, -en* cizgiləmə.

**schräg** *adj.* çəp, qıyqac; əyri, maili, *~ gegenüber -in* çarpazında, çəpində.

**Schräge,** *die; -, -n* əyrilik, çəplik; *die Wand hat e-e leichte ~* divarın bir az əyriliyi var.

**Schrägstrich,** *der; -(e)s, -e* əyri xətt, çəp xətt.

**Schramme,** *die; -, -n* çapıq, kəsik; cızıq; siyrinti.

**schrammen** *vt* yaralamaq; cızmaq, siyirmək; zədələmək.

**Schrank,** *der; -(e)s, -¨e* şkaf, dolab.

**Schrankbett,** *das; -es, -en* yataqlı şkaf.

**Schranke,** *die; -, -n* **1.**çəpər, sədd; maneə; **2.** *fig. (Grenze)* hədd, sərhəd; *j-n in die/ s-e ~n weisen* bir kəsə həddini bildirmək.

**schrankenlos** *adj. fig.* ölçüsüz, hədsiz-hesabsız; maneəsiz.

**Schrankenwärter,** *der; -s, -* darvazaçı.

**Schraube,** *die; -, -n* **1.** vint (*Süd. : piç);* çiv(i); **2.** *(Schiffsschraube)* pər*(vanə); fig. bei ihm ist e-e ~ locker* bir az ağlı azdır.

**schrauben** *vt* **1.** vintləmək, piç*(ini)* burmaq; çivləmək; *fig.* **2.** *(in die Höhe)* artırmaq, yuxarı qaldırmaq; *Preise in die Höhe ~* qiymətləri *(daimi)* artırmaq, qiymətləri yuxarı qaldırmaq; *fig. geschraubt* süni, qəyri-təbii.

**schraubenförmig** *adj.* vintli, pərli; vintşəkilli, dolama.

**Schraubenmutter,** *die; -, -n* qayka *(Süd. : möhrə).*

**Schraubenschlüssel,** *der; -s, -* qayka açarı *(Süd. : açar).*

**Schraubenzieher,** *der; -s, -* vintaçan, vintburan, *(Süd. : piçaçan).*

**Schraubstock,** *der; -(e)s, -¨e* məngənə.

**Schrebergarten,** *der; -s, -¨* şəhər kənarında balaca bağ.

**Schreck,** *der; -(e)s, -e(n)* qorxu, hədə; *e-n ~ bekommen* qorxmaq; *vor ~ zittern* qorxudan titrəmək.

**schrecken** *vt* qorxutmaq, ürkütmək,

hürkütmək.

**Schrecken,** *der; -s, - s. Schreck; ~ verbreiten* dəhşət yaratmaq.

**schreckenerregend** *adj.* dəhşətli, bağırdələn.

**Schreckensbotschaft,** *die; -* qorxulu xəbər, qara xəbər, pis xəbər.

**Schreckensherrschaft,** *die; -* terror, terrorçuluq, dəhşət rejimi.

**Schreckensnachricht,** *die; -, -en* pis xəbər, qara xəbər.

**Schreckenstat,** *die; -, -en* dəhşətli cinayət.

**schreckerstarrt** *adj.* qorxudan donmuş, qorxudan mat olmuş.

**Schreckgespenst,** *das; -(e)s, -er* qarabasma, xəyal.

**schreckhaft** *adj.* tez qorxan.

**schrecklich** *adj.* **1.** dəhşətli, qorxulu; fəlakətli, bağırdələn, ətürpərdən, ətürpərdici; **2.** *F (sehr)* çox, *ich freue mich ~ darauf* buna görə çox sevinirəm.

**Schrecknis,** *das; -ses, -se* dəhşət.

**Schreckschuss,** *der; -es, -¨e* havaya atılan güllə, xəbərdaredici atəş.

**Schrei,** *der; -(e)s, -e* **1.** qışqırıq, bağırtı, fəryad, hayqırtı, nalə, hay; **2.** *F der letzte ~* ən yeni moda.

**Schreibart,** *die; -, -en* yazı üslubu; yazı tərzi.

**Schreibe,** *die; - F* qələm.

**schreiben** *vt* yazmaq; *ins reine/Reine ~* təmiz kağıza köçürmək; *wir ~ heute den 11. Mai* bu gün May ayının onbiridir.

**Schreiben,** *das; -s, -* məktub, yazı; pitik.

**Schreiber,** *der; -s, -* **1.** yazan, mirzə **2.** *(Verfasser)* müəllif.

**Schreiberei,** *die; -, -en* kağızçılıq.

**schreibfaul** *adj.* məktub yazma tənbəli; *~ sein* məktub yazmağa tənbəllik etmək.

**Schreibfeder,** *die; -, -n* qələm.

**Schreibfehler,** *der; -s, -* yazı səhvi, yazıda səhv.

**Schreibheft,** *das; -(e)s, -e* dəftər.

**Schreibmaschine,** *die; -, -n* yazı maşını.

**Schreibmaschinenpapier,** *das; -s* yazı maşınının kağızı.

**Schreibpapier,** *das; -s* yazı kağızı.

**Schreibschrift,** *die; -, -en (Ggs. Druckschrift)* əlyazısı; kursiv şrift.

**Schreibtisch,** *der; -(e)s, -e* yazı stolu yazı mizi.

**Schreibung,** *die; -, -en* imla, orfoqrafiya, yazı qaydaları.

**Schreibzeug,** *das; -(e)s, -e* yazı ləvazimatı.

**schreien** *vi* **1.** qışqırmaq, fəryad etmək, dad-bidad etmək, haray çəkmək, havar çəkmək; *um Hilfe ~* kömək istəmək, dad-fəryad etmək, havar çəkmək; **2.** *(Kleinkind)* ağlamaq; **3.** *(Hahn)* banlamaq; **4.** *(Esel)* anqırmaq; *fig. Ach und Weh ~* nalə etmək, fəryad etmək; *~ vor Schmerz* sancıdan nalə etmək; *zum Schreien sein* çox gülməli olmaq, çox məzəli olmaq.

**schreiend** *adj. fig.* **1.** *(Farbe)* gözə çarpar, parlaq; **2.** *(Unrecht)* aydın, bəlli; *e-e ~e Ungerechtigkeit* aydın ədalətsizlik.

**Schreier,** *der; -s, -* qışqırıqçı, çığır-bağırçı.

**Schreierei,** *die; -, -en* qışqırtı.

**Schreihals,** *der; -es, -¨e* qışqırıqçı, çığır-bağırçı.

**Schrein,** *der; -(e)s, -e* sandıq; şkaf.

**Schreiner,** *der; -s, -* xarrat, nəccar.

**schreiten** *vi* **1.** addımlamaq; **2.** *fig.* başlamaq, girişmək *(zu D/nəyəsə); zur Tat ~* hərəkətə başlamaq *(keçmək).*

**schrie** *s. schreien.*

**schrieb** *s. schreiben.*

**Schrift,** *die; -, -en* **1.** hərflər; *lateinische ~* latın hərfləri; **2.** *(Handschrift)* dəstxətt; *schöne ~* gözəl xətt; **3.** *(Artikel)* məqalə, yazı; **4.** *(Werk)* əsər; *die Heilige ~* Müqəddəs kitab.

**Schriftart,** *die;-, -en typ.* şrift növü.

**Schriftführer,** *der; -s, -* katib, kargüzar.

**Schriftleiter,** *der; -s, -* redaktor.

**Schriftleitung,** *die; -, -en* redaksiya.

**schriftlich** *adj.* yazılı; *adv.* yazı ilə,

kətbən, yazılı şəkildə; *F das kann ich dir ~ geben!* bu qətiyyətlə belədir!

**Schriftprobe,** *die; -, -n* xətt nümunəsi.

**Schriftsatz,** *der; -es, -¨e* **1.** *typ.* yığım; **2.** *jur.* rəsmi ərizə; rəsmi izahat.

**Schriftsetzer,** *der; -s, - typ.* yığıcı.

**Schriftsprache,** *die; -, -n* ədəbi dil, yazı dili.

**Schriftsteller,** *der; -s, -* yazıçı, ədib; *veralt. fig.* əhli-qələm.

**Schriftstück,** *das; -(e)s, -e* sənəd, rəsmi sənəd.

**Schrifttum,** *das; -s* ədəbiyyat; yazı.

**Schriftwechsel,** *der; -s, -* yazışma, məktublaşma, korrespondenz.

**Schriftzeichen,** *das; -s, -* hərf.

**Schriftzug,** *der; -(e)s, -¨e (e-r Unterschrift usw.)* quyruq.

**schrill** *adj. (Ton, Stimme)* kəskin; qulaqbatıran; cır.

**Schrippe,** *die; -, -n* kiçik ağ çörək.

**schritt** *s. schreiten.*

**Schritt,** *der; -(e)s, -e* **1.** addım, qədəm; *~ für ~* addımbaaddım; tədricən; *auf ~ und Tritt* addımbaşı, daim; **2.** *(Maßnahme)* tədbir, əməl; *~e unternehmen* tədbir görmək; **3.** *(lauter/ leiser ~)* ayaq səsi; **4.** *im ~ fahren* yavaş sürmək *(getmək)*; *j-m auf ~ und Tritt folgen* bir kəsi addımbaşı təqib etmək *(izləmək)*; *~ halten mit -ilə* ayaqlaşmaq; *den ersten ~ tun* ilk addımı atmaq.

**Schrittmacher,** *der; -s, - pol.* qabaqcıl, başqalarına yol açan, təşəbbüsçü; *med.* ürək bateriyası.

**schrittweise** *adv.* addım-addım, yavaş-yavaş, tədricən, gedə-gedə, az-az.

**schroff** *adj.* **1.** *(Antwort usw.)* sərt, qaba; **2.** *(plötzlich)* birdən, gözlənilmədən; **3.** *(jäh, abfallend)* dik, sıldırım.

**Schroffheit,** *die; -, -en* kəskinlik, şiddət; sərtlik.

**schröpfen** *vt* **1.** *med.* çərtmək, qan almaq, həcəmət qoymaq *(almaq)*; **2.** *fig. j-n ~* bir kəsi soymaq, bir kəsi talan etmək.

**Schrot,** *das u. der; -(e)s* **1.** *(Korn)* yarma; **2.** *(Gewehrschrot)* saçma; *fig. von echtem ~ und Korn* əsil insan.

**schroten** *vt* **1.** *(Getreide)* iri üyütmək; **2.** *(Fass)* diyirlətmək.

**Schrotflinte,** *die; -, -n* saçma tüfəngi.

**Schrotmühle,** *die; -, -n* un dəyirmanı.

**Schrott,** *der; -(e)s, -* dəmir qırıntıları; *zu ~ fahren* avtomobil qəzasında maşını darmadağın *(məhv)* etmək.

**schrottreif** *adj.* işdən düşmüş.

**schrubben** *vt* təmizləmək, şotka ilə yumaq, silmək.

**Schrubber,** *der; -s, -* lif süpürgə; yer təmizləmək dəsmalı.

**Schrulle,** *die; -, -n* **1.** şıltaq, əhval, naz; *den Kopf voller ~n haben* əcaib fikirlərə düşmək; **2.** *F (wunderliche, alte Frau)* kaftar, küpəgirən qarı.

**schrullig** *adj.* əcaib, qəribə; səfeh.

**schrumpeln** *vi* yığılmaq, qırış-qırış olmaq, büzüşmək.

**schrumpfen** *vi* **1.** yığılmaq, büzülmək, qırış-qırış olmaq; **2.** *fig.* azalmaq.

**Schrumpfung,** *die; -, -en* azalma.

**Schub,** *der; -(e)s, -¨e* **1.** təkan; zərbə; **2.** *med. (Anfall)* tutma; **3.** *(Menschenmenge)* dəstə, qrup, qafilə; *auf den ~ bringen* yatab göndərmək; sürgün etmək.

**Schubfach,** *das; -(e)s, -¨er* siyirmə, siyirtmə yeşik, göz; *(Süd. : a. kəşov).*

**Schubkarren,** *der; -s, -* əl arabası.

**Schubkasten,** *der; -s, -¨ s. Schubfach.*

**Schubkraft,** *die; -, -¨e* hərəkət qüvvəsi, dartma qüvvəsi.

**Schublade,** *die; -, -n s. Schubfach.*

**Schubs,** *der; -es, -e F* dirsək zərbəsi; *j-m e-n ~ geben* bir kəsi dirsəyi ilə itələmək.

**schubsen** *vt* itələmək.

**schubweise** *adv.* qruplar halında, hissə-hissə.

**schüchtern** *adj.* utancaq, adamdan-qaçan, cürətsiz; qorxaqcasına.

**Schüchternheit,** *die; -* utancaqlıq, cürətsizlik.

**schuf** *s. schaffen.*

**Schuft,** *der; -(e)s, -e* yaramaz, alçaq, fırıldaqçı, əclaf.

**schuften** *vi* ağır iş görmək, özünü əl-

dən salmaq; *F* eşşək kimi işləmək.

**Schufterei,** *die; -, -en* ağır iş.

**schuftig** *adj.* alçaq, rəzil, əclaf.

**Schuh,** *der; -(e)s, -e* başmaq, ayaqqabı, qondara; *ein Paar ~e* bir cüt başmaq; *mein ~ drückt* başmaq ayağımı vurur, başmaq ayağımı sıxır; *die ~e anziehen* başmaqları geymək; *fig. j-m et. in die ~e schieben* təqsiri başqasının üzərinə atmaq; *F wo drückt dich der ~?* nə çətinliyin var?, səni nə incidir?

**Schuhanzieher,** *der; -s, -* başmaqçəkən, dabançəkən.

**Schuhband,** *das; -(e)s, -¨er* başmaqbağı, ayaqqabı bağı.

**Schuhbürste,** *die; -, -n* başmaq şotkası.

**Schuhcreme,** *die; -, -s* vaks, ayaqqabı yağı.

**Schuhgeschäft,** *das; -(e)s, -e* başmaq mağazası.

**Schuhmacher,** *der; -s, -* pinəçi, başmaqçı, ayaqqabıçı.

**Schuhputzer,** *der; -s, -* çəkməsilən, başmaqsilən.

**Schuhsenkel,** *der; -s, -* başmaqbağı.

**Schuhsohle,** *die; -, -n* alt, altlıq, başmaq dabanı.

**Schuhspanner,** *der; -s, -* başmaq qəlibi *(Süd. : başmaq qalıbı).*

**Schuhwichse,** *die; -* vaks, başmaq yağı.

**Schukosteckdose,** *die; -, -n el.* qoruyucu ştepsel.

**Schulabgänger,** *der; -s, -* orta məktəbi qurtaran şagird.

**Schulamt,** *das; -(e)s, -¨er* maarif idarəsi.

**Schularbeit,** *die; -, -en* ev tapşırığı.

**Schulaufgabe,** *die; -, -en s.Schularbeit.*

**Schulbehörde,** *die; -, -n s. Schulamt.*

**Schulbeispiel,** *das; -s, -e* əyani nümunə, hər kəsin bildiyi örnək.

**Schulbesuch,** *der; -(e)s, -e* məktəbə *(oxula, mədrəsəyə)* getmə.

**Schulbildung,** *die; -* təlim, təhsil.

**Schulbuch,** *das; -(e)s, -¨er* dərslik.

**Schuld,** *die; -, -en* **1.** *(Verantwortung)* təqsir, günah, müqəssirlik, təqsirlilik, babal, cürm, suç; *wer ist ~?* kimin günahıdır?, kimin suçudur?; *es ist meine ~* mənim günahımdır, mən təqsirkaram; *s-e ~ abstreiten* təqsirini danmaq; *j-m die ~ an et. geben* bir kəsi günahkar saymaq, babalını yumaq; **2.** *(Schuldgefühl)* günahkarlıq hissi; *fig. (tief) in j-s ~ stehen* bir kəsə *(çox şeylər)* borclu olmaq.

**Schuldbekenntnis,** *das; -ses, -se* günahını *(suçunu)* boynuna alma; gözükölgəlilik.

**schuldbeladen** *adj.* təqsirkar, günahkar, təqsirli.

**schuldbewusst** *adj.* təqsirini başa düşən, gözükölgəli, suçlu.

**schulden** *vt* borclu olmaq *(j-m/bir kəsə)*; *du schuldest mir 50 Euro* sən mənə 50 € borclusan.

**Schulden,** *die/pl. (Geldschuld)* borc, ödünc *sg.*; *du musst deine ~ bezahlen* gərək borclarını verəsən; *~en machen* borclu qalmaq, borc etmək; *~en haben* borcu olmaq.

**Schuldforderung,** *die; -, -en* borc tələbi.

**schuldfrei** *adj.* borcsuz; təqsirsiz.

**schuldhaft** *adj.* təqsirli.

**Schuldienst,** *der;-(e)s* müəllimlik.

**schuldig** *adj.* **1.** təqsirli, günahkar, suçlu; **2.** *(Geld)* borclu; *j-m Geld ~ sein* bir kəsə *(pul)* borclu olmaq; *j-m Rechenschaft ~ sein* bir kəsə cavabdeh olmaq; *fig. j-m nichts ~ bleiben* bir kəsin cavabını ovcunun içinə qoymaq; *~ erklären* təqsirli saymaq.

**Schuldigkeit,** *die; -* borc, vəzifə; *s-e ~ tun* öz borcunu yerinə yetirmək.

**schuldlos** *adj.* təqsirsiz, günahsız.

**Schuldlosigkeit,** *die; -* təqsirsizlik, bəraət, günahsızlıq.

**Schuldner,** *der; -s, -* borclu, borcalan.

**Schuldrecht,** *das; -(e)s, -e* öhdəçilik hüququ.

**Schuldschein,** *der; -(e)s, -e* iltizamnamə, borcluluq sənədi, borc öhdəliyi.

**Schuldspruch,** *der; -(e)s, -¨e* təqsirkarlıq qərarı.

**Schule,** *die; -, -n* **1.** məktəb, mədrəsə, oxul; *in die ~ gehen* məktəbə getmək; **2.** *(Unterricht)* dərs; *heute ist keine ~* bu gün dərs yoxdur; *fig. aus der ~ plaudern* sirri ifşa etmək, sirri aləmə yaymaq; *die ~ schwänzen* məktəbə getməmək, dərsdən qaçmaq; *fig. das wird ~ machen* bu örnək *(misal, nümunə)* olacaq; **3.** *(Richtung in der Kunst, Wissenschaft)* cərəyan; *die ~ Rembrandts* Rembrand məktəbi; *fig. die harte ~ des Lebens* yaşayışın *(həyatın)* çətinlikləri.

**schulen** *vt* öyrətmək, təlim vermək, dərs vermək; yetişdirmək *geschult* öyrənmiş, məharətli, təcrübəli.

**Schüler,** *der; -s, -* şagird, öyrənci; *beste ~* ə´laçı, ən çalışqan şagird.

**Schüleraustausch,** *der; -(e)s* məktəb şagirdlərinin mübadiləsi.

**Schulferien,** *die/pl.* məktəblərdə tətil.

**schulfrei** *adj.* dərsdən azad.

**Schulfreund,** *der; -(e)s, -e* məktəb yoldaşı.

**Schulgeld,** *das; -(e)s* tədris pulu.

**Schulhof,** *der; -(e)s, -¨e* məktəb həyəti.

**Schuljahr,** *das; -(e)s, -e* tədris ili.

**Schulkamerad,** *der; -en, -en* məktəb yoldaşı.

**Schulkind,** *das; -(e)s - er* məktəbyaşlı.

**Schullehrer,** *der; -s, -* müəllim.

**Schulleiter,** *der; -s, -* məktəb rəhbəri oxul müdiri.

**Schulmappe,** *die; -, -n* məktəb çantası.

**Schulordnung,** *die; -, -en* məktəb nizam-intizamı *(düzəni)*; məktəb nizamnaməsi.

**Schulpflicht,** *die; -* məcburi təhsil.

**schulpflichtig** *adj.* məktəbə getməyə məcbur; *~es Kind* məktəbyaşlı uşaq.

**Schulranzen,** *der; -s, -* məktəb çantası; arxa çantası.

**Schulsachen,** *die/pl.* tədris ləvazimatı.

**Schulschluss,** *der; -es* dərslərin qurtarması; məktəbin bağlanması.

**Schulschwänzer,** *der; -s, -* dərsdənqaçan şagird.

**Schulspeisung,** *die; -, -en* məktəbdə yemək vermə.

**Schulter,** *die; -, -n* çiyin; arxa; *fig. ~ an ~* çiyin-çiyinə, çiyinbəçiyin; *mit den ~n zucken* çiyin atmaq; *fig. j-m die kalte ~ zeigen* bir kəsi saymamaq, pis *(soyuq)* qarşılamaq, dirsək göstərmək; *et. auf die leichte ~ nehmen* bir şeyə ciddi yanaşmamaq.

**Schulterblatt,** *das; -(e)s, -¨er* kürək sümüyü.

**schultern** *vt* **1.** *(Gewehr usw.)* çiyinə almaq; **2.** *(Judo, Ringen)* çiyinləri yerə vurmaq, yıxmaq.

**Schulterpolster,** *das; -s, -* çiyinlik.

**Schulung,** *die; -, -en* öyrənmə, tədris, təlim; kurs.

**Schulunterricht,** *der; -(e)s* məktəb *(mədrəsə)* dərsi.

**Schulversäumnis,** *das; -, -se* dərs buraxma.

**Schulverwaltung,** *die; -, -en* məktəb müdiriyyəti.

**Schulweg,** *der; -(e)s, -e* məktəb yolu.

**Schulwesen,** *das; -s* təhsil; maarif sistemi.

**Schulzeit,** *die; -, -en* **1.** tədris vaxtı, məktəb vaxtı; **2.** tədris illəri *pl.*

**Schulzeugnis,** *das; -ses, -se* məktəb gündəliyi *(Süd. : karnamə).*

**schummeln** *vi F* aldatmaq, cığallıq etmək, cığal gəlmək, dəğəl gəlmək, hesaba soxmaq.

**schumm(e)rig** *adj.* toran, alaqaranlıq.

**Schummler,** *der; -s, -* dəğəlbaz, cığalbaz, dağal.

**Schund,** *der; -(e)s* zir-zibil, cır-cındır, tör-töküntü, dəyərsiz şeylər.

**Schundliteratur,** *die; -* bayağı ədəbiyyat.

**schunkeln** *vi* qol-qola verib oynamaq, yallı getmək.

**Schupo,** *der; -s, -s* polis məmuru; polis.

**Schuppe,** *die; -, -n* **1.** *(Fischschuppe)* pulcuq, pul; **2.** *(Kopfschuppe)* kəpək, ərp; *fig. es fiel ihm wie ~n von den Augen* elə bil gözlərini açdılar.

**schuppen** *vt (Fisch)* balıq təmizləmək, balığın pullarını təmizləmək; *vr sich ~*

*(Schuppen bilden)* pul bağlamaq.

**Schuppen,** *der; -s, -* anbar, qaraj, depo; çardaq; *F (Diskothek)* diskotek.

**Schuppenflechte,** *die; - med.* dəmro*(v).*

**schuppig** *adj.* pulcuqlu, axcalı, pullu; *(Kopfhaut)* kəpəkli.

**Schur,** *die; -, -en* **1.** qoyun qırxını, qırxın; **2.** biçmə, ot biçmə.

**schüren** *vt* **1.** közü qarışdırmaq; **2.** *fig. (anstacheln)* qızışdırmaq, təhrik etmək.

**schürfen** *vt* **1.** *(nach Erz, Kohle usw.)* mədən yataqlarını öyrənmək; qazıb çıxartmaq; **2.** *(die Haut)* dərini sıyırmaq; *er hat sich beim Sturz das Knie geschürft* yıxılanda dizi sıyrıldı; *vi* araşdırmaq *(nach D/bir şeyi).*

**Schürfung,** *die; -, -en* araşdırma, kəşfiyyat aparma.

**Schürfwunde,** *die; -, -n* sıyırıntı, sıyırım.

**schurigeln** *vi* azar vermək; *j-n ~* bir kəsə azar vermək, bir kəsi bezdirmək, təngə gətirmək, xəstə etmək, boğaza yığmaq.

**Schurke,** *der; -n, -n* alçaq, rəzil, yaramaz, dələduz, əclaf, xəbis, şərəfsiz.

**Schurkenstreich,** *der; -(e)s, -e* rəzalət, alçaqlıq, dələduzluq, əclaflıq.

**schurkisch** *adj.* alçaq, rəzil, alçaqca.

**Schurwolle,** *die; -* yeni qırxılmış qoyun yunu, qoyun yunu.

**Schurz,** *der; -es, -e* önlük.

**Schürze,** *die; -, -n* önlük, döşlük.

**schürzen** *vt* **1.** *(Kleidungsstück)* çırmalamaq, qatlamaq; **2.** *(Lippen)* büzmək.

**Schürzenjäger,** *der; -s, -* arvadbaz, arvad düşkünü, hiz.

**Schuss,** *der; -es, -¨e* **1.** atəş; *e-n ~ abgeben* atəş açmaq; **2.** *(Knall)* güllə səsi; **3.***(Sport)* şüt, topa zərbə vurma;**4.** *(Portion)* bir qədər, bir udum; *e-n ~ Essig in den Salat tun* salata bir qədər sirkə qatmaq; *F s-e Sachen in ~ halten* hər şeyi yerində olmaq; *der Junge hat e-n kräftigen ~ getan* oğlan yaxşı boy atıb; *in ~ bringen* yaxşı təmir etmək; *e-e Cola mit ~* alkol qatılmış kola, alkoqollu kola; *weit vom ~* çox uzaqda *(kənarda).*

**schussbereit** *adj.* atəşə hazır.

**Schüssel,** *die; -, -n* kasa, qab; bayda; cam; çanaq; *F (kleine ~)* dəngənə; *(große ~)* bulud.

**schuss(e)lig** *adj.* diqqətsiz, tələsən.

**Schusseligkeit,** *die; -* diqqətsizlik.

**Schussfahrt,** *die; -, -en* xizəklə çox sürətli yeniş.

**Schusslinie,** *die; -, -n* atəş sahəsi; *in die ~ geraten* atəş altına düşmək.

**Schussverletzung,** *die; -, -en* güllə yarası.

**Schusswaffe,** *die; -, -n* odlu silah.

**Schussweite,** *die; -, -n* atəş uzaqlığı.

**Schußwunde,** *die; -, -n* güllə yarası.

**Schuster,** *der; -s, -* çəkməçi, pinəçi, ayaqqabıçı, başmaqçı.

**schustern** *vt* çəkməçilik etmək, pinəçilik etmək.

**Schutt,** *der; -(e)s* **1.** *(Abfall)* zibil; qırıntı; **2.** *(Trümmer)* xaraba*(lıq),* viranə, viranəlik; *in ~ und Asche liegen* viran olmaq, viran qalmaq, darbadağın olmaq; *fig.* kül olmaq.

**Schuttabladeplatz,** *der; -es, -¨e* zibillik.

**Schüttelfrost,** *der; -(e)s, -¨e med.* üşümə, titrəmə.

**schütteln** *vt* silkələmək, əsdirmək, tərpətmək, laxlatmaq, çalxalamaq ; *j-m die Hand ~* birisinin əlini sıxmaq; *vor Gebrauch ~* istifadə etmədən əvvəl silkələyin; *fig. den Staub von den Füßen ~* özünü zir-zibildən qurtarmaq; *vr sich ~* silkələnmək, üst-başını çırpmaq.

**schütten** *vt* tökmək; *es schüttet* yağış sel kimi yağır.

**schütter** *adj. : ~es Haar* seyrək saç.

**Schutthaufen,** *der; -s, -* zibil yığını.

**Schutz,** *der; -es* **1.** qoruma, müdafiə, qoruyub-saxlama, aman, əman; mühafizə, hifz *(vor D, gegen A/ kimdənsə, nədənsə);* himayə, havadarlıq; *fig. F* kölgə; **2.** *(Obdach)* sığınacaq; *bei j-m ~ suchen* bir kəsin yanında sığınacaq axtarmaq, daldalanmaq; *j-n in ~ nehmen* kiməsə qahmar çıxmaq , arxa çıxmaq; *gewähren Sie mir bitte ~ !* məni öz kölgənizə alın!, sizin kölgənizdə!

**Schutzanzug,** *der; -(e)s, -¨e* hərbi səhra geyimi.

**schutzbedürftig** *adj.* köməyə möhtac.

**Schutzbefohlene(r),** *der u. die; -n, -n* himayə altında *(qəyyumluqda)* olan.

**Schutzblech,** *das; -(e)s, -e* *(e-s Autos)* avtomobilin qoruyucu hissəsi.

**Schutzbrille,** *die; -, -n* qoruyucu gözlük.

**Schutzbündnis,** *das; -ses, -se* müdafiə ittifaqı.

**Schutzdach,** *das; -(e)s, -¨er* talvar.

**Schütze,** *der; -n, -n* **1.** atıcı, nişançı; **2.** *astr.* qövs bürcü; **3.** *(Torschütze)* qol vuran.

**schützen** *vt* qorumaq, müdafiə etmək, hifz etmək *(vor D/-dən); vr sich ~* özünü qorumaq, qorunmaq *(vor D, gegen A / kimdənsə, nədənsə).*

**Schutzengel,** *der; -s, -* qoru(yu)cu mələk, mühafizəçi mələk.

**Schützengraben,** *der; -s,¨ -* səngər.

**Schützenhilfe,** *die; - F* kömək.

**Schutzfärbung,** *die; -, -en* qoruyucu rəng.

**Schutzfilm,** *der; -s, -e* qoruyucu üz, qoruyucu örtük.

**Schutzgeld,** *das; -s, -er* bac, bac-xərac.

**Schutzhaft,** *die; - jur.* ehtiyat həbsi, bir kəsin həyatını qorumaq üçün həbsə alma, mühafizə həbsi.

**Schutzherr,** *der; -(e)n, -en* arxa, havadar, kömək.

**Schutzhütte,** *die; -, -n* pənahgah.

**Schützling,** *der; -s, -e* qorunan, himayə altında olan; *veralt.* dəstpərvərdə.

**schutzlos** *adj.* müdafiəsiz, köməksiz, adamsız; əsir-yesir.

**Schutzmacht,** *die; -, -¨e* qoruyan dövlət, himayə edən dövlət.

**Schutzmann,** *der; -(e)s, -¨er* polis məmuru.

**Schutzmarke,** *die; -, -n* mal nişanı.

**Schutzraum,** *der; -(e)s, -¨e* pənahgah.

**Schutzschild,** *der; -(e)s, -e* sipər, qalxan.

**Schutzvorrichtung,** *die; -, -en* qoruyucu mexanizm.

**Schutzzoll,** *der; -(e)s, -¨e* himayəedici gömrük, yerli məhsulları qorumaq üçün idxal olunan mallara qoyulan gömrük haqqı.

**schwabb(e)lig** *adj.* titrək.

**Schwabe,** *der; -n, -n* Şvab, Almanyanın Şvabe əyalətindən olan şəxs.

**Schwabenstreich,** *der; -(e)s, -e* mə`nasız zarafat, gülünc hərəkət.

**schwäbisch** *adj.* şvab.

**schwach** *(-¨er, -¨st) adj.* **1.** zəif, tabsız, cansız, gücsüz, aciz, alaşa, canazar, cılız, donqaz, halsız, heysiz; davamsız, dözümsüz; *F* əl(siz)-ayaqsız, dişsiz; etibarsız; **2.** *(Tee, Kaffee)* açıq; **3.** *(gering)* az; *~e Seite* zəif tərəf; *schwächer werden* zəifləşmək, gücsüzləşmək, gücdən düşmək, heydən düşmək; *(nachlassen)* azalmaq.

**Schwäche,** *die; -, -n* **1.** zəiflik, gücsüzlük, tabsızlıq, donqazlıq; yardımsızlıq, naəlaclıq, cansızlıq; **2.***(Vorliebe)* həvəs, meyl; *fig.* düşkünlük.

**Schwächeanfall,** *der; -(e)s, -¨e* ürəyi getmə.

**schwächen** *vt* zəiflətmək, gücdən salmaq; dayandırmaq.

**Schwachheit,** *die; -, -en* zəiflik, gücsüzlük, tabsızlıq, üzgünlük.

**Schwachkopf,** *der; -(e)s, -¨e* kəmağıl, axmaq, kütbeyin.

**schwächlich** *adj.* zəif, sısqa, cansız, tabsız, üzgün.

**Schwächling,** *der; -s, -e* zəifiradəli; *fig.* əlsiz-ayaqsız.

**schwachsichtig** *adj.* zəifgörən.

**Schwachsinn,** *der; -(e)s* kəmağıllıq, fərasətsizlik, kütbeyinlik.

**schwachsinnig** *adj.* kəmağıl, ağlı zəif, kütbeyin, dərrakəsiz.

**Schwachstrom,** *der; -(e)s el.* zəif cərəyan, az voltajlı cərəyan.

**Schwächung,** *die; -, -en* zəiflə(t)mə, gücdən salma.

**Schwaden,** *der; -s, -* tüstü, buxar.

**Schwadron,** *die; -, -en mil.* eskadron, süvari qoşun hissəsi.

**schwadronieren** *vt* naqqallıq etmək,

uzun danışmaq.

**schwafeln** *vi* mənasız sözlər danışmaq, boşboğazlıq etmək.

**Schwager,** *der; -s, -¨* **1.** *(Bruder des Ehemannes od. der Ehefrau)* qayın; **2.** *(Gemahl der Schwester der Ehefrau)* bacanaq.

**Schwägerin,** *die; -, -nen* baldız; gəlin.

**Schwalbe,** *die; -, -n* qaranquş.

**Schwalbennest,** *das; -(e)s, -er* qaranquş yuvası.

**Schwall,** *der; -(e)s, -e* sel, axın; *ein ~ von Worten* söz axını.

**schwamm** *s. schwimmen.*

**Schwamm,** *der; -(e)s, -¨e* **1.** süngər; **2.** *(Pilz)* göbələk; *fig. ~ drüber!* bunu yaddan çıxardaq!.

**schwammig** *adj.* **1.** deşik-deşik, gözgöz; **2.** *(aufgedunsen)* şişkin; **3.** *(vage)* aydın olmayan, qeyri-aydın; *ein ~er Begriff* qeyri-aydın məfhum.

**Schwan,** *der; -(e)s, -¨e zo.* qu.

**schwand** *s. schwinden.*

**schwanen** *vi* qabaqcadan hiss etmək; *mir schwant, dass ...* qabaqcadan hiss edirəm ki ..., ürəyimə damıb ki ... .

**Schwanengesang,** *der; -(e)s, -¨e fig.* son əsər, son nəğmə.

**schwang** *s. schwingen.*

**schwanger** *adj.* hamilə, ikicanlı, boylu; *~ werden* boylu olmaq, hamilə olmaq; *im zweiten Monat ~* iki aylıq hamilə.

**schwängern** *vt* **1.** hamilə etmək; **2.** *fig. poet.* doldurmaq, doyuzdurmaq.

**Schwangerschaft,** *die; -, -en* boyluluq, hamiləlik.

**Schwangerschaftsunterbrechung,** *die; -, -en* uşaqsalma, uşaqsaldırma.

**Schwangerschaftsverhütung,** *die; -, -en* hamiləlikdən qorunma, boyluluğun qabağını alma.

**Schwank,** *der; -(e)s, -¨e* məzhəkə, lətifə, komedi*(ya).*

**schwanken** *vi* **1.** tərpənmək, laxlamaq; **2.** *(Preise usw.)* enib-qalxmaq; **3.** *(vibrieren)* titrəmək; **4.** *(zögern)* tərəddüd etmək; *fig. er ist wie ein ~des Rohr im Winde* o dəmdəməkidir, o hərdəmxəyaldır.

**schwankend** *adj.* laxlayan, tərpənən, lax, sarsıntılı, lərzan; tərəddüd edən.

**Schwankung,** *die; -, -en* tərpənmə, laxlama; titrəmə, lərzə; enib-qalxma, dəyişmə; tərəddüd, qərarsızlıq, şübhə.

**Schwanz,** *der; -es, -¨e* **1.** quyruq; **2.** *vulg. (Penis)* sik; *vulg. kein ~* heç kəs.

**schwänzeln** *vi* **1.** quyruğunu bulamaq; **2.** *fig.* nazlı-nazlı yerimək; **3.** *(um j-n herum)* bir kəsə yaltaqlanmaq.

**schwänzen** *vi (Unterricht usw.)* dərsdən qaçmaq, dərsə getməmək.

**schwappen** *vi* **1.** *(Flüssigkeit)* titrəmək; **2.** *(überfließen)* eşiyə sıçramaq.

**Schwäre,** *die; -, -n* çiban.

**schwären** *vi* irinləmək, çirkləmək.

**Schwarm,** *der; -(e)s, -¨e* **1.** *(Bienenschwarm)* arı beçəsi; **2.** *(Menge)* dəstə, yığın; *ein ~ von Kindern* bir dəstə uşaq; **3.** *fig.* çox sevilən şəxs.

**schwärmen** *vi* **1.** *(Vögel usw.)* dəstə ilə yığılmaq; dəstə ilə uçmaq; **2.** *fig. (für A)* bir şeyi arzulamaq, bir şeydən vəcdə gəlmək; **3.** *(von et.)* həyəcanla anmaq; bir şeydən valeh olmaq; *~ für j-n* bir kəsə valeh olmaq; *(verliebt sein)* bir kəsə aşiq olmaq.

**Schwärmer,** *der; -s, - (Träumer)* xəyalpərəst, xülyaçı.

**Schwärmerei,** *die; -, -en* həvəs, şövq, meyl, valehlik, xam xəyal.

**schwärmerisch** *adj.* dəlicəsinə, fanatikcəsinə.

**Schwarte,** *die; -, -n* **1.** qalın dəri; **2.** *F* qədim kitab.

**schwarz** *adj.* **1.** qara; **2.** *(schmutzig)* çirkli; **3.** *(böse)* pis, alçaq; **4.** *(heimlich)* gizli, qeyri-qanuni; daşbaş; *~es Brett* elan taxtası; *~ auf weiß* yazılı olaraq; *~e(r) Markt* gizli bazar, qara bazar; *mir wird ~ vor den Augen* gözlərim qaralır; *auf die ~e Liste setzen* adını qara siyahıya yazmaq; *sich ~ ärgern* bərk hirslənmək; *sich ~ kleiden* qara geyinmək.

**Schwarzarbeit,** *die; -* qara iş, vergidən yayınmaqla gizlin işləmək, qeyri-

qanuni iş.

**schwarzbraun** *adj.* qaraqonur, qarabuğdayı.

**Schwarzbrot,** *das; -(e)s, -e* qara çörək.

**Schwärze,** *die; -* **1.** qaralıq; **2.** *(Färbemittel)* qara rəng.

**schwärzen** *vt* qaraltmaq.

**Schwarze(r),** *der u. die; -n, -n* zənci.

**Schwarzfahrer,** *der; -s, -* biletsiz gedən, biletsiz minən, biletsiz sərnişin.

**Schwarzhandel,** *der; -s* qanunsuz alver, qara bazarda alver, əlaltından alver, qeyri rəsmi alver; *F* daşbaşçılıq.

**Schwarzhändler,** *der; -s, -* qara bazar alverçisi; *F* daşbaşçı.

**Schwarzhörer,** *der; -s, -* *(Radio)* gizli dinləyən, vergi vermədən radioya qulaqasan.

**schwärzlich** *adj.* qaratəhər; qarabuğdayı, əsmər, qarasov.

**schwarzsehen** *vi* **1.** *(Fernseher)* qaçaq baxmaq; **2.** *(für A) fig.* bədbin olmaq.

**Schwarzseherei,** *die; -* bədbinlik.

**Schwarzweißfilm,** *der; -s, -e* ağ-qara film.

**Schwatz,** *der; -es* *F* söhbət, boşboğazlıq.

**schwatzen** *vi* söhbət etmək; boşboğazlıq etmək, gəvəzələmək, artıq-əskik danışmaq; *F* əndə-Məndə demək.

**Schwätzer,** *der; -s, -* boşboğaz, naqqal, uzundanışan, çərənçi, çoxdanışan, uzunçu, ağzıboş, ağzıcırıq, əngiboş.

**schwatzhaft** *adj.* naqqal, boşboğaz, uzundanışan, zəhlətökən, ağzıboş, əngiboş.

**Schwatzhaftigkeit,** *die; -* boşboğazlıq, çərənçilik, uzunçuluq etmə, ağzıboşluq, cəfənglik.

**Schwebe,** *die; -* *: in der ~ lassen* asılı vəziyyətdə qoymaq.

**Schwebebahn,** *die; -, -en* asma yol, asma kanat, hava xətti.

**schweben** *vi* **1.** asılmaq, sallanmaq; **2.** *(Vogel)* uçmaq, süzmək, pərvaz etmək; **3.** *fig.* *(Angelegenheit usw.)* həll olunmamış qalmaq; *in Gefahr ~* təhlükə qarşısında olmaq.

**Schwede,** *der; -n, -n* İsveçli.

**Schweden;** *-s* İsveç.

**schwedisch** *adj.* **1.** isveçli; **2.** *(Sprache)* isveçcə.

**Schwefel,** *der; -s* kükürd.

**schwefelhaltig** *adj.* kükürdlü.

**schwefelig** *adj.* kükürdlü.

**Schwefelkies,** *der; -es, -e* pirit.

**schwefeln** *vt* kükürd qatmaq.

**Schwefelsäure,** *die; -* kükürd turşusu.

**Schwefelwasserstoff,** *der; -(e)s, -e* hidrogensulfit.

**Schweif,** *der; -(e)s, -e* quyruq.

**schweifen** *vi* **1.** *(irgendwohin)* dolanmaq, gəzmək; **2.** *(Blick)* göz gəzdirmək; **3.** *(wölben)* dairələmək.

**Schweigegeld,** *das; -(e)s, -er* susma haqqı.

**Schweigemarsch,** *der; -(e)s, -¨e* səssiz yürüş.

**Schweigeminute,** *die; -, -n* sükutla yad olunma *(dəqiqəsi)*,dəqiqə ilə yad etmə.

**schweigen** *vt* **1.** danışmamaq, susmaq, sükut etmək, kirimək; **2.** *(Lärm usw.)* sakitləşmək, kəsilmək; *~ über* bir şey haqqında susmaq; *ganz zu ~ von .. ...* sözü danışılmasa, bu haqda heç danışılmasa.

**Schweigen,** *das; -s* susma, danışmama, sükut etmə, kirişmə; *zum ~ verurteilt sein* susmağa məhkum olmaq; *zum ~ bringen* susmağa məcbur etmək, kiritmək.

**schweigend** *adj.* dinməz, səssiz; *adv.* *(stillschweigend)* səssiz-səmirsiz, dinməz-söyləməz.

**Schweigepflicht,** *die; -* susmağa məcburiyyət, sirri saxlama məcburluğu.

**schweigsam** *adj.* azdanışan, sakit, dinməz.

**Schweigsamkeit,** *die; -* sükut, sakitlik.

**Schwein,** *das; -(e)s, -e* **1.** donuz; **2.** *F* pis adam, köpəkoğlu; **3.** *(Glück)* şans, bəxt; *~ haben* şansı gətirmək; **4.** *(Wildschwein)* qaban.

**Schweinefleisch,** *das; -es* donuz əti.

**Schweinehund,** *der; -(e)s, -e* **1.** əclaf,

köpəkoğlu; **2.** *der innere ~* nəfs; *den inneren ~ überwinden* nəfsinə güc gəlmək, yaxa qurtarmaq, tənbəlliyin daşını atmaq.

**Schweinerei,** *die; -, -en* **1.** natəmizlik, pintilik; **2.** *F (Schande)* alçaqlıq, əclaflıq, rəzalət; ədəbsizlik.

**Schweinestall,** *der; -(e)s, -¨e* donuz tövləsi, donuz damı.

**Schweinezucht,** *die; -* donuzçuluq.

**Schweinigel,** *der; -s F* **1.** həyasız; **2.** pinti adam.

**schweinisch** *adj. fig.* çox pis.

**Schweinshaxe,** *die; -, -n* donuz ayağı (*paçası*).

**Schweinsleder,** *das; -s* donuz dərisi.

**Schweiß,** *der; -es* tər; *in ~ gebadet sein* qan-tər içində olmaq; *es hat viel ~ gekostet* bu böyük zəhmətə başa gəlib, bunun üçün tər tökülüb.

**Schweißbrenner,** *der; -s, - techn.* qaynaq lampası, qaynaq odluğu.

**Schweißdrüse,** *die; -, -n* tər vəzisi.

**schweißen**[1] *vt* qaynaq etmək.

**schweißen**[2] *vt (Jägersprache)* qan aparmaq.

**Schweißer,** *der; -s, -* qaynaqçı.

**schweißgebadet** *adj.* qan-tər içində, tərli.

**Schweißgeruch,** *der; -(e)s, -¨e* tər iyi, tər qoxusu.

**Schweißhund,** *der; -(e)s, -e* ov iti.

**schweißig** *adj.* tərli.

**Schweißnaht,** *die; -, -¨e* qaynaq, qaynaq yeri.

**schweißtreibend** *adj.* tərlədici.

**schweißtriefend** *adj.* tər içində.

**Schweißtropfen,** *der; -s, -* tər damcısı.

**Schweißung,** *die; -, -en* qaynaq.

**Schweiz,** *die; -* İsveçrə *(Süd. : Suvis).*

**Schweizer,** *der; -s, -* İsveçrəli.

**Schweizerin,** *die; -, -nen* İsveçrəli qadın.

**schweizerisch** *adj.* isveçrə*(li)*, suvisli.

**schwelen** *vi* yavaş-yavaş yanmaq, alovsuz yanmaq.

**schwelgen** *vi* **1.** naz-nemət içində yaşamaq; *im Überfluss ~* bolluq içində yaşamaq, **2.** *fig. in et. ~* bir şeydən zovq almaq, bir şeydən ləzzət almaq.

**Schwelgerei,** *die; -, -en* **1.** bolluq, naz-nemət, nazpərvərdəlik; **2.** israfçılıq.

**Schwelle,** *die;-, -n* **1.** *(Türschwelle)* astana; **2.** *(Eisenbahnschwelle)* dəmiryolunun altına qoyulan tir, şpal; **3.** *fig.* başlanğıc.

**schwellen** *vt* şişirtmək, üfürüb şişdirmək, köpdürmək, qabartmaq; *vi* şişmək, qabarmaq, dombalmaq, köpmək; *F med.* hov eləmək, hovlanmaq; *geschwollen* şişmiş; *fig.* təmtəraqlı.

**Schwellung,** *die; -, -en* şişmə, şiş; *F* hov; *(um e-e Wunde)* kirs.

**Schwemme,** *die; -, -n* **1.** *(für Pferde usw.)* atların çimmə yeri; **2.** *fig. (Kneipe)* pivəxana; **3.** *fig.* bolluq; *Obstschwemme* meyvə bolluğu.

**schwemmen** *vt* **1.** *(et. irgendwohin)* gətirmək, aparmaq; *ans Ufer geschwemmt werden* sahilə gətirilmək *(su ilə)*; sahilə tullanmaq; **2.** *(Tiere)* çimdirmək.

**Schwemmland,** *das; -(e)s* gəlmə torpaq *(su ilə).*

**Schwemmsand,** *der; -(e)s, -* gəlmə qum.

**Schwengel,** *der; -s, -* **1.** su tulumbasının dəstəsi; **2.** *(Klöppel)* dil; *Glockenschwengel* zəng toxmağı.

**schwenkbar** *adj.* tərpənən, dönən, istiqamətini dəyişən.

**schwenken** *vt* **1.** *(Arme usw.)* əl-qol atmaq, qolları oynatmaq; **2.** *(drehen)* döndərmək, çevirmək; *den Wasserhahn nach links ~* su kranını sola çevirmək; *Wäsche im Wasser ~* paltar suya çəkmək; **3.** *(Fahne usw.)* sallamaq; *vi* 1. *mil.* dönmək; *links (rechts), schwenkt marsch!* sol*(sağ)* çiyindən irəli!, addımla marş!; 2. *fig.* əqidəsini dəyişmək.

**Schwenkung,** *die; -, -en* **1.** *(Drehung)* çevirmə, dön(dər)mə; **2.** *fig.* əqidəsini dəyişmə; tərəddüd.

**schwer** *adj.* **1.** ağır; **2.** *(schwierig)* çətin; **3.** *(mühsam)* zəhmətli, əziyyətli, düşvar; əzablı; *F* kənək **4.** *(gefährlich)* təhlükəli; **5.** *(Wein usw.)* tünd; **6.** *(bedeutsam)* mü-

hüm, əhəmiyyətli, önəmli; **7.** *(heftig)* şiddətli; *adv.* 1. çətin, ağır, pis bir halda; 2. *(sehr)* çox, bərk; *F ~er Junge* cani, cinayətkar; *~ von Begriff* gec başadüşən, kəm ağıl; *~ werden* ağırlaşmaq; *~ beleidigen* bərk toxunmaq; *~e Zeiten* ağır günlər; *~en Herzens gab er nach* çox meyilsiz qəbul etdi; *~ arbeiten* ağır iş görmək, ağır işləmək.

**Schwerarbeit,** *die; -* ağır iş; kənək iş.

**Schwerathletik,** *die; -* ağır atletika.

**schwerbeladen** *adj.* ağır yüklənmiş.

**schwerbeschädigt** *adj.* şikəst, iş qabiliyyətinin 50% -dan çoxunu əldən vermiş adam.

**schwerbewaffnet** *adj.* yaxşı silahlanmış.

**Schwere,** *die; -* ağırlıq, çəki; əhəmiyyət; *phys. das Gesetz der ~* cazibə qanunu.

**Schwerelosigkeit,** *die; -* çəkisizlik; ağırsızlıq.

**Schwerenöter,** *der; -s, -* qadın düşkünü, arvadbaz.

**schwererziehbar** *adj.* çətin tərbiyə olunan; *~es Kind* tərbiyəsiz uşaq.

**schwerfallen** *vi* çətin *(ağır)* gəlmək.

**schwerfällig** *adj.* **1.** ağır tərpənən, kahıl; **2.** *fig.* kəmağıl.

**schwergeprüft** *adj.* dərd çəkmiş, başı bəlalar görmüş.

**Schwergewicht,** *das; -(e)s, -e* **1.** *(Sport)* ağır çəki; **2.** *fig.* əhəmiyyət, əsas diqqət.

**schwerhörig** *adj.* ağır eşidən, kar; *~ sein* ağır eşitmək; *fig.* pis eşitmək.

**Schwerhörigkeit,** *die; -* karlıq.

**Schwerindustrie,** *die; -, -n* ağır sənaye.

**Schwerkraft,** *die; - phys.* cazibə qüvvəsi.

**schwerkrank** *adj.* yataq xəstəsi, ağır xəstelənmiş.

**schwerlich** *adv.* çətinliklə, güclə; çətin ola bilsin, çətin *(ki)* .

**schwermachen** *vt* çətinləşdirmək.

**Schwermut,** *die; -(e)s* düşgünlük, məyusluq, pis əhvali-ruhiyyə, malxülya.

**schwermütig** *adj.* məyus, hüznlü.

**schwernehmen** *vi* nigaran olmaq.

**Schwerpunkt,** *der; -(e)s, -e* **1.** *phys.* ağırlıq nöqtəsi; **2.** *fig.* ən mühüm nöqtə, mahiyyət, məğz.

**Schwert,** *das; -(e)s, -er* qılınc.

**Schwertstreich,** *der; -(e)s, -e* qılınc zərbəsi.

**schwertun** *vr : sich ~* zəhmətə düşmək *(bei, mit D/-də ),* zəhmətə qatlanmaq.

**Schwerverbrecher,** *der; -s, -* təhlükəli *(ağır)* cinayətkar.

**schwerverdaulich** *adj.* çətin həzm olunan.

**schwerverletzt** *adj.* ağır yaralanmış.

**schwerverständlich** *adj.* anlaşılmaz, çətin başa düşülən.

**schwerwiegend** *adj. fig.* ağır, mühüm, ciddi.

**Schwester,** *die; -, -n* **1.** bacı; **2.** *(Krankenschwester)* xəstə baxıcısı; şəfqət bacısı, tibb bacısı; **3.** *(Ordensschwester)* rahibə; *ältere ~* aba.

**Schwesterschiff,** *das; -(e)s, -e* eynitipli gəmi.

**schwieg** *s. schweigen.*

**Schwiegereltern,** *die/pl.* qaynata və qaynana.

**Schwiegermutter,** *die; -, -¨* qaynana.

**Schwiegersohn,** *der; -(e)s, -¨e* kürəkən, damad.

**Schwiegertochter,** *die; -, -¨* gəlin.

**Schwiegervater,** *der; -s, -¨* qayınata.

**Schwiele,** *die; -, -n* qabar; döyənək; *~n bekommen* qabar bağlamaq, qabar olmaq, döyənək olmaq.

**schwielig** *adj.* qabarlı.

**schwierig** *adj.* **1.** çətin, ağır, zəhmətli, başsındıran, düşvar; *~es Problem* çətin həll olunan məsələ; *F* düyün; **2.** *(Person)* müşkülpəsənd, ağırxasiyyətli.

**Schwierigkeit,** *die; -, -en* çətinlik, maneə, əngəl; *F* düyün, işgil; *in ~en geraten* çətinliyə düşmək, zəhmətə düşmək, düyünə düşmək; *~en machen* əngəl olmaq, çətinlik yaratmaq.

**Schwimmanzug,** *der; -(e)s, -¨e* üzmə

paltarı, çimmə paltarı.

**Schwimmbad,** *das; -(e)s, -¨er* üzmə hovuzu, çimmə qurşağı.

**Schwimmbecken,** *das; -s, -* üzmə hovuzu, çimmə hovuzu; gölməçə.

**Schwimmdock,** *das; -(e)s, -s* üzən dok, gəmi təmir olunan yer.

**schwimmen** *vi* **1.** üzmək, çimmək; *~ gehen* üzməyə getmək; **2.** *fig.* yaxşı bilməmək, az bilmək; *in der Prüfung ~* imtahanda az bilmək, imtahanı pis vermək; *im Überfluss ~* yağ-bal içində üzmək; *in Tränen ~* göz yaşları axıtmaq; *im Geld ~* pul içində oynamaq, pulu başından aşmaq; *fig. gegen den Strom ~* hakim olan düşüncəyə qarşı çıxmaq.

**schwimmend** *adj.* üzən, üzücü; *adv.* üzə-üzə, üzərək.

**Schwimmer,** *der; -s, -* **1.** üzgüçü, üzən; **2.** *techn.* üzücü nişan.

**Schwimmgürtel,** *der; -s, - (Rettungsgürtel)* xilas etmə kəməri.

**Schwimmhose,** *die; -, -n* üzgüçü tumanı *(Süd. : mayo).*

**Schwimmschule,** *die; -, -n* üzgüçülük məktəbi *(oxulu).*

**Schwimmweste,** *die; -, -n* xilas etmə jileti, sinəbənd.

**Schwindel,** *der; -s* **1.** *med.* başgicəllənməsi, gözqaralması; **2.** *(Lüge)* aldatma, fırıldaq, kələk, dələduz; *~ erregend* başgicəlləndirici.

**Schwindelanfall,** *der; -(e)s, -¨e* başgicəllənməsi.

**Schwindelei,** *die; -, -en* yalan, hiylə, fırıldaqçılıq, kələk, dələduzluq.

**schwindelerregend** *adj.* başgicəlləndirən, başgicəlləndirici, gicəlləndirici.

**schwindelfrei** *adj.* başı gicəllənməyən; *~ sein* uca yerden başı gicəllənməmək.

**Schwindelgefühl,** *das; -(e)s, -e* baş gicəllənmə.

**schwindelig** *adj.* başgicəllənmə, *mir wird ~* başım gicəllənir.

**schwindeln** *vi* yalan demək, adam aldatmaq, yalan satmaq; *mir schwindelt* başım gicəlir.

**schwindelnd** *adj.* başgicəlləndirici, gicəlləndirici.

**schwinden** *vi* **1.** azalmaq; kiçilmək; yığılmaq; **2.** *(Hoffnung)* kəsilmək; *aus den Augen ~* gözdən itmək; *aus der Erinnerung ~* yaddan çıxartmaq; *die Sinne schwinden* huşunu itirmək.

**Schwindler,** *der; -s, -* fırıldaqçı, yalançı, dələduz, adamoynadan; dəccal.

**Schwindsucht,** *die; -* vərəm xəstəliyi.

**schwindsüchtig** *adj.* vərəmli.

**Schwinge,** *die; -, -n (Flügel)* qanad.

**schwingen** *vt* **1.** oynatmaq; tərpətmək; **2.** *(e-e Rede)* nitq soyləmək; *vi (Fahne usw.)*salla(n)maq; tərpənmək; titrəmək, ehtizaza gətirmək; laxlamaq; *vr sich ~* atılmaq, sıçramaq *(auf A/nəyəsə).*

**Schwingen,** *das; -s* tərpənmə, titrəmə; ehtizaz.

**Schwinger,** *der; -s, - (Boxen)* zərbə.

**Schwingung,** *die; -, -en* **1.** yellənmə, yırğalanma; **2.** *phys.* titrəmə, titrəyiş.

**Schwingungsdauer,** *die; - phys.* rəqs etmə müddəti.

**schwingungsfrei** *adj.* titrəyişsiz, titrəməyən.

**Schwips,** *der; -es, -e F* sərxoşluq, keflilik; *e-n ~ haben* kefli olmaq.

**schwirren** *vi***1.** vızıldamaq, qıjıldamaq; **2.** *(Kugel, Pfeil usw.)* vızıltı ilə yanından keçmək; *mir schwirrt der Kopf vom Lernen* öyrənməkdən başım gicəllənir.

**schwitzen** *vt* tərləmək; *fig.* zəhmət çəkmək, tər tökmək.

**Schwitzmittel,** *das; -s, -* tərlətmə dərmanı.

**Schwof,** *der; -(e)s, -e F* rəqs, dans; rəqs gecəsi.

**schwoll** *s. schwellen.*

**schwören** *vt* and içmək *(bei D/nəyəsə); fig.* əl basmaq.

**schwul** *adj.* həmcinsbaz, homoseksual *(kişi).*

**schwül** *adj.***1.** boğanaq, bürkülü, dəmli, isti və nəmli; *die Luft ist ~* hava nəmlidir *(ağırdır)* ; **2.** *fig. (beklemmend)* sıxıcı, qorxulu; **3.** *(sinnlich)* şəhvətli, şəhəvani.

**Schwüle,** *die; -* bürkü, boğunuq hava,

dəmli hava, isti və nəmli hava.

**Schwulität,** *die; -, -en F* çətinlik, sıxıntı; *in ~en kommen* çətinliyə düşmək. *pl.*

**Schwulst,** *der; -(e)s, -¨e* təmtəraq, dəbdəbə.

**schwülstig** *adj.* təmtəraqlı, dəbdəbəli.

**schwummrig** *adj.* narahat, sıxıntlı; *mir wird ganz ~, wenn ich an meine Schulden denke* borclarımı yadıma salanda, sıxılıram *(narahat oluram).*

**Schwund,** *der; -(e)s* **1.** azalma; yox olma, itki, zəif olma; **2.** *(Radio)* səsin azalması; **3.** *med.* atrofi*(ya).*

**Schwung,** *der; -(e)s, -¨e* **1.** çırpma, çalma; sürətli hərəkət, atılma, atılış; **2.** *(Elan)* şövq, həyəcan, coşğunluq, canlılıq; enerji; *mit ~ an die Arbeit gehen* şövq ilə işə getmək; *fig. j-n in ~ bringen* bir kəsi hərəkətə gətirmək; *in ~ kommen* hərəkətə gelmək; *die Sache kommt in ~* iş yoluna düşür.

**schwunghaft** *adj.* canlı, coşğun; qızğın; *~en Handel treiben* canlı *(qızğın)* alver etmək *(mit D/bir şey ilə).*

**Schwungkraft,** *die; - phys.* mərkəzdən qaçma qüvvəsi.

**Schwungrad,** *das; -(e)s, -¨er* hərəkəti nizama salan çarx.

**schwunglos** *adj.* hərəkətsiz.

**schwungvoll** *adj.* coşğun, canlı.

**schwur** *s. schwören.*

**Schwur,** *der; -(e)s, -¨e* and, vəd, əhd.

**Schwurgericht,** *das; -(e)s, -e* and məhkəməsi, ağır cəza məhkəməsi.

**sechs** altı.

**Sechs,** *die; -, -en* altı; altılıq.

**sechseckig** *adj.* altıbucaqlı.

**sechsfach** *adj.* altı dəfə, altı qat.

**sechshundert** altı yüz.

**sechsjährig** *adj.* altıyaşlı; altı illi.

**sechsmonatig** *adj.* altıaylıq.

**sechsmonatlich** *adj.* hər altı ayda bir.

**sechsstündig** *adj.* altı saatlıq.

**sechst-** *adj.* altıncı.

**sechstägig** *adj.* altıgünlük.

**sechstausend** altı min.

**Sechstel,** *das; -s, -* altıda bir.

**sechstens** *adv.* altıncısı.

**sechzehn** on altı.

**sechszehnjährig** *adj.* on altı yaşlı; on altı illi.

**sechzig** altmış.

**Sedativ,** *das; -s, -e med.* ağrıkəsən dərman.

**Sediment,** *das; -(e)s, -e* xılt, torta; çöküntü.

**sedimentär** *adj.* çöküntü.

**See¹,** *die; -, -n* dəniz; *offene ~* açıq dəniz, *an die ~ fahren* dənizə getmək.

**See²,** *der; -s, -n* göl, dəryaça.

**Seeadler,** *der; -* balıq qartalı.

**Seebad,** *das; -(e)s, -¨er* plyaj, plaj, çimərlik.

**Seefahrer,** *der; -s, -* gəmiçi , dəniz səyyahı.

**Seefahrt,** *die; -, -en* dəniz gəzintisi; dənizçilik, gəmiçilik.

**Seegang,** *der; -(e)s* dalğalanma.

**Seehund,** *der; -(e)s, -e* fok, suiti.

**Seeigel,** *der; -s, -* dənizkirpisi.

**Seegras,** *das; -es, -¨er* dənizotu.

**seeklar** *adj.* dənizə çıxmağa hazır.

**seekrank** *adj.* dəniz xəstəliyinə tutulmuş.

**Seekrankheit,** *die; -* dəniz xəstəliyi.

**Seekrieg,** *der; -(e)s, -e* dəniz müharibəsi.

**Seele,** *die; -, -n* **1.** can, ruh; **2.** *(Psyche)* qəlb, ürək; **3.** *(Mensch)* adam, insan; *mit Leib und Seele dabei sein* canla-başla işə girişmək; *fig. es ist keine ~ hier* burada heç kəs yoxdur.

**Seelenheil,** *das; -(e)s* salamatlıq, xoşbəxtlik.

**Seelenmesse,** *die; -, -n* mərsiyə.

**Seelenruhe,** *die; -* ruhi sakitlik, təmkinlik; *in aller ~* heç sarsılmadan, təmkinlə.

**seelenruhig** *adj.* təmkinli, ruhən sakit.

**Seelilie,** *die; -, -n bot.* dənizzanbağı.

**seelisch** *adj.* ruhi; mənəvi; ürəkdən, qəlbən.

**Seelsorge,** *die; -* keşiş və ya kilsənin yardımı.

**Seeluft,** *die; -* dəniz havası.

**Seemacht,** *die; -, -¨e* güclü dəniz döv-

ləti.

**Seemann,** *der; -(e)s, -leute* dənizçi.

**Seemeile,** *die; -, -n* dəniz mili.

**Seemöve,** *die; -, -n* qağayı.

**Seenot,** *die; -* dəniz fəlakəti.

**Seepferdchen** *das; -s, - zo.* dənizatı, dənizayğırı.

**Seeräuber,** *der; -s, -* dəniz qulduru.

**Seerecht,** *das; -(e)s* dəniz hüququ.

**Seereise,** *die; -, -n* dəniz səfəri.

**Seerose,** *die; -, -n bot.* ağ suzanbağı, suzanbağı.

**Seeschlacht,** *die; -, -en s. Seekrieg.*

**Seeschwalbe,** *die; -, -n* dənizqaranquşu.

**Seestern,** *der; -(e)s, -e* dənizulduzu.

**Seestreitkräfte,** *die/pl.* hərbi dəniz qüvvələri.

**Seeweg,** *der; -(e)s, -e* dəniz yolu.

**Seewind,** *der; -(e)s, -e* dənizküləyi.

**Segel,** *das; -s, -* yelkən; *mit vollen ~n auf sein Ziel losgehen* var gücü ilə öz məqsədinə doğru getmək.

**Segelboot,** *das; -(e)s, -e* yelkənli qayıq.

**segelfertig** *adj.* yola düşməyə hazır.

**Segelflieger,** *der; -s, -* planer sürən, planerçi.

**Segelflugzeug,** *das; -(e)s, -e* planyor.

**segeln** *vi* **1.** yelkən altında getmək; yelkən sürmək; **2.** *(Vogel)* havada süzmək; **3.** *F (durchs Examen usw.)* imtahandan kəsilmək.

**Segelregatta,** *die; -, -ten* yelkənli qayıqların müsabiqəsi.

**Segelschiff,** *das; -(e)s, -e* yelkən gəmisi.

**Segeltuch,** *das; -(e)s, -e* qalın kətan parça, yelkən parçası.

**Segen,** *der; -s* **1.** *(Gunst)* rəhmət, inayət, xeyirxahlıq; **2.** *(Glück)* bərəkət, səadət; xeyir-dua, dua.

**segenbringend** *adj.* bərəkətli, xeyirli.

**segensreich** *adj. s. segenbringend.*

**Segenswunsch,** *der; -es, -¨e* bərəkət, xeyir-dua.

**Segler,** *der; -s, -* **1.** *(Schiff)* yelkən gəmisi; **2.** yelkən sürən, yaxtsmen.

**Segment,** *das; -(e)s, -e* seqment, kəsik, parça, bölmə; hissə.

**segnen** *vt (j-n)* xeyir-dua vermək; uğurlamaq; *nicht mit et. gesegnet sein* bir şeydən bərəkət aparmamaq, bir şey verilməmək; *möge Gott es segnen!* Allah bərəkət versin!.

**Segnung,** *die; -, -en* xeyir-dua; bərəkət.

**Segregation,** *die; -, -en* ayırma.

**segregieren** *vt* ayırmaq, bir-birindən ayırmaq.

**sehbehindert** *adj.* gözləri zəif; kor.

**sehen** *vt, vi* **1.** görmək; **2.** *(hinsehen)* baxmaq; **3.** *(erkennen)* başa düşmək, anlamaq; *siehst du?* görürsən *(haqlıyam)*?, anlayırsan *(haqlıyam)*?; **4.** *(Wert legen auf)* əhəmiyyət vermək, diqqət etmək *(auf A/bir şeyə); nach j-m ~* bir kəsi axtarmaq, bir kəsin dalınca baxmaq; *sich ~ lassen* görünmək; *sieh mich an!* mənə bax!; *j-m in die Augen ~* bir kəsin gözlərinə baxmaq; *wir wollen sehen* baxıb görək; *lass mal ~!* qoy bir görüm!, qoy baxım!; *fig. das habe ich kommen ~* bunu gözləyirdim, bunu gördüm; *wie ich die Dinge sehe* məcnə, fikrimcə, mənim görüşümə görə; *siehe unten!* aşağıya bax*(ınız!); fig. zu ~ bekommen* gözə dəymək.

**sehenswert** *adj.*görməli, tamaşa etməli, baxmalı.

**sehenswürdig** *adj. s. sehenswert.*

**Sehenswürdigkeit,** *die; -, -en (Gebäude, Platz)* görməli yerlər.

**Seher,** *der; -s, -* **1.** gələcəyi görən, gözüaçıq; **2.** peyğəmbər, rəsul.

**Sehergabe,** *die; -* **1.** peyğəmbərlik; qabaqcadan demə; **2.** baxıcılıq vergisi.

**Sehfähigkeit,** *die; -* görmə *(görüş)* qabiliyyəti.

**Sehfeld,** *das; -(e)s, -er* görüş dairəsi.

**Sehkraft,** *die; -, -¨e* görmə *(görüş)* qabiliyyəti, görmə gücü, qüvvəyi basirə.

**Sehne,** *die; -, -n* **1.** *an. u. math.* vətər; **2.** *(Bogensehne)* yay ipi.

**sehnen** *vr sich ~ nach D* özləmək, bir şeyin həsrətini çəkmək, bir şey üçün darıxmaq.

**Sehnerv,** *der; -s, -en* görmə əsəbi.

**sehnig** *adj.* damarlı, damar-damar.

**sehnlich** *adj.* həsrətli, qəmli.

**Sehnsucht,** *die; -, -¨e* həsrət; coşğun arzu; yerikləmə; *~ haben (nach D)* həsrətində olmaq, həsrətini çəkmək; yerikləmək; *F* lələ getmək, lələöyün getmək.

**sehnsüchtig** *adj.* həsrətli, qəmli.

**sehr** *adv.* çox, xeyli, artıq, lap; qayət, girli; *~ gern* çox məmnuniyyətlə; *~ gut!* çox yaxşı!, əla!, lap yaxşı!; *~ klein* çox kiçik, cıqqılı, cıbbılı; *wie ~ auch (immer)* nə qədər olsa da; *bitte ~!* buyurun!.

**Sehschlitz,** *der; -es, -e techn.* göz yeri.

**Sehvermögen,** *das; -s* görmə qabiliyyəti.

**Sehweite,** *die; -* görmə uzaqlığı, görüş məsafəti.

**seicht** *adj.* **1.** *(flach)* dayaz, dayazca; **2.** *fig. (oberflächlich)* səthi, *ein ~er Mensch* səthi *(dayaz)* adam.

**Seide,** *die; -, -n* ipək; faydeşin; atlas, əbrişəm, əbrişim; *reine ~* xalis ipək.

**Seidel,** *das; -s, -* pivə bardağı *(parçı)*; səhəng.

**seidenartig** *adj.* ipək kimi, ipəyəoxşar.

**Seidenbau,** *der; -(e)s* ipəkçilik.

**Seidenhändler,** *der; -s, -* ipəkçi.

**Seidenindustrie,** *die; -, -n* ipəkçilik sənayesi.

**Seidenkokon,** *der; -s, -s* barama.

**Seidenraupe,** *die; -, -n* ipəksarıyan, baramaqurdu, barama; *F* küm.

**Seiden(raupen)zucht,** *die; -* ipəkçilik.

**Seidenstoff,** *der; -(e)s, -e* ipək parça.

**Seidenstraße,** *die; -* ipək yolu.

**seidig** *adj.* ipək kimi.

**Seife,** *die; -, -n* sabun.

**seifen** *vt* sabunlamaq.

**Seifenblase,** *die; -, -n* sabun qovuğu.

**Seifennapf,** *der; -(e)s, -¨e* sabunqabı.

**Seifenschaum,** *der; -(e)s, -¨e* sabun köpüyü.

**Seifensieder,** *der; -s, -* sabunçu, sabunbişirən.

**Seifenwasser,** *das; -s, -* sabunlu su.

**seifig** *adj.* sabunlu.

**seihen** *vt* süzmək, süzgəcdən keçirtmək.

**Seiher,** *der; -s, -* süzgəc; süzgəcdə qalan artıq.

**Seihpapier,** *das; -* filtr kagızı.

**Seil,** *das; -(e)s, -e* ip, gözək; *F* kanat; *(dickes ~)* buraz, çatı, kəndir.

**Seilbahn,** *die; -, -en* kanat, asma yol.

**Seiler,** *der; -s, -* kanatçı.

**Seilschaft,** *die; -, -en* **1.** bir kanata bağlı olan dağçı *(alpinist)* qrupu; **2.** *(pol.)* bir-birlərindən himayət edən qrup.

**Seilspringen,** *das; -s* ip atlama.

**Seiltänzer,** *der; -s, -* akrobat, kəndirbaz.

**Seim,** *der; -(e)s, -e* doşab; bal.

**seimig** *adj.* yapışan, qəliz.

**sein**[1] *vi* olmaq; var olmaq, mövcud olmaq; *heute ist Freitag* bu gün cümədir; *in Gefahr sein* təhlükədə olmaq; *vorhanden ~* var *(mövcud)* olmaq; *lass das ~!* etmə!, burax bunu!, əl çək bundan; *das mag ~* ola bilsin; *was soll das ~?* bu nə deməkdir?; *ich bin es* mənəm; *er ist in Tabriz* o, Təbrizdədir; *er ist aus Baku* o, Bakıdandır; *der Brief ist von meiner Mutter* məktub anamdandır; *es sei denn, dass..* ya da, məgərki; *der Meinung ~* ..fikirdə olmaq; *er ist Lehrer* o, müəllimdir; *was ist geschehen ?* nə olub?

**Sein,** *das; -s* varlıq, mövcudiyyət, həyat, gərçəklik *(həqiqət)*; *~ oder Nichtsein, das ist hier die Frage (Shakespeare, Hamlet III, 1)* olmaq ya da olmamaq, elə məsələ budur! .

**sein**[2] *Pers. pron.* onun; özünün; *~ Bruder* onun qardaşı; *~e Mutter* onun anası; *seiner Meinung nach* onun fikrincə; *alles zu seiner Zeit* hər şey öz vaxtında *(zamanında); Seine Majestät, Exzellenz, Magnifizenz* cənab .., hörmətli .., sayın.

**seine** *Pers. pron. ~e, ~er, ~(e)s* onun; *der, die, das Seine* onunku, ona aid olan; *die Seinen* onunkular; *er hat das Seine getan* o, əlindən gələni etdi; *jedem das Seine* hər kəsin məşrəbinə *(xarakterinə, xasiyyətinə)* görə; *er und die Seinen* o və ailəsi, o və yaxınları.

**seinerseits** *adv.* onun tərəfindən, öz tərəfindən, öz adından.

**seinerzeit** *adv.* öz dövründə, öz vaxtında, vaxtilə; o vaxt.

**seinesgleichen** *pron.* özünə tay, özünə bənzər, özünə bərabər; *er und ~* o və ona taylar .

**seinethalben** *adv.* ona görə, onun səbəbindən, onun üçün, onun üzündən.

**seinetwegen** *adv. s. seinethalben.*

**(um) seinetwillen** *adv. s. seinethalben.*

**seinige** *Possesivpron.* onunku; *die Seinigen/~n* onunkular, onun ailəsi.

**seismisch** *adj.* zəlzələli, seysmik.

**Seismograph,** *der; -en, -en* seysmoqraf, zəlzələni ölçən aparat.

**seit** *D präp.* -dən, -dan, bəri; *~ wann?* nə vaxtdan?, haçandan; *~ gestern* dünəndən; *~ zwei Jahren* iki ildən bəri; *~ ich nach Täbriz gekommen bin* Təbrizə gələndən bəri, Təbrizə gəldiyim vaxtdan; *~ langem* çoxdan bəri, qədimdən; *~ wieviel Uhr bist du hier?* neçədən burdasan?.

**seitdem** *adv.* o vaxtdan, o vaxtdan bəri, bayaqdan *s. seit.*

**Seite,** *die; -, -n* **1.**tərəf, cəhət, yön; yan, böyür, qıraq, cinah, sarı; *pl.* ətraf;*veralt.* əknaf *pl.*; *(von etwas)* dodaq; **2.** *(Buchseite)* səhifə; *~ an ~* yan-yana, çiyin-çiyinə; *von der ~ (her)* yandan, yan tərəfdən; *auf beiden ~n* hər iki tərəfdə; *von allen ~en* hər tərəfdən; *auf der anderen ~* obiri tərəfdən; *fig. auf j-s ~ stehen* bir kəsin tərəfində olmaq; *j-m zur ~ stehen* bir kəsə kömək etmək; *an j-s ~ gehen* bir kəslə yanaşı getmək; *et. auf die ~ legen* qənaət edib yığmaq; *auf der linken ~* sol əldə, sol yanda, sol tərəfdə; *von dieser ~ betrachtet* bu tərəfdən baxanda; *von meiner ~* məndən sarı.

**Seitenansicht,** *die; -, -en* yan*(dan)* görünüş.

**Seitenblick,** *der; -(e)s, -e* yandan baxma, yana baxma.

**Seitengewehr,** *das; -(e)s, -e* süngü.

**Seitenhieb,** *der; -(e)s, -e* *fig.* işarə, eyham.

**Seitenlinie,** *die; -, -n* **1.** yan xətt; **2.** *(Verwandte)* yan qohumluq xətti.

**seitens** *präp. G -in* tərəfindən; *~ einige Minister* bəzi nazirlər tərəfindən.

**Seitensprung,** *der; -(e)s, -¨e* **1.** başqa səmtə sıçrama; haşiyə çıxma; **2.** evli adamın başqası ilə eşqbazlığı.

**Seitenstechen,** *das; -s* böyür ağrısı.

**Seitenstraße,** *die; -, -n* yan tərəfə gələn yol; dolama yol.

**Seitenwand,** *die; -, -¨e* yan divar.

**Seitenwind,** *der; -(e)s, -e* yan tərəfdən əsən yel.

**Seitenzahl,** *die; -, -en* səhifə nömrəsi; səhifə sayı.

**seither** *adv.* o vaxtdan bəri..

**-seitig** *adj.* **1.** səhifəli; *zweiseitig* iki səhifəli; **2.** tərəfindəki; *südseitig* güney tərəfindəki; *sonnenseitig* gün tərəfindəki.

**seitlich** *adj.* **1.** yanaki, yandan; **2.** *präp. G (neben)* yanında.

**seitwärts** *adv.* **1.** yana; **2.** yandan, böyürdən.

**Sekante,** *die; -, -n* *math.* kəsən xətt, sekant, qate xətt, kəsən.

**Sekret,** *das; -(e)s, -e* ifraz*(at).*

**Sekretär,** *der; -s, -e* **1.** katib, sekreter; **2.** *(Möbel)* yazı mizi *(stolu).*

**Sekretariat,** *das; -(e)s, -e* katiblik.

**Sekretärin,** *die; -, -nen* katibə.

**Sekt,** *der; -(e)s, -e* şampan şərabı.

**Sekte,** *die; -, -n* məzhəb, təriqət, sekta.

**Sektierer,** *der; -s, -* təriqətçi.

**Sektion,** *die; -, -en* **1.** *med.* otopsi, meyiti yarma; **2.** *(Abteilung)* şöbə, bölmə.

**Sektor,** *der; -s, -en* **1.** *(Gebiet)* sektor, sahə; **2.** *math.* kəsmə, dairə kəsməsi.

**Sekunda,** *die; -, -den* Almaniyada orta məktəbin altıncı və yeddinci sinfi.

**Sekundant,** *der; -en, -en* **1.** *(Boxen)* köməkçi, müşavir; **2.** *(beim Duell)* duel şahidi, sekundant.

**sekundär** *adj.* ikinci dərəcəli; ikinci.

**Sekunde,** *die; -, -n* saniyə.

**Sekundenzeiger,** *der; -s, -* saniyə göstəricisi.

**sekundieren** *vi* kömək etmək; müşayiət etmək.

**selb** *adj. : zur ~en Zeit* eyni vaxtda *(zamanda).*

**selbe** *adj* eyni, həmin.
**selber** *pron.* özü; *ich ~* mən özüm.
**selbst** *pron.* **1.** özü; **2.** *(sogar)* hətta; *ich ~* mən özüm; *von ~* öz-özündən, öz-özlüyündə; *mit sich ~ reden* öz-özünə danışmaq; *mach es ~* özün et; *~ gebacken* evdə bişirilmiş.
**Selbt,** *das; -* mənlik, nəfs.
**Selbstachtung,** *die; -* özünə hörmət; ləyaqət.
**selbständig** *adj.* müstəqil; azad, tək.
**Selbständigkeit,** *die; -* müstəqillik.
**Selbstaufopferung,** *die; -, -en* fədakarlıq, özünü qurban vermə.
**Selbstauslöser,** *der; -s, -* avtomatik açılan.
**Selbstbedienung,** *die; -* özünəxidmət, selfservis.
**Selbstbefriedigung,** *die; -* onanizm; *vulg.* kəfləmə.
**Selbstbehauptung,** *die; -* özünütəsdiq, özünü göstərmə.
**Selbstbeherrschung,** *die; -* özünə sahib olma, təmkin, özünə hakim olma.
**Selbstbestimmung,** *die; -* öz müqəddəratını təyin etmə*(k),* özünütəyinetmə, təyin(i)-müqəddərat.
**Selbstbestimmungsrecht,** *das; -(e)s* öz müqəddəratını təyin etmə hüququ.
**Selbstbeteiligung,** *die; -, -en* xərcin bir faizini boynuna alma, xərcin bir hissəsinde öz iştirakı olma.
**Selbstbetrug,** *der; -(e)s* özünü aldatma.
**selbstbewusst** *adj.*özünə inamlı; fəxrlə.
**Selbstbewusstsein,** *das; -s* özünə arxayınçılıq *(inam),* özünə güvənmək*;* ləyaqət; mənlik hissi.
**Selbstbildnis,** *das; -(e)s, -e* avtoportret, rəssamın çəkdiyi öz şəkli, portret.
**Selbstbiographie,** *die; -, -n* avtobioqrafi*(ya).*
**Selbsterhaltung,** *die; -* özünü qoruma, özünü mühafizə etmə.
**Selbsterhaltungstrieb,** *der; -(e)s, -e* yaşama iradəsi, özünü qoruma instinkti.
**Selbsterkenntnis,** *die; -* özünü tanıma.
**selbstgebacken** *adj.* evdə bişirilmiş.
**selbstgefällig** *adj.* özündən razı, özünü bəyənən, özünə vurğun.
**Selbstgefühl,** *das; -(e)s* öz gücünə inanma.
**selbstgemacht** *adj.* əldə qayrılmış.
**selbstgenügsam** *adj.* əlində olana razı, tələbkar olmayan, iddiasız.
**selbstgerecht** *adj.* özünü bəyənən.
**Selbstgespräch,** *das; -(e)s, -e* öz-özünə danışma, monoloq; *~e führen* öz-özünə danışmaq.
**selbstherrlich** *adj.* özbaşına, öz bildiyini edən, müstəbid*.*
**Selbsthilfe,** *die; -* özünə yardım; *Hilfe zur ~* özünəyardıma yardım; *zur ~ greifen* özünəyardım etmək.
**selbstklebend** *adj.* özü yapışan.
**Selbstkostenpreis,** *der; -es, -e* maya dəyəri.
**Selbstkritik,** *die; -* özünütənqid, şəxsi tənqid.
**Selbstlaut,** *der; -(e)s, -e* sait.
**Selbstlob,** *das; -* özünüöymə, özünütərifləmə.
**selbstlos** *adj.* fədakar, can(ın)dankeçən, canfəşan, canıyanan.
**Selbstlosigkeit,** *die; -* fədakarlıq, canıyananlıq; tamahsızlıq.
**Selbstmord,** *der; -(e)s, -e* özünüöldürmə, intihar.
**Selbstmordversuch,** *der; -(e)s, -e* özünəqəsd cəhdi.
**Selbstmörder,** *der; -s, -* intihar edən, özünü öldürən.
**Selbstporträt,** *das; -s, -s* *s. Selbstbildnis.*
**selbstredend** *adv.* əlbəttə, şübhəsiz.
**Selbstschutz,** *der; -es* özünümüdafiə, özünüqoruma.
**selbstsicher** *adj.* özünə arxayın.
**selbstständig** *adj.*müstəqil; azad; muxtar; *sich ~ machen* müstəqil olmaq; *adv.* özbaşına.
**Selbstsucht,** *die; -* özünüsevmə, xudpəsəndlik, xudbinlik, dambatlıq, kibr.
**selbstsüchtig** *adj.*xudbin, dambat, darürəkli.
**selbsttätig** *adj.* **1.** avtomatik, avtoma-

tik işləyən; **2.** özfəaliyyət.

**Selbsttäuschung,** *die; -* özünüaldatma.

**Selbstunterricht,** *der; -(e)s* təkbaşına təlim *(öyrənmə).*

**Selbstverachtung,** *die; -* özünə nifrət.

**selbstvergessen** *adj.* fikri dağınıq.

**Selbstverleugnung,** *die; -* fədakarlıq, can(ın)dankeçmə.

**Selbstvernichtung,** *die; -* özünü məhv etmə.

**Selbstversorgung,** *die; -* öz-özünü təmin etmə, özünü təmin etmə.

**selbstverständlich** *adj.* aydın, təbii, aşkar; *adv.* əlbəttə, bəli; *F* həlbəttə; *et. als ~ betrachten* bir şeyi təbii olaraq görmək.

**Selbstverständlichkeit,** *die; -, -en* təbiilik.

**Selbstverteidigung,** *die; -* özünümüdafiə, özünüqoruma.

**Selbstvertrauen,** *das; -s* öz qüvvəsinə *(gücünə)* inam.

**Selbstverwaltung,** *die; -, -en* muxtariyyət, özünüidarə.

**Selbstwertgefühl,** *das; -* mənlik.

**Selbstverwirklichung,** *die; -* özünügerçəkləşdirmə, özünü göstərmə.

**selbstzufrieden** *adj.* özündən məmnun, özündən razı; öz vəziyyətindən razı; mənəm-mənəmlik.

**Selektion,** *die; -, -en* seçmə, ayırma.

**selektiv** *adj.* seçməli.

**Selen,** *das; -s* selen.

**selig** *adj.* **1.** xoşbəxt; **2.** *(verstorben)* rəhmətlik, mərhum.

**Seligkeit,** *die; -, -en* **1.** xoşbəxtlik, səadət; **2.** *rel.* rəhmət; *in die ewige ~ eingehen* Tanrıya qovuşmaq, Allahın rəhmətinə getmək, rəhmətə getmək.

**Sellerie,** *der; -(s), -s u. die; -, -en* kərəviz.

**Selleriesalat,** *der; -(e)s, -e* kərəviz salatı.

**selten** *adj.* nadir, aztapılan, azgörünən, tək-tük; *adv.* təsadüfi halda; nadir halda, gahbagah; *e-e ~ dumme Frage* çox mənasız bir sual; *F höchst ~* çox nadir, qırx ildə bir dəfə.

**Seltenheit,** *die; -, -en* nadirlik; az tapılan şey.

**Selterswasser,** *das; -s, -* mədən suyu.

**seltsam** *adj.* qəribə, əcaib, əcayib, azgörünən, aztapılan, əcaib-qəraib, əcib, əcibə, əntiqə; *du tust aber ~e Sachen!* əntiqə işlər görürsən!

**seltsamerweise** *adv.* qəribədir ki.

**Seltsamkeit,** *die; -, -en* qəribəlik, qəribə hal, əcaiblik.

**Semantik,** *die; -* semantik*(a).*

**semantisch** *adj.* semantik.

**Semester,** *das; -s, -* semestr, yarım il.

**Semesterferien,** *die/pl.* semestrlər arası tətil.

**Semikolon,** *das; -s, -s u. ..kola* nöqtəli vergül (;).

**Seminar,** *das; -s, -e* seminar.

**Semit,** *der; -en, -en* Sami.

**semitisch** *adj.* sami.

**Semmel,** *die; -, -n* bulka; *fig. wie warme ~n weggehen* dərhal satılmaq.

**Senat,** *der; -(e)s, -e* senat.

**Senator,** *der; -s, -en* senator, senat üzvü.

**Sendbote,** *der; -n, -n* elçi, nümayəndə.

**senden** *vt* **1.** göndərmək, yollamaq; **2.** *(dienstlich)* ezam etmək; **3.** *(Radio)*radio ilə xəbər vermək.

**Sendepause,** *die; -, -n* radio verilişlərinin fasiləsi.

**Sender,** *der; -s, -* **1.** radio və televiziya stansiyası; **2.** *phys.* radioverici aparat.

**Senderaum,** *der; -(e)s, -¨e* radio studiyası.

**Sendeschluss,** *der; -es, -¨e* verilişin sonu.

**Sendezeit,** *die; -, -en* veriliş vaxtı.

**Sendung,** *die; -, -en* **1.** *(Waren)* göndərilən mal; **2.** *(Schicken)* göndər(il)mə, göndəriş; **3.** *(Radio usw.)* veriliş; *e-e ~ ausstrahlen* efirə çıxmaq.

**Senf,** *der; -(e)s* xardal.

**Senfgas,** *das; -es* iprit qazı.

**Senfkorn,** *das; -(e)s, -¨er* xardal toxumu.

**Senge** *die/pl. F* kötək.

**sengen** *vt* **1.** ütmək; **2.** *(verbrennen)* yandırmaq; *vi* yanmaq; *die Sonne sengt* günəş yandırır.

**senil** *adj.* **1.** *(schwachsinnig)* korazehin, kəmağıl; **2.** *(greisenhaft)* qocalmış, əldən düşmüş.

**Senilität,** *die; -* korazehinlik.

**Senior,** *der; -s, -en* **1.** *(älterer Mensch)* yaşlı adam; *Seniorenheim* yaşlılar evi; **2.** *(Vorsitzender)* sədr, rəis; **3.** *(Sport)* seniyor.

**Senkblei,** *das; -(e)s, -e* **1.** şaqul; **2.** *naut.* lot.

**Senke,** *die; -, -n* çuxur.

**Senkel,** *der; -s, -* başmaq bağı, qaytan.

**senken** *vt* **1.** endirmək; **2.** *(Preise usw.)* aşağı salmaq, endirmək; **3.** *(hineinsenken)* batırmaq; **4.** *(Augen)* gözlərini yerə dikmək; **5.** *(Kopf)* əymək; *vr sich ~* enmək; düşmək; əyilmək; *die Stimme senken* səsi yavaşlatmaq.

**Senkfuß,** *der; -es, -¨e* yastıayaq.

**senkrecht** *adj.* əmudi, şaquli, dik; *adv. ~ nach oben* dik yuxarıya, dimdiyi yuxarıya.

**Senkung,** *die; -, -en* **1.** aşağı en(diril)mə; **2.** *(Gefälle)* eniş, yamac; çuxur; **3.** *(der Preise)* aşağı düşmə, azaldılma.

**Senner,** *der; -s, -* südçü, Alp dağlarında çobanlıq və südçülük edən kişi.

**Sennhütte,** *die; -, -n* daxma, çoban çadırı, komacıq.

**Sensation,** *die; -, -en* sensasiya, həyəcan verici hadisə; günün mövzusu *(mətləbi); e-e ~ hervorrufen* sensasiya yaratmaq.

**sensationell** *adj.* sensasiyalı, səs-küyə səbəb olan.

**Sense,** *die; -, -n* dəryaz, dargaz, oraq.

**Sensenmann,** *der; -(e)s, -¨er* **1.** biçinçi, dəryazçı **2.** *fig.* ölüm *(əlində oraq ilə təsvir olan mələk).*

**sensibel** *adj.* həssas; dəymədüşər, incə duyğulu, duyarlı.

**sensibilisieren** *vt* həssas etmək.

**Sensibilität,** *die; -* həssaslıq, duyarlıq.

**sensitiv** *adj.* çox həssas.

**Sensivität,** *die; -* aşırı dərəcədə həssaslıq.

**Sensor,** *der; -s, -en* sensor.

**Sentiment,** *das; -, s, -s* hiss, duyğu.

**sentimental** *adj.* həssas, sentimental, duyğulu, nazik ürəkli, incə qəlbli.

**Sentimentalität,** *die; -, -en* həssaslıq, duyğuluq; duyğu göstərmə.

**separat** *adj.* **1.** *(privat)* fərdi, xüsusi; separat; məxfi, gizli; **2.** *(getrennt)* ayrı, özəl.

**Separatismus,** *der; -* ayrılmağa cəhd; separatçılıq, separatizm, bölücülük.

**Separatist,** *der; -en, -en* separatçı, bölücü.

**separatistisch** *adj.* separat, ayrılıq; *~ Kräfte* bölücü qüvvələr.

**Sepsis,** *die; -, -sen* qan zəhərlənməsi, sepsis.

**September,** *der; -(s), -* sentyabr *(Süd. : Septambr).*

**septisch** *adj.* septik, çirk bağlamış.

**Sequenz,** *die; -, -en* *(Reihe)* sıra, ardıcıllıq.

**Serail,** *das; -s, -s* saray; qəsr.

**Serbe,** *der; -n, -n* serb.

**Serbien** Serbiya.

**serbisch** *adj.* serb*(iyalı).*

**Serenade,** *die; -, -n* *mus.* serenada.

**Sergeant,** *der; -en, -en* serjant.

**Serie,** *die; -, -n* seriya *(Süd. : seri).*

**Serienherstellung,** *die; -, -en* seriyalarla istehsal olunan, seriya halında istehsal.

**serienmäßig** *adj.* seriyalarla, seriya halında.

**serienweise** *adj.* seriyalarla .

**seriös** *adj.* ciddi, ağzıbütöv, ağzıbütün.

**Sermon,** *der; -s, -e* *F* çəfəngiyat.

**Serpentine,** *die; -, -n* **1.** əyri-buruq yol; **2.** *(Windung)* əyrilik, əyri xətt.

**Serum,** *das; -s, -ren* serum, zərdab.

**Service**[1]**,** *das; -s, -* süfrə qab-qaşığı, qab-qacaq.

**Service**[2]**,** *der; -s* servis, xidmət.

**servieren** *vt* süfrəyə düzmək.

**Serviertisch,** *der; -(e)s, -e* servis stolu *(Süd. : servis mizi).*

**Serviette,** *die; -, -n* əlsilən kağız, salfet.

**servil** *adj.* yaltaq.

**Servus!** Salam!; Salamat qal!, Xudahafiz!.

**Sessel,** *der; -s, -* yumşaq stol, yumşaq səndəl.

**Sessellift,** *der; -(e)s, -e u. -s* telesk, telesiyej, adam daşıyan lift.

**sesshaft** *adj.* oturaq, müqim.

**Sesshaftigkeit,** *die; -* oturaqlıq, daimi yaşayış yeri, oturaqlıq həyat.

**Set,** *der u. das; -s, -s* **1.** *(Satz)* dəst, serviz; **2.** *(Tellerunterlage)* boşqabaltı.

**setzen** *vt* **1.** qoymaq; oturtmaq; **2.** *typ.* yığmaq; **3.** *(Denkmal usw.)* qoymaq; **4.** *(Wette)* yarışmaq *(auf A/bir şey haqqında);* **5.** *(Flagge)* qaldırmaq; **6.** *(in Freiheit)* azad etmək; **7.** *(Hoffnung)* ümid bəsləmək *(auf A/bir şeyə); vi* 1. *(über e-n Zaun usw.)* atılmaq; 2. *(über e-n Fluss)* çaydan keçmək; *vr sich ~* oturmaq *(in, auf A/ bir şeyə/bir şeyin üstündə)*; *sich (D) in den Kopf ~* öz beyninə yeritmək *(A/bir şeyi); sich (D) zum Ziel ~* bir şeyi qarşısına məqsəd qoymaq; *sich mit j-m in Verbindung ~* bir kəslə əlaqəyə girmək; *sich zur Wehr ~* özünü müdafiə etmək; *in Bewegung ~* hərəkətə gətirmək, işə salmaq; *außer Kraft ~* ləğv etmək; *alles daran ~, zu .. Inf.* bir şeyi əldə etmək üçün çalışmaq; *et. aufs Spiel ~* risk etmək.

**Setzer,** *der; -s, -* mürəttib, yığıcı.

**Setzerei,** *die; -, -en* mürəttibxana.

**Setzkasten,** *der; -s, -¨* yığıcı kassa.

**Seuche,** *die; -, -n* yoluxucu xəstəlik, epidemi*(ya).*

**seufzen** *vi* inildəmək, zarımaq, sızıldamaq.

**Seufzer,** *der; -s, -* inilti , sızıltı.

**Sex,** *der; -es, -* seks, cinsi əlaqə.

**Sextant,** *der; -en, -en* *astr.* bucaqölçən alət.

**sexual** *adj.* cinsi, şəhvani.

**Sexualität,** *die; -* cinsi təmayül*(lər),* şəhvət.

**sexuell** *adj.* cinsi, şəhvani; *~e Belästigung* sataşma; *~e Nötigung* zorlama, cinsi əlaqəyə məcbur etmə; *~er Missbrauch* cinsi təcavüz.

**sexy** *adj.* şəhvətli.

**sezieren** *vt* yarmaq.

**Shampoo,** *das; -s, -s* şampo*(n).*

**Shop,** *der; -s, -s* dükan, mağaza.

**Shorts** *die/pl.* şort *sg.*

**Show,** *die; -, -s* şov, baxış; sərgi.

**Showgeschäft,** *das; -(e)s* teatr işi.

**Siam** Siam, Tayland.

**Siamese,** *der; -n, -n* Siam sakini, siamlı.

**Sibirien** Sibir.

**sibirisch** *adj.* sibir*(li),* sibir dilində.

**sich** *pron.* **1.** özünü *(A)*; *er wäscht ~* o, yuyunur; **2.** özünə *(D)*; *er kaufte sich am Kiosk e-e Fahrkarte* o özünə kioskdan *(bir)* bilet aldı; **3.** *(einander)* bir-birinə; bir-birini *sie lieben sich* onlar bir-birini sevirlər; *adv. an (und für) ~* özlüyündə, əslində, əslinə baxanda; *er ist nicht bei ~* o, özündə deyil; *das ist e-e Sache für ~* bu özlüyündə çətin bir məsələdir; *~ ansehen (im Spiegel)* özünə baxmaq *(aynada); nur an ~ denken* ancaq özünün fikrində olmaq, ancaq özünü düşünmək; *et. für ~ behalten* gizli saxlamaq, kimsəyə deməmək; *et. hinter ~ bringen* bir şeyi *(işi)* sona çatdırmaq, tamamlamaq; *fig. et. vor ~ haben* bir şeyi planlamaq, bir işin niyyətində olmaq; *er bat ihn zu ~* o, onu dəvət etdi.

**Sichel,** *die; -, -n* **1.** oraq; çin; **2.** *(Mondsichel)* ay parçası, aypara.

**sicheln** *vt* oraqla biçmək.

**sicher** *adj.* **1.** *(vor Gefahren)* təhlükəsiz; *veralt.* eymən; *ein ~er Weg* təhlükəsiz yol; **2.** *(verlässlich)* inamlı, etibarlı, arxayın, əmin, xatircəm; *~ sein* əmin olmaq, xatircəm olmaq; *bist du ~?* doğru deyirsən?, əminsən?; **3.** *(fest)* möhkəm, qəti, bərk; *mit ~em Schritt* möhkəm addımla*(rla); adv. (gewiss)* yəqin, hökmən, şübhəsiz, əlbəttə, əmin; *er freut sich ~, wenn er e-e Stelle an der Universität bekommt* o, universitetdə iş tapsa sevinər; *um ~ zu gehen*

əmin olmaq üçün, xatircəm olmaq üçün; *ganz ~* lap yəqin, yüz faiz; *fig. (Lage) ~er werden* dincləşmək.

**sichergehen** *vi* təhlükəli bir işə girişməmək, riskə getməmək; *um sicherzugehen* əmin olmaq üçün, yəqinləşdirmək üçün.

**Sicherheit,** *die; -, -en* **1.** təhlükəsizlik, əmin-amanlıq, asayış, xatircəmlik, əminlik, əmniyyət; bərklik; **2.** *(Garantie)* zəmanət; təminat; **3.** *(Bürgschaft)* zəmanət, zaminlik; **4.** *(Pfand)* girov; **5.** *(Selbstsicherheit)* özünə inam; *in ~ bringen* təhlükəsiz bir yerə aparmaq; *sich in ~ bringen* təhlükəsizliyini təmin etmək, canını qurtarmaq; *mit ~* qətiyyətlə, sözsüz, qətən, yəqin; əl-əlbət, hətmən.

**Sicherheitsfaktor,** *der; -s, -en* təhlükəsizlik amili.

**Sicherheitsgurt,** *der; -(e)s, -e* təhlükəsizlik kəməri, əmniyyət kəməri.

**sicherheitshalber** *adv.* hər bir ehtimala qarşı, təhlükəsizlik xatirinə; ehtiyat üçün.

**Sicherheitskopie,** *die; -, -n* *EDV* yedək *(ehtiyat)* kopiyası.

**Sicherheitsmaßnahme,** *die; -, -n* təhlükəsizlik tədbiri, ehtiyat tədbiri, təhlükəsizliyi təmin etmək tədbirləri *pl.*.

**Sicherheitsnadel,** *die; -, -n* sancaq.

**Sicherheitsrat,** *der; -(e)s, -¨e* Təhlükəsizlik Şurası.

**Sicherheitsschloss,** *das; -es, -¨er* avtomatik qıfıl.

**Sicherheitsventil,** *das; -s, -e* qoruyucu klapan *(Süd. : qoruyucu supap, itminan supapı).*

**sicherlich** *adv.* yəqin ki, ehtimal ki, əlbəttə; *F* həlbəttə.

**sichern** *vt* **1.** *(schützen)* qorumaq, mühafizə etmək, müdafiə etmək *(gegen A/ bir şeydən, bir kəsdən);* **2.** *(sicherstellen)* təmin etmək; *e-e Waffe ~* silahı qoruyucu ayağa çəkmək.

**Sicherung,** *die; -, -en* **1.** qaranti, təminat, qoruma; **2.** *el.* qoruyucu düymə, sığorta *(Süd. : fiyuz).*

**Sicht,** *die; -* **1.** görünüş; mənzərə; **2.** *(Blickwinkel)* görüş, nəzər, baxış; *aus meiner ~* mənim fikrimcə, məncə; **3.** *auf lange/ kurze ~* uzun /qısa müddət; *in ~ sein* görünmək.

**sichtbar** *adj.* görünən, aşikar, faş; göz qabağında olan, gözəçarpan, açıq, əleni; *~ werden* görünmək, aşkar olmaq, faş olmaq, əyan olmaq.

**Sichtbarkeit,** *die; -* görünmə, aşkar olma, nəzərə çarpma.

**sichten** *vt* **1.** uzaqdan görmək; *ein Schiff ~* gəmini uzaqdan görmək; **2.** *fig. (prüfen)* yoxlamaq; gözdən keçirtmək;

**sichtlich** *adj.* aşkar, bəlli, aydın, gözgörəsi; *adv.* görünür ki, görünür.

**Sichtvermerk,** *der; -(e)s, -e* viza.

**sickern** *vi* sızmaq, damcılamaq.

**sie** *pron.* **1.** *die/sg.* o; onu; **2.** *pl.* onlar; onları.

**Sie** *pron.* siz; sizi; *mit j-m per ~ sein* bir kəslə "siz" lə danışmaq.

**Sie,** *die; -, -s* *F* dişi; *ist dein Hund e-e Sie?* sənin itin dişidi?

**Sieb,** *das; -(e)s, -e* **1.** ələk, xəlbir, qəlbir; aşsüzən; **2.** *(Teesieb)* süzgəc.

**sieben** *vt* **1.** ələmək, xəlbirləmək, ələkləmək, ələkdən keçirmək; **2.** *(Tee usw.)* süzmək.

**sieben** yeddi.

**Sieben,** *die; -, -* **1.** yeddi; **2.** *(mit der Nummer 7)* yeddilik.

**siebeneckig** *adj.* yeddibucaqlı.

**siebenfach** *adj.* yeddi dəfə artıq, yeddi qat.

**siebenhundert** yeddi yüz.

**siebenjährig** *adj.* yeddiyaşlı, yeddiillik.

**siebenmal** yeddi dəfə.

**Siebensachen** *die/pl.* şələ-külə; *s-e ~ packen* şələ-küləsini yığışdırmaq.

**siebenstündig** *adj.* yeddisaatlıq.

**siebentägig** *adj.* yeddigünlük.

**siebentausend** yeddi min.

**Siebentel,** *das; -s, -* yeddidə bir hissə.

**siebte(r)** yeddinci.

**siebtens** *adv.* yeddincisi.

**siebzehn** on yeddi.

**siebzehnjährig** *adj.* on yeddi yaşlı, on

yeddi yaşında, on yeddi illik.

**siebzig** yetmiş.

**siebziger** *adj.* yetmişinci illər; *in den ~ Jahren des 17. Jahrhunderts* on yeddinci əsrin yetmişinci illərində.

**Siebziger,** *der; -s, - F* yetmiş-həştad *(səksən)* yaşlarında kişi.

**Siebzigerin,** *die; -, -nen* yetmiş-həştad *(səksən)* yaşlarında qadın.

**siebzigste(r)** *adj.* yetmişinci.

**siech** *adj.* arıq, zəif, sısqa, tez-tez xəstələnən.

**Siechtum,** *das; -(e)s* ağır xəstəlik.

**siedeln** *vi* sakin olmaq.

**sieden** *vi* qaynamaq; *vt* qaynatmaq; buxarlatmaq; *zum Sieden bringen* qaynatmaq; *~d heiß* qaynar.

**Siedepunkt,** *der; -(e)s, -e* qaynama nöqtəsi.

**Siedler,** *der; -s, -* köçkün, mühacir.

**Siedlung,** *die; -, -en* qəsəbə; koloni*(ya).*

**Siedlungspolitik,** *die; -* mühacirət siyasəti.

**Sieg,** *der; -(e)s, -e* qələbə, zəfər, qalibiyyət; *von ~ zu ~* qələbədən qələbəyə.

**Siegel,** *das; -s, -* möhür; *veralt.* xatəm.

**Siegellack,** *der; -(e)s, -e* surğuc.

**siegeln** *vt* möhürləmək, surğuclamaq.

**Siegelring,** *der, -(e)s, -e* möhürlü üzük.

**siegen** *vt* qələbə çalmaq, qalib gəlmək *(über A/kiməsə).*

**Sieger,** *der; -s, -* qalib, müzəffər.

**Siegerehrung,** *die; -, -en* qaliblərin mükafatlandırılması mərasimi.

**siegesbewusst** *adj.* qələbəyə inamla, qələbəyə arxayın.

**Siegesfeier,** *die; -, -n* qələbə bayramı, qələbə təntənəsi.

**Siegesgöttin,** *die; -, -nen* qələbə ilahəsi.

**Siegeszug,** *der; -(e)s, -¨e* qələbə yürüşü.

**sieghaft** *adj.* müzəffər, qalibiyyətli; zəfərli, yenilməz, basılmaz.

**siegreich** *adj. s. sieghaft.*

**sieh...** *(A)!* ...ə bax!.

**siehe** *: ~ Seite ...* ...inci, ...üncü səhifəyə bax.

**Siel,** *das u. der; -(e)s, -e* kiçik şlüz; nov, arx.

**Siele,** *die; -, -n* boyun qayışı; *fig. in den ~n sterben* vəzifə başında ölmək.

**Siesta,** *die; -, -s u. -ten* günorta istirahəti, çeşt; *~ halten* istirahət etmək.

**siezen** *vt* bir kəslə „siz“ lə danışmaq.

**Sigel,** *das; -s, - (Kürzel)* ixtisar edilmə işarəsi.

**Signal,** *das; -s, -e* siqnal, ətər; işarə .

**signalisieren** *vt* siqnal vermək; xəbər vermək.

**Signatarmächte** *die/pl.* müqavilə imzalayan dövlətlər.

**Signatur,** *die; -, -en* **1.** əlamət, işarə; **2.** *(Unterschrift)* imza.

**signieren** *vt* **1.** nişanlamaq, əlamət qoymaq; **2.** imzalamaq, qol çəkmək.

**Silbe,** *die; -, -n* heca; *fig. ich verstehe keine ~ davon* mən ondan heç bir şey anlamıram.

**Silbentrennung,** *die; -* hecalara ayırma.

**Silber,** *das; -s* gümüş.

**Silberbergwerk,** *das; -(e)s, -e* gümüş mədəni.

**silberfarbig** *adj.* gümüşü.

**Silbergehalt,** *der; -(e)s, -e* gümüş əyarı.

**Silbergeld,** *das; -(e)s* gümüş pul.

**silberhaltig** *adj.* tərkibində gümüş olan.

**Silbermedaille,** *die; -, -n* gümüş medal.

**Silbermünze,** *die; -, -n* gümüş pul.

**silbern** *adj.* gümüş, gümüşdən.

**Silberpappel,** *die; -, -n* ağcaqovaq.

**Silberstreifen,** *der; -s, - : fig. ein ~ am Horizont* zəif bir ümid yeri.

**Silberwaren** *die/Pl.* gümüş qab-qaşıq, gümüş qab-qacaq.

**Silberzeug,** *das; -(e)s s. Silberwaren.*

**silbrig** *adj.* gümüş kimi, gümüşü.

**Silhouette,** *die; -, -n* siluet, kölgə şəklində rəsm.

**Silikat,** *das; -(e)s, -e* silikat.

**Silo,** *das; -s, -s (Getreidespeicher)* silo.

**Silvester,** *der u. das; -s, -* yeni il gecəsi.

**simpel** *adj.* **1.** sadə, adi; **2.** *(Person)* sadədil; kobud.

**Simpel,** *der; -s, - F* sadədil adam, axmaq; dargörüşlü adam.

**simpliflizieren** *vt* sadələşdirmək, asanlaşdırmaq.

**Sims,** *der u. das; -es, -e* pərvaz; karniz, rəf.

**Simulant,** *der; -en, -en med.* yalandan özünü xəstəliyə vuran adam; *fig.* riyakar, ikiüzlü.

**simulieren** *vt* yalançılıq etmək, yalandan özünü oxşatmaq, tülkülük etmək, özünü tülkülüyə vurmaq.

**simultan** *adj.* eyni zamanda olan, bir vaxtda olan, sinxron.

**Simultandolmetschen,** *das; -s, -* sinxron tərcümə, eyni zamanda aparılan şifahı tərcümə, hərfi tərcümə.

**Sinfonie,** *die; -, -n* simfoni*(ya).*

**singen** *vt* oxumaq; *ein Lied ~* nəğmə oxumaq, çalıb-oxumaq; *vi F (bei der Polizei)* bir şeyi etiraf etmək; *j-n zum Singen bringen* bir kəsdən etiraf almaq.

**Single,** *der; -s, -s (allein)* subay.

**Singsang,** *der; -(e)s* monoton oxuma.

**Singspiel,** *das; -(e)s, -e* musiqili komedi*(ya).*

**Singular,** *der; -s, -e gr.* tək hal.

**Singvogel,** *der; -s, -¨* cəhcəh vuran quş.

**sinken** *vi* **1.** *(fallen)* düşmək; zəifləmək; **2.** *(Sonne usw.)* batmaq; **3.** *(Preise, Fieber)* aşağı düşmək, enmək; **4.** *(ins Wasser)* cummaq; *in Bewusstlosigkeit ~* özündən getmək; *in Schlaf ~* yuxuya getmək; *sein Ansehen sinkt* etibardan düşür; *das Schiff sinkt* gəmi batır; *den Mut nicht sinken lassen* ruhdan düşməmək, cəsarəti əldən verməmək; *~ lassen* aşağı endir(il)mək, düşür(t)mək.

**Sinn,** *der; -(e)s, -e* **1.** duyğu, hiss, anlayış; **2.** *(Bedeutung)* məna, məfhum; **3.** *(Ziel, Zweck)* hədəf, amac; **4.** *(Empfänglichkeit)* həssaslıq, meyl, həvəs; **5.** *(Wunsch)* arzu, istək; *die fünf ~e* beş hiss; *das hat keinen ~* bunun mənası yoxdur; *im wahrsten ~e des Wortes* sözün həqiqi mənasında; *et. im ~e haben* bir şeyin niyyətində olmaq; *nicht bei ~en sein* ağlı başında olmamaq; *ohne ~ und Verstand* ətraflı fikirləşmədən, düşünmədən; *es geht mir nicht aus dem ~* unuda bilmirəm; *mit j-m e-s ~es sein* bir kəs ilə həmfikir olmaq; *in j-s ~e handeln* bir kəsin istədiyi kimi davranmaq *(rəftar etmək)*.

**Sinnbild,** *das; -(e)s, -er* simvol, rəmz, emblem, simgə.

**sinnbildlich** *adj.* simvolik, rəmzi; *~e Darstellung* alleqori*(ya).*

**sinnen** *vi* **1.** düşünmək, fikirləşmək *(über A/bir şey haqda)*; **2.** *(auf et.)* niyyətində olmaq, fikrində olmaq; *auf Rache ~* intiqam fikrində olmaq.

**Sinnenfreude,** *die; -, -n (sexuell)* şəhəvani həvəs.

**Sinnenlust,** *die; - s. Sinnenfreude.*

**sinnentstellend** *adj.* mənasını dəyişən, mənasını təhrif edən.

**Sinnesänderung,** *die; -, -en* fikir dəyişdirmə.

**Sinnesorgan,** *das; -s, -e* duyğu orqanı.

**Sinnestäuschung,** *die; -, -en* yanlış duyğu, xəyalat, vahimə.

**sinnfällig** *adj.* aydın, aşkar.

**sinngemäß** *adv.* mənasına görə, mənasına uyğun.

**sinnig** *adj.* **1.** *(sinnvoll ausgedacht)* məqsədəuyğun, ağılkəsən, ağlabatan; *ein ~es Geschenk* ağılkəsən bir hədiyyə; **2.** *(tiefsinnig)* dərin mənalı; *e-e ~e Äußerung* dərin mənalı bir söz.

**sinnlich** *adj.* **1.** *(sensoriell)* duyulan, hiss edilən; **2.** *(erotisch)* şəhvani, şəhvətli; *sie hat ~e Lippen* onun şəhvətli dodaqları var; **3.** cismani; *~e Freude* cismani həzz.

**Sinnlichkeit,** *die; -* şəhvətpərəstlik, şəhvət, erotizm.

**sinnlos** *adj.* **1.** *(ohne Vernunft)* mənasız, boş, axırsız, bihudə, boş-boşuna, cəfəng, havayı, hərzə, lağ-lağ; *F* ələşən-güləşən; **2.** *(grundlos)* əsassız,

səbəbsiz, bica; *sich ~ ärgern* səbəbsiz yerə hirslənmək.

**Sinnlosigkeit,** *die; -, -en* mənasızlıq, boşluq, bihudəlik; səbəbsizlik.

**sinnreich** *adj.* dərinmənalı; ağıllı.

**Sinnspruch,** *der; -(e)s, -¨e* həkimanə söz.

**Sinnverwandt** *adj.* sinonim, mənaca yaxın.

**sinnvoll** *adj.* **1.***(nützlich)* faydalı, xeyirli; razı edici; **2.** *(vernünftig)* məntiqi, ağılkəsən.

**sinnwidrig** *adj.* mənasız; yanlış.

**Sinologe,** *der; -n, -n* sinoloq.

**Sinologie,** *die; -* sinologiya *(Süd. : sinoloji),* çinşünaslıq.

**Sinter,** *der; -s, -* çöküntü.

**Sintflut,** *die; -* **1.** *rel.* tufan; **2.** sel, daşqın.

**sintflutartig** *adj.* sel kimi.

**Sinti** *pl.; ~ und Roma* qaraçı.

**Sinus,** *der; -, - u. -se* sinus.

**Siphon,** *der; -s, -s* sifon.

**Sippe,** *die; -, -n* qohum, qohum-qardaş; qəbilə; soy, boy; əşirət; klan.

**Sippschaft,** *die; -, -en* qohum-qardaş; dəstə, güruh.

**Sirene,** *die; -, -n* **1.** *myth.* sirena; **2.** *techn. (Fabrik, Schiff)* siqnal, fit, düdək, düdük.

**Sirup,** *der; -s, -e* doşab, bəkməz.

**Sisyphusarbeit,** *die; -, -en* sonu olmayan iş, dibsiz-bucaqsız iş, sisif əməyi.

**Sitte,** *die; -, -n* **1.** *(Moral)* əxlaq, ədəb qaydaları; **2.** *(Brauch)* adət, ənənə; *die guten ~n* əxlaq; *~n und Gebräuche* adət və ənənələr; *das ist bei uns so ~* bu bizdə adətdir.

**Sittengemälde,** *das; -s, -* əxlaq təsəvvürü.

**Sittenlehre,** *die; -* etika, əxlaq elmi.

**sittenlos** *adj.* əxlaqsız, əxlaq qaydalarına zidd, sapqın, açıq-saçıq, iffətsiz.

**Sittenlosigkeit,** *die; -* əxlaqsızlıq, sapqınlıq.

**Sittenpolizei,** *die; -* polis idarəsində əxlaq şöbəsi, əxlaq polisi.

**sittenrein** *adj.* iffətli, namuslu.

**Sittenrichter,** *der; -s, - iron.* əxlaq dərsi verən, vaiz, əxlaqdan dəm vuran adam.

**sittenstreng** *adj.* yüksək mənəviyyatlı, əxlaqlı; mömin.

**Sittenverderbnis,** *die; -, -se* əxlaqsızlıq, mənəviyyatın korlanması.

**sittenwidrig** *adj.* əxlaq qaydalarına zidd, adət-ənənələrə zidd.

**Sittenwidrigkeit,** *die; -, -en* əxlaq qaydalarına zidd olma, əxlaqsızlıq.

**Sittlichkeitsverbrechen,** *das; -s, -* cinsi cinayət, cinsi təcavüz.

**sittsam** *adj.* ədəbli, tərbiyəli, xoşəxlaq.

**Sittsamkeit,** *die; -* iffət, əxlaq, xoşəxlaqlıq.

**Situation,** *die; -, -en* vəziyyət, şərait, durum, eləlik, hal; *in e-e schwere ~ geraten* yaman kökə *(günə, vəziyyətə)* düşmək; *in e-e schwere ~ bringen* yaman kökə *(günə, duruma)* salmaq.

**situiert** *adj. : gut ~ sein* kefi kök olmaq; yaxşı mövqeyi olmaq.

**Sitz,** *der; -es, -e* **1.** oturma, oturuş; **2.** *(Sitzplatz)* yerləşmə yeri, iqamətgah, oturacaq, yerləşdiyi yer; **3.** *(im Parlament usw.)* stul, səndəl, yer; **3.** *(Wohnort)* yaşayış yeri; **4.** *(e-s Kleides)* oturma; *ihr Kleid hat e-n guten ~* paltarı əynində yaxşı oturur; **5.** *(Zentrale)* mərkəz; *Firma mit ~ in Berlin* mərkəzi Berlində olan şirkət; *j-m e-n ~ anbieten* bir kəsə yer vermək.

**sitzen** *vt* **1.** oturmaq, yerləşmək; **2.** *(im Gefängnis)* həbsdə oturmaq; **3.** *(Anzug)* yaraşmaq, bədəninə uyğun gəlmək; **4.** *(Hieb)* yerinə düşmək; *im Sitzen* oturaraq; *F e-n ~ haben* sərxoş olmaq.

**sitzenbleiben** *vi* **1.** oturub qalmaq; **2.** *(Schüler)* ikinci ilə qalmaq; **3.** *(Mädchen)* evdə qalmaq, özünə ər tapa bilməmək; **4.** *H* müştəri tapmamaq *(auf D/ ...üçün); bleiben Sie sitzen!* əyləşin! .

**sitzenlassen** *vt* **1.** *(im Stich lassen)* özbaşına buraxmaq, tək qoymaq; **2.** *(Mädchen) bir qızla* evlənməmək; **3.** *(Schüler)* ikinci ilə saxlamaq; *F nicht auf sich (D) ~* özünü müdafiə etmək,

dözməmək; *das lasse ich nicht auf mir sitzen!* buna dözə bilmərəm!.

**Sitzfleisch,** *das; -(e)s* **1.** *F (Po)* sağrı; **2.** *kein ~ haben* dözümsüz olmaq, dinc otura bilməmək; **3.** səbirsiz olmaq.

**Sitzgelegenheit,** *die; -, -en* stul, səndəl, oturacaq yer.

**Sitzordnung,** *die; -, -en* yerləşdirmə, nizamlama qaydası, oturma sırası.

**Sitzplatz,** *der; -es, -¨e* oturacaq yer.

**Sitzstreik,** *der; -(e)s, -s* oturaq tətil, oturaq nümayiş, bəst.

**Sitzung,** *die; -, -en* iclas, yığıncaq; *geschlossene ~* qapalı iclas; *öffentliche ~* açıq iclas.

**sizilianisch** *adj.* siciliya.

**Sizilien** Siciliya.

**Skala,** *die; -, -len techn.* dərəcə; cədvəl.

**Skalp,** *der; -s, -e* soyulmuş baş dərisi.

**Skalpell,** *das; -s, -e* cərrah bıçağı, neştər.

**Skandal,** *der; -s, -e* qalmaqal, rüsvayçılıq; dava, dava-dalaş, dava-şava, mərəkə; *~ machen* qalmaqal qaldırmaq, dava-şava salmaq.

**skandalös** *adj.* biabırçı; qalmaqallı.

**Skandinavien;** *-s* Skandinavya yarımadası.

**Skandinavier,** *der; -s, -* skandinaviyalı.

**skandinavisch** *adj.* skandinaviyalı.

**Skat,** *der; -(e)s, -e u. -s* bir növ kart oyunu.

**Skelett,** *das; -(e)s, -e* skelet.

**Skepsis,** *die, -* şəkk, şübhə.

**Skeptiker,** *der; -s, -* şəkk edən, şübhələnən adam.

**skeptisch** *adj.* şübhələnən; şübhəli.

**Sketch,** *der; -es, -e* qısa pyes.

**Ski,** *der; -s, -er s. Schi.*

**Skinhead,** *der; -s, -s* *(junger Neofaschist)* dazbaş *(faşistlər),* neofaşist.

**Skizze,** *die; -, -n* **1.** eskiz, layihə; **2.** oçerk, qısa hekayə.

**skizzenhaft** *adj.* eskiz kimi, qaralama halında.

**skizzieren** *vt* *-in* qarasını tökmək; *-in* eskizini çəkmək.

**Sklave,** *der; -n, -n* qul, kölə.

**Sklavenarbeit,** *die; -, -en* qul əməyi.

**Sklavenhandel,** *der; -s* qul alveri.

**Sklavenhändler,** *der; -s, -* qul alverçisi, quldar.

**Sklaverei,** *die; -, -en* quldarlıq, köləlik; əsarət.

**Sklavin,** *die; -, -nen* əsir qız, kölə qız, kəniz.

**sklavisch** *adj.* qul kimi; yaltaq, iradəsiz.

**Skonto,** *der u. das; -s, -s* qiymətdə güzəştə getmə, skonto, güzəşt.

**Skorbut,** *der; -(e)s* *med.* sinqa, skorboyt.

**Skorpion,** *der; -s, -e zo.* əqrəb, çayan.

**skrofulös** *adj. med.* xənazirli, sıracalı.

**Skrofulose,** *die; -* sıraca.

**Skrupel,** *der; -s, -* şübhə; vicdan əzabı.

**skrupellos** rəhmsiz, insafsız, vicdansız, nainsaf, vicdan əzabı çəkmədən; *F* dərisoyan, dirisoyan, əzazil.

**Skrupellosigkeit,** *die; -* vicdansızlıq, insafsızlıq, nainsaflıq, vicdansız hərəkət; *F* əzazillik.

**skrupulös** *adj.* diqqətli, dəqiq adam.

**Skulptur,** *die; -, -en* heykəl.

**skurril** *adj.* gülməli, əyləncəli, qəribə.

**Slawe,** *der; -n, -n* Slavyan.

**slawisch** *adj.* slavyan.

**Slip,** *der; -s, -s* slip, qısa alt tuman.

**Slogan,** *der; -s, -s* şüar, sloqan, çağırış, müraciət.

**Slowake,** *der; -n, -n* slovyan.

**Slowakei** *die* Slovakiya.

**slowakisch** *adj.* slovak*(ca).*

**Slowene,** *der; -n, -n* Sloven.

**Slowenien;** *-s* sloveniya.

**slowenisch** *adj.* sloven*(cə).*

**Slum,** *der; -s, -s* kənar məhəllə, kasıblar məhəlləsi.

**Smaragd,** *der; -(e)s, -e* zümrüd.

**smaragdgrün** *adj.* zümrüd kimi, zümrüdü.

**smart** *adj.* gözəl geyimli; şik.

**Smog,** *der; -s, -s* tüstü dumanı.

**Smoking,** *der; -s, -s* smokinq, kişilər

üçün rəsmi geyim.

**Snack,** *der; -s, -s* qəlyanaltı.

**Snob,** *der; -s, -s pej.* burnuyelli, vardövlətinə fəxr edən.

**so** *adv.* **1.** belə*(cə),* böylə, elə; beləliklə; *~ geht es nicht* belə olmaz; **2.** *(sehr, so viel)* çox, o qədər, e(y)lə, o dərəcədə; *ich bin ~ müde, dass ich...* mən o qədər yorğunam ki..., mən e(y)lə yorğunam ki…; o dərəcədə yorğunam ki..; **3.** *(auf diese Weise)* bu cür, bu surətdə, bu şəkildə, böylə, kimi, bu çeşid,belə*(cə),* elə belə; *~ ein Unsinn* bu cür *(belə)* yalan; *ach ~!* deməli belə!, belə; *~ la la* bir elə, bir belə; *~ etwas* belə bir şey, belə iş; *Na,~ was* belə də iş olur, əcəba; *~ bald wie möglich !* mümkün qədər tez; *ist das wirklich ~?* bu doğrudan belədir?; *~ jemand* belə adam; *~ wie du* sənin kimi; *~ dass* beləliklə; *er ist ~ groß wie ich* o, mən ilə bir boydadır; *~ gegen Abend* axşama yaxın, axşam çağı; *einfach ~* elə belə.

**s.o**. *Abk. für : siehe oben.*

**sobald** *konj.* tezliklə, indicə, ...kimi; *komm ~ du kannst* bacardığın qədər tez gəl; *~ wie möglich !* mümkün qədər tez; *~ er kommt* o gələn kimi.

**Söckchen,** *das; -s, -* qisa corab.

**Socke,** *die; -, -n* corab.

**Sockel,** *der; -s, -* kürsü, paya.

**Soda,** *das; -s u. die; -* soda.

**sodann** *adv.* sonra, ondan sonra.

**sodass** *konj.* beləliklə.

**Sodbrennen,** *das; -s* mədə qıcqırması.

**Sodomie,** *die; -* heyvanlarla cinsi əlaqə.

**soeben** *adv.* indicə, bu saat; *~ erschienen* yeni çıxmış; *wir sind ~ vom Ausflug zurückgekommen* biz elə indicə ekskursiyadan qayıtmışıq.

**Sofa,** *das; -s, -s* divan, yumşaq taxt.

**sofern** *konj.* əgər, ...nə qədər ki, bu şərt ilə ki.

**soff** *s. saufen.*

**sofort** *adv.* bu saat, həmin dəqiqə, o dəqiqə, bu/o dəqiqədə, təcili, yubadılmaz, fövrən, acilən, anən, ansız, cəld, bir dəqiqədə, dərhal, əlüstü, dayanmadan, həman, haman, iti; *er kam ~ hierher* haman buraya gəldi.

**sofortig** *adj.* aramsız, ara vermədən, fövrən, təcili, təxirəsalınmaz, təxirsiz.

**Sofortmaßnahme,** *die; -, -n* təcili tədbir.

**Sofortprogramm,** *das; -s, -e* təcili proqram.

**sog** *s. saugen.*

**sog.** *Abk. für so genannt.*

**Sog,** *der; -(e)s, -e* çəkim, çəkilmə; sormaq; hava və ya su girdabına çəkilmə.

**sogar** *adv.* hətta, belə.

**sogenannt** *adj.* belə adlanan; belə adda.

**sogleich** *adv. s. sofort.*

**Sohle,** *die; -, -n* pəncə; ayağın altı.

**Sohlenleder,** *das; -s, -* pəncə gönü, ayağın altı.

**Sohn,** *der; -(e)s, -¨e* oğul; *e-n ~ bekommen* oğlu olmaq.

**Sojabohne,** *die; -, -n* soya lobyası.

**solange (wie)** *konj.* o vaxta qədər, nə qədər*,* …kimi, hələlik, -ikən; *~ du lebst* yaşadığın vaxta qədər.

**solch** *pron.* belə, bu cür, o cür; *~ ein(e), ein ~er usw.* belə bir, bu cür bir; *~ ein Mensch* belə bir adam.

**solcherart** *adv.*bu növ,bu cür, bu qəbil, böylə.

**solcherlei** *adj.* bu kimi, bu növ.

**solchermaßen** *adv.* bu cür, belə, bu kimi.

**Sold,** *der; -(e)s, -e mil.* maaş.

**Soldat,** *der; -en, -en* əsgər, hərbçi *(Süd. : a. sərbaz); Wehrdienst leisten* əsgər getmək.

**Soldateska,** *die; -* hərbçilər.

**soldatisch** *adj.* əsgər kimi.

**Soldbuch,** *das; -(e)s, -¨er mil.* əsgərin cib dəftərçəsi *(kitabı).*

**Söldling,** *der; -s, -e* muzdlu əsgər.

**Söldner,** *der; -s, - s. Söldling.*

**Sole,** *die, -, -n* şor su.

**solidarisch** *adj.* həmrəy, həmfikir, dilbir; *sich ~ erklären* həmrəylik etmək, həmrəy olduğunu bildirmək *(mit D/ -*

*ilə).*

**Solidarität,** *die,* - həmrəylik, fikir eyniliyi, dilbirlik.

**solide** *adj.***1.** *(stabil)* möhkəm;**2.** *(gründlich)* əsaslı; **3.** *(anständig)* mötəbər, abırlı; **4.** *(Preise)* münasib, ucuz.

**Solidität,** *die;* - mötəbərlik.

**Solist,** *der; -en, -en* solist.

**Soll,** *das; -s* **1.** *(Planaufgabe)* plan tapşırığı; **2.** lazim olan miqdar, norma; iş, əmək; **3.** *(Schuld)* borc; *~ und Haben* gəlir-çıxar , borc və gəlir *(çıxar və gəlir)*; *sein ~ erfüllen* vəzifəsini yerinə yetirmək.

**sollen**[1] *Modalverb;* **1.** *Inf.+ ~ -bir şeyi* etməli *(verpflichtet/məcburiyyəti göstərir)* ; *ich soll das essen* onu yeməliyəm; *er soll morgen fahren* o sabah getməlidir; *was soll ich tun?* nə etməliyəm; **2.** *(angeblich)* deyilmək, rəvayət edilmək; *er soll in Deutschland sein* deyirlər ki, o, Almaniyada olmalıdır; *er soll krank sein* deyirlər ki, güya o naxoşdur; *wenn es schneien sollte* qar yağarsa; *das hättest du nicht sagen ~* onu deməməliydin.

**sollen**[2] *vi* **1.** *(irgendwohin sollen) F* bir yerə getməli olmaq; *dein Vater rief an und sagte, du sollst sofort in sein Büro* atan zəng etdi və dedi, sən bu saat bürosuna getməlisən; **2.** *(et. soll irgendwohin)* getməli; *das Regal soll neben das Fenster* rəf pəncərənin yanına getməlidir *(çəkilməlidir); was ~ das heißen?* bu nə deməkdir?; *was soll's?* nə etmək ?

**Sollzinsen** *die/pl. H* borc faizi *sg.*

**Söller,** *der; -s, -* balkon.

**solo** *adj.* tək, tək başına, yalqız.

**Solo,** *das; -s, -s od. -i* solo.

**Solostimme,** *die; -, -n* solo səs.

**solvent** *adj.* *(Firma usw.)* mötəbər; ödəmə gücü olan.

**Solvenz,** *die; -, -en* ödəmə gücü.

**Somalia;** *-s* Somaliya.

**somatisch** *adj. med.* bədəni, somatik.

**somit** *adv.* beləliklə, belə.

**Sommer,** *der; -s, -* yay; *im ~* yayda.

**Sommeraufenthalt,** *der; -(e)s, -e* yay istirahəti.

**Sommerferien,** *die/pl.* yay tə`tili.

**sommerlich** *adj.* yay kimi, yaylıq, yaya aid; *sich ~ kleiden* yaylıq paltar geymək.

**Sommermonat,** *der; -(e)s, -e* yay ayı.

**Sommerschlussverkauf,** *der; -(e)s, -¨e* yay axırında satış.

**Sommersprosse,** *die; -, -n* çil.

**sommersprossig** *adj.* çilli.

**Sommerzeit,** *die;* - **1.** yay fəsli; **2.** *(Uhrzeit)* yay saatı.

**sonach** *adv.* bununla belə, beləliklə.

**Sonate,** *die; -, -n* sonat*(a).*

**Sonde,** *die; -, -n* **1.** *med.* sond; **2.** *Bgb. (Bohrung)* burğulama.

**sonder** *präp. A (ohne)* -siz, -sız, -suz, -süz; *~ Tadel* eybsiz.

**Sonder-** *im Subst.* xüsusi; fövqəladə.

**Sonderangebot,** *das; -(e)s, -e* fövqəladə satış, fövqəladə ucuz satış.

**Sonderauftrag,** *der; -(e)s, -¨e* xüsusi tapşırıq, fövqəladə məmuriyyət.

**Sonderausgabe,** *die; -, -n* xüsusi buraxılış *(qəzetin).*

**Sonderausschuss,** *der; -es, -¨e* xüsusi komissiya.

**sonderbar***adj.*qəribə, əcaib, aztapılan, əcəb, əcibə, əntiqə.

**sonderbarerweise** *adv.* qəribə surətdə.

**Sonderbeilage,** *die; -, -n* *(e-r Zeitung)* əlavə.

**Sonderbotschafter,** *der; -s,* - fövqəladə elçi, səlahiyyətli şəxs *(nümayəndə).*

**Sondergenehmigung,** *die; -, -en* xüsusi icazə.

**Sondergericht,** *das; -(e)s, -e* xüsusi məhkəmə.

**sondergleichen** *adj.* misilsiz.

**sonderlich** *adj. s. sonderbar; adv.* çox, böyük; xas; *kein ~es Interesse haben* o qədər də marağı olmamaq.

**Sonderling,** *der; -s, -e* qəribə adam, əcaib adam, eksantrik adam.

**sondern**[1] *vt* ayırmaq, seçmək; *gesondert* ayrı*(lmış).*

**sondern**[2] *Konj.* lakin, amma; *nicht ich, ~ du bist schuld* mən yox, sən günahkarsan; *sie ist nicht nur schön, ~ auch klug* o nəinki gözəldir, həmdə ağıllıdır.

**Sonderrecht,** *das; -(e)s, -e* xüsusi hüquq, imtiyaz.

**sonders** *: samt und ~* hamısı birlikdə, bütün, hamısı, tamamən.

**Sonderschule,** *die; -, -n* xüsusi məktəb, dərs baxımından zəif inkişaf etmiş üşaqlar üçün məktəb.

**Sonderstellung,** *die; -, -en* xüsusi mövqe, xüsusi vəziyyət, özəl yer.

**Sondertagung,** *die; -, -en* növbədənkənar qurultay, fövqəladə iclas.

**Sonderung,** *die; -, -en* ayırma.

**Sonderzug,** *der; -(e)s, -¨e* xüsusi qatar.

**Sonderzulage,** *die; -, -n* əlavə əmək haqqı.

**sondieren** *vt* **1.** zondla tədqiq etmək; **2.** *fig.* araşdırmaq; yoxlamaq, incələmək.

**Sondierung,** *die; -, -en* zondla tədqiq etmə, öyrənmə, yoxlama.

**Sondierungsgespräch,** *das; -(e)s, -e* soruşub bilmək danışığı.

**Sonett,** *das; -(e)s, -e* sonet.

**Sonnabend,** *der; -s, -e* cümə ertəsi, şənbə, altıncı gün.

**sonnabends** *adv.* şənbə günləri.

**Sonne,** *die; -, -n* günəş.

**sonnen** *vt* günə qoymaq; *vr sich ~* qaralmaq.

**Sonnenaufgang,** *der; -(e)s, -¨e* günəşin çıxması, günəşin doğması, günçıxan; *bei ~* gün çıxanda.

**Sonnenbad,** *das; -(e)s, -¨er* günəş vannası, günəşə vermə, qaralma; *ein ~ nehmen* özünü günəşə vermə.

**Sonnenblende,** *die; -, -n (im Auto)* günəş qabağını tutan *(alan)*.

**Sonnenblume,** *die; -, -n* günəbaxan.

**Sonnenbrand,** *der; -(e)s, -¨e* günəş altında yanma *(qaralma); e-n ~ haben* günəş altında yanmaq *(qaralmaq)*.

**Sonnenbrille,** *die; -, -n* günəş eynəyi, günəş gözlüyü.

**Sonnendach,** *das; -(e)s, -¨er* günlük,günəşlik, gündən qorunmaq üçün yelkən.

**Sonnenenergie,** *die; -* günəş enerjisi.

**Sonnenfinsternis,** *die; -, -se* günəş tutulması, günün tutulması.

**sonnengebräunt** *adj.* günəşdən qaralmış.

**sonnenklar** *adj.* günəş kimi aydın.

**Sonnenlicht,** *das; -(e)s* günəş işığı.

**Sonnenschein,** *der; -(e)s* günəş işığı.

**Sonnenschirm,** *der; -(e)s, -e* günlük, çətir.

**Sonnenseite,** *die; -, -n* günəşli yer, günəş işığı alan tərəf, günəvər.

**Sonnenstich,** *der; -(e)s, -e* günvurma; *e-n ~ haben* *bir kəsi* gün vurmaq.

**Sonnenstrahl,** *der; -(e)s, -en* günəş şüası.

**Sonnenuhr,** *die; -, -en* günəş saatı.

**Sonnenuntergang,** *der; -(e)s, -¨e* qürub, günəşin batması, günbatan.

**sonnenverbrannt** *adj* günəşdən qaralmış, günəşdən yanmış.

**Sonnenwende,** *die; -, -n* gündönümü.

**sonnig** *adj.* günəşli; güney.

**Sonntag,** *der; -s, -e* bazar günü, bazar.

**sonntäglich** *adj.* bazar gününə məxsus.

**sonntags** *adv.* bazar günləri.

**Sonntagsanzug,** *der; -(e)s, -¨e* bazar günündə geyilən paltar, təzə paltar.

**Sonntagsfahrer,** *der; -s, -* başabəla sürücü.

**Sonntagskind,** *das; -(e)s, -er* **1.** bazar günü anadan olmuş uşaq; **2.** *fig.* xoşbəxt uşaq, bəxtəvər uşaq.

**Sonnyboy,** *der; -s, -s* fərəhli və mehriban cavan.

**sonor** *adj.* səsli; ahəngdar.

**sonst**[1] *adv.* **1.** *(anderes)* başqa cür, özgə cür; *was soll ich denn ~ tun* bundan başqa cür necə edim?; **2.** *(gewöhnlich)* adətən, hər vaxt; *er ist ~ freundlich* o adətən mehribandır; *alles wie ~* hər şey həmişəki kimi; **3.** *(außerdem)* bundan başqa, ondan başqa, yenə, daha; *hast du ~ noch Fragen?* bundan başqa yenə də sualın varmi?; *~ nichts!* daha heç nə!, daha bir şey yox!; **4.** *(abgesehen davon)* lakin, amma, bununla belə.

**sonst**[2] *Konj.* *(andernfalls)* yoxsa, əks təqdirdə; *gib mir meinen Ring, ~ werde ich böse* mənim üzüyümü ver, yoxsa hirslənərəm; *ich nuss mich beeilen, ~*

*komme ich zu spät* tələsməliyəm, yoxsa gecikirəm, əcələ etməliyəm, yoxsa gecikəcəyəm.

**sonstig** *adj.* başqa, sair, qeyri.

**sonstwie** *adv.* başqa cür, bir təhər.

**sonstwo** *adv.* başqa yerdə.

**sonstwohin** *adv.* başqa bir yerə.

**sooft** *Konj. (jedesmal)* hər dəfə; *~ sie kommt, bringt sie Kuchen mit* hər dəfə gələndə, özü ilə şirni *(yağlı kökə)* gətirir; *~ du willst* nə zaman istərsən, hər vaxt istərsən, hər istədiyin vaxt.

**Sophismus,** *der; -, -men* sofizm, sofiçilik.

**Sophist,** *der; -en, -en* **1.** sofist; **2.** *fig.* səfsətəçi.

**Sopran,** *der; -s, -e mus.* soprano.

**Sorge,** *die; -, -n* **1.** qayğı; **2.** *(Kummer)* dərd, kədər, qəm, narahatlıq, fikir, əndişə; *vor ~n graue Haare bekommen* dərddən saçları ağarmaq; **3.** *(Fürsorge)* təminat, qayğısına qalmaq *(für A/ kiminsə)*; *sich (D) ~n machen* nigaran olmaq, narahat olmaq, hayına qalmaq *(um A/kim üçünsə, nə üçünsə)*; *keine ~!* nigaran olma(yın)!; *lass das meine ~ sein!* sən bunun qayğısını çəkmə!, bunu mənim ixtiyarıma burax.

**sorgen** *vi* **1.** qayğısına qalmaq, qayğısını çəkmək *(für A/kiminsə)*, dərdinə şərik olmaq; *er sorgt für die Familie* o ailəsini dolandırır, o ailəsini təmin edir; *für sich selbst ~* öz canının hayına qalmaq; **2.** *(sich bemühen)* düzəltmək; *~ Sie dafür* bunlar haqda sərəncan verin; *vr sich ~* narahat olmaq, nigaran olmaq, canı yanmaq, hayına qalmaq *(um A/nədən ötrüsə, kimdən ötrüsə)*.

**sorgenfrei** *adj.* qayğısız, dərdsiz, laqeyd, ehtiyatsız; asudə; əndişəsiz.

**sorgenlos** *adj. s. sorgenfrei.*

**Sorglosigkeit,** *die; -* qayğısızlıq, arsızlıq, laqeydlik, asudəlik, ehtiyatsızlıq.

**sorgenvoll** *adj.* qayğılı, fikirli.

**Sorgepflicht,** *die; -, -en jur.* qayğı göstərmə borcu.

**Sorgfalt,** *die; -* **1.** diqqət, işə can yandırma; dəqiqlik; etina; ehtiyat, ehtiyatkarlıq; **2.** *(liebevoll)* insaf.

**sorgfältig** *adj.* dəqiq; vicdanlı; ehtiyatlı, ehtiyatkar; işə can yandırma; hörmətcil; insaflı.

**sorglos** *adj.* qayğısız; diqqətsiz, arsız, fikirsiz, , əndişəsiz, başısoyuq.

**Sorglosigkeit,** *die; -* arsızlıq, qayğısızlıq, diqqətsizlik, ehmallıq; əndişəsizlik.

**sorgsam** *adj.* qayğıkeş, diqqətli, səliqəli; qayğıkeşliklə.

**Sorgsamkeit,** *die; -* diqqət.

**Sorte,** *die; -, -n* növ, çeşid, qəbil, biçim, cürə, tür; *fig.* cins; *von schlechter ~* pis növlü; *was für e-n Mensch bist du?* sən nə biçim *(tür)* adamsan?; *pl.* əqsam.

**sortieren** *vt* çeşidləmək, *(növlərə)* ayırmaq; *(ordnen)* qaydaya *(sistemə)* salmaq.

**Sortiment,** *das; -(e)s, -e* çeşid mallar*pl.*

**sosehr** *(auch) Konj.* hər nə qədər də..; *~ ich dich auch mag, billige ich dein Verhalten nicht* səni hər nə qədər istəsəm də, bu rəftarını qəbul etmərəm; *~ ich es wünsche , ...* bunu nə qədər arzu etsəm də...

**soso** *adv. F* nə yaxşı nə də pis, bir təhər.

**SOS** imdad siqnalı

**Soße,** *die; -, -n* sous *(Süd. : sos).*

**Souffleur,** *der; -s, -e* suflor, səhnə dalında gizlənən və pyesin mətnini teatr oynayana deyən şəxs.

**soufflieren** *vt* suflor etmək.

**Soundkarte,** *die; -, -n* səs kartı.

**soundso** *adv. : Herr Soundso* cənab filankəs ağa; *~ oft* neçə dəfə; *~ viel* bilmirəm nə qədər.

**soundsovielt-** *Zahladj.* filan*(ıncı),* neçəminci; *der ~e Kunde* filanıncı müştəri.

**Souterrain,** *das; -s, -s* aşağı mərtəbə.

**Souvenir,** *das; -s, -s* yadigarlıq, suvenir.

**souverän** *adj.* **1.** *(überlegen)* sakit, təmkinli; soyuqqanlı; *~ trug er alle s-e Argumente vor* sakitliklə bütün dəlillərin ifadə etdi; **2.***(unabhängig)* müstəqil, asılı olmayan, bağımsız, suveren, azadə.

**Souveränität,** *die; -* müstəqillik, hakimiyyət, suverenlik.

**soviel**[1] *adv.* bu qədər, o qədər; eyni miqdar, eyni ölçü ; *iss, ~ du willst* istədiyin qədər ye; *doppelt ~* iki dəfə çox; *noch einmal ~* bir daha bu qədər.

**soviel**[2] *Konj.* ..görə; *~ ich weiß* bildiyimə görə.

**soweit**[1] *adj.* hazır; *er ist ~* o hazırdır.

**soweit**[2] *adv.* **1.** *(im allgemeinen)* ümumiyyətlə; *es geht uns ~ ganz gut* ümumiyyətlə halımız yaxşıdır; **2.** *~ das Auge reicht* göz işlədikcə, göz işlədiyi qədər.

**soweit**[3] *Konj.* ..nə qədər, ..görə; *~ ich weiß* bildiyimə görə.

**sowie** *Konj.* **1.** *(sobald)* ..kən, kimi; *~ er uns sah, lief er weg* o bizi görərkən *(görən kimi)* qaçdı; **2.** *(und auch)* və həmçinin; *ich aß Äpfel, Birnen, Apfelsinen ~ Nüsse und Pistazien* mən alma, armud , portağal və həmçinin qoz və püstə yedim.

**sowieso** *adv.* onsuz da, istər-istəməz, hər halda, əsasən.

**Sowjet,** *der; -s, -s* Sovet.

**Sowjetunion,** *die; -* Sovet İttifaqı.

**sowohl** *Konj. : ~ ... als auch ...* ...həm o, həm də bu, necə bu, eləcə də o, və... və...; *~ Frauen als auch Männer* həm qadınlar, həm də kişilər.

**sozial** *adj.* ictimai, sosial.

**Sozialabbau,** *der; -(e)s* sosial məqsədlərə çəkilən xərclərin azaldılması.

**Sozialamt,** *das; -(e)s, -¨er* ictimai təminat idarəsi.

**Sozialarbeiter,** *der; -s, -* ictimai yardım işçisi, sosial təminat işçisi.

**Sozialdemokrat,** *der; -en, -en* sosial demokrat partiyasının üzvü.

**Sozialdemokratie,** *die; -* **1.** sosial demokratiya; **2.** *(Partei)* sosial-demokrat partiyası.

**sozialdemokratisch** *adj.* sosial-demokrat.

**Sozialeinrichtung,** *die; -, -en* ictimai təminat idarəsi.

**Sozialgericht,** *das; -(e)s, -e* sosial *(ictimai)* məhkəmə.

**Sozialhilfe,** *die; -, -n* sosial *(ictimai)* yardım.

**Sozialisation,** *die; -* ictimailəşdirmə *(ictima ilə birləşdirmə).*

**sozialisieren** *vt* ictimailəşdirmək.

**Sozialismus,** *der; -* sosializm.

**Sozialist,** *der; -en, -en* sosialist.

**sozialistisch** *adj.* sosialist.

**Sozialleistungen,** *die/pl.* ictimai təminat.

**Sozialpolitik,** *die; -* sosial siyasət.

**Sozialprodukt,** *das; -(e)s, -e* ictimai məhsul, milli məhsul, milli gəlir.

**Sozialversicherung,** *die; -, -en* ictimai sığorta.

**Sozialwissenschaften,** *die/pl.* ictimai elmlər.

**Sozialwohnung,** *die; -, -en* dövlət tərəfindən az gəlirli şəxslərə verilən ev.

**Sozietät,** *die; -, -en* **1.** dərnək, birlik, ittifaq, cəmiyyət; **2.** *zo.* birlikdə *(birgə)* yaşayan heyvanlar.

**Soziologe,** *der; -n, -n* sosioloq, ictimai elmlər üzrə mütəxəssis, toplumşünas.

**Soziologie,** *die; -* sosiologiya *(Süd. : sosyoloji),* toplumşünaslıq.

**soziologisch** *adj.* sosioloji.

**Sozius,** *der; -, -se H* şərik, ortaq.

**Soziussitz,** *der; -es, -e* motosikletin arxa tərəfində oturacaq yeri.

**sozusagen** *adv.* necə deyərlər.

**Spachtel,** *der; -s, -* mala; ərsin, əsdəmi.

**spachteln** *vt* malalamaq, mala çəkmək .

**Spagat,** *der; -(e)s, -e* *(beim Ballet od. Turnen)* ayağın birisini qabağa və o birisini arxaya uzaldıb oturmaq, şpaqat.

**Spaghetti, Spagetti** *pl.* şpaqetti, uzun və nazik əriştə ilə bişirilmiş yemək.

**spähen** *vi* diqqətlə baxmaq *(nach D/-ə); -i* güdmək.

**Spähtrupp,** *der; -s, -s* *mil.* kəşfiyyat dəstəsi.

**Spalier,** *das; -s, -e* **1.** *(Gitter)* divar şəbəkəsi; **2.** *mil.* sıra, səf, cərgə; bir yüksək məqam sahibini salamlamaq üçün

yolun iki tərəfində sıraya duran insanlar; *~ bilden* sıraya düzmək, səf bağlamaq, cərgə vurmaq.

**Spalt,** *der; -(e)s, -e (Riss)* yarıq, çatdaq; dəlik, deşik.

**Spalte,** *die; -, -n* **1.** *s. Spalt;* **2.** *(e-r Zeitung)* sütun.

**spaltbar** *adj.* parçalanan; hissələrə ayrılan.

**spalten** *vt* **1.** *(Holz usw.)* yarmaq, doğramaq; **2.** *(Atom)* hissələrə ayırmaq, parçalamaq; **3.** *(Staat)* bölmək; *vr sich ~* ayrılmaq, çatlamaq, parçalanmaq, bölünmək, aralanmaq.

**Spaltung,** *die; -, -en (e-e Partei usw.)* ikitirəlik, təfriqə*(çilik),* nifaq, ayrılma, bölünmə, parçalanma, bölüş.

**Span,** *der; -(e)s, -¨e* yonqar, talaşa.

**Spanferkel,** *das; -s, -* donuz balası.

**Spange,** *die; -, -n* ilgək, toqqa, bənd.

**Spanien;** *-s* İspaniya.

**Spanier,** *der; -s, -* ispaniyalı.

**spanisch** *adj.* ispan*(ca); das kommt mir ~ vor!* bu mənə qəribə gəlir!, heç bir şey anlamiram!.

**spann** *s. spinnen.*

**Spann,** *der; -(e)s, -e* ayağın üst tərəfi.

**Spanne,** *die; -, -n* **1.** *(Handspanne)* qarış; **2.** *(Zeitspanne)* qısa vaxt; **3.** *H* alış və satış qiymətləri arasında olan fərq; qazanc.

**spannen** *vt* **1.** *(straff ziehen)* gərginləşdirmək, yığmaq; *die Zügel ~* cilovu yığmaq; **2.** *(in den Schraubstock )* məngənə arasına qoyub sıxmaq; **3.** *(Waffe)* ayağa çəkmək; **4.** *(vor e-n Wagen usw.)* qoşmaq; *vi* 1. *(Kleid)* sıxmaq, dar gəlmək; 2. *F (ungeduldig warten)* səbirsizliklə gözləmək *(auf A/bir şeyi, bir kəsi)*; *gespannt* gərgin; *gespannt werden* gərginləşmək, şiddətlənmək; *vr sich ~* çəkilmək, yığılmaq.

**spannend** *adj.* maraqlı, həyəcanlı.

**Spannkraft,** *die; -* möhkəmlik; *fig.* enerji.

**Spannung,** *die; -, -en* **1.** gərginlik; şiddətlənmə; həyəcan; **2.** *el.* təzyiq, voltaj; **3.** *(gespanntes Verhältnis)* soyuq münasibət; *mit ~* həyəcan içində.

**Spannungsgebiet,** *das; -(e)s, -e pol.* gərginlik sahəsi *(ocağı).*

**spannungsgeladen** *adj. (Film usw.)* həyəcanlı, qızğın.

**Spannweite,** *die; -, -n* **1.** *(der Flügel)* qanadlar arasında fasilə, qanadların bir-birindən fasiləsi; **2.** *fig.* genişlik.

**Sparbuch,** *das; -(e)s, -¨er* əmanət kitabçası.

**Sparbüchse,** *die; -, -n* daxıl.

**Spareinlage,** *die; -, -n* əmanət vermə.

**sparen** *vt* **1.** qənaət etmək, qənaət edərək yığmaq, artırmaq; **2.** *(Zeit)* vaxt qazanmaq; *F das kannst du dir ~* bunu öz yanında qoy qalsın, boş yerə zəhmət çəkmə; *~ für (od. auf A) .. üçün* pul qənaət etmək *(pul yığmaq).*

**Sparer,** *der; -s, -* qənaətkar adam, qənaətçi.

**Sparflamme,** *die; - : fig. auf ~ arbeiten* bir işi ən az zəhmətlə yerinə yetirmək.

**Spargel,** *der; -(e)s, -* quşqonmaz, mərəçüyüd, qulançar.

**Sparkasse,** *die; -, -n* əmanət sandığı, əmanət kassası.

**Sparkonto,** *das; -s, -ten* əmanət hesabı.

**spärlich** *adj.* **1.** *(knapp)* cüzi; az; **2.** *(vereinzelt)* tək bir, nadir, tək-tük; **3.** *~es Haar* seyrək saç.

**Sparmaßnahme,** *die; -, -n* qənaət tədbiri.

**Sparren,** *der; -s, -* tir, şalban.

**sparsam** *adj.* qənaətcil, qənaətkar, malcanlı.

**Sparsamkeit,** *die; -, -* qənaətcillik, qənaətkarlıq.

**Sparte,** *die; -, -n* **1.** bölüm, hissə; şöbə; **2.** qəzet sütun.

**spartanisch** *adj. ~ leben* çox sadə yaşamaq.

**Spaß,** *der; -es, -¨e* zarafat, şuxluq, əyləncə; *zum ~* zarafat *(şuxluq)* üçün; *~ beiseite* zarafat bir yana, zarafatsız; *das macht mir ~* bu mənim xoşuma gəlir; *ich mache keinen ~!* heç də zarafat etmirəm!; *j-m den ~ verderben* bir kəsin ke-

fini pozmaq, dilxor etmək.

**spaßen** *vi* zarafat etmək, şuxluq etmək ; *mit ihm ist nicht zu ~* onunla zarafat etmək olmaz, o, zarafat əhli deyil.

**spaßhaft** *adj.* zarafarcıl, gülməli.

**spaßig** *adj. s. spaßhaft.*

**Spaßmacher,** *der; -s, -*zarafatcıl adam, ayıoynadan.

**Spaßverderber,** *der; -s, -* oyunbaz, oyunpozan.

**Spaßvogel,** *der; -s, -¨ s. Spaßmacher.*

**Spastiker,** *der; -s, - med.* spastik, hərəkətlərinə tam hakim olmayan.

**spastisch** *adj.* spastik.

**spät** *adj.* gec, gecikmiş; *es ist ~* gecdir; *zu ~* çox gec; *wie ~ ist es?* saat neçədir?; *ich bin zu ~ gekommen* gecikmişəm, gec gəlmişəm; *am ~en Nachmittag* axşam başı *(çağı); von früh bis ~* səhərdən axşama qədər, səhər tezdən axşama qədər; *bis ~er!* hələlik!.

**Spaten,** *der; -s, -* bel, kürək.

**später** *adj.* gec, daha gec; *adv.* sonra, bir azdan, gec, ertəsi, bundan sonra; *früher oder ~* gec-tez; *e-n Tag später* ertəsi gün.

**spätestens** *adv.* ən gec, ən gec olaraq.

**Spätherbst** *der; -(e)s, -e* payızın axırı.

**Spätlese,** *die; -, -n* ən gec dərilmiş üzümdən hazırlanmış çaxır *(şərab).*

**Spätsommer,** *der; -s* yayın sonu.

**Spatz,** *der; -en, -en* sərçə.

**Spatzen(ge)hirn,** *das; -(e)s, -e fig.* quş beyin.

**Spätzündung,** *die; -, -en* gec tərpənən, gec başa düşən.

**spazieren** *vi* gəzmək, dolanmaq, dolaşmaq; *~ gehen* gəzib-dolanmaq, gəzmək, dolanmaq.

**spazierenfahren** *vi* miniklə gəzməyə getmək, miniklə gəzmək *(dolaşmaq, dolaşdırmaq).*

**spazierenführen** *vt* gəzdirmək, dolaşdırmaq.

**spazierengehen** *vi* gəzmək, gəzməyə getmək, gərdiş etmək; *F* hava almaq.

**Spazierfahrt,** *die; -, -en* miniklə gəzmə, gəzinti.

**Spaziergang,** *der; -(e)s, -¨e* gəzinti, gəzi, ayaq seyri, gərdiş, dolanış, dolaşma; *e-n ~ machen* gəzib-dolanmaq, gərdiş etmək.

**Spaziergänger,** *der; -s, -* gəzən, seyrə çıxan adam.

**Spazierstock,** *der; -(e)s, -¨e* əl ağacı, əsa.

**Specht,** *der; -(e)s, -e* ağacdələn, ağacdeşən, dələyən.

**Speck,** *der; -(e)s* donuz piyi.

**speckig** *adj.* yağlı, piyli.

**Spediteur,** *der; -s, -e* nəqliyyəçi, daşıyıcı.

**Spedition,** *die; -, -en* nəqliyyat şirkəti, daşıma şirkəti.

**Speer,** *der; -(e)s, -e* cida, mirzaq, nizə.

**Speerwerfen,** *das; -s (Sport)* nizə atma, nizə tullama.

**Speiche,** *die; -, -en* **1.** mil; **2.** *an.* mil sümüyü.

**Speichel,** *der; -s* tüpürcək, ağız suyu, lüğab.

**Speicheldrüse,** *die; -, -n* tüpürcək vəzi.

**Speichellecker,** *der; -s, -* yaltaq.

**Speicher,** *der; -s, -* anbar, depo.

**speichern** *vt* anbara yığmaq; toplamaq, yığmaq.

**Speicherung,** *die; -, -en* yığma, toplama.

**speien** *vt* **1.** *(spucken)* tüpürmək; **2.** *(Blut)* qan qusmaq; **3.** *(Lava usw.)* püskürmək; *vi* qusmaq.

**Speise,** *die; -,-n* yemək, xörək, biş-düş, çay-çörək.

**Speiseeis,** *das; -es* dondurma.

**Speisekammer,** *die; -, -n* anbar.

**Speisekarte,** *die, -, -n* yemək kartı, yemək siyahısı.

**speisen** *vi* xörək yemək; *vt* yedizdirmək.

**Speiseröhre,** *die; -, -n an.* qida borusu.

**Speisesaal,** *der; -(e)s, -säle* yemək salonu.

**Speisung,** *die; -, -en techn.* təchiz etmə.

**Spektakel**[1]**,** *der; -s, - (Lärm)* qalmaqal,

qışqırıq.

**Spektakel²,** *das; -s, -* *(Schauspiel)* tamaşa; teatr tamaşası *(oyunu).*

**Spektralanalyse,** *die; -, -n* *phys.* spektral analizi, teyf analizi.

**Spektrum,** *das; -s, -tren u. -tra* **1.** *phys.* spektral, teyf; **2.** *fig.* *(Vielfallt)* rəngbərənglik, müxtəlifrənglik.

**Spekulant,** *der; -en, -en* möhtəkir.

**Spekulation,** *die; -, -en* möhtəkirlik, təhlükəli saziş.

**spekulativ** *adj.* **1.** ehtikar, möhtəkirliklə; **2.** *(Ideen)* fərziyyə əsasında, nəzəri təcrübəyə əsaslanmayan.

**spekulieren** *vi* **1.** güman etmək, fərz etmək, təxmin etmək; **2.** *H* birjada *(Süd. : bursda)* oynamaq; möhtəkirlik etmək.

**Spelunke,** *die; -, -n* adı pisə çıxmış meyxana.

**spendabel** *adj.* əli açıq.

**Spende,** *die; -, -n* bağış, ianə; yardım, sədəqə, xeyrat.

**spenden** *vt* **1.** ianə vermək, bağışlamaq; sədəqə vermək *(für A/bir şey və ya bir kəs üçün);* **2.** *(Blut)* qan vermək; *j-m Trost ~* bir kəsə təsəlli vermək.

**Spender,** *der; -s, -* **1.** yardım edən, bağışçı; sədəqə verən; **2.** *(Blutspender)* qan verən.

**spendieren** *vt F* qonaq etmək; hədiyyə vermək.

**Spendierhosen** *die/pl.; umg. : die ~ anhaben* əli açıq olmaq, xərcləmək.

**Spengler,** *der; -s, -* tənəkəçi.

**Sperber,** *der; -s, -* kərkincək *(quş).*

**Sperenzchen** *die/pl. F* başağrısı, çətinlik; *~ machen* başağrısı vermək.

**Sperling,** *der; -s, -e* sərçə.

**Sperma,** *das; -s, -men* sperma, məni, rüşeym.

**sperrangelweit** *adv.* taybatay açıq; *die Tür steht ~ offen* qapı taybatay açıqdır.

**Sperre,** *die; -, -n* bağla(n)ma, hasar, çəpər, barrikada; blokada, embarqo, əngəl, sədd, maneə.

**sperren** *vt* **1.** hasar çəkmək, çəpər çəkmək; qarşısını kəsmək; **2.** *(Einfuhr usw.)* qadağan etmək, embarqo qoymaq; **3.** *(Gas, Licht usw.)* kəsmək; **4.** *(Spieler)* oyun haqqından məhrum etmək; **5.** *(Konto)* hesabını bağlamaq; **6.** *(einsperren)* həbs etmək; **7.** *(Strasse, Weg für den Verkehr)* bağlamaq; *vr sich ~* inad etmək, əleyhinə çıxmaq, qarşı durmaq *(gegen A/nəyinsə); gesperrt* bağlı.

**Sperrgebiet,** *das; -(e)s, -e* qadağan zonası *(bölgəsi).*

**Sperrholz,** *das; -(e)s, -¨er* faner.

**sperrig** *adj.* çox yer tutan.

**Sperrkonto,** *das; -s, -ten* bağlanmış hesab.

**Sperrmüll,** *der; -s* ağır zibil, çox yer tutan zibil.

**Sperrung,** *die; -, -en* bağla(n)ma; blokad*(a).*

**Spesen** *die/pl.* xərc, məsrəf, məsarif.

**spesenfrei** *adj.* pulsuz, xərcsiz.

**Spezi,** *der; -s, -s* *F* yaxın dost, səmimi dost.

**Spezialarzt,** *der; -es, -¨e* mütəxəssis həkim.

**Spezialausbildung,** *die; -, -en* xüsusi təhsil *(təlim).*

**Spezialfach,** *das; -(e)s, -¨er* ixtisas.

**Spezialgebiet,** *das; -(e)s, -e* *s. Spezialfach.*

**spezialisieren** *vr : sich ~* ixtisaslanmaq *(auf A/).*

**Spezialisierung,** *die; -, -en* ixtisaslaşma.

**Spezialist,** *der; -en, -en* mütəxəssis, ixtisasçı.

**Spezialität,** *die; -, -en* **1.** ixtisas; **2.** *(Speise)* ...məxsus, xüsusi.

**speziell** *adj.* ...məxsus, xüsusi, özəl, ayrı, xas, özünəməxsus.

**spezifisch** *adj.* xüsusi, məxsus, özünəməxsus; *~es Gewicht* xüsusi çəki.

**spezifizieren** *vt* müfəssəl göstərmək.

**Sphäre,** *die; -, -n* **1.** dairə; kürə şar; **2.** fəaliyyət dairəsi; *Machtsphäre* qüdrət dairəsi.

**sphärisch** *adj.* kürəvi.

**Sphinx,** *die; -, -e* sfinks, sfinks heykəli.

**spicken** *vt* **1.** *(Fleisch)* ətin içini piylə doldurmaq; **2.** *fig.* 1. dolu olmaq; 2. *F (bestechen)* rüşvət vermək; *F j-m den Beutel ~* bir kəsin cibini *(kassasını)* pul ilə doldurmaq; *F gespickt mit Fehlern* yanlışları olan, yanlışlarla dolu.

**Spicker,** *der; -s, - (Schüler)* imtahanda fırıldaqçılıq edən şagird, *-in* üzündən yazan şagird.

**spie** *s. speien.*

**Spiegel,** *der; -s, -* **1.** ayna, güzgü; **2.** *(Oberfläche e-r Flüssigkeit)* səth, mayelərin səthi; *Meeresspiegel* dəniz səthi; **3.** *(am Kragen der Uniform)* yaxa nişanı, yaxaya vurulan nişan; *fig. j-m e-n ~ vorhalten* bir kəsə eybini göstərmək.

**Spiegelbild,** *das; -(e)s, -er* əks, surət.

**Spiegelei,** *das; -(e)s, -er* nümru, qayğanaq.

**Spiegelfechterei,** *die, -, -en* riyakarlıq, aldatma, gözdən pərdə asma.

**spiegelglatt** *adj.* ayna kimi hamar.

**spiegeln** *vt* eks etdirmək; *vr sich ~* əks olunmaq, şəkil düşmək.

**Spiegelschrift,** *die; -* aynada oxunan yazı.

**Spiegelung,** *die; -, -en* əks etdirmə.

**Spiel,** *das; -(e)s, -e* **1.** oyun; iş; **2.** *(Glücksspiel)* qumar; **3.** *mus.* musiqi aləti çalma; *Olympische ~e* Olimpiyada; *sein Leben aufs ~ setzen* həyatını təhlükəyə salmaq; *auf dem ~ stehen* təhlükədə olmaq; *mit j-m leichtes ~ haben* bir kəsin asanlıqla öhdəsindən gəlmək, barmağının ucunda oynatmaq; *lass ihn aus dem ~!* onu bu işə qatma!

**Spielball,** *der; -(e)s, -¨e* **1.** top; **2.** *fig.* oyuncaq.

**Spielbank,** *die; -, -en* qumarxana, kazino.

**Spieldose,** *die; -, -n* musiqiçalan qutu.

**spielen** *vt* **1.** oynamaq; **2.** *mus.*çalmaq; **3.** *Th.* ifa etmək; **4.** *(vortäuschen)* hiylə etmək; *vi (Farbe)* rəngdən-rəngə çalmaq; *e-n Streich ~* ələ salmaq; *gespielt fig.* yalandan; *mit dem Gedanken ~* düşünmək; *alle Beziehungen ~ lassen* bütün imkanlardan istifadə etmək.

**spielend** *adv.* asanlıqla, rahatlıqla.

**Spieler,** *der; -s, -* **1.** oyunçu, oynayan; **2.** *mus.* çalğıçı.

**Spielerei,** *die; -, -en* oyun, əyləncə.

**spielerisch** *adj.* **1.** oyun kimi; **2.** *(ohne Ernst)* qeyri-ciddi; **3.** *(Sport) ein ~ starker Gegner* oyunu çox yaxşı olan rəqib.

**Spielfeld,** *das; -(e)s, -er* oyun meydançası, yarış meydanı.

**Spielfilm,** *der; -(e)s, -e* bədii film.

**Spielgefährte,** *der; -n, -n* oyun yoldaşı.

**Spielkamerad,** *der; -en, -en s. Spielgefährte.*

**Spielkarte,** *die; -, -n* oyun kartı.

**Spielleiter,** *der; -s, -* rejissor.

**Spielleitung,** *die; -, -en* reji, rejissura.

**Spielmarke,** *die; -, -n* jeton.

**Spielplan,** *der; -(e)s, -¨e* proqram, repertuar.

**Spielplatz,** *der; -es, -¨e* oyun meydançası.

**Spielraum,** *der; -(e)s, -¨e* **1.** *fig.* hərəkət azadlığı; **2.** *techn.* ara.

**Spielregel,** *die; -, -n* oyun qaydası.

**Spielstand,** *der; -(e)s, -¨e (Sport)* hesab, oyunun hesabı *(Süd. : nəticəsi).*

**Spielverderber,** *der; -s, -* oyun pozan, oyun korlayan, dağal.

**Spielwaren** *die/pl.* oyuncaqlar.

**Spielzeit,** *die; -, -en* **1.** *(Sport)* oyun müddəti; **2.** *Th.* icra vaxtı, veriliş müddəti.

**Spielzeug,** *das; -(e)s, -e* oyuncaq *(lar pl.),* qolçaq.

**Spieß,** *der; -es, -e* **1.** *(Lanze, Speer)* nizə, mizraq; **2.** *(Bratspieß)* şiş; **3.** *mil.* feldfebel.

**Spießbraten,** *der; -s, -* şişkabab.

**Spießbürger,** *der; -s, - fig. (engstirniger Mensch)* dardüşüncəli adam.

**spießen** *vt* **1.** keçirtmək *(auf A/bir şeyə);* **2.** şişə çəkmək.

**Spießer,** *der; -s, - s. Spießbürger.*

**spießig** *adj.*dardüşüncəli, məhdud görüşlü, kiçik burjua.

**spinal** *adj. : ~e Kinderlähmung* onurğa beyni, uşaq iflicliyi.

**Spinat,** *der; -(e)s* ispanak, ispanaq.

**Spind,** *das u. der; -(e)s, -e* dar şkaf, bir-taylı şkaf.

**Spindel,** *die; -, -n* iy; *techn. (Achse)* ox, mil.

**spindeldürr** *adj.* sısqa.

**Spinne,** *die; -, -n* hörümcək, toratan, ənkəbut.

**spinnefeind** *adj. : F j-m ~ sein* bir kəsə nifrət etmək.

**spinnen** *vt (Wolle)* cəhrə əyirmək, əyirmək; *vi* **1.** *(verrückt sein)* ağlı başında olmamaq, dəli olmaq;**2.** *fig. (ausdenken)* uydurmaq, toxumaq; *ein Netz von Lügen ~* yalan toxumaq.

**Spinner,** *der; -s, -* **1.** əyirici; **2.** *fig.* ağlı uçmuş, ağlı azmış.

**Spinnerei,** *die, -, -en* **1.** iplik karxanası; **2.** *fig.* mə`nasız şey, boş söz.

**Spinnrad,** *das; -(e)s, -¨er* ayaq cəhrəsi, cəhrə.

**Spinnrocken,** *der; -s, -* cəhrə.

**Spinnwebe,** *die; -, -n* hörümcək toru.

**spintisieren** *vi F* xəyala qapılmaq, əcaib fikirlər etmək.

**Spion,** *der; -s, -e* çuğul, casus, güdükçü, xəfiyyəçı, xəbərçi.

**Spionage,** *die; -* casusluq, çuğullama.

**Spionageabwehr,** *die; -* əks-kəşfiyyat.

**spionieren** *vi* casusluq etmək, çuğullamaq.

**Spirale,** *die; -, -n* buruq, burum; spiral, çənbər.

**spiralig** *adj.* buruq-buruq, hələzuni, halqa-halqa, halqavarı.

**spiralförmig** *adj. s. spiralig.*

**Spiritismus,** *der; -* spritizm, ruha inanma.

**spiritistisch** *adj.* spritizm, spiritist.

**spirituell** *adj.* ruhi.

**Spirituosen** *die/pl.* spirtli, içkilər.

**Spiritus,** *der; -* spirt, alkoqol, alkol.

**Spirituskocher,** *der; -s, -* spirt lampası.

**Spital,** *das; -s, -¨er* xəstəxana.

**spitz** *adj.* **1.** *(Messer usw.)* iti, itiuc*(lu)*, biz, bimbiz; **2.** *fig.* acı, sancan; *e-e ~e Zunge haben* acıdil*(li)* olmaq.

**Spitzbart,** *der; -(e)s, -¨e* keçisaqqal.

**Spitzbube,** *der; -n, -n* fırıldaqçı, yalançı.

**Spitze,** *die; -, -n* **1.** (iti) uc, tiyə; övc, evc; **2.** *(Bergspitze)* zirvə, dağ təpəsi *(başı);* **3.** *fig. (Führung)* rəhbərlik, baş; *an der ~ des Staates* dövlət*(in)* başında; **4.** *(Mundstück)* müştük; **5.** *F (Höchstgeschwindigkeit)* ən çox sürət; **6.** *(Kritik)* acı söz; **7.** *(Schuhspitze)* çəkmənin burnu; **8.** *(sehr gut)* çox yaxşı, fövgəladə, əla; *~ sein* çox yaxşı olmaq, əla olmaq ; *et. auf die ~ treiben* bir şeyi ifrata çat-dırmaq; *sich an die ~ setzen -in* başına keçmək, rəhbərliyini ələ almaq.

**Spitzel,** *der; -s, -* çuğul, casus, güdükçü, xəfiyyəçı.

**Spitzeldienst,** *der; -(e)s, -e : ~ leisten vi* casusluq etmək, çuğullamaq.

**spitzen** *vt (Bleistift)* yonmaq; itiləmək; *Ohren ~* qulaqlarını şəkləmək; *vr sich ~* gözləmək; ümid bəsləmək *(auf A/bir şeyə).*

**Spitzengeschwindigkeit,** *die; -, -en* ən yüksək sürət.

**Spitzenklasse,** *die; -* lap ə´la, çox yaxşı.

**Spitzenleistung,** *die; -, -en techn.* ən yüksək güc; *fig.* ən yüksək nailiyyət.

**Spitzenmarke,** *die; -, -n* əla keyfiyyət.

**Spitzenqualität,** *die; -, -en* əla keyfiyyət.

**Spitzenwein,** *der; -(e)s, -e* əla şərab.

**Spitzer,** *der; -s, -* qələmtəraş.

**spitzfindig** *adj.* xırdaçı, vasvası.

**Spitzfindigkeit,** *die; -, -en* vasvasılıq.

**Spitzhacke,** *die; -, -n* iti uclu külüng.

**spitzkriegen** *vt F* bilmək, çıxartmaq.

**Spitzname,** *der; -ns, -n* ləqəb.

**spitzwinklig** *adj.* itibucaqlı.

**Splitt,** *der; -(e)s, -e* daş xırdası, daş qəlpəsi.

**Splitter,** *der; -s, -* **1.** qəlpə; **2.** *(Holzsplitter)* tilişkə, tikan; **3.** *(Glassplitter)* şüşə xırdası; **4.** *(Granatsplitter)* qumbara parçası, çarpanaq.

**splittern** *vi* parçalanmaq.

**splitterfasernackt** *adj.* lüm-lüt, lap lüt, tamam çılpaq, lüt-üryan.

**sponsern** *vt* kömək etmək, dəstəkləmək, *-ə* sponsorluq etmək.

**Sponsor,** *der;-s, -en* hami, himayə edən, himayəsi altına alan, kömək edən, sponsor.

**Sponsoring,** *das; -s, -* sponsorluq.

**spontan** *adj.* öz-özünə, birdən-birə, lapdan, gözlənilmədən, qeyri-iradi, ixtiyarsız, kortəbii, qəflətən, birdən, damdandüşmə.

**Spontaneität,** *die; -* ixtiyarsızlıq, qeyri-iradilik.

**sporadisch** *adj.* tək bir, tək tük.

**Sporn,** *der; -s, Sporen* **1.** mahmız; *dem Pferd die Sporen geben* atı mahmızlamaq; **2.** *(bei Vögeln)* xoruzun və bəzi başqa quşların ayaqlarının arxasında sivri buynuz çıxıntısı; **3.** *med. (an der Ferse)* topuqda çıxıb əzab verən sümük; **4.** *fig.* həvəsləndirmə, təhrik, təşviq, canlandırma; *fig. sich die Sporen verdienen* mühum bir vəzifədə olduğu zaman öz ləyaqətini göstərmək.

**spornstreichs** *adv.* dərhal, təxirsiz.

**Sport,** *der; -(e)s* idman, vərdiş, sport; *~ treiben* idman *(vərdiş)* etmək, idmanla məşğul olmaq.

**Sportart,** *die; -, -en* idman növü.

**Sportartikel** *die/pl.* idman əşyası.

**Sportfest,** *das; -(e)s, -e* idman bayramı, idman festivalı.

**Sporthalle,** *die; -, -n* idman salonu.

**Sportler,** *der; -s, -* idmançı.

**Sportlerin,** *die; -, -en* idmançı *(qadın).*

**sportlich** *adj.* idman.

**Sportplatz,** *der; -es, -¨e* idman meydan(ças)ı.

**Sportschau,** *die; -, -en* **1.** idmana baxma; **2.** *(TV)* idman verilişi.

**Sportverein,** *der; -(e)s, -e* idman klubu.

**Spott,** *der; -(e)s* məsxərə, istehza, rişxənd; *lit.* həcv; *s-n ~ treiben* ələ salmaq *(mit D/kimisə, nəyisə).*

**spottbillig** *adj.* çox ucuz, sudan ucuz.

**Spöttelei,** *die; -, -en* acı sözlər, rişxənd, istehza.

**spötteln** *vi* məsxərəyə qoymaq, rişxənd eləmək.

**spotten** *vi* ələ salmaq, istehza etmək, rişxənd eləmək.

**Spottgedicht,** *das; -(e)s, -e* həcv; satira.

**Spötter,** *der; -s, -* məsxərəçi, istehza edən, lağçı.

**spöttisch** *adj.* **1.** *(Worte)* istehzalı, acı, rişxəndli, gülünc, atmaca; **2.** *(Person)* məsxərəçi.

**Spottpreis,** *der; -(e)s, -e* çox ucuz; *für e-n ~* çox ucuza, müftə qiymətə.

**sprach** *s. sprechen.*

**sprachbegabt** *adj.* dil qabiliyyətli.

**Sprache,** *die; -, -n* **1.** dil; *die menschliche ~* insan dili; *Zeichensprache* işarət dili; *die deutsche ~* Alman dili; *die Muttersprache* ana dili; **2.** *zur ~ bringen* bir şeyi müzakirə etmək, müzakirəyə qoymaq; *vor Schreck die ~ verlieren* qorxudan dili tutulmaq; *heraus mit der ~!* danış!, qorxma danış!.

**Sprachfehler,** *der; -s, -* dil nöqsanı; nitq qüsuru.

**Sprachforscher,** *der; -s, -* dilçi, dilşünas.

**Sprachführer,** *der; -(e)s, -* danışıq kitabı.

**Sprachkenntnisse** *die/pl.* dil bilmə.

**sprachkundig** *adj.* dil bilən.

**Sprachlabor,** *das; -s, -s* dil laboratoriyası.

**Sprachlehre,** *die; -, -n* dil dərsliyi; qrammatika kitabı.

**Sprachlehrer,** *der; -(e)s, -* dil müəllimi.

**sprachlich** *adj.* dilə aid; *adv.* dilə dair.

**sprachlos** *adj.* sözsüz, dilsiz; dili tutulmuş, mat-məəttəl, mat-məbhut *(vor D/-dən).*

**Sprachlosigkeit,** *die; -* **1.** dilsizlik; **2.** mat qalıb danışa bilməmə, danışma qabiliyyəti əldən vermə.

**Sprachreform,** *die; -, -en* dil islahatı.

**Sprachregel,** *die; -, -n* qrammatika *(Süd. : a. qramer).*

**Sprachreinigung,** *die; -* dili xarici sözlərdən təmizləmə.

**Sprachrohr,** *das; -s, -e a. fig.* səs borusu; *fig.* danışanı, sözçüsü.

**Sprachschatz,** *der; -(e)s, -* dilin lüğət fondu, dil xəzinəsi, dil dağarcığı.

**Sprachstörung,** *die; -, -en* dil qüsuru.

**Sprachunterricht,** *der; -(e)s* dil dərsi.

**Sprachvergleich,** *der; -(e)s, -e* dil müqayisəsi.

**Sprachwissenschaft,** *die; -, -en* dilçilik, dilşünaslıq.

**Sprachwissenschaftler,** *der; -(e)s, -* dilşünas, dilçi.

**sprang** *s. springen.*

**Spray,** *der u. das; -s, -s* sprey.

**sprechen** *vi* **1.** danışmaq, söyləmək *(von D, über A/ kimdənsə, kim haqqındasa, nə haqqındasa)*; dillənmək, dinib-danışmaq; *das Kind lernt ~* uşaq danışmaq öyrənir; *Deutsch ~* Almanca danışmaq; **2.** *(sich unterhalten)* söhbət etmək; **3.** *(j-n)* bir kəslə danışmaq, bir kəs ilə görüşmək; *kann ich dich e-n Augenblick ~?* sən ilə bir dəqiqə danışa *(görüşə)* bilərəmmi? *e-e Sprache ~* bir dili danışmaq; *zu ~ sein* danışmağa hazır olmaq; *nicht zu ~ sein* başı məşğul olmaq; *ein Urteil ~* hökm çıxar(t)maq; *für j-n ~* bir kəsi himayət etmək, dəstəkləmək; təmsil etmək; *mit sich selbst ~* öz-özünə danışmaq; *wir sprechen uns noch!* danışarıq! *(təhdid üçün).*

**Sprechen,** *das; -s* danışma.

**sprechend** *adj.* aydın, aydın-aşkar, bəlli; çox şey ifadə edən, mənalı; *ein ~es Beweis* kəskin bir dəlil; *ein ~er Blick* mənalı bir baxış.

**Sprecher,** *der; -s, -* **1.** natiq, danışan; **2.** *(Wortführer e-r Gruppe)* nümayəndə, icmalçı, carçı; **3.** *(Radio usw.)* spiker.

**Sprechstunde,** *die; -, -n* qəbul saatı, müayinə saatı.

**Sprechweise,** *die; -, -n* danışıq tərzi.

**Sprechzimmer,** *das; -s, -* qəbul otağı.

**spreizen** *vt* **1.** *(Beine)* aralamaq, aralı qoymaq; **2.** *(Arme)* gərmək; *vr sich ~ fig.* 1. xoruzlanmaq; 2.*(gegen et.)* müqavimət göstərmək, etiraz etmək.

**Sprengbombe,** *die; -, -n* partlayıcı bomba.

**Sprengel,** *der; -s, -* **1.** *(e-s Bischofs)* baş keşişin dairəsi; **2.** *(Amtsbezirk)* inzibati rayon *(dairə).*

**sprengen** *vt* **1.** *(mit Sprengstoff)* partlatmaq, uçurtmaq; qırmaq; **2.** *(e-e Versammlung)* dağıtmaq; **3.** *(bespritzen)* sulamaq; *vi* çapmaq.

**Sprengkraft,** *die; -* partlayış gücü *(qüvvəsi).*

**Sprengmeister,** *der; -s, -* partladıcı.

**Sprengsatz,** *der; -es, -¨e* partlayıcı maddə.

**Sprengstoff,** *der; -(e)s, -e* partlayıcı maddə.

**Sprengung,** *die; -, -en* partlayış, partlama; qırma.

**Sprengwagen,** *der; -s, -* küçə sulayan maşın.

**sprenkeln** *vt* ləkələmək, xal-xal etmək.

**Spreu,** *die; -* saman, qabıq; *fig.* zibil.

**Sprichwort,** *das; -(e)s, -¨er* atalar sözü, zərbi-məsəl; *Sprichwörter* əmsal.

**sprichwörtlich** *adj.* atalar sözü kimi, zərbi-məsəl kimi.

**sprießen** *vt* cücərmək, bitmək, göyərmək, çıxmaq, dişərmək.

**Springbrunnen,** *der; -s, -* fəvvarə.

**springen** *vi* **1.**atlamaq, sıçramaq, hoppanmaq, atılmaq *(über A/-dən)*; *zur Seite ~* yan tərəfə *(yana)* atılmaq *(sıçramaq)* **2.** *(Glas)* çatlamaq; sınmaq; **3.** *(rasch laufen) F* qaçmaq, bərk qaçmaq; **4.** *(platzen)* partlamaq.

**springend** *adj. : fig. der ~e Punkt* əsas məsələ.

**Springer,** *der; -s, -* **1.** atılan, tullanan; **2.** *(Schach)* at.

**Springflut,** *die; -, -en* dəniz qabarması.

**Springinsfeld,** *der; -(e)s* yüngül xasiyyətli adam.

**Springseil,** *das; -(e)s, -e* atlama ipi.

**Sprint,** *der; -s, -s* sür`ətli qaçış.

**sprinten** *vi* sür`ətlə qaçmaq.

**Sprit,** *der; -(e)s* təmizlənmiş sprit; *F* benzin.

**Spritze,** *die; -, -n* **1.** *med.* iynə; *e-e ~ geben* iynə vurmaq *(j-m/bir kəsə)*; **2.**

*(Feuerspritze)* yanğın kəməri.

**spritzen** *vt* **1.** *(Rasen)* səpələmək, səpmək, çiləmək; sıçramaq; **2.** *med.* iynə vurmaq; *j-m et. ~* bir kəsə bir şeyin iynəsini vurmaq ; **3.** *(Auto)* boyamaq, rəng vurmaq; *vi* səpələnmək.

**Spritzer,** *der; -s, -* **1.** ləkə, boya ləkəsi; **2.** *(Schuss)* bir qurtum içəcək, bir udum; *Whisky mit e-m (Schuss) Soda* wiski bir udum *(bir qurtum, bir az)* soda ilə.

**spritzig** *adj.* **1.** *(Rede, Komödie)* coşğun, canlı, təravətli; **2.** *(Wein)* sərinlədici, canlandırıcı; az köpüklü şampanya, mədən suyu.

**spröde** *adj.* **1.** tezsınan; **2.** *(Haut)* çatlaq; **3.** *(Stimme)* tutqun; **4.** *(Mädchen)* kişilərdən uzaq gəzən, soyuq.

**spross** *s. sprießen.*

**Spross,** *der; -es, -e* **1.** zoğ; cücərti, göyərti, dişərti; **2.** *(Nachkomme)* nəsil, övlad; oğul.

**Sprosse,** *die; -, -n* pillə, nərdivan pilləsi.

**Sprössling,** *der; -s, -e* oğul, övlad *(j-s/ bir kəsin).*

**Sprotte,** *die; -, -n* şprot, bir növ kiçik balıq.

**Spruch,** *der; -(e)s, -¨e* **1.** kəlam; nəsihət, hikmət; atmaca; **2.** *jur. (Richterspruch)* qərar, hökm.

**Spruchband,** *das; -(e)s, -¨er* şüar bayrağı.

**spruchreif** *adj.* qərara hazır, müzakirəyə hazır, vaxtı yetişmiş.

**Sprudel,** *der; -s, -* **1.** *(Wasserwirbel)* girdab; **2.** *(Mineralwasser)* mədən suyu.

**sprudeln** *vi* qaynamaq, fışqırmaq, pıqqıldamaq, paqqıldamaq; fəvvarələnmək.

**sprühen** *vt (Flüssigkeit)* səpmək, səpələmək; *vi* **1.** səpilmək; **2.** *(Funken)* qığılcım saçmaq; *es sprüht* yağış narın yağır.

**Sprühregen,** *der; -s* narın yağış, çiskin, çisək.

**Sprung,** *der; -(e)s, -¨e* **1.** sıçrayış, sıçrama, atlanma; *e-n ~ machen* atlanmaq; **2.** *(Riss)* çat, yarıq; *e-n ~ bekommen* çatlamaq; *F auf dem ~ sein* tələsmək; *fig. keine großen Sprünge machen können* pulsuz vəziyyətdə olmaq.

**Sprungbrett,** *das; -(e)s, -er* (suya) atılma taxtasi, hoppanış taxtası; tramplin.

**Sprungfeder,** *die; -, -n (in Polstermöbeln usw.)* yay.

**Sprungfedermatratze,** *die; -, -n* yaylı döşək.

**sprunghaft** *adj.* **1.** birdən-birə dəyişilən; *die Preise sind ~ in die Höhe gestiegen* qiymətlər birdən-birə qalxdı; **2.** *(Mensch, Charakter)* dəyişkən xasiyyətli, xasiyyətcə müvazinətsiz, bir fikri dəvam etdirməyən şəxs.

**Sprunghaftigkeit,** *die; -* müvazinətsizlik.

**Sprungschanze,** *die; -, -n* atılma təpəsi, tramplin.

**Spucke,** *die; -* tüpürcək, ağız suyu.

**spucken** *vt* **1.** tüpürmək; **2.** *(sich übergeben)* qusmaq; **3.** *(Blut)* qan qusmaq.

**Spucknapf,** *der; -(e)s, -¨e* tüpürcək qabı.

**Spuk,** *der; -(e)s, -e* xəyal, qarabasma, kabus.

**spuken** *vi* ruh görünmə; *hier spukt es* burada ruh görünür.

**Spule,** *die; -, -n* qarqara, makara.

**Spüle,** *die; -, -n* cam, qab-qaşıq yuma ləyəni.

**spulen** *vt* qarqaraya sarımaq.

**spülen** *vt* yumaq; suda çalxalamaq; *ans Ufer ~* sahilə atmaq.

**Spülkasten,** *der; -s, -¨* sifon.

**Spülung,** *die; -, -en* yuma, yaxalama.

**Spülmaschine,** *die; -, -n* qab-qaşıq yuma maşını.

**Spülmittel,** *das; -s, -* qab-qaşıq yuyan maddə, yuyucu maddə.

**Spülwasser,** *das; -s* qab suyu, çirkab su.

**Spulwurm,** *der; -(e)s, -¨er* askarid*(a),* bağırsaq qurdu.

**Spund,** *der; -(e)s, -e* **1.** qapaq, tıxac; **2.** *F* təcrübəsiz cavan, ağzından hələ süd iyi gələn cavan.

**spunden** *vt* tıxaclamaq, tıxamaq.

---

**Spur,** *die; -, -en* **1.**iz, ləpir, əsər, cığır; soraq; **2.** *(Merkmal)* nişanə, əlamət, əsər-əlamət; **3.** *fig. (Hauch)* zərrə, bir az; *nicht e-e ~ von* heç, əsla, qətiyyən; *fig. (j-m) auf die ~ kommen* bir kəsin izinə düşmək, bir kəsin gizli işlərini meydana çıxarmaq; *~en hinterlassen* əsər buraxmaq.

**spürbar** *adj.* hiss olunan, gözəçarpan, görünən.

**spuren** *vi F (gehorchen)* sözünə baxmaq, qulaq asmaq, itaət etmək.

**spüren** *vt* hiss etmək, duymaq; anlamaq.

**Spurenelement,** *das; -(e)s, -e* xəstə olmamaq üçün bədənə lazım olan maddə, çox az miqdarda tapılan maddə.

**Spürhund,** *der; -(e)s, -e* **1.** axtarıcı it; **2.** *fig.* casus.

**spurlos** *adj.* izsiz, əsər-əlamətsiz; *adv.* əsər qoymadan, xəbər-ətərsiz; *nicht ~ an j-m vorübergehen* bir kəsdə iz *(təəssürat)* qoymadan keçməmək; *~ verschwinden* izsiz yox olmaq.

**Spürnase,** *die; -, -n : F e-e ~ für et. haben* bir şeyi qabaqcadan hiss etmək, bir şeyi qabaqcadan görmək.

**Spürsinn,** *der; -(e)s* duyma, duyma qabiliyyəti.

**Spurt,** *der; -(e)s, -s* sürəti artırma.

**spurten** *vi sport* sürəti artırmaq; *fig.* sürətlə qaçmaq.

**Spurweite,** *die; -, -n* dəmir yolunun enliliyi.

**sputen** *vr sich ~* tələsmək, əcələ etmək.

**Sputum,** *das; -s, ..ta med.* bəlğəm, tüpürcək; qan.

**Staat,** *der; -(e)s, -en* **1.** dövlət; **2.** *(Regierung)* hökumət; **3.** *(schöne Kleidung)* şıq *(Süd. : şik)* paltar; *mit et. ~ machen* bir şey ilə fors etmək.

**Staatenbund,** *der; -(e)s, -¨e* dövlətlər ittifaqı.

**staatenlos** *adj.* vətəndaşsız, vətəndaşlığı olmayan.

**staatlich** *adj.* dövləti.

**Staatsaffäre,** *die; -, -n F : e-e ~ aus et. machen* bir şeyi böyütmək *(şişirtmək).*

**Staatsakt,** *der; -(e)s, -e* hökumət tərəfindən bərpa edilən təntənəli mərasim.

**Staatsaktion,** *die; -, -en F s. Staatsaffäre;* heçdən məsələ düzəltmək.

**Staatsangehörige(r),** *der u. die; -n, -n* təbəə, vətəndaş, rəiyyət.

**Staatsangehörigkeit,** *die; -, -en* təbəəlik, vətəndaşlıq.

**Staatsanwalt,** *der; - (e)s, -¨e* prokuror, dövlət vəkili *(Süd. : dadistan).*

**Staatsanwaltschaft,** *die; -* prokurorluq, dövlət vəkilliyi.

**Staatsanzeiger,** *der; -s, -* rəsmi qəzet.

**Staatsbank,** *die; -, -en* mərkəzi bank, dövlət bankı.

**Staatsbeamte(r),** *der, -n, -n* dövlət məmuru, dövlət qulluqçusu.

**Staatsbürger,** *der; -s, -* vətəndaş.

**Staatsbürgerschaft,** *die; -, -en* vətəndaşlıq.

**Staatschef,** *der; -s, -s* dövlət başçısı.

**Staatsdienst,** *der; -es* dövlət xidməti, dövlət qulluğu.

**Staatseinkünfte,** *die/pl.* dövlət gəliri *sg.*

**Staatsexamen,** *das; -s, - u. -mina* dövlət imtahanı, rəsmi imtahan.

**Staatsform,** *die; -, -en* dövlət forması; hökumət forması.

**Staatsgeheimnis,** *das; -ses, -se* dövlət sirri.

**Staatsgewalt,** *die; -* dövlət hakimiyyəti.

**Staatshaushalt,** *der; -(e)s, -e* dövlət büdcəsi.

**Staatshoheit,** *die; -* dövlət suverenliyi, dövlət hakimiyyəti.

**Staatskasse,** *die; -, -n* dövlət xəzinəsi, beytülmal.

**Staatskosten,** *die/pl. : auf ~* dövlət hesabına.

**Staatsmann,** *der; -(e)s, -¨er* yüksək dövlət xadimi, yüksək siyasi xadim.

**Staatsmonopol,** *das; -s, -e* dövlət inhisarı.

**Staatsoberhaupt,** *der; -(e)s, -¨er* dövlət başçısı.

**Staatsrat,** *der; -(e)s, -¨e* dövlət şurası.

**Staatsrecht,** *das; -(e)s* dövlət hüququ.

**Staatssekretär,** *der; -s, -e* nazir müavini; dövlət katibi.

**Staatsstreich,** *der; -(e)s, -e* dövlət çevrilişi.

**Staatssprache,** *die; -, -n* rəsmi dil.

**Staatsverfassung,** *die; -, -en* əsas qanun, anayasa, konstitusiya.

**Staatswappen,** *das; -s, -* dövlət gerbri.

**Staatswissenschaften,** *die/pl.* ictimai-siyasi elmlər.

**Staatszuschuss,** *der; -es, -¨e* dövlət tərəfindən maliyyə yardımı.

**Stab,** *der; -(e)s, -¨e* **1.** əsa; əlağacı, çəlik; mil; **2.** *(Personal)* müdirlər heyəti, personal; əməkdaşlar qrupu; *Unternehmensstab* sahibakarlar heyəti; **3.** *mil.* qərargah, ordugah; *fig. den ~ über j-n brechen* bir kəsi məhkum etmək.

**Stabhochsprung,** *der; -(e)s* uzun ağacla *(şüvüllə)* hündürlüyə tullanma.

**stabil** *adj.* **1.** sabit, möhkəm, davamlı, dəyişməyən; **2.** *(gesund)* sağlam, sağ.

**stabilisieren** *vt* möhkəmləşdirmək, sabitləşdirmək; *vr sich ~* sabitləşmək.

**Stabilität,** *die; -* sabitlik, dözümlülük; möhkəmlik.

**Stabilitätspolitik,** *die; -* sabitlik siyasəti.

**Stabreim,** *der; -(e)s, -e* aliterasiya, eyni səs və ya hecaların təkrarlanmasından ibarət şer tərzi.

**Stabsarzt,** *der; -es, -¨e* ordu həkimi.

**stach** *s. stechen.*

**Stachel,** *der; -s, -n* tikan; neştər, iynə.

**Stacheldraht,** *der; -(e)s, -¨e* tikanlı məftil.

**stachelig** *adj.* tikanlı; *fig.* acı, zəhərli.

**stacheln** *vt* **1.** sancmaq, çalmaq, vurmaq; **2.** *fig. (anreizen)* təhrik etmək.

**Stachelschwein,** *das; -(e)s, -e zo.* oxlu kirpi, tirəndaz.

**Stadel,** *der; -s, -* anbar.

**Stadion,** *das; -s, -dien* stadion.

**Stadium,** *das; -s, -dien* mərhələ, dərəcə, pillə; dövr, dönəm.

**Stadt,** *die; -, -¨e* şəhər; *Innenstadt* şəhərin içi, şəhərin mərkəzi; *außerhalb der ~* şəhər kənarında *(ətrafında); in der ~* şəhərdə; *in die ~ gehen* şəhərə getmək.

**Stadtamt,** *das; -(e)s, -¨er* bələdiyyə idarəsi.

**Stadtbahn,** *die; -, -en* metro, şəhər dəmir yolu.

**stadtbekannt** *adj.* şəhərdə məşhur, məşhur olan.

**Stadtbevölkerung,** *die; -* şəhər əhalisi, şəhər sakini.

**Stadtbewohner,** *der; -s, -* şəhər sakini.

**Stadtbezirk,** *der; -(e)s, -e* məhəllə, şəhər rayonu.

**Stadtbild,** *das; -(e)s, -er* şəhər mənzərəsi.

**Stadtbummel,** *der; -s, -* şəhəri gəzmə; *e-n ~ machen* şəhəri gəzmək.

**Städtchen,** *das; -s, -* kiçik şəhər; qəsəbə.

**Städtebau,** *der; -(e)s, -* şəhərsalma.

**Städter,** *der; -s, -* şəhərli.

**Stadtgebiet,** *das; -(e)s, -e* şəhər sahəsi.

**Stadtgespräch,** *das; -(e)s, -e* şəhərdə yayılmış şayiə.

**städtisch** *adj.* şəhərli; şəhərə aid.

**Stadtmitte,** *die; -* şəhər mərkəzi.

**Stadtparlament,** *das; -(e)s, -e* şəhər əncüməni, şəhər parlamenti.

**Stadtplan,** *der; -(e)s, -¨e* şəhər xəritəsi.

**Stadtplanung,** *die; -, -en* şəhərsalma.

**Stadtrand,** *der; -(e)s* şəhər kənarı.

**Stadtrat,** *der; -(e)s, -¨e* bələdiyyə idarəsi.

**Stadtrundfahrt,** *die; -, -en* şəhər gəzintisi.

**Stadtteil,** *der; -(e)s, -e* məhəllə, şəhər rayonu.

**Stadtverordnete(r),** *der u. die; -n, -n* bələdiyyə məclisinin üzvü.

**Stadtverwaltung,** *die; -, -en* bələdiyyə idarəsi.

**Stadtviertel,** *das; -s, -* məhəllə.

**Stafette,** *die; -, -n* xəbərçi, xəbər aparan.

**Staffel,** *die; -, -n* **1.** *Sport* qaçış yarışında dörd nəfərdən ibarət olan qrup; *Polizeistaffel* polis dəstəsi; **2.** ardıcıllıq;

**3.** *mil.* təyyarə və ya gəmi hissəsi; eşelon.

**Staffelei,** *die; -, -en (Gerüst, auf dem das Bild beim Malen steht)* rəssam dəzgahı.

**Staffellauf,** *der; -s, -¨e* estafet qaçışı, bayraqla qaçış yarışı.

**staffeln** *vt (abstufen)* dərəcələrə görə bölmək, dərəcələrə bölmək.

**Stagnation,** *die; -* durğunluq.

**stagnieren** *vi* durğunlaşmaq, sabit qalmaq, kasadlıq çəkmək, durğunluq vəziyyətində olmaq; *~der Zustand* durğun vəziyyət.

**stahl** *s. stehlen.*

**Stahl,** *der; -(e)s, -¨e* **1.** polad, çəlik; **2.** *fig.* tiyə.

**Stahlarbeiter,** *der; -s, -* polad əridən.

**Stahlbau,** *der; -(e)s, -ten* polad düzəltmə, polad əritmə.

**Stahlblech,** *das; -(e)s, -e* təbəqə polad.

**stählen** *vt fig.* möhkəmlətmək, qüvvətləndirmək; *vr sich ~* polad kimi olmaq, polada dönmək.

**stählern** *adj.* polad*(dan),* polad kimi.

**stahlhart** *adj.* polad kimi möhkəm.

**Stahlhelm,** *der; -(e)s, -e* polad dəbilqə, polad papaq.

**Stahlindustrie,** *die; -, -n* polad sənayei.

**Stahlstich,** *der; -(e)s, -e* polad üzərində həkk; həkk işi.

**Stahlwerk,** *das; -(e)s, -e* poladtökən zavod, poladəridən karxana.

**stak** *s. stecken.*

**staken** *vi* qayığı uzun ağac ilə dayaz suda irəli avarlamaq.

**Staket,** *das; -(e)s, -e* taxtadan hasar.

**Staketenzaun,** *der; -(e)s, -¨e s. Staket.*

**Stall[1],** *der; -(e)s, -¨e* tövlə, pəyə; ağıl, dam.

**Stall[2],** *der; -(e)s (Harn des Pferdes)* sidik.

**Stallungen,** *die/pl.* tövlələr *pl.*

**Stamm,** *der; -(e)s, -¨e* **1.** *(Baumstamm)* gövdə, kök; **2.** *(Volksstamm)* tayfa, qəbilə, boy, el; **3.** *(Familie)* nəsil, soy, tufaq; **4.** *fig.* kadr.

**Stammbaum,** *der; -(e)s, -¨e* nəsil şəcərəsi, şəcərənamə.

**stammeln** *vi* dili dolaşmaq, pəltək danışmaq.

**stammen** *vi : ~ aus -dən, -dan* törəmək, *-dən, -dan* əmələ gəlmək; *von D* əsli .... olmaq; *woher ~ Sie?* siz nə yerdən gəlirsiniz?; *~ von (Künstler usw.) -dən* olmaq, *-in* əsəri olmaq.

**Stammesführer,** *der; -s, -* elbəyi, el başçısı, elbaşı.

**Stammgast,** *der; -(e)s, -¨e* daimi müştəri, daimi qonaq.

**Stammhalter,** *der; -s, -* ilki, ilk oğul.

**stämmig** *adj.* **1.** *(stark)* güclü, qüvvətli; **2.** *(Baum)* uca, gövdəli.

**Stammkapital,** *das; -(e)s* əsas sərmayə.

**Stammkunde,** *der; -n, -n* daimi müştəri.

**Stammplatz,** *der; -es, -¨e* müştərinin daimi yeri.

**Stammsitz,** *der; -es, -e* daimi olma yeri, yaşama yeri.

**Stammtafel,** *die; -, -n* şəcərənamə.

**Stammtisch,** *der; -(e)s, -e* daimi müştərilərin müntəzəm görüşləri üçün təyin olmuş miz *(stol, masa).*

**Stammtischpolitik,** *die; -* meyxana siyasəti, keflənib siyasətdən danışma.

**Stammvater,** *der; -s, -¨* ulubaba,əcdad.

**stammverwandt** *adj.* həmqəbilə.

**Stammwähler,** *der; -s, -* bir partiyaya daimi səs verən adam, daimi seçici.

**Stamperl,** *das; -s, -* kiçik içki piyaləsi.

**stampfen** *vi* **1.** *(zerdrücken)* əzmək, döymək, tapdalamaq; **2.** *(mit dem Fuß)* təpikləmək, təpik vurmaq; **3.** ağır-ağır addımlamaq; *mit dem Fuß ~* ayaqları*(nı)* yerə vurmaq.

**stand** *s. stehen.*

**Stand[1],** *der; -(e)s, -¨e* **1.** *(Lage)* vəziyyət, hal; **2.** *(Verkaufsstand)* kiosk; **3.** *(Niveau)* səviyyə; **4.** *(Sport)* oyunun nəticəsi; *F e-n schweren ~ haben* çətin vəziyyətdə olmaq; *j-n in den ~ setzen et. zu tun* bir kəsə bir işin görməyini mümkün etmək, *-ə* imkan yaratmaq.

**Stand²,** *der; -(e)s, -¨e (Klasse, Schicht)* təbəqə, sinif.

**Standard,** *der; -s, -s* **1.** *(hoher, niedriger)* keyfiyyət səviyyəsi; **2.** *(Norm)* standart.

**standardisieren** *vt* standartlaşdırmaq.

**Standardwerk,** *das; -(e)s, -e* nümunəvi əsər, müəyyən bir sahəyə çox mühüm olan kitab.

**Standarte,** *die; -, -n* bayraq.

**Standbild,** *das; -(e)s, -er* heykəl.

**Ständchen,** *das; -s, -* serenada, təbrik mahnısı; *j-m ein ~ singen* bir kəsə serenada oxumaq.

**Ständer,** *der; -s, -* **1.** *(Gestell)* dayaq; altlıq; rəf; *Bücherständer* kitab rəfi; **2.** *(Pfosten)* dirək, sütun, tir.

**Standesamt,** *das; -(e)s, -¨er* vətəndaşlıq vəziyyətinin aktları şöbəsi.

**standesamtlich** *adj. : ~e Trauung* rəsmi *(mədəni)* nikah.

**Standesbeamte(r),** *der, -n, -n* zaqs işçisi *(Süd. : səbt əhval məmuru).*

**standesgemäß** *adj.* rütbə və mənsəbinə münasib, ictimai vəziyyətinə layiq.

**Standesunterschied,** *der; -(e)s, -e* sinfi fərq.

**standfest** *adj.* möhkəm, sərt; dözümlü, sarsılmaz, mətanətli, dəyanətli; tablı, canıbərk; *fig.* etibarlı.

**standhaft** *adj. s. standfest.*

**Standhaftigkeit,** *die; -* sarsılmazlıq, mətinlik, mətanət; möhkəmlik, dəyanət, davamlılıq, dözümlülük, tərəddüdsüzlük; canıbərklik, davam.

**standhalten** *vi D* müqavimət göstərmək, möhkəm dayanmaq, tab gətirmək, davam gətirmək, qabağında durmaq *(dayanmaq).*

**ständig** *adj. u. adv.* daim(i), uzunmüddətli, mütəmadi, addımbaşı, dalbadal, anbaan, arakəsilməz, axşam-sabah, dayanmadan, peydərpey, hey, dəmbədəm, durmadan, fasiləsiz, həmişəlik, hərdəm, içəiç, durmaqsızın; əzəli; *et. ~ tun* bir şeyi daimi *(davamlı, hey)* etmək; *er provoziert uns ~* o dayanmadan *(hey)* bizə sataşır; *adv.* daima, əzəli; dəqiqə-bədəqiqə.

**ständisch** *adj.* ictimai qruplara aid.

**Standlicht,** *das; -(e)s, -er (Auto)* dayanma çırağı.

**Standort,** *der; -(e)s, -e* **1.** olduğu yer, yerləşmə yeri; **2.** *mil.* mövqe.

**Standpauke,** *die; -, -n : F j-m e-e ~ halten* kimisə bərk danlamaq, bir kəsə hərəkətinin səhv olmasını şiddətlə demək.

**Standpunkt,** *der; -(e)s, -e* **1.** *s. Standort 1;* **2.** *(Auffassung, Einstellung)*əsas fikir, nöqteyi-nəzər; münasibət; *vom meinem ~ aus habe ich Recht* fikrimə görə haq mənimdir; *j-m s-n ~ klar machen* kiməsə öz nöqteyi-nəzərini *(fikrini)* aydıncasına bildirmək.

**Standquartier,** *das; -s, -e* qərargah.

**Standrecht,** *das; -(e)s* fövqəladə vəziyyətdə cinayət hüququnun kəskinləşdirilməsi.

**standrechtlich** *adj. : ~ erschießen* hərbi səhra məhkəməsinin hökmü ilə güllələmək.

**Stange,** *die; -, -n* **1.** uzun ağac; mil; **2.** *(Zigarettenstange)* karton; *Vorhangstange* pərdəağacı; *e-e ~ Geld F* kalan pul; *j-m die ~ halten* kiminsə tərəfini saxlamaq, kiməsə arxa *(havadar)* çıxmaq; *bei der ~ bleiben* mövzudan çıxmamaq, haşiyəyə çıxmamaq.

**stank** *s. stinken.*

**Stänker(er),** *der; -s, - F* araqarışdıran, aravuruşduran, dağal.

**stänkern** *vi* araqarışdırmaq, aravuruşdurmaq; *~ gegen -ə* qarşı fitnə-fəsad yaratmaq, fitnə salmaq .

**Stanniol,** *das; -s* qalay kağızı, qalay vərəği.

**Stanze,** *die; -, -n* **1.** *techn.* ştamp; metal qəlib *(Süd. : qalıb);* **2.** *lit. (Strophe)* bənd, beyt.

**stanzen** *vt* ştamplamaq; kəsmək; dəlmək; pərçimləmək; *Löcher ~* deşik açmaq.

**Stapel,** *der; -s, -* **1.***(Stoß, Haufen)* qalaq, yığın, qucaq; *ein ~ Bücher* bir qucaq *(qalaq)* kitab; **2.** *mar.* mail körpü, gəmi-

nin suya salınan yeri; *vom ~ laufen lassen* gəmini suya salmaq.

**Stapellauf,** *der; -(e)s, -¨e* gəmini suya salma.

**stapeln** *vt* qalaq vurmaq, dəstə ilə yığmaq, qalamaq; *vr sich ~* yığılmaq.

**stapfen** *vt* ağır-ağır addımlamaq; güc ilə yerimək.

**Star**[1]**,** *der; -(e)s, -e* **1.** *zo.* sığırçın; **2.** *med.* katarakt*(a); grauer ~* göz qarasına düşən ağ ləkə, ağ, pərdə; *grüner ~* qlokom, qara ləkə; *schwarzer ~* tam korluq.

**Star**[2]**,** *der; -s, -s (im Sport, in der Kunst usw.)* məşhur şəxsiyyət, ulduz, star.

**starb** *s. sterben.*

**stark** *(-¨er, -¨st-)* **1.** qüvvətli, güclü, davamlı, dayanıqlı; möhkəm; gur; *fig.* etibarlı; **2.** *(beleibt)* dolğun, şişman, tosqun, yoğun: **3.***(dick)* qalın; **4.** *(heftig)* bərk, şiddətli; **5.** *F (toll)* olduqca gözəl, daha gözəl; *adv.* güclü, şiddətli, şiddətlə, çox, daha; *es regnet ~* bərk *(şiddətlə, şiddətli)* yağış yağır; *das ist ein ~es Stück!* misli görünməmişdir!, həyasızlıqdır; *~er Tee* tünd çay; *~e Brille* qalın şüşəli gözlük; *~ beshädigt* çox zədələnmiş, çox ziyan görmüş; *~ behaart* çox tüklü; *F sich ~ machen für.. bir şeyi etmək üçün* hərəkətə keçmək, əməl etmək.

**Stärke,** *die; -, -n* **1.** qüvvə, güc; möhkəmlik, davamlılıq, güclülük, can; şiddət; dəyanət; **2.** *(Dicke)* qalınlıq, yoğunluq; **3.** *(starke Seite)* güclü tərəf, əlverişli tərəf; **4.***(Maß)* dərəcə; **5.** *Chem.* nişasta.

**stärkehaltig** *adj.* nişastalı.

**Stärkemehl,** *das; -(e)s* nişasta.

**stärken** *vt* qüvvətləndirmək; möhkəmləndirmək; *vr sich ~* qarnını doydurmaq, *bir şeyi* yeyib-içib güclənmək .

**stärker** *s. stark; ~ werden* qüvvətlənmək, güclənmək.

**Starkstrom,** *der; -(e)s* yüksək gərginlik cərəyanı.

**Stärkung,** *die; -, -en* **1.** qüvvətləndirmə, gücləndirmə; möhkəmlən(diril)mə; **2.** *(Erfrischung)* yüngül yemək.

**Stärkungsmittel,** *das; -s, -* qüvvətləndirici dərmanlar *pl.*

**starr** *adj.* **1.** *(unbeweglich)* hərəkətsiz; **2.** *(vor Kälte)* donmuş, keyimiş; **3.** *(Blick)* dikilmiş, zillənmiş; **4.** *(vor Angst, vor Entsetzen)* mat qalmış, donmuş; **5.** *(hartnäckig)* tərs, inadcıl, əyilməz.

**Starre,** *die; -* hərəkətsizlik.

**starren** *vi* **1.** diqqətlə baxmaq, zilləmək, dirəmək *(auf A/ bir şeyə)*; **2.** *(vor , von et.)* örtülmək, dolmaq; *vor Schmutz ~* çox çirkli olmaq.

**Starrheit,** *die; - vgl. starr.*

**starrköpfig** *adj.* tərs, inadcıl, qurnaz, danabaş, ləc; anlamaz, danqa.

**Starrkrampf,** *der; -(e)s med.* tetanus.

**Starrsinn,** *der; -(e)s, -* tərslik,qaltaqlıq, danabaşlıq, dikbaşlıq, ləclik.

**starrsinnig** *adj.* tərs, inadlı, inadcıl, qaltaq, danabaş, ləc.

**Start,** *der; -(e)s, -s* **1.** start, hərəkət; **2.** *fig. (Anfang, Beginn)* başlanğıc, əvvəl; *e-n guten ~ haben (bei e-r Arbeit)* işlər düz getmək.

**Startbahn,** *die; -, -en (e-s Flugzeuges)* uçuş yolu *(Süd. : a. uçuş pisti)*.

**startbereit** *adj.* starta hazır; uçmağa hazır, qalxmağa hazır.

**starten** *vt* **1.** *-ə* başlamaq; *e-n Wettkampf starten* yarışa başlamaq; **2.** *(Auto usw.)* işlətmək; **3.** *(abfahren)* yola düşmək; *vi* 1. *(Flugzeug)* uçmaq, qalxmaq; 2. *(Motor usw.)* işləmək; *sein Auto lässt sich schlecht starten* maşını pis işləyir.

**Starterlaubnis,** *die; - (Flugzeug)* uçma icazəsi, qalxma icazəsi.

**Starthilfe,** *die; -, -n j-m ~ geben (Auto)* maşın motorunu işlətmək üçün kömək etmək.

**Startlinie,** *die; -, -n (Sport)* yarışların başlandığı xətt *(yer)*.

**Startschuss,** *der; -es; -¨e* başlama atəşi.

**Startverbot,** *das; -(e)s, -e* yarışlarda iştirak etmə qadağanı.

**Startzeichen,** *das; -s, -* start əlaməti, start işarəsi.

**Statik,** *die; -* statik*(a).*

**Statiker,** *der; -s, -* statikçi, statik mütəxəssisi.

**Station,** *die; -, -en* **1.** dayanacaq, stansiya *(Süd. : stasyon); (Busstation)* avtobus dayanacağı; **2.** *(Radiostation)* radio stansiyası; **3.** *(Abteilung e-s Krankenhauses)* stasyon, şöbə; **4.** *(Etappe)* mərhələ; **5.** *(Halt, Rast)* dayanmaq, durmaq; *an e-m Ort ~ machen* bir yerdə dayanmaq, bir yerdə durmaq.

**stationär** *adj.* **1.** *(ortsfest)* sabit; **2.** *med. (Behandlung)* xəstəxanada müalicə.

**stationieren** *vt* yerləşdirmək.

**Stationierung,** *die; -* yerləş(diril)mə.

**Stationsarzt,** *der; -es, -¨e* stasyon həkimi.

**Stationsvorsteher,** *der; -s, -* şöbə rəisi.

**statisch** *adj.* statik.

**Statist,** *der; -en, -en* **1.** *(Film, Theater)* ikinci dərəcəli rolu ifa edən şəxs;**2.** *fig.* əhəmiyyətsiz şəxs.

**Statistik,** *die; -, -en* statistik*(a).*

**Statistiker,** *der; -s, -* statistikçi.

**statistisch** *adj.* statistik.

**Stativ,** *das; -s, -e* ştativ, altlıq.

**statt**[1] *präp G* ...yerinə, ..əvəzinə; *sie wollte Wasser trinken, hat aber ~dessen Tee getrunken* o su içmək istəyirdi, amma onun əvəzinə *(yerinə)* çay içdi; *er wird ~ meiner zu dir kommen* o mənim əvəzimə *(yerimə)* sənin yanına gələcəkdir; *~ einer Antwort* bir cavabin yerinə.

**statt**[2] *Konj. ~ zu .., ~ dass.. (an Stelle)* əvəzin(d)ə, yerinə; *~ zu schlafen, ging er ins Theater* yatmaq əvəzin(d)ə teatra getdi; *~ dass du arbeitest, ..* işləmək yerinə sən, ... .

**Statt,** *die; - : an j-s ~* bir kəsin yerinə; *an Kindes ~ annehmen* övladlığa götürmək; *an meiner ~* mənim yerimə.

**stattdessen** onun yerinə,bunun yerinə; halbuki.

**Stätte,** *die; -, -n* yer, məhəl; səhnə.

**stattfinden** *vi* olmaq; baş tutmaq.

**stattgeben** *vi D* **1.** *-ə* icazə vermək; **2.** *(Gesuch)* təmin etmək, *-i* qəbul etmək; *e-r Sache ~ bir şeyi* qəbul etmək, icra etmək, yerinə yetirmək.

**statthaft** *adj.* mümkün ola bilən, yol verilən.

**Statthalter,** *der; -s, -* canişin, sərdar, vali, hakim.

**stattlich** *adj.* **1.** *(groß u. elegant)* qamətli, boylu-buxunlu; **2.** *(imponierend)* xoşa gələn, heybətli, təsirli; *(e-e Summe)* çox, xeyli.

**Statue,** *die; -, -n* heykəl.

**Statuette,** *die; -, -n* kiçik heykəl.

**statuieren** *vt* **1.** *(festsetzen)* müəyyən etmək; təyin etmək; **2.** *ein Exempel ~* ibrət dərsi vermək *(an D/-ə).*

**Statur,** *die; -, -en* boy, qamət, bədən, qədd, boy-buxun.

**Status,** *der; -, -* vəziyyət, hal, status.

**Status quo,** *der; -, -* mövcud vəziyyət, status-kvo.

**Statut,** *das; -(e)s, -en* nizamnamə, əsasnamə, statut.

**Stau,** *der; -(e)s, -s* **1.** *(Verkehrsstau)* maşın yığınacağı, maşınların yolda tıxaca düşməsi; **2.** *(in fließendem Wasser)* yığılma, qalxma.

**Staub,** *der; -(e)s* toz; *~ wischen* toz almaq; *fig. sich aus dem ~e machen* əkilmək, aradan çıxmaq, qaçmaq, fərar etmək, dabanına tüpürmək, cırmaq, „cim"in yanına „rey" qoymaq; *F* dızıxmaq; *~ saugen -i* süpürmək *(tozsoran süpürgə ilə).*

**Staubecken,** *das; -s, -* su anbarı, hovuz.

**stauben** *vi* tozlanmaq; *es staubt* toz qalxır.

**stäuben** *vi (zerstieben)* dağılmaq, səpələnmək; *vt (schütten)* səpmək, tökmək; *Zucker über den Kuchen ~* şirninin üstünə şəkər tökmək *(səpmək).*

**Staubfaden,** *der; -s, -¨ bot.* erkəkcik.

**Staubfahne,** *die; -, -n* hərəkət edən maşının dalınca göyə qalxan toz dumanı.

**Staubfänger,** *der; -s, - F* tozgötürən, tozyığan.

**staubfrei** *adj.* tozsuz.

**Staubgefäß,** *das; -es, -e s. Staubfaden.*

**staubig** *adj.* tozlu, tozbasmış, tozlanmış.

**Staubsaugen** *vi u. vt* tozsoranla süpürmək.

**Staubsauger,** *der; -s, -* tozsoran, elektrik süpürgə, döşəməsilən.

**Staubtuch,** *das; -(e)s, -¨er* toz dəsmalı.

**Staubwedel,** *der; -s, -* toz süpürgəsi.

**Staubwischen,** *das; -* toz alma.

**Staubwolke,** *die; -, -n* tozanaq, boğanaq, duman.

**Staubzucker,** *der; -s* qənd tozu.

**Staudamm,** *der; -(e)s, -¨e* bənd, səd.

**Staude,** *die; -, -n* *(Strauch)* kol.

**stauen** *vt* **1.** bənd çəkmək, səd çəkmək; **2.** *(Ladung)* bərkitmək, bərk bağlamaq; *vr sich ~* yığılmaq, toplanmaq; göl bağlamaq, göllənmək.

**Staunen***vi* heyrət etmək,döyükmək,təəccüblənmək,heyrətlənmək*(über A/-ə).*

**Staunen,** *das; -s* təəccüb, döyükmə, heyrət.

**Staupe,** *die; -, -n* *(bei Hunden u. Katzen)* yoluxucu xəstəlik.

**Stausee,** *der; -s, -n* su anbarı, göl.

**Stauung,** *die; -, -en* **1.** *(des Wassers)* su səthinin qalxması; **2.** *(Stockung)* dayanma, tutulma; tıxanma.

**Steak,** *das; -s, -s* biftək.

**Stechapfel,** *der; -s, -¨* *bot.* talta.

**stechen** *vt* **1.** *(Nadel)* iynə batırmaq; **2.** *(mit dem Messer)* bıçaqlamaq; **3.** *(Biene usw.)* sancmaq, dalamaq; **4.** *(Kartenspiel) das Ass sticht den König* as kraldan *(şahdan)* üstündür; *vi* 1. *(Sonne)* yandırmaq; 2. *(in See)* açıq dənizə çıxmaq; 3. *(Organ)* sancı etmək, ağrımaq; *es sticht mir/mich an der Seite* böyürüm ağrır; *fig. j-m in die Augen ~ -in* gözünə çarpmaq; *ein Tier ~* bir heyvanı kəsmək; *(Schiff) in See ~* dənizə yola düşmək, limanı tərk etmək.

**Stechen,** *das; -s* **1.** batırma, sancma; **2.** *(Schmerz)* sancı; **3.** *(Reiten)* yarışın son dövrü.

**stechend** *adj. (Geruch) usw.)* çox pis; *(schmerzend)* dalayan; gərgin; *(Blick)* kəskin, dəlici.

**Stechfliege,** *die; -, -n* payız milçəyi.

**Stechmücke,** *die; -, -n* mığmığa, ağcaqanad.

**Stechuhr,** *die; -, -en* yoxlayıcı saat, kontrol saatı.

**Steckbrief,** *der; -(e)s, -e* həbsdən qaçıb gizlənən cinayətkarın axtarışı və həbsi haqqında elan.

**steckbrieflich** *adj.* qiyabi həbs qərarı ilə*; j-n ~ suchen* bir kəsi həbsə almaq üçün axtarmaq.

**Steckdose,** *die; -, -n* *el.* ştepsel; *(Süd. : a. düşaxə) .*

**stecken** *vt* taxmaq, soxmaq, sancmaq, qoymaq *(an, auf A/-ə); in die Tasche ~* cibinə qoymaq; *das Geld in ein Geschäft ~ -ə* sərmayə *(kapital)* qoymaq; *in Brand ~* yandırmaq, od vurmaq; *vi* olmaq; *wo steckst du denn?* harda itib *(batıb)* qalmısan?, hardasan?, nə yerdəsən?; *hinter e-r Sache ~* bir işdə əli olmaq; *mit j-m unter e-r Decke ~* bir kəslə əlbir olmaq, *wir ~ mitten in der Arbeit* biz işin içindəyik; *~ bleiben* taxılıb qalmaq, olduğu yerdə qalmaq; *tief in Schulden stecken* borc içində olmaq; *den Finger in den Mund ~* barmağı ağıza soxmaq; *e-e Blume ans Kleid ~* paltara gül *(çiçək)* taxmaq; *j-n ins Gefängnis ~* bir kəsi həbsxanəyə *(dustağa, zindana)* salmaq.

**Stecken,** *der; -s, -* ağac, dəyənək; *fig. Dreck am ~ haben* üzü qara çıxmaq.

**steckenbleiben** *vt* batıb qalmaq, ilişib qalmaq, taxılıb qalmaq; yolda qalmaq.

**Steckenpferd,** *das; -(e)s, -e* **1.** taxta at; **2.** *(Hobby)* bir kəsin ən çox sevdiyi sahə.

**Stecker,** *der; -s, -* ştepsel.

**Steckkontakt,** *der; -(e)s, -e* priz.

**Stecknadel,** *die; -, -n* sancaq.

**Steg,** *der; -(e)s, -e* **1.** *(Brücke)* dar körpü; **2.** *(Pfad)* cığır.

**Stegreif** *: aus dem ~* hazırla(n)madan, sinədən, döşdən, hazırlıqsız.

**Stehaufmännchen,** *das; -s, -* həmişə nikbin adam.

**stehen** *vi* **1.** *(sich befinden, sein)* olmaq;

**2.** *(aufrecht stehen)* durmaq, dayanmaq, ayaq üstdə durmaq; **3.***(Uhr)*dayanmaq, işləməmək; **4.** *(Kleid)* yaraşmaq; **5.** *(geschrieben ~ )* yazılmaq, üstündə yazılmaq; *auf eigenen Füßen* ~ müstəqil olmaq, kimsədən asılı olmamaq; *vor Schwierigkeiten* ~ çətinliklərlə qarşılaşmaq; *F auf A* ~ bir şeyi çox sevmək; *zu j-m* ~ bir kəsdən tərəfdarlıq etmək; *j-m zur Verfügung* ~ bir kəsin qulluğunda durmaq *(olmaq)*; *sich mit j-m gut* ~ bir kəslə yaxşı münasibətdə olmaq, bir kəslə arası yaxşı *(kök)* olmaq; *wie steht`s ?* işlər nə haldadır? *es steht schlecht mit ihm* vəziyyəti pisdir; *zum Stehen bringen* dayandırmaq, durdurmaq, saxlamaq; *im Stehen essen* ayaqüstə yemək; *die Sonne steht am Himmel* gün çıxıb; *über j-m* ~ bir kəsdən üstün olmaq, bir kəsin rəisi olmaq; *alles ~ und liegen lassen* hər şeyi buraxıb getmək; *sich (D) e-n Bart ~ lassen* saqqal qoymaq.

**Stehen,** *das; -s, - : im ~* ayaq üstündə.

**stehenbleiben** *vi* durmaq, dayanmaq, hərəkət etməmək, yerində qalmaq, ayaq saxlamaq; *die Uhr ist ~* saat dayanıb; *F* saat yatıb.

**stehend** *adj.* duran, dayanan; *adv.* ayaqüstü, ayaqüstə; *~den Fußes* dərhal, o dəqiqə.

**stehenlassen** *vt* qoyulduğu kimi qalmaq, tərpətməmək; *das Essen ~* yeməyə əl vurmamaq.

**Stehkragen,** *der; -s, -* dik yaxa, dik duran yaxa.

**Stehlampe,** *die; -, -n* ayaqlı lampa; stolüstü lampa.

**stehlen** *vt* oğurlamaq, çalmaq *(j-m et./ bir kəsdən bir şeyi); F er kann mir gestohlen bleiben* o məni maraqlandırmır; *j-m die Zeit ~* bir kəsin vaxtını almaq.

**Stehplatz,** *der; -es, -¨e* duracaq yer.

**Stehpult,** *das; -(e)s, -e* kürsü.

**Stehvermögen,** *das; -s, -* dayanıqlıq.

**steif** *adj.* **1.** bərk; sərt, qati; dimdik; **2.** *(unbeugsam)* əyilməz; **3.** *(förmlich)* rəsmi; *et. ~ und fest behaupten* öz dediyinin üstündə dayanmaq; *e-n ~en Hals haben* boynu buruxulmaq; *e-n ~en Arm haben* qolu bükülməmək; *(vulg. z.B. Penis) ~ machen* qavzamaq, durğuzmaq; *~ werden* durmaq, qalxmaq.

**Steife,** *die; -, -n* sərtlik, gərginlik.

**steifen** *vt* sərtləşdirmək; *fig. j-m den Rücken ~* bir kəsin tərəfini saxlamaq.

**steifhalten** *vt : F halt die Ohren steif!* ayıq ol!.

**Steifheit,** *die; -, - s. Steife.*

**Steig,** *der; -(e)s, -e* cığır.

**Steigbügel,** *der; -s, -* üzəngi, ayaqyeri.

**steigen** *vi* **1.** *(Berg usw.)* qalxmaq, yuxarı çıxmaq; yüksəlmək, ucalmaq; **2.** *(Fahrzeug) -ə* minmək *(in, auf A/-a, -ə)*; **3.** *(anwachsen)* artmaq, çoxalmaq; yüksəlmək; **4.** *(aus, von D/-dən, -dan)* enmək, düşmək; **5.** *(Pferd)* şahə qalxmaq; *das Fieber steigt* qızdırma artır; *der Wert des Bildes steigt* şəkilin dəyəri çoxalır *(artır); er ist in meiner Achtung gestiegen* hörməti mənim yanımda artıb; *Treppen ~* pilləkəni çıxmaq.

**Steigen** *das; -s, -* qalxma, çıxış; yüksəlmə, artma, yüksəliş; çoxalma; *im ~ begriffen sein* yüksəlmə *(qalxma)* halında olmaq.

**steigend** *adj.* qalxan, artan, çoxalan, yüksələn.

**Steiger,** *der; -s, -* mədən işçilərinin ustabaşısı, ustabaşı.

**steigern** *vt* qaldırmaq, yüksəltmək; çoxaltmaq, gücləndirmək, artırmaq; *die Geschwindigkeit ~* sürəti çoxaltmaq *(artırmaq)*; *vr sich ~ (et.)* çoxalmaq, artmaq, yüksəlmək, böyümək; yaxşılaşmaq, güclənmək, şiddətlənmək; *der Wind steigerte sich zum Sturm* külək şiddətlənib tufana çevrildi *(döndü).*

**Steigerung,** *die; -, -en* **1.** artırma, yüksəlmə, artma, böyümə; **2.** *gr.* dərəcələrin əmələ gəlməsi.

**Steigerungsrate,** *die; -, -* artma dərəcəsi.

**Steigung,** *die; -, -en* yoxuş.

**steil** *adj.* dik, sıldırım; enişli, yalçın; ~

*ansteigen* birdən *(sürətlə)* yüksəlmək.

**Steile,** *die; -* diklik.

**Steilhang,** *der; -* dik yamac; dağ döşü.

**Stein,** *der; -(e)s, -e* **1.** daş; *aus ~* daşdan; **2.** *(Kern)* çəyirdək; *fig. j-m ~e in den Weg legen* bir kəsə əngəl törətmək; *F e-n ~ ins Rollen bringen* işi yoluna salmaq, *-i* hərəkətə gətirmək; *fig. ein ~ fällt mir vom Herzen* ürəyimə su səpildi, indi rahat oldum.

**Steinadler,** *der; -s, -* berkut, qartal cinsindən yırtıcı quş, quzğun, çalağan.

**steinalt** *adj.* çox qədim; çox qoca, çox ixtiyar insan .

**Steinbock,** *der; -(e)s, -¨e* **1.** *zo.* dağkeçisi, dağqoçu, əlik; **2.** *astr.* oğlaq.

**Steinbohrer,** *der; -s, -* daşdoğrayan maşın.

**Steinbruch,** *der; -(e)s, -¨e* daş karxanası.

**Steindruck,** *der; -(e)s, -e* daş basması, litoqrafiya.

**steinern** *adj.* daşdan, daş.

**Steingut,** *das; -(e)s, -* saxsı.

**steinhart** *adj.* daş kimi, bərk.

**steinig** *adj.* daşlı, daşlıq, daşaxor, cınqıllıq.

**steinigen** *vt* daşla vurmaq, daşqalaq etmək, daşlamaq, bir kəsi daşlayaraq öldürmək.

**Steinkohle,** *die; -, -n* daş kömür.

**Steinkohlenbergwerk,** *das; -(e)s, -e* daş kömür yatağı.

**Steinlawine,** *die; -, -n* uçqun.

**Steinmetz,** *der; -en, -en* daşyonan,daşkəsən, daşmişarlayan, daşdoğrayan.

**Steinobst,** *das; -es, -* çəyirdəkli meyvə.

**Steinpilz,** *der; -es, -e* ağgöbələk.

**steinreich** *adj.* həd(din)dən artıq varlı, zəngin.

**Steinsalz,** *das; -es, -e* daş duz.

**Steinschlag,** *der; -(e)s, -¨e* **1.** daş düşmə; **2.** *nur sg. (Schotter)* cınqıl.

**Steinwurf,** *der; -(e)s, -¨e* **1.** daş atma; **2.** *(Entfernung) nur e-n ~ weit* yaxın yol.

**Steinzeit,** *die; -* daş dövrü.

**Steiß,** *der; -es, -e* dal, arxa.

**Steißbein,** *das; -s, -e anat.* büzdüm.

**Steißlage,** *die; - med.* doğum zamanı cəninin tərs düşməsi, başın öndə gəlməməsi, uşağın tərs gəlməsi.

**Stele,** *die; -, -n* qəbir daşı.

**Stellage,** *die; -, -n* stellaj.

**Stelldichein,** *das; -(e)s* görüş, randevu.

**Stelle,** *die; -, -n* **1.** *(Arbeitsstelle)* iş yeri; **2.** *(Behörde)* idarə, büro, müəssisə; **3.** *(Posten)* vəzifə, iş; *staatliche ~* rəsmi iş, dövləti iş; **4.** *(Textstelle)* fəsil; hissə; **5.** *(Punkt)* nöqtə; *an ~ von* bir kəsin/bir şeyin yerinə *(əvəzinə); an die ~ G treten -in* yerinə keçmək; *auf der ~* 1. yerində; 2. *(sofort)* o dəqiqə, bu dəqiqə, bu saat, dərhal, cəld; *nicht von der ~ weichen* tərpənməmək, yerində qalmaq; *ich an deiner ~* sənin yerində olsam; *fig. an erster ~ stehen* ən mühüm *(önəmli)* olmaq, əhəmiyyətli olmaq; *ohne ~ sein* işsiz olmaq; *e-e ~ suchen* iş axtarmaq.

**stellen** *vt* **1.** qoymaq; təyin etmək *(an, auf, in A/ yanına, üstünə, içinə...)*; **2.** *(richtig einstellen)* tənzim etmək, nizamlamaq; **3.** *(Wecker)* zəngini qurmaq; **4.** *(e-e Frage)* sual vermək; *auf die Probe ~* sınamaq, imtahan etmək; *zur Debatte ~* müzakirəyə qoymaq; *j-n vor Gericht ~* bir kəsi məhkəməyə vermək; *Zeugen ~* şahid gətirmək; *vr sich ~* durmaq; *sich ans Fenster ~* pəncərənin yanında durmaq; *sich der Polizei ~* polisə təslim olmaq; *sich hinter j-n ~* bir kəsi himayə etmək, bir kəsə tərəfdar olmaq; *sich gegen A ~ -ə* qarşı durmaq, *bir şeyin* əleyhinə olmaq; *sich dumm ~* özünü bilməməzliyə vurmaq; *wie ~ Sie sich zu diesem Vorschlag?* bu təklifə nə deyirsiniz?.

**Stellenangebot,** *das;-(e)s, -e* iş təklifi.

**stellenlos** *adj.* işsiz.

**Stellensuche,** *die; -* iş axtarma; *ich bin auf ~* mən iş axtarıram.

**Stellenvermittlung,** *die; -, -en* iş tapma.

**Stellenvermittlungsbüro,** *das; -s, -s* iş tapma müəssisəsi, əmək birjası.

**stellenweise** *adv.* qismən, bəzi yerlər-

də, orada-burada.

**Stellenwert,** *der; -(e)s* əhəmiyyət, dəyər, önəm; *e-n hohen ~ haben* böyük dəyəri *(əhəmiyyəti)* olmaq *(für j-n / bir kəs üçün)*.

**…stellig** *adj.* ...xanəli; *dreistellig* üçxanəli.

**Stellmacher,** *der; -s, -* araba ustası, arabaqayıran; taxtadan kiçik araba qayıran usta.

**Stellplatz,** *der; -es, -¨e (Auto)* xüsusi dayanacaq yeri özəl park yeri.

**Stellschraube,** *die; -, -n tech.* tənzimləmə vinti *(piçi),* qaydaya salma vinti.

**Stellung,** *die; -, -en* **1.** *(Lage)* vəziyyət, durum; **2.** *(Position)* mövqe, vəzifə yeri; **3.** *(Arbeit)* iş, vəzifə, qulluq; **4.** *(Körperhaltung)* duruş; **5.** *(e-s Antrages)* ver(il)mə, irəli sürmə; *~ nehmen/beziehen* öz mövqeyini *(fikrini)* bildirmək *(zu D/ hər hansı bir məsələ haqda),* mövqeyini bildirmək, yanaşmaq; *fig. für j-n ~ nehmen* bir kəsin tərəfini saxlamaq.

**Stellungnahme,** *die; -, -n* münasibət, nöqteyi-nəzər, fikir, rəy, mövqe.

**stellungslos** *adj.* işsiz, vəzifəsiz.

**Stellungssuche,** *die; -* iş axtarma.

**Stellungssuchende,** *die; der; -n, -n* iş axtaran.

**Stellungswechsel,** *der; -s, -* iş yerini dəyişmə.

**stellvertretend** *adj.* vəkillik edən, bir kəsi əvəz edən.

**Stellvertreter,** *der; -s, -* müavin; nümayəndə, əvəzçi.

**Stellvertretung,** *die; -, -en* vəkillik, vəkalət, nümayəndəlik.

**Stellvorrichtung,** *die; -, -en* yerləşdirmə mexanizmi.

**Stelze,** *die; -, -n* ağacayaq, tayaq.

**Stemmeisen,** *das; -s, - techn.* iskənə.

**stemmen** *vt* **1.** *(ein Loch)* iskənə ilə dəlmək *(oymaq);* **2.** *(Gewicht)* qaldırmaq; *vr sich ~* dirənmək *(gegen A/-a, -ə), sich gegen die Tür ~* qapıya dirənmək, dirsəklənmək.

**Stempel,** *der; -s, -* möhür, damğa, ştempel.

**Stempelfarbe,** *die; -, -n* ştempel rəngi.

**Stempelgeld,** *das; -(e)s, -er F* işsizlik pulu, işsizliyə görə vəsait.

**Stempelkissen,** *das; -s, -* möhür yasdığı, ştempel.

**stempeln** *vt* **1.** möhürlə təsdiq etmək; damğalamaq; **2.** *fig.* ləkələmək; *j-n zum Dieb ~* bir kəsi oğru ləqəbi ilə ləkələmək; *vi ~ gehen F* işsiz olmaq, işsizlik pulu almaq.

**Stengel,** *der; -s, - bot.* gövdə*(cik),* saplaq; tağ.

**Stenogramm,** *das; -s, -e* stenoqrafi*(ya)* ilə yazılmış mətn.

**Stenograph,** *der; -en, -en* stenoqrafçı.

**Stenographie,** *die; -, -n* stenoqrafi*(ya).*

**stenographieren** *vt* stenoqrafiyasını götürmək.

**stenographisch** *adj.* stenoqrafi*(ya)* ilə yazılmış.

**Stenotypistin,** *die; -, -nen* stenoqrafçı qadın.

**Stentorstimme,** *die; -, -n* qalın səs.

**Steppdecke,** *die; -, -n* yorğan.

**Steppe,** *die; -, -n* bozqır, çöl, səhra.

**steppen** *vt* **1.** sırımaq, sırıqlamaq; **2.** *(tanzen)* step rəqsini oynamaq.

**Steppke,** *der; -s, -s* kiçik oğlan uşağı.

**Steppnaht,** *die; -, -¨e* tikiş yeri.

**Steppstich,** *der; -(e)s, -e* tikiş arası.

**Steptanz,** *der; -es, -¨e* step rəqsi.

**Sterbebett,** *das; -e(s)* ölüm yatağı.

**Sterbefall,** *der; -(e)s, -¨e* ölüm hadisəsi, vəfat.

**Sterbehemd,** *das; -(e)s, -en* kəfən.

**sterben** *vi* ölmək, vəfat etmək, canı çıxmaq, fövt etmək; gəbərmək, həlak olmaq *(an, aus D/-dən; für A/nəyin uğrundasa); fig.* dünyasın*(ı)* dəyişmək, dünyadan getmək; *im Sterben liegen* can vermək, çənə atmaq; ölüm döşəyində olmaq; *e-s natürlichen Todes ~* öz əcəli ilə ölmək.

**sterbenskrank** *adj.* ölüm halında olan, ölümcül xəstə.

**Sterbenswörtchen** *: kein ~ sagen* heç bir söz deməmək, bir kəlmə də demə-

mək.

**Sterbesakramente** *die/pl.* katoliklərdə ölüm halında olana dua mərasimi.

**Sterbestunde,** *die; -, -n* cançəkişməsi, canvermə, əcəl.

**Sterbeurkunde,** *die; -, -n* ölüm haqqında şəhadətnamə.

**sterblich** *adj.* ölümlü, fani; *fig.* keçəri; ölümcül.

**Sterblichkeit,** *die; -* **1.** ölmə; **2.** *(Mortalität)* ölüm nisbəti, ölənlərin sayı.

**Stereoanlage,** *die; -, -n* stereo cihaz.

**Stereolautsprecher,** *der; -s, -* stereo səsucaldan.

**Stereophonie,** *die; -* stereofoni.

**stereotyp** *adj. fig.* eyni cür; qəlib *(qalıb)* kimi, stereotip; *e-e ~e Antwort* eyni cür cavab.

**steril** *adj.* **1.** *(keimfrei)* mikrobsuz, steril; **2.** *(unfruchtbar)* sonsuz, uşağı olmayan; dölsüz, balası olmayan; mayalanmayan *fig.* yaradıcı olmayan; soyuq, ruhsuz.

**Sterilisation,** *die; -, -en* axtalama, dölsüzləşdirmə *(Süd. : sterilizasyon).*

**sterilisieren** *vt* dölsüzləşdirmək, axtalamaq, sterilizə etmək.

**Sterilität,** *die; -* sonsuzluq, dölsüzləşdirmə, sterilləşdirmə, dölsüzləndirmə.

**Stern,** *der; -(e)s, -e* ulduz.

**Sternbild,** *das; -es, -er* bürc.

**Sternblume,** *die; -, -n bot.* astra çiçəyi.

**Sterndeuter,** *der; -s, -* münəccim.

**Sternenbanner,** *das; -s, -* ABŞ -ının bayrağı.

**sternförmig** *adj.* ulduzşəkilli.

**sternhagelvoll** *adj. F* kefli, sərxoş.

**sternklar** *adj. (Himmel, Nacht)* ulduzlu gecə, aydınlıq gecə; aydın, açıq, bərraq.

**sternlos** *adj.* ulduzsuz.

**Sternschnuppe,** *die; -, -n* axan ulduz.

**Sternstunde,** *die; -, -n* *-in* ulduzunun parıldadığı vaxt *(saat).*

**Sternwarte,** *die; -, -n* rəsədxana.

**Sterz,** *der; -es, -e* **1.** *(vom Vogel)* büzdüm; **2.** *(Pflugsterz)* xışın dəstəyi, kotanın tutacağı; **3.** *(dicker Brei)* bərk xəşil.

**stet** *adj.* daimi.

**stetig** *adj.* daimi, həmişəlik, arası kəsilməyən.

**Stetigkeit,** *die; -* daimilik, həmişəlik.

**stets** *adv.* daimi, həmişə, arası kəsilmədən, durmadan, dayanmadan.

**Steuer[1],** *das; -s, - (Auto usw.)* sükan çarxı, rul, şturval *(Süd. : fərman)*; rəhbərlik; *das ~ fest in der Hand haben* yaxşı rəhbərlik etmək, yaxşı idarə etmək.

**Steuer[2],** *die; -, -n* vergi, xərac; *e-e ~ auferlegen* vergi qoymaq; *~n zahlen* vergi vermək, *~n hinterziehen* vergi verməkdən qaçmaq.

**Steuerbehörde,** *die; -, -n* vergi idarəsi.

**Steuerberater,** *der; -s, -* vergi işləri üzrə məsləhətçi.

**Steuerbescheid,** *der; -(e)s, -e* vergi miqyası *(həcmi)* haqda cavab.

**Steuerbord,** *das; -(e)s* sağ bort.

**Steuereinnahmen,** *die/pl.* vergidən gəlir, vergi mədaxili.

**Steuereinnehmer,** *der; -s, -* vergialan, vergiyığan.

**Steuererklärung,** *die; -, -n* vergi bəyannaməsi *(vergi idarəsinə).*

**Steuerermäßigung,** *die; -, -en* vergilərin aşağı salınması.

**steuerfrei** *adj.* vergisiz, vergidən azad edilmiş.

**Steuerhinterziehung,** *die; -, -en* vergini verməkdən boyun qaçırma.

**Steuerkarte,** *die; -, -n* vergi kartı.

**steuerlich** *adj.* vergi; *aus ~en Gründen* vergi səbəbinə görə.

**steuerlos** *adj. s. steuerfrei.*

**Steuermann,** *der; -(e)s, -¨er u. -leute* sükançı.

**steuern** *vt* **1.** *(Schiff, Flugzeug usw.)* aparmaq, sürmək, yönətmək;**2.** *(Steuer)* idarə etmək; nəyəsə rəhbərlik etmək; *vi (irgendwohin)* istiqamət vermək, yönədilmək.

**Steuerparadies,** *das; - es, -e* vergi behişti, vergi cənnəti.

**Steuerpflicht,** *die; -* vergi ödəmə bor-

cu *(vəzifəsi).*

**steuerpflichtig** *adj.* vergi qoyulmuş, vergili.

**Steuerpolitik,** *die; -* vergi siyasəti.

**Steuerrad,** *das; -(e)s, -¨er* **1.** *(Auto)* sükan *(Süd. : maşının fərmanı)*; **2.** *naut.* sükan çarxı.

**Steuersatz,** *der; -es, ¨-e* verginin həcmi.

**Steuersenkung,** *die; -, -en* vergilərin azadılması *(yüngülləşdirilməsi).*

**Steuerung,** *die; -, -en* **1.** idarə etmə, tənzimlə(n)mə, idarə, nizamla(n)ma; istiqamət vermə; **2.** *fig.* qarşısına mübarizə aparma.

**Steuerveranlagung,** *die; -, -en* vergi qoyma.

**Steuerzahler,** *der; -s, -* vergi verən.

**Steward,** *der; -s, -s* xidmətçi *(kişi),* stüard.

**Stewardess,** *die; -, -en* xidmətçi *(qadın),* stüardes.

**stibitzen** *vt F* oğurlamaq.

**Stich,** *der; -(e)s, -e* **1.** *(Nadelstich)* iynə batırma, iynə vurma; **2.** *(e-s Insektes)* sancma, batırma; **3.** *(Messerstich)* bıçaq zərbəsi; **4.** *(Schmerz)* ani sancı; **5.** *(Farbe)* çalmaq; *e-n ~ ins Grüne haben* yaşıla çalmaq; **6.** *(beim Nähen)* sırıqarası; tikiş; **7.** *(Kartenspiel)* böyük kartla yerdə olan kiçik kartları götürmə; **8.** *(Kupferstich usw.)* qravür*(a);* **9.** *(Fleisch, Milch usw.)* xarab olmağa başlama; *das Fleisch hat e-n ~* ət xarab olubdur; *fig. e-n ~ haben* ağlını itirmək; *im ~ lassen* köməksiz buraxmaq; tərk etmək; *F -i* yarı yolda buraxmaq; *~e in der Seite verspüren* böyüründə bir sancı hiss etmək.

**Stichelei,** *die; -, -en fig.* sancma, acılıq; istehza.

**sticheln** *vi* istehza etmək.

**stichfest** *adj.* möhkəm; dişbatmaz.

**stichhaltig** *adj.* əsaslı, tutarlı; inandırıcı; *nicht ~ sein* inandırıcı olmamaq.

**Stichprobe,** *die; -, -n* seçmə üsulla yoxlama, nümunəvi nəzarət.

**Stichtag,** *der; -(e)s, -e* ödəmə vaxtı, ödəmə müddəti; yerinə yetirmə günü, son gün.

**Stichwahl,** *die; -, -en* namizədlərin bərabər səsə malik olduğu halda keçirilən əlavə seçki, yenidən səsə qoyma.

**Stichwort,** *das; -(e)s, -¨er o. -e* **1.** şüar; qeyd; **2.** *Th.* atmaca söz; **3.** *(in e-m Lexikon usw.)* izah olunmuş söz; *Stichwörter notieren* ən mühüm kəlmələri qeyd etmək.

**Stichwunde,** *die; -, -n* bıçaq yarası.

**sticken** *vt* *(mit e-r Nadel)* naxış tikmək *(auf A/ -in üzərinə).*

**Stickerei,** *die; -, -en* naxış, tikiş; əl işi.

**Stickgarn,** *das; -(e)s, -e* naxış ipliyi.

**Stickhusten,** *der; -s* göy öskürək.

**stickig** *adj.* boğucu, havasız, xəfə; *~e Luft* bürkü, boğanaq hava, dəm; *~ werden* bürküləşmək, dəm etmək; *~ sein (Luft)* dəm tutmaq.

**Stickluft,** *die; -* boğucu, havasız, dəm.

**Stickrahmen,** *der; -s, -* kərgah.

**Stickstoff,** *der; -(e)s* azot.

**Stickstoffgehalt,** *der; -(e)s, -e* azot miqdarı.

**stickstoffhaltig** *adj.* azotlu.

**stieben** *vi* səpələnmək, seyrəklənmək; pərən-pərən olmaq.

**Stiefbruder,** *der; -s, -¨* ögey qardaş.

**Stiefel,** *der; -s, -* çəkmə, putin.

**Stiefelhose,** *die; -, -n* çəkmə şalvarı.

**stiefeln** *vi* iri addımlarla getmək; addımlamaq.

**Stiefelschaft,** *der; -(e)s, -e* çəkmə quncu, çəkmə boğazı.

**Stiefeltern** *pl.* ögey ata-ana *(valideyinlər).*

**Stiefgeschwister** *pl.* ögey bacı-qardaş.

**Stiefkind,** *das; -(e)s, -er* ögey uşaq.

**Stiefmutter,** *die; -, -¨* ögey ana, analıq.

**Stiefmütterchen,** *das; -s, -* ala-bəzək bənövşə.

**stiefmütterlich** *adj. : j-n ~ behandeln* bir kəslə pis *(sərt)* rəftar etmək, ögeylik etmək.

**Stiefschwester,** *die; -, -n* ögey bacı.

**Stiefsohn,** *der; -(e)s, -¨e* ögey oğul.

**Stieftochter,** *die; -, -¨er* ögey qız.

**Stiefvater,** *der; -s, -¨* ögey ata, atalıq.

**stieg** *s. steigen.*

**Stiege,** *die; -, -n* pilləkən; nərdivan.

**Stieglitz,** *der; -es, -e* payız bülbülü.

**Stiel,** *der; -(e)s, -e* **1.** dəstə; *der ~ des Hammers* çəkicin dəstəsi; *fig. mit Stumpf und ~ ausrotten* kökü ilə bir yerdə qopartmaq; **2.** *(Stengel)* gövdəcik, saplaq.

**Stielauge** *: fig. ~n machen* acgözlüklə baxmaq; gözlərini zilləyib baxmaq.

**Stier,** *der; -(e)s, -e* **1.** öküz, buğa; **2.** *astr.* buğa; *fig. den ~ bei den Hörnern packen* cəsarətlə işə girişmək.

**stieren** *vi* gözünü zilləmək *(auf A/-ə).*

**Stierkampf,** *der; -(e)s, -¨e* öküz döyüşü, korrida.

**Stierkämpfer,** *der; -s, -* öküz döyüşçüsü, matodor.

**stieß** *s. stoßen.*

**Stift**[1]**,** *der; -(e)s, -e* **1.** ştift, başsız mıx; **2.** *(Bleistift usw.)* karandaş; qələm; **3.** *F (Lehrling)* şəyird, şagird; gənc oğlan.

**Stift**[2]**,** *das; -(e)s, -e* kilsəyə aid olan xeyriyyə müəssisəsi; monastır.

**stiften** *vt* **1.** *(spenden)* bağışlamaq, ianə vermək, vəqf etmək; **2.** *(gründen)* əsasını qoymaq, təsis etmək, yaratmaq, binövrəsini qoymaq; **3.** *(Unruhe usw.)* səbəb olmaq, bais olmaq.

**stiftengehen** *vi F* əkilmək.

**Stifter,** *der; -s, -* **1.** bani, əsasını qoyan, yaradan, yaradıcı, təsisedən; **2.** *(Urheber)* səbəbkar.

**Stiftung,** *die; -, -en* **1.** xeyriyyə müəssisəsi; monastr; fond; *Geld aus e-r ~ bekommen* bir xeyriyyə müəssisəsindən pul almaq. **2.** *(Schenkung)* ianə; **3.** *nur sg. (Gründung)* təsis etmə, yaratma.

**Stiftzahn,** *der; -(e)s, -¨e* taxma diş.

**Stigma,** *das; -s, Stigmata u. Stigmen* **1.** əlamət, nişanə; **2.** *rel.* həzrəti İsanın yaralanmış yeri *(yara yeri).*

**stigmatisieren** *vt* damğalamaq, ləkələmək, mənfi bir xüsusiyyət ilə səciyələndirmək.

**Stil,** *der; -(e)s, -e* üslub, stil; *das ist schlechter ~* üslubu yaxşı deyil, bu pis üslubdur.

**Stilblüte,** *die; -, -n* gülməli söz, gülməli ifadə.

**stilgerecht** *adj.* üsluba uyğun; modalı, şux, *(Süd. : a. şik).*

**stilisieren** *vt* müəyyən üsluba salmaq, üslub qəlibinə *(qalıbına)* salmaq.

**Stilistik,** *die; -* üslubiyyat, stilistik.

**stilistisch** *adj.* üslub baxımından.

**still** *adj.* sakit, susmuş; dinc; durğun, sayxaş; xatircəm; *~ sitzen* sakit oturmaq; *sei ~!* sakit ol!, sus!, çox danışma!; *im Stillen* xəlvətcə; *im Stillen sitzen* xəlvətdə *(təklikdə)* oturmaq.

**Stille,** *die; -* sakitlik, səssizlik, xəlvət; qərar; durğunluq, sayxaşlıq; xatircəmlik; *in aller ~* gizlicə, xəlvətcə.

**Stil(l)leben,** *das; -s, -* təbiətdən çəkilmiş şəkil, natürmort.

**stil(l)legen** *(legte still, stillgelegt) vt* müvəqqəti dayandırmaq; tətil etmək; bağlamaq; *e-n Betrieb ~* müəssisəni bağlamaq.

**Stil(l)legung,** *die; -* bağlama, tətil etmə.

**stillen** *vt* **1.** sakitləşdirmək, dayandırmaq; ağrısızlaşdırmaq; **2.** *(Säugling)* əmizdirmək, məmə vermək, döş vermək, döşə salmaq, əmcək vermək, əmdirmək, əmişdirmək; *den Hunger ~* qarnını doydurmaq; *den Durst ~* susuzluğu yatırtmaq; *das Blut ~* qanaxmanı dayandırmaq *(kəsmək).*

**Stillen** *das; -s* sakitləşdirmə; əmizdirmə, döş vermə, əmdirmə.

**stillhalten** *vi* dayanmaq, tərpənməmək, hərəkət etməmək.

**stilllegen** *vt* işlətməmək; bağlamaq; dayandırmaq.

**stil(l)liegen** *vi (Maschine, Fabrik usw.)* işləməmək.

**stillos** *adj.* üslubsuz, çirkin.

**stillschweigen** *vi* susmaq.

**Stillschweigen,** *das; -s* susma.

**stillschweigend** *adj.* dinməz; *adv.* dinməz-söyləməz, səssiz-səmirsiz, xəlvətcə.

**stillsitzen** *vi* sakit oturmaq, dinc oturmaq.

**Stillstand,** *der; -(e)s* durğunluq; sakit-

lik, fəaliyyətsizlik, işsiz dayanma; *zum ~ bringen* dayandırmaq, durdurmaq; *zum ~ kommen* dayanmaq, durmaq.

**stillstehen** *vi* sakit durmaq, hərəkət etməmək, tərpənməmək.

**stillvergnügt** *adj.* içində sevinən.

**Stilmöbel** *die/pl.* qədim stilli mebel.

**stilvoll** *adj.* səliqə ilə, zövqlə, səliqəli.

**Stimmabgabe,** *die; -, -n* səsvermə.

**Stimmband,** *das; -(e)s, -¨er* səs teli.

**stimmberechtigt** *adj.* səsvermə hüququna malik seçici.

**Stimmbruch,** *der; -(e)s* səsin dəyiş(il)məsi.

**Stimme,** *die; -, -n* **1.** səs, ton, cınqır; avaz; *mit lauter ~* uca səs ilə; **2.** *(Wahlstimme)* səsvermə hüququ; *s-e ~ abgeben* səs vermək.

**stimmen** *vi* **1.** düz olmaq, həqiqətə uyğun olmaq; *das stimmt!* düzdür!; *die Rechnung stimmt nicht* hesab düz gəlmir *(deyil)*; **2.** *(Wahl)* səs *(rəy)* vermək *(für A/ kiməsə/nəyəsə, -in lehinə; gegen A/-in əleyhinə); vt (Musikinstrument)* kökləmək, sazlamaq, dəmləmək, kök etmək; *j-n traurig ~ bir kəsi* kədərləndirmək; *er ist heute schlecht gestimmt* onun bu gün keyfi yoxdur, keyfi yerində deyil.

**Stimmenfang,** *der; -(e)s, -¨e : auf ~ gehen* seçicilər arasında səs tərəfdarları axtarmaq, səsvermə tərəfdarları axtarmaq.

**Stimmengewirr,** *das; -(e)s* hay-küy.

**Stimmengleichheit,** *die; -* səs bərabərliyi, səs eynliyi *(tarazlığı).*

**Stimmenmehrheit,** *die; -, -en* səs çoxluğu.

**Stimmenthaltung,** *die; -, -en* ses vermədən imtina etmə.

**Stimmenverlust,** *der; -(e)s, -e* səs itkisi, səs azlığı.

**Stimmenzählung,** *die; -, en* səslərin hesablanması *(sayılması).*

**Stimmgabel,** *die; -, -n mus.* kamerton, çalğı alətlərini kökləmək üçün səsindən istifadə edilən kiçik polad alət.

**stimmhaft** *adj.* səsli; cingiltili.

**Stimmlage,** *die; -, -n* səs yüksəkliyi.

**stimmlich** *adj.* səs, səs vəziyyəti, səs keyfiyyəti ; *er war ~ in schlechter Form* səs baxımından formada deyildi.

**stimmlos** *adj.* səssiz.

**Stimmrecht,** *das; -(e)s* səsvermə hüququ.

**Stimmritze,** *die; -, -n* səs yarığı.

**Stimmung,** *die; -, -en* **1.** *mus.* kökləmə, sazlama, qurma; **2.** *(seelische)* keyf, kef, əhvali-ruhiyyə, ovqat; *in guter ~ sein* keyfi yaxşı olmaq, yaxşı əhvali-ruhiyyədə olmaq; *nicht in der ~ sein zu Inf. -məyə* kefi olmamaq; əhvali-ruhiyyədə olmamaq; *~ machen* şənlik etmək; **3.** *nur sg. (Meinung, Einstellung)* ümumi rəy, ümumi baxış; nöqteyi-nəzər.

**stimmungsvoll** *adj.* həvəslə; əsərli.

**Stimmwechsel,** *der; -s, -* səsin dəyişməsi

**Stimmzettel,** *der; -s, -* seçki bülleteni, səsvermə bületteni *(Süd. : səsvermə vərəqəsi); den ~ in die Urne einwerfen* seçki bülletenini qutuya salmaq.

**stimulieren** *vt* təkan vermək; həyəcan oyatmaq, həvəsləndirmək.

**stinken** *vi* pis iy vermək, qoxumaq, iylənmək; *~ nach D* iy vermək, ..kimi iylənmək; *fig. das stinkt mir* bundan/ondan acığım gəlir.

**stinkend** *adj.* üfunətli, iylənmiş, iyli.

**stinkfaul** *adj.* həddindən artıq tənbəl.

**stinkreich** *adj.* çox zəngin, çox varlı.

**Stinkwut,** *die; - : e-e ~ haben* bərk hirslənmək, bərk acıqlı olmaq *(auf A/).*

**Stipendiat,** *der; -en, -en* təqaüdçü.

**Stipendium,** *das; -s, -dien* təqaüd *(Süd. : burs).*

**stippen** *vt* batırmaq *(in A/-ə).*

**Stirn,** *die; -, -en* alın; *s-m Gegner die ~ bieten* rəqiblə üzbəüz durmaq; *fig. die ~ haben, zu Inf. -məyə* cürəti çatmaq, *-məyə* çürəti olmaq.

**Stirnhöhle,** *die; -, -n* alın boşluğu.

**Stirnhöhlenvereiterung,** *die; -, -en* alın boşluğunun iltihabı.

**stöbern** *vi fig. (nach et.)* eşələnmək, qurdalanmaq, axtarmaq *(nach/-i).*

**stochern** *vi* qarışdırmaq; eşələmək.

**Stock,** *der; -(e)s, -¨e* **1.** ağac; əl ağacı, əsa, çəlik; **2.** *(Stockwerk)* mərtəbə; **3.** *(kleiner Strauch, Blumenstock)* kol;**4.***(Bienenstock)* arı pətəyi.

**stockbesoffen** *adj.* bərk kefli, bərk sərxoş.

**stockdumm** *adj.* lap axmaq, lap gic.

**stockdunkel** *adj.* zülmət, qaranlıq.

**stocken** *vi* **1.** *(Arbeit, Handel usw.)* dayanmaq; **2.** *(Stimme)* dili tutulmaq, dili dolaşmaq; **3.** *(Blut)* laxtalanmaq; donmaq; **4.***(Milch)* çürümək; *zum Stocken bringen* dayandırmaq, kəsmək.

**stockend** *adj. (Stimme)* tutuq; lalapitik.

**stockfinster** *adj.* zülmət, qaranlıq.

**Stockfisch,** *der; -(e)s, -e* treska balığı, qurudulmuş balıq.

**Stockfleck,** *der; -(e)s, -e u.-en* rütubət ləkəsi.

**stockig** *adj.* kiflənmiş; iylənmiş.

**-stöckig** *adj.* mərtəbəli.

**Stockschnupfen,** *der; -s med.* xroniki *(Süd. : müzmin)* zökəm.

**stocksteif** *adj.* dümdüz.

**Stockung,** *die; -, -en* **1.** dayanma, durğunluq; maneçilik; **2.** *(Verstopfung)* tıxanma, ilişik.

**Stockwerk,** *das; -(e)s, -e* mərtəbə; *im ersten ~* birinci mərtəbədə.

**Stoff,** *der; -(e)s, -e* **1.** maddə, cisim; materiya; **2.** *(Textilstoff)* parça; **3.** *(Gegenstand)* mövzu.

**Stoffballen,** *der; -s, -* parça topu, qumaş topu.

**Stoffel,** *der; -s, - F* qaba adam.

**stofflich** *adj.* maddi, cismi.

**Stoffrest,** *der; -(e)s, -e* qalıq parça, artıq qalmış parça.

**Stoffwechsel,** *der; -s* maddələr mübadiləsi, anabolizma.

**stöhnen** *vi* inildəmək; zarımaq; *fig. (über A -dən)* yanıb-yaxılmaq, çox acımaq.

**stoisch** *adj.* sakit, təmkinli.

**Stola,** *die; -, -len (breiter Schal)* enli şal.

**Stolle**[1]**,** *die; -, -n* , **~n,** *der;-s, -* şirin çörək, kişmişli çörək.

**Stollen**[2]**,** *der; -s, -* **1.** *Bgb.* mə`dən dəhlizi; **2.** *(unterirdischer Gang)* lağım yolu, dar yol.

**stolpern** *vi* **1.** *(straucheln)* ayağı dolaşmaq, ayağı ilişmək, büdrəmək *(über A/bir şey üstünə)*; **2.** *(über e-n Satz usw.)* dili dolaşmaq, duruxa-duruxa danışmaq, dili dönməmək.

**stolz** *adj.* **1.** *(selbstbewußt)* məğrur, özünə güvənən; **2.** *(überheblich)* təkəbbürli, qürurlu; *~ sein* fəxr etmək *(auf A/-ilə); ich bin ~ auf dich* səninlə fəxr edirəm; **3.** *(imposant)* əzəmətli, çox böyük; **4.** *(Preis usw.)* çox baha, çox yuxarı; *adv.* qürurla.

**Stolz,** *der; -es* fəxr, iftixar; təkəbbür, məğrurluq; qürur; *mit ~* iftixar hissi ilə, iftixarla, qürurla, fəxrlə.

**stolzieren** *vi* təkəbbürlə yerimək, qürurla yerimək, poz vermək; *im neuen Kleid durch die Stadt ~* yeni *(təzə)* paltarla burnu havada *(təkəbbürlə)* şəhəri dolanmaq.

**stop!** **1.** dayan!, dur!, saxla!; **2.** *(im Telegramm)* nöqtə.

**stopfen** *vt* **1.** *(füllen)* doldurmaq, tıxamaq; **2.** *(flicken)* yamamaq, gözəmək; **3.** *(e-e Öffnung)* sıxışdırmaq, bağlamaq; **4.** *(et. in et.)* içinə qoymaq, içinə soxmaq, içinə basmaq ; *e-e Pfeife ~* çubuğu *(pipi)* doldurmaq; *F stopft nicht so!* bir belə tıxmayın! bir belə basmayın!; *fig. j-m den Mund ~* bir kəsin ağzını yumdurmaq, bir kəsi susdurmaq; *vi* 1. tez doyurmaq, tez doydurmaq; *Nudeln stopfen* əriştə tez doydurur; 2. *(Darm)* qarnı bağlamaq, qarnı qəbz etmək; *Cola stopft* kola qarnı qəbz edir; *(Durchfall)* ishalı kəsmək; 3. *der Raum war gestopft* otaq, ağzına can doluydu.

**Stopfgarn,** *das; -(e)s, -e* yamaq sapı.

**Stopfnadel,** *die; -, -n* gözəmə iynəsi.

**stopp** *int.* dayan!, dur!.

**Stopp,** *der; -s, -s* dayan(dır)ma, dur(dur)ma.

**Stoppel,** *die; -, -n* **1.** biçilmiş əkin yerində qalan sünbüllər; **2.** *F* cod tük.

**Stoppelbart,** *der; -s, -¨e* qırxılmamış

qısa saqqal.

**Stoppelfeld,** *das; -(e)s, -er* biçilmiş əkin yeri, kövşən.

**stoppelig** *adj.* tüklü, qırxılmamış.

**stoppen** *vt* dayandırmaq, qarşısını almaq; *fig.* cilovunu çəkmək; *vi* dayanmaq, dayandırılmaq; qarşısı alınmaq.

**Stoppschild,** *das; -(e)s, -er* dayanmaq üçün xəbərdarlıq lövhəsi.

**Stoppsignal,** *das; -s, -e* dayanmaq üçün xəbərdarlıq siqnalı.

**Stoppuhr,** *die; -, -en* saniyəölçən.

**Stöpsel,** *der; -s, -* tıxac, gürdək.

**stöpseln** *vt* tıxaclamaq, bağlamaq *(tıxacla)*.

**Stör,** *der; -(e)s, -e (Fisch)* nərə balığı.

**störanfällig** *adj.* tez xarab olan, tez pozulan.

**Storch,** *der; -(e)s, -¨e* hacıleylək,leylək.

**stören** *vt* **1.** *(j-n/bir kəsi)* narahat etmək, zəhmət vermək; **2.** *(Ruhe usw.)* rahatlığını pozmaq; *vi (j-n bei D/bir kəsə bir şeydə)* mane olmaq, əngəl olmaq; bəla olmaq; *F* əl-ayağa dolaşmaq, əl-ayağını bağlamaq, əngəl olmaq, əngəlləmək; *lassen Sie sich nicht ~!* narahat olmayın!; *Bitte nicht ~!* lütfən narahat etməyin! *vr sich ~ an (D) -dən* narahat olmaq.

**störend** *adj.* narahat edən, zəhmət verən, zəhmətə səbəb olan.

**Störenfried,** *der; -(e)s, -e* rahatlığı pozan, ara pozan adam.

**Störfaktor,** *der; -s, -en* əngəl, mane.

**stornieren** *vt (Auftrag usw.)* ləğv etmək.

**Storno,** *das; -s, -ni* bir sifarişi ləğv etmə; silmə, düzəltmə.

**störrisch** *adj.* tərs, inadcıl, dikbaş, sərkeş.

**Störung,** *die; -, -en* **1.** *(das Stören)* rahatlığı pozma; **2.** *(das Gestörtsein)* narahatlıq; maneə, arizə, əngəl; **3.***(Radio)* atmosfer maneələri, parazit; *Verdauungsstörung* mədə pozğunluğu; *verzeihen Sie die ~!* bağışlayın sizi narahat edirəm!, sizi rahatsız etdiyim üçün üzr istəyirəm!

**Störungsdienst,** *der; -(e)s, -e (bei der Telefonzentrale)* mərkəzi telefon qovşağının təmir şöbəsi.

**störungsfrei** *adj.* əngəlsiz, maneəsiz, parazitsiz, ara vermədən.

**Störungsstelle,** *die; -, -n s. Störungsdienst.*

**Story,** *die; -, Storiz, Storis* kiçik hekayə, əhvalat, macəra. *(engl.); glaubst du diese ~ etwa? (olmaya)* bu əhvalata inanırsan?

**Stoß,** *der; -es, -¨e* **1.** itələmə; *j-m e-n ~ geben* bir kəsi itələmək; **2.** *(Schlag)* zərbə, təkan; *j-m e-n ~ versetzen* bir kəsə bir zərbə vurmaq; *sich (D) e-n ~ geben* özünə təkan vermək, özünü vadar etmək; **3.** *(Fußstoß)* təpik; **4.** *(Fauststoß)* yumruq; **5.** *(Erschütterung)* sarsıtma, sarsıntı; **6.** *(Stapel)* qalaq, yığın; **7.** *(Erdstoß)* yeraltı təkan; zəlzələ.

**Stoßarbeit,** *die; -, -en* zərbəçi iş.

**Stoßarbeiter,** *der; -s, -* zərbəçi.

**Stoßdämpfer,** *der; -s, -* amortizator, bufer.

**Stößel,** *der; -s, -* toxac, döyəc.

**stoßen** *vt* **1.** itələmək; **2.** zərbə vurmaq, zərbə endirmək; **3.** *(mit dem Fuß)* təpik vurmaq; **4.** *(mit der Faust)* yumruq vurmaq, yumruqlamaq; **5.** *(mit den Hörnern od. dem Kopf)* kəllə vurmaq, buynuzlamaq; **6.** *(Pfeffer, Zimt usw.)* döymək, əzmək; *vi* çarpmaq, vurmaq, toqquşmaq, dəy(dir)mək *(an, gegen A/-ə); fig.* qarşılaşmaq, rast gəlmək, *(auf A/-ə); (Öl usw.)* tapmaq, kəşf etmək; **7.** *(vulg.) er har sie gestoßen* o, o qızı qayırdı, o qızla cinsi əlaqədə oldu; *vr sich ~ (an et. D)*; 1. *(körperlich)* bir yerə dəyib əzmək *(incitmək)*, bir yerə vurmaq, bir yerə toqquşmaq, bir yerə dəy(dir)mək; *er hat sich an der Tischkante gestoßen* o, mizin qırağına dəydi *(masaya toqquşdu);* 2.*(Anstoß nehmen)* ədəbsiz saymaq, düz bilməmək; *auf Schwierigkeiten ~* çətinliklərlə qarşılaşmaq.

**Stoßgebet,** *das; -(e)s, -e* yığcam dua, qısa dua, uzunsürməyən dua.

**Stoßkraft,** *die; -* təzyiq gücü, zərbə

qüvvəsi, hərəkətverici qüvvə.

**Stoßseufzer,** *der; -s, -* ah-uf; dərin ah.

**Stoßstange,** *die; -, -n* sipər.

**Stoßtrupp,** *der; -s, -s mil.* həmləçi qoşun dəstəsi *(hissəsi),* zərbəçi dəstə.

**stoßweise** *adv.* **1.** kəsik-kəsik; təkanla; *~ atmen* kəsik-kəsik nəfəs almaq; **2.** qalaq-qalaq, yığınla.

**Stoßzahn,** *der; -(e)s, -¨e* köpək dişi, diş.

**Stoßzeit,** *die; -, -en* **1.** *(Hauptverkehrszeit)* ən çox nəqliyyat *(trafik)* olan vaxt; **2.** *( im Betrieb)* ən çox iş olan vaxt.

**Stotterer,** *der; -s, -* pəltək.

**stottern** *vi* pəltək danışmaq, kəkələmək; dili tutulmaq, dili dolaşmaq; *vor Verlegenheit ~* utanmaqdan pəltək danışmaq *(dili tutulmaq, dili dolaşmaq).*

**Stottern,** *das; -* pəltəkləmə, kəkələmə.

**stotternd** *adj.* lalapiti*(k).*

**Str.** *Abk. für : Straße.*

**stracks** *adv.* tez, tələsərək, cəld, dərhal, gecikdirmədən; *sich ~ melden* dərhal xəbər vermək.

**Strafandrohung,** *die; -, -en* cəza qorxusu.

**Strafanstalt,** *die; -, -en* həbsxana.

**Strafantrag,** *der; -(e)s, -¨e* cəzanın tətbiqi üçün təklif; şikayət.

**Strafanzeige,** *die; -, -n jur.* cinayət *(cürm)* haqda hakimiyyət orqanlarına məlumat *(gegen A/-in əleyhinə; wegen G/-ə görə, üçün),* şikayət.

**Strafarbeit,** *die; -, -en* cəza işi, islah işi .

**Strafaufschub,** *der; -(e)s, -¨e* cəzanın icrasını yubatma *(təxirə salma).*

**strafbar** *adj.* cəzalanmalı, cəzaya layıq, cəzalı; *sich ~ machen* qanunu pozmaq, cürm eləmək.

**Strafbarkeit,** *die; -* müqəssirlik, təqsirlilik.

**Strafbefehl,** *der; -s, -e jur.* məhkəmənin çıxardığı hökm, məhkəmə qərarı.

**Strafe,** *die; -, -n* cəza, cəza tədbiri; cərimə, tənbeh; *veralt.* əcr; *Freiheitsstrafe* həbs cəzası; *Todesstrafe* ölüm cəzası; *Geldstrafe* pul cəriməsi; *e-e ~ (be)zahlen* cərimə vermək; *e-e ~ mildern* cəzanı yüngülləşdirmək; *e-e ~ verhängen* cəza kəsmək, cəza vermək; *j-n mit e-r ~ belegen* bir kəsə cəza kəsmək.

**strafen** *vt* cəzalandırmaq, cərimə etmək.

**Straferlass,** *der; -es, -e* bağışlanma, cəzanı ləğv etmə; ümumi əfv; *~ erhalten* bağışlanmaq, əfv edilmək.

**Strafexpedition,** *die; -, -en* cəza əməliyyatı, cəza ekspediyası.

**straff** *adj.* **1.** *(gespannt, fest)* tarım, gərgin; *die Zügel ~ anziehen* cilovu yığmaq; *die Schnur ~ spannen* ipi çəkmək; **2.** *fig. (energisch, streng)* sərt, ciddi; *~e Ordnung* qayda-qanun, nizam-intizam.

**straffällig** *adj.* cəzalandırılmalı, cəzaya layiq; günahkar; *~ werden* qanunu pozmaq.

**straffen** *vt* gərginləşdirmək; *vr sich ~* dik durmaq, qalxmaq; gərnəşmək.

**straffrei** *adj.* cəzasız, tənbehsiz.

**Straffreiheit,** *die; -* cəzasız qalma; əfv edilmə.

**Strafgefangene,** *der; -n, -n* dustaq, məhbus, məhkum.

**Strafgericht,** *das; -(e)s, -e* **1.** cinayət məhkəməsi; **2.** *(Strafe)* divan, qisas; *ein ~ Gottes* tanrının divanı.

**Strafgesetz,** *das; -es, -e* cinayət qanunu.

**Strafgesetzbuch,** *das; -(e)s, -¨er* cinayət qanunun kitabı, cinayət məcəlləsi.

**Strafkammer,** *die; -, -n* ağır cinayət işlərinə baxan məhkəmə.

**Straflager,** *das; -s, -* cəza kampı.

**sträflich** *adj.* cəzalanmalı, cəzaya layiq.

**Sträfling,** *der; -s, -e* dustaq, məhbus.

**straflos** *adj.* cəzasız, tənbehsiz.

**Strafmandat,** *das; -(e)s, -e* **1.** cəza, cərimə; *ein ~ bekommen* cərimələnmək, cərimə olmaq; **2.** *(Strafzettel)* cərimə qəbzi.

**Strafmaß,** *das; -es* cəza həddi, mücazat; *das ~ festsetzen* cəzanın həddini təyin etmək, veriləcək cəzanı bildirmək.

**strafmildernd** *adj.* cəzanı yüngülləş-

dirən; *jur. ~e Umstände* cəzanı yüngülləşdirici hallar *(səbəblər)*.

**strafmündig** *adj. jur.* cəzalanma yaşına çatmış.

**Strafpredigt,** *die; -, -en F* nəsihət oxuma; tənbeh, qulaqburması, şiddətli töhmət.

**Strafprozess,** *der; -es, -e* cinayət prosesi.

**Strafraum,** *der; -(e)s, -¨e (beim Fußball)* cərimə meydançası, penaltı sahəsi.

**Strafrecht** *das; -s* cinayət hüququ.

**strafrechtlich** *adj.* cinayət, cəzai; *~ verfolgen* cinayət hüququna uyğun olaraq təqib etmək.

**Strafstoß,** *der; -es, -¨e (Fußball)* penaltı, onbirmetrlik cərimə zərbəsi.

**Straftat,** *die; -, -en* cinayət.

**Strafverfahren,** *das; -s, -* məhkəmə cinayət işi, cinayət işi icrası.

**Strafverfolgung,** *die; -, -en* qanuni təqib, cinayət təqibi.

**strafverschärfend** *adj.* cəzanı ağırlaşdıran *(gücləndirən); ~e Umstände* cəzanı ağırlaşdıran hallar *(səbəblər).*

**Strafverteidiger,** *der; -s, -* vəkil.

**Strafvollzug,** *der; -(e)s, -* hökmün yerinə yetirilməsi, cəzanın icrası.

**Strafzettel,** *der; -s, -* cəza qəbzi.

**Strahl,** *der; -(e)s, -en* **1.** *(Lichtstrahl usw.)* şüa, bərq; **2.** *(Wasserstrahl)* cərəyan, axın.

**Strahlemann,** *der; -(e)s, -¨er F* üzügülər; nikbin.

**strahlen** *vi* parıldamaq, şüa saçmaq, şüalanmaq, işıq saçmaq, işıldamaq, bərq vurmaq; *fig. (vor D -dən)* gözləri parıldamaq.

**Strahlenbehandlung,** *die; -, -en* radioterapi*(ya),* rentgen şüaları ilə müalicə.

**Strahlenbrechung,** *die; -, -en phys.* sınma, istiqamətini dəyişdirmə.

**Strahlenbündel,** *das; -s, - phys.* şüa dəstəsi.

**strahlend** *adj.* parlaq, şüalanan, şəfəqli, bərraq, işıltılı; dumduru.

**Strahlendosis,** *die; -, -sen* şüa miqdari, şüalanma dərəcəsi.

**strahlenförmig** *adj.* şüa şəklində, ulduz kimi.

**Strahlenforschung,** *die; -* şüalanmanın tədqiqi, radiologiya *(radiyoloji).*

**strahlenverseucht** *adj.* şüalanmaya *(radioaktivə)* məruz qalmış, şualanma ilə zəhərlənmiş, kontaminə.

**strahlig** *adj.* işıq saçan, şüali, şəfəqli.

**Strahler,** *der; -s, -* **1.** *(Lampe)* lampa; **2.** *(Heizgerät)* radiator, qızdırma aləti.

**Strahlung,** *die; -, -en* şüa buraxma, nur saçma, şüalanma; şəfəq, parıltı, radiasiya.

**Strahlungsintensität,** *die; -* **1.** şüa gücü, şualanma qüvvəsi, radiasiya qüvvəsi; **2.** şüalanma səviyyəsi *(dərəcəsi).*

**Strahlungsmesser,** *der; -s, -* şüalanma *(radiasiya)* ölçü cihazı.

**Strähne,** *die; -, -n* **1.** *(Haarsträhne)* çəngə, bir çəngə saç; **2.** *(Garnsträhne)* kələf, yumaq.

**stramm** *adj.***1.** *(straff)* tarım, sıx; **2.** *(gerade)* dümdüz; **3.** *(kräftig)* güclü, sağlam.

**strammstehen** *vi* fərəqət durmaq, hazır ol durumunda durmaq *(Süd. : xəbərdar durmaq)*.

**Strampelanzug,** *der; -e(s), -¨e* uşaq paltarı, körpə uşaq paltarı.

**strampeln** *vi* **1.** *(Baby)* təpinmək, əl-ayağı oynatmaq; **2.** *F (mit dem Fahrrad)* sürətlə bir yerə getmək.

**Strand,** *der; -(e)s, -¨e* **1.** dəniz sahili; **2.** *(Badestrand)* plaj; *am ~* sahildə; *ein sandiger ~* qumlu bir plaj; *ein steiniger ~* daşlı bir plaj.

**Strandanzug,** *der; -(e)s, -¨e* çimərlik paltarı *(geyimi).*

**Strandbad,** *das; -(e)s, -¨er* çimərlik, plyaj *(Süd. : plaj).*

**stranden** *vi* **1.** *(Schiff)* saya oturmaq; qəzaya uğramaq; **2.** *(im Beruf usw.)* müvəffəqiyyətsizliyə uğramaq, hədəfinə çatmamaq, amacına çatmamaq.

**Strandgut,** *das; -(e)s* qəzadan sonra qalan gəmi qırıntıları; dənizin gətirdiyi şeylər.

**Strandkorb,** *der; -(e)s, -¨e* günlüklü hörmə kürsü.

**Strandkrabbe,** *die; -, -n* xərçəng.

**Strandpromenade,** *die; -, -n* sahil bulvarı.

**Strandung,** *die; -* gəminin saya oturması.

**Strandwächter,** *der; -s, -* sahil gözətçisi.

**Strang,** *der; -(e)s, -¨e* **1.** ip, kəndir, kanat; **2.** *(Bündel)* kələf, yumaq; *Wollstrang* yun yumağı; **3.** *(Eisenbahnstrang)* xətt; **4.** *(zum Anschirren)* qoşma qayışı; *über die Stränge schlagen* həddini aşmaq; *am gleichen ~ ziehen* eyni məqsədə qulluq etmək, eyni hədəfi olmaq; *j-n zum Tod durch den ~ verurteilen* bir kəsi dar ağacından asılmaqla ölüm cəzasına məhkum etmək.

**strängen** *vt* atları arabaya qoşmaq.

**Strangulation,** *die; -, -en* **1.** asıb öldürmə, boğub öldürmə; **2.** *med.* bağırsağı bağlamaq.

**strangulieren** *vt* boğmaq; dar ağacından asmaq, dara çəkmək.

**Strapaze,** *die; -, -n* əziyyət, məşəqqət; *~n durchmachen* əziyyət çəkmək, məşəqqət çəkmək; *den ~n nicht gewachsen sein* çox əziyyət çəkməyə qadir olmamaq.

**strapazieren** *vt* **1.** yormaq, əldən salmaq; **2.** *(Maschine usw.)* çox işlətmək; *sie sieht strapaziert aus* o, çox yorğun görüşür.

**strapazierfähig** *adj.* dayanaqlı, möhkəm, davamlı, sarsılmaz.

**strapaziös** *adj.* əziyyətli, məşəqqətli, yorucu.

**Straps,** *der; -(e)s, -e (Strumpfhalter)* corabbağı.

**Strass,** *der; - es, -e* şüşədən düzəlmiş qiymətli daşın bənzəri.

**Straße,** *die; -, -n* **1.** küçə; yol, xiyaban; caddə; **2.** *(Meerenge)* boğaz; *auf offener ~* hamının gözü qabağında; *auf der ~ sitzen* işsiz olmaq; *auf die ~ gehen* nümayişə çıxmaq, nümayiş et(dir)mək; *auf der ~* küçədə, xiyabanda, yolda; *~ für ~* küçə-küçə, küçəbəküçə; *e-e ~ anlegen/bauen* yol çəkmək.

**Straßenbahn,** *die; -, -en* tramvay.

**Straßenbau,** *der; -(e)s* yol tikintisi.

**Straßenbeleuchtung,** *die; -, -en* küçə işıqları, küçəni işıqlandırma.

**Straßenbenutzungsgebühr,** *die; -, -en* yol vergisi, yoldan istifadə etmək üçün verilən vergi.

**Straßenecke,** *die; -, -n* küçənin tini *(döngəsi).*

**Straßenfeger,** *der; -s, - s. Straßenkehrer.*

**Straßenhändler,** *der; -s, -* küçə alverçisi, dolanan alverçi.

**Straßenkampf,** *der; -(e)s, -¨e* küçə döyüşü.

**Straßenkehrer,** *der; -s, -* küçəsüpürən.

**Straßenkreuzer,** *der; -s, - F* güclü minik avtomobili.

**Straßenkreuzung,** *die; -, -en* dörd yol, ayrıc.

**Straßenlaterne,** *die; -, -n* küçə fənəri.

**Straßenmädchen,** *das; -s, -* küçə qadını; fahişə.

**Straßennetz,** *das; -(e)s, -e* yol şəbəkəsi.

**Straßenrand,** *der; -(e)s, -¨er* yol qırağı.

**Straßenreinigung,** *die; -* yol təmizliyi.

**Straßensperre,** *die; -, -n* **1.** yolu kəsmə; **2.** barikad, küçə səngəri.

**Straßenverkehr,** *der;- (e)s* küçə hərəkatı, trafik; küçə gediş-gəlişi, gəlib-getmə.

**Straßenverkehrsordnung,** *die; -en* trafik qanunu, yol hərəkatı qaydaları.

**Straßenzustand,** *der; -(e)s, -¨e* yolların vəziyyəti, küçələrin vəziyyəti.

**Stratege,** *der; -n, -n* strateq.

**Strategie,** *die; -, -n* **1.** strategia *) Süd. : strateji,)* plan töküb yerinə yetirmə; **2.** *(Kunst der militär. Kriegsführung)* müharibə aparma məharəti *(elmi).*

**strategisch** *adj.* stratejik; hərbi əhəmiyyətli.

**Stratosphäre,** *die; -* stratosfer.

**sträuben** *vr sich ~* **1.** biz-biz durmaq, dik qalxmaq;*mir sträubten sich die Haare*

*(vor Schreck)* tuklərim biz-biz dururdu *(qorxudan);* **2.** *sich (gegen et.) ~* bir şeyə qarşı müqavimət göstərmək, dirənmək; *vt (Fell)* porsutmaq, qabartmaq; *der Igel sträubt die Stacheln* kirpi tikanlarını qabartır; **3.** *fig. haarsträubend* qorxuducu, dəhşətli.

**Strauch,** *der; -(e)s, -¨er* kol, buta.

**Strauchdieb,** *der; -(e)s, -e* yolkəsən, quldur.

**straucheln** *vi* **1.** ayağı dolaşmaq, büdrəmək; **2.** *fig.* düz yoldan çıxmaq.

**Strauß¹,** *der; -es, -¨e* gül dəstəsi, buket; *Blumen zum ~ binden* buket düzəltmək; *ein ~ Nelken* bir dəstə qərənfil gülü.

**Strauß²,** *der; -es, -e* *zo.* dəvəquşu.

**Strebe,** *die; -, -n* dayaq, tir, dirək.

**streben** *vi* cəhd etmək, can atmaq *(nach D/nəyəsə).*

**Streber,** *der; -s, -* vəzifəpərəst, mənsəbpərəst; şöhrətpərəst.

**Strebertum,** *das; -s* vəzifəpərəstlik, mənsəbpərəstlik; şöhrətpərəstlik.

**strebsam** *adj.* çalışqan, can yandıran, fəaliyyətli, həmiyyətli.

**Strebsamkeit,** *die; -* qeyrət, cəhd, cidd-cəhd.

**streckbar** *adj.* elastik, kövrək.

**Strecke,** *die; -, -n* **1.** *(Entfernung, Weg)* məsafə, ara, uzaqlıq; yol **2.** *(Eisenbahnstrecke)* xətt; **3.** *(Rennstrecke)* etap; **4.** *(Abschnitt, Fläche)* bölüm, parça; *auf der ~ bleiben* yolda qalmaq; *ein Tier zur ~ bringen* bir heyvanı öldürmək; *F j-n zur ~ bringen* cinayətkarı yaxalamaq.

**strecken** *vt* uzatmaq, dartmaq, çəkib gərmək; *die Waffen ~* təslim olmaq; *vr sich ~* uzanmaq.

**streckenweise** *adv.* qismən, bəzi yer(lər)də.

**Streckverband,** *der; -(e)s, -¨e* *med.* sarıq, bandaj.

**Streetworker,** *der ; -s, -* ictimai yardım işçisi, sosial təminat işçisi.

**Streich,** *der; -(e)s, -e* **1.** zərbə; **2.** *fig.* oyun, hoqqa, şuluqluq; zarafat, şuxluq; *fig. e-n bösen ~ spielen* pis bir oyun oynamaq, hoqqabazlıq etmək *(j-m /kiməsə).*

**streicheln** *vt* sığallamaq, əl çəkmək; əzizləmək, oxşamaq.

**streichen** *vt* **1.** *(anstreichen)* boya çəkmək, rəngləmək; **2.** *(Butter usw.)* sürtmək; **3.** *(ausstreichen)* qaralamaq, pozmaq; *j-n von der Liste ~* siyahıdan çıxarmaq; **4.** *(reiben)* tumarlamaq, sürtmək; **5.** *(streifen)* veyllənmək, dolanmaq; **6.** *(das Ruder)* tərsinə avar çəkmək, tərs istiqamətdə avar çəkmək *(qayığı durdurmaq üçün).*

**Streicher,** *der; -s, -* orkestrdə yaylı musiqi aləti çalan.

**Streichholz,** *das; -es, -¨er* kibrit.

**Streichholzschachtel,** *die; -, -n* kibrit qutusu.

**Streichinstrument,** *das; -(e)s, -e* simli çalğı aləti.

**Streichkäse,** *der; -s* çörək üstünə sürtməli pendir, yumşaq pendir.

**Streichorchester,** *das; -s, -* simli çalğı alətləri orkestri.

**Streichung,** *die; -, -en* **1.** poz(ul)ma, sil(in)mə, ləğ etmə; **2.** silinən şey.

**Streifband,** *das; -(e)s, -¨er* bağlama, banderol.

**Streife,** *die; -, -n* gözətçi dəstəsi; nəzarət edən polis dəstəsi; *~ gehen* gəzib yoxlamaq.

**streifen** *vt* **1.** *(leicht berühren)* toxunmaq, dəymək, sıyırıb keçmək, -ə sürtmək; üzərində zolaq açmaq; *der Kugel hat ihn nur gestreift* güllə ancaq ona toxundu; **2.** *(Problem usw.) -ə* işarə etmək; **3.** *(Ring)* sıyırıb çıxarmaq; *den Ring vom Finger ~* üzüyü barmaqdan çıxartmaq; **4.** *(Thema) -ə* qıssaca toxunub keçmək; *vi* gəzmək, dolanmaq, dolaşmaq, vurnuxmaq; *durch den Wald streifen* meşəni gəzmək *(gəzib-dolanmaq); gestreift* zolaqlı, xətt-xətt.

**Streifen,** *der; -s, -* **1.** zolaq; **2.** *(Band)* lent; bağ; **3.** film.

**Streifenwagen,** *der; -s, -* polis nəzarət maşını.

**streifig** *adj.* zolaqlı.

**Streiflicht,** *das; -(e)s, -er* işıq şuasi; *fig. ein ~ auf et. werfen* bir şeyə diqqəti cəlb etmək.

**Streifschuss,** *der; -es, -¨e* yüngül yaralanma, yüngül güllə yarası.

**Streifzug,** *der; -es, -¨e* **1.** *(Ausflug)* səyahət, gəzinti; **2.** *mil.* kəşfiyyat əməliyyatı; **3.** *fig.* icmali baxış *(durch A/-ə).*

**Streik,** *der; -(e)s, -s* nümayiş, tətil, *(Süd. : etisab); in den ~ treten* tətilə başlamaq.

**Streikaufruf,** *der; -(e)s, -e* tətilə çağırış.

**Streikbrecher,** *der; -s, -* tətil pozucusu, tətilpozan, tətilin gedişinə mane olan.

**streiken** *vt* tətil etmək.

**Streikposten,** *der; -s, - (vor e-m Betrieb)* tətilçilərin piketi.

**Streikrecht,** *das; -(e)s* tətil hüququ, etisab haqqı.

**Streikverbot,** *das; -(e)s* tətilin qadağan edilməsi, tətil qadağanı.

**Streit,** *der; -(e)s, -e* **1.** ixtilaf, söyüşmə, sözləşmə; dava, döyüş, vuruşma, dava-dalaş, dava-qalmaqal, dəva; *F* dov, hərbə-zorba; **2.** *(Rechtsstreit)* çəkişmə, mübahisə, münaqişə; *e-n ~ anfangen/ vom Zaun brechen* mübahisəyə başlamaq; *~ suchen* dava axtarmaq; *e-n ~ beilegen* davanı yatırtmaq, mübahisəli məsələni həll etmək; barışmaq.

**Streitaxt,** *die; -, -¨e* döyüş baltası.

**streitbar** *adj.* davaçı, davakar; barışmaz; mübahisəli.

**streiten** *vi* mübahisə aparmaq; dava etmək, dalaşmaq, savaşmaq, çəkişmək, atışmaq, ağızlaşmaq *(mit D/ilə; um A, über A/haqda); sich ~* dalaşmaq, savaşmaq; mübahisə aparmaq, çəkişmək, gəmirişmək, deyişmək; *darüber lässt sich ~* bu haqda mübhisə etmək olar.

**Streiter,** *der; -s, -* mübahisəçi; döyüşçü.

**Streiterei,** *die; -, -en* münaqişə, mübahisə, atışma.

**Streitfall,** *der; -(e)s, -¨e* ixtilaf, münaqişə, mübahisəli məsələ.

**Streitfrage,** *die; -, -n* mübahisəli məsələ, ixtilaflı məsələ.

**Streitgespräch,** *das; -(e)s, -e* mübahisə etmə.

**Streithammel,** *der; -s, - F* davakar, dalaşqan, davaçıl.

**streitig** *adj.* mübahisəli; *j-m et. ~ machen* bir kəsdən bir şey iddia etmək.

**Streitkräfte,** *die/pl.* silahlı *(hərbi)* qüvvələr.

**Streitobjekt,** *das;-(e)s, -e* mübahisə olunan şey, ixtilaf mövzusu.

**Streitpunkt,** *der; -s, -e* ixtilaf mövzusu, mübahisəli məsələ.

**streitsüchtig** *adj.* davaçıl, mübahisə etməyi sevən, cəncəl adam, cəncəlçi, dalaşqan, davakar; *fig.* düyələkbaz.

**Streitwert,** *der; -(e)s, -e jur.* iddianın dəyəri.

**streng** *adj.* **1.** ciddi; sərt, şiddətli; **2.** *(Strafe)* ağır; **3.** *(Kälte)* bərk, şiddətli; *~e Kälte* bərk soyuq, şaxta; *~ werden* ciddiləşmək; *adv. sich ~ halten an -i* ciddi şəkildə riayət etmək, yerinə yetirmək; *~ verboten* qəti surətdə qadağandır.

**Strenge,** *die; -, -* sərtlik, şiddət; ciddilik, ciddiyyət, zabitəlilik.

**strenggenommen** *adv.* əslinə baxsan, əslinə qalanda, əslinə baxanda.

**strenggläubig** *adj.* din ifratçısı, mömin, dindar.

**Stress,** *der; -es* stres, ruhi gərginlik, sarsıntı; *im ~* stres altında.

**stressen** *vi* ruhi sarsıntı keçirmək, canını sıxmaq.

**stressig** *adj.* stresli.

**Streu,** *die; -* küləş.

**streuen** *vt* **1.** *(Salz usw.)* səpmək; **2.** *(Sand)* tökmək; **3.***(Gehweg) -ə* qum səp(ələ)mək, qum atmaq; **3.** *phys.* dağıtmaq, yaymaq.

**streunen** *vi* səfil-sərgərdan gəzmək, avaralanmaq, veyllənmək, çöllərə düşmək; *~de Katze* küçə pişiki.

**Streusel,** *der u. das; -s, -* şirninin üstünə səpilən xəmir xırdası.

**Streuselkuchen,** *der; -s, -* üstünə xə-

mir xırdası səpilmiş şirni.

**Streuung,** *die; -, -en* səp(il)mə, səpələnmə.

**strich** *s. streichen.*

**Strich,** *der; -(e)s, -e* **1.***(Linie)* cizgi, xətt, zolaq; **2.** *(im Text)* qaralama; pozulmuş yer; **3.** *(Landstriche usw.)* sahə, zolaq; **4.** *(Skalenstrich)* dərəcə; **5.** *F* fahişəlik; *auf den ~ gehen* fahişəlik etmək; *j-m e-n ~ durch die Rechnung machen* bir kəsin planını pozmaq; *F das geht mir gegen den ~!* bu işi heç bəyənmirəm!; *fig. nach ~ und Faden* əsaslı surətdə, kifayət qədər; *unter dem ~* nəticədə, axırda; *wider den ~ gehen -ə* qarşı olmaq, *-ə* zidd olmaq.

**stricheln** *vt* cızıq çəkmək.

**Strichjunge,** *der; -n, -n* fahişəlik edən oğlan.

**Strichliste,** *die; -, -n* yoxlama siyahısı.

**Strichpunkt,** *der;-(e)s, -e* nöqtəli vergül *(;).*

**strichweise** *adv.* zolaq-zolaq, şırımlarla.

**Strick,** *der; -(e)s, -e* **1.** ip, gözək; viş; *e-n ~ um ein Paket schnüren* bir paketi iplə bağlamaq; **2.** *(der Tod durch den ~)* dar ağacından asma; **3.** *F (Schlingel)* dəcəl, nadinc; *F j-m aus et. e-n ~ drehen* bir kəsə kiçik bir xata üçün ziyan vurmaq *(tələ qurmaq).*

**stricken** *vt* toxumaq *(mil ilə);* hörmək; *Strümpfe ~* corab toxumaq.

**Strickerei,** *die; -, -en* toxu(n)ma işi.

**Strickgarn,** *das; -(e)s, -e* toxunma ipi.

**Strickleiter,** *die; -, -n* ip pilləkən.

**Stricknadel,** *die; -, -n* mil, toxuma mili.

**Strickwaren** *die/pl.* toxunma şeylər, trikotaj.

**Strickwolle,** *die; -, -n* toxunma yunu.

**Strickzeug,** *das; -(e)s* toxunma şeylər.

**Striegel,** *der; -s, -* qaşov.

**striegeln** *vt* qaşovlamaq, qaşovla təmizləmək.

**Strieme,** *die; -, -n* qançır, çapıq, qamçı yeri.

**Striemen,** *der; -s, - s. Strieme.*

**strikt** *adj.* ciddi, qəti; dəqiq, ardıcıl; *~ befolgen* sözsüz əməl etmək, dəqiq əməl etmək, bir şeyə dəqiq riayət etmək.

**Strippe,** *die; -, -n* **1.** *(Schnur)* ip, bağ, qaytan; **2.** *F (Telefon)* telefon; *sich an die ~ hängen* telefona yapışıb qopmamaq, telefonla çox danışmaq.

**strippen** *vi* striptiz etmək.

**stritt** *s. streiten.*

**strittig** *adj.* mübahisəli, mübahisə doğuran, ixtilaflı; *~er Punkt* mübahisəli nöqtə *(məsələ).*

**Stroh,** *das; -(e)s* saman, küləş, avar; *leeres ~ dreschen* boş-boş danışmaq; *~ im Kopf haben* axmaq olmaq, səfeh olmaq; *fig. das schmeckt wie ~* bu dadsız-duzsuz bir şeydir, dadı yoxdur.

**strohfarben** *adj.* saman rəngli, saman rəngində.

**strohdumm** *adj.* çox axmaq.

**Strohfeuer,** *das; -s* **1.** saman alovu; **2.** *fig.* ötəri maraq, tez ötüb keçən həyəcan.

**Strohhalm,** *der; -(e)s, -e* saman çöpü; *sich (wie ein Ertrinkender) an e-n ~ klammern/nach e-m ~ greifen* ümidsizlikdən saman çöpündən yapışmaq.

**Strohhut,** *der; -(e)s, -¨e* həsir papaq, həsir börk.

**strohig** *adj.* küləş kimi, quru.

**Strohmann,** *der; -(e)s, -¨er* **1.** qorxuluq; **2.** *(Sport)* ehtiyat oyunçu; **3.** *fig.* əlaltı, başqasının sözü ilə oturub-duran adam; *veralt.* dəstpərvərdə.

**Strohsack,** *der; -(e)s, -¨e* küləş döşək.

**Strohwitwe,** *die; -, -n F* əri səfərə çıxmış qadın, əri başqa yerə getmiş qadın.

**Strohwitwer,** *der; -s, - F* arvadı səfərə çıxmış kişi.

**Strolch,** *der; -(e)s, -e* **1.** fırıldaqçı, kələkbaz, səfil; **2.** *F (Schlingel)* dəcəl.

**strolchen** *vi* səfil-sərgərdan gəzmək, çöllərə düşmək.

**Strom,** *der; -(e)s, -¨e* **1.** böyük çay; **2.** *(reißender)* sel, axın; **3.** *el.* elektrik, elektrik enerjisi, cərəyan, işıq *(Süd. : bərq); fig. gegen den ~ schwimmen* axına qarşı

üzmək; *mit dem ~ schwimmen* axınla üzmək; *den ~ abschalten* cərəyanı *(elektriki)* kəsmək; *in Strömen regnen* sel kimi yağış yağmaq; *F ohne ~* işıqsız.

**stromab(wärts)** *adv.* çayaşağı, çay axınına.

**stromauf(wärts)** *adv.* axının tərsinə, çay yuxarı.

**Stromausfall,** *der; -(e)s, -¨e* cərəyanın kəsilməsi.

**strömen** *vi* **1.** axmaq, şırıltı ilə axmaq, çağlamaq ; **2.** *(Regen)* tökülmək, sel kimi yağmaq; **2.** *(Menschen)* axışmaq, üz qoymaq, getmək.

**strömend** *adj.* *(Regen)* sel kimi, şiddətli.

**Stromer,** *der; -s, -* avara, sərgərdan.

**Stromerzeuger,** *der; -s, -* elektrik enerjisinin *(cərəyanın)* generatoru.

**Stromkreis,** *der; -es, -e* *el.* cərəyan dövrəsi.

**Stromleiter,** *der; -s, -* *el.* keçirici *(cərəyanı).*

**Stromlinienform** *die; -* sürüşkən forma *(hərəkət zamanı hava müqavimətini azaldan formada qayrılmış).*

**stromlinienförmig** *adj.* aerodinamik, sürüşkən *(axarlı)* formalı.

**Stromnetz,** *das; -es, -e* cərəyan şəbəkəsi.

**Stromsperre,** *die; -, -n* elektrik enerjisinin *(cərəyanın)* kəsilməsi.

**Stromstärke,** *die; -, -n* *el.* cərəyan şiddəti *(gücü).*

**Strömung,** *die; -, -en* cərəyan, axın, axar.

**Stromverbrauch,** *der; -(e)s, -¨e* cərəyan məsrəfi, cərəyan sərf etmə.

**Stromversorgung,** *die; -* elektrik enerjisi təminatı *(təchizatı).*

**Stromzähler,** *der; -s, -* elektrik sayğacı *(saatı).*

**Strophe,** *die; -, -n* *lit.* beyt, bənd.

**strotzen** *vi* bol olmaq *(von, vor D/nədənsə);* çox olmaq, dolu olmaq, *-ilə* dolub daşmaq.

**strubb(e)lig** *adj.* *(Haar)* pırtlaşıq, dağılmış, dağınıq saç.

**Strudel,** *der; -s, -* **1.** girdab, burulğan, qasırğa; **2.** nazik xəmir layı.

**Struktur,** *die; -, -en* quruluş, struktu-r*(a).*

**strukturell** *adj.* quruluşca, strukturel.

**Strumpf,** *der; -(e)s, -¨e* corab.

**Strumpfhalter,** *der; -s, -* corabbağı, dizbağı.

**Strunk,** *der; -(e)s, -¨e* gövdə, saplaq.

**struppig** *adj.* *(Haar)* pırtlaşıq, saçları qarışdırılmış.

**Struwwelpeter,** *der; -s* saçları daranmamış, dırnaqları tutulmamış oğlan; pinti.

**Strychnin,** *das; -s* striknin, striknin zəhəri, ən güclü zəhərlərdən biri.

**Stube,** *die; -, -n* otaq.

**Stubenarrest,** *der; -(e)s, -e* ev həbsi.

**Stubenhocker,** *der; -s, -* evdən eşiyə çıxmayan adam, xanənişin.

**Stubenmädchen,** *das; -s, -* ev qulluqçusu.

**stubenrein** *adj.* *(Katze, Hund)* otağı murdarlamayan *(pişik, it).*

**Stuck,** *der; -(e)s* əhəng və ya gəc ilə divara naxış vurma; malalama, suvaqlama.

**Stück,** *das; -(e)s, -e* **1.** parça, para; hissə, qətə, bölük, dang; *ein ~ Brot* bir parça çörək; *ein ~ Land* bir hissə torpaq, bir qarış torpaq; **2.** *(als Zählmaß)* dənə, ədəd, qələm; baş; **3.** *(Musikstück)* musiqi əsəri, qətə; **4.** *(Theaterstück)* pyes; tamaşa; *fig. (das ist) ein starkes ~* bu həyasızlıqdır, bu utanmamazlıqdır; *aus freien ~en* könüllü olaraq; *~ für ~* bir-birinin ardınca; dənə-dənə, parça-parça, seyrək; *2 € das ~ (hər)* biri *(danəsi)* 2 €; *große ~e halten auf -ə* çox əhəmiyyət *(dəyər)* vermək.

**stückeln** *vt* parçalamaq, doğramaq.

**Stückelung,** *die; -, -en* bölmə.

**Stücklohn,** *der; -(e)s, -¨e* işəmuzd haqq.

**stückweise** *adv.* parça-parça, tikə-tikə, dilim-dilim; tək-tək, iflim-iflim, dənə-dənə, doğram-doğram, hissə-hissə.

**Stückwerk,** *das; -(e)s* bitməmiş iş, ya-

rım iş, naqis iş, yarımçıq ış.

**Stückzahl,** *die; -, -en* ədədlərin miqdarı, ədəd, miqdar.

**Student,** *der; -en, -en* öyrənci, tələbə, universitet öyrəncisi.

**Studentenheim,** *das; -(e)s, -e* öyrəncilər *(tələbələr)* yataqxanası.

**Studentenschaft,** *die; -, -en* öyrəncilər.

**studentisch** *adj.* tələbə.

**Studie,** *die; -, -n* **1.** etüd, araşdırma, incələmə; **2.** *(Entwurf)* eskiz.

**Studiendirektor,** *der; -s, -en* gimnaziya müdiri.

**Studiengang,** *der; -(e)s, -¨e* təhsil.

**studienhalber** *adv.* təhsil üçün.

**Studienplatz,** *der; -(e)s, -¨e* təhsil yeri.

**Studienjahr,** *das; -(e)s, -e* dərs ili.

**Studienplan,** *der; -(e)s, -¨e* tədris planı.

**Studienrat,** *der; -(e)s, -¨e* gimnaziya müəllimi.

**Studienreise,** *die; -, -n* elmi ezamiyyət.

**Studienzeit,** *die; -, -en* təhsil müddəti.

**studieren** *vt* **1.** *(auf e-r Hochschule)* oxumaq; **2.** tədqiq etmək, öyrənmək.

**Studio,** *das; -s, -s* studiya *(Süd. : studyo).*

**Studium,** *das; -s, -dien* öyrənmə; təhsil *(an D/-də).*

**Stufe,** *die; -, -n* **1.** pillə; *von ~ zu ~ steigen* pillə-pillə qalxmaq; *Achtung ~!* diqqət edin pillə var!, ehtiyat edin pillə var! **2.** *(Grad)* dərəcə; **3.** *(Rang)* rütbə; **4.** *(Stadium)* mərhələ; **5.** *(Niveau)* səviyyə; *auf gleicher ~* eyni səviyyədə; *sich mit j-m auf e-e gleiche ~ stellen* özünü bir kəsə bərabər tutmaq; *(unterste ~ e-r Leiter)* enəcək.

**stufen** *vt* dərəcələmək.

**stufenartig** *adj.* pillə-pillə; dərəcə-dərəcə.

**stufenförmig** *adj. s. stufenartig.*

**stufenlos** *adj. techn.* dərəcəsiz.

**stufenweise** *adj.* tədrici; *adv.* tədricən.

**Stuhl,** *der; -(e)s, -¨e* **1.** kürsü, səndəl, stul; **2.** *med. nur sg.* insan nəcisi.

**Stuhlgang,** *der; -(e)s* nəcis, qarının işləməsi; *(Süd. : Kindersprache : ən)*; *keinen ~ haben* qəbz olmaq.

**Stukkateur,** *der; -s, -e* əhəng ilə divara naxış vuran, bəzək işləri görən.

**Stulle,** *die; -, -n F* sandvic, sandvic çörəyi, yağ-çörək.

**Stulpe,** *die; -, -n (am Ärmel, Handschuh usw.)* qatlama.

**stülpen** *vt (umkehren)* çevirmək, qoymaq *(über A/-in üstünə)*; *ein Glas über e-e Fliege ~* stəkanı milçəyin üstünə çevirmək *(qoymaq); den Hut auf den Kopf ~* papağı gözünün üstünə qoymaq.

**stumm** *adj.* **1.** lal, dilsiz; **2.** *fig. (still)* sakit, dilsiz-ağızsız.

**Stummel,** *der; -s, -* **1.** qalıq, axır, son; **2.** *(Zigarettenstummel)* papiros kötüyü; **3.** *(Zahnstummel)* sınıq diş kökü; **4.** *(Kerzenstummel)* şam qalığı.

**Stummfilm,** *der; -s, -e* səssiz film.

**Stumpen,** *der; -s, -* qalıq, artıq, kötük.

**Stümper,** *der; -s, -* naşı, təzə işçi.

**stümperhaft** *adj.* bacarıqsız, naşı.

**Stumpf,** *der; -(e)s, -¨e* **1.** qalıq, artıq, son; *mit ~ und Stiel* kökündən; **2.** *(Baumstumpf)* kötük.

**stumpf** *adj.* **1.** *(Ggs. scharf)* küt; *~es Messer* küt bıçaq; *~ werden (Zähne)* qamaşmaq; **2.** *fig.* küt, korazehin.

**Stumpfheit,** *die; -* kütlük, korazehinlik.

**Stumpfsinn,** *der; -(e)s* kütlük, korazehinlik, gictəhərlik, dilbilməzlik.

**stumpfsinnig** *adj.* küt, korazehin, gictəhər, ətbaş, düşüncəsiz; *F* anlamaz adam, abdal, axmaq, başıboş, dərrakəsiz, dilbilməz, əbləh, maymaq.

**stumpfwinklig** *adj.* korbucaqlı.

**Stunde,** *die; -, -n* **1.** saat;**2.** *(Unterrichtsstunde)* dərs; *~n geben* dərs vermək; *e-e halbe ~* yarım saat; *nach e-r ~* bir saatdan sonra; *zu jeder ~* hər zaman, hər vaxt.

**stunden** *vt* möhlət vermək, vaxtını uzatmaq, müddətini uzatmaq; *j-m s-e Schulden ~* bir kəsə borcunun ödəməsində möhlət vermək.

**Stundengeschwindigkeit,** *die; -, -en* bir saatdakı sürət.

**Stundenkilometer,** *der; -s, -* bir saatdakı kilometr, bir saatada gedilən kilo-

metr.

**stundenlang** *adv.* saatlarla, düz bir saat; *nach ~em Warten* saatlarla gözlədikdən sonra.

**Stundenlohn,** *der; -(e)s, -¨e* saathesabı əməkhaqqı, vaxtamuzd haqq, saathesabı ödəniş.

**Stundenplan,** *der; -(e)s, -¨e* dərs cədvəli.

**stundenweise** *adv.* saat hesabı.

**Stundenzeiger,** *der; -s, -* əqrəb.

**stündlich** *adj.* hər saat, saatda bir dəfə; *adv.* hər dəqiqə, hər an gözlənilən.

**Stundung,** *die; -, -en* möhlət, möhlət verilməsi, vaxtın uzadılması, vədənin uzadılması.

**Stunk,** *der; -s F* dava, ixtilaf.

**stupide** *adj.* axmaq, korazehin; *~ Arbeit* darıxdırıcı iş.

**Stups,** *der; -es, -e* yavaş itələmə.

**stupsen** *vt* itələmək.

**Stupsnase,** *die; -, -n* fındıqburun, kiçik və ucu yastı burun.

**stur** *adj.* tərs, dikbaş, danqa, danqaz.

**Sturheit,** *die; -* inadçılıq, dikbaşlıq.

**Sturm,** *der; -(e)s, -¨e* **1.** tufan, boran, qasırğa, burağan, fırtına; **2.** *(Angriff)* hücum, həmlə; *~ laufen* hücum *(həmlə)* etmək *(gegen A/-ə qarşı)*; *fig. ein ~ im Wasserglas* heç nədən hay-küy qaldırmaq.

**Sturmangriff,** *der; -(e)s, -e* həmlə, hücum.

**stürmen** *vi* **1.** *(Wind)* coşmaq, şiddətlənmək, boranlamaq; **2.***(irgendwohin)* soxulmaq, girmək; *fig.* dolmaq; *die Kinder stürmten in das Haus* uşaqlar evə doldular; *vt mil.* hücum etmək, həmlə etmək; hücumla almaq; *es stürmt* hava borandır, tufandır.

**Stürmer,** *der; -s, - (Fußball)* hücumçu.

**Sturmflut,** *die; -, -en* tufan nəticəsində qabarma.

**sturmfrei** *adj.* **1.** təhlükəsiz, tufana məruz qalmayan; **2.** *F e-e ~e Bude haben* dostlarına məxsus olan otağı olmaq *(ata-ananın nəzarətindən uzaq).*

**stürmisch** *adj.* **1.** tufanlı, boranlı, fırtınalı, dalğalı; **2.** *fig.* gurultulu, həyəcanlı, sürəkli; *~er Beifall* gurultulu alqış.

**Sturmschaden,** *der; - s, -¨* tufandan törənən zərər.

**Sturmwarnung,** *die; -, -en* tufan təhlükəsi xəbərdarlığı.

**Sturmwind,** *der; -(e)s, -e* tufan, qasırğa, fırtına.

**Sturz,** *der; -es, -¨e* **1.** düşmə, süqut, yıxılma; uçuntu; *Temperatursturz* hava hərarətinin düşməsi; **2.** *(der Regierung)* yıxılma, çevriliş; **3.** *(an der Börse)* qiymətlərin aşağı düşməsi; *F e-n ~ bauen (vom Motorrad usw.)* yerə yıxılmaq.

**Sturzbach,** *der; -(e)s, -¨e* şəlalə; sel; *es regnet in Sturzbächen* sel kimi yağış yağır.

**Stürze,** *die; -, -n* qapaq.

**stürzen** *vt* yıxmaq, devirmək, çevirmək, taxtdan salmaq, düşür(t)mək; *vi* yıxılmaq, yerə düşmək; *vr sich ~* **1.** *(um Selbstmord zu begehen)* yerə atmaq; *sich aus dem Fenster ~* pəncərədən yerə atılmaq; **2.** *(auf j-n)* üstünə atılmaq, hücum etmək; qarmalamaq; **3.** *(sich in die Arbeit)* çalışmaq, gecə-gündüz işləmək; *j-n ins Unglück ~* bir kəsi fəlakətə salmaq, bir kəsi bedbəxt etmək.

**Sturzflug,** *der; -(e)s, -¨e* şığıma, şığama.

**Sturzhelm,** *der; -(e)s, -e* dəmir papaq, dəbilqə.

**Sturzkampfflugzeug,** *das; -(e)s, -e* şığıyıcı bombardman təyyarəsi.

**Sturzwelle,** *die; -, -n* gələn dalğa, gələn ləpə.

**Stuss,** *der; -es* boş söz, mənasız söz; *rede keinen ~!* gic-gic danışma!

**Stute,** *die; -, -n* madyan.

**Stütze,** *die; -, -n* **1.** dirək, tir, dayaq; söykənəcək; **2.** *fig. (Beistand)* dayaq, arxa, kömək.

**Stutzen** *der; -s, -* **1.** ştuser, qısa tüfəng; **2.** *techn.* qol boru; **3.** qısa corab.

**stutzen** *vt* kəsib qısaltmaq, kəsmək; *vi* heyrətlənmək; quruyub qalmaq, ehtiyatlı olmaq.

**stützen** *vt* dayaq vermək, dayaq vur-

maq, dirəmək; *vr sich ~* söykənmək, dirənmək, dayanmaq, güvənmək, arxalanmaq *(auf A/-ə); sich auf die Ellenbogen ~* dirsəklənmək; *sich ~ auf nəyəsə* əsaslanmaq, *nəyəsə* istinad etmək, *nəyəsə* dayanmaq.

**Stutzer,** *der; -s, -* modabaz.

**stutzig** *adj. : ~ werden* ehtiyatlı olmaq; quruyub qalmaq; *~ machen* heyrətləndirmək, karıxdırmaq.

**Stützpfeiler,** *der; -s, -* dayaq, dirək.

**Stützpunkt,** *der; -(e)s, -e* **1.** dayq nöqtəsi; **2.** *mil.* hərbi baza, qərargah.

**Stützung,** *die; -, -en* yardım etmə.

**subaltern** *adj.* tabe edilmiş, asılı; *ein ~es Benehmen* tabeçilik rəftarı *(hərəkəti).*

**Subjekt,** *das; -(e)s, -e* **1.** *(Person)* şəxs; **2.** *gr.* mübtəda.

**subjektiv** *adj.* subyektiv, qeyri-obyektiv, şəxsi.

**Subjektivität,** *die; -* subyektivizm, qeyri-obyektivlik.

**sublim** *adj.* yüksək, qabarıq; *~e Betrachtungen* yüksək baxışlar, yüksək mülahizələr.

**sublimieren** *vt* **1.** yüksəltmək; təkmilləşdirmək; **2.** *Chem.* sublimə etmək, bərk maddəni mayeyə çevirmək.

**subskribieren** *vt -ə* yazılmaq, *-ə* abunə etmək.

**Subskription,** *die; -, -en* yazılma, abunə.

**substantiell** *adj.* əhəmiyyətli, mühüm, maddi.

**Substantiv,** *das; -s, -e gr.* ism.

**substantivisch** *adj.* isimləşmiş, isim kimi işlədilən.

**Substanz,** *die; -, -en* mahiyyət, məğz, cövhər, əsas; varlıq; *das geht an die ~* insanın içini yandırır.

**substituieren** *vt* əvəz etmək.

**Substitution,** *die; -, -en* əvəz etmə, yerinə qoyma.

**Substrat,** *das; -(e)s, -e biol. (Nährboden)* bəsləyici mühit.

**subtil** *adj.* zərif, incə; ehtiyatlı.

**Subtrahend,** *der; -en, -en math.* çıxılan ədəd.

**subtrahieren** *vt math.* çıxma.

**Subtraktion,** *die; -, -en math.* çıxma əməliyyatı.

**subtropisch** *adj.* subtropik.

**Subvention,** *die; -, -en* maddi yardım, pul yardımı.

**subventionieren** *vt* pul yardımı etmək, pul yardımı etmək.

**subversiv** *adj.* təxribatçı, dağıdıcı; qızışdırcı.

**Suchaktion,** *die; -, -en* axtarma, axtarış aparma.

**Suchanzeige,** *die; -, -n* axtarış elanı.

**Suchdienst,** *der; -(e)s, -e* itgin düşmüş şəxslərin axtarış xidməti.

**Suche,** *die; -, -n* axtarış, axtarma; *auf der ~ nach -i* axtararkən; *auf der ~ sein nach -i* axtarmaq, axtarmaqda olmaq.

**suchen** *vt* axtarmaq, aramaq; dalına düşmək; *vi (versuchen)* səy etmək, can atmaq, əlləşmək *(zu Inf. -məyə, mağa)*; *was hast du hier zu ~?* burada nə axtarırsan?; *Rat bei j-m ~* bir kəslə məsləhətləşmək; *Verkäuferin gesucht* satıcı axtarılır; *fig.* eş(ələ)mək; *F* əndər-döndər eləmək .

**Sucher,** *der; -s, -* **1.** axtaran, axtarıcı; **2.** *(Foto)* nişanlayıcı, visir.

**Sucht,** *die; -, -¨e* **1.** *(Abhängigkeit)* mübtəlalıq; **2.** *(Manie)* həvəs, ehtiras; **3.** *(Rauschgift)* mötadlıq, etiyad.

**süchtig** *adj.* mübtəla, adətkar, adətkərdə, xəstə *(nach A/-ə); ~ sein* mübtəla olmaq; mötad olmaq.

**Süchtige,** *der; die; -n, -n* mübtəla, vurulmuş.

**Sud,** *der; -(e)s, -e* qaynama; bişirmə; qaynaq su.

**Süd** güney küləyi.

**Südafrika;** *-s* Güney Afrika, Cənubi afrika.

**Südamerika** *das* Güney amerika, Cənubi Amerika.

**Sudan** Sudan.

**sudanesisch** *adj.* sudanlı.

**Süddeutschland;** *-s* Güney Almaniya, Cənubi Almaniya.

**Sudelei,** *die; -, -en* cızma-qara.
**sudeln** *vi* bulamaq, çirkləndirmək.
**Süden,** *der; -s* güney, cənub; *im ~* güneydə, cənubda; *nach ~* güneyə.
**Südeuropa;** *-s* Güney Avropa.
**Südfrüchte** *die/pl.* cənub meyvələri.
**Südländer,** *der; -s, -* güneyli, cənublu.
**südlich** *adj.* cənubi, güney; *adv.* cənuba tərəf, güneyə doğru; *~ von.. –in* güney tərəfində.
**südöstlich** *adj.* cənub-şərqi.
**Südpol,** *der; -s* Cənub Qütbü.
**südwärts** *adv.* cənuba *(güneyə)* tərəf, cənuba doğru.
**südwestlich** *adj.* cənub-qərb*(i).*
**Südwind,** *der; -(e)s, -e* cənub küləyi.
**Suez;** *-s* Süveyş *(Süd. : Suez).*
**Suezkanal,** *der; -s* Süveyş kanalı.
**Suff,** *der; -(e)s F (Trunksucht)* sərxoşluq; *im ~* sərxoş.
**süffig** *adj. (Bier, Wein)* ürəyə yatan, ləzzətli, dadlı.
**suffisant** *adj.* özündən razı, özünü bəyənən.
**Suffix,** *das; -es, -e gr.* son şəkilçi, suffiks.
**suggerieren** *vt* təsir etmək, inandırmaq, təlqin etmək.
**Suggestion,** *die; -, -en* təlqin, beyninə yeritmə, inandırma.
**suggestiv** *adj.* təsiredən, təlqin edici.
**Suggestivfrage,** *die; -, -n* cavabi içində olan sual.
**suhlen** *: (Esel, Schwein) sich ~ in D* palçıqda ağnamaq, palçıqda o üz-bu üzə çevrilmək.
**Sühne,** *die; -, -n* təqsirini *(günahını)* boynuna alma, peşmançılıq.
**sühnen** *vt* günahını təmizləmək, günahını yumaq.
**Suite,** *die; -, -n* **1.** bir-birinin yanında tikilmiş hotel otaqları *pl.*; **2.** *mus.* suit.
**Suizid,** *der; -(e)s, -e* özünüöldürmə, intihar.
**Sujet,** *das; -s, -s* mövzu, tema, süjət.
**sukzessiv** *adj.* tədrici, yavaş-yavaş, bir-birinin ardınca.
**Sulfat,** *das; -(e)s, -e* sulfat.
**Sulfit,** *das; -s, -e* sulfit.
**Sulfonamid,** *das; -(e)s, -e* sulfamit.
**Sultan,** *der; -s, -e* sultan.
**Sultanine,** *die; -, -n* kişmiş, kişmişbidana, üzüm qurusu, ağüzüm.
**Sülze,** *die; -, -n* studen, jelatin ət.
**summarisch** *adj.* icmal, ixtisar, yekunlaşdırılmış.
**Summe,** *die; -, -n* məbləğ; nəticə, yekun, cəmi, cəmisi.
**summen** *vi* **1.** *(Insekten usw.)* vızıldamaq; **2.** *(Melodie)* pəsdən mahnı oxumaq, zümzümə etmək.
**Summen,** *das; -s* vızıltı.
**Summer,** *der; -s, -* vızıldaq; qapı açma cihazı *(aləti).*
**summieren** *vt* cəmləmək, yekun vurmaq, toplamaq, yekunlaşdırmaq; *vr sich ~* toplanmaq, yığılmaq.
**Sumpf,** *der; -(e)s, -¨e* bataqlıq, batlaq.
**Sumpfblüte,** *die; -, -n* batlaq çiçəyi.
**Sumpffieber,** *das; -s* malariya.
**sumpfig** *adj.* bataqlıq, çeyillik.
**Sums,** *der; -es F* səs, səs-küy.
**Sund,** *der; -(e)s, -e (Meerenge)* boğaz.
**Sünde,** *die; -, -n* günah, təqsir; *e-e ~ begehen* günah etmək, günaha batmaq.
**Sündenbock,** *der; -(e)s, -¨e fig.* qapazaltı, toplələ, adıvayqanlı.
**Sündengeld,** *das; -(e)s, -er F* həram pul.
**Sünder,** *der; -s, -* günahkar, təqsirkar, fasiq, xatakar.
**sündhaft** *adj.* təqsirli, günahlı; *adv.* lap, çox; *fig. ~ schön* çox gözəl; *fig. ~ faul* lap tənbəl.
**sündig** *adj.* təqsirli, günahlı.
**sündigen** *vi* günah etmək, günaha batmaq.
**sündlos** *adj.* günahsız, üzüağ.
**super** *adj. F* çox, fövqəladə, super.
**Superbenzin,** *das; -s* super benzin.
**Superlativ,** *der; -s, -e gr.* sifətin üstünlük dərəcəsi; *in lauter ~en reden* həddindən çox şişirtmək.
**Supermacht,** *die; -, -¨e* böyük dövlət.
**Supermarkt,** *der; -(e)s, -¨e* böyük mağaza, supermarket.

**Suppe,** *die; -, -n* **1.** şorba, sup; **2.** *fig. die ~ auslöffeln müssen* əzabını çəkmək; *j-m die ~ versalzen* bir kəsə pislik etmək.

**Suppengrün,** *das; -s* şorba tərəvəzi, şorba göyərtisi *pl.*

**Suppenlöffel,** *der; -s, -* şorba qaşığı.

**Suppenteller,** *der; -s, -* dərin boşqab.

**Supplement,** *das; -(e)s, -e* əlavə; artım.

**Sure,** *die; -, -n* surə.

**Surrealismus,** *der; -* surealizm.

**surrealistisch** *adj.* surealizm, surrealist.

**surren** *vi* vızıldamaq.

**Surrogat,** *das; -(e)s, -e* əvəz, bədəl.

**suspekt** *adj.* şübhəli.

**suspendieren** *vt* **1.** *(j-n) müvəqqəti olaraq* kənar etmək, kimisə vəzifədən azad etmək; **2.** *(Anordnungen) müvəqqəti olaraq* dayandırmaq; **3.** *(Entscheidungen)* asılı vəziyyətdə saxlamaq.

**süß** *adj.* şirin; *fig.* xoşagələn, dadlı.

**Süße,** *die; -* şirinlik; *die ~ des Lebens genießen* həyatın şirinliyindən ləzzət almaq.

**süßen** *vt* şirin etmək.

**Süßholz,** *das; -es* biyan kökü; *fig. ~ raspeln (Frauen gegenüber)* dil tökmək.

**Süßigkeit,** *die; -, -en* **1.** şirniyyat; **2.** şirinlik.

**süßlich** *adj.* **1.** şirintəhər; **2.** *(kitschig)* şit; **3.** *(scheinheilig freundlich)* ikiüzlü, riyakar; *~e Worte* riyakar sözlər.

**süßsauer** *adj.* turşaşirin, meyxoş.

**Süßspeise,** *die; -, -n* şirniyyat; şirin yeməklər.

**Süßstoff,** *der; -(e)s, -e* şirin maddə, saxarin.

**Süßwaren** *die/pl.* şirniyyat *pl.*

**Süßwasser,** *das; -s, - u. -¨* şirin su.

**Sweater,** *der; -s, -* tərköynəyi, sviter.

**Swimmingpool,** *der; -s, -s* üzmə hovuzu.

**Symbiose,** *die; -, -n* ortaq yaşama; həyat birliyi.

**Symbol,** *das; -s, -e* simvol *(Süd. : simbol),* rəmz; əlamət, işarə, nümunə.

**Symbolik,** *die; -* simvolik, rəmzi.

**symbolisch** *adj.* simvolik, simbolik.

**symbolisieren** *vt* simvollaşdırmaq.

**Symbolismus,** *der; -* simvolizm *(simbolizm).*

**Symmetrie,** *die; -, -n* simmetri*(ya).*

**symmetrisch** *adj.* simmetrik.

**Sympathie,** *die; -, -n* **1.** meyl, rəğbət, tərəfində durma, simpati*(ya),* hüsnrəğbət; **2.** *(Mitgefühl)* dərdə şərik olma; *~ empfinden für.. -ə* rəğbət bəsləmək .

**sympathisch** *adj.* sevimli, duzlu, məlahətli, rəğbətli, simpatik, qanıisti, qanışirin, güləşqabaq, açıqürəkli, adamaqovuşan, hallı, istiqanlı; *er ist mir ~* mən onu sevirəm, o, xoşuma gəlir.

**Sympathisant,** *der; -en, -en* rəğbət bəsləyən, tərəfdar, tərəfgir.

**sympathisieren** *vt* xoşu gəlmək, məhəbbət göstərmək, hüsn-rəğbət göstərmək, rəğbət bəsləmək *(mit D/-ə).*

**Symphonie,** *die; -, -n* simfoni*(ya).*

**symphonisch** *adj.* simfonik.

**Symposion,** *das; -s, -ien* simpozium, müəyyən mövzu haqqinda elmi iclas.

**Symposium,** *das; -s, -ien s. Symposion.*

**Symptom,** *das; -s, -e* əlamət, nişanə, simptom.

**symptomisch** *adj.* əlaməti olan.

**Synagoge,** *die; -, -n* sinaqoq.

**synchronisieren** *vt* **1.** bir-birilə uyğunlaşdırmaq; **2.** *(Film)* dublyaj etmək.

**Synchronisierung,** *die; -, -en* sinxronizasi*(ya),* filmi dublyaj *(Süd. : dublaj)* etmə.

**Syndikat,** *das; -(e)s, -e* **1.** sindikat; **2.** *(Kartell)* kartel; **2.** *(Rechtsbeistand)* hüquq müşavirliyi; *fig.* mafiya.

**Syndikus,** *der; -, -se od. -dizi jur.* hüquq müşaviri.

**Syndrom,** *das; -s, -e med.* sindrom, müəyyən bir xəstəliyin əlamətləri.

**Synode,** *die; -, -n* ruhanilər məclisi.

**synonym** *adj.* sinonim, həm məna.

**syntaktisch** *adj.* sintaktik, sintaksis.

**Syntax,** *die; - gr.* sintaksis.

**Synthese,** *die; -, -n* sintez.

**synthetisch** *adj.* sintetik.

**Syphilis,** *die; - med.* sifilis.

**Syrer,** *der; -s, -* suriyalı.

**Syrien;** *-s* Suriya *(Süd. : Suriyə).*

**syrisch** *adj.* suriyalı, suriyəli.

**System,** *das; -s, -e* sistem.

**Systemanalyse,** *die;* - sistem analizi.

**Systematik,** *die; -, -en* sistematik, bir mövzünün məntiqi baxımdan müxtəlif hissələrə bölünməsi.

**systematisch** *adj.* sistemli, sistematik, daimi, müntəzəm.

**systematisieren** *vt* sistem vermək, sistemləşdirmək.

**systemeigen** *adj.* sistemə aid.

**systemlos** *adj.* sistemsiz.

**Szene,** *die; -, -n* **1.** *Th.* səhnə; **2.** *(Ereignis)* hadisə; **3.** savaşma, dava; *fig. e-e ~ machen* savaşmaq *(j-m/bir kəslə),* hay-küy salmaq*; Drogenszene* narkotik çevrəsi.

**Szenerie,** *die; -, -n* **1.** səhnə; **2.** mənzərə.

# T

**T, t,** *das; -, -* Alman əlifbasının iyirminci hərfi.

**Tabak,** *der; -s, -e* tütün; tənbəki.

**Tabakbau,** *der; -(e)s* tütünçülük.

**Tabakblatt,** *das; -(e)s, -¨er* tütün yarpağı.

**Tabakfabrik,** *die; -, -en* tütün fabriki, tütün kərxanası *(karxanası).*

**Tabakhändler,** *der; -s, -* tütünçü.

**Tabakindustrie,** *die; -, -n* tütün sənayesi.

**Tabakladen,** *der; -s, -¨* tütünçü mağazası.

**Tabakpflanze,** *die; -, -n* tənbəki bitkisi.

**Tabaksbeutel,** *der; -s, -* tütün kisəsi.

**Tabaksdose,** *die; -, -n* tütün qabı.

**Tabakspfeife,** *die; -, -n* çubuq; pip.

**tabellarisch** *adj.* cədvəl şəklində.

**Tabelle,** *die; -, -n* cədvəl, siyahı.

**Tablett,** *das; -s, -s* məcməyi, sini.

**Tablette,** *die; -, -n* həb, yastı həb.

**tabu** *adj.* tabu, üstü örtülü mətləb.

**Tabu,** *das; -s, -s* tabu; haqqında danışmaq mümkün olmayan.

**tabufrei** *adj.* tabusuz.

**tabuisieren** *vt* tabu etmək, toxunulmaz elan etmək, haqqında danışmamaq.

**Tabulator,** *der; -s, -toren* tabulator, yazı maşınında cədvəl enini təyin etmək üçün qurğu.

**Tabulatur,** *die; -, -en* orta əsrlərdə Almanyada kiçik əsnafların yazdıqları mahnı və şe´rlərin qaydalar məcmuəsi, meysterzingerlərin qaydalar məcmuəsi.

**Tachometer,** *der; -s, -* sür`ət ölçən cihazı, taxometr.

**Tadel,** *der; -s, -* **1.** *(Rüge)* tənbeh, danlaq, dansaq; qınama, məzəmmət, pisləmə; tənə; **2.** *ohne ~* eyibsiz, nöqsansız, qüsursuz.

**Tadelei,** *die; -, -en* durmadan danlamaq, durmadan məzəmmət etmək.

**tadellos** *adj.* **1.** eyibsiz, nöqsansız, ləkəsiz; **2.** *(ausgezeichnet)* mükəmməl, əla; *eun ~es Benehmen* əla davranış *(rəftar).*

**tadeln** *vt* danlamaq, məzəmmət etmək, pisləmək, abırlamaq, qınamaq, gözümçıxdıya salmaq *(wegen et./nədən ötrü isə); fig.* ədəbləndirmək, ədəb vermək; *getadelt werden* danlanmaq, məzəmmətlənmək, abırlanmaq.

**tadelnswert** *adj.* məzəmmətə layiq, töhmətə layiq.

**Tadschikistan;** *-s* Tacikistan.

**Tadschike,** *der; -n, -n* tacik.

**tadschikisch** *adj.* tacik; tacikcə.

**Tafel,** *die; -, -n* **1.** *(Wandtafel)* lövhə, yazı taxtası; *an die ~ schreiben* yazı taxtasına yazmaq; **2.** *(für Mitteilungen)* elan lövhəsi; **3.** *(Tisch)* yemək mizi; süfrə, dəstərxan; *die ~ aufheben* süfrəni yığışdırmaq, yemək mizinin dalından durmaq; **4.** *e-e ~ Schokolade* bir parça şokolad, şokolad parçaşı; **5.** *(Tabelle)* cədvəl.

**tafelfertig** *adj.* süfrəyə qoymalı.

**tafeln** *vi* süfrə başında oturub yaxşı yeyib-içmək.

**täfeln** *vt* taxta ilə üz çəkmək; döşəmək; *ein getäfeltes Zimmer* taxta ilə döşənmiş otaq.

**Tafelobst,** *das; -es* süfrəlik meyvə.

**Tafelrunde,** *die; -, -n* süfrə başında oturan qonaqlar.

**Tafelwasser,** *das; -s, -¨er* şüşəyə doldurulmuş mə`dən suyu.

**Tafelwein,** *der; -s, -e* süfrə şərabı *(çaxırı).*

**Täfelung,** *die; -, -en* **1.** *nur sg.* üz çəkmə, döşəmə; **2.** döşəmə taxtası.

**taff** *adj.* **1.** *(sympathisch)* sevimli; **2.** *(robust, hart)* sağlam, möhkəm.

**Taft,** *der; -(e)s, -e* tafta parçası.

**Tag,** *der; -(e)s, -e* gün; gündüz *jeden ~* hər gün, gündə, axşam-sabah; *am ~e* gündüz; *e-s ~es* bir gün, günlərin birində; *den ganzen ~* bütün gün; *~ für ~* gündən-günə, günü-gündən; *dieser ~e* bu günlərdə; *e-s ~es* günlərin bir gündə; *~ und Nacht* gecə-gündüz, gecəbegündüz, axşam-sabah; *an den ~ kommen* aşkara çıxmaq; *in den ~ hinein leben* sabahı düşünməmək; *(e-e Frau)*

**überbringen** *vt* çatdırmaq, aparmaq, gətirmək, yetirmək; *j-m e-e Nachricht ~* bir kəsə xəbər gətirmək *(yetirmək).*

**Überbringer,** *der; -s, -* elçi, çatdıran.

**überbrücken** *vt* **1.** üstünə körpü çəkmək; **2.** *fig.* aradan qaldırmaq; keçirtmək; atılmaq; *Gegensätze ~* ziddiyyətləri aradan qaldırmaq; *den Stromausfall habe ich mit Kerzen überbrückt* cərəyan getməsini şam yandırmaqla keçirtdim.

**Überbrückung,** *die; -, -en* adlama, keçmə; bir çətinliyi aradan qaldırma.

**überbürden** *vt* həddindən artıq yükləmək, üzərinə ağır iş qoymaq.

**überdachen** *vt* üstünə dam çəkmək.

**überdacht** *adj.* üstü örtülü.

**überdauern** *vt bir şeydən* çox ömür etmək, *bir şeyi* görüb keçirmək, uzun sürmək; *der Bau hat mehrere Kriege überdauert* bina çox müharibələri *(görüb)* keçirib.

**überdecken** *vt* üstünü örtmək.

**überdehnen** *vt* çox çəkmək, gərginləşdirmək.

**überdenken** *vt* bir daha fikirləşmək, ətraflı götür-qoy etmək.

**überdeutlich** *adj.* çox aydın, həddən artıq açıq.

**überdies** *adv.* bundan başqa, ondan əlavə, əlavə olaraq.

**überdimensional** *adj.* çox böyük, həd(din)dən artıq böyük.

**Überdosis,** *die; -, -sen* həd(din)dən çox miqdar.

**überdrehen** *vt* **1.** həd(din)dən artıq fırladıb xarablamaq; **2.** *fig.* dəli olmaq, həddini aşmaq.

**überdreht** *adj.* qızğın, ehtiraslı.

**Überdruck,** *der; -(e)s phys.* əlavə təzyiq.

**Überdruss,** *der; -es* həd(din)dən artıq doyma; ürək sıxıntısı, darıxma.

**überdrüssig** *adj. : j-s/e-r Sache ~ sein* təngə gəlmək, doymaq, bezmək; *ich bin meiner Arbeit ~* işim məni təngə *(zinhara)* gətirib.

**überdurchschnittlich** *adj.* orta səviyyədən artıq, vəsətdən yuxarı.

**Übereifer,** *der; -s* canfəşanlıq, həddindən artıq səy etmə.

**übereifrig** *adj.* canfəşanlıq edən, qeyrətkeş, canfəşan.

**übereignen** *vt* mülküyyətinə vermək, ixtiyarına vermək *(j-m/ kimsənin).*

**Übereignung,** *die, -, -en jur.* ələkeçirmə, yiyələnmə, sahiblənmə.

**übereilen** *vt* həddindən artıq tələsmək, başı soyuq hərəkət etmək.

**übereilt** *adj.* tələsik, əcələli, təcili; *e-e ~e Entscheidung* tələsik qərar.

**übereinander** *adv.* bir-birinin üzərində, bir-birinin üzərinə, üst-üstə; ~ *schlagen (Beine)* ayaqları bir-birinin üstünə qoymaq *(keçirmək),* ayaqlarını çarpazlamaq.

**übereinanderlegen** *vt* bir-birinin üzərinə *(üstünə)* qoymaq.

**übereinanderliegen** *vi* bir-birinin üstündə olmaq *(uzanmaq).*

**übereinanderschlagen** *vt (Beine)* ayaq-ayaq üstünə atmaq.

**übereinkommen** *vi* razılaşmaq, razılığa gəlmək *(mit D/-ilə).*

**Übereinkommen,** *das; -s, -* saziş, razılıq, razılaşma; *ein ~ treffen* saziş bağlamaq, razılaşmalar əldə etmək.

**Übereinkunft,** *die; -, -¨e s. Übereinkommen.*

**übereinstimmen** *vi* **1.** uyğun gəlmək; **2.** razılığa gəlmək, razılaşmaq.

**übereinstimmend** *adj.* uyğun, uyarlı, uyar; razılıq.

**Übereinstimmung,** *die; -, -en* uyğunluq, razılıq, üst-üstə düşmə, münasiblik; *in ~ mit ..ilə* yğun olaraq.

**überempfindlich** *adj.* həddindən artıq həssas; tez küsən, küsəyən.

**Überempfindlichkeit,** *die; -, -en* həddindən artıq həssaslıq, küsəyənlik; allergiya.

**übererfüllen** *vt* artıqlaması ilə yerinə yetirmək, plandan artıq əldə etmək.

**Überernährung,** *die; -* həddindən artıq yemək, çox yemək.

**überessen** *vt* həddindən artıq yemək.

**überfahren** **1.** basmaq, basıb keçmək; **2.** *fig.* qandırmaq; aldatmaq *(j-n/ bir kəsi).*

**Überfahrt,** *die; -, -en* keçid, bu taydan o biri taya keçmə.

**Überfall,** *der; -(e)s, -¨e* **1.** basqı*(n),* hücum, həmlə; **2.***(Raub)* qarət, soyğunçuluq.

**überfallen** *vt* **1.** hücum etmək, basqın etmək; **2.** *(auf der Straße) -in* yolunu kəsmək.

**überfällig** *adj.* **1.** *(Zug, Schiff)* gecikmiş, gəlib çatmamış; **2.** *H* vaxtı keçmiş, vaxtından keçmiş; nimdaş.

**Überfallkommando,** *das; -s, -s* səyyar polis dəstəsi, əməliyyat qrupu.

**überfliegen** *vi* **1.** uçub keçmək; **2.** *fig. (Buch, Brief usw.)* gözdən keçirtmək.

**Überfließen** *vi* daşmaq, daşıb basmaq.

**überflügeln** *vt* ötmək, ötüb keçmək, üstün gəlmək.

**Überfluss,** *der; -es* bolluq, çoxluq, nemət, firavanlıq, artıqlıq; *~ an (D) -in* bolluğu; *im ~ leben* bolluqda *(firavanlıqda)* yaşamaq.

**überflüssig** *adj.* **1.** yersiz; **2.** *(unnötig)* artıq, lazımsız, gərəksiz, faydasız, artıq-əskik, əskik-artıq.

**überfluten** *vt* daşıb sahili basmaq, sel *(su)* basmaq, coşmaq, coşub-daşmaq.

**überflutet** *adj.* su altında.

**Überflutung,** *die; -, -en* daşqın.

**überfordern** *vt* gücündən çox tələb etmək, bacarığından çox istəmək; *überfordert sein* gücə düşmək.

**überfragen** *vt* cavab tapa bilməmək, cavab verə bilməmək; *da bin ich überfragt* cavab verə bilmərəm, bilmirəm.

**überfragt** *adj. F da bin ich ~* bu barədə çox məlumatım yoxdur.

**Überfremdung,** *die; -, -en* xariciləşmə, özgələşmə, xarici təsirə məruz qalma.

**überfressen** *vr sich ~* həddindən artıq yemək.

**überführen**[1] *vt* başqa bir yerə daşımaq *(keçirmək)*; *der Tote wurde in die Heimat überführt/übergeführt* ölü *(cənazə)* məmləkətinə göndərildi; *sie wurde in das Krankenhaus überführt* o qadın xəstəxanaya aparıldı *(nəql oldu).*

**überführen**[2] *vt jur.* təqsirini sübut etmək, yalanını aşkar etmək.

**Überführung,** *die; -, -en* **1.** *(Brücke)* körpü; bənd-bərə; **2.** *(j-n/et.)* başqa bir yerə keçirmə, başqa bir yerə daşıma; **3.** *jur.* təqsirin sübutu; cinayətin üstünü açma.

**Überfülle,** *die; -* firavan(lıq), çox(luq), bol(luq).

**überfüllen** *vt* doldurmaq, doldurub-da-

şırmaq, bürümək.

**überfüllt** *adj.* həddindən artıq dolu.

**Überfüllung,** *die; -* dolub-daşma.

**Überfunktion,** *die, - med.* artıq funksiya.

**überfüttern** *vt* çox yem vermək.

**Überfütterung,** *die; -, -en* çox yem vermə.

**Übergabe,** *die; -, -n* vermə, təqdim etmə; keçir(il)mə.

**Übergang,** *der; -(e)s, -¨e* **1.** keçmə; keçid; **2.** *fig.* keçid dövrü.

**übergangslos** *adv.* birbaşa, düz.

**Übergangslösung,** *die; -, -en* müvəqqəti çarə, ötəri çözüm.

**Übergangsperiode,** *die; -, -n* keçid dövrü, keçid mərhələsi.

**Übergangsregierung,** *die; -, -en* müvəqqəti hökumət.

**Übergardine,** *die; -, -n* üst pərdə.

**übergeben** *vi* **1.** vermək, təqdim etmək; *j-m ein Geschenk ~* bir kəsə hədiyyə vermək; **2.** təslim etmək; *dem Feind die Festung ~* düşmənə qalanı təslim etmək; *vr sich ~* 1. təslim olmaq; 2. *med.* qusmaq.

**übergehen[1]** *vi* **1.** keçmək; *zu e-m anderen Thema ~* başqa bir mövzuya keçmək; **2.** dəyişilmək, vəziyyəti dəyişilmək; *in Fäulnis ~* çürüməyə başlamaq; **3.** *(Kritik, Einwände)* fikir verməmək, susub üstündən keçmək; *fig. die Augen gingen ihm über* onun gözləri yaşla doldu.

**übergehen[2]** *vt* **1.** *(ignorieren)* əhəmiyyət verməmək; nəzərə almamaq, riayət etməmək; yaddan çıxarmaq; *den Hunger ~* aclığa əhəmiyyət verməmək.

**übergenug** *adj.* qədərindən artıq.

**übergeordnet** *adj.* yuxarı, üstün, daha yüksək, daha mühüm *(D/-dən); j-m ~* kimsədən üstün; *~e Stelle* yuxarı instansiya *(pillə).*

**Übergepäck,** *das; -(e)s* artıq yük.

**übergeschnappt** *adj. F* dəliləşmiş, ağlı başından oynamış; *fig.* havalı.

**Übergewicht,** *das; -(e)s* **1.** artıq çəki; *~ haben* çəkisi *(ağırlığı)* çox olmaq; **2.** *fig.* üstünlük, güclülük; *das ~ haben (über A/ -dən)* üstün olmaq.

**übergewichtig** *adj.* çoxkiloli; üstün.

**übergießen** *vt A mit D -in* üstünə bir şeyi tökmək; *sie übergießt den Tee mit kochendem Wasser* qaynar suyu dəm çayın üstünə tökdu.

**überglücklich** *adj.* həddindən artıq xoşbəxt, bəxtiyar.

**übergreifen** *vi* yayılmaq; sıçramaq *(auf A/ bir zada).*

**übergreifend** *adj.* yayılan, geniş; *~es Thema* geniş mövzu.

**Übergriff,** *der; -(e)s, -e* təcavüz, vəzifədən sui-istifadə, səlahiyyət həddini aşma.

**übergroß** *adj.* çox böyük.

**Übergröße,** *die; -, -n (Kleidung usw.)* çox böyük, fövqəladə böyük.

**überhaben** *vt* **1.** *(zu viel haben)* əlində *(ixtiyarında)* çox olmaq; **2.** *(überdrüssig) -dən* təngə gəlmək, zara gəlmək; *(Kleidung) -in* üstündən geymək.

**überhand** *adv. ~ nehmen* həddindən artıq çoxalmaq *(artmaq).*

**überhängen** *vi (Tasche usw.)* çiynindən as(la)maq.

**überhandnehmen** *vi pis vəziyyətdə* çoxalmaq *(artmaq)*, yayılmaq; *das Un-geziefer nahm überhand* həşərat çoxa-lıb.

**Überhang,** *der; -(e)s, -¨e* **1.** *(Überschuss an Waren)* artıq*(lıq),* malın artığı; **2.** qalıq, aslanan hissə; *der ~ des Stoffes wird abgeschnitten* parçanın artığı kəsiləcəkdir.

**überhäufen** *vt* tökmək, səpmək, yağdırmaq; *den Schreibtisch mit Büchern ~* yazı mizinin üstünü kitablarla doldurmaq; *j-n mit Geschenken. ~* bir kəsə çox hədiyyə vermək, bir kəsi hədiyyələrlə boğmaq.

**überhaupt** *adv.* **1.** ümumiyyətlə; **2.** *(tatsächlich)* həqiqətən, əslində, əsasən; **3.** *(abgesehen davon)* bundan başqa, ondan əlavə; *bei Frage :* heç, əslən; *~ nicht* heç, əslən; *wer bist du ~, dass du mir so befiehlst ?* sən əslən kimsən ki,

mənə dəstur verirsən?; *hat er ~ Ähnlichkeit mit mir?* heç mənə oxşayırmı?; *er besucht mich ~ nicht* o, mənim görüşümə heç gəlmir.

**überheben** *vt* xilas etmək, qurtarmaq *(D/-dən); vr sich ~* ağır bir şeyi qaldıranda zora düşmək, hıqqanmaq.

**überheblich** *adj.* lovğa, özünü öyən, ağzıyelli, qudurğan; qürurla.

**Überheblichkeit,** *die; -, -en* lovğalıq, özünü öymə, ağzıyellilik, iddia, qudurğanlıq, hikkə; qürur.

**überheizen** *vt* artıq qızdırmaq.

**überheizt** *adj.* çox isti.

**überhitzen** *vt* artıq qızdırmaq.

**überhitzt** *adj.* həddən artıq isti.

**überhöht** *adj.* çox, həddən artıq; *mit ~er Geschwindigkeit fahren* həddindən artıq sürətlə getmək *(sürmək).*

**überholen** *vt* **1.** ötmək, ötüb keçmək, qabaqlamaq; *einholen und ~* çatmaq və ötüb keçmək *(qabaqlamaq)*; *links ~* sağdan ötüb keçmək; **2.** *techn.* yoxlamaq, söküb yoxlamaq.

**überholt** *adj.* **1.** köhnəlmiş, əski; *e-e ~e Ansicht* əski fikir; **2.** yoxlanıb təmir edilmiş, baxılmış; *ein ~er Wagen* təmir edilmiş maşın.

**Überholung,** *die; -, -en* yoxlayıb təmir etmə, kontrol etmə; qabaqlama.

**Überholungsverbot,** *das; -(e)s, -e* ötüb keçmə qadağanlığı.

**überhören** *vt* **1.** eşitməmək; **2.** *(absichtlich)* qəsdlə eşitməmək, özünü eşitməməzliyə vurmaq; *das möchte ich überhört haben!* bunu eşitməmiş hesab edirəm!

**überirdisch** *adj.* **1.** yerüstü, yer üstündəki; **2.** *(übernatürlich)* fövqəltəbii.

**überkandidelt** *adj. F* qeyri-adi, qəribə, ifratçı.

**überkippen** *vt* əndərmək; *vi* əndərilmək.

**überkleben** *vt* üstünə yapışdırmaq *(A mit D auf A/bir şeyi bir şey ilə bir şeyin üstünə).*

**überkochen** *vi* qaynayıb daşmaq.

**überkommen** *vt* **1.** *(Bräuche, Sitten usw.)* ata-babadan qalmaq; **2.** *(Angst, Zorn usw.)* tutmaq, əhatə etmək, basmaq; *ihn überkam die Angst* onu qorxu hissi bürüdü, qorxudan vahiməyə düşdü.

**überkonfessionell** *adj.* hər dinə azad.

**überkritisch** *adj.* **1.** hər şeyi tənqid edən; **2.** *(Situation)* gərgin, böhranlı.

**überladen** *vt* artıq yük vurmaq; doldurmaq; *der Wagen ist ~* maşın dolubdur.

**überlagern** *vt* örtmək, üstünü örtmək, üstünə düşmək; *sich ~* öz üstünü örtmək; *die Radiosender ~ sich* radio verilişləri bir-birinin üstünə düşür.

**Überlandflug,** *der; -(e)s, -¨e* uzaq uçuş, şəhərlər arası uçuş.

**Überlandleitung,** *die; -, -en el.* şəhərlər arası çəkilmiş yüksək voltajlı cərəyan xətti.

**Überlandverkehr,** *der; -(e)s* şəhərlər arası trafik *(nəqliyyat)* əlaqəsi.

**überlappen** *vt (Dinge)* bir-birinin üstünə düşmək; bir-birini kəsmək.

**überlassen** *vt* həvalə etmək, öhdəsinə buraxmaq; *ich überlasse dir die Entscheidung* qərar qəbul etməyi sənin öhdənə buraxıram *(sənə həvalə edirəm);*; *sich s-m Schicksal ~* öz halına buraxmaq.

**Überlassung,** *die; -, -en* **1.** tərk etmə; **2.** öhdəsinə buraxma, vermə.

**überlasten** *vt* **1.** artıq yük vurmaq; **2.** *techn.* çox işlətmək, zora salmaq.

**überlastet** *adj.* artıq yük vurulmuş.

**Überlastung,** *die; -, -en* artıq yük vurma; çox istifadə etmə.

**überlaufen**[1] *vi* **1.** *(Flüssigkeit)* daşıb tökülmək; **2.** *(zum Feind)* düşmən tərəfinə keçmək, satılmaq.

**überlaufen**[2] *vt* **1.** *(e-e Empfindung haben)* ...hissi əl vermək, hissi olmaq; *es überläuft mich heiß und kalt, wenn ich daran denke* o haqda fikirləşəndə canımda qorxu hissi yaranır; **2.** *(zu voll)* çox şuluq olmaq, dolu olmaq; *e-e ~e Kneipe* ağzına can dolu bir piyvəxana.

**Überläufer,** *der; -s, -* qaçıb düşmən tərəfinə keçən adam; fərari, qaçaq.

**überleben** *vi* sağ qalmaq, həyatda qalmaq; *ich versuche zu ~* bir təhər dolanmağa çalışıram; *fig. (sich finanzieren, auskommen)* baş dolandırmaq, dolanmaq, keçinmək; *womit finanzierst du dein Leben?* nə ilə dolanırsan? *jur. der ~de Teil* sağ qalan ər və ya arvad; *vt -dən* artıq yaşamaq, *-dən* uzun yaşamaq; *sie überlebte ihren Mann* o, ərindən artıq yaşadı.

**Überlebende,** *der u. die; -n, -n* sağ qalan adam.

**überlebt** *adj.* köhnəlmiş, vaxtını başa vurmuş, vaxtını ötmüş, vaxtı keçmiş.

**überlegen**[1] *vt* üstünə örtmək, *j-m e-e Decke ~* bir kəsin üstünə yorğan örtmək.

**überlegen**[2] *vt* fikirləşmək, götür-qoy etmək, atıb-tutmaq, çək-çevir etmək, dalğınlaşmaq; *(sich et. nochmal ~)* duruxmaq, duruxsunmaq; *vr sich (D) ~* fikirləşmək; *es sich (D) anders ~* fikrini dəyişmək; *überlegt handeln* düşünüb əməl etmək, çək-çevir etmək, dalınıqabağını düşünmək, dalına-qabağına baxmaq.

**Überlegenheit,** *die; -* üstünlük.

**überlegt** *adj.* düşüncəli; ağıllı; *e-e ~e Entscheidung* ağıllı bir qərar.

**Überlegung,** *die; -, -en* düşüncə; düşünmə; götür-qoy, atıb-tutma; qəsd; *ohne ~* düşünmədən, götür-qoy etmədən, düşüncəsiz.

**überleiten** *vt* yönəltmək, keçirmək, aparıb çatdırmaq; *zu e-m anderen Thema ~* başqa bir mövzuya yönəltmək.

**Überleitung,** *die; -, -en* keçmə.

**überlesen** *vt* **1.** gözdən keçirmək; **2.** *(übersehen)* gözdən qaçırmaq.

**überliefern** *vt* **1.** təhvil vermək, təqdim etmək, göndərmək; **2.** *fig.* keçirmək, nəsildən-nəslə vermək.

**überliefert** *adj.* ata-babadan qalma, ənənəvi, dədə-babadan qalma.

**Überlieferung,** *die; -, -en* **1.** ata-babadan *(dədə-babadan)* qalan adət, ənənə; rivayət; *rel.* hədis; **2.** təslim etmə, təhvil vermə.

**Überlisten** *vt* hiyləgərliklə üstün olmaq, hilə işlətmək; aldatmaq; dolaşdırmaq.

**Übermacht,** *die; -* üstün qüvvə; üstünlük.

**übermächtig** *adj.* güclü, üstün; *adv.* həddindən artıq; *~er Hass* həddindən artıq nifrət.

**übermalen** *vi* üzərinə başqa rəng yaxmaq *(sürtmək).*

**übermannen** *vt* üstün gəlmək, tutmaq; *ich wollte lange aufbleiben, doch um 10 Uhr wurde ich vom Schlaf übermannt* ayıq qalmaq istəyirdim, amma saat 10-da yuxuya getdim.

**Übermaß,** *das; -(e)s* artıqlıq, çoxluq; *ein ~ an Kraft* qüvvə çoxluğu.

**übermäßig** *adj.* çox, hədsiz-hesabsız, ölçüsüz; *adv.* həddindən artıq.

**Übermensch,** *der; -en, -en* fövqəladə insan, zəif cəhəti olmayan və səhv etməyən insan, qeyri-təbii insan, fövqəlbəşər.

**übermitteln** *vt* xəbər vermək, göndərmək, çatdırmaq; *j-m e-e Nachricht ~* bir kəsə xəbər vermək; *Grüße ~* salam yetirmək.

**Übermittlung,** *die; -, -en* göndərmə; xəbər vermə, çatdırma.

**übermorgen** *adv.* birigün, sabah yox birisigün.

**übermüde** *adj.* çox yorğun.

**übermüdet** *adj.* çox yorğun.

**Übermüdung,** *die; -* çox yorulma, üzülmə.

**Übermut,** *der; -(e)s* **1.** təkəbbür, lovğalıq; dəliqanlılıq; **2.** ehtiras; *Übermut tut selten gut* təkəbbürün nəticəsi pis olar.

**übermütig** *adj.* **1.** *(heiter, fröhlich)* şən, fərəhli; **2.** təkəbbürlü, lovğa, özünə arxayın.

**übernächst-** *adj.* o biri; *~ Woche* o biri həftə.

**übernachten** *vi* gecəni keçirmək, gecələmək.

**übernächtigt** *adj.* yuxusuz.

**Übernachtung,** *die; -, -en* gecələmə,

gecəni qalma, yatma.

**Übernahme,** *die, -, -n* qəbul etmə; öz üzərinə götürmə.

**übernational** *adj.* millətlərarası, uluslararası.

**übernatürlich** *adj.* qeyri-təbii, fövqəltəbii, təbiət xaricində.

**übernehmen** *vt* **1.** öz üzərinə götürmək, qəbul etmək, ələ almaq; **2.** *(entlehnen)* mənimsəmək, götürmək, iqtibas etmək; *vr sich ~* həddini aşmaq *(bei D/-də),* ağır yükün altına girmək.

**überordnen** *vt* üstünlük vermək; *übergeordnet* üstün.

**überparteilich** *adj.* bitərəf, heç partıya bağlı olmayan.

**überpinseln** *vt* üzərini rəngləmək.

**Überproduktion,** *die; -, -en* plandan artıq istehsal, həddindən artıq istehsal.

**überprüfbar** *adj.* yoxlana bilən, kontrol oluna bilən.

**überprüfen** *vt* əlavə olaraq yoxlamaq, sınamaq, bəlləmək;*F* əndər-döndər eləmək.

**Überprüfung,** *die; -, -en* yoxlama, yenidən baxma, ayırd.

**Überqualifikation,** *die; -* daha artıq təkmilləşmə, daha yüksək təhsil görmə.

**überqualifiziert** *adj.* təkmilləşmiş, yüksək təhsil görmüş.

**überquellen** *vi* **1.** qaynayıb daşmaq; **2.** dolub daşmaq; *ein ~der Papierkorb* dolub daşmış kağız səbəti.

**überqueren** *vt* kəsib keçmək; *die Straße ~* küçənin o biri tərəfinə keçmək.

**Überquerung,** *die; -, -en* kəsib keçmə, o biri tərəfə keçmə.

**überragen** *vt* üstün olmaq, daha yüksək olmaq; *j-n an et. (D) ~* bir kəsdən bir şeydə üstün olmaq.

**überragend** *adj.* üstün.

**überraschen** *vt* **1.** *(überrumpeln)* qəflətən tutmaq, pis əməl üstündə yaxalamaq, girləmək; **2.** *(in Erstaunen setzen)* təəccübləndirmək, mat qoymaq, sürpiz etmək, heyrətə salmaq; *e-e ~de Nachricht* təəccübləndirici bir xəbər; **3.** *(j-n mit et.~)* bir kəsi gözlənilmədən bir şey ilə sevindirmək; *mit e-m Geschenk ~* bir hədiyyə ilə sevindirmək; *lassen wir uns ~* gözləyək görək nə olur?

**überraschend** *adj.* gözlənilməz, təəccüblü; gözlənilmədən, birdən, birdənbirə.

**überrascht** *adj.* **1.** heyrətli, təəccüblü; *ich bin ~, dass du das noch nicht weißt* mən təəccüb edirəm ki sən bunu hələ bilmirsən; **2.** *angenehm über et. ~ sein* bir zad *(şey)* haqda sevinmək; *ich war angenehm ~ über viele Geschenke* mən hədiyyələrin çoxluğundan çox sevindim; **3.** *~ werden* yaxalanmaq, tutulmaq *(von D/-dən)-ilə* qarşılaşmaq.

**Überraschung,** *die; -, -en* **1.** gözlənilməzlik, təəccüb, böht; **2.** *(unerwartete Freude)* gözlənilməyən sevinc; **3.** gözlənilməz bir hadisə.

**Überraschungsangriff,** *der; -(e)s, -e* gözlənilməz hücum *(həmlə).*

**Überraschungsmoment,** *das; -(e)s, -e* şaşqınlıq ləhzəsi.

**überreagieren** *vt* həddindən artıq reaksiya göstərmək.

**überrechnen** *vt* **1.** hesabı kontrol etmək; **2.** xərci hesablamaq, hesabı təxmin etmək.

**überreden** *vi* yola gətirmək, dilə gətirmək *(tutmaq)*, qandırmaq, inandırmaq; *fig.* daban çəkmək; *sich ~ lassen* aldanmaq *(zu D/ bir zada, bir şeyə).*

**Überredung,** *die; -* yola gətirmə, qandırma, dilə tutma.

**überreich** *adj.* çox zəngin; bol; *~ sein an .. -dən* zəngin olmaq.

**überreichen** *vt* vermək, təqdim etmək.

**überreichlich** *adj.* çox, qucaq-qucaq.

**Überreichung,** *die; -, -en* verilmə.

**überreif** *adj. (Obst)* çox yetişmiş, yetişib ötmüş, lalıq.

**überreizen** *vt* çox hirsləndirmək, acıqlandırmaq.

**überreizt** *adj.* **1.** çox həyəcanlı; **2.** *(nervös)* çox hirsli, çox əsəbi.

**Überreizung,** *die; -* əsəbilik, həyəcan.

**überrennen** *vt* **1.** qaçaraq bir kəsə

toqquşub onu yıxmaq; *fig. j-n mit e-r Sache ~* bir kəsə macal verməmək, bir kəsə fürsət verməmək; **2.** *mil.* hücümla almaq.

**Überrest,** *der; -(e)s, -e* qalıq, artıq; yerdə qalan; *fig.* sınıq-salxaq; xımır-xırda, kiçik, xırda, əhəmiyyətsiz; *die ~e des Essens* yeməyin artığı; *j-s sterbliche ~e* bir kəsin cənazəsi.

**Überrock,** *der; -(e)s, -¨e* uzun pencək; palto.

**überrollen** *vt* əzib üstündən keçmək.

**überrumpeln** *vt (überraschen)* yaxalamaq, gözlənilmədən tutmaq; *j-n mit e-r Frage ~* bir kəsi bir sual ilə yaxalamaq.

**Überrumpelung,** *die; -, -en* basqın, hücum, həmlə.

**überrunden** *vt* **1.** *Sport* qaçış yarışında rəqibdən bir dövr qabaq olub və onu yenə ötüb keçmək; **2.** üstün olmaq, ötmək, keçmək, qabaqlamaq.

**übersäen** *vt* örtülmək *(mit D/ bir şey ilə); der Garten war mit Sonnenblumen übersät* bağça günəbaxan çiçəklərlə örtülmüşdü.

**übersät** *adj. ~ mit …ilə* örtülü.

**übersättigen** *vt* həddən artıq doydurmaq.

**übersättigt** *adj.* həddən artıq doymuş.

**Überschallflugzeug,** *das; -(e)s, -e* səsdən iti təyyarə.

**Überschallgeschwindigkeit,** *die; -* səsdən iti sürət.

**überschatten** *vt* kölgələmək, kölgə altında qoymaq; *fig.* mənfi tə`sir qoymaq, pozmaq.

**überschätzen** *vt* qiymətdə şişirtmək, çox dəyər vermək.

**Überschätzung,** *die; -* qiymətdə şişirtmə, böyük görmə, çox dəyər vermə.

**überschaubar** *adj. (übersichtlich)* aydın, açıq, vazeh.

**überschauen** *vt* yaxşı bilmək, anlamaq; ətraflı gözdən keçirtmək.

**überschäumen** *vi* köpükləyib daşmaq; *fig.* daşmaq.

**überschlafen** *vt* **1.**o biri günə qoymaq, gecəni yatıb ertəsi gün qərar vermək; **2.** *F* saatın zəngini eşitməmək.

**Überschlag,** *der; -(e)s, -¨e* **1.** *Sport* mayallaq vurma, salto; **2.** təxmini hesab.

**überschlagen**[1] *vt* **1.** *(Beine usw.)* ayaq-ayaq üstünə atmaq; **2.** *(Feuer)* yayılmaq.

**überschlagen**[2] *vt* **1.** *(schätzen)* təxmin etmək; **2.** *(auslassen)* atlamaq; *vr sich ~* 1. mayallaq vurmaq; aşmaq; *das Auto hat sich ~* maşın aşdı; 2. *(Stimme)* dəyişilmək.

**überschlagen**[3] *adj.* ılıq.

**überschnappen** *vi (verrückt werden)* dəli olmaq, dəliləşmək.

**überschneiden** *vr sich ~* **1.** *(sich kreuzen)* çarpazlaşmaq, çarpaz düşmək, bir-birini kəsmək; **2.** *(kollidieren)* toqquşmaq, çarpışmaq.

**überschreiben** *vt* **1.** sərlövhə vermək; **2.** *jur.* başqasının adına keçirmək.

**Überschreibung,** *die; -, -en* başqasının adına keçirmə.

**überschreiten** *vt* **1.** *(Grenze usw.)* keçmək, addımlayıb keçmək; atlamaq; **2.** *(Gesetz usw.)* qanunu pozmaq, pozmaq; *den Termin ~* müddəti(ni) ötürmək, vaxtını keçirmək.

**Überschreitung,** *die; -, -en* keçmə; keçid; pozma, kənara çıxma, həddini aşma.

**Überschrift,** *die; -, -en* başlıq, sərlövhə.

**Überschuss,** *der; -es, -¨e* **1.** *(Gewinn ohne Abzug)* artıq; qalıq, artıqlıq; *e-n ~ erzielen* qazanc *(artıqlıq)* əldə etmək; **2.** həddindən aşma, artım, bolluq, çoxluq; *Geburtenüberschuss* doğum artımı.

**überschüssig** *adj.* artıq; istifadə olunmamış.

**überschütten** *vt* tökmək *(A mit D / bir şeyin/kəsin üstünə bir şeyi); fig. j-n mit Lob ~* bir kəsi çox tə`rifləmək.

**Überschwang,** *der; -e(s)* duyğu daşqınlığı, coşğunluq; çoxluq.

**überschwänglich** *adj.* coşğun, həyəcanlı.

**Überschwänglichkeit,** *die; -* çoşğunluq.

**überschwappen** *vi (Flüssigkeit)* sıçramaq.

**überschwemmen** *vt* su basmaq, daşıb ətrafı basmaq, aşıb-daşmaq; *H den Markt mit et. ~* bazarı bir mal ilə doldurmaq.

**Überschwemmung,** *die; -, -en* **1.** daşqın; **2.** *H* həddən artıq doldurma *(təklif etmə)*.

**Überschwemmungsgebiet,** *das; -(e)s, -e* su basmış *(sel gəlmiş)* bölgə.

**Übersee** *ohne Artikel* okeanın *(dənizin)* o tayındakı ölkələr, transatlantik ölkələr, dənizaşırı ölkələr.

**Überseedampfer,** *der; -s, -* okean gəmisi.

**überseeisch** *adj.* transatlantik, dənizaşırı.

**übersehbar** *adj.* gözdən keçirilə bilən, müşahidə olunan.

**übersehen**[1] *vr sich ~* zəhləsi getmək; *ich habe mir diesen Film übergesehen* mənim bu filmdən zəhləm gedir.

**übersehen**[2] *vt* **1.** *(Fehler usw.)* görməmək, gözdən qaçırtmaq; **2.** *(ignorieren)* özünü görməməzliyə vurmaq, barmaq arası baxmaq; **3.** *(Übersicht haben)* yaxşı görmək, ətraflı görmək; **4.** *(abschätzen)* qiymətləndirmək, təyin etmək.

**übersenden** *vt* göndərmək, yollamaq.

**übersensibel** *adj.*çox həssas; ağlağan.

**übersetzbar** *adj.* tərcümə edilən.

**übersetzen**[1] *vt* başqa tərəfə keçirtmək; *vi* başqa tərəfə keçmək *(zu, nach D/-ə)*.

**übersetzen**[2] *vt (in e-e andere Sprache)* tərcümə etmək, çevirmək, çöndərmək; *ins Deutsche ~* almancaya çevirmək *(tərcümə etmək)*.

**Übersetzer,** *der; -s, -* tərcüməçi, mütərcim, dilmanc.

**Übersetzung,** *die; -, -en* **1.** yazılı tərcümə, çeviri; **2.** *techn.* ötürmə, intiqal.

**Übersetzungsarbeit,** *die; -, -en* tərcümə işi.

**Übersetzungsfehler,** *der; -s, -* tərcümə səhvi.

**Übersicht,** *die; -, -en* **1.** *(Überblick)* ümumi nəzər, ümumi baxış; anlayış; **2.** *(Zusammenfassung)* xülasə, icmal; **3.** *(Inhaltsverzeichnis)* içindəkilər, föhrüst, mündəricat; *die ~ verlieren* anlayışını itirmək, rabitələri daha yaxşı tanıya bilməmək.

**übersichtlich** *adj.* aydın, açıq, vazeh.

**Übersichtskarte,** *die; -, -n* ümumi xəritə.

**Übersichtstabelle,** *die; -, -n* cədvəl.

**übersiedeln** *vi* köçmək, yerləşmək *(in A, nach D/-ə)*.

**Übersiedler,** *der; -s, -* mühacir, gəlmə.

**Übersied(e)lung,** *die; -, -en* köçmə.

**übersinnlich** *adj.* qeyri-təbii.

**überspannen** *vt* **1.** *(mit e-m Stoff)* üz çəkmək; **2.** gərginləşdirmək, hədsiz dartmaq; *fig. den Bogen ~* şişirtmək, böyütmək.

**überspannt** *adj.* **1.** qəribə, qeyri-adi; **2.** *(verrückt)* dəli; *~e Ansichten haben* qeyri-adi fikirləri olmaq.

**Überspanntheit,** *die; -, -en* qəribəlik, qeyri-adilik; dəlilik.

**überspielen** *vt* **1.** *(Kassette usw.)* yazma, yeni yazma; **2.** *fig.* gizlətmək, göstərməmək.

**überspitzt** *adj.* şişirdilmiş.

**überspitzen** *vt* şişdirmək, böyütmək, həddini aşmaq.

**überspringen**[1] *vi* **1.** keçmək *(auf A/); auf ein anderes Thema ~* başqa bir mövzuya keçmək; **2.** *(Feuer usw.)* yayılmaq.

**überspringen**[2] *vt* atlamaq, addamaq, aşmaq, atılmaq; *e-e Mauer ~* duvardan atılmaq.

**übersprudeln** *vi* qaynayıb daşmaq.

**übersprühen** *vi : vor Freude ~* sevinmək, valeh olmaq.

**überstaatlich** *adj.* dövlətlər arası.

**überstark** *adj.* çox güclü *(qüvvətli)*.

**überstehen** *vi* **1.** *(Krankheit)* keçirmək; **2.** *(Krise, Notlage)* dözmək, tab gətirmək; *das schlimmste ist überstanden* ən pis vaxtını keçirdik.

**übersteigen** *vt* **1.** keçmək; **2.** *(gewischt, Temperatur)* aşmaq; **3.** üstün olmaq, artıq olmaq; *-in* üstünə çıxmaq; *das*

*übersteigt meine Kräfte* buna gücüm çatmır.

**übersteigern** *vt (Ansprüche usw.)* çoxaltmaq, həddini keçmək.

**überstellen** *vt* **1.** vermək, təhvil vermək; **2.** daha yüksək bir məqama gətirmək *(j-n/bir kəsi).*

**überstimmen** *vt* səs çoxluğu ilə qələbə çalmaq.

**überstrapazieren** *vi* gərginləşdirmək; yormaq, əldən salmaq; *ihre Nerven sind überstrapaziert* onun əsəbləri gərginləşibdir.

**überstreichen** *vt* üstünü rəngləmək.

**überstreifen** *vt (Kleidung)* tələsik geymək.

**überstreuen** *vt* üstünə səpmək *(A mit D/ bir şeyin üstünə bir şeyi səpmək).*

**überströmen** *vi* daşmaq, axıb daşmaq; *Tränen überströmten ihre Wangen* gözyaşı yanaqlarından sel kimi axırdı.

**überströmend** *adj.* axan, daşan; *~e Freude* coşub-daşan sevinc.

**Überstunde,** *die; -, -n* vaxtından artıq saat *(iş)*, müddətindən əlavə iş vaxtı.

**überstürzen** *vt* çox tələsmək; *vr sich ~* bir-birinin ardınca gəlmək; *die Ereignisse überstürzten sich* hadisələr tez-tez baş verirdi.

**überstürzt** *adj.* düşünülməmiş; əcələli, tələsik.

**Überstürzung,** *die; -* əcələ.

**überteuert** *adj.* çox bahalı, həddən artıq bahalı.

**übertölpeln** *vt* aldatmaq.

**übertönen** *vt* batırtmaq.

**Übertrag,** *der; -(e)s, -¨e H* hesabın məbləğini başqa səhifəyə keçirmə.

**übertragbar** *adj.***1.** köçürülə bilən; daşına bilən;**2.** *med.*yoluxma,sirayət edici.

**übertragen**[1] *vt* **1.** keçirtmək, başqasına vermək; **2.** *(Radio)* yaymaq; **3.** *med.* yoluxdurmaq; *(Blut)* qanköçürmə; **4.** *(Besitz)* adına keçirmək; həvalə etmək; **5.** *(in e-e andere Sprache)* tərcümə etmək; *j-m e-e Aufgabe ~* bir kəsə tapışırıq vermək; *vr sich ~ auf -ə* keçmək; yoluxmaq.

**übertragen**[2] *adj. (bildlich)* məcazi; *im ~en Sinne* məcazi olaraq.

**Übertragung,** *die; -, -en* **1.** köçürmə; keçirmə; çevirmə; başqasına vermə; **2.** *(Radio)* veriliş; yayım; **3.** *med.* yoluxma, sirayət etmə.

**übertreffen** *vt* üstələmək, ötmək, ötüb keçmək, üstünlük təşkil etmək *(an D, in D/ -də).*

**übertreiben** *vt* böyütmək, şişirtmək, qabartmaq, mübaliğə etmək, həddini aşmaq, qırıldatmaq, gop*(a)* basmaq, ağ etmək, boy demək, dərin*(ə)* getmək, ifrata varmaq, ifrat etmək; *F* dartmaq, ağ eləmək, hesab soxmaq.

**Übertreibung,** *die; -, -en* böyütmə, şişirtmə, mübaliğə, ifrat, qabartma, qırıldatma, ifrat; *F* gop, hap-gop.

**übertreten**[1] *vt* **1.** *(Sport)* cızığını addımlayıb keçmək, addamaq; **2.** *(Fluss)* daşmaq; **3.** *(zu et.)* keçmək; *zum buddhistischen Glauben ~* Buddizm dininə keçmək.

**übertreten**[2] *vt (Gesetz usw.)* pozmaq.

**Übertretung,** *die; -, -en* qaydaları pozma, riayət etməmə; təqsir, qəbahət.

**übertrieben** *adj.* şişirdilmiş, mübaliğəli; *adv.* həddsiz.

**Übertritt,** *der; -(e)s, -e pol. usw.* qarşı tərəfə keçmə; keçid; *rel.* din dəyişmə; *~ zum Islam* İslam dininə keçmə.

**übertrumpfen** *vt* üstün gəlmək.

**übervölkert** *adj.* həddindən artıq adam *(əhali)* yerləşmiş.

**Übervölkerung,** *die; -* həddindən artıq adam yerləşmə, nüfus çoxluğu.

**übervoll** *adj.* ağzına qədər dolu, həddindən artıq doldurulmuş.

**übervorsichtig** *adj.* həddindən artıq ehtiyatlı.

**übervorteilen** *vt* aldatmaq, hesabda aldatmaq, kələk gəlmək *(işlətmək).*

**überwachen** *vt* nəzarət etmək, kontrol etmək, qorumaq, göz qoymaq.

**Überwachung,** *die; -, -en* nəzarət, kontrol, yoxlama, gözətçilik.

**überwältigen** *vt* **1.** *(bezwingen)* öhdəsindən gəlmək, gücü çatmaq, üstün

gəlmək; **2.** *fig.* çox təsir etmək; *überwältigt sein von ... -dən* çox təsirlənmək.

**überwältigend** *adj.* əzəmətli, çox böyük, çox gözəl, təsirli.

**Überwältigung,** *die; -* üstün gəlmə,öhdəsindən gəlmə; aradan qaldır(ıl)ma.

**überwechseln** *vi* keçmək; dəyişmək *(von D/-dən; nach, zu D/-ə)* .

**überweisen** *vt* **1.** göndərmək; **2.** *H* həvalə etmək, pul köçürmək, barat çəkmək *(barat etmək, barat göndərmək)*; *(Geld auf ein Konto)* hesaba keçirmək, hesaba tökmək.

**Überweisung,** *die; -, -en* pul köçürrmə, göndəriş *(pul),* barat; göndərmə.

**überwerfen**[1] *vt* çiyinə salmaq.

**überwerfen**[2] *vr sich ~* küsmək *(mit D/ kimdənsə).*

**überwiegen** *vi* üstün olmaq.

**überwiegend** *adj.* ən böyük; *adv.* əsasən, xüsusiylə; *~e Mehrheit* əksər çoxluq.

**überwindbar** *adj.* aradan qaldırıla bilən.

**überwinden** *vt* aradan qaldırmaq, dəf etmək, üstün gəlmək; *vr sich ~* özünü məcbur etmək, özünə hakim olmaq.

**Überwindung,** *die; -* **1.** aradan qaldır(ıl)ma, dəf etmə; **2.** *(Selbstüberwindung)* özünü məcbur etmə; *es kostete mich ~* özümü məcbur etməli olurdum.

**überwintern** *vi* qışı keçirmək; qışlamaq.

**Überwinterung,** *die; -, -en* qışı keçirmə, qışlama.

**überwölben** *vt* üstünü qübbə *(tağ)* ilə örtmək.

**überwuchern** *vt* hər tərəfə yayılmaq, hər tərəfi *(yeri)* örtmək.

**Überwurf,** *der; -(e)s, -¨e* üstlük, çiyinə salınan uzun paltar, aba, əba; palto.

**Überzahl,** *die; -* say üstünlüyü; *in der ~ sein* çoxluqda olmaq.

**überzahlen** *vt* çox pul vermək.

**überzählen** *vt* iki dəfə saymaq, çox saymaq.

**überzählig** *adj.* artıq, lazımsız.

**überzeichnen** *vt* **1.** *H* çox istəmək, mövcud olduğundan daha çox tələb etmək; **2.** *lit.* olduğundan çox təqdim etmək, şişdirilmiş şəkildə təsvir etmək.

**überzeugen** *vt* inandırmaq; razı salmaq, əmin etmək, qane etmək; *vr sich ~* inanmaq, yəqin etmək *(von D/-i); sich ~ lassen* inanmaq.

**überzeugend** *adj.*inandırıcı, qaneedici.

**überzeugt** *adj.* arxayin, əmin, xatircəm; etiqadlı, əqidəli; *~ von et. ~ sein* bir şeyə əmin olmaq, xatircəm olmaq; *von sich selbst ~ sein* özünü bəyənmək; özünə güvənmək.

**Überzeugung,** *die; -, -en* **1.** *(das Überzeugen)* inandırma; **2.** *(das Überzeugtsein)* inanma, etiqad, inanc, xatircəmlik, şübhəsizlik, qane olma; *zu der ~ gelangen, dass* .. qane olmaq ki..., etiqad etmək ki…

**Überzeugungskraft,** *die; -* inandırma qüvvəsi, inandırıcılıq.

**überziehen**[1] *vt* **1.** *(Kleidungsstück)* geymək; **2.** *(hauen, schlagen)* döymək, kötəkləmək; *j-m eins ~* bir kəsi döymək, bərk ilişdirmək; *j-m eins mit der Peitsche ~* bir kəsi qamçı ilə vurmaq.

**überziehen**[2] *vt* **1.** üz çəkmək, örtmək *(mit D/ ilə);* **2.** *(Bett usw.)* döşəmək; **3.** *(Konto)* hesabdan artıq pul götürmək; **4.** *(Vortragszeit usw.)* vaxtından çox danışmaq; **5.** *(Kritik usw.)* böyütmək; şitini çıxartmaq; *vr sich ~ (Himmel)* buludlanmaq.

**Überzieher,** *der; -s, -* palto; üst paltar.

**Überzug,** *der; -(e)s, -¨e* *(Bezug)* örtük, üz; çexol; *Kopfkissenbezug* balışüzü; *Schokoladenüberzug* şokolad üzü.

**übler** *s. übel.*

**üblich** *adj.* adi, həmişəki; qəbul edilmiş; *wie ~* adət üzrə, həmişəki kimi; *~ sein* adət olmaq; *es ist ~* adət belədir.

**üblicherweise** *adv.* adət üzrə, həmişəki kimi, adətən.

**U-Boot,** *das; -(e)s, -e* sualtı gəmi.

**übrig** *adj.* **1.** *(als Rest)* artıq, artıq qalan, qalan-qulan; **2.** *(andere)* qalanı, başqa; *im Übrigen* bundan başqa; an-

caq; *~ sein* artıq qalmaq; *für j-n viel ~ haben* bir kəsə çox rəğbət bəsləmək; *für et. nichts mehr ~ haben* bir şeyə daha rəğbəti olmamaq;*viel zu wünschen ~ lassen* çox əskiyi *(əskikliyi)* olmaq; *nichts zu wünschen ~ lassen* əskik bir şeyi olmamaq, heç əskiyi olmamaq.

**übrigbleiben** *vi* **1.** *(als Rest)* artıq qalmaq; **2.** *j-m bleibt nichts (anderes) ~, als..* bir kəsə bir şeyi etməkdən başqa, ayrı bir çarə qalmır; *mir bleibt nichts anderes übrig, als nein zu sagen* mənə yox deməkdən başqa ayrı bir imkan *(çarə)* qalmır; .

**übrigens** *adv.* həm də, əsasən, ancaq, bundan başqa, doğrudan, bundan əlavə; *ich bin ~ gestern bei ihr gewesen* əslində mən dünən onun yanında olmuşam.

**übriglassen** *vt* qoymaq, saxlamaq.

**Übung,** *die; -, -en* çalışma; məşq, təlim, vərdiş; təcrübə; seminar; *aus der ~ kommen* yadından çıxartmaq.

**Übungsplatz,** *der; -(e)s, -¨e* vərdiş *(məşq)* meydançası, məşq yeri.

**Ufer,** *das; -s, -* **1.** su kənarı; **2.** *(Meeresstrand)* sahil; *über die ~ treten* daşmaq; *das ~ entlang* sahil boyu.

**uferlos** *adj. fig.* hədsiz, sonsuz.

**Ufo,** *das; -s, -s* ufo.

**Uhr,** *die; -, -en* **1.** saat; *wieviel ~ ist es?* saat neçədir?; *die ~ geht nach* saat geriyə qalır; *die ~ geht vor* saat qabağa gedir; *um drei ~* saat üçdə; *rund um die ~ geöffnet* gecə-gündüz açıq, 24 saat açıq; **2.** *(Zähler)* sayğac; ölçən.

**Uhrmacher,** *der; -s, -* saatsaz.

**Uhrzeiger,** *der; -s, -* saat əqrəbi, əqrəb.

**Uhrzeit,** *die; -, -en* saat vaxtı.

**Uhu,** *der; -s, -s* yapalaq.

**Ukraine** *die* Ukrayna.

**Ukrainer,** *der; -s, -* ukraynalı.

**UKW** çox qısa dalğa.

**Ulk,** *der; -(e)s, -e* zarafat.

**ulkig** *adj.* güldürücü, komik, gülünc.

**Ulme,** *die; -, -n bot.* qaraağac.

**ultimativ** *adj.* ultimatum şəklində, qəti.

**Ultimatum,** *das; -s, -ten* ultimatum; *das ~ stellen* ultimatum vermək .

**Ultimo,** *der; -s, -s* ayın axırıncı günü.

**Ultra,** *der; -s, -s* ifrat, son dərəcə, ultra; ekstremist.

**Ultrakurzwelle,** *die; -, -n* ultraqısa radio dalğası.

**um**[1] *präp. A* **1.** *(-in)* ətrafında, ətrafına; *alle standen ~ den Tisch herum* hamı mizin ətrafında dururdular; *~ das Licht fliegen* işığın ətrafın(d)a uçmaq; **2.** *zeitlich: (genau)* -də; *wir essen ~ 12 Uhr* biz saat 12-də yemək yeyirik;**3.** *(kausal)* ..üçün, ..görə, üzündən, ..xatirinə; deyə; *j-n ~ s-n Reichtum beneiden* bir kəsin varına görə həsəd aparmaq; *~ nicht gesehen zu werden, floh er* onu görməsinlər deyə, başladı qaçmağa;**4.***(Bezug)* haqqında, barəsində; *~ G willen* ..üçün, ..görə, ..ötrü; *~ meinetwillen* mənə xatır, mənim xatırım üçün, məndən ötrü; *~ Gottes willen !* Allah göstərməsin!; *veralt.* əlhəzər!; *e-r ~ den anderen (jeder Zweite)* bir həm bir yox; sıra ilə, dalbadal; *~ diese Zeit* bu vaxta yaxın, bu vaxt; *~ zu Inf.* -mək üçün; *ich gehe in die Stadt, ~ einzukaufen* mən bazarlıq etmək üçün şəhərə gedirəm.

**um**[2] *adv.* **1.** *(circa, ungefähr, fast)* təqribən, az qala; *es kostet ~ 50 Euro* bu təqribən 50 avroyadır, bunu qiyməti təqribən 50 avrodur; *~ so* daha; *~ so besser* daha yaxşı; *~ so mehr* daha çox; **2.** *(zeitlich vorüber)* vaxtı qurtarmış, vaxtı keçmiş.

**um-**[3] ətrafında, ətrafına *(misal üçün: umfliegen),* çevirmək *(misal üçün: umdrehen),* dəyişmək *( misal üçün : umziehen)* mənasındadır.

**umändern** *vt* dəyişdirmək.

**Umänderung,** *die; -, -en* dəyişiklik.

**umarbeiten** *vt* başqa şəklə salmaq, yenidən işləyib hazırlamaq.

**umarmen** *vt* qucaqlamaq; *vr sich ~* qucaqlaşmaq, qol-boyun olmaq, bir-birini qucaqlamaq; *veralt.* həmağuş olmaq.

**Umarmung,** *die; -, -en* qucaqlaşma.

**Umbau,** *der; -(e)s, -ten* yenidən tikilmə.

**umbauen** *vt* yenidən tikmək, başqa cürə tikmək.

**umbehalten** *vt* *(Mantel usw.)* çıxartmamaq, əynində saxlamaq.

**umbenennen** *vt* adını dəyişmək.

**Umbenennung,** *die; -, -en* adını dəyişmə, təzə ad qoyma.

**umbesetzen** *vt* bir vəzifəyə başqa birisini təyin etmək, vəzifə dəyişikliyi etmək.

**umbetten** *vt* yatağını dəyişmək, başqa bir yataqda yatırtmaq.

**umbiegen** *vt* əymək, qatlamaq.

**umbilden** *vt* kökündən dəyiş(dir)mək.

**Umbildung,** *die; -, -en* tərkibi dəyişmə, tərkibin dəyişilməsi; islahat.

**umbinden** *vt* sarıyıb bağlamaq; sarımaq.

**umblasen** *vt* üfürüb yıxmaq.

**umblättern** *vt* vərəqləmək.

**umblicken** *vr sich ~* baxınmaq, ətrafına baxmaq.

**umbrechen** *vt* **1.** qopub düşmək; **2.** *(abbrechen)* sındırmaq.

**umbringen** *vt* öldürmək, məhv etmək, həlak etmək, yox etmək, gəbərtmək, əhədini kəsmək; qırmaq; *F* dənləmək, dərisinə saman təpmək; *vr sich ~* intihar etmək, özünü öldürmək; *F sich (fast) ~ für/wegen* özünü bir şey üçün öldürmək, az qala özünü bir şey üçün öldürmək *(həlak etmək),* dəridən-dırnaqdan çıxmaq.

**Umbruch,** *der; -(e)s, -¨e* **1.** *pol.* əsasi dəyişiklik, dönüş, devriliş; **2.** *typ.* səhifələmə.

**umbuchen** *vt* *(Reise usw.)* vaxtını və ya məqsədini dəyişmək.

**umdenken** *vi* fikrini dəyişmək.

**umdisponieren** *vt* planları dəyişmək.

**umdrehen** *vt* çevirmək, çöndərmək, döndərmək; burmaq; *j-m den Arm ~* bir kəsin qolunu burmaq; *j-m die Worte im Mund ~* bir kəsin sözünü təhrif etmək; *vr sich ~* dönüb arxasına baxmaq, dönmək; burcuxmaq; burulmaq; *sich nach e-r hübschen Frau ~* dönüb bir gözəl qadına baxmaq.

**Umdrehung,** *die; -, -en* dövr; çevirmə, dönmə, burcuxma, burulma,çöndərmə.

**umeinander** *adv.* bir-birinin ətrafın(d)a; *Su und Sany kümmern sich ~* Su ilə Sany bir-birinin qayğısına qalırlar.

**umerziehen** *vt* yenidən tərbiyə etmək.

**Umerziehung,** *die; -* yenidən tərbiyə etmə.

**umfahren**[1] *vt* toqquşub yıxmaq; *er hat das Kind umgefahren* o, maşın ilə uşağa toqquşub onu yerə yıxdı.

**umfahren**[2] *(um ein Hindernis usw.)* dövr etmək.

**umfallen** *vi* **1.** yıxılmaq; çönmək; **2.** *fig.* fikrini dəyişmək; *zum Umfallen müde* yorğunluqdan ayaq üstə dura bilməmək.

**Umfang,** *der; -(e)s, -¨e* həcm, tutum; genişlik; böyüklük, cəsamət, boy; müddət; *in großem ~* böyük həcmdə *(ölçüdə);* həcmli; *mit kleinem ~* aztutumlu.

**umfangen** *vt* əhatə etmək.

**umfänglich** *adj.* geniş, böyük, həcmli, tutumlu, ətraflı.

**umfangreich** *adj. s. umfänglich.*

**umfärben** *vt* rəngini dəyişmək.

**umfassen** *vt* **1.** əhatə etmək; şamil olmaq, tərkibində olmaq, yerləşmək, ehtiva etmək; *das Buch umfasst 100 Seiten* kitab 100 səhifəyə şamildir; **2.** *(umarmen)* qucaqlamaq, ağuşə almaq, bağıra basmaq; *lass mich dich ~!* gəl səni qucaqlayım *(bağrıma basım)!*

**umfassend** *adj.* geniş, əhatəli; havi; ətraflı; *ein ~es Geständnis ablegen* ətraflı etiraf etmək.

**Umfassungsmauer,** *die; -, -n* çəpər, hasar.

**Umfeld,** *das; -(e)s pol.* mühit, şərait; bir kəsi əhatə edən və ona təsir bağışlayan ictimai, siyasi və iqtisadi şərait.

**umformen** *vt* şəklini dəyişdirmək.

**Umformer,** *der; -s, - techn.* transformator, elektrik gərginliyini artırıb azaldan aparat.

**Umformung,** *die; -, -en* dəyişdirmə, şəklini dəyişdirmə.

**Umfrage,** *die; -, -n* sorğu, referendum,

anket sorğusu.

**umfrieden** *vt* çəpərləmək, hasar çəkmək.

**Umfriedung,** *die; -, -en* çəpərləmə, hasar çəkmə.

**umfüllen** *vt* doldurmaq, bir qabdan başqa bir qaba doldurmaq *(et. in A/bir zadı bir zada, bir şeyi bir şeyə).*

**umfunktionieren** *vt* bir zadın *(şeyin)* funksiyasını *(işini, vəzifəsini)* dəyişdirmək.

**Umgang,** *der; -(e)s* **1.** *(mit j-m)* rəftar, davranış, əməl, ətvar, əxlaq; **2.** *(Beziehung)* münasibət, dostluq, ünsiyyət, oturub-durma; **3.** istifadə; *e-n guten ~ haben* yaxşı adamlarla dostluq etmək; *kein ~ für j-n sein* bir kəsin başqasına tay olmaması; *beim ~ mit -dən* istifadə edərkən.

**umgänglich** *adj.* ünsiyyətli, mehriban, xoşrəftar, mülayim, yolagedən, rəftarlı, xoşəməl, əxlaqlı, həlim.

**Umgänglichkeit,** *die; -* mehribanlıq, xoşrəftarlıq, ünsiyyət, yolagedənlik.

**Umgangsform,** *die; -, -en* rəftar tərzi, əda, əməl, kirdar.

**Umgangssprache,** *die; -* danışıq dili.

**umgarnen** *vt* yaltaqlıq etmək; yalandan mehribanlıq etmək.

**umgeben** *vt* əhatə etmək, əhatələmək, ətrafına toplaşmaq, bürümək; *vr sich ~ mit -i* ətrafına toplamaq, ehatə olmaq.

**Umgebung,** *die; -, -en* **1.** *pl.* ətraf; civar, çevrə, dövrə, həndəvər, həvali, yanyövrə; *veralt.* əknaf; *pl. die ~ Berlins* Berlinin ətrafı; **2.** mühit, şərait; **3.** *(Personen)* yaxın adamlar, yanyövrə, dövrə.

**Umgegend,** *die; -* ətraf, ətraf yerlər.

**umgehen**[1] *vi* **1.** *(Gerücht)* yayılmaq; **2.** dolaşmaq, avara gəzmək; **3.** *(mit j-m)* rəftar etmək, davranmaq; **4.** *(verkehren)* əlaqə saxlamaq, dostluq etmək; **5.** *(mit et.)* istifadə etmək, işlətmək; *ich kann damit nicht ~* mən bundan istifadə edə bilmirəm; *mit et. gut ~ können* bir şeydən istifadə etməyi yaxşı bacarmaq; *mit e-r Sache ~* fikirləşmək, düşünmək; *ich gehe mit dem Gedanken um, mir ein Haus zu kaufen* bu fikirdəyəm ki, özümə bir ev alım.

**umgehen**[2] *vt* **1.** ətrafından keçmək, ətrafında gəzmək; **2.** *mil. den Feind ~* düşmənin arxasına keçmək; **3.** *(vermeiden)* *bir zaddan (şeydən)* çəkinmək, boyun qaçırmaq, yayınmaq; *die Antwort ~* cavab yayınmaq; **3.** *(Gesetz)* qanunu pozmaq, qanuna riayət etməmək; *nicht zu ~* qabağıalınmaz.

**umgehend** *adj.* təcili, təxirsiz; *~e Antwort* təcili cavab.

**Umgehung,** *die; -, -en* **1.** dövr edib keçmə; **2.** *mil.* arxasına keçmə; **3.** *jur.* kənara çıxma, riayət etməmə.

**Umgehungsstraße,** *die; -, -n* dolama yol.

**umgekehrt** *adj.* tərsinə, tərsinə çevrilmiş; *adv.* tərsinə, əksinə, bərəks, dalqabaq.

**umgestalten** *vt* şəklini dəyişmək, yenidən təşkil etmək, yenidən qurmaq.

**Umgestaltung,** *die; -* şəklini dəyişmə, yenidən təşkil etmə, yenidən qur(ul)ma.

**umgießen** *vt* tökmək, boşaltmaq *(bir qabdan başqa bir qaba).*

**umgraben** *vt* torpağı belləmək.

**umgrenzen** *vt* məhdudlaşdırmaq; hədd qoymaq.

**umgruppieren** *vt* yenidən qruplaşdırmaq, yenidən təşkil etmək; yenidən bölmək, bölüşdürmək.

**Umgruppierung,** *die; -, -en* yenidən qruplaşma, yenidən təşkil etmə.

**umgucken** *vr* **1.** *sich ~* ətrafına baxmaq, göz gəzdirmək; arxasına baxmaq; **2.** *(sich wundern)* təəccüblənmək, heyrətlənmək.

**umgürten** *vt* qurşaqlamaq; bağlamaq; *sich ~* özünü qurşaqlamaq.

**umhaben** *vt* geymiş *(olmaq),* bağlamış *(olmaq),* taxmaq, geymək; *er hat e-e Kette um* o, zəncir taxıb.

**Umhang,** *der; -(e)s, -¨e* qolsuz palto *(Süd. : şenel).*

**umhängen** *vt* başqa yerdən asmaq; *vr sich et. ~* çiyninə bir şey salmaq.

**umhauen** *vt* **1.** *(j-n)* vurub yıxmaq, vurub salmaq; **2.** *(Baum)* qırmaq.

**umhegen** *vt* başına dolanmaq, qadasını almaq.

**umher** *adv.* ətrafda; arada; hər tərəfə, orda-burda; oyan-buyana.

**umherblicken** *vi* ətrafına baxmaq.

**umherfliegen** *vi* hər tərəfə uçmaq.

**umhergehen** *vi* gəzmək, dolanmaq, gəzişmək.

**umherirren** *vi* avara gəzmək, itmək; sərsərilik.

**umherschauen** *vi* ətrafına baxmaq.

**umherschweifen** *vi* avara gəzmək, dolanmaq, hərlənmək.

**umhertragen** *vt* oyan-buyana daşımaq *(aparmaq).*

**umhertreiben** *vi* avara gəzmək *(dolanmaq) das Schiff trieb auf dem Meer umher* gəmi dənizdə avara üzürdü.

**umherwandern** *vi* dolanmaq, avara gəzmək.

**umherziehen** *vi s. umherwandern.*

**umhinkönnen** *vi : nicht ~ zu Inf.* məcbur olmaq, məcburiyyət qarşısında qalmaq, *...etməkdən savayı* başqa bir çarəsi olmamaq, başqa çıxış yolu görməmək.

**umhören** *: sich ~* soruşub bilmək; *ich werde mich nach e-m Arbeitsplatz für dich ~* sənə iş yeri tapmaq üçün soraqlaşaram.

**umhüllen** *vt* bürümək, sarımaq, çalmalamaq; pərdə çəkmək; *vr sich ~* bürünmək, sarınmaq.

**Ümhüllung,** *die; -, -en* qilaf, örtük; bağlama, qablama.

**Umkehr,** *die; -* geri qayıtma, qayıdış, geri dönmə, dönüm, dönüş; imtina.

**umkehren** *vt* tərsinə çevirmək, çöndərmək; *vi* geri qayıtmaq; üz döndərmək.

**Umkehrung,** *die; -* dəyişmə, dönmə, çevrilmə; qayıtma, çöndərmə.

**umkippen** *vt (umstoßen)* vurub yıxmaq; çevirmək, çöndərmək; aşırmaq, devirmək; *(Flüssigkeit)* calamaq; əndərmək; *vi* arxası üstə düşmək, çevrilmək; yıxılmaq, aşmaq, çönmək, çöyrükmək; calanmaq; *fig. (ohnmächtig werden)* özündən getmək.

**umklammern** *vt* möhkəm tutmaq; qucaqlamaq, sarılmaq; mühasirəyə almaq.

**Umklammerung,** *die; -, -en* sarılma.

**umklappen** *vt (nach oben od. unten od. zur Seite)* açmaq; çevirmək.

**Umkleidekabine,** *die; -, -n* soyunma otağı *(kabini).*

**umkleiden**[1] *vr sich ~* üstünü dəyişmək, soyunub başqa paltar geymək.

**umkleiden**[2] *vt* örtmək, bürümək *(mit D/ ilə).*

**Umkleideraum,** *der; -(e)s, -¨e* soyunma otağı.

**umknicken** *vt* əyib çatlatmaq, qatlamaq; *vi* qatlanmaq; *mit dem Fuß ~* ayağı burulmaq.

**umkommen** *vi* ölmək, tələf olmaq, məhv olmaq, həlak olmaq, hədər getmək; *vor Durst ~* susuzluqdan ölmək *(həlak olmaq).*

**umkränzen** *vt* çələng ilə bəzəmək.

**Umkreis,** *der; -es* **1.** çevrə, dairə çevrəsi, dövrə; **2.** *(Umgebung)* mühit, həndəvər.

**umkreisen** *vt bir şeyin* ətrafında hərlənmək, dövrə vurmaq, aylanmaq, fırlanmaq, dövrə dolanmaq; *(umzingeln)* mühasirə etmək, dövrəsini almaq, dövrələmək, ətrafını almaq.

**Umkreisung,** *die; -, -en* mühasirə; dövrə vurma.

**umkrempeln** *vt* **1.** *(Ärmel usw.)* qatlamaq; **2.** *fig.* tam dəyişdirmək, tam düzəltmək; *er hat seinen Plan völlig umgekrempelt* o, planını tam dəyişdi.

**umladen** *vt (Waren)* bir yerdən başqa yerə yükləmək.

**Umladung,** *die; -, -en* bir yerdən başqa yerə yük vurma *(yükləmə).*

**Umlage,** *die; -, -n* xərclərdən hissə, ev məsarifindən hər bir şəxsə və ya mənzilə düşən pay; *die ~ für Müllabfuhr beträgt 10 € pro Monat* zibil daşımaq üçün aylıq xərc 10 € olur.

**umlagern**[1] *vt (Obst usw.)* təzədən qalamaq, təzədən yığmaq.

**umlagern**[2] *vt (umringen)* dövrəyə almaq, mühasirəyə almaq.

**umlauern** *vt* güdmək.

**Umlauf,** *der; -(e)s, -¨e* **1.** *(Rotation)* hərlənmə, hərlətmə, fırlanma, fırlatma; dövrə; dövrə etmə, dövriyyə; **2.** *(Geldumlauf)* pul dövriyyəsi, pul tədavülü; **3.** *(Rundschreiben)* ümumi məktub, bir müəssisədə hamıya göndərilmiş yazı; **4.** *med.* barmaq vərəmi; *in ~ kommen* yayılmaq; *in ~ setzen/bringen* yaymaq; axdırmaq.

**Umlaufbahn,** *die; -, -en* mədar, dövrə etmə xətti, orbit; tədavül sahəsi.

**umlaufen** *vt* **1.** toqquşub yıxmaq; *er lief die alte Frau um* o, qoca qadınla toqquşub, onu yıxdı; **2.** *(Geld)* dövrə etmək, tədavül etmək; *~des Geld* dövriyyədə olan pul.

**Umlaut,** *der; -(e)s, -e* *gr.* kökdən saitin yumşadılması *(a-ä, o-ö, u-ü),* umlayt.

**Umlegekragen,** *der; -s, -* qatlama yaxa.

**umlegen** *vt* **1.** *(zum Liegen bringen)* yatırtmaq; *Der Wind hat die Blumen umgelegt* külək çiçəkləri yatırtdı; **2.** *(Kragen usw.)* qatlamaq; **3.** *(Kabel usw.)* istiqamətini dəyişmək; *et. ~* başqa yerə qoymaq; **4.** *(Kranke)* otağını dəyişmək, başqa yerə çökürtmək; **5.** *(Termin)* dəyişmək, başqa vaxta çökürtmək; **6.** *(Kosten)* bölmək, paylaşmaq; **7.** salmaq, asmaq; *j-m e-e Halskette ~* bir kəsin boynuna boyunbağı asmaq *(salmaq); F (töten)* öldürmək.

**umleiten** *vt* istiqamətini dəyişmək.

**Umleitung,** *die; -, -en* yolun *(hərəkətin)* başqa səmtə keçirilməsi.

**umlenken** *vt* dönmək, səmtini dəyişmək.

**umlernen** *vi* yenidən öyrənmək.

**umliegend** *adj.* ətraf(ın)da olan, yanında olan.

**ummauern** *vt* hasarlamaq, ətrafına divar *(duvar)* çəkmək.

**ummelden** *vt* *bir şeyin* dəyişilməsini xəbər vermək *(D/bir yerə); sich ~* evin dəyişilməsini ev dəftərinin yazılma yerinə xəbər vermək.

**ummodeln** *vt* dəyişdirmək, görüşünü dəyişdirmək; şəklini dəyişdirmək.

**umnachtet** *adj. : geistig ~* ağlını itirmiş.

**Umnachtung,** *die; - : geistige ~* dəlilik, ağılpozğunluğu.

**umnähen** *vt* **1.** qatlayıb tikmək; **2.** yenidən tikmək.

**umnehmen** *vt* əyninə geymək.

**umorganisieren** *vt* yenidən təşkil etmək, yenidən düzəltmək.

**umpacken** *vt* yenidən qablaşdırmaq, yenidən yığmaq; *der Koffer ist zu klein, du musst ~* çamadan kiçikdir, sən gərək yenidən yığasan.

**umpflanzen** *vt* bir yerdən çıxardıb başqa yerdə əkmək.

**umpflügen** *vt* şumlamaq; yeri sürmək.

**umprogrammieren** *vt* yenidən proqramlaşdırmaq.

**umquartieren** *vt* başqa yerə çökürmək, başqa mənzilə köçürmək.

**umrahmen** *vt (Bild usw.)* çərçivələmək, haşiyələmək.

**umranden** *vt* haşiyələmək.

**umranken** *vt* bürümək, sarımaq.

**umräumen** *vt* yerini dəyişdirmək; yerbəyer etmək.

**umrechnen** *vt* hesablayıb başqa valyutaya *(Süd. : ərzə)* keçirmək.

**Umrechnung,** *die; -, -en* yenidən hesabla(n)ma.

**Umrechnungskurs,** *der; -es, -e* məzənnə.

**umreißen**[1] *vt* **1.** *(zum Umfallen bringen)* yıxmaq; **2.** *(zerstören)* dağıtmaq, uçurtmaq; *e-e Mauer ~* divarı uçurtmaq.

**umreißen**[2] *vt* **1.** *(skizzieren)* çəkmək; **2.** *(schildern)* təsvir etmək, nəql etmək, izah etmək.

**umrennen** *vt* qaçarkən dəyib yıxmaq.

**umringen** *vt* dövrəyə almaq, mühasirəyə almaq, əhatə etmək.

**Umriss,** *der; -es, -e* **1.** kontur, çevrə; qaraltı; **2.** *et. in groben ~en schildern* ümumi şəkildə nəql etmək, təfsilatsız

izah etmək.

**umrühren** *vt* qarışdırmaq, çalxalamaq, bulamaq, çalmaq.

**umrunden** *vt* *(im Kreis um et. fahren od. gehen) bir yeri/zadı* dövrə vurmaq.

**umrüsten** *vi* yenidən təchiz edilmək.

**umsatteln** *vi fig.* sənətini dəyişdirmək; *das Medizinstudium aufgeben und auf Mathematik ~* həkimlik dərsini dəyişib riyaziyyat oxumaq.

**Umsatz,** *der; -es, -¨e* mal və ya pul dövriyyəsi, alış-verış; müamilə.

**Umsatzsteuer,** *die; -, -n* dövriyyə vergisi, alış-veriş vergisi.

**umsäumen** *vt* çərçivələmək.

**umschalten** *vt techn.* dəyişdirmək; dövriyyəsini dəyişdirmək; *vi fig.* adət etmək, alışmaq *(auf A/bir şeyə).*

**Umschalter,** *der; -s, -* elektrik cərəyanını açıb-bağlayan aparat.

**Umschaltung,** *die; -, -en* dəyişdirmə, açıb-bağlama.

**umschatten** *vt* kölgə salmaq, kölgələmək.

**Umschau,** *die; -* **1.** gözdən keçirmə, seyr etmə, ətrafa nəzər salma; *~ halten* ətrafa göz gəzdirmək; **2.** *(Überblick)* görünüş, panorama.

**umschauen** *: vr sich ~* ətrafa göz gəzdirmək, gözünü *(gözlərini)*dolandırmaq; *ich werde mich nach e-r Arbeit für dich ~* sənin üçün iş axtaracağam.

**umschichten** *vt* yenidən qruplaşdırmaq, yenidən bölüşdürmək *(bölmək).*

**umschichtig** *adj.* növbə ilə, bir-birini əvəz edərək, dəyişgən; *~ arbeiten* növbə ilə işləmək.

**Umschichtung,** *die; -, -en* yenidən qruplaşdırma, sistemə salma.

**umschiffen** *vt* gəmi ilə ətrafını dolanmaq, ətrafından keçmək.

**Umschlag,** *der; -(e)s, -¨e* **1.** *(Briefumschlag)* zərf, paket; **2.** *(e-s Buches)* üz; **3.** *med.* kompres; **4.** *(an Kleidung)* paltarın eşiyə qatlanan tərəfi; **5.** *(Änderung, Umschwung)* gözlənilməyən dəyişiklik; *der ~ des Wetters* havanın dəyişilməsi; **6.** *(Umladung von Gütern)* konvert, bir yerdən başqa yerə yüklənmə; *in e-n ~ stecken* paketə qoymaq, paket içinə qoymaq.

**Umschlagbahnhof,** *der; -(e)s, -¨e* yükboşaltma vağzalı.

**umschlagen** *vt* **1.** *(Ärmel usw.)* qatlamaq, çırmalamaq; **2.***(Waren)* yükləmək, böyük bir maşından kiçik bir maşına yükləmək; **3.** *(e-e Seite)* çevirmək, çöndərmək; **4.** *(Baum)* balta ilə kəsmək, kəsib yıxmaq; *sich et. ~* çiyninə bir şey salmaq; *vi* dəyişmək; dönmək; çevrilmək, çönmək.

**Umschlagplatz,** *der; -es, -¨e* **1.** yükboşaltma meydanı; **2.** axtarma yeri.

**Umschlagtuch,** *das; -(e)s, -¨er* şal.

**umschleichen** *vt* gizlicə bir şeyin ətrafında dolanmaq.

**umschließen** *vt* **1.** əhatə etmək, dövrəyə almaq, çevrələmək, dövrələmək; *die Truppen des Feindes ~* düşmənin qoşun hissəsini əhatə etmək *(dövrələmək)*; **2.** *(umarmen)* qucaqlamaq.

**umschlingen** *vt* **1.** *(umarmen)* qucaqlamaq; **2.** *(sich um et. schlingen)* bir şeyə bürünüb sərinmək.

**umschmeißen** *vt* **1.** *(et. zu Fall bringen)* vurub yıxmaq; **2.** *(Vorhaben)* vaz keçmək; niyyətini dəyişmək; **3.** *(seelisch)* təsir qoymaq.

**umschmelzen** *vt* əridib formasını dəyişmək.

**umschnallen** *vt* toqqasını bağlamaq; *den Gürtel ~* kəmərin toqqasını bağlamaq.

**umschreiben**[1] *vt (schildern, bezeichnen)* təsvir etmək, ifadə etmək; *j-s Aufgaben kurz ~* bir kəsin vəzifəsini qısaca təsvir etmək.

**umschreiben**[2] *vt* **1.** *(mit anderen Worten ausdrücken)* başqa sözlə ifadə etmək; **2.** *(et. Schriftliches)* yenidən yazmaq; üzündən köçürmək.

**umschreiben**[3] *vt jur.* başqasının adına keçirmək, çöndərmək; *die Wohnung auf den Bruder ~* mənzili qardaşının adına keçirmək.

**Umschrift,** *die; -, -en* **1.** transkripsiya

*(Süd. : transkripsiyon);* **2.** bir əlifbadan başqa əlifbaya keçirmək; *die ~ e-s Textes in das lateinische Alphabet* bir mətni latın əlifbasına keçirmək.

**umschubsen** *vt* itələyib yıxmaq.

**Umschuldung,** *die; -* az faizli borc ilə çox faizli borcu ödəmə.

**umschulen** *vt* **1.** şagirdi başqa məktəbə keçirtmək; **2.** *(beruflich)* yeni ixtisas öyrətmək, ixtisasını təkmilləşdirmək.

**Umschulung,** *die; -, -en* ixtisasın təkmilləşdirilməsi.

**umschütten** *vt* **1.** calamaq, vurub tökmək; *e-e Tasse Kaffee ~* bir fincan qəhvənı yerə tökmək *(calamaq);* **2.** *(in ein anderes Gefäß)* qabdan qaba tökmək.

**umschwärmen** *vt* **1.** ətrafında uçmaq; *Fliegen umschwärmten den Kuchen* milçəklər şirninin ətrafında uçurdular; **2.** *(j-n) fig.* ətrafında yığışmaq, bürümək; *bir kəsi* pərəstiş etmək.

**Umschweife,** *pl.* dolanbac, dolaşıq, əyri-üyrü; *ohne ~* işarəsiz, eyhamsız, haşiyə getmədən, sözün qısası; *sprich ohne ~!* sözü uzatma!, haşiyəyə getmə!

**umschwenken** *vi* **1.** çevrilmək, dönmək; **2.** *fig.* fikrini dəyişmək, rəyini dəyişmək.

**Umschwung,** *der; -(e)s, -¨e* dəyişiklik; dönüş, çevriliş, devriliş.

**umsegeln** *vt* *-in* ətrafını gəmi ilə dolanmaq.

**umsehen** *vr sich ~* **1.** ətrafına baxmaq, göz gəzdirmək, baxıb axtarmaq; *ich werde mich nach e-m neuen Arbeitsplatz umsehen* mən yeni iş axtaracağam, mən yeni bir işin dalınca gəzəcəyəm; **2.** dönüb dala baxmaq, arxasına baxmaq; *im Umsehen* bir anda.

**umseitig** *adj.* sonrakı *(gələcək)* səhifədə *(ki).*

**umsetzen** *vt* **1.** *-in* yerini dəyişmək; *Pflan-zen ~* başqa yerə əkmək; **2.** *H* satmaq; **3.** *Chem. (umwandeln)* çevirmək; *in die Tat ~* həyata keçirmək.

**Umsichgreifen,** *das; -s* yayılma, genişlənmə.

**Umsicht,** *die; -* ehtiyat, diqqət.

**umsichtig** *adj.* olduqca ehtiyatlı, olduqca diqqətli, olduqca düşüncəli.

**umsiedeln** *vt* köçürtmək; *vi* köçmək.

**Umsiedler,** *der; -s, -* köçən, mühacir, köçmüş.

**Umsied(e)lung,** *die; -, -en* köçmə, mühacirət, köçürülmə.

**umsinken** *vi* yavaş-yavaş yerə batmaq.

**umsonst** *adv.* **1.** *(unentgeltlich)* pulsuz, əvəzsiz, havayı; dəyər-dəyməzinə; **2.** boş yerə, hədər, əbəs, boş-boşuna; *adv.* əbəs yerə, nahaq, nahaqdan, hədər yerə; *~ sein* hədərə *(boşa)* getmək.

**umsorgen** *vt bir kəsə* yaxşı baxmaq, yaxşı qulluq etmək, qayğısında qalmaq.

**umspannen**[1] *vt el.* transformasiya etmək.

**umspannen**[2] *vt* **1.** *(mit der Hand)* möhkəm tutmaq, saxlamaq; **2.** bürümək, sarımaq; **3.** *(beinhalten)* şamil olmaq, tərkibində olmaq.

**Umspanner,** *der; -s, - el.* transformator.

**umspringen** *vi* **1.** dəyişmək, dönmək; *die Ampel ist von Rot auf Grün umgesprungen* lampa qırmızıdan yaşıla döndü; **2.** *fig. mit j-m ~* bir kəs ilə kobudcasına rəftar etmək.

**umspulen** *vt* bir qarqaradan *(çarxdan)* başqa qarqaraya sarımaq.

**Umstand,** *der; -(e)s, -¨e* vəziyyət, şərait; *unter Umständen* ola bilsin ki, bəlkə, müəyyən şəraitdə; *unter keinen Umständen* əsla, qətiyyən, heç bir vəchlə; *keine Umstände machen/bereiten* zəhmət verməmək; *Umstände machen* zəhmət vermək, əziyyət vermək; *unter allen Umständen* hər halda, necə olur-olsun; *in anderen Umständen* hamilə, boylu; *die junge Frau ist in anderen Umständen* cavan qadın boyludur *(hamilədir).*

**umständehalber** *adv.* şəraitə görə, vəziyyətə görə.

**umständlich** *adj.* **1.** *(kompliziert)* çətin, zəhmətli; *e-e ~e Arbeit* çətin iş, zəhmətli iş; **2.** müfəssəl, mükəmməl; dolan-

baclı; vasvası.

**Umständlichkeit,** *die; -, -en* müfəssəllik; zəhmət.

**Umstandskleid,** *das; -(e)s, -er* hamiləlik paltarı.

**Umstandswort,** *das; -(e)s, -¨er gr.* zərf.

**umstehen** *vt* ətrafında durmaq.

**umstehend** *adj.* **1.** ətrafındakı; **2.** o biri səhifədə olan; *die Umstehenden* ətrafındakılar, ətrafında duranlar.

**Umsteigefahrkarte,** *die; -, -n* bir qatardan və ya maşından düşüb başqasına minmə bileti.

**umsteigen** *vt* **1.** bir qatardan və ya maşından düşüb başqasına minmək; **2.** *(e-m Wechsel unterwerfen)* dəyişmək; *er ist auf leichtere Zigaretten umgestiegen* o, siqaretin dəyişib daha yüngül siqaret çəkir.

**umstellen**[1] *vt* **1.** *(Möbel usw.)* yerini dəyişmək; **2.** *et. auf et. ~* dəyişdirmək, uyğunlaşdırmaq; *den Betrieb auf EDV ~* müəssisəni kompyuter sistemi ilə nizamlamaq; *vr sich ~ auf (A)* özünü bir şeyə alışdırmaq; *-ə* adət etmək.

**umstellen**[2] *vt* mühasirə etmək.

**Umstellung,** *die; -, -en* yerdəyişmə; dəyişiklik; yenidən qurma.

**umstimmen** *vt* **1.** *(Instrument)* başqa tona salmaq, səsini dəyişdirmək; **2.** *fig.* inandırıb fikrini dəyişdirmək.

**umstoßen** *vt* **1.** vurub yıxmaq; çevirmək; **2.** *(Plan)* ləğv etmək, geri götürmək, etibarsız hesab etmək.

**umstritten** *adj.* mübahisəli, cəncəl; qadalı, davalı.

**umstrukturieren** *vt* formasını dəyişmək; başqa formaya salmaq.

**umstülpen** *vt bir şeyi* çevirmək, altüst etmək.

**Umsturz,** *der; -es, ¨-e* çevriliş, devirmə *(hakimiyyəti),* devriliş.

**umstürzen** *vt* çevirmək, devirmək, yıxmaq; calamaq; *vi* çevrilmək, devrilmək; calanmaq.

**Umstürzler,** *der; -s, -* qiyamçı, üsyankar, çevriliş iştirakçısı.

**umstürzlerisch** *adj.* yıxıcı.

**Umsturzversuch,** *der; -(e)s, -e* çevriliş cəhdi.

**umtaufen** *vt F* adını dəyişdirmək.

**Umtausch,** *der; -(e)s, -e* dəyişmə, dəyişdirilmə, mübadilə.

**umtauschen** *vt* dəyişmək, mübadilə etmək.

**umtopfen** *vt* bitkini bir qabdan *(güldandan)* başqa bir qaba *(güldana)* əkmək.

**Umtrieb,** *der; -(e)s, -e* fitnə, intriqa, fəsad, çəkişmə, hiylə.

**Umtrunk,** *der; -(e)s, -¨e* hamı bir yerdə *(birlikdə)* içki içmək.

**umtun** *vt* **1.** geymək; çiyninə bir şey salmaq; sarıyıb bağlamaq; **2.** *sich ~ (nach) -ilə* tanış olmağa səy etmək, soruşub öyrənmək.

**Umverteilung,** *die; -, -en* yenidən bölüşdür(ül)mə.

**umwälzen** *vt fig.* kökündən dəyişmək; çevriliş etmək, devirmək.

**umwälzend** *adj.* dəyişdirici.

**Umwälzung,** *die; -, -en* çevriliş, qiyam, kökündən dəyişmə, dəyişiklik, devriliş.

**umwandeln** *vt* döndərmək, çevirmək, şəklini dəyişdirmək; *seit s-r Krankheit ist er wie umgewandelt* xəstəlik zamanından elə bil başqa bir insan olub.

**Umwandlung,** *die; -, -en* dəyiş(dir)mə, dəyişiklik, çevrilmə, çevirmə.

**umwechseln** *vt (Geld)* dəyişmək, dəyişdirmək.

**Umwechslung,** *die; -, -en* dəyişmə.

**Umweg,** *der; -(e)s, -e* dolayı yol, dolama yol; *auf ~en* dolayı yollarla; *fig. et. auf ~en erfahren* gizli yollarla xəbər tutmaq; *ohne ~* düzünə; mərdcəsinə.

**Umwelt,** *die; -* ətraf mühit, mühit.

**umweltbedingt** *adj.*ətraf mühitdən asılı.

**umweltfeindlich** *adj.* ətraf mühitə ziyanverən.

**umweltfreundlich** *adj.* ətraf mühiti qoruyan.

**Umweltpolitik,** *die; -* ətraf mühit siyasəti.

**Umweltschutz,** *der; -(e)s* ətraf mühitin qorunması.

**Umweltverschmutzung,** *die; -* ətraf mühiti çirkləndirmək.

**umwenden** *vt* **1.** çevirmək, çöndərmək; **2.** *(e-e Seite im Buch)* vərəqləmək; *vr sich nach j-m ~* üzünü kiməsə çevirmək; kiməsə baxmaq.

**umwerben** *vt bir kəsə* yaltaqlanmaq.

**umwerfen** *vt* **1.** vurub yıxmaq; çevirmək; aşırmaq; devirmək; **2.** *(e-e Sache)* kökündən dəyişdirmək; *e-n Plan ~* planı dəyişdirmək; *vr sich et. ~ (Mantel)* çiyninə bir şeyi salmaq; *fig. j-n ~* hövsələdən çıxartmaq, hirsləndirmək.

**umwerfend** *adj.* bərk təsir bağışlayan, çox gözəl; *du siehst ~ aus* sən çox gözəl görünürsən; *adv.* çox, son dərəcə.

**umwickeln** *vt* sarımaq, dolamaq.

**umwinden** *vt s. umwickeln.*

**umwittert** *adj.* əsrarəngiz şəkildə əhatə olmuş; örtülmüş.

**umwohnend** *adj.* ətrafdakı, qonşu.

**umwölken** *vt* buludlarla örtmək; *vr sich ~* **1.** buludlarla örtülmək; **2.** *fig. (Stirn)* qaşqabaqlı olmaq.

**umwuchern** *vt* bitib basmaq, bitib örtmək; *Unkraut umwuchert das Haus* alaq evi örtmüşdür *(basmışdır).*

**umwühlen** *vt* qazıb qurdalamaq.

**umzäunen** *vt* çəpərləmək, hasarlamaq, çağlamaq, hasar çəkmək.

**Umzäunung,** *die; -, -en* çəpər, hasar; çəpərləmə, hasarlama, çağlama.

**umziehen**[1] *vt* daşınmaq, köçmək; *sie ist letzte Woche umgezogen* o, keçən həftə daşınıb *(köçüb)*; *vr sich ~* paltar(lar)ını dəyiş(dir)mək; *ich ziehe mich um* paltarımı dəyişirəm.

**umziehen**[2] *vr sich ~ (Himmel)* buludlanmaq, buludlarla örtülmək.

**umzingeln** *vt* əhatə etmək, mühasirə etmək, mühasirəyə almaq, dövrələmək, çevrələmək, əhatələmək, ətrafını almaq.

**Umzingelung,** *die; -, -en* mühasirə, əhatə, çevrələ(n)mə, ətrafını alma.

**Umzug,** *der; -(e)s, -¨e* **1.** köçmə, daşınma; **2.** *(Festzug)* yürüş, nümayiş.

**Umzugskosten,** *die/pl.* daşınma xərci.

**Umzugstag,** *der; -(e)s, -e* daşınma günü.

**UN :** *die; - United Nations* Birləşmiş Millətlər *(dövlətlər)* təşkilatı.

**un-** ..sız, ..suz, qeyri..- .

**unabänderlich** *adj.* dəyiş(il)məz, dəyiş(il)məyən, sabit, qəti, dönməz.

**unabdingbar** *adj.* zəruri, gərəkli, məcburi.

**unabhängig** *adj.* müstəqil, tabe olmayan, bağımsız, asılı olmayan, hürr, özgür; *~ davon, dass..* buna baxmayaraq, ki ..; *~ davon, ob ...* istər-istəməz.

**Unabhängigkeit,** *die; -* müstəqillik, istiqlaliyyət, bağımsızlıq, sərbəstlik, hürriyyət; *~ erlangen* istiqlaliyyət əldə etmək, bağımsız olmaq, müstəqillik qazanmaq.

**Unabhängigkeitsbewegung,** *die; -, -en* bağımsızlıq *(istiqlaliyyət)* hərəkatı.

**unabkömmlich** *adj.* əvəzolunmaz; *er ist ~* o, əvəzsiz adamdır, onsuz keçinmək olmaz.

**unablässig** *adj.* arası kəsilməz, arası kəsilməyən, fasiləsiz, çəkinməz; *adv.* çəkinmədən.

**unabsehbar** *adj.* sonu görünməyən, ucu-bucağı olmayan; *fig. ~e Folgen haben* sonu görünməyən nəticələr vermək.

**unabsichtlich** *adj.* istəmədən, bilmədən, qəsdsiz, qərəzsiz.

**unabweisbar** *adj.* qarşısı alınmaz, labüd, məcburi.

**unabweislich** *adj. s. unabweisbar.*

**unabwendbar** *adj.* qabağıalınmaz, labüd.

**unachtsam** *adj.* diqqətsiz, ehtiyatsız.

**Unachtsamkeit,** *die; -, -en* diqqətsizlik, qəflət, ehtiyatsızlıq.

**unähnlich** *adj.* oxşamayan, bənzəməyən *(D/kiməsə).*

**unanfechtbar** *adj.* **1.** *(ein Beweis usw.)* şəksiz, şübhəsiz, təkzibedilməz; **2.** *(ein Urteil)* mübahisəsiz.

**unangebracht** *adj.* *(Bemerkung usw.)*

yersiz, vaxtsız, artıq, münasibətsiz, tutarsız.

**unangefochten** *adj.* mübahisəsiz, danışıqsız, etirazsız; *adv.* qabağı alınmadan, maneəsiz; *wir passierten ~ die Grenze* biz maneəsiz sərhədi keçdik.

**unangemeldet** *adj.* qeydiyyata düşməmiş; elan edilməmiş.

**unangemessen** *adj.* uyğun gəlməyən, münasibətsiz, münasib olmayan.

**unangenehm** *adj.* xoşa gəlməyən, xoşagəlməz; neybət *fig.* acı.

**unangetastet** *adj.* toxunulmamış.

**unangreifbar** *adj.* **1.** *mil.* möhkəm, hücum oluna bilməz; **2.** *fig.* diş batmayan; etiraz qəbul etməyən.

**unannehmbar** *adj.* qəbuledilməz, yolverilməz, münasib olmayan.

**Unannehmlichkeit,** *die; -, -en* xoşagəlməyən hadisə, pis hadisə; zərər, başağrısı; *j-m ~en bereiten* kiməsə başağrısı vermək; *sie bekam ~en* başına bəla açdı.

**unansehnlich** *adj.* yaraşıqsız; çirkin.

**unanständig** *adj.* ədəbsiz, yaramaz, layiqsiz, nanəcib, qanmaz, biar, əxlaqsız, pozğun, hərzə, iffətsiz; *F* gəzəyən.

**Unanständigkeit,** *die; -, -en* ədəbsizlik; ləyaqətsizlik, nalayiqlik, gədəlik, əxlaqsızlıq, pozğunluq, hərzəlik .

**unantastbar** *adj.* toxunulmaz.

**Unantastbarkeit,** *die;* - toxunulmazlıq.

**unappetitlich** *adj.* iyrənc, iyrəndirici.

**Unart,** *die; -, -en* **1.** *(ungezogen)*tərbiyəsizlik, dəcəllik, nadinclik; **2.** pis adət, ədəbsizlik; *es ist e-e ~, beim Essen zu sprechen* yemək zamanı*(süfrə başında)* danışmaq pis adətdir *(ədəbsizlikdir).*

**unartig** *adj.* ədəbsiz, tərbiyəsiz, nadinc, nəzakətsiz, şuluqluq edən.

**unartikuliert** *adj.* *(Laute)* anlaşılmaz, qeyri-aydın.

**unästhetisch** *adj.* çirkin, iyrənc.

**unaufdringlich** *adj.* təvazökar, dinc, iddiasız.

**unauffällig** *adj.* gözə çarpmayan, nəzərdən qaçan, hiss edilməyən; *adv.* gizlicə, səssiz, görünmədən; *ich verließ ~ den Raum* otağı səssiz tərk etdim.

**unauffindbar** *adj.* tapılmaz.

**unaufgefordert** *adj.* *(ungeruen)* çağırılmamış;*adv.*özbaşına;dəvət edilmədən.

**unaufgeklär** *adj.* aydınlaşdırılmamış; həll edilməmiş.

**unaufgeräumt** *adj.* yığışdırılmamış.

**unaufhaltsam** *adj.* qarşısı alınmayan, qabağıalınmaz.

**Unaufhaltsamkeit,** *die;* - qabağıalınmaz güc.

**unaufhörlich** *adj. u. adv.* ardıcıl, arası kəsilməyən, daimi, yorulmadan, dayanmadan, dönmədən.

**unauflösbar** *adj.* əriməyən; həll olmayan; pozulmaz.

**unauflöslich** *adj. Chem.* əriməyən.

**unaufmerksam** *adj.* diqqətsiz, qafil, başısoyuq, etinasız.

**Unaufmerksamkeit,** *die;* - diqqətsizlik, etinasızlıq.

**unaufrichtig** *adj.* ikiüzlü, qeyri-səmimi.

**Unaufrichtigkeit,** *die; -, -en* ikiüzlülük, yalançılıq, qeyri-səmimilik; saxtalıq.

**Unaufschiebbar** *adj.* təxirəsalınmaz; əcələli, yubadılmaz.

**unausbleiblich** *adj.* zəruri, labüd.

**unausführbar** *adj.* həyata keçirilə bilməyən, yerinə yetirilə bilməyən.

**unausgebildet** *adj.* təlim görməmiş; avam.

**unausgeführt** *adj.*həyata keçirilməmiş.

**unausgefüllt** *adj.* doldurulmamış, boş.

**unausgeglichen** *adj.* xasiyyətcə müvazinətsiz, mütərəddid; səb(i)rsiz, hövsələsiz, qərarsız.

**Unausgeglichenheit,** *die;* - mütərəddidlik, səbirsizlik, müvazinətsizlik, qərarsızlıq, tarazsızlıq.

**unausgesetzt** *adj.* arası kəsilməyən, fasiləsiz, daimi, ara vermədən.

**unausgesprochen** *adj.* üzə çıxmamış, danışılmamış, üstü örtülü.

**Unausgewogenheit,** *die;* - *s. Unausgeglichenheit.*

**unauslöschlich** *adj.* pozulmaz; söndürülməz.

**unausrottbar** *adj.* kökü kəsilməz, qırılmaz, məhv edilməz.

**unaussprechlich** *adj.* sözlə deyilə bilməyən, ifadə edilə bilməyən, son dərəcə böyük; *adv.* fövqəladə, çox; ~ *traurig sein* fövqəladə *(çox)* kədərli olmaq.

**unausstehlich** *adj. (Person)* zəhlə aparan, təngə gətirən.

**unausweichlich** *adj.* labüd, qaçılmaz, zəruri.

**unbändig** *adj.* **1.** *(stürmisch)* coşğun, sakitləşməyən; **2.** *(sehr groß)* həddindən artıq, çox böyük; *adv.* fövqəladə; ipəyatmaz.

**unbarmherzig** *adj.* rəhmsiz, qəddar, mərhəmətsiz, şəfqətsiz, insafsız; *F* dirisoyan; *adv.* rəhmsizcəsinə.

**Unbarmherzigkeit,** *die; -* rəhmsizlik, qəddarlıq, amansızlıq.

**unbeabsichtigt** *adj.* qəsdsiz, qəsdən edilməyən, istəmədən, qərəzsiz.

**unbeachtet** *adj.* riayət olunmayan, nəzərə çarpmayan, diqqətdən kənar; ~ *bleiben* diqqətdən kənar qalmaq.

**unbeanstandet** *adj.* etirazsız, maneəsiz; *et.* ~ *lassen* bir şeyə etiraz etməmək, bir şeyi etirazsız buraxmaq.

**unbeantwortet** *adj.* cavabsız.

**unbearbeitet** *adj.* işlənməmiş; xam.

**unbeaufsichtigt** *adj.* nəzarətsiz.

**unbebaut** *adj.* sürülməmiş, becərilməmiş.

**unbedacht** *adj.* düşünülmədən, götür-qoy edilmədən, kor-koranə, tədbirsiz; qayğısız; *adv.* tədbirsizcəsinə, necə gəldi, necə oldu, düşünmədən, düşərinə, qarasına.

**Unbedachtheit,** *die; -, -en* düşünülməzlik, tədbirsizlik.

**Unbedachtsamkeit,** *die; -, -en* düşünülməzlik, tədbirsizlik, qayğısızlıq.

**unbedarft** *adj. F* sadə, sadəlövh; təcrübəsiz.

**unbedeckt** *adj.* örtüksüz, açıq.

**unbedenklich** *adj.* qorxusuz, xətərsiz, şübhəsiz; *adv.* tərəddüd etmədən, şübhələnmədən.

**unbedeutend** *adj.* **1.** əhəmiyyətsiz, önəmsiz; **2.** *(geringfügig)* cüzi, az, gözədəyməz.

**unbedingt** *adj.* şərtsiz, sözsüz, danışıqsız; *F* əldəbir; *adv.* mütləq(a), qəti, hökmən, hər nə olur*(sa)* olsun; *F* əl-əlbət, həl-həlbət, hələ-həlbət, labüd.

**Unbedingtheit,** *die; -* qətilik; şərtsizlik.

**unbeeindruckt** *adj.* təsirsiz, təsiri olmayan; ~ *bleiben* təsirsiz qalmaq.

**unbeeinflusst** *adj.* təsir edilməmiş, təsirsiz qalmış.

**unbeendet** *adj.*qurtarmamış, sona çatdırılmamış, yarıda qoyulmuş.

**unbeendigt** *adj. s. unbeendet.*

**unbeerdigt** *adj.* basdırılmamış, torpağa verilməmiş.

**unbefahrbar** *adj.* işlək olmayan, minik keçməz *(yol)* .

**unbefangen** *adj.* **1.** *(natürlich)* sadə, təbii, azad; **2.** *(unparteiisch)* qərəzsiz, tərəfsiz, işgüzar.

**Unbefangenheit,** *die; -* sadəlik; qərəzsizlik.

**unbefestigt** *adj.* möhkəmlən(diril)məmiş.

**unbefleckt** *adj.* **1.** ləkəsiz; **2.** *fig.* namuslu, iffətli.

**unbefriedigend** *adj.* qeyri-kafi.

**unbefriedigt** *adj.* narazı.

**unbefristet** *adj.* müddətsiz, vədəsiz.

**unbefruchtet** *adj.* münbitləşdirilməmiş.

**unbefugt** *adj.* səlahiyyətsiz, ixtiyarsız, ixtiyarı olmayan; *adv.* icazəsiz.

**Unbefugte,** *der u. die; -n, -n* ixtiyarı olmayan, hüququ olmayan; kənar adam, icazəsiz; *Zutritt für ~ verboten!* kənar şəxslərə giriş qadağandır! .

**unbefugterweise** *adv.* ixtiyarsız olaraq.

**unbegabt** *adj.* istedadsız, qabiliyyətsiz, zəkasız, korazehin, küt, fərasətsiz; yarıtmaz, hünərsiz.

**Unbegabtheit,** *die; -* kütlük, qabiliyyətsizlik, korazehinlik.

**unbeglichen** *adj.* ödənməmiş, verilməmiş.

**unbegreiflich** *adj.* anlaşılmaz, başa düşülməyən, aydın olmayan, dərkedilməz.

**unbegrenzt** *adj.* hədsiz, hədsiz-hesabsız, qeyri-məhdud, hüdudsuz; *adv.* dünyalarca.

**Unbegrenztheit,** *die; -* hədsizlik, qeyri-məhdudluq.

**unbegründet** *adj.* əsassız, dəlilsiz.

**unbehaart** *adj.* tüksüz, saçsız.

**Unbehagen,** *das; -s* xoşa gəlməyən hissiyat; əzginlik, sıxıntı.

**unbehaglich** *adj.* xoşa gəlməyən, sıxıntlı; *adv.* narahat; *sich ~ fühlen* özünü narahat hiss etmək.

**unbehandelt** *adj.* təbii, əldəyməmiş, əlgəzməmiş, işlənməmiş.

**unbehauen** *adj.* yonulmamış; kəsilməmiş.

**unbehelligt** *adj.* maneəsiz.

**unbeherrscht** *adj.* özündən çıxan, əsəbi.

**unbehindert** *adj.* maneəsiz, azad.

**unbeholfen** *adj.* bacarıqsız, aciz; naşı.

**Unbeholfenheit,** *die; -* bacarıqsızlıq, acizlik.

**unbeirrbar** *adj.* sarsılmaz; möhkəm.

**unbeirrt** *adj.* sarsılmaz, əmin.

**unbekannt** *adj.* məlum olmayan, naməlum, yad, adsız; *~ verzogen (Post)* naməlum yerə daşınıb; *das war mir ~* bunu bilmirdim.

**Unbekannte[1],** *die; -n, -n math.* məchul, bilinməyən.

**Unbekannte[2],** *der u. die; -n, -n* yad adam, naməlum şəxs.

**unbekehrbar** *adj.* yola gəlməyən, əqidəsini dəyişməyən.

**unbekleidet** *adj.* çılpaq, lüt.

**unbekümmert** *adj.* qayğısız, qəmsiz, laqeyd, asudə, başısoyuq, biqeyd; ehtiyatsız; *F* əhmədi-biqəm; *~ um A* *-ə* laqeyd, *-ə* qayğısız.

**unbelastet** *adj.* **1.** *(Grundstück)* borcsuz; **2.** *pol.* etibarlı; **3.** *fig. (ohne Sorge)* dərdsiz, arsız.

**unbelebt** *adj.* **1.** cansız; **2.** *(Straße usw.)* xəlvət.

**unbelehrbar** *adj.* yola gəlməyən, söz eşitməyən, sözə baxmayan, tərs.

**unbelesen** *adj.* savadsız; təcrübəsiz.

**unbeleuchtet** *adj.* işıqsız, qaranlıq.

**unbeliebt** *adj.* sevilməyən, sevilməz, istənilməyən; *sich bei j-m ~ machen* kiminsə özündən narazı salmaq.

**Unbeliebtheit,** *die; -* şöhrətə layiq olmama, adı pisə çıxma.

**unbemannt** *adj.* *(Raumschiff usw.)* pilotsuz, adamsız.

**unbemerkt** *adj.* hiss edilmədən, diqqət oyatmadan, diqqəti cəlb etmədən.

**unbemittelt** *adj.* kasıb, pulsuz, fağır.

**unbenannt** *adj.* adsız, məchul.

**unbenommen** *adv.* izin verilmiş, icazə verilmiş, yol verilən, qanuni; *es bleibt Ihnen ~ zu Inf.* *..məyi* sizə bağlıdır, *..məyi* sizdən asılıdır; *es ist mir ~, ob ich das Geld für e-e Reise ausgebe oder nicht* pulu bir səfərə xərcləyib-xərcləməmək məndən asılıdır; *es bleibt ihm ~* onun qərarına bağlıdır, edib-etməməkdə azaddır.

**unbenutzbar** *adj.* istifadə olunmaz.

**unbenutzt** *adj.* istifadə olunmamış.

**unbequem** *adj.* **1.** *(Schuhe usw.)* narahat, rahatsız; **2.** *(lästig)* tərs, darıxdırıcı; *ein ~er Mensch* xoşa gəlməyən adam.

**Unbequemlichkeit,** *die; -, -en* narahatlıq.

**unberechenbar** *adj.* mümkün olmayan, üstündə hesab edilməyən; fitnəkar; bədlöyün, cinli-xuylu; *er ist ~* ondan nə desən çıxar, ondan nə istəsən gözləmək olar.

**unberechtigt** *adj.* ixtiyarsız, səlahiyyətsiz, haqqı olmayan, nahaq; haqsız.

**unberechtigterweise** *adv.* haqsız yerə.

**unberücksichtigt** *adj.* nəzərə alınmamış, diqqətsiz qoyulmuş; *~ lassen* hesaba qatmamaq; məhəl qoymamaq.

**unberufen** *adj.* **1.** ixtiyarsız, səlahiyyətsiz; **2.** *e-e Sache ~ lassen* bir şeyi danışmamaq *(susmaq).*

**unberührt** *adj.* **1.** əldəyməmiş, toxunulmamış, dəc; bakirə; xam; **2.** təsirsiz, qayğısız; *von j-s Leid ~ bleiben* bir kəsin dərdinə qeydsiz qalmaq.

**Unberührtheit,** *die; -* toxunulmamaz-

lıq; bakirəlik; bütövlük, dəclik.

**unbeschadet** *präp. G* diqqət verməmək, kiçiltməmək, ziyan vurmamaq, ...baxmayaraq; *~ deiner Verdienste muss ich aber doch sagen, dass...* xidmətlərini kiçirtmədən, deməliyəm ki... .

**unbeschädigt** *adj.* zərər dəyməmiş, salamat qalmış, sağlam, zədəsiz.

**unbeschäftigt** *adj.* işsiz-gücsüz, işsiz.

**unbescheiden** *adj.* **1.** təvazösüz; nəzakətsiz, ədəbsiz, qaba, kobud; **2.** *(Preis)* çox baha.

**Unbescheidenheit,** *die; -* ədəbsizlik, nəzakətsizlik, kobudluq.

**unbeschnitten** *adj. rel.* sünnət olmamış.

**unbescholten** *adj.* möhtərəm, şərəfli, namuslu, eybsiz, sabiqəsiz.

**Unbescholtenheit,** *die; -* eybsizlik, sabiqəsizlik.

**unbeschrankt** *adj.* çəpərsiz.

**unbeschränkt** *adj.* saysız-hesabsız, hədsiz, qeyri-məhdud, məhdudiyyətsiz, hədsiz-hüdudsuz; mütləq.

**unbeschreiblich** *adj.* təsviredilməz, tərifəgəlməz, sözlə ifadə edilməz; *du siehst ~ schön aus* sən tərifəgəlməz *(çox)* gözəl görünürsən.

**unbeschrieben** *adj.* **1.** yazılmamış, ağ; **2.** *fig. ein ~es Blatt* naməlum kəs və ya şey; *diese Firma ist für mich ein ~es Blatt* bu şirkət mənə naməlum bir şirkətdir; **3.***(Person)* eybsiz şəxs, sabiqəsiz şəxs.

**unbeschwert** *adj.* qayğısız, dərdsiz, əhval-ruhiyyəli.

**unbesehen** *adj.* araşdırmadan, baxılmadan, yoxlanmadan; kor-koranə, gözüyumulu; *j-m et. ~ glauben* müəyyən bir şeyi yoxlamadan kimsəyə etibar etmək.

**unbesetzt** *adj.* boş.

**unbesiegbar** *adj.* yenilməz, basılmaz, məğlubedilməz; *F* dişbatmaz.

**unbesiegt** *adj.* məğlub edilməmiş, yenilməmiş.

**unbesoldet** *adj.* maaşsız, əməkhaqsız.

**unbesonnen** *adj.* ehtiyatsız, diqqətsiz, fikir vermədən.

**Unbesonnenheit,** *die; -* fikirsizlik, ehtiyatsızlıq, tələsiklik, mülahizəsizlik.

**unbesorgt** *adj.* qayğısız, qeydsiz, xatircəm; *seien Sie ~!* narahat olmayın!; xatircəm olun!

**unbespielt** *adj.* *(Kassetten usw.)* boş, yazılmamış.

**unbeständig** *adj.* dəyişkən, qeyri-sabit, gəlimli-gedimli; mütərəddid, səbatsız, fani, gedərgi, keçəri; dəmdəməki, dönük, ötər(g)i.

**Unbeständigkeit,** *die; -* dəyişkənlik, qeyri-sabitlik, dəmdəməkilik, dönüklük; vəfasızlıq, üzüdönüklük; laxlıq, səbatsızlıq, fanilik, keçərilik.

**unbestätigt** *adj.* təsdiq edilməmiş.

**unbestattet** *adj.* basdırılmamış, dəfn olmamış.

**unbestechlich** *adj.* rüşvət ələ almayan, rüşvətə aldanmayan; *fig.* qəti, kəsin.

**Unbestechlichkeit,** *die; -* rüşvət ələ almama, dəyanət.

**unbestellt** *adj.* *(Boden)* xam, işlənilməmiş.

**unbestimmbar** *adj.* təyin olunmaz, təyin edilməz.

**unbestimmt** *adj.* bəlli olmayan, qeyri-müəyyən.

**Unbestimmtheit,** *die; -* bəllisizlik, qeyri- müəyyənlik.

**unbestraft** *adj.* cəzasız, cəzalandırılmamış.

**unbestreitbar** *adj.* ağ-aşkar, mübahisəsiz, danışıqsız, şəksiz, şübhəsiz, aydın, təkzibedilməz, inkaredilməz; *die ~e Wahrheit* ağ-aşkar heqiqət.

**unbestritten** *adj.* mübahisəsiz, etirazsız, şübhəsiz, şəksiz.

**unbeteiligt** *adj.* iştirak etməyən *(an D/ bir hadisədə və ya bir yerdə),* xəbərsiz; neytral.

**unbetont** *adj.* vurğusuz.

**unbeträchtlich** *adj.* az, cüzi.

**unbeugsam** *adj.* boyun əyməyən, dəyanətli, əyilməz.

**Unbeugsamkeit,** *die; -* sarsılmazlıq, dəyanət, əyilməzlik.

**unbewacht** *adj.* qarovulsuz, qorucusuz, keşiksiz; kontrolsuz.

**unbewaffnet** *adj.* silahsız, əliyalın, əliboş.

**unbewältigt** *adj.* *(Konflikte usw.)* həll olunmamış, çözülməmiş; *fig.* həzmedilməmiş.

**unbewandert** *adj.* biliksiz, təcrübəsiz, səriştəsiz, məlumatsız, naşı.

**unbeweglich** *adj.* **1.** tərpənməyən; hərəkətsiz; **2.** *(regungslos)* donmuş, mat qalmış.

**unbewegt** *adj.* hərəkətsiz; duyğusuz, maraqsız, etinasız.

**unbeweibt** *adj.* subay, evlənməmiş.

**unbeweint** *adj.* ağlamamış, gözyaşı tökməmiş.

**unbeweisbar** *adj.* sübutedilməz.

**unbewiesen** *adj.* sübutedilməmiş, sübutsuz.

**unbewohnbar** *adj.* yaşayış üçün yararlı olmayan; xaraba.

**unbewohnt** *adj.* əhalisi olmayan, boş yer, beytin.

**unbewusst** *adj.* düşüncəsiz, şüursuz; *adv.* bilmədən, səhvən, qəsdsiz; *psych.* *(unwillkürlich, instinktiv)* qeyri-ixtiyari, qeyri-iradi.

**unbezahlbar** *adj.* **1.** baha, bahalı; *die Mieten in Berlin sind ~* Berlində mənzil kirayəsi bahadır *sg.*; **2.** *(Gesundheit)* çox qiymətli.

**unbezahlt** *adj.* ödən(il)məmiş.

**unbezähmbar** *adj.* *(ein Verlangen usw.)* sakitləşməyən; yatmayan; ipəyatmaz.

**unbezwingbar** *adj.* güc çatmayan, yenilməz, məğlubedilməz.

**unbiegsam** *adj.* əyilməz, qatlanmaz.

**Unbiegsamkeit,** *die; -* əyilməzlik.

**Unbilden** *pl.* pis nəticə, müsibət; *die ~ des Winters* qışın müsibəti, qışın pisliyi.

**Unbildung,** *die; -* mədəniyyətsizlik, kultursuzluq, savadsızlıq, təhsilsizlik.

**Unbill,** *die; -* haqsızlıq, ədalətsizlik.

**unbillig** *adj.* haqsız, ədalətsiz.

**unblutig** *adj.* qansız.

**unbotmäßig** *adj.* sözə baxmayan, sərkeş.

**unbrauchbar** *adj.* işə yaramaz, yararsız, yönsüz; dəyərsiz; *~ machen vt* yararsız vəziyyətə gətirmək.

**Unbrauchbarkeit,** *die; -* yaramamazlıq, yararsızlıq, yönsüzlük.

**unbürokratisch** *adj.* əngəlsiz, rahat.

**unchristlich** *adj.* xristianlıqdan uzaq, xristiyanlığa yaraşmayan.

**und** *konj.* və, ilə, bəs, həm, həmdə; *ich ~ du* mən və sən; *ich lachte und weinte* həm gülürdüm, həm ağlırdım; *~ wie!* həmdə necə!, özüdə necə!; *~ so weiter* və sairə, və ilaxır; *~ der gleichen mehr* və buna oxşar şeylər; *na ~ ?* nə olsun?; *meine Mutter ~ meine Schwester sind gekommen* anam ilə bacım gəldilər; *~ warum bist du nicht gekommen?* bəs niyə gəlmədin?; *jeder tut seine Pflicht -und du?* hər kəs vəzifəsini yerinə yetirir-bəs sən?; *(Intensivierung) es schneite ~ schneite* qar daha bərk yağırdı, getdikcə bərk yağırdı; *(Ironie, Zweifel) ich ~ e-e Rede halten* mən hara, nitq söyləmək hara.

**Undank,** *der; -(e)s* nankorluq, naşükürlük.

**undankbar** *adj.* naşükür, nankor, çörəyi dizinin üstündə; *~ sein* nankor olmaq, haqq-say itirmək.

**Undankbarkeit,** *die; -* nankorluq, naşükürlük.

**undatiert** *adj.* tarixsiz.

**undefinierbar** *adj.* tərifəgəlməz, tərif olunmaz.

**undemokratisch** *adj.* qeyri demokratik, demokrasiyaya qarşı.

**undenkbar** *adj.* ağla gəlməyən, təsəvvür edilməyən, fikrə gətirilməyən.

**undenklich** *adj.* *seit ~en Zeiten* çox qədim zamanlardan, əzəldən bəri.

**undeutlich** *adj.* aydın olmayan; oxunulmayan.

**undeutsch** *adj.* alman olmayan, qeyrialman.

**undicht** *adj.***1.** sukeçən, su buraxan; havakeçən, hava buraxan; **2.** *fig.* gizli bir sirri bayıra verən, etibarsız.

**undifferenziert** *adj.* fərqlən(diril)məmiş, ayrılmamış.

**Unding,** *das; -(e)s* mənasızlıq, münasibətsizlik; *es ist ein ~, so et. zu verlangen* belə bir şeyi istəmək mənasızlıqdır.

**undiplomatisch** *adj.* məharətsiz, düşüncəsiz, qeyri-müəyyən.

**undiszipliniert** *adj.* intizamsız, qaydasız, disiplinsiz.

**Undiszipliniertheit,** *die; -* disiplinsizlik, qaydasızlıq, intizamsızlıq.

**unduldsam** *adj.* dözümsüz, səbirsiz, hövsələsiz.

**Unduldsamkeit,** *die; -* dözümsüzlük, səbirsizlik, təəssüb.

**undurchdringlich** *adj.* **1.** keçilməz; **2.** *fig.* anlaşılmaz, aydın olmayan.

**undurchführbar** *adj.* olunmayan, həyata keçirilməyən.

**undurchlässig** *adj.* keçirməyən.

**undurchschaubar** *adj.* aydın olmayan, bəlli olmayan.

**undurchsichtig** *adj.* **1.** şəffaf olmayan; **2.** *fig.* aydın olmayan, bəlli olmayan; *(e-e Lage)* gicəlləndirici; qat-qarışıq, qarışıq, dolaşıq, çəlpəşik, çalpaşıq.

**uneben** *adj.* hamar olmayan; dolayı; kələ-kötür, çala-çuxur, eniş-yoxuşlu; *~e Landschaft* dağ-daş, dərə-təpə.

**Unebenheit,** *die; -, -en* kələ-kötürlük, çala-çuxurluq, dərə-təpəlik; hamarsızlıq, eniş-yoxuş; rəvan olmayan.

**unecht** *adj.* **1.** qəlp, saxta, qeyri-həqiqi; **2.** *math. ~er Bruch* düzgün olmayan kəsr.

**unehelich** *adj. (Kind)* kəbinsiz, nikahdankənar, bic, haramzadə.

**Unehre,** *die; -, -n* üzüqaralıq, namussuzluq, şərəfsizlik, rəzalət.

**unehrenhaft** *adj.* namussuz, şərəfsiz, vicdansız; təhqiramiz, rüsvayçılıqla.

**unehrerbietig** *adj.* hörmətsiz, sayğısız.

**unehrlich** *adj.* namussuz, şərəfsiz; cığal; etibarsız; *F* əlləm-qəlləm.

**uneigennützig** *adj.* tamahsız, qərəzsiz, təmənnasız, fədakar; *der ~e Beistand* təmənnasız yardım.

**Uneigennützigkeit,** *die; -* təmənnasızlıq, qərəzsizlik, tamahsızlıq.

**uneingedenk** *(G) adj.* düşüncəsiz, fikirsiz.

**uneingeschränkt** *adj.* qeydsiz-şərtsiz, qeyri-məhdud.

**uneinheitlich** *adj.* müxtəlif, rəngarəng, oxşarsız.

**Uneinheitlichkeit,** *die; -* rabitəsizlik, ayrı olma, əlaqəsi kəsilmə, oxşarsızlıq.

**uneinig** *adj.* razı olmayan, razılıq verməyən; *~ sein (über A -də)* razılığa gəlməmək, razılaşmamaq; eyni fikirdə olmamaq.

**Uneinigkeit,** *die; -* razılaşmama, ixtilaf, ziddiyət, düşmənçilik, müxtəlifrəylik.

**uneinnehmbar** *adj. (Festung)* alınmaz.

**uneins** *adj.* müxalif, razılaşmayan.

**uneinsichtig** *adj.* ağılsız, düşüncəsiz.

**unelastisch** *adj.* əyilməz, əyilməyən, elastik olmayan.

**unelegant** *adj.* biçimsiz, zərif olmayan.

**unempfänglich** *adj.* duyğusuz, hissiz *(für A/-ə, -in qarşısında).*

**unempfindlich** *adj.* duyğusuz, hissiz.

**Unempfindlichkeit,** *die; -* duyğusuzluq, hissizlik.

**unendlich** *adj.*sonsuz, hüdudsuz, axırsız, dibsiz, uc-bucaqsız; *adv.* hədsiz, bir dünya, dərya kimi; *~ viel* hədsiz miqdarda.

**Unendlichkeit,** *die; -* sonsuzluq, ucubucağı olmama; əbədiyyət.

**unentbehrlich** *adj.* gərəkli, zəruri, lüzumlu.

**unentgeltlich** *adj.* pulsuz, əvəzsiz.

**unentrinnbar** *adj.* labüd.

**unentschieden** *adj.* **1.** həlledilməmiş, qərars; **2.** *Sport* bərabər.

**unentschlossen** *adj.*qərarsız, səbatsız, qətiyyətsiz, mütərəddid; *adv.* tərəddüd edən, iki könüllü, çəkinə-çəkinə.

**Unentschlossenheit,** *die; -* qərarsızlıq, qətiyyətsizlik, mütərəddidlik.

**unentschuldbar** *adj.* bağışlanmaz.

**unentschuldigt** *adj.* üzrsüz, səbəbsiz, icazəsiz.

**unentwegt** *adj.* **1.** *(beharrlich)* sarsıl-

maz, dəyanətli; dönməz; **2.** *(pausenlos)* daimi, dayanmadan, durmadan; çəkinmədən.

**unentwickelt** *adj.* **1.** böyüməmiş, artmamış, inkişafetməmiş; **2.** *(Foto)* çıxmamış.

**unentwirrbar** *adj.* qarmaqarışıq.

**unerbittlich** *adj.* rəhmsiz, amansız; *adv.* rəhmsizcəsinə.

**unerfahren** *adj.* təcrübəsiz, naşı, məlumatsız; xam, cahil, çiy.

**Unerfahrenheit,** *die; -, -* təcrübəsizlik, naşılıq, xamlıq, cahillik.

**unerfindlich** *adj.* anlaşılmaz, müəmmalı.

**unerforschlich** *adj.* tədqiq olunmaz, bilinməz.

**unerforscht** *adj.* tədqiq edilməmiş, kəşf olunmamış.

**unerfreulich** *adj.* sevincsiz, xoşagəlməz; *fig.* ehtiramsız.

**unerfüllbar** *adj.* yerinə yetirilə bilməyən, mümkün olmayan, olunmaz.

**unergiebig** *adj.* gəlirsiz, barsız; qeyri-məhsuldar.

**unergründlich** *adj. fig.* ölçülməz, anlaşılmaz, ağlasığmaz.

**unerheblich** *adj.* əhəmiyyətsiz, önəmsiz, cüzi.

**unerhört** *adj.* **1.** görünməmiş; eşidilməmiş, nəzərdə tutulmamış; *meine Bitten blieben ~* mənim xahişlərim eşidilməmiş qaldı *(yerinə yetirilmədi);* **2.** *(empörend)* hiddətləndirici, çirkin, pis; olmazın; *adv. (sehr)* böyük, çox, xeyli, misilsiz; *e-e ~ wichtige Angelegenheit* çox əhəmiyyətli bir iş; *die ~e Quallen* olmazın vəziyyət.

**unerkannt** *adj.*tanınmamış, tanınmaz.

**unerkennbar** *adj.*tanılmaz, görünməz; *adv.* məlum olmayan.

**unerklärbar** *adj.* izahedilməz; ağlagəlməz, anlaşılmaz.

**unerklärlich** *adj. s. unerklärbar.*

**unerlässlich** *adj.* zəruri.

**unerlaubt** *adj.* yolverilməz; qadağan edilmiş.

**unerledigt** *adj.* yarımçıq; *adv.* yerinə yetirilməmiş, həll olmamış; *~e Dinge* yarımçıq işlər.

**unermesslich** *adj.* sonsuz, ucsuz-bucaqsız, hədsiz-hüdudsuz, ölçüsüz; *adv.* ölçüyə gəlməyən, çox böyük, dünyalarca.

**unermüdlich** *adj.* yorulmaz, yorulmadan, dayanmadan.

**unerquicklich** *adj.* pis, xoşagəlməz.

**unerreichbar** *adj.* **1.** *(mit der Hand)* əlçatmaz, əldəyməz, ələkeçməz, əlyetməz; **2.** *(Ziel usw.)* mümkün olmayan.

**unerreicht** *adj.* əl çatmammış.

**unersättlich** *adj.* doymaz, gözüac, artıqtamah, dələqarın.

**unerschlossen** *adj.* açılmamış, hazırlanmamış.

**unerschöpflich** *adj.* tükənməz.

**unerschrocken** *adj.* qorxmaz, qorxu bilməz, rəşadətli.

**unerschütterlich** *adj.* sarsılmaz, möhkəm, mətin, qırılmaz, sərt, yenilməz, səbatlı.

**unerschwinglich** *adj. (Preise)* baha; ağır.

**unersetzbar** *adj.* əvəzsiz, əvəzedilməz.

**unersetzlich** *adj. s. unersetzbar.*

**unersprießlich** *adj.* nəticəsiz, verimsiz.

**unerträglich** *adj.* dözülməz; *fig. ~e Situation* cəhənnəm.

**unerwähnt** *adj.* adı çəkilməmiş, xatırlanmamış.

**unerwartet** *adj.* gözlənilməyən, gözlənilməz, damdandüşmə; *adv.* gözlənilmədən, birdən, birdən-birə, naqafil, lapdan, dəfətən; əzqəza; *~er Tod* naqafil ölüm, əcəlsiz ölüm.

**unerweislich** *adj.* sübut edilməz.

**unerwidert** *adj.* qarşılıqsız; *~ lassen* cavab verməmək.

**unerwünscht** *adj. u. adv.* istənilməyən, arzu edilməyən.

**unerzogen** *adj.* tərbiyəsiz, ədəbsiz, əxlaqsız, qanmaz; *fig.* eşşək; *adv.* ədəbsizcəsinə.

**unfähig** *adj.* bacarıqsız, yararsız, yarıtmaz; aciz, qabiliyyətsiz, zəkasız, ko-

razehin, hünərsiz, əlsiz, əlsiz-ayaqsız.

**Unfähigkeit,** *die; -* bacarıqsızlıq, qabiliyyətsizlik, korazehinlik.

**unfair** *adj.* yaramaz, yersiz; nahaq, cığal.

**Unfall,** *der; -(e)s, -¨e* bədbəxt hadisə, qəza, zərərli bir hadisə; *e-n ~ haben* bədbəxt hadisə üz vermək; *ohne ~* qəzasız.

**unfallfrei** *adj.* qəzasız.

**Unfallstation,** *die; -, -en* ilk təcili yardım məntəqəsi.

**Unfallstelle,** *die; -, -n* bədbəxt hadisə üz verən yer, qəza yeri.

**Unfallverhütung,** *die; -* bədbəxt hadisələrin qabağını alma.

**Unfallversicherung,** *die; -, -en* qəza sığortası.

**Unfallwagen,** *der; -s, -* **1.** təcili yardım maşını *(Süd. : ambulans);* **2.** qəzaya uğranmış maşın.

**unfassbar** *adj.* ağlasığmaz, anlaşılmaz.

**unfehlbar** *adj.* **1.** səhvsiz; **2.** *(sicher, unweigerlich)* yəqin, hökmən.

**Unfehlbarkeit,** *die; -* səhvsizlik.

**unfein** *adj.* kobud, qaba; cod; nəzakətsiz.

**unfern** *präp. G* yaxınlığında, yaxınında; *~ des Dorfes* kəndin yaxınlığında.

**unfertig** *adj.* qurtulmamış, naqis.

**Unflat,** *der; -(e)s* **1.** zir-zibil, tör-töküntü; **2.** *fig.* söyüş.

**unflätig** *adj.* ədəbsiz, nalayıq, acıdil.

**unfolgsam** *adj.* sözə baxmayan, sözə qulaq asmayan.

**unförmig** *adj.* yöndəmsiz, biçimsiz, formasız.

**Unförmigkeit,** *die; -* yöndəmsizlik, biçimsizlik.

**unfrankiert** *adj.* markasız.

**unfrei** *adj.* azad olmayan; qul.

**Unfreiheit,** *die; -* asılılıq, bağlılıq.

**unfreiwillig** *adj.* istəksiz, məcburi, könülsüz; *adv.* istəmədən, istəməyərək.

**unfreundlich** *adj.* qaşqabaqlı, düşməncəsinə; kobud, tərs, bədəxlaq.

**Unfreundlichkeit,** *die; -* kobudluq; tərslik.

**Unfriede,** *der; -ns* çəkişmə, nifaq, dalaşma.

**Unfrieden,** *der; -s, - s. Unfriede.*

**unfruchtbar** *adj.* **1.** *(Boden usw.),* barsız, bərəkətsiz, qeyri-məhsuldar, nəticəsiz, məhsulsuz, səmərəsiz;**2.** *fig.* övladı olmayan; *(bei Tieren)* qısır, qısraq, dölsüz, maya tutmayan.

**Unfruchtbarkeit,** *die; -* barsızlıq, məhsulsuzluq; övladsızlıq, səmərəsizlik.

**Unfug,** *der; -(e)s* hərcmərclik, pis hərəkət, azğınlıq, xuliqanlıq, şuluqluq; *~ treiben* hərcmərclik salmaq, azğınlıq etmək, şuluqluq salmaq; *grober ~* nalayiq hərəkət etmək.

**unfügsam** *adj.* inadcıl, tərs.

**Ungar,** *der; -n, -n* Macar.

**ungarisch** *adj.* **1.** macar*(lı);* **2.** *(Sprache)* macar dili.

**Ungarn** *das* Macarıstan.

**ungastlich** *adj.* qonaq sevməyən.

**ungeachtet** *präp. G -ə* baxmayaraq; *~ meiner Aufforderung* mənim istəyimə baxmayaraq; *~ dessen* buna baxmayaraq.

**ungeahndet** *adj.* cəzasız, cəzalandırılmamış.

**ungeahnt** *adj.* gözlənilməyən, hiss olunmayan, gözlənilməz.

**ungebärdig** *adj.* ədəbsiz, həyasız, azğın; *F* qudurmuş, döşdəymiş, harın; *sich ~ benehmen* qudurmaq,harınlamaq.

**ungebeten** *adj.* çağırılmamış, dəvətsiz; *adv.* xahişsiz, .

**ungebeugt** *adj.* əyilməz, baş əymədən, əyilmədən, sarsılmaz.

**ungebildet** *adj.* savadsız, savad görməmiş, elmsiz; tərbiyəsiz, azsavadlı, kəmsavad, təhsilsiz, cahil, gözübağlı, avam, əvam.

**ungeboren** *adj.* doğulmamış, anadan olmamış.

**ungebräuchlich** *adj.* istifadə edilməyən, işlədilməyən.

**ungebraucht** *adj.* təptəzə, işlədilməmiş.

**ungebrochen** *adj.* **1.** sınmamış, par-

çalanmamış, tam; **2.** *fig.* sarsılmaz.

**ungebügelt** *adj.* ütüsüz.

**ungebührlich** *adj.* yaraşmayan, layiq olmayan, yaramaz; *~e Antwort* yaramaz cavab.

**ungebunden** *adj.* **1.** bağlanmamış; **2.** *(Buch)* cildlənməmiş; **3.** *(ledig)* subay, evlənməmiş; **4.** azad, sərbəst.

**Ungebundenheit,** *die; -* azadlıq, sərbəstlik.

**ungedeckt** *adj.* **1.** *(Tisch)* düzədilməmiş; **2.** *(Scheck)* təminatsız.

**Ungeduld,** *die; -* səbirsizlik, hövsələsizlik.

**ungeduldig** *adj.* səb(i)rsiz, hövsələsiz, dözümsüz, bitab, darqursaq; *adv.* səbirsizliklə.

**ungeeignet** *adj.* yararsız, əlverişsiz.

**ungefähr** *adj. u. adv.* təxminən, təqribən.

**ungefährdet** *adj.* təhlükəsiz.

**ungefährlich** *adj.* təhlükəsiz; *F* dişsiz.

**Ungefährlichkeit,** *die; -* təhlükəsizlik.

**ungefällig** *adj.* kobud, qaba, tərs, nadan.

**Ungefälligkeit,** *die; -* tərslik.

**ungefärbt** *adj.* boyanmamış.

**ungefiltert** *adj.* süzgəcdən keçirilməmiş.

**ungefragt** *adj.* soruşulmamış.

**ungefüge** *adj.* yöndəmsiz, çox böyük, kobud.

**ungefügig** *adj.* **1.** yöndəmsiz, çox böyük, kobud; **2.** yola gəlməyən, tabe olmayan.

**ungegerbt** *adj.* aşılmamış, dabbağlıq olmamış.

**ungehalten** *adj.* narazı, incimiş; *~ sein* narazı olmaq *(über A/-ə).*

**ungehärtet** *adj.* sərtləş(diril)məmiş, bərkləş(diril)məmiş.

**ungeheißen** *adj.* göstərişsiz; əmrsiz, özbaşına.

**ungeheizt** *adj* qızdırmamış, yandırmamış.

**ungehemmt** *adj.* əngəlsiz, maneəsiz, azad, manesiz; azğıncasına.

**Ungeheuer,** *das; -s, -* **1.** *(Monstrum)* div, dev, əcaib, qulyabanı; **2.** *fig.(grausamer Mensch)* qəddar adam, qan içən adam, canavar.

**ungeheuer** *adj.* nəhəng; canavar; dev, div; əcaib; *adv.* olduqca böyük, xeyli, çox, fövqəladə; dəhşətli; möcüzəli; *e-e ~ wichtige Nachricht erhalten* çox mü-hüm bir xəbər almaq.

**ungeheuerlich** *adj.* çox pis, misili görünməmiş, çirkin.

**Ungeheuerlichkeit,** *die; -, -en* pislik, çirkinlik.

**ungehindert** *adj.* maneəsiz, manesiz, sərbəst.

**ungehobelt** *adj.* **1.** rəndələnməmiş, yonulmamış; **2.** *fig.* kobud; *ein ~es Benehmen* kobud rəftar; *fig. ~er Mensch* haqq-hesab bilməyən.

**ungehörig** *adj.* yaraşmaz, layiq olmayan, nalayiq, tutarsız, münasibətsiz, tərbiyəsiz, sayğısız.

**Ungehörigkeit,** *die; -, -en* yaraşmamazlıq, münasibətsizlik; ehtiramsızlıq, sayğısızlıq, nalayiqlik.

**ungehorsam** *adj.* sözə baxmayan, sözə qulaq asmayan, itaətsiz, dikbaş.

**Ungeist,** *der; -(e)s* barbarlıq, qeyri-sağlam ideologiya *(Süd. : ideoloji).*

**ungekämmt** *adj.* daranmamış.

**ungekannt** *adj.* tanınmamış.

**ungekaut** *adj.* çeynənilməmiş.

**ungeklärt** *adj.* həll olmamış, üstü örtülü.

**ungekocht** *adj.* bişməmiş, çiy.

**ungekrönt** *adj.* tacsız, tacqoyulmamış.

**ungekündigt** *adj.* pozulmamış, ləğv edilməmiş; işdən çıxarılmamış, daimi.

**ungekünstelt** *adj.* təbii, sadə, doğal, süni olmayan.

**ungekürzt** *adj.* qısaldılmamış.

**ungeladen** *adj.* **1.** çağırılmamış, dəvət edilməmiş; **2.** *(Waffe)* doldurulmamıs, boş.

**ungelegen** *adj.* *(unpassend)* münasib ol-mayan, yersiz, vaxtsiz; *~e Zeit* münasib olmayan vaxt, pis vaxt, uyğun gəlmə-yən vaxt.

**Ungelegenheit,** *die; -* narahatlıq, başağrısı.

**ungelegt** *adj.* *: F ~e Eier* baş verməmiş bir hadisə ; *du sollst dir über ~e Eier keine Sorgen machen* baş verməmiş hadisədən ötrü narahat olma.

**ungelehrig** *adj.* qanmaz, başa düşməyən, cahil.

**ungelenk** *adj.* **1.** əyilməyən, elastik olmayan; **2.** *(unbeholfen)* ağır, yöndəmsiz, ləng.

**ungelernt** *adj.* ixtisassız, təcrübəsiz.

**ungelesen** *adj.* oxunmamış.

**ungeliebt** *adj.* sevilməyən.

**ungelogen** *adj.* doğru, yalan olmayan.

**ungelöscht** *adj.* sönməmiş; *~er Kalk* sönməmiş əhəng.

**ungelöst** *adj.* həll olunmamış, çözülməmiş; *F* havada qalmış.

**Ungemach,** *das; -(e)s* narahatlıq; fəlakət, bəla, bədbəxtlik.

**ungemacht** *adj.* edilməmiş, görülməmiş.

**ungemahlen** *adj.* üyüdülməmiş.

**ungemein** *adj.* böyük, şiddətli; *adv.* artıq dərəcə çox.

**ungemütlich** *adj.* **1.** narahat, rahatsız; *ein ~es Zimmer* rahatlığı olmayan *(rahatsız)* otaq; *~es Wetter* pis hava; **2.** *(Person)* qaşqabaqlı; sərt; *~ werden* pisləşmək.

**ungenannt** *adj.* adı deyilməmiş, adsız, bildirilməmiş, ad çəkmədən, imzasız.

**ungenau** *adj.* yanlış, dəqiq olmayan, qeyri-dürüst.

**Ungenauigkeit,** *die; -, -en* yanlışlıq, düz olmama, dürüst olmama.

**ungeniert** *adj.* utanmaz, açıq-saçıq; *ein ~es Benehmen* utandırıcı rəftar; *adv.* utanmadan, abır etmədən.

**Ungeniertheit,** *die; -* utanmazlıq; sırtıqlıq, abırsızlıq.

**ungenießbar** *adj.* **1.** yeyilməyən, yeyilə bilməyən; dadsız-duzsuz; **2.** *fig. (unerträglich)* dözülməz, zəhlə aparan, təngə gətirən; *du bist heute ~!* sən bu gün camaatı təngə gətirdin.

**ungenügend** *adj.* yetərsiz, yarıtmaz, qeyri-kafi.

**ungenutzt** *adj.* istifadə edilməmiş, istifadə olunmamış; *e-e Gelegenheit ~ lassen* fürsətdən istifadə etməmək, fürsəti əldən vermək.

**ungenützt** *adj.* *s. ungenutzt.*

**ungeordnet** *adj.* qarma-qarışıq.

**ungepflastert** *adj.* döşənməmiş, daş ilə döşənməmiş.

**ungepflegt** *adj.* baxılmamış, baxımsız.

**ungeprüft** *adj.* sınan(ıl)mamış, imtahan olmamış, imtahansız.

**ungeputzt** *adj.* **1.** təmizlənməmiş, silinməmiş; **2.** *(Schuhe)* boyanmamış, rənglənməmiş, yağlanmamış.

**ungerächt** *adj.* intiqam alınmamış, cəzası verilməmiş.

**ungerade** *adj.***1.** əyri; dolanbac, dolayı; **2.** *math.* tən; **3.** *(Zahl 1, 3, 5 usw.)* tək.

**ungeraten** *adj.* **1.** *(Kind)* pis tərbiyə olmuş uşaq, ərköyün böyüdülmüş, şıltaq uşaq, tərs **2.** faydasız, xeyirsiz.

**ungerechnet** *adj. (nicht inbegriffen)* hesaba alınmamış.

**ungerecht** *adj.* ədalətsiz, haqsız, insafsız; *j-n ~ behandeln* haqsızlıq etmək, gözümçıxdıya salmaq.

**ungerechterweise** *adv.* haqsız yerə, nahaqdan, haqsızcasına.

**ungerechtfertigt** *adj.* haqsız, yersiz, əbəs yerə; *j-n ~ verdächtigen* əbəs yerə bir kəsdən şübhələnmək.

**Ungerechtigkeit,** *die; -, -en* ədalətsizlik, haqsızlıq, insafsızlıq; *soziale ~* ictimai bərabərsizlik *(haqsızlıq).*

**ungeregelt** *adj.* qaydasız, nizamsız.

**ungereimt** *adj.* **1.** *(ohne Reime)* qafiyəsiz; **2.** *fig. (unvernünftig, töricht)* mənasız, ağılsız, boş, səfeh.

**Ungereimtheit,** *die; -, -en* mənasızlıq.

**ungern** *adv.* həvəssiz, istəksiz, meylsiz; *gern oder ~, er muss es tun* istər-istəməz onu etməlidi.

**ungerührt** *adj.* laqeyd, etinasız, təsirlənməmiş, soyuq; dəyilməmiş.

**ungesagt** *adj.* deyilməmiş, söylənməmiş; *~ bleiben* söylənməmiş qalmaq.

**ungesalzen** *adj.* duzsuz.

**ungesattelt** *adj.* yəhərsiz.

**ungesäumt** *adj.* *(Stoff)* qırağı basdırılmamış; *adv.* *(sofort)* bu saat, həmin dəqiqə.

**ungeschält** *adj.* qabığı soyulmamış.

**ungeschehen** *adj.* : *et. ~ machen* baş verməmiş etmək; *ich wollte, ich könnte es ~ machen* istərdim bu hadisə baş verməmiş *(həyata keçirilməmiş)* olsun, kaş bunu olmamış edə biləydim.

**Ungeschick,** *das; -(e)s* bacarıqsızlıq.

**Ungeschicklichkeit,** *die; -, -en* bacarıqsızlıq, acizlik.

**ungeschickt** *adj.* bacarıqsız, aciz; *fig.* əlsiz-ayaqsız, əlsiz, ölüvay.

**ungeschlacht** *adj.* kobud, yonulmamış.

**ungeschlagen** *adj.* məğlub olmamış, yenilməz.

**ungeschlechtlich** *adj.* qeyri-cinsi.

**ungeschliffen** *adj.* **1.** *(Messer usw.)* itilənməmiş; **2.** *(Edelstein)* cilalanmamış; **3.** *fig.* *(taktlos)* ədəbsiz, nəzakətsiz, qaba, kobud, yonulmamış.

**ungeschmälert** *adj.* əskidilməmiş, azadılmamış, tam.

**ungeschminkt** *adj.* **1.** ənnik-kirşansız; **2.** *fig.* necə var, açıq, əsil; *j-m die ~e Wahrheit ins Gesicht sagen* bir kəsin üzünə açıq həqiqəti demək.

**ungeschoren** *adj.* qırxılmamış; *fig. j-n ~ lassen* bir kəsi dinc buraxmaq.

**ungeschrieben** *adj.* yazılmamış; *es ist ein ~es Gesetz, dass...* yazılmamış bir qanundur ki...

**ungeschult** *adj.* ixtisassız, təlimsiz.

**ungeschützt** *adj.* müdafiəsiz, arxasız.

**ungeschwächt** *adj.* zəifləməmiş.

**ungesehen** *adj.* görülməmiş, görmədən.

**ungesellig** *adj.* adamsevməz, adamdan qaçan, yolagetməz, yolagəlməz, rəftarsız.

**ungesetzlich** *adj.* qanunsuz, qeyri-qanuni; *F* daşbaş.

**Ungesetzlichkeit,** *die; -, -en* qanunsuzluq, qeyri-qanunilik; *F* daşbaşçılıq.

**ungesichert** *adj.* möhkəm olmayan; arxasız, köməksiz.

**ungestalt** *adj.* formasız, biçimsiz, çox pis, çirkin.

**ungestempelt** *adj.* möhürsüz, damğasız.

**ungestillt** *adj.* kifayətləndirilməmiş, dayandırılmamış, sakitləşdirilməmiş, söndürülməmiş.

**ungestört** *adj.* sakit, dinc; *~ arbeiten* dinc işləmək.

**ungestraft** *adj.* cəzasız, tənbehsiz.

**Ungestüm,** *das; -(e)s* coşğun, şiddətli, gurultulu.

**ungestüm** *adj.* coşğun, hərarətli.

**ungesühnt** *adj.* cəzasız.

**ungesund** *adj.* **1.** xəstə, naxoş; **2.** *(schädlich)* zərərli.

**ungesüßt** *adj. (Tee usw.)* şəkərsiz.

**ungetan** *adj.* : *~ lassen* etməmək.

**ungetauft** *adj.* *rel.* xaç suyuna salınmamış, xristiyan edilməmiş.

**ungeteert** *adj.* qətransız.

**ungeteilt** *adj.* bölünməmiş, bölünməz; bütöv.

**ungetragen** *adj.* *(Kleidung)* geyilməmiş.

**ungetreu** *adj.* vəfasız, sədaqətsiz.

**ungetrübt** *adj.*aydın, bulanmamış, buludsuz; *fig.* xarab olmamış.

**Ungetüm,** *das; (e)s, -e* div, nəhəng, zırpı.

**ungeübt** *adj.* təcrübəsiz, naşı.

**ungewandt** *adj.* təcrübəsiz, bacarıqsız.

**ungewaschen** *adj.* yuyulmamış, çirk.

**ungewiss** *adj.* naməlum, bəlli olmayan, şübhəli; *j-n über et. im Ungewissen lassen* bir kəsə bir mövzu haqda dəqiq xəbər verməmək, bir kəsi məlumatsızlıqda saxlamaq.

**Ungewissheit,** *die;* - naməlumluq, qeyri-müəyyənlik, bəllisizlik, şübhə; *in ~ schweben* şübhə içində qalmaq.

**ungewöhnlich** *adj.* gözlənilməz, əcib, qeyri-adi,əcibə, xariqül'adə, qeyri-tebii.

**ungewohnt** *adj.* adət edilməmiş.

**ungewollt** *adj.* istəmədən, qeyri-iradi,

könulsüz.

**ungezählt** *adj.* **1.** saysız, hesabsız; **2.** saymadan, hesablamadan; *das Geld ~ auf den Tisch legen* pulu hesablamadan *(saymadan)* miz üstünə qoymaq.

**ungezähmt** *adj.* daştülək, ram edilməmiş, əhliləşdirilməmiş.

**Ungeziefer,** *das; -s* zərərli həşərat.

**ungeziemend** *adj.* yaraşmayan, layiq olmayan.

**ungezogen** *adj.* tərbiyəsiz, tərbiyə görməmiş, əxlaqsız.

**Ungezogenheit,** *die; -, -en* tərbiyəsizlik, əxlaqsızlıq.

**ungezuckert** *adj.* şəkərsiz.

**ungezügelt** *adj.* cilovsuz; *fig.* azğın.

**ungezwungen** *adj.* sərbəst, sadə, təbii, doğal.

**Ungezwungenheit,** *die; -* sadəlik, təbiilik, doğallıq.

**ungiftig** *adj.* zəhərsiz.

**Unglaube,** *der; -ns* inamsızlıq; imansızlıq, etiqadsızlıq, mürtədlik.

**unglaubhaft** *adj.* inanılmaz, doğruya oxşamayan.

**ungläubig** *adj.* imansız, dinsiz, kafir, dönük, mürtəd, bədməzhəb, etiqadsız, laməzhəb; *fig.* şübhəli.

**unglaublich** *adj.* ağlagəlməz, ağlabatmaz, inanılmaz, heyrətləndirici, heyrətamiz; *fig.* heyranedici.

**unglaubwürdig** *adj.* **1.** *(Person)* etibarsız, etimadsız **2.** doğruya oxşamayan, şübhəli, dəqiq olmayan.

**ungleich** *adj.* bərabər olmayan, tən olmayan; *adv. (weitaus)* daha, daha da; *~ schöner* daha gözəl.

**ungleichartig** *adj.* fərqli, dəyişik.

**Ungleichgewicht,** *das; -(e)s, -e* müvazinətsizlik.

**Ungleichheit,** *die; -, -en* bərabərsizlik, qeyri-bərabərlik.

**ungleichmäßig** *adj.* bərabər olmayan, qeyri-bərabər; nizamsız.

**Unglück,** *das; -(e)s, -e* bədbəxtlik, fəlakət, müsibət, zaval, günüqaralıq, talesizlik, xata, qada, bəd; *~ bringen* bədbəxtlik gətirmək; *~ haben* bədbəxtlik basmaq, fəlakətə düşmək, bəd gətirmək; *ins ~ stürzen* bədbəxtliyə düşmək, xataya düşmək, qara gün görmək; *ein ~ überstehen* başdan bəla*(nı)* sovmaq; *ein ~ kommt selten allein* dərd gələndə xalvarla gələr, çıxanda misqalla.

**unglücklich** *adj.* bədbəxt, şanssız, günüqara, qaragün; kədərli, fəlakətzədə, bağrıqara, başıbəlalı, bəxtiqara.

**unglücklicherweise** *adv.* heyf ki, yazıq ki, əfsus ki.

**unglückselig** *adj.* bağrıqara, bədbəxt, talesiz, uğursuz, başı bəlalı, qaragün.

**Unglücksfall,** *der; -(e)s, -¨e* fəlakət, bədbəxt hadisə, müsibət, bəla, qada.

**Unglücksnachricht,** *die; -, -en* pis xəbər, qaraxəbər.

**Unglücksrabe,** *die; -n, -n* bədbəxt, bəxti gətirməyən.

**Unglücksstelle,** *die; -, -n* bədbəxt hadisə üz verən yer.

**Unglückstag,** *der; -(e)s, -e* fəlakət günü.

**Ungnade,** *die; -* gözdən düşmə; *in ~ fallen* gözdən düşmək.

**ungnädig** *adj.* qaşqabaqlı; sərt.

**ungültig** *adj.*etibardan düşmüş, etibarsız, qüvvədən düşmüş, fəsx olmuş, batil; *für ~ erklären* etibarsız elan etmək, qüvvədən düşmüş elan etmək.

**Ungültigkeit,** *die; -* etibardan düşmə, qüvvədə olmayan, fəsx olmuş.

**Ungültigkeitserklärung,** *die; -, -en jur.* qüvvədən düşmə qərarı, etibardan düşmə qərarı.

**Ungunst,** *die; -* əlverişsizlik, yararsızlıq, uyğunsuzluq; *zu ~en G -in* zərərinə, *-in* əleyhinə.

**ungünstig** *adj.* pis, əlverişsiz, müsaid olmayan, istənilməyən, münasib olmayan.

**ungut** *adj.* pis, çirkin; bədxah; *~e Worte* pis *(çirkin)* sözlər; *nichts für ~!* inciməyin!, xətrinizə *(xatirinizə)* dəyməsin!

**unhaltbar** *adj.* **1.** möhkəm olmayan; **2.** *mil.* müdafiə üçün yaramayan; **3.***(unerträglich)* dözülməz; *ein ~er Zustand* dözülməz vəziyyət; **4.** qarşısıalınmaz;

**5.** *fig.* çürük, çürümüş.

**unhandlich** *adj.* ələ yatmaz, çətin.

**unharmonisch** *adj.* həmahəng olmayan, ahəngsiz; əndazəsiz.

**Unheil,** *das; -s* fəlakət, bədbəxtlik, bəla, zaval, müsibət, xata;qada; *~ anrichten* bədbəxtlik *(bəla)* yaratmaq, fəsad çıxartmaq; *F* ev yıxmaq.

**unheilbar** *adj.* sağalmaz, əlacsız, müalicə olunmaz, davasız, davasız-dərmansız, dərmansız; *e-e ~e Krankheit* əlacsız *(çarəsiz)* bir xəstəlik.

**Unheilstifter,** *der; -s, -* haramzadə, fəsad çıxardan.

**unheilvoll** *adj.* fəlakətli, təhlükəli, bədbəxtlik gətirən, qadalı, evyıxan.

**unheimlich** *adj.* **1.** qorxunc, dəhşətli; *mir ist ~ zumute* məni vahimə basır; **2.** *fig.* lap böyük; lap çox; *ich habe ~en Hunger* mən çox acam.

**unhöflich** *adj.*ədəbsiz, nəzakətsiz, düşüncəsiz, tərbiyəsiz, kobud, yava, ehtiramsız; *adv.* ədəbsizcəsinə; *fig.* eşşək.

**Unhöflichkeit,** *die; -, -en* ədəbsizlik, kobudluq, nəzakətsizlik, ehtiramsızlıq, həqarət; *fig.* eşşəklik.

**Unhold,** *der; -(e)s, -e* şeytan, canavar, əjdaha.

**unhörbar** *adj.* eşidilməz, eşidilməyən, səssiz.

**unhygienisch** *adj.* natəmiz, gigiyena qaydalarına uyğun olmayan.

**uni** *adj.* təkrəngli, birrəngli; *das Kleid ist ~* paltar təkrənglidir.

**Uni,** *die; -, -s* universitet.

**uniert** *adj.* birləşmiş.

**Uniform,** *die; -, -en* vahid geyim forması, uniform.

**uniform** *adj.* bir cür, vahid bir şəkildə.

**uniformieren** *vt* uniform geydirmək; *fig. (vereinheitlichen)* vahid şəklə salmaq; vahid geyim formasına salmaq.

**unikal** *adj.* taysız, bənzərsiz.

**Unikum,** *das; -s, -ka* nadir şey, tayı olmayan, taysız.

**unilateral** *adj.* birtərəfli, təktərəfli.

**uninformiert** *adj.* xəbərsiz.

**uninteressant** *adj.* maraqsız.

**uninteressiert** *adj.* maraqsız, əlaqəsiz, həvəssiz; *adv.* ağızucu.

**Uninteressiertheit,** *die; -* maraqsızlıq, əlaqəsizlik.

**Union,** *die; -, -en* ittifaq, birlik, birləşmə.

**unipolar** *adj.* bir qütblü.

**unisono** *adv.* həmahəng, həmavaz, birlikdə.

**universal** *adj.* ümümi; ətraflı; geniş.

**Universalerbe,** *der; -n, -n* tək varis, yeqanə vərəsə.

**Universalgenie,** *das; -s, -s* çox bilən, dahi.

**Universalität,** *die; -* ümümilik; genişlik.

**universell** *adj. s. universal.*

**Universität,** *die; -, -en* universitet, bilimyurdu.

**Universitätsprofessor,** *der; -s, -en* universitet professoru.

**Universitätsstudium,** *das; -s, -dien* bilimyurdunda *(ali məktəbdə)* oxuma.

**Universitätszeit,** *die; -, -en* universitet dövrəsi.

**Universum,** *das; -s* kainat, aləm, dünya, evren, fələk, cahan, dəhr.

**unkameradschaftlich** *adj.* dostluğa yaraşmayan.

**Unke,** *die; -, -n* **1.** anac qurbağa; **2.** *fig.* fəlakət müjdəçisi; bədbin.

**unken** *vi* fəlakəti qabaqcadan xəbər vermək.

**unkenntlich** *adj.* tanınmaz; *~ machen* tanınmaz hala gətirmək.

**Unkenntnis,** *die; -* bilməməzlik, xəbərsizlik; cəhalət; *in ~ G* *bir şeyi* bilmədən; *aus ~ e-n Fehler machen* bilməməzlikdən *(bixəbərlikdən)* səhv etmək.

**unklar** *adj.* aydın olmayan, bulanlıq; *fig.* bəlli olmayan, anlaşılmaz, qarışıq, çəlpəşik, dolaşıq; *j-n im ~en /Unklaren lassen* bir kəsi şübhə içərisində qoymaq; *sich (D) über et. (A) im Unklaren sein* bir şeydən xəbərsiz olmaq, şübhə içində olmaq.

**Unklarheit,** *die; -, -en* aydın olmama, bəlli olmayan, anlaşılmazlıq; bulanlıqlıq, çəlpəşiklik, qarma-qarışıqlıq.

**unklug** *adj.* ağılsız, cahil.

**unkollegial** *adj.* yoldaşlığa yaraşmayan, dostluğa sığmayan.

**unkompliziert** *adj.* sadə, mürəkkəb olmayan, bəsit.

**unkontrolliert** *adj.* kontrolsuz.

**unkonventionell** *adj.* fərqli, qeyri-adi.

**unkonzentriert** *adj.* dağınıq.

**unkorrekt** *adj.* səhvli, xətalı, yanlış.

**Unkosten** *die/pl.* xərclər, məsrəf; *sich in ~ stürzen* özünü xərcə salmaq.

**Unkostenabrechnung,** *die; -, -en* xərcləri hesablama.

**Unkostenbeteiligung,** *die; -, -en* xərc-lərdən pay *(hissə)* düşmə.

**Unkostenverteilung,** *die; -* xərcləri bölmə.

**Unkraut,** *das; -(e)s, -¨er* alaq otu, ciyil; *fig. ~ vergeht nicht* alaq otunun kötüyü çətin kəsilər.

**Unkrautvertilgungsmittel,** *das; -s, -* alaq otu məhv etmə vasitəsi *(maddəsi).*

**unkriegerisch** *adj.* savaşqan olmayan.

**unkritisch** *adj.* tənqidsiz.

**unkultiviert** *adj.* **1.** *(nicht bebaut)* becər(il)məmiş; **2.** *fig.* qaba; mədəniyyətsiz, kultursuz; dağayısı.

**unkündbar** *adj.* *(Vertrag usw.)* ləğv edilməz, daimi; *er ist ~* o, daimidir *(iş yerində).*

**unkundig** *adj.* *bir şeyi* bilməyən, *bir zaddan* xəbəri olmayan, məlumatsız, səriştəsiz, naşı, xam; *fig.* gözübağlı.

**unlängst** *adv.* *(vor kurzem, neulich)* bir az bundan qabaq, bayaq; bu günlərdə, keçənlərdə.

**unlauter** *adj.* **1.** yalan, düz olmayan; aldadıcı; **2.** *H* qeyri-qanunui; insafsız; *~er Wettbewerb* qeyri-qanunui rəqabət.

**unleidlich** *adj.* dözülməz.

**unleserlich** *adj.* oxunmaz, qarışıq.

**unleugbar** *adj.* mübahisəsiz, inkar edilməz, şübhəsiz, yəqin.

**unlieb** *adj.* xoşa gəlməyən, xoşagetməz; *es ist mir nicht ~, dass...* pisimə gəlmir ki...

**unliebsam** *adj.* xoşa gəlməyən; sevilməyən.

**unliniert** *adj.* xətsiz, cizgisiz.

**unlogisch** *adj.* məntiqsiz, mənasız.

**unlösbar** *adj.* *(Problem, Rätsel)* həlledilməz, çözülməz, çarəsiz, həllolunmaz, əlacsız; *fig.* düyün.

**unlöslich** *adj.* *Chem.* ərimeyən, əriyə bilməyən, həll olmayan.

**Unlust,** *die; -* könülsüzlük, həvəssizlik, meylsizlik; *mit ~* könülsüz, həvəssiz.

**unlustig** *adj.*həvəssiz, könülsüz, meylsiz.

**unmagnetisch** *adj.* qeyri-maqniti.

**unmanierlich** *adj.* ədəbsiz, qaba.

**unmännlich** *adj.* kişiyə yaraşmayan, kişiyə layiq olmayan.

**unmarkiert** *adj.* işarəsiz, nişansız.

**Unmasse,** *die; -, -n* böyük miqdar, böyük kəmiyyət, yığın.

**unmaßgeblich** *adj.* nüfuzsuz; əhəmiyyətsiz.

**unmäßig** *adj.* həddən artıq, hədsiz-hesabsız, ölçüsüz; *~ essen* həddən artıq *(xörək)* yemək.

**Unmenge,** *die; -, -n* çox böyük kəmiyyət *(miqdar)*, çoxluq, yığın.

**Unmensch,** *der; -en, -en* yırtıcı, canavar, qəddar, zalım.

**unmenschlich** *adj.* qeyri-insani, insana yaraşmayan, insaniyyətsiz, insafsızca*(sına),* amansız, heyvancasına, heyvani.

**Unmenschlichkeit,** *die; -* insaniyyətsizlik, vəhşilik, amansızlıq, qəddarlıq, barbarlıq.

**unmerklich** *adj.* görünməyən, hiss olunmayan, görünməz.

**unmessbar** *adj.* ölçüsüz, hədsiz-hesabsız.

**unmethodisch** *adj.* metodsuz, üsulsuz.

**unmilitärisch** *adj.* əsgərliyə layıq olmayan.

**unmissverständlich** *adj.* qəti, tamamilə aşkar, açıq.

**unmittelbar** *adj.* birbaşa, vasitəsiz, bilavasitə, direkt.

**unmöbliert** *adj.* mebelsiz, moblsuz.

**unmodern** *adj.* modadan düşmüş,

modadan cıxmış.

**unmöglich** *adj.* qeyri-mümkün, mümkünsüz; əlyetməz; *fig.* dözülməz; *sich ~ machen* çox pis rəftar etmək, özünü pis aparmaq; *Unmögliches leisten* mümkünsüz bir işi görmək.

**Unmöglichkeit,** *die; -* mümkünsüzlük, imkansızlıq; *ein Ding der ~* qeyri-mümkün *(imkansız)* bir iş.

**Unmoral** *die; -* əxlaqsızlıq.

**unmoralisch** *adj.* əxlaqsız.

**unmotiviert** *adj.* əsassız, dəlilsiz, əsaslandırılmamış.

**unmündig** *adj.* az yaşlı, həddi-büluğa çatmamış, yetkinləşməmiş.

**Unmündigkeit,** *die; -* yetkinlik dövrünə çatmama, həddi-büluğa çatmama.

**unmusikalisch** *adj.* musiqidən başı çıxmayan.

**Unmut,** *der; -(e)s* narazılıq, hiddət, qəzəb; *s-n ~ an j-m auslassen* kimdənsə hirsini çıxarmaq; *s-n ~ zügeln* hirsini boğmaq.

**unmutig** *adj.* bezdirici; təngə gəlmiş, bezmiş.

**unnachahmlich** *adj.* təqlidedilməz; tayı-bərabəri olmayan.

**unnachgiebig** *adj.* **1.** *(kompromisslos)* güzəştə getməyən, güzəşt etməyən, barışmaz, dikbaş, dönməz; **2.** əyilməyən, elastik olmayan.

**unnachsichtig** *adj.* güzəştsiz, güzəştə getməyən; *er wurde ~ bestraft* sərt bir şəkildə cəzalandı .

**Unnachsichtigkeit,** *die; -* güzəştə getməmə, iltifatsızlıq.

**unnahbar** *adj.* əlçatmaz, ələ keçirilməyən, mümkün olmayan.

**unnatürlich** *adj.* qeyri-təbii, doğal olmayan, qeyri-adi.

**unnennbar** *adj.* sözlə deyilə bilməyən, diləgəlməz.

**unnötig** *adj.* gərəksiz, yararsız, lüzumsuz, artıq-əskik, gərəkməz.

**unnütz** *adj.* faydasız, yararsız, əbəs; *~es Zeug erzählen* boşboğazlıq etmək, naqqallıq eləmək.

**UNO,** *die; -* Birləşmiş Millətlər Təşkilatı.

**unordentlich** *adj.* **1.** pinti, səliqəsiz, dabanıçatlaq;intizamsız, nizamsız, biçimsiz; pozğun, qaydasız, cəncəl; **2.** *(Zimmer)* qarışıq, qarma-qarışıq, dağınıq.

**Unordnung,** *die; -* pintilik, səliqəsizlik; qarışıqlıq, qarma-qarışıqlıq, axnaşıq, yöndəmsizlik intizamsızlıq, nizamsızlıq, dağınıqlıq, dağıntılıq, pozğunluq.

**unorganisch** *adj.* orqanik olmayan, cansız.

**unorganisiert** *adj.* təşkilatsız; təşkil edilməmiş, düzəldilməmiş.

**unorthodox** *adj.* azad görüşlü, azad.

**unpaar** *adj.* tək.

**unpädagogisch** *adj.* pedaqoji qaydalara zidd.

**unparlamentarisch** *adj.* parlament qaydalarına zidd *(müxalif).*

**unparteiisch** *adj.* tərəfsiz, obyektiv; qərəzsiz.

**Unparteilichkeit,** *die; -* tərəfsizlik, qərəzsizlik.

**unpassend** *adj.* münasib olmayan, uyğun olmayan, əlverişli olmayan, yaramayan; yersiz, tutarsız; əndazəsiz.

**unpassierbar** *adj.* keçilməz.

**unpässlich** *adj.* kefsiz; *~ sein* kefsiz olmaq; *sich ~ fühlen* əzginlik hiss etmək, özünü kefsiz hiss etmək.

**Unpässlichkeit,** *die; -* kefsizlik, əzginlik.

**unpatriotisch** *adj.* vətənpərvərliyə yaraşmayan, yurdsevərliyə layiq olmayan.

**unpersönlich** *adj.* **1.** şəxssiz; **2.** *(sachlich, kühl)* obyektiv; təmkinli; *ein ~er Mensch* obyektiv insan, təmkinli insan.

**unpolitisch** *adj.* siyasi olmayan, qeyrisiyasi.

**unpopulär** *adj.* məşhur olmayan.

**unpraktisch** *adj.* **1.** işə yaramayan; **2.** *(ungeschickt)* bacarıqsız.

**unproduktiv** *adj.* məhsuldar olmayan, verimsiz, qeyri-məhsuldar, məhsulsuz, səmərəsiz.

**unpünktlich** *adj.* gec gələn, dəqiq olmayan, vaxtında gəlməyən.

**unqualifiziert** *adj.* **1.** yersiz, səlahiyyətsiz, ağılsız; *e-e ~e Bemerkung* səlahiyyətsiz qeyd; **2.** *(Arbeit)* ixtisassız.

**unrasiert** *adj.* üzü qırxılmamış.

**Unrast,** *die; -* nigaranlıq, rahatsızlıq.

**Unrat,** *der; -(e)s* zir-zibil, tör-töküntü; *fig. ~ wittern* işin yaxşı getməməsini hiss etmək.

**unrationell** *adj.* qeyri-mütənasib.

**unratsam** *adj.* məsləhət olmayan, münasib olmayan, tövsiyə edilməz; *das wäre ~* münasib *(məsləhət)* görmürəm.

**unrealistisch** *adj.* qeyri-həqiqi, həqiqətə uyğun olmayan.

**unrecht** *adj.* **1.** *(dem Recht nicht entsprechend)* haqsız*(lıq),* ədalətsiz, insafsız; *er tut mir ~* o, mənə haqsızlıq edir; *~ haben* haqsız olmaq; **2.** *(nicht richtig)* yanlış; *das ist der ~e Weg zum Erfolg* bu müvəffəqiyyət üçün düz yol deyil.

**Unrecht,** *das; -s, -* ədalətsizlik, haqsızlıq; *j-m ~ geben* bir kəsi haqsız görmək; *zu ~* haqsız yerə; *~ haben* haqsız olmaq.

**unrechtmäßig** *adj.* qanunsuz, haqsız; qeyri-hüquqi.

**unredlich** *adj.* sədaqətsiz, əyri, yalançı, namussuz; hiyləgər; *adv.* namussuzcasına.

**Unredlichkeit,** *die; -, -en* əyrilik, yalançılıq; hiyləgərlik, vicdansızlıq, namussuzluq.

**unreell** *adj.* aldadıcı, yalan.

**unregelmäßig** *adj.* nizamsız, qaydasız, qeyri-müntəzəm.

**Unregelmäßigkeit,** *die; -, -en* nizamsızlıq, qaydasızlıq, qanuna uyğun olmama.

**unreif** *adj.* **1.** *(Obst)* kal, yetişməmiş, dəyməmiş, sütül; **2.** *fig.* inkişaf etməmiş, kamala çatmamış, çiy.

**Unreife,** *die; - fig.* xamlıq, naşılıq.

**unrein** *adj.* çirkli; *rel.* murdar; cənabət.

**Unreinheit,** *die; -, -en rel.* nəcasət.

**unreinlich** *adj.* çirkli, natəmiz, pis.

**Unreinlichkeit,** *die; -* natəmizlik; pintilik.

**unrentabel** *adj.* qazancsız, mənfəətsiz, sərfəsiz, faydasız, azqazanclı, azgəlirli, gəlirsiz.

**unrichtig** *adj.* yanlış, düzgün olmayan, səhv, yalan, əsilsiz, batil; *adv.* səhvən.

**Unrichtigkeit,** *die; -, -en* yanlışlıq, səhv.

**Unruh,** *die; -, -en* nazimçarx.

**Unruhe,** *die; -, -n* **1.** narahatlıq; həyəcan; nigaranlıq, rahatsızlıq, təlatüm, dəğdəğə; **2.** *pol.* şuluqluq, vəlvələ, iğtişaş, qarışıqlıq, intizamsızlıq, qalmaqal;*~ stiften* iğtişaş salmaq, qarşılıqlığa səbəb olmaq.

**Unruheherd,** *der; -(e)s, -e* iğtişaş ocağı *(mənbəi).*

**Unruhestifter,** *der; -s, -* iğtişaşçı, ictimai asayişi pozan, iğtişaşsalan.

**unruhig** *adj.* **1.** *(nervös)* narahat, həyəcanlı; nigaran, qərarsız; *~ werden* narahat olmaq; *(Kind) F* kürləşmək; **2.** *(rastlos)* nadinc; hərəkətli; fırtınalı, aramsız; *ein ~es Kind* nadinc uşaq, dinc oturmayan uşaq, dəcəl uşaq, rahat durmayan uşaq.

**unrühmlich***adj.* adsız-sansız, şan-şöhrətsiz, tanınmamış.

**uns** *pron.* bizi; bizə; *er hat ~ gesehen* o, bizi gördü; *du hast ~ gesagt, dass..* sən bizə dedin ki,..; *mit ~ zusammen* bizimlə birlikdə; *das Haus gehört ~* ev bizimdir; *hier sind wir ganz unter ~* burada öz aramızdayıq.

**unsachmäßig** *adj.* uyğun olmayan, kobud, nalayiq.

**unsachlich** *adj.*əlaqəsiz, münasibətsiz.

**unsagbar** *adj.* ifadə edilə bilməyən, təsvir edilə bilməyən; hədsiz-hesabsız.

**unsäglich** *adj. s. unsagbar.*

**unsanft** *adj.* kobud, nəzakətsiz, heyvərə.

**unsauber** *adj.* natəmiz, çirkli; *(Mensch)* dabanıçatlaq, pinti.

**Unsauberkeit,** *die; -, -en* natəmizlik, çirklik, pintilik.

**unschädlich** *adj.* zərərsiz, ziyansız; *j-n ~ machen* kimisə zərərsiz etmək, ziyan

vurmasının qabağını almaq, zərərsizləşdirmək.

**Unschädlichkeit,** *die;* - zərərsizlik, zərərsiz edilmə, təhlükəsizlik.

**unscharf** *adj.* **1.** *(Messer usw.)* küt, itilənməmiş; *F* koruş; **2.** *(Foto)* qeyri-aydın, qeyri-kəskin, açıq-aydın olmayan.

**unschätzbar** *adj.* misli-bərabəri olmayan; çox böyük; *fig. von ~em Wert* çox qiymətli.

**unscheinbar** *adj.* gözə çarpmayan, nəzərə çarpmayan.

**unschicklich** *adj. (Benehmen)* nalayiq, ədəbsiz.

**unschlagbar** *adj.* məğlub olmaz, yenilməz.

**Unschlitt,** *der u, das; -(e)s, -e* piy.

**unschlüssig** *adj.* qərarsız, mütərəddid, qətiyyətsiz, iki könüllü.

**Unschlüssigkeit,** *die;* - qərarsızlıq, tərəddüd, qətiyyətsizlik.

**unschön** *adj.* kifir, gözəl olmayan, xoşagəlməz, çirkin.

**Unschuld,** *die;* - **1.** günahsızlıq, təqsirsizlik; **2.** *(Jungfräulichkeit)* qızlıq; **3.** *F* sadə, sadəlövh; *e-e ~ vom Lande* sadəlövh kənd qızı.

**unschuldig** *adj.* günahsız, təqsirsiz, üzüağ; bakirə.

**Unschuldsengel,** *der; -s, -* özünü günahsız *(təqsirsiz)* göstərən.

**Unschuldslamm,** *das; -(e)s, -¨er s. Unschuldsengel.*

**unschwer** *adj.* asan, zəhmətsiz.

**unselbständig** *adj.* asılı, qeyri-müstəqil, qeyri-sərbəst.

**unselig** *adj.*zavallı, bədbəxt, uğursuz.

**unsentimental** *adj.* həssas olmayan, daşqəlbli.

**unser** *possessivpron.* bizim; ***~e, ~er, ~es*** bizimki; *das ist ~ Sohn* bu bizim oğlumuzdur; *der Unsere* bizimki; *personalpron. Gen. von „wir“* bizi, biz; *können Sie sich ~ noch entsinnen?* siz bizi xatırlaya bilirsinizmi?; *das Haus ist ~* ev bizim(ki)dir.

**unsereiner, unsereins,** *Indefinitpron.* biz və bizim kimilər; *~ kann das nicht kaufen* bizim kimilər bunu ala bilməzlər; *an unsereinen denkt dabei keiner* bizim kimilərin fikrində olan yoxdur, bizim kimiləri düşünən yoxdur.

**uns(e)rerseits** *adv.* bizim tərəfdən.

**unser(e)sgleichen** *Indefinitpron.* bizim kimilər.

**unser(e)thalben** *adv.* bizə görə, bizim xətrimizə.

**unser(e)twegen** *adv. s. unser(e)thalben.*

**unser(e)twillen** *adv. s. unser(e)thalben.*

**unserig-** *s. unsrig-*

**unseriös** *adj.* ciddi olmayan, qeyri-ciddi; *F* bambılı, dəngülüş, dingiliş, düdək, əlləm-qəlləm; *~er Mensch* bambılı *(dəngülüş/dingiliş)* adam, düdək adam.

**unsicher** *adj.* **1.** *(nicht fest)* möhkəm olmayan; sarsıntılı; qərarsız; **2.** *(zweifelhaft)* şübhəli, şəkli, dəmdəməki; **3.** *(gefährlich)* təhlükəli, əmniyyətsiz; *j-n ~ machen* kimisə şübhəyə salmaq; karıxdırmaq.

**Unsicherheit,** *die; -, -en* arxayın olmama, xatircəm olmama, duruxma, dəmdəməkilik; möhkəm olmama; davamsızlıq; təhlükə.

**Unsicherheitsfaktor,** *der; -s, -en* etibarsız, riziko, risk.

**unsichtbar** *adj.* görünməyən, gözəgörünməz, görünməz.

**Unsinn,** *der; -(e)s* boş şey, mənasız şey, hədərən-pədərən, cəfəngiyat, əskik-artıq; *~ reden* lağ-lağ danışmaq, boş-boş danışmaq, gic-gic danışmaq, əskik-artıq danışmaq; cəhl eləmək.

**unsinnig** *adj.* boş, mənasız, bica, boş-boşuna, cəfəng, damdandüşmə, əbəs, hərzə, lağ-lağ, yava; *F* ələşən-güləşən, hadaran-padaran; *~e Gerede* boş söz, çərən, əskik-artıq söhbət, hadaran-padaran, tartan-partan.

**Unsitte,** *die; -, -n* pis xasiyyət, əxlaqsızlıq, mənəviyyatsızlıq.

**unsittlich** *adj.* əxlaqsız, ədəbsiz, pis adətli, yava.

**unsolide** *adj.* möhkəm olmayan, əsaslı olmayan; eyibli, nöqsanlı, etibarsız.

**unsozial** *adj.* **1.** *(Verhalten usw.)* cəmiy-

yətəzidd, cəmiyyətə layiq olmayan; **2.** cəmiyyətdən qaçan.

**unsportlich** *adj.* idmançı olmayan; idman qaydaları ilə uyğun olmayan.

**unsrig-** *possesivpron.* bizimki, özümüzünkü; *die Unsrigen* bizimkilər.

**unstatthaft** *adj.* qəbul olunmayan, icazə verilə bilməyən, mümkün sayılmayan, yol verilməyən.

**unsterblich** *adj.* ölməz, ölümsüz, əbədi, daimi, cavid; *F (sehr)* çox, hədsiz; *sich ~ in j-n verlieben* bir kəsə çox vurulmaq *(aşiq olmaq); das ~e Werk e-s Künstlers* bir sənətkarın ölümsüz əsəri.

**Unsterblichkeit,** *die; -* ölməzlik, ölümsüzlük.

**Unstern,** *der; -(e)s* bədbəxt tale, bədbəxtçilik, uğursuzluq.

**unstet** *adj. (ruhelos)* narahat, sakit olmayan; gəzən; *ein ~er Mensch* narahat *(rahatsız)* adam.

**unstetig** *adj. s. unstet.*

**Unstetigkeit,** *die; -* sübatsızlıq, qərarsızlıq.

**unstillbar** *adj. (e-e Sehnsucht usw.)* söndürülə bilməyən.

**Unstimmigkeit,** *die; -, -en* ixtilaf, anlaşılmazlıq, fikir ayrılığı, uyğunsuzluq.

**unstreitig** *adj.* mübahisəsiz, şübhəsiz.

**Unsumme,** *die; -, -n* böyük pul məbləği, kəlan pul məbləği.

**unsymmetrisch** *adj.* simmetriyasız.

**unsympathisch** *adj.* sevimli olmayan, xoşa gəlməyən, cana yatmayan; *er ist mir ~* o, xoşuma gəlmir, o, canıma yatmır.

**unsystematisch** *adj.* sistemsiz, qaydasız.

**untadelig** *adj.* qüsursuz, nöqsansız, ləkəsiz.

**Untat,** *die; -, -en* dəhşətli cinayət; pis iş.

**untätig** *adj.* hərəkətsiz, fəaliyyətsiz, passiv; işsiz; *fig. (Süd. : əllaf)*; *die Hände ~ in den Schoß legen* əlini ağdan-qaraya vurmamaq, boş oturmaq, passiv hərəkət etmək; *~ zusehen* durub baxmaq *(bei D/-ə).*

**Untätigkeit,** *die; -* hərəkətsizlik; etinasızlıq, fəaliyyətsizlik, passivlik, avaralıq; *veralt.* ətalət.

**untauglich** *adj.* işə yaramayan, yararsız, yönsüz, istifadəsiz; *F* çürük.

**Untauglichkeit,** *die; -* yaramazlıq, yönsüzlük.

**unteilbar** *adj.* bölünməz, bütöv, ayrılmaz.

**Unteilbarkeit,** *die; -* bölünməzlik, bütövlük.

**unten** *adv.* aşağıda, altda; *ganz ~* lap aşağıda; *nach ~* aşağıya; *von ~ her* aşağıdan; *von ~ herauf* aşağıdan yuxarıya; *von ~* altdan, aşağıdan; *siehe ~* aşağıya bax; *F bei j-m ~ durch sein* bir kəsin yanında hörmətdən düşmək.

**untengenannt** *adj.* aşağıdakı, aşağıda adı çəkilən.

**untenstehend** *adj.* aşağıdakı.

**unter** *präp. D* **1.** altında; **2.** *A* altına; **3.** *(zwischen)* arasında; arasına *~ uns* öz aramızda; *sich ~ das Publikum mischen* camaata qatılmaq, camaatın arasına qatılmaq; *~ sich* öz aralarında; *~ vier Augen* gözbəgöz; **3.** *D* ..dan, ..dən az; ..aşağı, ..çatmamış; *~ dreizehn Jahren* on üç yaşından az *(aşağı)*; **4.** *D* ... ilə; ərzində; *~ der Bedingung ...* şərti ilə; *~ anderem* yeri gəlmişkən, əz cümlə; *du kannst mich ~ dieser Telefonnummer erreichen* sən məni bu telefon nömrəsi ilə tapa bilirsən; *~ dem Befehl G -in* əmri altında; *~ was hast du denn die Schlüssel gelegt?* açarları nəyin altına qoydun?; *~ keinen Umständen* əsla, qətiyyən; *das bleibt ~ uns* bu öz aramızda qalacaq; *adj.* aşağı; *die ~e Etage* aşağı mərtəbə.

**Unterabteilung,** *die; -, -en* bölmə; şöbə.

**Unterarm,** *der; -(e)s, -e* bazu önü.

**Unterart,** *die; -, -en* növ, variant.

**Unterausschuss,** *der; -es; -¨e* məşvərətçi komissiya.

**Unterbau,** *der; -(e)s, -ten* **1.** *(Basis)* bünövrə, binövrə, təməl, özül, əsas; **2.** *(im Bau)* alt hissə.

**Unterbekleidung,** *die; -, -en* alt paltar.

**unterbelegt** *adj. (Hotel usw.)* yerləri tutulmamış, dolmamış.

**unterbelichten** *vt* az işıq vermək.

**unterbelichtet** *adv.* az işıq verilmiş; *fig.* az ağıllı; *er ist ein wenig ~* o bir az ağıldan kəmdir *(kasıbdır).*

**unterbesetzt** *adj.* tutulmamış, dolmamış, az kadrlı.

**unterbewerten** *vt* az dəyər vermək.

**Unterbewusstsein,** *das; -s* altşüur, təhtəlşüur.

**unterbezahlen** *vt* az əmək haqqı vermək.

**unterbezalt** *adj.* az pul alan, az əmək haqqı alan.

**unterbieten** *vt* **1.** *(Preis)* qiyməti qırmaq; **2.** *(Rekord)* qazanmaq, sındırmaq.

**unterbinden** *vt fig.* icazə verməmək, qabağını almaq, mane olmaq.

**unterbleiben** *vi* baş tutmamaq.

**unterbrechen** *vt* **1.** kəsmək, dayandırmaq; **2.** *(j-n)* sözünü kəsmək.

**Unterbrecher,** *der; -s, - el.* cərəyanı kəsən *(dayandıran).*

**Unterbrechung,** *die; -, -en* fasilə; nəyinsə müvəqqəti dayandırılması; maneçilik; *ohne ~* dayanmadan, birbaşa, birnəfəsə.

**unterbreiten**[1] *vt* altına döşəmək.

**unterbreiten**[2] *vt (als Vorschlag)* baxılmağa təqdim etmək, təsdiqə vermək; *e-n Vorschlag ~* təklif *(önəri)* irəli sürmək.

**Unterbreitung,** *die; -* təqdim, təslim.

**unterbringen** *vt* yerləşdirmək; yerbəyer etmək, iş yeri tapmaq, işə yerləşdirmək.

**Unterbringung,** *die; -* yerləşdir(il)mə.

**Unterbringungsmöglichkeit,** *die; -, -en* yerləşdir(il)mə imkanı.

**unterbrochen** *adj.* kəsilmiş; dayanmış.

**unterbuttern** *vt F* yaxşı tərəfini göstərməyə imkan verməmək; *j-n ~* bir kəsə özünü göstərməyə imkan verməmək.

**Unterdeck,** *das; -(e)s, -s u. -e* alt göyərtə.

**unterderhand** *adv.* əlaltı, gizlicə.

**unterdessen** *adv.* bu əsnada, bu arada, bu dəmdə; o vaxtdan.

**Unterdruck,** *der; -(e)s* aşağı təzyiq.

**unterdrücken** *vt* **1.** *(e-n Aufstand usw.)* yatırtmaq, boğmaq; **2.** əzmək, sıxmaq, sıxışdırmaq; zülm etmək, sitəm etmək, dərisini soymaq; **3.** *fig.* üstünü örtmək, ört-basdır etmək.

**Unterdrücker,** *der; -s, -* zalım, zülmkar, əzən, sitəmkar; *F* dərisoyan.

**Unterdrückung,** *die; -* zülmkarlıq; məzlumluq, sitəm; üstünü örtmə.

**unterdurchschnittlich** *adj.* ortadan aşağı.

**untereinander** *adv.* **1.** *(miteinander)*öz aralarında; qarşılıqlı; **2.** bir-birinin altında; *drei Nägel ~ in das Brett schlagen* üç dənə mıxı bir-birinin altından taxtaya vurmaq.

**Untereinheit,** *die; -, -en* alt bölmə, alt hissə.

**unterentwickelt** *adj.* geridə qalmış, inkişaf etməmiş, dalı qalmış.

**unterernährt** *adj.* üzülmüş, yeməksiz qalmış.

**Unterernährung,** *die; -* az yemə, kifayət qədər yeməmə.

**Unterfangen,** *das; -s, -* cəsarətli hərəkət, cəsarətli təşəbbüş, rizikolu iş.

**unterfassen** *vt* qolundan tutmaq.

**unterfertigen** *vt jur.* imzalamaq.

**Unterführung,** *die; -, -en* altdan keçən yol, tunel.

**Unterfunktion,** *die; -, -en med.* lazım olan dərəcədə işləməmə *(funksiyası olmama)*

**Untergang,** *der; -(e)s, -̈e* **1.** *astr.* göy cismlərinin batması; **2.** *(Sonne)* batma, qürub; **3.** *pol.* süqut, məhv olma, yıxılma, dağılma, iflic olma.

**untergeben** *vt : j-m ~ sein* bir kəsin əli altında olmaq, bir kəsə tabe olmaq.

**Untergebene,** *der u. die; -n, -n* tabe, itaət edən.

**untergehen** *vi* **1.** *(Sonne, Schiff)* batmaq; **2.** məhv olmaq, boğulmaq, batmaq.

**untergeordnet** *adj.* **1.** tabe, tabe olan; *~ sein* tabelikliyində olmaq; **2.** *(zweitrangig)* ikinci dərəcəli, mühüm olmayan; rütbəcə aşağı olan.

**Untergeschoss,** *das; -es, -e* aşağı mərtəbə.

**Untergestell,** *das; -(e)s, -e* *techn.* alt, altlıq; şası.

**Untergewicht,** *das; -(e)s* əskik çəki.

**untergliedern** *vt* bölmək, hissələrə ayırmaq.

**untergraben**[1] *vt* *(Dünger, Torf usw.)* torpağa qarışdırmaq, qazıb qarışdırmaq, qazıb açmaq.

**untergraben**[2] *vt* *fig.* ziyankarlıq etmək, gizlicə məhv etmək, ziyan vurmaq, dağıtmaq; *j-s Ansehen ~* bir kəsin nüfuzuna ziyan vurmaq.

**Untergrabung,** *die; -* ziyan vurma, gizlicəsinə məhv etməyə çalışma.

**Untergrenze,** *die; -, -n* ən kiçik miqdar, ən az miqdar.

**Untergrund,** *der; -(e)s* **1.** yeraltı, torpaqaltı; *pol.* gizli; *in den ~ gehen* gizlənmək, gizli olmaq; **2.** *(Farbe usw.)* fon.

**Untergrundbahn,** *die; -, -en* metro, metropoliten.

**Untergrundbewegung,** *die; -, -en* gizli mübarizə, gizli hərəkat.

**Untergruppe,** *die; -, -n* kiçik qrup.

**unterhaken** *vt* qolundan tutmaq.

**unterhalb** *präp. G* *-in* altında,*-in* aşağısında; aşağı.

**Unterhalt,** *der; -(e)s, -* maddi yardım, yardım; yemək, ruzi, gəlir-çıxar; *s-n ~ bestreiten* özünə çörək pulu qazanmaq, ruzisini qazanmaq; *zu j-s ~ beitragen* bir kəsə yardım etmək.

**unterhalten**[1] *vt* altına qoymaq; altında saxlamaq; *e-n Teller unter die Suppe halten* şorbanın altına boşqab qoymaq; *e-e Tasse unter den Wasserstrahl halten* fincanı su axınının altında saxlamaq.

**unterhalten**[2] *vt* **1.** *(ernähren)* saxlamaq, dolandırmaq; nəfəqə vermək; *er muß s-e Frau und 3 Kinder ~* o, xanım və üç uşağını saxlamalıdır *(dolandırmalıdır);* **2.** *(vergnügen)* əyləndirmək, deyib-gülmək; *wir haben uns auf dem Fest gut ~* qonaqlıqda yaxşı əyləndik *(deyib-güldük)*; **3.** *(Einrichtung)* yardım etmək, pulla təmin etmək; **4.** *(pflegen)* baxmaq; *e-e gut ~e Schule* yaxşı baxılmış bir məktəb, yaxşı təchiz olunmuş məktəb; *vr sich ~* söhbət etmək, deyib-danışmaq, dilləşmək, vaxtını yaxşı keçir(t)mək *(mit D/ -ilə).*

**unterhaltend** *adj.* maraqlı, əyləndirici.

**unterhaltsam** *adj. s. unterhaltend.*

**Unterhaltsbeihilfe,** *die; -, -n* maddi yardım.

**unterhaltsberechtigt** *adj.* yardım almağa hüququ olan.

**Unterhaltskosten** *die/pl.* yaşayış xərcləri, təminat xərci; aliment.

**Unterhaltspflicht,** *die; -, -en* *jur.* məişət *(yaşayış)* xərcinin verilməsi.

**unterhaltspflichtig** *adj.* yaşayış xərcini vermə vəzifəsi; saxlamağa məcbur *(uşaqları, valideynləri).*

**Unterhaltung,** *die; -, -en* **1.** söhbət, danışıq; *veralt.* həsb-hal; **2.** əyləncə; **3.** saxlanılma; **4.** *(Pflege)* baxma.

**Unterhaltungskosten** *die/pl.* saxlama xərcləri, təminat xərcləri.

**Unterhaltungsmusik,** *die; -* şən musiqi, əyləndirici musiqi.

**Unterhaltungsprogramm,** *das; -s, -e* əyləndirici proqram.

**unterhandeln** *vi* danışıqlar aparmaq, müzakirə etmək *(mit D/-ilə).*

**Unterhändler,** *der; -s, -* vasitəçi, elçi; dəllal.

**Unterhaus,** *das; -es* *pol.* parlamentin aşağı palatası, avam məclisi.

**Unterhemd,** *das; -(e)s, -en* alt köynək.

**unterhöhlen** *vt* ziyan vurmaq, kiminsə ayağının altını qazmaq; parçalamaq.

**Unterholz,** *das; -es* kolluq, kol, meşəcik.

**Unterhose,** *die; -, -n* alt tuman.

**unterirdisch** *adj. (Kanal usw.)* yeraltı.

**unterjochen** *vt* əsarət altına almaq, zülm etmək, istismar etmək.

**Unterjochung,** *die; -* köləlik, əsarət, zülm, istismar, məzlumluq.

**unterkellern** *vt* *-in* altına zirzəmi tikmək.

**Unterkiefer,** *der; -s, -* alt çənə.

**Unterklasse,** *die; -, -n* aşağı sinif, avam sinif.

**Unterkleid,** *das; -(e)s, -er* alt paltar.

**unterkommen** *vi* **1.** yerləşmək, yatmaq üçün yer tapmaq; **2.** *fig.* iş tapmaq, iş yeri tapmaq.

**Unterkommen,** *das; -s* sığınacaq, yer; *ein ~ für die Nacht suchen* gecə qalmaq *(yatmaq)* üçün yer axtarmaq.

**unterkriechen** *vi* *F* sığınacaq axtarmaq, pənahgah axtarmaq.

**unterkriegen** *vt* **1.** təsir altına düşmək, uymaq; **2.** təslim olmaq, aldanmaq; *F* minmək; üstün olmaq; *lass dich von ihm nicht ~!* qoyma sənə üstün gəlsin, qoyma səni minsin!

**unterkühlen** *vt* *techn.* aşağı temperatura düşdürmək; *j-d ist unterkühlt* bir kəsin bədən hərarəti aşağı olmaq.

**unterkühlt** *adj. (distanziert)* soyuq yanaşan.

**Unterkunft,** *die; -, -¨e* sığınacaq, yurd.

**Unterlage,** *die; -, -n* **1.** alt*(lıq)*; *e-e ~ für die Schreibmaschine* yazı maşınına altlıq; **2.** *(für Kleinkinder)* müşamba; **3.** yazılı kağız, sənəd, məlumat.

**Unterlass,** *der; -es* : *ohne ~* fasiləsiz, ara vermədən.

**unterlassen** *vt* **1.** daha etməmək, buraxmaq, vaz keçmək; **2.** *(versäumen)* səhlənkarlıq etmək.

**Unterlassung,** *die; -, -en* yerinə yetirilməmə, səhlənkarlıq; hərəkətsizlik.

**Unterlassungsklage,** *die; -, -n* köməksiz qoyma haqqında iddia vermə, səhlənkarlıqdan şikayət.

**Unterlauf,** *der; -(e)s, -¨e* çayın aşağı yatağı.

**unterlaufen**[1] *vi* yol verilmək, olmaq, edilmək; *mir ist ein Fehler ~* bir sehv etdim *(oldu)*.

**unterlaufen**[2] *vt* **1.** *(Gegner)* altından həmlə etmək; **2.** *fig.* hiylə ilə ziyan vurmaq, gizlicə zərər vurmaq; **3.** *(mit Blut)* qançır olmaq; *mit Blut ~e Stelle* qançır olmuş yer.

**unterlegen**[1] *vt* altına qoymaq; *sie hat der Henne 5 Eier untergelegt* o, toyuğun altına 5 yumurta qoydu.

**unterlegen**[2] *vt* **1.** *(mit e-r Unterlage versehen)* döşəmək, təchiz etmək; **2.** *(e-n Sinn)* başqa məna vermək.

**unterlegen**[3] *adj. (körperlich od. zahlenmäßig)* gücü az, qüvvəsi az, zəif; sayı az.

**Unterlegenheit,** *die; -* zəiflik, tabeçilik.

**Unterleib,** *der; -(e)s, -er* qarnın alt hissəsi, qasıq.

**unterliegen** *vt* **1.** *(bezwungen werden)* məğlub olmaq, yenilmək; **2.** aid olmaq *(D/-ə)*; *es unterliegt keinem Zweifel, dass..* buna heç şübhə yoxdur ki...

**Unterlippe,** *die; -, -n* alt dodaq.

**untermalen** *vt fig. (begleiten)* müşayiət etmək; *e-n Vortrag mit Musik ~* mühazirəni musiqi ilə müşayiət etmək.

**untermauern** *vt fig.* əsaslandırmaq, dayaq vermək, dəstəkləmək.

**untermengen** *vt* qatışdırmaq.

**Untermensch,** *der; -en, -en* aşağı səviyyəli adam, keyfiyyətsiz adam, rəzil adam *(Faşistlər dilində)*.

**Untermiete,** *die; -* kirayə otaqı *(evi)* kirayə vermə, əsas kirayəçidən kirayəyə götürmə.

**Untermieter,** *der; -s, -* kirayəçidən kirayə götürən.

**unterminieren** *vt fig.* yıxmaq, etibardan salmaq, xələl gətirmək.

**untermischen** *vt* qatışdırmaq.

**unternehmen** *vt* *-ə* başlamaq, *-ə* girişmək, təşəbbüs etmək; *e-e Reise ~* səfərə getmək.

**Unternehmen,** *das; -s, -* **1.** iş, başlanmış iş; təşəbbüs; **2.** müəssisə, firma.

**unternehmend** *adj.* bacarıqlı, zirək, işgüzar, fəal.

**Unternehmer,** *der; -s, -* sahibkar, müəssisə sahibi.

**Unternehmerverband,** *der; -(e)s, -¨e* sahibkarlar ittifaqı, işverənlər birliyi.

**Unternehmung,** *die; -, -en* fəaliyyət, hərəkət, girişmə.

**Unternehmungsgeist,** *der; -(e)s* təşəbbüskarlıq, öncəlik.

**Unternehmungslust,** *die; -* təşəbbüskarlıq həvəsi.

**unternehmungslustig** *adj.* əlindən iş gələn, işə girişən, bacarıqlı.

**Unteroffizier,** *der; -(e)s, -e* kiçik zabit.

**unterordnen** *vt* tabe etmək; *vr sich ~* tabe olmaq; *j-m untergeordnet sein* bir kəsə tabe olmaq, bir kəsin əli altında olmaq.

**Unterordnung,** *die; -, -en* tabeçilik, tabe olma, tabe etmə, itaət, tabelik, baş əymə.

**Unterpfand,** *das; -(e)s* girov, təminat, rəhn.

**unterpflügen** *vt* şumlamaq, torpağı çevirmək.

**unterprivilegiert** *adj.* imtiyazsız.

**Unterredung,** *die; -, -en* danışıq, söhbət, danışmaq.

**Unterricht,** *der; -(e)s* dərs; təlim, tədris; *~ geben* dərs vermək; *~ nehmen* dərs öyrənmək; təlim almaq.

**unterrichten** *vt* **1.** dərs vermək, tədris eləmək; elmləndirmək; **2.** *(informieren)* xəbər vermək; *vr sich ~* xəbər tutmaq *(über A/ bir şey haqqında).*

**unterrichtet** *adj.* xəbərdar, məlumatlı.

**Unterrichtsanstalt,** *die; -, -en* məktəb.

**Unterrichtsmethode,** *die; -, -n* dərs metodu, dərs üsulu.

**Unterrichtsraum,** *der; -(e), -¨e* dərs otağı.

**Unterrichtsstunde,** *die; -, -n* dərs, dərs saatı.

**Unterrichtswesen,** *das; -s* tədris işi, maarif.

**Unterrichtung,** *die; -* xəbər *(vermə); zu Ihrer ~* xəbəriniz üçün.

**Unterrock,** *der; -(e)s, -¨e* alt ətək.

**untersagen** *vt* qadağan etmək, yasaq etmək, qadağanlamaq; *das Rauchen ist untersagt* papıros çəkmək qadağandır.

**Untersatz,** *der; -es, -¨e* alt, altlıq.

**unterschätzen** *vt* az dəyər vermək, dəyərini aşağı salmaq, lazımi dərəcədə qiymətləndirməmək.

**unterscheidbar** *adj.* fərqləndirilə bilən.

**unterscheiden** *vt* fərqlən(dir)mək, ayırmaq, fərq qoymaq, ayırd eləmək *(von D/bir şeydən); vr sich ~* fərqlənmək, seçilmək.

**Unterscheidung,** *die; -, -en* fərq, fərqlənmə, ayırd.

**Unterscheidungsmerkmal,** *das; -(e)s, -e* fərqləndirici cəhət.

**Unterscheidungsvermögen,** *das; -s* fərqləndirici güc *(bacarıq).*

**Unterschenkel,** *der; -s, -* baldır.

**Unterschicht,** *die; -, -en* alt təbəqə.

**unterschieben**[1] *vt* altına qoymaq; soxmaq; *j-m e-n Stuhl ~* bir kəsin altına oturacaq *(səndəl)* qoymaq.

**unterschieben**[2] *vt (unterstellen)* başqasının boynuna atmaq, başqasına nisbət vermək.

**Unterschied,** *der; -(e)s, -e* fərq; fərqlənmə, fərqlik, ayrılıq, başqalıq; *ohne ~* fərqsiz; *e-n ~ machen zwischen A und B* A ilə B arasında fərq qoymaq.

**unterschiedlich** *adj.* fərqli, başqa-başqa, müxtəlif, dürlü-dürlü.

**unterschiedslos** *adj.* fərqsiz, eyni.

**unterschlagen**[1] *vt* **1.** *die Beine beim Sitzen ~* ayaq-ayaq üstünə atmaq; **2.** *die Arme ~* qolları çarpazlamaq.

**unterschlagen**[2] *vt* **1.** *(unrechtmäßig)* götürüb saxlamaq; pul yemək, özünə pay çıxmaq; **2.** gizlətmək; üstünü örtmək; *e-e Nachricht ~* xəbəri gizlətmək.

**Unterschlagung,** *die; -, -en* pul yemə, oğurluq, ixtilas, pul mənimsəmə.

**Unterschlupf,** *der; -(e)s* sığınacaq, yuva; *für e-e Nacht ~ suchen* bir gecəyə sığınacaq *(qalmaq)* yeri axtarmaq.

**unterschlüpfen** *vi* sığınmaq *(bei D/-də).*

**unterschreiben** *vt* **1.** qol çəkmək, imzalamaq, imza etmək, paraflamaq; **2.** *fig.* razı olmaq, razılaşmaq, bəyənmək; *Ihre Meinung kann ich nicht ~* fikriniz ilə razı ola bilmərəm.

**unterschrieben** *adj.* qol çəkilmiş, im-

zalı.

**Unterschrift,** *die; -, -en* qol çəkmə, imza, paraf; *s-e ~ unter A setzen* bir şeyi imzalamaq, bir şeyə qol çəkmək.

**Unterschriftensammlung,** *die; -, -en* imza yığma, imza toplanması.

**unterschwellig** *adj.* gizli; düşüncəsiz, qeyri-məlum.

**Unterseeboot,** *das; -(e)s, -e* sualtı qayıq.

**unterseeisch** *adj.* sualtı.

**Unterseite,** *die; -, -n* alt tərəf, tərs üz.

**untersetzen** *vt* altına qoymaq.

**Untersetzer,** *der; -s, -* altlıq.

**untersetzt** *adj.* enlikürəkli adam; qısa boylu adam.

**untersinken** *vi* batmaq, suya girmək.

**unterspülen** *vt -in* altını yuyub aparmaq.

**unterste(r, -s)** *adj.* ən altdakı, ən aşağıdakı, alt; *das Unterste zuoberst, das Oberste zuunterst kehren* alt-üst etmək.

**Unterstand,** *der; -(e)s, -¨e* yeraltı sığınacaq; daldalanacaq.

**unterstehen** *vt D* tabe olmaq; *vr sich ~ (zu Inf. -məyə)* cürətlənmək.

**unterstellen**[1] *vt* qoymaq; altına qoymaq; *das Fahrrad im Keller ~* velosipedi *(Süd. : yelatını)* zirzəmiyə qoymaq; *vr sich (irgendwo) ~ bir yerin/şeyin* altında durmaq; gizlənmək.

**unterstellen**[2] *vt* **1.** tabe etmək; **2.** təqsirləndirmək; böhtan atmaq; *j-m et. ~* bir kəsi haqsız yerə günahlandırmaq.

**Unterstellung,** *die; -, -en* **1.** tabe etmə; tabe olma; **2.** iddia, haqsız iddia.

**unterstreichen** *vt* altından xətt çəkmək; *fig.* əhəmiyyət vermək.

**Unterstufe,** *die; -, -n* aşağı siniflər.

**unterstützen** *vt* kömək etmək, əl tutmaq, himayə etmək; tərəfini saxlamaq, tərəfdar çıxmaq, arxa çıxmaq, dalında durmaq; bəyənmək; *F* hova çatmaq, hovlamaq; *sich gegenseitig ~* arxalaşmaq, əlbirlik etmək.

**Unterstützung,** *die; -, -en* kömək, yardım, dəstək, dayaq, əl tutma, müavinət, vəsait; hamilik, himayə; *F* hov; *~ beziehen* kömək almaq.

**unterstützungsberechtigt** *adj.* yardıma ehtiyacı olan; yoxsul.

**Unterstützungsfonds,** *der; -* yardım fondu.

**untersuchen** *vt* **1.** araşdırmaq, tədqiq etmək; bəlləmək; eləmək; **2.** *med.* yoxlamaq, müayinə etmək, baxmaq; **3.** *jur.* təhqiq etmək, istintaq aparmaq; *~ lassen* baxdırmaq; *fig.* eş(ələ)mək; *F* əndər-döndər eləmək.

**Untersuchung,** *die; -, -en* **1.** araşdırma, tədqiqat, axtarış; **2.** *med.* yoxlama, müayinə; **3.** *jur.* ibtidai istintaq, təhqiqat.

**Untersuchungsausschuss,** *der; -es, -¨e* istintaq komissiyası, təhqiqat məhkəmə komissiyası.

**Untersuchungsgefängnis,** *das; -ses, -e* istintaq həbsxanası.

**Untersuchungshaft,** *die; -* ibtidai həbs.

**Untersuchungskommission,** *die; -, -en s. Untersuchungsausschuss.*

**Untersuchungsrichter,** *der; -s, -* müstəntiq, istintaqçı.

**untertags** *adv.* gündüz.

**Untertan,** *der; -en, -en* tabe, rəiyyət.

**untertan** *adj.* tabe, bağlı.

**Untertanengeist,** *der; -(e)s* boyun əymə, itaətkarlıq.

**untertänig** *adj.* boyun əyən, itaətli.

**Untertasse,** *die; -, -n* nəlbəki.

**untertauchen** *vt* suya batırmaq; *vi* suya batmaq, cummaq, dalmaq; *fig.* yox olmaq, əkilmək, cummaq.

**Unterteil,** *der u. das; -(e)s, -e* aşağı hissə, alt.

**unterteilen** *vt* bölmək, hissələrə ayırmaq.

**Unterteilung,** *die; -, -en* böl(ün)mə, hissələrə ayırma.

**Untertemperatur,** *die; -, -en med.* hipotermi.

**Untertitel,** *der; -s, -* **1.** yarımbaşlıq, yarımsərlövhə; **2.** *(Film)* altyazı .

**Unterton,** *der; -(e)s, -¨e* əsas səs tonundan alçaq olan əlavə ton, zəif səs, səs, alt ton, aşağı ton.

**untertreiben** *vt* kiçik göstərmək,

əhəmiyyətsiz göstərmək.

**untertunneln** *vt* altından tunel vurmaq *(çəkmək).*

**untervermieten** *vt* ikinci şəxsə kirayə vermək.

**unterwandern** *vt* gizlicə nüfuz qazanmaq, pozğunluq salmaq, zəifləşdirmək

**Unterwäsche,** *die; -* tuman-köynək, alt paltar, camaşır, dəyişək.

**Unterwasser-** sualtı, dənizaltı.

**Unterwasserbombe,** *die; -, -n* sualtı bomba.

**Unterwasserkamera,** *die; -, -s* sualtı kamera.

**Unterwassermassage,** *die; -, -n* sualtı massaj.

**unterwegs** *adv.* yolda, yol zamanı; *ich habe ~ Blumen gekauft* mən yolda çiçək aldım; *viel ~ sein* çox vaxt yolda olmaq, tez-tez yolda olmaq.

**unterweisen** *vt* öyrətmək, dərs vermək.

**Unterweisung,** *die; -, -en* dərs, öyrətim, təlim.

**Unterwelt,** *die; -* **1.** *lit.* ölülər diyarı; **2.** *fig.* cinayətkarlar dünyası, canilər dünyası.

**unterwerfen** *vt* tabe etmək, qələbə çalmaq; *vr sich ~* boyun əymək, tabe olmaq, baş əymək; *fig.* diz çökmək, enmək.

**Unterwerfung,** *die; -, -en* itaət, tabe olma, tabe etmə, istila, tabelik, baş əymə, diz çökmə.

**unterwühlen** *vt* *s. untergraben.*

**unterwürfig** *adj.* boyun əyən, itaətli, itaət edən; *sich ~ zeigen* əyilmək.

**Unterwürfigkeit,** *die; -* boyun əymə.

**unterzeichnen** *vt* qol çəkmək, imzalamaq.

**Unterzeichner,** *der; -s, -* qol çəkən, imza edən, imzalayan.

**Unterzeichnung,** *die; -, -en* imzalanma, imzalama; imza, qol çəkmə *(qoyma).*

**Unterzeug,** *das; -(e)s* alt paltar, tuman-köynək.

**unterziehen**[1] *vt* **1.** altdan girmək; *ich ziehe noch ein Hemd unter* mən altdan da bir köynək geyirəm; **2.** altına çəkmək; *j-n e-m Verhör ~* bir kəsi sorğu-sual altına çəkmək *(dindirmək)..*

**unterziehen**[2] *vr sich ~ D* uğramaq, məruz qalmaq; *sich e-r Operation ~* əməliyyat olmaq; *sich e-r Prüfung ~* imtahana girmək.

**Untiefe,** *die; -, -n* dayaz yer, dayazlıq.

**Untier,** *das; -(e)s, -e* canavar.

**untilgbar** *adj.* **1.** *(unauslöschlich)* unudulmaz; silinməz; **2.** *(Schulden)* ödənilməz.

**untragbar**[1] *adj.* **1.** *(unakzeptabel)* dözülməz, qəbul olunmaz; *dieser Zustand ist ~* bu dözülməz vəziyyətdir; **2.** maliyyələşdirilməz, *die Kosten des Projekts sind ~* proyektin xərci maliyyələşdirilməzdir.

**untragbar**[2] *adj.* daşınılmaz.

**untrennbar** *adj.* **1.** ayrılmaz; qırılmaz; **2.** *gr.* ayrılmayan *(ön şəkilçi).*

**untreu** *adj.* vəfasız, sadiq olmayan; xain, dönük, üzüdönük.

**Untreue,** *die; -* sədaqətsizlik, vəfasızlıq, inamsızlıq, əhdə bivəfalıq, etibarsızlıq; xainlik,dönüklük, cəfa; *jur.*sui-istifadə.

**untröstlich** *adj.* təsəlli tapmayan, ovunmaz.

**untrüglich** *adj.* şübhəsiz, yəqin, aldatmayan.

**untüchtig** *adj.* bacarıqsız, qabiliyyətsiz.

**Untugend,** *die;-, -en* pis adət, pis vərdiş.

**unüberbrückbar** *adj.* **1.** keçilməz; **2.** *fig. (Gegensätze usw.)* aradan qaldırılmaz, barışılmaz.

**unüberlegt** *adj.* düşünülməmiş, fikirləşməmiş, kor-koranə, gözübağlıca, düşüncəsiz; *adv.* necə gəldi, necə oldu; düşünmədən, qarasına, düşərinə; *F ~ handeln* dəlilik etmək.

**unübersehbar** *adj.* görünməmiş, ciddi, dəhşətli; çox böyük; saysız, gözə çarpan, ucsuz-bucaqsız, hədsiz-hüdudsuz, həddi-hesabı olmayan.

**unübersetzbar** *adj.* tərcümə edilməz

*(olunmaz)*, tərcüməsi mümkün olmayan, çevrilə bilməz.

**unübersichtlich** *adj.* yaxşı görünə bilməyən, yaxşı müşahidə edilə bilməyən; örtülü, bağlı, aydın olmayan, qarışıq.

**unübertrefflich** *adj.* tayı-bərabəri olmayan, misli olmayan, misilsiz.

**unübertroffen** *adj.* üstün; tayı-bərabəri olmayan, misilsiz.

**unüberwindlich** *adj.* yenilməz, məğlubedilməz, pozulmaz; kənar edilməz.

**unüblich** *adj.* işlədilməyən; adətdənkənar.

**unumgänglich** *adj.* *(erforderlich)* vacib, labüd, zəruri, təxirəsalınmaz.

**unumkehrbar** *adj.* bərpaolunmaz; qayıtmaz, dönməz, dəyişdirilə bilməyən.

**unumschränkt** *adj.* hədsiz, hüdudsuz, qeyri-məhdud.

**unumstößlich** *adj.* təkzibedilməz, səbatlı, dəyişdirilməz; gerialınmaz, qarşısıalınmaz, yenilməz, pozulmaz.

**unumstritten** *adj.* sözsüz, mübahisəsiz; qəti, son.

**unumwunden** *adj.* açıq, düz; *adv.* birbaşa, açıqcasına.

**ununterbrochen** *adj.* arasıkəsilməz, fasiləsiz, aramsız, hey, hərdəm; *adv.* durmadan, ardı-arası kəsilmədən, dayanmadan, dalbadal, axşam-sabah, anbaan, daim, hey, peydərpey, dəqiqəbədəqiqə, dəmbədəm, dəqiqəbaşı, dönmədən, durmaqsızın, içəiç; *sie redet ~* dayanmadan *(hey)* danışır, dalbadal söz döşəyir.

**unveränderlich** *adj.* dəyişilməyən, dəyişilməz.

**unverändert** *adj.* dəyişilməmiş, dəyişməmiş, sabit.

**unverantwortlich** *adj.* səhlənkar, məsuliyyətsiz, dərrakəsiz, səhlənkarlıqla, məsuliyyətsizcəsinə.

**unveräußerlich** *adj.* *(unverkäuflich)* satılmaz, satışa buraxılmaz, özgəninkiləşdirilə bilməyən; dəyişilməz.

**unverbesserlich** *adj.* düzəlməz, islahol(un)maz, adam olmaz, islahedilməz.

**unverbindlich** *adj.* **1.** məcburi olmayan, könüllü; **2.** *(reserviert)* soyuq; *e-e ~e Antwort* soyuq cavab.

**unverblümt** *adj.* açıq, aydın; *~ reden* açıq danışmaq.

**unverbraucht** *adj.* işlənməmiş, istifadə olunmamış; təzə; *~e Luft* təzə hava.

**unverbrüchlich** *adj.* qırılmaz, yenilməz, sarsılmaz, pozulmaz, möhkəm, tutarlı.

**unverbürgt** *adj.* mötəbər olmayan, doğru olmayan, əsassız.

**unverdächtig** *adj.* şübhəli olmayan.

**unverdaulich** *adj.* **1.** həzm olmayan; **2.** *fig.* çətin anlaşılan, anlaşılmaz.

**unverdaut** *adj.* həzmedilməmiş.

**unverderblich** *adj.* çürüməz, xarab olmaz.

**unverdient** *adj.* layiq olmayan, haqsız.

**unverdientermaßen** *adv.* ədalətsiz olaraq, layiq olmadan, haqsız yerə.

**unverdienterweise** *adv.* *s. unverdientermaßen.*

**unverdorben** *adj.* xarab olmamış, pozulmamış; *fig.* təmiz insan, şərəfli insan.

**unverdrossen** *adj.* yorulmaz, yorğunluq bilməz; *adv.* həvəslə, yorulmadan.

**unverdünnt** *adj.* su qatılmamış, xalis, durulaşdırılmamış.

**unvereinbar** *adj.* bir araya sığışmaz, uyuşmaz.

**Unvereinbarkeit,** *die; -* bir araya sığışa bilməmə, ayrılıq, ziddiyyət, çəkişmə.

**unverfälscht** *adj.* xalis, saf, əsil.

**unverfänglich** *adj.* ziyansız, zərərsiz, təhlükəsiz, xətərsiz.

**unverfroren** *adj.* həyasız, üzlü, sırtıq.

**Unverfrorenheit,** *die; -, -en* həyasızlıq.

**unvergänglich** *adj.* ölümsüz, əbədi.

**unvergessen** *adj.* yaddan çıxmamış.

**unvergesslich** *adj.* unudulmaz.

**unvergleichlich** *adj.* müqayisəedilməz, tayı-bərabəri olmayan, bənzərsiz; əvəzsiz.

**unverhältnismäßig** *adv.* nisbətsiz, tə-

nasübsüz.

**unverheiratet** *adj.* subay, evlənməmiş; ərə getməmiş.

**unverhofft** *adj.* gözlənilməz, gözlənilməyən.

**unverhohlen** *adj.* açıq, aşkar, aydın.

**unverhüllt** *adj.* bürünməmiş, açıq.

**unverkäuflich** *adj.***1.** satışa buraxılmayan; **2.** *(nicht nachgefragt)* satılmayan.

**unverkauft** *adj.* satılmamış.

**unverkennbar** *adj.* aydın, açıq, aşkar.

**unverletzlich** *adj.* **1.** yaralanmaz, sarsılmaz; **2.** *fig. jur.* toxunulmaz.

**Unverletzlichkeit,** *die; - jur.* toxunulmazlıq, sarsılmazlıq.

**unverletzt** *adj.* yaralanmamış, salamat qalmış.

**unvermeidlich** *adj.* zəruri, labüd, gərəkli; qabağıalınmaz, qarşısıalınmaz.

**unvermindert** *adj.* azalmayan, kiçilməyən, kiçilməz.

**unvermischt** *adj.*xalis, qatılmamış, aşqarsız, çim.

**unvermittelt** *adj.* birdən-birə, qəflətən; *adv.* qəflətən, xəbərsiz.

**Unvermögen,** *das; -s* bacarıqsızlıq, gücsüzlük, imkansızlıq.

**unvermögend** *adj.* bacarıqsız, aciz, zəif; yoxsul, varsız.

**unvermutet** *adj.* gözlənilməyən, ani, gözlənilməz.

**Unvernunft,** *die; -* düşüncəsizlik, ağılsızlıq.

**unvernünftig** *adj.* ağılsız, düşüncəsiz.

**unveröffentlicht** *adj.* bildirilməmiş, yayılmamış.

**unverpackt** *adj.* qablaşdırılmamış.

**unverrichtet, ~er Dinge, ~er Sache** *adj.* edilməmiş, yerinə yetirilməmiş; nəticəsiz, əbəs, boş yerə.

**unverrückbar** *adj.* sarsılmaz, möhkəm, dayanaqlı; tərpənilməz.

**unverschämt** *adj.***1.** utanmaz, həyasız, abırsız, sırtıq, füzul, biabır, biar, çəngi, çəpəl; nainsaf, arsız; *F* diliboz; **2.** *(Preise usw.)* çox baha, həddən artıq baha; *auf ~e Weise* biabırcasına.

**Unverschämtheit,** *die; -, -en* utanmazlıq, həyasızlıq, insafsızlıq, nainsaflıq, arsızlıq.

**unverschleiert** *adj.* **1.** örtüksüz, açıq; **2.** *(Frau)* çarşabsız.

**unverschließbar** *adj.* qıfıllanmayan, qıfıllana bilməz.

**unverschlossen** *adj.* açıq; qıfıllanmamış; *~e Flasche* ağzı açıq şüşə.

**unverschuldet** *adj.* günahsız, təqsirsiz.

**Unversehens** *adv.* qəflətən; gözlənilmədən.

**unversehrt** *adj.* sağ-salamat, əl dəyməmiş, zədəsiz.

**Unversehrtheit,** *die; -* bütövlük, toxunulmazlıq; sağlamlıq.

**unversenkbar** *adj.* bat(ıril)maz.

**unversichert** *adj.* sığorta edilməmiş.

**unversiegbar** *adj.* tükənməz, qurtarmayan.

**unversiegelt** *adj.* möhürlənməmiş.

**unversöhnlich** *adj.* barışmaz.

**unversorgt** *adj.* təmin edilməmiş.

**Unverstand,** *der; -(e)s* anlaşıqsızlıq, dərrakəsizlik.

**unverstanden** *adj.* anlaşılmamış, başa düşülməmiş.

**unverständig** *adj.* ağılsız, düşüncəsiz.

**unverständlich** *adj.* anlaşılmaz, başa düşülməyən; *ein ~es Verhalten* anlaşılmaz rəftar *(davranış).*

**Unverständlichkeit,** *die; -* anlaşılmazlıq, dərkedilməzlik, başa düşülməzlik.

**Unverständnis,** *das; -ses* anlamama, başa düşməmə.

**unversteuert** *adj.* vergisiz.

**unversucht** *adj.* yoxlanılmamış; *nichts ~ lassen* bütün vasitələrdən istifadə etmək.

**unverteidigt** *adj.* müdafiəsiz.

**unverträglich** *adj.* **1.** *(streitsüchtig)* dözülməz, yolagetməz, bədrəftar; uyuşmaz;**2.** *med.* düşməmək; uyğun gəlməmək **3.** *(Speise)* çətin həzm olunan.

**unverwandt** *adj.* diqqətli; *j-n ~ ansehen* gözləri qırpmadan bir kəsə baxmaq, gözdən qoymamaq;*adv.*diqqətlə;daimi.

**unverwechselbar** *adj.* dəyişik salınmaz, qarışılmaz, özünə məxsus.

**unverwehrt** *adj.* maneəsiz; *es ist Ihnen ~ zu Inf.* *-məkdə* azadsız, *-məyə* ixtiyarınız var.

**unverweilt** *adv.*dayanmadan, təcili, təxirə salınmadan.

**unverwertbar** *adj.* istifadə oluna bilməyən, daha işlədilə bilməyən.

**unverwischbar** *adj.* silinməz; unudulmaz, yaddan çıxılmaz.

**unverwundbar** *adj.* yaralanmaz.

**unverwundet** *adj.* yaralanmamış.

**unverwüstlich** *adj.* **1.** dağıdıla bilməz; **2.** *fig.* möhkəm, sarsılmaz, yıxılmaz.

**unverzagt** *adj.* qorxmaz, qorxusuz.

**unverzeihbar** *adj.* bağışlanılmaz.

**unverzeihlich** *adj.* bağışlan(ıl)maz.

**unverzichtbar** *adj.* əl çəkilməz, üz döndərilməz, vaz keçilməz.

**unverzinnt** *adj.* qalaysız.

**unverzinslich** *adj.* faizsiz; *~es Darlehen* faizsiz borc.

**unverzollt** *adj.* gömrüksüz, rüsumsuz.

**unverzüglich** *adj.*təxirəsalınmaz, təcili, yubadılmaz; *adv.* ləngimədən, acilən, çəkinmədən, yubanmadan.

**unvollendet** *adj.* bitməmiş, başa çatmamış, yarımçılıq, natamam.

**unvollkommen** *adj.* yarımçıq, natamam, əskik, kəsirli.

**Unvollkommenheit,** *die; -* nöqsan, əskiklik, natamamlıq, əgər-əskik*(lik)*, çatışmazlıq, kəsirlilik.

**unvollständig** *adj.* bitməmiş, yarımçıq, əskik, yarımçılıq; qüsurlu, kəsir, naqis.

**unvorbereitet** *adj.* hazırlıq görülmədən; hazırlıqsız *(auf A/-ə).*

**unvordenklich** *adj.* qədim, çox qədim; *seit ~en Zeiten* qədim zamandan bəri.

**unvoreingenommen** *adj.* tərəfsiz, qərəzsiz.

**Unvoreingenommenheit,** *die; -* tərəfsizlik, qərəzsizlik, obyektivlik.

**unvorhergesehen** *adj.* gözlənilməyən, nəzərə tutulmayan; *~e Probleme* ağla gəlməyən *(ağla gəlməz)* məsələlər.

**unvorschriftsmäßig** *adj.* nizamnaməyə zidd, qaydaya zidd.

**unvorsichtig** *adj.* ehtiyatsız; *adv.* ehtiyatsızlıqla, ehmalsız; *~ sein* ehtiyatı əldən buraxmaq, ehtiyatsız olmaq.

**Unvorsichtigkeit,** *die; -, -en* ehtiyatsızlıq, üsulsuzluq; ehtiyatsız hərəkət.

**unvorstellbar** *adj.* ağlagəlməz, ağlabatmaz, təsəvvüredilməz, xeyala gətirilə bilməyən, dərkedilməz.

**unvorteilhaft** *adj.* **1.** xeyirsiz, mənfəətsiz, sərfəsiz; **2.** *(Frisur, Kleid)* yaraşmaz.

**unwägbar** *adj.* *(Risiko)* ölçülüb-biçilməyən, hesab oluna bilməyən.

**unwahr** *adj.* yalan, doğru olmayan, yalan yerə, batil, əsassız, əsilsiz.

**Unwahrheit,** *die; -, -en* yalan, xilaf; *die ~ sagen* yalan demək.

**unwahrscheinlich** *adj.* mümkün olmayan, ağlasığmaz, ehtimalı olmayan, doğruya oxşamayan, inanılmaz.

**Unwahrscheinlichkeit,** *die; -* mümkün olmama, ağlasığmazlıq, güman edilə bilməyən şey.

**unwandelbar** *adj.* dəyişməz, dəyişməyən.

**unwegsam** *adj.* *(Gelände)* keçilməz, yolu xarab; işlək olmayan.

**unweiblich** *adj.*qadınlığa yaraşmayan.

**unweigerlich** *adj.* danışıqsız, hökmən, qəti, labüd.

**unweit** *präp. G* yaxınlığında; *~ der Stadt* şəhərin yaxınlığında.

**Unwert,** *der; -(e)s* dəyərsizlik; layiqsizlik.

**unwert** *adj.* layiq olmayan *(G/-ə).*

**Unwesen,** *das; -s* biabırçılıq, pislik, azğınlıq; *sein ~ treiben* azğınlıq etmək.

**unwesentlich** *adj.* əhəmiyyətsiz, ikinci dərəcəli, cüzi.

**Unwetter,** *das; -s, -* pis hava, fırtına, boran.

**unwichtig** *adj.* əhəmiyyətsiz, önəmsiz, gərəksiz, dəyərsiz.

**unwiderlegbar** *adj.* təkzibedilməz, inkaredilməz; tutarlı.

**unwiderruflich** *adj.*gerialınmaz, qayıtmaz; qəti olaraq.

**unwidersprochen** *adj.* qarşılıqsız, cavabsız.

**unwiderstehlich** *adj.* **1.** qarşısıalınmaz, dayanılmaz; **2.** *(sehr anziehend)* cəzbedici, cazibəli.

**unwiederbringlich** *adj.* qaytarılmayan, keçib-getmiş.

**unwiederholbar** *adj.* təkrar olmaz,təkrar olmayan.

**Unwille,** *der; -ns* narazılıq; acıq, hirs; *fig. s-m ~n Luft machen* narazılığını dilə gətirmək.

**Unwillen,** *der; -s s. Unwille.*

**unwillig** *adj.* narazı, hirsli; *adv.* könülsüz, həvəssiz, istəksiz, ağızucu.

**unwillkommen** *adj.* istənilməyən, xoşa gəlməyən; vaxtsız, münasib olmayan.

**unwillkürlich** *adj.* istəmədən, iradə etmədən, iradəsiz, özündən asılı olmayan.

**unwirklich** *adj.* həqiqi olmayan, xəyalı, real olmayan.

**unwirksam** *adj.* təsirsiz; nəticəsiz, effektsiz; etibarsız.

**unwirsch** *adj.* kobud, mehriban olmayan; tərs.

**unwirtlich** *adj.* **1.** xoşa gəlməyən; **2.** *(einsam)* tək, tənha; **3.** *(regnerisch und kalt)* pis hava, soyuq hava.

**unwirtschaftlich** *adj.* təsərrüfatsız; mənfəətsiz, bəhrəsiz.

**unwissend** *adj.* biliksiz, avam, cahil; xəbərsiz *(çox şeydən); adv.* cahilanə.

**Unwissenheit,** *die; -* biliksizlik, avamlıq, cəhalət, qanmazlıq, naşılıq.

**unwissenschaftlich** *adj.* qeyri-elmi, elmsiz.

**unwissentlich** *adj. u. adv.* bilmədən, istəmədən, qəsdən olmayaraq.

**unwohl** *adj.* kefsiz, narahat, sayrı; *sich ~ fühlen* özünü narahat *(pis)* hiss etmək, bircürə olmaq, halbahal olmaq.

**Unwohlsein,** *das; -s* kefsizlik, əzginlik, naxoşluq.

**unwürdig** *adj.* ləyaqətsiz, layiqsiz, rəzil; naqabil.

**Unzahl,** *die; -* çox böyük miqdar, saysız-hesabsız miqdar.

**unzählbar** *adj.* saysız-hesabsız, hesaba gəlməyən, saysız, hədsiz-hesabsız.

**unzählig** *adj.* saysız, çoxsaylı, saysızhesabsız, ədədsiz, əndazəsiz, hesabagəlməz.

**unzähmbar** *adj.* tabe olmayan, tərbiyə olmayan, vəhşi, ipəyatmaz.

**unzart** *adj.* kobud.

**Unze,** *die; -, -n* uns*(iya) (28 Gramm).*

**Unzeit,** *die; -, -en : zur ~* vaxtsız, müsaid olmayan vaxtda.

**unzeitgemäß** *adj.* vaxtı keçmiş, modadan düşmüş, köhnəlmiş, əski.

**unzerbrechlich** *adj.* sınmayan.

**unzerlegbar** *adj.* bölünməz, ayrılmaz.

**unzerreißbar** *adj.* cırılmayan, yırtılmayan, qırılmaz.

**unzerstörbar** *adj.*dağılmaz, sarsılmaz, qırılmaz, yenilməz, pozulmaz.

**unzertrennlich** *adj.* ayrılmaz, qırılmaz.

**unziemend** *adj.* ədəbsiz, yaramaz, nalayiq.

**unziemlich** *adj. s. unziemend.*

**unzivilisiert** *adj.* mədəniyyətsiz.

**Unzucht,** *die; -* əxlaqsızlıq; fahişəlik, mənəvi pozğunluq.

**unzüchtig** *adj.* əxlaqsız, iffətsiz, pozğun, sapqın.

**unzufrieden** *adj.* gileyli, narazı *(mit D/-dən).*

**Unzufriedenheit,** *die; -* narazılıq; etiraz*; F ~ zeigen* dodaqlarını büzmək; *F* ağzını əymək, ağız əymək.

**unzugänglich** *adj.* **1.** *(Gelände usw.)* keçilməz; münasib olmayan; **2.** *(Mensch)* əlçatmaz, yanına buraxmayan, əldəyməz; söz eşitməyən; *~ machen* bərkitmək.

**unzulänglich** *adj.* çatmayan, kifayət etməyən, az.

**Unzulänglichkeit,** *die; -, -en* çatmamazlıq, nöqsan.

**unzulässig** *adj.* yolverilməz, dözülməz, qəbuledilməz; qadağan.

**Unzulässigkeit,** *die; -* dözülməzlik, yolverilməzlik.

**unzumutbar** *adj.* qəbul olunmaz.

**unzurechnungsfähig** *adj.* iradəsiz, ağlı başında olmayan; qanuni məsuliy-

yətdən azad.

**Unzurechnungsfähigkeit,** *die; -* *jur.* qanuni məsuliyyətdən azad olma.

**unzureichend** *adj.*kifayət etməyən, yetərsiz, əskik.

**unzusammenhängend** *adj.* əlaqəsiz; məntiqsiz.

**unzuständig** *adj.* səlahiyyətsiz, məsuliyyətsiz; *-ə* aid olmama.

**unzustellbar** *adj.* çatdırıla bilməz, verilə bilməz.

**unzuträglich** *adj.* zərərli; qeyri-sağlam.

**unzutreffend** *adj.* yalan, saxta, yanlış.

**unzuverlässig** *adj.* etibarsız, vəfasız, dönük, etimadsız; yanlış.

**Unzuverlässigkeit,** *die; -* etibarsızlıq, vəfasızlıq, dönüklük.

**unzweckmäßig** *adj.* məqsədə uyğun olmayan.

**unzweideutig** *adj.* açıq, tamamilə aydın; birmənalı.

**unzweifelhaft** *adj.* şübhəsiz.

**Update,** *das; -s, -s* aktuallaşdırmaq.

**üppig** *adj.* **1.** *(rundlich)* kök; **2.** *(reichlich)* bol, çoxlu; **3.** *F* qoçaq, ürəkli; qudurmuş.

**Üppigkeit,** *die; -* bolluq, çoxluq.

**Urabstimmung,** *die; -, -en* tətil etmə haqda sindika üzvlərinin səs verməsi.

**Urahn,** *der; -en, -en* ulu baba, əcdad.

**Urahne,** *die; Urahnin, -n* ulu nənə.

**Ural,** *der; -* Ural.

**uralaltaisch** *adj.* Ural-Altay.

**uralt** *adj.* çox qədim, çox əski.

**Uran,** *das; -s* uran.

**uranhaltig** *adj.* tərkibində uran olan.

**Uranus,** *der; -* *astr.* Uranus.

**Uraufführung,** *die; -, -en* *Th.* ilk tamaşa.

**urban** *adj.* **1.** nəzakətli; ziyalı; **2.** *(städtisch)* şəhərli.

**urbar** *adj.* becərilmiş, şum üçün yarayan, əkilə bilən; *~ machen* şumlamaq.

**Urbarmachung,** *die; -* xam torpağın şumlanması, tarlalaşdırmaq.

**Urbedeutung,** *die; -* ilk məna.

**Urbild,** *das; -(e)s, -er* ilk nümunə, örnək.

**Urdu,** *das; -* Ordu dili.

**ureigen** *adj.* xas olan; şəxsi; xüsusi; *das ist meine ~ste Angelegenheit* bu mənim ən şəxsi məsələmdir.

**Ureinwohner,** *der; -s, -* yerli sakin.

**Urenkel,** *der; -s, -* nəticə, nəvənin oğlu.

**Urenkelin,** *die; -, -nen* nəticə, nəvənin qızı.

**Urform,** *die; -, -en* ibtidai forma; ilk növ.

**Urgeschichte,** *die; -* tarixdən qabaq *(öncə)*, prehistoriya.

**Urgesellschaft,** *die; -* ibtidai icma dövrü *(quruluşu)*, ibtidai cəmiyyət.

**Urgewalt,** *die; -, -en* kor-təbii qüvvə, təbiətin əsas gücü.

**Urgroßmutter,** *die; -, -¨* böyük nənə babanın yaxud nənənin anası.

**Urgroßvater,** *der; -s, -¨* böyüknənənin *(od. böyükdədənin)* atası.

**Urheber,** *der; -s, -* **1.** *jur.* səbəbkar, təşəbbüskar, baiskar, bir fikri irəli sürən; qurucu, yaradan, təqsirkar; **2.** bir əsərin yaradıcısı, müəllif.

**Urheberrecht,** *das; -(e)s, -e* müəlliflik hüququ.

**Urheberschaft,** *die; -* müəlliflik.

**Urheimat,** *die; -* ata-baba*(lar)* yurdu.

**Urin,** *der; -s* sidik, idrar, bövl.

**urinieren** *vt* işəmək, idrar etmək.

**Urinuntersuchung,** *die; -, -en* idrar analizi.

**Urkunde,** *die; -, -n* vəsiqə, sənəd, mükafat vərəqəsi, şəhadətnamə; akt.

**Urkundenfälscher,** *der; -s, -* sənəd saxtakarı.

**Urkundenfälschung,** *die; -, -en* sənəd saxtakarlığı, sənədləri saxtalaşdırma.

**urkundlich** *adj.* rəsmi, sənədli.

**Urlaub,** *der; -(e)s* məzuniyyət; *im ~* məzuniyyətdə; *in ~ gehen* məzuniyyətə çıxmaq; *~ nehmen* məzuniyyət almaq.

**Urlauber,** *der; -s, -* məzuniyyətdə olan, məzuniyyətə çıxan.

**Urlaubsgeld,** *das; -(e)s, -er* məzuniyyət pulu.

**Urlaubszeit,** *die; -, -en* məzuniyyət vaxtı.

**Urmensch,** *der; -en, -en* ibtidai insan.

**Urne,** *die; -, -n* **1.** kül küzəsi; **2.** *(Wahlurne)* səsvermə qutusu *(sandığı).*

**Urologe,** *der; -n, -n* urologiya mütəxəssisi, uroloq.

**Urologie,** *die; -* urologiya *(Süd. : uroloji),* idrar yolların xəstəliklərini araşdıran tibb sahəsi.

**urplötzlich** *adj.* birdən, gözlənilmədən.

**Ursache,** *die; -, -n* səbəb, nədən, amil, bəhanə, bais; *fig.* əsbab; *keine ~!* təşəkkürə dəyməz!, bir şey deyil!; *F* halal xoşunuz olsun!, halal olsun!; *~ und Folge* səbəb və nəticə; *ohne ~* səbəbsiz, nədənsiz.

**ursächlich** *adj.* səbəbiyyət.

**Urschrift,** *die; -, -en* sənədin ilk nüsxəsi, mətnin əsli.

**Ursprung,** *der; -(e)s, -¨e* mənbə, qaynaq, başlanğıc, kök, mənşə, məxəz, damar, əsl, əsl-nəsəb.

**ursprünglich** *adj.* ilk(in), başlanğıc, başlanğıcından, kökündən, ibtidai; *adv.* əsasən, əslən; əzəlki.

**Ursprungsland,** *das; -(e)s, -¨er* malı istehsal edən ölkə.

**Ursprungszeugnis,** *das; -ses, -e* sənədin ilk nüsxəsi.

**Urteil,** *das; -s, -e* **1.** *jur.* hökm, qərar, yarğı, rəy; *ein ~ fällen* hökm *(qərar)* çıxartmaq *(vermək)*; **2.** *(Bewertung, Entscheidung)* qiymət vermə, dəyərləndirmə; fikir, rəy, mülahizə; *sich (D) ein ~ bilden (über A/bir şeyin barəsində qərara gəlmək),* .

**urteilen** *vi* hökm *(qərar, rəy)* söyləmək *(über A/ nəyincə haqqında).*

**Urteilseröffnung,** *die; -, -en* hökmün *(qərarın)* elan edilməsi.

**urteilsfähig** *adj.* səriştəli, etibarlı.

**Urteilskraft,** *die; -* düşüncə, ağıl, qəzavət qüvvəsi.

**Urteilsverkündung,** *die; -, -en* hökmün elanı.

**Urteilsvermögen,** *das; -s* *s. Urteilskraft.*

**Urtext,** *der; -(e)s, -e* ilk mətn, əsl, orijinal.

**urtümlich** *adj.* ibtidai, ilkin, toxunulmamış, təbii, doğal.

**Urtümlichkeit,** *die; -* doğallıq, təbiilik.

**Urgroßmutter,** *die; -, -¨* nənənin *(dədənin)* nənəsi.

**Urgroßvater,** *der; -s, -¨* nənənin *(babanın)* babası.

**Uruguay;** *-s* Uruqvay.

**Urvater,** *der;-s, -¨* ulu baba; həzrəti Adəm.

**Urväterzeit,** *die; -, -en* çox qədim zaman, Nuh vaxtları.

**Urwald,** *der; -es, -¨er* balta dəyməmiş meşə, tropik meşə.

**urwüchsig** *adj.* *(natürlich)* təbii; orijinal; kor-təbii; *(einfach)* sadə.

**Urzeit,** *die; -, -en* ibtidai zamanlar *pl.; vor ~en* çox qədim zamanlarda.

**Urzelle,** *die; -, -n* *biol.* ilk hüceyrə.

**Urzustand,** *der; -(e)s, -¨e* ilk vəziyyət.

**USA** *(die Vereinigten Staaten von Amerika)* Amerika Birləşmiş Ştatları.

**Usbeke,** *der; -n, -n* özbək.

**usbekisch** *adj.* özbək, özbəklərə məxsus; özbəkcə.

**Usbekistan;** *-s* Özbəkistan.

**Usurpation,** *die; -, -en* qəsb etmə.

**Usurpator,** *der; -s, -en* qəsb edən, qəsbkar, zorla ələ keçirən.

**usurpieren** *vt* zorla ələ keçirmək, qəsb etmək.

**Usus,** *der; -* adət, ənənə; *das ist bei uns so ~* bu bizdə belə adətdir.

**usw.** = *und so weiter* və sairə.

**Utensilien** *die/pl.* ləvazimat.

**Uterus,** *der; -, -ri* *anat.* uşaqlıq.

**Utilitarismus,** *der; -* mənfəətpərəstlik, yararçılıq.

**utilitaristisch** *adj.* mənfəət gözləyən.

**Utopie,** *die; -, -n* utopi*(ya)*, xam xəyal; xəyal, istək arzu; fantazi*(ya).*

**utopisch** *adj.* utopik, xəyali.

**Utopist,** *der; -en, -en* xəyalpərəst, utopist.

**uzen** *vt* *F* ələ salmaq.

# V

**V, v** *das; -s* Alman əlifbasının iyirmi ikinci hərfi.

**Vagabund,** *der; -en, -en* yurdsuz-yuvasız adam, avara.

**vagabundieren** *vi* səfil-sərgərdan gəzmək, avara gəzmək.

**vage** *adj.* şübhəli, mütərəddid, etibarsız.

**Vagina,** *die; -, -nen anat.* uşaqlıq yolu.

**vakant** *adj. (Arbeitsstelle)* boş yer.

**Vakanz,** *die; -, -en (Stelle)* boş yer.

**Vakuum,** *das; -s, -kua u. –kuen* boşluq, vakuum; havasız.

**Vakuumbremse,** *die; -, -n* vakuumlu tormuz.

**vakuumverpackt** *adj.* vakuumlanmış paket.

**Vakzination,** *die; -, -en med.* peyvənd *(Süd. : vaksən).*

**vakzinieren** *vt med.* peyvənd etmək *(Süd. : vaksənləmək, vaksen vurmaq).*

**Valuta,** *die; -, -ten* xarici ölkə pulu, valyuta.

**Vampir,** *der; -s, -e* **1.** *zo.* vampir, yarasanın bir növü ; **2.** *fig.* qan içən.

**Vandale,** *der; -n, -n* **1.** *hist.* vandal, şərq Germaniyada yaşamış xalq; **2.** *fig.* barbar, vəhşi, yıxıb-dağıdan.

**Vandalismus,** *der; -* vəhşilik, barbarlıq.

**Vanille,** *die; -* vanil.

**variabel** *adj.* dəyişkən, qeyri-sabit.

**Variabilität,** *die; -* dəyişkənlik.

**Variante,** *die; -, -n* variant.

**Variation,** *die; -, -en* **1.** *(Abwandlung)* dəyişiklik; şəklini dəyiş(dir)mə; **2.** *mus.* variasiya *(Süd. : variasyon).*

**Varieté,** *das; -s, -s* varyete, teatr və akrobat nümayişi; varyete nümayişi, məzhəkə.

**variieren** *vt* dəyişdirmək, eyni şeyi müxtəlif şəkildə göstərmək; *vi* dəyişmək.

**Vasall,** *der; -en, -en hist.* tabe, bağlı; kölə, vasal.

**Vase,** *die; -, -n* güldan.

**Vaseline,** *die; -* vazelin.

**Vater,** *der; -s, -¨* ata, dədə; *~ von drei Kindern* üç uşağın atası.

**Vaterland,** *das; -s, -¨er* vətən, yurd, doğma vətən.

**vaterländisch** *adj.* **1.** vətənə məxsus, vətən, yurdsal; **2.** *(patriotisch)* vətənpərvər, yurdsevən.

**Vaterlandsliebe,** *die; -* vətən sevgisi, vətənpərvərlik, vətənə məhəbbət.

**Vaterlandsverräter,** *der; -s, -* vətən xaini.

**väterlich** *adj.* **1.** ata kimi, atayana; **2.** atadan qalma.

**väterlicherseits** *adv.* ata tərəfindən.

**vaterlos** *adj.* atasız.

**Vatermörder,** *der; -s, -* **1.** öz atasını öldürən, ata qatili; **2.** *fig. (steifer Kragen)* dik yaxalıq.

**Vaterschaft,** *die; -, -en* atalıq, dədəlik.

**Vaterschaftsanerkennung,** *die; -* atalığı tanıma.

**Vaterschaftsklage,** *die; -, -n* atalıq haqqında şikayət, uşağın hansı atadan olduğu haqda məhkəmə.

**Vaterstadt,** *die; -, -¨e* doğma şəhər.

**V- Ausschnitt,** *der; -(e)s, -e* V- şəklində yaxa.

**Vati,** *der; -s-, -s (Kindersprache)* ata.

**Vatikan,** *der; -s* Vatikan.

**Vegetarier,** *der; -s, -* vegetar, ət yeməyən adam.

**vegetarisch** *adj.* **1.** *(pflanzlich)* ətsiz; **2.** ət yeməyən, vegetar.

**Vegetation,** *die; -, -en* bitki, nəbatat, göylük.

**vegetativ** *adj.* **1.** bitkisəl; **2.** *med.* qeyri-ixtiyari.

**vegetieren** *vi* sürünmək, ölüm-zülümlə dolanmaq.

**vehement** *adj.* coşğun; şiddətli, kəskin, kəsərli, güclü.

**Vehemenz,** *die; -* kəskinlik, coşğunluq.

**Vehikel,** *das; -s, -* **1.** modadan düşmüş motorlu minik; **2.** *fig.* hədəfə çatmaq üçün vasitə.

**Veilchen,** *das; -s, -* bənövşə.

**veilchenblau** *adj.* bənövşəyi.

**Velours,** *der; -, -* məxmər.

**Vene,** *die; -, -n an.* damar, vena.
**Venedig** Venesiya *(Süd. : Venis).*
**Venenentzündung,** *die; -, -en* vena iltihabı, damar iltihabı.
**venerisch** *adj.* zöhrəvi.
**Venezianer,** *der; -s, -* venesiyalı.
**venezianisch** *adj.* venesiyalı.
**Venezuela;** *-s* Venesuela.
**Ventil,** *das; -s, -e* qapaq, ventil.
**Ventilation,** *die; -, -en* havanı dəyişmə, hava vermə *(buraxma).*
**Ventilator,** *der; -s, -en* hava dəyişən, ventilyator.
**ventilieren** *vt* **1.** havanı dəyişmək; **2.** *fig.* yaxşı araşdırmaq, aydınlaşdırmaq.
**Venus,** *die; -* venera, zöhrə, venus, çobanulduzu.
**verabfolgen** *vt* vermək, buraxmaq *(D/-ə).*
**verabreden** *vt* şərtləşdirmək, qərarlaşdırmaq; *vr sich ~* şərtləşmək, razılaşmaq, qərarlaşmaq *(mit D/ilə).*
**Verabredung,** *die; -, -en* **1.** şərtləşmə, razılıq, razılaşma; **2.** *(Treffen)* görüşmə.
**verabreichen** *vt* **1.** *(Medikament usw.)* vermək; **2.** *j-m e-e Tracht Prügel ~* bir kəsi döymək.
**verabsäumen** *vt* səhv buraxmaq, ehmal etmək, unutmaq, yaddan çıxarmaq.
**verabscheuen** *vt* nifrət etmək, zəhləsi getmək, çimçişmək, çiyrənmək.
**verabscheuenswert** *adj.* iyrənc, nifrətli.
**verabscheuenswürdig** *adj.* iyrənc, nifrətli.
**verabschieden** *vt* **1.** yola salmaq, xudahafizləşmək, ayrılmaq; *e-n Gast ~* qonağı yola salmaq; **2.** *(entlassen)* işdən çıxarmaq, azad etmək; *ein Gesetz ~* qanun qəbul etmək; *vr sich ~* ayrılmaq, xudahafizləşmək *(von D/-dən).*
**Verabschiedung,** *die; -, -en* **1.** ayrılma, xudahafizləşmə, vidalaşma, yola sal(ın)ma; *zum ~ erscheinen* xudahafizləşmək üçün təşrif gətirmək, gəlmək; **2.** *(Gesetz)* qanun qəbul etmə .
**verachten** *vt* **1.** nifrət etmək, xor baxmaq; **2.** saymamaq, etina etməmək, barmaqarası baxmaq.
**verachtenswert** *adj.* nifrətəlayiq, alçaq, mənfur.
**verachtet** *adj.* xor, mənfur.
**verächtlich** *adj.* nifrətlə, nifrətəlayiq; saymaz*(yana).*
**Verachtung,** *die; -* nifrət; həqarət.
**verachtungsvoll** *adj.* nifrətlə.
**veralbern** *vt* ələ salmaq, araya qoymaq; *fig.* ələ dolamaq.
**verallgemeinern** *vt* ümumiləşdirmək, yekunlaşdırmaq.
**verallgemeinernd** *adj.* ümumiləşdirici.
**Verallgemeinerung,** *die; -, -en* ümumiləş(dir)mə.
**veralten** *vi* köhnəlmək; əskimək.
**veraltet** *adj.* köhnəlmiş, vaxtı ötmüş, əskimiş.
**Veranda,** *die; -, -den* divarları şüşə ilə örtülü balkon.
**veränderlich** *adj.* dəyişkən, sabit olmayan; düzələ bilən, dəyişilə bilən.
**verändern** *vt* dəyişdirmək; *vr sich ~* **1.** dəyiş(il)mək; *du hast dich sehr verändert* sən çox dəyişilibsən; **2.** *(beruflich)* yerini dəyişmək.
**verändert** *adj.* dəyişik, fərqli.
**Veränderung,** *die; -, -en* dəyişilmə, dəyişiklik, dəyişmə.
**verängstigt** *adj.* gözü qorxmuş.
**verankern** *vt* **1.** lövbər salmaq; **2.** *fig.* bərkitmək, möhkəmlətmək; təsbit etmək, möhkəmləndirmək.
**Verankerung,** *die; -, -en* lövbər salma; möhkəmlətmə, təsbit etmə, möhkəmləndirmə.
**veranlagen** *vt (steuerlich)* vergi verməyə vadar etmək.
**veranlagt** *adj.* **1.** vergisinin həcmi müəyyənləşdirilmiş; **2.** *(körperlich usw.)* meylli, həvəsli; rəğbətli; istedadlı.
**Veranlagung,** *die; -, -en* istedad; məzac, təbiət, meyl; verginin həcmi.
**veranlassen** *vt* **1.** vadar etmək, həvəs oyatmaq, bais olmaq, sövq etmək *(j-n ~ zu Inf. -məyə vadar etmək)*; **2.** *(anordnen)* göstəriş vermək; məcbur etmək.
**Veranlassung,** *die; -, -en* səbəb; təhrik;

*auf ~ von (oder G) -in* əmri ilə, *-in* təşviqi ilə; *du hattest keine ~, so unhöflich zu sein* belə ədəbsiz olmağa heç bir səbəbin yox idi.

**veranschaulichen** *vt* əyaniləşdirmək; başa salmaq, anlatmaq, ifadə etmək.

**Veranschaulichung,** *die; -, -en* başa salma, anlatma, izah olma.

**veranschlagen** *vt* **1.** *(schätzen)* təxmin etmək; hesablamaq; **2.** *(bewerten)* qiymət qoymaq, qiymət müəyyənləşdirmək; *die Kosten ~* xərci təxmin etmək.

**veranschlagt** *adj.* təxmini.

**Veranschlagung,** *die; -, -en* təxmin, hesablama; qiymət qoyma.

**veranstalten** *vt* hazırlamaq, təşkil etmək, tədbir keçirmək.

**Veranstalter,** *der; -s, -* tədbirin təşkilatçısı, tədbir tökən, təşkilatçı.

**Veranstaltung,** *die; -, -en* tədbir.

**verantworten** *vt* cavabdeh olmaq, məsul olmaq; *vr sich ~ wegen G (für A)* hesab vermək, bəraət qazanmağa çalışmaq.

**verantwortlich** *adj.* cavabdeh, məsul, sorumlu, cavabverən; *j-n für et. ~ machen* bir kəsi bir şey üçün məsul etmək, məsuliyyəti kiminsə üstünə qoymaq, üzərinə məsuliyyət qoymaq; *die ~e Person* məsul şəxs.

**Verantwortlichkeit,** *die; -* məsuliyyət, cavabdehlik hissi.

**Verantwortung,** *die; -* məsuliyyət, cavabdehlik; *die ~ übernehmen* məsuliyyət daşımaq, məsuliyyəti boynuna almaq, məsuliyyəti öz üzərinə götürmək; *die ~ ablehnen* məsuliyyəti öz üzərindən götürmək; *zur ~ ziehen* hesab çəkmək.

**Verantwortungsbewusstsein,** *das; -s* məsuliyyət hissi, şüur.

**verantwortungslos** *adj.* məsuliyyətsiz, məsuliyyətsizcəsinə, dərrakəsiz, şüursuz.

**Verantwortungslosigkeit,** *die; -* məsuliyyətsizlik, şüursuzluq.

**veräppeln** *vt F* ələ salmaq, oynatmaq; *fig.* ələ dolamaq; *j-n ~* bir kəsi ələ salmaq.

**verarbeiten** *vt* **1.** işlətmək, düzəltmək; emal etmək; **2.** *(geistig)* düşünmək, fikirləşmək.

**Verarbeitung,** *die; -, -en* işlə(n)mə, emal.

**verärgern** *vt* acıqlandırmaq, küsdürmək.

**verarmen** *vi* yoxsullaşmaq, fağırlaşmaq.

**verarmt** *adj.* yoxsullaşmış, düşkün, əliaşağı, əligödək, əsir-yesir.

**Verarmung,** *die; -, -en* yoxsullaşma, kasıblaşma, müflisləşmə, fağırlıq, düşkünlük, əliaşağılıq.

**verarschen** *vt F* **1.** *(sich lustig machen)* ələ salmaq, oynatmaq; **2.** *(betrügen)* aldatmaq; *fig.* ələ dolamaq.

**verarzten** *vt F* müalicə etmək.

**verästeln** *vr sich ~* bölünmək, şöbələrə ayrılmaq; budaqlanmaq.

**verausgaben** *vt* pul xərcləmək, xərc qoymaq, məsrəf etmək; *vr sich ~* xərcə düşmək; pulunu xərcləyib qurtarmaq.

**veräußerlich** *adj. jur.* satıla bilən.

**veräußern** *vt* satmaq, özgəninkiləşdirmək.

**Veräußerung,** *die; -, -en* **1.** satış, satılma; **2.** *(Rechte)* vermək, başqasının adına keçirtmək, özgəninkiləşdirmə.

**Verb,** *das; -s, -en* fel.

**verbal** *adj.* **1.** *gr.* feli, felə aid; **2.** şifahi ifadə; ağızdan.

**Verbaladjektiv,** *das; -(e)s, -e gr.* feli sifət.

**verballhornen** *vt (Wort)* təhrif etmək; korlamaq.

**Verband,** *der; -(e)s, -¨e* **1.** *med.* sarıq, bint, bandaj; **2.** *(Vereinigung)* birlik, ittifaq, cəmiyyət; **3.** *mil.* hərbi hissə.

**Verband(s)kasten,** *der; -s, ¨-* tibbi yardım qutusu.

**Verband(s)stoff,** *der; -(e)s, -e* sarğı materiyalı.

**Verband(s)zeug,** *das; -(e)s* sarğı materiyalı, bandaj.

**verbannen** *vt* sürgün etmək, ölkədən çıxarmaq, sürgünə göndərmək.

**verbannt** *adj.* sürgün, cəlayi-vətən ol-

muş, dərbədər düşmüş, qovulmuş.

**Verbannung,** *die; -, -en* sürgün, mühacirət, dərbədərlik.

**verbarg** *s. verbergen.*

**verbarrikadieren** *vt* barrikada qurmaq, barrikadalamaq; bərkitmək; *vr sich ~* barrikadanın dalına girmək.

**verbauen** *vt* **1.** tikintiyə sərf etmək; *5 Sack Zement ~* 5 kisə sement sərf etmək; **2.** *(unzweckmäßig bauen)* pis tikmək; **3.** *(Aussicht)* məhv etmək; **4.** *fig. j-m die Möglichkeit usw. ~* bir kəsin yoluna daş atmaq, bir kəsin işinə əngəl yaratmaq.

**verbeamten** *vt* dövlət qulluqçuluğuna almaq, məmurluğa almaq; *j-n ~* kimsəni dövlət qulluqçuluğuna almaq.

**Verbeamtung,** *die; -, -en* dövlət qulluqçuluğuna alma.

**verbeißen** *vt* gizlətmək, yatırtmaq; *sich (D) das Lachen ~* gülməyini saxlamaq; *vr sich in j-n/et. ~ (Tier)* dişiylə yapışmaq, gəmirib qopmamaq; əl çəkməmək; *sich ~ in (A)* -ə ağlını vermək.

**verbergen** *vt* gizlətmək, ört-basdır etmək, üstünü örtmək; *vr sich ~* gizlənmək, daldalanmaq *(vor D/-dən).*

**verbessern** *vt* **1.** *(Fehler usw.)* düzəltmək, islah etmək; **2.***(Leistung usw.)* yaxşılaşdırmaq, sağlamlaşdırmaq; *vr sich ~* yaxşılaşmaq; səhvini düzəltmək.

**Verbesserung,** *die; -, -en* düzəliş, islah olma; yaxşılaşma, səmərələşdirmə.

**verbesserungsbedürftig** *adj.* düzəlişə ehtiyacı olan.

**Verbesserungsvorschlag,** *der; -(e)s, -¨e* səmərələşdirici təklif, yaxşılaşdırma təklifi, düzəliş təklifi.

**verbeugen** *vr sich ~* əyilmək, baş əymək, təzim etmək *(vor D/kiməsə, nəyəsə).*

**Verbeugung,** *die; -, -en* əyilmə, baş əymə, təzim, təbrik; *e-e ~ machen* əyilmək, təzim etmək, baş əymək.

**verbeulen** *vt* əzmək, batırtmaq.

**verbiegen** *vt* əymək, bükmək; *vr sich ~* əyilmək, bükülmək.

**verbiestert** *adj. F* acıqlı, hirsli.

**verbieten** *vt* qadağan etmək, yasaq etmək, qadağanla(t)maq; *j-m den Mund ~* bir kəsin danışmağına icazə verməmək; *Verboten* qadağan, yasaq; *Betreten verboten!* girmək qadağandır!

**verbilden** *vt* korlamaq, şəklini eybəcər hala salmaq, xarab etmək.

**verbilligen** *vt* ucuzlaşdırmaq, ucuzlatmaq.

**Verbilligung,** *die; -, -en* ucuzlaşdırma, qiymətin aşağa salınması.

**verbinden** *vt* **1.** birləşdirmək, əlaqələndirmək, bağlamaq; **2.** *med.* sarımaq, yara bağlamaq; *j-m die Augen verbinden bir kəsin* gözlərini bağlamaq; *vr sich ~* birləşmək; şərik olmaq, ortaqlıq etmək; *ich bin Ihnen für Ihre Hilfe sehr verbunden* sizə köməyiniz üçün çox minnətdaram; *falsch verbunden! (Telefon)* səhv düşmüsünüz!.

**verbindlich** *adj.* **1.** məcburi, vacib; əlaqəli, əlaqədar; rabitəli; **2.** *(höflich)* iltifatlı, nəzakətli; **3.** *(gültig)* etibarlı, keçərli.

**Verbindlichkeit,** *die; -, -en* **1.** *(Höflichkeit)* nəzakət, ədəb; **2.** *(Schulden, Verpflichtung)* borc, vəzifə, öhdəlik, məcburluq.

**Verbindung,** *die; -, -en* əlaqə, bağlantı, birləşmə, rabitə, təmas; *mit j-m in ~ stehen* bir kəslə əlaqədə *(təmasda)* olmaq; *sich mit j-m in ~ setzen* bir kəslə əlaqə yaratmaq, əlaqəyə girmək; *ich bekomme keine ~ (Telefon)* nömrəyə düşə bilmirəm.

**Verbindungslinie,** *die; -, -n* birləşdirici xətt.

**Verbindungsmann,** *der; -(e)s, -¨er u. -leute* araçı, rabit*(əçi).*

**Verbindungstür,** *die; -, -en* ara qapı.

**Verbindungsweg,** *der; -(e)s, -e* birləşdirici yol.

**verbissen** *adj.* **1.** *(grimmig)* acıqlı, qəzəbli, yanıqlı, kinli; **2.** *(hartnäckig)* tərs, inadcıl.

**Verbissenheit,** *die; -* kinlilik, inad, hirs.

**verbitten** *vt sich (D) et. ~* -ə icazə verməmək, etiraz etmək; *ich verbitte mir diesen Ton!* xahiş edirəm mənimlə bu

tərzdə danışmayasınız!; *das verbitte ich mir!* buna icazə vermirəm!.

**verbittern** *vt : j-m das Leben ~* bir kəsin həyatını zəhərləmək.

**verbittert** *adj.* acıqlı; qaraqabaq, üzügülməz.

**Verbitterung,** *die; -* amansızlıq, acılıq; darğınlıq.

**verblassen** *vi* saralmaq, solmaq.

**Verbleib,** *der; -(e)s* olduğu yer, düşdüyü yer; *wissen Sie et. über s-n ~ ?* onun olduğu yerdən xəbəriniz varmi?

**verbleiben** *vi* **1.** qalmaq, bir yerdə olmaq; **2.** *(et. vereinbaren)* qərarlaşmaq, şərtləşmək; *wir sind so verblieben, dass..* biz belə qərarlaşdıq ki...

**verbleibend** *adj.* qalan.

**verbleichen** *vi* solmaq, saralmaq, rəngini itirmək.

**verbleien** *vt* qurğuşunlaşdırmaq.

**verblenden** *vt* **1.** *(Mauerwerk)* üz çəkmək; **2.** *fig.* gözünü qamaşdırmaq, çaşdırmaq, ağlını əlindən almaq.

**Verblendung,** *die; -, -en* **1.** korluq; azma; **2.** üz çəkmə, örtmə.

**verbleuen** *vt F* döymək.

**verblöden** *vt* səfehlə(t)mək.

**verblüffen** *vt* heyrətə salmaq, şaşırtmaq, karıxdırmaq.

**verblüffend** *adj.* karıxdırıcı, şaşdırıcı; *adv.* heyrətamiz.

**verblüfft** *adj.* karıxmış, heyrətlənmiş; *~ sein (von D)* mat-məəttəl qalmaq, çaşıb-qalmaq.

**Verblüffung,** *die; -* heyrət.

**verblühen** *vi* solmaq.

**verblümt** *adj.* cinaslı, məcazı; örtülü; *adv.* üstü örtülü sözlərlə.

**verbluten** *vi* qan aparmaq.

**verbocken** *vt F* korlamaq, xarablamaq.

**verbohren** *vr : sich ~* inad göstərmək, tərslik etmək *(in A/ bir şeydə).*

**verbohrt** *adj.* tərs, inadçı.

**verborgen**[1] *adj.* gizli; *et. im Verborgenen tun* gizli bir iş görmək; *~ sein* gizli olmaq.

**verborgen**[2] *vt* borc vermək.

**Verbot,** *das; -(e)s, -e* qadağan, yasaq, qadağan etmə, qadağanlıq.

**verboten** *adj.* **1.** qadağan edilmiş, yasaq, yolverilməz; *Rauchen ~* papiros çəkmək qadağandır; **2.** *F* gülməli, komik; qəribə; *~ werden* qadağanlaşmaq; *nicht ~* azad.

**verbotenerweise** *adv.* qadağan olduğuna baxmayaraq.

**Verbotsschild,** *das; -(e)s, -er* qadağan işarəsi.

**Verbotszeichen,** *das; -s, -* *s. Verbotsschild.*

**verbrämen** *vt* **1.***(Kleidungstück)*qıraqlarına xəz tikmək, xəzlə bəzəmək; **2.** *fig. e-e Sache ~* bəzəmək, yaldızlamaq.

**verbrannt** *adj.* yanmış; solmuş.

**verbraten** *vt F (Geld)* əbəs yerə sərf etmək.

**Verbrauch,** *der; -(e)s* sərf etmə; istehlak; istifadə; məsrəf.

**verbrauchen** *vt* istehlak etmək, işlətmək, məsrəf etmək, tükətmək; *sich ~* tükənmək.

**Verbraucher,** *der; -s, -* istehlakçı; alıcı.

**Verbrauchsgüter** *die/pl.* istehlak malları, çoxişlənən mallar *pl.*.

**Verbrauchermarkt,** *der; -(e)s, -¨e* istehlak mallarını ucuz satan böyük mağaza, istehlak mağazası.

**Verbraucherverband,** *der; -(e)s, -¨e* istehlakçılar birliyi.

**verbrechen** *vt* **1.** xəta etmək, günah etmək, cinayət etmək, cürm etmək; *was habe ich verbrochen?* nə günah etmişəm?; **2.** *F, scherzh. wer hat diesen Roman verbrochen (geschrieben)?* bu pis romanı kim yazıb?

**Verbrechen,** *das; -s, -* cinayət, cinayətkarlıq, xəbislik, canilik, cürm; *ein ~ begehen* cinayət etmək.

**Verbrechensbekämpfung,** *die; -* cinayətkarlığa qarşı mübarizə.

**Verbrecher,** *der; -s, -* cinayətkar, cani.

**verbrecherisch** *adj.* cinayətkar; cinayətkarcasına.

**verbreiten** *vt* yaymaq, dağıtmaq; *sich ~* yayılmaq, dolaşmaq; sirayət etmək;

ümumiləşmək; *e-e Nachricht ~* xəbər dağıtmaq, xəbər yaymaq.

**verbreitern** *vt* genişləndirmək; *vi* genişlənmək, enlənmək.

**Verbreiterung,** *die; -, -en* yayma; genişlənmə, enlənmə, genişlətmə, sirayət.

**verbreitet** *adj.* yayılmış.

**Verbreitung,** *die; -* yayılma, dağıtılma.

**verbrennen** *vt* yandırmaq; *vi* yanmaq; *sich (D) ~* yanmaq, yandırmaq; *fig. sich (D) die Finger/die Pfoten ~* ziyan görmək, ziyan çəkmək.

**Verbrennung,** *die; -, -en* **1.** yanma, yax(ıl)ma; **2.** *(Brandwunde)* yanıq yeri.

**Verbrennungsmotor,** *der; -s, -en* içyanacaqlıq mühərrik.

**verbriefen** *vt* sənəd ilə təsdiq etmək.

**verbrieft** *adj.* sənədli, rəsmi şəkildə təsdiq olmuş.

**verbringen** *vt* **1.** keçirmək; **2.** *(transportieren)* aparmaq, nəql etmək.

**verbrüdern** *vr sich ~* qardaş kimi olmaq, qardaşlaşmaq *(mit D/ilə).*

**Verbrüderung,** *die; -, -en* qardaşlaşmaq, qardaşlıq.

**verbrühen** *vt* üzərinə qaynar su tökmək; *sich (D) ~* yanmaq; *ich habe mir mit kochendem Wasser den Fuß verbrüht* qaynar su ilə ayağımı yandırdım.

**verbuchen** *vt* dəftərə keçirmək, hesaba yazmaq.

**verbuddeln** *vt* torpaq altına soxmaq, torpaq altında gizlətmək.

**Verbum,** *das; -s, -ba u. -ben s. Verb.*

**verbummeln** *vt* **1.** *F* itirmək; yaddan çıxartmaq; **2.** *(Zeit)* vaxt itirmək, vaxt öldürmək.

**Verbund,** *der; -(e)s, -e u.-¨e* **1.** *H* birləşmə, birlik, ittifaq; **2.** *techn.* hissələrin birləşdirməsi; yapış(dır)ma; bağla(n)ma.

**verbunden** **1.** *s. verbinden;* **2.** *adj.* bağlı; minnətdar; *mit ~en Augen* gözübağlı, bağlı gözlər ilə; *ich bin Ihnen sehr ~* sizə çox minnətdaram; *mit Gefahr ~* təhlükəli olmaq; *falsch ~! (Telefon)* səhv düşüb!

**verbünden** *vr sich ~* birləşmək, ittifaq yaratmaq *(mit D/ilə).*

**Verbundenheit,** *die; -* bağlılıq, sıx əlaqə, sıx birlik, birləşmə.

**verbündet** *adj.* müttəfiq; *die ~en Staaten* müttəfiq dövlətlər.

**Verbündete,** *der u. die; -n, -n* müttəfiq.

**Verbundglas,** *das; -es, -¨er* bir neçə qatlı şüşə.

**Verbundnetz,** *das; -es* bir neçə elektrik stansiyaya bağlanmış şəbəkə.

**verbürgen** *vt* zamin olmaq; *sich ~* zamin olmaq *(für A/-ə).*

**verbüßen** *vt : e-e Strafe ~* cəzani çəkib qurtarmaq.

**Verbüßung,** *die; -* çəkib qurtarma(*cəzanı*); həbs.

**verchartern** *vi (Flugzeug, Schiff)* kirayə *(kirə)* vermək.

**verchromen** *vt* xromla örtmək.

**verchromt** *adj.* xromlu.

**Verdacht,** *der; -(e)s, -e u. -¨e* şübhə, şübhələnmə; *in ~ haben* şübhələnmək; *~ erregen* şübhə oyatmaq; *in ~ stehen* şübhəli olmaq *(zu Inf. /-məyə, məklə).*

**verdächtig** *adj.* şübhəli; *sich ~ machen* özünə qarşı şübhə oyatmaq.

**verdächtigen** *vt* şübhələnmək *(G/nəyə görəsə);* günahlandırmaq; *j-n zu Unrecht ~* babalını yumaq.

**Verdächtigung,** *die; -, -en* şübhə, şübhə altına alma; iftira.

**Verdachtsgrund,** *der; -(e)s, -¨e* şübhənin səbəbi, şübhə üçün əsas.

**Verdachtsmoment,** *das; -(e)s, -e s.Verdachtsgrund.*

**verdammen** *vt* qarğış etmək, lənət oxumaq, lənətləmək; *fig. (zu/-ə)* məhkum etmək.

**verdammenswert** *adj.* qarğışa layiq.

**Verdammnis,** *die; -* qarğış, lənət.

**verdammt** *adj.* lənətə gəlmiş, lənəti, məlun, lənətlik, mənfur; *adv.* hədsiz, uc-bucaqsız; *~es Glück haben* çox şansı *(bəxti)* gətirmək; *dazu ~ sein zu* ömür boyu bir şeyin etməsinə məhkum olmaq.

**Verdammung,** *die; -, -en* məzəmmət, qarğış, lənət.

**verdampfen** *vt* buxarlandırmaq, buxarlatmaq; *vi* buxarlanmaq.

**Verdampfung,** *die; -, -en* buxarlaşma, buxarlanma.

**verdanken** *vt* bir şeyə minnətdar olmaq; *ich habe ihm sehr viel zu ~* mən ona çox minnətdaram.

**verdarb** *s. verderben.*

**verdaten** *vt* kompyuterə yazıb saxlamaq.

**Verdatung,** *die; -, -en* saxlama, ambarlamaq.

**verdattert** *adj. : ~ sein* heyrətlənmək, şaşmaq, çaşıb qalmaq, özünü itirmək.

**verdauen** *vt* həzm etmək; *fig. (begreifen)* düşünmək, başa düşmək; *das kann ich nicht ~!* bunu həzm edə bilmirəm!, bunu düşünə bilmirəm!

**verdaulich** *adj.* həzm ol(un)an; *leicht ~* rahat həzm olan; *schwer ~* ağır həzm olan.

**Verdauung,** *die; -* həzm, həzm etmə.

**Verdauungsapparat,** *der; -(e)s, -e* həzm sistemi.

**Verdauungsstörung,** *die; -, -en* mədə pozğunluğu.

**Verdeck,** *das; -(e)s, -e* **1.** *(e-s Wagens)* körük, üst hissə; **2.** *mar.* göyərtə.

**verdecken** *vt* örtmək; gizlətmək.

**verdenken** *vt : j-m et. nicht ~ können* bir kəsi bir şey üçün təqsirləndirməmək *(məzəmmət etməmək).*

**Verderb,** *der; -(e)s* tələf olma, xarab olma.

**verderben** *vt* tələf etmək,xarab etmək, korlamaq, zay etmək; pozmaq; güdaza vermək; *sich den Magen ~* mədəsini xarab etmək.

**Verderben,** *das; -s* korlanma, məhv olma; fəlakət, bədbəxtlik; pozğunluq *ins ~ stürzen* bədbəxtliyə düşmək.

**verderbenbringend** *adj.* fəlakət gətirən, bədbəxtlik gətirən, məhvedici.

**verderblich** *adj.* **1.** *(Ware)* tez xarabolan, tezkorlanan; **2.** *(unheilvoll)* tələfedici, təhlükəli, məhvedici.

**Verderbnis,** *die; -* korlanma; xarab olma, məhv olma.

**verderbt** *adj. fig.* əxlaqı pozulmuş, çəngi.

**Verderbtheit,** *die; -* xarablıq, korlanma.

**verdeutlichen** *vt* aydınlaşdırmaq.

**verdeutschen** *vt* **1.** Alman dilinə çevirmək; **2.** *F* almanlaşdırmaq.

**verdichten** *vt* qatılaşdırmaq, qəlizləşdirmək; sıxlaşdırmaq; *vr sich ~* qatılaşmaq; sıxlaşmaq.

**Verdichter,** *der; -s, - techn.* kompressor.

**Verdichtung,** *die; -, -en (Gerücht, Nebel)* çoxalma.

**verdicken** *vt* qalınlaşdırmaq; sıxlaşdırmaq; *vr sich ~* qalınlaşmaq; şişmək.

**verdienen** *vt* **1.** *(Geld)* pul qazanmaq, ələ gətirmək; *sein Brot ~* çörək pulu çıxarmaq; **2.** *(Strafe usw.)* layiq olmaq, müstəhəq olmaq; *das habe ich nicht verdient* mən belə bir pis rəftara layiq deyildim *(mənə zulm oldu)*; *er hat es nicht besser verdient!* müstəhəqdır!; *sich verdient machen* xidməti olmaq *(um A/ nədəsə).*

**Verdiener,** *der; -s, -* pul qazanan; ailəni dolandıran.

**Verdienst[1],** *der; -(e)s, -e* qazanc, əmək haqqı.

**Verdienst[2],** *das; -(e)s, -e* xidmət; *es ist sein ~, dass..* onun sayəsindədir ki, ...

**Verdienstausfall,** *der; -s, -¨e* əmək haqqının *(qazancın)* kəsilməsi.

**verdienstlich** *adj.* dəyərli, ləyaqətli.

**Verdienstspanne,** *die; -, -n* mənfəət həddi.

**verdienstvoll** *adj.* dəyərli, ləyaqətli; əməkdar.

**verdient** *adj.* **1.** *(Strafe)* müstəhəq; **2.** *sich ~ machen um -ə* xidməti olmaq; *~er Lehrer* əməkdar müəllim.

**verdientermaßen** *adv.* xidmətinə görə.

**Verdikt,** *das; -(e)s, -e* məhkəmə qərarı, hökm.

**verdingen** *vr : sich ~* işə girmək *(bei D/-in yanında).*

**verdolmetschen** *vt* şifahi tərcümə etmək; *fig.* açıqlamaq.

**verdonnern** *vt* **1.** məcbur etmək; **2.** *F* məhkum etmək *(zu D/-ə); j-n ~, et. zu tun* kimsəni bir şeyin etməsinə məcbur etmək; cəzalandırmaq.

**verdoppeln** *vt* ikiqat artırmaq, cütləmək; *vr sich ~* ikiqat çoxalmaq, cütləşmək.

**Verdoppelung,** *die; -, -en* ikiləşmə, cütləşmə, cütlük.

**verdorben** *adj.* xarab, çürük, zay; *(Ei)* lax; *s. verderben.*

**Verdorbenheit,** *die; -* korlanma, xarablıq, pozğunluq.

**verdorren** *vi (Pflanze usw.)* qurumaq.

**verdrängen** *vt* **1.** sıxışdırıb çıxartmaq; *fig.* fikrindən çıxartmaq; *j-n aus s-r Stellung ~* bir kəsi yerindən çıxarmaq, bir kəsin yerini tutmaq; **2.** *psych.* düşüncəaltı istəkləri gizlətmək, təhtəlşüurda olan niyyətləri *(arzuları)* quylamaq *(basdırmaq); verdrängte Wünsche* basdırılmış arzular, dəfn olmuş arzular.

**Verdrängung,** *die; -, -en* sıxışdırıb çıxartma; *fig.* itilmə, çıxma.

**verdrecken** *vt* çirklətmə; *vi* çirklənmə.

**verdrehen** *vt* **1.** burmaq, burxutmaq, buruqdurmaq; *die Augen ~* gözləri(ni) axıtmaq; **2.** *(Worte)* təhrif etmək.

**verdreht** *adj.* **1.** burxulmuş; **2.** *fig.* ağlı yerindən oynamış, axmaq.

**Verdrehtheit,** *die; - (Verrücktheit)* dəlilik, ağılsızlıq.

**verdreifachen** *vt* üç qat artırmaq.

**verdreschen** *vt F* döymək.

**verdrießen** *vt* təngə gətirmək, ovqatını təlx etmək, hirsləndirmək.

**verdrießlich** *adj.* **1.** *(schlecht gelaunt)* tutqun, qaşqabaqlı; **2.** darıxdırıcı.

**verdross** *s. verdrießen.*

**verdrossen** *adj.* tutqun, qaşqabaqlı, dilxor, narazı.

**Verdrossenheit,** *die; -* tutqunluq, dilxorluq, könülsüzlük, narazılıq, bezginlik.

**verdrucken** *vt* düzgün çap etməmək.

**verdrücken** *vt* çox yemək, tıxmaq; *vr sich ~* əkilmək, əkilib getmək.

**verdruckt** *adj.* düzgün çap olmamış.

**Verdruss,** *der; -es* ovqattəlxlik, dilxorluq, sıxıntı.

**verduften** *vi F* əkilmək, yox olmaq.

**verdummen** *vt* səfehlətmək, ağılsız etmək, beynini yumaq; *vi* səfehlik etmək, ağılsızlıq etmək.

**Verdummung,** *die; -* səfehləş(dir)mə.

**verdunkeln** *vt* qaraltmaq; *vr sich ~* qaralmaq.

**Verdunkelung,** *die; -, -en* qaranlıqlaşdırma.

**Verdunkelungsgefahr,** *die; - jur.* cinayətin yox edilmə təhlükəsi.

**verdünnen** *vt* durulaşdırmaq; sıyıqlaşdırmaq; *vr sich ~* nazikləşmək.

**verdünnisieren** *vr sich ~ F* yox olmaq, əkilmək.

**Verdünnung** *die; -, -en* durul(t)ma.

**verdunsten** *vi* buxarlaşmaq, buğlaşmaq; *~ lassen* buxarlandırmaq, buğlaşdırmaq.

**Verdunstung,** *die; -* buxarlanma, buğlanma.

**verdursten** *vi* **1.** susuzluqdan ölmək; **2.** *F* susuzluqdan yanmaq.

**verdusseln** *vt* yadından çıxmaq, unutmaq.

**verdüstern** *vt* **1.** qaranlıqlaşdırmaq; qaralmaq; **2.** əhvalı pozulmaq.

**verdutzen** *vt* çaşdırmaq, karıxdırmaq.

**verdutzt** *adj.* çaşdırılmış, karıxdırılmış, pərt.

**verebben** *vi* azalmaq, əskilmək, yavaş-yavaş çəkilmək.

**veredeln** *vt* **1.** yaxşılaşdırmaq, nəcibləşdirmək, mükəlləşdirmək; **2.** *(Metall)* zənginləşdirmək,; **3.** *(Pflanzen, Saat)* islah etmək.

**verehelichen** *vr sich ~* evlənmək.

**verehelicht** *adj.* evli, evlənmiş.

**verehren** *vt* **1.** hörmət etmək, sayğı göstərmək, əzizləmək; **2.** *(verschenken)* təqdim etmək, bağışlamaq, dəyərli bir şeyi hədiyyə etmək *(j-m et./bir kəsə bir şeyi).*

**Verehrer,** *der; -s, -* tərəfdar, pərəstiş-

kar, vurğun.

**verehrt** *adj.* möhtərəm, hörmətli, sayğılı, dəyərli, əziz; *mein ~er Freund* dəyərli dostum.

**Verehrung,** *die; -* ehtiram, hörmət, sayğı, pərəstiş.

**verehrungswürdig** *adj.* hörmətə layiq, dəyərli.

**vereidigen** *vt* and içdirmək, and içməyə sövq etmək.

**vereidigt** *adj.* andiçmiş.

**Vereidigung,** *die; -, -en* andiç(dir)mə.

**Verein,** *der; -(e)s, -e* cəmiyyət, dərnək, birlik, ittifaq, əncümən; *eingetragener ~* rəsmi cəmiyyət; *e-n ~ gründen* dərnək qurmaq.

**vereinbar** *adj.* birləş(diril)ə bilən *(mit D/nə iləsə).*

**vereinbaren** *vt* **1.** razılaş(dır)maq, qərarlaşdırmaq; *e-n Termin ~* vaxt təyin etmək *(qoymaq);* **2.** uyğunlaşdırmaq; *sich nicht ~ lassen* uyğun gəlməmək *(mit D/ilə).*

**Vereinbarung,** *die; -, -en* razılaşma, razılıq, sövdələşmə; saziş, qərardad; *e-e ~ treffen* saziş bağlamaq, razılığa gəlmək, razılıq əldə etmək, sövdələşmək, şərtləşmək.

**vereinbarungsgemäß** *adj.* sazişə görə.

**vereinen** *vt* birləşdirmək; *vr sich ~* birləşmək; *die Vereinten Nationen* Birləşmiş Millətlər.

**vereinfachen** *vt* sadələşdirmək, asanlaşdırmaq, bəsitləşdirmək.

**Vereinfachung,** *die; -, -en* sadələşdirmə, asanlaşdırma, bəsitləşdirmə.

**vereinheitlichen** *vt* vahid şəklə *(formaya)* salmaq, ştandardlaşdırmaq.

**Vereinheitlichung,** *die; -, -en* vahid şəklə salma, ştandardlaşdırma,

**vereinigen** *vt* birləşdirmək; *vr sich ~* birləşmək; cinsiyyət əlaqələri qurmaq.

**vereinigend** *adj.* birləşdirici.

**vereinigt** *adj.* birləşmiş; *adv.* birlikdə.

**Vereinigung,** *die; -, -en* **1.** birləş(dir)mə, birlik; **2.** *(Verein)* cəmiyyət, ittifaq.

**vereinnahmen** *vt* pay çıxmaq, götürmək, sahibi olmaq; *j-n (für sich) ~* bir kəsi özünə pay çıxmaq.

**vereinsamt** *adj.* yalnız, tənha.

**Vereinsamung,** *die; -* yalnızlıq, tənhalıq, kimsəsizlik.

**Vereinshaus,** *das; -es, -¨er* cəmiyyət *(dərnək)* evi, dərnək binası.

**Vereinsmitglied,** *das; -(e)s, -er* cəmiyyət üzvü, dərnək üyəsi.

**vereint** *adj.* birləşmiş, birgə, əlbir; *~ sein* əlbir olmaq.

**vereinzelt** *adj.* tək-tük, az təsadüf edilən; *(Reis usw.)* dənələri ayrı-ayrı duran, dən-dən, bir-birinə yapışmayan, dənə-dənə.

**vereisen** *vt* dondurmaq; *vi* donmaq, buza dönmək, soyuqdan donmaq.

**vereiteln** *vt* pozmaq; *bir şeyə* mane olmaq; boşa çıxartmaq; *e-n Plan ~* bir planı pozmaq.

**Vereitelung,** *die; -* poz(ul)ma, heçə çıx(art)ma.

**vereitern** *vi med.* irinləmək, çirk bağlamaq, çirk eləmək.

**Vereiterung,** *die; -, -en* irinləmə, cərahatlanma, irinlilik

**verekeln** *vt* iyrəndirmək, ikrah hissi yaratmaq.

**verelenden** *vi* yoxsullaşmaq, kasıblaşmaq, pis günə düşmək.

**verenden** *vi* ölmək, həlak olmaq, gəbərmək.

**verendet** *adj.* ölmüş, həlak olmuş.

**verengen** *vt* daraltmaq, darlaşdırmaq, ensizlətmək; məhdudlaşdırmaq; *vr sich ~* daralmaq, ensizləşmək; məhdudlaşmaq.

**Verengung,** *die; -, -en* daralma.

**vererben** *vt* miras qoymaq; *j-m et. ~* bir kəsə bir şeyi miras qoymaq.

**vererblich** *adj.* irsən keçən.

**vererbt** *adj.* irsən alınmış, irsi.

**Vererbung,** *die; -* nəsildən-nəslə keçmə; vərəsəlik, nəsillərin varisliyi.

**Vererbungslehre,** *die; -* genetik*(a)*.

**verewigen** *vt* əbədiləşdirmək, daima yaşatmaq; *vr sich ~* özünü əbədiləşdirmək, adını qoyub getmək.

**verfahren[1]** *vi* **1.** *(vorgehen)* işə başla-

maq, hərəkət etmək; təsir etmək; *in dieser Sache müssen wir anders* ~ bu işdə başqa cür hərəkət etməyimiz lazımdır; **2.** *(behandeln)* rəftar etmək; *vt* 1. *(Geld, Zeit)* yola xərcləmək; 2. *fig. e-e Sache* ~ dolaşıq salmaq; *vr sich* ~ yoldan çıxmaq.

**verfahren**[2] *adj.* çətin, çıxılmaz; *e-e ~e Situation* çətin bir vəziyyət, çıxılmaz bir durum.

**Verfahren,** *das; -s, -* **1.** üsul, qayda, metod; rəftar; hərəkət; *jur.* məhkəmə işi, proses; *das ~ eröffnen* məhkəmə işinə başlamaq.

**Verfall,** *der; -(e)s* **1.** tənəzzül, batma; durğunluq; dağılma, məhv olma; ~ *des Dollars* dolların tənəzzül etməsi *(dəyərdən düşməsi)*; **2.** *(körperlich)* zəifləmə; **3.** *(Verlust der Gültigkeit)* vaxtı keçmə; müddəti keçirmə; etibardan düşmə.

**verfallen**[1] **1.** dağılmaq; köhnəlmək; xarab olmaq; çürümək; **2.** *(ablaufen)* vaxtını keçirtmək; **3.** *(ungültig werden)* etibardan düşmək; etibarını itirmək; **4.** *(in Melancholie usw.)* qapılmaq, düşmək; *e-m Irrtum* ~ səhv etmək; **5.** *(auf et.)* nəyisə xatırlamaq, ağlına gəlmək; **6.** *(j-m oder e-r Sache)* mübtəlası olmaq, əsiri olmaq; ixtiyarına keçmək .

**Verpflichtung,** *die; -, -en* **1.** məcburiyyət, öhdə(çi)lik; öhdəyə götürmə, mükəlləfiyyət; **2.** *nur pl. (Schulden)* borc, vəzifə, öhdə; *Gastfreundschaft ist unsere ~* qonağa hörmət bizim borcumuzdur.

**verpfuschen** *vt F* korlamaq, xarab etmək.

**verpissen** *vr vulg. sich ~* itilib getmək, sikdirib getmək; *verpiss dich!* rədd ol!, sikdir get!

**verplanen** *vt* **1.** planda səhv etmək; **2.** müəyyən bir hədəf üçün təyin etmək.

**verplappern** *vr sich ~* ağzından qaçırtmaq.

**verplaudern** *vt* boşboğazlıqla vaxt keçirmək.

**verplempern** *vt* pul sovurmaq, israf etmək, sağa-sola xərcləmək.

**verplomben** *vt* plomblamaq, plomb vurmaq.

**verpönt** *adj.* iyrənc, yasaq sayılan; *rel.* məkruh.

**verprassen** *vt* pul sovurmaq, israf etmək.

**verprellen** *vt* acıqlandırmaq; çaşdırmaq

**verproviantieren** *vt* ərzaqla təmin etmək.

**verprügeln** *vt* döymək, əzişdirmək, gupsamaq; *j-n ~* bir kəsi doyunca döymək.

**verplanen** *vt* yanlış planlaşdırmaq.

**verplappern** *F sich ~* ağzından qaçırtmaq *(sözü)*.

**verplempern** *vt (vergeuden)* korlamaq, israf etmək.

**verpönt** *adj.* ayıblı, qəbahətli; *~ sein* çox pis sayılmaq, qəbahətli olmaq, ayıblı olmaq.

**verprassen** *vi* boş yerə xərcləmək, israf etmək.

**verprügeln** *vt* bərk döymək, əzişdirmək.

**verpuffen** *vi* **1.** od tutmaq, alışmaq; **2.** *fig.* təsirsiz qalmaq; uğursuz qalmaq.

**verpulvern** *vt* sovurmaq, israf etmək, sağa-sola xərcləmək.

**verpumpen** *vt F* borc vermək.

**verpuppen** *vr sich ~* puplaşmaq; sürfəlikdən çıxıb pup olmaq.

**verpusten** *vr F sich ~* rahat nəfəs almaq, rahat nəfəs almağa başlamaq.

**Verputz,** *der; -es* suvaq, mala.

**verputzen** *vt* suvaqlamaq, malalamaq; *F* silib-süpürmək.

**verqualmt** *adj.* tüstü ilə dolu, tüstülü, dumanlı.

**verquer** *adj.* qəribə, əcaib; *e-e ~e Ansicht* qəribə bir fikir.

**verquicken** *vt* bir-birinə bağlamaq, əlaqələndirmək *(mit D/ilə).*

**verquirlen** *vt* çalxalamaq, qarışdırmaq.

**verquollen** *adj. (Augen usw.)* şişmiş.

**verrammeln** *vt* **1.** barikada qurmaq; **2.** *(Tor usw.)* ağır şeylərlə bağlamaq.

**verramschen** *vt F* ucuz qiymətə satmaq.

**verrannt** *adj. : in et. ~ sein* bir şeyin dəlisi olmaq, bir şeydən əl çəkə bilməmək.

**Verrat,** *der; -(e)s* **1.** xəyanət, xainlik, xəyanətkarlıq *(an D/-ə);* adamsatanlıq, namərdlik, satqınlıq, üzüdönüklük; **2.** *an j-m ~ begehen* bir kəsi satmaq, bir kəsi ələ vermək, bir kəsə xəyanət etmək.

**verraten** *vt* **1.** xəyanət etmək, dönüklük eləmək, arxadan xəncər vurmaq; satmaq, ələ vermək, üzüdönük çıxmaq; **2.***(erklären)* başa salmaq, demək; *nicht ~!* demə!, söyləmə! *fig. ~ und verkauft sein* çarəsiz qalmaq; *vr sich ~* özünü ələ vermək *(mit D, durch A/ilə).*

**Verräter,** *der; -s, -* satqın; xain, dönük, adamsatan, üzüdönük.

**verräterisch** *adj.* **1.** satqınlıqla, xəyanətlə, xəyanətkarlıqla, namərdcəsinə, xaincəsinə; adamsatan, xəyanətkarcasına, xainanə; **2.** *(Blick, Geste usw.)* bəlli edən, bilindirən.

**verrauchen** *vi fig. (Ärger usw.)* keçmək, ötmək, yatmaq.

**verräuchern** *vt* tüstü ilə doldurmaq.

**verrechnen** *vt* hesaba salmaq, hesaba keçirmək *(mit D/ilə); vr sich ~* **1.** hesabda yanılmaq; **2.** *fig.* səhv etmək.

**Verrechnung,** *die; -* hesablaşma, hesab aparma; *zur ~* ələlhesab, hesaba sayaraq *(keçərək).*

**Verrechnungsscheck,** *der; -s, -s* bank hesabına keçirilən çek.

**verrecken** *vi* gəbərmək,murdar olmaq.

**verregnen** *vt* yağışdan xarab olmaq.

**verregnet** *adj.* yağışdan xarab olmuş.

**verreiben** *vt* sürtmək, ovuşdurmaq.

**verreisen** *vi* səfərə çıxmaq, səfərə getmək; *verreist sein* səfərdə olmaq.

**verreißen** *vt fig.* məzəmmətləmək, şiddətlə tənqid etmək *(über A/bir şey haqda).*

**verrenken** *vt* çıxartmaq, burxutmaq, yerindən oynatmaq; *er hat mir den Arm verrenkt* o, mənim qolumu çıxartdı; *ich habe mir die Hand verrenkt* əlim buruxuldu; *vr sich ~* əyri-üyrü durmaq, qeyri-təbii durmaq.

**Verrenkung,** *die; -, -en* burxuntu, çıxıq.

**verrennen** *vr sich ~* yapışıb qalmaq, tutduğunu buraxmamaq; *sich in e-e Idee ~* bir fikirdən əl çəkməmək.

**verrichten** *vt* yerinə yetirmək, etmək, qayırmaq, qılmaq, cürləmək, e(y)ləmək, əməl etmək, əncam vermək; *e-e Arbeit ~* bir işi yerinə yetirmək; *verrichtete Arbeit* edilmiş *(görülmüş)* iş.

**Verrichtung,** *die; -, -en* **1.** *nur sg. (das Verrichten) -i* yerinə yetirmə, həyata keçirmə, əncam vermə; **2.** iş, əməl, etməklik; vəzifə.

**verriegeln** *vt* rəzə ilə bağlamaq, işgil-

ləmək; sədd qoymaq.

**verringern** *vt* azaltmaq, əskiltmək, aşağı salmaq, sayını azaltmaq; *das Tempo ~* sürəti azaltmaq; *vr sich ~* azalmaq, əskilmək, düşmək, enmək.

**Verringerung,** *die; -* azal(t)ma, azaldılma, əskilmə, aşağı salınma, ixtisar.

**verrinnen** *vi* **1.** *(Wasser)* çəkilib getmək; **2.** *(Zeit)* keçmək, ötmək.

**Verriss,** *der; -es, -e* mənfi *(çox ağır)* tənqid.

**verrohen** *vi* kobudlaşmaq, qabalaşmaq, vəhşiləşmək.

**verrosten** *vi* paslanmaq.

**verrostet** *adj.* paslı.

**verrotten** *vi* çürümək, dağılmaq.

**verrottet** *adj.* çürük, xarab.

**verrucht** *adj.* əclaf, murdar, alçaq, pis.

**verrücken** *vt (yerindən)* tərpətmək.

**verrückt** *adj.* **1.** yerindən tərpənmiş; **2.** dəli, axmaq, səfeh, dəlisov, fəhmsiz, gicbaş, gicbeyin, ağzıaçıq, başıboş, əbləh, gictəhər, havalı; *F fig.* düdək, həpənd; *e-e ~e Idee* səfeh bir fikir; *nach j-m ~ sein* bir kəsin dəlisi *(düşkünü, vurğunu)* olmaq; *j-n ~ machen* bir kəsi dəli etmək; *~ werden* dəli olmaq, ağlı azmaq, dəliləşmək, divanələşmək, həpəndləşmək.

**Verrückte,** *der; die; -n, -n* dəli, ağılsız, divanə, əbləh, havalı.

**Verrücktheit,** *die; -, -en* **1.** *nur sg.* dəlilik, ağılsızlıq, gicbaşlıq, divanəlik; **2.** qəribəlik, qəyri-adilik.

**Verrücktwerden,** *das; -s : F das ist zum ~* bu iş adamı dəli edir.

**Verruf,** *der; -(e)s* pis ad, nüfuzdan düşmə; *j-n in ~ bringen* bir kəsin adını pisə çıxarmaq, bir kəsi nüfuzdan salmaq; *in ~ kommen* adı pisə çıxmaq, nüfuzdan düşmək.

**verrufen** *adj.* adı pisə çıxmış, ləkələnmiş, rüsvay edilmiş.

**verrühren** *vt* qarışdırmaq.

**verrußen** *vi* his tutmaq, his bağlamaq.

**verrutschen** *vi* sürüşmək.

**Vers,** *der; -es, -e* **1.** misra, beyt; **2.** *(Koranvers)* ayə; *fig. darauf kann ich mir keinen ~ machen* bundan baş çıxara bilmirəm; *ein ~ Gedicht* bir beyt şer.

**versachlichen** *vt* həqiqi surətdə göstərmək, həyəcansız göstərmək.

**versacken** *vi* **1.** batmaq, çökmək; **2.** *fig.* batmaq, fəlakətə düşmək.

**versagen** *vt* **1.** *(j-m et.)* rədd etmək, yerinə yetirməmək, əsirgəmək, rədd cavabı vermək; *j-m e-e Bitte ~* bir kəsin xahişinə rədd cavabı vermək; **2.** *sich (D) et. ~* bir şeydən vaz keçmək; *vi* 1. *(in der Schule usw.)* öhdəsindən gəlməmək, bacarmamaq, meydandan çıxmaq; 2. *(Beine usw.)* tutulmaq; 3. *techn.* işləməmək, dayanmaq; *die Bremsen ~* tormuzlar tutmamaq; 4. *(Gewehr)* açılmamaq, atmamaq.

**Versagen,** *das; -s* işləməmə, dayanma; uğursuzluq; *menschliches ~* insan xətası, ehtiyatsızlıq, diqqətsizlik.

**Versager,** *der; -s, -* aciz, bacarıqsız, iş bacarmayan; kor-peşman.

**Versagung,** *die; -, -en* işləməmə, dayanma; uğursuzluq; rədd etmə.

**versalzen** *vz* çox duz tökmək; *fig. j-m die Suppe ~* bir kəsin həvəsini yox etmək, bir kəsin ovqatına soğan doğramaq.

**versammeln** *vt* toplamaq; *vr sich ~* toplaşmaq, yığışmaq, cəmləşmək, doluşmaq.

**Versammlung,** *die; -, -en* **1.** *nur sg.* yığıncaq, doluşma, iclas, gimgə, gimkə, cələsə, gəlib toplanma, əncümən; *e-e ~ organisieren* cələsə təşkil vermək; **2.** mitinq, görüşmə.

**Versammlungsfreiheit,** *die; -* mitinq və yığıncaq azadlığı, mitinq və iclas keçirmə azadlığı.

**Versammlungsort,** *der; -s, -e* iclas yeri, toplanış məntəqəsi.

**Versammlungsraum,** *der; -s, -¨e* iclas zalı *(salonu).*

**Versand,** *der; -(e)s* göndər(il)mə.

**versanden** *vi* qumla örtülmək, qum basmaq; *fig.* baş tutmamaq, nəticəsiz qalmaq.

**versandbereit** *adj.* göndərməyə hazır.

**Versandhaus,** *das; -es, -¨er* poçt vasitəsilə mal satan şirkət.

**Versandkosten** *die/pl.* göndərmə xərci.

**versauen** *vt F* çirklətmək; xarab etmək, korlamaq; *j-m et. ~* bir kəsin bir şeyini korlamaq *(xarab etmək)* .

**versauern** *vi* **1.** turşumaq, qıcqırmaq; **2.** *F* bikef olmaq; ömrünü can sıxan bir yerdə hədərə vermək; zəhər etmək.

**versaufen** *vt F* içkiyə xərcləmək.

**vesäumen** *vt* **1.** *(verpassen)* əlindən buraxmaq; unutmaq; fürsəti qaçırtmaq; gecikdirmək, ehmallıq etmək; **2.** *nichts zu ~ haben* tələsməmək, lazımınca vaxtı olmaq.

**Versäumnis,** *das; -ses, -se* səhlənkarlıq, səhv, nöqsan, qüsur, ehmal; olmama, gəlməmə, qəflət.

**Versäumnisurteil,** *das; -(e)s, -e jur.* qiyabi məhkəmə qərarı.

**verschachern** *vt F* bahaya satmaq.

**verschachtelt** *adj.* çətin, mürəkkəb.

**verschaffen** *vt* əldə etmək, tapmaq, qazanmaq, hasil etmək; *j-m e-n Job ~* bir kəsə iş tapmaq; *sich (D) Respekt ~* özünə hörmət qazanmaq.

**verschalen** *vt techn.* üz vurmaq.

**Verschalung,** *die; -, -en* üz vurma; qəlib *(Süd. : qalıb).*

**verschämt** *adj.* utancaq, abırlı, həyalı, başıaşağı.

**verschandeln** *vt* çirkinlətmək; eybəcər hala salmaq .

**verschanzen** *vt* səngərləmək, möhkəm etmək; *sich ~* səngərdə yerləşmək, bir şeyin arxasında daldalanmaq; *fig. sich hinter e-r Sache ~* bir şeyi bəhanə etmək, bəhanə dalında gizlənmək.

**Verschanzung,** *die; -* səngər; istehkam xətti.

**verschärfen** *vt fig.* kəskinləşdirmək, gücləndirmək, ağırlaşdırmaq, şiddətləndirmək, gərginləşdirmək; *vr sich ~* kəskinləşmək, ağırlaşmaq; pisləşmək.

**Verschärfung,** *die; -, -en* kəskinləşmə, ağırlaşma, şiddətlənmə, güclənmə, gərginliyin artması; pisləşmə.

**verscharren** *vt* basdırmaq,quyulamaq.

**verschätzen** *vr sich ~* səhv etmək, yanlış təxmin etmək.

**verschaukeln** *vt* aldatmaq.

**verscheiden** *vi* ölmək, rəhmətə getmək.

**verschenken** *vt* bağışlamaq, peşkəş etmək *(an A/-ə).*

**verscherbeln** *vt F bir şeyi* ucuz qiymətə satmaq.

**verscherzen** *vt sich (D) et. ~ bir şeyi* itirmək, əldən buraxmaq; *sich j-s Gunst ~* bir kəsin iltifatını itirmək.

**verscheuchen** *vt* **1.** hürkütmək, qovmaq, diskindirmək; **2.** *fig.* qaçırtmaq.

**verscheuern** *vt F* ucuz qiymətə satmaq.

**verschicken** *vt* göndərmək, yollamaq.

**verschieben** *vt* **1.** yerini dəyişdirmək, yerindən tərpətmək; **2.** *(zeitlich)* başqa vaxta keçirmək, ertələmək, təxirə salmaq; **3.** *fig. (Waren)* qeyri-qanuni surətdə satmaq; *vr sich ~* yerini dəyişmək, tərpənmək; *der Teppich hat sich verschoben* xalça yerindən tərpənib.

**Verschiebung,** *die; -, -en* **1.** *(Termin usw.)* başqa vaxta keçirmə, təxirə sal*(ın)*ma; **2.** yer dəyiş*(dir)*mə, tərpənmə.

**verschieden** *adj.* fərqli, müxtəlif, cürbəcür, çeşidli, başqa, çoxnövlu, dürlü, dürlü-dürlü, savay; *~e Möglichkeiten* başqa *(müxtəlif)* imkanlar; *~er Meinung sein* başqa *(müxtəlif)* fikirlərə sahib olmaq; *Verschiedenes ist mir unklar* çox şeylər mənə aydın deyil, çeşidli şeylər mənə aydın deyil.

**verschiedenartig** *adj.* çoxnövlü, cürbəcür, başqa-başqa, çeşid-çeşid, dürlü-dürlü.

**verschiedenfarbig** *adj.* rəngbərəng, rəngarəng.

**Verschiedenheit,** *die; -, -en* ayrılıq, müxtəliflik, cürbəcürlük, başqalıq; fərq, təfavüt.

**verschiedentlich** *adv.* bir neçə dəfə, dəfələrlə, müxtəlif vaxtlarda.

**verschießen** *vt* **1.** *(Munition usw.)* at-

maq, atıb qurtarmaq; **2.** *Sport* qol vura bilməmək; *vi* bozarmaq, rəngi qaçmaq, ağarmaq.

**verschiffen** *vt* gəmi ilə göndərmək, gəmiyə yükləmək.

**Verschiffung,** *die; -, -en* gəmi ilə daşınma, gəmi ilə göndərmə.

**verschimmeln** *vi* kif tutmaq, kif bağlamaq, kif atmaq, barlanmaq.

**verschimmelt** *adj.* kif atmış.

**verschlafen**[1] *vt* **1.** yuxuya qalmaq; **2.** *F (e-n Termin usw.)* yaddan çıxarmaq, unutmaq.

**verschlafen**[2] *adj.* yuxulu, xumar; *fig.* gic, pərt.

**Verschlaffenheit,** *die; -* giclik, pərtlik.

**Verschlag,** *der; -(e)s, -¨e* divarlari taxtadan tikilmiş kiçik otaq.

**verschlagen**[1] *vt* **1.** *(mit Brettern)* taxta ilə mıxlamaq; **2.** *(Ball)* əyri vurmaq, hədəfə vurmamaq; *er hat den Ball ~* o, topu əyri vurdu; **3.** *(e-e Seite im Buch)* səhifə qaçırmaq; **4.** *j-m et. ~* *bir kəsi bir şeyə* düçar etmək *(məruz etmək); es verschlug mir die Sprache* *(heyrətdən)* dilim tutuldu; *es verschlug mir den Appetit* bu, mənim iştahamı kəsdi; *es verschlägt nichts* zərəri yoxdur; *an e-n Ort ~ werden* təsadüfi olaraq bir yerə gəlib çıxmaq *(çatmaq).*

**verschlagen**[2] *adj.* hiyləgər, bic.

**Verschlagenheit,** *die; -* hiyləgərlik, biclik.

**verschlammen** *vi* çirklənmək, kirlənmək, zığa batmaq.

**verschlampen** *vt F* **1.** diqqətsizlikdən bir zadı *(şeyi)* itirmək; **2.** baxmamaq, başlı-başına buraxmaq; *die Wohnung sieht verschlampt aus* mənzil baxımsız görünür.

**verschlechtern** *vt* pisləşdirmək; *vr sich ~* pisləşmək, fənalaşmaq, bətərləşmək; gərginləşmək.

**Verschlechterung,** *die; -, -en* pisləş(diril)mə, bətərləşmə; gərginləşmə.

**verschleiern** *vt* örtmək, gizlətmək; *vr sich ~* üzünü örtmək.

**verschleiert** *adj.* **1.** örtülü; **2.** *fig.* dumanlı, tüstülü.

**Verschleierung,** *die; -, -en* gizlətmə, gizlənmə, pərdələ(n)mə.

**verschleimen** *vt* bəlğəm ilə doldurmaq.

**verschleimt** *vt* bəlğəmli, bəlğəm ilə dolmuş.

**Verschleiß,** *der; -es, -e* yeyilmə; köhnəlmə.

**verschleißen** *vt* köhnəltmək, işlədib xarab etmək; *vi* köhnəlmək, xarab olmaq.

**verschleppen** *vt* **1.** sürüyüb *(daşıyıb)* aparmaq; **2.** qaçırtmaq, oğurlamaq; **3.** *(e-e Krankheit)* özü ilə daşımaq; *fig.* uzatmaq, işi uzatmaq, ləngitmək.

**Verschleppung,** *die; -, -en* sürüyüb aparma, süründürməçilik, get-gəl, gecikmə, ləngitmə; insan oğurluğu, insan qaçırtma.

**Verschleppungstaktik,** *die; -, -en* sürütmə siyasəti, süründürmə taktikası *(Süd. : taktiki),* uzatma siyasəti, ləngitmə taktikası.

**verschleudern** *vt* **1.** dağıtmaq, israf etmək; **2.** *H* ucuz qiymətə satmaq, dəyər-dəyməzinə satmaq.

**verschließbar** *adj.*qıfıllanan, bağlanan.

**verschließen** *vt* **1.** qıfıllamaq, bağlamaq, cəftələmək; bərkitmək; **2.** *(Augen, Ohren)* yummaq, bağlamaq; *vr sich ~* maraqsız olmaq; soyuq yanaşmaq; *er verschließt sich uns gegenüber immer mehr* o, bizə qarşı get-gedə soyuyur; *sich e-r Sache ~* bir şeyi görüb-eşitmək istəməmək, özünü korluğa-karlığa vurmaq.

**verschlimmern** *vt* pisləşdirmək, xarab etmək; *vr sich ~* pisləşmək, ağırlaşmaq, şiddətlənmək, fənalaşmaq.

**verschlingen** *vt* udmaq, tıxmaq; *fig. ein Buch ~* kitabı tez-tez oxumaq.

**verschlissen** *s. verschleißen.*

**verschlossen** *adj.* **1.** bağlı, qıfıllı, başıbağlı, cəftəli; **2.** *fig.* qaradinməz.

**Verschlossenheit,** *die; -* qaradinməzlik; soyuqluq.

**verschlucken** *vt* çeçəmək;*vr sich ~* boğaza qaçmaq, çeçəmək; *wie vom Erd-*

*boden verschluckt* birdən qeyb olmuş.

**verschlungen** *s. verschlingen.*

**Verschluss,** *der; -es, -¨e* **1.** *(Deckel)* qapaq; **2.** *(Schloss)* qıfıl, kilid; **3.** sürgü, çaxmaq; *unter ~ halten* bağlı saxlamaq, qıfıl altında saxlamaq.

**verschlüsseln** *vt* şifrələmək, rəmz vermək, kodlaşdırmaq.

**verschlüsselt** *adj.* şifrələnmiş, rəmzli.

**Verschlüsselung,** *die; -, -en* şifrələmə, rəmz vermə.

**Verschlusssache,** *die; -, -n* gizli dosya, məhrəm dosya.

**verschmachten** *vi* susuzluqdan ölmək; aclıqdan-susuzluqdan ölmək.

**verschmähen** *vt* xor baxıb rədd etmək, qəbul etməmək; *ein Angebot ~* bir təklifi rədd etmək.

**verschmelzen** *vt* əritmək; *vi* ərimək; qarışmaq.

**Verschmelzung,** *die; -, -en* əri(t)mə; qarışma, qaynayıb-qarışma, qovuşma.

**verschmerzen** *vt* tablaşmaq; *et. ~ kön-nen* bir şeyə tablaşmaq, bir şeyi unut-maq.

**verschmieren** *vt* yaxmaq, batırmaq, bulamaq, bələmək; *verschmiert werden* bələnmək, boyanmaq.

**verschmitzt** *adj.* hiyləgər, bic, kələkbaz, nadürüst.

**verschmutzen** *vt* çirklətmək, çirkləndirmək; *vi* çirkləşmək.

**verschmutzt** *adj.* çirk, bulaşıq.

**Verschmutzung,** *die; -, -en* çirklənmə, çirkləndir(il)mə, bulaşma.

**verschnaufen** *vi* dincəlmək; *vr sich ~* dincəlmək, nəfəs almaq.

**verschneiden** *vt* **1.** kəsmək; **2.** *(Stoff)* korlamaq; **3.** axta etmək; **4.** bir içkiyə başqa içkidən qatmaq.

**verschneit** *adj.* qarlı, qarla örtülü.

**Verschnitt,** *der; -(e)s, -e* **1.** *(Abfall)* qalıq; **2.** *(von Branntwein)* araq.

**verschnörkelt** *adj.* bəzəkli, ziynətli; bəzəkli-düzəkli yazı.

**verschnupft** *adj.* zökəm; *fig.* ovqatı təlx, dilxor; *~ sein* zökəm olmaq.

**verschnüren** *vt* qaytanlamaq, qaytanla bağlamaq.

**verschollen** *adj.* itmiş, itgin *(itkin)* düşmüş; *adv.* xəbər-ətərsiz; *~ sein* əlli-ayaqlı itmək, xəbər-ətərsiz yoxa çıxmaq.

**verschonen** *vt* **1.** rahat qoymaq; **2.** *(am Leben lassen)* rəhm eləmək, aman vermək, bağışlamaq, əfv etmək; *verschont bleiben* qurtulmaq, xilas olmaq; qorunmaq *(von D/-dən).*

**verschönen** *vt* gözəlləşdirmək, bəzəmək.

**verschönern** *vt s. verschönen.*

**Verschönerung,** *die; -, -en* gözəlləş(dir)mə.

**verschossen** *adj.* **1.** *s. verschießen;* **2.** rəngi solmuş, açıq; **3.** *F* aşiq, bir kəsə vurulmuş; *in j-n ~ sein* bir kəsə vurulmaq.

**verschrammen** *vt* cırmaqlamaq.

**verschränken** *vt (Hände)* çarpazlaşdırmaq.

**verschrauben** *vt* burub bərkitmək.

**verschreiben** *vt* **1.** səhv yazmaq, yazı səhvi etmək; **2.** *med.* yazmaq; **3.** *(Bleistift usw.)* yazıb qurtarmaq; **4.** *jur.* vəsiyyət etmək *(j-m et./ bir kəsə bir şeyi).*

**verschreibungspflichtig** *adj.* reseptli, reseptə möhtac *(Süd. : nüsxəyə möhtac).*

**verschrie(e)n** *adj.* adı batmış, bədnam, adı pisə çıxmış.

**verschroben** *adj.* qəribə, əcaib.

**verschrotten** *vt* xırda *(yararsız)* şəklə salmaq, xırdalaşdırmaq.

**verschrumpeln** *vi* bürüşmək.

**verschrumpelt** *adj.* bürüşmüş.

**verschüchtern** *vt* qorxutmaq, hədələmək.

**verschüchtert** *adj.* qorxaq; gözü qorxmuş.

**verschulden** *vt* *bir şeydə* təqsirkar olmaq, günahkar olmaq; *vr sich ~* borca düşmək, borc almaq, borc götürmək.

**Verschulden,** *das; -s* günah, təqsir; *mich trifft kein ~* mənim günahım yoxdur.

**verschuldet** *adj.* borclu *(an A/-ə).*
**Verschuldung,** *die; -* borc, borcluluq, borca batma.
**verschütten** *vt* **1.** *(Flüssigkeit)* tökmək, dağıtmaq; **2.** qumla örtmək.
**verschüttet** *adj.* qumla basdırılmış.
**verschwägern** *vr sich ~* qohum olmaq *(mit D/kimləsə).*
**verschwägert** *adj.* qohum.
**Verschwägerung,** *die; -* qohumluq.
**verschwand** *s. verschwinden.*
**verschwatzen** *vt* boşboğazlıqla keçirmək.
**verschweigen** *vt* gizlətmək, yaymamaq.
**verschweißen** *vt* qaynaq vermək.
**verschwenden** *vt* əbəs yerə sərf etmək, israf etmək, boş yerə xərcləmək, bada vermək, dağıtmaq, heçə çıxartmaq, heç etmək, itirmək.
**Verschwender,** *der; -s, -* bədxərc, israfçı.
**verschwenderisch** *adj.* bədxərcliklə, israfçılıqla; *(üppig)* bol; *adv. ~ umgehen mit -i* bol bol xərcləmək, *-i* dağıtmaq, bədxərclik etmək.
**Verschwendung,** *die; -* bədxərclik, israf*(çılıq).*
**Verschwendungssucht,** *die; -* bədxərclik, israfçılıq.
**verschwiegen** *adj.* **1.** dinməz, sakit, ağzıbərk; **2.** *(Ort)* dinc, sakit.
**Verschwiegenheit,** *die; -* sirr verməzlik, dinməzlik, sakitlik.
**verschwimmen** *vi (vor den Augen)* bulanıq görmək, aydın görməmək; bir-birinə qarışmaq *(rənglər).*
**verschwinden** *vi* **1.** yox olmaq, gözdən itmək, rədd olmaq, cim olmaq, çıxıb getmək, varıb getmək, əkilmək, itilmək; **2.** *F mal ~ müssen* ayaqyoluna getmək, tualetə baş vurmaq; *~ lassen* oğurlamaq; *verschwinde!* rədd ol!, dəf ol!
**Verschwinden,** *das; -s* yox olma, gözdən itmə, itmə, itib-bat olma, rədd olma, varıb getmə, əkilmə, itilmə.
**verschwindend** *adv. : ~ gering / wenig* çox az, son dərəcə əhəmiyyətsiz.
**verschwistert** *adj.* bacı-qardaş.
**verschwitzen** *vt* **1.** tərlətmək; ləkələmək; **2.** *F* yaddan çıxartmaq; *F et. ~* bir şeyi yaddan çıxarmaq.
**verschwitzt** *adj.* tərləmiş, tərbasmış; ləkəli.
**verschwollen** *adj.* şişmiş.
**verschwommen** *adj.* bulanlıq, qeyri-müəyyən.
**verschworen** *adj. s. verschwören.*
**verschwören** *vi* and içmək, söz vermək; *vr sich ~* sui-qəsd təşkil etmək.
**Verschwörer,** *derc; -s, -* sui-qəsdçi, qəsdçi.
**verschwörerisch** *adj.* sui-qəsdçiliklə, sui-qəsdçi.
**Verschwörung,** *die; -, -en* sui-qəsd, qəsd, dilbirlik.
**verschwunden** *s. verschwinden.*
**versehen** *vt* **1.** *(Aufgabe)* yerinə yetirmək, icra etmək; *-ə* baxmaq; **2.** təchiz etmək *(j-n mit et. / bir kəsi bir şey ilə); vr sich ~* 1. yanilmaq, səhv etmək; 2. təmin etmək, özü üçün ehtiyat görmək, tədarük görmək *(mit D/bir şeyi).*
**Versehen,** *das; -s* səhv, xəta etmə, xata; *aus ~* səhv olaraq, səhvən, istəmədən.
**versehentlich** *adj.* səhv, yanlış; *adv.* səhvən, bilmədən.
**versehrt** *adj.* əlil, şikəst; yaralı.
**Versehrte,** *der u. die; -n, -n* şikəst, əlil.
**verselbständigen** *vr sich ~* müstəqil olmaq; azad peşə seçmək.
**versenden** *vt* yollamaq, göndərmək.
**Versendung,** *die; -* yollama, göndər(il)mə.
**versengen** *vt* oda vermək, yandırmaq, alazlamaq.
**versenken** *vt* **1.** *(Schiff)* batır(t)maq; **2.** endirmək, sallamaq; *vr sich ~ fig.* fikrini bir şeyə toplamaq *(in A/-ə); (in Gedanken)* dalmaq.
**Versenken,** *das; -s* batır(ıl)ma.
**Versenkung,** *die; - fig. in der ~ verschwinden* yox olmaq, görünməmək, itib-batmaq, unudulmaq.

**versessen** *adj. : auf j-n / et. ~ sein* bir kəsin/şeyin düşgünü olmaq *(dəlisi olmaq),* qanımaq.

**versetzen** *vt* **1.** yerini dəyişdirmək; **2.** *(ins Ausland usw.)* başqa yerə göndərmək, köçürmək; **3.** *(Schüler)* yuxarı sinifə keçirmək; **4.** *(Pflanzen)* başqa yerə əkmək; **5.** *(vergebens warten lassen)* boş yerə gözlətmək; **6.** *(in Aufregung, Trauer usw.)* gətirmək; **7.** *(Schlag)* endirmək; **8.** *(j-n in die Lage)* imkan yaratmaq *(et. zu tun/ bir kəsə bir şeyi etməyə);* **9.** *(et.als Pfand)* girov qoymaq; **10.** *(vermischen)* qarışdırmaq *(mit D/ilə);* **11.** *(erwidern)* cavab vermək; *vr sich ~* yerinə qoymaq; *sich in j-s Situation/Lage ~* bir kəsin vəziyyətini nəzərə almaq, özünü bir kəsin yerinə qoymaq; *j-n in den Ruhestand ~* kimisə təqaüdə çıxarmaq; istefaya buraxmaq.

**Versetzung,** *die; -, -en* **1.** yerini dəyişmə; başqa vəzifəyə keçirmə; **2.** *(Schule)* yuxarı sinifə keçirmə; *~ (in, auf) nach -ə* təyin etmə, *-ə* qoyma.

**verseuchen** *vt (mit Gift) bir şeyi bir şeylə* zəhərləmək; *(mit Epidemie)* yoluxdurmaq; *(mit Radioaktivität)* yaymaq; *(verschmutzen)* çirklətmək *(geniş mənada).*

**Verseuchung,** *die; -, -en* zəhərlənmə; bulanma; yayılma.

**verseucht** *adj.* zəhərli; bulanlıq.

**Versfuß,** *der; -es, -¨e lit.* bölgü.

**Versicherer,** *der; -s, -* sığortaçı.

**versichern** *vt* **1.** sığortalamaq; **2.** *(j-m et.)* söz vermək; and içmək; yəqinlik vermək, əminlik vermək, əmin etmək; *ich ver- sichere Ihnen, dass...* mən sizə söz verirəm ki...; *vr sich ~* 1. özünü sığortalamaq; 2. *(sich vergewissern)* yəqin etmək.

**versichert** *adj.*sığorta edilmiş, sığortalı.

**Versicherung,** *die; -, -en* **1.** sığorta; **2.** inandırma; söz vermə.

**Versicherungsagent,** *der; -en, -en* sığorta nümayəndəliyi.

**Versicherungsbedingungen,** *die/pl.* sığorta şərtləri.

**Versicherungsbetrug,** *der; -(e)s* sığorta şirkətini aldatma.

**Versicherungsgesellschaft,** *die; -, -en* sığorta şirkəti.

**Versicherungsnehmer,** *der; -s, -* sığorta etdirən.

**versicherungspflichtig** *adj.* sığorta ol(un)malı *(etdirilməli).*

**Versicherungspolice,** *die; -, -n* sığorta şəhadətnaməsi.

**Versicherungsprämie,** *die; -, -n* sığorta mükafatı.

**Versicherungsschein,** *der; -(e)s, -e s. Versicherungspolice.*

**Versicherungsvertrag,** *der; -(e)s, -¨e* sığorta müqaviləsi.

**versickern** *vi* sızıb keçmək, sızıb yox olmaq, sızmaq.

**versieben** *vt F* **1.** *(Termin usw.)* diqqətsizlikdən unutmaq *(yaddan çıxartmaq);* **2.** müvəffəqiyyətsizliklə sona çatdırmaq, uğursuz qalmaq.

**versiegeln** *vt* **1.** möhürləmək; bağlamaq, damğalamaq;**2.** *techn.* üstünü lakla örtmək, lak sürtmək.

**versiegelt** *adj.* möhürlü, damğalı.

**versiegen** *vi* qurumaq, *-in* suyu çəkilmək, tükənmək.

**versiert** *adj.* təcrübəli, məlumat sahibi.

**versilbern** *vt* **1.** gümüşə tutmaq, gümüşləmək; **2.** *F* satıb pula çevirmək.

**versinken** *vi* batmaq, dalmaq *(in A/-ə); fig.* varmaq.

**versinnbildlichen** *vt* simvollaşdırmaq.

**Versinnbildlichung,** *die; -* əyanilэşdirmə, simvollaşdırma.

**Version,** *die; -, -en* **1.** *(Variante)* tərz, variant; şərh, təfsir; **2.** deyim, rəvayət.

**versippt** *adj.* qohum.

**versklaven** *vt* qul etmək, kölələşdirmək.

**Versklavung,** *die; -* qul etmə.

**Verskunst,** *die; -* şairlik.

**Versmaß,** *das; -es, -e lit.* ölçü; bənd.

**versoffen** *adj.* araq içən; əyyaş.

**versohlen** *vt F* kötəkləmək; *j-n ~* bir

kəsi kötəkləmək.

**versöhnen** *vt* barışdırmaq; *sich ~* barışmaq *(mit D/ilə).*

**versöhnlich** *adj.* barışdırıcı, barışcıl.

**Versöhnlichkeit,** *die; -* barışıq.

**Versöhnung,** *die; -, -en* barış, barışma, barışıq, barışdırıcılıq.

**versonnen** *adj.* fikirli, fikri dağınıq, dalğın.

**versorgen** *vt* təmin etmək; -ə baxmaq, geyindirib-keçindirmək, dolandırmaq *(mit D/nə iləsə)*; *er hat 3 Kinder zu ~* o, üç uşağa baxmalıdır, o, üç üşağı dolandırmalıdır; *sich ~* özünü təmin etmək, özü üçün təmin etmək, özünə baxmaq.

**Versorger,** *der; -s, -* ailə dolandıran, ailəni təmin edən.

**Versorgung,** *die; -* təminat, xidmət, *-ə* baxma, geyindirib-keçindirmə; dolanacaq; təmin etmə *(edilmə)*; təchiz etmə, təchizat.

**Versorgungsempfänger,** *der; -s, -* dövlətdən maaş alan təqaüdçü; ictimai təminat hüququ olan.

**Versorgungsgüter,** *die/pl.* ərzaq malları.

**Versorgungsnetz,** *das; -es, -e* təchizat şəbəkəsi, təminat şəbəkəsi.

**verspachteln** *vt F* yemək.

**verspannen** *vt techn.* gərginləşdirmək, yığmaq.

**verspannt** *adj.* gərgin.

**verspäten** *vr sich ~* gecikmək, gec qalmaq, yubanmaq; *fig.* dabanına daş dəymək; *vt* yubatmaq, ləngitmək, gecikdirmək.

**verspätet** *adj.* gecikmiş, gec.

**Verspätung,** *die; -, -en* geclik, gecikmə; *10 Minuten ~ haben* 10 dəqiqə gecikmək *(yubanmaq).*

**verspeisen** *vt* yeyib qurtarmaq.

**verspekulieren** *vr sich ~* zərər etmək, ziyan qoymaq; *fig.* səhv etmək.

**versperren** *vt* **1.** bağlamaq; *die Tür ~* qapını bağlamaq; **2.** qabağını tutmaq, çəpərləmək, qarşısına sədd qoymaq *(çəkmək).*

**verspielen** *vt* **1.** *(beim Spiel)* uduzmaq; **2.** *(Glaubwürdigkeit usw.)* əldən vermək, itirmək; **3.** *bei j-m verspielt haben* bir kəsin yanında etibardan düşmək.

**verspielt** *adj.* **1.** şuluq; *~es Kind* şuluq uşaq; **2.** *(lustig)* şən, fərəhli.

**verspinnen** *vt* **1.** əyirmək; *Baumwolle ~* yün əyirmək; **2.** fikirləşmək, düşünmək; *sich in Gedanken ~* xəyala dalmaq.

**versponnen** *adj. fig.* dalğın, çox fikirləşən.

**verspotten** *vt* ələ salmaq, lağa qoymaq, atmaca atmaq, rişxənd *(istehza)* eləmək, masqaraya qoymaq; *F* diş*(ini)* ağartmaq, hoydu-hoyduya götürmək.

**Verspottung,** *die; -, -en* lağaqoyma, ələ salma, rişxənd, istehza, atmaca.

**versprach** *s. versprechen.*

**versprechen** *vt* söz vermək, vəd etmək, əmin etmək, vədə vermək, ilğar vermək; *(verloben)* deyikləmək; *sich zu viel ~* gözləmək *(von D/-dən bir zadı, bir şeyi); vr sich ~* səhv demək, ağzından qaçırtmaq, caymaq.

**Versprechen,** *das; -s, -* söz vermə, vədə, vəd, əhd, əhd-peyman, ilğar; deyikləmə *sein ~ halten* sözünə əməl etmək; *das ~ brechen* vədəsinə xilaf çıxmaq, sözünü dala götürmək, döngələmək, əhdinə vəfa etməmək; *(bei einer Geschäfts-angelegenheit)* dəbbə etmək.

**Versprecher,** *der; -s, -* səhv demə *(danışma)*, ağzından qaçırtma.

**Versprechung,** *die; -, -en : j-m große ~en machen* kiməsə böyük vədələr vermək; *F* dodu gəlmək, düdük vermək.

**versprengen** *vt* səpmək; dağıtmaq.

**verspritzen** *vt* çiləmək, səpmək, fışqırtmaq.

**versprochen** *s. versprechen.*

**versprühen** *vt* səpmək, çiləmək.

**verspüren** *vt* duymaq, hiss etmək.

**verstaatlichen** *vt* milliləşdirmək, dövlət sərəncamına *(ixtiyarına)* keçirmək.

**Verstaatlichung,** *die; -, -en* milliləş(dir)mə, dövlət ixtiyarına keçirmə.

**verstädtern** *vi* şəhərləşmək, şəhər

həyatına adət etmək; *vt* şəhərləşdirmək .

**Verstädterung,** *die; -, -en* şəhərləşmə.

**Verstand,** *der; -(e)s* ağıl, idrak, dərrakə, əql, zəka, fərasət, us, qavrayış, anlaşıq, fəhm, beyin, dərk, düşüncə, huş; *fig.* dimağ; *nicht bei ~ sein* ağlı başında olmamaq; *den ~ verlieren* ağlını itirmək, dəli olmaq; *scharfer ~* fərasət, kəskin zəka, kəskin düşüncə gücü.

**Verstandeskraft,** *die; -, -¨e* dərrakə qüvvəsi, ağıl *(düşüncə)* qüvvəsi *(gücü)*.

**verstandesmäßig** *adj.* ağıl kəsən, ağla sığan, rasional.

**Verstandesmensch,** *der; -en, -en* gerçəkçi, realist.

**verständig** *adj.* **1.** ağıl kəsən; **2.** *(Person)* ağıllı, dərrakəli, ağıllı-başlı.

**verständigen** *vt* *(j-n)* bir kəsə xəbər vermək *(von D/-dən)*, bir kəsə bildirmək, andırmaq; *den Arzt ~* həkim çağırmaq; *vr sich ~* **1.** *(sich einigen)* razılaşmaq, razılığa gəlmək, yollaşmaq, curlaşmaq *(über A/ bir şey haqda)*, anlaşmaq; yola getmək; **2.** xəbərləşmək; *sich auf Deutsch ~* alman dilində anlaşmaq *(danışmaq).*

**Verständigkeit,** *die; -* ağıllılıq; kamallılıq.

**Verständigung,** *die; -* **1.** xəbər vermə, bildirmə; **2.***(Einigung)* saziş, razılıq, anlaşma, düzəliş; **3.** *(Telefon)* bir-birini yaxşı eşitmə; *die ~ am Telefon war sehr gut* telefonda hər şey aydın eşidilirdi.

**verständigungsbereit** *adj.* danışıqlar aparmağa razı olan, sazişə hazır.

**verständlich** *adj.* aydın, başa düşülən, anlaşıqlı; *j-m et. ~ machen* bir kəsə bir şeyi başa salmaq *(anlatmaq, hali etmək); schwer ~* çətin başa düşülən; *sich ~ machen* öz fikrini anlatmaq.

**verständlicherweise** *adj.* təbii olaraq.

**Verständnis,** *das; -ses* başa düşmə, anlama, anlaq, düşüncə; *ich habe ~ für s-e Probleme* onun məsələlərini başa düşürəm *(anlayıram).*

**verständnisinnig** *adj.* başadüşən, işin iç üzünü *(mahiyyətini, mənasını)* anlayan.

**verständnislos** *adj.* başa düşməyən; dərrakəsiz, qanmaz; hissiz; boş.

**Verständnislosigkeit,** *die; -* anlaşılmazlıq, başa düşməməzlik.

**verständnisvoll** *adj.* başa düşən, qanan, düşüncəli; həssas.

**verstärken** *vt* gücləndirmək; artırmaq; çoxaltmaq, şiddətləndirmək; dayanıqlaşdırmaq.

**Verstärker,** *der; -s, -* *(Radio)* gücləndirici.

**Verstärkung,** *die; -, -en* **1.** qüvvətlənmə, güclənmə; **2.** *mil.* kömək, yardım.

**verstauben** *vi* tozlanmaq, tozla örtülmək.

**verstaubt** *adj.*tozlu, toz basmış;köhnə.

**verstauchen** *vt* burxulmaq; *ich habe mir den Knöchel verstaucht* topuğum burxulub.

**Verstauchung,** *die; -, -en* burxulma, çıxıq.

**verstauen** *vt* yerləşdirmək, yükləmək, yük vurmaq; *er hat das ganze Gepäck im Auto verstaut* o, yükün hamısını maşına vurdu.

**Versteck,** *das; -(e)s, -e* sığınacaq, sığınaq, saxlanılan yer, dalda, dalda-bucaqda, daldalanacaq, xəfə, xəfa; pusqu, marıq, girəvə, bərə; *~ spielen* gizlənpaç oynamaq; *fig.* gizlətmək.

**verstecken** *vt* gizlətmək, daldalamaq; üstünü basdırmaq *(vor D/-dən); vr sich ~* gizlənmək, daldalanmaq.

**Verstecken,** *das; -s* gizlənpaç.

**Versteckspiel,** *das; -(e)s, -e* gizlənpaç, gizlənqaç.

**versteckt** *adj.* gizlin, gizlədilmiş, görünməz; əl altından, gözaltı, batində; *adv.* için-için.

**verstehen** *vt* **1.**başa düşmək, qanmaq, anlamaq, qavramaq, dərk etmək; **2.** *(deutlich hören)* eşitmək; *ich verstehe kein Wort* heç bir şey eşitmirəm; **3.** *(wissen)* bacarmaq, əlindən gəlmək, bilmək; *s-n Beruf gut ~* ixtisasını yaxşı bacarmaq; *es ~ zu Inf. ..etməsini* bacar-

maq; *zu ~ geben* anlatmaq, işarə etmək; *Spaß verstehen* zarafat bilmək; *vr sich (gut) ~* bir-birini yaxşı başa düşmək, bab olmaq; *F* birisi ilə düz gəlmək; *sich auf et. ~* bir şeydən başı çıxmaq; *was ~ Sie unter (D) -dən* nə başa düşürsünüz?; *es versteht sich von selbst* bu aydın bir şeydir, izaha ehtiyacı yoxdur; *bitte ~ Sie mich nicht falsch!* xahiş edirəm məni yanlış başa düşməyin!

**versteifen** *vt* **1.** sərtləşdirmək; quruyub qalmaq; **2.** *techn.* möhkəmləndirmək; payalamaq; *vulg. (Penis)* durğuzmaq; *vr sich ~* 1. sərtləşmək; *(Penis)* durmaq; 2. *sich auf et. ~* inad göstərmək; tərslik etmək.

**versteigen** *vr sich ~* **1.** *(beim Bergsteigen)* azmaq, həddindən artıq yuxarı qalxmaq; **2.** *fig.* həddini aşmaq; *sich zu der Behauptung ~, dass...* həddini aşıb, iddia etmək ki...

**versteigern** *vt* hərraca qoymaq.

**Versteigerung,** *die; -, -en* hərrac.

**versteinern** *vt* daşa dönmək, daşlaşmaq.

**versteinert** *adj.* daşa dönmüş, daşlaşmış; *wie ~ dastehen* donub qalmaq.

**Versteinerung,** *die; -, -en* daşa dönmə, daşlaşma, fosil olma.

**verstellbar** *adj.* tənzim edilən.

**verstellen** *vt* **1.** *(versperren)* qabağını kəsmək *(bağlamaq)*; **2.** *(umstellen)* yerini dəyiş(dir)mək, başqa yerə qoymaq; **3.** *(falsch einstellen)* qaydadan çıxartmaq, nizamını pozmaq; **4.** *(Stimme)* dəyişdirmək; *vr sich ~* yalandan özünü göstərmək, riyakarlıq etmək, dona girmək, özünü tülkülüyə vurmaq.

**Verstellung,** *die; -, -en* ikiüzlülük, riyakarlıq, tülkülük.

**versterben** *vi* ölmək, rəhmətə getmək.

**versteuern** *vt* vergi vermək.

**verstiegen** *adj.* qəribə, qeyri-adi; şişdirilmiş.

**verstimmen** *vt* **1.** *(verärgern)* acıqlandırmaq, əhvali-ruhiyyəsni pozmaq; **2.** *mus.* kökdən salmaq.

**verstimmt** *adj.* **1.** *mus.* kökdən düşmüş; **2.** *(Magen)* mədə pozğunluğu; **3.** *(verärgert)* acıqlı, hirsli.

**Verstimmung,** *die; -, -en* pozğunluq, kefsizlik; tutqunluq.

**verstockt** *adj.* tərs, inadcıl.

**Verstocktheit,** *die; -* tərslik.

**verstohlen** *adj.* gizli, üstörtülü, sirrli; *adv.* gizlincə, xəlvəti.

**verstopfen** *vt* **1.** *(Abfluss usw.)* tıxamaq, qapamaq; **2.** *(Straße)* bağlamaq.

**verstopft** *adj.* **1.** *med.* qəbzlik, qarnı işləməmə; **2.** *(Nase)* tutulmuş; *meine Nase ist ~* burnum tutulubdur; **3.** *(Abfluss)* qapanmış, tutulmuş.

**Verstopfung,** *die; -, -en* **1.** tıxa(n)ma; **2.** *med.* qəbzlik.

**verstorben** *adj.* ölmüş, rəhmətlik.

**Verstorbene,** *der u. die; -n, -n* rəhmətlik, dünyasını dəyişmiş; *die ~n* ölənlər, rəhmətə gedənlər, əmvat *pl.*

**verstört** *adj.* özünü itirmiş, şaşqın.

**Verstoß,** *der; -es, -¨e* poz(ul)ma, pozuculuq, zidd getmə *(gegen A/nəyəsə).*

**verstoßen** *vt* qovmaq, rədd etmək, qəbul etməmək, *aus der Familie ~* ailədən qovmaq; *vi* pozmaq, zidd getmək.

**verstreben** *vt* dayaq vurmaq, dayaq vermək.

**Verstrebung,** *die; -, -en* dayaq.

**verstreichen** *vt* **1.** *(Farbe, Honig usw.)* sürtmək; **2.** *(Mauerriss)* suvamaq, malalamaq; *vi (Zeit)* keçmək.

**verstreuen** *vt* səpələmək, dağıtmaq.

**verstreut** *adj.* səpələnmiş, dağılmış, dağınıq.

**verstricken** *vt* **1.** *(Garn, Wolle) toxuyanda* işlətmək; **2.** *fig.* cəlb etmək, dolaşdırmaq *(j-n in A/bir kəsi bir işə); vr sich ~* dolaşmaq, ilişmək.

**Verstrickung,** *die; -, -en* dolaşma, ilişmə.

**verstümmeln** *vt* **1.** şil-küt etmək, şikəst etmək;; **2.** *(Text)* təhrif etmək.

**verstümmelt** *adj.* şikəst.

**Verstümmelung,** *die; -, -en* şikəstlik.

**verstummen** *vi* lal olmaq, səsi kəsilmək; kəsilmək.

**Versuch,** *der; -(e)s, -e* **1.** təşəbbüs; cəhd; əl atmaq; **2.** *(Probe)* sınaq, təcrübə, imtahan; *e-n ~ machen* təcrübə aparmaq *(mit D/nədəsə).*

**versuchen** *vt* **1.** cəhd etmək; sınamaq, təcrübə etmək *(aparmaq)*; imtahan etmək, yoxlamaq; **2.** *(kosten)* dadına baxmaq; *den Wein ~* şərabı dadmaq *(yoxlamaq); versucht sein, sich versucht fühlen zu -etməyə* həvəsli olmaq.

**Versuchsballon,** *der; -s, -s* təcrübə *(yoxlama)* şarı.

**Versuchskaninchen,** *das; -s, -* üzərində təcrübə aparılan dovşan; *fig.* təcrübə obyekti.

**Versuchsstadium,** *das; -s, -dien* təcrübə mərhələsi.

**Versuchstier,** *das; -(e)s, -e* üzərində təcrübə aparılan heyvan.

**versuchsweise** *adv.* təcrübə üçün, təcrübə kimi; təcrübə məqsədilə.

**Versuchszweck,** *der; -(e)s, -e : zu ~en* təcrübə məqsədilə.

**Versuchung,** *die; -, -en* nəfs, həvəs, cəlb edilmə; *in ~ geraten* həvəsə gəlmək, həvəslənmək *(zu Inf./ -məyə).*

**versumpfen** *vi* **1.** bataqlaşmaq, batlaqlaşmaq; **2.** *fig.* pis vəziyyətə düşmək.

**versündigen** *vr sich ~* günah etmək *(an D/nədəsə),* günah iş görmək, xata eləmək, günaha batmaq.

**versunken** *s. versinken; adj.* batmış; *fig.* dalğın; *~ in Gedanken* fikir dünyasına batmış, fikrə dalmış.

**Versunkenheit,** *die; -* dalğınlıq.

**versüßen** *vt* şirinləşdirmək; *fig.* gözəlləşdirmək.

**vertagen** *vt* sonraya salmaq, təxirə salmaq, başqa vaxta keçirmək.

**Vertagung,** *die; -, -en* təxirə salma, sonraya salma, başqa vaxta keçirmə.

**vertauschen** *vt* **1.** *(versehentlich)* dəyişmək; **2.** əvəz etmək.

**verteidigen** *vt* müdafiə etmək, qorumaq; *vr sich ~* özünü müdafiə etmək, özünü qorumaq *(gegen A / kimdənsə / nədənsə).*

**Verteidiger,** *der; -s, -* müdafiəçi; havadar.

**Verteidigung,** *die; -* müdafiə, qoru(n)ma.

**Verteidigungsausgaben** *die/pl.* müdafiə xərcləri, müdafiə üçün ayrılan xərclər, hərbi büdcə.

**verteidigungsbereit** *adj.* müdafiəyə hazır.

**Verteidigungsbündnis,** *das; -ses, -se* müdafiə ittifaqı.

**Verteidigungskrieg,** *der; -(e)s, -e* özünümüdafiə müharibəsi; ədalətli müharibə.

**Verteidigungsminister,** *der; -s, -* müdafiə naziri.

**Verteidigungsministerium,** *das; -s, ri-en* müdafiə nazirliyi.

**Verteidigungspolitik,** *die; -* müdafiə siyasəti.

**Verteidigungswaffe,** *die; -, -n* müdafiə silahı.

**verteilen** *vt* paylamaq, paylaşdırmaq; bölmək, bölüşdürmək, dağıtmaq, yerbəyer etmək.

**Verteiler,** *der; -s, -* **1.** bölüşdürən, paylaşdıran, bölücü, dağıdıcı; **2.** *techn.* paylaşdırıcı.

**Verteilernetz,** *das; -es, -e* paylaşdıran şəbəkə, paylaşdırma məntəqəsi.

**Verteilung,** *die; -* paylama, paylaşdırma, dağıtma; bölmə, bölüş.

**verteuern** *vt* bahalandırmaq, qiymətini qaldırmaq; *sich ~* bahalaşmaq.

**Verteuerung,** *die; -* bahalanma; bahalıq, qiymətlərin artması.

**verteufeln** *vt* pis demək, pisləmək.

**verteufelt** *adj.* son dərəcə pis, dəhşətli; *adv. F* çox, artıq, xeyli; *er ist in e-r ~ schwierigen Lage* o, çox çətin bir vəziyyətdədir.

**vertiefen** *vt* dərinləşdirmək; *vr sich ~* dərinləşmək; *fig.* dərinə getmək; *sich in Gedanken ~* fikrə dalmaq.

**vertieft** *adj.* dalğın *(in A/-ə).*

**Vertiefung,** *die; -, -en* çuxur, dərinlik, batqın; dərinləş(dir)mə.

**vertiert** *adj.* *(Mensch)* vəhşiləşmiş.
**vertikal** *adj.* vertikal, əmudi, şaquli.
**Vertikale,** *die; -n, - n* əmudi xətt, şaquli xətt.
**vertilgen** *vt* **1.** yox etmək, məhv etmək; **2.** *fig. F (Essen)* yeyib qurtarmaq, silib-süpürmək.
**Vertilgung,** *die; -* qırma, məhv etmə.
**vertippen** *vr* *sich ~* səhv etmək, çap səhvi etmək.
**vertonen** *vt* musiqiyə salmaq, bəstələmək.
**Vertonung,** *die; -* musiqiyə salma; səsləndirilmə.
**vertrackt** *adj.* qarışıq, dolaşıq.
**Vertrag,** *der; -(e)s, -¨e* müqavilə, saziş, şərtnamə, qərardad, əhd, əhdnamə, əqd; *e-n ~ abschließen* müqavilə *(əhd / əqd)* bağlamaq; *der ~ von Türkmentchai* Türkmənçay əhdnaməsi.
**vertragen** *vt* **1.** dözmək, təhəmmül etmək; **2.** *(Essen)* həzm etmək; **3.** *(Spaß)* zarafat bilmək; *vr sich ~* bir-biri ilə yola getmək, anlaşmaq; *sich mit j-m wieder ~* bir kəslə barışmaq.
**vertraglich** *adj.* müqavilədən irəli gələn; *adv.* müqaviləyə görə *(dair),* müqaviləyə müvafiq olaraq.
**verträglich** *adj.* **1.** qılıqlı, yolagedən; **2.** *(Essen)* həzm olan.
**Verträglichkeit;** *die; -* yolagedənlik.
**Vertragsabschluss,** *der; -es, -¨e* müqavilənin bağlanması.
**Vertragsbruch,** *der; -s, -¨e* sazişin pozulması.
**vertragsbrüchig** *adj.* sazişi pozan.
**vertragsgemäß** *adj.* müqaviləyə uyğun olaraq; *adv.* müqaviləyə görə.
**Vertragstext,** *der; -(e)s, -e* müqavilə mətni.
**vertragswidrig** *adj.* müqaviləyə zidd, müqavilənin ziddinə.
**Vertragsurkunde,** *die; -, -n* müqavilənamə.
**vertrauen** *vi* inanmaq, etibar etmək, güvənmək, etimad etmək, xatircəm olmaq *(D, auf A/-ə).*
**Vertrauen,** *das; -s* inam, etimad, güvən, etibar *(auf A, zu D/-ə); zu j-m ~ haben* bir kəsə inanmaq, etimad eləmək, bel bağlamaq; *im ~ gesagt* öz aramızda qalsın; *im ~ auf A* -ə inanaraq; *kein ~ haben* gözü su içməmək, etibar etməmək; *volles ~* tam inam.
**vertrauenerweckend** *adj.* inandırıcı, etibarlı.
**Vertrauensarzt,** *der; -es, -¨e* sığorta həkimi.
**Vertrauensbruch,** *der; -(e)s, -¨e* inamı itirmə, etibarı pozma.
**Vertrauensfrage,** *die; -, -en* *pol.* etimad rəyi.
**Vertrauensmann,** *der; -(e)s, -leute* vəkil edilmiş şəxs, inanılmış adam; əmanətdar.
**Vertrauensperson,** *die; -, -en* *s. Vertrauensmann.*
**Vertrauenssache,** *die; -* inam məsələsi, etibar məsələsi.
**vertrauensselig** *adj.* inanan, sadəqəlbli.
**vertrauensvoll** *adj.* **1.** inamla dolu, ümidlə dolu; *~ in die Zukunft blicken* gələcəyə inamla *(ümidlə)* baxmaq; **2.** etibarlı, əmin.
**Vertrauensvotum,** *das; -s, -ten* etimad rəyi *(votumu)*, etimadnamə.
**vertrauenswürdig** *adj.* inanmalı, etibara layiq, arxayın adam, dürüst adam, əmanətdar, əmin; *F* halal süd əmmiş.
**vertraulich** *adj.* **1.** *(geheim)* gizli, məxfi; **2.** səmimi, yaxın.
**Vertraulichkeit,** *die; -, -en* **1.** *nur sg.* *(Diskretion)* gizlilik; **2.** yaxınlıq.
**verträumen** *vt* *(Zeit)* xəyallarla keçirmək.
**verträumt** *adj.* **1.** dalğın, xəyalpərəst; **2.** *(Ort)* sakit, aram, xoşa gələn yer.
**vertraut** *adj.* **1.** yaxın, tanış, səmimi; alışqan; bağrıbadaş, doğma; *veralt.* eymən; **2.** *j-n mit et. ~ machen* bir kəsi bir şey ilə tanış etmək; *sich mit et. ~ machen* bir zad *(şey)* ilə tanış olmaq, yaxınlıq etmək; alışmaq.
**Vertraute,** *der u. die; -n, -n* səmimi dost, sirdaş, bağrıbadaş, canbir; vəkil.

**Vertrautheit,** *die; -, -en* yaxınlıq; səmimiyyət, səmimilik.

**vertreiben** *vt* **1.** qovmaq, qaçırmaq, dəf etmək, rədd etmək; **2.** *(Zeit)* keçirtmək, vurnuxmaq, nə isə bir şeylə məşğul olmaq; dolanmaq; *F* düмələnmək, dümük olmaq; **3.** *H* satmaq, dağıtmaq; *vertrieben werden* qovulmaq.

**Vertreibung,** *die; -, -en* qov(ul)ma, dərbədərlik.

**vertretbar** *adj.* qəbul ola bilən; qanuni, bəraət qazanmış; *e-e ~e Entscheidung* qəbul ola bilən qərar.

**vertreten**[1] *vt* **1.** təmsil etmək; bir kəsin yerində olmaq, yerini tutmaq; **2.** *jur.* vəkalət etmək; *die Ansicht ~, dass..* bu fikrin tərəfdarı olmaq ki... .

**vertreten**[2] *vt* **1.** *sich den Fuß ~* ayağını burxutmaq; **2.** *sich die Beine ~* qalxıb dolanmaq, gəzib dolanmaq.

**Vertreter,** *der; -s, -* **1.** nümayəndə, vəkil; müavin; əvəz; **2.** *H* agent.

**Vertretung,** *die; -, -en* nümayəndəlik, vəkillik; əvəz.

**vertretungsweise** *adj.* vəkalətən, vəkil olaraq.

**Vertrieb,** *der; -(e)s, -e* satış.

**Vertriebene,** *der u. die; -n, -n* köçkün, qovulmuş şəxs, sığınan, cəlayi-vətən, didərgin, çöllərə düşmüş, dərbədər düşmüş.

**vertrimmen** *vt F* döymək.

**vertrinken** *vt* pulunu içkiyə xərcləmək.

**vertrocknen** *vi* qurumaq.

**vertrocknet** *adj.* qurumuş.

**vertrödeln** *vt (Zeit) F* vaxtını boş yerə ke-irmək.

**vertrösten** *vt* ümid vermək, təsəlli vermək *(auf A/ bir zad/şey üçün).*

**vertrotteln** *vi* sarsaqlamaq, səfehləmək.

**vertrottelt** *adj. F* sarsaq, səfeh.

**vertun** *vt* **1.** *(Geld)* boş yerə xərcləmək; **2.** *(Zeit)* boş yerə keçirmək; *vr sich ~* səhv etmək, yanılmaq.

**vertuschen** *vt* ört-basdır etmək, gizlətmək.

**verübeln** *vt : j-m et. ~* bir kəsin bir işini pisləmək, bir kəsdən bir şey üçün acıqlı olmaq, küsmək.

**verüben** *vt* etmək; *ein Verbrechen ~* cinayət etmək; *Selbstmord ~* intihar etmək, özünü öldürmək.

**verulken** *vt* ələ salmaq, lağa qoymaq.

**verunglimpfen** *vt* böhtan atmaq, adını pisə çıxarmaq, iftira etmək, rüsvay etmək, ləkələmək, xar etmək.

**Verunglimpfung,** *die; -, -en* bir kəsin adını pisə çıxarma, böhtan atma, rüsvay etmə, iftira, xar etmə.

**verunglücken** *vi* **1.** qəzaya uğramaq; *tödlich ~* ölümcül qəzaya uğramaq, ölüm qəzasına uğramaq; **2.** *fig.* baş tutmamaq, olmamaq.

**verunreinigen** *vt* çirkləndirmək, kirləndirmək.

**Verunreinigung,** *die; -, -en* çirklətmə, çirkləndirmə.

**verunsichern** *vt* çaşdırmaq, azdırmaq.

**verunstalten** *vt* pozmaq, eybəcərləşdirmək, deforme etmək.

**veruntreuen** *vt* sui-istifadə etmək, başqasının əmlakını mənimsəmək, əmanətə xəyanət etmək; baydırmaq.

**Veruntreuung,** *die; -, -en* sui-istifadə etmə, israfçılıq; oğurlama.

**verunzieren** *vt* çirkinləşdirmək, eybəcərləşdirmək.

**verursachen** *vt* səbəb olmaq, bais olmaq; *Unzufriedenheit ~* narazılıq oyatmaq, narazılığa bais olmaq.

**verurteilen** *vt* **1.** məhkum etmək *(zu D/-ə)*; **2.** *(tadeln)* danlamaq, məzəmmət etmək, qınamaq; *verurteilt werden* məhkum olmaq *(zu D/-ə).*

**Verurteilte,** *der u. die; -n, -n* məhkum; məhkum edilmiş.

**Verurteilung,** *die; -, -en* məhkumluq; *fig.* qınama, pisləmə, məzəmmət etmə.

**vervielfachen** *vt* çoxaltmaq, bir neçə dəfə artırmaq; *sich ~* çoxalmaq, bollaşmaq, artmaq.

**Verve,** *die; -* həyəcan, şövq, vəcd.

**vervielfältigen** *vt* nüsxəsini çoxaltmaq, sayını artırmaq, çoxaltmaq.

**Vervielfältigung,** *die; -, -en* çoxaltma, sayını artırma.

**Vervielfältigungsapparat,** *der; -(e)s, -e* nüsxə çoxaldan aparat.

**vervollkommnen** *vt* təkmilləşdirmək; ixtisası artırmaq; *vr sich ~* təkmilləşmək.

**Vervollkommnung,** *die;* - təkmilləş(diril)mə, təkmil.

**vervollständigen** *vt* tamamlamaq, bütünləşdirmək.

**verwachsen** *vi* bitişmək, bir-birinə dolaşmaq; *fig.* birləşmək *(mit D/ilə); adj.* donqar, əyilmiş; *er ist ~* o, donqardır.

**verwackeln** *vt (Foto)* titrətmək, aydın çəkməmək.

**verwackelt** *adj. (Foto)* pis çəkilmiş.

**verwählen** *vr sich ~* yanlış nömrə yığmaq.

**verwahren** *vt* qoruyub saxlamaq; *vr sich ~* etiraz etmək *(gegen A/-ə qarşı).*

**verwahrlos** *adj.* baxımsız, sahibsiz.

**verwahrlosen** *vi* nəzarətsiz qalmaq, baxımsız qalmaq.

**verwahrt** *adj.* baxımsız, nəzarətsiz.

**Verwahrung,** *die;* - **1.** qoruyub-saxlama, mühafizə, amanat, əmanət; **2.** *(Einspruch, Protest)* etiraz.

**verwaisen** *vi* yetim qalmaq; *fig.* tək qalmaq, tərk edilmək; *ein verwaistes Haus* tərk edilmiş *(tək qalmış)* ev, boş ev.

**verwaist** *vt* yetim qalmış; *fig.* boş.

**verwalten** *vt* idarə etmək; *fig.* əlində olmaq.

**Verwalter,** *der; -s, -* idarə edən; müdir.

**Verwaltung,** *die; -, -en* **1.** *(das Verwalten)* müdiriyyət; **2.** idarə, inzibat; idarə etmə.

**Verwaltungsapparat,** *der; -(e)s, -e* inzibati idarə.

**Verwaltungsbezirk,** *der; -(e)s, -e* mahal.

**Verwaltungsdirektor,** *der; -s, -en* idarə müdiri.

**verwaltungsmäßig** *adj.* inzibati idarə qaydası ilə.

**Verwaltungsrat,** *der; -(e)s, -¨e* inzibati şura.

**verwandeln** *vt* dəyişdirmək; çevirmək *(in A/-ə); vr sich ~* çevrilmək, dəyişilmək *(in A/-ə).*

**Verwandlung,** *die; -, -en* çevrilmə, dönmə, dəyiş(dir)mə.

**verwandt** *adj.* qohum.

**Verwandte,** *der u. die; -n, -n* qohum-əqrəba; *der nächste ~* ən yaxın qohum.

**Verwandschaft,** *die; -, -en* **1.** qohumluq, qərabət, əqrəbalıq; **2.** *(Verwandte)* qohum-qardaş, qohumlar, qohum-əqrəba, əqrəba.

**verwandtschaftlich** *adj.* qohumluq.

**verwarnen** *vt* xəbərdar etmək.

**Verwarnung,** *die; -, -en* xəbərdarlıq.

**verwaschen** *adj.* bozarmış; *fig.* anlaşılmaz, aydın olmayan.

**verwässern** *vt* su qatmaq; *fig.* bayağılaşdırmaq.

**verweben** *vt* hörmək; *fig. miteinander ~* bir-birinə keçirmək.

**verwechseln** *vt* qarışdırmaq; bənzətmək, dəyişik salmaq *(mit D/ilə).*

**Verwechs(e)lung,** *die; -, -en* dəyişik salma, qarış(dır)ma, yanılma, dəyişik düşmə.

**verwegen** *adj.* qoçaq, qorxmaz.

**Verwegenheit,** *die; -, -en* **1.** *nur sg.* qoçaqlıq, cəsarət, fədakarlıq; **2.** qoçaqlıq etmə.

**verwehen** *vt* sovurmaq, dağıtmaq; *der Wind verweht die Blätter* yel yarpaqları dağıdır *(sovurur); vi* yox olmaq, üstü örtülmək; sovrulmaq.

**verweht** *adj.* dağılmış; sovrulmuş.

**verwehren** *vt* qadağan etmək, qarşısını almaq, *etməsinə* əngəl olmaq.

**verweichlichen** *vt* zərifliyə öyrətmək, nazlandırmaq; *vi* nazlanmaq; iradəsiz olmaq.

**verweichlicht** *adj.* zərifliyə öyrənmiş, nazlı.

**verweigern** *vt* rədd etmək, qəbul etməmək, imtina etmək, əsirgəmək.

**Verweigerung,** *die; -, -en* rədd etmə, qəbul etməmə, boyun qaçırma.

**verweilen** *vt* bir yerdə qalmaq, olmaq,

dayanmaq; *bei j-m ~* bir kəsin yanınd qalmaq .

**verweint** *adj.* ağlamış, gözü yaşlı.

**Verweis,** *der; -es, -e* **1.** *(Tadel)* məzəmmət, töhmət; ixatar; *ich erhielt e-n ~* mən bir ixtar aldım; **2.** *(Hinweis)* istinad etmə, işarə etmə, əsaslanma, dəlalət *(auf A/ -ə)*; *j-m e-n ~ erteilen* bir kəsə ixtar *(töhmət)* vermək *(wegen D/ ..üçün, -ə görə)* .

**verweisen** *vt* **1.** *(hinweisen)* işarə etmək, diqqətini bir şeyə cəlb etmək; **2.** *(tadeln)* məzəmmət etmək, danlamaq; **3.** *(hinauswerfen)* qovmaq, tərd etmək *(aus, von D/dən);* **4.** göndərmək *(an A/-ə); j-n an jemand anderen ~* bir kəsi başqa bir kəsin yanına göndərmək, həvalə etmək; *j-n in die Schranken ~* bir kəsə həddini bildirmək; *j-n des Landes ~* bir kəsi sürgün etmək, ölkədən qovmaq.

**verwelken** *vi* solmaq, saralmaq.

**verwelkt** *adj.* solmuş, saralmış; *e-e ~e Blume* saralıb-solmuş bir çiçək *(gül)* .

**verweltlichen** *vt* laikləşdirmək, din və dövlət işlərini bir-birindən ayırmaq, dünyəviləşdirmək; *vi* laikləşmək.

**verwendbar** *adj.* tətbiq edilə bilən, istifadə oluna bilən; *häufig ~* çoxişlənən.

**verwenden** *vt* **1.** işlətmək, istifadə etmək, tətbiq etmək; **2.** *(Zeit)* sərf etmək; *vr sich ~* tərəfini saxlamaq *(für A/kiminsə, nəyinsə); ich werde mich für dich ~* sənin tərəfini saxlayacağam, səni himayə edəcəyəm.

**Verwendung,** *die; -* işlətmə, istifadə etmə, tətbiq etmə; *ich habe dafür keine ~* bundan istifadə edə bilmirəm, bu dərdimə dəymir.

**verwerfen** *vt* rədd etmək, qəbul etməmək; *vi* **1.** *(Tier)* balalamaq; **2.** *vr sich ~ (Holz)* əyilmək, qabarmaq.

**verwerflich** *adj.* yararsız, pis, alçaq, iyrənc; *rel.* məkruh.

**Verwerfung,** *die; -, -en* **1.** rədd etmə, rədd edilmə; **2.** *geol.* qabarma; çatlama, sürüşmə.

**verwertbar** *adj.* dəyərli ola bilən, istifadəli, yararlı.

**verwerten** *vt* dəyərləndirmək, istifadə etmək.

**Verwertung,** *die; -* dəyərləndirmə; istifadə.

**verwesen** *vi (verfaulen)* çürümək, üfunət etmək.

**Verweser,** *der; -s, -* hakim; idarə edən.

**verwestlichen** *vt* qərbiləşdirmək, batılaşdırmaq; *vr sich ~* qərbiləşmək, batılaşmaq.

**Verwesung,** *die; -, -* çürümə.

**verwetten** *vt* mərcdə uduzmaq.

**verwickeln** *vt* dolaşıq salmaq, dolaşdırmaq; girişmək; *vr sich ~* **1.** *(Faden usw.)* dolaşıq düşmək; **2.** girişmək; *sich in Widersprüche ~* ziddiyyətə düşmək.

**verwickelt** *adj.* dolaşıq; mürəkkəb, cəncəlli; *~ sein in (A)* çətinliyə düşmək; çəlpəşik düşmək.

**Verwicklung,** *die; -, -en* qarışma; qarışıqlıq, dolaşıqlıq; mürəkkəbləşmə, mürəkkəblik, çətinləş(diril)mə.

**verwildern** *vi* **1.** *(Park, Garten usw.)* başlı-başına buraxmaq, alaq basmaq; **2.** *(Tier)* vəhşiləşmək, heyvanlaşmaq.

**Verwilderung,** *die; -* vəhşiləşmə.

**verwinden** *vt* **1.** *(Schicksalsschlag usw.)* dözmək, tab gətirmək; yaddan çıxarmaq; **2.** *techn.* burmaq.

**verwirken** *vt* əlindən çıxmaq, haqqını itirmək; məhrum olmaq; *sein Leben verwirkt haben* həyatı ilə cavab vermək, ölümə məhkum olmaq.

**verwirklichen** *vt* yerinə yetirmək, həyata keçirmək; *vr sich ~* **1.** həyata keçmək; **2.** istedadını göstərmək, bacarığını göstərmək.

**Verwirklichung,** *die; -* həyata keçirmə, gerçəkləşmə.

**verwirren** *vt* **1.** *(Haar usw.)* dolaşıq salmaq, dolaşdırmaq; **2.** *(j-n)* çaşdırmaq, karıxdırmaq, çəlpəşik salmaq, yanıltmaq, çaşbaş eləmək.

**verwirrt** *adj.*dolaşıq; çaşqın, pərt, çəlpəşik, gic, çaşbaş; *~ werden* çaşdırılmaq, çaşıb-qalmaq, karıxmaq.

**Verwirrung,** *die; -, -en* dolaşıqlıq, qa-

rışıqlıq, pərtlik, cəncəl; anlaşılmazlıq; özünüitirmə, çaşbaşlıq; *in ~ bringen* çaşdırmaq, gicəlləndirmək; *in ~ geraten* çaşmaq, kırıxmaq, pərt olmaq, cəncələ düşmək, gicəllənmək, buyuxmaq, çaşbaş olmaq; əl-ayağa düşmək.

**verwirtschaften** *vt* israf etmək, xərcləmək; heçə-puça çıxarmaq.

**verwischen** *vt* silmək, silib yox etmək.

**verwischt** *adj.* silinib təmizlənmiş.

**verwittern** *vi* aşınmaq.

**verwittert** *adj.* köhnə, havadan aşınmış.

**verwitwet** *adj.* dul, dul qalmış, ərsiz; *~ sein* dullaşmaq.

**verwöhnen** *vt* **1.** əzizləmək, nazını çəkmək; **2.** *(verziehen)* ərköyün böyütmək, əzdirmək.

**verwöhnt** *adj.* ərköyün, əziz-ərköyün; *~ sein (versessen sein auf A) -ə* dadanmaq.

**Verwöhnung,** *die; -* ərköyünlük.

**verworfen** *adj.* əxlaqsız, alçaq, rəzil.

**Verworfenheit,** *die; -* alçaqlıq.

**Verworren** *adj.* qat-qarışıq, qarışıq, dolaşıq, çalpaşıq, iğtişaşlı, çəlpəşik.

**Verworrenheit,** *die; -* qat-qarışıqlıq; çəlpəşiklik.

**verwundbar** *adj.* dişbatan; həssas; yaralana bilən.

**verwunden** *vt* yaralamaq, yara vurmaq, qanatmaq; *fig.*incitmək.

**verwunderlich** *adj.* qəribə, təəccüblü, şaşırtıcı, heyrətamiz.

**verwundern** *vt* həyrətləndirmək, təəccübləndirmək, şaşdırmaq; *vr sich ~* təəccüblənmək, heyrətə gəlmək, şaşmaq, şaşırmaq, hayıl-mayıl qalmaq *(über A/ -ə).*

**verwundert** *adj.* təəccüblü, şaşqın; *adv.* hayıl-mayıl; *j-n ~ ansehen* bir kəsə təəccüblə baxmaq.

**Verwunderung,** *die; -* təəccüb, heyrət; *zu meiner ~* təəccüblə *(heyrətlə)* gördüm ki...; *~ auslösen* heyrətə salmaq

**verwundet** *adj.* yaralı.

**Verwundete,** *der u, die; -n, -n* yaralı.

**Verwundung,** *die; -, -en* yarala(n)ma; *fig.* incimə.

**verwunschen** *adj.* ovsunlanmış, tilsimlənmiş.

**verwünschen** *vt* qarğış eləmək, qarğımaq, lənət oxumaq; ovsunlamaq.

**verwünscht** *adj.* lənətə gəlmiş; aqq.

**Verwünschung,** *die; -, -en* qarğış, lənət, qarğışlama.

**verwurzeln** *vi* dərin kök atmaq.

**verwurzelt** *adj.* kök salmış.

**verwüsten** *vt* xaraba qoymaq, viran etmək, çölləmək, darmadağın etmək.

**verwüstet** *adj.* xaraba, viranə.

**Verwüstung,** *die; -, -en* xaraba qoyma.

**verzagen** *vi* ruhdan düşmək, mə`yus olmaq, cəsarətini əldən vərmək.

**verzagt** *adj.* cəsarətsiz, ruhsuz.

**Verzagtheit,** *die; -* ürəksizlik, cəsarətsizlik.

**verzählen** *vr sich ~* hesabda yanılmaq, yanlış saymaq.

**verzahnen** *vt* diş-dişə birləşdirmək, bir-birinə keçirmək; *vr sich ~* bir-birinə keçmək; *fig.* ilişdirmək.

**Verzahnung,** *die; -, -en* bir-birinə keçmə; ilişmə.

**verzanken** *vr sich ~* dalaşmaq, araları dəymək, küsüşmək.

**verzapfen** *vt* **1.** diş-dişə bitişdirmək; **2.** çəlləkdən tökmək; **3.** *Unsinn ~* boş-boş danışmaq, zır vurmaq.

**verzärteln** *vt* ərköyün böyütmək.

**verzaubern** *vt* ovsunlamaq; məftun etmək.

**Verzauberung,** *die; -, -en* məftun etmə, məftunluq, heyranlıq.

**verzehnfachen** *vt* on qat artırmaq.

**Verzehr,** *der; -(e)s* yemə, içmə.

**verzehren** *vt* yeyib-içmək; *fig.* taqətdən salmaq; *fig. vr sich ~* özünü üzmək, ehtiraslı olmaq, özünü yemək *(vor D/-dən ötrü); sich nach j-m/et. ~* bir kəsdən/şeydən ötrü özünü fəda etmək *(üzmək)*, ehtiraslı olmaq.

**verzehrend** *adj. fig.* yeyici.

**verzeichnen** *vt* **1.** yazmaq, qeyd etmək; *in e-r Liste ~* siyahıya yazmaq; **2.** *(falsch)* düz çəkməmək; xarablamaq;

*e-n Efolg ~* müvəffəqiyyət qazanmaq.

**Verzeichnis,** *das; -ses, -se* siyahı, cədvəl, mündəricat, qeyd vərəqəsi; yaddaş dəftəri.

**verzeihen** *vt* bağışlamaq, günahından keçmək, təqsirindən keçmək, güzəşt etmək, halal etmək; *~ Sie!* bağışlayın!; *vi j-m ~* bir kəsi bağışlamaq.

**verzeihlich** *adj.* bağışlanan, bağışlana bilən.

**Verzeihung,** *die; -* bağışlama, üzr; *j-n um ~ bitten* bir kəsdən üzr istəmək; *~!* bağışlayın!

**verzerren** *vt* **1.** *(Gesicht usw.)* üz-gözü əymək; **2.** *(Darstellung usw.)* təhrif etmək; səhv demək, səhv yazmaq; pozmaq; *vr sich ~* pozulmaq, təhrif olmaq.

**verzerrt** *adj.* korlanmış, təhrif olmuş.

**verzetteln** *vt* **1.** kiçik vərəqlərə yazmaq, listə keçmək; **2.** *fig.* boş yerə sərf etmək; *vr sich ~* vaxtını xırda işlərə sərf etmək, xırdacılıqla məşğul olmaq.

**Verzettelung,** *die; -, -en* vərəqəyə yaz(ıl)ma; boş yerə sərf etmə.

**Verzicht,** *der; -(e)s, -e* əlçəkmə, vazkeçmə; üz döndərmə, imtina etmə, rədd etmə.

**verzichten** *vt* əl çəkmək *(götürmək)*, vaz keçmək, boşlamaq, imtina etmək *(auf A/-dən); F auf et. ~* tamah dişini çəkmək; *zu j-s Gunsten ~* bir kəsin lehinə *(davadan)* əl çəkmək *(imtina etmək).*

**verziehen**[1] *s. verzeihen.*

**verziehen**[2] *vt* qırışdırmaq; **1.** *(Kind)* ərköyün böyütmək, əzdirmək; **2.** *(Gesicht)* üz-gözü əymək; **3.** *(Holz)* əymək; *vi* daşınmaq, başqa yerə çökmək; *sie sind nach Bonn verzogen* onlar bona daşınıblar; *vr sich ~* 1.əyilmək, şəklini dəyişmək; 2. *(Nebel usw.)* dağılmaq, keçib getmək; 3. *(Gesicht)* əyilmək, buruşmaq; 4. *F* çıxıb getmək; *sich in sein Zimmer ~* otağına getmək.

**verzieren** *vt* bəzəmək, bəzək vurmaq.

**verziert** *adj.* bəzəkli.

**Verzierung,** *die, -, -en* bəzək; dekor.

**verzinken** *vt* üzünə sink çəkmək.

**verzinkt** *adj.* sinkləşmiş, sinkli.

**verzinnen** *vt* qalaylamaq.

**verzinnt** *adj.* qalaylı.

**verzinsbar** *adj.* faizli, faiz gətirən.

**verzinsen** *vt* faizini vermək *(ödəmək)*; *vr sich ~* faiz gətirmək

**verzinslich** *adj. s. verzinsbar.*

**Verzinsung,** *die; -, -en* **1.** faiz verilməsi, gətiri; **2.** *(Zinssatz)* faiz dərəcəsi.

**verzögern** *vt* uzatmaq, süründürmək, yavaşıtmaq, gecikdirmək, günü günə satmaq, axsatmaq; *vr sich ~* ləngidilmək.

**Verzögerung,** *die; -, -en* uzanma, sürün(dür)mə, tərəddüd, gecikdir(il)mə, yubanma, yavaşıma, gecikmə, ləngidilmə, fələclik, geclik.

**Verzögerungstaktik,** *die; -, -en* ləngidmə taktikası, məsələni uzatma taktikası.

**verzollen** *vt* gömrük vermək.

**verzuckern** *vt fig.* şirinləşdirmək.

**verzückt** *adj.* fərəhli, şad.

**Verzückung,** *die; -, -en* vəcd, fərəh, şövq, özündən çıxma.

**Verzug,** *der; -(e)s* **1.** yübatma, geçikdirmə, ləngi(dil)mə; *in ~ geraten* vaxtını keçirtmək, gecikmək, geri düşmək; **2.** *Gefahr ist im ~* təhlükə (*xəbəri*) gəlir; *ohne ~* gecikdirmədən, yubatmadan.

**Verzugszinsen,** *die/pl.* dəbbə pulu, gecik(dir)mə faizi, ödənişin gecikdirilməsi zəminində əlavə pul cəriməsi.

**verzweifeln** *vi* ümidini kəsmək, ümidini itirmək, əlini üzmək *(an D/-dən).*

**verzweifelt** *adj.* ümidsiz, naümid *(über A/dən); adv.* naümidcəsinə.

**Verzweiflung,** *die; -* ümidsizlik, naümidlik, çarəsizlik; *j-n zur ~ bringen* bir kəsi təngə gətirmək; *in ~ geraten* zinhara gəlmək, cana gəlmək.

**verzweigen** *vr sich ~* qollara ayrılmaq, şaxələnmək, haçalanmaq, haçalaşmaq.

**verzweigt** *adj.*çoxşaxəli, çoxqollu, çoxbudaqlı; çoxsahəli.

**Verzweigung,** *die; -, -en* qollara ayrılma; xaça; yayılma, genişlənmə.

**verzwickt** *adj.* dolaşıq, çətin, anlaşılmaz, dallı-budaqlı.

**Vesper,** *die; -, -n* **1.** *rel.* axşam duası; **2.** ikindi yeməyi.

**vespern** *vi* günorta xörəyi yemək.

**Vestibül,** *das; -s, -e* dəhliz, dalan.

**Veteran,** *der; -en, -en* **1.** veteran; **2.** bir işdə baş ağartmış.

**Veterinär,** *der; -s, -e* baytar, mal *(heyvan)* həkimi.

**Veterinärmedizin,** *die; -* mal həkimliyi, baytarlıq.

**Veto,** *das; -s, -s* veto, qadaçan, etiraz haqqı; *sein ~ einlegen* veto qoymaq *(gegen A/ bir zada/şeyə qarşı).*

**Vetorecht,** *das; -s* veto hüququ.

**Vetter,** *der; -s, -n* əmioğlu, dayıoğlu.

**Vetternwirtschaft,** *die; -* yerlibazlıq, qohumbazlıq, dostbazlıq.

**Vexierbild,** *das; -(e)s, -er* tapmaca.

**via** *präp. A* -dan, -dən, ...yolu ilə; *nach Shusha ~ Xocalí fahren* Şuşaya Xocalı yolu ilə getmək.

**vgl.** *= vergleiche ...!* bax ..., bax gör...

**Vibration,** *die; -, -en* titrəmə.

**vibrieren** *vt* titrəmək; *zum ~ bringen* titrətmək.

**Videofilm,** *der; -(e)s, -e* video filmi.

**Videotext,** *der; -(e)s, -e* video mətni *(teksti).*

**Videoüberwachung,** *die; -, -en* viedo ilə kontrol etmə *(yoxlama).*

**Vieh,** *das; -(e)s* **1.** mal-qara, qaramal, mal-davar; **2.** *(Kleinvieh)* davar.

**Viehausstellung,** *die; -, -en* heyvandarlıq sərgisi.

**Viehfutter,** *das; -s* yem, ələf, mal-qara *(mal-davar)* üçün yem, ot; dən-düş; *F (~ für den Winter)* dərbə.

**Viehhandel,** *der; -s* heyvan alveri, çodarlıq.

**Viehhändler,** *der; -s, -* çodar, maldar.

**Viehherde,** *die; -, -n* sürü.

**viehisch** *adj.* vəhşi, heyvan kimi.

**Viehmarkt,** *der; -s, -¨e* heyvan bazarı.

**Viehtreiber,** *der; -s, -* çoban.

**Viehwagen,** *der; -s, -* heyvan vaqonu.

**Viehweide,** *die; -, -n* otlaq, örüş.

**Viehzucht,** *die; -* heyvandarlıq, maldarlıq; *(kleinviehzucht)* davarçılıq.

**Viehzüchter,** *der; -s, -* heyvandar, maldar; davarçı.

**viel**[1] *adj.* çox, əksər, bir qucaq, bollu, əndazəsiz, xeyli, lap; girli; çəkisiz; *er hat viel Geld* onun çox pulu var, girli *(*çox) var-dövləti var; *adv.* **1.** bir çox, çoxlu, bəsa; *fig.* evdolusu; **2.** daha da, daha; *~ besser* daha yaxşı; *sehr ~* lap çox; *~ zu kurz* çox qısa; *so ~ wie man will* istədikcə.

**viel**[2] *indef. pron.* bir çox*(ları);* bəziləri; *die Ausstellung hatte ~e Besucher* sərginin bir çox tamaşaçısı var idi; *~en Dank!* çox sağ olun!.

**vielbändig** *adj.* çoxcildli.

**vielbeschäftigt** *adj.* başıqatışıq.

**vieldeutig** *adj.* çoxmənalı.

**Vieleck,** *das; -s, -e* çoxbucaqlı.

**vieleckig** *adj.* çoxbucaqlı.

**vielerlei** *adj.* cürbəcür, müxtəlif.

**vielerorts** *adv.* çox yerlərdə.

**vielfach** *adj.* bir neçə dəfə; *adv.* dəfələrlə, tez-tez, təkrar-təkrar.

**Vielfalt,** *die; -* cürbəcürlük; çoxluq, müxtəliflik, rəngarənglik, əlvanlıq.

**vielfältig** *adj.* cürbəcür, müxtəlif cür, rəngarəng, çoxnövlü, çoxçeşidli, çeşid-çeşid, dürlü-dürlü, müxtəlif.

**Vielfältigkeit,** *die; -* çox çeşidlilik, müxtəlif növlülük, müxtəliflik.

**vielfarbig** *adj.* rəngarəng, rəngbərəng, çox rəngli, əlvan.

**Vielfraß,** *der; -es, -e* **1.** *zo.* dələ, sibir porsuğu; **2.** *fig.* qarınqulu, acgöz, doymaz, acgödən.

**vielgeliebt** *adj.* istəkli.

**vielgenannt** *adj.* adı çox gedən.

**vielgeprüft** *adj.* başıbəlalı.

**vielgereist** *adj.* çox səyahət etmiş.

**vielgestaltig** *adj.* cürbəcür, müxtəlif.

**Vielgötterei,** *die; -* çoxtanrıçılıq, politeizm, çoxallahlıq.

**Vielheit,** *die; -* çoxluq, külli miqdar.

**vielleicht** *adv.* ola bilsin ki, bəlkə, ehtimalən; *~ komme ich morgen zu euch* bəlkə sabah sizə gəldim.

**vielmalig** *adj.* dəfələrlə, çoxdəfəlik.
**vielmals** *adv.* dəfələrlə, çox, bir neçə dəfə, dönə-dönə; təkrar-təkrar *ich danke Ihnen ~* çox təşəkkür edirəm.
**Vielmännerei,** *die; -* çoxkişilik, poliandri.
**vielmehr** *adv.* **1.** daha çox; **2.** *(im Gegenteil)* onun əksinə, tərsinə.
**vielsagend** *adj.* mənalı, çoxəhəmiyyətli.
**vielschichtig** *adj.***1.** çoxqatlı; damar-damar; **2.** fərqli, müxtəlif.
**vielseitig** *adj.* **1.** çoxtərəfli, müxtəlif tərəfli; **2.** məlumatlı, geniş bilikli.
**Vielseitigkeit,** *die; -* çoxtərəflilik; geniş məlumta sahib olma.
**vielsprachig** *adj.* çoxdilli.
**vielstimmig** *adj.* çoxsəsli.
**vielversprechend** *adj.* ümidverici, çox ümid verən.
**Vielweiberei,** *die; -* çoxarvadlılıq, poliqami*(ya)*.
**Vielzahl,** *die; -* çoxluq, külli miqdar.
**vier** dörd; *zu ~t sein* dörd nəfər olmaq; *unter ~ Augen* göz-gözə, üz-üzə; *auf allen Vieren* dörd ayaq üstə.
**vierbändig** *adj.* dördcildli.
**vierbeinig** *adj.* dördayaq*(lı)*.
**vierblättrig** *adj.* dördvərəqli.
**Viereck,** *das; -(e)s, -e* dördbucaqlı.
**viereckig** *adj.* dördbucaq, çargül.
**Vierer,** *der; -s, -* iki cüt avarlı qayıq.
**viererlei** *adj.* dördnövlü.
**vierfüßig** *adj.* dördayaqlı.
**vierhändig** *adj.* dördəlli.
**vierhundert** dördyüz.
**vierhundertst-** dördyüzüncü.
**vierjährig** *adj.* dördyaşlı, dördillik.
**vierkantig** *adj.* dördbucaqlı, dördtərəfli.
**Vierlinge,** *die/pl.* dörd əkiz.
**viermal** *adv.* dörd dəfə.
**viermalig** *adj.* dörd dəfə.
**viermonatig** *adj.* dördaylıq.
**viermonatlich** *adj.* dörd ayda bir.
**viermotorig** *adj.* dördmotorlu.
**vierrädrig** *adj.* dördtəkərli.
**vierseitig** *adj.* dördtərəfli, dördyanlı.
**viersilbig** *adj.* dördhecalı.
**Vierzylindermotor,** *der; -s, -en* dördsilindirli motor.
**Vietnam,** *das; -s, -* Vietnam.
**Vietnamese,** *der; -n, -n* vietnamlı.
**Vikar,** *der; -s, -e* keşişlik namizədi.
**Villa,** *die; -, Villen* villa.
**viersitzig** *adj.* dördyerli.
**vierspurig** *adj.* *(Straße)* dördizli.
**vierstellig** *adj.* dördrəqəmli.
**vierstöckig** *adj.* dördmərtəbəli.
**vierstündig** *adj.* dördsaatlıq.
**viert** *: zu ~ sein* dörd nəfər olmaq.
**viertägig** *adj.* dördgünlük.
**Viertaktmotor,** *der; -s, -en* dörd taktlı motor.
**vierte** *adj.* dördüncü.
**viertausend** dörd min.
**vierteilen** *vt hist.* dörd heyvana bağlayıb şaqqalamaq.
**vierteilig** *adj.* dördparçalı, dördhissəli.
**Viertel,** *der u. das; -s, -* **1.** dörddə bir hissə, çərək, dörddənbir; **2.** *(Stadtviertel)* məhəllə; *es ist (ein) ~ nach eins* ikiyə on beş dəqiqə işləyib;*(ein) ~ vor drei* üçə onbeş dəqiqə qalır.
**Vierteljahr,** *das; -(e)s, -e* üç ay, ilin dörddə biri.
**vierteljährig** *adj.* üçaylıq.
**vierteljährlich** *adj.* üç ayda bir.
**viertelliter,** *der u. das; -s, -* 250 qram.
**Viertelstunde,** *die; -, -n* onbeş dəqiqə.
**viertens** *adv.* dördüncü.
**vierwöchentlich** *adj.* ayda bir.
**vierwöchig** *adj.* dördhəftəlik.
**vierzehn** on dörd; *~ Tage* on dörd gün, iki həftə.
**vierzehntägig** *adj.* on dörd günlük, iki həftəlik.
**Vierzeiler,** *der; -s, -* rübai.
**vierzig** qırx.
**Vierziger,** *der; -s, -* qırx-əlli yaşlı kişi.
**vierzigjährig** *adj.* qırxyaşlı.
**vierzigste** *adj.* qırxıncı.
**Vierzimmerwohnung,** *die; -, -en* dördotaqlı mənzil.
**Viola**[1]**,** *die; -, Violen (Veilchen)* bənöv-

şə.

**Viola**², *die; -, Violen mus.* viola, bir növ violen.

**violett** *adj.* bənövşəyi.

**Violine,** *die; -, -n* violen, alt.

**Violinist,** *der; -en, -en* violen çalan, violinist, altçı, alt çalan.

**Violoncello,** *das; -s, -celli u. -s* violençel.

**Viper,** *die; -, -n zo.* gürzə ilan.

**virtuell** *adj.* **1.** varına görə, imkanına görə; **2.** *(nicht echt)* qeyri-həqiqi, əsil olmayan.

**Virtuose,** *der; -n, -n* usta, mahir.

**Virtuosität,** *die; -* məharət.

**virulent** *adj. med.* yoluxucu; zəhərli.

**Virus,** *der; -, Viren* virus.

**Visage,** *die; -, -n* üz, surət.

**vis-a-vis** *adv.* üz-üzə, qarşı-qarşıya; *sie wohnen ~* onlar üzbəüz *(mənzillərdə)* yaşayırlar.

**Visier,** *das; -s, -e* **1.** *(am Helm)* üzlük, niqab; **2.** *(an der Waffe)* nişangah.

**visieren** *vt* **1.** nişana almaq; **2.** *(Pass)* visa qoymaq.

**Vision,** *die; -, -en* görünmə, xəyal.

**Visitation,** *die; -, -en* müayinə, axtarış; araşdırma.

**Visite,** *die; -, -n* baş çəkmə, görüş, visit.

**Visitenkarte,** *die; -, -n* visit kartı.

**visitieren** *vt* yoxlamaq, göz gəzdirmək, yoxlama aparmaq.

**Viskose,** *die; -* viskos.

**visuell** *adj.* görünən, bəsri.

**Visum,** *das; -s, Visa u. Visen* viza; *ein ~ erteilen* viza vermək.

**Visumzwang,** *der; -(e)s* viza alma məcburiyyəti.

**vital** *adj.* həyatı; yaşamağa qabil; enerjili, canlı.

**Vitalität,** *die; -* canlılıq; yaşama qabiliyyəti.

**Vitamin,** *das; -s, -e* vitamin.

**vitaminhaltig** *adj.* vitaminli.

**Vitaminmangel,** *der; -s* vitaminsizlik.

**vitaminreich** *adj.* çox vitaminli.

**Vitrine,** *die; -, -n* vitrin*(a).*

**Vivisektion,** *die; -, -en* heyvanları yarma; heyvan üzərində olunan təşrih.

**Vize,** *der; -(s), -s F* yardımçı, müavin.

**Vizekanzler,** *der; -s* baş nazirin müavini, kansler müavini.

**Vizekonsul,** *der; -s, -n* konsul yardımçısı *(müavini).*

**Vizepräsident,** *der; -en, -en* prezident müavini.

**Vlies,** *das; -es, -e* qoyun yunu.

**Vogel,** *der; -s, -¨* **1.** quş; **2.** *(Flugzeug)* təyyarə, uçaq; *fig. F e-n ~ haben* ağlı başında olmamaq.

**Vogelbauer,** *das u. der; -s, -* quş qəfəsi.

**Vogelbeere,** *die; -, -n* quşarmudu, üvəz.

**Vogelfang,** *der; -* quş tutma.

**vogelfrei** *adj.* qanun xaricində, qanundan kənar, öldürülməsi caiz.

**Vogelfutter,** *das; -s* quş dəni, dən.

**Vogelhaus,** *das; -(e)s, -¨er* quşxana, quş damı.

**vögeln** *vt* cütləşmək; *vulg.* sikmək; *vi vulg.* sikişmək.

**Vogelnest,** *das; -(e)s, -er* quş yuvası.

**Vogelperspektive,** *die; -* quş baxışı, quş uçuşundan görünüş.

**Vogelschau,** *die; - s. Vogelperspektive.*

**Vogelscheuche,** *die; -, -n* quşuyuğu, quşqovan.

**Vogelschutzgebiet,** *das; -(e)s, -e* quşların mühafizəsi yeri *(bölgəsi).*

**Vogelspinne,** *die; -, -n* büvə.

**Vogelsteller,** *der; -s* quştutan, quş ovlayan.

**Vogel-Strauß-Politik,** *die; -* özünü aldatma siyasəti, dəvəquşu siyasəti.

**Vogelzüchter,** *der; -s, -* quşçu, quşbaz.

**Vogt,** *der; -(e)s, -¨e* nəzarətçi; vali.

**Vokabel,** *die; -, -n* söz, istilah, kəlmə.

**Vokabular,** *das; -s, -e* **1.** kiçik sözlük; **2.** söz siyahısı.

**Vokal,** *der; -s, -e* sait.

**Vokalharmonie,** *die; -* ahəng qanunu.

**vokalisch** *adj.* səsli, saitli, səs ilə ilgili.

**vokalreich** *adj.* çox saitli.

**Vokalveränderung,** *die; -, -en* sait dəyişikliyi.

**Vokativ,** *der; -(e)s, -e gr.* çağırış hal.
**Volk,** *das; -(e)s, -¨er* **1.** xalq, el, el-arxa, qovm; **2.** *(Nation)* millət, ulus; boy; **3.** *(Leute)* əhali; *mit dem ganzen ~* el-arxa ilə, ellikcə.
**Völkerbund,** *der; -(e)s hist.* Millətlər Birliyi.
**Völkerkunde,** *die; -* etnoqrafiya *(Süd. : etnoloji).*
**Völkerkundler,** *der; -s, -* etnoqraf.
**völkerkundlich** *adj.* etnoloji.
**Völkermord,** *der; -(e)s, -e* soyqırım, genosid; *~ von Chodschali* Xocalı soyqırımı.
**Völkerrecht,** *das; -(e)s* beynəlxalq hüquq, dövlətlər hüququ.
**völkerrechtlich** *adj.* beynəlxalq hüquq normalarına əsaslanan, beynəlxalq hüquq*(i).*
**Völkerschaft,** *die; -, -en* azsaylı xalq, kiçik xalq, qəbilə, qövm, elat.
**Völkerwanderung,** *die; -, -en* **1.** qəbilələrin köçməsi; **2.** köçmə, köçəköç.
**völkisch** *adj.* milliyyətçi.
**Volksabstimmung,** *die; -, -en* ümumxalq sorğusu, referandum.
**Volksarmee,** *die; -, -n* xalq ordusu.
**Volksaufstand,** *der; -(e)s, -¨e* xalq üsyanı, xalq qiyamı.
**Volksbefragung,** *die; -, -en s. Volksabstimmung.*
**Volksbegehren,** *das; -s, - s. Volksabstimmung.*
**Volksbildung,** *die; -* milli təlim.
**Volkscharakter,** *der; -s* milli xarakter.
**Volksdemokratie,** *die; -, -n* xalq demokratiyası.
**volkseigen** *adj.* ümumxalq mülkiyyət.
**Volkseinkommen,** *das; -s* milli gəlir.
**Volksentscheid,** *der; -(e)s, -e s. Volksabstimmung.*
**Volksfeind,** *der; -(e)s, -e* xalq düşməni.
**Volksfest,** *das; -(e)s, -e* milli bayram, ümummilli bayram.
**Volksfront,** *die; -* xalq cəbhəsi.
**Volksgemeinschaft,** *die; -, -en* ictima, toplum.
**Volksgruppe,** *die; -, -n* etnik xalq qrupu.
**Volksheld,** *der; -(e)s, -en* milli qəhrəman.
**Volksherrschaft,** *die; -* xalq hakimiyyəti.
**Volkshochschule,** *die; -, -n* gecə məktəbi, gecə ali məktəbi.
**Volkskammer,** *die; -, -n* millət məclisi.
**Volkskunde,** *die; -* etnoqrafi*(ya),* xalqşünaslıq.
**Volkslied,** *das; -(e)s, -er* xalq mahnısı.
**Volksmärchen,** *das; -s, -* xalq nağılı.
**Volksmenge,** *die; -, -n* yığın, camaat.
**Volksmusik,** *die; -* xalq musiqisi.
**Volkspartei,** *die; -, -en* xalq partiyası, xalq hizbi.
**Volksrepublik,** *die; -, -en* xalq cümhuriyyəti, xalq respublikası.
**Volksschicht,** *die; -, -en* ictimai təbəqə, xalq təbəqəsi.
**Volksschule,** *die; -, -n* ilk oxul, ibtidai məktəb.
**Volksstamm,** *der; -(e)s, -¨e* tayfa, qəbilə, qovm; *pl.* əqvam.
**Volkstanz,** *der; -es, -¨e* milli rəqs.
**Volkstracht,** *die; -, -en* milli paltar.
**Volkstum,** *das; -s* milliyyət.
**volkstümlich** *adj.* milli, xalqa məxsus, avamyana, avamcasına.
**Volksverhetzung,** *die; - jur.* xalqı bir milli azlığa qarşı təhrik etmə.
**Volksvermögen,** *das; -s* ictimai sərvət, ümumi mal.
**Volksversammlung,** *die, -, -en* xalq iclası; mitinq.
**Volksvertreter,** *der; -s, -* xalq nümayəndəsi, millət vəkili.
**Volksvertretung,** *die; -, -en* parlament, məclis, xalq nümayəndəliyi.
**Volkswirt,** *der; -(e)s, -e* iqtisadçı, ekonomist.
**Volkswirtschaft,** *die; -, -en* iqtisadiyyat, xalq təsərrüfatı, ekonomi.
**Volkswirtschaftslehre,** *die; -* siyasi iqtisad, ekonomi politik.
**volkswirtschaftlich** *adj.* iqtisadiyyata aid, ekonomi politik ilə ilgili.
**Volkswohlfahrt,** *die; -* ictimai yardım.

**Volkszählung,** *die; -, -en* əhalinin siyahıya alınması, nüfusun sayılması.

**Volkszugehörigkeit,** *die; -, -en* milli mənsubiyyət, milliyyət.

**voll** *adj.* **1.** dolu, dolğun; **2.** *(ganz)* bütöv, tam, başıbütöv, başıbütün; **3.** *(satt)* tox; **4.***(betrunken)* sərxoş; **5.** *fig.* kök, yoğun, dolu; **6.** *(Haar)* qalın; *~ werden* dolmaq; *die Nase ~ haben* bezmək; *es ist mein ~er Ernst* çox ciddi deyirəm; *~ tanken* tam doldurmaq; *adv.* tamamilə, tam, büsbütün, dolu-dolu, tamamən; *~ und ganz* tamamilə, tam, başdan-ayağa qədər; *~ füllen* ağzınacan doldurmaq, dəc eləmək, ləbələb etmək; *~ machen F (Kind)* altını batırmaq.

**vollauf** *adv.* tamamilə, tamamən; doyunca, dolu-dolu, dopdolu; *ich bin ~ zufrieden* mən tamamilə razıyam.

**vollautomatisch** *adj.* tam avtomatik.

**Vollbart,** *der; -(e)s, -¨e* uzun saqqal.

**vollberechtigt** *adj.* tamixtiyarlı; səlahiyyətdar; tamhüquqlu.

**Vollbeschäftigung,** *die; -* xalqın məşğulluğu *(iş bazarında), tam* məşğuliyyət.

**vollbesetzt** *adj.* tam tutulmuş, dop-dolu.

**Vollbesitz,** *der; -es : im ~ s-r geistigen Kräfte* ağlı başında olaraq.

**Vollblut,** *das; -(e)s* cins at.

**vollblütig** *adj.* **1.** safqan; **2.** doluqanlı; diri.

**vollbringen** *vt* **1.** yerinə yetirmək, icra etmək; **2.** *(Wunder)* yaratmaq, göstərmək.

**Vollbringung,** *die; -, -en* icra.

**Volldampf,** *der; -(e)s : mit ~* tam sürətlə.

**Völlegefühl,** *das; -s* çox yemə hissi, qarın doluluq hissi.

**vollenden** *vt* qurtarmaq, icra etmək; bitirmək; *das vierzigste Lebensjahr ~* qırx yaşını qurtarmaq *(doldurmaq).*

**vollendet** *adj.* bitmiş, qurtarmış, bitgin; *~e Tatsache* olmuş hadisə, baş vermiş hadisə.

**vollends** *adv.* tamamilə, tamam; dahası.

**Vollendung,** *die; -* qurtarma, başa çatdırma; kamillik, bitginlik.

**voller** *adj.* dolu, daha dolu.

**Völlerei,** *die; -, -en* tıxma, çox yemə.

**Volleyball,** *der; -(e)s* voleybol.

**Volleyballspieler,** *der; -s, -* voleybol oynayan, voleybolçu.

**vollführen** *vt lit.* icra etmək, həyata keçirmək.

**Vollgas,** *das; -es* tam sürət; *mit ~* tam sürətlə.

**Vollgefühl,** *das; -(e)s : im ~ G* tam hiss edərək.

**vollgepfropft** *adj.* ağzına kimi dolu.

**vollgültig** *adj.* tam etibarlı, tam keçərli, qanuni, əsaslı.

**völlig** *adj.* tam, tamam, külli; *adv.* tamamilə, birdəfəlik, biryolluq, boyaboy, eyzən; *~ unmöglich* mümkün olmayan bir iş.

**volljährig** *adj.* yetkin, ərgin, həddi-büluğa çatmış; *~ werden* həddi-büluğa çatmaq; *~ sein* həddi-büluğda olmaq.

**Volljährigkeit,** *die; -* yetkinlik, ərginlik, həddi-büluğ.

**Vollkaskoversicherung,** *die; -, -en (Auto)* tam sığorta olmuş maşın.

**vollkleckern** *vt F sich ~* üstünü batırmaq.

**vollkommen** *adj.* mükəmməl, kamallı; eybsiz; tam, başıbütöv, başıbütün, büsbütün, əməlli, hərtərəfli, ətraflı; bitgin; *adv.*tamamilə, lap, başdan-ayağa, başdan-başa, eyzən, əməlli-başlı, kamilən, əməllicə; *F ~ richtig* dopdoğru.

**Vollkommenheit,** *die; -* mükəmməllik, yetkinlik, bitkinlik, kamillik, kamal, eybsizlik.

**Vollkornbrot,** *das; -(e)s, -e* xalis çovdar çörəyi.

**vollmachen** *vt* **1.** doldurmaq; **2.** *sich ~* çirklənmək; özünü batırmaq.

**Vollmacht,** *die; -, -en* səlahiyyət, ixtiyar, vəkalətnamə, müvəkkillik, yetki, etimadnamə, vəkalət; *~ erteilen* səlahiyyət vermək, vəkalət vermək; *~ haben* səlahiyyəti olmaq, müvəkkil ol-

maq, vəkil edilmək, yetkili olmaq.

**Vollmachtgeber,** *der; -s, -* vəkalət verən, etibar *(etimad)* edən.

**Vollmilch,** *die; -* üzlü süd, qaymağı alınmamış süd.

**Vollmond,** *der; -(e)s* on dörd gecəlik ay, bədir; ay işığı, məhtab.

**vollmundig** *adj.* çox dadlı, çox ləzzətli.

**Vollpension,** *die; -* tam pansion.

**vollsaugen** *vr sich ~* əmib doymaq.

**vollschlank** *adj.* dolu, yumru.

**vollschmieren** *vt* çirklətmək, cızıb-qaralamaq.

**vollständig** *adj.* tam, başıbütöv, başıbütün, mükəmməl, qüsursuz, bütöv, dəc, əməlli, əməlli-başlı, hərtərəfli; *F* ədəlli-bədəlli; *adv.* tamam, lap, büsbütün, birdəfəlik, biryolluq; boyaboy, əməllicə, kamilən; *~ zerstört werden* bir yolluq xarab olmaq.

**Vollständigkeit,** *die; -* bütövlük, tamlıq, bitkinlik, dəclik.

**vollstopfen** *vt* doldurmaq, tıxamaq.

**vollstreckbar** *adj.* icra edilməli olan.

**vollstrecken** *vt jur.* icra etmək; yerinə yetirmək.

**Vollstreckung,** *die; -, -en* məhkəmə qərarının icrası, icra, hökmün yerinə yetirilməsi.

**Vollstrecker,** *der; -s, -* məhkəmə qərarının icraçısı, icraçı; fərraş.

**volltanken** *vt* benzin ilə doldurmaq.

**Volltreffer,** *der; -s, -* tam hədəfə düşmə.

**volltrunken** *adj.* tam sərxoş.

**Vollversammlung,** *die; -, -en* ümumi iclas, plenum, baş məclis.

**Vollwaise,** *die; -, -n* yetim.

**vollwertig** *adj.* tamdəyərli, bitgin.

**vollzählig** *adj.* tam, müstəsna olmadan; *wir sind ~* hamımız buradayıq, hamımız hazırıq.

**vollziehen** *vt* icra etmək, yerinə yetirmək; *vr sich ~* həyata keçmək.

**Vollziehung,** *die; -* icra, həyata keçirmə.

**Vollzug,** *der; -(e)s* icra, həyata keçirmə, sona yetirmə.

**Vollzugsanstalt,** *die; -, -en* həbsxana, zindan.

**Volontär,** *der; -s, -e* könüllü, ixtisasını yeni başladığı üçün az müzd alan.

**Volt,** *das; -s, - el.* volt.

**Voltmeter,** *das; -s, -* voltmetr.

**Volumen,** *das; -s, - u. -mina* həcm.

**voluminös** *adj.* həcmli, geniş, böyük, iri.

**vom = von dem** *~ 1. Mai an* May ayının birindən.

**von** *präp. D* **1.** *(räumlich, zeitlich)* -dən, -dan, etibarən; *~ heute an* bu gündən etibarən; **2.***(anstatt G)* -in; **3.** *(beim Passiv) -in* tərəfindən; **4.** *(über j-n/et.)* haqqında; *~ Berlin* Berlindən; *~ Hamburg* Hamburqdan; *~ uns* bizdən; *ein Freund ~ mir* dostum, dostlarımdan birisi; *der Bruder ~ Durna* Durnanın qardaşı; *ein Brief ~ Durna an Parvis* Durnadan Pərvizə bir məktub; *der Präsident ~ ...* ...in Prezidenti; *ein Kind ~ drei Jahren* üç yaşında uşaq; *müde ~ der Arbeit* iş(ləmək)dən yorğun; *~ Anfang bis Ende* əvvəldən axıra kimi; *~ seiten der Regierung* hökumət tərəfindən.

**voneinander** *adv.* bir-birindən.

**vonnöten** *adv. : ~ sein* lazım olmaq, zəruri olmaq, gərəkli olmaq.

**vonstatten** *adv. : ~ gehen* irəliləmək; heyata keçmək, olmaq.

**vor** *präp.***1.** *D (räumlich) -in* qarşısında, qabağında; **2.** *A -in* qarşısına, qabağına; **3.** *(zeitlich) -dən, -dan* əvvəl, *-dən, -dan* qabaq; *veralt.* əqdəm; *~ 5 Tagen* beş gün bundan əvvəl *(qabaq); ~ kurzem* bayaq; *~ Angst zittern* qorxudan titrəmək; *~ allem* hər şeydən əvvəl; *nach wie ~* qabaqkı kimi, əvvəlki kimi; *zehn Minuten ~ vier* dördə on dəqiqə qalmış; *~ der Nase* burnunun qabağında; *adv. ~!* irəli!.

**vorab** *adv.* hər şeydən qabaq, hər şeydən öncə, hər şeydən əvvəl, qabaqcadan.

**Vorabend,** *der; -s* ərəfə; *am ~ (G) ..in* ərəfəsində, *der ~ des Wahltages* seçkilər ərəfəsi.

**vorahnen** *vt* qabaqcadan duymaq, əvvəlcədən hiss etmək.

**Vorahnung,** *die; -, -en* qabaqcadan duyma, qabaqcadan hiss etmə.

**voran** *adv.* **1.** qabaqda, qarşıda; **2.** *F* qabağa, irəli; *immer langsam ~ !* yavaş-yavaş qabağa! *(irəli!)*.

**voranbringen** *vt* qabağa aparmaq, irəli aparmaq.

**vorangehen** *vi* **1.**irəli *(qabağa)* getmək; *die Arbeit geht voran* iş irəli *(qabağa)* gedir; **2.** irəlidə getmək *(D/-dən)*.

**vorankommen** *vi* qabağa *(irəli)* getmək; müvəffəqiyyət qazanmaq.

**Ankündigung,** *die; -, -en* qabaqcadan xəbər vermə, əvvəlcədən xəbər vermə *(demə),* ilk bildiriş.

**Voranmeldung,** *die; -, -en* qabaqdan bildirmə, qabaqcadan qeyddən keçmə.

**Voranschlag,** *der; -(e)s, -¨e (Haushaltsvoranschlag)* xərclərin əvvəlcədən hesablanması.

**voranschreiten** *vi* irəli getmək, irəliləmək, irəliləyiş.

**vorantreiben** *vt* qabağa aparmaq, irəlilətmək; sürətləndirmək, tezləşdirmək.

**Voranzeige,** *die; -, -n* **1.** qabaqcadan olan elan; **2.** *(Film)* tanıtma filmi.

**Vorarbeit,** *die; -, -en* hazırlıq.

**vorarbeiten** *vt* hazırlamaq.

**Vorarbeiter,** *der; -s, -* baş fəhlə, ustabaşı.

**vorauf** *adv.* qabaqda.

**voraus** *adv.* **1.** qabaqda, irəlidə, üstün, öndə; *er ist den anderen weit ~* o, başqalardan çox qabaqdadır; **2.** *im ~* qabaqcadan, öncədən.

**vorausahnen** *vi* qabaqcadan duymaq, qabaqcadan hiss etmək.

**vorausberechnen** *vt* qabaqcadan hesablamaq.

**vorausbezahlen** *vt* pulunu qabaqcadan ödəmək.

**vorauseilen** *vi* tələsib getmək.

**vorausgehen** *vi* **1.** qabaq*(cadan)*dan getmək; qabaqlamaq; **2.** qabaqcadan baş vermək.

**vorausgesetzt** *konj. ~, dass...* bu şərtlə ki..., bu şərt ilə ki…

**voraushaben** *vi j-m et. ~* bir kəsdən bir şeydə üstün olmaq, bir kəsi ötüb keçmək, üstələmək.

**vorausnehmen** *vt* qabaqcadan etmək, vaxtından əvvəl etmək.

**Voraussage,** *die; -, -n* qabaqcadan demə, qabaqcadan xəbər vermə, əvvəlcədən xəbər vermə *(demə)*.

**voraussagen** *vt* qabaqcadan demək, əvvəlcədən xəbər vermək *(demək).*

**vorausschauend** *adj.* qabağı *(gələcəyi)* görən, qabaqgörən, gözüaçıq, dərindüşüncəli.

**vorausschicken** *vt* **1.** qabaqcadan göndərmək; **2.** qabaqcadan demək; *ich muss ~, dass...* qabaqcadan deməliyəm ki... .

**voraussehen** *vt* gələcəyi görmək, qabaqcadan hiss etmək; *das war vorauszusehen* bu əvvəldən *(qabaqdan)* bəlli idi .

**voraussetzen** *vt* **1.** *(annehmen)* güman etmək, fərz etmək; **2.** şərt etmək, şərt qılmaq.

**Voraussetzung,** *die; -, -en* **1.** fərziyyə, güman; **2.** şərt, ilkin şərt, zəmin; *unter der ~ G (od. dass)...* bu şərtlə ki...; *~en erfüllen* şərtləri yerinə yetirmək.

**Voraussicht,** *die; -* təxmin, güman, qabaqcadan görmə; *aller ~ nach* ehtimal ki, olsun ki.

**voraussichtlich** *adj.* əvvəlcədən nəzərdə tutulduğu kimi, öncədən, gözəyarı; *adv.* görünür ki, ehtimal ki; *sie kommt ~ morgen* ehtimal ki sabah gəlir.

**vorauszahlen** *vt* qabaqcadan ödəmək.

**Vorauszahlung,** *die; -, -en* qabaqcadan ödənmiş pul; qabaqcadan ödəmə.

**Vorbau,** *der; -(e)s, -ten* çıxıntı, bina çıxıntısı.

**vorbauen** *vt* vaxtında qabağını almaq, qabaqcadan tədbir görmək.

**Vorbedacht,** *der; -(e)s* **1.** yaxşı düşünülmüş ; *et. mit ~ tun* bir şeyi yaxşı düşünüb etmək; **2.** *(absichtlich) mit ~* bilə-bilə, qəsdən; *ohne ~* bilmədən.

**Vorbedeutung,** *die; -, -en* əsrarəngiz

əlamət, sirrili nişanə; *gute ~* xoş xəbər, uğur, müvəffəqiyyət; *schlimme ~* pis xəbər, bəla, müsibət.

**Vorbedingung,** *die; -, -en* ilkin şərt.

**Vorbehalt,** *der; -(e)s, -e* qeyd-şərt, şərt; *unter dem ~ , dass..* bu şərtlə ki..; *unter ~* şərti olaraq.

**vorbehalten** *vt* **1.** *sich (D) et. (A) ~* etmə haqqını əlində saxlamaq, qarşısına məqsəd qoymaq; *sich das Recht ~ zu -məyi* öz haqqı bilmək; **2.** *j-m ~ sein* bir kəsə məxsus olmaq, təyin olmaq.

**vorbehaltlich** *präp. G ...*şərtilə.

**vorbehaltlos** *adj.* qeyd-şərtsiz, danışıqsız.

**vorbei** *adv.* **1.** yanından, yanından keçərək *(an D/ nəyinsə); er ging an mir ~* o, yanımdan keçdi; **2.** *(zeitlich)* sona çatmış, keçib-getmiş, qurtulmuş.

**vorbeifahren** *vi* yanından keçmək.

**vorbeigehen** *vi* keçib getmək, ötmək; qurtulmaq, sona çatmaq.

**vorbeikommen** *vi* **1.** kəçmək, yanından keçmək; **2.** baş çəkmək *(bei j-m /bir kəsə).*

**vorbeilassen** *vt* buraxdırmaq, keçməsinə imkan yaratmaq.

**vorbeilaufen** *vi* qaçaraq yanından keçmək.

**Vorbeimarsch,** *der; -(e)s, -¨e* rəsmi hərbi keçid

**vorbeimarschieren** *vi* təntənə ilə keçmək, hərbi keçidlə addımlamaq.

**vorbeireden** *vi aneinander ~* bir-birini başa düşməmək, bir-birinə qulaq asmadan danışmaq.

**vorbeischauen** *vi* baş çəkmək *(bei D/-ə).*

**vorbelastet** *adj.***1.** *jur.* sabiqəli; **2.** *(erblich)* irsən, irsən keçən.

**Vorbemerkung,** *die; -, -en* ilk qeyd, ön söz, giriş sözü.

**vorbereiten** *vt* hazırlamaq, cürləmək; *vr sich ~* hazırlaşmaq, hazırlanmaq *(auf A/-ə).*

**vorbereitend** *adj.*hazırlıq, hazırlanmış.

**Vorbereitung,** *die; -, -en* hazırlıq, hazırlanma, amadəlik; *ohne ~* hazırsızlıq, hazırlanmadan ; *~en treffen* hazırlıq görmək *(für A / -ə); in ~* hazırlanır, hazırlanmaqda.

**Vorbereitungszeit,** *die; -, -en* hazırlıq vaxtı *(müddəti).*

**Vorbericht,** *der; -(e)s, -e* ilk məlumat.

**Vorbesprechung,** *die; -, -en* ilkin müzakirə.

**vorbestellen** *vt* qabaqcadan sifariş et-mək.

**vorbestraft** *adj.* məhkumluğu olan, sabiqəli; *~ sein* sabiqəli olmaq.

**vorbeten** *vt* pişnamazlıq etmək.

**Vorbeter,** *der; -s, -* pişnamaz.

**vorbeugen** *vt* qabağa əymək; *vr sich ~* qabağa əyilmək; *vi* qabağını almaq *(D/-in).*

**vorbeugend** *adj.* qarşısını alan, qabağı(nı) alan.

**Vorbeugung,** *die; -* qabağını alma.

**Vorbeugungsmaßnahme,** *die; -, -n* qarşısını alan tədbir, qabağını alma tədbirləri *pl.*

**Vorbeugungsmittel,** *das; -s, -* qabağını *(qarşısını)* alan dərman.

**Vorbild,** *das; -(e)s, -er* nümunə, örnək, timsal; *sich (D) zum ~ nehmen* nümunə götürmək; *ohne ~* örnəksiz; böyüksüz.

**vorbildlich** *adj.* nümunəvi.

**Vorbildung,** *die; -* ibtidai təhsil.

**Vorbote,** *der; -n, -n* **1.** xəbərçi, xəbər verən; **2.** əlamət, nişan.

**vorbringen** *vt* irəli sürmək, demək, ortaya qoymaq.

**Vordach,** *das; -(e)s, -¨er* talvar, çardaq.

**vordatieren** *vt* keçmiş tarixlə göstərmək, köhnə tarix qoymaq.

**vordem** *adv.* qabaq, əvvəl.

**vorder** *adj.* qabaq, öndə olan, ön*(dəki).*

**Vorderachse,** *die; -, -n* qabaq ox.

**Vorderbein,** *das; -s, -e* qabaq ayaq.

**Vordergrund,** *der; -(e)s* ön plan; *in den ~ ziehen* ön plana çəkmək; *in den ~ rücken* ön plana keçmək.

**vordergründig** *adj.* səthi, sadə.

**vorderhand** *adv. (vorläufig)* hələlik.

**Vorderhaus,** *das; -(e)s, -¨er* ön bina.

**Vordermann,** *der; -(e)s, -¨er* qabaqda duran; *fig. et. auf ~ bringen* qaydaya salmaq, təmizləmək, sahmanlamaq; *j-n auf ~ bringen* bir kəsə nizam-intizam öyrətmək; əziyyət etmək, incitmək.

**Vorderrad,** *das;-(e)s, -¨er* qabaq təkər.

**Vorderseite,** *die; -, -n* qabaq tərəf.

**Vordersitz,** *der; -es, -e* qabaq yer.

**vorderst** *adj.* ən qabaq, ən ön; *in ~er Linie* qabaq sırada.

**vordrängen** *vr sich ~* qabağa soxulmaq.

**vordringen** *vi* irəli soxulmaq, nüfuz etmək.

**vordringlich** *adj.* tələsik, təcili, təxirəsalınmaz, ümdə.

**Vordruck,** *der; -(e)s, -e* formulyar.

**vorehelich** *adj.* evlilikdən qabaq.

**voreilig** *adj.* tələsik, ehtiyatsız; *~e Schlüsse ziehen* tələsik *(düşünmədən)* nəticə almaq.

**voreinander** *adv.* bir-birinin qarşısında; bir-birindən; *~ Angst haben* bir-birindən qorxmaq.

**voreingenommen** *adj.* tərəf saxlayan, tərəfgir *(gegenüber D/əleyhinə; für A/ lehinə).*

**Voreingenommenheit,** *die; -* tərəfgirlik, tərəf saxlama, qərəz; sabit fikirlik.

**vorenthalten** *vt : j-m et. ~* bir kəsdən bir şeyi gizlətmək, gizli saxlamaq.

**Vorentscheidung,** *die; -, -en* yarımfinal.

**vorerst** *adv.* hər şeydən qabaq, hələlik.

**vorerwähnt** *adj.* yuxarıda göstərilən, yuxarıda adı çəkilən.

**Vorfahr,** *der; -en, -en* ulu-baba; əcdad, aba *pl.*.

**Vorfahren** *die/pl.* aba, aba və əcdad, ata-baba, cədd, cədd-abad, dədə-baba.

**Vorfahrt,** *die; -, -en* *(Auto)* keçmə haqqı.

**Vorfahrtsrecht,** *das; -(e)s* keçmə haqqı.

**Vorfall,** *der; -(e)s, -¨e* hadisə, münaqişə, qəziyyə, olay; *med.* prolaps.

**vorfallen** *vi* **1.** qabağa düşmək; **2.** baş vermək; ortaya çıxmaq.

**Vorfeier,** *die; -, -n* bayram axşamı.

**Vorfeld,** *das; -es, -er* **1.** qabaqdakı ərazi, ön ərazi; **2.** *nur sg. fig.* hazırlıq vaxtında, qabağında, qabaqcadan; *et. im ~ klären* bir şeyi qabaqcadan aydınlaşdırmaq.

**Vorfinanzierung,** *die; -, -en* qabaqcadan maliyyələşdirmə.

**vorfinden** *vt* tapmaq, görmək.

**Vorfrage,** *die; -, -n* qabaqcadan verilmiş sual.

**Vorfreude,** *die; -* qabaqcadan sevinmə.

**vorfristig** *adj.* vaxtından əvvəl.

**Vorfrühling,** *der; -s* yazın başlanğıcı, erkən bahar.

**vorfühlen** *vi* soruşub fikrini öyrənmək; *fig. bei j-m ~* bir kəsin nəbzini yoxlamaq.

**Vorführdame,** *die; -, -n* maniken.

**vorführen** *vt* **1.** *(vorzeigen)* göstərmək; **2.** *(Film)* nümayiş etdirmək; **3.** *jur.* götürmək, aparmaq; *sie wurde dem Richter vorgeführt* o, hakimin sərəncamına *(yanına)* gətirildi.

**Vorführung,** *die; -, -en* göstər(il)mə; tamaşa; *jur.* aparma, götürmə, gətirmə.

**Vorgabe,** *die; -, -n* **1.** *(Sport)* avans; **2.** qabaqcadan təyin edilmiş miqdar, təyin olunmuş ölçü.

**Vorgang,** *der; -(e)s, -¨e* **1.** hadisə, hadisənin gedişi; üsul; *den ~ schildern* hadisəni təsvir etmək; **2.** *(Akten über e-n bestimmten Fall)* dosya, qovluq.

**Vorgänger,** *der; -s, -* sələf.

**Vorgarten,** *der; -s, -¨* ön bağça.

**vorgaukeln** *vt j-m et. ~* bir kəsi aldatmaq, bir kəsə yalan danışmaq.

**vorgeben** *vt* **1.** irəli vermək; **2.** iddia etmək, yalandan inandırmaq; **3.** avans vermək.

**Vorgebirge,** *das; -s, -* **1.** dağ ətəyi; **2.** *(Kap)* burun.

**vorgeblich** *adj. u. adv.* güya ki, sanki.

**vorgefasst** *adj. : e-e ~e Meinung* qa-

baqcadan əmələ gəlmiş *(qərarlaşdırılmış),* mənfi fikir.

**Vorgefühl,** *das; -(e)s* qabaqcadan hiss etmə.

**vorgehen** *vi* **1.** irəli getmək, qabaqda getmək; qabaqlamaq; **2.** *(geschehen)* baş vermək; **3.** *(Uhr)* qabağa getmək; **4.** *(wichtiger sein)* üstün olmaq; **5.** *(handeln)* rəftar etmək, davranmaq; **6.** *(gerichtlich)* məhkəməyə vermək *(gegen A/ kimsəni);* **7.** *(verfahren)* müamilə etmək.

**Vorgehen,** *das; -s* hərəkət tərzi; üsul.

**Vorgelände,** *das; -s, -* qabaqdakı ərazi.

**vorgenannt** *adj.* yuxarıda adı çəkilən.

**Vorgericht,** *das; -(e)s, -e* qəlyanaltı.

**Vorgeschichte,** *die; -* tarixdən əvvəlki vaxt, prehistoriya; keçmişdəki hadisələr.

**vorgeschichtlich** *adj.* tarixdən əvvəlki vaxtlara aid.

**Vorgeschmack,** *der; -(e)s* qabaqcadan dadı *(ləzzəti)* duyma.

**vorgeschoben** *adj. s. vorschieben.*

**vorgeschritten** *adj.* irəliləmiş, qabaqcıl.

**Vorgesetzte,** *der u. die; -n, -n* rəis, şef, başçı.

**Vorgespräch,** *das; -(e)s, -¨e* ilkin danışıq, ilkin görüşmə.

**vorgestern** *adv.* israğagün, srağagün, irəligün.

**vorgestrig** *adj.* israğagünkü.

**vorgreifen** *vi* *j-m ~* bir şeyi bir kəsdən qabaq etmək və ya demək; bir şeyi gözləməmək; *ich möchte Ihnen nicht ~ , aber..* sizi qabaqlamaq istəmirəm, lakin... .

**Vorgriff,** *der; -(e)s* vaxtından qabaq etmə; vaxtından qabaq demə.

**vorhaben** *vi* fikrində olmaq, niyyətində olmaq; *haben Sie heute Abend et. vor?* bugün axşam siz nə edəcəksiniz?

**Vorhaben,** *das; -s, -* niyyət, fikir, məram, proqram, plan, qərəz; *hast du heute Abend et. vor?* bu axşam üçün bir proqramın var mi.

**Vorhalle,** *die; -, -n* dalan; giriş otağı.

**vorhalten** *vt* **1.** qarşısında *(qabağında)* tutmaq; *beim Gähnen die Hand ~* əsnəyəndə əli ağzına tutmaq; **2.** *j-m et. ~* bir kəsi məzəmmət etmək; *vi* davam gətirmək, sürmək; kifayət qədər olmaq.

**Vorhaltung,** *die; -, -en* danlaq, məzəmmət; *j-m ~en machen* bir kəsi bir şey üçün danlamaq.

**Vorhand,** *die; -* **1.** *(Tennis)* əl üzü, forhent; **2.** *(Kartenspiel)* birinci əl; **3.** üstünlük.

**vorhanden** *adj.* mövcud; *~ sein* mövcud olmaq; *noch ~ sein* qalmaq.

**Vorhandensein** *das; -s* mövcud olma, varlıq, qalma.

**Vorhang,** *der; -(e)s, -¨e* pərdə; örtük; gərdək; *den ~ aufziehen* pərdəni açmaq.

**vorhängen** *vt* asmaq.

**Vorhängeschloss,** *das; -es, -¨er* asma qıfıl.

**Vorhangstoff,** *der; -(e)s, -e* pərdə parçası.

**Vorhaut,** *die; -, -¨e* sünnət dərisi.

**vorher** *adv.* qabaqcadan, irəlicə, ondan əvvəl; gəlmədən, əvvəl; *veralt.* əqdəm; *am Tag ~* qabaqkı gün.

**vorherbestimmen** *vt* qabaqcadan təyin etmək.

**vorherbestimmt** *adj.* alnına yazılmış, qabaqcadan yazılmış.

**Vorherbestimmung,** *die; -* qədər, tale, alın yazısı, müqəddərat ; əvvəlcədən müəyyənləşdirilmə.

**vorhergehend** *adj.* qabaqkı, əvvəlki.

**vorherig** *adj.* əvvəlki, qabaqkı, öncəki, əzəlki, keçən; *veralt.* əqdəm.

**Vorherrschaft,** *die; -* üstünlük, hakimlik, ağalıq, böyüklük.

**vorherrschen** *vi* üstün olmaq, hakim olmaq, ağalıq etmək, böyüklük etmək.

**vorherrschend** *adj.* hakim olan, hökm sürən.

**Vorhersage,** *die; -, -n* qabaqcadan xəbər vermə.

**vorhersagen** *vt* qabaqcadan xəbər vermək, duyuq salmaq.

**vorhersehen** *vt* qabaqcadan görmək,

təxmin etmək.

**vorheucheln** *vt : j-m ~* bir kəsə ikiüzlülük etmək, yalan deyib tovlamaq, riyakarlıqla tovlamaq; *j-m Mitleid ~ bir kəsə* yalandan ürəyi yanmaq.

**vorhin** *adv.* bir az bundan qabaq, bir az bundan əvvəl, bayaq, dəmin; *er war ~ auch hier* bayaq o da burada idi.

**vorhinein** *adv. : im ~* qabaqcadan, irəlicədən.

**Vorhof,** *der; -(e)s, -¨e* dəhliz, dalan.

**Vorhut,** *die; -* avanqard, qabaqda gedən.

**vorig** *adj.* keçən, ötən; *~e Woche* keçən həftə.

**Vorinstanz,** *die; -, -en jur.* ilk mərcə.

**Vorjahr,** *das; -(e)s, -e* keçən il.

**vorjährig** *adj.* keçənilki.

**vorjammern** *vt* dərdini tökmək, sızıldamaq.

**Vorkämpfer,** *der; -s, -* avanqard, qabaqcıl döyüşçü.

**vorkauen** *vt* **1.** bir şeyi çeynəyib bir kəsin ağzına qoymaq; **2.** başa salmaq, anlatmaq *(j-m et./bir kəsə bir şeyi).*

**Vorkaufsrecht,** *das; -(e)s, -e H* qabaqcadan satın alma haqqı.

**Vorkehrung,** *die; -, -en* təhlükəsizlik tədbiri; *~en treffen* bütün təhlükəsizlik tədbirləri görmək, hazırlıq görmək.

**Vorkenntnisse,** *die/pl.* ilk məlumat, hazırlıq.

**vorknöpfen** *vt sich (D) j-n ~* bir kəslə haqq-hesab çəkmək, bir kəsdən hesab sormaq, hesablaşmağa dəvət etmək; narazılığını bildirmək.

**vorkochen** *vt* qabaqcadan bişirmək.

**vorkommen** *vi* **1.** *(sich ereignen)* baş vermək, olmaq; **2.** *(erscheinen wie)* görünmək, güman edilmək; *F er kommt sich wohl sehr schlau vor!* özünü çox zirək bilir!, güman edir ki, çox zirəkdir! *das kommt mir sehr bekannt vor* mənə çox tanış gəlir; **3.** *(existieren)* tapılmaq, mövcud olmaq, var olmaq; **4.** *(hervorkommen)* meydana çıxmaq, qabağa gəlmək; *so etw. kann ~* bele şeylər ola bilir *(qabağa gəlir);* **5.** *(erwähnt werden)* adı çəkilmək, göstərilmək; *fig.* ələ düşmək.

**Vorkommen,** *das; -s, -* **1.** mövcud olma, varlıq; **2.** mədən yatağı.

**Vorkommnis,** *das; -ses, -se* hadisə, olay; *fig.* hekayə.

**Vorkriegszeit,** *die; -, -en* müharibədən qabaqkı dövr.

**vorladen** *vt* çağırmaq.

**Vorladung,** *die; -, -en jur.* çağırış, məhkəməyə çağırma.

**Vorlage,** *die; -, -n* **1.** *(e-s Dokumentes)* verilmə; **2.** *(Muster)* nümunə; təklif; projekt; **3.** *pol.* layihə; **4.** *(Fußball)* qol vurma imkanını yaratma, topu irəli ötürmə; *et. als ~ benutzen* bir şeyi nümunə kimi götürmək.

**Vorland,** *das; -(e)s* ərazinin ön *(qabaq)* tərəfi.

**vorlassen** *vt* qabağa buraxmaq; yol vermək.

**Vorlauf,** *der; -(e)s, -¨e* finaldan qabaq qaçış.

**Vorläufer,** *der; -s, -* sələf; qabaqda gedən, öncü.

**vorläufig** *adj.* müvəqqəti, keçici; *adv.* hələlik.

**vorlaut** *adj.* **1.** *~er Hund* vaxtsız hürən it; **2.** *fig.* ədəbsiz, sayğısız, nəzakətsiz.

**Vorleben,** *das; -s -in* keçmişi.

**vorlegen** *vt* **1.** qabağa qoymaq; təqdim etmək; **2.** vermək, göstərmək; təklif etmək; **3.** *(Schloß)* qıfıllamaq.

**Vorleger,** *der; -s, -* balaca xalça.

**Vorleistung,** *die; -, -en* qabaqcadan *(başdan)* verilən əmək haqqı.

**vorlesen** *vt* uca səslə oxumaq *(j-m et./ bir kəsə bir şeyi).*

**Vorlesung,** *die; -, -en* mühazirə.

**Vorlesungsverzeichnis,** *das; -ses, -se* universitet dərslərinin proqramı.

**Zivilschutz,** *der; -es* mülki əhalidən himayə; mülki müdafiə.

**Zivilverteidigung,** *die; -* mülki müdafiə.

**Zobel,** *der; -s, - zo.* samur.

**Zobelpelz,** *der; -es, -e* samur xəzi.

**zocken** *vi* qumar oynamaq.

**zockeln** *vt F* yavaş-yavaş getmək, yavaş hərəkət etmək, sallana-sallana getmək.

**Zofe,** *die; -, -n* ev qulluqçusu.

**zog** *s. ziehen.*

**zögerlich** *adj.*qətiyyətsiz; ehtiyatlı; *adv.* yavaş tərpənmə; çəkinə-çəkinə.

**zögern** *vi* tərəddüd etmək, ləngi(t)mək, yubatmaq, gecikmək, amma-amma etmək, duruxmaq; ehtiyatlanmaq.

**zögernd** *adj. s. zögerlich.*

**Zögling,** *der; -s, -e* internatda tərbiyə olmuş *(böyümüş)* cavan.

**Zölibat,** *der u. das; -(e)s rel.* evlənmə qadağası, subaylıq.

**Zoll,** *der; -(e)s veralt. (Maß)* inç, 2,54 santimetrə bərabər ölçü vahidi.

**Zoll²,** *der; -es, -¨e* **1.** *nur sg. (Behörde)* gömrük; **2.** *(Abgabe)* gömrük haqqı, gömrük pulu, rüsum; **3.** bac, xərac; *~ bezahlen* gömrük haqqı vermək; *~ erheben* gömrük haqqı qoymaq *(auf A/-ə).*

**Zollabfertigung,** *die; -, -en* gömrük yoxlama işləri, gömrük nəzarəti.

**Zollabkommen,** *das; -s, -* gömrük haqda saziş, gömrük sazişi.

**Zollamt,** *das; -(e)s, -¨er* gömrükxana, gömrük idarəsi.

**Zollbeamte(r),** *der; -n, -n* gömrük məmuru, gömrükxana işçisi.

**zollen** *vt (Respekt, Aufmerksamkeit)* etmək, göstərmək; *j-m Respekt ~* bir kəsə hörmət etmək; *Beifall ~* alqışlamaq.

**Zollerklärung,** *die; -, -en* gömrük bəyannaməsi *(deklarasiyası).*

**zollfrei** *adj.* gömrükdən azad, gömrüksüz, rüsumsuz, gömrük vergisindən azad.

**Zollgebiet,** *das; -(e)s, -e* gömrük yoxlama ərazisi, gömrük zonası.

**Zollgebühren** *die/pl.* gömrük haqqı.

**Zollgesetz,** *das; -es, -e* gömrük haqqında qanun *(nizamnamə).*

**Zollkontrolle,** *die; -, -n* gömrük nəzarəti, gömrük kontrolu, gömrük yoxlaması.

**Zöllner,** *der; -s, -* gömrük məmuru, gömrükçü.

**zollpflichtig** *adj.* gömrük vergisi olan,

rüsumlu.

**Zollstock,** *der; -(e)s, -¨e* metr.

**Zolltarif,** *der; -s, -e* gömrük cədvəli, gömrük siyahısı.

**Zollunion,** *die; -, -en* gömrük ittifaqı, gömrük birliyi.

**Zollverein,** *der; -(e)s, -e s. Zollunion.*

**Zone,** *die; -, -n* sahə, zona, bölgə, zolaq.

**Zoo,** *der; -s, -s* heyvanat parkı, zoopark, heyvan*(lar)* baxçası, heyvanxana.

**Zoologe,** *der; -n, -n* zooloq, zoologiya mütəxəssisi.

**Zoologie,** *die; -* zoologiya, zooloji.

**zoologisch** *adj.* zooloji; *Zoologischer Garten* heyvanat bağı.

**Zopf,** *der; -(e)s, -¨e* **1.** hörük; **2.** *fig. F ein alter ~* keçmişin qalığı, köhnəlmiş qayda.

**Zorn,** *der; -(e)s* qəzəb, hirs, acıq, hiddət, öfkə, büğz, hikkə; *e-n ~ auf j-n haben* bir kəsdən acıqlı olmaq; *in ~ geraten* qəzəblənmək, hirslənmək, hiddətə gəlmək, hiddətlənmək.

**Zornausbruch,** *der; -(e)s, -¨e* özündənçıxma, qəflətən hirslənmə, öfkələnmə, qəzəblənmə.

**zornbebend** *adj.* hirsli, acıqlı.

**zornentbrannt** *adj. s. zornbebend.*

**zornig** *adj.* qəzəbli, hirsli, əsrimiş; *adv.* qəzəblə, hiddətlə.

**zornschnaubend** *adj.* hirsli, qəzəbli.

**Zote,** *die; -, -n* ədəbsiz zarafat, utanmazlıq, ağzıyavalıq, hədyan; *~n reißen* ağzıyavalıq etmək, ədəbsiz sözlər danışmaq, hədyan *(həzyan)* danışmaq.

**Zottel,** *die; -, -n* pırtlaşıq, pırtdaşıq; *sich die ~n aus dem Gesicht streichen* pırtlaşıq saçları üzündən kənar etmək.

**zottelig** *adj.* uzun və pırtlaşıq.

**zotteln** *vi* ağır-ağır yerimək.

**z.T.** = *zum Teil* qismən, bir qədər.

**zu¹** *präp. D Richtung -ə* doğru, *-ə* tərəf, *-ə* sarı; *Zeit, Ort* -da, -də; yanına, yaxınına; *~ Anfang* başlanğıcda, əvvəldə; *~ Hause* evdə; *ich komme ~ dir* yanına gəlirəm, sənə sarı gəlirəm; *Anlass, Zweck* -məyə, -mək üçün; -ilə; *~m Scherz* zarafat üçün; *et. ~m Trinken* içmək üçün; *et. ~m Essen* yemək üçün, yeməyə bir şey; *Reis zum Fisch essen* balığı düyü ilə yemək.*~ mir* mənə tərəf, mənə sarı; *~ sich rufen* yanına çağırmaq; *~ Fuß* piyada; *~ Pferd(e)* atla; *~ Wasser und ~ Lande* suda və quruda; *~ später Stunde* gec vaxtda; *~ meinem Geburtstag* anadan olan günümə, doğum günümə; *~ dritt* üçlükdə; *das Spiel wurde 2 ~ 1 entschieden* oyun iki birə qurtardı; *zum ersten Male* ilk dəfə, birinci dəfə; *zum Teil* qismən; *~ Buttermilch werden* ayran olmaq; *~ Hunderten* yüzlərlə, yüz-yüz; *j-n zum Direktor ernennen* bir kəsi müdürluğa təyin etmək; *j-n zum Vorbild nehmen* bir kəsi özünə örnək *(nümunə)* götürmək.

**zu²** *adv.* çox, həddən artıq, olduqca; *~ weit gehen* həddini aşmaq; *~ sehr* həd(din)dən artıq; *~ groß* çox böyük; *~ wenig* çox az; *Tür ~!* qapını ört!, qapını bağla!; *Mund ~!* ağzını bağla!; *die Läden haben Sonntags ~* dükanlar bazar günləri bağldılar; *ab und ~* hərdənbir, bəzən, aradabir, arabir, hərdən; *mach ~!* tez ol! *nur ~!* davam etdir!.

**zu³** *: zu Inf.* -məyə, -mək üçün, -məsi üçün, -məli; *Zimmer ~ vermieten* otaq kirayə etmək üçün; *dort gibt es viel ~ sehen* orada görməyə çox şey var; *was ist noch ~ tun?* görülməyə daha nə iş var?.

**zuallererst** *adv.* hər şeydən əvvəl, ən başda; *F* əldəbir.

**zuallerletzt** *adv.* lap axırda, ən sonda.

**zuallermeist** *adv.* çox vaxt, əsasən, ən çox.

**zubauen** *vt* bina tikmək, tikib əlavə etmək.

**Zubehör,** *das u. der; -(e)s* **1.** ləvazimat; *mit allem ~* bütün ləvazimatla, bütün parçaları ilə; **2.** *techn.* armatur, avadanlıq.

**Zubehörteil,** *das; -(e)s, -e* hissə, parça.

**zubeißen** *vt* qapmaq; dişləmək.

**zubekommen** *vt* **1.** *(Koffer usw.)* bağ-

lamaq; *fig. et.* ~ bağlaya bilmək; **2.** üstəlik olaraq almaq.

**Zuber,** *der; -s, -* çəllək, çən.

**zubereiten** *vt* hazırlamaq.

**Zubereitung,** *die; -, -en* hazırlama.

**zubilligen** *vt* **1.** icazə vermək, razılıq vermək; razı olmaq, qəbul etmək; **2.** *jur.* tanımaq; *j-m ein Recht ~* kimsənin hüququnu tanımaq.

**Zubilligung,** *die; -* icazə, rüxsət; razılıq; tanıma.

**zubinden** *vt* bağlamaq, sarımaq.

**zubleiben** *vi* bağlı qalmaq.

**zublinzeln** *vi* göz basmaq, göz atmaq.

**zubringen** *vt* **1.** *(verbringen)* keçirmək; **2.** güclə bağlamaq; *et. ~* bir zadı güclə bağlamaq.

**Zubringer,** *der; -s, -* **1.** *(Zubringerbus)* təyyarə meydanından müsafir daşıyan avtobus; **2.** *(Zubringerstraße)* avtobana gətirib çıxaran yol, avtobana bağlı yol.

**Zubringerbus,** *der; -ses, -se* iki yer arasında işləyən avtobus.

**Zubrot,** *das; -(e)s* **1.** *(Wurst, Belag)* qəlyanaltı; **2.** *fig.* əlavə gəlir; *er verdient sein ~ mit Autowaschen* o, əlavə gəlirini maşın yumaqla qazanır.

**zubrüllen** *vt : j-m et. ~* bir kəsə bağırıb demək.

**Zucchini,** *die; - bot.* qabaq; kudu.

**Zucht,** *die; -* **1.** *(züchten)* becərmə, yetişdirmə; **2.** *(Ordnung; Drill; Strenge)* intizam, disiplin, nizam-intizam; tərbiyə; *~ und Ordnung* disiplin və nizam-intizam; **3.** *(Rasse)* soy, irq, cins; döl.

**züchten** *vt* yetişdirmək, becərtmək; döllə ndirmək .

**Züchter,** *der; -s, -* yetişdirən, becərən.

**Zuchthaus,** *das; -(e)s, -¨er* **1.** həbsxana, dustaq; **2.** *(Strafe)* ağır həbs cəzası.

**Zuchthäusler,** *der; -s, - veralt.* ağır həbs cəzası çəkən dustaq.

**Zuchthengst,** *der; -(e)s, -e* ayğır, ayqır.

**züchtig** *adj. veralt.* həyalı, ədəbli.

**züchtigen** *vt* tənbeh etmək, döymək, qamçılamaq, cəzalandırmaq.

**Züchtigung,** *die; -, -en* döymə, qamçılama, tənbeh, cəza.

**Züchtigungsrecht,** *das; -(e)s, -e jur.* tənbeh haqqı, cəza vermə hüququ.

**zuchtlos** *adj.* intizamsız, ədəbsiz; disiplinsiz.

**Zuchtlosigkeit,** *die; -* nizamsızlıq, disiplinsizlik.

**Zuchtpferd,** *das; -(e)s, -e* cins at, döllük at.

**Zuchtstute,** *die; -, -n* cins madyan.

**Zuchttier,** *das; -s, -e* döllük, döllük heyvan, cins.

**Züchtung,** *die; -, -en* becərmə; yetişdirmə.

**Zuchtwahl,** *die; -* becərmək üçün seçmə; yetişdirmək üçün seçmə.

**zuckeln** *vt* yavaş-yavş getmək; yortma getmək.

**zucken** *vi* **1.** səksənmək, diksinmək; **2.** *(Blitz)* çaxmaq; *ein Blitz zuckte* ildırım çaxır; *mit den Schultern/ Achseln ~* çiyinlərini atmaq; *fig. ohne mit der Wimper zu ~* gözü qırpmadan.

**zücken** *vt* çəkib çıxartmaq, sıyırmaq.

**Zucker,** *der; -s* **1.** şəkər; **2.** *(Würfelzucker)* qənd; *mit ~* şəkərli; *med. er hat ~* onun şəkəri var.

**Zuckerdose,** *die; -, -n* qəndqabı, qənddan.

**Zuckerbrot,** *das; -(e)s, -e* **1.** *verlat.* şəkər çörəyi; **2.** *fig. mit ~ und Peitsche* yedirdib döymə.

**Zuckerguss,** *der; -es, -¨e* şəkər şirəsi.

**zuckerhaltig** *adj.* şəkərli; şirin.

**Zuckerindustrie,** *die; -, -n* şəkər sənayei.

**Zuckerkandis,** *der; -* nabat.

**zuckerkrank** *adj.* şəkər xəstəsi.

**Zuckerkrankheit,** *die; -* şəkər xəstəliyi.

**Zuckerlecken,** *das; -s fig. kein ~ sein* rahat *(asan)* iş olmamaq, suiçim bir iş olmamaq.

**Zuckermelone,** *die; -, -n* qovun, yemiş.

**zuckern** *vt* şirinləşdirmək.

**Zuckerraffinerie,** *die; -, -n* qənd zavodu, qənd karxanası.

**Zuckerrohr,** *das; -(e)s* şəkər qamışı.

**Zuckerrübe,** *die; -, -n* şəkər çuğunduru, çuğundur.

**zuckersüß** *adj.*qənd kimi şirin,bal kimi.

**Zuckerwatte,** *die; -* pəşmək.

**Zuckerzeug,** *das; -(e)s* şirniyyat.

**zuck(e)rig** *adj.* şirin; şəkərli.

**Zuckung,** *die; -, -en* səksənmə, diksinmə.

**Zudecke,** *die; -, -n* yorğan.

**zudecken** *vt* örtmək, üstünü örtmək, üstünü basdırmaq; ört-basdır etmək, qapamaq; *sich ~* öz üstünü örtmək*(mit D/ilə).*

**zudem** *adv.* bundan başqa, bir də ki, həm də.

**Zudrang,** *der; -(e)s* basabas, basırıq; hücum.

**zudrehen** *vt* **1.** burub bağlamaq; **2.** *j-m den Rücken ~* bir kəsə arxasını çevirmək.

**zudringlich** *adj.* təngə gətirən, zəhlətökən, zəhləaparan, ürəksıxan; çəkinməz.

**Zudringlichkeit,** *die; -, -en* təngə gətirmə, zəhləaparma, zəhlətökənlik, ürəksıxıntısı.

**zudrücken** *vt* **1.** bərk bağlamaq, sıxıb bağlamaq; **2.** *fig. ein Auge ~* bir şeyə göz yummaq, bir zada barmaqarası baxmaq *(bei D/-də).*

**zueignen** *vt (widmen)* həsr etmək, ithaf etmək *(j-m/kiməsə).*

**Zueignung,** *die; -, -en* **1.** *(widerrechtlich)* mənimsəmə; **2.** həsr, ithaf.

**zueilen** *vi* qaçmaq *(auf A/kiməsə tərəf, nəyəsə doğru),* qarşılamağa tələsmək *(auf A/kimisə, nəyisə).*

**zueinander** *adv.* bir-birinə.

**zueinanderfinden** *vi* bir-biri ilə dostluq əlaqələri qurmaq.

**zuerkennen** *vt* **1.** kiməsə layiq bilmək; **2.** *jur.* cəza kəsmək *(vermək)*; *j-m e-n Preis ~* bir kəsə mükafat *(ödül)*vermək.

**zuerst** *adv.*qabaqca, əvvəlcə, hər şeydən əvvəl, ilk öncə, əvvəla, əvvələn, əvvəlcəsinə, irəlicə; birinci növbədə, başlıca; *F* əldəbir.

**zuerteilen** *vt* vermək.

**zufahren** *vi* **1.** *(auf A)* miniklə tərəfinə getmək, miniklə yaxınlaşmaq; **2.** *(schneller fahren)* sürətini artırmaq, yeyin sürmək; *fahr doch zu!* yeyin sür!, sürəti artır!.

**Zufahrt,** *die; -, -en (zum Haus)* giriş.

**Zufahrtsstraße,** *die; -, -n* giriş yolu.

**Zufahrtsweg,** *der; -(e)s, -e s. Zufahrtsstraße.*

**Zufall,** *der; -(e)s, -¨e* təsadüf; *durch ~* təsadüfi olaraq, təsadüfən.

**zufallen** *vi* **1.** *(Tür usw.)* öz-özünə örtülmək, çırpılıb örtülmək; **2.** *(Augen)*yumulmaq, gözləri yumulmaq; **3.** payına düşmək, öhdəsinə düşmək; çatmaq; *j-m ~* bir kəsin payına düşmək, qisməti olmaq .

**zufällig** *adj.* təsadüfi, damdandüşmə, yersiz, ; *adv.* təsadüfən, əzqəza; *~ war ich auch dort* əzqəza mən də oradaydım .

**zufälligerweise** *adv.* təsadüfən, təsadüfi olaraq.

**Zufälligkeit,** *die; -, -en* təsadüf, gözlənilməyən hadisə, qəza.

**Zufallstreffer,** *der; -s, -* **1.** *(Sport)* təsadüfi uduş, təsadüfi hədəfə vurma; **2.** *F* şans gətirmə.

**zufassen** *vi* **1.** *(greifen)* tutmaq, yapışmaq; **2.** kömək etməyə çalışmaq *(bei D/-ə).*

**zufliegen** *vi* **1.** uçmaq *(auf A/bir şeyə tərəf));* **2.** *(Vogel)* uçub gəlmək; *ein Kanarienvogel ist uns zugeflogen* bir sarı bülbül bizə uçub gəlib; **3.** *(Gedanken)* fikrinə gəlmək; **4.** *(Tür)* bərk bağlanmaq; **5.** çox asan öyrənmək.

**zufließen** *vi* axıb gəlmək, axıb qovuşmaq *(D/-ə).*

**Zuflucht,** *die; -* **1.** sığınacaq, pənahgah; **2.** *~ nehmen* çarə qılmaq *(zu et. / bir şeyə); ~ suchen -ə* sığınmaq, -ə pənah getirmək *(vor D -dən, bei -ə),* dəxil düşmək.

**Zufluchtsort,** *der; -(e)s, -e* sığınacaq yer, pənahgah.

**Zufluchtsstätte,** *die; -, -n s. Zufluchtsort.*

**Zufluss,** *der; -es, -¨e* **1.** axın, axış, axıb gəlmə; **2.** *(Nebenfluss)* çay qolu, qol.

**zuflüstern** *vt* pıçıldamaq, qulağına pıçıldamaq.

**zufolge** *präp. D* ...görə, ...əsasən, ...uyğun olaraq, ...səbəbilə; *dem Befehl ~* əmrə görə.

**zufrieden** *adj.* razı *(mit D/bir şey ilə);* məmnun; gözütox, qane; *fig.* dərviş; *~ sein* məmnun qalmaq; *fig. -ə* əl qoymaq; *lass mich ~* məni rahat qoy *(burax)*.

**zufriedengeben** *vr sich ~* razı olmaq, razı qalmaq, kifayətlənmək*(mit D/ bir zad ilə / bir şey ilə); fig. -ə* əl qoymaq.

**Zufriedenheit,** *die; -* razılıq, razı qalma; gözütoxluq, kafilik.

**zufriedenstellen** *vt* razı salmaq.

**zufriedenstellend** *adj.* razı edici, qənaətbexş, qənaətləndirici, kafi.

**zufrieren** *vi* donmaq, buz bağlamaq.

**zufügen** *vt* **1.** artırmaq, əlavə etmək; **2.** *(Schaden)* zərər vurmaq, ziyan vurmaq; *j-m ein Unrecht ~* bir kəsə haqsızlıq etmək.

**Zufuhr,** *die; -, -en* **1.** gətirilmə, daşıma; göndərmə; **2.** *(Beschaffung)* təminat; **3.** *techn.* çatdırma xətti.

**zuführen** *vt* **1.** çatdırmaq; təmin etmək; **2.** *(Personen)* gətirmək; *e-m Geschäft neue Kunden ~* bir mağazaya yeni müştərilər gətirmək; *vi auf A ~* gətirib çıxarmaq, getmək; *der Weg führt genau auf das Dorf zu* yol düz kəndə çatır, yol düz kəndə cıxır.

**Zug,** *der; -(e)s, -¨e* **1.** *(das Ziehen)* çəkmə, çəkiş; çəkmə gücü; **2.** *Esbn.* qatar *(Süd. : a. tren);* **3.** *(Luftzug)* hava cərəyanı, havaçəkmə; **4.** *(Vogelzug)* uçma, uçuş; **5.** *(beim Trinken)* qurtum; udum; **6.** *(Schar)* dəstə; **7.** *(Festzug)* kütləvi yeriş, təntənəli nümayiş, dəstə; **8.** *(Linie)* cizgi; **9.** *(Wesenseigenschaft)* xüsusiyyət; **10.** *(Schachzug)* növbə, oyun; **11.** *(Neigung)* meyl, rəğbət; **12.** *(Reihe)* sıra; **13.** *(Rauchen)* qullab, bir nəfəs; *im ~e G* ...çərçivəsində; nəticəsində; *in e-m ~* birdən, bir sıçrayışla; *~ um ~* tədriclə, *zum ~e kommen* arzusuna çatmaq üçün imkan tapmaq, fəaliyyət etməyə imkan tapmaq; *in den letzten Zügen liegen* can vermək; *et. in vollen Zügen genießen* tam ləzzət almaq; *nicht zum ~e kommen* can atmağa imkan tapmamaq; *in großen Zügen* təfsilatsız, ümumi şəkildə.

**Zugabe,** *die; -, -n* **1.** əlavə; əlavə etmə; *als ~* əlavə olaraq; **2.** artistin təkrar çıxışı; *(im Konzert) ~! ~!* bir daha! bir daha!, təkrar!, təkrar!

**Zugang,** *der; -(e)s, -¨e* **1.** yol; **2.** *(Zutritt)* giriş, girmə; **3.** *nur sg. (zu Gruppen usw.)* yaxınlaşma, qatılma; **4.** *nur sg. (zu Wissenschaften usw.)* başı çıxma, başa düşmə; *ich kann keinen ~ zur modernen Kunst finden* mənim yeni incəsənətdən başım çıxmır; **5.** artım, çoxalma; *die Zugänge e-r Bücherei* kitabxanaya yeni gəlmiş kitablar; *sich (D) ~ verschaffen* özünə yol açmaq, şərait yaratmaq *(zu D/-ə).*

**zugänglich,** *adj.* **1.** əlçatan, mümkün, əlçatar; *veralt.* dəstrəsde olan; **2.** *fig. (Person)* yaxınlıq edən adam; *~ machen* açmaq.

**Zugänglichkeit,** *die; -* **1.** əlçatma; münasiblik; **2.** hamıya açılma, ümuma açılma; **3.** hər kəsə qarşı yaxınlıq göstərmə.

**Zuganschluss,** *der; -es, -¨e* birləşdirici qatar.

**Zugbrücke,** *die; -, -n* qaldırılan körpü, qalxan körpü.

**zugeben** *vt* **1.** üstünə nə isə vermək, qatmaq; **2.** *(gestehen)* boynuna almaq, etiraf etmək.

**zugegebenermaßen** *adv.* etiraf edildiyi kimi.

**zugegen** *adv. :* olmaq, iştirak etmək.

**zugehen** *vi* **1.** *(Tür usw.)* bağlanmaq, örtülmək; **2.** tərəfinə getmək; yaxınlaşmaq *(auf A/ bir şeyə/ bir kəsə);* **3.** çatmaq, yetişmək; *Ihr Schreiben ist uns zugegangen* məktubunuz bizə çatıbdır; **4.** *(geschehen)* olmaq, baş vermək; *es geht auf 2 zu* saat ikiyə yaxınlaşır; *dem Ende ~* sonuna yaxınlaşmaq; *es ging*

*lustig zu* çox şən oldu.

**Zugehfrau,** *die; -, -en* qulluqçu qadın.

**zugehören** *vi* aid olmaq, məxsus olmaq *(D/-ə).*

**zugehörig** *adj.* aid olan, məxsus olan; *fig.* yerli, buralı; *das gehört mir* bu mənə aiddir.

**Zugehörigkeit,** *die; -* aid olma, aidiyyət, mənsubiyyət, mənsubluq *(zu/ -ə).*

**zugeknöpft** *adj.* **1.** düyməlınmiş; **2.** *fig.* qaradinməz, ağzıbərk; soyuq.

**Zügel,** *der; -s, -* **1.** cilov, yüyən; noxta; **2.** *fig. die ~ fest in der Hand halten* cilovunu əlində saxlamaq, noxtasını tutmaq; *die ~ straffer ziehen* cilovunu yığışdırmaq.

**zügellos** *adj.***1.** cilovsuz; **2.** azğın, həddini bilməyən, qarşısıalınmaz.

**Zügellosigkeit,** *die; -* azğınlıq, ölçüsüzlük; ədəbsizlik.

**zügeln** *vt* **1.** cilovlamaq, yüyənləmək; **2.** qarşısını almaq, dayandırmaq.

**Zügelung,** *die; -* tutma, tutub saxlama.

**zugesellen** *vt* şərik etmək, ortaq etmək *(D/-ə); vr sich ~* bir şeyə qoşulmaq, bir zada şərik olmaq.

**Zugeständnis,** *das; -ses, -se* güzəşt, güzəşt etmə; *~e machen* güzəştə getmək.

**zugestehen** *vt* boynuna almaq, qəbul etmək, etiraf etmək.

**zugetan** *adj. : j-m ~ sein* bir kəsə vəfalı olmaq, bir kəsə rəğbət bəsləmək; bir kəsə inanmaq, bir kəsi sevmək.

**zugewandert** *adj.* köçüb gəlmiş, köçmüş, mühacir.

**Zugführer,** *der; -s, -* **1.** qatar məsulu; maşinist; **2.** *mil.* dəstə başçısı.

**zugießen** *vi* üstünə tökmək.

**zugig**[1] *adj.* yelçəkən, hava çəkən.

**zügig**[2] *adj.* arasız; sürətli, yeyin.

**Zugkraft,** *die; -, -¨e* **1.** hərəkət qüvvəsi; **2.** *fig.* cazibə.

**zugkräftig** *adj. fig.* qüvvəli, çəkici; cazib.

**Zuglast,** *die; -, -en* yük.

**zugleich** *adv.* eyni zamanda.

**Zugluft,** *die; -* hava cərəyanı, yelçəkən.

**Zugmaschine,** *die; -, -n* traktor, yedəkçi.

**Zugpersonal,** *das; -s* tren personeli, qatar briqadası.

**Zugpferd,** *das; -(e)s, -e* qoşqu, işlək at.

**zugreifen** *vi* **1.** *(packen, anfassen)* tutmaq, qarmalamaq; **2.** *(bei Tisch ~)* yemək, yeməyə başlamaq; *greifen Sie zu!* buyurun yeyin!; **3.** *(Polizei)* müdaxilə etmək, qarışmaq; hücum etmək; **4.** *(Werbung)* tez almaq, tez götürmək, fürsəti əldən buraxmamaq; *greifen Sie zu!* alın!, fürsəti əldən buraxmayın; **5.** kömək etmək, əl(in)dən tutmaq.

**Zugriff,** *der; -(e)s, -e* **1.** tutma, qarmalama; **2.** hücum, həmlə, basqın; *sich dem ~ der Polizei entziehen* polisin əlindən qurtulmaq; **3.** əl tapmaq, istifadə etməyə imkan tapmaq; *zu den geheimen Informationen ~ haben* gizli məlumata əl tapmaq.

**zugrunde** *adv. : ~ gehen (an D/ -dən)* məhv olmaq, hədər getmək; *~ legen* götürmək, əsaslandırmaq; *~ richten* dağıtmaq, xaraba qoymaq, məhv etmək; *sich ~ richten* öz əli ilə özünə quyu qazmaq.

**Zugschaffner,** *der; -s, -* tren biletçisi, qatar konduktoru.

**Zugtier,** *das; -(e)s, -e* qoşqu.

**zugucken** *vi* baxmaq.

**zugunsten** *präp. G* ..xey(i)rinə, ..lehinə.

**zugute** *adv. j-m et. ~ halten* bir şeyi üzr kimi qəbul etmək, bir şeyi bir kəsin lehinə *(xeyrinə)* hesablamaq; *~ kommen* xeyrinə olmaq, işə yaramaq *(D/-ə); das Geld kommt dem Kindergarten ~* pul uşaq bağçasının xeyrinə olur.

**Zugverbindung,** *die; -, -en* qatar bağlantısı.

**Zugverkehr,** *der; -s* qatar nəqliyyatı.

**Zugvogel,** *der; -s, -¨* köçəri quş.

**Zugzwang,** *der; -(e)s, -¨e* **1.** *(Schach)* oynama məcburiyyəti; **2.** *fig. in ~ geraten* müəyyən bir şəraitdə qərara gəlmə məcburiyyətində olmaq.

**zuhaben** *vt u. vi* bağlı olmaq; bağlamaq; bağlı saxlamaq.

**zuhalten** *vt* bağlı saxlamaq; *sich die Nase ~* burnunu tutmaq; *sich die Augen ~* gözlərini yummaq.

**Zuhälter,** *der; -s, -* qurumsaq, məhəbbət dəllalı; dəyyus.

**Zuhälterei,** *die; -* qurumsaqlıq, fahişəliklə məşğul olmağa məcbur etmə; dəyyusluq.

**zuhängen** *vt* pərdə asmaq.

**zuhauen** *vi* **1.** vurmaq, kötəkləmək; **2.** *(mit e-m Werkzeug)* zərbə endirmək, tapdalamaq.

**Zuhause,** *das; -s* yurd-yuva, doğma ev-eşik, öz sığınacağı.

**zuheften** *vt* sancaqlamaq.

**zuheilen** *vi (Wunde)* sağalmaq.

**Zuhilfenahme,** *die; - unter ~ G /von D* ...köməyilə.

**zuhinterst** *adv.* ən arxada, ən sonda.

**zuhören** *vi* qulaq asmaq, dinləmək.

**Zuhörer,** *der; -s, -* dinləyici.

**Zuhörerschaft,** *die; -, -en* dinləyicilər, dinləyənlər.

**zujubeln** *vt* alqışlarla salamlamaq.

**zukehren** *vt* çevirmək, döndərmək.

**zuklappen** *vt* bağlamaq, qapamaq; *vi* bağlanmaq.

**zukleben** *vt* yapışdırmaq.

**zuknöpfen** *vt* düymələmək, düymək.

**zuknoten** *vt* düyünləmək, düymək.

**zukommen** *vi* **1.** yaxın gəlmək, yaxınlaşmaq *(auf A/-ə)*; **2.** *(Verhalten)* yaraşmaq, layiq olmaq; *e-e solche Frage kommt dir nicht zu* belə bir sual sənə yaraşmaz; **3.** *fig.* haqqı olmaq; çatmaq, hissəsinə düşmək; **4.** *j-m et. ~ lassen* bir kəsə bir şeyi çatdırmaq, bir kəsə bir zadı vermək; **5.** *die Dinge auf sich ~ lassen* gözləyib görmək.

**zukorken** *vt* tıxamaq.

**Zukost,** *die; -* qəlyanaltı; qarnir, yavanlıq; *ohne ~* yavan; *unbelegtes Brot* yavan çörək.

**Zukunft,** *die; -* gələcək, gələcək dövr; *in ~* gələcəkdə; *an s-e ~ denken* özünə gün ağlamaq .

**zukünftig** *adj.* gələcək; *adv.* gələcəkdə.

**Zukünftige,** *der u. die; -n, -n F* nişanlı.

**Zukunftsforschung,** *die; -* gələcəyin tədqiqatı, futoroloji

**Zukunftsmusik,** *die; - fig.* şübhəli plan, baş tutub-tutmaması bəlli olmayan.

**zukunftsweisend** *adj.* gələcəyi görən, bəsirətli; irəli(çi).

**zulächeln** *vi* gülümsəmək; *j-n ~* bir kəsə gülümsəmək.

**Zulage,** *die; -, -n* əmək haqqına əlavə, maaşa əlavə; *e-e ~ für Nachtarbeit* gecə işi üçün əlavə əmək haqqı.

**zulande** *adv.* burada, bu ölkədə; orada, o ölkədə; *hier ~* burada; *bei uns ~* yurdumuzda, bizdə.

**zulangen** *vi* **1.** yemək götürmək; *bitte langen Sie zu!* buyurun yeməyə!, başlayın yeməyə; *F tüchtig ~* yemək aşırmaq; **2.** kifayət olmaq, çatmaq.

**zulänglich** *adj.* kifayət qədər.

**zulassen** *vt* **1.** bağlı qoymaq; **2.** *(erlauben)* icazə vermək, buraxmaq; *ein Auto ~* sürməyə icazə vermək, qeydiyyatdan keçirmək; *zugelassen sein* qeydiyyatdan keçirilmək.

**zulässig** *adj.* yol verilə bilən, caiz.

**Zulassung,** *die; -, -en* **1.** buraxılış, icazə, ixtiyar; **2.** *(zum Studium)* qəbul etmə, buraxma; *j-m e-e ~ erteilen* bir kəsə icazə vermək.

**Zulassungsprüfung,** *die; -, -en* qəbul olunma imtahanı; universitetə giriş imtahanı.

**Zulassungsstelle,** *die; -, -n (Auto)* nəqliyyat şöbəsi.

**Zulauf,** *der; -(e)s* izdiham, şuluqluq, axın; rəğbət; *viel / großen ~ haben* cox şuluq olmaq, böyük rəğbət görmək.

**zulaufen** *vi* **1.** *(Flüssigkeit)* axmaq, tökmək; *kaltes Wasser ~ lassen* soyuq su axıtmaq; **2.** qaçmaq *(auf A/-ə tərəf, -ə doğru)*; **3.** *(schneller laufen)* yeyin qaçmaq; *lauf zu !* yeyin qaç!; *spitz ~* ucu iti olmaq; *e-e Katze ist uns zugelaufen* bir pişik azıb bizə gəlib; *zugelaufener Hund* azıb gəlmiş it.

**zulegen** *vt* əlavə etmək, artırmaq; *F ich habe ganz schön zugelegt* mən yaxşı

kökəlmişəm; *vr sich et.* ~ özünə bir şey almaq; *ich werde mir e-n neuen Mantel* ~ özümə təzə bir palto alacağam.

**zuleide** *adv. j-m et. ~ tun* bir kəsə pislik etmək, bir kəsə zərər vurmaq; bir kəsi incitmək.

**zuleiten** *vt* **1.** istiqamət vermək; istiqamətini dəyişdirmək; **2.** göndərmək, çatdırmaq; *e-r Zeitschrift Informationen* ~ bir jurnala məlumat göndərmək.

**Zuleitung,** *die; -, -en* istiqamət verme; göndərmə, çatdırma.

**Zuleitungsrohr,** *das; -(e)s, -e* çatdırma borusu.

**zulernen** *vt* yeni məlumat öyrənmək, əlavə bilik qazanmaq.

**zuletzt** *adv.* axırda, sonunda, nəticədə; nəhayət, son olaraq; *bis* ~ son vaxta qədər; *wann hast du sie ~ gesehen?* onu son dəfə na vaxt gördün?

**zuliebe** *präp. D j-m* ~ bir kəsin xatiri *(xətri)* üçün.

**Zulieferant,** *der; -en, -en* mal göndərən, tədarükçü.

**Zulieferer,** *der; -s, - s. Zulieferant.*

**zuliefern** *vt* göndərmək, təhvil vermək, çatdırmaq.

**Zulieferung,** *die; -, -en* göndər(il)mə, təhvil ver(il)mə, çatdır(ıl)ma.

**zum** = *zu dem.*

**zumachen** *vt* **1.** bağlamaq, örtmək, bərkitmək; **2.** *(zuknöpfen)* düymələmək; *vi* bağlanmaq; *ein Geschäft für immer* ~ bir mağazanı həmişəlik bağlamaq; həmişəlik bağlanmaq.

**zumal** *adv.* xüsusilə, əsas etibarilə; *Konj.* ona görə ki, çünkü; özü də ki.

**zumauern** *vt* daş və ya sementlə üstünü örtmək, üstünü basdırmaq.

**zumeist** *adv.* çox vaxt, əsasən, ən çox; əksər hallarda.

**zumessen** *vt* **1.** dəqiq ölçmək; **2.** *(beimessen)* payını vermək, hissəsini vermək; *jedem s-n Teil* ~ hər kəsə payını *(hissəsini)* vermək; qiymət vermək.

**zumindest** *adv.* ən azı, heç olmasa.

**zumutbar** *adj.* gözlənilə bilən, tələb oluna bilən, məqul.

**Zumutbarkeit,** *die; -* ağır iş, yük.

**zumute** *adv. D : ~ sein / ~ werden* özünü hiss etmək, müəyyən əhvali-ruhiyyədə olmaq; *wie ist dir ~?* keyfin necədir?; *mir ist wohl* ~ keyfim çox yaxşıdır; *im Moment ist mir nicht nach Lachen* ~ indi gülməyə heç halım yoxdur.

**zumuten** *vt j-m et.* ~ bir kəsdən ağır və ya pis bir işi tələb etmək; *sich (D) zu viel* ~ ağır yük götürmək, öz üzərinə həddindən artıq iş götürmək.

**Zumutung,** *die; -, -en* ağır iş, haqsız tələb, ifrat istək; *das ist e-e freche* ~ bu istək həyasızlıqdır.

**zunächst** *adv.* birinci növbədə, hər şeydən əvvəl.

**zunageln** *vt* mıxlamaq, mıx vurmaq.

**zunähen** *vt* ağzını tikmək.

**Zunahme,** *die; -, -n* artma, artım, çoxalma, bollaşma; kökəlmə, göbək bağlama; *F* dolma.

**Zuname,** *der; -ns, -n* familiya.

**zündeln** *vi* kibritlə oynamaq, diqqət etmədən kibrit yandırmaq.

**zünden** *vi* **1.** od tutmaq, alışmaq; partlamaq; **2.** *(Motor)* işləmək; *vt* odlamaq, alışdırmaq; partlatmaq.

**zündend** *adj.* **1.** yandırıcı; **2.** *fig.* coşğun, coşqun, hərarətli, həyəcanlı.

**Zunder,** *der; -s, -* **1.** qov; *wie ~ brennen* qov kimi yanmaq; **2.** *fig.* kötək; *j-m ~ geben* bir kəsi döymək; bir kəsi sərt tənqid etmək.

**Zünder[1],** *der; -s, - mil.* fitil, bomba fitili.

**Zünder[2],** *die/pl.* kibrit.

**Zündholz,** *das; -es, -¨er* kibrit.

**Zündhütchen,** *das; -s, -* piston, kapsul.

**Zündkerze,** *die; -, -n (Auto)* odlama şamı.

**Zündschlüssel,** *der; -s, - (Auto)* yandırma *(işəsalma)* açarı, kontakt.

**Zündschnur,** *die; -* odlama fitili, fitil.

**Zündstoff,** *der; -(e)s, -e* **1.** partlayıcı maddə; **2.** *nur sg. fig.* bir münaqişənin səbəbi.

**Zündung,** *die; -, -en* **1.** yanma; alışma; **2.** *(Auto)* kontakt.

**zunehmen** *vi***1.** çoxalmaq, artmaq, bol-

laşmaq; **2.** *(dicker werden)* kökəlmək, ətlənmək, çəkisi artmaq, göbək bağlamaq; *F* dolmaq, enlənmək; **3.** *(Mond)* böyümək; **4.** *(Tage)* uzanmaq; *die Tage nehmen zu* günlər uzanır; *an Bedeutung ~* əhəmiyyəti çoxalmaq, əhəmiyyət kəsb etmək; *e-e Masche ~* ilməyi çoxaltmaq.

**zunehmend** *adj.* artan, böyüyən, çoxalan, füzun; *adv.* getdikcə; *mit ~em Alter* yaş çoxaldıqca.

**zuneigen** *vt* meyl göstərmək, bir şeydən xoşu gəlmək; *j-m zugeneigt sein* bir kəsdən xoşu gəlmək, bir kəsə meyl göstərmək; *vi sich ~* meylli olmaq, meyllənmək *(D/-ə)*; *die Sonnenblume neigt sich der Sonne zu* günəbaxan günəşə tərəf meyillənir *(əyilir)*; *vr sich dem Ende ~* sonuna yaxınlaşmaq.

**Zuneigung,** *die; -* meyl, həvəs, münasibət, rəğbət, sevgi, hüsnü-rəğbət; *ich spüre e-e starke ~ zu ihr* o, çox xoşuma gəlir.

**Zunft,** *die; -, -¨e hist.* sex, peşəkarlar ittifaqı *(birliyi).*

**zünftig** *adj.* **1.** uyğun, qaydalara uyğun olan, qabil; *e-e ~e Arbeit* qabil iş, yaxşı görülmüş iş; **2.** *F* yaxşı, güclü, təntənəli; *wir werden ~ feiern* biz təntənəli bir bayram edəcəyik.

**Zunge,** *die; -, -n* dil; *die ~ herausstrecken* dilini çıxarmaq; *fig. es liegt mir auf der ~* dilimin ucundadır; *belegte ~* barlı dil; *scharfe ~ haben* dildən acı olmaq.

**züngeln** *vi* **1.** *(Schlange)* dilini tərpətmək; **2.** *(Flamme)* burulmaq.

**Zungenbrecher,** *der; -s, - (Wort, Satz)* dilə yatmayan, çətin tələffüz olan, dil tutmayan.

**Zungenfertigkeit,** *die; -* gözəl danışma, gözəl nitq etmə, natiqlik; hazırcavablıq.

**Zungenschlag,** *der; -(e)s, -¨e fig. ein falscher ~* yanlış ifadə etmə; ağızdan qaçırtma.

**Zungenspitze,** *die; -, -n* dil ucu.

**Zünglein,** *das; -s, -* **1.** dilçək; **2.** *(an der Waage)* ox, mil; *fig. ~ an der Waage sein* bir qərarda və ya sonucda *(nəticədə)* təsirli olan.

**zunichte** *adv. : et. ~ machen* məhv etmək, tələf eləmək, xarab etmək; *~ werden* məhv olmaq, hədər olmaq.

**zunicken** *vi* baş ilə salam vermək, baş ilə işarə etmək.

**zunutze** *adv. : sich et. ~ machen* bir şeydən xeyir götürmək, bir zaddan istifadə etmək.

**zuoberst** *adv.* lap yuxarıda, lap üstdə; *das Unterste ~ kehren* alt-üst etmək.

**zuordnen** *vt* əlavə etmək, daxil etmək, yerləşdirmək *(D/-ə).*

**zupacken** *vi* **1.** bərk-bərk yapışmaq; tutmaq, qarmalamaq; **2.** *(helfen)* kömək etməyə çalışmaq, kömək etmək.

**zupass** *adv. : j-m ~ kommen* bir kəsə uyğun düşmək, bir kəsin karına gəlmək, köməyinə çatmaq; *s-e Hilfe kommt mir ~* onun köməyi mənim karıma gəlir.

**zupfen** *vt* **1.** yavaşcasına çəkmək; **2.** dartıb çıxartmaq, didmək; *Fasern ~* telləri didmək.

**Zupfinstrument,** *das; -(e)s, -e* mizrab və barmaqla çalınan musiqi aləti *(gitar, arfa və s.),* simli alətlər.

**zuprosten** *vi : j-m ~* bir kəsin sağlığına içmək.

**zur** *= zu der*

**zuraten** *vi* məsləhət görmək *(j-m/bir kəsə).*

**zuraunen** *vt* pıçıldamaq *(j-m/bir kəsin qulağına).*

**zurechnen** *vt* **1.** *(zuordnen)* hesaba almaq, hesaba daxil etmək; **2.** *j-m et. ~* bir kəsin pis bir işi görə biləcəyinə inanıb və onu açıqcasına demək; **3.** *(hinzuaddieren)* üstünə gəlmək.

**zurechnungsfähig** *adj. jur.* ağlı başında, məsul sayılan, yaxşı-yamanı seçə bilən.

**Zurechnungsfähigkeit,** *die; -* **1.** haqq-hesab çəkmə qabiliyyəti, anlaqlı; **2.** ağlın *(zəkanın)* qüdrəti.

**zurechtbiegen** *vt et. ~* öz xeyrinə düzəltmək, öz xeyrinə izah və ya ifadə etmək; *die Wahrheit ~* həqiqəti istədiyi

kimi ifadə etmək.

**zurechtbringen** *vt* nizama salmaq, qaydaya salmaq; *er bringt heute nichts zurecht* o, bu gün heç bir zadı qaydasına salanmır.

**zurechtfinden** *vr sich* ~ yolunu tapmaq, yolunu tanımaq, başı çıxmaq.

**zurechtkommen** *vi* **1.** vaxtında gəlmək; **2.** *(mit e-r Arbeit)* işin öhdəsindən gələ bilmək; **3.** *(mit j-m)* bir kəs ilə yaxşı yola gəlmək.

**zurechtlegen** *vt* hazırlamaq, qaydaya salmaq, düzəltmək; *vr fig. sich et.* ~ bir şeyi əvvəldən hazırlamaq; *sich e-e Ausrede* ~ bir bəhanə hazırlamaq.

**zurechtmachen** *vt* hazırlamaq, düzəltmək; *vr sich* ~ hazırlanmaq, bəzənib-düzənmək.

**zurechtrücken** *vt* **1.** yerinə çəkmək; **2.** *(falsche Auffassung usw.)* düzəltmək.

**zurechtstellen** *vt* yerinə qoymaq.

**zurechtstutzen** *vt* **1.** kəsib düzəltmək, biçimində kəsmək; **2.** *(tadeln)* məzəmmət etmək, danlamaq.

**zurechtweisen** *vt* yerinə oturtmaq, danlamaq *(j-n/bir kəsi),* həddini bildirmək.

**Zurechtweisung,** *die; -, -en* danlama, məzəmmət etmə; xəbərdarlıq; yerinə oturtma.

**zureden** *vi* inandırmağa çalışmaq, *(j-m/bir kəsi); j-m (gut)* ~ kiməsə ürək vermək.

**zureichen** *vt* vermək, təqdim etmək; *vi* çatmaq, kafi olmaq.

**zureichend** *adj.* kifayət qədər, lazımi qədər.

**zureiten** *vi* **1.** ata təlim vermək, ata öyrətmək; **2.** *(auf e-n Ort) -ə tərəf* sürmək, *..doğru* getmək.

**Zürich** Sürix.

**zurichten** *vt* **1.** hazırlamaq, düzəltmək; **2.** *j-n übel* ~ bir kəsin ağzını-burnunu dağıtmaq, yaxşı döymək; *et.* ~ bir şeyi darmadağın *(darbadağın)* etmək, bir zadı alt-üst etmək.

**Zurichtung,** *die; -, -en* hazırlama, düzəltmə.

**zuriegeln** *vt* cəftələmək.

**zürnen** *vi* hirslənmək; *j-m* ~ bir kəsə hirslənmək.

**zurren** *vt* möhkəm bağlamaq; *das Tau* ~ burazı bağlamaq.

**Zurschaustellung,** *die; -* sərgiyə qoymaq.

**zurück** *adv.* **1.** geri*(yə),* dal-dalı, dalı*;* **2.** *(hinten)* geridə, dalda; *~!* geri*(yə)* çəkil!; *~ hin und ~* ikibaşa.

**Zurück,** *das; - : es gibt kein ~ mehr* daha geri dönmək yoxdur.

**zurückbehalten** *vt* saxlamaq, tutub saxlamaq.

**zurückbekommen** *vi* geri almaq, almaq.

**zurückbeugen** arxaya əymək; *vr sich* ~ arxaya əyilmək.

**zurückbezahlen** *vt* geri vermək.

**zurückbilden** *vt sich* ~ kiçilmək, azalmaq.

**zurückbleiben** *vi* geri*(də)* qalmaq, geri düşmək; geriləmək, dala qalmaq, dala düşmək, dala çəkilmək; *zurückgeblieben* geri qalmış.

**zurückblicken** *vi* geri*(yə)* baxmaq.

**zurückbringen** *vi* geri qaytarmaq, qaytarmaq.

**zurückdatieren** *vt* keçmiş *(köhnə)* tarixi qoymaq.

**zurückdenken** *vi* keçmişi yada salmaq, xatırlamaq; *soweit ich ~ kann* xatırlaya bildiyim qədərilə.

**zurückdrängen** *vt* **1.** çəkilməyə məcbur etmək, geri itələmək, püskürmək; **2.** *fig.* saxlamaq; soyutmaq.

**zurückdrehen** *vt* geriyə çevirmək.

**zurückerhalten** *vt* geriyə almaq.

**zurückerlangen** *vt s. zurückerhalten.*

**zurückerobern** *vt* vuruşaraq geri almaq.

**zurückerstatten** *vt* qaytarmaq.

**zurückfahren** *vi* geri aparmaq, qaytarmaq; geri dönmək; geri getmək.

**zurückfallen** *vi* **1.** dal tərəfə yıxılmaq, dalı üstə yıxılmaq; **2.** geri qalmaq; **3.** əlinə keçmək, düşmək; *~ in -ə* yenidən üz qoymaq; *in s-e alten Gewohnheiten ~*

unudulmuş adətləri bərpa etmək.

**zurückfinden** *vi* geriyə yol tapmaq, qayıtma yolunu tapmaq.

**zurückfliegen** *vi* uçub qayıtmaq.

**zurückfordern** *vt* geri istəmək, geriyə tələb etmək.

**zurückführen** *vt* **1.** geri gətirmək, yerinə qaytarmaq; *in die Heimat ~* vətəninə göndərmək; **2.** *fig.* əsaslandırmaq, izah etmək *(auf A/-ə); vi* bağlamaq, gətirib çıxartmaq, əlaqələndirmək .

**Zurückgabe,** *die; -* qaytarma.

**zurückgeben** *vt* qaytarmaq, geri qaytarmaq, əda etmək.

**zurückgeblieben** *adj.* geri qalmış.

**zurückgehen** *vi* **1.** qayıtmaq, geri getmək, dönmək; **2.** *fig. (fallen)* azalmaq; aşağı düşmək; çəkilmək.

**zurückgezogen** *adj.* **1.** *s. zurückziehen;* **2.** *fig.* adamdan uzaq, münzəvi.

**Zurückgezogenheit,** *die; -* tənha qalma, təklikdə olma.

**zurückgreifen** *vi* **1.** əl atmaq, işə salmaq *(auf A/-ə); auf die Reserven ~* ehtiyatlara əl atmaq, ehtiyatları işə salmaq; **2.** *fig. in die Vergangenheit ~* keçmişi yada salmaq.

**zurückhaben** *vt* geri(yə) almaq.

**zurückhalten** *vt* **1.** tutub saxlamaq *(j-n /bir kəsi)*; **2.** *(Eigentum usw.)* saxlamaq, verməmək, zəbt etmək; **3.** *j-n vor/von et.* /bir kəsi bir şeydən uzaq saxlamaq, bir kəsin qabağını almaq; gecikdirmək; *vi* gizlətmək, göstərməmək; *vr sich ~* özünü saxlamaq; qaçınmaq, passiv olmaq, ehtiyatlanmaq, iraqlaşmaq; *mit s-r Meinung ~* fikrini deməkdən çəkinmək.

**zurückhaltend** *adj.* ehtiyatlı, ehtiyatkar; dözümlü, təmkinli, təvazökar, çəkingən; səssiz, dinməz, ağzıbərk; arlı, həyalı; adamayovuşmaz.

**Zurückhaltung,** *die; -* çəkinmə, ehtiyat; passivlik, ehtiyatkarlıq, həzər; təvazökarlıq; etidal, mötədillik.

**zurückholen** *vt* geri gətirmək, geri almaq, qaytarmaq.

**zurückkehren** *vi* qayıtmaq, geri dönmək; *von e-r Reise ~* səfərdən dönmək.

**zurückkommen** *vi* qayıtmaq; geriyə dönmək *(auf A/-ə).*

**zurückkönnen** *vi* qayıda bilmək, qayıtmağa imkanı olmaq.

**zurücklassen** *vt* **1.** *(Gegenstand)* özü ilə aparmamaq, geridə buraxmaq; **2.** *(Nachricht)* xəbər buraxmaq; **3.** *(Spuren)* iz buraxmaq; **4.** *(Sport) j-n ~* bir kəsdən üstün olmaq, bir kəsi ötmək.

**zurücklegen** *vt* **1.** yerinə qoymaq; **2.** *(Geld)* dal günə qoymaq, qənaət edərək yığmaq; **3.** *(Kopf usw.)* dala söykənəmək; **4.** *(Weg)* keçib getmək.

**zurücklehnen** *vr sich ~* dala söykənmək.

**zurückmelden** *vr sich ~* qayıtmasını bildirmək.

**zurückmüssen** *vi* qayıtmağa məcbur olmaq.

**Zurücknahme,** *die; -, -n* **1.** geri al(ın)ma, geri götürmə; **2.** sözündən boyun qaçırtma.

**zurücknehmen** *vi* geri almaq, geri götürmək; sözündən boyun qaçırtmaq.

**zurückprallen** *vi* **1.** geri atılmaq; **2.** *fig.* ürkmək, hürkmək.

**zurückrufen** **1.** geri çağırmaq; **2.** *(Telefon)* bir daha zəng eləmək; **3.** *ins Gedächtnis ~* yadına salmaq, xatırlamaq.

**zurückschaudern** *vi* dəhşətlənərək geri sıçramaq, qorxub geri çəkilmək *(vor D/-dən).*

**zurückschauen** *vi* geri*(yə)* baxmaq.

**zurückscheuen** *vi* qorxaraq geri çəkinmək, ürkmək, hürmək.

**zurückschlagen** *vt* **1.** geri oturtmaq, geri vurmaq, püskürmək; **2.** *(Angriff usw.)* dəf etmək; **3.** *(Decke)* yorğanı qatlamq.

**zurückschrauben** *vt fig.* azaltmaq, əskiltmək; *die Löhne ~* maaşları azaltmaq.

**zurückschrecken** *vi* qorxmaq, dəhşətə gəlmək *(vor D/-dən); vor et. (D) ~* bir şeydən qorxmaq; *vor nichts ~* heç bir şeydən qorxmamaq.

**zurückschreiben** *vt* cavab yazmaq, cavab vermək.

**zurücksenden** *vt* qaytarmaq, geri göndərmək.

**zurücksetzen** *vt* **1.** dala çəkmək, geri qoymaq, geri qaytarmaq; *das Datum e-s Briefes ~* bir məktubun tarixini dala *(geri)* çəkmək; **2.** *(Preis)* aşağı salma; **3.** *j-n ~* bir kəsi saymamaq, bir kəsin xatirinə dəymək; *vi mit e-m Auto ~* dalı getmək; *setz dich sofort auf deinen Platz zurück!* qayıt yerində əyləş!.

**Zurücksetzung,** *die; -, -en* **1.** dala çək(il)mə; yerinə qoymaq; **2.** saymama, təhqir etmə.

**zurückspringen** *vi* geri sıçramaq.

**zurückstecken** *vt* **1.** əvvəlki yerinə qoymaq, geri qoymaq; **2.** *fig.* azaltmaq; *s-e Ansprüche ~* iddialarını azaltmaq.

**zurückstehen** *vi* **1.** geri*(də)* durmaq; **2.** *(an Wert usw.)* geri*(yə)* qalmaq; **3.** *fig.* əl çəkmək, vaz keçmək; güzəştə getmək.

**zurückstellen** *vt* **1.** geri qoymaq; **2.** *(Uhr)* geri çəkmək; **3.** sonraya buraxmaq, geri atmaq.

**zurückstoßen** *vt* geri itələmək.

**zurückstrahlen** *vt* əks etdirmək; *vi* əks etmək.

**zurückstufen** *vt* rütbəsini aşağı aparmaq *(salmaq).*

**zurücktreten** *vi* **1.** geri çəkilmək; kənara çəkilmək, əl götürmək; **2.** *(von e-m Amt)* istefa vermək, istefaya çıxmaq.

**zurückverfolgen** *vt* başlanğıcına qədər baxmaq *(izləmək).*

**zurückverlangen** *vt* geriyə tələb etmək, geri almaq.

**zurückversetzen** *vt* **1.** əvvəlki vəziyyətə qaytarmaq; **2.** *(Schüler)* aşağı sinifə endirmək.

**zurückweichen** *vi* geri çəkilmək, geriləmək.

**zurückweisen** *vt* rədd etmək, rədd cavabı vermək, dəf etmək.

**Zurückweisung,** *die; -, -en* rədd etmə, qəbul etməmə; etiraz.

**zurückwerfen** *vi* **1.** geriyə atmaq; **2.** əks etmək, əks etdirmək.

**zurückwollen** *vi* qayıtmaq istəmək.

**zurückzahlen** *vt* **1.** *(Schulden usw.)* ödəmək, qaytarmaq. əda etmək; **2.** *fig. mit gleicher Münze ~* borcunu qədərincə qaytarmaq.

**zurückziehen** *vi* geri çəkmək, çıxar(t)maq; *vr sich ~* geri çəkilmək; özünü geri çəkmək,geriləmək, qaçınmaq, dala durmaq; daldalanmaq; *sich von j-m ~* özünü bir kəsdən geri çəkmək.

**zurückzucken** *vi* diksinmək *(vor/-dən).*

**Zuruf,** *der; -(e)s, -e* çağırış, çağırma; *durch ~* çağırmaqla, çağırışla.

**zurufen** *vt* çağırmaq, səsləmək.

**zurzeit** *adv.* indi, bu saat.

**Zusage,** *die; -, -n* **1.** verilmiş söz, söz, vəd*(ə); die ~ zurückziehen* döngələmək, sözünü yerinə yetirməmək; **2.** *(Einwilligung)* razılıq; iltizam.

**zusagen** *vi* **1.** söz vermək, vəd etmək; **2.** *e-e Einladung ~* bir dəvəti qəbul etmək; *e-e ~de Antwort* müsbət cavab; *vi (gefallen) D -in* xoşuna gəlmək, *-in* ürəyinə yatmaq, bəyənmək; *dein Vorschlag sagt mir sehr zu* sənin təklifini bəyənirəm.

**zusammen** *adv.***1.** birlikdə, bərabər, birgə, əl-ələ, əlbir, sənli-mənli; *mit j-m ~* bir kəs ilə birlikdə; *alle ~* hamı birlikdə; hamısı birdən, sənli-mənli; **2.** *(insgesamt; total)* cəmi, yekunu; *das macht ~ 200 €* cəmi 200 € olur.

**Zusammenarbeit,** *die; -* əməkdaşlıq, birlik.

**zusammenarbeiten** *vt* əməkdaşlıq etmək, birgə işləmək, əlbirlik etmək.

**zusammenballen** *vt* **1.** yummaq, sıxmaq; *die Hand zur Faust ~* əli yumruğa düyünləmək, yumruqlamaq; **2.** *(Papier)* top kimi etmək; *vr sich ~* yığılmaq, toplaşmaq, cəmləşmək; *Wolken ballen sich zusammen* buludlar bir yerə yığışır *(toplanır).*

**zusammenbauen** *vt* montaj etmək.

**zusammenbeißen** *vt : die Zähne ~* dişləri bir-birinə sıxmaq; *fig.* dərdi çəkmək, dözmək.

**zusammenbinden** *vt* bağlamaq, sarı-

maq, bənd eləmək.

**zusammenbleiben** *vi* bir yerdə qalmaq, bir-birindən ayrılmamaq.

**zusammenbrauen** *vt* **1.** qarışdırmaq; *ein Getränk ~* müxtəlif şeyləri qarışdıraraq qəribə bir içki *(içməli)* düzəltmək; **2.***(Unheil, Unwetter usw.)* əmələ gəlmək, törənmək; *Unheil braut sich zusammen* fəlakət gəlir.

**zusammenbrechen** *vi* **1.** yıxılmaq, uçmaq, dağılmaq, süqut etmək, məhv olmaq, çökmək; **2.** *(Person)* özündən getmək, yıxılmaq; **3.** müqavimətini əldən vermək, gücdən düşmək.

**zusammenbringen** *vi* **1.** yığmaq; **2.** *Personen ~* tanış etmək; bir yerə toplamaq, qovuşdurmaq, əlaqələndirmək.

**Zusammenbruch,** *der; -(e)s, -¨e* yıxılma; uçulma, dağılma, parçalanma, süqut etmə, puç olma; müflislik.

**zusammendrängen** *vt* sıxmaq, basmaq; *vr sich ~* sıxışmaq, doluşmaq, yığışmaq.

**zusammendrehen** *vi* bükmək, burmaq.

**zusammendrücken** *vt* sıxmaq, qısmaq.

**zusammenfahren** *vi* **1.** toqquşmaq *(mit D/ilə)*; **2.** səksənmək, qorxmaq *(vor D/-dən)*.

**zusammenfallen** *vi* **1.** yıxılmaq, uçulmaq; **2.** *fig.* düz gəlmək; eyni vaxta düşmək.

**zusammenfalten** *vt* qatlamaq; yığmaq, dürməkləmək; donqalamaq.

**zusammenfassen** *vt* **1.** birləşdirmək, yekunlaşdırmaq; **2.** *(Rede usw.)* xülasə etmək, icmal vermək, qısaltmaq.

**zusammenfassend** *adj.*icmalən; *adv.* icmali olaraq, yekunlaşdırıcı; *~ kann man sagen* icmalən, qısaca demək olar ki; *veralt.* əlhasil.

**Zusammenfassung,** *die; -, -en* xülasə, icmal, yekunlaşdırmaq, təmərküzləşmə; *zusammengefaßt* qısaca.

**zusammenfinden** *vr sich ~* yığılmaq, toplaşmaq.

**zusammenfließen** *vi* axıb yığışmaq, axıb qovuşmaq.

**zusammenfügen** *vt* birləşdirmək.

**zusammenführen** *vt* birləşdirmək, qovuşdurmaq, calamaq.

**zusammengehen** *vi* **1.** bərabər getmək; **2.** birgə iş görmək; **3.** *(schrumpfen)* yığılmaq, azalmaq.

**zusammengehören** *vi* bir-birinə aid olmaq, bir-birinə bağlı olmaq; bir-birilə əlaqədar olmaq.

**zusammengehörig** *adj.* bir-birinə aid, bir-birinə bağlı.

**Zusammengehörigkeit,** *die; -* birlik, həmrəylik, bir-birinə bağlılıq; *Gefühle der ~* bir-birinə bağlılıq hissi, həmrəylik hissi.

**zusammengeraten** *vi* **1.** toqquşmaq; **2.** *(im Streit)* yumruqlaşmaq, vuruşmaq.

**zusammengewürfelt** *adj.* bir-birinə yeməyən, qarma-qarışıq; təsadüfi olaraq bir yerə yığışmış.

**Zusammenhalt,** *der; -(e)s* yekdillik, birlik.

**zusammenhalten** *vt* **1.** bir yerdə saxlamaq, birlikdə saxlamaq; **2.** *(Geld)* qənaət edərək yığmaq; xərcləməmək; *vi* bir-birinin arxasında durmaq; *fig.* bir-birinə yapışmaq, bir-birinə bağlı olmaq.

**Zusammenhang,** *der; -(e)s, -¨* əlaqə, rabitə, ilgi; *im ~* əlaqədə; *im ~ stehen* əlaqədə olmaq *(mit D/ilə); in ~ bringen* əlaqələndirmək *(mit D/ilə); in diesem ~* bu əlaqədə, bu rabitədə.

**zusammenhängen** *vi* əlaqədə olmaq, bir-birinə bağlı olmaq.

**zusammenhängend** *adj.* rabitəli, səlis, məntiq(l)i; *adv.* ..bağlı *(asılı)* olaraq, əlaqədar, əlaqəli, bir-birilə bağlı.

**zusammenhang(s)los** *adj.* əlaqəsiz, rabitəsiz; məntiqsiz, tutarsız.

**zusammenhauen** *vt* **1.** dağıtmaq, viran etmək; **2.** *j-n ~* bir kəsi ölüncə döymək, bir kəsi vəhşicəsinə döymək.

**zusammenhäufen** *vt* topa *(qalaq)* yığmaq; yığıb üstünə qalamaq.

**zusammenheften** *vt* bir-birinə tikmək.

**zusammenkehren** *vt* süpürüb bir yerə yığmaq.

**zusammenklappbar** *adj.* bükülən, qatlanan.

**zusammenklappen** *vt* bükmək, qatlamaq; *vi F* özündən getmək, yıxılmaq.

**zusammenkleben** *vt* yapışdırmaq.

**zusammenkneifen** *vt (Augen, Mund usw.)* yummaq.

**zusammenknüllen** *vt* bürüşdürüb yumruqlamaq.

**zusammenkommen** *vi* görüşmək, yığışmaq, toplaşmaq; rastlaşmaq, qarşılaşmaq, cəm olmaq; mitinq.

**zusammenkoppeln** *vt* bir-birinə bağlamaq,

**zusammenkrachen** *vi* uçulmaq, gurultu ilə dağılmaq.

**zusammenkratzen** *vt F* qaşıyıb yığmaq.

**Zusammenkunft,** *die; -, -¨e* **1.** yığıncaq, toplantı; **2.** görüş, görüşmə.

**zusammenlaufen** *vi* **1.** axışıb gəlmək; **2.** *(sich vereinigen)* birləşmək, qovuşmaq; qatılmaq.

**zusammenleben** *vi* bir yerdə yaşamaq; evlənmədən qabaq birgə yaşamaq.

**Zusammenleben,** *das; -s* birgəyaşayış; *das ~ mit ..ilə* birlikdə *(bir yerdə, birgə)* yaşama.

**zusammenlegen** *vt* **1.** bir yerə yığmaq; **2.** *(vereinigen)* birləşdirmək; **3.** *(falten)* qatlamaq, bükmək; **4.** *(Geld)* yığmaq.

**Zusammenlegung,** *die; -, -en* birləş(dir)mə, birlik, qovuşma.

**zusammenleimen** *vt* bir-birinə yapışdırmaq, yapışqanlamaq.

**zusammenlesen** *vt* yığmaq.

**zusammenlöten** *vt* lehimləmək.

**zusammennähen** *vt* tikmək; *(med.)* baxyalamaq, baxya *(bəxyə)* vurmaq; yamamaq, çitə(lə)mək.

**zusammennehmen** *vt* yığmaq, toplamaq; gücünü toplamaq; *vr sich ~* özünü ələ almaq; ehtiyat etmək.

**zusammenpacken** *vt* yığmaq.

